ŞEYX ƏLİ ALİ-MUHSİN

# Lilləh və lil-həqiqə

## "Alləh və həqiqət naminə"

## I-II cild

Seyid Hüseyn Musəvinin yazdığı "Lillah və lit-tarix" ("Allah və tarix naminə") kitabına rəddiyə

313news

**Şeyx Əli Ali Muhsin**

# Lilləh və lil-həqiqə

## "Allah və həqiqət naminə"

**("Allah, sonra da tarix naminə"kitabına rədiyyə)**

**I-II cild**

**Layihə rəhbəri: 313news.net**
**Tərcüməçi: Hilal Ağamoğlanov**

**MÜNDƏRİCAT**

## I CİLD

"Allah, sonra da tarix naminə" kitabının müqəddiməsinə iradlar ........ 5
Abdullah ibn Səba mövzusuna dair iradlar ........ 24
Şiənin Əhli-Beytə nisbət verilməsinin həqiqəti ........ 48
Şiələr Peyğəmbərə (s) və Əhli-Beytini (ə) bədnam edirlərmi? ........ 86
Əlinin (ə) qızı Ümmü Külsümlə Ömərin evlənməsi ........ 135
Müvəqqəti nikah (mütə) və onunla bağlı məsələlər ........ 178
Xüms ........ 301

## II CİLD

Xüms məsələsində nəzər dəyişmələrinin xülasəsi ........ 355
Səmavi kitablar ........ 379
Şiələrin əhli-sünnəyə baxışı ........ 432
Şiəliyin yaranmasında yad ünsürlərin rolu ........ 488
Tamamlama ........ 618
Qeyd və nəticələrin xülasəsi ........ 628
Son söz ........ 639

*Bismillahir-Rəhmanir-Rəhim*
*Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd!*

**Allah və həqiqət naminə** (Birinci cild)

("Allah, sonra da tarix naminə" kitabına cavab)

## "Allah, sonra da tarix naminə" kitabının müqəddiməsinə iradlar

**"Allah, sonra da tarix naminə" kitabının müəllifi yazır: "Kərbəlada doğulmuş və şiə mühitində, dindar valideynimin himayəsində böyümüşəm.**

**Yetkin bir gənc yaşına dolanadək şəhərin mədrəsələrində tədris aldım, sonra da atam məni həmin dövrün möhtərəm imamı Seyid Muhəmməd Ali Hüseyn Kaşiful-Ğita (!) kimi görkəmli və böyük alimin elmindən sirab olmağım üçün Nəcəfdəki elmi hövzəyə göndərdi".**

**İrad:** Müəllifin gənc yaşlarında Nəcəfdəki elmi hövzələrdən birinə getməsi və iddiasına görə, ustadı Kaşiful-Ğita (q.s) tərəfindən ictihad dərəcəsi əldə etməsi fonunda, ustadının seyid yaxud şeyx, eləcə də öz sözlərində qeyd etdiyinə əsasən, adının Muhəmməd Ali Hüseyn Kaşiful-Ğita olması barədə cahilliyinə əsla bəraət qazandırıla bilməz. Halbuki Nəcəfdəki və digər şəhərlərdəki sadə insanlar belə onun adının Şeyx Muhəmməd Hüseyn Ali Kaşiful-Ğita olduğunu yaxşı bilirlər.

Ustadının seyid olması barədə səhvini öz kitabında dəfələrlə təkrarlamışdır. Ancaq onun adını kitabının bəzi yerlərində düzgün qeyd edib. Biz (!) işarəsini ustadının adını yanlış qeyd etdiyi yerlərdə qoymaqla xətalarının miqdarını sizlərə bəyan edəcəyik.

Aydındır ki, təkcə bu, onun Şeyx Kaşiful-Ğitanın şagirdi olması iddiasının puçluğuna yetərli dəlildir.

* * *

**Müəllif yazır: “Uca Allah mənə təhsil almağı və elmə sahib olmağı nəsib etdi. Tədris müddətində məni düşündürən dəlillər, şübhə yaradan hökmlər və çaşqınlığa salan hadisələr qarşıma çıxırdı. Lakin mən bu məsələlər qarşısında “yaxşı anlamıram, dərk etmirəm” deyib özümü ittiham edirdim”.**

**İrad:** Bu sözlər həmin şəxsin hövzə proqramından xəbərdar olmadığının və orada əsla tədris almadığının dəlilidir. Belə ki, o, hövzələrdə təhsilin iki hissəyə bölündüyünü, ilk illərdə tələbənin nəhv və sərf (sintaksis və morfologiya), bəlağət, məntiq, sadə və dəlilsiz fiqhi dərslər keçdiyini, bundan sonra üsul və istidlali fiqh dərslərinin tədris edildiyini bilməli idi. Bütün bu fənlər isə tələbəni şübhəyə salacaq və ya düşündürəcək heç bir dəlili özündə ehtiva etmir. Çünki bunlar hamıya məlum olan proqramlardır və oradakı mətnlər heç kəsə gizli deyildir.

O güman edir ki, elmi hövzə tələbəsi zəif və inkar edilən hədisləri öyrənmək üçün onun gözlərini açacaq hədis elmini öyrənir. Halbuki həmin zəif və inkar olunan hədisləri öz kitabında nəql edib.

Həmçinin o zənn edir ki, tələbə sünnilərin inkar etdikləri və ya əsla qəbul etməyəcəkləri elmləri - rical, tarix, İmamların (ə) həyatını və s. öyrənir.

Əgər bu kitabın müəllifi həqiqətən tələbə olsaydı, o zaman şiə alimlərinin (Allah onları qorusun!) hədis və rəvayətlərdəki müşkülləri açıqladıqlarını və onları izah etdiklərini, dəyərlisini dəyərsizdən və doğrusunu yalandan ayırdıqlarını, müxaliflərin şübhə və uydurmalarını dəf etdiklərini, heç bir müxalifin sözünün cavabsız qoymadıqlarını və haqq məzhəbdə əsla qüsurun olmadığını mütləq bilməli idi.

Bununla da aydın olur ki, ictihad dərəcəsi iddiası bir kənara dursun, elmi hövzənin sadə tələbəsinin bu cür sözlər söyləməsinin heç bir bəraəti ola bilməz. Xüsusilə də, ictihad mərhələsinə yetişmiş şəxs səhihlə zəif hədisi bir-birindən ayırmaq, eləcə də müxaliflərin şübhə və “dəlillərini” dəf etmək qüdrətinə artıq malik olur.

* * *

**Müəllif yazır: “Bir gün məni düşündürən məsələlərdən bir neçəsi barədə soruşmaq üçün elmi hövzənin ustadlarından birinə yaxınlaşdım. O, uzaqgörən**

**şəxs idi vəməndəki bu sualları necə həll edəcəyini yaxşı bilirdi. Sadə sözlərlə onları elə beşikdəcə boğmağa çalışaraq mənə dedi: "Hövzədə nə oxuyursan?"**

**Dedim: "Əhli-Beyt məzhəbini".**

**Dedi: "Əhli-Beyt məzhəbi barədə şəkkin varmı?"**

**Var gücümlə "Allaha pənah aparıram!" deyə cavab verdim.**

**Dedi: "Elə isə, bu vəsvəsələri özündən uzaqlaşdır. Sən Əhli-Beyt tərəfdarısan! Əhli-Beyt bunları (bu təlimləri) Muhəmməddən (s), Muhəmməd də Allahdan almışdır".**

**Az müddət susdum, nəfəsim aramlaşdı. Sonra dedim: "Allah sizi bərəkətli eləsin! Məni bu vəsvəsədən xilas etdiniz".**

**Yenidən dərslərimə qayıtdım, həmin suallar və cavab tələb edən məsələlər yenidən zehnimdə canlandı. Tədris proqramı irəlilədikcə suallarım da artırdı".**

**İrad:** Bu sözlər öz sahibinin elmi hövzə proqramından xəbərsiz və ondan çox-çox uzaq olduğuna dəlalət edir. Belə ki, o, müəllimin "Nə oxuyursan?" sualına cavab olaraq Əhli-Beyt məzhəbini öyrəndiyini deyir. Halbuki əvvəldə də qeyd etdiyimiz kimi, tələbə ilk bir neçə ili yalnız dil, məntiq və fəlsəfə ilə bağlı elmləri oxuyur ki, bunların da Əhli-Beyt (ə) məzhəbi ilə heç bir əlaqəsi yoxdur. Çünki bunlar tələbənin ali mətləbləri anlaması üçün müqəddimə elmləridir.

Müəyyən illərini bu elmlərin öyrənilməsinə sərf etdikdən sonra da tələbə növbəti illərdə ağılın qəbul və ya rədd edə biləcəyi nəzəriyyələrdən ibarət olan üsul elmini öyrənir.

Tələbənin Əhli-Beyt (ə) məzhəbi ilə əlaqədar olan elm sahəsi isə fiqhdir ki, bu da ilk olaraq Əllamə Hillinin "Təbsiratul-mütəəllimin" kitabı ilə başlayıb, Mühəqqiq Hillinin "Şəraiul-İslam", Şəhid Saninin "ər-Rouzətul-bəhiyyətu fi şərhil-lum`ətil-Diməşqiyyəh" kitabı ilə davam edib və sonda da Şeyx Ənsarinin "əl-Məkasib" kitabı ilə yekunlaşır.

Bu kitabların hamısı çap olunmuş və geniş oxucu auditoriyası üçün də əlçatandır. Həmin kitabların heç birində tələbəni Əhli-Beyt (ə) məzhəbi barədə şəkk və şübhəyə salacaq bir şey yoxdur. Çünki bunlar ya ilk iki kitabda olduğu kimi,

sadəcə fətvalardan ibarətdir, yaxud üçüncü kitabda olduğu kimi, özündə fətvaların dəlillərini də ehtiva edir, ya da sonuncu kitabda olduğu kimi, qazanc və ticarət barədə dəlillərin təfsilatına aiddir.

Açıqladığımız hövzə proqramına rəğmən, müəllifin zehnində yaranmış şəkk və şübhələrin mənbəyinin anlamaq olmur. Xüsusilə qeyd edək ki, tədrisin ilk illərində müqəddimə dərsləri keçirilir və bu dərslərin heç birinin Əhli-beyt (ə) məzhəbi ilə əlaqəsi yoxdur.

Bununla da aydın olur ki, müəllifin qeyd etdiyi hadisələr onun hövzə proqramından xəbərsizliyi üzərində təməl tapıb və bu hekayələri əhli-sünnə tədris mərkəzlərinin proqramlarını nəzərində canlandıraraq uydurur.

* * *

**Müəllif yazır: "Mühüm budur ki, mən hövzəni əla qiymətlərlə və fərqlənmə ilə başa vurdum və zəmanəmizin öndə gedən şəxslərindən olan, hövzənin rəhbəri möhtərəm Seyid (!) Muhəmməd Hüseyn Ali Kaşiful-Ğitadan ictihad dərəcəsinə nail olduğum barədə elmi diplom aldım".**

**İrad:** Müəllifin sözlərinə bir neçə irad vardır:

**Birinci:** O, hövzə tədrisinin universitet və ya institut sisteminə bənzədiyini, ictihad diplomunun alınması ilə tədrisin başa çatdığını güman edir.

Halbuki məsələ əsla belə deyildir. Hövzə tədrisi bununla bitmir. Həmin zamanlarda Nəcəfdəki hövzələrdə oxuyan hər bir şəxs bilir ki, ictihadları qəbul edilmiş fəqihlər Nəcəfdəki elmi hövzənin rəhbərlərindən olan möhtərəm Ayətullahul-üzma Seyid Əbul-Qasim əl-Musəvi əl-Xoinin (r.ə) mühazirələrində iştirak edərək tədrislərini davam etdirirdilər.

**İkinci:** Müəllif zənn edir ki, ictihad dərəcəsi almaq universitetlərdə doktorluq dərəcəsinə nail olmaq kimi bir şeydir, fərqlənmə və ya əlaçılıqla başa vurulması mümkündür.

Halbuki ictihad icazəsi fərqlənən və fərqlənməyən tələbələrə də verilir. Lakin doktorluq dərəcəsi tələbənin universitet pedaqoqlarından ibarət komissiyaya öz işini təqdim etməsindən və onların qarşısında müdafiəsindən sonra əldə edilir, komissiya tərəfindən alınan qərarla həmin tələbəyə doktorluq dərəcəsi ya verilir, ya da

verilməsindən imtina olunur. Bu qərar isə tələbənin komissiyaya təqdim etdiyi işin keyfiyyətindən asılıdır.

İctihad dərəcəsi isə bu yolla əldə edilmir. Bu dərəcə tələbənin ictihada çatığı və mənbələrdən şəri hökmləri əldə etmək qüdrətinə malik olduğu qənaətinə gəldikdən sonra fəqih tərəfindən öz şagirdinə verilir.

Bəzən bu dərəcə elan edilməyərək, diqqət çəkməmək üçün fərdi şəkildə və hamıdan gizli formada verilir. Yaxud da ictihad dərəcəsinə nail olmuş tələbənin fəzilətləri və üstün keyfiyyətləri bəyan olunur ki, o tələbə həmin icazəni əldə etmiş digər tələbələrdən öz üstünlüyü ilə fərqlənsin.

**Üçüncü:** Müəllifin fikrinə əsasən, Şeyx Muhəmməd Hüseyn Kaşiful-Ğitanın sahib olduğu elmi məqam nəzərə alınmaqla, onun şəxsən verdiyi ictihad icazələri böyük əhəmiyyətə malikdir. Bu isə yanlış düşüncədir. Belə ki, Şeyx ictihad əhli olmayan və heç bir fəzilətlə vəsf edilməyən bir çox tələbəyə ictihad icazəsi vermişdir. Buna səbəb isə yaşadığı gərgin dövrün tələbləri idi.

İranın keçmiş hökmdarı olan Rza şah Pəhləvi İran hakimiyyətinin icazəsi olmadan başa əmmamə qoymağı qadağan edən fərman imzalamışdı. Bu fərmandan yalnız ictihad sahibi fəqihləri kənarda tutmuş və istisna etmişdi.

Həmin fərman ictihad sahibi olmadıqları və İran hökuməti tərəfindən icazə verilmədiyi üçün bir çox tələbənin əmmaməsini çıxarmasına səbəb olmuşdu.

Məhz həmin zamanda Seyid Əbul-Həsən İsfahani və Şeyx Muhəmməd Hüseyn Kaşiful-Ğita kimi məzhəbin bir neçə alimi tələbələrə ictihad icazələri verməyə başladılar. Məqsəd isə elmi-dini hövzələrin varlığını qorumaq idi.

Belə ki, bu fərmanla bərabər İran hökuməti tələbələri məcburi hərbi xidmətə cəlb edir, ictihad sahiblərindən savayı heç kəsi bundan istisna etmirdi.

Şəhid Ayətullahul-üzma Mirzə Əli Ğərəvi mənə həmin dövrdə bir çox tələbənin Şeyx Muhəmməd Hüseyn Kaşiful-Ğitanın yanına gedərək məcburi hərbi xidmətdən qurtulmaq üçün ictihad icazəsi aldığını söyləmişdi. Onların bir çoxunun ictihada layiq olmadıqlarına baxmayaraq, Şeyx onlara ictihad icazəsi vermişdi.

Qeyd etdiklərimizdən aydın olur ki, Şeyx Kaşiful-Ğitanın (q.s) verdiyi ictihad icazələri tələbənin ictihad səviyyəsi bir kənara dursun, heç bir elmi fəzilətinə dəlalət etmir.

* * *

**Müəllif yazır: "Bundan sonra həmin mövzu haqda ciddi düşünməyə başladım. Belə ki, biz Əhli-Beyt məzhəbini öyrənirik, lakin öyrəndiklərimiz arasında Əhli-Beyti (ə) təhqir edən məsələlərlə qarşılaşırıq; Allaha ibadət etmək üçün şəriət öyrənirik, ancaq oradakı mətnlərdə Uca Allaha qarşı açıq-aydın küfrlər yer alıb.**

**Ey Rəbbim, bu öyrəndiklərimiz nədir?! Bunun həqiqi Əhli-Beyt məzhəbi olması mümkündürmü?!**

**Bütün bunlar insanın şəxsində haçalanma yaradır. Belə ki, Allaha küfr edərək Ona necə ibadət etmək olar?! Peyğəmbərə (s) tənə vurub məzəmmət etdiyimiz halda, onun addımlarının izi ilə necə gedə bilərik?!**

**Əhli-Beyti söyüb danladıqları halda necə onların ardıcılı olmaq, onları sevmək və getdikləri yolu öyrənmək mümkündür?!**

**Ey Rəbbim, mənə mərhəmət və lütf göstər! Əgər rəhmətini mənə şamil etməsən, mütləq yolunu azanlardan və ziyana uğrayanlardan olaram!"**

**İrad:** Müəllif şiə kitablarından olduğunu güman elədiyi, Allaha küfr hesab etdiyi, yaxud Peyğəmbərə (s) və ya Əhli-Beytinə (ə) tənə saydığı hər bir mətni bu kitaba doldurub. Möhtərəm oxucu onun bütün bu gümanlarının xəyal və ilğımdan ibarət olduğunu, inşallah, görəcək. Allaha həmd olsun ki, Onun neməti sayəsində şiə kitablarında bu qəbildən bir dənə də olsun səhih mətn yoxdur.

Biz əvvəldə hövzələrin tədris proqramlarını izah etdik və dedik: həmin tədris kitabları iddia edilən belə mətnlərdən xalidir. Bu sözümüzü unutmayın.

* * *

**Müəllif yazır: "Öz-özümə belə sual verirdim: Bu ağaların, imamların və öndə gedən görkəmli alimlərin mövqeləri nədən ibarətdir? Onlar bu suallar haqda nə deyirlər? Onlar da mənim gördüklərimi görür, mənim oxuduqlarımı oxuyurlarmı?**

**Bəli, əlbəttə! Bunların bir çoxu onların müəllifləri olduqları və qələmə aldıqları kitablardadır. Bu mənim qəlbimi yandırır, onun ağrı və təəssüfünü artırırdı".**

**İrad:** Şiə kitablarında yazılanlarla bağlı şiə alimlərinin mövqeyi hamıya məlumdur. Tələbənin bunlardan xəbərdar olması üçün çaşqınlığa düşəcəyi əsla düşünülə bilməz. Ələlxüsus, şiə alimlərinin kitabları da onun qarşısındadır. Həmçinin hövzənin böyük ustadlarından onu maraqlandıran hər bir şeyi soruşması da mümkündür.

Belə iddialara yalnız elmdən nəsibləri olmayan xalis cahillər düçar olarlar ki, onları şübhəyə salmaq üçün belə fikirlər təlqin edilər.

Müəllifin bu şübhələrinin hövzədə oxuduğu müddətdə yarandığı iddiası açıq-aydın puç bir iddiadır. İnşallah, müəllifin öz kitabında qeyd etdiyi mətnlərin tədris kitablarından götürülmədiyini, həmin mətnləri, hədis və rəvayətləri səhih, zəif, uydurma və saxta demədən bir yerə toplayıb nəql etdiyini möhtərəm oxucu qarşıda görəcək. Belə ki, onun nəql etdiyi mətnlər əl-Kəşşinin “Rical”ından, “Ənvarun-Numaniyyə”dən, “Biharul-ənvar”dan və digərlərindəndir.

Müəllifin gümanına görə, əhli-sünnənin tədris mərkəzlərində olduğu kimi, şiələrin elmi-dini hövzələrində də “əl-Kafi”, “ət-Təhzib”, “əl-İstibsar” və “Mən la yəhzuruhul-fəqih” kimi mötəbər hədis kitabları tədris olunur. Baxmayaraq ki, şəri dəlillərdən hökmlərin əldə olunmasında bu kitabların əhəmiyyətli yeri vardır, lakin onların heç biri tədris kitabları deyil və onların öyrənilməsi dərs proqramlarına daxil edilmir.

* * *

**Müəllif yazır: “Bu dərdimi söyləyə biləcək, kədərimi ifadə edəcək bir kəs axtarırdım. Sonda ağlıma çox yaxşı bir fikir gəldi: bütün kitabları oxuyub oradakı məlumatlara diqqətlə nəzər yetirmək. Qarşıma çıxan və əlimə düşən bütün mötəbər və hətta qeyri-mötəbər mənbələri oxudum. Oradakı bəzi hədislər, mətləblər və məsələlər diqqətimi çəkdikcə, onlara haşiyələr yazmağa başladım. Həmin mətnləri köçürür və məni düşündürən fikirləri onun haşiyəsinə əlavə edirdim. Mötəbər hədis mənbələrini oxuyub başa vurduqdan sonra haşiyə yazdığım vərəqlərin böyük həcmdə olduğunu gördüm. Bir gün Allahın bunlarla bağlı bir iş icad edəcəyinə ümid edərək onları qoruyub saxlamaq qərarına gəldim”.**

**İrad:** Şiənin bütün kitablarını, eləcə də mötəbər və qeyri-mötəbər mənbələrini oxuduğunu iddia etməsi, puç bir iddiadır. Belə ki, şiə kitablarının sayı on və yüz minlərlədir. Onların hamısını oxumaq bir kənara dursun, onları dərk etmək və üzərində təhlil aparmaq bir insan ömrünə sığmaz.

Hər halda, müəllifin həmin kitabları oxuyub oxumadığından asılı olmayaraq, bu, üzərində müzakirə aparılacaq mövzu deyildir. Lakin, iddiası doğrudursa, dəlillər onun üçün artıq isbatlanmışdır. Belə ki, o, şiənin kitablarında qeyd edilən bütün hədisləri, elm və maarifi oxuduğunu təsdiqləyir. Belə olduqda, nə üçün səhih və mötəbər hədislərə göz yumaraq kitabında məhz zəif hədisləri nəql edib?! Nə üçün hədisləri öz həqiqi mənalarından yayındırıb və yanlış mənalara daşıyıb?!

* * *

**Müəllif yazır: "Bu müddət ərzində tanış olduğum dini mərcələrlə, alim və ağalarla əlaqələrim davam edirdi. Qarşıma qoyduğum nəticəni əldə etmək üçün onlara qaynayıb-qarışırdım. Bir gün tam qənaətimlə çətin qərar almalı olacağımı bilirdim. Lakin bunun üçün münasib bir fürsət gözləyirdim".**

**İrad:** Müəlliflə mərcələr, alim və ağalar arasında sual-cavab və şübhə doğuran məsələlərin müzakirəsi olmadığı təqdirdə xoş əlaqələrin olması iddiasının heç bir əhəmiyyəti yoxdur. Belə ki, o, həmin alimlərlə onda yaranan suallarla bağlı müzakirələr apardığını və müəyyən məsələlər haqqında onlardan fikirlərini soruşduğunu qeyd etmir. Əvəzində öz sözlərini qaranlıq, mübhəm kəlmələrlə əhatə edir və sanki ona "Sənin bu sualların çox aydın və sadə məsələlərdir. Onlarda diqqət ayrılacaq və ya insanı şübhəyə düşürəcək heç bir qaranlıq cəhət yoxdur" deyiləcəyindən qorxur.

Müəllifin "dini mərcələr" sözü ictihad sahibi olduğunu iddia edən bir şəxsin, hətta sadə tələbənin belə söyləməyəcəyi kəlmədir. Belə ki, hamı tərəfindən qəbul və istifadə edilən ibarə "böyük mərcələr" və ya "təqlid mərcələri"dir.

Həmçinin onun "alim və ağalar" sözləri də belədir. Bunlar avam insanların sözüdür. Çünki alimlər sözü ilə ağalar sözü əsla bir birindən fərqləndirilməz. Belə ki, alimlər elə ağalardandır.

* * *

**Müəllif deyir: “Dostum Əllamə Seyid Musa Musəviyə baxır, onun da açıq-aydın şəkildə şiə təlimlərindəki yanlışlara qarşı çıxış etdiyini və onları düzəltməyə ciddi səy göstərdiyini görürdüm. Sonra əziz qardaşım Seyid (!) Əhməd “Şiə düşüncəsindəki dəyişikliklər” kitabını yazıb çap etdirdi. Həmin kitabı oxuduqdan sonra haqq sözümü səsləndirməyin və aldanmış qardaşlarımı aydınlatmağın zamanın yetişdiyini hiss etdim. Bizlər də alimlər kimi Qiyamət günü bunlar barədə soruşulacaq şəxslərik. Həqiqət nə qədər acı da olsa, onları xəbərdar etmək bizim borcumuzdur”.**

**İrad:** Fəqihlik və ictihad iddiası edən bir kəs üçün olduqca təəccüblü haldır. Elm və fəzilətdə heç bir dəyəri olmayan adını çəkdiyi o iki şəxs kimi necə addım ata bilir, onların iddialarından ilham alıb öz vaxtının da yetişdiyinə necə qərar verə bilir?! Halbuki fəqih şəxs öz düşüncə və qərarlarında, nəyin ona vacib olub-olmadığı barədəki fikirlərində azad olmalıdır. Fəqihin başqasına təqlid etməsi icazəli deyildir.

Seyid Musa Musəvinin yazdığı “Şiə və düzəlişlər”, eləcə də Əhmədin qələmə aldığı “Şiə düşüncəsindəki dəyişikliklər” kitablarındakı iddiaların hamısı yanlış və puçdur. Fəqihlik və ictihad iddiası edən şəxslər bir kənara dursun, bunların yanlışlığı tədrisə yeni başlamış tələbələrə də gizli deyildir.

Müəllif kitabında Əhmədi “seyid” deyə vəsf edir. Bu da onun bir çox yanlışlarından biridir və seyidlə şeyxi bir-birindən fərqləndirə bilmədiyinə dəlalət edir.

* * *

**Müəllif yazır: “Ola bilsin ki, mənim üslubum və nəticələrim seyidlər (!) Musəvi ilə digər müəllifin üslub və nəticələrindən fərqlənsin. Bunun səbəbi isə tədris müddətində hər birimizin qarşısına çıxan şübhələrin müxtəlif olmasıdır.**

**Bəlkə də onların şəraiti mənim şəraitimdən fərqlənirdi. Belə ki, onların hər ikisi İraqı tərk etmiş və Qərb dövlətlərindən birində məskunlaşmış, yalnız bundan sonra məlum fəaliyyətlərinə başlamışdılar”.**

**İrad:** “Allah, sonra tarix naminə” kitabının müəllifilə Seyid Musa Musəvi və Əhməd arasındakı fərq aşkardır. Belə ki, onların hər ikisinin ailəsi, soyu, şiə

olduqları, sonradan onlarda baş qaldırmış şübhələr və ya dünyaya tamah səbəbindən doğru yoldan sapdıqları məlum faktlardır.

Ancaq "Allah, sonra tarix naminə" kitabının müəllifi məchul şəxsdir və böyük ehtimal ki, əhli-sünnə mənsubudur, şiə məzhəbini və alimlərini ləkələmək üçün şiə alimi adından istifadə edib.

Müəllifin İraqda, digər iki şəxsin isə kənarda yaşaması onların arasında fərq kimi qiymətləndirilməz. Belə ki, o, haqqın əhli-sünnə məzhəbi tərəfində olduğunu düşünürsə və hazırda həmin məzhəbə keçmişsə, bu seçimini aşkar bəyan etməli, adını açıqlamalı və məzhəbini dəyişdiyini bildirməlidir. Çünki əksər əhli-sünnə alimləri müsəlmanlardan təqiyyə etməyi icazəli bilmir, mömin şəxsin imanını gizləməsini halal saymır, yanlış saydıqları məzhəbdən onların məzhəbinə keçidin aşkar bəyan edilməsini lazım bilirlər.

Müəllif kimi "fəqih və ictihad sahibi" bir kəs bu hökmlərdən necə yayınmış, təqiyyə edərək Nəcəfdə özünü necə gizləmişdır?! Halbuki şiə məzhəbinin bütün hökmlərini inkar etdiyi kimi, təqiyyəni də inkar etməliydi.

Həmçinin bu sözlərində də əvvəlki xətalarını təkrarlayır, Əhmədi Musəvi ilə birlikdə seyid adlandırır. Qarşıdakı sözlərində də eyni yanlışa bir neçə dəfə yol verəcək.

* * *

**Müəllif yazır: "Mən İraqda, Nəcəf şəhərində qaldım. İmkanlarım o iki seyidinki (!) kimi deyildi. Mən burada qalıb-qalmamaq üzərində uzun-uzadı düşünürdüm. Sonra qalmağa, səbr edib və Allahın savabına ümid bağlayıb burada fəaliyyət göstərməyə qərar verdim".**

**İrad:** Əgər müəllif Nəcəfdə yaşayırsa, hövzə alimləri onu tanımalıdır. Xüsusilə də özünün iddiasına görə, o, yaşlı insandır və ictihad icazəsini 50 il öncə əldə etmişdir.[1] Həmçinin qeyd edək ki, Nəcəf şəhərində qeyd edilən vəsflərə sahib, əslən

[1] Belə ki, Şeyx Muhəmməd Hüseyn Ali Kaşiful-Ğita (r.ə) hicri 1373-ci (miladi 1953-cü) ildə vəfat etmişdir. Bu isə kitabın yazıldığı müddətədək tam 50 il edir. Ancaq "Şeyx Muhəmməd Hüseyn Kaşiful-Ğita müəllifə ölümündən bir neçə il öncə ictihad

Kərbəladan olan belə bir alim yoxdur. Əgər olsaydı, mütləq tanınardı. Xüsusən də o, özünü elmdə üstün dərəcə sahibi kimi təqdim edir. Elmdə üstün dərəcəyə və fərqlənməyə malik insan isə əsla camaatdan gizli qala bilməz.

Bəs, müəllifin özünü şiə kimi göstərib Nəcəfdə qalmasının sirri nədir?

Halbuki o yaşda və iddia etdiyi elmə sahib hər bir şəxsin Nəcəfdən ayrılması, sünni məntəqələrinə yollanması, yeni məzhəbdaşlarına fayda verməsi və şiə məzhəbindəki yanlışlıqlardan, zəlalət və saxtakarlıqlardan onları da xəbərdar etməsi lazımdı.

Nəcəfdə qalması isə onun əl-qolunu bağlayacaq, öz missiyasını yerinə yetirə bilməməsinə səbəb olacaqdı.

Bütün bunlara rəğmən, onun Nəcəfdə qalmasını, səbr göstərib və Allahın savabına ümid bəsləyib burada fəaliyyət göstərməyi üstün tutmasını anlamaq olmur!

* * *

**Müəllif yazır: "Əminəm ki, bir çox ağalar danlanmamaq və töhmət eşitməmək səbəbindən gördükləri və müşahidə etdikləri, öz mənbə kitablarındakı yazılar qarşısında susmağa və razılaşmağa məcbur qalmışlar. Bu kitabımın onlar üçün özlərində güc tapmağa bir stimul qərar verməsini, batil yoldan çəkinib haqq yola üz tutmalarını Allahdan diləyirəm. Belə ki, ömür çox qısadır, dəlillər isə onların əleyhinə isbatlanmışdır. Bundan sonra onların heç bir üzrü olmayacaq".**

**İrad:** Etibarlı dəlilə söykənməyən sözün heç bir dəyəri yoxdur. Həmçinin müəllifin şəxsən özünün yəqində olduğu məsələnin də digərləri üçün etimad ediləcək heç bir elmi çəkisi ola bilməz. Çünki biz də məzhəbinin düzgünlüyünə şəkk edən və əhli-sünnə məzhəbinin yanlışlığına tərəddüd etməyən bir şiə aliminin olmadığı barədə yəqinə sahibik. Əksinə, əksər əhli-sünnə alimlərinin öz məzhəblərinin düzgünlüyünə şəkk etdikləri, öz etiqadlarında bir çox təzadlar və açıq-aydın yanlışlarla qarşılaşdıqlarına əminik. Lakin avam camaatın, yaxud qəddar hakimlərin və ya sahib

---

icazəsi vermişdir" deyilsə, bu iddia həmin 50 il müddətinə bir neçə il də əlavə edəcək.

olduqları vəzifələri itirməyin qorxusundan onlar bu şəkk və tərəddüdlərini aşkar dilə gətirməkdən çəkinirlər.

Müəllifin bu kitabının ağalar üçün özlərində güc tapmağa bir stimul qərar verməsi, batil yoldan çəkinib haqq yola üz tutmalarını dua edərək Allahdan diləməsinə gəldikdə, bu, müstəcab olmayacaq bir duadır. Çünki həmin müəllif (qarşıda oxucuya ayıdın olacağı kimi,) öz kitabını - qilafından ta sonunadək - yalanlarla doldurmuşdur. Kitab bu cür olduğu halda, necə haqqa hidayət edə bilər?!

* * *

**Müəllif yazır: "Allaha həmd olsun ki, əlaqələrimin olduğu bəzi ağalar mənim dəvətimə müsbət cavab verdilər, yetişdiyim həqiqətləri onlar da dərk etdilər və bunu digərlərinə də çatdırmağa başladılar. Uca Allahdan bizi və onları həqiqəti insanlara çatdırmağa müvəffəq etməsini, insanların da yanlış və batildən üz çevirmələrini diləyirik. Dilənilən ən möhtərəm varlıq Allahdır!"**

**İrad:** Haqq tabe olunmağa daha çox layiqdir. Cahil kəslərin belə bir adama müsbət cavab verməələri haqqı batilə və batili də haqqa çevirməz. Belə ki, haqq şəxslərlə tanınmır, əksinə, şəxslər haqqa bağlılıqları ilə tanınırlar.

Qarşıda aydın olacağı kimi, müəllif etibarlı şəxs olmadığına rəğmən, bəzi ağaların onun şiə məzhəbinin yanlışlığı barədə fikirlərilə razılaşdıqlarını və məzhəbdən üz döndərdiklərini iddia edir. Bu, sadəcə bir iddiadır və heç bir dəlili mövcud deyil. Belə bir fakta alim və fəzilətli şiələr arasında rast gəlinməyib. Onlardan heç bir şiə məzhəbinin batilliyini elan etməyib.

Əksinə, əhli-sünnənin alimləri arasında şiə məzhəbini qəbul etmək faktlar müşahidə olunub. Həmin şəxslərin adları, soyları və yaşadıqları şəhərlər də məlumdur. Onların bu mövzuda yazdıqları bir çox kitablar çap edilmiş, sadə camaat da, şiə və əhli-sünnə alimləri də onları oxumuşlar.

* * *

**Müəllif yazır: "Bilirəm ki, bu kitabım yanlış təkzib, töhmət və inkarla qarşılaşacaq. Bu mənə əsla zərər vermir. Çünki bunların hamısını hesaba almışam. Onlar məni İsrailə, ABŞ-a işləməkdə ittiham edəcək, dinimi və şəxsiyyətimi dünya malına satdığımı söyləyəcəklər. Bu, təəccüblü deyil.**

**Dostumuz Əllamə Seyid Musa Musəvini də eyni töhmətlərlə ittiham etmişlər. Hətta Seyid (!) Əli əl-Ğərəvi demişdir: "Səud kralı Fəhd ibn Əbdüləziz dr.Musəvini Səud ailəsindən olan gözəl qadınla və var-dövlətlə tovlamış, vəhhabi məzhəbinə keçməsi üçün Amerika banklarından birində onun hesabına əhəmiyyətli məbləğdə pul yatırmışdır".**

**İrad:** "Allah, sonra tarix naminə" adlı kitabın ciddi təkzib və iradlarla qarşılanacağı təbii idi. Çünki onun içinə nəzər saldıqda açıq-aydın yalanlar və qəbuledilməz ittihamlarla dolu olduğu görünür. İnşallah, qarşıdakı bəhslərdə möhtərəm oxucu üçün həmin yalanları ifşa edəcəyik.

Kitabdakı mövzuların inkarı üçün isə çox da səy göstərməyə ehtiyac duymayacağıq.

Onun İsrailə və ya digər ölkələrə işləməsinə gəldikdə, bilmədiyimiz bir şeyi iddia etməyi Allahdan qorxarıq. İşin həqiqətini Allah bilir, sirlərdən yalnız O agahdır!

Mirzə Əli əl-Ğərəvidən nəql etdiyi sözlər isə saxta və yalandır. Çünki onun tərəfindən əsla belə sözlər söylənməyib. Bir müddət Mirzə əl-Ğərəvinin məxsusi məclislərində iştirak etmək nəsibimiz olmuşdur. Onun bu və bu kimi sözlər söylədiyini əsla eşitməmiş və heç bir tanınmış şəxs ondan belə sözləri nəql etməmişdir. Əksinə, bu, öz-özlüyündə qəbuledilməz bir iddiadır.

Bundan əlavə, Seyid Musa Musəvinin yazdığı kitab rədd edilmiş, gətirdiyi bütün dəlillər və səsləndirdiyi iddiaları puça çıxarılmışdır. Öz-özlüyündə isbatına ehtiyac duyulan belə kəlmələrlə Musəvinin sözlərini puça çıxarmağın ehtiyacı yoxdur.

* * *

**Müəllif yazır: "Doktor Musəvinin belə alçaq yalan, iftira və şayiələrlə qarşılaşdığını nəzərə aldıqda, mənim nəsibimin nə olacağını və barəmdə hansı şayiələrin yayılacağını təsəvvür etmək çətin deyil. Bəlkə də onlar məndən öncə haqqı açıq-aşkar ifadə edən şəxsləri (!) öldürdükləri kimi, məni də öldürmək üçün axtaracaqlar. Necə ki, onlar böyük qeyb dövrü başlandıqdan bu günədək şiənin ən böyük imamlarından olan və heç şübhəsiz, şiə alimlərinin ağalarından biri sayılan mövlamız mərhum Ayətullahul-üzma imam Seyid Əbul-Həsən İsfahaninin övladını qətlə yetirmişlər. Belə ki, Seyid Əbul-Həsən İsfahani şiə**

**etiqadının yanlışlarının islahına və ona daxil edilmiş xurafatları ifşa etməyə cəhd göstərmişdi. Lakin bu onların xoşuna gəlməmiş, bir qoyunu kəsər kimi, onun övladının başını kəsmişdilər. Məqsəd isə bu böyük imamı şiə məzhəbindəki yanlışları düzəltməkdən çəkindirmək idi. Həmçinin ondan əlavə, bu yanlışlardan uzaqlığını elan edən və şiəlik yolunun islahına cəhd göstərən Seyid (!) Əhməd Kəsrəvini də qətlə yetirmiş və tikə-tikə doğramışdılar".**

**İrad:** Şiələr ən qədim zamanlardan bəri əleyhdarlarına qarşı yalnız dəlillərlə mübarizə aparmış, öz məzhəblərində yaranan yanlışları tənqid etmiş, səhvləri ortaya çıxarmış, yanlış rəylərlə mübarizə aparmış və etiqadlarına calanmış saxta fikirləri təcrid etmişlər.

Ancaq ittiham və fiziki məhv metodu isə şiənin üslubu deyil. Əksinə, dəlillərinin naqisliyi və öz məzhəblərinin doğruluğuna sübutlarının yetərsizliyi səbəbindən bu metod müxalif məzhəblərin izlədiyi yol olub.

Seyid Əbul-Həsən İsfahaninin şiə məzhəbini islah etmək istəməsi və bu səbəbdən oğlunun öldürülməsi iddiası bütünlüklə uydurmadır. Belə ki, Seyid İsfahani şiələrin təqlid etdikləri şiə mərcələrindən biri idi və yaşadığı dövrlərdə şiələrin məşhur nəzərlərinin xilafına bir söz belə söyləməmişdi. Bəs bu islahat iddiası haradandır?!

Əgər müəllifin iddiasına görə, Seyid Əbul-Həsən İsfahani şiənin ən böyük imamlarından biri idisə və şiə məzhəbində islahat aparmağa cəhd göstərmişdisə, bəs övladının qətlindən sonra niyə bunu davam etdirmədi?! Halbuki belə böyük bir hədəf üçün heç bir maddi nemət maneə ola bilməzdi!

Müəllifin Seyid Əbul-Həsən İsfahani haqqında söylədiyi **"...böyük qeyb dövrü başlandıqdan bu günədək şiənin ən böyük imamlarından olan və heç şübhəsiz, şiə alimlərinin ağalarından biri sayılan"** sözləri məna etibarı ilə Seyid Musa Musəvinin "Şiə və düzəlişlər" kitabındakı müqəddiməsindən nəql edilmişdir. Belə ki, Seyid Musəvi orada yazır: "Şiələrin böyük rəhbərlərindən birinin evində doğulub, boya-başa çatdıqdan, böyük qeyb dövrü başladıqdan bu günədək şiə tarixinin gəlib-getmiş ən böyük dini rəhbərinin – babamız böyük imam Seyid Əbul-Həsən Musəvinin əlindən tərbiyə aldıqdan sonra...".

Həmçinin yazır: “Nəcəfdə, ələvilərin gözü qarşısında, məğrib və işa namazları arasında mehrabda namaz qılarkən ruhani libasına bürünmüş bir günahkar tərəfindən, qoyunu kəsər kimi, atamın başının kəsilərək qətlə yetirilməsinin səbəbinin onu islahat xəttindən yayındırmaq olduğunu öyrənməyim mənim imanımı daha da artırdı”.[2]

İctihad iddiası edən belə bir kəsin Seyid Musa Musəvinin sözləri üzərində araşdırma və təhqiqat aparmadan necə onun müqəllidinə çevrildiyi çox təəccüblüdür! Seyid Əbul-Həsən İsfahaninin (r.ə) böyük qeyb dövrü başlandıqdan ta bu günədək şiənin ən böyük imamlarından və heç şübhəsiz, şiə alimlərinin ağalarından biri sayılmadığını bütün şiə alimləri gözəl bilirlər. O, yalnız şiə təqlid mərcələrindən biri olub və əsla hansısa təhqiqat və islahatları ilə tanınmayıb. Onun qələmə aldığı yalnız bir kitabı - “Vəsilətun-nəcat” adlı əməli risaləsi vardır. Belə bir halda o, şiənin necə ən böyük rəhbərlərindən biri sayıla bilər?!

Seyid Musa Musəvinin üzrü babasını tərəfləməkdir. Hər bir gənc öz atası və ya babası ilə fərəhlənir. Bəs “Allah, sonra tarix naminə” kitabının müəllifinin Seyid Əbul-Həsən İsfahanini belə xüsusiyyətlərlə vəsf etməsinin üzrü nədir?!

Elmlə məşğul olan və alimlərlə oturub-duran, hövzədə yaşayan, iddiasına görə fəqihlik və ictihad dərəcəsinə yüksələn heç bir şəxs Seyid Əbul-Həsən İsfahaninin (r.ə) şiənin ən böyük imamı kimi vəsf etməz. Bu, şiə alimlərini şiələrin böyük imamları kimi vəsf edən əhli-sünnənin işlətdiyi sözlərdir.

Əhməd Kəsrəviyə gəldikdə, heç kəs onun islahatçılıq hərəkatına başladığını iddia etməmişdir. Onun ümumiyyətlə dinlə heç bir bağlılığı olmamış, o, məxsusi olaraq şiə məzhəbinə və onun əqidəsinə qarşı çıxmamışdır. Əhməd Kəsrəvi ümumiyyətlə dinə və onun təlimlərinə qarşı olan şəxs idi. Şiəlik etiqadı ilə bağlı sözləri də onun məxsusi bir məzhəb kimi deyil, şiəliyin dini təmsil etdiyinə görə idi. Bu baxımdan o, şiəlikdən başqa hər hansı bir məzhəbə də meyl etmədi. Əksinə, İhsan Təbərinin rəhbərliyi altında İrandakı kommunist hərəkatına qoşuldu.[3]

* * *

---

[2] “Şiə və düzəlişlər”, səh.5.

[3] Bax: “İran iki əsr sonra”, səh.263.

**Müəllif yazır: “Şiəliyə daxil edilmiş belə batil əqidələri inkar etmiş və eyni aqibətlə üzləmiş bir çox insan vardır. Mənimlə də elə rəftar etsələr, bu, əsla qəribə olmaz!!!”**

**İrad:** Təəccüblüdür, bu insan sanki oxucularına heç kəsin bilmədiyi, başqa bir planetdə baş vermiş hadisələrdən danışır. Yoxsa, əqidələrini inkar etdiklərinə görə qətlə yetirilmiş həmin çox sayda şəxslər kimlərdir?

Seyid Əbul-Həsənin oğlunun Seyid Musa Musəvi islahatlar səbəbindən qətlə yetirildiyini iddia etsə də, onu məsələlərdən əsla xəbərdar olmayan bir kəmağıl öldürmüşdü və qətli də sırf maliyyə səbəblərindən baş vermişdi.

Seyid Musa Musəvi isə oxucusunda atasının islahat hərəkatını başlatdığı üçün qətlə yetirildiyi təsəvvürünü yaratmağa cəhd edib. Ancaq bu iddia tamamilə yanlış və puçdur, Musa Musəvidən öncə heç kəs belə bir söz söyləməyib və o da öz sözlərini hər hansı bir dəlillə isbatlamayıb.

Əhməd Kəsrəvinin qətlinə səbəb göstərilərkən bunlar deyilmişdi: “O, içində bir çox Quran surələrinin və Peyğəmbər (s) hədislərinin olmasına rəğmən “Məfatihul-cinan” kitabını yandırmış, bu hərəkəti bütün İran gənclərinin qəzəbinə səbəb olmuş, etirazlar Azərbaycanda başlamış, sonra Tehrana və İranın digər şəhərlərinə yayılmışdı, hər tərəfdən onun əməlini pisləyən teleqramlar vurulmuşdu. Bəzi iranlılar isə onu yaxalamış və ölənədək döymüşdülər.

Görünən odur ki, müəllif şiələrin öz müxaliflərinə qarşı zorakılıq iddialarını ortaya atmaqla öz adını və şəxsiyyətini gizləməsinə bəraət qazandırmağa çalışır. Halbuki şiələrin nə Musa Musəviyə və nə də Əhmədə qarşı hər hansı bir sui-qəsd addımı atmadıqlarını o da gözəl bilir.

* * *

**Müəllif yazır: “Lakin bütün bunlar məni qayğılandırmır, haqqı söyləməyim mənim üçün kifayətdir. Mən qardaşlarıma öyüd-nəsihət verir, onların diqqətini həqiqətlərə yönəldirəm. Əgər mən dünya həyatının ləzzətlərini əldə etməyə çalışsaydım mütə nikahı və xümsün gəlirləri mənim üçün yetərli olardı. Necə ki, bunu bəziləri edərək ölkənin ən varlı şəxslərinə çevrilir, bəziləri də ən bahalı və ən son model maşınlarda gəzirlər. Lakin mən, Allaha həmd olsun ki, həqiqəti**

**anladıqdan sonra bütün bunlardan üz çevirdim. Hazırda özümün və ailəmin dolanışığımı ticarətdən təmin edirəm".**

**İrad:** Belə ağsaqqal və yaşlı bir şəxsin mütəyə nə ehtiyacı və nə də gücü olacaq?!

Müəllifin iddiasına görə, ona ictihad icazəsi qırx yaşlarında verilmişdir. Necə ki, hövzələrdə istedadlı tələbələr ən yaxşı halda bu yaşda ictihada yetişirlər. Bu hesabla, əgər Şeyx Kaşiful-Ğita vəfat etdiyi il (miladi 1953-cü ildə) müəllifə ictihad icazəsi vermişsə, hal-hazırda onun yaşı təqribən doxsan olmalıdır.

Bu yaşda olan Nəcəf alimlərdən heç biri son model və bahalı avtomobillərdə gəzmirlər. Çünki Nəcəfdə ümumiyyətlə son model bahalı avtomobil yoxdur. Bunu həmin şəhərdə yaşayan və alimlərin yaşayış səviyyəsindən məlumatı olan hər kəs bilir.

Nəcəfin hazırkı dövrdə mövcud olan təqlid mərcələrini yaxşı tanıdığıma əsasən, son model bir kənara qalsın, onlardan adi avtomobilə sahib olan bir nəfəri də yoxdur.

Xümsə gəldikdə, bu, mərcənin qəbul etdiyi bir əmanətdir və onu tələb olunan müəyyən yerlərə xərcləyir. Nə özünün və nə də başqasının həmin məbləğdən bir qəpik də olsun öz ixtiyarına keçirməyə haqqı yoxdur. Əgər təqlid mərcələri xümsü mənimsəsəydilər, o zaman ən varlı insanlardan olardılar. Halbuki onlar qətiyyən varlı deyillər və maddi vəziyyətləri göz qabağındadır.

Müəllifin özünün və ailəsinin güzəranını ticarətlə təmin etdiyi iddiasına gəlincə, özünün də qeyd etdiyi kimi, gənc yaşlarında elmi hövzəyə getdiyini nəzərə alsaq, bəs ticarət üçün ilkin maliyyə mənbəyini haradan əldə etmişdir?!

Əgər o, xümsdən əldə etdiyi pulla ticarət qurmuşsa, o zaman öz yanaşmasına görə qazancı ona halal deyil. Əgər digər yerdən əldə etdiyi maliyyə ilə bu ticarətə başlamışsa, o zaman həmin pulun mənbəyi haradır və haradan əldə etmişdir?

İllərlə xümsün hesabına dolanmış bir şəxsin sonradan onu tənqid etməsi qəribə haldır. O, indiyədək xərclədiyi xüms pullarını məgər unudubmu?

Əgər xümsü öz haqqı olaraq görmürsə, həyatı boyu özünə xərclədiyi xümsləri geri qaytarmağa zamin olmalıdır. Onların hamısını sahiblərini tanıdığı təqdirdə özlərinə qaytarmalı, yaxud da onların adından sədəqə verməli deyilmi?

* * *

**Müəllif yazır: "Qardaşlarımı həqiqətlərdən agah etmək üçün bu kitabda diqqət çəkən mövzuları qeyd etmişəm ki, onların gözləri önündə heç bir örtük qalmasın. Bütün müsəlmanların əllərində dəlillərin olması, qafil şəxslərin heç bir bəhanəsinin və cahillərin də üzrünün qalmaması üçün bu kitabda təqdim edilməyən digər mövzuları növbəti kitablarımda yazmaq niyyətindəyəm".**

**İrad:** Allahın iznilə oxucular qarşıda bütün həqiqətlərdən agah olacaq və müəllifin özünü şiə fəqihi kimi təqdim edən, amma həqiqətdə başqa bir şəxsin adı altında gizlənmiş yalançı olduğunu aydın şəkildə görəcəklər. Həmçinin on iki imama etiqad bəsləyən şiə məzhəbinə tutduğu iradların və vurduğu ləkələrin puçluğu da möhtərəm oxuculara aydın olacaq.

Belə ki, belə kəslərin şiə məzhəbinə qarşı səhih dəlil və sübutlar təqdim etməkdə acizlikləri və dəyərsiz üslublarla bu məzhəblə savaşdıqları, şiəyə bacardıqları qədər böhtan atmaq üçün öz sələflərinin metodlarından istifadə etdikləri və bu yolda nələrə əl atdıqları məlum olacaq. Lakin Uca Allah onların hiylələrini üzlərinə çırpmış, iddialarını puça çıxarmış, saxtakarlıqlarının üstünü açmış və yalanlarını ifşa etmişdir.

Xüsusilə qeyd edilməlidir ki, bu kitabın müəllifi özündən əvvəl heç kəsin getmədiyi yalan və fırıldaqçılıq yolunu tutmuş, özünü şiə fəqihlərindən biri kimi təqdim etmiş, şiə alimlərinə qarşı bayağı hekayələr uydurmuş və bunları öz gözlərilə gördüyünü iddia etmişdir. Lakin o, heç anlamadığı bir yerdən yaxalanmış, hiyləsi ifşa olunmuş və yalanları ortaya çıxmışdır. Uca Allah zalımların etdiklərindən əsla xəbərsiz deyildir. Qarşıda zalımlar hansı inqilabla çevriləcəklərini (hara yuvarlanacaqlarını) mütləq biləcəklər!

* * *

**Müəllif yazır: "Əminəm ki, bu kitabım haqq axtaran şəxslər tərəfindən qəbul ediləcək. Allaha həmd olsun ki, belələri olduqca çoxdur. Ancaq öz azğınlığında qalmağı (cəmiyyətdəki vəziyyətini, mütə və xümsü, əmmaməni, mindiyi "Mersedes"i və təmtərağı) üstün tutanlara isə bizim heç bir sözümüz yoxdur. Mürtəkib olduqları günahlar, mal və övladın heç bir fayda verməyəcəyi**

**gün üçün topladıqları barədə Allah onlardan hesab soracaq. Həmin gün yalnız salim qəlb insana fayda verər.**

**Bizi buna hidayət edən Allaha həmd olsun! Əgər bizi buna yönəltməsəydi, özümüz əsla buna nail ola bilməzdik!"**

**İrad:** Həqiqətən də, Allaha həmd olsun ki, haqq axtaran şəxslər olduqca çoxdur. Haqq aşkar və yolları da açıq-aydındır. Bunun üçün yalana, iftiraya, başqa şəxs adı altında gizlənməyə, xeyirxah və pak insanlara qara yaxmağa, olmayan hadisələr uydurmağa heç bir ehtiyac yoxdur.

İnşallah, haqq axtaran şəxslər qarşıdakı bəhslərdə müəllifin haqdan və doğruluqdan necə yayındığının, əyri-üyrü zəlalət yollarını tutduğunu görəcəklər. Həqiqətən də o, arzusuna çatmamış, məqsədinə nail ola bilməmişdir. Əksinə, saxtakarlığının üstü açılmış, halı ifşa olunmuş, yazdığı bu kitabı dünyada ona bir rəzalətə, axirətdə isə bəlaya çevrilmişdir.

Kitabındakı cızma-qaralarını oxuyan hər bir vicdanlı şəxsə qəti və əmin şəkildə müəllifin yolunu azdığı və tutduğu yolun batilliyi aydınlaşacaq. Əgər o, öz haqlılığını isbatlamaq üçün belə dəyərsiz yalanlara möhtacdırsa, onun bütün azğınlıq və saxtakarlıqları qarşısında həqiqəti söyləmək yetərli olacaq.

Eləcə də, qarşıda On iki imama etiqad bəsləyən şiə məzhəbinin haqq olduğunu hər bir insaflı şəxs dərk edəcək, bu yolu izləməklə nicat tapacağına və ondan ayrı düşməklə məhvə düçar olacağına yəqin tapacaq. Əgər belə olmasaydı, şiə məzhəbinin düşmənləri onu puç çıxarmaq üçün kifayət qədər haqlı səbəblər tapar, açıq-aşkar yalan və iftiralara əl atmağa möhtac qalmazdılar.

## Abdullah ibn Səba mövzusuna dair iradlar

**Müəllif yazır: "Biz şiələrin nəzərinə əsasən, Abdullah ibn Səba saxta və heç bir həqiqəti olmayan şəxsiyyətdir ki, əhli-sünnə şiələri və onların əqidələrini bədnam etmək məqsədilə onu uydurmuş, camaatı Əhli-Beyt məzhəbindən uzaqlaşdırmaq üçün şiə etiqadının əsasının qoyulmasını onun adı ilə bağlamışdır".**

**İrad:** Fəqihlik və ictihad iddiası edən bir kəs üçün adi bir şəxsin tərcümeyi-halını müəyyənləşdirə bilməmək olduqca təəccüblü haldır. Halbuki keçmiş və müasir şiə fəqihlərinin arasında az qala icma həddində olan məşhur rəy Abdullah ibn Səba adlı bir şəxsin mövcud olmasıdır. Məşhur tərcümeyi-hal (rical) kitablarında alimlər onun haqqında qeydlər veriblər.

Şeyx Tusi özünün "Rical" kitabında yazır: "Abdullah ibn Səba küfrə qayıtmış və ğüluvv etmişdir (düşüncələrində həddi aşmışdır)".[4]

Əllamə Hilli özünün "Xulasətul-əqval" kitabında yazır: "Abdullah ibn Səba ğüluvv edən lənətlənmiş kəsdir, Əmirəl-möminin Əli (ə) onu odda yandırmışdır. O, İmam Əlinin (ə) ilah, özünün isə peyğəmbər olduğunu iddia edirdi".[5]

Bu sözlər "ət-Təhrirut-Tavusi" əsərində Seyid Əhməd ibn Tavusun "Həllul-işkali fi mə`rifətir-rical" kitabından nəql edilən sözlərin eynisidir.[6]

Əbu Əmr əl-Kəşşi deyir: "O (yəni Abdullah ibn Səba), özünün peyğəmbərliyini və Əlinin (ə) Allah olduğunu iddia edirdi. İmam Əli (ə) üç gün ondan tövbə etməsini tələb etdi, lakin o, iddiasından geri çəkilmədi. Sonda Əmirəl-möminin (ə) Abdullah ibn Səbanı onunla eyni iddiada olan yetmiş nəfərlə birlikdə odda yandırdı".[7]

---

[4] "Rical", Şeyx Tusi, səh.80.

[5] "Xulasətul-əqval", Əllamə Hilli, səh.237.

[6] "ət-Təhrirut-Tavusi", səh.173.

[7] İbn Davudun "Rical"ından, ikinci bölüm, səh.30; "Tənqihul-məqal", 2/184. əl-Kəşşinin bu sözləri "Ricalul-Kəşşi" adı ilə məşhur olan "İxtyaru mə`rifətir-rical" kitabında qeyd edilməyib.

Şeyx Yusuf Bəhrani yazır: “İbn Səba Əmirəl-möminin Əlinin (ə) ilah olduğunu iddia edən şəxsdir. İmam Əli (ə) ondan üç gün tövbə etməsini tələb etdi, lakin o tövbə etmədikdə onu odda yandırdı”.[8]

Bu və bu mövzuda digər sözlər... Bunlar ictihad və rəvayətlər barədə məlumatlı olmaq iddiaçısı bir kənara dursun, hətta ən aşağı səviyyəli tələbələrə belə gizli deyildir.

* * *

**Müəllif yazır: “Seyid (!) Muhəmməd Hüseyn Ali Kaşiful-Ğitadan Abdullah İbn Səba haqqında soruşduğumda dedi: “İbn Səba xürafi şəxsdir, əməvi və abbasilər pak Əhli-Beytiə (ə) olan nifrət və düşmənçilikləri səbəbindən onu uydurmuşlar. Ağıl sahibi insanın belə şəxslərlə özünü məşğul etməsi məsləhətli deyildir”.**

**İrad:** Şeyx Kaşiful-Ğitadan nəql etdiyi sözlərin onun tərəfindən söyləndiyinə heç yerdə rast gəlinməyib. Müəllifin ondan söz nəql etməsinə isə etibar olunmur və əhəmiyyətsizdir.

Əgər Şeyx Kaşiful-Ğitanın (r.ə) bu sözləri söylədiyini fərz etsək, bəlkə də Şeyxin məqsədi Abdullah ibn Səba haqqında uydurulan nağılları inkar etməkdir ki, bunların əməvi və abbasilər tərəfindən ortaya atıldığını bildirir. Beləliklə də Abdullah ibn Səba adlı şəxsin varlığını inkar etmir. Çünki onun varlığını özünün “Əsluş-şiəti və usuluha” kitabında açıq bəyan etmişdir. Qarşıda onun sözlərini qeyd edəcəyik.

* * *

**Müəllif yazır: “Lakin mən onun məşhur “Əsluş-şiəti və usuluha” kitabının 40-41-ci səhifələrində bu şəxsin mövcudluğuna və varlığının isbatına dəlalət edən qeydlərlə rastlaşdım. Yazır: “Şiəyə caladıqları Abdullah ibn Səbaya gəldikdə, bütün şiə kitabları onu aşkar lənətləyir və ondan uzaqlıqlarını bəyan edirlər...”.**

**İrad:** Aralarında Şeyx Kaşiful-Ğita da olmaqla şiə alimlərinin məşhur rəyi Abdullah ibn Səba adlı şəxsin mövcud olduğu və Əmirəl-möminin Əlinin (ə) Allah olduğu iddiası etdiyi barədədir. İmam Əli (ə) onunla eyni iddiada olan şəxslərlə

---

[8] “əl-Hədaiqun-nazirəh”, 8/511.

birlikdə onu da odda yandırmışdır. Tərcümeyi-hal kitablarına nəzər salan hər bir şəxs bunu bilir.

“Əsluş-şiəti və usuluha” kitabında qeyd olunanlara gəldikdə, həmin sözlərin özü müəllifin Şeyx Kaşiful-Ğitadan nəql etdiyi əvvəlki sözünün yanlışlığının dəlilidir.

Yalan uyduranların əməllərindən insanın təəccübü əsla bitmək bilmir! Onlar yalanlar uydurur, sonra onu şiələrə nisbət verirlər. Müəllif də bir yalan uyduraraq onu Kaşiful-Ğitaya nisbət verir, sonra da alimin sözlərinin öz kitabındakı fikirlərilə ziddiyyət təşkil etdiyini söyləyir.

* * *

**Müəllif yazır: “Şübhə yoxdur ki, bu sözlər həmin şəxsin vaxtilə mövcudluğuna dəlalət edir. Bunlarla əlaqədar ona müraciət etdikdə isə dedi: “Biz bunları təqiyyə olaraq söyləmişik. Həmin kitabın ünvanlandığı şəxslər əhli-sünnə məzhəbinin ardıcıllarıdır. Ona görə də oradakı sözümün ardınca demişəm: “Abdullah ibn Səba (və onun kimilərlə) bağlı hədislərin hamısı xurafatdır, nağılbazların və boşboğazların uydurmalarıdır””.**

**İrad:** Burada təqiyyə etməyi anlamaq olmur, bunun mənası nədir?!

“Əsluş-şiəti və usuluha” kitabında Abdullah ibn Səbanın varlığını təqiyyə olaraq qəbul etməyin nə əlaqəsi vardır?!

Məgər Şeyx Kaşiful-Ğita özünün şiə əqidəsindən bəhs edən “Əsluş-şiəti və usuluha” kitabını təqiyyə edərəkmi yazmışdır?! Şiənin etiqadının bəyanını özündə ehtiva edən, buna rəğmən təqiyyə edilərək qələmə alınan və özündə onların əqidələrinə zidd məsələlərin yer aldığı bir kitabı necə yaza bilər?!

Bu və buna bənzər sözlərdən anlaşılır ki, müəllif təqiyyənin həqiqi mənasını anlamamış, təqiyyənin heç bir bəraəti olmayan xalis yalandan ibarət olduğunu zənn etmişdir. Əhli-sünnənin əksəriyyəti təqiyyəni bu mənada başa düşür. Bu isə tamamilə yanlış düşüncədir. Allaha həmd olsun ki, bu kitabda müəllifin nəql etdiyi bir çox hekayələrdə özünün yalanları ifşa olunmuşdur.

* * *

**Müəllif yazır: “Seyid Mürtəza Əskəri “Abdullah ibn Səba və digər əfsanələr” adlı kitab yazmış və həmin kitabda Abdullah ibn Səba adlı şəxsin**

**ümumiyyətlə mövcudluğunu inkar etmişdir. Seyid Mürtəza Əskərinin qeyd olunan kitabına yazdığı müqəddiməsində Seyid (!) Muhəmməd Cavad Muğniyə də onun mövcudluğunu inkar edir".**

**İrad:** Abdullah ibn Səbanın mövcudluğu və ya uydurma şəxsiyyət olduğu barədə ixtilafın varlığı heç kəsə gizli deyil. Onun varlığını təsdiqləyən və inkar edən fikirlər mövcuddur. Bu məsələnin şiə və ya əhli-sünnə ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Çünki bu, rical (şəxsiyyətlər) və ya tarixlə bağlı məsələdir.

Əgər Seyid Mürtəza Əskəri, Şeyx Muğniyə və ya digərləri Abdullah ibn Səbanın mövcud olmadığı və uydurma bir şəxsiyyət olduğu qənaətinə gəlmişlərsə, bəzi əhli-sünnə alimləri də eyni fikri təsdiqləmişlər. Onlardan:

**Doktor Taha Hüseyn:** O, özünün "Əli və övladları" kitabında yazır: "Buna ən azı tarixçilərin İbn Səba, İbn Sevda və yoldaşlarının saxta və uydurma şəxslər olduğu, Siffin müharibəsinə dair şiələrlə digər İslam firqələri arasında gedən mübahisələrdə hiylə quraraq şiə məzhəbini gözdən salmaq və alçaltmaq məqsədilə onların əqidələrinə yəhudi ünsürü daxil etmək üçün uydurulduqları qənaətinə gəlməsi də dəlalət edir".[9]

**Doktor Əbdüləziz əl-Həllabi:** O da özünün "Abdullah ibn Səba" kitabında yazır: "Bu bəhsimizdə gəldiyimiz nəticəyə əsasən, İbn Səba uydurma bir şəxsdir və mövcud olmamışdır. Əgər bu adda bir şəxs mövcud olmuşsa da, mütləqdir ki, nə siyasi və nə də əqidə nöqteyi-nəzərindən həmin şəxs Seyfin və kitab sahiblərinin istinad etdikləri dövrlərdə yaşamamışdır".[10]

**Misir yazıçısı Əhməd Abbas Saleh:** "əl-Yəmin vəl-yəsir fil-İslam" kitabında yazır: "Şübhəsiz ki, Abdullah ibn Səba uydurma şəxsiyyətdir. O kimdir ki, bütün bu hadisələrə rəvac versin, bu qədər genişliyə sahib aləmdə savaşlara səbəb olsun... Sahib olduğu dəyərdən asılı olmayaraq, münaqişə gedişatında bir nəfər təkbaşına necə bu qədər rol oynaya bilər?!

---

[9] "əl-Fitnətul-kubra", 2/98.

[10] "Abdullah ibn Səba: fitnə zamanındakı rolu barədə tarixi rəvayətlərin öyrənilməsi", səh.71.

Nəhayət deyirlər: "Abdullah ibn Səba barəsində dolaşan hekayələrin hamısı sonrakıların uydurmalarıdır, qədim mənbələrdə onun varlığının heç bir dəlili yoxdur. Ümumiyyətlə onun mövcudluğunun ehtimalı axmaq düşüncədir".[11]

* * *

**Müəllif yazır: "Abdullah ibn Səba bir çox şiənin əhli-sünnəni tənqid etməsinin səbəblərindən biridir. Şübhə yoxdur ki, əhli-sünnədən İbn Səba haqqında söz açanlar olduqca çoxdur. Lakin şiələr onlarla ixtilaflarına görə, buna əsla əhəmiyyət vermirlər".**

**İrad:** Abdullah ibn Səba şiə məzhəbilə əlaqəli bir şəxs deyildir, şiələrin nəzərində heç bir dəyəri yoxdur və müəllifin iddia etdiyi kimi, bir çox şiənin əhli-sünnəni tənqid etməsinə səbəblərdən sayılmır. Nəinki, məsələ tamamilə əksinədir. Əhli-sünnə öz zehinlərində becərdikləri düşüncələrə əsaslanıb şiələri tənqid edir və məzhəblərinin yəhudi əsilli Abdullah ibn Səbaya söykənməsini onlara töhmət vurur, İslam və müsəlmanlara nifrət bəsləyən bir yəhudinin fırıldağına boyun əydiklərinə görə şiələrə qarşı qəzəb duyurlar.

"Əhli-sünnədən bir çoxlarının Abdullah ibn Səba haqqında söz açdıqları, ancaq zidd çıxmaq məqsədilə şiələrin onların sözlərinə əhəmiyyət vermədikləri" iddiasına gəldikdə, bu qəbuledilməzdir. Belə ki, haqq əsla çoxluqla ölçülə bilməz. Haqqın meyarı yalnız dəlilin doğruluğu və tam isbatıdır. Əhli-sünnədən Abdullah ibn Səba barədə ən çox bəhs edənlər məhz şiə məzhəbilə onun arasındakı möhkəm əlaqəni isbatlamaq üçün axtarış aparanlardır. Öz hədəflərinə çatmaq üçün bu uydurma və yalan məlumatlara etimad etmiş, düzgün elmi təhqiq və tədqiq yolunu tutmamışlar.

* * *

**Müəllif yazır: "Halbuki əgər biz mötəbər kitablarımızı oxuduqda alimlərimizin və ya onlardan bir hissəsinin inkar etmələrinə rəğmən, Abdullah ibn Səbanın uydurma deyil, şəxsiyyətinin həqiqət olduğunu görəcəyik".**

[11] "əl-Yəmin vəl-yəsir fil-İslam", səh.95.

**İrad:** Biz əvvəldə qeyd etdik: Şiə alimləri arasında icma olmasa da, məşhur olan rəy Abdullah ibn Səba adlı bir şəxsin həqiqətən mövcud olmasıdır. Böyük və tanınmış alimlər onun varlığını inkar etməmişlər. Onların yazdıqları kitablar söylədiklərimizin ən yaxşı şahidləridir.

Buna əsasən, bundan sonra bütün deyiləcəklər aşkar uydurmanın və ağır yalanların üzərində qurulmuş olacaq. Bu isə şiə alimləri tərəfindən Abdullah ibn Səbanın bir şəxs olaraq varlığının inkarı ilə bağlı müəllifin ortaya atdığı iddialarıdır. Halbuki qeyd etdiyimiz kimi, bu əsla doğru deyildir.

* * *

**Müəllif yazır: "Sizə bunun açıqlamasını təqdim edirəm:**

**1. Əbu Cəfərdən (r.a) rəvayət olunur: "Abdullah ibn Səba peyğəmbərlik iddiası edir, Əmirəl-möminin Əlinin isə Allah olduğunu (Allah bu iddiadan ucadır) düşünürdü. Bu xəbər İmam Əliyə (r.a) yetişdikdə onu çağırıb iddiaları ilə bağlı sual verdi. O da iddialarını təsdiqləyərək dedi: "Bəli, sən Allahsan. Qəlbimə düşüb ki, sən Allah, mən isə peyğəmbərəm". İmam (r.a) ona dedi: "Vay olsun sənə! Şeytan belə sənə gülür. Anan matəmində ağlasın, bundan əl çək və tövbə et". Bundan imtina etdikdə onu bir müddət həbsə atdı. Lakin yenə də tövbə etmədi. Sonda onu odda yandırdı". Buyurdu: "Onu Şeytan şövqləndirmiş və qəlbinə belə düşüncələr atmışdı".**

**İrad:** "Bu rəvayətin sənədi ravi Muhəmməd ibn Osman əl-Əbdi və Abdullah ibn Sinanın atası Sinan səbəbilə zəifdir. Heç bir rical kitabında onların inanılan (siqə) şəxs olduqları isbat edilməyib.

Buna əsasən, rəvayət etibarsızdır, onu sübut olaraq təqdim etmək və ya etimad göstərmək doğru deyil.

* * *

**Müəllif yazır: "Əbu Abdullahın belə dediyi nəql olunur: "Allah Abdullah ibn Səbaya lənət eləsin! O, Əmirəl-mömininin (r.a) rəbb olduğunu iddia edirdi. Halbuki, Allaha and olsun, Əmirəl-möminin (r.a.) Allahın itaətkar bəndəsi idi. Bizə yalan nisbət verənlərə vay olsun! Bəziləri haqqımızda bizim özümüz barədə**

**söyləmədiyimiz sözləri danışırlar. Onların sözlərindən Allaha sığınırıq! Onların sözlərindən Allaha sığınırıq!" ("Mə`rifətu əxbarir-rical", əl-Kəşşi, səh.71-75). Orada (bununla bağlı) digər rəvayətlər də vardır".**

**İrad:** Bu rəvayətin sənədi səhihdir və Abdullah ibn Səbanın həqiqətən mövcud olduğunu isbatlayan üç rəvayətdən biridir. O, Əmirəl-möminin (ə) barədə ilahlıq iddiası etmiş və sonda İmam Əli (ə) onu odda yandırmışdır.

Lakin hər iki firqənin kitablarında Abdullah ibn Səbanın Osmanın zamanında baş qaldırmış üsyanlarda hər hansı bir rolunun olduğuna dəlalət edən heç bir mötəbər xəbər və ya rəvayət yoxdur. Belə ki, iddialara görə guya o, şəhər-şəhər dolaşaraq camaatı Osmana qarşı üsyana təhrik etmişdir, özü qaradərili yəhudi idi, Osmanın xilafəti dövründə müsəlman olmuş, Əmirəl-möminin Əlinin (ə) Peyğəmbərin (s) canişini (vəsisi), hamıdan üstün, xilafətə ən layiqli şəxs və həmçinin Dəbbətul-ərz olması, rəc`ətin baş verəcəyi və s. ona nisbət verilən əqidələr barədə fikirlər səsləndirmişdir. Bütün bunlarla bağlı rəvayətlər yalnız bir kəsdən – yalançı və saxtakar Seyf ibn Ömər ət-Təmimidən nəql edilmişdir. Təbəri və digər tarixçilər də öz kitablarında bu barədə xəbərləri məhz ondan rəvayət etmişlər.

Əhli-sünnə kitablarındakı mötəbər xəbər və rəvayətlər isə yalnız və yalnız Abdullah ibn Səbanın yalançı olduğunu isbatlayır.

Şiə kitabları, xüsusilə də əl-Kəşşinin "Ricalul-Kəşşi" kimi tanınan "İxtiyaru mə`rifətir-rical" kitabı da onun yalançı olduğuna, Əmirəl-möminin Əli (ə) haqda ilahlıq iddiası etdiyinə dair söylədiklərimizi təsdiqləyir. İmam Əli (ə) ondan tövbə etməsini istəmiş, tövbə etməkdən boyun qaçırdıqda isə onunla həmfikir olan bir dəstə insanla birlikdə odda yandırmışdır. Kitablarımızdakı rəvayətlər bundan nə artıq və nə də əskik söz demir.

Abdullah ibn Səbanın səhabələrin düşüncələrinə təsir etməyi bacaran, camaatı Osmana qarşı üsyana təhrik edən, Əmirəl-möminin Əli (ə) haqda həddi aşan sözlər söyləyərək bunları müsəlmanların arasında yayan, qısa müddət ərzində İslam dövlətini lərzəyə gətirib xilafəti devirən əfsanəvi bir şəxsiyyət olması haqda deyilənlərə gəldikdə, bunların hamısı Seyf ibn Ömərin uydurmalarıdır ki, "Fitnə və

Cəməl müharibəsi” kitabında qeyd edilib və bu barədə ondan savayı heç kimdən rəvayət nəql olunmayıb.

* * *

**Müəllif yazır: “2. Maməqani deyir: “Abdullah ibn Səba mürtəd olaraq küfrə qayıtmış və həddi aşan sözlər söyləmişdi”. Deyir: “Həddi aşan fikirlər söyləyən lənətlənmiş kəsdir. Əmirəl-möminin onu odda yandırmışdır. O, Əlinin ilah, özünün isə peyğəmbər olduğunu iddia edirdi” (“Tənqihul-məqal fi ilmir-rical”, 2/183,184)”.**

**İrad:** Maməqaninin (q.s) öz kitabında qeyd etdiyi kimi (2/182), bu iki cümlə ona məxsus deyildir. Belə ki, o, birinci cümləni Şeyx Tusiyə (q.s.), ikincini isə “əl-Xülasə” kitabından Əllamə Hilliyə (r.ə) nisbət vermişdir. Bunu ona görə qeyd edirik ki, müəllifin düzgün anladığına etimad bəsləməyin doğru olmadığından və nəql etdiyi sözlərdə etibarsızlığından möhtərəm oxucu xəbərdar olsun.

Şeyx Tusi ilə Əllamə Hillinin sözləri isə müəllifin də yuxarıda əl-Kəşşidən nəql etdiyi rəvayətlərin ifadə etdikləri mənalara dair fikirləridir.

* * *

**Müəllif yazır: “3. Novbəxti deyir: “Səbaçılar Əlinin imam olduğunu, bunun Allah tərəfindən vacib buyurulduğunu söyləyirdilər. Bu şəxslər Abdullah ibn Səbanın yoldaşları idilər. Onlar Əbu Bəkrə, Ömərə, Osmana və səhabələrə qarşı aşkar şəkildə ittiham və tənqidlər səsləndirir və onlardan uzaq olduqlarını bildirir, bunları söyləməyi Əlinin (r.a) əmr etdiyini deyirdilər. Əli onu yaxalayıb bu sözləri barədə sorğu-sual etdikdə isə o, sözlərini bir daha təsdiqlədi. Bu zaman Əli onun öldürülməsini əmr etdi. Lakin camaat qışqıraraq: “Ya Əmirəl-möminin, camaatı siz Əhli-Beyti sevməyə, vilayətini qəbul etməyə və düşmənlərindən uzaqlaşmağa dəvət edən bir şəxsimi öldürəcəksən?” – dedilər. Nəticədə Əli onu Mədainə sürgün etdi.**

**Elm əhlindən (Əmirəl-mömininin (ə.s) əshabından)[12] olan bir dəstə şəxs Abdullah ibn Səbanın yəhudi olduğunu, sonradan İslamı qəbul etdiyini və Əmirəl-möminin Əlinin vilayətini tanıdığını hekayə edir. O, yəhudi olarkən də Musa peyğəmbərdən (ə) sonra Yuşa ibn Nunun onun canişini (vəlisi) olduğunu deyirdi. Müsəlman olduqdan sonra isə Əli ibn Əbu Talib haqda da eyni fikirləri söylədi. O, Əlinin (r.a) imamətinin iqrarı və onun düşmənlərindən uzaqlaşmağın vacibliyi barədə açıq-aşkar fikirlər səsləndirən ilk şəxsdir... Buna əsasən, şiəyə müxalif şəxslər rafiziliyin[13] öz əsasını yəhudilikdən götürdüyünü söyləyirlər" ("Firəquş-şiə", səh.32-44)".**

**İrad:** Novbəxti (r.ə) "Firəquş-şiə" kitabındakı mətnləri naməlum mənbələrdən götürmüş və nəql etdiyi sözlərin heç birinin sənədini və istinad mənbəyini qeyd etməmişdir. Aydındır ki, o, bu sözlərini birbaşa Seyf ibn Ömər ət-Təmiminin kitabından, yaxud Seyfdən və ya onun kitabından rəvayət edən şəxslərdən nəql edib. Çünki, əvvəldə də qeyd etdiyimiz kimi, bu məzmunda fikirləri ondan başqası rəvayət etməyib.

"Elm əhli" ünvanı ilə hekayə edilən fikirlərə gəldikdə isə həmin "elm əhli"nin kimlərdən ibarət olduğu bilinmədiyi üçün ona etimad bəsləmək olmaz. Novbəxtinin onları "Əmirəl-mömininin (ə) əshabı" deyə vəsf etməsinə baxmayaraq müəllif əmanətə xəyanət edərək bu sözləri mətndən pozmuş və oxucuda bu sözlərin qədim şiə alimlərinə mənsub olduğu təəssüratını yaratmağa çalışmışdır.

Buna əsasən, nəyisə isbatlamaq üçün müəllifin Novbəxtidən nəql etdiyi sözləri dəlil kimi qəbul etmək olmaz. Çünki Novbəxti onları məlum bir mənbədən nəql etməmişdir, şiə və əhli-sünnə qaynaqlarında oradakı məzmuna dəlalət edən bir səhih hədis də yoxdur.

---

[12] Mötərizədəki sözlər mətinin nəql edildiyi mənbədə - "Firəquş-şiə" kitabında (səh.22) qeyd edilib.

[13] Şiələrə müxalifləri tərəfindən qoyulan addır, Əbu Bəkr, ömər və Osmanın xəlifəliklərini inkar etdikləri üçün belə adlandırılıblar.

* * *

**Müəllif yazır: "4. Səd ibn Abdullah əl-Əş`əri əl-Qummi səbaçılıq barədə sözlərini belə qeyd edir: "Səbaçılar Abdullah ibn Səbanın yoldaşlarıdır. O, Abdullah ibn Vəhəb ər-Rasibi əl-Həmədanidir. Bu məsələdə onu Abdullah ibn Xərəsi, İbn Əsvəd dəstəkləmişdir. Onların ikisi də onun ən yaxın və ən üstün yoldaşlarıdır. O (Abdullah ibn Səba – Tərc.), Əbu Bəkr, Ömər, Osman və səhabəni açıq-aşkar tənqid və ittiham edən, onlardan uzaq olduğunu söyləyən ilk şəxsdir ("əl-Məqalatu vəl-firəq", səh.20)".**

**İrad:** Səd ibn Abdullah əl-Əş`ərinin kitabının vəziyyəti eynilə Novbəxtinin "Firəquş-şiə" kitabı kimidir. Belə ki, onların hər ikisi (q.s) öz kitablarının mətnlərini naməlum mənbələrdən nəql etmiş və heç bir səhih mənbə qeyd etməmişlər.

Bundan əlavə, əl-Əş`ərinin "əl-Məqalatu vəl-firəq" kitabında Abdullah ibn Səba haqqındakı sözləri öz-özlüyündə batil və puçdur. Belə ki, Abdullah ibn Vəhəb ər-Rasibi əl-Həmədani Xəvariclərin Nəhrivanda qətlə yetirilmiş başçısıdır. Ancaq Abdullah ibn Səba isə Əmirəl-möminin Əli (ə) haqqında həddi aşan sözlər söyləmiş və səhih rəyə əsasən, Əmirəl-möminin də (ə) onu Kufədə odda yandırmış, bəzi rəvayətlərə görə də, Mədainə sürgün etdiyi şəxsdir. Bunlar iki fərqli insandır. Onların xüsusiyyətləri də bir-birlərindən fərqlənir. "Biz "Abdullah ibn Səba" adlı kitabımızda Abdullah ibn Vəhəbin Abdullah ibn Səba olmadığını ayrıca bir fəsildə qeyd etmişik. Daha dolğun məlumat əldə etmək istəyənlər həmin kitaba müraciət edə bilərlər.

* * *

**Müəllif yazır: "5. Səduq deyir: "İmam Əli (r.a) buyurub: "Namazınızı qurtardıqda əllərinizi səmaya qaldırın və dua edin". İbn Səba dedi: "Ey Əmirəl-möminin, məgər Uca Allah hər yerdə deyil?" O, "Bəli" deyə cavab verdi. İbn Səba sözünə davam edərək soruşdu: "Bəs nə üçün əllərimizi səmaya doğru qaldıraq?" Buyurdu: "Məgər Quranda "Göydə də ruziniz və vəd olunduğunuz şey vardır!" ("əz-Zariyat" surəsi, ayə 22) buyurulduğunu oxumamışsan? Ruzi öz mənbəyindən savayı haradan istənilər?! Ruzinin və Allahın vəd etdiklərinin mənbəyi səmadır ("Mən la yəhzuruhul-fəqih", 1/229)".**

**İrad:** Bu rəvayətin sənədi ravisi Hüseyn ibn Raşid səbəbilə zəifdir. Onun inanılan şəxs olması tərcümeyi-hal (rical) kitablarında isbatlanmayıb. əl-Bərqi onun barəsində yazır: "O, Abbas oğullarının dostudur, Mehdi, Musa, Harun və Bağdadinin vəziri olmuşdur". İbn Ğəzairi deyir: "Rəvayətlərində zəif şəxsdir".[14]

Həmçinin ehtimal olunur ki, rəvayətdəki Abdullah ibn Səbadan məqsəd Abdullah ibn Vəhəb ər-Rasibidir. Belə ki, o da Səba qəbiləsindəndir və İbn Səba deyə çağırılırdı.

Əgər rəvayətdəki şəxsin Abdullah ibn Səba olduğunu fərz etsək belə, rəvayət yalnız onun Əmirəl-möminin Əli (ə) ilə eyni dövrdə yaşadığını isbatlayacaq. Lakin biz də Abdullah ibn Səba adlı bir şəxsin Əmirəl-mömininlə (ə) eyni dövrdə yaşadığını inkar etmirik. Bunu əvvəldə də vurğulamışıq.

* * *

**Müəllif yazır: "6. İbn Əbul-Hədid yazır ki, Əli xütbə söyləyərkən Abdullah ibn Səba ayağa qalxıb ona "Sənsən, sənsən!" dedi və bunu dəfələrlə təkrarladı. Əli ona dedi: "Vay olsun sənə, mən kiməm?" O dedi: "Sən Allahsan!" (Əli) onun və onunla eyni fikirdə olanların yaxalanmasını əmr etdi" ("Nəhcul-Bəlağənin şərhi", 5/5).**

**7. Seyid Nemətullah əl-Cəzairi deyir: "Abdullah ibn Səba Əliyə (ə) dedi: "Sən həqiqətən, o ilahsan!" Əli (ə) onu Mədainə sürgün etdi. Onun yəhudi olduğu, sonradan İslamı qəbul etdiyi deyilib. O, yəhudi olarkən Musa (ə) və Yuşa ibn Nun haqqında da Əli barədə söylədiklərini deyirdi" ("Ənvarun-Numaniyyə", 2/234)".**

**İrad:** İbn Əbul-Hədiddən nəql etdikləri əl-Kəşşinin öz "Rical"ında qeyd etdiyi bəzi rəvayətlərə uyğundur, Abdullah ibn Səbanın Əmirəl-möminin Əli (ə) barədə həddi aşan sözlər söylədiyinə, onun ilah olduğunu iddia etdiyinə və sonda İmamın (ə) onu odda yandırdığına dəlalət edir.

Ancaq Seyid Nemətullah əl-Cəzairidən nəql etdiyi sözlər: onun yəhudi olması, sonradan İslamı qəbul etməsi, hələ yəhudi olarkən Musa (ə) və Yuşa ibn Nun

[14] Bax: "Mö`cəmu ricalil-hədis", 4/223.

haqqında söylədiklərini müsəlman olduqdan sonra Əli (ə) barədə söyləməsi və s. onun barəsində uydurulmuş əfsanələrdir. Əvvəldə də qeyd etdiyimiz kimi, bunların heç biri səhih bir dəlillə təsdiqlənməyib, saxtakar Seyf ibn Ömərin uydurmalarıdır. Seyid Nemətullah əl-Cəzairi (q.s) burada öz rəyini söyləmir, əksinə zəifliyinə işarə edərək mövzu ilə əlaqədar fərqli fikirləri nəql edir.

* * *

**Müəllif yazır: "Bunlar yalnız mötəbər və fərqli yeddi mətndir ki, bəzisi "Rical"dan, bəzisi "Mən la yəhzuruhul fəqih"dən və bəzisi də "Firəquş-şiə" kitablarındandır. Abdullah ibn Səbanın bir şəxs olaraq mövcudluğunu isbatlayan bir çox dəlilləri isə mövzunu uzatmamaq üçün nəql etmirik.**

**Bunlardan sonra Abdullah ibn Səbanın varlığını inkar etməmiz mümkün deyildir. Xüsusilə də Əmirəl-mömininin (r.a) onu ilah hesab etdiyinə görə İbn Səbanı cəzalandırması onun şəxsən Abdullah ibn Səba ilə görüşdüyünə dəlalət edir. İsbat üçün Əmirəl-möminin (r.a) dəlil olaraq kifayətdir. Bundan sonra onun inkar etmək də mümkünsüzdür".**

**İrad:** Müəlliflərinin böyük ehtiramına rəğmən, [15] "Ənvarun-Numaniyyə", "Firəquş-şiə" və "əl-Məqalatu vəl-firəq" kitabları heç də şiələrin mötəbər mənbələrindən sayılmırlar. Çünki bunlar müəlliflərinin fərdi fikirlərindən ibarət olan kitablardır və orada olanların hamısı səhih deyildir. Əksinə, orada batilliyi məlum olan bəzi mətləblər mövcuddur.

İbn Əbul-Hədidin "Nəhcul-Bəlağənin şərhi" kitabına gəldikdə, bu kitab mötəbər şiə mənbəyi olması bir kənara dursun, ümumiyyətlə şiə kitabı deyildir. Çünki İbn

---

[15] Şiələrin nəzərində mötəbər sayılan mənbələr onların etimad etdikləri hədis kitablarıdır. Məsələn şiələrin əqidə və hökmlərdə məşhur rəylərini formalaşdıran dörd hədis kitabı, Şeyx Səduqun bəzi kitabları, həmçinin Seyid Mürtəzanın, Şeyx Müfidin və digərlərinin bəzi kitabları. Bunlardan savayı kitablar öz müəlliflərinin rəylərindən ibarətdir. Gizli deyil ki, Qurani-Kərimdən savayı bütün kitablarda şiələrin qəbul və inkar etdikləri məsələlər vardır. Onlarda Qurandan savayı bütünlüklə səhih sayılan heç bir kitab yoxdur.

Əbul-Hədid xalis Mötəzili olub, yalnız bəzi əhli-sünnə mənsubları şiələrin onun fikirlərini nəql etdiklərini və sözlərini dəlil gətirdiklərini görüb şiə olduğu təəssüratını yaratmağa çalışmışlar.

Ancaq əl-Kəşşinin "Rical" və Şeyx Səduqun "Mən la yəhzuruhul-fəqih" kitabları mötəbər şiə mənbələri sayılsalar da, şiə alimləri orada yazılmış bütün hədislərin səhih olduğu qənaətində deyillər, onların bəzisinin zəif və ya batil hökmündə olduğunu bildirirlər.

Buradan görünür ki, müəllif şiə mənbələri ilə digərləri və mötəbərlə qeyri-mötəbər mənbələr arasında seçim etmək qüdrətinə sahib deyil. Bu isə onun fəqihlik və ictihad iddiasının puçluğuna dəlil olaraq yetərlidir.

* * *

**Müəllif yazır: "Yuxarıda qeyd edilən dəlillərdən bunları əldə edirik:**

**1. Abdullah ibn Səba adlı şəxsin, onun tərəfdarlarından ibarət olan və onun çağırışlarına dəvət edən firqənin mövcud olması. Bu firqə səbaçılar adı ilə tanınırdı".**

**İrad:** Bəli, Abdullah ibn Səba adlı şəxs mövcud olub, ancaq bəzi yerlərdə qeyd olunsa belə, onun tərəfdarları kimi tanınan "səbaçılar" adlı firqənin mövcudluğu iddiası doğru deyildir. Çünki bunun bəzi kitablarda qeyd olunması məsələnin araşdırılmadan nəql olunması nəticəsində baş vermişdir.

Dediklərimizin dəlili isə bu firqənin heç bir tanınmış ardıcılına, məşhur aliminə və ya yazılmış bir kitabına rast gəlinməməsidir. Bütün bunlar mövcud olmuş hər hansı bir firqənin və ya dəstənin qiymətləndirilməsi üçün əsas dəlillərdir.

* * *

**Müəllif yazır: "2. İbn Səba yəhudi idi və zahirən İslamı qəbul etmişdi. Ancaq zahirən müsəlman olsa da, həqiqətdə özünün yəhudi dinində qalmışdı və öz zəhərini bu yolla yaymağa başlamışdı".**

**İrad:** Bu iddia heç bir səhih dəlillə isbatlanmayıb. Yalnız saxtakar Seyf ibn Ömər ət-Təmimi tərəfindən rəvayət olunub ki, alimlər də onun zəif ravi olduğunu bildiriblər. Başqa ravilər tərəfindən bu sözlər nəql edilməyib. Təbərinin öz "Tarix"

kitabında Abdullah ibn Səba ilə bağlı qeyd etdikləri də Seyf ibn Ömərdən rəvayət olunub. Bu baxımdan heç bir dəyərə malik deyil.

Müəllif isə bunu əvvəlki sözlərinin nəticəsi kimi təqdim edir. Halbuki onun yəhudi olmasına dəlalət edən bir dəlil belə təqdim etmir.

* * *

**Müəllif yazır: "3. Abdullah ibn Səba Əbu Bəkri, Öməri, Osmanı və səhabələri aşkar surətdə danlayan və ittiham edən ilk şəxsdir. İlk dəfə məhz o, Əmirəl-mömininin (r.a) imam, Muhəmməd peyğəmbərin (s) canişini (vəsisi) olduğunu söyləmişdir. O, bu sözləri yəhudilikdən gətirmiş və bunları yalnız Əhli-Beytə olan məhəbbətinə, onların vilayətinə dəvətə və düşmənlərindən uzaqlaşmağa görə iddia etmişdir. Onun iddiasına görə, həmin düşmənlər səhabələr və onların dostlarıdır".**

**İrad:** Müəllifin bütün bu sözlərinin məzmunu saxtakar Seyf ibn Ömər ət-Təmiminin rəvayətlərindəki sözlərdir. Bu barədə şiə hədisləri bir kənara dursun, heç bir səhih sünni hədisi belə yoxdur. Belə olduqda, bu sözləri necə qəbul etmək və onlara necə etimad bəsləmək mümkündür?!

Bundan əlavə, müəllifin nəql etdiyi rəvayətlərdən qeyd etdiyi nəticələrə gəlmək mümkün deyildir. Bu, möhtərəm oxucuya da aydındır.

Abdullah ibn Səbanın Əmirəl-möminin Əlinin (ə) imamlığını ilk dilə gətirən şəxs olması barədə müəllifin iddiasına gəldikdə, bunun yanlışlığı gün kimi aydındır. Çünki onun imamlığı barədə ilk dəfə fikirlər səsləndirən məhz Allahın elçisi Muhəmmədin (s) özüdür. Buna ondan nəql olunan bir çox səhih hədislər dəlalət edir. Onlardan:

- *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".*[16]

---

[16] "Sünən", Tirmizi, 5/633. Tirmizi deyir: "Bu, həsən səhih hədisdir". "Səhih", İbn Hibban, 15/376; "Sünən", İbn Macə, 1/45; "Səhihu sunəni İbn Macə", 1/26; "Müsnəd", Əhməd, 1/84, 118, 119, 152, 330, 4/281, 368, 370, 372, 5/347, 419, 366; "əl-Müstədrək", Hakim, 3/109, 110, 112, 134, 371, 533. Müəllif bu hədisin səhih olduğunu bildirmişdir. "əl-Əhadisul-muxtarə", 2/106, 174, 3/151, 274; "Məvariduz-

*- Mənə nisbətdə Harunun Musaya olan nisbətində olmağına razı deyilsənmi? Yalnız məndən sonra peyğəmbər yoxdur. Mən getdikdə sən mənim xəlifəmsən”.*[17]

---

zəm`an”, 2/987; “Təfsiru Quranil-əzim”, 2/14; “Məcməuz-zəvaid”, 7/17, 9/103-108, 120, 164; “əs-Sünənul-kubra” Nisai, 5/45, 108, 131, 132, 134, 135; “əl-Musənnəf”, İbn Əbu Şeybə, 6/368, 369, 371, 375, 377; “əl-Mö`cəmus-sağir”, Təbərani, 1/65, 81; “Müsnəd”, Əbu Yə`la, 1/257, 5/460; “əlMö`cəmul-övsat”, 1/111, 312, 533, 4/357; “əl-Mö`cəmul-kəbir”, 3/199, 201, 4/17, 173, 5/166, 170, 171, 175, 192, 194, 195, 203, 204, 212, 12/99, 19/291; “Kitabus-sunnə”, 2/590-593; “Fəzailus-səhabə”, Əhməd ibn Hənbəl, 2/563, 569, 572, 586, 682; “Xəsaisu Əli ibn Əbi Talib kərrəmallahu vəchəh”, səh.96-108. BU hədisi mütəvatir hesab edənlər: Siyuti “Qətful-əzharil-mutənasirəti fil-əhadisil-mütəvatirəh” kitabında (səh.277); əl-Kəttani “Nəzmul-mutənasir”də (səh.205); “Zübeydi “Ləqtul-alail-mutənasirə” kitabında (səh.205); Hafiz Şəmsəddin əl-Cizri “Əsnəl-mətalib”də (səh.5); Muhəmməd Nasirəddin Albani “Silsilətul-əhadisis-səhihə” kitabında (4/343). Bir çox əhli-sünnə alimi isə bu hədisin səhih olduğunu bildirmişlər.

[17] “Müsnəd”, Əhməd ibn Hənbəl, 1/330-331; “əl-Müstədrək”, 3/133. Hakim deyir: “Bu, sənədi səhih hədisdir. Lakin (Buxar və Müslim) öz kitablarında onu bu məzmunda qeyd etməyiblər”. Zəhəbi də kitabında Hakimin sözləril razılaşmışdır. “Məcməuz-zəvaid”, 9/119. Heysəmi deyir: “Bu hədisi Əhməd, eləcə də Təbərani “əl-Mö`cəmul-kəbir”də və “əl-Möcəmul-övsat”da ixtisarla qeyd edib. Əhmədin rəvayətindəki ravilər “Səhih”in raviləridir. Yalnız Əbu Bəlc əl-Fəzzaridən savayı. O inanılan (siqə) şəxsdir, onda yüngül iradlar vardır. “əl-Mö`cəmul-kəbir”, Təbərani, 12/99; “Fəzailus-səhabə”, Əhməd ibn Hənbəl, 2/684; “Kitabus-sunnə”, 2/551. Albani ona olan qeydində deyir: “Sənədi həsəndir, raviləri inanılan (siqə) şəxslərdir və şeyxeynin (Buxari və Müslimin) raviləridir. Yalnız Əbu Bəlcdən savayı. Onun adı Yəhya ibn Səlim ibn Bəlcdir. Hafiz deyir: “Doğru danışandır, az halda xəta edib. 589-cu səhifədə isə deyir: *“Sadəcə sən peyğəmbər deyilsən. Məndən sonra sən möminlər üzərində mənim xəlifəmsən”.* Busiri, “İthaful-xiyərətil-məhərəh”, 9/259, hədis 8944, “Muxtəsəru ithafis-sadətil-məhərəh”, 9/180, hədis 7443. Əbu Yə`ladan

- *“Mən Adəm övladlarının, Əli isə ərəblərin seyididir (ağasıdır)”.*[18]

- *“Həqiqətən də Əli məndən və mən də ondanam. O, məndən sonra hər bir mömininin vəlisidir”.*[19]

- *“Əli barəsində mənə üç şey vəhy olunmuşdur: o, müsəlmanların seyidi (ağası), təqvalıların imamı və alnı ağların rəhbəridir”.*[20]

---

nəql olunur: “Peyğəmbər (s) buyurdu: *“Mən getdikdə məndən sonra sən xəlifəmsən”.* “Kitabus-sunnə”, 2/551. Albani hədisə olan qeydində deyir: “Sənədi həsəndir, raviləri inanılan (siqə) şəxslərdir və şeyxeynin (Buxari və Müslimin) raviləridir. Yalnız Əbu Bəlcdən savayı. Onun adı Yəhya ibn Səlim ibn Bəlcdir. Hafiz deyir: “Doğru danışandır, az halda xəta edib”.

[18] “əl-Müstədrək”, 3/124. Hakim deyir: “Sənədi səhih hədisdir”. “əl-Mö`cəmul-övsat”, Təbərani, 1/104, “əl-Mö`cəmul-kəbir”, 3/90, “Hilyətul-övliya”, 1/63, 5/38, “Tarixu Bağdadi”, 11/89; İbn Əsakirin “Tarix”ində İmam Əmirəl-mömininin (ə) tərcümeyi-halı, 2/261; “Durrus-səhabə”, 214; “Məcməuz-zəvaid”, 9/116, 131, “Kəşful-xəfa”, 1/462.

[19] “Sünən”, Tirmizi, 5/632. Tirmizi deyir: “Bu, qəribə həsən hədsidir”. “Müsnəd”, Əhməd, 4/438, 356; “əl-Müstədrək”, 3/111, Hakim deyir: “Müslimin şərtinə əsasən, səhihdir”. Zəhəbi isə hədisin barəsində susmuşdur. “Məvariduz-zəm`an”, 2/986; “əs-Sünənul-kubra”, Nisai, 5/45, 133; “əl-Musənnəf”, İbn Əbu Şeybə, 6/375; “Kitabus-sunnə”, 2/550. Albani hədis barədəki qeydində yazır: “Sənədi səhihdir, raviləri Müslimin şərtinə əsasən, inanılan (siqə) şəxslərdir. “Səhih”, İbn Hibban, 15/374; “Müsnəd”, Təyalisi, səh.111, 360; “Fəzailus-səhabə”, Əhməd ibn Hənbəl, 1/331, 2/605, 4/438; “Xəsaisu Əmiril-mu`mininə Əliyyibni Əbi Talib (r.a)”, Nisai, səh.109; “Hilyətul-övliya, 6/294; “Müsnəd”, Əbu Yə`la, 1/185; “əl-Mö`cəmul-kəbir”, Təbərani, 12/99, 18/129.

[20] “əl-Müstədrək”, 3/137. Hakim deyir: “Bu, sənədi səhih hədisdir, Buxari və Müslim kitablarında qeyd etməyiblər”. İbn Əsakirin “Tarix” kitabında İmam Əmirul-mumininin tərcümeyi-halı, 2/256-258; “Hilyətul-övliya”, 1/63; “Durrus-səhabə”, səh.229.

- *Bu (Əli), dindarların əmiri, günahkarların qatilidir. Ona kömək edənə yardım olunar, tək qoyan isə təkbaşına qalar".* Bunu söyləyərkən səsini qaldırdı.[21]

Əmirəl-mömininin (ə) imamətinə açıq-aydın dəlalət edən bir çox digər hədislər... Bunlardan əlavə, mətləbə bütünlüklə dəlalət edən digər hədislər də mövcuddur. Məsələn Peyğəmbərin (s) bu sözü kimi: *"Mənə Harunun Musaya olan nisbətində olmağına razı deyilsənmi? Sadəcə məndən sonra peyğəmbər yoxdur".*[22]

---

[21] "əl-Müstədrək", 3/129. Hakim deyir: "Bu, sənədi səhih hədisdir, Buxari və Müslim qeyd etməyiblər. "Tarixu Bağdadi", 3/377, 4/219.

[22] "Səhih", Buxari, 3/1142, 1331; "Səhih", Müslim, 4/1870, 1871; "Səhih", İbn Hibban, 15/15, 369, 371; "Sünən", Tirmizi, 5/638, 640; "Sünən", İbn Macə, 1/42, 45; "Müsnəd", Əhməd, 1/170, 173-175, 177, 179, 182, 184, 185, 3/32, 338, 6/369, 438; "əl-Müstədrək", 2/337, 3/109; "əl-Əhadisul-muxtarə", 3/151, 207; "Məvariduz-zəm`an", 2/985, "əl-Müsənnəf", İbn Əbu Şeybə, 6/369, 7/425; "əl-Müsənnəf", Əbdürrəzzaq, 5/279; "Müsnəd", əl-Hümeydi, 1/38; "Müsnəd", Təyalisi, səh.28, 29; "Məcməuz-zəvaid", 9/109-111. "ət-Təbəqatul-kubra", 3/23-24; "əs-Sünənul-kubra", Beyhəqi, 9/40; "əs-Sünənul-kubra", Nisai, 5/44, 107, 108, 113, 119-125, 144, 240; "əl-Mö`cəmus-sağir", Təbərani, 2/22, 54; "əl-Mö`cəmul-övsat", 1/400, 2/120, 3/179, 4/97, 239, 245, 5/356, 6/33; "əl-Mö`cəmul-kəbir", 1/146, 148, 2/247, 4/17, 184, 5/203, 221, 11/74, 75, 12/18, 98, 19/291, 24/146, 147; "Müsnəd", Əbu Yə`la, 1/180, 298, 301, 302, 313, 321, 6/72; "Fəzailus-səhabə", Əhməd ibn Hənbəl, 2/566-569, 592, 598, 610, 611, 633, 638, 642, 643, 663, 666, 670, 675, 684; "Kitabus-sünnə", İbn Əbu Asim, 2/551, 586-589; "Hilyətul-övliya", 4/345, 7/194-197, 8/307; "Tarixu Bağdad", 1/325, 3/289, 406, 4/70, 204, 382, 7/452, 8/52, 268, 9/364, 10/43, 11/384, 431, 12/323; "Xəsaisu Əmiril-mu`minin Əliyyibni Əbi Talib (r.a)", Nisai, səh.37, 38, 49, 67-79, 140. Bu hədisi mütəvatir hesab edənlər: Siyuti, "Qətful-əzharil-mutənasirəti fil-əhadisil-mütəvatirə", səh.281; əl-Kəttani, "Nəzmul-mütənasir", səh.206; Zübeydi, "Ləqtul-alail-mütənasirə", səh.31. "Haşiyətul-mütəvatir"də Şeyx Cəsusdan nəql olunub.

Həmçinin Peyğəmbər (s) buyurur: *"Mən elmin şəhəri, Əli isə onun qapısıdır. Elm istəyən şəxs ona qapıdan gəlsin".*[23]

Buyurur: *"Əli məndən, mən də Əlidənəm. Mənim əvəzimə bir işi yalnız özüm və ya Əli yerinə yetirə bilər".*[24]

Eləcə də buyurur: *"Mənə itaət kəs Allaha itaət etmiş, asi olan da Allaha qarşı asi olmuşdur. Əliyə itaət edən mənə itaət etmiş, asi olan da mənə qarşı üsyan etmişdir".*[25]

Buna görə də Əmirəl-möminin (ə) özünü xilafətə əvvəlki xəlifələrdən daha çox haqq sahibi olaraq görürdü. Bu səbəbdən Əbu Bəkrə ümumiyyətlə və ya Buxari və

---

[23] "Sünən", Tirmizi, 5/637; "əl-Müstədrək", 3/126. Hakim deyir: "Bu, sənədi səhih hədisdir, (Buxari və Müslim) qeyd etməyiblər". "Məcməuz-zəvaid", 9/114; "əl-Mö`cəmul-kəbir, Təbərani, 11/65; "Hilyətul-övliya", 1/64; "Tarixu Bağdad", 7/172, 11/48-50, 203; "Fəzailus-səhabə", 2/634; "əl-Camius-sağir", Siyuti, 1/415. Siyuti "Tarixul-xüləfa"da yazır (səh.159): "Doğrusu bu, Hakimin də bildirdiyi kimi, səhih deyil, həsən hədisdir. Ancaq aralarında İbn Cövzinin, Nəvəvinin də olduğu bir dəstə alimin dedikləri kimi heç də uydurma deyildir. Bu hədisin vəziyyətini "t-Tə`qibatu ələl-movzuat" kitabında açıqlamışam. İbn Həcər əl-Heytəmi "əl-Fətaval-hədisiyyə" kitabında (səh.269) deyir: *"Mən elmin şəhəri, Əli isə onun qapısıdır"* hədisi həsən hədisdir. Hakim isə onun barəsində "Səhihdir" deyir".

[24] "Sünən", Tirmizi, 5/636. Tirmizi deyir: "Bu, qəribə həsən hədisdir". "Sünən", İbn Macə, 1/44; "Səhihu sünəni İbn Macə", 1/26. Buradakı rəvayəti Albani həsən saymışdır. "Müsnəd", Əhməd, 4/164, 165; "əs-Sünənul-kubra", Nisai, 5/45, 128; "Müsənnəf", İbn Əbu Şeybə, 6/368; "əl-Mö`cəmul-kubra", Təbərani, 4/16, 11/400; "Kitabus-sünnə", İbn Əbu Asim, 2/584; "Xəsaisu Əmiril-mu`minin (r.a)", Nisai, səh.91; "Fəzailus-səhabə", Əhməd ibn Hənbəl, 2/594, 599; "Mişkatul-məsabih", 3/1720.

[25] "əl-Müstədrək", 3/121. Hakim yazır: "Bu, sənədi səhih hədisdir. (Buxari və Müslim kitablarında) qeyd etməyiblər". Zəhəbi də onunla həmfikir olub.

Müslimin rəvayətlərinə əsasən,[26] 6 ay müddətində beyət etmədi. Yoxsa bu müddət ərzində Əbu Bəkrə beyətdən boyun qaçırmasının heç bir anlamı olmazdı.

Müəllifin "Abdullah ibn Səba Əli ibn Əbu Talibin (ə) Peyğəmbərin (s) canişini olduğunu söyləyən ilk şəxsdir" deməsi olduqca təəccüblüdür. Halbuki səhabələr arasında bunu bir çoxları söyləmişlər.

Onlardan biri Fəzl ibn Abbasdır ki, öz şeirində deyir:

*Agah olun ki, Allahın nəzərində insanların ən yaxşısı*
*Mustafa peyğəmbərdən sonra onun canişinidir (vəsisidir).*
*Namaz qılan ilk şəxs, Peyğəmbərin qardaşı,*
*Və Bədrdə azğınları qovan ilk şəxsdir.*

Əbdürrəhman ibn Cüeyl isə deyir:

---

[26] Buxari "Səhih"də qeyd edib, 3/1286; həmçinin Müslim də, 3/1380. Onlardan başqa bu hədisi nəql edənlər bu kəlmələrlə qeyd ediblər: Aişədən nəql edilən uzun hədisdə deyilir: *"Peyğəmbərin (s) qızı Fatimə Əbu Bəkrin yanına adam göndərib atası Peyğəmbərdən qalan və Allahın ona müharibəsiz bəxş etdiyi mallardan qalan mirasını, Fədəyi və Xeybərin xümsünü tələb etdi. Əbu Bəkr dedi: "Peyğəmbər (s) buyurmuşdur: "Biz miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir. Muhəmmədin ailəsi bu mallardan yalnız yedikləri qədər istifadə edə bilərlər". Allaha and olsun ki, mən bu sədəqələrin Peyğəmbərin dövründə olan istifadə qaydasından heç bir şeyi dəyişmirəm və onun (s) kimi rəftar edəcəyəm". Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Buna görə Fatimənin Əbu Bəkrə acığı tutdu". Deyir: "Onunla əlaqəsini kəsdi və ölənədək danışmadı. Fatimə Peyğəmbərdən (s) sonra altı ay yaşadı. Vəfat etdikdə həyat yoldaşı Əli ibn Əbu Talib onu gecə ikən dəfn etdi, dəfni üçün Əbu Bəkrə xəbər vermədi. Cənazə namazını da Əli qıldı. Fatimə həyatda ikən Əlinin insanlar arasında hörməti vardı. Ancaq Fatimə vəfat etdikdən sonra camaatın ona münasibəti dəyişdi. Buna görə də o, Əbu Bəkrlə uzlaşmağa və beyət etməyə yol axtardı. Həmin müddətədək isə beyət etməmişdi. Əli Əbu Bəkrə "Bizə gəl, yanında heç kəs olmasın" deyə xəbər göndərdi. O, Ömər ibn Xəttabın görüşdə iştirak etməsini istəmirdi...".*

*Ömrümə and olsun, siz elə bir şəxslə beyət etmişsiniz ki,*

*O, dinin qoruyucusu, iffəti və uğurları ilə məşhurdur.*

*O, Peyğəmbərin (s) canişini (vəsisi) və əmisi oğludur,*

*İlk namaz qılan şəxs, din və təqva qardaşıdır.*

Abdullah ibn Əbu Süfyan ibn Hərs ibn Əbdülmüttəlib deyir:

*Çoxsaylı qoşunlar hücum çəkərkən*

*Xeybər qəhrəmanı, Bədrin qəhrəmanı Əli bizdəndir.*

*O, peyğəmbər Mustafanın canişini (vəsisi) və əmisi oğludur.*

*Kim onun kimi və ya kim ona tay ola bilər?*

Bədr savaşında iştirak etmiş Əbul-Heysəm ibn ət-Teyhan deyir:

*Zübeyrə və Təlhəyə de: "Biz,*

*Şüarları "Ənsar!" (yardımçılar) olan şəxslərik.*

*Biz Bədr günü o kafirlərə qarşı*

*Etdiklərimizi Qüreyşin gördüyü şəxslərik.*

*Biz Peyğəmbərimizin müdafiə köynəyi idik.*

*Onun libasına isə bizim ruhumuz və gözlərimiz fədai idi.*

*Həqiqətən də (bu gün) canişin (vəsi) bizim imamımız və vəlimizdir,*

*Gizlilər aşkar oldu, sirlər zahirə çıxdı.*

Hücr ibn Ədiyy əl-Kindi "Cəməl" müharibəsi günü belə dedi:

*İlahi, Əlini (ə) bizim üçün qoru!*

*O mübarək və işıq saçan, mömin,*

*Təkallahlı və təqvalı şəxsi bizim üçün salamat et!*

*O nə fikrini dəyişir, nə də yolundan azır.*

*Əksinə, hidayət edən, hidayət olunmuş və qalibdir.*

*Ey Rəbbim, onu qoru!*

*Peyğəmbəri də onun vücudunda hifz et!*

*Belə ki, o, Peyğəmbərin vəlisi, dostu idi.*

*Özündən sonra canişini (vəsisi) olmasına razı oldu!*

Bədr savaşında iştirak etmiş Zuş-şəhadəteyn (iki şəhadət sahibi) Xüzeymə ibn Sabit deyib:

*Ey Ayişə! Əlidən, onda olmayan eyibləri axtarmaqdan əl çək!*

*(O), Peyğəmbərin ailəsindən olan canişinidir (vəsisidir).*

*Sən özün də bu həqiqətin şahidisən.*

*Ondan öyrəndiklərinin bir hissəsi belə sənin üçün yetərlidir.*

*Sən bilməsən belə, səni dəfələrlə qorumuşdur.*

*Əgər deyilsə ki, onda nə eyib gördün?*

*Əffanın oğlunu tək qoymasını ona böhtan atacaqsan.*

İbn Əbul-Hədid əl-Mötəzili Əmirəl-möminin Əli (ə) barəsində canişin (vəsi) kəlməsinin zikr olunduğu bu və digər şeirləri qeyd etdikdən sonra deyir: "Bu şeir və beytləri bütünlüklə Əbu Mixnəf Lut ibn Yəhya "Cəməl müharibəsi" kitabında qeyd edib. Əbu Mixnəf hədisçidir və imamın seçki ilə təyin edilməsinin düzgün olduğuna inanırdı. O, şiə deyildi və onların adamlarından da sayılmırdı".[27]

İncəliklərdən birini də şeirində Bəni-Zəbbə gənclərindən biri söyləmişdir. O, Cəməl müharibəsi günü Aişənin ordusunun sıralarından önə çıxıb belə demişdi:

*Biz Bəni-Zəbbə Əlinin düşmənləriyik;*

*O Əli ki, ta qədimdən canişin (vəsi) olaraq tanınır.*

*O Əli ki, Peyğəmbər (s) zamanında pəhləvan sayılırdı.*

*Mən Əlinin fəzilətlərinə göz yuman və ya kor deyiləm.*

*Lakin mən Əffanın oğlunun (Osman) intiqamını almaq istəyirəm!*

*Belə ki, dost dostunun intiqamını tələb etməlidir!*

İbn Əbul-Hədid Əmirəl-möminin Əli (ə) barəsində canişin sözünü özündə əks etdirən bir çox şeiri qeyd etdikdən sonra deyir: "Canişin (vəsi) kəlməsini özündə əks etdirən şeirlər olduqca çoxdur. Lakin biz burada hər iki tərəfdən[28] deyilmiş şeirlərin yalnız bir hissəsini qeyd etdik. Ancaq bu iki dəstəyə aid şəxslərdən savayı bunu söyləyənlərin sayı da sayılmayacaq qədər çoxdur. Yormamaq üçün onları qeyd

---

[27] "Nəhcul-Bəlağənin şərhi", 1/48; "əl-Muhəqqiqə" mətbəəsinin çapı, 1/147.

[28] Məqsəd Əlinin (ə), digər tərəfdən də Təlhə, Zübeyr və Aişənin tərəfdarlarıdır.

etmirik. Əgər həmin şeirlərə kitabımızda yer versəydik, onlar kitabın əksər səhifələrini doldurardı”.[29]

* * *

**Müəllif yazır: “Demək Abdullah ibn Səbanın şəxsiyyət həqiqətdir, bundan bixəbərlik və ya bunu inkar etmək mümkün deyildir. Ona görə də onun varlığına dair mötəbər mənbələrimizdə və kitablarımızda hədis və rəvayətlər yer alıb”.**

**İrad:** Əvvəldə də qeyd etdiyimiz kimi, biz Abdullah ibn Səba adlı şəxsin həqiqətən mövcud olduğunu inkar etmirik. Lakin onun barəsində uydurulmuş sözlər, onun yəhudi olması, şəhərbəşəhər gəzərək müsəlmanları Osmana qarşı üsyana qaldırması, Əmirəl-möminin Əlinin (ə) canişinlik, hamıdan üstünlüyü və Dəbbətul-ərz olması, öldükdən sonra yenidən dünyaya qayıdacağı məsələsini ilk dəfə ortaya atması və Seyf ibn Ömər ət-Təmiminin rəvayətlərində qeyd etdiyi fikirlər Seyfdən savayı heç kəsdən rəvayət olunmayıb. Həmin rəvayətlərin heç biri səhih deyildir və onları təsdiqləmək də mümkünsüzdür.

Bütün bunları “Abdullah ibn Səba” adlı kitabımızda müfəssəl izah etmiş və isbatlamışıq. Diləyən şəxslər oraya müraciət edə bilərlər.

* * *

**Müəllif yazır: “Bu şəxsi daha artıq tanımaq üçün aşağıdakı mənbələrə nəzər sala bilərsiniz: “əl-Ğarat”, əs-Səqəfi; “Rical”, Tusi; “Qamusur-rical”, Tustəri, “Dairətul-məarif”, əl-Hairi; “əl-Kuna vəl-əlqab”, Abbas Qummi; “Həllul-işkal”, Əhməd ibn Tavus (vəfatı h.673); “Rical”, İbn Davud; “ət-Təhrir”, Tavusi (!); “Məcməur-rical”, Qəhbai; “Nəqdur-rical”, ət-Təfrişi; “Camiur-ruvah”, “əl-Müqəddəsi (!) Ərdəbili; “Mənaqibu Ali Əbu Talib”, İbn Şəhr Aşub; “Mir`atul-ənvar”, Muhəmməd ibn Tahir əl-Amuli. Bunlar son deyil, yalnız nümunə olaraq göstərilmişdir. Bizim iyirmidən artıq mənbəmizdə Abdullah ibn Səbanın həqiqətən mövcud olduğunu bildirən dəlillər vardır. Mürtəza Əskəri, Seyid (!) Muhəmməd Cavad Muğniyə və digər fəqihlərimizin**

[29] “Nəhcul-Bəlağənin şərhi”, 1/50; təhqiqlə olan çapı, 1/150.

**(!) bu şəxsin mövcudluğunu inkar etmələri olduqca təəccüblüdür. Onların sözlərinin doğru olmadığı şübhəsizdir".**

**İrad:** Müəllif bütün bu mənbələri mətn və məzmun etibarı ilə yalnız bir kitabdan - əl-Kəşşinin "Rical"ından nəql edib. Həqiqətdə bu, yalnız bir mənbədir. Ancaq müəllif bununla Abdullah ibn Səbanın varlığını isbat etmək üçün oxucuda çoxsaylı mənbələrin mövcudluğu təəssüratını yaratmaq istəmişdir.

Məsələnin maraqlı cəhətlərindən biri müəllifin "Camiur-ruvah" kitabını əl-Müqəddəsi Ərdəbilyə nisbət verməsidir. Halbuki həmin kitabın müəllifi Muhəmməd ibn Əli Ərdəbili əl-Hairidir. Həmçinin mənbələr arasında "ət-Təhrir" kitabının adını da sadalayır və Tavusini kitabın müəllifi olduğunu zənn edərək ona nisbət verir. Halbuki kitabın adı "ət-Təhrirut-Tavusi"dir və müəllifi "Məalimud-din" kitabının sahibi Şeyx Həsən ibn Şəhidis-Sanidir.

Müəllif oxucudan Seyid Əhməd ibn Tavusun "Həllul-işkal" kitabına nəzər salmasını istəyir. Ancaq hal budur ki, hər bir elm əhli həmin kitabın mövcud olmadığını və ondan heç bir şeyin əlimizə gəlib çatmadığını gözəl bilir.

Bütün bunlarla bərabər, qeyd etdiyi mənbələr Abdullah ibn Səbanın Əmirəl-möminin Əli (ə) barəsində ilahlıq iddiası etdiyinə görə həmfikirləri ilə birlikdə elə Əmirəl-möminin (ə) tərəfindən yandırıldığını bildirir. Ancaq müəllifin işarə etdiyi İbn Səbanın digər hərəkətləri barədə həmin iyirmidən artıq mənbədə heç bir söz deyilməyib. Buna əmin olmaq istəyən şəxslər həmin mənbələrə müraciət edə bilərlər.

Seyid Mürtəza Əskərinin və Şeyx Muhəmməd Cavad Muğniyənin Abdullah ibn Səba adlı şəxsin olmadığına dair qənaətlərinə gəldikdə, biz razılaşmasaq da, bu, onların rəyidir və əhli-sünnədən olan bəzi təhqiqatçılar da onlarla həmfikirdirlər.

Buradan da aydın olur ki, müəllifin şiə fəqihlərinin Abdullah ibn Səba adlı şəxsin mövcudluğunu inkar etmələri iddiası həqiqətdən çox uzaqdır.

Hər bir halda, istər Abdullah ibn Səbanın mövcudluğu isbatlansın, istər də inkar olunsun, onun varlığının şiə məzhəbi ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Şiələr ondan uzaq olduqlarını bildirmiş və onu lənətləmişlər, şiə kitablarında ondan nəql olunan bir rəvayətə və ya onun tərəfindən söylənmiş sözə rast gəlinmir.

Seyf ibn Ömərin şiə etiqadlarından ona nisbət verdiyi, məsələn Əmirəl-möminin Əlinin (ə) Peyğəmbərin (s) canişini, Dəbbətul-ərz olması, yenidən dünyaya qayıdacağı və ərəbləri öz çomağı ilə idarə edəcəyi və s. bu kimi fikirlərə gəldikdə, bütün bunların hamısı Abdullah ibn Səbanın adından uydurulub. Belə fikirlər Seyf ibn Ömərdən savayı heç bir ravi tərəfindən nəql edilməyib. Qeyd edilənlər isə əhli-sünnənin öz kitabları ilə də sübuta yetir. Daha artıq məlumat əldə etmək istəyənlər bizim "Abdullah ibn Səba" adlı kitabımıza müraciət də bilərlər. Biz həmin kitabda mövzunu bütünlüklə əhatə etməyə çalışmışıq.

## Şiənin Əhli-Beytə nisbət verilməsinin həqiqəti

**Müəllif yazır: "Biz şiələrin nəzərində Əhli-Beytə bağlı olduğumuz fikri geniş yayılmışdır. Şiə məzhəbi bütünlüklə (bizim düşüncəmizə görə) Əhli-Beytə məhəbbət üzərində qurulmuşdur. Əhli-sünnədən uzaqlaşmağımız, səhabələri, xüsusilə də ilk üç xəlifəni və Əbu Bəkrin qızı Aişəni lənətləməyimiz də onların Əhli-Beytə qarşı tutduqları mövqelərinə görədir. Bütün şiələrin – kiçiklərin, böyüklərin, alimlərin, cahillərin, qadınların və kişilərin düşüncəsində qərar tapmış düşüncə səhabələrin Əhli-Beytə zülm etdikləri, qanlarını axıtdıqları və ehtiramlarını tapdadıqlarıdır".**

**İrad:** Dostluq və düşmənçiliyin İslamda sübuta yetmiş şüarlardan olduğu şübhəsizdir və buna Quranın bir çox ayələri dəlalət edir.

Ayələr Uca Allahın möminlərin dostu və vəlisi olduğuna dəlalət edir. Uca Allah buyurur: ***"Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Tağutdur (şeytanlardır). Onları nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!"***[30]

Həmçinin buyurur: ***"Şübhəsiz ki, mənim dostum Kitabı (Quranı) nazil edən Allahdır. O, əməlisalehlərə himayədarlıq edər!"***[31]

Eləcə də buyurur: ***"Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər (Muhəmməd) və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!"***[32]

Həmçinin bəzi ayələr möminlərin də bir-birilərinin dostu olduğunu bildirir. Uca Allah buyurur: ***"Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar)".***[33]

---

[30] "əl-Bəqərə" surəsi, ayə 257.

[31] "əl-Əraf" surəsi, ayə 196.

[32] "Ali-İmran" surəsi, ayə 68.

[33] "ət-Tövbə" surəsi, ayə 71.

Digər ayələrdə isə din düşmənlərini dost tutmaq qadağan edilir. Uca Allah buyurur: ***"Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost (vəli) tutun! Onlar (kafirlər) sizə gələn haqqı inkar etdikləri halda, siz onlarla dostluq edirsiniz (mehribanlıq göstərirsiniz). Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (Məkkədən) çıxardırdılar. Əgər siz Mənim yolumda və Mənim rizamı qazanmaq uğrunda cihada çıxmısınızsa (Mənim düşmənlərimi dost tutmayın)...".***[34]

Buyurur: ***"Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün tuturlarsa, onları özünüzə dost bilməyin. Sizdən onları dost tutanlar özlərinə zülm etmiş olarlar".***[35]

Həmçinin buyurur: ***"Ey iman gətirənlər! Sizdən əvvəl kitab verilmiş olanlardan dininizi oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost tutmayın. Əgər möminsinizsə, Allahdan qorxun!"***[36]

Buyurur: ***"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Allah zalım tayfanı düz yola yönəltməz!"***[37]

Eləcə də buyurur: ***"Möminlər möminləri buraxıb kafirləri dost tutmasınlar! Bunu edən (kafirləri özünə dost tutan) kəs Allahdan heç bir şey gözləməsin (onun Allah dərgahında heç bir qədir-qiyməti olmaz). Ancaq onlardan gələ biləcək bir təhlükədən qorxmanız (çəkinməniz) müstəsnadır. Allah sizi Öz əzabından çəkindirir. Axır dönüş Allaha tərəfdir!"***[38]

Uzaqlaşmaq və bezarlıq ayələrinə gəldikdə, onlardan:

- Allahın və elçisinin müşriklərdən uzaq olduqlarına dəlalət edən ayələr:

---

[34] "əl-Mumtəhinə" surəsi, ayə 1.

[35] "ət-Tövbə" surəsi, ayə 23.

[36] "əl-Maidə" surəsi, ayə 57.

[37] "əl-Maidə" surəsi, ayə 51.

[38] "Ali-İmran" surəsi, ayə 28.

***“Allahdan və Onun Peyğəmbərindən böyük həcc günü insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur”.***[39]

**-** Müşriklərdən və onların Allahdan qeyri məbudlarından uzaq durmağa dəlalət edən ayələr:

***“İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir. O zaman onlar öz qövmünə belə demişdilər: “Şübhəsiz ki, bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə (bütlərlə) heç bir əlaqəmiz yoxdur. Biz sizi (dininizi) inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!””.***[40]

Həmçinin: ***“De: “Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah şahiddir. Bu Quran mənə sizi və ona (gələcəkdə) yetişəcək kimsələri (qiyamətə qədər) xəbərdarlıq edib qorxutmağım üçün vəhy olundu. Məgər siz Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?” De: “O, tək bir Tanrıdır. Mən sizin Ona şərik qoşduqlarınızdan (bütlərdən) tamamilə kənaram!”.***[41]

Bu mövzudakı məqsəd mömini müəyyən edib onu dost tutmaq, eləcə də kafiri və ya münafiqi təyin etməklə ondan uzaqlaşmaqdır. Bunlar bəzən xəta və ya səhvin baş verdiyi ictihadı məsələlərdən olmaqdan kənara çıxmır və möminin imanına xələl gətirmir.

Buna əsasən, əhli-sünnə də kafir və ya mürtəd hesab etdikləri Əbu Talib (ona salam olsun!), Malik ibn Nüveyrə (Allah ondan razı olsun!) kimi şəxslərdən uzaq olduqlarını bildirmişlər. Halbuki şiələr həmin bu iki şəxsi ən üstün müsəlmanlardan və əməlisaleh möminlərdən sayır.

Şiələr isə bəzi şəxslərin münafiq olduqlarına hökm etmişlər. Halbuki əhli-sünnə onları ən üstün müsəlmanlardan və Cənnət əhlindən hesab edir.

Əgər əhli-sünnə ardıcıllarına bu məsələlərdə ictihad etmək icazəlidirsə və öz ictihadlarına görə mükafatlandırılacaqlarsa, o zaman şiələr də eynilə belədirlər. Əks

---

[39] “ət-Tövbə” surəsi, ayə 3.

[40] “əl-Mumtəhinə” surəsi, ayə 4.

[41] “əl-Ənam” surəsi, ayə 19.

təqdirdə isə onların hər ikisi də yanlış və günahkardır. Ancaq ictihadı yalnız əhli-sünnəyə icazəli bilib və mükafatı da yalnız onlara aid etməyin heç bir istinadı və dəlili yoxdur, bu, yalnız həvaye-nəfsə uymaq və haqsız təəssüb çəkməkdir.

Müəllifin şiə məzhəbinin Əhli-Beytə məhəbbət və əhli-sünnədən kənarlaşmaq üzərində qurulduğu barədə sözləri düzgün deyildir. Belə ki, Uca Allahın bizə vacib buyurduğu, məsələn əhli-sünnə kimi iki şəhadəti iqrar edən müsəlmanlardan deyil, kafir, münafiq və din düşmənlərindən uzaqlaşmaqdır.

Onun **“Bütün şiələrin – kiçiklərin, böyüklərin, alimlərin, cahillərin, qadınların və kişilərin düşüncəsində qərar tapmış düşüncə səhabələrin Əhli-Beytə zülm etdikləri, qanlarını axıtdıqları və ehtiramlarını tapdadıqlarıdır”** sözləri də doğru deyildir. Çünki şiələr bütün səhabələri ədalətli bilməsələr də, Uca Allahın Öz kitabında mədh etdiyi öndə olan ilk mühacirlərin, ənsarların, İslamın yayılması və bayrağının yüksəlməsi üçün dinə yardım edən, Allah yolunda malları və canları ilə cihad edən digər səhabələrin ədalətli olduqlarına etiqad bəsləyirlər.

Biz belə səhabələri sevir, dünya və axirətdə özümüzə dost bilir və onlar üçün Allahdan mərhəmət diləyirik.

Ancaq Peyğəmbərə (s) əziyyət edən, İslama qarşı hiylə quran, məkrli planları üçün əlverişli məqam gözləyən münafiq və tüləqaları isə sevmirik. Bizim nəzərimizdə onların heç bir dəyəri yoxdur. Onlar səhabə adlandırılsalar da, zahirən Peyğəmbərə (s) yardım etsələr və məhəbbət göstərsələr də biz onlardan uzağıq.

Buradan aydın olur ki, şiələrin bütün səhabələrə nifrət bəsləmələri, lənətləmələri və onlardan uzaqlaşmaları ittihamı tamamilə yanlışdır. Məlumdur ki, belə iddialar şiələri azdırmaq, onları təkfir etmək və qanlarını halal bilmək üçün uydurulmuş bəhanələrdir. Allah onların vəsflərinə qarşı ən yaxşı yardımçıdır!

* * *

**Müəllif yazır: “Guya ki, əhli-sünnə Əhli-Beytə qarşı düşmənçilik mövqeyi tutmuşdur. Buna əsasən, onları “nasibi” adlandırmaqda tərəddüd etmir, daim şəhid Hüseynin (ə) axıtdıqları qanını xatırlayır və xatırladırıq”.**

**İrad:** Nasibilər Əhli-Beytə qarşı açıq-aşkar nifrət bəslədiklərini etiraf edən və onlara qarşı ədavət bəsləyənlərdir. Lakin aşkar surətdə nifrətlərini dilə gətirməyən və düşmənçilik etməyən şəxslər nasibi sayılmırlar.

Nasibilər bizim nəzərimizdə kafir və nəcisdirlər, onların nə ehtiramı və nə də hörməti vardır.

Lakin buradakı məsələ əhli-sünnənin nasibi olub-olmadığı barədədir.

Məsələ ilə bağlı müxtəsər söz budur ki, kimliyindən asılı olmadan - istər səhabə, istər tabeun, istər əhli-sünnənin alimi və ya avamlarından olsun – Əhli-Beytə (ə) qarşı aşkar surətdə ədavət bəsləyən, onları bədnam edən, söyən, əziyyət edən, onlarla savaşan, onları qətlə yetirən, fəzilətlərini inkar edən, təyin olunduqları məqamdan endirən və s. bu kimi əməl sahibləri nasibidirlər.

Biz əsla əhli-sünnənin ümumən nasibi olduğunu söyləmirik. Məşhur rəy bunun əksi - onların nasibi olmamasıdır. Çünki Əhli-Beytə (ə) qarşı edilmiş zülm və haqsızlıqlarda nə bütünlüklə keçmiş və nə də bütün sonrakı əhli-sünnə mənsubları iştirak etməmişlər.

Əksinə, bir çox əhli-sünnə mənsubunun Əhli-Beyti (ə) sevdiyinə və onlara məhəbbət bəslədiyinə biz qəti əminik. Onları sevən insanların nasibi olduqlarına necə hökm vermək olar?!

Hər hansı bir şəxsin Əhli-Beytə (ə) qarşı düşmənçiliyinə qəti şəkildə əmin olmaq üçün ədavətilə bağlı vəziyyəti və söylədiyi sözləri incəliklə araşdırılmalı və sonra nəticə çıxarılmalıdır. Burada sadəcə rəyə, iddiaya və ya zənnə əsaslanmaq olmaz. Düşmənçiliyi isbatlanan şəxsin isə nasibi olduğuna hökm verilir. Lakin isbatlanmasa, hər hansı bir müsəlmanın səhih və qanuni (şəri) dəlil olmadan belə bir böyük günahla ittiham olunması əsla yolverilməzdir.

* * *

**Müəllif deyir: “Lakin əlimizdə olan mötəbər kitablar bizim üçün həqiqəti bəyan edir. Belə ki, həmin kitablar Əhli-Beytin (Allahın salavatı onlara olsun!) öz şiələrindən narazı olduqlarını vurğulayır, ilk şiələrin onlara qarşı nələr etdiyini, ilk dəfə Əhli-Beytin (ə) qanını kimin tökdüyünü, onların qətlinə və ehtiramlarının tapdanmasına kimin səbəb olduğunu xatırladır”.**

**İrad:** Əhli-Beyt İmamlarının (ə) bəzi şiələrdən və ya digərlərindən narazılığı onlardan bezdikləri və onlara qarşı düşmən olduqları mənasına gəlməz. Belə ki, Peyğəmbər (s) müxtəlif zamanlarda və hadisələrdə bəzi səhabələrindən də narazılığını bildirmiş və onların əməllərindən qəzəblənmişdi. Lakin bütün bunlar həmin səhabələri dindən çıxarmamış, bizim onların düşmən və ya münafiqliyinə hökm etməmizə rəvac verməmişdi.

Əhli-Beyt İmamlarının (ə) qətlinə və ehtiramlarının tapdanmasına səbəb olan kəslərə gəldikdə, bunlar İmamların (ə) şiələri və aşiqləri deyil, düşmənləri idilər. İnşallah, qarşıdakı bəhslərimizdə bu barədə geniş söhbət açacağıq.

* * *

**Müəllif yazır: "Əmirəl-möminin (ə) dedi: "Əgər şiələrimi digərlərindən ayırmaq istəsəm, onların yalnız özlərini şiəliklə vəsf etdiklərini görərəm. Əgər onları imtahan etsəm, bu zaman mürtəd olarlar. Əgər onları seçmək istəsəm, min nəfərindən yalnız biri ixlaslı qalar" ("əl-Kafi"/ "ər-Rovzə" 8/338).**

**İrad:** Müctehidlik və fəqihlik iddiası edən bu kəs deyilən sözlərin Əmirəl-möminin Əlidən (ə) rəvayət olunduğunu zənn edir. Halbuki elm tələbələrinin nəzərində, rəvayətlərdə qeyd edilən "Əbul-Həsən" künyəsinin İmam Kazıma (ə) aid olduğu məlum məsələdir. Afərin ictihadda belə bir "ali dərəcəyə" nail olmuş müctehidə!

Bundan əlavə, rəvayətin sənədi olduqca zəifdir. Bu, Muhəmməd ibn Süleymanın rəvayətlərindəndir. Həmin ravi Muhəmməd ibn Süleyman əl-Bəsri əd-Deyləmidir və olduqca zəifdir.

Təhqiqatçı Seyid Xoyi "Möcəmu ricalil-hədis" kitabında yazır: "Muhəmməd ibn Süleyman əl-Bəsri əd-Deyləminin (əqidəsindən) üz çevirdiyinə heç bir şəkk yoxdur. O, (bununla) məşhur və tanınan kəsdir".[42]

Nəcaşi yazır: "Muhəmməd ibn Süleyman ibn Abdullah əd-Deyləmi, olduqca zəifdir. Heç bir məsələdə ona etimad olunmaz".[43]

---

[42] "Möcəmu ricalil-hədis", 16/134.

[43] "Ricalun-Nəcaşi", 2/269.

Onun atasının tərcümeyi-halında yazır: “Süleyman ibn Abdullah əd-Deyləmi, Muhəmmədin atasıdır... Deyilib ki, həddi aşan və çox yalançı şəxs olub. Həmçinin oğlu Muhəmməd də elədir. Təkcə onların rəvayət etdikləri hədislərə etimad olunmaz”.[44]

Şeyx Tusi öz “Rical”ında yazır: “Onun bir kitabı var. Həddi aşmaqda ittiham olunub”.[45]

Əllamə Hilli “Rical”ında yazır: “Olduqca zəif ravidir. Heç bir şeydə ona etimad olunmaz”.[46]

Bu hədisin raviləri arasında İbrahim ibn Abdullah əs-Sufi də var. O, məchul (naməlum) şəxsdir. Onun tərcümeyi-halı heç bir rical (tərcümeyi-hal) kitabında qeyd edilməyib.

Ravilərdən biri də Musa ibn Bəkr əl-Vasitidir. Tərcümeyi-hal kitablarında onun inanılan şəxs olması barədə heç bir qeyd yoxdur. Şeyx Tusi (r.ə) öz “Rical”ında yazır: “Musa ibn Bəkr əl-Vasiti - əsli Kufədəndir, vaqifidir”.[47]

Bütün bunlar rəvayətin sənədi barədə deyiləcək sözlərdir. Hədisin mətninə və mənasına gəldikdə deyirik:

İmamların (ə) zamanında əksər müsəlmanlar xüsusilə Əlinin (ə) və ümumən Əhli-Beytin (ə) şiələrindən olduqlarını iddia edirdilər.[48] Lakin onlar həqiqətdə şiə deyildilər. Belə ki, onların şiələri söz və hərəkətlərində onları izləyən şəxslərdir. Təkcə iddia etməklə insan şiə olmur.

---

[44] “Ricalun-Nəcaşi”, 1/412.

[45] “Rical”, Tusi, səh.343.

[46] “Rical”, Əllamə Hilli, səh.255.

[47] “Rical”, Tusi, səh.343.

[48] Bu iddialar İmamların (ə) yaşadıqları dövrlərdən sonra da davam etmişdi. Əhli-sünnə, Mötəzilə və digərləri özlərinin Əlinin (ə) şiələri olduqlarını iddia etmişlər. Qarşıda İbn Həcər Heytəmi və İbn Əbul-Hədid əl-Mötəzilinin mövzu ilə əlaqədar sözlərini qeyd edəcəyik.

Buna əsasən, hədisdəki **“Əgər şiələrimi digərlərindən”** yəni şiə olmadıqları halda şiəlik iddiası edənlərdən **“ayırmaq istəsəm, onların”** yəni bu iddiaçıların **“özlərini yalnız şiəliklə vəsf etdiklərini görərəm”.** Onların özlərini sadəcə bizim şiələrimiz kimi təqdim etdikləri və bunu iddia etdikləri məlum olar. Halbuki onlar heç də şiə deyillər. Belə ki, onlar bizim imamətimizə etiqad bəsləmir, bizə, bizim sözlərimizə və hərəkətlərimizə tabe olmurlar.

**“Əgər onları imtahan etsəm, bu zaman mürtəd olarlar”** – yəni özlərinin bizim şiələrimiz olduqlarını iddia edən şəxsləri imtahan etsəm, onlara Əhli-Beyt imamlarının (ə) yolunu, etiqad bəsləmələri vacib olan əqidə və əməlləri söyləsəm, bizim yolumuzu inkar etdiklərini, artıq şiəlik iddialarından boyun qaçırdıqlarını, bizim dostluğumuz və bizə məhəbbət bəslədiklərinə dair sözlərindən imtina etdiklərini görərəm.

**“Əgər onları seçmək istəsəm, min nəfərindən yalnız biri ixlaslı qalar”** – yəni, əgər bu imtahanın nəticəsində onları seçsəm, bizə görə malından keçməyi, özünü yolumuzda fəda etməyi əmr etsəm, xalis niyyətli olmadıqları məlum olar. Çünki həqiqətdə şiə olmadıqları halda onlar bizim şiələrimiz olduqlarını sadəcə iddia edirdilər.

İmamın (ə) bu sözlərin ardınca söylədiyi kəlamı da buna dəlalət edir: **“Əgər onları ələkdən keçirsəm, yalnız mənə ixlaslı (və ya mənə aid) olanlar qalar. Halbuki bunlar öz taxtlarında mütəkkəyə söykənərək “Biz Əlinin şiələriyik” deyirlər. Amma Əlinin şiələri sözü və əməli doğru olan şəxslərdir”.**

Yəni, əgər mən onları yoxlasam, bizləri kənarda qoyaraq başqalarının ardınca getdiklərini və düşmənlərimizlə dost olduqlarını görərəm. Bu zaman şiəlik iddia edənlərin arasından yalnız bizi həqiqətən dost tutan, özünə rəhbər bilən, sözümüzə itaət edən şəxslər qalar. Lakin özlərinə başqalarını rəhbər bilən şiəlik iddiaçıları həqiqətdə bizim şiələrimiz deyillər. Çünki Əlinin (ə) həqiqi şiələri sadəcə iddiada deyil, söz və əməllərində də Əlinin (ə) və onun Əhli-Beytinin (ə) yolunu izləyənlərdir.

Buna əsasən, əgər hədisin səhihliyi fərz olunsa, İmamın (ə) sözləri onların imamət və vilayətinə həqiqətən bağlı olan şəxslərlə aid deyil. İmam (ə) bu sözlərilə müxalifləri arasından şiəlik iddiaçılarının iddialarını inkar edir.

Əgər həmin sözlərdə məhz şiələrin məzəmmət olunduğunu fərz eləsək, bu zaman bu danlama onların arasından təqva, islah, düzgünlük və s. kimi əməllərdə Əhli-Beyt imamlarının (ə) yolunu izləməyənlərə şamil olunacaq. Belə olduqda isə bu, onların İmamət etiqadından üz çevirdiklərinə dəlalət etməyəcək.

İmamın (ə) sözləri bir kəsin söylədiyi bu sözə bənzəyir: "Bu gün müsəlmanlar İslama uyğun yaşamır, Qurana əməl etmirlər. Əgər onları imtahan eləsən, yalnız adlarını müsəlman qoyduqlarını, min nəfərdən yalnız birinin sözündə ixlaslı olduğunu görərsən".

Bu sözlər müsəlmanların etiqad və hökmlərini deyil, əməl və rəftarlarını məzəmmət edir, onların əqidəsinin yanlış, digərlərinin isə haqq olduğunu bildirmir.

* * *

**Müəllif yazır: "Əmirəl-möminin dedi: "Ey kişilikdən nişanəsi olmayan namərdlər! Ey ağlı uşaq və bəy otağına təzə girmiş qadın ağlı kimi olanlar! Ey kaş mən sizləri nə görə, nə də tanıyaydım. And olsun Allaha, sizi tanımağın nəticəsi peşmanlıq, qəm və qüssədir... Allah sizləri məhv etsin ki, mənim ürəyimi qan etdiniz, sinəmi qəzəblə doldurub-daşırdınız. Aldığım hər nəfəsdə mənə qəm və hüzn yedirtdiniz. Mənə itaətsizlik, etinasızlıq edərək planlarımı pozub, puç etdiniz, bunun nəticəsində də Qüreyş "Əbu Talibin oğlu igiddir, ancaq müharibə aparmaq qaydasını bilmir" dedilər... Ancaq fərmanına itaət olunmayanın, hökmünə əməl edilməyinin əlacı yoxdur" ("Nəhcul-Bəlağə", səh.70-71).**

**Onları qınayaraq deyir: "...sizdə (rəftarınızda olan) üç şeyə və (əsla sizdə olmayan) iki şeyə görə qəmə, kədərə batmışam. (Sizdə olan üç şeyin birincisi budur ki,) qulağınız olsa da karsınız, (ikincisi) danışsanız da lalsınız və (üçüncüsü) gözünüz olsa da korsunuz. (Sizdə olan iki şeyin birincisi isə budur ki,) müharibə vaxtı doğruluqda və dönməzlikdə azad insanlar kimi deyilsiniz və (ikincisi) bəlada, çətinliklərdə etimad oluna biləcək həqiqi qardaşlar deyilsiniz...**

**qadın (doğum zamanı) qarnındakı uşaqdan uzaqlaşdığı kimi, Əbu Talibin oğlundan uzaqlaşıb dağılışacaqsınız" ("Nəhcul-Bəlağə", səh.142).**

**Onlara bu sözləri söyləməsinin səbəbi Əmirəl-möminini (r.a.) tək qoymaları və xəyanət etmələri idi. Onlara ünvanladığı bir çox başqa məzəmmətli sözləri də var".**

**İrad:** Bu və buna bənzər məzəmmətedici sözlər Əmirəl-möminin (ə) tərəfindən onunla birlikdə Kufədə olanlara ünvanlanıb. Onlar Müaviyəyə qarşı müharibədə iştirak edənlərdir. Onların arasında müsəlmanların müxtəlif dəstələrindən insanlar vardı. Əksəriyyəti avam camaat idi. Onlar nə xoş bir keçmişə, nə də İslamda hansısa bir məqama sahib idilər.

Müəllifin İmamla (s) birlikdə hər üç müharibədə iştirak edənlərin məhz şiələri olduğu təsəvvürünü oxucuda yaratmaq istəyinin ziddinə olaraq, o, həmin vaxt xüsusi olaraq öz şiələrinə və ardıcıllarına xitab etmirdi ki, bu məzəmmətli sözlər də onlara şamil olsun.

Əgər müəllifin dediklərini qəbul etsək, o zaman əhli-sünnə danlanmağa şiələrdən daha layiq olacaq. Çünki, əgər biz İmamın (ə) xüsusilə Müaviyə ilə döyüşməkdən boyun qaçıran Kufədəki şiələrinə xitab etdiyini fərz eləsək, burada sual yaranacaq:

Əgər əhli-sünnədən olan müsəlmanlar Müaviyə ilə müharibə zamanı Əmirəl-möminin Əli (ə) ilə birlikdə deyildilərsə, o zaman harada idilər?

Onların vəziyyəti bu üç ehtimaldan biridir:

- ya onlar Əmirəl-möminin Əli (ə) ilə birlikdə Kufədə idilər; bu zaman İmamın (ə) söylədiyi danlaq və məzəmmətli sözlər digərləri kimi onlara da şamil olacaq.

- ya onlar Müaviyənin ordusunda və zalım dəstənin sırasında idilər; bu vaxt isə onların halı danlanan şəxslərdən daha pis olacaq.

- ya da həm İmam Əlini (ə), həm də Müaviyəni tərk etmişdilər; belə olduqda isə onlar İmamla (ə) hər üç savaşda iştirak etmiş və bir çox bəlalara (çətinliklərə) sinə gərmiş şəxslərdən danlanmağa daha layiqdirlər. Halbuki İmamın (ə) danladığı şəxsləri uzun müddət davam edən savaşlar yormuş, üzüntü və zəiflik əldən salmışdı.

Nəticə budur ki, əgər əhli-sünnə ardıcılları həmin vaxt istər Əmirəl-möminin Əlinin (ə), istər Müaviyənin ordusunun sırasında dursalar, istərsə də hər iki tərəfi tərk

etmiş olsalar, hər bir halda bu danlaq və məzəmmətli sözlər onlara da şamil olacaq. Burada vəziyyəti ən yaxşı olan kəslər, İmama (ə) yardım etməkdə qüsura yol vermiş olsalar belə, onunla birlikdə müharibələrdə iştirak edənlərdir.

* * *

**Müəllif yazır: "İmam Hüseyn (ə) şiələrinə bədduasında belə deyir: "İlahi, əgər onları hələ bir müddət də yaşatsan, onları bir-birindən ayırıb firqələrə böl, düşüncələrini müxtəlif et və dostlarını onlardan əsla razı salma! Belə ki, onlar bizə yardım etmək üçün buraya dəvət etdilər, sonra da düşmənçilik göstərib bizi öldürdülər" ("əl-İrşad", Müfid, səh.241).**

**Başqa bir dəfə də onlara xitab və bəddua etmişdir. Onun sözlərinin bir hissəsi belə idi: "Lakin siz bizə beyət etmək üçün milçək kimi uçub sürətlə yanımıza gəldiniz, palaz kimi qarşımıza sərildiniz və ardınca da səfehlik, (azmışlıq!)[49] səbəbindən beyətinizi pozdunuz və bu ümmətin tağutlarına və əhzabdan (Muhəmmədə (s) qarşı savaşanlardan) qalanlara boyun əyib uzaqlaşdınız. Sonra da sizlər bizi tək-tənha qoydunuz və qətlə yetirdiniz. Bilin ki, Allahın lənəti zalımların üzərindədir!" (əl-İhticac", 2/24).**

**Bu sözlər Hüseyni həqiqətən kimin öldürdüyünü bizə açıqlayır. Bunlar onun Kufə əhlindən olan şiələridir. Yəni bizim babalarımız. Bəs Hüseynin (r.a) qətlinin məsuliyyətini nə üçün əhli-sünnənin üzərinə atırıq?!"**

**İrad:** İmam Hüseyn (ə) bu sözlərini Kərbəlada onu öldürmək üçün toplaşmış orduya ünvanlayıb. Ordudakı şəxslər fərqli dəstələrə mənsub idilər, Abdullah ibn Ziyad onları Hüseynin (ə) qətli üçün bir yerə toplamışdı və onlar şiə deyildilər.

---

[49] Müəllif nəql etdiyi mətni təhrif etmişdir. Həmçinin sondakı **"Sonra da sizlər bizi tək-tənha qoydunuz və qətlə yetirdiniz. Bilin ki, Allahın lənəti zalımların üzərindədir!"** sözlərini də qeyd etdiyi cümlələrin ardınca gətirərək, sanki bunların ard-arda deyilmiş sözlər olduğu təəssüratını yaratmışdır. Halbuki bu iki cümlə əsl mətndə bir-birindən ayrı və cümlələr arasında deyilmiş fərqli fikirlərdən sonra səsləndirilmişdir.

Nəinki, onların arasında bir nəfər də olsun şiə yox idi. Belə olduqda "Hüseynin qatilləri şiələrdir" fikri necə iddia oluna bilər?!

Bu məsələni bir neçə cəhətdən izah etmək olar:

**Birinci:** "İmam Hüseyni (ə) onun tərəfdarları (şiələri) öldürdü" sözündə açıq-aydın ziddiyyət vardır. Çünki bir şəxsin tərəfdarı (şiəsi) məhz ona yardım edən, onun ardınca gedən və onu sevən kəsdir. Ancaq qatilləri belə deyillər. Belə olduqda, onlarda məhəbbət və sevgi ilə bərabər savaş və qətl necə bir yerdə cəm ola bilər?!

Əgər İmam Hüseynin (ə) qatillərinin şiələr olduğunu fərz etsək, onlar savaş və onun qətli üçün bir yerə toplaşdıqları anda artıq onun tərəfdarlığından (şiəliyindən) ayrılmış olur, düşmənlərinə və qatillərinə çevrilirlər.

**İkinci:** İmam Hüseynə (ə) qarşı savaşanlar kufəlilər idilər. Həmin vaxtlarda isə Kufədə bir nəfər də olsun şiənin yaşadığı barədə məlumat yoxdur. Müaviyə şiələri yaxşı tanıyan Ziyad ibn Üməyyəni oraya vali təyin etdikdə o, onları təqib etməyə, öldürməyə, evlərini uçurmağa, həbs etməyə başladı, ta ki, Kufədə bir nəfər də olsun Əli (ə) şiəsi kimi tanınan şəxs qalmadı.

İbn Əbul-Hədid əl-Mötəzili yazır: "Əbul-Həsən Əli ibn Muhəmməd ibn Əbu Seyf əl-Mədaini "əl-Əhdas" kitabında deyir: "Sülh müqaviləsi bağlandığı il Müaviyə valilərinə bir məktub göndərdi. Orada yazırdı: "Əbu Turabın və əhli-beytinin fəzilətlərinə dair bir şey rəvayət edən şəxsin üzərindən öz himayəmi götürürəm". Bundan sonra xətiblər minbərlərdən Əlini (ə) lənətləməyə və ondan uzaq olduqlarını bildirməyə, özünü və ailəsini təhqir etməyə başladılar. Həmin vaxt ən çox müsibətlərlə düçar olanlar Kufə əhalisi idi. Belə ki, orada çox sayda şiə yaşayırdı. Müaviyə Ziyad ibn Süməyyəni onların üzərinə vali təyin etdi, Bəsrəni də onun sərəncamına verdi. Ziyad şiələri tanıyırdı. Çünki Əlinin (ə) xilafəti dövründə o da şiələrdən biri idi. Ziyad şiələrlə qarşılaşdığı hər ağacın, hər daşın altında onları öldürür, hədə-qorxu gəlir, əllərini-ayaqlarını kəsdirir, gözlərini deşdirir, ağaclarda çarmıxa çəkdirir, qovur və İraqdan sürgün etdirirdi. Nəticədə orada şiə kimi tanınan bir nəfər də qalmamışdı".[50]

---

[50] "Nəhcul-Bəlağənin şərhi", 3/15, "Muhəqqiqə" mətbəəsinin çapı, 11/44.

Sonra yazır: “Sonra da bütün şəhərlərdəki valilərinə belə bir məktub yazdı: “Əlini və əhli-beytini (ailəsini) sevdiyi sübuta yetən hər bir kəsi müəyyən edin, beytul-mal siyahısından adlarını silin, hədiyyələrini kəsin və ruzilərini əllərindən alın”.

Ardınca da ikinci məktubu göndərir: “Onları sevdiklərinə şübhə etdiyiniz (onları sevməkdə ittiham etdiyiniz) şəxsləri ciddi şəkildə cəzalandırın, evlərini uçurun”.

İraqdakı, xüsusilə də Kufədəki bəla və müsibətlər olduqca faciəvi idi. Hətta Əlinin (ə) şiələrindən birinin evinə inandığı bir şəxs gəlib sirrini ona açmaq istədikdə belə, onun xidmətçilərindən və ya kölələrindən (casus olmalarından) qorxur, dəfələrlə and içdirdikdən sonra ona sözünü söyləyirdi”.

Başqa bir yerdə yazır: “Bu vəziyyət Həsən ibn Əli (ə) dünyadan köçənədək davam etdi. Onun ölümündən sonra bəla və müsibətlər, fitnələr daha da artdı. Şiələrdən öz canı üçün və ya qovulmaqdan qorxmayan bir kəs belə qalmadı”.[51]

Təbərani “əl-Möcəmul-kəbir”də Yunus ibn Übeydə istinadən İmam Həsəndən (ə) nəql edir: “Ziyad Əlinin (r.a) tərəfdarlarını (şiələrini) təqib edir və onları öldürürdü. Bu xəbərlər Həsən ibn Əliyə (ə) yetişdikdə dedi: “İlahi, onu öldür! Belə ki, onun qətli rəhmətdir”.[52]

“Zəhəbi “Siyəru ə`lamin-nübəla” kitabında yazır: “Əbuş-Şə`sa deyir: “Ziyad öz istəklərinə qarşı çıxanları məhv etməkdə Həccacdan daha qəddar idi”.

Əbul-Həsən əl-Bəsri deyir: “Ziyadın Bəsrədə Əlinin (ə) şiələrini təqib edib, öldürdüyü xəbəri Həsən ibn Əliyə yetişdi. O, İbn Ziyada bəddua etdi. Deyilib ki, İbn Ziyad Əbul-Həsəndən (İmam Əlidən (ə)) bezarlıqlarını ifadə etmələri üçün Kufə

---

[51] “Nəhcul-Bəlağənin şərhi”, 11/45. Eyni mənadakı sözlər Süleym ibn Qeysin kitabında da qeyd olunur (səh.318). Təbərisi “əl-İhticac”da (2/17), Əllamə Məclisi də “Biharul-ənvar”da (44/125-126) ondan nəql edir.

[52] “əl-Möcəmul-kəbir”, Təbərani, 3/68; “Məcməuz-zəvaid”, 6/266. Heysəmi yazır: “Bunu Təbərani rəvayət edib. Raviləri “Səhih”in raviləridir.

əhalisini bir yerə toplayırdı. Həmin vaxtlarda – hicri təqvimilə 53-cü ildə onu taun xəstəliyi tutdu”.[53]

İbn Əsir “əl-Kamil” kitabında yazır: “Ziyad hakimiyyətdə qəddarlıq edən ilk şəxs oldu, Müaviyənin hakimiyyətini gücləndirdi, qılıncını qınından sıyırdı, öz gümanlarına görə hərəkət etdi və şübhələrinə əsaslanıb cəza verdi. Camaat ondan elə qorxurdu ki, hətta özlərini bir-birilərindən də amanda saymırdılar”.[54]

İbn Həcər “Lisanul-mizan” kitabında yazır: “Ziyad güclü agahlığa, yaxşı siyasətə və geniş dərrakəyə malik idi. Əvvəllər Əlinin tərəfdarlarından idi. Əli də onu Qüdsə vali təyin etmişdi. Müaviyə onu özünə tərəf çəkdikdən sonra isə Əlinin ailəsinə və tərəfdarlarına qarşı ən qəddar şəxslərdən birinə çevrildi. O, Hücr ibn Ədiyin və onunla birlikdə olanların qətli üçün canfəşanlıq göstərən kəsdir”.[55]

Bütün bunlar Kufədə İmam Hüseynlə (ə) savaşmaq üçün Kərbəlaya göndəriləcək şiə kimi tanınan bir nəfərin də qalmadığını göstərir. Belə olduqda, müəllif Hüseynin (ə) qatillərinin şiələr olduğunu necə iddia edə bilər?!

İnsaflı bir şəxs İmam Hüseynə (ə) məktub yazıb dəvət edənlərin də şiələr olduğunu düşünməz. Çünki ona məktub yazanların heç biri şiə kimi tanınmırdı. Məsələn Şəbəs ibn Rib`i, Həccar ibn Əbcər, Əmr ibn Həccac və s.

**Üçüncü:** İmam Hüseyni (ə) qətlə yetirənlərin kimlikləri məlumdur. Onların arasında Əhli-Beytin (ə) şiəsi kimi tanınan bir nəfər də yoxdur.

Onlardan: Ömər ibn Səd ibn Əbu Vəqqas, Şimr ibn Zül-Covşən, Şəbəs ibn Rib`i, Həccar ibn Əbcər, Hərmələ ibn Kahil və s. Bunların heç biri şiə və ya Əlinin (ə) dostu kimi tanınmırdı.

**Dördüncü:** İmam Hüseyn (ə) Aşura günü onları Əbu Süfyanın şiələri (tərəfdarları) kimi vəsf etmiş və buyurmuşdu: “Vay olsun sizə, ey Əbu Süfyan şiələri! Əgər dininiz yoxdursa və qiyamət günündən qorxmursunuzsa, heç olmazsa, bu

---

[53] “Siyəru ə`lamin-nübəla”, Zəhəbi, 3/496.

[54] “əl-Kamilu fit-tarix”, 3/450.

[55] “Lisanul-mizan”, 2/495.

dünyada azad olun! İddia etdiyiniz kimi, ərəbsinizsə, öz əslinizə (qeyrətinizə) qayıdın”.[56]

İmam Hüseynin (ə) Kərbəlada söylədiyi kəlmələrə, qarşı tərəfə ünvanladığı sözlərə və onlara qarşı göstərdiyi dəlillərə nəzər saldıqda, onları özünün və ya atasının şiələri və ya dostları kimi vəsf etdiyinə rast gəlmirik.

Həmçinin oradakı başqa şəxslərin də sözlərində qarşı tərəfi Əhli-Beytin (ə) şiələri kimi vəsf edən kəlmələrlə qarşılaşmırıq. Bütün bunlar isə İmam Hüseynlə (ə) savaşmaq üçün toplaşmış şəxslərin Əhli-Beyt (ə) şiələrindən və ya dostlarından olmadıqlarını göstərir.

**Beşinci:** Oradakıların İmam Hüseynə (ə) qarşı şiddətli nifrət və ədavətləri vardı. Belə ki, onu və ailəsini sudan məhrum etmiş, özünü, əshabını və ailəsinin üzvlərini qətlə yetirmiş, başlarını kəsmiş, cəsədlərini ataların ayaqları altında tapdamış, qadınlarını əsir götürmüş, qadınların üzərindəki bəzək əşyalarınız zorla çıxarmışdılar...

İbn Əsir “əl-Kamil” kitabında yazır: “Sonra Ömər ibn Səd üzünü əshabına tutub Hüseynin cəsədini atlarının ayaqları altında kimin tapdaya biləcəyini soruşdu. On nəfər irəli çıxdı. Onların arasında İshaq ibn Heyvə əl-Həzrəmi də vardı. O, Hüseynin köynəyini (qənimət olaraq) götürən şəxs idi. Sonradan cüzam xəstəliyinə tutuldu. Həmin on nəfər gedib Hüseynin cəsədini atlarının ayaqları altında tapdadılar, sinəsini və kürəyini parça-parça etdilər”.[57]

Yazır: “Hüseynin əynində olanları çıxarıb götürdülər. Onun şalvarını Bəhr ibn Kə`b, əbasını Qeys ibn Əş`əs götürdü. Sonradan “Əbalı Qeys” deyə çağırıldı. Başmaqlarını əl-Əsvəd əl-Əvdi, qılıncını darəmli bir şəxs ələ keçirdi. Sonra onlar xeymələrdəki əşyalara, qadınların üzərindəki bəzək əşyalarına tərəf hücum çəkdilər. Qadınların üzərindən örtüklərini dartıb götürür və əllərindən alırdılar”.[58]

---

[56] “Məqtəlul-Hüseyn”, Xəvarəzmi, 2/38; “Biharul-ənvar”, 45/51; “əl-Luhufu fi qətlət-tufuf”, səh.45.

[57] “əl-Kamil”, İbn Əsir, 4/80.

[58] “əl-Kamil”, İbn Əsir, 4/79.

İbn Əsir "əl-Bidayətu vən-nihayə" kitabında Əbu Mixnəfdən nəql etdiyi rəvayətlərin birində bunları qeyd edir: "Sənan və digərləri onun üzərindəkiləri yağmaladılar, camaat onların əşyalarını öz aralarında bölüşdürdü, hətta qadınların üzərindəki paltarları və xeymələrdəki əşyaları da götürdülər".

Deyir: "Ömər ibn Səd gəlib dedi: "Bu qadınların yanına heç kəs daxil olmasın! Bu yeniyetməni öldürməyin! Onların əşyalarından nə götürmüşsünüzsə, özlərinə qaytarın!" Ancaq, Allaha and olsun ki, heç kəs heç nə qaytarmadı".[59]

Bütün bu əməlləri yalnız güclü ədavətə və nifrətə sahib kəslər edə bilərlər. Onları sevən şiələrinin belə bir rəftara yol verə biləcəkləri ağlabatandırmı?!

**Altıncı:** İmam Hüseynin (ə) qatilləri ona deyirdilər: "Biz səni atana qarşı olan nifrətimizə görə öldürürük".[60]

Qəlblərində Əli ibn Əbu Talibə (ə) qarşı bu cür nifrət bəsləyən kəslərin şiə olması necə təsəvvür edilə bilər?!

Bəziləri isə deyirdilər: "Ey Hüseyn, ey yalançı oğlu yalançı!"[61]

Digərləri deyirdilər: "Ey Hüseyn, Cəhənnəmlə müjdələn!"[62]

Başqa bir dəstə isə Hüseynə (ə) və əshabına belə deyirdi: "Həqiqətən də bu (yəni namaz), sizdən əsla qəbul olunmur!"[63]

Xüsusilə Əmirəl-möminin Əliyə (ə) və İmam Hüseynə (ə), ümumən isə Əhli-Beytə (ə) qarşı qəlblərində alovlandırdıqları nifrət və düşmənçiliyi ifadə edən digər bu kimi sözlər...

**Yeddinci:** Həmin hadisələrə dair əmr verənlər və qərar qəbul edənlər şiə deyildilər. Bunlar Yezid ibn Müaviyə, Übeydullah ibn Ziyad, Ömər ibn Səd, Şimr ibn Zul-Cövşən, Qeys ibn əl-Əş`əs ibn Qeys, Əmr ibn əl-Həccac əz-Zübeydi, Abdullah

---

[59] "əl-Bidayətu vən-nihayə", İbn Əsir, 8/190.

[60] "Yənabiul-məvəddə", səh.346.

[61] "əl-Kamil", İbn Əsir, 4/67.

[62] "əl-Kamil", İbn Əsir, 4/66; "əl-Bidayətu vən-nihayə", 8/183.

[63] "əl-Bidayətu vən-nihayə", 8/185.

ibn Züheyr əl-Əzdi, Ürvə ibn Qeys əl-Əhməsi, Şəbəs ibn Rib`i əl-Yərbui, Əbdürrəhman ibn Əbu Səbirə əl-Co`fu, əl-Həsin ibn Nümeyr, Həccar ibn Əbcər idi.

Həmçinin İmam Hüseynin (ə) qətlində birbaşa iştirak edənlər və ya onun ailəsindən, yaxud əshabından birini belə öldürənlər arasında da şiə yoxdur. Həmin qatillərdən bəziləri bunlardır: Sinan ibn Ənəs ən-Nəxəi, Hərmələ əl-Kahili, Munqiz ibn Mürrə əl-Əbdi, Əbul-Hutuf əl-Co`fi, Malik ibn Nəsr əl-Kindi, Əbdürrəhman əl-Co`fi, Qəş`əm ibn Nəzir əl-Co`fi, Bəhr ibn Kə`b ibn Teymullah, Zur`ə ibn Şərik ət-Təmimi, Saleh ibn Vəhəb əl-Murri, Xuli ibn Yəzid əl-Əsbəhi, Həsin ibn Təmim və digərləri.

İmam Hüseynin (ə) qətlində iştirak edənlər arasında şiə kimi tanına bir nəfəri belə tapa bilməzsiniz. Aşura günü Kərbəlada baş verən hadisələrlə tanış olduqda söylədiklərimizin doğruluğu sizin üçün aydınlaşacaq.

**Səkkizinci:** Yezid ibn Müaviyə İmam Hüseynin (ə) qətlinin məsuliyyətini heç kimə deyil, yalnız Übeydullah ibn Ziyadın üzərinə qoymuşdur.

İbn Kəsir "əl-Bidayətu vən-Nihayə" kitabında, Zəhəbi "Siyəru ə`lamin-nübəla"da və digərləri Yunus ibn Həbibin belə dediyini nəql edirlər: "Übeydullah Hüseyni və ailəsini qətlə yetirdikdən sonra onların kəsilmiş başlarını Yezidə göndərdi. Yezid öncə onların qətlinə sevindi, ancaq bir müddət sonra onların öldürülməsinə peşman oldu. Belə deyirdi: "Kaş ki, zəiflik göstərmiş olsaydım belə, Peyğəmbərin (s) ehtiramını qorumaq və haqqına riayət etmək üçün əziyyətə dözəydim, Hüseynlə danışıq aparıb onun istədiyi kimi hökm verəydim. Allah Mərcanənin oğluna (yəni Übeydullah ibn Ziyada) lənət eləsin! O, Hüseyni dalana dirədi və çıxılmaz vəziyyətə saldı. Halbuki Hüseyn gəldiyi yerə qayıtması üçün ondan yolu açmasını istəmişdi. Və ya onu mənim yanıma gətirərdi, o da əlini mənim əlimə qoyardı (mənə beyət edərdi), yaxud onu sərhədlərdən kənara çıxmasını təmin edərdi. Lakin bütün bu istəkləri rədd edib onu öldürdü, onun qətlinə görə

müsəlmanların nifrətini mənə tərəf yönəltdi və onların qəlbində mənə qarşı düşmənçilik toxumları səpdi”.[64]

* * *

**Müəllif yazır: “buna görə də Seyid Muhsin əl-Əmin deyir: “Hüseynə İraq əhalisindən iyirmi min nəfər beyət etmişdi, lakin beyətləri boyunlarında olduğu halda ona xəyanət etdilər, ona qarşı savaşıb qətlə yetirdilər” (“Ə`yanuş-şiə”/Birinci fəsil, səh.34).**

**İrad:** Əvvəldə demişdik: Ziyad ibn Süməyyə hər bir daşın, ağacın altında Əlinin (ə) şiələrini axtarır, onları təqib edirdi. Belə ki, Kufədə şiə olaraq tanınan bir nəfər də qalmamışdı.

Buna rəğmən “Hüseynə (ə) beyət edib, sonra da qarşı çıxaraq onunla savaşanlar şiələr idi” iddiasını necə etmək olar?!

Onların İmam Hüseynə (ə) beyət etmələri də şiə olduqlarına dəlalət etməz. Aydın məsələdir ki, bir şəxsin bir kəsə beyət etməsə, heç də onun tərəfdarı olması anlamına gəlmir. Yoxsa belə deyilməlidir: Bütün Əmirəl-möminin Əliyə (ə) beyət etmiş bütün səhabələr və tabeunlar onun şiəsinə çevrildilər. Bunu heç kim, hətta müxaliflərin özləri də qəbul etməzlər!!!

* * *

**Müəllif yazır: “İmam Həsən (ə) deyir: “Allaha and olsun ki, Müaviyə barədə fikrim bunlar barədə rəyimdən daha yaxşıdır.[65] Bunlar mənim tərəfdarlarım (şiələrim) olduqlarını iddia etdikləri halda, mənim qətlimi və malları ələ keçirməyi istəyirlər. Allaha and olsun, Müaviyədən mənim canımın qorunması və ailəmi amanda saxlanması barədə vədi almaq, bunların məni öldürməsindən və əhli-beytimi aradan aparmalarından daha yaxşıdır. Allaha and olsun, əgər Müaviyə ilə döyüşsəm, onlar mənim boynumdan yapışıb ona**

[64] “Siyəru ə`lamin-nübəla”, 3/317; “əl-Bidayətu vən-nihayə”, 8/235; “əl-Kamilu fit-tarix”, 4/87.

[65] Doğrusu isə “əl-İhticac”da belədir: “Düşünürəm ki, Müaviyə mənim üçün bunlardan daha xeyirlidir”.

**təslim edərlər. And olsun ki, izzətimi qoruyub onunla sülh bağlamağım əsir halda öldürülməyimdən daha yaxşıdır" ("əl-İhticac", 2/15).**

**İrad:** Sənəd cəhətindən bu rəvayət zəifdir, çünki mürsəl rəvayətdir və ondan dəlil kimi istifadə etmək doğru deyil.

Mətninin dəlalətinə gəldikdə isə; gizli deyildir ki, İmam Həsən (ə) burada xüsusi bir dəstəni danlayır, onların xüsusiyyətlərini vəsf edir, onun şiələri olduqlarını iddia etdiklərini, lakin onu qətlə yetirmək və mal-dövlətini qəsb etmək istədiklərini, döyüşəcəyi təqdirdə isə onu yaxalayıb Müaviyəyə təslim edəcəklərini bildirir.

İmam Həsən (ə) bu sözlərilə zahirdə onu dəstəklədiklərini göstərsələr də, gizlində Müaviyəyə məktub yazan kəslərə işarə edir. Halbuki bunlar nə onun şiələri və nə də dostlarıdır.

Məzəmmətli sözlər də ümumən şiələrə deyil, məhz bu kəslərə ünvanlanır.

Daha aydın sözlərlə: İmam Həsən (ə) öz şiələrini və ardıcıllarını deyil, şiə olduqlarını iddia edən, lakin həqiqətdə şiə olmayan kəsləri danlayır.

Buna görə də rəvayətin sonunda xəbəri rəvayət edən Ziyad ibn Vəhəb əl-Cəhninin bu sözlərini oxuyuruq: "Dedim: "Ey Peyğəmbər övladı! Şiələrini çobansız sürü kimi qoyursan?"

İmam (ə) buyurdu: "Ey cəhnili, nə edim? Allaha and olsun ki, etibarlı şəxslərin mənə verdikləri məlumatlardan xəbərdaram ki,..".

İmam (ə) bununla hakimiyyətin Müaviyəyə ötürülməsi barədə planların olduğunu, onun haqqı və sünnəni məhv edib batili və bidətləri dirçəldəcəyindən, hakimiyyəti altında olan möminləri zəlil, fasiqləri isə qüdrəti edəcəyindən, mal-dövləti öz tərəfdarları arasında paylaşdırıb, Allahın sadiq bəndələrini isə asılı vəziyyətə salacağından və s. xəbərdar olduğunu bildirir.

Bu, aydın surətdə danlağın bütün şiələrə deyil, xüsusi bir dəstəyə şamil olduğuna dəlalət edir.

Bununla belə, müəllif İmam Həsənin (ə) sözünün sonunda Müaviyəni məzəmmət edən sözlərini görməzlikdən gəlmişdir. İmam (ə) orada buyurur: "Və mənə minnət qoyar, nəticədə bu, zamanın sonunadək Haşim oğullarına bir təhqir olar, Müaviyə də bundan sonra bizim dirimizə də, ölümüzə də bununla minnət edər".

Bax, gör ki, müəllif Üməyyə oğulları barədə söylənən bu məzəmmətli sözləri yazmaqdan necə çəkinib. Halbuki yazsaydı, yalnız İmam Həsənin (ə) sözlərini nəql etmiş olacaqdı!!! Bu kitabda buna bənzər nümunələr çoxdur, onlardan bir hissəsinə qarşıda işarə edəcəyik.

* * *

**Müəllif deyir: "İmam Zeynəlabidin (r.a) Kufə əhlinə deyir: "Məgər bilmirsiniz ki, atama məktublar yazdınız, sonra onu aldatdınız, öz tərəfinizdən ona vədlər və qəti söz verdiniz, ardınca da onu yalnız qoyub ona qarşı savaşdınız?! Peyğəmbər (s) sizə "Mənim ailəmi qətlə yetirdiniz, ehtiramımı tapdadınız! Siz mənim ümmətimdən deyilsiniz!" dediyi vaxt onun üzünə necə baxacaqsınız?" ("əl-İhticac", 2/32).**

**Həmçinin onlar barədə deyir: "Bunlar bizim üçün ağlayırlar, halbuki bizi bunlardan başqasımı qətlə yetirdi?" ("əl-İhticac", 2/29).**

**İrad:** Bu rəvayətin sənədi zəifdir, buna rəğmən də həmin dövrdə yaşayan kufəliləri danlayır. Biz əvvəlki bəhslərdə həmin dövrlərdə Kufə əhalisinin şiə olmadıqlarını, Müaviyənin hakimiyyəti vaxtlarında artıq orada bir nəfər də olsun şiənin qalmadığını, eləcə də İmam Hüseynə (ə) qarşı döyüşə çıxanların arasında bir nəfər də olsun şiə kimi tanınan şəxsin olmadığını isbatladıq. Həmin bəhsi biz burada təkrarlamaq üçün oraya müraciət edin.

Bununla belə, müəllifin nəql etdiyi rəvayətdə İmam Zeynəlabidinin (ə) Şəbəs ibn Rib`i, Həccar ibn Əbcər və onlar kimi İmam Hüseynə (ə) məktub göndərib, sonra isə onunla savaşanları kəsləri danladığı aydın görünür. Bunlar və digərlər isə, yuxarıda da qeyd etdiyimiz kimi, əsla şiə deyildilər.

* * *

**Müəllif yazır: "İmam Baqir (r.a) deyir: "Əgər bütün insanlar bizim tərəfdarımız olsaydılar, onların dörddə üç hissəsi bizim barəmizdə şəkdə olanlar, digər hissəsi isə axmaqlar olardılar" ("Ricalul-Kəşşi", səh.79).**

**İrad:** Bu rəvayətin də sənədi zəifdir, Ravilərinin arasında Səllam ibn Səid əl-Cəmhi vardır ki, halı məchul şəxsdir, rical (tərcümeyi-hal) kitablarında etibarı təsdiqlənməyib.

Maməqani "Tənqihul-məqal"da yazır: "Səllam ibn Səid əl-Cuməhi. Onun barəsində əl-Kəşşinin "Rical"ında Əsləm Qəvvas əl-Məkkinin rəvayətilə bağlı fikir bildirilmişdir. Orada onda Asim ibn Hümeyd, o da Muhəmməd ibn Hənəfiyyənin qulamı Əsləmdən nəql edib. Tərcümeyi-hal kitablarında ona əhəmiyyət verilməyib, nə tərifinə və nə də pislənməsi barədə bir söz söylənməyib".[66]

Rəvayətin ravilərindən biri də Muhəmməd ibn Hənəfiyyənin qulamı Əsləmdir. Həmçinin onun da halı məchuldur, tərcümeyi-hal kitablarında etibarlılığı təsdiqlənməyib.

Buna əsasən, rəvayət səhih deyil və onun dəlil kimi təqdim etmək doğru sayılmır.

Mətninə nəzər saldıqda isə bunları demək olar: "Ərəbcə mətnində olan "ləv" kəlməsi səbəbin baş vermədiyinə görə nəticənin inkarına dəlalət edir. Bu rəvayətdə şiələrin dördə üçünün şəkdə, qalan bir hissəsinin də axmaq olması inkar edilmişdir, səbəb isə bütün insanların şiə olmamasıdır.

Buna əsasən, rəvayətdə şiəyə qarşı hər hansı bir irad yoxdur və onlara qarşı hər hansı bir məzəmmətə də dəlalət etmir.

Buna görə də heç kəsin Uca Allahın ***"Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı. Ərşin sahibi olan Allah (müşriklərin Ona) aid etdikləri sifətlərdən tamamilə uzaqdır!"***[67] sözünə istinad edərək Allahdan savayı ilahların olduğunu, yer və göylərin fəsada uğradığını söylədiyini görmürük. Çünki "ləv" ədatı bir şeyin baş verməsinin mümkünsüzlüyünə görə digərinin inkarına dəlalət edir. Bu ayədə də Allahdan savayı ilahların varlığının mümkünsüzlüyü yerlə göylərin fəsada uğramasını inkar etmiş olur.

Bəlkə də bu rəvayətdə məqsəd budur: Əgər bütün insanlar şiə olsaydılar onların dörddə üçün şəkdə, qalan hissəsi isə axmaq olardılar – yəni, belə olsaydı insanlar öz əqidələrini digərlərinə təqlid etməklə əldə edərdilər, onlara müxalif əqidəli bir kəs

---

[66] "Tənqihul-məqal", 2/43.

[67] "əl-Ənbiya" surəsi, ayə 22.

olmadığı üçün öz əqidələrini isbatlamağa ehtiyac duymazdılar, bu vəziyyət onları sonda həqiqət barədə şəkkə düşürərdi. Ancaq fərqli məzhəblərin mövcudluğu isə bunun əks nəticəsini verir. Belə ki, öz əqidəsinin dəlillərinin qarşı tərəfin dəlillərini puç etdiyini görən şəxs əqidəsinin haqq olduğuna yəqin iman bəsləyir və etiqadının əsaslandığı dəlilləri isbatlamış olur.

Yerdə qalan bir hissə isə düşüncəsiz və haqqı batildən ayıra bilməyən şəxslərdir, öz düşüncələri olmadığı üçün hər səslənən fikirlə razılaşıb, qəbul edirlər. Bu qisim insanlar hər bir dövrdə vardır. Əgər yer üzündəki insanların hamısı şiə olsaydılar, onlar da şiə olacaqdılar. Lakin çoxsaylı məzhəblərin varlığı ilə bərabər bu tip insanlar da fərqli dəstələr arasında bölünüblər və Allaha həmd olsun ki, onların çoxu da qeyri-şiələrin payına düşür. Belə ki, şiə az, digərləri isə çoxdur.

* * *

**Müəllif yazır: "İmam Sadiq (r.a) deyir: "Allaha and olsun, əgər sizin aranızda mənim sözlərimi gizləyəcək üç mömin tapsaydım, onlardan hədis gizlətməyi özümə rəva bilməzdim" ("Üsulul-kafi", 1/496).**

**İrad:** İmam (ə) bu rəvayətdə bildirir ki, əgər xitab etdiyi şəxslərin arasında onun xəbər verəcəklərini gizli saxlaya biləcək üç nəfər mömin olsaydı, onlardan bir şeyi gizlətməyi rəva bilməz, heç kəsin bilmədiyi ilahi sirlərdən və peyğəmbər təlimlərindən onları agah edərdi.

Məlumdur ki, İmam (ə) burada sözünü müəyyən şəxslərə ünvanlayır və bununla bütün şiələrə xitab etmir. Bunun dəlili isə hədisin ravisi olan İbn Riabın sözünə belə başlamasıdır: *"İmam Əbu Abdullah Sadiqin (ə) Əbu Bəsirə belə dediyini eşitdim:..".* Əgər İmamın (ə) məqsədi bütün şiələr olsaydı, o zaman ravi "İmam Əbu Abdullah Sadiq (ə) bizə dedi" deyərək onun sözlərini nəql edərdi.

Əgər İmamın (ə) bu sözlərini bütün şiələrinə ünvanladığını fərz etsək, o zaman ən pis halda hədisin dəlaləti belə olacaq ki, İmam (ə) onun hədislərini gizlədə bilən üç mömin şiə tapmır, tapmış olsaydı müəyyən məlumatları (elmləri) gizlətməyi rəva bilməzdi.

Bunda isə şiələrin imansızlığına və ya Əhli-Beyt (ə) xəttindən dönüklüklərinə dəlalət edən heç bir fikir yoxdur, yalnız İmamların (ə) hədislərini gizləmədikləri üçün

onları danlamış olur. Belə ki, onlar hədisləri müxaliflər arasında da yayırlar. Ancaq belə bir danlağı əhli-sünnə özü də danlaq hesab etmir. Onların fikrinə görə vəziyyət bunun tam əksidir və alqışa layiqdir. Çünki onlar hədis gizlətməyi münafiqlik və yalançılıq hesab edirlər.

İmam Muhəmməd Baqirin (ə) və İmam Sadiqin (ə) öz həmsöhbətləri olan müəyyən şiələrindən və ya onların əksəriyyətindən bəzi hədislərini gizləməsi, onlardan elm və maarifi əsirgəmələridir. Bu belə deyil, həqiqətdə onlar (ə) Əbu Bəsir, Zürarə, Muhəmməd ibn Müslim və digər bu kimi səhabələrini ali elmlərdən və bir çox sirlərdən agah etmişlər.

Cəmil ibn Dərracın səhih hədisində deyilir: *"İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "İtaətkarları Cənnətlə müjdələ: Büreydə ibn Müaviyə əl-İclini, Əbu Bəsir Leys ibn əl-Buxturi əl-Muradini, Muhəmməd ibn Müslimi və Zürarəni. Bu dörd nəcib şəxs Allahın halal və haramlarının əmanətdarlarıdır. Əgər onlar olmasaydı peyğəmbərliyin izləri yox olar yer üzündən silinərdi".*[68]

Süleyman ibn Xaliddən nəql olunan səhih hədisdə isə belə deyilir: *"İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "Zürarədən, Əbu Bəsir Leys əl-Muradidən, Muhəmməd ibn Müslimdən və Büreydə ibn Müaviyə əl-İclidən savayı bizim elmimizi və hədislərimi yaşadan bir şəxsi görmürəm. Əgər onlar olmasaydı heç kəs bunları (elmimizin dərinliklərini) kəşf etməyə çalışmazdı. Onlar dinin keşikçiləri, Allahın halal və haramları barədə atamın əmanətdarlarıdır. Onlar dünyada da, axirətdə də bizə tərəf gələn insanların önündədirlər".*[69]

İmamın (ə) onları Allahın və İmamın (ə) halal və haramlar barədə əmanətdarları, dinin keşikçiləri kimi vəsf etməsi bu qeyd edilən şəxslərin İmamların (ə) etibarını qazanmış və sirlərini açdıqları şəxslər olmasına aydın surətdə dəlalət edir. Əgər bu cür olmasaydı, onları belə xüsusiyyətlərlə vəsf etməzdi.

Buna baxmayaraq, bir çox rəvayətlərə əsasən, İmamlar (ə) digər şiələrini də dilədikləri elm və təlimlərdən agah edirdilər. Ona görə şiələrinə onların sirlərini

---

[68] "İxtiyaru mə`rifətir-rical", 2/398; "Vəsailuş-şiə", 18/103.

[69] "İxtiyaru mə`rifətir-rical", 2/348; "Vəsailuş-şiə", 18/104.

gizlətməyi tapşırır, onları camaat arasında yaymaqdan çəkindirirdilər. Əgər belə olmasaydı, hədislərini yaymalarını mübah bilər, gizlətməyi onlara buyurmaz, hər yerdə açıq-aşkar danışmalarından çəkindirməzdilər.

İmamların (ə) hədislərini gizlətməklə bağlı nəql edilən rəvayətlər çoxdur. Onlardan bəzilərini diqqətinizə çatdırırıq:

Kuleyninin (r.ə) kitabında Əbu Übeydə əl-Həzzaidən rəvayət olunan səhih hədisdə deyilir: *"İmam Əbu Cəfər Muhəmməd Baqirin (ə) belə buyurduğunu eşitdim: "Allaha and olsun, mənim üçün ən sevimli səhabəm onların ən təqvalısı, ən düşüncəlisi və hədislərimizi gizlətməyi bacaranıdır. Ancaq nəzərimizdə mənfur və vəziyyətləri ən pis olanları isə bizə istinad edilən və bizdən rəvayət olunan hədisi eşitdikdə onu qəbul etməyən, ondan hiddətlənən və inkar edəni, həmin hədisi dininin bir parçı bilənləri təkfir edənidir (küfrdə ittiham edənidir). Halbuki o bilmir ki, bəlkə də hədis həqiqətən bizim tərəfimizdən söylənib və bizə düzgün istinad edilib. O, bu inkarı ilə vilayətimizdən kənarlaşmış olur".*[70]

Muhəmməd ibn Əbu Nəsrdən nəql edilən səhih hədisdə deyilir: *"...İmam Əbu Cəfər Muhəmməd (ə) buyurdu: "Ali Davudun hikmətində deyilir: "Allaha təslim olan şəxs gərək nəfsinə sahib çıxsın, şəninə layiq addım atsın və öz zəmanəsini tanısın". Allahdan çəkinin, bizim hədislərimizi faş etməyin...".*[71]

Müəlla ibn Xüneysin səhih rəvayətində isə deyilir: *"İmam Əbu Abdullah Sadiq (ə) buyurdu: "Ey Müəlla, bizim sözlərimiz gizlə, onları (hər kəsə) yayma. Çünki bizim hədislərimiz gizləyib onu camaat arasında yaymayan şəxsə Uca Allah dünyada izzət bəxş edər, axirətdə isə onu (gizlətdiyi hədisimizi) alnında bir nura çevirər ki, nur onu Cənnətə yönəldər. Ey Müəlla, bizim sözlərimizi gizlətməyib faş edəni isə Allah dünyada zəlil edər, axirətdə alnındakı nuru ondan əsirgəyər, onu zülmətdə qərar verər ki, nəticədə Cəhənnəm oduna yönələr. Ey Müəlla, təqiyyə mənim və atalarımın dinidir, təqiyyəsi olmayanın dini də yoxdur. Ey Müəlla, Uca Allah Özünə aşkarda*

---

[70] "Usulul-kafi", 2/223; "Vəsailuş-şiə", 18/61.

[71] "Usulul-kafi", 2/223; "Vəsailuş-şiə", 11/492.

*ibadət edilməsini sevdiyi kimi, gizlində də ibadət edilməsini sevir. Ey Müəlla, bizim sözümüzü ifşa edənlər onu inkar etmiş kimidirlər”.*[72]

Zeyd əş-Şihamın hədisində deyilir: *“İmam Əbu Abdullah Sadiq (ə) buyurdu: “İnsanlara iki xislətə sahib olmaları əmr edilmişdi, onlar isə bunu zay etdilər və başqa bir şeyə yiyələndilər. Bu iki şey səbr və (hədislərimizi) gizlətməkdir”.*[73]

Və İmamların (ə) öz şiələrinə sirlərini söylədiklərinə və onları camaatdan gizləmələrini buyurduqlarına dəlalət edən digər çoxsaylı rəvayətlər...

Şiələrinə elmlərini gizlətməyi buyurmalarının səbəbi isə sözlərinin yayılmasından, zalım və zorakı xəlifələrə yetişməsindən və nəticədə onlara (ə) zərər verəcəklərindən çəkinmələri, yaxud hədislərini düzgün anlamayan şəxslərin əllərinə düşərək yanlış yozacaqlarından, bununla da onların azmalarına və çaşqınlıqda qalmalarına rəvac verəcəyindən qorxmalarıdır.[74]

İmamların (ə) hədislərini yaymamağı əmr etmələrinə rəğmən bəzi şiələr onları faş edirdilər. Bu ya həmin hədisin gizlədilməli olduğunu bilməmələri, ya faş olunmasının özü ilə gətirəcəyi zərərlərdən xəbərsiz olduqları, ya özlərinə asanlıqla diqqət cəlb etmək istəmələri, ya aldadılaraq söz alınması, ya öz zəiflikləri, ya müxaliflərin bundan xəbər tutması və ya bu kimi başqa səbəblərdən baş verə bilərdi.

* * *

**Müəllif yazır: “Fatimətus-suğra (ə.s)[75] Kufə əhlinə xitabən deyir: “Ey kufəlilər, ey xəyanət, hiylə və lovğalıq əhli! Biz Əhil-Beytik, Allah bizi sizinlə, sizi də bizimlə imtahan etdi. Bizim imtahanımızın nəticəsini gözəl etdi... siz isə bizi inkar etdiniz, bizi öldürməyi və mallarımızı qənimət götürməyi özünüzə halal bildiniz... necə ki, dünən babamızı da öldürmüşdünüz. Sizin qılınclarınızdan biz Əhli-Beytin qanı damlayır.**

---

[72] “Usulul-kafi”, 2/223; “Vəsailuş-şiə”, 11/485.

[73] “Usulul-kafi”, 2/222; “Vəsailuş-şiə”, 11/484.

[74] “Mir`atul-uqul”, 9/286.

[75] İmam Hüseynin (ə) qızı Fatimə (ə).

**Əlləriniz qurusun (məhv olasınız)! İndi oturub (Allahdan) lənət və əzab gözləyin, sanki o artıq sizin üzərinizə çökməkdədir... Bizə zülm etdiyinizə görə bəziləriniz də qiyamət günü əbədi ağrıdıcı əzabın acısını[76] dadacaqdır. Bilin ki, Allahın lənəti zalımların üzərindədir!**

**Ey kufəlilər, əlləriniz qurusun (ölüm olsun sizə!)! Qarşınızda Peyğəmbərdən (s) mən nə qədər sözlər söylədim.[77] Siz isə onun qardaşı Əli ibn Əbu Talibə, babama, onun oğullarına və pak ailəsinə xəyanət etdiniz".**

**Kufəlilərdən biri onun sözlərinə fəxrlə belə cavab verdi:**

**"Biz Əlini və Əlinin oğlanlarını**
**Hind qılıncı və nizələrilə öldürdük.**
**Qadınlarını isə türk qadınları kimi əsir aldıq.**
**Onları qarşıladığımız kimi qarşıladıq".**
**("əl-İhticac", 2/28).**

**Əmirəl-möminin Əlinin qızı Zeynəb (s.ə) kufəlilərə nifrin edərək dedi: "Ey kufəlilər! Ey hiylə, vəfasızlıq və xəyanət əhli... Siz saçlarını möhkəm hörüb, sonra hörüklərinin hamısını açıb bir-birinə qırışdıran (axmaq) qadına oxşayırsınız. Sizdə lovğalıqdan, xudbinlikdən, təkəbbürdən və yalandan başqa bir şey yoxdur. Siz (indi) mənim qardaşım üçün ağlayırsınız?! Bəli, Allaha and olsun ki, çox ağlayın və az gülün! Çünki elə bir rüsvayçılığı**

---

[76] "əl-İhticac"da isə belədir: "Bu dünyada bir-birinizin canına düşəcək, sonra isə qiyamət günü (odun) ağrıdıcı əzabda həmişəlik qalacaqsınız".

[77] "əl-İhticac" kitabındakı mətndə (2/27) isə belədir: "Qarşınızda Peyğəmbərdən (s) (onun vəsiyyət və nəsihətlərindən) nə qədər miras vardır. Qarşıda isə onun intiqamı sizi gözləyir. Siz (ondan) sonra babamı – Peyğəmbərin (s) qardaşı Əli ibn Əbu Talibi (ə), Peyğəmbərin (s) ailəsini – Əlinin (ə) pak və xeyirxah oğlanlarını öldürdünüz". Müəllifin nəql etdiyi kəlmələrdə nə qədər təhrif və yanlışlıqlara yol verdiyinə diqqət yetirin. Xüsusilə bundan öncəki kəlmələrdə bilərəkdən etdiyi təhrifi də nəzərdən qaçırmayın.

**bulaşdınız ki… Sonuncu peyğəmbərin övladının... qətlini (öz üzərinizdən) necə yüngül saydınız[78]?!" ("əl-İhticac", 2/29-30)".**

**İrad:** Əvvəldə də qeyd etdik ki, həmin vaxtlarda Kufə əhalisi şiə deyildi, İmam Hüseynin (ə) qatilləri arasında da şiə kimi tanınan bir nəfər də yox idi. Burada həmin sözləri təkrarlamağa ehtiyac duymuruq. Xanım Zeynəb və Fatimətus-Suğra (onlara salam olsun!) həmin dövrdə yaşayan kufəliləri tənqid edirdilər və sözlərindən də aydın olduğu kimi, sözlərini əsla şiələrə ünvanlamamışdılar.

* * *

**Müəllif yazır: "Qeyd etdiyimiz mətnlərdən (baxmayaraq ki, mövzu ilə bağlı bir çox mətni ümumiyyətlə təqdim etmədik) aşağıdakı nəticələri əldə edirik:**

**1. Əmirəl-mömininin və nəslinin Kufə şiələrinin xəyanət, hiyləgərlik və vəfasızlıqlarından usanmaları və çəkdikləri acılar;**

**2. Kufəlilərin Əhli-Beytin qanının tökülməsinə və ehtiramlarının tapdanmasına səbəb olan xəyanət və vəfasızlığı;"**

**İrad:** Biz bir daha təkrarlayırıq: Kufə əhalisi həmin vaxt şiə deyildilər. Əksinə, onlar Əbu Süfyan ailəsinin şiələri ( tərəfdarları) və Əhli-Beytin (ə) düşmənləri idilər. Onların əməlləri də bizim dediklərimizi təsdiqləyir. O hadisələrlə şiələrin heç bir əlaqəsi olmayıb. Əvvəldə etdiyimiz iradlara müraciət edin.

* * *

**Müəllif yazır: "3. Əhli-Beyt (ə) Hüseynin (r.a) və onunla birlikdə olanların qətlinin məsuliyyətini şiələrin üzərinə qoyur. Belə ki, kufəlilərdən biri də Fatimətus-Suğranın sözlərinə verdiyi cavabında Əlinin və oğlanlarını məhz onlar tərəfindən öldürüldüklərini və qadınlarını əsir aldıqlarını etiraf edir. Necə ki, yuxarıdakı mətndə bunu təqdim etdik".**

**İrad:** Əhli-Beytin (ə) sözlərində İmam Hüseynin (ə) qətlinin məsuliyyətini şiələrin üzərinə qoyduqlarına dair heç bir ifadə yoxdur, həmçinin Hüseynin (ə) sözləri arasında da Kərbəlada toplaşmış kəsləri özünün şiələri kimi vəsf edən bir kəlmə də

---

[78] "əl-İhticac"da isə: "…qətlini (üzərinizdən) nə ilə yuyacaqsınız?".

yer almayır. Əksinə, əvvəldə də qeyd etdiyimiz kimi, onları Əbu Süfyanın şiələri (tərəfdarları) kimi vəsf edir.

Bir kufəlinin Xanım Fatimətus-Suğraya (ə) verdiyi cavaba gəldikdə, bu, heç də təəccüblü deyildir. Çünki İmam Hüseynin (ə), əshabının və ailəsinin qətlinin icraçıları birbaşa kufəlilərdir. Lakin onların heç biri şiə deyildilər. Müəllif isə həmin dövrdə yaşayan kufəlilərin və ya İmam Hüseynlə (ə) Kərbəlada döyüşənlərin Əhli-Beyt (ə) şiələri olduqlarına dair bir dənə də olsun dəlil təqdim etmir. Eləcə də İmam Hüseynin (ə) qətlinin məsuliyyətini şiələrin üzərinə qoyduqlarına dair Əhli-Beytin (ə) də heç bir sözünü sübut kimi göstərmir. Onun bütün iddiaları puç və dəlilsizdir. Əksinə, dəlillər onun iddialarına ziddir.

* * *

**Müəllif yazır: "4. Əhli-Beyt (ə) şiələrinə dua edərək (!) onları bu ümmətin tağutları və (Peyğəmbərlə (s) savaşan) qoşunların qalıqları, kitabı kənara atanlar olaraq vəsf edirlər. Sonra bu sözlərinin ardınca əlavə olaraq deyirlər: "Bilin ki, Allahın lənəti zalımların üzərinədir!"**

**İrad:** İmam Hüseynin (ə) bu ümmətin tağutları, Peyğəmbərlə (s) savaşanların qalıqları və kitabı kənara atanlar kimi səciyyələndirdiyi kəslər onu öldürmək üçün Kərbəla çölünə toplaşmış şəxslərdir. O, onları Əbu Süfyanın şiələri olaraq vəsf edir. Onların heç biri İmam Hüseynin (ə) şiəsi, dostu və ya ona məhəbbət bəsləyən şəxslərdən deyildi. Söylədiklərimizin doğruluğuna əmin olmaq üçün İmam Hüseynin (ə) orada söylədiyi sözlərə nəzər sal.

* * *

**Müəllif yazır: "Ona görə də fəqihlərinin rəvayət etdikləri bir hədisdə nəql edildiyinə əsasən, şiələr İmam Əbu Abdullah Sadiqin (ə) yanına gəlib belə demişdilər: "Biz özümüzə elə bir ləqəb götürmüşük ki, onun ağırlığı bizim belimizi bükür, mənfəətlərimiz aradan gedir (və ya qəlblərimiz ölür), fəqihlərinin onlara rəvayət etdikləri hədislərlə (sözlərlə) məmurlar qanımızı halal bilir". Əbu Abdullah (ə) onlardan "Rafizi (inkarçı)" ləqəbini nəzərdə tutursunuz?" deyə soruşduqda isə onlar "Bəli" deyə cavab verdilər. Buyurdu:**

**"Xeyr, Allaha and olsun ki, sizi onlar belə adlandırmayıblar… Allah sizi bu cür adlandırıb" ("əl-Kafi", 5/34).**

**Əbu Abdullah onları əhli-sünnənin deyil, Allahın "rafizi" adlandırdığını bəyan etdi".**

**İrad:** Bu hədisin sənədi zəifdir. Belə ki, hədisin raviləri arasında Səhl ibn Ziyad adlı şəxs vardır ki, o, alimlərin məşhur rəyinə əsasən, zəif ravidir.

Nəcaşi onun barəsində deyir: "Səhl ibn Ziyad Əbu Səid əl-Adəmi ər-Razi. Hədis nəqlində zəifdir, onu etimad olunmaz. Əhməd ibn Muhəmməd ibn İsa onun ğali (həddi aşan düşüncələrə sahib) və yalançı olduğuna şahidlik edirdi. Onu Qumdan Reyə sürgün etmiş və o, orada məskunlaşmışdı…".[79]

Şeyx Tusi yazır: "Səhl ibn Ziyad Əbu Səid əl-Adəmi ər-Razi. Künyəsi Əbu Səiddir. Zəifdir".[80]

Təhqiqatçı Xoyi "Mö`cəmu ricalil-hədis" kitabında yazır: "Nəcaşi və Şeyx Muhəmməd ibn Əhməd ibn Yəhyanın tərcümeyi-halında yazırlar: "İbn Vəlid Muhəmməd ibn Əhməd ibn Yəhyanın rəvayətləri arasından digərləri ilə bərabər Səhl ibn Ziyad əl-Adaminin rəvayətlərini də istisna etmişdir. Şeyx Səduq və İbn Nuh da onun bu addımını izləmişdir. Onlar Muhəmməd ibn Əhməd ibn Yəhyanın Səhl ibn Ziyaddan nəql etdikləri rəvayətlərə etimad etməmişlər. İbn Ğəzairi deyir: "Səhl ibn Ziyad Əbu Səid əl-Adəmi ər-Razi: Olduqca zəif ravidir, rəvayətləri və məzhəbi (əqidəsi) fasiddir (zaydır). Əhməd ibn Muhəmməd ibn İsa əl-Əş`əri onu Qumdan sürgün etmiş və ondan (onun söz və düşüncələrindən) uzaq olduğunu elan etmiş, camaata ondan hədis dinləməyi və rəvayət etməyi qadağan eləmişdi. O, mürsəl hədislər nəql edirdi və dəqiq olmayan sözlərə etimad göstərirdi".[81]

Və deyir: "Necə də olmasın?! Səhl ibn Ziyad əl-Adəmi qəti olaraq zəifdir, onun inanılan şəxs olması sübuta yetməyib".[82]

---

[79] "Ricalun-Nəcaşi", 1/417.

[80] "əl-Fihrist", Tusi, səh.142.

[81] "Mö`cəmu ricalil-hədis", 8/339.

[82] "Mö`cəmu ricalil-hədis", 8/340.

Rəvayətin ravilərindən biri də Muhəmməd ibn Süleymandır. O, Muhəmməd ibn Süleyman əl-Bəsri əd-Deyləmidir. Onun zəif ravi olduğunu yuxarıda qeyd etmişik (səhifə 35-ə baxın).

Həmçinin onların arasında Süleyman ibn Abdullah əd-Deyləmi vardır. O, yuxarıda adını qeyd etdiyimiz ravi Muhəmməd ibn Süleymanın atasıdır. Nəcaşinin onun barəsindəki sözlərini sizə nəql etdik ki, o, (söz və düşüncələrində ğüluvv edən) həddi aşan və yalançı şəxs idi.  Həmçinin oğlu Muhəmməd də elə idi. Təkcə onlardan nəql edilən rəvayətlərə əməl olunmaz.

Sənəd cəhətindən rəvayətin vəziyyəti belədir. Mətninə gəldikdə, rəvayət şiələrin tənqidinə deyil, mədhinə dəlalət edir. Kuleyninin (q.s) "əl-Kafi"də rəvayət etdiyi bu hədisi tam mətnilə sizə təqdim ediirik:

Kuleyni yazır: "Əshabımızdan bir neçə nəfər Səhl ibn Ziyaddan, o da Muhəmməd ibn Süleymandan, o da atasından nəql edir: "İmam Əbu Abdullah Sadiqin (ə) yanında idim. Bu vaxt Əbu Bəsir onun yanına gəldi, (İmamın (ə) hüzurunda və oradakıların qarşısında) həya edirdi. Keçib yerinə əyləşdikdə İmam Əbu Abdullah Sadiq (ə) ona buyurdu: *"Ey Əbu Muhəmməd, göstərdiyin bu çəkingənlik və həyanın səbəbi nədir?" Dedi: "Ey peyğəmbər övladı, sənə fəda olum! Yaşlaşmışam, sümüklərim zəifləyib, əcəlim yaxınlaşıb, axirətdə nə ilə qarşılaşacağımı bilmirəm". İmam Əbu Abdullah Sadiq (ə) buyurdu: "Ey Əbu Muhəmməd, bunu sənmi söyləyirsən?!" Dedi: "Sənə fəda olum, necə də söyləməyim?!" Buyurdu: "Ey Əbu Muhəmməd, məgər bilmirsənmi ki, Uca Allah sizin gənclərinizə ehtiram göstərir, ahıllarınızdan isə həya edir?" Ardınca dedi: "Allah gənclərinizə ehtiramı göstərib əzab verməz, ahıllarınızdan həya edib onları hesaba çəkməz". Dedim: "Sənə fəda olum, bu yalnız bizə xas xüsusiyyətdir, yoxsa bütün tövhid əhlinə?" Deyir: "Buyurdu: "xeyr, Allaha and olsun ki, bu aləmdən yalnız sizə məxsus xüsusiyyətdir". Dedi: "Dedim: "Sənə fəda olum, bizə elə ləqəb qoyulub ki, bu bizim belimizi qırıb, mənfəətlərimiz aradan gedib (qəlblərimiz (qorxudan) ölüb), fəqihlərinin onlara (valilərə) nəql etdikləri sözlərə görə məmurlar bizim qanımızı halal biliblər". İmam (ə) buyurdu: ""Rafizi (inkar edən)" ləqəbini nəzərdə tutursan?" Dedi: "Dedim: "Bəli". Buyurdu: "Xeyr, Allaha and olsun ki, sizi onlar deyil, Allah "rafizi"*

*adlandırıb. Ey Əbu Muhəmməd, məgər bilmirsənmi ki, Fironu və onun qövmünü zəlalətdə olduqları aydınlaşdıqda İsrail övladlarından yetmiş nəfər onları inkar etmiş, hidayət üzərində olması özlərinə aydınlaşan Musaya (ə) qoşulmuşdular. Onlar Musanın əsgərləri arasında "Rafizi" deyə adlandırılırdılar. Çünki onlar Fironu inkar etmişdilər. Onlar əsgərlər arasında ən çox ibadət edən, Musanı (ə), Harunu (ə) və onların nəslini ən çox sevən şəxslər idilər. Uca Allah Musaya (ə) belə vəhy etmişdi: "Onların bu adlarını (rafizi adını) Tövratda qeyd et. Mən onları belə adlandırmış və bu adı onlara vermişəm". Musa (ə) onların adını Tövrata belə yazdı. Sonra da Uca Allah bu adı sizin üçün saxladı və sizə verdi. Ey Əbu Muhəmməd, onlar (müxaliflәriniz) xeyri, siz isə şəri inkar etmişsiniz. Camaat firqələrə, dəstələrə parçalanmışlar. Siz isə Peyğəmbərinizin (ə) Əhli-Beytilə (ə) birlikdə qalmışsınız, onların getdikləri yolla gedirsiniz, Allahın sizin üçün seçdiyi şəxsləri özünüzə öndər seçmiş, Allahın iradə etdiyi şəxsləri qəbul etmişsiniz. Müjdələnin, bir daha müjdələnin! Allaha and olsun, siz mərhəmət olmuş, əməlləri qəbul edilmiş və günahları bağışlanmış şəxslərsiniz. Qiyamət günü Allahın hüzuruna sizin sahib olduğunuzla (əqidənizlə) gəlməyən kəslərin xeyir əməlləri qəbul edilməz, günahları bağışlanmaz. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allahın mələkləri vardır ki, külək payızda yarpaqları düşürdüyü kimi, onlar da bizim şiələrin üzərindən günahlarını düşürürlər (götürürlər). Bu, Uca Allahın Qurandakı sözüdür:* ***"Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir,.. möminlərin bağışlanmasını diləyərək belə deyirlər...".[83]*** *Allaha and olsun ki, onlar məxluqlardan yalnız sizin üçün bağışlanma diləyirlər. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allah Kitabında sizləri yad edərək belə buyurur:* ***"Möminlər içərisində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü)***

[83] "əl-Mu`min" surəsi, ayə 7.

***əsla dəyişməzlər".***[84] *Siz Allahın bizim vilayətimizə dair sizlərdən aldığı sözə sadiq qalanlarsınız, siz bizi başqalarına dəyişmədiniz. Əgər bunu etməsəydiniz, Allah sizi də onlar kimi danlayardı. Belə ki, Uca Allah Quranda buyurur:* ***"Onların əksəriyyətində əhdə vəfa görmədik. (Əksinə) onların əksəriyyətini (Allahın itaətindən çıxmış, Onun əmrlərini pozmuş) günahkar kəslər gördük".***[85] *Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allah sizi Kitabında yad edərək buyurur:* ***"...Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər".***[86] *Allaha and olsun ki, bu sözlərilə sizdən başqasını nəzərdə tutmayıb. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, (Uca Allah buyurur:)* ***"Müttəqilər müstəsna olmaqla, o gün dostlar bir-birinə düşmən kəsiləcəklər!".***[87] *Allaha and olsun ki, bu ayədə nəzərdə tutulan müttəqilər sizsiniz. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allah Öz kitabındakı bir ayədə bizi, şiələrimizi və düşmənlərimizi yad edərək buyurur:* ***"De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!""***[88] *Bilənlər bizik, bilməyənlər düşmənlərimizdir, ağıl sahibləri isə şiələrimizdir. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Allaha and olsun, Uca Allah peyğəmbərlərin canişinlərindən və onların ardıcıllarından yalnız Əmirəl-möminini (ə) və onun şiələrini xüsusi imtiyazla istisna etmiş, Kitabın belə buyurmuşdur ki, şübhəsiz ki, Onun sözü haqdır:* ***"O gün dostun dosta heç bir faydası olmaz, onlara kömək də edilməz! Allahın rəhm etdiyi kimsədən başqa!"***[89] *Yəni, Əlidən (ə) və*

---

[84] "əl-Əhzab" surəsi, ayə 23.

[85] "əl-Ə`raf" surəsi, ayə 102.

[86] "əl-Hicr", surəsi, ayə 47.

[87] "əz-Zuxruf" surəsi, ayə 67.

[88] "əz-Zumər" surəsi, ayə 9.

[89] "əd-Duxan" surəsi, ayə 41-42.

*şiələrindən başqa. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allah sizi Öz kitabında yad edərək buyurur:* **"Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!"**[90] *Allaha and olsun, bu sözlərilə sizdən başqasını nəzərdə tutmayıb. Səni sevindirdimmi, ey Əbu Muhəmməd?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allah sizi kitabında yad edərək buyurur:* **"...bəndələrim üzərində (onları yoldan çıxarıb günaha vadar etməyə) sənin (Şeytanın) heç bir hökmün olmaz!"**[91] *Allaha and olsun ki, bu sözdə məqsədi yalnız İmamlar (ə) və onların şiələridir. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allah sizin barənizdə Quranda buyurur:* **"Onlar Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (tamamilə doğru danışanlar, etiqadı dürüst şəxslər), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləriylə) bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!"**[92] *Bu ayədə Peyğəmbər nəbilər, biz siddiqlər və şəhidlər, siz isə salehlər sırasındasınız. Allah sizi adlandırdığı kimi, siz də özünüzü salehlər olaraq adlandırın. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, Uca Allah Cəhənnəm odundakı düşmənlərinizdən bəhs edərkən də sizi yad etmiş və buyurmuşdur:* **"Deyəcəklər: "(Dünyada) pis adamlar saydığımız kəsləri niyə burda görmürük? Biz onları məsxərəyə qoyurduq. Yoxsa onlar gözə dəymirlər?!"**[93] *Allaha and olsun ki, bu ayədə də məqsəd sizsiniz. Dünya əhli sizi ən pis və azğın insanlar olaraq görürlər, halbuki Allaha and olsun ki, siz Cəhənnəm odu arasında axtarılsanız da Cənnətdə sevinc və şadlıq içindəsiniz. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et".*

---

[90] "əz-Zumər" surəsi, ayə 53.

[91] "əl-Hicr" surəsi, ayə 42.

[92] "ən-Nisa" surəsi, ayə 69.

[93] "Sad" surəsi, ayə 62-63.

*Buyurdu: "Ey Əbu Muhəmməd, Quranda Cənnətə vəd edilən, xeyirxah əməllərinin yad olunduğu elə bir ayə yoxdur ki, o ayə bizim və şiələrimiz haqda olmasın. Şər əməlləri yad edən və Cəhənnəmə götürüləcəklərini bildirən elə bir ayə yoxdur ki, bizim düşmənlərimiz və müxaliflərimizə şamil olmasın. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?" Dedi: "Dedim: "Sənə fəda olum, davam et". Buyurdu: "Ey Əbu Muhəmməd, yalnız biz və bizim şiələrimiz İbrahimin (ə) dini üzərindəyik. Digər insanlar isə bundan uzaqdırlar. Ey Əbu Muhəmməd, səni sevindirdimmi?"* Digər rəvayət isə "Bu mənə yetərlidir" dediyi qeyd olunur".[94]

Oxucunun da anlayacağı kimi, bu rəvayət bütünlüklə şiələrin mədhinə və tərifinə söylənib, "rafizi" (inkarçı) kəlməsini haqq əhli üçün Allahın seçdiyini bəyan edir. Bu kəlmədəki məqsəd isə batili inkar edərək haqqa tapınanlardır.

Lakin müəllif hədisin cümlələrini kəsərək nəql etmiş, bununla da rəvayətdə şiələrin tənqid edildiyi təəssüratını oxucuda yaratmaq istəyib. Bu, müəllifin nəql etdiyi dəlillərdə etibarsızlığını, əmin şəxs olmadığını və iddialarında yanlışlığını bir daha təsdiqləyir.

* * *

**Müəllif yazır: "Bu mətni dəfələrlə oxudum, üzərində çox düşünüb-daşındım. Xüsusi bir qovluqda saxladım, neçə-neçə gecələri buna və sizə nəql etdiyi bu sözlərə baxaraq keçirdim. Bunlara baxdıqca içimdən yalnız yüksək səslə belə deмək gəlirdi: "Ey Əhli-Beyt, şiələrinizdən çəkdiklərinizə görə Allah sizin yardımçınız olsun!"**

**İrad:** Əgər müəllif özünün iddia etdiyi kimi, gerçəkdən də fəqih və həqiqət axtaran bir şəxs idisə, o zaman rəvayətlərin mətnləri ilə oynamaq bir kənara dursun, zəif və mürsəl deyil, yalnız səhih hədisləri dəlil olaraq götürməli, öz iddialarının doğruluğunun isbatı üçün bizə bircə də olsa, səhih rəvayət təqdim etməli idi. Halbuki o, zəif və ya səhihliyini araşdırmadan, dəlil sayılıb-sayılmadığına məhəl qoymadan gözünə sataşan bütün rəvayətləri kitabında nəql edib.

---

[94] "əl-Kafi", 8/28.

Fəqihlik və ictihad iddiası edən bir kəs üçün olduqca təəccüblü bir haldır! Fəqih bir şəxs dəyərli ilə dəyərsiz arasında necə fərq qoymağı bacarmaz, zəif rəvayətlərə əsaslanıb (iddiasına görə) əqidəsində şəkkə düşə bilər, şiənin mədhinə və fəzilətlərinin bəyanına dair söylənmiş saysız səhih hədislərə göz yumar?! Halbuki bu mövzuda olan hədislərin sayı yüzlərlədir. Bundan əlavə, onların fəzilətlərinə dair Peyğəmbərin (s) və İmamların (ə) hədislərini həm şiələr və həm də sünnilər öz kitablarında nəql ediblər. Onların bəzisi məşhurdur və inkar olunmayacaq həddədir. Hətta bəzi əhli-sünnə mənsubları mədh olunan həmin şiələrin məhz özləri olduqlarını da iddia etmişlər. Necə ki, Mötəzililər də bunu iddia edirdilər.

İbn Həcər əl-Heytəmi özünün "əs-Səvaiqul-muhriqə" kitabında yazır: "Onun (yəni Əlinin (ə)) şiələri onu Allahın və Peyğəmbərinin (s) buyurduğu kimi, sevən əhli-sünnə mənsublarıdır. Digərləri isə həqiqətdə onun düşmənləridir. Çünki şəriətdən kənara çıxmış məhəbbət və hidayətdən qopmuş sünnə əslində ən böyük ədavətdir. Bu səbəbdən (həmin məhəbbət) həlaka səbəb olur".[95]

İbn Əbul-Hədid "Nəhcul-Bəlağənin şərhi" kitabında yazır: "Həmin əsr şiə yalnız onu (yəni Əlini (ə)) digərlərindən üstün tutanlara deyilirdi. Onu üstün bilənlər şiə adlandırılırdı. Şiələrin fəzilətləri və üstünlükləri, onların cənnət əhli olmaları, nemətlər içində əbədi qalacaqları ilə bağlı nəql olunan bütün rəvayət və xəbərlər yalnız onlara aiddir. Buna görə də Mötəziləli yoldaşlarımız öz kitab və əsərlərində belə demişlər: "Həqiqi şiələr bizik". Bu, doğruya ən yaxın, təfrit və ifrat əhlinin iddialarındansa, haqqa ən çox bənzəyən sözdür".[96]

Şiənin fəziləti belə yüksək səviyyədə olduğu halda, müəllifin nə üçün zəif və mürsəl hədislərə etimad etdiyini, şiələrin üstünlüklərinə və nicat tapacaqlarına dəlalət edən çox sayda səhih hədislərə göz yumduğunu anlamaq olmur!

* * *

**Müəllif iddia edir: "Nəbi və rəsullarının, xüsusilə də Peyğəmbərimizin (s) öz qövmündən hansı əziyyətləri gördüklərini yaxşı bilirik. Lakin mən iki nəfərə**

---

[95] "əs-Səvaiqul-muhriqə", səh.183.

[96] "Nəhcul-Bəlağənin şərhi", 4/522.

**təəccüb edirəm. Onlardan biri Musadır (ə). O, İsrail oğullarına qarşı səbr göstərdi. Belə ki, Qurani-Kərim Musanın (ə) hadisələrini digərlərindən daha çox nəql edib, İsrail oğullarının bir çox əziyyətlərinə, üz döndərmələrinə, hiylələrinə və fitnələrinə necə səbr etdiyini açıqlayıb.**

**Həmçinin şiə mərkəzi olan Kufə əhalisindən gördükləri xəyanətlər, vəfasızlıqlar, qətllər, mallarının qəsb olunması və s. qarşılığında necə böyük səbr göstərdiklərinə görə Əhli-Beytə təəccüb edirəm. Bütün bunlara rəğmən biz (şiələr) əhli-sünnəni məzəmmət edir, bunun məsuliyyətini onların üzərinə qoyuruq!"**

**Cavab:** Ötən bəhslərdə qeyd etdiyimiz kimi, Kufə əhalisi şiə deyildilər, həmin dövrün əhli-sünnə əqidəsində idilər. Burada həmin sözləri təkrarlamağa lüzum görmürük.

Belə ki, müəllif Kufə əhalisinin İmam Hüseynə (ə) və əshabına qarşı böyük cinayətləri barədə dəlillər nəql etmir, kufəlilərin digər İmamlara (ə) qarşı rəftarlarına nəzər yetirmir. Onları bütün Əhli-Beyt imamlarına (ə) qarşı pis rəftar göstərməkdə ittiham etməsini anlamaq olmur!

Təəccüblüdür, müəllif Əməvilərin Əhli-Beytə (ə) qarşı düşmənçiliklərini ya unudub, ya da bilərəkdən bu faktlara göz yumub. Halbuki kufəlilərin etdikləri hər bir pislik Əməvilərin və onların hakimiyyət dairələrinin birbaşa əmri və göstərişlərilə icra edilirdi.

Məgər müəllif Müaviyəni, Əmr ibn Ası, Ziyad ibn Əbihi, Müğeyrə ibn Şəbəni, Busr ibn Ərtəəni, Təlhəni, Zübeyri və onlarla birlikdə Əli (ə) ilə savaşanları şiə olaraq görür?!

Məgər Yezid ibn Müaviyənin, Übeydullah ibn Ziyadın, Ömər ibn Sədin, Şimr ibn Zil-Cövşənin və onlarla birlikdə İmam Hüseynin (ə) qətlində əlbir olanların şiə olduqlarını düşünür?!

Üməyyə oğullarının Əhli-Beytə (ə) qarşı cinayətlərini yalnız qəlbini Allahın kor etdiyi və bəsirətini aradan apardığı kəslər inkar edər!

Qurtubi yazır: "Bu vəsiyyət və böyük təkid Peyğəmbərin (s) ailəsinə ehtiramın, onlara qarşı xeyirxah davranmağın, hörmət etməyin, məhəbbət bəsləməyin

vacibliyinə hökm edir və bundan üz çevirən kəsə heç bir üzr yeri qoymur. Bütün bunlarla yanaşı onların Peyğəmbərə (s) olan yaxınlıqları və onun bir parçası olduqları bilinməkdədir. Belə ki, onlar Peyğəmbərin (s) kökündən mənşə tapmış budaqlarıdırlar. Necə ki, buyurur: *"Fatimə mənim bir parçamdır".* Buna rəğmən Üməyyə oğulları kobudcasına bu haqlara xilaf çıxdılar və onlarla düşmənçilik etdilər, qanlarını axıtdılar, qadınlarını və körpələrini əsir götürdülər, yurdlarını viran qoydular, şərəf və fəzilətlərini inkar etdilər, onları söyməyi və lənətləməyi tələb etdilər. Bununla da Mustafanın (s) vəsiyyətinə qarşı çıxdılar, onun daşıdığı məqsədləri tapdadılar. Peyğəmbərin (s) qarşısında dayanacaqları gün vay olsun onlara! Onun (s) qarşısına gətiriləcəkləri gün vay olsun qarşılaşacaqları rüsvayçılığa!"[97]

Həmçinin əhli-sünnə alimlərinin Əhli-Beyti (ə) Allahın onlar üçün müəyyən etdiyi məqamdan endirmək, fəzilətlərinin və üstün əməllərinin inkar etmək cəhdlərinə oxucunun nəzər salması da yetərlidir. Onlar hətta tüləqa və münafiqləri, İslamda heç bir keçmişi olmayanları Əhli-Beytdən (ə) öndə tutmuş, fəzilətlərini onların adlarına çıxarmışlar. Sanki Peyğəmbər (s) Əhli-Beytini deyil, məhz onları ümmətə vəsiyyət etmiş və onlara sevgi bəslənməsini buyurmuşdur.

İbn Qüteybə əd-Dinəvəri "əl-İxtilafu fil-ləfz" kitabında yazır: "Hədisşünaslardan çoxu Əlinin (kərrəməllahu vəchəh) fəzilətlərinə dair hədis nəql etməkdən və ya barəsində layiq olduğu sözləri söyləməkdən çəkinmişlər. Halbuki onunla bağlı hədislərin səhih mənbələri vardır. Onlar Əlinin oğlunu dindən üz döndərmiş, müsəlmanların birliyini pozan şəxs kimi təqdim etmiş, qanını halal bilmiş və bu işdə Peyğəmbərin (s) sözünə əsaslanmışlar: *"Kimliyindən asılı olmadan, ümmətimə qarşı çıxan dəstəni öldürün".* Həmçinin fəzilətdə onları Şura əhli ilə bərabər tutmuşlar. Belə ki, əgər Ömər onun fəzilətini görsəydi, onu şuradakılardan üstün tutar və məsələni Şuraya həvalə etməzdi. Beləliklə də ona və fəzilətlərinə qarşı səhlənkarlıq etdilər və nəticədə alimlər onun üstünlüklərinə dair hədis söyləməkdən də çəkindilər, bütün fəzilətləri Əmr ibn Asın və Müaviyənin adına çıxdılar. Sanki məqsədləri heç de

[97] "Feyzul-Qədir", 3/14.

o ikisi deyildi, məhz Əli idi. Əgər bir kəs desə ki, "Əli Peyğəmbərin qardaşı və nəvələri Həsən və Hüseynin atasıdır; Əba əhli Əli, Fatimə, Həsən və Hüseyndir" sanki qəlblərinə tikanlar batacaq. Əgər bir kəs Peyğəmbərin (s) *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"* və ya *"Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbətidir"* və bu kimi sözlərini yad etsə, rafizilərə (şiələrə) qarşı nifrətlərindən və onların Əliyə (ə) olan bağlılıqlarından dolayı həmin an bu hədisləri puç çıxarmaq üçün yollar axtarmağa və əhəmiyyətini kiçiltməyə can atacaqlar".[98]

Bütün bunlar baş verməzdən öncə Peyğəmbər (s) bu haqda məlumat vermişdi. Hakim Nişapuri "əl-Müstədrək"də, Nüeym ibn Həmmad "əl-Fitən" kitabında Əbu Səid Xudridən nəql edirlər: "Peyğəmbər (s) buyurdu: *"Məndən sonra Əhli-Beytim ümmətim tərəfindən qətl və məhrumiyyətə məruz qalacaq. Bizə qarşı ən çox nifrət bəsləyən Üməyyə, Müğeyrə və Məxzum oğulları olacaq".*

Hakim yazır: "Bu, istinadı səhih hədisdir, Buxari və Müslim kitablarında nəql etməyiblər".[99]

Möhtərəm oxucu, indi bax ki, Əhli-Beyt (ə) müsibətlərə öz şiələrindən, aşiqlərindən, ardıcıllarından və onları digərlərindən üstün tutan şəxslər tərəfindən düçar olub, yoxsa onların qanları axıdan, üstünlüklərini inkar edən və onlara nifrət bəsləyən düşmənləri tərəfindən?!

* * *

[98] "əl-İxtilafu fil-ləfz", səh.41-42.

[99] "əl-Mustədrəku ələs-səhiheyn", 4/534, Heydərabad çapı, 4/487; "əl-Fitən", Nüeym ibn Həmmad, səh.83.

### Şiələr Peyğəmbərə (s) və Əhli-Beytini (ə) bədnam edirlərmi?

**Müəllif iddia edir: “Mötəbər kitablarımızı oxuduğumuz zaman orada olduqca təəccüblü və qəribə faktlarla qarşılaşırıq. Bəlkə də “Biz şiələrin kitabları Əhli-Beyti (ə) və Peyğəmbəri (s) bədnam edir və ləkələyir” deyilsə, bizlərdən heç biri onun sözünü təsdiqləməz. Bu faktları sizə təqdim edirik:**

**Əmirəl-mömininindən (r.a) rəvayət olunur: “Peyğəmbərin ulağı Ğüfeyr dedi: “Atam, anam sənə fəda olsun, ya Peyğəmbər! Atam mənə atasından, o da babasından, o da atasında belə söylədiyini nəql edib: “O, Nuh peyğəmbərlə birlikdə gəmidə idi. Nuh onun arxasına əlini sürtüb dedi: “Bu ulağın sülbündən bir ulaq dünyaya gələcək ki, nəbilərin ağası və sonuncusu onun üzərində gəzəcək”. Allaha həmd olsun ki, məni həmin ulaq qərar verib” (“Usulul-Kafi”, 1/237)”.**

**Cavab:** Bu rəvayət mürsəl olduğu üçün sənədi zəifdir. Həmçinin ravilər arasında Səhl ibn Ziyad əl-Adəmi vardır. Onun tərcümeyi-halını əvvəldə qeyd etmişdik.

Əllamə Məclisi “Mir`atul-uqul” kitabında yazır: “Hədis zəifdir, sənədinin sonu mürsəldir”.[100]

Fəqihlik və ictihad iddiasında olduğu halda müəllifin zəif rəvayətləri dəlil kimi təqdim etməsi çox təəccüblüdür! O, zəiflə səhihi bir-birindən ayıra bilmir, halbuki hədisin mürsəl olduğu gün kimi aydındır.

* * *

**Müəllif iddia edir: “Bu rəvayət bizə aşağıdakı nəticələri verir:**

**1. Ulaq danışır!**

**2. Ulaq Peyğəmbərə (s) “Atam, anam sənə fəda olsun!” deyə xitab edir. Halbuki canlarını, ata və analarını Peyğəmbərə (s) fəda edənlər ulaqlar deyil, müsəlmanlar idilər.**

**3. Ulaq deyir: “Atam mənə atasından, o da babasından, o da atasında belə söylədiyini nəql edib”. Bu onun dördüncü babası olur. Halbuki Muhəmmədlə**

[100] “Mir`atul-uqul”, 3/48.

**Nuh arasında min illərlə müddət vardır. Ancaq ulaq dördüncü babasının Nuhun yanında olduğunu deyir".**

**Cavab:** Rəvayətin zəifliyini bildikdən sonra onun mövzusu barəsində söz söyləmək artıqdır. Lakin buna rəğmən deyə bilərik: Ulağın möcüzəvi şəkildə danışmasının heç bir maneəsi yoxdur. Belə ki, hüdhüd quşu da Süleymanla (ə) danışmışdı. Bunda heç bir qeyri-adilik yoxdur.

Ulağın "Atam, anam sənə fəda olsun!" sözünə gəldikdə, bu söz qarşındakını ucaltmaq və ona ehtiram göstərmək mənasını ifadə edir, istər bu sözlər insan və ya möcüzə yolu ilə heyvan tərəfindən söylənsin, fərq etməz.

İbn Əsir özünün "ən-Nihayə" kitabında Allaha "...fəda olsun!" kəlməsilə xitab edilən sözləri qeyd etdikdən sonra deyir: "Bu kəlmə Allaha xitabən də istifadə edilməklə bərabər ümumilikdə məcaz mənası daşıyır. Bununla da məna təzim və böyük tutmaqdır. Belə ki, insan yalnız böyük dəyərə və əzəmətə sahib varlığa fəda olar və özünü ona fəda edər".[101]

Peyğəmbərimizlə (s) Nuhun (ə) arasında minlərlə ilin olmasına baxmayaraq ulağın bu sözləri dördüncü babasından nəql etməsinə gəldikdə, möcüzə olması cəhətindən də burada heç bir müşkül yoxdur. Necə ki, bir çox şəxslərin də ömürləri olduqca uzun olmuşdur. Belə olduqda heyvanlarda bu hal niyə mümkünsüz olsun?!

Bunlardan əlavə, bu tip və buna bənzər hədislər əhli-sünnənin hədis mənbələrində də mövcuddur. İbn Kəsir "əl-Bidayətu vən-nihayəh" kitabında Peyğəmbərin (s) möcüzələrini sıralayarkən yazır:

"Əbu Mənzurdan nəql olunur: *"Allah Peyğəmbərə (s) Xeybərin fəthini bəxş etdikdən sonra qənimətlərdən onun payına dörd cüt qatır, dörd cüt çəkmə, (təqribən) 375 qr. qızıl və gümüş, qara ulaq və palma yarpaqlarından toxunmuş səbət düşdü. Peyğəmbər (s) payına düşən ulaqla danışdı və ulaq da onunla söhbət etdi. Peyğəmbər ondan adını soruşdu, o isə: "Yəzid ibn Şihabdır. Allah babamın nəslindən altmış ulaq çıxarmış, onların da üzərinə yalnız peyğəmbərlər minmişdir. Hazırda babamın nəslindən yalnız mən, peyğəmbərlərdən də yalnız sən qalmısan. Səndən mənə*

---

[101] "ən-Nihayətu fi ğəribil-hədisi vəl-əsər", 3/422.

*minməyini diləyirəm. Səndən əvvəl bir yəhudinin ulağı idim. Bilərəkdən büdrəyib onu yıxırdım. O da məni ac saxlayır, belimə vururdu" deyə cavab verdi. Peyğəmbər (s) buyurdu: "Mən səni Yə`fur adlandırıram. Ey Yə`fur!" Ulaq "Qəbul etdim" deyə cavab verdi. Peyğəmbər (s) dedi: "Dişi ulaq istəyirsənmi?" Ulaq "Xeyr" dedi. Peyğəmbər (s) bir yerə getmək istədikdə ona minər, endikdən sonra isə onu bir nəfərin qapısına göndərər, o da başı ilə qapını döyərdi. Ev sahibi qapıya çıxdıqda ulaq işarə edərək onu Peyğəmbərin (s) göndərdiyini bildirərdi. Peyğəmbər (s) dünyadan köçdükdən sonra onun ayrılığına dözə bilməyən və qəm-qüssə çəkən ulaq Əbul-Heysəm ibn Nəbhanın quyusunun yanına gəldi və oraya yıxılıb öldü. Beləcə həmin quyu onun qəbrinə çevrildi".*[102]

Bu hədisdə qeyd edilməli bir çox nüans vardır ki, onların üzərində dayanmağa və açıqlamağa ehtiyac görmürük.

Əhli-sünnə kitablarında davarların Peyğəmbərlə (s) danışdıqlarını bildirən hədislər çoxdur və onları burada bir-bir qeyd etmək mövzunu uzadacaq. Lakin möhtərəm oxucu üçün onlardan bir neçəsini burada nəql etməyin eybi yoxdur:

* Hakim Nişapuri "əl-Müstədrək"də və Beyhəqi "Dəlailun-nubuvvət"də Əhməd ibn Hənbəlin "Müsnəd"indən Əbu Səid Xudriyə istinadən nəql edirlər: *"Canavar bir qoyuna hücum çəkib onu yaxaladı. Çoban isə canavarı təqib edərək qoyunu ondan ala bildi. Canavar quyruğunu altına yığıb oturdu və dedi: "Allahdan qorxmursan? Allahın mənə nəsib etdiyi ruzimi əlimdən alırsan?" Çoban dedi: "Çox qəribədir, canavar mənimlə insan kimi danışır?!" Canavar dedi: "Bundan daha qəribəsini sənə xəbər verimmi? Muhəmməd Yəsribdə camaata keçmişdəki hadisələrdən danışır". Çoban qoyunlarını önünə salıb Mədinəyə daxil oldu, sürünü şəhərin bir kənarına buraxıb Peyğəmbərin (s) yanına gəldi və başına gələnləri ona bildirdi. Peyğəmbər (s) göstəriş verib camaatın namaz üçün toplanmalarını istədi. Sonra onların qarşısına çıxıb çobana dedi: "Mənə söylədiklərini onlara da danış". Çoban hadisəni hekayə etdi. Peyğəmbər (s) buyurdu: "Muhəmmədin canı əlində olan (Allaha) and olsun ki,*

---

[102] "əl-Bidayətu vən-nihayə", 6/158; "Şəmailur-rəsul", səh.354; "əl-Xəsaisul-kubra", 2/64.

*doğru söylədin. Yırtıcılar insan kimi danışmadıqca, insan qamçısının ucu ilə və başmağının ipi ilə söhbət etmədikcə, baldırı ona özündən sonra ailəsinin nələr etdiyini bildirmədikcə Qiyamət qopmaz".*[103]

İbn Kəsir "əl-Bidayətu vən-nihayə" kitabında yazır: "Bu hədisin sənədi "Səhih"in şərtinə uyğundur, Beyhəqi onun səhih sayıb".[104]

Hakim deyir: "Sənədi Müslimin şərtinə əsasən, səhihdir, lakin Buxari və Müslim kitablarında nəql etməyiblər". Zəhəbi də onun bu rəyi ilə razılaşıb.

* Hakim Nişapuri "əl-Müstədrək"də, Beyhəqi "Dəlailun-nubuvvət"də və digərləri onlara istinadən Yə`la ibn Mürrədən, o da atasından nəql edir (hədis uzundur, biz bir hissəsini qeyd edirik): *"...Sonra bir dəvə gəlib Peyğəmbərin (s) qarşısında dayandı. Peyğəmbər (s) onun gözlərinin yaşla dolduğunu gördü. Sahibinin ardınca adam göndərib onu çağırtdı və dedi: "Dəvənizin sizdən etdiyi bu şikayət nədir?" Dedilər: "Biz ondan işlərimizdə istifadə edirdik, indi qocalıb və iş gücünü itirib, biz də onu sabah kəsməyə niyyət etmişik". Peyğəmbər (s) buyurdu: "Onu kəsməyin, digər dəvələrin arasına göndərin ki, onlarla yaşasın".*[105]

Hakim deyir: "Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim öz kitablarında bu mətnlə nəql etməyiblər".

* Siyuti "əl-Xəsaisul-kubra" kitabında Təbəraninin "Mö`cəmul-övsat" kitabına istinadən İbn Ədiydən, Hakim "əl-Mö`cüzat"da, Beyhəqi, Əbu Nüeym və İbn Əsakir də Ömər ibn Xəttabdan nəql edirlər ki, əshabı Peyğəmbəri (s) əhatəyə alıb oturmuşdular. *Bu zaman Səlim oğulları qəbiləsindən bir bədəvi ərəb gəldi. O, kərtənkələ ovlamışdı. Dedi: "Lat və Üzzəya and olsun ki, bu kərtənkələ sənə iman gətirmədikcə mən də iman gətirməyəcəyəm". Peyğəmbər (s) buyurdu: "Ey*

---

[103] "Səhih", İbn Hibban, 14/418; "Müsnəd", Əhməd ibn Hənbəl, 3/83; "əl-Mustədrək", 4/514, Heydərabad çapı, 4/468; "Dəlailun-nubuvvət", Beyhəqi, 6/41, orada səhih olduğunu bildirir; "Silsilətu əhadisis-səhihəh", 1/241, hədis 122. Orada deyir: "Bu, səhih sənədlidir, raviləri inanılan şəxslərdir".

[104] "əl-Bidayətu vən-nihayə", 6/150; "Şəmailur-rəsul", səh.339.

[105] "əl-Müstədrək", 2/674; "Dəlailun-nubuvvət", 6/21.

*kərtənkələ, mən kiməm?" Kərtənkələ hamının başa düşəcəyi açıq-aydın ərəb dilində dedi: "Ləbbeyk, itaətində ikən itaətkarlığımıza yardım et (və ya bizi səadətə qovuşdur), ey aləmlərin Rəbbinin elçisi!" Buyurdu: "Kimə ibadət edirsən?" Dedi: "Səmada Ərşi, yerdə səltənəti, dənizdə yolları, rəhməti cənnətdə və əzabı cəhənnəmdə olana". Peyğəmbər (s) soruşdu: "Bəs mən kiməm?" Kərtənkələ dedi: "Sən aləmlərin Rəbbinin elçisi, nəbilərin sonuncususan. Səni təsdiqləyən nicat tapmış, inkar edən isə uğursuzluğa düçar olmuşdur". Bu sözlərdən sonra bədəvi müsəlman oldu.*[106]

Və bunlardan başqa bir çox digər rəvayətlər ki, burada onları qeyd etməyimiz mövzunu uzadacaq. Həmin rəvayətlərlə tanış olmaq üçün Beyhəqinin "Dəlailun-nubuvvət", İbn Kəsirin "əl-Bidayətu vən-nihayə" və "Şəmailur-rəsul", Heysəminin "Məcməuz-zəvaid", Siyutinin "əl-Xəsaisul-kubra" və digər kitablara müraciət edə bilərsiniz. Həmin mənbələrdə Peyğəmbərlərin (s) dəvə, ahu, kərtənkələ, canavar, ulaq və s. heyvanlarla söhbətlərinə şahid olacaqsınız.[107]

Biz belə faktların möcüzə yolu ilə baş verə biləcəyini qeyri-mümkün saymırıq. Lakin bütün bu hədislər qarşısında özünü qafilliyə qoyan şəxsin halı təəccüb doğurur. Bundan əlavə, o, şiələrə həm sənədi və həm də mətni zəif olan bir hədisi eyib tutur.

Qəribədir ki, müəllif bu hədisi şiələrin öz kitablarında Peyğəmbəri (s) bədnam etdiklərinə dəlil kimi təqdim edir. Halbuki həmin hədisdə qəribə gələ biləcək kəlmə yalnız ulağın Peyğəmbərə (s) "Atam, anam sənə fəda olsun" sözüdür ki, yuxarıda onun pis mənaya dəlalət etmədiyinin izahını verdik.

Həmçinin müəllif əhli-sünnə kitablarında Peyğəmbəri (s) bədnam edən, ləkələyən və layiq olmayan rəftarları ona nisbət verən bir çox səhih hədisləri görməzlikdən gəlib. Onlardan:

---

[106] "əl-Xəsaisul-kubra", 2/65; "Məcməuz-zəvaid", 8/293; "əl-Mö`cəmus-səğir", 2/64; "Şəmailur-rəsul", səh.351.

[107] "Dəlailun-nubuvvət", 6/18-44; "Şəmailur-rəsul", səh.321-355; "əl-Bidayəti vən-nihayə", 6/141-159; "Məcməuz-zəvaid", 9/3-11; 8/291-294; "əl-Xəsaisul-kubra", 2/56-65.

* Peyğəmbər (s) bütə qurban kəsilmiş heyvanın ətini başqa bir şəxsə yemək olaraq təqdim edir; Buxari Salimdən nəql edir ki, Abdullah Peyğəmbərdən (s) belə rəvayət edir: *“Peyğəmbər (s) Zeyd ibn Əmr ibn Nüfeyl ilə Bəldəh vadisində görüşdü. Bu hadisə Peyğəmbərə (s) vəhy nazil olmazdan öncə idi. Peyğəmbər (s) onun qarşısına süfrə açdı, süfrədə ət də vardı. Ancaq Zeyd yeməkdən imtina etdi və dedi: “Mən bütlərə kəsilən heyvanın ətini yemirəm, yalnız üzərində Allahın adı söylənərək kəsilən heyvanlardan yeyirəm”.*[108]

* Peyğəmbərin (s) cənabətli halda namaz qılmaq istəməsi; Buxari və Müslim Əbu Hüreyrədən nəql edirlər: *“Namaz üçün iqamə deyildi, cərgələrdəki şəxslər ayağa qalxdılar. Bu zaman Peyğəmbər (s) bizim qarşımıza çıxdı. Namaza başlayarkən cənabətli olduğunu xatırladı və bizə “Yerinizdə qalın” deyə buyurdu. Evə gedib qüsl etdi və yanımıza qayıtdı. Onun saçlarından su damlayırdı. Təkbir söyləyib namaza başladı, biz də onunla birgə namaz qıldıq”.*[109]

Əbu Davud və Beyhəqi “Sünən”lərində, İbn Hibban “Səhih”də, Əhməd “Müsnəd”də və həmçinin başqalar Əbu Bükrədən rəvayət edirlər ki, *Peyğəmbər (s) sübh namazı üçün məscidə daxil oldu, sonra əlilə bizə yerimizdə qalmağı işarə etdi. Yanımıza qayıtdıqda saçından sular damcılayırdı. Belə halda camaatla namaz qıldı.*[110]

---

[108] “Səhih”, Buxari, 7/118, təhqiq olunmuş çapı, 4/1770; “Müsnəd”, Əhməd, 2/68,89, 127; “əs-Sünənul-kubra”, Beyhəqi, 9/249; “əs-Sünənul-kubra”, Nisai, 5/55; “əl-Mö`cəmul-kəbir”, Təbərani, 12/298; “ət-Təbəqatul-kubra”, İbn Səd, 3/380.

[109] “Səhih”, Buxari, 1/74, 155, təhqiq olunmuş çapı, 1/107, 205; “Səhih”, Müslim, 1/422-423; “Səhih”, İbn Hüzeymə, 3/62; “Səhih”, İbn Hibban, 6/7; “Sünən”, Əbu Davud, 1/61; “Səhihu sünən”, Əbu Davud, 1/46; “Sünən”, Nisai, 2/81, 89, təhqiq olunmuş çapı, 2/416, 423; “Səhihu sünən”, Nisai, 1/171, 175; “əs-Sünənul-kubra”, Beyhəqi, 2/398; “Müsnəd”, Əhməd, 2/518; “Müsnəd”, Əbu Əvanə, 1/370, 371.

[110] “Sünən”, Əbu Davud, 1/60; “Səhihu sünən”, Əbu Davud, 1/45; “Səhih”, İbn Hibban, 6/5; “Müsnəd”, Əhməd, 5/45; “əs-Sünənus-suğra”, Beyhəqi, 1/178; “əs-Sünənul-kubra”, Beyhəqi, 2/397.

Əhməd ibn Hənbəlin "Müsnəd"ində Əbu Bükrəyə istinadən rəvayət edilir ki, Peyğəmbər (s) təkbir söyləyib namaza başladı, sonra onlara işarə edərək yerlərində qalmağı buyurdu. Evə qayıtdı, yenidən onların yanına gəldikdə saçlarından su damcılayırdı. Namaz qıldı və namazı bitirdikdə buyurdu: *"Mən də bir insanam. (Bir az əvvəl) cənabətli idim".*[111]

* Peyğəmbər haqsız yerə qəzəblənir, söyüş söyür və lənət edir; Müslim və digərləri Aişədən rəvayət edirlər: *"Peyğəmbərin (s) yanına iki şəxs gəldi və onunla söhbət etdilər. Mən onların nə danışdıqlarını bilmədim. Həmin şəxslər onu qəzəbləndirdilər və o da onları lənətləyib söydü. Onlar çıxdıqda dedim: "Ey Allahın elçisi, bunların qazandığı xeyri kim qazanmışdır?!" Buyurdu: "Hansı xeyri?" Dedim: "Onları lənətlədin və söydün". Peyğəmbər (s) buyurdu: "Rəbbimlə necə şərtləşdiyimi bilmirsənmi? Mən Ondan belə istəmişəm: mən də bir insanam, hansı müsəlmanı lənətləsəm və ya söysəm, bunu o şəxs üçün təmizlənmə (zəkat) və mükafat qərar ver".*[112]

Əbu Hüreyrədən rəvayət olunur: *"Peyğəmbər (s) buyurmuşdur: "İlahi, mən də bir insanam, müsəlmanlardan hansı bir şəxsi söysəm, lənətləsəm və ya qamçılasam, bunu o şəxs üçün təmizlənmə (zəkat) və rəhmət qərar ver".*[113]

* Peyğəmbər (s) ayaq üstə idrar edir; Buxari və Müslim Hüzeyfədən rəvayət edirlər: *"Peyğəmbər (s) bir qövmün xurma ağacının altına gedərək ayaq üstə idrar (kiçik hacət ödədi) etdi, sonra su gətirilməsini istədi. Su gətirildikdə dəstəmaz aldı".*[114]

---

[111] "Müsnəd", Əhməd ibn Hənbəl, 5/41.

[112] "Səhih", Müslim, 3/2007; "Müsnəd", İshaq ibn Rahəveyh, 3/819; "əs-Sünənul-kubra", Beyhəqi, 7/61; "əl-Müsənnəf", İbn Əbu Şeybə, 6/72.

[113] Səhih", Müslim, 4/2007; "əl-Müsənnəf", İbn Əbu Şeybə, 6/72. Həmçinin bax: "Səhih", Buxari, 8/96, təhqiq olunmuş çapı, 4/1999, "Kitabud-dəəvat", "Peyğəmbərin (s) "kimə əziyyət versəm, bunu onun üçün zəkat və rəhmət et" sözü".

[114] "Səhih", Buxari, 64/1, 3/177, təhqiq olunmuş çapı, 1/93, 2/742; "Səhih", Müslim, 1/228; "Səhih", İbn Xüzeymə, 1/35; "Səhih", İbn Hibban, 4/272-289; "Sünən", Nisai,

* Peyğəmbər (s) övrətini insanların qarşısında açır; Buxari, Müslim (rəvayət Müslimdən nəql ediləcək) və digərləri Cabir ibn Abdullahdan rəvayət edirlər: *"Peyğəmbər (s) onlarla birlikdə Kəbə üçün daş daşıyırdı, onun üzərində izar (qurşaqdan aşağı örtük) vardı. Əmisi Abbas ona dedi: "Ey qardaşımın oğlu, örtüyü açıb çiynindən aşağı bağlasan daha yaxşı olar". Peyğəmbər (s) onu açıb çiynindən bağladı. Bu zaman huşunu itirib yerə yıxıldı. Həmin gündən sonra əsla üryan (lüt) halda görülmədi".*[115]

Buxari və Müslim "Səhih"lərində, Əhməd, İbn Hibban, Əbu Əvanə və digərləri "Müsnəd"lərində Cabir ibn Abdullahdan rəvayət edirlər: *"Kəbə tikilərkən Peyğəmbər (s) və Abbas da daş daşıyırdılar. Abbas Peyğəmbərə (s) dedi: "Daşların zədəsindən qorunmaq üçün örtüyünü çiynindən aşağı bağla". Peyğəmbər (s) belə də etdi və ardınca yerə yıxıldı. Onun gözləri səmaya doğru istiqamətlənmişdi. Sonra özünə gəlib qalxdı və "Örtüyüm, örtüyüm hardadır!" deyə buyurdu. Örtüyünü üzərinə bağladı".*[116]

---

1/30; "Səhihu sünən", Nisai, 1/7-8; "Sünən", İbn Macə, 1/111, 112; "Səhihu sünən", İbn Macə, 1/56; "Sünən", Tirmizi, 1/19; "Sünən", Əbu Davud, 1/6; "Səhihu sünən", Əbu Davud, 1/8; "Sünən", Darəmi, 1/181; "Müsnəd", Əhməd, 5/382, 394, 402; "əl-Müsənnəf", İbn Əbu Şeybə, 1/115; "Şərhus-sünnə", Bəğəvi, 1/386. Orada deyir: "Bu, səhihliyində yekdil fikir olan hədisdir"; "Müsnəd", Hümeydi, 1/210; "əs-Sünənul-kubra", Beyhəqi, 1/100-101, 270, 274; "əl-Müstədrək", Hakim, 1/182, 185, yeni çapı, 1/290, 295; "əs-Sünənul-kubra", Nisai, 1/67-68; "əl-Mö`cəmul-kəbir", 17/179, 20/405, 406 və bir çox başqa mənbələr.

115 "Səhih", Buxari, 5/51; təhqiq olunmuş çapı, 1/136; "Səhih", Müslim, 1/268; "Müsnəd", Əhməd, 3/310, 333; "Müsnəd", Əbu Əvanə, 1/237; "əs-Sünənul-kubra", Beyhəqi, 2/227; "Müsnəd", Əbu Yə`la, 2/346; "Hilyətul-övliya", 3/349; "Şə`bul-iman", 6/151.

116 "Səhih", Buxari, 3/1171; "Səhih", Müslim", 1/268; "Səhih", İbn Hibban, 4/481, 51/527; "Münəd", Əhməd, 3/295, 380; "Müsnəd", Əbu Əvanə, 1/237; "əl-Müsənnəf", Əbdürrəzzaq, 1/220.

* Peyğəmbər (s) ğina dinləmişdir; Buxari və Müslim Aişədən nəql edirlər: *"Əbu Bəkr Aişənin yanına gəldi. Həmin vaxt Mina günləri ilə əlaqədar Aişənin yanında nəğmə oxuyan və dəf çalan iki cariyə vardı. Peyğəmbər isə libasına bürünüb oturmuşdu. Əbu Bəkr onların üzərinə çığırdı. Bu vaxt Peyğəmbər üzünü açıb buyurdu: "Ey Əbu Bəkr, onlardan əl çək, bayram günləridir". Həmin gün Mina günləri idi".*[117]

* Peyğəmbərin (s) başında bit vardı və başından onları yad bir qadın təmizlədi; Buxari, Müslim və digərləri Ənəsdən rəvayət edirlər: *"Peyğəmbər Milhanın qızı Ümmü Həramın yanına gedər və o da ona yemək ikram edərdi. Ümmü Həram Übadə ibn Samitin nikahında idi. Peyğəmbər (s) onun yanına getdi, qadın ona yemək verdi və sonra da başından bitlərini təmizlədi..."*.[118]

* Peyğəmbər (s) məniyə (spermaya) bulaşmış paltarını yumur; Müslim və digərləri Aişənin belə söylədiyini rəvayət edirlər: *"Peyğəmbər paltarına düşmüş məni (quruduqdan sonra) ovxalayaraq təmizləyirdi"*.[119]

Digər bir rəvayətdə isə deyir: *"Peyğəmbərin (s) libasından qurumuş məni dırnağımla qaşıyıb çıxardığımı görmüşdün"*.[120]

---

[117] "Səhih", Buxari, 2/20, "Kitabul-ideyn", "Bayramı əldən vermiş olsan iki rükət namaz qıl". Həmçinin bax: "Bayram günü nizə və qalxan" və "Müsəlmanlar üçün bayramlar sünnəsi" babları, 4/225, təhqiq olunmuş çap, 1/295, 285, 286, 3/1096; "Səhih", Müslim, 2/607-609; "Səhih", İbn Hibban, 13/186-189; "Sünən", Nisai, 3/216, 218; "Səhihu sünən", Nisai, 1/349; "əs-Sünənul-kubra", Beyhəqi, 10/218; "əs-Sünənul-kubra", Nisai, 5/309.

[118] "Səhih", Buxari, 4/19, təhqiq olunmuş çapı, 2/863, 4/2192; "Səhih", Müslim, 3/1518; "Səhih", İbn Hibban, 15/51; "əl-Muvətta", səh.237; "Sünən", Tirmizi, 4/178. Tirmizi yazır: "Bu, həsən səhih hədisdir"; "Sünən", Əbu Davud, 3/6; "Səhihu sünən", Əbu Davud, 2/472; "Müsnəd", Əbu Əvanə, 4/494; "əs-Sünənul-kubra", Beyhəqi, 9/165; "əs-Sünənul-kubra", Nisai, 3/27; "Sünən", Nisai, 6/347; "Səhihu sünən", Nisai, 2/667; "əl-Ədəbul-mufrəd", səh.257; "Hilyətul-övliya", 2/61.

[119] "Səhih", Müslim, 1/240; "Sünən", Nisai, 1/172; "Səhihu sünən", Nisai, 1/61.

Başqa bir rəvayətdə deyir: *"Sonra mən Peyğəmbərin (s) libasından məni ovxalayıb çıxarar və o da onunla namaz qılardı".*[121]

İbn Həcər "ət-Təlxis"də yazır: "Aişənin *"Sonra mən Peyğəmbərin (s) libasından məni ovxalayıb çıxarar və o da onunla namaz qılardı"* hədisi səhihliyinə həmfikir olunan hədislərdəndir. Həmin mətn Müslimə aiddir, Buxari bunu öz babında qeyd etməyib. İbn Davudun kitabında isə *"Sonra həmin paltarda namaz qılardı"* deyilir. Tirmizinin rəvayətində isə belədir: *"Bəzən onu Peyğəmbərin libasından barmağımla təmizləyərdim".* Müslimin rəvayətində: *"Peyğəmbərin (s) libasından qurumuş məni dırnağımla qaşıyıb çıxardırdım". "O namaz qılarkən üzərindəki məni ovxalayıb çıxarırdım"* sözü ilə rəvayəti isə İbn Xüzeymə, Darəqutni, Beyhəqi, İbn Cövzi Müharib ibn Dəssarın Aişədən nəql etdiyi hədisdə qeyd edir: *"Aişə dedi: "Bəzən onu (məni) Peyğəmbər namaz qılarkən libası üzərindən təmizləyirdim".* Darəqutni ilə İbn Hüzeymənin mətni belədir: *"Aişə Peyğəmbər (s) namaz qılarkən onun libasından məni təmizləyirdi".* İbn Hibbanın Əsvəd ibn Yəzid sənədilə Aişədən nəql etdiyi rəvayətdə isə deyilir: *"Peyğəmbər (s) namaz qılarkən onun libasından məni ovxalayıb təmizləyərkən məni görmüşdün".*[122]

* Hər dəfə vəhy kəsildikdə Peyğəmbər (s) özünü öldürmək istəyir; Buxari, Əhməd və digərləri Aişədən nəql olunan uzun bir hədisdə belə dediyini rəvayət edirlər: *"Bir müddət vəhy kəsilmiş və Peyğəmbər (s) bundan olduqca kədərlənmişdi. Kədəri artdıqda özünü atmaq üçün yüksək dağın başına gedərdi. Hər dəfə özünü dağın zirvəsindən atmaq istədikdə Cəbrail ona zahir olar və deyərdi: "Ey Muhəmməd, sən Allahın həqiqi elçisisən". Bununla da narahatlığı aradan gedər, sevinər və geri qayıdardı. Ancaq bir müddət vəhy nazil olmadıqda yenidən bunu*

---

120 "Səhih", Müslim, 1/240.

121 "Səhih", Müslim, 1/238; "Sünən", Əbu Davud, 1/101; "Səhihu sünən", Əbu Davud, 1/75; "Səhih", İbn Hibban, 4/217; "əs-Sünənul-kubra", Beyhəqi, 2/417; "Müsnəd", Şafii, səh.345.

122 "ət-Təlxis", 1/32.

*təkrarlayar, dağın başına qalxar, orada Cəbrail ona görünər və eyni sözləri söyləyərdi".*[123]

Bunlar belə mövzularda zəngin olan rəvayətlərdən yalnız bir neçəsidir. Əgər burada həmin mövzuda əhli-sünnə kitablarında qeyd olunan bütün batil rəvayətləri sadalasaq, bu, çox vaxtımızı aparacaq və kitabın mövzusundan kənara çıxacaq. Ancaq qeyd etdiklərimiz, bizcə yetərlidir.[124]

* * *

**Müəllif iddia edir: "Nəcəfdə tələbələrlə "Üsulul-Kafi" kitabını (bu hədisi) İmam Xoiyə oxuyarkən o bizə belə dedi: "Siz bir bu möcüzəyə baxın! Nuh (ə) Muhəmmədin (salləllahu əleyhi və səlləmə və alih) doğumundan min il əvvəl onun peyğəmbərliyi barədə xəbər verir!"**

**İmam Xoinin sözləri mənim qulaqlarımda dövr edirdi. Mən öz-özümə deyirdim: "Bu necə möcüzə ola bilər, halbuki burada ulaq Peyğəmbərə (s) "Atam, anam sənə fəda olsun!" deyir?! Belə bir hədisi Əmirəl-möminin necə nəql edə bilər?!**

**Lakin bunu dinləyən digər tələblər kimi, mən də susdum".**

**Cavab:** Bunlar onun açıq-aşkar xəta və yanlışlarındandır. O, zənn edir ki, əhli-sünnə dini-elmi müəssisələrində Buxarinin, Müsliminin və digərlərinin "Səhih"lərinin tədrisi keçirildiyi kimi, Nəcəfdəki elmi hövzələrin proqramlarında da hədis kitabları, xüsusilə də "Üsulul-Kafi" öyrənilir.

Elə buradan da hadisənin yalan olduğu aydınlaşır.

---

[123] "Səhih", Buxari, 9/38, təhqiq olunmuş çapı, 4/2185; "Səhih", İbn Hibban, 1/216; "Müsnəd", Əhməd, 6/233; "Qurani-Kərimin təfsiri", 4/527, "əl-Müsənnəf", Əbdürrəzzaq, 5/216.

[124] Bu mövzuda daha çox hədislə tanış olmaq üçün Seyid Əbdülhüseyn Şərəfuddinin (r.ə) "Əbu Hüreyrə", Muhəmməd Sadiq Nəcminin "Tə`milatu fis-səhiheyn" və dr.Muhəmməd Ticani əs-Səmavinin "Zikr əhlindən soruşun" kitablarına müraciət edin.

Bundan əlavə, hədisin sənədinin mürsəl və etibarsız olmasına əsasən, Seyid Xoinin ona nisbət verilən belə sözü söyləməsi də mümkünsüzdür. Belə ki, onun hədislərə yanaşması hər bir hövzə tələbəsinə məlum idi. Məşhur rəyə əsaslanıb zəif hədislərə əməl edənlərdən fərqli olaraq, o, belə hədislərə əsla etina etməzdi.

Bu hadisənin yanlışlığının digər bir cəhəti Peyğəmbərə (s) **"salləllahu əleyhi və səlləmə və alih"** (kəlmə etibarı ilə: "Ona salavat və salam olsun və ailəsinə də") formasında salavat söyləməsidir. Belə ki, şiələr, xüsusilə də alimləri əsla bu formada salavat söyləməzlər. Bu cür salavatı yalnız şiələrin söylədikləri salavatı deməyə adət etməyən kəslər deyə bilər.

* * *

**Müəllif iddia edir: "Səduq Rzadan (r.a) Uca Allahın "*Xatırla ki, bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin şəxsə (Zeyd ibn Harisəyə): "Zövcəni (Zeynəb bint Cəhşi) saxla (boşama), Allahdan qorx!" -deyir, Allahın aşkar etdiyi şeyi ürəyində gizli saxlayır və adamlardan qorxurdun"* ayəsi barədə belə söylədiyini nəql edir: "Rza ayəni təfsir edərək deyir: "Peyğəmbər (s) bir iş üçün Zeyd ibn Harisənin evinə getdi. Bu zaman Zeydin zövcəsi Zeynəb bint Cəhşi çimərkən gördü və ona dedi: "Səni (belə) xəlq edən pak və münəzzəhdir!" ("Uyunu əxbarir-Rza", səh.113).**

**Məgər Peyğəmbər (s) müsəlman bir şəxsin qadınına şəhvətlə baxıb ona valeh olar, sonra da "Səni (belə) xəlq edən pak və münəzzəhdir!" deyərmi?! Məgər bu, Allahın elçisinə ləkə və iftira deyilmi?!"**

**Cavab:** Bu hədisin sənədi zəifdir. Onun raviləri arasında Təmim ibn Abdullah ibn Təmim əl-Qureyşi vardır. O, Səduqa icazə verən şeyxlərdən olsa da və Səduq ondan çox razılıq etsə də, tərcümeyi-hal kitablarında onun etibarlı şəxs olması təsdiqlənməyib. Əksinə, İbn Ğəzairi, Əllamə Hilli və başqaları onu zəif ravi hesab etmişlər.

Həmçinin ravilərdən biri də onun atasıdır. Tərcümeyi-hal kitablarında ona da etina edilməyib.

Hədisi İmam Rzadan (ə) rəvayət edən şəxs isə Əli ibn Muhəmməd ibn Cəhmdir. Şeyx Səduq hədisi nəql etdikdən sonra ardınca onun barəsində yazır: "Bu hədisin

nasibi, Əhli-Beytə (ə) nifrət bəsləyən və düşmən olan Əli ibn Muhəmməd Cəhmi tərəfindən nəql edilməsi qəribədir”.[125]

Hədisin mətninə gəldikdə, orada müəllifin iddia etdiyi kimi, Peyğəmbərin (s) Zeyd ibn Harisənin həyat yoldaşına şəhvətlə baxdığına və valeh olduğuna dair dəlil yoxdur. Onu görərkən yalnız “Səni xəlq edən pak və münəzzəhdir!” demişdir ki, bu da təsbihdir, Allahın zikrlərindən biridir və söyləyən şəxsə savab gətirir.

Hədisdə Peyğəmbərin (s) Zeynəbi lüt görməsinə də dəlalət yoxdur. Onun sadəcə çimdiyini görür. Zeynəbin isə evinə hər kəsin rahat girib onu görə biləcəyi bir yerdə lüt halda çimməsi, iffət və təqvası nəzərə alındıqda, mümkünsüzdür. O, insanların onu görməyəcəyi bir yerdə çimirdi. Peyğəmbər (s) isə onu şəxsən görmədən çimdiyini anladı və dedi: “Səni xəlq edən pak və münəzzəhdir!” Bu sözü ilə Allahın çimməyə və təmizlənməyə ehtiyacı olacaq bir övlad götürməkdən münəzzəh olduğunu bildirdi.

Bu məna hədisin mətnində də qeyd olunur. Orada deyilir:

“Peyğəmbər (s) onun çimdiyini gördükdə dedi: “Səni xəlq edən (Allah) çimməyə və təmizlənməyə ehtiyac duyacaq övlad götürməkdən pak və münəzzəhdir!” Zeyd evə qayıtdıqda həyat yoldaşı ona Peyğəmbərin (s) gəldiyi və “Səni xəlq edən pak və münəzzəhdir!” söylədiyi barədə xəbər verdi. Zeyd Peyğəmbərin (s) bu sözündəki məqsədinin nə olduğunu bilmədi və Zeynəbin gözəlliyinə valeh olduğunu güman etdi. Peyğəmbərin (s) yanına gələrək dedi: “Ey Allahın elçisi, həyat yoldaşımın əxlaqında naqislik vardır, mən onu boşamaq istəyirəm”. Peyğəmbər (s) buyurdu: “Həyat yoldaşını boşama, Allahdan qorx!” Halbuki Allah Peyğəmbərinə (s) sahib olacağı zövcələrinin sayını və Zeynəbin də onlardan biri olduğunu bildirmişdi. Lakin Peyğəmbər (s) bunu gizlətdi və Zeydə bildirmədi. Çünki camaatın “Peyğəmbər özünün azad etdiyi qula deyir ki, sənin həyat yoldaşın mənim zövcəm olacaq” deməl追rindən və bununla ona tənə vuracaqlarından qorxurdu. Uca Allah da bu ayəni nazil etdi: ***“Xatırla ki, bir zaman Allahın nemət verdiyi”*** – yəni İslamı bəxş etdiyi; ***“və sənin özünün nemət verdiyin şəxsə:”*** – yəni Zeydə, onu köləlikdən azad

---

[125] “Uyunu əxbarir-Rza (ə)”, 2/182.

etməklə; ***“Zövcəni*** (Zeynəb bint Cəhşi) ***saxla*** (boşama)***, Allahdan qorx!” -deyir, Allahın aşkar etdiyi şeyi ürəyində gizli saxlayır və camaatdan qorxurdun”.*** Ancaq Zeyd ibn Harisə onu boşadı və qadın iddə saxladıqdan sonra Allah onu Peyğəmbərlə (s) evləndirdi və bu barədə Quranda ayə nazil etdi. Uca Allah buyurdu: ***“Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə (Zeynəbi boşadıqda) səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik (günah) olmasın! Allahın hökmü mütləq yerinə yetər!”.***[126]

Bütün bunlarla bərabər, əhli-sünnənin kitablarında bu hadisə barədə daha aydın kəlmələrlə rəvayətlər nəql olunur. Həmin rəvayətlərə əsasən, Peyğəmbər (s) Zeynəbi saçları açıq halda görür, ona valeh olur və onunla evlənmək istəyir, ardınca da heç bir elçilik və şahid olmadan onunla evlənir.

Təbərani “əl-Mö`cəmul-kəbir” kitabında, Beyhəqi “əs-Sünənul-kubra”da, Heysəmi “Məcməuz-zəvaid”də, İbn Əsakir “Tarixu Diməşq”də Zeynəb ibn Cəhşdən belə dediyini nəql edirlər: *“Qərar verib məni boşadı. İddə müddətim başa çatdıqda Peyğəmbərin (s) yanında özümü başı açıq halda gördüm. “Bu səmadan müəyyən olunan bir işdir? Ya Peyğəmbər, elçilik, şahidlər olmayacaq?” O isə buyurdu: “Evləndirən Allah, şahid isə Cəbraildir”.*[127]

Həmçinin Təbərani “əl-Mö`cəmul-kəbir”də Əbu Bəkr ibn Süleyman ibn Əbu Həsməyə istinadən rəvayət edir ki, *Peyğəmbər (s) Zeyd ibn Harisənin evinə gəldi. İçəri daxil olmaq üçün izn istədi. Zeynəb ona icazə verdi. Həmin vaxt onun başında örtüyü yox idi, Zeynəb zirehinin qolunu başına örtdü. Peyğəmbər (s) ondan Zeydi soruşduqda, Zeynəb onun yaxın bir yerə getdiyini bildirdi. Peyğəmbər (s) dodağının altında nə isə deyə-deyə qalxıb getdi. Zeynəb deyir: “Onun ardınca getdim və belə dediyini eşitdim: “Qəlbləri çevirən (Allah) mübarəkdir!” O, gözdən itənədək bunu söyləyirdi”.*[128]

---

[126] “Uyunu əxbarir-Rza (ə)”, 2/182.

[127] “Məcməuz-zəvaid”, 9/247; “əl-Mö`cəmul-kəbir”, Təbərani, 24/40; “əs-Sünənul-kubra”, 7/137; “Tarixu mədinəti Diməşq”, 50/230-231.

[128] “əl-Mö`cəmul-kəbir”, Təbərani, 24/44; “Məcməuz-zəvaid”, 9/247.

Təbəri öz təfsirində yazır: “Allah Öz peyğəmbərini (s) danlayaraq deyir: ***“Və***, ey Muhəmməd, ***xatırla ki, bir zaman Allahın*** (hidayət etməklə) ***nemət verdiyi və sənin özünün də*** (köləlikdən azad etməklə) ***nemət verdiyin şəxsə:*** – yəni Zeyd ibn Harisəyə, ***“Zövcəni saxla*** (boşama)***, Allahdan qorx!” – deyirdin.*** Belə ki, qeyd edilənlərə əsasən, Peyğəmbər (s) Zeynəb bint Cəhşi görmüş və ona heyran olmuşdu. Həmin vaxt o, Peyğəmbərin azad etdiyi köləsinin nikahında idi. Peyğəmbərin (s) könlündəkindən xəbəri olan Allah Zeybin qəlbində həyat yoldaşına qarşı ikrah yaratdı və o da zövcəsindən ayrılmaq istədi. Zeyd bunu Peyğəmbərə (s) söylədikdə Allahın elçisi (s) buyurdu: ***“Zövcəni saxla*** (boşama)***, Allahdan qorx!”*** Halbuki Peyğəmbər (s) Zeynəblə evlənmə bilməsi üçün Zeydin onu boşamasını istəyirdi. ***“Allahdan qorx!” –*** yəni zövcən barədə Allahın sənə vacib buyurduqlarından qorx; ***“Allahın aşkar etdiyi şeyi ürəyində gizli saxlayırdın” –*** qəlbində ondan ayrılmasını və ayrıldıqda Zeynəblə evlənməyi diləyirdin. Allah da sənin qəlbində gizlətdiyini aşkar etdi; ***“və camaatdan qorxurdun” –*** camaatın “Ona həyat yoldaşını boşamasını əmr etdi, boşadıqda isə özü onunla evləndi” deyəcəklərindən qorxurdun. ***“Halbuki əslində sənin qorxmağına daha çox layiq olan kimsə Allahdır”***.[129]

İbn Cövzi “Zadul-məsir”də yazır: “Peyğəmbər (s) Zeydi evləndirdikdən sonra Zeynəb bir müddət onunla yaşadı. Bir gün Peyğəmbər (s) Zeydin evinə gəldi, Zeynəbə baxdıqda onun ağ və gözəl üzlü, kamil Qüreyş qadını olduğunu gördü. Zeynəb onun qəlbinə düşdü. Peyğəmbər (s) buyurdu: “Qəlbləri çevirən (Allah) pak və münəzzəhdir!” Zeyd bunu anlayıb dedi: “Ey Allahın elçisi, izn ver onu boşayım”. Bəziləri isə deyir: “Peyğəmbərin (s) sözünü Zeynəb eşitdi və Zeyd gəldikdə bunu ona xəbər verdi. Zeyd də Zeynəbin Peyğəmbərin (s) qəlbinə yatdığını anladı və onun yanına gələrək dedi: “Ey Allahın elçisi, izn ver onu boşayım”. İbn Zeyd deyir: “Peyğəmbər (s) Zeydin evinin qapısına gəldi, onun qapısında yundan bir örtük asılmışdı. Külək örtüyü yelləyib qaldırdıqda Peyğəmbər (s) Zeynəbi gördü. O, Peyğəmbərin (s) qəlbinə girmişdi... Zeyd Peyğəmbərin (s) yanına gələrək dedi: “Ey Allahın elçisi, ondan ayrılmaq istəyirəm”. Peyğəmbər (s) isə ona Allahdan

[129] “Təfsirut-Təbəri”, 22/10-11.

qorxmasını buyurdu. Müqatil deyir: "Zeyd Peyğəmbərin (s) təsbihindəki məqsədi anladı və dedi: "Ya Peyğəmbər, izn ver onu boşayım, onda təkəbbür vardır və bu mənə ağır gəlir. Həmçinin dililə də (acı sözlərilə) mənə əziyyət verir". Peyğəmbər (s) buyurdu: ***"Zövcəni saxla*** (boşama)***, Allahdan qorx!"*** Sonra Zeyd onu boşadı".[130]

Qurtubi öz təfsirində yazır: "Camaat bu ayənin yozumu barədə müxtəlif fikirlər söyləyiblər. Qətadənin, İbn Zeydin və aralarında Təbərinin də olduğu bir sıra təfsirçinin rəyinə görə, Peyğəmbər (s) Zeydin kəbinində olan Zeynəb bint Cəhşin gözəlliyinə valeh olmuşdu. O, Zeydin onu boşamasını və özünün Zeynəblə evlənməsini diləyirdi. Zeyd Zeynəbin acı sözlərindən, sözünə qulaq asmamasından və ona əziyyət verməsindən şikayətlənərək ondan ayrılmaq istədiyini Peyğəmbərə (s) bildirdikdə Allahın elçisi (s) buyurdu: **"Allahdan qorx, -** yəni onun barəsində belə sözlər söyləməkdən çəkin – **zövcəni saxla** (boşama)**!"** Halbuki Peyğəmbər (s) qəlbində Zeydin onu boşamasını arzulayırdı. Lakin yaxşılığı əmr etməsi də vacib idi.

Müqatil deyir: "Peyğəmbər (s) Cəhşin qızı Zeynəbi Zeydlə evləndirdi. Zeynəb bir müddət Zeydlə yaşadı. Bir gün Peyğəmbər (s) Zeydlə görüşmək üçün onun evinə gəldi, Zeynəbi ayaq üstə ikən gördü. O, qamətli, ağ və gözəl üzlü kamil Qüreyş qadını idi. Peyğəmbərin (s) ondan xoşu gəldi və dedi: "Qəlbləri çevirən Allah pak və münəzzəhdir!" Zeynəb Peyğəmbərin (s) bu təsbihini eşitdi və sonra onu Zeydə xəbər verdi. Zeyd məsələni anlayıb dedi: "Ey Allahın elçisi, izn ver onu boşayım. Belə ki, o, təkəbbürlüdür, bu mənə ağır gəlir, dililə də mənə əziyyət verir". Peyğəmbər (s) buyurdu: "Zövcəni boşama, Allahdan qorx!".

Deyilib ki, həmin vaxt Allah bir külək göndərdi, külək qapıdakı örtüyü qaldırdı və Zeynəb evində ikən Peyğəmbərə (s) alt paltarında göründü. Peyğəmbər (s) onu gördükdə könlünə xoş gəldi. Zeynəb də Peyğəmbərin (s) könlünə yatdığını anladı. Həmin vaxt Peyğəmbər (s) Zeyd üçün gəlmişdi. Zeynəb hadisəni Zeydə xəbər verdi və Zeyd də onu boşamağı düşündü. İbn Abbas deyir: "Zeynəbə olan məhəbbətini ***"...ürəyində gizli saxlayır və insanlardan qorxurdun"*** – onlardan utanırdın". Deyilib ki, "Onu boşa" deməkdə müsəlmanların danlağından qorxurdun ki, "Bir şəxsə

130 "Zadul-məsir", 6/209.

zövcəsini boşamasını əmr etdi və sonra özü həmin qadınla evləndi” deyərlər. ***“Halbuki əslində sənin qorxmağına*** (hər bir halda) ***daha çox layiq olan kimsə Allahdır”.*** Həmçinin deyilib: “Utanmağına daha çox layiq olan kimsə Allahdır. Zeynəbin sənin zövcən olacağını Allah sənə bildirdiyi halda Zeydə zövcəsini saxlamağı söyləmə. Allah da onu bunlara görə danladı”.[131]

Sanki bütün bunları Peyğəmbərə (s) nisbət vermək İbn Kəsirə də ağır gəlir. Belə ki, təfsirində yazır: “Burada İbn Əbu Hatəm və İbn Cərir bəzi sələflərdən rəvayətlər nəql edirlər. Biz isə burada onların üzərindən keçir, səhih olmadıqlarına görə qeyd etmirik”.[132]

Bütün bunlardan sonra məsələ ilə bağlı Peyğəmbəri (s) ləkələməkdə şiələri ittiham etməyə müəllifin haqqı çatırmı?!

* * *

**Müəllif iddia edir: “Əmirəl-mömininidən rəvayət olunur ki, o, Əbu Bəkr və Ömər Peyğəmbərin (s) yanında ikən oraya gəldi. Deyir: “Mən Peyğəmbərlə (s) Aişənin arasında əyləşdim. Aişə dedi: “Oturmağa mənimlə Peyğəmbərin budunun üzərindən başqa yer tapmadın?!” Peyğəmbər isə “Sus, ey Aişə” deyə buyurdu” (“əl-Burhanu fi təfsiril-Qur\`an”, 4/225)”.**

**Cavab:** Bu rəvayətin sənədi olduqca zəifdir. Belə ki, raviləri arasında bir neçə məchul şəxs vardır. Onlardan: Əbu Muhəmməd Fəhham və onun əmisi Ömər ibn Yəhya, İshaq ibn Əbdus və Muhəmməd ibn Bəhar ibn Əmmar.

Hədisin mətninə gəldikdə, burada müəllifin məqsədinə uyğun heç bir dəlalət yoxdur, Əmirəl-möminin (s) Peyğəmbərin (s) hüzurunda ədəbsizliyə yol verməmiş, Aişəni və ya Peyğəmbəri (s) bədnam edəcək hərəkət etməmişdir. Onun Peyğəmbərlə (s) Aişə arasında əyləşməsi onların arasındakı yerin darlığına və bədənlərinin bir-birinə toxunmasına əsla dəlalət etməz. Aişənin sözünün də dəyəri yoxdur, belə ki, bu sözlər onun Əmirəl-möminin Əliyə (ə) qarşı olan qısqanclığından, onun özü ilə

[131] “Təfsir”, Qurtubi, 14/189.

[132] “Təfsiru Qur\`anil-əzim”, 3/491.

Peyğəmbərin (s) arasında əyləşməsindən keçirdiyi qıcıqdan qaynaqlanır. Məsələ nə bundan artıq və nə də əskikdir.

Digər tərəfdən, müəllif şiələrin Peyğəmbəri (s) bədnam etdiklərinə dəlil olaraq göstərdiyi hədisin yalnız əvvəlini qeyd etməklə yarımçıq nəql edib. Çünki hədisin ardı onun işinə yaramır. Belə ki, orada Əmirəl-möminin Əlini (ə) mədh və tərif, Aişəni isə məzəmmət edən sözlər yer alır. Bunlar isə Peyğəmbərin (s) sözləridir: *"Sus, ey Aişə, Əliyə rəftarınla məni üzmə! O mənim dünyada da, axirətdə də qardaşımdır, o, möminlərin əmiridir. Uca Allah qiyamət günü onu Siratın üzərində əyləşdirəcək, o da dostlarını cənnətə, düşmənlərini isə cəhənnəmə göndərəcək".*

Peyğəmbərin (s) bu sözlərini onların ləkələnməsinə dəlil olaraq müəllifin necə istifadə etdiyini əsla anlamaq olmur!

* * *

**Müəllif iddia edir: "Digər bir dəfə də oraya gəlmiş, oturmağa yer tapmamışdı. Peyğəmbər də "Burada - yəni arxamda əyləş" deyə işarə etmişdi. Həmin vaxt Aişə üzərinə əba atmış halda Peyğəmbərin arxasında dayanmışdı. Əli (r.a) gəlib onunla Peyğəmbərin arasında əyləşmişdi. Aişə bundan qəzəblənərək belə demişdi: "Dalına qucağımdan başqa yer tapmadın?!" Peyğəmbər (s) bundan qəzəblənərək demişdi: "Ey Hümeyra, qardaşım Əli barədə mənə əziyyət etmə" ("Kitabu Süleym ibn Qeys", səh.179)".**

**Cavab:** Bu hədis də əvvəlki kimi, heç bir vəchlə Peyğəmbərin (s) ləkələnməsinə dəlalət etmir. Orada Aişənin söylədikləri də Əmirəl-möminin Əliyə (ə) qarşı qısqanclığından irəli gəlir. Necə ki, öncəki hədisdə də bunu qeyd etdik. Belə ki, hədisdə Əmirəl-möminin Əlinin (ə) Aişəyə toxunduğuna və ya ədəbsizlik göstərdiyinə dəlalət edən bir kəlmə də yoxdur. İmam Əli (ə) əyləşmək üçün yer seçimində sadəcə Peyğəmbərin (s) göstərişinə əməl edir.

Bu hədisi də tam şəkildə nəql etmək və orada Əmirəl-möminin Əlinin (ə) fəzilətlərini qeyd etmək, görünür müəllifə ağır gəlib. Bu isə müəllifin ümumən Əhli-Beytin (ə), xüsusən də Əmirəl-möminin Əlinin (ə) fəzilətlərini və üstün cəhətlərini yad etməyi daxilinə sığışdıra bilməyən qısqanclığından və müxalifliyindən xəbər verir.

Hədisin ardı belədir: *“Peyğəmbər (s) qəzəblənib dedi: “Sus, ey Hümeyra! Qardaşım Əli barədə mənə əziyyət etmə! Həqiqətən o, möminlərin əmiri, müsəlmanların ağası, həmd bayrağının sahibi, qiyamət günü üzüağların rəhbəridir. Allah onu Sirat üzərində qərar verib cənnətlə odu (əhlini) böləcək. O, dostlarını cənnətə, düşmənlərini isə oda daxil edəcək”.*

Digər tərəfdən hədisin mətnini də təhrif edib, bu cümlələri hədisdən çıxarıb: *“Ev adamla dolu idi. Onlardan beşi “kitab” əshabı, beşi isə Şura əhli idi”.* Həmçinin Aişənin Əmirəl-möminin Əlini (ə) itələdiyini və Peyğəmbərin (s) Əlinin (ə) vəsfinə dəlalət edən sözlərini də gizlədib.

Əziz oxucu, Allah sənə mərhəmət göstərsin, müəllifin Əmirəl-möminin Əliyə (ə) qarşı qəlbindəki münasibətindən doğan bu məqsədli təhriflərə diqqət yetir!

* * *

**Müəllif iddia edir: “Məclisi Əmirəl-mömininindən (ə) belə rəvayət edir: “Peyğəmbərlə (s) birgə səfər edirdik. Peyğəmbərin (s) məndən başqa xidmətçisi yox idi. Həmçinin Peyğəmbərin (s) yalnız bir yorğanı vardı. Aişə də onunla (s) idi. Peyğəmbər (s) mənimlə Aişənin arasında bir yorğanın altında yatırdı. Peyğəmbər (s) gecə namazına qalxarkən yorğanı ortadan döşəyə toxunanadək əli ilə xətt çəkib bölərdi” (“Biharul-ənvar”, 40/3)”.**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Belə ki, o “əl-İhticac” kitabında “Süleym ibn Qeysin kitabı”ndan mürsəl (sənədsiz) olaraq nəql olunub.

Həmçinin öncəkilər kimi, bu rəvayət də Peyğəmbərin (s) bədnam edilməsinə dəlalət etmir. Belə ki, müəllif döşəyin dar olduğunu və Əmirəl-mömininin (ə) Aişənin yaxınlığında yatdığını təsəvvür etmişdir. Halbuki hədis buna deyil, əksinə, yorğanın böyük və geniş olduğuna dəlalət edir. Belə ki, Peyğəmbərin (s), Aişənin və naməhrəm şəxsin üçünün birlikdə dar bir döşək üzərində yatmasına Peyğəmbərin razı olacağı qeyri-mümkün ehtimaldır.

Buradan da anlaşılır ki, həmin yorğan çox geniş və Əli (ə) ilə Aişənin arasındakı məsafə də böyük idi. Ona görə də Peyğəmbər (s) heç bir qəbahət görmədən onları hədisdə vəsf edilən halda qoyub namaza gedir. Belə ki, Əmirəl-möminin Əli əsla göz və ya qulaq xainliyində ittiham olunmamış, hər bir halda Peyğəmbərin (s) mənafeyini

və namusunu ən çox qoruyan şəxsdir. Bundan sonra söylənə biləcək hər hansı bir irad artıq söhbətdən savayı bir şey olmayacaq.

Əhli-sünnə hədisşünasları da öz kitablarında buna bənzər hadisəni rəvayət ediblər. Hakim Nişapuri öz "Müstədrək"ində nəql etmiş və səhih olduğunu söyləmiş, İbn Asim "Kitabus-sünnə"də və digərləri öz kitablarında Abdullah ibn Zübeyrdən, o da atasında rəvayət edirlər: *"Soyuq bir səhərdə Peyğəmbər (s) məni bir iş üçün göndərdi. Mən onun yanına gəldikdə o, qadınlarından biri ilə yorğanın altında idi. Məni də yorğanın altına aldı və biz (eyni yorğan altında) üç nəfər olduq".*

Hakim deyir: "Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim "Səhih"lərində nəql etməyiblər". Zəhəbi də onunla razılaşıb.[133]

Heysəmi "Məcməuz-zəvaid"də Zübeyrdən nəql edir: *"Peyğəmbər məni soyuq bir gecədə və ya sübh vaxtında bir yerə göndərdi. Mən gedib yenidən onun yanına qayıtdım. Həmin vaxt Peyğəmbər (s) xanımlarından biri ilə yorğanın altında yatmışdı. Peyğəmbər paltarının (və ya paltarın) bir hissəsini mənim üçün yerə sərdi".*[134]

* * *

**Müəllif iddia edir: "Məgər Peyğəmbər zövcəsi Aişənin qucağında Əlinin oturmasına razı olarmı?! Məgər Peyğəmbər öz xanımını və həyat yoldaşını məhrəmi olmayan əmisi oğlu ilə eyni yataqda qoyub getməyi qeyrətinə sığdırarmı?! Bəs Əmirəl-möminin özü, belə bir şeyə razı olarmı?!"**

**Cavab:** Qeyd edilən hədislərin Əmirəl-möminin Əlinin (ə) Aişənin qucağında oturmasına heç bir dəlaləti yoxdur ki, müəllifin iddia etdiyi kimi də Peyğəmbərin (s) qısqanclığına rəvac versin.

Onları eyni yorğan altında qoyub namaz qılması isə heç də onları eyni yataqda qoyub getdiyi anlamını daşımır. Belə ki, yorğan çox geniş idi və onların arasında da böyük məsafə vardı. Necə ki, bunu yuxarıda izah etdik.

---

[133] "əl-Müstədrəku ələs-səhiheyn", 3/410, Heydərabad çapı, 3/364; "Kitabus-sünnə", 2/597.

[134] "Məcməuz-zəvaid", 9/152; "Müsnəd", əl-Bəzzar, 3/183.

Əmirəl-möminin Əli (ə) Aişəyə məhrəm olmasa da, əsla ona qarşı ədəbsizlikdə və ya pis rəftarda da ittiham edilməyib. Bu faktın özü onun Peyğəmbərin (s) etimadına layiq olması üçün yetərlidir. Belə ki, Peyğəmbər (s) nə Əlini (ə) və nə də Aişəni (ə) əsla nalayiq hərəkətdə ittiham etmirdi. Bu halda ehtiyat nədəndir?

* * *

**Müəllif iddia edir: "Hövzədəki ən böyük alimlərdən biri olan Seyid (!) Əli Ğərəvi deyir: "Peyğəmbərin (s) cinsiyyət üzvünün odda yanması labüddür. Çünki onunla bəzi müşriklərlə yaxınlıq etmişdir". Bu sözlərdəki məqsədi isə Aişə və Həfsədir. Məlum olduğu kimi, bunda Peyğəmbərə (s) qarşı ehtiramsızlıq və tənə vardır. Çünki Peyğəmbərin (s) cinsiyyət üzvü də cəhənnəmə daxil olacaqsa, o zaman heç kəs cənnətə gedə bilməz!"**

**Cavab:** Mirzə Əli Ğərəvi əsla belə sərsəm sözlər danışmaz!

Əgər müəllif Mirzə Əli Ğərəvinin şeyx, yaxud seyid olduğunu bilmirsə, o zaman ondan nəql etdiyi sözə və şahidliyinə necə etibar etmək olar?!

Tədris dövründə bizə bir müddət onun dərslərində iştirak etmək nəsib olmuşdu. Bizə bir çox məsələdə nümunə olan şəxs idi. Ondan əsla bu tərz batil, nalayiq, alimlər bir kənara dursun, hətta cahillərin dillərinə gətirməyəcəkləri sözlər eşitmədik. Əgər söyləmiş olsaydı, yaşadığı dövrdə belə bu sözləri məşhur olardı. Çünki belə bir iddia Peyğəmbərin (s) məqamına qarşı çox böyük bir cürət sayılar və bütün müsəlmanların həmfikir olduqları məsələ ilə müxaliflik anlamı daşıyardı. Belə ki, bədən istisna olmaqla yalnız cinsiyyət üzvünün cəhənnəmə getməsi necə baş verə bilər?

Bu cəhətdən, necə yalnız cinsiyyət üzvü qeyd edilə bilər ki, nikahdakı yaxınlıqda bütün bədən iştirak edir?!

Necə ola bilər ki, kitab əhli və ya cariyələrlə nikah icazəli olduğu halda, kafirə toxunmuş üzv oda atılsın?!

Bütün bunlardan əlavə, əgər cinsiyyət üzvünün cəza olaraq oda atılması baş verərsə, bu, Peyğəmbərin (s) cəhənnəm əzabına layiq olan bir günah işlədiyi mənasını daşıyacaq. Bu isə müsəlmanlar arasında ümumi qəbul olunmuş Peyğəmbərin (s) məsumluğu əqidəsinə tam ziddir.

**Müəllif iddia edir: “Digər məsələlərə də nəzər salmaq üçün yalnız Peyğəmbərlə (s) əlaqəli olan bu altı rəvayətlə kifayətlənirəm. Onlar Əmirəl-möminin (r.a) barədə də belə rəvayətlər nəql ediblər. Onlardan bir neçəsi belədir:**

**Əbu Abdullahdan (r.a) rəvayət olunur: “Ömər Ənsardan bir kişiyə aşiq olmuş qadını gətirdi. Qadın yumurtanı öz paltarının və budlarının arasına tökmüşdü. Əli qalxıb onun budlarının arasına baxdı və onu ittiham etdi” (“Biharul-ənvar”, 4/303).**

**Biz indi soruşuruq: Əmirəl-möminin naməhrəm bir qadının budlarının arasına baxarmı? Məgər İmam Sadiqin belə bir rəvayəti nəql etməsi ağlabatandırmı? Əhli-Beyti sevən bir kəs belə sözlər danışarmı?”**

**Cavab:** Hədisdə qeyd edilən budur: *“Əmirəl-möminin (ə) qadının paltarındakı və budları arasındakı ağ maddəyə (ağlığa) baxdı və onu hiylə qurmaqda ittiham etdi. Dedi: “Mənə yeni qaynamış isti su gətirin”. Suyu gətirdilər. Əmirəl-möminin (ə) suyu qadının üzərindəki ağ maddənin üzərinə tökməyi buyurdu. Həmin ağ maddə suda bişdi və Əmirəl-möminin (ə) onu götürüb ağzına atdı. Dadını öyrəndikdən sonra onu ağzından çıxardı. Sonra üzünü qadına tutdu və qadın da hiylə işlətdiyini etiraf etdi. Bununla da Allah həmin Ənsardan Ömərin (haqsız) cəzasını uzaqlaşdırdı”.*[135]

Hədisin mənası aydındır. Fəqihlik və ictihad iddiaçısı olan müəllifin güman etdiyi kimi, Əmirəl-möminin Əli (ə) budların özünə və ya arasına deyil, qadının budlarının üstünü örtən paltarın üzərindəki ağ maddəyə baxmışdır. Əks təqdirdə belə deyilməliydi: “Əmirəl-möminin (s) onun budlarının üzərini açıb oraya baxdı” və ya “Onun budlarının üstü açıq idi və oraya baxdı”. Lakin hədisdə bu iki məsələnin heç birinə dəlalət yoxdur və hadisəni bu məcraya yönəltmək düzgün deyil.

* * *

**Müəllif iddia edir: “İmam Əbu Abdullahdan (r.a) rəvayət olunur: “Əmirəl-möminin Əli (ə) minbərdə ikən bir mənfur qadın onun yanına gəldi və dedi:**

[135] “əl-Kafi”, 7/422; “Təhzibul-əhkam”, 6/304; “Vəsailuş-şiə”, 18/206; “Biharul-ənvar”, 40/303.

**“Əzizlərimin qatili budur!” Əmirəl-möminin (ə) ona nəzər salıb buyurdu: “Ey qadınların gördüyü kimi heyz görməyən, həyasız, asi qadın! Ey övrətində bir şey sallanan!” (“əl-Bihar”, 41/293).**

**Məgər Əmirəl-möminin belə nalayiq sözlər danışarmı? Məgər qadına “Ey övrətində bir şey sallanan” deyə ona xitab edərmi? Məgər İmam Sadiq (r.a) belə batil bir sözü nəql edərmi? Əgər bu rəvayətlər əhli-sünnənin kitablarında olsaydı, dünyanı ayağa qaldırar, onları ən pis tərzdə rüsvay edərdik. Lakin biz şiələrin kitablarındadır!”**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Onu İmam Sadiqdən (ə) rəvayət edənlər sırasında Bəkkar ibn Kərdəm vardır ki, tərcümeyi-hal kitablarında ona etina olunmayıb, barəsində nə xoş və nə də pis söz söylənməyib. Ravilərdən olan İsa ibn Süleyman isə halı məchul şəxsdir.

Bu hədisi onlardan Ömər ibn Əbdüləziz nəql edir. O, vəziyyəti qarışıq olan imamçıdır. Belə ki, Nəcaşi onun barəsində öz “Rical”ında[136] yazır: “əl-Kəşşi Fəzl ibn Şazandan rəvayət edib ki, o, inkar edilən hədislər söyləyirdi”.[137]

Rəvayətin mətninə gəldikdə, hədislərdə gələn belə ibarələr onu söyləyən şəxsə başıaşağılıq gətirmir. Çünki bunlar söyüş sayılmırlar. Bu sözü ilə Əmirəl-möminin (s) üstüörtülü şəkildə qadının cinsiyyət üzvündən xəbər verir, onda aşkar surətdə sallanan bir şeyin olduğunu bildirir. Üstüörtülü sözlərlə nəyəsə eyham vurmaq ərəb dilinin geniş yayılmış üslubudur, mənası xoş olmasa belə bəlağət və kəlam alimləri bunu eyib saymırlar. Qurani-Kərimdə də cinsiyyət üzvü, cinsi əlaqə, eynicinslilərin münasibəti, ehtiyac ödəmək və s. kimi mövzularda üstüörtülü işarə üslubundan ən gözəl tərzdə istifadə edilmişdir. Necə ki, möhtərəm Peyğəmbər (s) sünnəsində də bu cür kəlamların olduğu heç kəsə gizli deyildir.

Bütün bunlarla bərabər, qeyd olunmalıdır ki, bu hadisə Hakim Həskaninin “Şəvahidut-tənzil” kitabında da nəql olunub. O, əhli-sünnənin hədis hafizlərindəndir. Bu rəvayəti o, Cabirə istinadən Əbu Cəfərdən nəql edib: *“Əmirəl-möminin Əli (ə)*

---

[136] “Rical”, Nəcaşi, 2/127.

[137] “İxtiyaru mə`rifətir-rical”, 2/748.

*Kufə məscidində idi. Bu vaxt onun yanına həyat yoldaşından şikayətçi olan bir qadın gəldi. Əmirəl-möminin (ə) qadının həyat yoldaşının lehinə hökm verdi. Qadın bundan qəzəblənərək dedi: "Xeyr, Allaha and olsun, sən doğru hökm vermədin, rəiyyətə qarşı ədalətli olmadın və bu qəzavətin heç də Allah yanında razılıqla qarşılanmayacaq!" İmam (ə) az müddət ona nəzər saldı və buyurdu: "Ey həyasız, asi! Ey (normal) qadınlar kimi heyz görməyən qadın! Yalan söyləyirsən!" Qadın oradan qaçaraq uzaqlaşdı. Əmr ibn Hüreys onun ardınca gedib dedi: "Sən Əli barədə bəzi sözlər söylədin. O isə sənə acı sözlər dedi, sən də oradan ağlayaraq qaçdın?" Qadın dedi: "Allaha and olsun ki, Əli mənim barəmdə evləndiyim gündən bəri zövcəmdən gizlətdiyim həqiqəti söylədi". Əmr ibn Hüreys Əmirəl-mömininin yanına qayıdıb qadının söylədiklərini ona xəbər verdi və dedi: "Ey Əbu Talibin oğlu! Biz sənin kahin olduğunu bilmirdik!" İmam (ə) buyurdu: "Vay olsun sənə! Bu, mənim tərəfdən kahinlik deyildir. Allah Quranda ayə nazil etmiş və buyurmuşdur:* ***"Bunda ayırd edə bilənlər üçün ibrətlər vardır".*** *Peyğəmbər (s) ayırd edə bilən idi. Onun ardınca mən və nəslimdən olan imamlar da ayırd edə bilənlərik. Mən ona baxan kimi üzündən kim olduğunu anladım".*[138]

Əmirəl-möminin (ə) haqqında bu cür rəvayətləri oxumaq müəllifə ağır gəlir və bunu ona qarşı ləkə hesab edir?! Halbuki onlar Əli (ə) barədə bundan daha nalayiq sözlərlə rəvayətlər nəql ediblər. İbn Əsir "ən-Nihayə" kitabında Əlidən (ə) nəql etdiyi hədisdə deyir: "Azad edilmiş qullardan olan bir kəs Əli ilə mübahisə etdi və Əli ona dedi: "Sus, ey arxa və ön övrətinin arası çürümüş kölə qadının oğlu!"[139] Belə ki, ərəblər bu kəlməni söyüş və təhqir olaraq istifadə edirlər.

Nəinki, hətta bəzi əhli-sünnə hədisləri Peyğəmbərə də (s) layiq olmayan nalayiq sözlər danışdığını nisbət verirlər. Halbuki Peyğəmbəri (s) belə şeylərdən uzaq və pak bilmək vacibdir. Onlardan:

---

[138] "Şəvahidut-tənzil", 1/323.

[139] "ən-Nihayətu fi ğəribil-hədis", 1/440.

* Əhməd ibn Hənbəl "Müsnəd"dində Übeydən (r.a) nəql edilir: *"Bir kəs özünü öyürdü, Übey isə ona "Get atanın cinsiyyət üzvünü çeynə" dedi. Dedilər: "Sən nə əxlaqsız söz danışan kəssən!" Dedi: "Bizə belə danışmaq əmr olunub".*[140]

* Əhməd ibn Hənbəl "Müsnəd"ində Übey ibn Kə`bdən rəvayət edir ki, *bir kəs cahiliyyə dövründəki kimi öyünürdü. O isə üstü açıq tərzdə ona "Atanın cinsiyyət üzvünü çeynə" dedi. Camaat ona baxdıqda dedi: "Mən sizin nəfsinizdəkini söylədim, bunu deməyə bilməzdim. Peyğəmbər (s) bizə buyurub ki, kimin cahiliyyə dövründəki kimi öyündüyünü görsəniz, ona açıq şəkildə belə cavab verin".*

Übey ibn Kə`dən rəvayət olunur: *"Übeyin yanında cahiliyyə dövründəki kimi öyünən, atası ilə fəxr edən bir şəxsi gördüm. Übey ona üstü açıq tərzdə "Atanın cinsiyyət üzvünü çeynə" dedi. Sonra onlara dedi: "Mən sizin içinizdə gizlətdiyinizi gördüm, amma mən başqa cür bacarmıram. Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Kim cahiliyyə dövründəki kimi öyünsə, ona açıq şəkildə belə cavab verin".*

Həsəndən, o da Ətiydən nəql edir: *"Bir kəs cahiliyyə dövründəki kimi öyünürdü..."* (ardı yuxarıdakı hədislə eynidir). *Übey dedi: "Bizə əmr olunub ki, kimin cahiliyyə dövründəki kimi öyündüyünü görsəniz, ona açıq şəkildə belə cavab verin".*[141]

Məgər müəllif Peyğəmbərin (s) müsəlmanlara belə çirkin sözlər söyləmələrini buyura biləcəyini ağlına sığdıra bilir? Halbuki bu kimi nalayiq sözlərin əvəzində üstüörtülü danışaraq pis əməldən çəkindirmək mümkün deyilmi?

* * *

**Müəllif iddia edir: "Təbərsinin "əl-İhticac"ında Fatimənin (s.ə) Əmirəl-mömininə (ə) belə dediyi qeyd olunur: "Ey Əbu Talibin oğlu! Ana bətnindəki uşaq kimi büzüşüb qalmış, müttəhim kimi evin küncündə oturmuşsan".**

---

140 "Müsnəd", Əhməd ibn Hənbəl, 5/133.

141 "Müsnəd", Əhməd ibn Hənbəl, 5/136. Bunu Təbərani "əl-Mö`cəmul-kəbir"də nəql edib (1/198). Heysəmi "Məcməuz-zəvaid"də (3/3) yazır: "Bunu Təbərani "əl-Mö`cəmul-kəbir"də qeyd edib, raviləri inanılan şəxslərdir".

**Cavab:** Rəvayətin səhih olduğunu fərz etsək, deyə bilərik ki, Fatimeyi-Zəhra (s.ə) atası Peyğəmbərin (s) vəfatından sonra əlindən alınmış mirasını geri qaytarmaq üçün Əmirəl-möminin Əlidən (ə) yardım istəyirdi.

Xanımın (s.ə) **"Ey Əbu Talibin oğlu!"** sözü onu yardıma təşviq etmək üçündür. Belə ki, dünyadan köçənədək Peyğəmbəri (s) müdafiə etməkdən bir an da olsa geri çəkilməyən atasının (ona Allahın salamı olsun!) adını yad edərək onu köməyə səsləyir.

**"Ana bətnindəki uşaq kimi büzüşüb qalmış, müttəhim kimi evin küncündə oturmuşsan"** – məna budur ki, sən ana bətninə yapışmış uşaq kimi evdə oturmusan, yardımçılarının azlığı səbəbindən nə bir qüdrətin və nə də gücün qalıb. Zəif müttəhimlər oturduğu kimi sən də mənim haqqımı tələb etməkdənsə, yerində qalmısan.

**"(Halbuki) sən həmin pəhləvansan ki, qartalların dimdiklərini sındırardın, indi isə qorxaq toyuqların lələkləri əlində aciz qalmışsan"** – yəni, sən döyüşlərə girərdin, qorxu salardın, düşmənin sayının çoxluğuna baxmazdın və onların qüdrətlərini qırardın. Ancaq bu gün həmin zəif və acizlər qarşısında məğlub qalmısan, işləri onlara təslim etmiş və onlarla mübarizə aparmırsan.

**"Əbu Qühafənin oğlu zülmkarlıqla atamın bəxşişini və övladlarımın payını əlimdən aldı. Allaha and olsun ki, buna qarşı ciddi mübarizə apardım. Mənimlə şiddətlə mübahisə edib sözümlə razılaşmadı"** – məna budur ki, bu Əbu Bəkr məni atamın hədiyyələrindən məhrum etdi, yəni övladlarımın dolanışığını təmin etdiyim Fədəyi əlimdən aldı. Əbu Bəkr aşıq-aşkar mənimlə mübahisə etdi və mənə sərt sözlər söylədi.

**"Qeylə[142] məndən öz köməyini əsirgədi. Mühacirlər dadıma yetişmədilər. Camaat gözlərini sallayıb yerə baxdı. Bir kəs məni müdafiə edib (zülmə) mane olmadı"** – mənası budur ki, ənsarın əsasını təşkil edən Qeylə yardımlarını Fatimədən əsirgədilər, mühacirlər də yardımsız qoydular, müsəlmanlar onun tərəfini tutmadılar, yardım etmələri vacib olduğu halda haqqını müdafiə və zülmü dəf etmədilər.

---

[142] Ənsarın böyük hissəsini təşkil edən Övs və Xəzrəc qəbilələrinin üzvləri.

**“Qəzəblənib evdən çıxdım, pərişan və başıaşağı halda evə qayıtdım”** – yəni, mən evdən qəzəbimi udmuş, səbr edən halda çıxdım, lakin başıaşağı və pərişan halda oraya qayıtdım, özümə nə bir yardımçı və nə də müdafiəçi tapdım.

Və Xanımın (s.ə.) Əmirəl-möminin Əlini (ə) yardıma təşviq edən, zülm qarşısında müdafiəsinə qalxmağa, eləcə də əlindən alınanların geri qaytarmağa cəhd göstərməyə səsləyən digər sözləri...

Əmirəl-möminin Əlinin (ə) evdə oturmasını ana bətnindəki uşaq kimi büzüşüb qalmağa və müttəhim kimi küncə çıxılmağa bənzətməsi heç də onu məzəmmət etmək və qarşı tərəflə üz-üzə gəlməyə təşviq etmək mənasını daşımır. Çünki o, baş verən hadisələrdən xəbərdar idi.

* * *

**Müəllif iddia edir: “Təbərsi “əl-İhticac”da Ömərin və onunla birlikdə olanların Əmirəl-mömininin (ə) boynuna ip atıb dartaraq necə Əbu Bəkrin yanına gətirmələrini, onun da “Ey anam oğlu! Bu tayfa məni zəif bilib az qaldı ki, öldürə!” deyib nida etdiyini yazır!!!**

**Biz soruşuruq: Məgər Əmirəl-möminin bu həddə qorxaq idi?!”**

**Cavab:** Məgər onlarla savaşmamaq və əziyyətlərinə səbr etmək qorxaqlıq və zəiflik sayılır, yoxsa hikmət və müdriklik?!

Bu məsələnin iki cəhəti vardır: ya Əmirəl-möminin (ə) onlarla savaşacaq, onları məhv edəcək və köklərini kəsəcəkdi, ya da onlarla savaşmaqdan çəkinib və səbr edib nəticələri gözləyəcəkdi.

Savaşacağı təqdirdə İslamın və hökmlərinin aradan gedəcəyini bilirdi. Hikmət onlarla birbaşa düşmənçilikdən çəkinməyi və sülhə razılaşmağı tələb edirdi. Çünki bu, zərərlərin ən azı idi. Buna əsasən o, “Şiqşiqiyyə” xütbəsində deyir: *“Səbr etməyin ağıllı iş olduğunu görüb, gözlərimi toz, çör-çöp, boğazımı isə sümük tutduğu halda səbr etdim. Mirasımın tarac olunduğunu görürdüm”.*

Dediklərimizdən aydın olur ki, Əmirəl-mömininin (ə) qılınclar altında dartılaraq gətirilməsi müəllifin iddia etdiyi kimi, heç də onun qorxaqlığından, yaxud qarşı tərəflə mübarizədən çəkinməyi səbəbindən deyildi.

Halbuki Fatimənin (s.ə) evinə hücum çəkdiklərini, qapısını sındırdıqlarını Əbu Bəkrin özü ölüm yatağında ikən etiraf edir. Necə ki, bəzi rəvayətlər və tarixçilərin qeydlərində bunlar yer alıb.

Təbərani "əl-Mö`cəmul-kəbir"də, Ziya əl-Məqdisi "əl-Əhadisul-muxtarəh"də və digər mənbələrdə Əbdürrəhman ibn Ovfdan nəql edirlər ki, Əbu Bəkr ölümü ilə nəticələnən xəstəliyi zamanı belə demişdir: *"Mən yalnız etdiyim və etmədiyim üç şey barədə təəssüflənirəm, kaş ki, onları etməyəydim, digər üçünü isə edəydim. Üç şey də var ki, Peyğəmbərdən (s) onlar barəsində soruşmaq istəyərdim. Etməmək istədiyim üç şey bunlardır: "Ey kaş, mən Fatimənin evinə hücum etməyəydim. Gərək onları öz hallarına buraxaydım və mənim əleyhimə müharibə əhdi-peymanı bağlayaydılar...".*[143]

Fatimənin (s.ə) evinə hücum hadisəsini bir neçə əhli-sünnə alimi də qeyd etmişdir:

İbn Qüteybə "əl-İmamətu vəs-siyasəh" kitabında yazır: "Əbu Bəkr ona beyətdən üz döndərmiş və Əlinin yanında yer alan şəxsləri axtarırdı. Onların yanına Öməri göndərdi. Ömər gəldikdə çöldən onları çağırdı. Onlar çölə çıxmaqdan imtina etdilər. Odun gətirilməsini istədi və dedi: "Ömərin canı əlində olana and içirəm ki, ya çölə çıxacaqsınız, ya da mən içəridəkilərlə birgə evi yandıracağam!" Ona deyildi: "Ey Əbu Həfs, Fatimə də içəridədir". Ömər dedi: "İçəridə olsa belə!" Əlidən başqa onların hamısı çıxıb beyət etdilər".

Ardınca yazır: "Sonra Ömər qalxıb getdi, bir dəstə adam da onunla birlikdə gedirdi. Fatimənin evinin qapısına gəlib qapını döydülər. Fatimə onların səslərini eşitdikdə yüksək səslə fəryad etdi: "Atacan, ey Allahın elçisi! Səndən sonra Xəttabın

---

[143] "əl-Möcəmul-kəbir", Təbərani, 1/62; "Məcməuz-zəvaid", 5/202; "əl-Əhadisul-muxtarəh", 1/88. Ziya əl-Məqdisi deyir: "Bu, Əbu Bəkrdən nəql edilən həsən hədisdir. Yalnız burada Peyğəmbərin (s) sözü yoxdur"; "Kənzul-ümmal", 5/631. Deyir: "Bu, həsən hədisdir, sadəcə orada Peyğəmbərdən (s) heç bir söz yoxdur"; "Tarixu mədinəti Diməşq", 30/418-423; "Tarix", Təbəri, 2/619; "əl-İmamətu vəs-siyasəh", səh.18; "Murucuz-zəhəb", 2/301.

və Əbu Qühafənin oğullarından bu çəkdiklərimiz nədir?!" Oraya gələnlərdən bir dəstəsi Fatimənin bu fəryadını və ağlamaq səslərini eşitdikdə ağlaya-ağlaya oranı tərk etdi... Orada Ömər və onunla da bir dəstə adam qaldı. Onlar Əlini evdən çıxarıb Əbu Bəkrin yanına gətirdilər və "Beyət et!" dedilər. Əli dedi: "Əgər beyət etməsəm, onda nə olacaq?" Dedilər: "Özündən başqa heç bir ilah olmayan Allaha and olsun ki, o zaman sənin boynunu vuracağıq". Dedi: "Allah bəndəsini, Peyğəmbərin qardaşını öldürəcəksiniz?" Ömər dedi: "Allah bəndəsini bəli, amma Peyğəmbər qardaşını yox". Bu zaman Əbu Bəkr susub heç bir söz söyləmirdi. Ömər ona dedi: "Onun barəsində nə əmr edirsən?" Dedi: "Fatimə onun yanında olduğu müddətcə onu heç bir şeyə məcbur etmə" Əli Peyğəmbərin (s) qəbrinin yanına gəlib fəryad edərək ağladı. O, belə deyirdi: "Ey anam oğlu! Bu tayfa məni zəif bilib az qaldı ki, öldürə".[144]

Əbul-Fida özünün "Tarix" kitabında yazır: "Sonra Əbu Bəkr Əlini və onunla birlikdə olanları evdən çıxarmaq üçün Öməri Fatimənin evinə göndərdi və ona dedi: "Əgər imtina etsələr, onları öldür". Ömər də onların evini yandırmaq üçün əlində odla gəldi. Bu zaman Fatimə onu qarşıladı və dedi: "Ey Xəttabın oğlu, evimizi yandırmağa gəlmisən?!" Ömər: "Bəli, ya da ümmət beyət etdiyi kimi siz də beyət edəcəksiniz!" deyə cavab verdi".[145]

Bu sözlərdəki mənanı misirli şair Hafiz İbrahim nəzmə belə çəkmişdir:

Ömərin Əliyə dediyi söz:

"Eşidənə ehtiram göstər, söyləyəni əzəmətli bil!
Əgər beyət etməzsən, evini Mustafanın qızı
İçəridə olduğu halda yandıraram, evindən bir şey qalmaz!
Bu sözlər Ədnan cəngavərinin və onun himayəsində olanların önündə
*Əbu Həfsdən başqasının ağzından çıxmadı".*[146]

İbn Teymiyyə də Əbu Bəkrin Fatimənin (s.ə) evinə təcavüzünü etiraf edir. Lakin buna övladını itirmiş ananı belə güldürəcək səbəb göstərir və deyir: "Biz yəqin bilirik ki, Əbu Bəkr Əli və Zübeyrə heç bir əziyyət vermədi. Nəinki, onlara, hətta əvvəldən sonadək beyətdən boyun qaçıran Səd ibn Übadəyə də təzyiq göstərmədi. Buna əsasən

[144] "əl-İmamətu vəs-siyasə", İbn Quteybə əd-Dinəvəri, səh.12-13.

[145] "Tarix", Əbul-Fida, 1/219.

[146] Hafiz İbrahimin "Divan"ı, səh.82.

də deyilməlidir: Evə təcavüz orada Allaha məxsus bölünməmiş mallardan bir şeyin qalıb-qalmadığını yoxlamaq və müəyyən olunacağı təqdirdə sahiblərinə vermək üçün idi. Sonradan oradakı malların onlarda qalmasının da mümkün olduğunu düşündü. Belə ki, qənimətlərdən onlara da bir pay verilməsi icazəli idi”.[147]

Qəribədir ki, müəllif Əmirəl-möminin Əlinin (ə) *“Ey anam oğlu! Bu tayfa məni zəif bilib az qaldı ki, öldürə”* sözünü qorxaqlıq və zəiflik kimi qiymətləndirir. Halbuki İmam (ə) bu sözləri Allahın peyğəmbəri olan Harunun (ə) Qurani-Kərimdəki sözlərindən iqtibas etmişdir. Belə ki, Musa görüşdən qayıtdıqdan sonra qövmü arasında baş verənlərə görə onu danlamış və o da özünün bəraəti üçün bu sözləri söyləmişdi. Maraqlıdır, görəsən müəllif qətlə yetiriləcəyindən ehtiyatlanaraq Samiri və onun ardıcılları ilə mübarizədən çəkinən Harun peyğəmbəri (ə) də qorxaqlıqda və zəiflikdə ittiham edir?!

* * *

**Müəllif iddia edir: “Onların Əmirəl-mömininə (r.a) verdikləri vəsflərə baxın. Belə ki, Fatimə onun barəsində deyir: “Qüreyş qadınları mənə onun barəsində deyirlər ki, o, böyük qarınlı, qolları uzun, üzvləri böyük və başının önü dazdır, yekəgözlüdür, dəvə kimi böyük sümükləri var, çox gülən və malsız-pulsuzdur” (“Təfsiru Qummi”, 2/336).**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Əli ibn İbrahim deyir: “Cənnət və cəhənnəmi inkar edənlərə etiraz olaraq bəzi əshabından atamın mənə İmam barədə nəql etdikləri bu hədisdir: “Peyğəmbər (s) Fatimə (s.ə) ilə evlənmək istəyini bildirən hər kəsin təklifindən imtina edirdi...”.

Göründüyü kimi, rəvayət mürsəldir (sənədsizdir) və arada vasitəçilər qeyd edilmədən birbaşa məsuma nisbət verilir. Onu heç bir məsələdə dəlil kimi təqdim etmək olmaz. Fəqihlik və ictihad iddiasında olan bir kəsin şiəyə dəlil təqdim etməzdən öncə rəvayətin sənədinin zəifliyinə diqqət etməsi lazımdır. Lakin biz onun səhihlə zəif, mürsəl və mərfu\` hədislər arasında fərq qoya bilmədiyini görürük.

---

[147] “Minhacus-sünnə”, 4/343.

Rəvayətin mətninə gəldikdə, əgər xəbərin doğruluğu fərz olunsa, Fatimənin (s.ə) sözləri aşağıdakı mənaları daşıyacaq:

**“Qüreyş qadınları mənə... deyirlər”** – göründüyü kimi, bu, xanım Fatimənin (s.ə) özünün söylədiyi və ya təsdiqlədiyi sözlər deyil, yalnız bunu Peyğəmbərə (s) xəbər formasında deyir.

Oradakı kəlmələri bir-bir sadalayaraq daşıdığı xüsusiyyətləri qeyd etməyimizdə bir müşkül olmaz:

**“böyük qarınlı”** – geniş qarınlı.

İbn Əsir özünün “ən-Nihayətu fi ğəribil-hədis” kitabında Üsamənin hədisilə bağlı deyir: “Onun böyük, yəni geniş qarnı vardı...”.[148]

Bu xüsusiyyət kişilər üçün məzəmmət olunacaq sifət deyildir. Ona görə də Əmirəl-möminin (ə) “ənzəul-bətin” (kəlmə etibarı ilə: böyük qarınlı) adlandırılırdı. Ancaq o (ə) özü bununla fəxr edirdi.

Əbdülbaqi əl-Öməri yazır:

Sən həmin hikmətlə dolu qarınlı şəxssən ki,
Onun onda biri səmaların fələklərindən də genişdir.
Sən həmin o yekə qarınlı aslansan ki,
*Pəncəsini şirk üzərinə hücum üçün açmışdır.*[149]

**“üzvləri böyük”** – Mübar Kafuri “Tuhfətul-əhvəzi” kitabında yazır: “Bu, sümüklərinin baş tərəfləri böyük deməkdir. Kəlmənin təki “kurdus”dur. Deyilib ki, bu, diz, dirsək və kürək sümükləri kimi iki böyük sümüyün birləşdiyi yerdir. Məqsəd isə üzvlərin böyük olduğunu bildirməkdir”.[150]

Bu vəsf də məzəmmətə layiq deyil. Bunun Peyğəmbərin (s) sifətlərindən olduğu əhli-sünnə mənbələrində qeyd olunub. Tirmizi “Sünən”ində İmam Əliyə (ə) istinad

---

[148] “ən-Nihayətu fi ğəribil-hədis”, 2/103.

[149] “ət-Tiryaqul-Faruqi”, səh.96.

[150] “Tuhfətul-əhvəzi”, 10/81.

edilən hədisdə belə rəvayət edir: “Peyğəmbər (s) nə uzun və nə də qısaboylu idi, ovucu və ayaqları bərk, başı və üzvləri böyük idi...”.[151]

**“başının önü dazdır”** – bu, başının önündən saçlarının olmamasıdır. Bu da eyib sayılmır. Əhli-sünnə kitablarında İmam Əlinin (ə) vəsflərində onun ümumiyyətlə daz olduğu qeyd edilir. Halbuki dazlıq başın önünün daz olmasından daha çoxdur.

**“yekəgözlüdür”** – bu söz isə tərif və mədh sifətidir. Bu sifətlə Peyğəmbər də (s) vəsf olunub. İbn Səd “ət-Təbəqat”da Muhəmməd ibn Əlidən, o da atası Əli ibn Əbu Talibdən nəql edir: “Peyğəmbərin (s) başı böyük, gözləri iri, kirpikləri uzun... idi”.[152]

**“dəvə kimi böyük sümükləri var”** – sözünün mənası iri sümüklü deməkdir. Bunlar dirsək, bilək və diz oynaqları kimi sümüklərdir. Bu kəlmə “enlikürək”[153] sözündən daha şərafətlidir və mədh sifətidir, Peyğəmbər (s) bu kəlmə ilə vəsf olunub.

İbn Səd “ət-Təbəqat”da Əmirəl-möminin Əlinin (ə) övladlarından olan İbrahim ibn Muhəmməddən nəql edir: “Əli Peyğəmbəri (s) vəsf edərkən belə deyirdi: “Ona tərəf dartılacaq qədər uzunboylu, aşağı əyiləcək qədər də alçaqboylu deyildi, orta qamətli idi. Saçları qısa qıvrımsaç və hamar da deyildi, sadəcə qıvrılırdı. Sifəti çox enli və ya ensiz deyildi. Yumrusifət, ağbəniz, irigözlü, uzun kirpikli, böyük sümüklü və enlikürək, ovucları və ayaqları bərk idi”.[154]

Müəllifin şiələrə belə zəif sənədli hədisi eyib tutub, ancaq əhli-sünnə mənbələrində eyni mövzuda olan səhih hədislərə göz yumması olduqca təəccüblüdür. Halbuki öz mənbələrindəki hədislərdə Peyğəmbəri (s) nalayıq sifətlərlə də vəsf edirlər. Onlardan:

---

[151] “Sünən”, Tirmizi, 5/598. Tirmizi yazır: “Bu, həsən, səhih hədisdir”. Həmçinin bax: “Müsnəd”, Əhməd, 1/96, 116,117, 127, 134; “əl-Müstədrək”, 2/662, Heydərabad çapı, 2/606. Hakim Nişapuri hədisi səhih hesab etmiş, Zəhəbi də onunla razılaşmışdır. “Müsnəd”, Əbu Davud Təyalisi, səh.25.

[152] “ət-Təbəqatul-kubra”, 1/410.

[153] Bax: “Lisanul-ərəb”, 6/347.

[154] “ət-Təbəqatul-kubra”, 1/411.

* Yekə ağzının olması; Tirmizi Cabir ibn Səmurə sənədilə rəvayət edir: “Peyğəmbər (s) ağzı qatlanmış... şəkildə idi”. Şəbə deyir: Simakdan “ağzı qatlanmış nə deməkdir?” deyə soruşdum, “ağzı böyük idi” cavabını verdi...”.[155]

* Ayaqlarının nazik olması; Tirmizi “Sünən”də və Hakim “Müstədrək”də Cabir ibn Səmurədən nəql edirlər: “Peyğəmbər (s) gülməz, yalnız təbəssüm edərdi, ayaqları nazik idi...”.[156]

Halbuki həmin vəsf onların öz nəzərlərində təhqir və məzəmmət sifətidir.

İbn Əsir “ən-Nihayə” kitabında yazır: “Hindin sözləri də belədir. O, Fəth günü Əbu Süfyana dedi: “Bu incəayaq tuluğu öldürün!” Rəvayətdə belə deyilmişdir və bu sözləri Peyğəmbəri (s) təhqir etmək üçün söyləmişdir”.[157]

* Yekə başlı olması; İbn Sədin bu barədə sözlərini yuxarıda qeyd etdik.

Əhməd ibn Hənbəl “Müsnəd”də İmam Əlidən (ə) nəql edir: “Peyğəmbərin başı yekə, gözləri iri idi...”.[158]

* Peyğəmbərin (s) kürəyində peyğəmbərlik möhürü vardı və o möhür göyərçin yumurtasına oxşayırdı; Müslim və digərləri Cabir ibn Səmurə sənədilə rəvayət

---

155 “Sünən”, Tirmizi, 5/603. Tirmizi deyir: “Bu, həsən, səhih hədisdir”.

156 “Sünən”, Tirmizi, 5/603. Tirmizi deyir: “Bu, həsən, qəribə hədisdir”. “əl-Müstədrək”, 2/662, Heydərabad çapı, 2/606. Hakim hədisi səhih sayıb. Həmçinin “əl-Bidayətu vən-nihayə”, 6/19.

157 “ən-Nihayətu fi ğəribil-hədis”, 1/441. Eyni rəvayət “Lisanul-ərəb”də də varid olub (6/288).

158 “Müsnəd”, Əhməd, 1/89, 96, 101, 127; “Sünən”, Tirmizi, 5/598. Orada Tirmizi yazır: “Bu həsən, səhih hədisdir”. “əl-Müstədrək”, 2/662, Heydərabad çapı, 2/606. Hakim hədisi səhih saymış, Zəhəbi də onunla razılaşmışdır. “əl-Bidayətu vən-nihayə”, 6/17.

edirlər: “Peyğəmbərin (s) kürəyində peyğəmbərlik möhürünü gördüm. Sanki göyərçin yumurtasına oxşayırdı”.[159]

Buxarinin və Müslimin rəvayət etdikləri digər hədisdə Saib ibn Yeziddən nəql olunur: “Sonra onun kürəyi tərəfdə dayandım, çiyinləri arasındakı möhürə baxdım, qübbənin üstü kimi idi”.[160]

“Səhih”in haşiyəsində Müslim həmin kəlməni belə təfsir edir: “O, üzərində qübbəsi olan bir ev kimidir. Düyməyə bənzər böyük çıxıntısı vardır”. Deyir: “Bu, əksəriyyətin də təsdiqlədiyi doğru fikirdir. Bəziləri deyiblər: “(Ərəbcə mətndəki) “həcələ” kəlməsində məqsəd məşhur quşdur, “zir” kəlməsi isə onun yumurtasına işarədir”. Bunu Tirmizi qeyd edib, alimlər isə inkar ediblər.

Digər hədisi Müslim “Səhih”ində Abdullah ibn Sərcəsdən rəvayət edir. Orada deyilir: “Sonra onun arxa tərəfinə keçdim, çiyinləri arasındakı, sol çiyin tərəfdə boyun sümüyünə yaxın yerdə olan peyğəmbərlik möhürünə baxdım. Xal kimi bir topa şəklində idi, sanki ziyilə bənzəyirdi.

Bunu kitabın haşiyəsində əlin barmaqlarının bükülüb yumruq formasını alması və bədəndəki piydən ibarət xal kimi təfsir edir, ziyilə bənzədir. Ziyil isə dəri üzərindəki şişmiş toxumalardır.

İbn Hibbanın “Səhih”ində Cabir ibn Səmurədən rəvayət olunur: “Çiynindəki möhürünü dəvəquşu yumurtasına bənzər şəkildə bədənində çıxdığını gördüm”.[161]

İbn Ömər deyir: “Peyğəmbərin (s) belindəki peyğəmbərlik möhürü sanki ətdən olan fındığa bənzəyirdi. Onun üzərində “Muhəmməd Allahın elçisidir!” yazılmışdı”.[162]

* Gözlərində qızartı vardı; İbn Səd “ət-Təbəqatul-kubra”da bunu qeyd edib.[163]

---

[159] “Səhih”, Müslim, 4/1823; “əl-Müstədrək”, 2/663, Heydərabad çapı, 2/606. Hakim hədisi səhih hesab edərək yazır: “Müslimin şərtinə uyğundur”. Zəhəbi də onunla razılaşıb. “ət-Təbəqatul-kubra”, 1/425.

[160] “Səhih”, Buxari, 1/86, 4/1816; “Səhih”, Müslim, 4/1823.

[161] “Səhih”, İbn Hibban, 14/206.

[162] “Səhih”, İbn Hibban, 14/210.

* Çox tərləyən idi; İbn Səd Ənəsə istinadən nəql edir: “Peyğəmbərin topuqları iri idi, çox tərləyərdi, ondan sonra onun kimisini görmədim”.[164]

* * *

**Müəllif iddia edir: “Bir dəfə cümə günü atam məni məscidə aparmışdı. Məni yuxarı qaldırdı, qocalmış, daz, alnı qabarıq, çiyinləri enli və gözləri xəstə (bitişik) olan Əlinin minbər üzərində xütbə söylədiyini gördüm” (“Məqatilut-talibin”) (!).**

**Məgər Əmirəl-möminin (ə) belə vəsflərə sahib olub?”**

**Cavab:** Hədisdə qeyd edilən vəsflərin heç biri müəllifin iddia etdiyi kimi, məzəmmətə layiq sifətlər deyildir.

“Gözlərində xəstəlik” sözü “itriğşaş” kəlməsilə ifadə edilib ki, bu da İbn Mənzurun “Lisanul-ərəb” [165] kitabında qeyd etdiyi kimi, yaranın sağalmasının izləridir.

Bəlkə də gözündəki bu iz Peyğəmbərin (s) Əlinin Allahı və rəsulunu sevdiyini, Allah və rəsulunun da onu sevdiklərini buyurub bayrağı ona vermək istədiyi gün (Xeybərin fəthi günü) gözlərində olan xəstəliyin izləridir.

Beləliklə də, Uca Allah onun gözlərindəki həmin izləri fəzilətindən bir xatırlatma olması üçün saxlamışdır və hər kəs üzərində üstünlüyünə açıq-aydın dəlalət edən bir əlamət qərar vermişdir.

Gözlərində yara izinin olmasının onun üçün necə eyib sayıldığını anlaya bilmirik?!

Məlumdur ki, “Məqatilut-talibiyyin” kitabının adı ictihad və fəqihlik iddiasında olan müəllifin yazdığı kimi, iki “yə” hərfi ilə yazılır və şiə müəlliflərin kitabı deyildir. Onun müəllifi Əbul-Fərəc İsfahani əl-Əməvidir. Bu “görkəmli alimin” halı olduqca qəribədir! O, Əbul-Fərəc İsfahaninin kim olduğunu bilmir!

---

[163] “ət-Təbəqatul-kubra”, 1/412.

[164] “ət-Təbəqatul-kubra”, 1/414.

[165] “Lisanul-ərəb”, 6/311.

Müəllifin məzəmmətə layiq vəsflər olduğunu zənn etdiyi xüsusiyyətlər əhli-sünnə kitablarında Əmirəl-möminin Əlinin (ə) vəsfləri arasında da qeyd olunub.

Heysəmi "Məcməuz-zəvaid"də "Əmirəl-möminin (ə) vəsfləri" fəslində Əbu İshaqdan rəvayət edir: "Atamla birlikdə cümə namazına getdik. Mən həmin vaxt gənc idim. Əli gəlib minbərə qalxdıqda atam mənə dedi: "Ey Ömər, qalx, Əmirəl-mömininə bax". Deyir: "Mən ayağa qalxdım, onun minbərə çıxdığını gördüm. Saqqalı və başı ağarmışdı. Üzərində qurşaqdan aşağı örtük və çiynində örtük vardı, köynəyi yox idi. Minbərə qalxmağı ilə ondan enməyi bir oldu". Əbul-İshaqa dedim: "Dua etdimi?" O, "Xeyr" deyə cavab verdi". Digər rəvayətdə isə: "Saqqalı sıx deyildi, başı böyük idi". Bunu Təbərani fərqli istinadlarla rəvayət edib. Ravilərinin hamısı "Səhih"in raviləridir".

Şöbədən rəvayət olunur: "Əbu İshaqdan soruşdum: "Sən yaşda Şə`bidən böyüksən?" Dedi: "Şə`bi məndən bir və ya iki yaş böyükdür". Deyir: "Əbu İshaq Əlini görmüşdü. Onu bizim üçün qarnı böyük və başı daz şəxs olaraq vəsf edirdi". Şöbə deyir: "Əbu İshaq Əbul-Buxturidən böyük idi, ancaq o, Əlinin dövründə yaşamamış və onu görməmişdi". Bunu Təbərani öz kitabında rəvayət edir, raviləri "Səhih"in raviləridir.

Əbu Rəca əl-Ətarididən rəvayət olunur: "Əlini daz olaraq gördüm. Sanki bir tərəfində qoyun dərisi idi". Bunu da Təbərani öz kitabında rəvayət edir, raviləri "Səhih"in raviləridir...

Vaqididən rəvayət olunur: "Deyilir ki, Əli ibn Əbu Talib qara dərili, orta boylu, piyli (kök), enlikürək, saqqalı uzun, daz, yekə qarınlı, iri gözlü, başı və saqqalı ağ şəxs idi". Bunu Təbərani rəvayət edib. Vaqidiyə qədər olan ravilər inanılan (siqə) şəxslərdir.[166]

Əbu İshaqdan rəvayət olunur: "Əli evləndikdə Fatimə Peyğəmbərə (s) dedi: "Məni zəif görən, yekə qarın kəslə evləndirdin". Peyğəmbər (s) buyurdu: "Bəli, səni o kəslə evləndirdim ki, əshabım arasında İslamı qəbul edən ilk şəxsdir, aralarında ən çox elmə və böyük helmə sahib olanıdır".

---

[166] "Məcməuz-zəvaid", 9/100.

Heysəmi deyir: “Bunu Təbərani rəvayət edib, istinadı səhih olan mürsəl hədisdir”.[167]

Bütün bu nəql etdiklərimizdən sonra, fəqihlik və ictihad iddiasında olan müəllif nə deyəcək?! Məgər həmin vəsflərin eynisinin əhli-sünnənin kitablarında da nəql edildiyini görmürmü?! Məgər o, əhli-sünnənin də Əmirəl-möminin Əliyə (ə) tənə vurmalarını və eyibli bilmələrini qəbul edirmi?! Yoxsa o, əhli-sünnənin “ki”-sini vergüllü, şiələrinkini isə vergülsüz bilir?!

* * *

**Müəllif iddia edir: “Bununla kifayətlənir və Fatimə (s.ə) ilə əlaqədar rəvayətlərə keçirik:**

**Əbu Cəfər Kuleyni “Üsulul-Kafi”də rəvayət edir ki, Fatimə Ömərin yaxasından yapışıb özünə tərəf çəkir. Süleym ibn Qeysin kitabında isə deyilir: “Fatimə Fədək məsələsinə görə Əbu Bəkr və Ömərin üzərinə yeridi, onların arasında mübahisə baş verdi. O, camaatın arasında danışır və qışqırırdı. Səsinə insanlar toplaşırdı” (səh.253).**

**Məgər aralarında bu qədər maneələr vardı ki, Fatimə də bunarı etsin?”**

**Cavab:** Kuleynidən nəql edilən rəvayətin sənədi zəifdir. Onun ravisi Abdullah ibn Muhəmməd əl-Cofidir. O isə zəif ravidir. Nəcaşi “Rical”ında onun zəif olduğunu bildirib.[168]

Həmçinin bu rəvayətin ravilərindən biri də Saleh ibn Əqəbədir. Onun inanılan şəxs olduğu sübuta yetməyib. Əksinə, İbn Ğəzairi onu zəif hesab edir və deyir: “Saleh ibn Əqəbə ibn Qeys ibn Səm`an ibn Əbu Zəbihə - Peyğəmbərin (s) azad edilmiş köləsidir, Əbu Abdullahdan (ə) hədis rəvayət edib, həddi aşan və yalançıdır, ona əhəmiyyət verilməz”.[169]

---

[167] “Məcməuz-zəvaid”, 9/101. “əl-Musənnəf”, Əbdürrəzzaq, 5/341; “əl-Möcəmul-kəbir”, Təbərani, 1/94.

[168] “Rical”, Nəcaşi, səh.159, “Həcəriyyə” çapı. Bax: “Möcəmu ricalil-hədis”, 10/314.

[169] “ər-Rical”, İbn Ğəzairi, səh.69.

Rəvayətin sənədi bu vəziyyətdə ikən fəqihlik və ictihad dərəcələri iddia edən bir şəxsin belə bir rəvayəti şiəyə qarşı dəlil təqdim etməsi necə doğru sayıla bilər?!

O, bununla kifayətlənməyib, öz əleyhinə olan hissələri kəsərək rəvayəti yarımçıq hala salıb! Müəllifin təhrif və saxtakarlığını oxucuya göstərmək üçün rəvayəti bütünlüklə nəql etməyin heç bir eybi yoxdur.

Kuleyni Abdullah ibn Muhəmməd əl-Cofi sənədilə Əbu Cəfər (ə) və Əbu Abdullahdan (ə) belə buyurduqlarını rəvayət edir: “Hadisələr baş verdikdən sonra Fatimə (s.ə) Ömərin yaxasından yapışıb özünə tərəf çəkdi, ardınca dedi: “Allaha and olsun, ey Xəttabın oğlu, günahsız kəslərə bir şey toxunmamasını istəməsəydim, mən Allaha and içər və tez bir zamanda duamın qəbul ediləcəyini bilərdin”.[170]

Xanım Zəhranın (s.ə) Ömərin yaxasından yapışmasını Əllamə Məclisi “Mir`atul-uqul” kitabında Əmirəl-möminin Əlini (ə) həmin güruhun əlindən xilas etmək üçün vəziyyətin zərurətindən irəli gələn sərtlik olduğunu ifadə edir. Bu, hər bir məxluqa vacibdir...

Süleym ibn Qeysin kitabından nəql etdiyi - Xanım Fatimənin (s.ə) Əbu Bəkr və Ömərlə camaatın arasında mübahisə etməsi və qışqırması barədə rəvayətə gəldikdə, bunlar açıq təhrif və kəlmələrin yerini dəyişməkdir. Həmin mətn belədir:

*“...Sahibi Fatimə (s.ə.) olduğu halda Əbu Bəkr Fədəyi onun əlindən almaq istədikdə Fatimə (s.ə.) dedi: “Məgər (hazırda) onun sahibi mən deyiləmmi? Məgər orada vəkilim də yox idi? Həmçinin Peyğəmbər (s) sağ ikən onun məhsulundan mən istifadə etmirdimmi?! Onlar dedilər: “Bəli”. Fatimə (s.ə.) dedi: “Bəs niyə mənim əlimdə olan bir şey üçün məndən şahid və dəlil istəyirsiniz?” Dedilər: “Çünki müsəlmanların qənimətidir. Əgər şahid gətirsən sənə verəcəyik. Əks halda təsdiqləməyəcəyik!”*

*Camaat onların ətrafında dayanıb eşitdiyi halda Fatimə (s.ə.) dedi: “Peyğəmbərin (s) verdiklərini geri almaq məsələsi yalnız bizə aid edirsiniz, yoxsa bütün müsəlmanlara tətbiq edəcəksiniz? Ey camaat! Bu ikisinin görmək istədiyi işi eşidin. Əgər mən müsəlmanların əlində olan malların mənim olduğunu iddia etsəm,*

---

[170] “əl-Kafi”, 1/460.

*fikriniz necə olar? Bu zaman məndən şahid istəyəcəksiniz, yoxsa onlardan?" Onlar dedilər: "Əlbəttə ki, səndən istəyəcəyik".*

*Fatimə (s.ə.) dedi: "Bəs müsəlmanlar mənim əlimdə olan bir şeyin onlara məxsus olduğunu iddia etsələr necə, onlardan dəlil və şahid istəyəcəksiniz, yoxsa məndən?" Ömər bunu eşidib qəzəbli halda dedi: "Bu, müsəlmanların qəniməti və torpağıdır. Fatimənin əlindədir və onun məhsulunu yeyir. Əgər Peyğəmbərin bu qəniməti və onun hüququnu müsəlmanların arasından yalnız ona bağışladığına dəlil gətirsə, o zaman baxarıq!"*

*Fatimə (s.ə.) dedi: "Mənə yetər! Ey camaat, Allahı sizə şahid tuturam! Peyğəmbərin (s) "Qızım Fatimə Cənnət qadınlarının xanımıdır" dediyini eşitməmisiniz?! Dedilər: "Allaha and olsun, bunu Peyğəmbərdən (s) eşitmişik". Fatimə (s.ə.) dedi: "Məgər Cənnət qadınlarının xanımı yalandan iddia irəli sürüb haqqı olmayan şeyi alarmı?! Məgər dörd nəfər mənim əxlaqsızlıq etdiyimə və ya iki nəfər oğurluq etdiyimə şahidlik etsə onların mənim əleyhimə olan sözlərini qəbul edəcəksiniz?"*

*Bu zaman Əbu Bəkr susurdu. Lakin Ömər dedi: "Bəli, sənə hədd cəzası da tətbiq edərik!"*

*Fatimə (s.ə.) dedi: "Muhəmmədin (s) dinində olmadığını təsdiq edirsənsə, o zaman yalan danışdın və rəzil oldun! Cənnət qadınlarının xanımının əleyhinə şahidliyi qəbul edən və ya ona hədd tətbiq edən lənətlənmişdir, Allahın Muhəmmədə (s) nazil etdiyinə qarşı kafir olmuşdur. Çünki* ***"Allahın bütün pisliklərdən təmizlədiyi və pak etdiyi"***[171] *şəxslər əleyhinə şahidliyin qəbul edilməsi əsla icazəli deyil. Belə ki, onlar hər bir pislikdən qorunmuşlar və hər bir əxlaqsızlıqdan paklanmışlar. Ey Ömər! Mənə həmin ayənin əhlindən danış! Əgər bir dəstə insan onlara və ya onlardan birinə şirk, küfr və ya əxlaqsızlıq nisbət versə, müsəlmanlar onlardan uzaqlaşmalı və onlara hədd tətbiq etməlidirlər?" Ömər dedi: "Bəli! Onlar bu barədə digər insanlarla eyni səviyyədədirlər!"*

---

[171] "əl-Əhzab" surəsinin 33-cü ayəsinə işarə edilir.

*Fatimə (s.ə.) dedi: "Yalan danışdın və küfr etdin! Onlar bu barədə digər insanlarla bərabər deyillər! Çünki Allah onları qorumuş, onların məsumluğu və paklığı haqqında ayə nazil etmiş, onları bütün pisliklərdən uzaq tutmuşdur. Kim onların əleyhinə bir şeyi təsdiq etsə Allahı və Peyğəmbərini inkar etmiş olar". Əbu Bəkr dedi: "Ey Ömər! Səni and verirəm, sus!"*[172]

Bu, Fədəklə bağlı Xanım Fatimənin (s.ə) Əbu Bəkr və Ömərə qarşı gətirdiyi dəlillərdir. Bəs aralarında baş verən mübahisə və iddia olunan qışqırma haradadır?!

* * *

**Müəllif iddia edir: "Kuleyni "Füruul-Kafi"də rəvayət edir ki, Fatimə (s.ə) Əli (r.a.) ilə evlənməyə razı deyildi. Belə ki, atası yanına gəldikdə onu ağlar halda görür və deyir: "Ağlamağının səbəbi nədir? Allaha and olsun, əgər ailəmdə ondan yaxşısı olsaydı, səni həmin şəxslə evləndirərdim. Səni onunla mən deyil, Allah evləndirir".**

**Cavab:** Bu hədis Xanımın (s.ə) Əmirəl-möminin Əli (ə) ilə evlilikdən narazı olduğuna dəlalət etmir. Bəlkə də onun ağlamağının səbəbi atası Peyğəmbərin (s) evindən ayrılmasına və ya Əmirəl-möminin Əli (ə) ilə birlikdə qarşılaşacaqları müsibətlərə görədir.

Yaxud da Xanım həya edərək zifaf gecəsinə görə ağlayır. Necə ki, bəzi rəvayətlər də buna dəlalət edir. Əbdürrəzzaq Sənani "əl-Müsənnəf"də İbn Abbasa istinad edilən uzun bir rəvayəti qeyd edir: "Fatimə (ə) gəldikdə Əlinin Peyğəmbərin (s) yanında oturduğunu gördü, çox utandı və ağlamağa başladı. Peyğəmbər (s) onun ağlamasının səbəbinin Əlinin (ə) imkansızlığından ola biləcəyindən ehtiyatlanıb dedi: "Niyə ağlayırsan? Səni öz rəyimə görə evləndirmirəm. Sənin üçün əhlimin ən yaxşısını istəmişdim. Canım əlimdə olana and olsun ki, səni dünyanın ən xoşbəxt şəxsilə evləndirdim. O, axirətdə də salehlərdəndir".[173]

---

172 "Kitabu Süleym ibn Qeys", səh.226.

173 "əl-Müsənnəf", Əbdürrəzzaq, 5/340, digər çap: 5/488.

Bu hədis orada baş verənləri açıqlayır. Ona görə də Xanım Fatimənin (s.ə) sözlərində onun Əmirəl-mömininlə (ə) evlənməkdən narazı və ya məyus olduğuna dəlalət edən heç bir kəlməyə rastlamırıq.

Peyğəmbərin (s) sözləri isə Əlinin (ə) özündən sonra insanların ən yaxşısı olduğunu, onun üçün həyat yoldaşını məhz Allahın seçdiyini bildirməklə Fatiməni (s.ə) sevindirmək məqsədi daşıyır.

Qarşıda bu məzmunda əhli-sünnənin digər rəvayətləri də qeyd ediləcək.

* * *

**Müəllif iddia edir: "Atası Peyğəmbər (s) Büreydə ilə birlikdə Xanımın (s.ə) yanına gəldiyi zaman o, atasını görər-görməz gözləri yaşlarla doldu. Atası "Niyə ağlayırsan, qızım?" deyə soruşduqda belə cavab verdi: "Yeməyim az, qayğım çox, qəm-qüssəm ağırdır". Başqa bir rəvayətdə isə deyir: "Allaha and olsun ki, hüznüm acı, yoxsulluğum ağır və ağrım davamlıdır" ("Kəşful-ğummə", 1/149-150)".**

**Cavab:** Birinci hədisi Əhməd ibn Hənbəl "Fəzailus-səhabə" kitabında Süleyman ibn Büreydəyə, o da atasına istinadən nəql edib: "Peyğəmbər (s) mənə buyurdu: "Ey Büreydə, qalx, bizimlə Fatiməyə baş çəkməyə gedək". Evinə daxil olduqda atasını görər-görməz gözləri yaşlarla doldu". Atası "Niyə ağlayırsan, qızım?" deyə soruşduqda belə cavab verdi: "Yeməyim az, qayğım çox, qəm-qüssəm ağırdır". Peyğəmbər (s) buyurdu: "Bilmirsən ki, Allah yanında olanlar sənin istədiklərindən daha yaxşıdır? Ey Fatimə, məgər razı deyilsənmi ki, mən səni onların (ümmətimin, əshabımın) arasında İslamı ilk qəbul edən, ən elmli və helmdə ən üstünü olanı ilə evləndirdim? Allaha and olsun, sənin iki oğlun cənnət cavanlarındandır".[174]

İkinci hədisi də Əhməd ibn Hənbəl "Müsnəd"ində, Təbərani "əl-Möcəmul-kəbir"ində Mə`qil ibn Yəsara istinadən nəql edib: "Bir gün Peyğəmbərə (s) dəstəmaz üçün yardım etdim. Buyurdu: "Fatiməyə baş çəkmək istəyirsənmi?" Mən "Bəli" deyə cavab verdim. Peyğəmbər (s) mənə söykənmiş halda ayağa qalxdı və buyurdu: "Sənin ağırlığını başqası çəkəcək, mükafatı isə sənin olacaq". Sanki üzərimdə onun

---

[174] "Fəzailus-səhabə", 2/764.

ağırlığını hiss etmirdim. Nəhayət Fatimənin evinə yetişdik. Buyurdu: "Özünü necə hiss edirsən, qızım?" Dedi: "Allaha and olsun ki, hüznüm acı, yoxsulluğum ağır və ağrım davamlıdır". (Əhmədin ibn Hənbəlin oğlu) Abdullah deyir: "Atamın kitabında öz dəst-xəttilə bu hədisdə belə yazıldığını görmüşəm: "Məgər razı deyilsənmi ki, mən səni ümmətimin arasında İslamı ilk qəbul edən, ən elmli və böyük helm sahibi ilə evləndirdim?"[175]

Qeyd edim ki, İrbəli özünün "Kəşful-ğummə" kitabında (1/147-148) bu iki hədisi nəql edib, birinci hədisi Xəvarəzminin "Mənaqib"indən, ikinci hədisi isə Əhməd ibn Hənbəlin "Müsnəd"indən rəvayət etdiyini açıq-aydın bildirib. Müəllifin oxucunu aldatmağı özünə necə rəva bildiyini, bu iki hədisin şiə mənbələrindən olduğu və bu hədislərlə qadınlar seyyidəsini məzəmmət etdikləri təəssüratını oxucuda yaratmağa cəhd göstərdiyini anlamaq olmur!

Bununla belə, mətndə Xanım Fatimə (s.ə) atasına kasıblığından, kədər və ağrılarından şikayət edir. Bu şikayətlərin isə Əmirəl-mömininlə (ə) heç bir əlaqəsi yoxdur. Onun sözlərində ərindən narazılığına dəlalət edən bir kəlmə yer almayıb.

* * *

**Müəllif iddia edir: "Əlini (r.a) ümumən belə vəsf edirlər: "O, qarabuğdayı, qısaboyluya yaxın orta boylu, yekə qarınlı, barmaqları nazik, dirsəkləri qalın, ayaqları əyri (!), gözündə yara, saqqalı uzun, daz və alnı qabarıq şəxs idi" ("Məqatilut-talibin" (!), səh.27).**

**Əgər bu deyilənlər Əmirəl-mömininin vəsfləridirsə, Fatimə ondan necə razı ola bilərdi?"**

**Cavab:** Əvvəldə də qeyd etdiyimiz kimi, "Məqatilut-talibiyyin" şiə kitablarından deyil. Həmçinin izah etdiyimiz kimi, bu sadalananların heç biri də şəxs üçün evlənməyə ikrah yaradacaq eyib sayılmaz.

---

[175] "Müsnəd", Əhməd ibn Hənbəl, 5/26; "əl-Möcəmul-kəbir", Təbərani, 20/229; "Məcməuz-zəvaid", 9/101. Heysəmi yazır: "Bunu Əhməd və Təbərani rəvayət ediblər. Ravilər arasında Xalid ibn Təhman vardır ki, Əbu Hatəm və digərləri onu inanılan şəxs hesab ediblər. Digər ravilər isə etibarlı şəxslərdir".

Həmçinin əhli-sünnə hədisşünasları Əmirəl-möminin (ə) barədə bu vəsfləri öz kitablarında rəvayət ediblər. Onlardan bəzilərini yuxarıda qeyd etdik. Təbərani "Möcəmul-kəbir"də Vaqidiyə istinadən onun ümumi vəsfini belə nəql edir: "Deyilir ki, Əli ibn Əbu Talib qara dərili, orta boylu, piyli (kök), enlikürək, saqqalı uzun, daz, yekə qarınlı, iri gözlü, başı və saqqalı ağ şəxs idi".[176]

Biz əvvəldə Əmirəl-möminin Əlinin (ə) vəsfləri barədə söhbət açmışdıq, onları burada təkrarlamağa lüzum görmürük. Həmçinin eyni vəsflərin də əhli-sünnənin öz kitablarında nəql olunduğunu bildirmişik. Şiə mənbələrində nəql edilən həmin hədislərin isə ya sənədləri zəifdir ki, onlara etina olunmaz, ya da onlar məşhur tərifəlayiq xüsusiyyətlərdir. Vəsfləri izah etdiyimiz bölümə müraciət edin.

Əgər Əmirəl-möminin (ə) bu vəsflərin bir hissəsilə, məsələn daz, başı və saqqalı ağ kimi vəsf olunmuş olsa, bu, onun gənclik və Xanım Fatimə (s.ə) ilə evlilik dövrlərinə deyil, ömrünün sonlarındakı halına dəlalət edəcək.

* * *

**Müəllif iddia edir: "Mövzunu uzatmamaq üçün bu miqdarla kifayətlənirik. Ancaq hər bir İmam (ə) haqda rəvayətləri nəql etmək istərdik. Sonra onların hər biri haqda beş rəvayət təqdim etməyi düşündük. Lakin bunun da mövzunu uzadacağını düşünüb Peyğəmbər (s), Əmirəl-möminin və Fatimə (s.ə) haqqında beş rəvayət nəql etməklə kifayətlənməyi qərar aldıq. Bunlar çox-çox səhifələri dolduracaqdı. Biz onların çoxunu ixtisar etməyə və daha çox gizlin mətləbləri aydınlaşdırmağa çalışacağıq.**

**Kuleyni "Üsulul-Kafi"də rəvayət edir: "Cəbrail Peyğəmbərin (s) yanına enərək dedi: "Ey Muhəmməd, Allah səni Fatimədən dünyaya gələcək bir övladla müjdələyir. O övladını səndən sonra ümmətin qətlə yetirəcək". Peyğəmbər (s) dedi: "Ey Cəbrail, Rəbbimə də salam söylə. Fatimədən doğulacaq və məndən sonra ümmətimin qətlə yetirəcəyi bir övlada ehtiyacım yoxdur". Cəbrail göyə qalxdı, bir müddətdən sonra qayıdıb eyni sözləri söylədi. Peyğəmbər (s) də yenə: "Ey Cəbrail, Rəbbimə salam söylə. Fatimədən doğulacaq və məndən sonra**

[176] "Möcəmul-kəbir", Təbərani, 1/94.

**ümmətimin qətlə yetirəcəyi bir övlada ehtiyacım yoxdur" deyə cavab verdi. Cəbrail yenə də göyə qalxdı, sonra yerə enib Peyğəmbərə (s) dedi: "Ey Muhəmməd, Rəbbin sənə salam deyir və sənə müjdə verir ki, o uşağın sülbündə (nəslində) imamət, vilayət və canişinlik qərar verəcək". Peyğəmbər "Mən razıyam" deyə buyurdu. Sonra Fatiməyə xəbər göndərib Allahın onu məndən sonra ümmətimin qətlə yetirəcəyi bir övladla müjdələdiyini bildirdi. Fatimə də cavabında ondan sonra ümmətinin qətlə yetirəcəyi bir övlada ehtiyacının olmadığını bildirdi. Ardınca Peyğəmbər (s) o körpənin nəslində Allahın imamət, vilayət və canişinlik qərar verəcəyini xəbər verdi. Fatimə də buna razı olduğunu bildirdi. Fatimə onu ikrahla bətnində gəzdirdi... və ikrahla doğdu. Hüseyn (ə) nə Fatimədən və nə də başqa bir qadından süd içmədi. Onu Peyğəmbərin (s) yanına gətirərdilər, o, baş barmağını onun ağzına qoyar, Hüseyn də oradan iki və üç gün yetəcək qədər süd içərdi".**

**Cavab:** Bu hədisin sənədi mürsəl olduğuna görə zəifdir. Kuleyni (r.ə) bunu Muhəmməd ibn Yəhyadan, o da Əli ibn İsmaildən, o da Muhəmməd ibn Əmr əz-Zəyyatdan, o da əshabımızdan olan bir şəxsdən (bu şəxs məlum deyil), o da İmam Əbu Abdullah Sadiqdən (ə) nəql edib.

İctihad dərəcəsinə yetişmiş bir fəqihin bu hədisin açıq-aşkar mürsəlliyinə diqqət yetirməməsi necə düşünülə bilər?! Halbuki adi tələbələr belə bu hədisin mürsəl olduğundan agahdırlar.

* * *

**Müəllif iddia edir: "Anlaya bilmirəm, məgər Peyğəmbər (s) Allahın müjdəsi olan bir işi rədd edə bilərmi? Eləcə də Fatimə, Allahın hökm edib onu müjdələdiyi bir işi "Mənim ona ehtiyacım yoxdur" deyib rədd edərmi? Məgər o, Hüseyni ikrah hissi keçirərək bətnində daşıdı və ikrahla doğdu? Hüseynə süd verməkdən imtina edərək onu Peyğəmbərin (s) yanına göndərərmi ki, o da baş barmağı ilə ona iki-üç gün yetəcək miqdarda süd versin?"**

**Cavab:** Hədisin zəifliyi məlum olduğu halda, onun barəsində nə isə söyləmək əbəsdir. Lakin buna baxmayaraq biz ona cavab verəcəyik.

Birinci sualın cavabı: Mətndə Peyğəmbərin (s) Allahın hökm və təqdirini rədd etdiyinə dair heç bir dəlalət yoxdur. Peyğəmbər (s) məsələnin qətiləşdiyini bilmirdi və ya o, belə bir övladın doğlumaması üçün Allahın Öz təqdirini dəyişəcəyinə ümid edirdi, yaxud da Hüseynin (ə) başına gələcəklərin böyük acısını bəyan etmək istəyirdi. Ya da camaatın öldürəcəyi bir övladı arzulamadığını bildirir. Ancaq İmamların (ə) onun nəslindən olacağını xəbər verildikdə, razılaşır və onun mübarək bir övlad olduğunu anlayır.

Əllamə Məclisi deyir: "Zahirən budur ki, Allah və elçisi tərəfindən xəbərin göndərilməsi seçim və qətiləşməmiş bir məsələ idi ki, onu rədd etmək Allahın hökmünü rədd etmək sayılmaz".[177]

Peyğəmbərin (s) sözləri barədə söylədiklərimizin eynisi də Xanım Fatimənin (s.ə) sözləri barədə deyiləcək.

İkinci sualın cavabı: Xanım Fatimənin (s.ə) Hüseyni bətnində narahatlıqla daşıması və narahatlıqla doğması onun başına gətiriləcək müsibətlərə və qətlinə görə idi, ona qarşı duyduğu ikrah və nifrətə görə deyildi. Bu iki məsələ arasındakı fərq açıq-aşkardır.

Bəlkə də ola bilər ki, Xanım Fatimənin (s.ə) onu bətnində belə halda daşıması və doğması qadınların hamiləlik və doğum vaxtı çəkdikləri əziyyətləri ifadə edir.

İbn Kəsir "Təfsir"ində ***"Çünki anası onu (bətnində) zəhmətlə (kərahətlə) gəzdirmiş, əziyyətlə (kərahətlə) doğmuşdur"***[178] ayəsi barədə yazır: "Yəni hamiləlik halındakı məşəqqət, yorğunluq, ağırlıq, ürək bulanma, ağrılar və s. acılar çəkir. ***"...əziyyətlə doğmuşdur"*** – yəni bətnindəki körpədən azad olarkən çəkdiyi ağrılar və acılar".[179]

Fatimənin (s.ə) Hüseynə (ə) süd verməməsinin səbəbinə gəldikdə, bu, bizim dərk edə bilməyəcəyimiz və anlamayacağımız bir məsələdir. Mümkündür ki, orada buna

---

[177] "Mir`atul-uqul", 5/364.

[178] "əl-Əhqaf" surəsi, ayə 15.

[179] "Təfsiru Quranil-əzim", 4/157.

hökm edən bir hikmət varmış və biz onu bilmirik. Bizə hər bir şey haqda məlumat çatmayıb.

Ola bilər ki, Uca Allah Hüseynin (ə) ətinin artmasını və sümüklərinin möhkəmlənməsinə Peyğəmbərin (s) bərəkətindən bəxş edib.

Hərçənd əhli-sünnə hədisşünasları da Hüseynə (ə) süd verən şəxsin Ümmü Fəzl olduğunu rəvayət ediblər. İbn Macə, Əhməd, Hakim və digərləri öz istinadları ilə Qabusdan rəvayət edirlər: “Ümmü Fəzl dedi: “Ey Allahın elçisi, yuxuda sənin bədəninin bir parçasının mənim evimdə olduğunu gördüm”. Buyurdu: “Xeyirli yuxu görmüşsən. Fatimə bir oğlan uşağı dünyaya gətirəcək və sən də ona süd verəcəksən”. Fatimə Hüseyni və ya Həsəni dünyaya gətirdi, Ümmü Fəzl də ona süd verdi...”.[180]

Hakim İbn Abbas sənədilə Ümmü Fəzldən rəvayət edir: “Peyğəmbər (s) mənim yanıma gəldi. Mən həmin vaxt Hüseyn ibn Əliyə Qüsəm adlı oğlanın südünü verirdim. Peyğəmbər (s) onu götürmək istədi. Mən onu Peyğəmbərə (s) verdikdə Hüseyn (ə) onun üzərini islatdı. Ümmü Fəzl deyir: “Mən onu vurmaq üçün əlimi qaldırdıqda Peyğəmbər (s) buyurdu: “Oğlumun sidiyinin qarşısını alma (və ya “oğlumu alçaltma”)”. Deyir: “(Sidik dəyən yerin) üzərinə su tökdü”.[181]

Peyğəmbərin (s) baş barmağı ilə Hüseynə (s) süd verməsinə gəldikdə, əgər hədisin səhih olduğunu fərz etsək, bunun möcüzə yolu və Hüseyn (ə) üçün bir kəramət olaraq baş verdiyini söyləyə bilərik ki, bu vasitə ilə onun əti Peyğəmbərin (s) ətindən formalaşmış olur. Bunda heç bir qəribəlik yoxdur. Çünki əhli-sünnənin özləri də Peyğəmbərin (s) barmaqları arasında suyun çeşmə kimi axdığını və onunla sayları min beş yüz nəfərə çatacaq qədər əsgəri su ilə doydurduğunu qəbul edirlər.

Buxari “Səhih”ində və digərləri öz kitablarında Cabir ibn Abdullaha (r.ə) istinadən rəvayət edirlər: “Hüdeybiyyə günü camaat susamışdı. Peyğəmbər (s) qarşısındakı su qabından dəstəmaz alırdı. Camaat ağlamağa hazır bir halda ona tərəf

---

180 “Sünən”, İbn Macə, 2/1293; “Müsnəd”, Əhməd, 6/339, 340; “əl-Möcəmul-kəbir”, Təbərani, 3/5, 9, 25/25-27. Bax: “Müstədrək”, 3/194, Heydərabad çapı, 3/176; “Müsnəd”, Əbu Yə`la, 6/140; “ət-Təbəqatul-kubra”, İbn Səd, 8/278, 279.

181 “əl-Müstədrək”, 3/194.

yaxınlaşdılar. Peyğəmbər (s) dedi: “Nə olub sizə?” Dedilər: “Bizim sənin qarşındakı sudan başqa nə dəstəmaz almağa və nə də içməyə suyumuz var”. Peyğəmbər əlini qaba qoydu və barmaqları arasından sanki çeşmə kimi su axmağa başladı”. Ravi deyir: “Mən ondan neçə nəfər olduqlarını soruşdum, dedi: “Əgər yüz min nəfər olsaydıq, yenə bizə yetərdi. Biz min beş yüz nəfər idik”.[182]

Buxari və Müslim “Səhih”lərində (nəql Müslimdəndir) Ənəs ibn Malikdən rəvayət edirlər: “Peyğəmbər və əshabı Zəvrada (Mədinədə məscidlə bazar arasında bir yerdir) idilər. Peyğəmbər bir stəkan su istədi. Onu ovcuna tökdü və barmaqları arasından su axmağa başladı. Bütün səhabələr həmin su ilə dəstəmaz aldılar”. Ravi deyir: “Dedim: “Ey Əbu Həmzə, neçə nəfər idilər?” Dedi: “Təqribən üç yüz nəfər olardı”.[183]

Buxari “Səhih”ində Ənəsdən rəvayət edir: “Peyğəmbər (s) bir qab su istədi. Ona divarları qısa olan bir qədəhdə su gətirdilər. Barmaqlarını onun içinə saldı”. Ənəs deyir: “Mən onun barmaqları arasında axan suya baxmağa başladım”. Deyir: “Oradan dəstəmaz alanlarının sayının yetmiş-səksən arası olduğunu saydım”.[184]

Bu mövzuda olduqca çox hədis vardır. Bunları “Səhih”, “Sünən” və “Müsnəd” sahibləri nəql ediblər. Buxari və Müslimin rəvayətlərini nəql etdikdən sonra, digər hədisləri nəql etməyə lüzum görmürük.[185]

---

[182] “Səhih”, Buxari, 3/1105; “Səhih”, İbn Xüzeymə, 1/66; “Səhih”, İbn Hibban, 14/470.

[183] “Səhih”, Buxari, 3/1104; “Səhih”, Müslim, 4/1783.

[184] “Səhih”, Buxari, 1/88.

[185] Bax: “Sünən”, Tirmizi, 5/596, 597; “Müsnəd”, Əhməd, 1/460, 3/106, 132, 139, 147, 215, 189, 329, 353, 365; “Sünən”, Nisai, 1/64, 65, digər çapı: 1/60-61; “Sünən”, Darəmi, 1/18-20; “Səhih”, İbn Hibban, 14/476-484; “əl-Muvatta”, səh.24; “ət-Təbəqatul-kubra”, İbn Səd, 1/178-189, 182, 2/98; “Səhih”, İbn Xüzeymə, 1/65, 74, 102; “Müsnəd”, Əbu Əvanə, 4/428, 5/137; “əs-Sünənus-suğra”, Beyhəqi, 1/34; “Məcməuz-zəvaid”, 8/299-302, 9/9; “əs-Sünənul-kubra”, Beyhəqi, 1/30, 43; “Sünən”,

Nəinki, əhli-sünnə hədislərində camaatın Peyğəmbərin (s) barmaqları arasından gələn yeməklərlə qidalandıqları da rəvayət olunub. Təbərani "əl-Möcəmul-kəbir"də, Əbu Əvanə "Sünən"də və digər mənbələrdə Ənəsdən nəql olunan uzun bir hədisdə deyilir: "Peyğəmbər (s) buyurdu: "Yanınızda olanları bir yerə toplayın, sonra mənə yaxınlaşdırın. Onunla birlikdə olanlar astanada əyləşdilər. Yanımızda olan çörək və xurmaları ona yaxınlaşdırdıq və öz həsirimizin üzərinə qoyduq. Peyğəmbər (s) onun bərəkətli olması üçün dua etdi, sonra buyurdu: "Aranızdan səkkiz nəfər yanıma gəlsin". Səkkiz nəfər onun yanına getdi. Əlini yeməyin üstündə tutub buyurdu: "Allahın adını çəkin və yeyin". Onlar onun barmaqları arasından doyana qədər yedilər. Sonra daha səkkiz nəfərin yaxınlaşmasını istədi. Əvvəlki səkkiz nəfər ayağa qalxdı və növbəti səkkiz nəfər əyləşdi. Onlar da doyanadək yedilər...".[186]

Əgər bütün bunların baş verməsi mümkündürsə və Peyğəmbər (s) tərəfindən bir neçə dəfə təkrarlanıbsa, o zaman biz də bunun baş verə biləcəyini inkar etməməliyik. Peyğəmbərin (s) barmaqları arasından övladı Hüseyni (ə) yedirəcək bir şeyin gəlməsinin nə müşkülü var?!

* * *

**Müəllif iddia edir: "Mövlamız, ağamız şəhid Hüseyn (ə) haqqında belə sözlər deyilməsindən daha uca və əzəmətlidir. O, anasının onu bətnində nifrətlə daşımaqdan və nifrətlə doğmasından uca və böyükdür. Halbuki bütün dünya qadınları Hüseyn (ə) kimi on övlad dünyaya gətirməyi arzu edirlər. Bəs pak və iffətli Zəhra onu necə ikrahla bətnində daşıyar, ikrah hissi ilə dünyaya gətirər və süd verməkdən imtina edər?!**

**Cavab:** Bunlara kifayət qədər cavab verdik. Təkrarlamağa ehtiyac görmürük. Lakin möhtərəm oxucunun diqqətini müəllifin "ağamız Hüseyn" sözlərinə çəkmək istəyirəm. Belə ki, bu ibarə şiələrin arasında geniş istifadə edilmir. Əksinə, daha çox əhli-sünnə arasında deyilir. Mövlamız Əmirəl-möminin (ə) düz buyurmuşdur: "Hər

---

Darəqutni, 1/71; "əs-Sünənul-kubra", Nisai, 1/80, 81; "əl-Möcəmul-övsat", Təbərani, 2/121; "Müsnəd", Təyalisi", səh.239 və s.

[186] "əl-Möcəmul-kəbir", 25/110; "Müsnəd", Əbu Əvanə, 5/181.

kəsin gizlətdiyi bir şey varsa, bu onun dilinin səhvlərində və üzünün cizgilərində özünü büruzə verəcəkdir".

Mətnləri daşımadıqları pis mənalara və yanlış məfhumlara yönəldən bu müəllifin halı olduqca təəccüblüdür. Anlamaq olmur ki, Xanım Fatimənin (s.ə) Hüseynə (ə) süd verməkdən boyun qaçırdığını mətndəki hansı ibarədən anlayıb? Hədisin zahirində Hüseynin (ə) nə Fatimədən (s.ə.) və nə də başqa bir qadından süd içmədiyi qeyd edilir. Lakin hədis Fatimənin (s.ə.) süd verməkdən imtina etdiyinə əsla dəlalət etmir.

* * *

**Müəllif iddia edir: "Bir məclisdə çox sayda ağalar və tələbələr əyləşmişdi. İmam Xoi orada müxtəlif uydurma rəvayətlərdən (və ya uydurmalardan) danışırdı. Sözünü belə bitirdi: "Allah kafirləri öldürsün!" Dedik: "Onlar kimlərdir?" Dedi: "Nasibilər - əhli-sünnə - onlar Hüseyni, eləcə də Əhli-Beyti söyürlər!"**

**İmam Xoiyə nə deyim?!"**

**Cavab:** Xəbəri nəql edən şəxsin (müəllifin) sözünə etimad olmadığına görə, onun söylədiyi hər bir xəbər dəyərsiz bir iddiadan savayı bir şey deyildir.

Eləcə də, Seyid Xoidən (q.n) nəql etdikləri onun üslub və tərzindən çox uzaqdır. Həmçinin əhli-sünnənin müsəlman olduqlarına dair açıq-aydın fətvası ilə də daban-dabana ziddir. Bunu onun bütün tələbələri və kitablarını mütaliə edən hər kəs bilir.

Biz yəqinliklə bildiyimizi tərk edərək nəqllərdəki saxtakarlığı məlum olan bir kəsin sözünəmi inanacağıq?!

Bundan əlavə, Seyid Xoinin hər hansı bir məclisdə hövzə tələbələri və ağalarla birlikdə iştirak etmək adəti yox idi. Nəcəf elmi hövzəsində tədris almış hər bir şəxsə bu məlumdur. Ancaq fəqihlik və ictihad iddiaçısı zənn edir ki, Seyid Xoi (hövzə rəhbəri olması baxımından) tələbə və şagirdlərinə təlimatlar vermək üçün onlarla birlikdə məclislər təşkil edirdi. Bu isə xəyal və aşkar xətadan başqa bir şey deyildir.

Başqa bir tərəfdən, müəllifin nəql etdiyi bu uydurma hadisə və Seyid Xoidən sitat gətirdiyi sözlərlə şiələrin Peyğəmbərə (s) və onun Əhli-Beytinə (ə) tənə vurduqlarına dair iddiaları arasında nə əlaqə var?!

## Əlinin (ə) qızı Ümmü Külsümlə Ömərin evlənməsi

**Müəllif iddia edir: "Əmirəl-möminin (r.a) öz qızı Ümmü Külsümü Ömər ibn Xəttabla evləndirmişdir. Əbu Cəfər Kuleyni Əbu Abdullahdan (r.a) nəql edir ki, o, bu evlilik barədə belə buyurmuşdur: "Bu bizdən qəsb olunmuş övrətdir" ("Füruul-Kafi", 2/141).**

**Bu sözləri oxuyan şəxsdən soruşuruq: Ömər Ümmü Külsümlə qanuni yolla evlənmişdir, yoxsa onu qəsb etmişdir? Sadiqə (r.a) nisbət verilən sözlərin mənası aydındır. Məgər Mürtəzanın qızı haqqında Əbu Abdullah belə batil sözlər danışarmı?**

**Əgər Ömər Ümmü Külsümü qəsb etmişdisə, bəs atası - Allahın aslanı, Zülfiqar (!) və Qüreyşin igid gənci buna necə razı olub?!"**

**Cavab:** Ömərin Əlinin (ə) qızı Ümmü Külsümlə evliliyinin baş verib-vermədiyi barədə ixtilaf vardır.

Bəziləri evliliyin baş verdiyini inkar etmişlər. Səbəb kimi isə xəbərlərin ziddiyyətini, mətnlərinin bir-birindən ciddi şəkildə fərqlənməsini göstərmişlər. Bəziləri isə evliliyin baş tutduğu qənaətinə gəlmişlər.

Əgər evliliyin baş vermədiyini, bunun kitabların dolu olduğu yalan və saxta rəvayətlərdən ibarət olduğunu söyləsək, o zaman müəllifin tutduğu bütün iradlar yox hökmündə olacaq. Çünki həmin iddialar bu evliliyin baş verdiyi fərz edildiyi təqdirdə deyilə bilərdi.

Ancaq bu evliliyin baş verdiyini söyləsək, necə ki, bizim rəyimizə görə də bu doğrudur, o zaman Ömərin Ümmü Külsümlə evlənməsinə Əmirəl-möminin Əlinin (ə) məcbur edildiyini düşünməkdə heç bir müşkül yoxdur. Xüsusilə, Ömər onu böhtan atacağı və hiylə quracağı ilə təhdid edirdi. Həmin məsələ əzəmətli imamət məqamının qorunması ilə qızının evliliyi arasında dövr edir. İmamət məqamının qorunması isə daha əhəmiyyətli və daha vacib məsələdir.

Kuleyni səhih sənədlə Haşim ibn Salimdən İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu nəql edir: *"Ömər elçi gəldikdə Əmirəl-möminin (ə) dedi: "O hələ azyaşlıdır (kiçikdir)". Ravi deyir: "Ömər Abbasla qarşıladıqda ona dedi: "Hə olub,*

*məndə bir müşkülmü var?" Abbas nə baş verdiyini soruşduqda Ömər dedi: "Qardaşın oğlundan qızını istədim, məni (təklifimi) rədd etdi. Allaha and olsun, Zəm-zəmi (daş və torpaqla) dolduraram, sizin üçün bir ehtiram saxlamaram, bütün hörmətinizi aradan apararam! Onun (İmam Əlinin (ə)) oğurluq etdiyinə dair iki şahid gətirib sağ əlini kəsdirərəm!" Abbas İmam Əlinin (ə) yanına gəlib hadisəni ona danışdı və evlilik məsələsində qərar verməyi özünə həvalə etməsini istədi, o da razılaşdı".*[187]

Əmirəl-möminin Əlinin (ə) düşmənlərinin olduqca çox olduğuna dair heç bir şübhə yoxdur. Həmçinin Ömərin münafiq, tüləqa və fasiqlər arasından Əmirəl-möminin Əlinin (ə) oğurluq etdiyinə şahid tapmağa qadir olduğuna ehtimal çoxdur. Həmin şahidin vasitəsilə ona (ə) hədd cəzası tətbiq edərək əlini kəsdirə bilərdi. Bu fakt isə Əli (ə) və övladları üçün qiyamət gününədək bir ləkə və rüsvayçılıq olacaqdı, Əmirəl-mömininin (ə) xəlifə olmaq imkanının birdəfəlik aradan qaldıracaqdı. Nəinki, hətta müsəlmanların divanlarından onun bütün fəzilətlərini siləcək, üstünlükləri barədə rəvayətlərin heç bir dəyəri qalmayacaqdı. Bundan sonra da haqq əhli öz haqlılıqlarına dəlil tapa bilməyəcəkdi ki, iddia edəcəkləri hər bir fəzilət qarşısına müxaliflər bu uydurma oğurluq faktını qoyacaqdılar.

Əgər bütün bu məsələləri dəyərləndirsək, o zaman Əmirəl-möminin Əlinin (ə) məcburiyyət qarşısında qızının Ömərlə evlənməsinə razılaşmaqdan savayı çıxış yolunun olmadığını görərik.

Qeyd etdiklərimizdən aydın olur ki, məsələ heç də şücaət və ya qorxaqlıq məsələsi deyildir ki, müəllif də onun Allahın məğlubedilməz aslanı olduğunu və Allah yolunda heç bir danlağa etina etmədiyini qeyd etməklə həmin məcraya yönəltsin. Əksinə, məsələ imamət məqamının qorunması ilə qızını Ömərlə evliliyinin qarşısının alınması arasında dövr edirdi.

Şeyx Müfidin bu evlilik məsələsi ilə bağlı "əl-Məsailus-səraviyyə" kitabındakı sözlərini burada qeyd etmək yersiz olmaz. Belə ki, cavabında deyir: "Əmirəl-möminin Əlinin (ə) qızını Ömərlə evləndirməsi məsələsi isbat olunmayıb. Rəvayət

---

[187] "əl-Kafi", Şeyx Kuleyni, 5/346.

yolu Zübeyr ibn Bekardandır. O isə rəvayət nəql etməkdə etibarlı şəxs deyil. Nəql etdikləri rəvayətlərə görə ittiham olunan və İmam Əliyə (ə) nifrət bəsləyən şəxs idi. Bəni-Haşim barədə söylədiklərinə inanmaq olmaz. Hədisin isbatı Əbu Muhəmməd Həsən ibn Yəhyanın kitabında nəql etdiyinə əsaslandırılır. Camaatın əksəriyyəti də onun ələvi bir şəxsdən rəvayət etdiyini zənn edib. Halbuki o da Zübeyr ibn Bekardan rəvayət edir.

Hədis də öz-özlüyündə ixtilaflıdır. Gah Əmirəl-möminin Əlinin (ə) şəxsən qızını Ömərlə nikahladığı, gah da bunu Abbasın etdiyi rəvayət olunub. Gah da nəql edilir ki, bu nikah Ömər tərəfindən Bəni-Haşimə qarşı ciddi təhdidlərdən sonra baş verib. Başqa bir rəvayətdə isə bunun müstəqil seçimlə və könül xoşluğu ilə gerçəkləşdiyi qeyd edilir.

Bəzi ravilər Ömərin bu evlilikdən Zeyd adlı oğlunun olduğunu söyləyirlər. Bəziləri deyirlər: Ömər Ümmü Külsümlə yaxınlıq etməmiş öldürüldü. Digərləri isə Zeyd ibn Ömərin nəslinin davam etdiyini iddia edirlər. Başqa biriləri isə onun öldürüldüyünü və heç bir övladının olmadığını, digərləri anası ilə oğlunun öldürüldüyünü, bir dəstə isə oğlunun ölümündən sonra anasının hələ də yaşadığını deyirlər. Onlardan bəziləri iddia edirlər ki, Ömər Ümmü Külsümə qırx min dirhəm mehriyə vermişdir. Başqaları isə bunun dörd min dirhəm, digərləri isə beş yüz dirhəm olduğunu söyləyirlər. Bu ixtilaflar da hədisi batil edən amillərdəndir.

Əgər bu evlilik doğru hesab edilsə belə, şiə məzhəbinin Əmirəl-möminindən (ə) öncə olan xəlifələrin zəlalətdə olduqları barədə etiqadına ziddiyyət təşkil etməməklə iki yolla izah edilə bilər. Bunlardan biri: Nikah zahiri müsəlmanlığa görə baş tuta bilər. Bunlar kəlmeyi-şəhadət, qibləyə doğru namaz qılmaq, şəriətin hökmlərini təsdiqləməkdir. Evlənən şəxslərin imanlı olmaları daha əfzəldir. İslama zahirən bağlanmış və nəticədə onu imandan xaric edən hər hansı bir azğınlığı olan şəxslə nikah bağlamaq məkruhdur. Lakin məcburiyyət halında belə şəxsin zahirən İslamın kəlmələrini izhar etməsilə həmin kərahət aradan gedir. Əmirəl-möminin (ə) qızını onunla evləndirməyə məcbur qalmışdı. Çünki (Ömər) onu təhdid edir və hədə-qorxu gəlirdi. O isə özünü və şiələrini amanda hiss etmirdi. Məcbur qalaraq onun təklifi ilə razılaşır. Necə ki, məcbur qaldıqda möminin küfr söyləməsi də icazəlidir. Bu, Lutun

sözlərindən heç də qəribə deyil: ***"Ey qövmüm! Bunlar mənim qızlarımdır. Onlar (nikah baxımından) sizin üçün daha təmizdirlər".*** Onların kafir və azmış olmalarına, Allahın onların barəsində ölüm hökmü verməsinə baxmayaraq qızları ilə izdivaca dəvət edir. Həmçinin Peyğəmbər (s) peyğəmbərliyə seçilməzdən əvvəl iki qızını bütə sitayiş edən kafirlərlə evləndirmişdi. Onlardan biri Ütbə ibn Əbu Ləhəb, digəri isə Əbul-As ibn Rəbi`dir. Peyğəmbər seçildikdən sonra isə onları bir-birlərindən ayırdı".[188]

Bu evliliyin baş verdiyinə dəlalət edən rəvayətləri təqdim etdikdən sonra, onların həmin mətnlərdəki hadisələr fonunda baş verdiyini qəbul etməkdən başqa yol qalmır. Ona görə də Əllamə Məclisi (r.ə) deyir: "Şeyx Müfidin (r.ə) bu hadisəni inkar etməsi hadisənin onların rəvayət yolları ilə isbata yetmədiyini bildirməsidir. Əks halda, qeyd edilən rəvayətləri təqdim etdikdən sonra onu inkar etməsi qəribə olar...".

Sonra deyir: "Hadisə təqiyyə cəhətindən və məcburiyyət üzündən baş verib, bunda qeyri-mümkün bir şey yoxdur. Bir çox haramlar zərurət halında vacibə çevrilir. Peyğəmbərdən (s) Əmirəl-möminin (ə) və digər İmamların (ə) zülmlərlə qarşılaşacaqlarına və həmin zaman nə etməli olduqlarına dair nəql olunan səhih rəvayətlər fonunda Allah həmin işləri onlar üçün mübah qərar vermişdir. Bu isə faktın qeyri-mümkünlüyünü uzaqlaşdırmış olur. Allah Öz hökmlərinin və höccətlərinin (ə) həqiqətlərini daha yaxşı biləndir!"[189]

* * *

**Müəllif iddia edir: "Rovzətul-Kafi"də (8/101) Əbu Bəsirin rəvayətində Əbu Abdullahın yanına gələrək ondan Əbu Bəkr və Ömər haqqında soruşan qadına belə cavab verdiyi nəql olunur: "Onları özünə dost tut". Dedi: "Rəbbimlə görüşəndə mənə onları özümə dost tutmağı sənin buyurduğunu deyəcəyəm". O dedi: "Bəli (söylə)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Ravilərindən biri Müəlla ibn Muhəmməddir. Onun inanılan şəxs olduğu tərcümeyi-hal kitablarında sübuta

---

[188] "Rəsail", Şeyx Müfid, səh.61-63 ("Bihar"dan nəql edilərək, 42/107).

[189] "Biharul-ənvar", 42/109.

yetməyib. Əksinə, Nəcaşi onu “məzhəbi və hədisləri qarışıq”[190] şəxs kimi vəsf edib, İbn Ğəzairi isə “onun hədisləri tanınır və inkar olunur, zəif ravilərdən hədis nəql edib, şahidlikdən çıxarılması icazəlidir”.[191]

Buna əsasən, rəvayət başından bəri etibardan düşmüşdür, onun dəlil kimi təqdim edilməsi düzgün deyil.

* * *

**“Müəllif iddia edir: “Öməri dost bilməyi əmr edən şəxsi biz Əhli-Beytin qadınını qəsb etməkdə ittiham edərikmi?”**

**Cavab:** Bu fikir olduqca yanlışdır və onun məqsədinin əleyhinə dəlalət edir. Onun məqsədi budur: İmamın (ə) bizə özümüzə dost bilməyimizi əmr etdiyi şəxsi biz Əhli-Beytin qadınını qəsb etməkdə ittiham edə bilərikmi?

Ancaq sözlərinin mənası isə belədir: Bizə Öməri dost bilməyi əmr edən şəxsi (yəni İmam Sadiqi (ə)) Əhli-Beytin qadınını qəsb etməkdə ittiham edə bilərikmi?

Əgər İmam Sadiqdən (ə) nəql olunan bu rəvayətin səhihliyi isbatlansa və rəvayət digərləri ilə ziddiyyət təşkil etməsə, bununla o, heç bir qorxu və təqiyyə olmadan Ümmü Xalidə Əbu Bəkri və Öməri dost bilməyi əmr etmiş olacaq. Bu zaman İmamın (ə) əmrini yerinə yetirərək həmin iki şəxsin hidayət imamı olduqlarına hökm etməyimiz və onları dost tutmağımız lazımdır. Lakin bütün məsələ məhz həmin hədisin səhihliyinin sübuta yetirilməsinə bağlıdır. Belə ki, rəvayətin sənədi zəifdir. Əgər doğru olduğunu qəbul etsək, o zaman bu sözlərin əks mənalı, məşhur, səhih sənədli və aydın dəlalətli hədislərlə ziddiyyət təşkil etdiyinə görə təqiyyə olaraq söyləndiyinə hökm edəcəyik.

* * *

**Müəllif iddia edir: “İmam Xoidən Əbu Abdullahın qadına Əbu Bəkr və Ömər haqqında söylədiyi sözləri barədə soruşduğumda dedi: “Bunu təqiyyə olaraq söyləyib”.**

---

[190] “Rical”, Nəcaşi, 2/365.

[191] “Rical”, İbn Ğəzairi, səh.96.

**İmam Xoiyə deyirəm: Həmin qadın Əhli-Beyt şiələrindən idi. Əbu Bəsir də Sadiqin (r.a) səhabələrindəndir. Orada həmin sözləri təqiyyə səbəbindən söyləməyi tələb edən amil nədir? Həqiqət isə budur ki, Əbulqasim Xoinin bu tədbiri heç də doğru deyildi".**

**Cavab:** Əgər rəvayətin səhihliyi fərz olunarsa, bu, qəti şəkildə təqiyyəyə aid ediləcək. Rəvayətin sonu da buna dəlalət edir. Söylədiklərimizin doğruluğunun möhtərəm oxucuya aydınlaşması üçün rəvayətin tam mətnini təqdim edirik:

Kuleyni (r.ə) Əbu Bəsirə istinadən rəvayət edir: "Əbu Abdullahın (ə) yanında əyləşmişdim. Yusif ibn Ömərin torpaq verdiyi Ümmü Xalid oraya gəldi, görüşmək üçün izn istədi. Əbu Abdullah (ə) dedi: "Onun söyləyəcəklərini eşitmək istəyirsən?" Mən "Bəli" deyə cavab verdim. Ona içəriyə daxil olmağa izn verdi. Məni öz yanında, xalçanın üzərində oturtdu. Xanım içəri daxil oldu və sözə başladı. Bəlağətli nitqi vardı. İmamdan o ikisi (Əbu Bəkr və Ömər) haqqında soruşdu. İmam dedi: "Onları özünə dost tutursan?" Dedi: "Rəbbimlə görüşəndə sən mənə onları özümə dost tutmağı buyurduğunu deyəcəyəm". İmam dedi: "Bəli".

Qadın dedi: "Sənin yanında oturan bu şəxs onlardan uzaq olmağımı, Kəsir ən-Nəva isə onları dost tutmağımı söyləyir. Bunlardan hansı sənə daha sevimlidir?"

İmam (ə) buyurdu: "Allaha and olsun ki, bu şəxs mənə Kəsir ən-Nəvadan və yoldaşlarından daha sevimlidir. Bu, onlarla mübahisə edərək deyir: ***"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, kafirlərdir", "Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, zalımdırlar!"*** və ***"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır!"***[192]

İmamın (ə) "Allaha and olsun ki, bu şəxs mənə Kəsir ən-Nəvadan və yoldaşlarından daha sevimlidir" sözü açıq-aydın şəkildə Əbu Bəsrin onlardan uzaq durmasını təqdir edir, Kəsir ən-Nəva və yoldaşlarının dostluğunun isə İmamın (ə) yanında heç bir dəyərinin olmadığını göstərir. Əgər Əbu Bəkr və Ömər hidayət öndərləri olsaydılar, onlardan uzaq durmaq qəbahət sayılar, onları dost bilənlər isə onlardan uzaq duranlardan daha xeyirli şəxslər hesab olunardılar.

---

[192] "ər-Rövzətu minəl-Kafi", Kuleyni, c.8, səh.101.

Əbu Bəsirin Kəsir ən-Nəva və əshabına qarşı dəlil təqdim etdiyi ayələri İmamın (ə) dəlil göstərməsi isə Əbu Bəkr və Ömərin Allahın hökmünə uyğun hökm vermədiklərinə dəlalət edir. Bununla da onlar ya kafir, ya zalım, ya da fasiqdirlər. Bu, açıq-aşkar bir dəlalətdir və heç bir izaha ehtiyac duymur. Lakin İmam Sadiq (ə) bu sözləri açıq şəkildə qadına söyləmir, sözlərindəki işarələrlə kifayətlənir.

Müəllifin "Ümmü Xalid şiə idi, İmam ondanmı təqiyyə edəcək?" sözünə gəldikdə, bu da fəqihlik və ictihad iddiasında olan bir şəxs üçün olduqca təəccüblü sözüdür. O, sözlərini zalım hakimlərə və ya onların əlaltılarına gedib çatacağından ehtiyat edərək bəzi şiələri qarşısında İmamın (ə) təqiyyə etdiyini necə bilməz?! Buna görə İmam (ə) əl-Kəşşinin rəvayətində deyir: "Qadın oradan ayrıldıqda buyurdu: "Mən onun gedib bunları Kəsir ən-Nəvaya xəbər verəcəyindən və məni Kufədə dilə salacağından qorxdum. İlahi, mən Kəsir ən-Nəvadan dünya və axirətdə Sənə pənah gətirirəm!"[193]

* * *

**Müəllif iddia edir: "Həsənə (r.a) gəldikdə, Müfid "əl-İrşad" kitabında Kufə əhlindən rəvayət edir ki, "onun çadırına getdilər, içəri nəzər salıb onun namaz qıldığı əbasını götürdülər. O da qılıncı üzərində, oturaq halda alt paltarsız (ridasız) qaldı" (səh.190).**

**Həsən (r.a) camaatın önündə övrəti açıq vəziyyətdə qaldı? Budur məhəbbət?!"**

**Cavab:** Fəqihlik iddiası edən bir kəsin ərəb dilində "rida" kəlməsinin mənasını bilməməsi olduqca qəribədir. Həmin kəlmənin mənasını hətta avam insanlar da bilirlər. "Rida" çiyindən atılan libasdır (örtükdür), hazırda həmin libasa əba deyilir.

İbn Əsir "ən-Nihayətu fi ğəribil-hədis" kitabında deyir: "Rida bir libasdır ki, insan onu paltarının üstündən boynundan aşağı sallayır. Hədislərdə həmin kəlmə çox istifadə olunub".[194]

---

[193] "Rical", əl-Kəşşi, 2/511. "Biharul-ənvar"da ondan nəql edilib (30/242).

[194]"ən-Nihayətu fi ğəribil-hədis", İbn Əsir, 2/217.

Əgər müəllif tədris müddətində “Həcc” fəslini oxumuş olsaydı, hacıların üzərilərinə iki hissə parçadan ibarət olan örtük örtdüklərini bilərdi. Bunlardan biri övrətin üzərini örtən “izar”, digəri isə çiyinə atılan ridadır. Hacılara bəzi vaxtlar ridalarını çıxarmağa icazə verilir. Bunlar hövzə tədrisinin ilk etaplarında öyrənilir. Bəs üstün ictihad dərəcəsinə nail olduğunu iddia edən bir kəs bunları necə bilməz?!

Əhli-sünnə kitablarında Peyğəmbərin (s) üzərində ridası olmadan İkrimə ibn Əbu Cəhlin üstünə atıldığı rəvayət edilir. Malik “əl-Muvatta”da İbn Şihabdan nəql edir: “Haris ibn Hişamın qızı Ümmü Həkim İkrimə ibn Əbu Cəhllə evli idi. Ümmü Həkim Məkkə fəth olunan gün İslamı qəbul etdi. Həyat yoldaşı İkrimə ibn Əbu Cəhl isə müsəlmanlardan qaçaraq Yəmənə getdi. Ümmü Həkim də onun ardınca yola düşdü, onu İslama dəvət etdi və o da müsəlman oldu. Fəth baş verdiyi il Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) onu gördüyü an sevincindən üstündə ridası olmadan üzərinə atıldı və o da beyət elədi. Beləliklə onlar öz nikahlarında qaldılar”.[195]

Həmçinin Cabir ibn Abdullah Ənsarinin ridasız namaz qıldığını rəvayət edirlər. Hətta Buxari “Səhih”ində “Ridasız namaz qılmaq” adı altında müstəqil bir fəsil də açıb. Orada Muhəmməd ibn Muhkədir sənədilə nəql edir: “Cabir ibn Abdullahın yanına gəldim. O, libasla namaz qılırdı, ridası isə kənarda idi. Namazı bitirdikdən sonra dedik: “Ey Əbu Abdullah, ridanı kənarda qoyub namaz qılırsan?” Dedi: “Bəli, cahillərin məni sizin kimi görməsini istədim. Mən Peyğəmbərin (s) də belə namaz qıldığını görmüşəm”.[196]

Eləcə də rəvayət edirlər ki, Peyğəmbərin (s) yanına Maiz ibn Maliki ridasız gətirdilər. Müslim “Səhih”ində Cabir ibn Səmurəyə istinadən nəql edir: “Peyğəmbərin (s) yanına Maiz ibn Maliki gətirdikləri zaman onun bəstəboy və əzələli şəxs olduğunu gördüm. Üzərində rida yox idi. O, dörd dəfə öz əleyhinə zina etdiyinə dair şəhadət verdi. Peyğəmbər (s) buyurdu: “Bəlkə bu sənə elə gəlir?” O isə “Xeyr” deyə cavab verdi...”.[197]

---

[195]“əl-Muvatta”, səh.287.

[196]“Səhih”, Buxari, 1/137.

[197]“Sıhih”, Muslim, 3/1319.

Bu mövzuda hədislər çoxdur. Onları burada sadalamaq həm vaxtı, həm də səyi hədər etməkdir.

Bunlara əsasən, İmam Həsənin (ə) üzərindən ridasının götürülməsi müəllifin iddia etdiyi kimi, onun övrətinin örtüksüz qalması demək deyil. Bununla da onun puç iddiası havada buxarlanıb yox olur.

* * *

**Müəllif iddia edir: "Süfyan ibn Əbu Leyla Həsənin (r.a) evinə gəldi və ona dedi: "Salam olsun sənə, ey möminləri zəlil edən!" Dedi: "Bunu nəyə əsasən deyirsən?" Dedi: "Ümmətin rəhbərliyinə keçdin, sonra üzərindən atdın, sonra da onu Allahın hökmündən başqa bir şeylə hökm edən bu zalıma verdin" ("Rical", əl-Kəşşi, səh.103).**

**Məgər Həsən (r.a) möminləri zəlil edəndir, yoxsa onlara izzət verən? Belə ki, öz hikməti və uzaqgörənliyi ilə onların qanının nahaq axıdılmasının qarşısını aldı və sıralarını birləşdirdi".**

**Cavab:** Kəşşinin nəql etdiyi bu rəvayətin sənədi mürsəl olduğuna və ravilərinin arasında Əli ibn Hüseyn ət-Tavilin olmasına görə zəifdir. Tərcümeyi-hal kitablarında onun inanılan şəxs olması barədə heç bir qeyd yoxdur.

Maməqani yazır: "Nəcaşi ona istinadən Müs`əb ibn Yezid əl-Ənsarinin məktubunu rəvayət edib. Tərcümeyi-hal kitablarında onun adı ümumiyyətlə qeyd olunmur".[198]

Biz onun tərcümeyi-halını heç əhli-sünnə kitablarında da tapa bilmədik. Bu sözlərin müəllifinin Süfyan ibn Leyl olduğu deyilib.[199] Üqeyli isə onun rafizi və

---

[198]"Tənqihul-məqal", 2/278.

[199]Bax: "əl-Müstədrək", 3/187, 192, Heydərabad çapı, 3/171, 175; "əl-Fitən", Nüeym ibn Həmmad, 1/164; "Siyəru ə`lamin-nübəla", 3/147; "Mizanul-i`tidal", 3/247; "Lisanul-mizan", 3/53; "əz-Zuəfa", Üqeyli, 2/549; "Təhzibul-kəmal", 6/250; "Tarixu Bağdad", 10/305; "əl-İstiab", 1/387, orada Süfyan ibn Leyladır.

həddi aşan kimi vəsf edib.[200] Əbul-Fəth əl-Əzdi[201] və Albani yazırlar: “Məchuldur”.[202] İbn Hibban isə onun adını “əs-Siqat”da qeyd edib.[203]

Əgər hədisin doğruluğunu, eləcə də Süfyan ibn Əbu Leylanın və ya Süfyan ibn Leylin şiə olduğunu fərz etsək, şübhə yoxdur ki, şiələr İmam Həsənin (ə) sülhünə etiraz edən, onun müqəddəsliyinə zidd addım atan hər bir kəsi xətalı və yanlış bilirlər, İmamın (ə) qərar verdiyi hər bir məsələni doğru və hikmətə müvafiq sayırlar. Şübhəsiz ki, bunda İslam və müsəlmanlar üçün böyük bir məsləhət vardı. Şiə alimləri bunları sübuta yetirən bir çox kitab yazmışlar.

Maraqlıdır, şiə kimi təqdim edilən bir kəsin sözünü əsas götürüb bütün şiələrə tənə vurmağı müəllif özünə necə rəva bilir? Halbuki şiələr sülh sazişinin və onun hədəflərinin doğru olduğu barədə həmfikirdirlər!

* * *

**Müəllif iddia edir: “Əgər Həsən (r.a) Müaviyə ilə xilafətə görə savaşsaydı, müsəlmanların qanı axıdılıb dəryaya çevrilsəydi, saylarını yalnız Allahın biləcəyi qədər insan qətlə yetirilsəydi, ümmətin vəhdəti parçalansaydı və o zamandan ta bugünədək İslamın adı belə qalmasaydı, bu daha yaxşımı olacaqdı?!**

**Təəssüf ki, belə bir sözü Əbu Abdullaha (r.a) nisbət verirlər. Allaha and olsun ki, o, bu və bu kimi sözlərdən çox-çox uzaqdır”.**

**Cavab:** Qeyd etdik ki, İmam Həsənin (ə) sülh razılaşması hikmət və məsləhətin tələbi olaraq baş vermişdir, onun bir çox faydalarının və ali məqsədlərinin olduğu şübhəsizdir. Şiələr arasında bu mövzuda ixtilafın olmadığına görə, bunu açıqlamaq da yersizdir.

---

[200]“Kitabuz-züəfa”, 2/549. Zəhəbi “Mizanul-i`tidal”da (3/247) və İbn Hibban “Lisanul-mizan”da (3/53) ondan nəql edirlər.

[201]“Mizanul-i`tidal”, 3/248; “Lisanul-mizan”, 3/54; “Kənzul-ümmal”, 13/589.

[202]“İbn Əbul-Asimin “əs-Sünnə” kitabına Albanının qeydləri, səh.334, hədis 748.

[203]“Kitabus-siqat”, 4/319.

Müəllifin bu sözləri İmam Sadiqə (ə) nisbət verməsinə gəldikdə, bu, uydurma bir iddiadır. Əgər müəllifin məqsədi “Ey möminləri zəlil edən!” sözünün İmam Əbu Abdullah Sadiqin (ə) söylədiyini bildirməkdirsə, bu cəfəngiyat və sərsəmləmədir. Onun bunu iddia etdiyini düşünmürəm. Yox əgər onun ağlına bu gəlmişsə, o zaman bilməlidir ki, Kəşşinin “Rical”ındakı Süfyan ibn Əbu Leylanın rəvayəti İmam Cəfər ibn Muhəmməd Sadiqdən (ə) deyil, İmam Əbu Cəfər Muhəmməd ibn Əli Baqirdən (ə) rəvayət olunmuşdur.

Əgər Süfyan ibn Əbu Leylanın İmam Həsənə (ə) söylədiyi bu sözləri şiələrin İmam Sadiqə (ə) nisbət verdiklərini iddia edirsə, bu da əvvəlki ilə eyni hökmdə olacaq. Çünki xəbər İmam Baqirdən (ə) rəvayət olunub. Halbuki biz rəvayətin sənədinin zəif olduğunu əvvəldə qeyd etdik. Belə məzmunda bir hədisin İmamdan (ə) nəql edilən rəvayət kimi mövcud olması vacib deyil, xüsusilə də həmin hədisin sənədi zəifdirsə.

Başqa bir tərəfdən, əhli-sünnə kitablarında fərqli istinadlarla rəvayət olunmuş bu xəbəri İmamın (ə) söyləməsinin nə müşkülü olar?!

Hakim Nişapuri “Müstədrək”də, Təbərani “əl-Mö`cəmul-kəbir”də, İbn Əbu Şeybə “əl-Müsənnəf”də, Xətib Bağdadi “Tarixu Bağdad”da və s. kitablarda Əbul-Üreyfdən rəvayət edirlər: “Həsən ibn Əlinin ordusunda on iki min nəfər idik. Qılınclarımız Şam əhli ilə döyüş üçün itilənmişdi. Bizim başçımız Əbul-Ömər Taha idi. Həsən ibn Əli ilə Müaviyənin sülh sazişi xəbəri bizə çatdıqda qəzəbimizdən sanki belimiz qırıldı. Həsən ibn Əli Kufəyə gəldikdə aramızdan Əbu Amir künyəli Süfyan ibn Leyl onun qarşısına çıxıb dedi: “Salam olsun sənə, ey möminləri zəlil edən!” Həsən dedi: “Ey Əbu Amir, belə sözlər danışma. Mən niyə möminləri zəlil edim ki? Mən hakimiyyət uğrunda onları öldürmək istəmədim”.[204]

Qeyd etdiklərimizdən aydın olur ki, rəvayətin sənədinin zəif olmasına rəğmən, müəllif şiələrin İmama (ə) nisbət verdikləri bu hədisi onlara eyib tutmaq istəyib.

---

[204]“əl-Müstədrək”, 3/175; “əl-Müsənnəf”, İbn Əbu Şeybə, 7/476; “Kənzul-ümmal”, 11/349, 13/089; “Zəxairul-uqba”, səh.240; “Tarixu Bağdad”, 10/305; “Tarixu mədinəti Diməşq”, 13/279, 59/151; “əl-Bidayətu vən-nihayə”, 8/20, 134.

Halbuki bu rəvayət eynilə əhi-sünnə kitablarında da nəql olunub, qeyd etdiyimiz kimi, onların bir çox böyük alimlərinin kitablarında da yer alır.

* * *

**Müəllif iddia edir: "İmam Sadiq (ə) isə onlardan cürbəcür əziyyətlər görmüşdür. Ona hər cür qəbahətləri nisbət vermişlər. Gəlin birlikdə bu mətni oxuyaq:**

**Zürarədən rəvayət olunur: "Əbu Abdullahdan (r.a) təşəhhüd barədə soruşdum... Dedim: "Bəs salam və salavatlar?"... Yenə də təşəhhüd barədə soruşdum, eyni cavabı verdi. Mən yenə də salam və salavatlar barədə sual verdim... Oradan ayrıldıqda onun sözlərini inkar etdim[205] (kəlmə tərcüməsilə: "onun saqqalına yel buraxdım") və dedim: "Əsla nicat tapmayacaq!" ("Rical", əl-Kəşşi, səh.142).**

**İmam Sadiq (ə) üçün gözlərimizdən yaş əvəzinə qan axıtmalıyıq. Bəli... İmam Əbu Abdullah (r.a) haqda belə çirkin söz deyilər?! Zürarə Əbu Abdullahın (r.a) saqqalına bağırsağının yelini buraxır?! Onun əsla nicat tapmayacağını söyləyir?!"**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. O, başdan etibarən mürsəldir. Belə ki, Kəşşi onu Yusifdən rəvayət edir. Kəşşinin rəvayətlərinə əsasən, o, Yusif ibn Soxtdur. Ondan gah bu rəvayətdə olduğu kimi vasitəsiz (hədis 265), gah Muhəmməd ibn Məsud vasitəsilə nəql edir. Muhəmməd ibn Məsud isə Kəşşinin şeyxi olan Əyyaşidir. Necə ki, bunu 840, 1038, 1129-cu hədislərdə görürük. Gah Əlinin (hədis 268), gah Nəzrin (1008), gah da Muhəmməd ibn Məsudun Əli ibn Muhəmməd əl-Qummidən, o da Muhəmməd ibn Əhməddən (hədis 1130) nəql etməsilə Yusifdən hədis rəvayət edir.

Kəşşi Yusif ibn Soxtla eyni dövrdə yaşamayıb və onu görməyib ki, ondan birbaşa rəvayət də nəql etsin. Çünki Yusif İmam Həsən Əskərinin (ə) əshabındandır və hicrətin 256-cı ilində vəfat edib. Kəşşi isə Cəfər ibn Muhəmməd ibn Quləveyhin müasiridir və hicrətin 369-cu ilində dünyadan köçüb. Göründüyü kimi, Yusif ondan

---

[205] Məna tərcüməsilə belədir – Tərc.

çox-çox əvvəl vəfat etmişdir.[206] Hal belə olduqda, Kəşşinin ondan birbaşa rəvayət nəql etməsi necə doğru sayıla bilər?!

Bununla bərabər, Yusif ibn Soxt ravi olaraq inanılan şəxs deyildir. İbn Ğəzairi onu zəif hesab edərək yazır: "Zəifdir, sözləri rədd edilər, onu yalnız Qummilər "Nəvadirul-hikmət"də istisna etmişlər".[207]

Həmçinin Əllamə Hilli də "əl-Xülasə"də, İbn Davud "Rical"ında, Məclisi "əl-Vəcizətu vər-rical"da, eləcə də Maməqani, Xoi və digərləri də onu zəif bilmişlər.[208]

Həmin Yusif bəzən Əli ibn Əhməd ibn Bəqqahdan, o da əmisinə istinadən rəvayət nəql edib. Onların ikisi də məchul şəxslərdir, tərcümeyi-hal kitablarında onların adları qeyd olunmayıb.

Beləliklə, rəvayətin sənədi çox zəifdir, başından etibarən mürsəldir. Zürarəyədək olan raviləri ya zəif, ya da etina edilməyən məchul şəxslərdir.

Rəvayətin mətninə gəldikdə, mətn müəllifin iddiasına dəlalət etmir. Rəvayətin yaxşı anlaşılması üçün onu tam nəql etməyin heç bir müşkülü yoxdur:

Kəşşi yazır: "Yusif deyir: "Əli ibn Əhməd ibn Bəqqah mənə əmisindən, o da Zürarədən nəql edir: "Əbu Abdullahdan (ə) təşəhhüd barədə soruşdum, buyurdu: "Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh, və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh". Dedim: "Bəs salam və salavat?" Buyurdu: "Salam və salavat". Oradan ayrıldıqda (öz-özümə) dedim: "Sabah onu gördükdə bir də soruşacağam". Səhəri gün yenə də ondan təşəhhüd barədə soruşdum, mənə eyni sözləri söylədi. Mən "Bəs salam və salavat?" dedikdə, o da "Salam və salavat" deyə cavab verdi. (Öz-özümə) dedim: "Bir gün sonra yenə onunla görüşüb bu barədə soruşacağam". Sabahı gün soruşduqda yenə həmin cavabı verdi. Dedim: "Bəs salam və salavat?" Buyurdu:

---

[206] "Təbəqatu ə`lamiş-şiəh" ("Nəvabiğur-ruvvat fi rabiətil-məab"), səh.295. Zirkəli "əl-Ə`lam"da (6/311) Kəşşinin vəfat etdiyi tarixin hicri 340-ci il olduğunu qeyd edib.

[207] "Rical", İbn Ğəzairi, səh.103.

[208] "Rical", Əllamə Hilli, səh.265; "Rical", İbn Davud, səh.285; "əl-Vəcizəh", səh.201; "Rical", Məclisi, səh.344; "Tənqihul-məqal", 3/335; "Mö`cəmu ricalil-hədis", 20/168.

“Salam və salavat”. Oradan ayrıldıqda sözünü inkar edərək istehza ilə (kəlmə tərcüməsilə: **“onun saqqalına yel buraxaraq”**) dedim: “O, əsla nicat tapmayacaq!”

Mir Damad hədisin şərhində deyir: “Zürarə “Salam və salavat” sözünü İmamın (ə) təqiyyə edərək söylədiyini güman edir, təşəhhüddə salam və salavatı inkar etdiyini başqalarına söyləyəcəyindən İmamın (ə) ehtiyat etdiyini düşünür. Ona görə də “Sabah onunla görüşüb yenə bu barədə soruşacağam, bəlkə sabah mənə təqiyyə etmədən həqiqi fətvanı söyləyər” deyir. Ancaq sabahı gün ondan təşəhhüd haqda soruşduqda İmam (ə) eyni cavabı verir, ardınca da salam və salavatı təsdiqləyir. Zürarə bu cavabın da təqiyyə ilə söyləndiyini düşünür və deyir: “Sabah onunla görüşdüyümdə bir daha bu barədə soruşacağam, bəlkə təqiyyəni tərk edər və mənə İmamiyyə məzhəbinə müvafiq cavabı deyər. Lakin səhəri gün üçüncü dəfə də ona sual verdikdə eynilə dünənki və srağagünkü cavabı alır, onun (ə) ehtiyat üzündən təqiyyəni tərk etməyəcəyini anlayır. Deyir: “Oradan ayrıldıqda sözünü inkar etdim və dedim: “O, əsla nicat tapmayacaq”. Buradakı “O” şəxs əvəzliyi salam və salavatın təşəhhüdün bir hissəsi olduğuna etiqad bəsləyən və bunu doğru bilən şəxsə yönəlib. Yəni, təşəhhüddə salam və salavatı vacib bilən müxaliflərin və bunu İmamiyyə məzhəbindən hesab edib bu cür düşünənlərin sözünü inkar edir, onun dindən olduğunun vacibliyinə etiqad bəsləyənin əsla nicat tapmayacağını deyir”.[209]

Bəlkə də İmamın (ə) “Salam və salavat” sözü inkar mənasını daşıyır. Yəni, “Ey Zürarə, salam və salavatın vacibliyini necə deyə bilərsən?”

Zürarənin sualını dəfələrlə təkrarlaması təşəhhüddə salam və salavatın söylənməsinin icazəli olub-olmadığını dəqiqləşdirməsi üçündür. Bunu vacib bilənlərin sözlərini İmamın (ə) inkar etdiyini bildikdə dedi: “Onu vacib bilənin saqqalına yel buraxım! Buna etiqad bəsləyən əsla nicat tapmayacaq”. Çünki, o, namazda vacib olan təşəhhüdü bu etiqadı ilə zay edir.

Xülasə, bu rəvayətin sənədi naqis və etibarsızdır, həmçinin Zürarənin İmama (ə) tənə vurduğuna və ya təhqir etdiyinə əsla dəlalət etmir.

* * *

---

[209] Mir Damadın “İxtiyaru mə`rifətir-rical” kitabına yazdığı şərh, 1/379.

**Müəllif iddia edir: “Kəşşinin kitabının üzərindən əsrlər keçib, fikir müxtəlifliklərinə rəğmən şiə alimləri arasında əldən-ələ ötürülüb. Onlardan bu sözlərə etiraz edən, yaxud hədisi inkar edən və ya onun barəsində mənfi söz söyləyən bir kəsi belə görməmişəm”.**

**Cavab:** Mir Damad (vəfatı h.q.1041-ci il) “İxtiyaru mə`rifətir-rical” kitabına yazdığı şərdə bu rəvayətin mənasını izah etmişdir. Yuxarıda onu qeyd etdik.

“Məalim” kitabının müəllifi Şeyx Həsən (vəfatı h.q.1011) özünün “ət-Təhrirut-Tavusi” kitabında bu hədisi başından etibarən inkar edir. Hədisə verdiyi qeyddə yazır: “Təşəhhüdlə bağlı sualdan bəhs edən qeyd olunan hədisdən yalan və uydurma qoxusu yayılır”.[210]

Maməqani (vəfatı h.q.1351) “əl-Minhəc”in haşiyəsində təşəhhüdlə bağlı rəvayətə qeydində belə yazır: “Məlumdur ki, İmama (ə) ünvanlandığı təqdirdə belə sözlər Zürarə kimi bir şəxs tərəfindən söylənməz. Ravilərin tərcümeyi-halından azca məlumatı olan şəxsə bu əsla gizli deyildir. Bunun uydurma və iftira olduğu aydındır, Zürarəyə qarşı onu gözdən salacaq belə uydurmaların çox olduğuna əsasən, bunu söyləmək olar. Əgər belə olmasaydı, o zaman hədisi nə qeyd etmək və nə də ona irad bildirmək layiq olmazdı”.[211]

Bütün bunlar məsələ ilə bağlı bizim qısa müddətdə bir çox tərcümeyi-hal kitablarında apardığımız axtarışların nəticəsidir. Lakin bununla da müəllifin “bu hədisi heç bir şiə alimi inkar və ya rədd etməyib” iddiasının puçluğu aydın olur.

* * *

**Müəllif iddia edir: “İmam Xoi özünün geniş həcmli “Mö`cəmu ricalil-hədis” kitabını yazmağa başladığı zaman mən də əsərin ərsəyə gəlməsində ona yardım edənlərdən və mənbə kitablardan rəvayətləri toplayanlardan biri idim. Bu rəvayəti onun üçün oxuduqda o, bir müddət susdu, sonra dedi: “Hər atın büdrəməsi olduğu kimi, hər alimin də bir yanlışı olur”. Bundan artıq bir şey söyləmədi. Lakin, ey böyük imam, yanlış - qəflət və ya məqsədsiz baş verən xəta**

---

[210] “ət-Təhrirut-Tavusi”, səh.128.

[211] “Tənqihul-məqal”, 1/445.

**səbəbindən olur. Səninlə münasibətimizin müqayisəsi ata ilə oğulun nisbətində idi, sənin sözlərini xoş niyyətə yozmalıyam. Əks təqdirdə, İmam Əbu Abdullah Sadiqə (r.a) qarşı bu xəyanətə susmağına əsla razı ola bilmərəm".**

**Cavab:** Müəllifin Seyid Xoi ilə belə yaxınlığının iddiasını elə Seyidin özünün "Mö`cəmu ricalil-hədis" kitabında rəvayəti sənəd və mətn etibarı ilə rədd etməsi inkar edir. Hədisi qeyd etdikdən sonra deyir:

"Deyirəm: Kəşşinin və Şeyxin Zürarəinin məqamına və şəninə yaraşmayan, etibarsız, boş və sənədi qopuq bir rəvayəti, xüsusilə də, rəvayətin ravilərinin hamısı məchul şəxslər olduğu halda nəql etmələrinə təəccübüm bitmir".[212]

Bunlardan sonra da müəllif onun müxtəlif hadisələr barədə nəql etdiyi sözlərini təsdiqləməyimizi gözləyəcək?! Allahın həmd və lütfü ilə bu, Seyid Xoinin öz kitabında müəllifin atdığı böhtanları inkar etdiyi sübutlardan biridir!

Bundan əlavə, Seyid Xoi kitabı ərsəyə gətirərkən ona yardım edən qrupda yer alan şəxslərin adlarını kitabının ilk cildində sadalayır. Müqəddimədə yer alan siyahı belədir:

"Bu əsərin ərsəyə gətirilməsi və hazırlanması işində müəyyən işləri möhtərəm şəxslərə həvalə etmişdim. Bu işlərdən:

A. Ravilərin sıralanması;

B. Nəql olunan sözlərin və səhifələrin rəqəmlərinin dəqiqləşdirilməsi;

C. Adlarla bağlı qeydlərin sıralanması;

Ç. Tərtib və təqdim nizamlaması;

D. Nüsxələrin araşdırılması;

E. Nüsxələrin qarşılaşdırılması;

Ə. Mətnlərin düzgünlüyünün yoxlanılması.

***Qeyd və düzəlişləri aparan qrupun üzvləri:***

1. Şeyx Muhəmməd əl-Müzəffəri - ravilərin sıralanması;
2. Şeyx Heydər Əli Haşimian - ravilərin sıralanması;

---

[212] "Mö`cəmu ricalil-hədis", 7/238.

3. Şeyx Yəhya Əraki - nəql olunan sözlərin və səhifələrin rəqəmlərinin dəqiqləşdirilməsi;

4. Şeyx Mürtəza Naxçıvani – nüsxələrin araşdırılması;

5. Seyid Əbdüləziz Təbatəbai – düzəlişlər;

6. Seyid Cavad Gülpayqani - mətnlərin düzgünlüyünün yoxlanılması.

7. Şeyx Muhəmməd Kazım Xunsari – düzəlişlərin tədqiqi;

8. Şeyx Fəxrəddin Zəncani - nüsxələrin qarşılaşdırılması;

9. Şeyx Muhəmməd Təbrizi - nüsxələrin qarşılaşdırılması;

10. Şeyx Qulam Rza Rəhmani - nüsxələrin qarşılaşdırılması;

11. Seyid Mürtəza Həkəmi - adlarla bağlı qeydlərin sıralanması”.[213]

Bu, “Mö`cəmu ricalil-hədis” kitabının ərsəyə gəlməsinə öz töhfələrini vermiş möhtərəm işçi qrupun üzvlərinin adlarıdır. Məlumdur ki, onların arasında Kərbəladan olan bir nəfərdə olsa yoxdur. Onların hamısı fəzilətli və tanınmış şəxslərdir. Bəs həmin işçi qrupda yer aldığını iddia edən müəllifin adı haradadır?!

* * *

**Müəllif iddia edir: “İslamın inanılan şəxsi Kuleyni deyir: “Hişam ibn Həkəm və Həmmad Zürarədən mənə nəql edirlər: “Öz-özümə dedim: “Yaşlı adamdır, amma müzakirə barədə elmi yoxdur (yəni - imamının)”.**

**Bu hədisin şərhində yazırlar:**

**“Ağılsız, aciz, qarşı tərəflə doğru-düzgün müzakirə apara bilməyən şəxs İmam Sadiqdirmi (onunmu ağlı yoxdur)?**

**Qəlbim ağrı və kədərdən sıxılır. Bu təhqir, söyüş və cürətə Əhli-Beyt əsla layiq deyildir”.**

**Cavab:** Kuleyninin “əl-Kafi”də nəql etdiyi bu hədisin tam mətni belədir:

Əli ibn İbrahim atasından, o da İbn Əbu Ümeyrdən, o da Əbdürrəhman ibn Həccacdan, o da Zürarədən nəql edir: “İmam Əbu Cəfərə (ə) dedim: “Mömin oda daxil olarmı?” O “Allaha and olsun ki, xeyr” deyə cavab verdi. Dedim: “Oraya

---

[213] “Mö`cəmu ricalil-hədis”, 1/18.

kafirdən başqası girməyəcək?" Buyurdu: "Xeyr, yalnız Allahın dilədiyi kəs istisnadır". Sualı ona bir neçə dəfə təkrarən verdikdə mənə dedi: "Ey Zürarə, mən deyirəm "Xeyr", deyirəm "yalnız Allahın dilədiyi kəs istisnadır", sən isə "Xeyr"i deyirsən, "yalnız Allahın dilədiyi kəs istisnadır" sözünü demirsən".

Deyir: Haşim ibn Həkəm və Həmmad Zürarədən mənə nəql edirlər: "Öz-özümə dedim: "Yaşlı şeyxdir, amma müzakirə barədə elmi yoxdur". Mənə dedi: "Ey Zürarə, söylədiyin hökmləri təsdiqləyən şəxslə necə rəftar edərsən, onu öldürərsənmi? Xidmətçilərin və ailə üzvlərin barədə nə deyirsən, onları da öldürərsənmi?" Dedim: "Allaha and olsun ki, mən müzakirə (elmi mübahisə) barədə elmi olmayan şəxsəm".[214]

Mövla Muhəmməd Saleh Mazandarani deyir:

"Şərh: "Əbdürrəhman ibn Həccacdan, o da Zürarədən nəql edir: "İmam Əbu Cəfərə (ə) dedim: "Mömin oda daxil olarmı?" O "Allaha and olsun ki, xeyr" deyə cavab verdi. Dedim: "Oraya kafirdən başqası girməyəcək?" Buyurdu: "Xeyr, yalnız Allahın dilədiyi kəs istisnadır" sözü – yəni, kafirdən savayı oraya heç kəs daxil olmayacaq, yalnız Allahın dilədiyi şəxslər istisnadır. Bu, mömінlə kafir arasında orta bir mövqedir ki, qarşıda bunu biləcəksən. Ancaq Zürarə sanki Allahın bu ayəsinə əsaslanaraq onların arasındakı orta mövqeni inkar edir: ***"O (Allah) sizi xəlq edəndir, sizlərdən bəziniz kafir, bəziləriniz də möminsiniz".*** Həmçinin ***"Bəziləri cənnətdə, bəziləri də oddadırlar".*** Bu iki ayənin dəlaləti həmin mövqeni qadağan edir. Deyir: "Sualı ona bir neçə dəfə təkrarən verdikdə mənə dedi: "Ey Zürarə, mən deyirəm "Xeyr", deyirəm "yalnız Allahın dilədiyi kəs istisnadır", sən isə "Xeyr"i deyirsən, "yalnız Allahın dilədiyi kəs istisnadır" sözünü demirsən". İmamın (ə) "Yalnız Allahın dilədiyi kəs istisnadır" sözündən anlaşılır ki, kafirdən başqası da cəhənnəmə daxil olacaq. Onun "Allaha and olsun ki, xeyr" sözündən başa düşülüb ki, mömin əsla cəhənnəmə daxil olmaz. Hər iki cümlədən anlaşılır ki, həmin kafirdən qeyrisi nə mömin və nə də kafirdir, bu, onların arasında orta bir mövqedə olan şəxsdir. Belə ki, İmam (ə) "Allaha and olsun ki, xeyr" sözündən sonra istisnanı gətirərək "Yalnız

---

[214] "əl-Kafi", 2/385.

Allahın dilədiyi kəs istisnadır” demir. Çünki belə bir ehtimal yoxdur. Belə ki, mömin əsla oda daxil olmaz. İkinci sualda isə bunun əksinə “Xeyr” deyir və istisnanın mümkünlüyünü bildirir. İstisna edilən kəlmə Zürarənin təqdirindəki “Oraya kafirdən başqa bir kəs girməyəcək?” sözüdür. Həmin kəlmə “başqa bir kəsdir” ki, kafir istisna edildikdən sonra möminə və qeyri şəxsə şamil olunur. Həmin qeyri şəxs cəhənnəmə daxil olacaq. Ona görə də “Yalnız Allahın dilədiyi kəs istisnadır” deyərək onu ayırır, onun Allahın istəyinə əsasən, cəhənnəmə daxil ola biləcəyini bildirir. Zürarə isə istisnanı möminlərə şamil edir, onu kənara qoyaraq “Yalnız Allahın dilədiyi kəs istisnadır” sözünü demir. Bizim iqrarımıza əsasən, zahir olur ki, bu iki kəlmə arasındakı fərq həmin bu istisna və onun tərk edilməsidir. Belə ki, birinci halda orta mövqenin varlığı, ikincidə isə onun olmaması isbatlanır.

Deyir: “Haşim ibn Həkəm və Həmmad Zürarədən mənə nəql edirlər: “Öz-özümə dedim: “Yaşlı adamdır, amma müzakirə barədə elmi yoxdur”. Zürarə deyir: “Oda kafirdən başqası girməyəcək”. Bu cümlə istisna olmadıqda doğrudur, bunun batilliyi və ya yanlışlığı sübuta yetmədikcə dəlilə ehtiyacı yoxdur. Sual təkrarlandıqda da İmam (ə) onun yanlışlığını bəyan etmir. Zürarə bundan narahat olaraq öz-özünə deyir: “Yaşlı adamdır, amma müzakirə və elmi mübahisə aparmağa savadı çatmır”. Halbuki elmi müzakirə zamanı iddianı isbatlamaq üçün qarşı tərəfin sözünü puça çıxarmaq və yanlışlığını bildirmək lazımdır. İmam (ə) onun öz-özünə söylədiyi sözləri anladıqda onun başa düşəcəyi tərzdə sözündəki yanlışı bəyan edir. Bu isə din haqqında mərifətə (elmə) malik olmayan zəif imana sahib, hökmləri təsdiqləyən, himayəsi altında çalışan, nəzərində nə mömin və nə də kafir hesab etdiyi xidmətçi və ailə üzvlərindən olan müsəlman şəxslərin həmin orta mövqedə olmasıdır. Belə ki, onları öldürməsi halal deyildir. Lakin kafir olsaydılar, buna icazəsi olardı. Onun gümanına əsasən, onlar cəhənnəmə layiqdirlər. Beləliklə də yalnız kafirlərin cəhənnəmə daxil olacağı düşüncəsi doğru sayılmır, mütləq istisna ilə digər dəstənin də oraya daxil olmasının mümkünlüyü qeyd edilməlidir ki, İmam (ə) da bunu vurğulayır. Bu, elə Zürarənin İmamdan (ə) nəql etdiyi sözlərdir: “Ey Zürarə, sənin söylədiyin hökmləri təsdiqləyən şəxslə necə rəftar edərsən, onu öldürərsənmi?” Bununla birinci qismə işarə edir. “Xidmətçilərin və ailə üzvlərin barədə nə deyirsən,

onları da öldürərsənmi?” Bu da ikinci qismə işarədir. Bu iki cavabdakı məqsəd isə onların nə mömin və nə də kafir olduqlarını bildirməkdir. Zürarə deyir: “Dedim: “Allaha and olsun ki, mən müzakirə (elmi mübahisə) barədə elmi olmayan şəxsəm”. Bunu özünün məğlub, rəqibinin isə qalib vəziyyətə düşdüyü üçün söyləyir”.[215]

Buradan anlaşılır ki, Zürarənin “İmamın elmi mübahisə barədə məlumatı yoxdur” sözü yalnız onun zehnindən keçir. Bunlar isə zehnə bir anda gəlib-gedən fikirlərdir və ona görə kimsə qınanmaz. İmam (ə) onun üçün məsələni açıqladıqda Zürarə elmi mübahisə barədə savadının olmayan şəxsin məhz özünün olduğunu anlayır. Hədisdə heç bir müşkül yoxdur, həmçinin Zürarənin də bu tip ani düşüncələrə görə məzəmmət olunması yersizdir.

Bəlkə də Zürarə ilə İmam (ə) arasındakı bu söhbət o, imaməti hələ təsdiqləməzdən və İmamı (ə) məsum bilməzdən öncə baş vermişdir.

Gülməlidir ki, müəllif bu hədisi guya şiələrin İmam Sadiqi (ə) təhqir etdikləri iddiasına dəlil kimi təqdim edir. Halbuki hədisdə həmsöhbət tərəf İmam Sadiq (ə) deyil, İmam Muhəmməd Baqirdir (ə). İctihad iddiaçı olan bir kəsin Əbu Cəfər künyəsinin İmam Muhəmməd Baqirə (ə) aid olduğunu bilməməsinin üzrü varmı?!

* * *

**Müəllif iddia edir: “Abbas, oğlanları Abdullah və Übeydullah, həmçinin Əqil də (onlara salam olsun!) tənə, böhtan və istehzalardan amanda qalmayıblar. Gəlin birlikdə aşağıdakı mətni oxuyaq:**

**“Kəşşi rəvayət edir ki, Uca Allahın *“O nə pis hami, necə də pis yoldaşdır!”* ayəsi barədə yazır: “Bu ayə Abbas barədə nazil olub” (səh. 54)”.**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Ravilərdən biri Əbu Muhəmməd ibn Abdullah ibn Muhəmməd əl-Yəmanidir. Görünən odur ki, həmin şəxs Əbu Muhəmməd Abdullah ibn Muhəmməd əl-Yəmanidir. Buna isə Həmdan ibn Süleymanın ondan nəql etdiyi rəvayət dəlalət edir. Belə ki, o, Abdullah ibn

[215] “Şərh”, əl-Mazəndərani, 10/59.

Muhəmməd əl-Yəmanidən [216] rəvayət nəql edəndir. O, halı məchul şəxsdir, tərcümeyi-hal kitablarında barəsində nə tərif və nə də danlaq qeyd olunmayıb.

Bu xəbəri rəvayət edən ravilərin arasında həmçinin Hüseyn ibn Əbul-Xəttab vardır. Həmçinin onun da halı məchuldur. Tərcümeyi-hal kitablarında onun inanılan şəxs olması barədə heç bir söz qeyd edilməyib.

Maməqani deyir: "Onun inanılan şəxs olması və ya təriflənməsi barədə heç bir qeydə rast gəlməmişəm".[217]

Eləcə də bu xəbərin ravilərindən biri Tavusdur, tərcümeyi-hal kitablarında onun da inanılan şəxs olduğuna dair heç bir qeyd yoxdur.

Buna əsasən, həmin rəvayət sənəd baxımından etibarsızdır, heç bir iddiaya onu dəlil göstərmək doğru olmaz.

* * *

**Müəllif iddia edir: "Eləcə də Uca Allahın: "Bu dünyada kor olan axirətdə də kor olar və (haqq) yoldan daha da çox azar!" və "...mən sizə nəsihət vermək istəsəm də, heç bir faydası olmaz" ayələri də onun barəsində nazil olmuşdur" (səh.52-53)".**

**Cavab:** Həmçinin bu rəvayətin də sənədi zəifdir. Rəvayətin raviləri arasında Cəfər ibn Mə`ruf vardır ki, tərcümeyi-hal kitablarında onun inanılan şəxs olduğu sübuta yetməyib.

Seyid Xoi "Mö`cəmu ricalil-hədis" kitabında yazır: "Onun tərcümeyi-halını Şeyx qeyd edib, Kəşşi də ondan çox rəvayət nəql edib, lakin bunlarda onun inanılan şəxs olduğu sübuta yetməyib. "Giriş"də qeyd edildiyi kimi, vəkalət şəxsin inanılan olmasını tələb etməz, Kəşşinin ona etimadı da onun inanılan şəxs olduğunu isbatlamır...".[218]

Buna əsasən, bu rəvayət də etibarsızdır.

---

[216] Bax: "Mö`cəmu ricalil-hədis", 10/319.

[217] "Tənqihul-məqal", 1/317.

[218] "Mö`cəmu ricalil-hədis", 4/132.

**Müəllif iddia edir: "Həmçinin Kəşşi rəvayət edir ki, Əmirəl-möminin (r.a) Abdullah ibn Abbasa və onun qardaşı Übeydullaha bəddua edərək deyib: "İlahi, filankəsin iki oğluna – yəni Abdullah və Übeydullaha – lənət et, onların – boynumun (və ya başımın) ağrısının - qəlblərini kor etdiyin kimi gözlərini də kor et! Gözlərinin korluğunu qəlblərinin korluğuna dəlil qərar ver!" (səh. 52)".**

**Cavab:** Bu rəvayətin də sənədi zəifdir. Ravilərdən biri Muhəmməd ibn Sinandır. O, məşhur rəyə əsasən, zəif ravidir.

Nəcaşi öz "Rical"ında onu zəif hesab edərək deyir: "O, olduqca zəif ravidir, ona etina olunmaz və təkcə onun tərəfindən rəvayət olunan xəbərlərə əhəmiyyət verilməz".

Şeyx deyir: "Muhəmməd ibn Sinan məzəmmət olunmuş şəxsdir, zəif ravidir. Onun rəvayətinə dair özbaşına qərar verilməz, eyni rəvayətdə başqa bir şəxs yoxdursa, onun məzmununa əməl olunmaz".

Şeyx Müfid "əl-Ədədiyyə" risaləsində yazır: "Muhəmməd ibn Sinan - barəsində məzəmmət olan şəxsdir, onun ittiham olunmasında və zəif bilinməsində ixtilaf etməmişlər. Buna əsasən də, din barədə onun rəvayətlərinə etina edilməz".

Mühəqqiq Xoi yazır: "Əgər İbn Üqdə, Nəcaşi, Şeyx, Şeyx Müfid və İbn Ğəzairi onu zəif hesab etməsəydilər, Fəzl ibn Şazan onu yalançılardan saymasaydı, rəvayətlərinə əməl olunacağı təyin edilərdi. Lakin belə elmli şəxslərin onu zəif saymaları bizi ona etimad bəsləməkdən və rəvayətlərinə əməl etməkdən çəkindirir".[219]

Bundan əlavə, rəvayətlərdə Abdullah və Übeydullahın adları qeyd olunmayıb. Bu, yalnız müəllifin düşüncəsidir. Mümkündür ki, həmin lənət başqa kəslə haqqında söylənir. Kəşşinin bu rəvayəti "Abdullah ibn Abbas" başlığı altında qeyd etməsi öz qənaətidir. Həmin "filankəs" sözü ilə tam fərqli şəxslər də nəzərdə tutula bilər.

Eləcə də rəvayətdə dolaşıq kəlmə mövcuddur ki, bu da **"boynumun (və ya başımın) ağrısının..."** ibarəsidir. Bu ibarənin mənası bilinmir və rəvayəti zəiflədən bir qarışıqlıqdır ki, bizi ona əməl etməkdən çəkindirir.

---

[219] "Mö`cəmu ricalil-hədis", 16/160.

Hər bir halda, əgər Abdullah ibn Abbas barəsindəki bu rəvayətlərin doğruluğunu fərz etsək belə, əhli-sünnə divanlarının və səhihlərinin səhabələr arasında baş vermiş söyüşmələr, lənətləşmələr və savaşlarla dolu olduğunu da vurğulamalıyıq. Bu, heç kəsə gizli deyildir.

Bəs nə üçün həmin kitablarındakı belə rəvayətləri əhli-sünnə tərəfindən tənə və təhqir kimi qəbul etmir, ancaq şiə kitablarındakı bu rəvayətləri şiəyə qarşı istifadə edirsiniz? Halbuki həmin rəvayətlərdən bəziləri məhz əhli-sünnə ravilərindən olan Tavusdan nəql edilmişdir.

Əgər müəllif özünün iddia etdiyi kimi, həqiqətən də ictihad sahibi və insaflı şəxs olsaydı, bilməliydi ki, Kəşşinin (r.ə) tərcümeyi-hal üslubu hədis raviləri haqqında həm tərif və həm də tənqidi xəbərləri nəql etmək olub. Ancaq onlardan hansını qəbul və ya inkar etmək fəqihin vəzifəsidir. Bu kimi rəvayətlərə görə nə məxsusi olaraq Kəşşiyə və nə də ümumən şiəyə tənə vurulmaz. Bu, məlum faktdır və açıqlanmasına ehtiyac duyulmur.

Əgər müəllifin dəyərli və dəyərsiz rəvayətlər arasında seçim aparmaq üçün az da olsa qüdrəti olsaydı, bilərdi ki, İbn Abbas barədə nəql olunan rəvayətlərin hamısı məzhəb alimlərinin rəyinə əsasən, uydurma və zəifdirlər. Necə ki, onlardan ikisini biz də qeyd etdik.

Seyid Əhməd ibn Tavus deyir: "Kitabın müəllifi (yəni Kəşşi) İbn Abbasla (Allah ondan razı olsun!) bağlı xəbərlər kimi zəif, nadir və tənqidə açıq rəvayətlər nəql edib. Halbuki o (İbn Abbas), insanların həsəd, qibtə, rəqabət ünvanı idi, onun barəsində xoşagəlməz sözlər söyləyir və ləkələyirdilər:

*Gəncin fəzilətinə yetişə bilmədikləri üçün həsəd aparırdılar,*

*Camaat ona düşmən və rəqib çıxmışdı.*

*Sanki o, gözəl bir günüdür ki, həsəd və ədavətdən*

*Üzünə qarşı: "Bu nə eybəcərdir!" deyirlər".*

Ardınca bu hədisləri sadalayır və onların zəif olduğunu açıqlayır: “Gördüyün kimi, belədir. Əgər onun barəsində min belə hədis nəql edilmiş olsa, onların hamısına şübhə etmək mümkündür, o ki, qalsın belə zəif rəvayətlərə!”[220]

Təfrişi “Nəqdur-rical” kitabında yazır: “Kəşşinin onun (yəni İbn Abbasın) barəsindəki məzəmmətedici rəvayətlərinə gəldikdə, onların sənədləri zəifdir”.[221]

Mühəqqiq Xoi İbn Abbas barədə tənqidedici rəvayətlərin zəifliyini bildirdikdən sonra deyir: “Bu və bundan öncəki rəvayət əhli-sünnə yolu ilə nəql edilib. İbn Abbasın Əmirəl-mömininlə (ə) dostluğu və ona bağlılığı belə uydurma, məzəmmətedici və tənə vuran rəvayətlərin doğulmasının yeganə səbəbidir”.[222]

Bəs onların özlərinə nə olub ki, Peyğəmbərin (s) valideynlərini və pak əcdadlarını təkfir (küfrdə ittiham) edirlər. Necə ki, Əbu Talibi (ə) də təkfir etmişlər. Halbuki o, Peyğəmbərin (s) əmisi, onun himayədarı və yardımçısıdır. Açıq-aydın dəlillər Peyğəmbərə (s) yaxın həmin şəxslərin iman sahibi olduqlarına dəlalət etdiyi halda, əhli-sünnə özlərinin bu əməllərində nə bir eyib və nə də təhqir əlaməti görmür. Şiələri isə Abbas ibn Əbdülmüttəlibin və oğlu Abdullahın kafirliyinə hökm etməyən zəif hədislərə görə məzəmmət edirlər?!

Ömrümə and olsun, əgər onlar əmisi Abbas və onun oğlu barədə Peyğəmbərin (s) ehtiramını qorumaq istəyirlərsə, o zaman Peyğəmbərin (s) valideynləri, babaları və əmisi Əbu Talibin (ə) haqqını qorumaları buna daha çox layiqdir.

* * *

**Müəllif iddia edir: “İslamın inanılan şəxsi Əbu Cəfər Kuleyni “Füruul-Kafi”də Əmirəl-möminin barəsində İmam Baqirdən rəvayət edir: “Onunla birlikdə iki zəif, zəlil və İslamı sonda qəbul etmiş şəxslər – Abbas və Əqil qaldı”.**

**Cavab:** Onların zəif xarakterli şəxslər olduqları hallarından da məlumdur. Belə ki, onların nə cahiliyyə dövründə və nə də müsəlman olduqdan sonra savaşlarda iştirakları və şücaətləri ilə tanımamışlar. Hətta əhli-sünnə rəvayətlərinə əsasən, onlar

---

220 “ət-Təhrirut-Tavusi”, səh.159, 163.

221 “Nəqdur-rical”, 3/118.

222 “Mö`cəmu ricalil-hədis”, 10/238.

Bədr savaşında məcbur qalaraq müşriklərin tərəfində müsəlmanlara qarşı döyüşmək üçün gəlmişdilər.[223] Onların zəif xarakterli olduqlarına dəlil kimi bu fakt kifayətdir.

Onların zəlil olduqlarına gəldikdə, bəlkə də məqsəd onların Bədr savaşı günü müşriklərlə birlikdə əsir düşmələridir.[224]

İslamı sonda qəbul etdikləri barədə isə İbn Əbdülbərr "əl-İstiab"da qeyd edir ki, Abbas Xeybər qalasının fəthindən öncə İslamı qəbul etdi, Məkkənin fəthi günü isə bunu açıqladı.[225] Əqilin isə müsəlman olması Hüdeybiyyə sülhündən əvvələ təsadüf edir.[226]

İbn Həcər deyir: "Onun (yəni Əqilin) müsəlman olması Məkkənin fəthi gününədək yubandı. Bir rəyə görə isə Hüdeybiyyə sülhündən sonra baş verdi".[227]

* * *

**Müəllif iddia edir: "Kəşşinin Abbas haqqında nazil olduğunu iddia etdiyi ayələrin mənası onların kafirliyinə hökm etmək və qiyamət günü cəhənnəmdə əbədi qalacaqlarını bildirməkdir. Əks halda "*Bu dünyada kor olan axirətdə də kor olar və (haqq) yoldan daha da çox azar!*" ayəsinin mənasını mənə başa salın!"**

**Cavab:** Həmin rəvayətin sənədinin zəif olduğunu və onun dəlil göstəriləcək səlahiyyətdə olmadığını yuxarıda bəyan etdik. Burada onları təkrarlamaq vaxt itkisindən savayı bir şey olmayacaq.

Bununla belə, Kəşşi müəllifin iddia etdiyi kimi, "Ayə Abbas və onun oğlanları barədə nazil olub" demir. Həmin sözü Tavusa, Zuhriyə, Şə`biyə və digərlərinə

---

[223] Abbasın məcbur edilərək Bədr döyüşünə gətirildiyi "Usudul-ğabə"də (3/163), "əl-İsabə"də (3/511), "əl-İstiab"da (2/812), "Siyəru ə`lamin-nübəla"da (2/96), Əqilin isə həmin savaşa gəldiyi "Siyəru ə`lamin-nübəla"da (1/218, 3/99), "Usudul-ğabə"də (4/61), "əl-İstiab"da (3/1078) və "əl-Muntəzəm"də (5/236) qeyd olunur.

[224] "Usudul-ğabə", 3/165; "əl-İstiab", 2/811.

[225] "əl-İstiab", 2/812.

[226] "əl-İstiab", 3/1078.

[227] "əl-İsabə", 4/438.

istinadən rəvayət edir. Beləliklə də iddiaçılar əhli-sünnə mənsubları olan həmin şəxslərdir. Yaxud da başqalarıdır, kim bilir?

* * *

**Müəllif iddia edir: "Əmirəl-mömininin (r.a) Abbasın oğlanları Abdullah və Übeydullahı lənətləməsi, qəlbləri kimi gözlərinin də kor olması üçün bəddua etməsi onları təkfir etməkdir".**

**Cavab:** Yuxarıda həmin rəvayətin sənədinin zəif olduğunu qeyd etdik. Yenidən o barədə danışmaq vaxtı hədər verməkdir. Rəvayətdə Abbasın və ya oğlanlarının adlarının qeyd olunmadığını da bildirdik. Əgər sənəd baxımından hədisin səhih olduğunu fərz etsək, o zaman lənətə layiq olan şəxslərin başqaları olduğunu da söyləyə bilərik. Daha doğrusunu Allah bilir!

* * *

**Müəllif iddia edir: "Əhli-sünnə mənsubları Abdullah ibn Abbasa "Quran tərcümanı" və "ümmətin alimi" ləqəblərini vermişlər. Bəs biz Əhli-Beytə (ə) məhəbbət bəslədiyimiz iddiasını etdiyimiz halda onları nə üçün lənətləyirik?!"**

**Cavab:** Şiələrin Abdullah ibn Abbası lənətlədiklərini bu ictihad və fəqihlik iddiaçısına kim söyləyib?!

Görəsən, öz kitablarındakı zəif sənədli hədislər səbəbindən o, İbn Abbası lənətlədiklərini şiələrə niyə nisbət verir? Özünü müctehid bilən hər kəsə şiə alimlərinin İbn Abbasın mədhinə söylədikləri sözləri əsla gizli deyildir. Bu, burada sadalanmayacaq həddə məşhurdur. Onlardan bəziləri bunlardır:

1. Əllamə Hilli "Rical"ında yazır: "Abdullah ibn Abbas Peyğəmbərin (s) əshabındandır. Əlini (ə) sevən və onun şagirdi idi. Onun Əmirəl-mömininə (ə) qarşı ixlası və uca şəni gizlədilməyəcək həddə məşhurdur. Kəşşi onun tənqid edildiyinə dair rəvayətlər nəql edib. Lakin İbn Abbas elə ittihamlardan ucadır. Biz onları "əl-Kəbir" kitabımızda qeyd etmiş və onlara müvafiq cavabları vermişik".[228]

2. İbn Davud "Rical"ında yazır: "Abdullah ibn Abbas r.a. (L-Y – yəni Peyğəmbərin (s) və Əmirəl-möminin Əlinin (ə) əshabındandır). Fəziləti, şəni,

[228] "Rical", Əllamə Hilli, səh.103.

Əmirəl-mömininə (ə) olan məhəbbəti və sözünə itaətkarlı qeyd edilməkdən daha ucadır”.[229]

3. Seyid Əhməd ibn Tavus “Həllul-işkal” kitabında yazır: “Abdullah ibn Abbasın (Allahın razılığı ona olsun!) Əmirəl-mömininə (ə) qarşı məhəbbətinə, ixlasına, dostluğuna, yardımına, onun müdafiəsinə, razılığı üçün mübahisəsinə və göstərdiyi dəstəyə heç bir şübhə yoxdur”.[230]

4. Seyid Əli Xan Şirazi “əd-Dərəctur-rəfiəh” kitabında deyir: “İbn Abbas (r.a) barədə etiqadım onun Əmirəl-möminin Əliyə (ə) və övladlarına qarşı ən ixlaslı şəxs olduğu barədədir. Onun şiə və imanlı şəxs olduğuna heç bir şübhə yoxdur. İnşallah, qarşıda qeyd edəcəyimiz xəbərlərdən bunun belə olduğunu anlayacaqsınız”.[231]

5. Hürr Amili “Vəsailuş-şiə”nin sonunda yazır: “Abdullah ibn Abbasın Əmirəl-mömininə (ə) qarşı ixlası və uca şəni gizlədilməyəcək həddə məşhurdur. Onun tənqid edildiyinə dair rəvayətlər nəql edilib. Lakin İbn Abbas elə ittihamlardan ucadır”.[232]

6. Mühəqqiq Xoi “Mö`cəmu ricalil-hədis” kitabında yazır: “Qeyd etdiklərimizdən hasil olan budur ki, Əllamə Hillinin və İbn Davudun da qeyd etdikləri kimi, Abdullah ibn Abbas şəni yüksək, Əmirəl-möminin Əlini (ə) və Hüseyni (ə) müdafiə edən şəxs idi”.[233]

Və onun mədhinə dair başqa tərifləri, eləcə də bu müəllifin şiələrin onu lənətləməsi və təkfir etməsilə bağlı iddialarını puça çıxaran şiə alimlərinin bir çox qeydləri vardır ki, burada onları sadalamağa vaxtımız imkan vermir.

* * *

**Müəllif iddia edir: “Əqilə (r.a) gəldikdə, o, Əmirəl-mömininin (r.a) qardaşıdır. Məgər o, zəlil və İslamı sonda qəbul etmiş şəxsdirmi?”**

---

229 “Rical”, İbn Davud, səh.121.

230 “ət-Təhrirut-Tavusi”, səh.159.

231 “əd-Dərəcətur-rəfiətu fi təbəqatiş-şiəh”, səh.101.

232 “Vəsailuş-şiə”, 20/239.

233 “Mö`cəmul ricalil-hədis”, 10/239.

**Cavab:** Onun Əmirəl-möminin Əlinin (ə) qardaşı olduğuna heç kəsdə şəkk yoxdur. Ancaq zəlil və sonda müsəlman olmasına gəldikdə, bu barədə yuxarıda söhbət açdıq və bir daha təkrarlamağa ehtiyac görmürük.

Əhli-sünnə hədisşünasları kitablarında Əqili bundan daha artıq məzəmmət edən sözlər nəql ediblər. İbn Əbdülbərrin "əl-İstiab"da İbn Abbasdan nəql etdiyi rəvayətdə deyilir: "Əqil Qüreyş arasında ən çox təhqir və məzəmmət olunan şəxs idi. Buna görə də ona düşmənçilik bəsləyir, onun barəsində batil sözlər danışır, axmaq olduğunu deyir, saxta hədislərlə barəsində ixtilaflı fikirlər səsləndirirdilər. Bu işdə onlara yardım edən fakt isə qardaşı Əliyə qarşı olan qəzəbi və Müaviyənin yanında olması idi. İddia edirlər ki, bir günü Müaviyə onun iştirak etdiyi məclisdə dedi: "Əgər bu (yəni Əqil) mənim onun qardaşından daha yaxşı olduğumu bilməsəydi, onu tərk edərək yanımızda gəlib qalmazdı". Əqil isə demişdi: "Qardaşım dinim, sən isə dünyam barədə mənə faydalısan. Mən isə dünyanı üstün tutmuşam və Allahın sonumu xeyirli etməsini diləmişəm".[234]

Şübhə yoxdur ki, öz dili ilə dünyanı dinindən üstün tutduğunu iqrar etməsi onun zəif, zəlil və İslamı sonda qəbul etmiş kəs kimi vəsf olunmasından daha çox məzəmmət və təhqirdir.

* * *

**Müəllif iddia edir: "İmam Zeynəlabidin Əli ibn Hüseyn barədə Kuleyni belə rəvayət edir: "Yezid ibn Müaviyə ondan qul olmasını istədi və o (r.a) Yezidə qul olmağa razılaşdı, dedi: "Sənin təklifini təsdiqləyirəm. Mən aciz (məcbur edilmiş) bir qulam. İstəsən məni saxlaya, istəsən sata bilərsən" ("ər-Rovzətu minəl-Kafi", 8/235).**

**Sözə və mənaya bax: Sənin kölən olduğunu təsdiqləyirəm. Mən aciz bir qulam. İstəsən məni özün üçün bir qul olaraq saxlaya, istəsən sata bilərsən". Məgər İmam (r.a) Yezidin istədiyi zaman sata və ya özü üçün saxlaya biləcəyi köləsi olubmu?"**

---

[234] "əl-İstiab", 3/1089; "Siyəru ə`lamin-nübəla", 3/100.

**Cavab:** Kuleynin nəql etdiyi rəvayətin tam mətni belədir: “İbn Məhbub Əbu Əyyubdan, o da Büreyd ibn Müaviyədən nəql edir: “Əbu Cəfərin (ə) belə dediyini eşitdim: “Yezid ibn Müaviyə Həcc əməllərini yerinə yetirmək üçün Mədinəyə gəlmişdi. Qüreyşdən olan bir şəxsi yanına çağırtdırıb dedi: “Təsdiq edirsənmi ki, mənim qulumsan, səni istədiyim zaman sata, istədiyim zaman da ucalda bilərəm?” Həmin şəxs dedi: “Allaha and olsun, ey Yezid, Qüreyş arasında nəsil baxımından sən məndən möhtərəm deyilsən. Nə cahiliyyə dövründə və nə də İslamdan sonra sənin atan mənim atamdan fəzilətli olmayıb. Sən din və xeyirxahlıq cəhətdən də məndən üstün deyilsən. Sənin məndən istədiyini necə təsdiqləyə bilərəm?” Yezid dedi: “Allaha and olsun, əgər qul olduğunu iqrar etməsən, səni öldürəcəyəm”. Kişi dedi: “Sənin məni öldürməyin Peyğəmbərin (s) övladı Hüseyn ibn Əlini (ə) qətlə yetirməyindən daha böyük (günah) olmayacaq”. Yezib əmr edib həmin şəxsi öldürtdü. Sonra Əli ibn Hüseynin (ə) ardınca adam göndərdi, qüreyşliyə söylədiklərini ona da dedi. Əli ibn Hüseyn (ə) dedi: “Nə düşünürsən, söylədiklərini iqrar etməsəm, məni də bir az əvvəl öldürdüyün şəxs kimi qətləmi yetirəcəksən?” Allahın lənətinə gəlmiş Yezid ona dedi: “Bəli”. Əli ibn Hüseyn (ə) dedi: “İstədiyini iqrar edirəm. Mən məcbur edilmiş bir qulam. Əgər istəsən məni saxla, istəsən sat”. Lənətlənmiş Yezid dedi: “Qanının axıdılmasından özünü qorudun və bu sənin şərəfindən heç bir şeyi əskiltmədi”.[235]

Bu hədisin sənədi zəifdir. Onun ravilərindən biri Əbu Əyyubdur ki, o, Əbu Əyyub İbrahim ibn Ziyad əl-Xəzzazdır. Halı məchul şəxsdir və tərcümeyi-hal kitablarında inanılan şəxs kimi qeyd olunmayıb.

Buna əsasən, rəvayətə etimad etmək doğru deyildir.

Eləcə də, rəvayətin mətndə Yezid ibn Müaviyənin Həcc əməllərini icra etmək üçün Mədinəyə daxil olduğu bildirilir. Halbuki bu faktın özü tarixçilərin qeydlərinə tam ziddir. Onlar Yezidin xəlifə olduğu müddətdə Şamı əsla tərk etmədiyini və Həccə getmədiyini yazırlar. Bunlar da rəvayəti qüvvədən salan faktlardır. Beləliklə rəvayət ta başından etibarsızdır.

---

[235] “ər-Rovzətu minəl-Kafi”, səh.196, hədis 313.

Əllamə Məclisi “Biharul-ənvar”da deyir: “Bil ki, bu rəvayətə iradlar vardır. Belə ki, tarixi hadisələri yazan alimlər bu məlunun xəlifə olduqdan sonra əsla Mədinəyə gəlmədiyini yazırlar. Nəinki, ölüb oda varid olanadək əsla Şamı tərk etmədiyini bildirilər”.[236]

Əgər rəvayətin doğruluğunu fərz etsək, həmin rəftarın Yezid ibn Müaviyə üçün yad olmadığını qeyd etməliyik. Vaqidi İbn Kəsirin “əl-Bidayətu vən-nihayə” kitabında hekayət etdiyi rəvayətə əsasən yazır ki, Müslim ibn Üqbə Mədinəyə daxil olduqda camaatı toplayıb Yezid ibn Müaviyə kölə və xidmətçi olduqlarına, canlarının, mallarının və ailələrinin üzərində ixtiyar sahibi olduğuna dair onlardan beyət tələb etdi”.[237]

İbn Həcər “əl-İsabə” kitabında Müslim ibn Üqbənin tərcümeyi-halında yazır: “Müslim Mədinə əhalisilə söz və əməl baxımından çox kobud rəftar edir, böyük və kiçiklərin qətlində özünə bir hədd qoymurdu. Buna görə “müsrif” (həddi aşan, günahkar) adlandırılmışdı. Belə ki, Mədinə əhlini üç gün boyunca əsgərlərinə halal elan etmişdi. Onlar Mədinə əhalisinin mallarını yağmalayır, öldürür və qadınlara təcavüz edirdilər. Sonra qətlləri dayandırdı və sağ qalan əhalidən Yezid ibn Müaviyəyə kölə olduqlarına dair beyət aldı”.[238]

Təbərinin “Tarix”ində nəql edilir ki, Yezid ibn Vəhəb ibn Zəm`ə Müslim ibn Üqbənin hüzuruna gətirildikdə ondan beyət etməsini istədi. O da “Ömərin sünnəsi üzərinə sənə beyət edirəm” dedi. Müslim “Onu öldürün!” deyə göstəriş verdi. Bunu eşitdikdə Yezid ibn Vəhəb “Sənə beyət edirəm” dedi. Müslim dedi: “Xeyr, Allaha and olsun, səni bağışlamayacağam”. Mərvan ibn Həkəm onunla qohumluğuna görə vasitəçilik etmək istədi. Müslim isə Mərvanın boynundan tutub başı aşağı sallamalarını əmr etdi. Ardınca dedi: “Yezid ibn Müaviyəyə kölə və xidmətçi

---

[236] “Biharul-ənvar”, 46/138.

[237] “əl-Bidayətu vən-nihayə”, 8/225.

[238] “əl-İsabə”, 6/232.

olduğunuza dair beyət edin!” Sonra da Yezid ibn Vəhəbin öldürülməsinə fərman verdi”.[239]

Deyir: “Müslim ibn Üqbə Mədinəyə daxil olduqda camaatı toplayıb Yezid ibn Müaviyə kölə və xidmətçi olduqlarına, canlarının, mallarının və ailələrinin üzərində ixtiyar sahibi olduğuna dair onlardan beyət tələb etdi”.[240]

Xəlifə ibn Xəyyat özünün “Tarix” kitabında yazır: “Müslim ibn Üqbə Mədinəyə daxil olduqda camaatı toplayıb Yezid ibn Müaviyə kölə və xidmətçi olduqlarına, canlarının, mallarının və ailələrinin üzərində ixtiyar sahibi olduğuna dair onlardan beyət tələb etdi. Sonra Abdullah ibn Zəm`əni gətirdilər. O, Yezid ibn Müaviyənin sadiq dostu idi. Müslim ona dedi: “Möminlərinin əmirinin köləsi və xidmətçisi olduğuna, canın, malın və ailənin üzərində ixtiyar sahibi olduğuna dair beyət et!” Dedi: “Mən möminlərin əmirinin əmisi oğlu olduğuma, canım, ailəm və malım üzərində ixtiyar sahibi olduğuna dair sənə beyət edirəm”. Müslim dedi: “Boynunu vurun!” Mərvan ortaya atılıb onu qucaqladı və dedi: “Sənin istəyinə uyğun beyət edəcək”. Müslim dedi: “Allaha and olsun ki, bunu ona heç vaxt bağışlamayacağam! Əgər kənara çəkilməsən ikinizin də qətlinə fərman verəcəyəm”. Mərvan onu buraxdı və İbn Zəm`ənin boynunu vurdular”.[241]

Bu beyət hadisəsini İbn Əsir “əl-Kamil”də, İbn Cövzi “əl-Muntəzəm”də və digərləri öz kitablarında qeyd ediblər.[242]

Vəziyyət belə ikən, müəllif İmam Zeynəlabidinin (ə) Yezidin və ya Müsrif ibn Üqbənin sözlərini rədd etməsini və nəticədə boynunun vurulmasınımı gözləyirdi?!

Bunlara əsasən, aydın olur ki, rəvayətin doğruluğu fərz olunduqda, İmam Zeynəlabidinin (ə) belə bir addım atmasına heç bir işkal və irad ola bilməz. Belə rəvayətlərlə şiələrə töhmət vurmaq da mümkün deyildir. Çünki eyni rəvayətlərin əhli-sünnə kitablarında mövcudluğu nəzərə alındıqda, bu zaman onlar şiələrdən daha çox

[239] “Tarix”, Təbəri, 4/378-379.

[240] “Tarix”, Təbəri, 4/381.

[241] “Tarix”, Xəlifə ibn Xəyyat, 1/238.

[242] “əl-Kamil”, 4/118; “əl-Muntəzəm”, 6/15.

töhmət və tənəyə məruz qalmalıdırlar. Belə ki, onların rəvayətlərinə əsasən, həmin dövrdə yaşayan mühacir və ənsarlar Yezidin kölələri və xidmətçiləri olduqlarına, canları, malları və qadınları üzərində ixtiyar sahibi olduğuna dair ona beyət etmişlər.

* * *

**Müəllif iddia edir: "Əgər bütünlüklə Əhli-Beyt barədə deyilənləri sadalamaq istəsək, söz uzanacaq, onların heç biri nalayıq, ədəbsiz və təhqiredici sözlərdən amanda qalmayacaq. Bizim mənbə kitablarımızda onlara həmçinin nalayiq hərəkətlər də nisbət verilib. Qarşıdakı fəsildə onlardan bəziləri qeyd ediləcək".**

**Cavab:** Möhtərəm oxucuya məlumdur və qarşıda bir daha aydın olacaq ki, müəllifin iddiaları bu üç haldan xali deyildir:

- ya o, sənədi zəif və etibarsız rəvayət nəql edəcək ki, belə rəvayətin dəlil göstərilmək səlahiyyəti yoxdur;

- ya müəllif onu məzmunun dəlalət etmədiyi və kəlmələrin vermədiyi mənalara yozacaq;

- ya da töhmət və tənə anlamı ifadə etməyən müvəqqəti evlilik və təqiyyə kimi məsələləri bu cür təqdim edəcək.

İnşallah, qarşıda bunların açıqlaması qeyd ediləcək.

* * *

**Müəllif iddia edir: "Gəlin bu rəvayəti birlikdə oxuyaq:**

**Əbu Abdullahdan (r.a): "Peyğəmbər (s) Fatimənin üzünü öpmədən yatmazdı" ("Biharul-ənvar", 43/44).**

**"Peyğəmbər (s) üzünü onun döşləri arasına qoyardı" ("Biharul-ənvar", 43/78)".**

**Cavab:** Müəllifin işarə etdiyi rəvayətlərin sənədi mürsəl olduqları üçün zəifdir. Əllamə Məclisi bunları öz kitabında heç bir sənəd təqdim etmədən nəql edib.

Əgər bunların doğruluğunu fərz etsək belə, burada ədəbə zidd heç bir şey yoxdur. Belə ki, Peyğəmbər (s) onu şəhvət və ya ləzzət məqsədilə deyil, ata məhəbbəti və ehtiram olaraq öpürdü. Bunda heç bir eyib yoxdur.

Döşləri arasına üzünü qoymasına gəldikdə, bu, başını döşlərin üzərinə deyil, boğazının altına - sinəsinin üzərinə qoymasıdır.

Halbuki əhli-sünnənin əksər alimləri atanın öz oğlunun və qızının övrətindən savayı hər bir yerini öpməsini icazəli bilirlər.

İbn Həcər yazır: "İbn Bəttal deyir: "Azyaşlı övladın hər bir üzvünü öpmək icazəlidir. Həmçinin əksər alimlərin nəzərinə əsasən, böyük övladın da övrətindən savayı digər yerlərini öpə bilər. "Mənaqibu Fatimə (ə)"də atasının onu öpdüyü qeyd olunur. Həmçinin Əbu Bəkrin də qızı Aişəni öpdüyü nəql edilib".[243]

* * *

**Müəllif iddia edir: "Fatimə həddi-buluğa yetişmiş bir qızdır, Peyğəmbərin (s) üzünü onun döşləri arasına qoyduğu təsəvvür edilə bilərmi?!"**

**Cavab:** Üzünü onun döşləri arasına qoymasındakı məqsədi yuxarıda izah etdik. Atanın mərhəmət və şəfqətindən başını qızının sinəsinə qoymasında heç bir eyib yoxdur.

Bilmirik ki, müəllif əhli-sünnə mənbələrində Peyğəmbərin (s) qızı Fatiməni (s.ə) öpməsi ilə bağlı rəvayətlərdən xəbərdardır, ya yox?! Bu məzmunda orada rəvayətlər heç də az deyildir.

Muhibbuddin Təbəri "Zəxairul-uqba" kitabında bu mövzuda müxtəlif rəvayətləri nəql edib.

Orada qeyd olunduğuna əsasən, Peyğəmbər (s) onun dodaqlarından öpür və dilini ona toxundururdu.

Aişədən rəvayət olunur: "Dedim: "Ey Allahın elçisi, nə üçün Fatiməni öpəndə sanki bal yalayırmış kimi dilini onun ağzına sürtürsən?" Buyurdu: "Mən meraca qaldırıldıqda Cəbrail məni cənnətə apardı, bir alma verdi və mən onu yedim. Həmin alma mənim belimdə nütfəyə çevrildi. Meracdan qayıtdıqdan sonra Xədicə ilə yaxınlıq etdim. Fatimə həmin nütfədən dünyaya gəldi. Hər dəfə həmin almaya müştaq olanda Fatiməni öpürəm". Bunu Əbu Səd "Şərəfun-nubuvvət" kitabında nəql edib.

---

[243] "Fəthul-Bari", 10/350.

İbn Abbasdan (r.a) rəvayət olunur: “Peyğəmbər (s) Fatiməni çox öpərdi. Aişə ona dedi: “Sən Fatiməni çox öpürsən!” Peyğəmbər (s) buyurdu: “Cəbrail Merac gecəsi məni cənnətə apardı və onun bütün meyvələrindən mənə yedirtdi. Həmin meyvələr sülbümdə suya çevrildi. (Həmin sudan) Xədicə Fatiməyə hamilə qaldı. Mən o meyvələrə şövq duyduqda Fatiməni öpürəm, yediyim həmin meyvələri onun qoxusundan bir daha dadıram”. Əbul-Fəzl ibn Xeyrun bunu nəql edib.

Rəvayət olunur ki, Peyğəmbər döyüşlərə yola düşərkən Fatiməni öpüb gedərdi. Bunu ibn Səriy nəql edib.

Aişədən rəvayət olunur ki, Peyğəmbər (s) bir gün Fatimənin boynundan öpdü. Bunu əl-Hərbi nəql edib. Eləcə də Molla “Siyrə”də rəvayət edərək bunları əlavə edir: “Ona dedim: “Ey Allahın elçisi, indiyədək etmədiyin bir şeyi etdin”. Buyurdu: “Ey Aişə, mən cənnətə şövq duyanda Fatimənin boynundan öpürəm”.[244]

Hakim “əl-Müstədrək”də Səd ibn Malikdən rəvayət edir: “Peyğəmbər (s) buyurdu: “Cəbrail (ə.s) mənə cənnətdən bir heyva gətirdi. Mən Merac gecəsi onu yedim. Ondan da Xədicə Fatiməyə hamilə qaldı. Cənnətin qoxusuna şövq duyanda Fatimənin boynunu qoxulayıram”.[245]

Hakimin rəvayət etdiyi Əbu Sə`ləbədən nəql olunan başqa bir hədisdə isə deyilir: “Peyğəmbər (s) döyüşdən və ya səfərdən qayıtdıqda məscidə gələr, orada iki rükət namaz qılar, sonra Fatiməyə, ardınca da zövcələrinə baş çəkərdi. Qayıtdıqda Fatimə onu evinin qapısında qarşılayar və ağzından öpər...”.[246]

Mənavi “Feyzul-qədir”də yazır: “Fatimə əshabın ən fəzilətlilərindən və bəlağətli şairlərdən idi. Övladları arasından Peyğəmbər (s) üçün ən sevimlisi idi. Onun yanına gəldikdə Peyğəmbər ayağa qalxar və dodağından (ağzından) öpərdi”.[247]

---

[244] “Zəxairul-uqba”, səh.36.

[245] “əl-Müstədrək”, 3/156, Heydərabad çapı, 3/169; “əd-Durrul-mənsur”, 5/218.

[246] “əl-Müstədrək”, 3/156, Heydərabad çapı, 3/169.

[247] “Feyzul-qədir”, 1/105.

Həmçinin yazır: "Peyğəmbər (s) qızı Fatimənin kəkilindən, çox zaman da dodağından öpərdi". Əbu Davud zəif sənədlə "Dilini ilə yalayardı" sözlərini də əlavə edir".[248]

Görəsən, müəllif Peyğəmbərin (s) dilini Fatimənin üzünə sürtməsinə, boynundan öpməsinə və iyləməsinə nə deyəcək?! Onun fikrinə görə, bu icazəlidirmi?

Bunlardan əlavə, əhli-sünnə hədisşünasları Aişə barədə bundan daha nalayiq hərəkətlər rəvayət edirlər. Müəllifin həmin rəvayətlərə niyə göz yumduğunu anlamıram!

Onlardan birini Əbu Davud "Sünən"də, Əhməd "Müsnəd"də, Beyhəqi "əs-Sünənul-kubra"da Aişədən nəql edirlər: "Peyğəmbər (s) oruc halında ikən onu öpür və dilini ona sürtürdü".[249]

Zərqani yazır: "Beyhəqi ondan (Aişədən) rəvayət edir ki, Peyğəmbər (s) oruc halında ikən onu öpər və dilini ona sürtərdi. Burada zövcələr arasında zəruri halda icazəli olan əlaqədən xəbər verilir. Ancaq zərurət olmadığı halda bu qadağandır".[250]

Onlar hətta bundan daha eybəcərini rəvayət edilər. Təbərani "əl-Mö`cəmul-kəbir"də, Ziya əl-Məqdisi "əl-Əhadisul-muxtarə"də və digər kitablarda İbn Abbasdan nəql edirlər: "Peyğəmbər (s) Hüseynin ayaqlarını aralayıb onun kiçik cinsiyyət üzvündən öpdü".[251]

Heysəmi "Məcməuz-zəvaid"də yazır: "Bunu Təbərani rəvayət edib, sənədi həsəndir".[252]

---

[248] "Feyzul-qədir", 5/174.

[249] "Sünən", Əbu Davud, 2/312; "əs-Sünənul-kubra", Beyhəqi, 4/234; "Müsnəd", Əhməd, 6/123, 234.

[250] Zərqaninin Malikin "Muvatta"sına yazdığı şərh, 2/219.

[251] "əl-Əhadisul-muxtarə", 9/555; "əl-Mö`cəmul-kəbir", 3/45, 12/108; "əl-İsabə", 1/611; "Zəxairul-uqba", səh.221; "Siyəru ə`lamin-nübəla", 3/253. Yalnız orada Hüseynin əvəzinə Həsən qeyd olunub.

[252] "Məcməuz-zəvaid", 9/186.

Beyhəqi “əs-Sünənul-kubra”da Əbdürrəhman ibn Əbu Leyladan rəvayət edir: “Peyğəmbərin (s) yanında idik, Həsən gəldi və onun üzərinə sərildi. Peyğəmbər onun köynəyinin ətəyini qaldırıb kiçik cinsiyyət üzvünü öpdü”.[253]

Görəsən müəllif kitablarında nəql olunan bu rəvayətlərə nə deyəcək?!

* * *

**Müəllif iddia edir: “Peyğəmbər (s) və Fatimənin nəsibi budursa, digərlərinin halı necə olar?!**

**Onlar İmam Muhəmməd əl-Qane barədə onun Rzanın, yoxsa ... oğlu olduğuna dair şəkk etmişlər. Gəlin birlikdə həmin mətni oxuyaq:**

**Əli ibn Cəfər əl-Baqirdən (!) rəvayət olunur ki, Rzaya (r.a) deyildi:**

**“Bizim aramızda qətiyyən rəngi dəyişən (üzü qara) imam yoxdur. Rza (r.a) onlara dedi: “O mənim oğlumdur”. Dedilər: “Allahın elçisi qafənin (əlamətləri, bənzərləri və nəsilləri bilən şəxsin) sözünə əsasən hökm edirdi. Bizimlə sənin aranda da qafə (hakim) olsun”. Dedi: “Onun arxasınca özünüz adam göndərin. Mən isə göndərməyəcəyəm. Siz onları tanımırsınız. Onları niyə dəvət etdiyimi bildirməyin. Siz evinizdə olun”.**

**Onlar gəldikdə bizi bostanda əyləşdirdilər. Bibilərini, qardaş və bacılarını sıraya düzdülər. Rzaya (r.a) isə yun cübbə geyindirdilər, başın yun papaq qoydular və boynundan kürək asdılar, dedilər: “Bostana get, sanki sən orada işləyirsən”. Sonra Əbu Cəfəri (r.a.) gətirib dedilər: “Bu oğlanı atasının yanına aparın”. Dedilər: “Onun atası burada yoxdur. Bu şəxs onun atasının əmisi, bu əmisi, bu da bibisidir. Əgər onun burada atası varsa, o, bostanda işləyən şəxsdir. Onun ayaq topuqları eynidir”. Əbul-Həsən qayıtdıqda dedilər: “Bu, onun atasıdır” (“Üsulul-Kafi”, 1/322)”.**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Ravilərdən biri Zəkəriyyə ibn Yəhya ibn Numan əs-Seyrəfidir. O, (halı) məchul şəxsdir və tərcümeyi-hal kitablarında inanılan şəxs olduğu sübuta yetməyib.

---

[253] “əs-Sünənul-kubra”, Beyhəqi, 1/137.

Buna əsasən, rəvayət etibarsızdır, onu dəlil kimi təqdim etmək heç bir halda doğru sayılmaz.

Həmçinin rəvayətdə bir çox cəhətdən müşküllər mövcuddur. Mühəqqiq Xoi (r.s) bu rəvayəti bir neçə cəhətdən rədd edib:

**Birinci:** Sənədi zəifdir.

**İkinci:** Məzhəbin zəruri etiqadlarına ziddir. Belə ki, İmamın (ə) bacı və bibilərini qafənin qarşısına çıxarırlar. Bu isə haramdır və İmam (ə) tərəfindən belə bir addım atılmaz. Bunun zəruriyyətdən doğduğunu və zərurətin də qadağaları aradan qaldırdığını ehtimal versək, bu düşüncə də yanlış olacaq. Belə ki, İmam Cavadın (ə) İmam Rzanın (ə) oğlu olduğunun bilinməsi qadınların orada iştirakından asılı ola bilməz.

**Üçüncü:** İmam Cavadın (ə) onun oğlu olduğunu inkar etməklə İmam Rzaya (ə) qarşı çıxan kəslər əgər İmam Rzanın (ə) imamlığına etiqad bəsləyirdilərsə, oğlu olduğunu bildirdikdən sonra qafə gətirmələrinə ehtiyac duymazdılar”.[254]

* * *

**Müəllif iddia edir: “Onlar Muhəmməd əl-Qanenin (s.ə) Rzanın (r.a) oğlu olduğuna şəkk edirlər. Halbuki Rza (r.a) onun oğlu olduğunda israr edir. Ancaq onlar isə bunu inkar edir və deyirlər: “Bizim aramızda qətiyyən rəngi dəyişən imam olmayıb”. Şübhə yoxdur ki, bu, Rzanın (ə) namusuna qarşı töhmət, qadınına qarşı ittiham və iffəti barədə şəkk etməkdir. Ona görə də gedib qafə gətirirlər. Qafə də Muhəmməd əl-Qanenin Rzanın (r.a) sülbündən gələn oğlu olduğuna hökm verir. Yalnız bu zaman razılaşıb susurlar”.**

**Cavab:** Bu rəvayətin doğru olduğunu fərz etsək, şiələrlə heç bir əlaqəsinin olmadığını, şiələrin İmam Cavadın (ə) İmam Rzanın (ə) oğlu olduğuna şəkk etdiklərinə dəlalət etmədiyini görərik. Necə ki, Seyid Xoidən də (q.s) bunu nəql etdik.

Rəvayətin zahirindən onların haşimilərdən olduğu anlaşılır. Biz haşimilərin məsum, günahsız və ədalətli olduqlarına etiqad bəsləmir, onların bəzilərindən belə hərəkətlərin zahir ola biləcəyini inkar da etmirik. Ata-anadan vərəsəliklə ötürülən

---

[254] “Misbahul-fəqahə”, 2/78.

amillərin uyğunluğuna diqqət yetirməyən kəslərdə belə şəkk yarana bilər. Övladın öz ata-anasının uzaq babalarına bənzəməsi də mümkündür.

Nə bilmək olar, bəlkə də bu şəkk onların qəflət, xəbərsizlik və tələskənliyindən yaranıb. Yaxud da İmama (ə) qarşı ünvanlanan töhmətləri ondan uzaqlaşdırmaq istəyirdilər. Və üzrlü sayıla biləcək bir çox digər nüanslar...

Nəticə olaraq, bu rəvayət əgər doğru sayılsa belə, orada şiələrə qarşı heç bir töhmət yer almır. Çünki ayrı-ayrı şəxslərin və ya imamətə əqidə bəsləməyən kəslərin rəftarları şiələrin etiqadı və dini kimi təqdim edilə bilməz. Bu bəyana ehtiyac duymayan aydın məsələdir.

Möhtərəm oxucunun diqqətinə çatdırmaq istəyirəm ki, onun ləqəblərindən biri sayılsa da şiələr İmam Muhəmməd Cavada (ə) heç vaxt müəllifin dediyi kimi “əl-Qane” demirlər.

* * *

**Müəllif iddia edir: “Başqalarının belə ittihamla üzləşməsi mümkündür. İnsanlar da bunu doğru sayarlar. Ancaq Əhli-Beytin (ə) belə ittiham olunması çox çirkin bir addımdır. Təəssüf ki, Əhli-Beytin elmi ilə dolu olduğunu düşündüyümüz mənbələrimiz belə batil sözlərlə doludur. Allahdan savayı heç bir güc və qüdrət yoxdur!”**

**Cavab:** Qeyd etdiyimiz kimi, şiə mənbələrindəki bütün hədisləri dəlil olaraq götürmək doğru deyildir və şiələr onların səhih olduğuna etiqad bəsləmirlər. Şiə kitablarındakı rəvayətlərin arasında səhih və zəif olanları vardır. Zəif hədislərin heç bir dəyəri yoxdur, onları kənara atmaq və onlara əməl etməmək labüd məsələdir.

Əgər zəif hədisləri qəbul etmək vacib sayılsaydı, o zaman müxaliflərimizi vacib bilmədikləri bir çox məsələdə cavabdeh hesab edər və təsdiqləmədikləri rəvayətləri onların əleyhinə dəlil göstərərdik. Fəqihlik və ictihad iddiaçısının şiə kitablarında rastlaşdığı hər bir zəif və uydurma hədisə görə israrla şiələri cavabdeh tutmasını anlamaq olmur!

* * *

**Müəllif iddia edir: “Hövzədəki tədris dövründə bu hədisləri oxuduğumuz zaman alimlərimiz və mərcələrimiz onların üzərindən ötüb keçərdilər. Bu**

**rəvayəti Xoiyə təqdim etdiyim zaman onun Seyid (!) Ali Kaşiful-Ğitadan nəql etdiyi sözləri hələ də xatırlayıram: “Nəsillərinin saf qalmasını qorumaq üçün bunu etdilər!”.**

**Cavab:** Bu da digərləri kimi müəllifin etibarsız iddialarından biridir. Müəllif əhli-sünnə mənsubu olduğu üçün əhli-sünnənin dini təlim proqramlarında hədis kitablarının öyrənilməsi məşhur olduğu kimi, şiə hövzələrinin tədris proqramında aralarında Kuleynin “əl-Kafi” kitabının da olduğu şiə hədis mənbələrinin öyrənildiyini zənn edir. Halbuki şiə hövzə tədris proqramlarında nə “əl-Kafi” və nə də digər hədis kitabları öyrənilmir.

Tələbə hövzə tədrisinin ilk çağlarından ta ali elmi ictihad dərəcələrinə çatanadək bu rəvayətlərlə yalnız hövzədənkənar mütaliələri zamanı qarşılaşa bilər. Hövzələrdə tədris olunan kitabların siyahısı məlumdur, onların arasında heç bir hədis kitabı yoxdur.

Müəllif əhli-sünnə mənsubu olduğu üçün Kaşiful-Ğitanın Seyid Xoidən daha elmli olduğunu zənn edir. Seyid Xoinin Kaşiful-Ğitanın sözünü nəql etməsi təbii haldır. Lakin o, mühazirə və dərslərində Şeyx Muhəmməd Ali Kaşiful-Ğitanın heç bir sözünü nəql etməyib. Çünki o, şeyxin şagirdi deyildi, əksinə, bir-birinə tay idilər. Əgər müəllif həqiqətən də hövzə tələbəsi olsaydı, bunu bilərdi. Lakin o, hövzə barədə yalnız eşitməklə məlumat toplayıb, hövzədə yaşamayıb ki, oradakı qaydalardan agah olsun. Ona görə də kor şəxs kimi hərəkət etmiş, qaranlıqda korlar kimi addımlamışdır.

* * *

**Müəllif iddia edir: “Rzanı (ə) Məmunun qızına, qızı da ona aşiq olmaqda ittiham edirlər. “Uyunu əxbarir-Rza” kitabına müraciət et (səh.153)”.**

**Cavab:** Müəllif uzun hədisdəki bir cümləyə eyham vurur. Məsələnin həqiqətini anlamaq üçün həmin hədisin tam mətnini burada qeyd etməyin heç bir eybi yoxdur:

“Zür-rəyasəteyn (Məmunun vəziri Fəzl ibn Səhl) Əbul-Həsən Rzaya (ə) qarşı şiddətli ədavət bəsləyirdi və Məmun onu üstün tutduğu üçün həsəd edirdi. Onun ədavətini aşkar etdiyi ilk hadisə Məmunun əmisi qızının onu, onun da həmin qızı sevməsi idi. Qızın otağının qapısı Məmunun məclisinə açılırdı. Onun Əbul-Həsənə

(ə) rəğbəti vardı və onu da sevirdi. Fəzl ibn Səhldən isə acığı gəlir və haqqında xoş sözlər söyləmirdi. Barəsindəki sözləri Fəzlə çatdıqda dedi: “Qadınların otağının qapısının sənin məclisinə açılması yaxşı hal deyildir”. Məmun da həmin qapının başlanmasına göstəriş verdi. Məmun İmam Rzanın (ə) yanına gələr, növbəti gün də Əbul-Həsən Rza (ə) onun yanına gedərdi. Onların mənzilləri də yan-yana idi. Əbul-Həsən (ə) Məmunun yanına gəldikdə qapının tikildiyini görüb dedi: “Ey möminlərin əmiri, bu qapını niyə bağlamısan?” Məmun dedi: “Fəzl bunun bəyənilməyən hal olduğunu düşünür”. İmam (ə) buyurdu: “Biz Allaha məxsusuq və Onun hüzuruna qayıdacağıq! Fəzl möminlərin əmiri ilə yaxınları arasına niyə müdaxilə edir?” Dedi: “Bəs sənin fikrin nədir?” buyurdu: “Fikrim qapının açılması və əminin qızının yanına rahat gedə bilməyin yönündədir. Haqqı çatmayan bir məsələdə Fəzlin sözünü qəbul etmə”. Məmun tikilmiş qapının uçurulmasına göstəriş verdi və əmisi qızının otağına oradan daxil oldu. Fəzl ibn Səhl isə bunu eşidib kədərləndi”.[255]

Aydın məsələdir ki, “Məmunun əmisi qızının onu, onun da həmin qızı sevməsi idi” cümləsindəki “onu” əvəzliyi Məmuna işarə edir. Yəni Məmun əmisinin qızını, o da Məmunu sevirdi. Həmçinin qızın İmam Rzaya (ə) rəğbəti və məhəbbəti vardı. Yəni onu rəğbətlə qarşılayırdı. Buna görə də İmam (ə) qızın otağından onun məclisinə açılan qapının yenidən bərpa edilməsini və əmisi qızı ilə evlənməsini məsləhət görür. Məmun da divarın uçurularaq qapının bərpa edilməsini göstəriş verir və qızın yanına gedir.

Hədisin mənası budur. Ancaq müəllif buradakı şəxs əvəzliyini İmama (ə) şamil edib, “sevir” kəlməsini də “aşiq idi” sözü ilə əvəzləyir. Onun əmanətlə rəftarına diqqət yetirin!

Əgər həqiqətən də İmam Rzanın (ə) Məmunun əmisi qızını sevdiyini və qızın da onu sevdiyini fərz etsək belə, burada İmam (ə) üçün heç bir qəbahət yoxdur. Belə ki, rəvayətlərdə deyildiyi kimi, Allahın elçisi də qadınları sevirdi.

---

[255] “Uyunu əxbarir-Rza (ə)”, 1/165.

Əhməd, Nisai, Hakim, əz-Ziya Məqdisi, Beyhəqi və digərləri kitablarındakı istinadlarla Ənəsdən rəvayət edirlər: "Peyğəmbər (s) buyurdu: "Sizin dünyanızdan mənə qadınlar və ətir sevdirildi, gözümün nuru isə namaz qərar verildi".[256]

Əhli-sünnə alimləri kitablarında Peyğəmbərin (s) Zeyd ibn Harisənin nikahında olan Zeynəb bint Cəhşi sevdiyini rəvayət edir və bunda peyğəmbərlik məqamı ilə heç bir ziddiyyət görmürlər. Bundan daha münasib bir şəraitdə yaranan qarşılıqlı sevginin imamət məqamı ilə hansı ziddiyyəti ola bilər?!

* * *

**Müəllif iddia edir: "Cəfərə isə "Cəfərul-kəzzab" (yalançı Cəfər) ləqəbi vermiş, İmam Həsən Əskərinin qardaşı olmasına rəğmən söymüş və təhqir etmişlər. Kuleyni yazır: "O, açıq-aşkar fasiqlik edən günahkardır, aşkar şərab içməkdən utanmırdı. Kişilərdə gördüyüm az xüsusiyyətlərə sahib idi, özünü rüsvay edir və yüngül aparırdı" ("Üsulul-Kafi", 1/504).**

**Əhli-Beytin (ə) arasında şərabxor, fasiq və günahkarmı vardı?"**

**Cavab:** Bu sözlər həmin dövrlərdə Abbasi xəlifəsinin vəziri olan Əhməd ibn Übeydullah ibn Xaqana məxsusdur, nə Əhli-Beyt imamlarının (ə) və nə də onların şiələrindən birinin sözüdür. Sadəcə Kuleyni bunu həmin fəsildə Hüseyn ibn Muhəmməd əl-Əş`əri və Muhəmməd ibn Yəhyanın rəvayətləri arasında qeyd edib.

Şübhəsiz ki, biz Haşimi oğullarından olan hər kəsin, eləcə də İmamların (ə) övladlarının və ya nəvələrinin hamısının inanılan və etibarlı şəxs olduğunu düşünmürük. Belə ki, inam və etibar nəsil bağlılığına görə deyil, dəlilə əsasən isbatlanır. Etibarı təsdiqlənən hər kəsi inanılan, təsdiqlənməyəni də etibarsız şəxs hesab edirik.

---

[256] "Sünən", Nisai, 7/72, 74; "Səhihu sünənin-Nisai", 3/827; "əl-Müstədrək", 2/174, Heydərabad çapı, 2/160. Hakim hədisi səhih saymış və Zəhəbi də onunla razılaşmışdır. "əl-Əhadisul-muxtarə", 4/428, 5/112, 113; "Müsnəd", Əhməd, 3/128, 199, 285; "əs-Sünənul-kubra", Beyhəqi, 7/78; "əs-Sünənul-kubra", Nisai, 5/280; "Müsnəd", Əbu Yə`la, 3/235, 249; "Mişkatul-məsabih", 3/1448; "əl-Camius-sağir", 1/567.

Allahın müqəddəs kitabı açıq-aydın şəkildə Nuhun (ə) oğlunun yanlış yolda olduğunu və suda boğulanlarla birgə həlak olduğunu qeyd edir. Atasının ulu-əzm peyğəmbərlərdən olması oğlu barədə hökmə təsir etmir. Bizim söhbətimiz isə İmamların (ə) övladları barədədir. Biz onların hamılıqla məsum və etibarlı şəxslər olduğunu iddia etmirik.

İmam Hadinin (ə) oğlu Cəfərin inanılan şəxs olması bizim nəzərimizdə sübuta yetməyib. Əhməd ibn Übeydullah ibn Xaqanın onun şərabxor olduğu iddiasının doğru olub-olmadığını Allah daha yaxşı bilir. Biz dinimizi bilmədiyimiz şeylər üzərində qurmuruq.

* * *

**Müəllif iddia edir: "Əgər daha təfsilatlı məlumatlar əldə etmək istəsək, o zaman bizim mötəbər kitablarımızı oxuyaraq digərləri (ə) haqqında nə söylədiklərini, pak ailə mənsublarının necə və harada qətlə yetirildiklərini öyrənməliyik. Onları qətlə yetirənlər kimlər idi?**

**Onların əksəriyyəti İran şəhərlərinin ətraflarında həmin məntəqələrin əhalisi tərəfindən qətlə yetirilmişdir. Əgər mövzunun uzanmasından qorxmasaydım, onlardan tanıdıqlarımın və onları qətlə yetirənlərin adlarını sadalayardım. Lakin möhtərəm oxucunun İsfahaninin "Məqatilut-talibiyyin" kitabına müraciət etməsini məsləhət görürəm. Həmin kitab bunları bəyan etmək üçün yetərlidir".**

**Cavab:** Müəllifin hər bir iddiasının puçluğunu artıq möhtərəm oxucu bilir. O, iddialarında zəif və mürsəl hədislərə əsaslanır, onların mətnini öz istəyinə uyğun yozur.

Pak nəslin nümayəndələrinin öldürülməsi barədə sözlərinə gəldikdə, məlumdur ki, onları əməvilər, abbasilər və onların əlaltıları qətlə yetiriblər. Onları öldürənlər əsla şiə deyildilər. İran əyalətləri son əsrlərdə şiə olublar. Abbasi və Əməvi xilafətləri dövründə isə şiə deyildilər. İsfahan, Qəzvin, Rey, Qum, Xəvarəzm (Xarəzm) və digər şəhərlərin əhalisi nasibi (Əhli-Beytə düşmən olan) kəslər idilər. Onların qatillərinin həqiqətən şiələr olduğunu isbatlamaq müəllifin üzərində bir haqdır. Lakin necə isbatlasın?! Ona görə də iddialarının heç bir qiyməti yoxdur.

**Müəllif iddia edir: “Bilin ki, ən çox təhqirə, istehza və kobudluğa məruz qalmış imamlar Muhəmməd Baqir və onun oğlu Cəfər Sadiqdir (ə). Təqiyyə, müvəqqəti nikah, qadınlarla livatət (qeyri-təbii yolla yaxınlıq), zövcələrini başqalarına təslim etmək və s. kimi məsələlər ən çox onlara nisbət verilib. Halbuki onların hər ikisi (Allahın salamı onlara olsun!) bütün bunlardan uzaqdırlar”.**

**Cavab:** Qeyd etdiyi məsələlər barədə müəllif qarşıdakı səhifələrdə yazacağına görə, biz də onun iddiaları ilə bağlı cavabları yeri gəldikdə verəcəyik.

Müvəqqəti evlilik və təqiyyə kimi məsələlərin yalnız İmam Baqir (ə) və İmam Sadiqə (ə) nisbət verməsi, şübhəsiz ki, onlara qarşı atılmış bir böhtandır. Belə ki, şiələr Əhli-Beyt imamlarından (ə) səhih istinadlarla müvəqqəti nikahın halal olduğuna dair hədislər rəvayət edirlər. Başqalarının nə dedikləri və onlar barədə nə söylədikləri əsla onları maraqlandırmayıb. İnşallah, bunların açıqlaması qarşıda qeyd olunacaq.

Möhtərəm oxucunun diqqətinə çatdırmaq istəyirəm ki, “livat” kəlməsi qadınlarla qeyri-təbii yolla yaxınlıq edilməsini ifadə etmir, Lut peyğəmbərin (ə) qövmünün əməlinə işarədir. Bu isə kişilərin kişilərlə kifayətlənməsidir.

Həmçinin şiə fəqihləri qadınlarla qeyri-təbii yaxınlığı “livat” kəlməsilə ifadə etmirlər. Fəqihlik və ictihad iddiaçısının düzgün fiqhi kəlmələrdən uzaqlaşıb əhli-sünnənin avam şəxslərinin yanlış ibarələrindən istifadə etməsini anlamaq olmur!

## Müvəqqəti nikah (mütə) və onunla bağlı məsələlər

**Müəllif iddia edir: "Bu fəslin adını "Şiələrin nəzərində qadın" qoymaq istəyirdim. Lakin kitablarımızda nəql olunan rəvayətlərin Peyğəmbərə (s), Əmirəl-mömininə, Əbu Abdullaha (r.a) və digər imamlara nisbət verildiyini gördüyüm üçün fikrimdən daşındım.**

**İmamlara (ə) töhmət vurulmasını istədim. Çünki bu rəvayətlərdə elə qəbahətli sözlər var ki, heç birimiz bizim adımızdan söylənməsinə razı olmarıq. Bəs bunların Peyğəmbərə (s) və imamlara (ə) nisbət verilməsinə necə razı ola bilərik?!**

**Cavab:** Möhtərəm oxucu müəllifin iddialarının nə qədər dəyərsiz olduğunu qarşıda görəcək. Eləcə də müvəqqəti nikahın halal olduğunun Peyğəmbərin (s) və Əhli-Beyt imamlarının (ə) sözləri ilə təsdiqləndiyini, halallığını inkar etməyin isə Allahın, elçisinin (s) və Əhli-Beyt imamlarının (ə) inkarına bərabər olduğunu anlayacaq.

* * *

**Müəllif iddia edir: "Mütə (müvəqqəti nikah) çox mənfur şəkildə istismar olunmuş və qadınlar ən pis formada alçaldılmışlar. Bir çoxları Uca Allahın "*İstifadə etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin!*" ("ən-Nisa", 24) ayəsinə əsaslanıb cinsi istəklərinin təminini din adı altında mütə nikahı ilə örtmüşlər".**

**Cavab:** Həqiqətən də haramlar da, halallar da bəyan olunmuş və açıqlanmışdır. Qarşıda əhli-sünnənin mütə ilə bağlı qeyd edəcəyimiz rəvayətlərinin də dəlalətinə əsasən, mütə qanunu məhz cinsi tələbatı təmin etmək üçün müəyyən edilib. Uca Allahın şəriətlə icazə verdiklərindən sui-istifadə etmək və onların məqsədlərini dəyişmək ilahi qanunlara xələl gətirməz. Belə ki, bir çox nəfsi zəif şəxslər öz dünya mətləblərinə çatmaq üçün namaz və digər ibadətlərdən sui-istifadə edirlər. Şairin dediyi kimi:

*İstədiyi bir iş üçün namaz qılıb oruc tutdu,*

*İstəyini çatdıqdan sonra nə namaz qıldı, nə oruc tutdu.*

İnsanların ibadətdə, şəxsi münasibətlərdə və ya qarşılıqlı davranışlarda yanlış rəftarları ilahi qanunların ləğvi və ya aradan qaldırılması ilə nəticələnə, halalın haram və ya haramın halal elan edilməsinə rəvac verə bilməz.

Müəllifin iddia etdiyi kimi, bəzi nəfsi zəif şəxslərin öz cinsi tələbatlarını təmin etmək üçün müvəqqəti nikahdan sui-istifadə etdiklərini fərz etsək belə, bu, həmin nikahın halallığına əsla xələl gətirməz. Necə ki, bir çox insanın maddi və ya mənəvi məqsədlərinə çatmaq üçün daimi nikahdan sui-istifadəsi əsla bu nikahın halallığına kölgə salmır.

* * *

**Müəllif iddia edir: "Müvəqqəti nikaha təşviq etmək üçün bir çox rəvayətlər nəql olunur, bu işə böyük savablar təyin edilir və onu tərk edəni cəza gözlədiyini deyirlər. Hətta mütə etməyən şəxsi müsəlman saymırlar. Gəlin, birlikdə həmin rəvayətləri oxuyaq.**

**Peyğəmbər (s) buyurur: "İmanlı qadınla mütə edən şəxs sanki Kəbəni yetmiş dəfə ziyarət etmişdir". Məgər mütə edən şəxs Kəbəni yetmiş dəfə ziyarət edən şəxs kimi ola bilərmi? Kiminlə mütə edən? İmanlı qadınlamı?!"**

**Cavab:** Belə bir "hədis" şiə hədis kitablarında mövcud deyil. Müəllifin bu "hədisi" haradan götürdüyü də qaranlıq olaraq qalır. Ehtimal ki, bu onun öz uydurmasıdır və o səbəbdən də "hədisin" mənbəyini qeyd etməyib.

Hətta həqiqətən belə bir hədisin olduğunu fərz etsək, bunda heç bir müşkül yoxdur. Belə ki, sünnəni yaşatmaq və bidəti aradan qaldırmaq cəhətindən mütə etməyin bu cür savaba malik olması mümkündür.

Əhli-sünnə kitablarında buna bənzər rəvayətlər çoxdur. Müslimin "Səhih"ində qeyd olunur ki, "Subhənallah, vəl-həmdu lilləh, və la ilahə illəllah, vəllahu əkbər" kəlməsi günəşin üzərinə işıq saçdığı hər bir şeydən daha sevimlidir.[257]

Həmçinin Allaha yüz dəfə təsbih söyləyən şəxsə min savab yazılar və min günahı pozular.[258]

---

[257] "Səhih", Müslim, 4/2072.

“La ilahə illəllah, vəhdəhu la şərikə ləh, ləhul-mulku və ləhul-həmd, və huvə əla kulli şey`in qədir” zikrini gün ərzində yüz dəfə söyləyən şəxs on qul azad etmiş şəxs qədər savaba malikdir, ona yüz savab yazılar və yüz pisliyi pozular, bu zikr onu həmin gün axşamadək şeytandan qoruyar. Bu əməldən daha fəzilətli başqa bir əməl yalnız bu zikri daha çox söyləməkdir. Kim gün ərzində yüz dəfə “Subhənallahi və bihəmdih” desə, günahları dənizlərin köpükləri qədər olsa belə, silinər.[259]

Əgər bu sadə zikrləri söyləyən şəxsin bu qədər savabı olursa, o zaman bəndələrinə qarşı lütfkar olan səxavətli Allahın sünnənin yaşadılması, bidətin aradan aparılması, (zinadan) özünü və iffətli imanlı qadını qoruması məqsədilə mütə nikahı bağlayan şəxsə belə və ya bundan daha artıq savab verməsi də qeyri-adi olmamalıdır.

Ancaq müəllifin mütə nikahı bağlamayan şəxsin cəzaya layiq olduğu və müsəlman sayılmadığı barədə iddiasına gəldikdə, bu, açıq-aşkar yalandır. Belə ki, şiə fəqihlərindən heç biri mütə nikahının vacibliyinə və müsəlmanlığın şərtlərindən biri olduğuna hökm etməmişlər. Özünün bu iddiasının doğruluğuna müəllifin bir dənə də olsa sübut gətirmədiyini möhtərəm oxucu qarşıda görəcək.

* * *

**Müəllif iddia edir: “Şeyx Səduq Sadiqdən (r.a) rəvayət edir: “Mütə nikahı mənim və ata-babalarımın dinidir. Ona əməl edən şəxs dinimizə riayət etmiş, inkar edən də dinimizi inkar etmiş və başqa bir dinə uyğun davranmışdır” (“Mən la yəhzuruhul-fəqih”, 3/366). Bu sözlər mütə nikahını qəbul etməyən şəxsləri təkfir (kafirlikdə ittiham) etməkdir”.**

**Cavab:** Həmçinin belə bir “hədis” də bizim kitablarımızda, nə “Mən la yəhzuruhul-fəqih” və nə də başqa mənbələrdə mövcud deyildir. Buna bənzər rəvayət yalnız budur: *“Təqiyyə mənim və ata-babalarımın dinidir. Təqiyyəsi olmayanın dini də yoxdur”.*

---

[258] “Səhih”, Müslim, 4/20723

[259] “Səhih”, Müslim, 4/2071.

Fəqihlik və ictihad iddiaçısı olan bir kəsin yalandan hədis uydurmağı və sonra da zülm, sitəm və böhtanla onu şiələrə nisbət verməyi özünə necə rəva bildiyinə diqqət yetirin!!!

Müəllifin iddiasının yalan olduğunun dəlillərindən biri onun hədis uydurması, sonra onu şiəyə nisbət verməsi, ardınca uydurduğu hədisə əsaslanıb hökm çıxarması və bununla da şiələri ittiham etməsidir. Nəticədə şiələrin bu hədisə istinad edərək mütə nikahı bağlamayan şəxsləri küfrdə ittiham etdiklərinə hökm verir. Halbuki şiələr əsla belə bir söz söyləmirlər. Möhtərəm oxucu, dövran səni hələ necə təəccüblü işlərə şahid edəcək!

* * *

**Müəllif iddia edir: "Əbu Abdullaha (r.a) deyildi: "Mütə nikahının savabı varmı?" Dedi: "Əgər bununla Allahın savabını diləyirsə** (və onu inkar edənlərə qarşı çıxırsa)[260]**, söylədiyi hər bir söz müqabilində** (və hər dəfə əlini xanıma uzatdığı zaman) **Allah ona savab yazar. Onunla yaxınlıq etdikdə və həmçinin qüsl aldıqda da tükləri üzərindən axan su miqdarında Allah onun günahlarını bağışlayar" ("Mən la yəhzuruhul-fəqih", 3/366)".**

**Cavab:** Bu hədisin sənədi zəifdir. Ravilər arasında Saleh ibn Üqbə və atası vardır ki, onların hər ikisinin də inanılan şəxs olduqları tərcümeyi-hal kitablarında sübuta yetməyib.

Buna əsasən, hədisi dəlil kimi təqdim etmək doğru deyildir.

Əgər hədisin səhihliyi fərz olunsa, bu da mütə nikahının saysız savab və fəzilətə malik olduğunu isbatlamaz. Belə ki, mütə nikahı bağlanarkən şəxs əlli kəlmədən artıq söz söyləmir və bədəni də başdan-başa tüklərlə örtülü deyil ki, üzərindən su axması ilə o qədər günahı bağışlansın.

Müəllifin buradakı savabı nə üçün belə şişirtdiyini anlamaq olmur!

* * *

---

[260] Müəllif mötərizələr arasında olan ibarələri hədisdən silmiş və kitabında qeyd etməmişdir.

**Müəllif iddia edir: "Peyğəmbər (s) buyurur: "Bir dəfə mütə edən şəxs Cabbar olan Allahın qəzəbindən amanda qalar, iki dəfə mütə edən şəxs əməlisalehlərlə birgə həşr olunar, üç dəfə edən şəxs isə cənnətlərdə mənimlə rəqabət aparar (məni sıxışdırar)" ("Mən la yəhzuruhul-fəqih", 3/366)".**

**Cavab:** Həmçinin bu "hədis" də şiə kitablarında mövcud deyildir. Nə "Mən la yəhzuruhul-fəqih" kitabında və nə də digər kitablarda. Bu da fəqihlik iddiaçısının və hədis uydurmaçısının saxtakarlıqlarından biridir. Qeyd edək ki, bundan öncəki hədis şiə kitablarında olsa da, həmin hədis də müəllifin göstərdiyi mənbədə, cild və səhifədə yoxdur.

Buna əsasən, belə uydurma bir "hədis" barədə söhbəti uzatmaq vaxt tələfindən başqa bir şey deyildir və boş yerə səy göstərməkdir.

* * *

**Müəllif iddia edir: "Deyirəm: Nəcəfdəki hövzə alimləri, eləcə də bütün hüseyniyyələrdə və imamların məqbərələrində olan alimlər bu savaba nail olmaq üçün dəfələrlə mütə nikahı bağlayırlar. Onların arasından Seyid Sədr, Bürucerdi, Şirazi, Qəzvini, Təbatəbai və Seyid Mədəninin, ələlxüsus ulduzu yeni parlayan gənc Əbul-Haris əl-Yasirinin adlarını xüsusilə qeyd etməliyəm. Onların hamısı hər gün dəfələrlə mütə nikahı bağlayır və bununla da həmin böyük savaba nail olmağa və cənnətdə Peyğəmbəri (s) sıxışdırmağa ümid bəsləyirlər".**

**Cavab: "Nəcəfdəki hövzə alimləri, eləcə də bütün hüseyniyyələrdə və imamların məqbərələrində olan alimlər"** sözü şiə bir şəxs tərəfindən əsla dilə gətirilməz. Çünki hüseyniyyə alimləri və ya İmamların (ə) ziyarətgahlarının alimləri kimi bir məfhum mövcud deyildir.

Həmçinin hazırda Bürucerdi, Qəzvini, Təbatəbai[261] və Seyid Mədəni adlı şiə mərcələri yoxdur, eləcə də Əbul-Haris əl-Yasiri adlı bir şəxsin də nə adını eşitmişik və nə də belə bir şəxs tanıyırıq. Böyük ehtimal ki, bu, uydurulmuş bir addır.

---

[261] Hazırkı dövrdə Nəcəfdə Ayətullah Muhəmməd Səid Təbatəbai əl-Həkim adlı mərcə yaşayır. Lakin o, elmli və adi camaat arasında Seyid Təbatəbai kimi deyil,

Hər bir halda, şiə alimlərinin mütə nikahına olan hərisliyi barədə müəllifin iddiaları dəlil və sənədsiz yalanlardan və iftiralardan savayı bir şey deyildir. Bu sözlərindəki məqsədi yalnız şiə alimlərini bədnam etmək və camaatın gözündən salmaqdır.

* * *

**Müəllif iddia edir: "Seyid Fəthullah Kaşani "Minhacus-sadiqin" təfsirində Peyğəmbərdən (s) rəvayət edir: "Bir dəfə mütə nikahı bağlayan şəxs Hüseynlə (r.a), iki dəfə mütə nikahı bağlayan isə Həsənlə (r.a) eyni dərəcədə olar, üç dəfə bağlayanın dərəcəsi Əli ibn Əbu Talibin (r.a) dərəcəsi kimidir. Dörd dəfə mütə nikahına daxil olan şəxsin dərəcəsi isə mənim dərəcəm kimidir".**

**Cavab:** Bu "hədis" də şiə kitablarında mövcud deyil. Ona görə də müəllif ifşa olacağını bilərək mənbənin cild və səhifəsini qeyd etmir.

Buna əsasən, fəqihlik və ictihad iddiaçı olan bu kəsin belə uydurma "hədisləri" barədə söz söyləmək vaxt itkisindən savayı bir şey deyildir.

Əhsən özünün uydurduğu hədislərlə məzhəbini dəyişib sünni olan belə bir müctehidə! Belə bir "alim" əhli-sünnəyə də mübarəkdir!

* * *

**Müəllif iddia edir: "Fərz edək, günahkar bir kəsin dərəcəsi bir dəfə mütə nikahı bağlamaqla Hüseynin (r.a), iki, üç və dörd dəfə ilə Həsənin, Əlinin və Peyğəmbərin (onlara salam olsun!) dərəcələri kimi olacaq? Məgər Peyğəmbər (s) və imamların dərəcələri bu qədərmi dəyərsizdir?!**

**Hətta əgər mütə edən şəxsin imanı nə qədər yüksək də olsa, yenə də dərəcəsi Hüseynin, qardaşının, atasının və ya babasının dərəcəsi kimi ola bilərmi?! Hər hansı bir şəxsin imanı nə qədər yüksək olursa-olsun, Hüseynin məqamı əldə edilməkdən daha uca və daha yüksəkdir. Həmçinin bir kəs nə qədər böyük iman sahibi olsa da, Həsənin, Əlinin və Peyğəmbərin (onlara salam olsun!) məqamı əlçatmazdır".**

---

Seyid Həkim olaraq tanınır. Belə ki, əgər bir kəs ona Təbatəbai deyə işarə etsə, məqsədi məlum olmaz.

**Cavab:** Müəllifin təqdim etdiyi hədisin uydurma və yalan olduğu bilindikdən sonra onun barəsində söz söyləmək vaxt itkisindən savayı bir şey deyildir.

Lakin müəllifin uydurduğu hədisə əsaslanıb söylədiyi iradları Tirmizinin "Sünən"də, Ziya Məqdisinin "əl-Əhadisul-muxtarə", Əhmədin "Müsnəd", Təbəraninin "Mö`cəmul-kəbir" kitablarında Əli ibn Əbu Talibə istinad etdikləri rəvayətlər rədd edir. Belə ki, həmin rəvayətlərə əsasən, Peyğəmbər (s) Həsən və Hüseynin (ə) əlindən tutaraq buyurur: *"Kim məni və bu ikisini, onların atasını və anasını sevərsə, qiyamət günü mənimlə eyni dərəcədə olacaq".*[262]

Əba əhli olan bu beş şəxsi sevən hər bir şəxs, müəllifin qeyd etdiyi kimi, günahkar olsa belə, Peyğəmbərin (s) dərəcəsini əldə edəcək?!

Bu hədisə əsasən, hər bir müsəlmanın dərəcəsi günahkar olub-olmadıqlarından asılı olmayaraq, Peyğəmbərlə (s) eyni olmalıdır. Çünki Həsən və Hüseyni, onların anasını və atasını (onlara salam olsun!) sevməyən müsəlman yoxdur!

Lakin bu, bizim həmin hədisi inkar və ya rədd etdiyimiz anlamına gəlməz. Biz bunu doğru mənalara yozur, məqsədin nemət fərqlilikləri nəzərə alınmaqla eyni cənnət və cənnətdə eyni məkan olduğunu deyirik. Doğrusunu Allah bilir!

* * *

**Müəllif iddia edir: "Hətta Haşimi qadınları ilə mütə nikahı bağlamağı da icazəli biliblər. Necə ki, bunu Tusi "ət-Təhzib"də qeyd edir (2/193).**

**Deyirəm: Haşimi qadınları mütə nikahına daxil olmaqdan daha ucadırlar. Onlar Peyğəmbərin nəsli və Əhli-Beytin nümayəndələridirlər. Onlar belə işlərdən uzaqdırlar! İnşallah, qarşıda bunun səbəbi qeyd olunacaq".**

**Cavab:** Qarşıda, inşallah, mütə nikahının Allah və Peyğəmbər (s) tərəfindən halal buyurulduğu isbatlanacaq. Sübuta yetdikdən sonra, Haşimi qadınlarının daimi nikah bağladıqları kimi, mütə nikahına daxil olmalarının nə qəbahəti olacaq?

Bundan əlavə, Allahın hökmləri hansısa bir dəstəyə məxsus deyildir. Uca Allah bütün insanlara olduğu kimi, peyğəmbərlərə, imamlara və onların oğul və qızlarına da

---

[262] "Sünən", Tirmizi, 5/641. Tirmizi deyir: "Bu, həsən qəribə hədisdir". "əl-Əhadisul-muxtarə", 2/45; "Müsnəd", Əhməd, 1/77; "əl-Möcəmul-kəbir", Təbərani, 3/43.

nikahı halal buyurmuşdur. Nikah (ilahi) bir sünnədir (qanundur), heç birimiz Peyğəmbərin (s) sünnəsindən boyun qaçıra bilmərik.

**Müəllif iddia edir: "Kuleyni bildirir ki, kişi ilə qadın arasında hətta bir cinsi əlaqə üçün müvəqqəti nikah bağlamaq icazəlidir. Bu "Füruul-Kafi"də (5/460) qeyd olunur".**

**Cavab:** Əgər bu, Əhli-Beyt imamları (ə) tərəfindən bəyan edilibsə, onu qəbul etməyin və hökmü çərçivəsində davranmağın heç bir eybi ola bilməz. Nikah halal olduqda bunun bir, ya iki gün və ya ay, yaxud il, bundan daha çox və ya az müddətdə olmasının fərqi yoxdur. Belə bir halda müvəqqəti nikahla daimi nikah eyni hüquqa malikdir. Bir qadınla bir cinsi əlaqə üçün daimi nikah bağlayıb və sonra onu boşadıqda həm nikah və həm də talaq (boşanma) səhihdir. Bu zaman müddətin qısa olması həmin nikahın səhihliyinə heç bir xələl gətirmir.

* * *

**Müəllif iddia edir: "Müvəqqəti nikahda qadının ixtiyarı özündə olan və həddi-buluğa yetişmiş şəxs olması da şərt deyil, onlar yaşı ona çatan hər bir qızla müvəqqəti nikah bağlamağın icazəli olduğunu deyirlər. Buna görə də Kuleyni "Furuul-Kafi"də (5/463) və Tusi "ət-Təhzib"də (7/255) rəvayət edirlər ki, Əbu Abdullaha (r.a) deyildi: "Kişi azyaşlı cariyə ilə müvəqqəti nikah bağlaya bilərmi?" Dedi: "Əgər aldadılması mümkün uşaq deyilsə, bəli". Deyildi: "Aldadılmayacaq yaş həddi hansıdır?" Dedi: "On yaş".**

**Cavab:** Bu cəhətdən müvəqqəti nikahla daimi nikah arasında heç bir fərq yoxdur. Hərçənd əhli-sünnə alimləri altı yaşlı qızla nikah bağlamağı da icazəli bilirlər. Onlar Peyğəmbərin (s) Aişə ilə evləndiyi vaxt Aişənin altı yaşlı qız olduğunu rəvayət edirlər.

Buxari, Müslim, Əbu Davud, Nisai, İbn Macə və digərləri Aişəyə istinadən onun belə dediyini rəvayət edirlər: *"Mən altı yaşlı qız ikən Peyğəmbər (s) mənimlə nikah bağladı və doqquz yaşım olarkən yaxınlıq etdi".*[263]

Nəinki, onların etiqadına əsasən, südəmər körpə ilə də daimi nikah bağlamaq səhihdir. İnşallah, qarşıda bunu qeyd edəcəyik.

Əgər azyaşlı və ya südəmər körpə qızla daimi nikah icazəlidirsə, o zaman onlarla müvəqqəti nikah bağlamağın heç bir maneəsi ola bilməz. Çünki müəyyən istisnalar nəzərə alınmaqla, bu iki nikahın hökmləri eynidir.

* * *

**Müəllif iddia edir: "Qarşıda, inşallah, bütün bunlara iradlar deyiləcək. Ancaq mən indi deyirəm: "Həqiqətən də, on yaşı olan qızla müvəqqəti nikah bağlamağın icazəli olması ilə əlaqədar Əbu Abdullaha (r.a) nisbət verilənlər...(?). Deyirəm: Bəziləri on yaşına yetməyənlə də müvəqqəti nikahın bağlanmasına icazə verirlər".**

**Cavab:** Müəllifin cümləsində aşkar qüsur vardır. "Həqiqətən də" kəlməsilə başlayan cümlənin xəbərinin haraya getdiyi məlum deyildir.

Bəzilərinin on yaşından kiçik qızla müvəqqəti nikah bağlamağın icazəli olduğunu söyləməsində bir müşkülün olmadığını yuxarıda izah etdik, əhli-sünnənin Peyğəmbərin (s) Aişə ilə onun altı yaşı olarkən evləndiyi barədə rəvayətini nəql etdik. Əgər altı yaşı olan azyaşlı qızla daimi nikah icazəlidirsə, o zaman müvəqqəti nikah üçün hansı maneə ola bilər?

* * *

**Müəllif iddia edir: "İmam Xomeyni İraqda yaşadığı dövrlərdə biz onun yanına gedib-gəlir və ondan elm öyrənirdik. Onunla əlaqələrimiz olduqca möhkəm idi. Bir dəfə ona Mosulun qərbində maşınla saat yarımlıq məsafədə**

---

263 "Səhih", Buxari, 3/1189, 1190, 1653, 1654, 1660; "Səhih", Müslim, 2/1038-1039; "Sünən", Əbu Davud, 2/239, 4/284; "Sünən", Nisai, 6/82; "Sünən", İbn Macə, 1/603-604; "Səhih", İbn Hibban, 16/9, 56; "əs-Sünənul-kubra" Beyhəqi, 7/114, 253; "Müsnəd", Əbu Davud Təyalisi, səh.305.

**yerləşən şəhərdən dəvət gəldi. Mənim də onunla birlikdə getməyimi xahiş etdi və mən onunla yola düşdüm...”.**

Ardınca müəllif uzun bir hekayəni nəql edir. Hekayənin ümumi məğzi budur ki, guya Seyid Xomeyni (r.ə) Bağdadda dörd və ya beş yaşlarında olan bir qız uşağı ilə müvəqqəti nikaha girdi.

**Cavab:** Dörd yaşlı qızla müvəqqəti nikaha girmək hekayəsi müəllifin sərsəmləmə və cəfəngiyatından başqa bir şey deyildir, ona görə də hekayəsinə cavab verməyə lüzum görmürük. Müsəlmanlar kənara dursun, biz hətta yəhudilərə nisbət verilən belə cəfəng hekayələri təsdiqləmirik. Belə ki, yaşı yetmişi ötmüş bir ahıl kişi dörd yaşlı qızla nikaha girməyi özünə necə rəva görər?!

Həmçinin bir kişinin gənc qızlarla müvəqqəti nikah bağlamaq imkanı olduğu halda onlara etina etməyərək gecəni dörd yaşı olan, bütün gecə boyu bağırıb ağlayan bir azyaşlı ilə keçirməsini ağıla müvafiq fakt kimi qəbul etmirik. Necə ola bilər ki, azyaşlının çığırtılarını evdə olan hər kəs eşitsin və heç kəs buna əhəmiyyət verməsin?! Belə kəsləri sağlam insanlar sırasına aid etmək mümkün deyildir!

Əgər müəllif baş verməsi mümkün olan bir iftira atsaydı, bəlkə də onun sözlərini təsdiqləmək olardı. Lakin o, özündən baş verməsi mümkün olmayan, yalnız səfeh, axmaq və sərsəmlərin təsdiqləyə biləcəyi hekayələr uydurur!

* * *

**Müəllif iddia edir: “İmam Xomeyni südəmər körpə ilə də müvəqqəti nikah bağlamağı icazəli bilirdi. Deyir: “Südəmər körpəni qucaqlamaq, təfxiz (cinsi aləti budları arasına qoymaq) və öpməyin eybi yoxdur” Bax: “Təhrirul-vəsilə” kitabı, 2/241, məsələ 12”.**

**Cavab:** “Təhrirul-vəsilə” kitabında belə bir cümlə yoxdur. Qeyd edilən məsələnin mətni belədir:

“Məsələ 12: Doqquz yaşı tamamlanmadan istər daimi və istər müvəqqəti nikahda olan zövcə ilə (həyat yoldaşı ilə) cinsi əlaqədə olmaq icazəli deyildir. Ancaq həyat yoldaşı hətta südəmər körpə olsa belə, ona şəhvətlə toxunmaq, qucaqlamaq və budları arasına aləti sürtmək kimi digər ləzzətləri aparmağın eybi yoxdur...”.

Aydın olduğu kimi, müəllifin sözləri fətvanın mətninin təhrifidir. Öz məqsədlərinə çatmaq üçün hədis uyduran, fətva və hökmləri təhrif edən belə bir "ictihad sahibinə" halal olsun!!! Belə olduqda, onun sözünə necə inanmaq və verdiyi xəbərlərin doğruluğuna necə etibar etmək olar?!

Fətvadakı məqsəd doqquz yaşını tamamlamamış həyat yoldaşı ilə cinsi yaxınlığın icazəli olmaması barədədir, istər bu zövcə daimi, istərsə də müvəqqəti nikahda olsun. Belə ki, doqquz yaşı olmayan qızla cinsi əlaqənin qadağan olması barədə qəti dəlillər vardır. Hələbinin nəql etdiyi səhih hədisdə İmam Sadiq (ə) buyurur: *"Azyaşlı cariyəsi ilə evlənən şəxs qızın doqquz yaşı tamamlanmadıqca onunla cinsi əlaqədə ola bilməz".*[264]

Ancaq zövcədən ümumən ləzzət aparmağın icazəli olmasına dəlalət edən dəlillərə əsasən, digər ləzzətləri almaq icazəlidir, rəvayətdə cinsi əlaqənin xüsusilə qeyd edilməsi isə yalnız onu haram qılır.

Fiqh kitablarında bu hökm vəziyyətin həqiqətən həyatda baş verib-verməməsinə görə deyil, fərz olunmasına əsasən qeyd edilir. Onun baş verib-verməməsi isə başqa bir məsələdir. Belə ki, ağlı başında və ya normal bir şəxsin südəmər körpədən ləzzət apardığını biz əsla eşitməmişik. Lakin südəmər körpənin kiminsə zövcəsi olduğu fərz edilsə, şəxs də ona şəhvətlə toxunsa və ya öpsə, bu onun ərinə icazəli, cinsi əlaqə isə haramdır. Südəmər körpənin kiminsə həyat yoldaşı olduğunu bəs siz eşitmisinizmi?!

Gizli deyil ki, fətvadakı hökm doqquz yaşı tamamlanmamış azyaşlı qızla müvəqqəti nikah bağlamaqla deyil, ondan aparılan ləzzətlə bağlıdır. Fərz olunan məsələ daimi nikah bağlanmış azyaşlı ilə cinsi əlaqə və ondan ləzzət aparmaqdır ki, bunların icazəli olub-olmadığı açıqlanır.

Əgər müəllif azyaşlı və ya südəmərdən ləzzət aparmağı mənfur iş hesab edirsə, o zaman əhli-sünnə alimlərinin öz kitablarında bu cür və bundan daha iyrənc fətvalar verdiklərinə göz yummamalıdır.

Azyaşlı ilə evlənməyin icazəli olduğunu ən-Nəvəvi "Rovzətut-talibin" kitabında qeyd edərək yazır:

---

[264] "Vəsailuş-şiə", 14/70.

“İkinci: Müəyyən bir şeyi, məsələn ağacları meyvələrindən, heyvanları südündən, yunundan, tükündən və ya yumurtasından istifadə üçün, həmçinin ev və yer kimi mənfəət verən şeyləri vəqf etmək (bağışlamaq) icazəlidir. Həmin şeylərin fayda və mənfəətinin həmin anda əldə olunması şərt deyildir. Nəinki, hətta qulu, quzu və çəpişi, xəstəliyi müəyyən müddətdən sonra aradan gedəcək canlını vəqf etmək, südəmərlə nikah icazəli olduğu kimi, icazəlidir”.[265]

“əl-Məbsut” kitabında əs-Sərəxsi yazır: “Əqdin bağlanması üçün azacıq kənar mənfəətin olması kifayətdir. Necə ki, südəmərlə evlənsə, nikah düzgündür. Bu etibarla ki, əqd onun gələcəkdə olan qabiliyyətinə görə bağlanır. Bu, halal bir mülkdür. Zamanında əmələ gələcək”.[266]

Azyaşlıdan ləzzət aparmağa gəldikdə, İbn Qüdamə “əl-Muğni” kitabında yazır:

“Cinsi yaxınlıq edilməyəcək həddə olan azyaşlıya[267] gəldikdə, əl-Xirəqinin sözünün zahiri onun istibradan (paklanmadan) öncə şəhvətlə öpülməsinin və yaxınlıq edilməsinin haram olduğuna dəlalət edir.[268] Əhmədin sözündən aydın olan da budur. Ondan nəql edilən bir çox rəvayətdə deyilir: “Beşikdə olsa belə, istibra olunur”.[269] Yenə ondan rəvayət olunur: “Azyaşlı və ya südəmər olsa, necə istibra edəcək?” Başqa rəvayət deyir: “Heyz görəndirsə, heyz vasitəsilə istibra edəcək, əks təqdirdə, əgər cinsi əlaqə edilən və hamilə qalma qabiliyyətindədirsə, üç ay iddə saxlamaqla istibra olmalıdır”. Aydın olan budur ki, onun istibrası vacib və cinsi əlaqəsi də haram

---

[265] “Rovzətut-talibin”, 5/314.

[266] “əl-Məbsut”, əs-Sərəxsi, 15/109.

[267] Yəni, doqquz yaşından aşağı olan azyaşlı, yaxud bir yaşlı südəmər. Qarşıda Əhmədin bir çox rəvayətlərində bu sözün beşikdə olan südəmərə də şamil edildiyini görəcəyik.

[268] Deməк, istibradan sonra şəhvətlə öpmək, toxunmaq və yaxınlıq etmək haram deyildir.

[269] Bu, Əhməd ibn Hənbəlin ən gülməli fətvalarındandır. Hamiləlik qabiliyyəti olmayan beşikdəki bir südəmər körpə necə istibra olunur? Məgər istibra yalnız hamilə olmadığını təsdiqləmək üçündür?

deyildir.[270] İbn Əbu Musanın üstün bildiyi fikir və Malikin sözü də budur. Doğrusu da məhz budur.[271] Çünki mübahlığın (icazəliliyin) səbəbi gerçəkləşmişdir[272] və haramlığına heç bir dəlil yoxdur. Çünki bu barədə nə bir qəti dəlil və nə də bu mənada bir söz vardır.[273] Belə ki, yetkin yaşlı qadınla yaxınlıq etməyin haramlığı yalnız əlaqənin haram olmasından (yəni nikahın olmamasından), yaxud başqasının ümmü-vələdi (başqa birindən övladı olan kölə) olma qorxusundan irəli gəlir.[274] Burada isə bunların heç biri yoxdur.[275] Ona görə də mübahlıqdan doğan hökmlərə əsasən rəftar edilməlidir".[276]

ən-Nəvəvi Müslimin "Səhih"inin şərhində yazır: "Azyaşlı ilə evlənməyin və onunla cinsi yaxınlığın vaxtına gəldikdə, əgər ərlə azyaşlının vəlisi (hamisi) azyaşlıya

---

[270] Yəni, südəmərin istibrası vacib deyildir. Həmçinin onunla cinsi əlaqə də haram sayılmır. Çünki o, heyz görən, eləcə də cinsi yaxınlıqdan sonra hamilə qalacaq qadınlardan deyil.

[271] Yəni, istibra olmadan südəmər körpəni şəhvətlə öpməyin və yaxınlıq etməyin icazəli olması İbn Əbu Musa və Malik ibn Ənəsin sözüdür. İbn Qüdamənin də üstün tutduğu fikir budur.

[272] Bu, istibradan əvvəl südəmər körpə ilə yaxınlığın haram olmadığına göstərilən səbəbdir. Onunla cinsi əlaqənin, şəhvətlə öpülmənin icazəli olması artıq gerçəkləşmişdir. Bunu gerçəkləşdirən amil - əgər zövcədirsə, onunla bağlanan əqddir, əgər südəmər kölədirsə, üzərindəki mülkiyyət hüququdur.

[273] Yəni, südəmərin şəhvətlə öpülməsinin və onunla yaxınlığın haram olduğuna dair heç bir dəlil, açıq mətn və ya mətndən istifadə ediləcək məna yoxdur.

[274] Yetkin yaşlı qadınla yaxınlığın haramlığı, onunla istibradan öncə yaxınlığın haram olduğuna, yaxud başqasından hamilə olduğuna görədir. Bununla da başqa birindən övlad sahibi olur. Başqasından övlad gözləyənlə yaxınlıq etmək isə haramdır.

[275] Yəni, südəmər barəsində istibrasız haram cinsi əlaqəyə düşmək qorxusu və ya başqa birindən uşaq gözləmək ehtimalı yoxdur.

[276] "əl-Muğni", İbn Qüdamə, 9/160.

bir zərərin olmayacağı hansısa bir əmələ dair razılığa gəlsələr,[277] bunlar baş verə bilər. Yox, əgər həmfikir olmasalar,[278] Əhməd və Əbu Übeyd deyirlər: “Doqquz yaşlı qız buna məcbur edilər”. Malik, Şafei və Əbu Hənifə isə deyirlər: “Bunun həddi azyaşlının cinsi əlaqəyə taqətinin olmasıdır”.[279] Bu isə qızların vəziyyətinə görə fərqli ola bilər və hər hansı bir yaşla məhdudlaşmır.[280] Doğru olan da məhz budur”.[281]

Beləliklə, bu fətvaya əsasən, ərlə azyaşlının vəlisinin (hamisi) cinsi yaxınlıq olmadan südəmərdən digər ləzzətlərin aparılmasına dair razılığa gəlmələri icazəlidir. Belə ki, vəli azyaşlıya bir zərərin toxunmayacağını düşünsə, ər azyaşlını şəhvətlə öpə, qucaqlaya və alətini budları arasına qoya bilər.

Malikin, Şafei və Əbu Hənifənin fətvasına əsasən, yaşı iki və ya üç olan südəmər uşaq əgər cinsi əlaqəyə tab gətirə bilərsə, şəhvətlə toxunmaq və ya aləti budları arasına qoymaqdan əlavə, onunla cinsi yaxınlıq etmək də icazəlidir.

* * *

---

[277] Necə ki, ərin onunla cinsi yaxınlıq etməməsi barədə razılığa gəlmiş olsalar. Bu zaman azyaşlıdan yalnız ona zərəri olmayacaq şəhvətlə öpmək, cinsi aləti budları arasına qoymaq və s. kimi ləzzətlər ala bilər.

[278] Belə ki, ər onunla cinsi yaxınlıq etmək istəsin, azyaşlının vəlisi isə yalnız bundan savayı ləzzətlərin alınmasına icazə versin.

[279] Nəticədə, əgər azyaşlının yaşı hətta iki və ya üç olsa belə, cinsi əlaqəyə tab gətirə bilərsə, ərin onunla əlaqəyə girməsi icazəlidir.

[280] Yəni, azyaşlının cinsi əlaqəyə taqəti olacaq yaşını müəyyənləşdirmək mümkün deyildir. Belə ki, məsələn, bəzən azyaşlı kök və tosqun olmasına, yaxud ərin cinsiyyət üzvünün kiçikliyinə görə buna tab gətirə bilər. Bəzən isə yaşının daha artıq olmasına rəğmən, cüssə baxımından cılızlığı və ya ərin cinsiyyət üzvünün böyüklüyü səbəbindən buna taqəti olmaya bilər.

[281] ən-Nəvəvinin Müslimin “Səhih”inə yazdığı şərh, (“Şərhun-Nəvəvi əla səhihi Muslim”) 9/206.

**Müəllif iddia edir: “Bir dəfə İmam Xoinin ofisində onun yanında idim. Yanımıza hansısa bir məsələ barədə ixtilafa düşdükləri görünən iki gənc gəldi. Onlar İmam Xoinin yanına gələrək cavab almağa dair razılaşmışdılar.**

**Onlardan biri soruşdu: “Seyid, mütə nikahı barədə fikriniz nədir? Bu, halal, yoxsa haramdır?...”**

Sonra müəllif uzun bir hekayə nəql edir ki, məzmununa əsasən, sual soruşan gənc Mosuldan olan bir əhli-sünnə mənsubu idi. Seyid Xoi ona bu nikahın halal olduğunu bildirdikdə, həmin gənc Seyiddən qızının onunla müvəqqəti nikah bağlamasını istədi. Seyid isə ona belə cavab verdi: “Mən seyidəm, bu (nikah) seyidlərlə haram, digər şiələrlə isə halaldır”.

O, təbəssüm edərək Seyid Xoiyə baxdı. Görünüşündən Seyid Xoinin təqiyyə etdiyini anladığı sezilirdi.

Hekayənin davamında: gənclər oradan (Seyidin ofisindən) ayrıldıqda kitabın müəllifi gedib onlara yetişir, şiə gəncin alimlərin mütə nikahını özləri üçün halal, digərlərinə isə haram etdiklərinə görə onları söydüyünü və lənətlədiyini eşidir.

**Cavab:** Bu hekayə də digərləri kimi, heç bir səhih dəlilə əsaslanmayan uydurmalardan biridir. Bunun uydurma olduğunun dəlili nəqllərinə əsla etibar edilməyən bu müəllif tərəfindən söylənməsidir.

Hekayənin uydurma və yalan olduğunu başqa bir dəlili, müəllifin iddia və zənn etdiyi kimi, Seyid Xoinin Nəcəful-Əşrəf şəhərində insanları qəbul etdiyi heç bir ofisinin olmamasıdır. Belə ki, o, camaatı Həyyul-İmarədəki evində qəbul edirdi.

Həmçinin müəllif nə üçün o iki gəncin ardınca çölə çıxdığını və onlara çatdığını oxuculara açıqlamır. Belə ki, bunun səbəbi öz uydurma hekayəsini təsirli sonluqla bitirməkdən savayı başqa bir şey deyil.

Seyid Xoinin (q.s) təqiyyə etdiyini anlaması da gülməli iddiadır. Seyid özünün fiqhi kitab və fətvalarında açıq-aydın bəyan etdiyi bir məsələ barədə mosullu sünni gəncin qarşısında necə təqiyyə edər?!

Müəllifin Seyidin “Mütə nikahı seyidlərlə haram, digər şiələrlə isə halaldır” dediyi iddiasına gəldikdə, bunun da puç bir iddia olduğu məlumdur. Nəinki, bu, açıq-

aşkar bir böhtandır. Belə ki, Seyid Xoi (q.s) və bütün şiə alimləri müvəqqəti nikahın iddia edilən bu istisna olmadan, mütləq şəkildə halal olduğuna fətva verirlər.

Məlumdur ki, bir çox əhli-sünnə mənsubu şiələrə qarşı müəllifin mosullu gənc adından ortaya atdığı iddia ilə etiraz edir, bununla şiələri cavabsız qoyduqlarını və susdurduqlarını zənn edirlər. Bu, bəzi rəvayətlərdə də rast gəlinən köhnə bir iddiadır.

Zürarədən nəql olunan səhih hədisdə deyilir: *"Abdullah ibn Ümeyr əl-Leysi İmam Əbu Cəfər Baqirin (ə) yanına gəlib dedi: "Qadınlarla müvəqqəti nikah barədə fikrin nədir?" İmam (ə) buyurdu: "Allah Öz kitabında və Peyğəmbərinin (s) dililə bunu halal buyurmuşdur ki, bu da qiyamətədək halaldır". Dedi: "Ey Əbu Cəfər, sənin kimi bir şəxs bu sözləri söyləyir?! Məgər Ömər onu haram edərək, insanları çəkindirmədimi?!" Buyurdu: "Etmiş olsa, belə (halaldır)". Dedi: "Ömərin haram etdiyi bir şeyi halal bilməkdən Allaha sığın!" Deyir: "İmam (ə) buyurdu: "Sən öz dostunun, mən də Allahın elçisinin (s) sözünə bağlı qalıram. Gəl səninlə bu sözün Peyğəmbərin sözü olduğuna və dostunun sözünün isə batil olduğuna dair lənətləşək!" Abdullah ibn Ümeyr dedi: "Qadınlarının, qızlarının, bacılarının və əmin qızlarının mütə nikahı bağlaması səni sevindirərmi?" Deyir: "O, qadınlarını və əmisi qızlarını yad etdikdə Əbu Cəfər (ə) onunla söhbətdən imtina etdi".*[282]

Belə bir sual verən şəxsin cavabı bəzən inkar, bəzən də icazəli olur.

İnkara gəldikdə, məsələn deyilir: qızını və ya bacını, əminin və ya xalanın qızlarını mənimlə daimi nikahla evləndirərsənmi? Belə ki, dörd qadınla eyni zamanda evlilik həm sizin, həm də bizim nəzərimizdə icazəlidir, sənin ailəndən və məhrəmlərindən dörd qadınla eyni vaxta evlənməyimin bir maneəsi varmı?

Əgər cavab versə ki, mən rafiziyə (ilk üç xəlifəni qəbul etməyənə) qız verməərəm, mütə nikahına dair iddiasına da eyni cavabı verər və "bir əhli-sünnə mənsubuna istər daimi, istər müvəqqəti nikahla olsun, qız verməyə məcbur deyilik" deyərik. Yox əgər "razıyam" desə, bunu yerinə yetirməsini ondan tələb edərik.

---

[282] "əl-Kafi", 5/149; "Təhzibul-əhkam", 7/250; "Vəsailuş-şiə", 14/437.

Necə ki, başqa bir inkar da bunu batil edir. Belə ki, deyilər: “Öz qızını daimi nikahla, cüzi mehr qarşılığında xəstə, fəqir, xəsis, alçaq, qoca və üç arvadı olan bir kəslə evləndirərsənmi?

Əgər “xeyr” deyə cavab versə, deyərik: Allahın halal buyurduğuna niyə razı deyilsən? Əgər “bəli” desə, o zaman bunu yerinə yetirməsini tələb edərik.

İcazəli cavab isə budur: Deyilə bilər ki, hətta şiə olsa və daimi nikah üçün elçi gəlmiş olsa belə, hər kəsə qız verilməz. Şəriətin evliliyinə icazə verdiyi hər kəsi biz öz qızlarımız və bacılarımız üçün layiqli ər hesab etmirik. Həmçinin boşanma da icazəlidir. Lakin qızlarımızın və bacılarımızın boşanması bizə xoş gəlmir. Dörd qadınla evlənmək də icazəlidir, buna rəğmən onların 2, 3 və ya 4-cü qadın olmalarını da istəmirik. Atanın vəfatından və ya talağından sonra ananın evlənməsinə də icazə verilir. Lakin oğullar buna razı olmurlar. Xəstənin, qocanın, xəsisin və pis əxlaqlı şəxsin də evliliyi icazəlidir. Lakin heç kəs öz qızı və ya bacısı üçün belə bir ər arzulamaz. Nikahda bu tip icazəli, lakin insana xoş gəlməyən nüanslar çoxdur.

Qeyd etdiklərimizdən aydın olur ki, qızının daimi nikahla evlənməsi mümkün olduğu təqdirdə, heç kəs onun müvəqqəti nikahla evlənməsinə razı olmaz. Şübhəsiz ki, daimi nikah onun üçün müvəqqəti evlilikdən daha xeyirlidir. Çünki müvəqqəti nikahdan fərqli olaraq, daimi nikahda ərin üzərində yaşayış xərcləri və məskən kimi vacib tələblər, həmçinin vəfat edən ərdən miras aparmaq kimi imkanlar vardır. Lakin mütə nikahında bunların heç biri yoxdur.

Bəli, əgər qadın azyaşlı uşaqlara sahibdirsə, özünün və övladlarının güzəranını təmin edəcək bir adamı da yoxdursa, yaxud harama düşəcəyindən qorxursa, o zaman heç bir ata qızının təqvalı və əxlaqlı mömin bir şəxslə müvəqqəti evlənməsinə, onu və övladlarını himayə etməsinə əsla qarşı çıxmaz.

* * *

**Müəllif iddia edir: “Mütə nikahı cahiliyyə dövründə mübah (icazəli) bir əməl idi. İslam gəldikdən sonra bir müddət həmin hökm qüvvədə qaldı, Xeybər savaşı günü isə haram edildi. Lakin şiələrin, eləcə də şiə fəqihlərinin əksəriyyətinin nəzərinə əsasən, bunu haram edən Ömər ibn Xəttabdır. Bunu fəqihlərin bir hissəsi də deyir”.**

**Cavab:** Müvəqqəti evliliyin cahiliyyə dövründə əqd, iddə, mehr, vaxt təyini və s. kimi özünün müəyyən şərtləri və əhkamı ilə həmin dövrə aid nikahlardan olduğuna heç bir dəlil yoxdur. Belə ki, cahiliyə nikahlarında belə hökmlər mövcud deyildi.

Bir çox səhih rəvayətlərdə bu nikahı əshabı üçün məhz Peyğəmbərin (s) mübah qıldığı və bəzi savaşlarda buna icazə verdiyi qeyd olunur.

Müslim "Səhih"ində Qeysdən rəvayət edir: "Abdullahın[283] belə dediyini eşitdim: *"Peyğəmbərlə birlikdə cihada getdiyimiz vaxtlarda qadınlarımız yanımızda olmurdu. Bir gün dedik: "Ya Peyğəmbər! (Həyat yoldaşlarımızdan uzaq olduğumuza görə) özümüzü axtalayaqmı?" Peyğəmbər bizi bu işdən çəkindirdi. Sonra bizə bir paltar qarşılığında qadınlarla müvəqqəti nikah bağlamağa icazə verdi". Ardınca Abdullah bu ayəni oxudu:* ***"Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri (özünüzə) haram etməyin və həddi də aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!"*** ("əl-Maidə", 87).

Həmçinin Müslim Cabir ibn Abdullahdan və Sələmə ibn Əkvə`dən rəvayət edir: *"Peyğəmbərin (s) carçısı camaatın önünə çıxıb dedi: "Peyğəmbər (s) sizə mütə etməyə icazə verdi". Yəni qadınlarla müvəqqəti evlənməyə".*

Yenə də Sələmə ibn Əkv`ə və Cabir ibn Abdullaha istinadən rəvayət edir ki, Peyğəmbər (s) onların yanına gələrək mütə nikahı bağlamalarına izn verdi.

Rəbi` ibn Səburədən rəvayət olunur ki, onun atası Peyğəmbərlə (s) birlikdə Məkkənin fəth edildiyi savaşda iştirak edirdi. Atası deyir: *"Biz orada on beş gün qaldıq. Peyğəmbər (s) bizə qadınlarla mütə etməyə izn verdi...".*[284]

Bu və digər hədislər mütə nikahına icazə verən şəxsin məhz Peyğəmbər (s) olduğuna dəlalət edir. Əgər mütə nikahı cahiliyyə dövründəki evliliklərdən və İslamın ilk günlərindən etibarən müsəlmanlar üçün icazəli olsaydı, o zaman səhabələr Peyğəmbərə (s) *"Özümüzü axtalayaqmı?"* deyə sual verməzdilər.

---

[283] ət-Təhavi bu hədisi "Şərhu məanil-asar"da (3/24) Abdullah ibn Məsuddan nəql edir. Müslimin hədisindəki Abdullah da məhz odur.

[284] "Səhih", Müslim, 2/1022-1025.

Ömərin mütə nikahını haram etdiyinə dəlalət edən hədislərə gəldikdə, Müslim öz "Səhih"ində Əbu Zübeyrdən rəvayət edir: *"Cabir ibn Abdullahın belə dediyini eşitdim: "Peyğəmbərin (s) və Əbu Bəkrin (hakimiyyəti) dövründə bir ovuc xurma və ya un qarşılığında mütə edirdik. Ta ki, Ömər Əmr ibn Hüreysə görə bunu qadağan etdi".*

Həmçinin Əbu Nəzrəyə istinadən nəql edir: "*Cabir ibn Abdullahın yanında idim. Bir şəxs gəlib ona dedi: "İbn Abbasla Zübeyrin oğlu iki mütə barədə mübahisə edirlər". Cabir dedi: "Peyğəmbərin (s) zamanında biz hər iki mütəni edirdik, sonra Ömər onların ikisini də qadağan etdi, biz də bir daha etmədik".*[285]

Əhməd ibn Hənbəl Cabirin belə dediyini rəvayət edir: *"Peyğəmbərin (s) zamanında iki mütə vardı ki, Ömər (r.a) onları qadağan etdi və biz də onlardan çəkindik".*[286]

Cabir ibn Abdullahdan nəql olunan digər bir rəvayətdə isə deyilir: *"Peyğəmbərin (s) zamanında iki mütədən – həcc və qadınlarla evlilik mütələrindən istifadə edirdik. Ömər bunu bizə qadağan etdi və biz də bundan çəkindik".*[287]

Beyhəqi "əs-Sünənul-kubra"da, eləcə də başqaları Əbu Nəzrədən, o da Cabirdən (r.a) nəql edir: *"Peyğəmbər (s) və Əbu Bəkrin zamanında mütə edirdik. Ömər xəlifə olduqda camaata xitab edərək dedi: "Allahın elçisi həmin elçisidir, Quran da bu Qurandır. Peyğəmbərin (s) zamanında iki mütə vardı ki, mən onları qadağan edirəm və bu işi görənləri cəzalandıracağam. Onlardan biri qadınların mütə edilməsidir. Kimin bir qadınla müəyyən müddətə evləndiyindən xəbər tutsam, onu daşqalaq edəcəyəm. Digəri isə həcc mütəsidir. Həcci ümrədən ayırın, onları ayrı-ayrılıqda tamamlayın".*[288]

Səid ibn Mənsur "Müsnəd"ində Əbu Qəlabədən rəvayət edir: *"Ömər ibn Xəttab (r.a) dedi: "Peyğəmbərin (s) zamanında iki mütə vardı ki, mən onları qadağan*

---

[285] "Səhih", Müslim, 2/1023.

[286] "Müsnəd", Əhməd, 3/325; "Əhkamul-Quran", əl-Cəssas, 2/152.

[287] "Müsnəd", Əhməd, 3/365; Həmçinin yaxın kəlmələrlə 3/363.

[288] "əs-Sünənul-kubra", Beyhəqi, 7/206.

*edirəm və bu işi görənləri cəzalandıracağam. Onlardan biri qadınların, digəri isə həcc mütəsidir”.*[289]

əs-Sərəxsi “əl-Məbsut”da yazır: “Ömərin camaata mütəni qadağan etdiyi doğrudur. O demişdi: *“Peyğəmbərin (s) zamanında iki mütə vardı ki, mən onları qadağan edirəm: qadınlarla mütə və həcc mütəsi”.*[290]

Bu rəvayətlər aydın şəkildə mətləbə dəlalət edir, Ömərin bu qadağanı özünə nisbət verdiyini, bu iki mütənin Peyğəmbər (s) zamanında mövcud olduğuna özünün şahidlik etdiyini göstərir.

Peyğəmbər (s) dövründə mütənin halal olduğuna dair şahidliyi bizə, qadağası isə özünə kifayətdir!

Əbdürrəzzaq “əl-Müsənnəf”də və ət-Təhavi “Şərhu məanil-asar”da Ətadan rəvayət edirlər: İbn Abbasın belə dediyini eşitdim: *“Allah Ömərə rəhm eləsin! Allah tərəfindən mütə nikahının icazəli olduğu müddətdə Allah Muhəmmədin (s) ümmətinə onunla rəhm edirdi. Əgər Ömər bunu qadağan etməsəydi, bədbəxtdən başqası zinaya düçar olmazdı”.* Deyir: “Allaha and olsun ki, mən sanki hələ də onun “bədbəxtdən başqası” sözünü eşidirəm”.[291]

İbn Cərihdən rəvayət olunur: “Sözünü təsdiqləyəcəyim bir kəs mənə bildirib ki, Əli Kufədə belə demişdir: *“Əgər Ömər ibn Xəttabın məlum rəyi olmasaydı”* və ya belə demişdir: *“Xəttabın oğlunun rəyi olmasaydı, mütəyə icazə verərdim. Bundan sonra isə bədbəxtdən başqası zina etməzdi”.*[292]

---

289 “əs-Sünən”, Səid ibn Mənsur, səh.252. Həmçinin bax: “Müsnəd”, Əhməd ibn Hənbəl, 1/52; “Şərhu məanil-asar”, 2/144, 146; “Kənzul-ümmal”, 16/519, 521; “Əhkamul-Qu`ran”, əl-Cəssas, 1/290, 291, 293, 2/152, 3/239; “Təfsir”, əl-Qurtubi, 2/392; “əl-İləlul-varidətu fil-əhadisin-nəbəviyyəh”, əd-Darəqutni, 2/156; “Təzkirətul-huffaz”, 1/366; “Bidayətul-muctəhid”, 2/121.

290 “əl-Məbsut”, 4/27.

291 “əl-Müsənnəf”, Əbdürrəzzaq, 7/499, digər çap: 7/399; “Şərhu məanil-asar”, 3/26.

292 “əl-Müsənnəf”, Əbdürrəzzaq, 7/499, digər çap: 7/399.

İbn Hibban "Səhih"ində Xalid ibn Düreykdən rəvayət edir ki, Mütərrif İmran ibn Həsinə baş çəkdikdə İmran ona dedi: *"Mən sənə bir söz söyləyəcəyəm, əgər bu xəstəliyimdən sağalsam, onu heç kəsə söyləmə, yox, əgər dünyadan köçsəm, istədiyin yerdə danış. Biz Peyğəmbərin (s) zamanında qadınlarla mütə edirdik. O, dünyadan köçənədək bizə bunu qadağan etmədi. Amma bir kəs öz rəyinə görə hökm verdi".*[293]

Buxari "Səhih"ində Mütərrifdən, o da İmran ibn Həsindən (r.a) rəvayət edir: *"Peyğəmbərin (s) zamanında mütə edirdik, bu barədə Quranda ayə də nazil olmuşdu. Sonra da bir kəs öz rəyinə görə hökm verdi".*[294]

İbn Həcər "Fəthul-Bari"də yazır: "Sonunda belə deyir: "Sonra bir kəs öz fikrini tətbiq etdi". Yəni Ömər".

Deyir: Müslimin rəvayətində isə bunu qadağan edənin İbn Zübeyr olduğu, İbn Abbasın isə bunu icazəli bildiyi, sonda məsələ barədə Cabirdən soruşduqları və onun da mütəni ilk qadağan edən şəxsin Ömər olduğunu bildirdiyi qeyd edilir".[295]

Ona görə də Əbu Hilal əl-Əskəri (Siyuti də ondan nəql edir) Ömər ibn Xəttabın ilklərini qeyd edərkən mütəni ilk haram edənin də o olduğunu yazır.

Siyuti "Tarixul-xüləfa"da yazır: "Ömərin (r.a) ilkləri fəsli: "əl-Əskəri deyir: "O, "əmirəl-möminin" adlandırılan, tarixi hicrətdən hesablayan, beytul-mal divanı quran, Ramazan ayında (təravih) namazlarını sünnəyə çevirən, gecələri şəhəri dolaşan, söyüş və istehzaya görə cəza verən, şərab içməyə görə 80 qamçı vurduran, mütə nikahını haram edən... ilk şəxsdir".[296]

Qeyd etdiklərimizdən aydın olur ki, əhli-sünnə kitabları onların öz əleyhinə olaraq, Peyğəmbərin (s), Əbu Bəkrin və bir müddət də Ömərin hakimiyyəti zamanında mütə nikahının halal olduğuna, sonra Əmr ibn Hüreysin məsələsinə görə Ömərin onu haram elan etdiyinə şahidlik edir.

---

[293] "Səhih", İbn Hibban, 9/244.

[294] "Səhih", Buxari, 1/468.

[295] "Fəthul-Bari", 3/339.

[296] "Tarixul-xüləfa", səh.108. Mütə nikahının haram elan olunması barədə məlumatı əl-Əskərinin "əl-Əvail" kitabında da görə bilərsiniz (1/240).

Məlum olur ki, Ömər ərsiz olan qadınlarla müvəqqəti nikah bağlamağın icazəli olduğunu inkar edir və belə bir nikahın qarşısını almağa çalışırdı. Bu, yalnız onun özünün ictihadıdır (qərar və qənaətidir). Mütə nikahının halal olduğu səhih və aydın şəri dəlillərlə sübuta yetdiyi üçün kiminsə Ömərin qadağasına etina etməsi lazım deyildir.

Müəllifin **"şiələr bunu Ömərin qadağan etdiyini söyləyirlər"** iddiası isə doğrudur. Çünki şiələr buna əhli-sünnənin öz kitablarından dəlillər təqdim edirlər. Belə olduqda bunda nə eyib var ki?!

* * *

**Müəllif iddia edir: "Halbuki doğru olan mütənin Xeybər savaşında qadağan edilməsidir.**

**Əmirəl-möminin (salavatullahi əleyh!) buyurur: "Xeybər savaşı günü Peyğəmbər (s) eşşək ətini və mütə nikahını haram elan etdi". Bax: "ət-Təhizb", 2/186; "əl-İstibsar", 3/142; "Vəsailuş-şiə", 14/441".**

**Cavab:** Bu rəvayətin sənədi ravi Əmr ibn Xalid əl-Vaisti səbəbindən zəifdir. O, tərcümeyi-hal kitablarında inanılan şəxs kimi təqdim edilməyib. Məzhəbi barədə ixtilaf vardır. Onun əhli-sünnə mənsubu olduğu deyilib. Məşhur rəy isə onun zeydi məzhəbinin başçılarından olmasıdır. Rəvayətlərinin əksəriyyətini Zeyd ibn Əlidən nəql edib. Həmin rəvayətlərdən biri də barəsində söhbət açdığımız rəvayətdir.

Həmçinin hədisin raviləri arasında Hüseyn ibn Əlvan vardır ki, o da əhli-sünnə məzhəbindəndir. Nəcaşinin onun tərcümeyi-halındakı inanılan şəxs olması barədə sözlərini ona, yoxsa qardaşı Həsənə ünvanladığı anlaşılmır. Bundan başqa isə onun barəsində təsdiqləyici bir fikir yoxdur. Bəzi alimlər onun barəsində müsbət, bəziləri də mənfi rəy bildirdiklərinə görə, onun rəvayətlərindən əl götürməyə qərar veririk.

Nəticə budur ki, rəvayət zeydi məzhəbinə mənsub, digəri isə əhli-sünnədən olan ravilərə istinad edilir. Onların hər ikisinin inanılan şəxs olduqları sübuta yetməyib. İnanılan şəxs olmaları barədə sözlərə gəldikdə, həmin fikirlər etimad mənbəyi deyil.

Əgər bu rəvayətin səhih olduğuna ehtimal versək, o zaman təqiyyə halına aid ediləcək. Çünki mütə nikahının halal olduğuna dair Əhli-Beyt imamlarından (ə) nəql

edilən rəvayətlər mütəvatir həddədir. Həmin mütəvatir hədisləri kənara qoyub, belə bir zəif rəvayətə etimad bəsləmək mümkün deyildir.

Şeyx Tusi "Təhzibul-əhkam"da yazır: "Bu rəvayət təqiyyə halında və şiələrin müxaliflərinin rəyinə əsasən söylənmişdir. İmamların (ə) rəvayətlərindən xəbərdar olan hər bir şəxs mütə nikahının mübah olduğu barədə məlumatlıdır. Bu barədə artıq sözə ehtiyac yoxdur".[297]

"əl-İstibsar"da yazır: "Bu rəvayəti təqiyyəyə aid edirik. Çünki buradakı rəy əhli-sünnə məzhəbinin etiqadına uyğundur. Bizdəki rəvayətlər kitabın zahirinə və haqq məzhəbin icmasına uyğun olaraq, mütənin halal olduğu barədədir. Ona görə, nadir halda rast gəlinən belə rəvayətləri kənara qoyub, onlara (mütəvatir hədislərə və icmaya) əsaslanmaq vacibdir".[298]

* * *

**Müəllif iddia edir: "Əbu Abdullahdan (r.a) soruşuldu: "Peyğəmbərin (s) zamanında müsəlmanlar şahidsiz evlənirdilər?" O, "Xeyr" deyə cavab verdi" (Bax: "ət-Təhzib", 2/189).**

**Tusi bu rəvayətə şərhində yazır: "Buradakı məqsədi daimi deyil, müvəqqəti nikahdır". Ona görə də həmin hədisi "Mütə nikahı" fəslində qeyd edib".**

**Cavab:** Şeyx Tusi "Təhzibul-əhkam" və "əl-İstibsar" kitablarında bu rəvayətə şərh yazmamışdır. İctihad və fəqihlik iddiaçısının elmi əmanətə xəyanətinin miqdarına özünüz şahid olmaq üçün həmin kitablara müraciət edin.

Əksinə, Şeyx Tusi qeyd edilən kitablarında bunları yazır:

"Bu xəbərdə şahid gətirilməklə mütə nikahına heç bir qadağanın olmadığı qeyd olunur. Həmçinin Peyğəmbərin (s) zamanında müsəlmanların şahid tutmaqla bu nikahdan istifadə etdiklərinə dəlalət edir. Şahid tutmaq əfzəldir (daha yaxşıdır). Lakin hazırkı dövrdə şahidsiz olması bunun qadağan olduğuna dəlalət etmir. Necə ki, həmin zamanda istifadə olunmayan bir çox mübah və s. əməllərin hazırda mövcud olduğu bizə məlumdur. Onların qadağan olduğuna heç bir dəlil yoxdur. Mümkündür, bu

---

[297] "Təhzibul-əhkam", 7/251.

[298] "əl-İstibsar", 3/142.

rəvayət vacib deyil, ehtiyat hökmünü bəyan etmişdir ki, qadın mərifət əhli olmayan bir şəxsin ona malik olacağına etiqad bəsləməsin”.[299]

Hədisin tam mənasının aydın olması üçün Şeyx Tusinin “Təhzibul-əhkam” və “əl-İstibsar” kitablarında qeyd etdiyi rəvayətin mətnini burada nəql etməyimizdə heç bir eyib olmaz.

Şeyx (r.ə) yazır: *“Müəlla ibn Xüneysdən rəvayət olunur: “Əbu Abdullaha (ə) dedim: “Mütə nikahında neçə nəfər şahid kifayət edir?” Buyurdu: “Bir kişi və iki qadın şahidlik edə bilər”. Dedim: “Əgər şahid olacaq bir kəs tapmasalar?” Buyurdu: “Şahid tapmaq tələb olunmur”. Dedim: “Bəs bir kəsin xəbər tutmasını istəməsələr, şahid olaraq bir kişi kifayət edəcəkmi?” İmam (ə) buyurdu: “Bəli”. Dedim: “Sənə fəda olum, Peyğəmbərin (s) zamanında müsəlmanlar şahidsiz evlənirdilər?” O, “Xeyr” deyə cavab verdi”.*[300]

Hədis mütə nikahında bir kişi və iki qadının şahidliyinin yetərli olduğuna aydın şəkildə dəlalət edir. Nəinki, hətta bir kişinin də kifayət etdiyini bildirir. Hədis həmçinin şahid tapılmadıqda və ya bir kəsin xəbər tutmasından ehtiyat edildikdə şahidlərin şərt olmadığını qeyd edir.

Sualın mövzusu mütə nikahı barədə olduğuna əsasən, hədis səhabələrin şahid tutaraq mütə nikahı bağladığına, yaxud ümumən daimi və müvəqqəti əqdə daxil olduqlarına dəlalət edir.

Bəs bu hədisin mütənin haram olduğuna dəlaləti haradadır?! Halbuki hədis aşkar şəkildə onun halal olduğunu bildirir. Belə ki, səhabələrin mütə nikahı bağladıqlarını, sadəcə bunun üçün şahid tutduqlarını bəyan edir!

Səhabələrin şahid tutaraq mütə nikahı bağladıqları bu işin mübah (icazəli) olduğuna dəlildir. Əgər şahid tutmaqla bu iş açıq-aşkar yerinə yetirilirsə, o zaman bunda hansı qəbahət ola bilər?! Ona görə də sünnəyə əməl edərək danlaqdan qurtulmaq üçün şahid tuturdular.

---

[299] “Təhzibul-əhkam”, 7/261; “əl-İstibsar”, 3/148.

[300] “Təhzibul-əhkam”, 7/261; “əl-İstibsar”, 3/148.

Möhtərəm oxucu, hədisi kəsərək bir hissəsini nəql edib, digərini gizləyən, məzmununu öz həvaye-nəfsinə uyğun yozan bu “ictihad sahibi” və fəqihlik iddiaçısına baxın!

* * *

**Müəllif iddia edir: “Şübhə yoxdur ki, bu iki mətn mütə nikahının hökmünün ləğv edildiyinə dəlalət edir. Əmirəl-möminin (ə) də bunun Xeybər savaşı günü haram buyurulduğunu Peyğəmbərdən (s) nəql edir. Şübhəsiz ki, sonrakı imamlar da mütənin haram olduğu hökmünü bilirdilər”.**

**Cavab:** Birinci rəvayətin sənədinin zəif olduğunu əvvəldə qeyd etdik. Hətta səhih olduğunu fərz etsək belə, təqiyyə halına şamil olacaq. Mütə nikahının halal olduğuna dair pak imamlardan (ə) rəvayət olunan mütəvatir hədisləri bir kənara qoyaraq, belə zəif hədisə etimad etmək əsla doğru sayılmaz.

İkinci hədis isə müsəlmanların Peyğəmbər (s) zamanında yalnız şahid tutmaqla mütə nikahı bağladıqlarına dəlalət edir. Bu fakt isə həmin nikahın haramlığına deyil, əksinə, halal olduğuna dəlildir.

Bəs müəllifin mütə nikahının qadağan edildiyi iddiasına dair qəti dəlilləri haradadır?! Bəs onun haram olduğu hökmünü Əmirəl-möminin Əlinin (ə) Peyğəmbərdən (s) nəql etdiyini necə bildi?! Həmçinin həmin hədisin də sənədi zəifdir və mütənin halal olduğuna dair məsum imamlardan (ə) nəql olunan mütəvatir hədislərlə ziddiyyət təşkil edir.

Maraqlıdır, nə üçün müəllif mütə nikahının halal olduğuna dəlalət edən onlarla hədislərə göz yumaraq məhz bu iki hədisi götürmüşdür?! Yoxsa onun ictihad səviyyəsi və hökmləri ələ gətirmək qabiliyyəti məhz belə zəif hədislərə əsaslanacaq miqdardadır. Beləliklə də həmin zəif hədisə etimad edir, ona uyğun fətva verir və buna zidd olan onlarla səhih hədisə göz yumur?!

* * *

**Müəllif iddia edir: “Burada mütə nikahının açıq-aydın haram edildiyinə və mütə nikahının təşviqinə dair imamlara (ə) nisbət verilən rəvayətlərin arasında qalırıq.**

**Bu isə müsəlman bir şəxsi çaşqınlıqda qoyur: mütə etsinmi, etməsinmi?!”**

**Cavab:** Fəqihin vəzifəsi Peyğəmbər (s) və pak imamlardan (ə) nəql olunan ziddiyyətli hədislərin bir qismini dəlilsiz-sübutsuz höccət bilib, digərini kənara atmaq deyil, rəvayətlərə nəzər salmaq, sənəd və dəlalət baxımından hansının daha üstün olduğunu müəyyən etmək və ona uyğun hökm verməkdir.

Gizli deyil ki, müəllif mütə nikahının halal olduğuna dəlalət edən aydın mənalı və mütəvatir hədisləri bir kənara qoyaraq zəif hədislərə əsaslanıb. Bunun yeganə səbəbi isə onların əhli-sünnə etiqadına (fiqhinə) uyğun olmasıdır.

İctihad iddiaçısı ilə məsələ arasında necə də böyük fərq vardır! Biz mütə nikahının halal olduğuna dair əhli-sünnə hədisşünaslarının rəvayət etdikləri səhih hədisləri onların öz kitablarından dəlil olaraq təqdim edirik. Onlardan bir neçəsini burada da sadaladıq. Ancaq müəllif isə bizə yalnız bir və eyni zamanda nəzərimizdə zəif olan hədisi dəlil göstərdi ki, həmin rəvayətin raviləri ya əhli-sünnə, ya da zeydi məzhəbinin mənsublarıdır.

Mütə nikahının halallığına dəlalət edən hədislərin uydurularaq Əhli-Beyt imamlarına (ə) nisbət verildiyi iddiasına gəldikdə, bu da heç bir dəlilə söykənməyən puç bir iddiadır. Bu sözlərini boş bir iddia olmadığını doğru dəlillərlə isbatlamaq onun üzərində olan bir borcdur. “Biz “İxtilaflı məsələlər” kitabında açıq-aydın səhih dəlillərlə şiələrin həqiqətən Əhil-Beyt (ə) ardıcılları olduqlarını, onların iplərindən möhkəm yapışdıqlarını, onlara tabe olduqlarını, doğru istinadlarla onlardan əqidə, fətva və hökmlərə dair çox sayda məlumatlar nəql etdiklərini isbatlamışıq. Daha geniş məlumat əldə etmək istəyənlər həmin kitaba müraciət edə bilərlər.

* * *

**Müəllif iddia edir: “Doğru olanı mütə nikahının tərk edilməsidir. Çünki Əmirəl-möminindən də (r.a) nəql edildiyinə əsasən, mütə nikahı haramdır. İmamlara nisbət verilən rəvayətlərə gəldikdə, şübhə yoxdur ki, bunun onlara nisbət verilməsi doğru deyildir, belə rəvayətlər onların adına atılan iftiralardır. Belə ki, imamlar (ə.s) Peyğəmbərin (s) haram buyurduğu və ondan sonra da Əmirəl-möminin Əlinin uyğun rəftar etdiyi bir məsələyə qarşı çıxmazlar. Onlar (yəni imamlar) elmi böyüklərindən bir-birinə ötürmüşlər, çünki onlar bir-birinin nəslidirlər”.**

**Cavab:** Əmirəl-möminin Əlidən (ə) rəvayət olunan həmin hədisin zəif olduğunu isbatladıq, ravilərin etibarı baxımından ixtilaflı olduğunu, bəzilərinin zeydi, başqa birinin əhli-sünnə məzhəbinə mənsub olduqlarını qeyd etdik. Bunun müqabilində mütə ilə bağlı Əmirəl-möminin Əlidən (ə) xüsusilə, imamlardan (ə) isə ümumən etibarlı sənədlərlə nəql olunan rəvayətlər gözardı edilə bilməz.

Əgər Əmirəl-möminindən (ə) Peyğəmbərin (s) qadağasına dair digər hədislərlə ziddiyyət təşkil etməyən bir rəvayətin nəql olunduğu isbatlansa, bu zaman onun sözünü qəbul etməli və boyun əyməliyik. Lakin bu məsələdə belə bir şey sübuta yetməyib. Əksinə, məsum imamların (ə) hədislərindən xəbərdar olan hər bir kəs bilir ki, məsələ ilə bağlı onların əks mövqeyi isbatlanmışdır.

Müəllifin bu rəvayətə əsaslanaraq digər bütün səhih hədisləri rədd etməsi, onları sənəd və məzmun cəhətindən araşdırmadan imamlara (ə) atılmış iftiralar adlandırması səhih hədislə qeyri-səhihin ayırd edilməsinə dair şiə ilə əhli-sünnə alimləri arasında ümumi qəbul olunmuş elmi bəhs qaydalarına tamamilə ziddir.

Müəllif həmin hədislərin yalan və iftira olduğuna bir düzgün dəlil belə təqdim etmir, yalnız bunların Peyğəmbərin (s) haram buyurduğuna və Əmirəl-möminin Əlinin (ə) həmin sözü təsdiqləməsinə müxalif olduqlarını iddia edir. Məlum olduğu kimi, bu onun öz mətləbindən (hədəflərindən) doğan bir qərardır. Halbuki nəticə çıxarmazdan öncə, ilk olaraq o, Peyğəmbərin (s) mütə nikahını haram buyurduğunu, Əmirəl-möminin Əlinin (ə) həmin qadağanı ondan nəql etdiyini isbatlamalıdır ki, istəyinə nail olsun. Bu fakt müəllifin düzgün və isbatlanmış qaydalara uyğun dəlil təqdim etmək ruhundan çox-çox uzaq olduğunun dəlilidir.

* * *

**Müəllif iddia edir: "Əbu Abdullahdan (r.a.) soruşuldu: "Müsəlmanlar Peyğəmbərin (s) zamanında şahidsiz evlənirdilər?" O, "Xeyr" deyə cavab verdi. Əgər mütə nikahının haram olduğunu bilməsəydi "Xeyr" deyə cavab verməzdi. Xüsusilə də sualın mütə nikahı barədə olduğu rəvayət səhihdir.[301] Əvvəldə də**

---

[301] Mümkündür ki, bu, mətbəənin səhvidir. Belə ki, müəllifin məqsədi "səhihdir" deyil "açıq-aşkardır" kəlməsi ola bilərdi ki, bu da cümələnin məna axışına uyğun

**qeyd etdiyimiz kimi, rəvayəti kitabında nəql edən Əbu Cəfər Tusi də onu "Mütə nikahı" fəslində qeyd edib.**

**Nə Əbu Abdullah, nə ondan öncəki və nə də sonrakı imamlar Peyğəmbərin (s) əmrinə qarşı çıxmamış, onun haram buyurduğunu halal saymamış, onun zamanında məlum olmayan bir şeyi bidət olaraq ortaya çıxarmamışlar".**

**Cavab:** Əvvəldə hədislə bağlı fikirləri qeyd etdik, onun mütə nikahının halal olduğuna, səhabələrin əməli olaraq bunu icra etdiklərinə və buna şahidlər tutduqlarına dəlalət etdiyini bildirdik. Bəs bu rəvayətdə mütə nikahının haram olduğunun və hökmünün ləğv edildiyinin dəlili haradadır?!

* * *

**Müəllif iddia edir: "Buradan da aydın olur ki, mütə nikahına təşviq edən rəvayətlərin heç birində imamların sözlərindən bir hərf belə yoxdur, bunları möhtərəm Əhli-Beyti ləkələmək və onlara pislik etmək istəyən allahsız kəslər uydurmuş və iftira yaxmışlar. Yoxsa Haşimi qadınları ilə mütə etməyin icazəli olduğunu, mütədən boyun qaçıranları küfrdə ittiham etməyi necə izah etmək olar?!"**

**Cavab:** Söylədiklərimizdən aydın oldu ki, müəllif sırf öz mətləbinə uyğun olduğu üçün yalnız bir rəvayəti əsas götürərək iddiasına dair dəlil saymış, mütə nikahının icazəli olduğu barədə məsum imamlardan (ə) rəvayət olunan çoxsaylı mütəvatir hədisləri isə görməzlikdən gəlmişdir.

Mütə nikahının icazəli olduğuna dair rəvayətlərin yalan və iftira olduğu, Haşimi qadınları ilə müvəqqəti evliliyə icazə verildiyi iddiaları isə çox əcaibdir! Belə ki, şəri hökmlər istisnasız bütün insanlara şamildir, Haşimi qadınları bu cəhətdən kənarda deyillər. Onların vəziyyəti digər qadınların vəziyyəti ilə eynidir.

Mütə nikahı bağlamayanların küfrdə ittiham olduğunu iddiasına gəldikdə, bu da açıq-aşkar iftiradır. Çünki mütə nikahı namaz, zəkat, oruc, həcc və İslamın sütunları

---

olacaqdı. Belə olmasa, müəllifin səhih hədislə zəif hədisi bir-birindən ayırmaq qabiliyyətindən nə qədər uzaq olduğu bir daha təsdiqlənmiş olur. Onun kitablarını oxuyan hər bir şəxs bundan xəbərdardır.

sayılan digər məsələlərdən, onu tərk edən və ya ona etinasız yanaşan kəslərin də allahsız və ya kafir olduğuna hökm edilən amillərdən deyildir.

Həmçinin mütə nikahı dinin köklərindən (üsulud-dindən) də sayılmır ki, onu inkar edən dindən xaric olmuş sayılsın. Əksinə, bu, Peyğəmbərin (s) sübuta yetmiş sünnəsi və Allahın Muhəmməd (s) ümmətinə olan bir mərhəmətidir. Kim haramlıq şübhəsi ilə Peyğəmbər (s) sünnəsini inkar edərsə, heç bir halda kafir hesab olunmaz.

* * *

**Müəllif iddia edir: "Halbuki İmamların (ə.s) heç birindən mütə nikahına daxil olduqlarına və ya mütənin halal olduğuna dair bir rəvayət belə nəql edilməyib. Nədir, yoxsa onlar İslam dinində deyildilər?!"**

**Cavab:** Bu sözlərin bir neçə cəhətdən puç olduğu aşkardır:

**Birinci:** Mütə nikahının halal olduğuna dair İmamlardan (ə) rəvayət edilən hədislər mütəvatir həddindədir. Necə ki, bunu bütün alimlərimiz də ifadə edirlər. Şeyx Tusinin bu barədə sözlərini möhtərəm oxucunun diqqətinə ərz etmişdik.

Həmin rəvayətlərdən biri Zürarədən nəql olunan səhih rəvayətdir ki, yuxarıda onu qeyd etdik.

**Başqa bir rəvayət:** Hişam ibn Salimdən nəql olunan səhih rəvayətdə İmam Əbu Abdullah Sadiq (ə) buyurur: *"Mütə nikahı bağlamaq kişi üçün müstəhəbdir. Sizlərdən hər kişinin hətta həyatda bir dəfə də olsa mütə nikahı bağlamış olaraq dünyadan köçməsi çox xoş olar".*[302]

**Başqa bir rəvayət:** Əbu Bəsirdən nəql olunan səhih rəvayət: *"İmam Əbu Cəfərdən (ə) qadınlarla müvəqqəti evlilik barədə soruşdum, buyurdu: "Halaldır. Mehr olaraq 1 və daha artıq dirhəm də yetərlidir".*[303]

**Başqa bir rəvayət:** Əli əs-Sainin səhih rəvayəti; İmam Əbul-Həsənə (ə) dedim: *"Sənə fəda olum, mən mütə nikahı bağlayırdım, sonra ondan ikrah etdim və pis bir əməl saydım, Rüknlə Məqam arasında bir daha mütə nikahına daxil olmayacağım barədə nəzir və oruc qarşılığında Allaha söz verdim. Sonra bu əməlim mənə ağır*

[302] "Vəsailuş-şiə", 14/443.

[303] "əl-Kafi", 5/457; "Vəsailuş-şiə", 14/470.

*gəldi və içdiyim anda peşman oldum, evlənmək üçün də özümdə güc tapa bilmirəm". İmam (ə) cavabında mənə buyurdu: "Allaha itaət etməyəcəyinə dair Ona söz vermisən?! Allaha and olsun ki, Ona itaət etməsən, üsyan etmiş olacaqsan!"*[304]

Bu mövzuda səhih rəvayətlər çoxdur, onların hamısını burada sadalamağa lüzum görmürük.

Bu rəvayətlərin isbatından sonra mütə nikahının halal olduğuna dair heç bir şübhə qalmır, imamların (ə) sözləri ilə təsdiqlədiklərinə dair dəlillər olduğu üçün əməli olaraq təsdiqləmələri barədə dəlilə ehtiyac duyulmur.

**İkinci:** İmamların (ə) şəxsən mütə nikahına daxil olmadıqları isbatlansa belə, bunun səbəbi həmin dövrdəki hakimlərin (mütəni qadağan etdiklərinə görə) onlara qarşı ittihamlarına rəvac verməsi, yaxud əhli-sünnə mənsublarının (öz etiqadlarına əsaslanaraq) onlara qarşı töhmətlərinə şərait yaratmasıdır. İmamlar da (ə) haram olduğu üçün deyil, məhz bu səbəblərdən mütə nikahı bağlamağı tərk etmişlər.

**Üçüncü:** Peyğəmbərin (s) bəzi savaşlarda mütə nikahını halal buyurduğu, sonra isə onu haram etdiyinə dair əhli-sünnə alimləri yekdil fikrə sahibdirlər. Buna rəğmən, halal olduğu müddətdə Peyğəmbərin (s) mütə nikahı bağladığına dair bir fakt belə nəql etməmişlər. Belə bir faktın yoxluğu mütə nikahının həmin dövrlərdə halal olduğuna heç bir şübhə yaratmır.

Buna əsasən, deyirik: İmamların (ə) mütə nikahını halal bildikləri sübuta yetdikdə, onların bunu əməli olaraq icra etdiklərinin isbatlanmasına ehtiyac yoxdur.

**Dördüncü:** Bəzi rəvayətlərdə Peyğəmbərin (s) və Əmirəl-mömininin (ə) müvəqqəti nikahla evləndikləri qeyd olunur.

Şeyx Səduq "Mən la yəhzuruhul-fəqih" kitabında İmam Sadiqdən (ə) rəvayət edir: *"Bir şəxsin boynunda Peyğəmbər (s) xüsusiyyətlərindən biri qaldığı halda dünyadan köçməsini bəyənmirəm".* Dedim: "Peyğəmbər (s) mütə nikahı bağlamışdımı?" Buyurdu: *"Bəli".* Ardınca bu ayəni oxudu: ***"Bir zaman Peyğəmbər öz zövcələrindən birinə gizli bir söz demişdi. O da bu sözü (digər zövcələrdən birinə) xəbər verdikdə və Allah bunu ona (Peyğəmbərə) əyan etdikdə (Peyğəmbər)***

[304] "əl-Kafi", 5/450; "Vəsailuş-şiə", 14/442.

***bunun bir qismini bildirmiş, (alicənablığı üzündən) bir qismini bildirməkdən isə vaz keçmişdi. (Peyğəmbər) əhvalatı ona bildirdikdə o: "Bunu sənə kim xəbər verdi?" -deyə soruşmuş, o da: "Bunu mənə (hər şeyi) bilən, (hər şeydən) agah olan (Allah) xəbər verdi!" -deyə cavab vermişdi. Əgər ikiniz də (bu hərəkətinizə görə) Allaha tövbə etsəniz (çox yaxşı olar). Çünki qəlbləriniz (onun barəsində bir qədər qeyri-səmimiliyə, günaha) meyl etdi. Əgər ona (Peyğəmbərə) qarşı bir-birinizə kömək etsəniz, (bilin ki, sizə qələbə çalmaqda) onun dostu və yardımçıları Allah, Cəbrail və möminlərin salehidir. Bunlardan sonra da mələklər onun yardımçısıdır. Əgər o sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr - müsəlman, mömin, itaətkar, tövbəkar, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin![305]".[306]***

Şeyx Müfid "Mütə risaləsi" ("Risalətul-mut`əh") kitabında Fəzl Şeybanidən İmam Baqirə (ə) istinadən rəvayət edir ki, Abdullah ibn Əta əl-Məkki ondan (ə) Uca Allahın ***"Bir zaman Peyğəmbər öz zövcələrindən birinə gizli bir söz demişdi..."*** ayəsi barədə soruşduqda, o, buyurdu: "Peyğəmbər (s) azad bir qadınla mütə nikahı bağladıqda bəzi qadınları bundan xəbər tutmuşdular...".[307]

İbn Babəveyh İmam Əliyə (ə) istinadən onun Kufədə Bəni-Nəhşəl qəbiləsindən olan bir qadınla mütə nikahı bağladığını rəvayət edir.[308]

* * *

**Müəllif iddia edir: "Bütün bunlar bizə aydın olduqdan sonra belə rəvayətləri uyduranların Əhli-Beyti və imamları (ə) ləkələmək istəyən allahsızlar olduğunu anlayırıq. Çünki bu əməllərdə imamların küfrdə ittiham olunması vardır... Özünüz diqqət yetirin".**

**Cavab:** Qeyd etdiyimiz kimi, mütə nikahının halal olduğuna dair rəvayətlər mütəvatirdir. Həmin rəvayətləri İmamlardan (ə) təqvaları, zahidlikləri və imamlara

---

[305] "ət-Təhrim" surəsi, ayə 3-5.

[306] "Mən la yəhzuruhul-fəqih", 3/304; "Vəsailuş-şiə", 14/442.

[307] "Vəsailuş-şiə", 14/440.

[308] "Vəsailuş-şiə", 14/440.

qarşı ixlasları məşhur olan etibarlı ravilər nəql ediblər. Belə şəxslər necə Əhli-Beyti (ə) ləkələmək istəyən allahsızlar ola bilərlər?! Bu iddianın dəlili nədir?! Əhli-sünnənin mütə nikahına qarşı olması məgər buna dəlil sayıla bilərmi?!

Əgər İmamlardan (ə) mütə nikahının halallığına dair rəvayətləri nəql etmək onları ləkələmək və küfrdə ittiham etməkdirsə, bəs Peyğəmbərdən (s) mütə nikahının halal olduğuna dair rəvayətlər nəql edən səhabə və tabeunlar barədə müəllifin sözü nə olacaq?! Məgər onlar da Peyğəmbəri (s) ləkələmək və onu küfrdə ittiham etmək istəyirdilər?!

Müəllif mütə nikahının halal olduğuna dair mübahisə edən İbn Abbas və digər səhabələr barədə nə söyləyəcək? Onların da kafir və allahsız olduqlarını iddia edəcək?!

Yoxsa kafirlik və allahsızlıq meyarları müəllifin əlindədir, onu dilədiyi kimi və dilədiyi şəxsə qarşı istifadə edir?!

* * *

**Müəllif iddia edir: "Kuleyni Əbu Abdullahdan (r.a) rəvayət edir ki, bir qadın Ömər ibn Xəttabın yanına gələrək dedi: "Mən zina etmişəm!" Ömər ibn Xəttab da onun daşqalaq edilməsinə hökm verdi. Xəbər Əmirəl-mömininə (r.a) yetişdikdə qadına dedi: "Sən necə zina etmisən?"**

**Qadın dedi: "Səhrada gedirdim, şiddətli susuzluq məni yaxaladı. Bir bədəvi ərəbdən su istədim, o isə özümü ona təslim etmədikcə su verməyəcəyini dedi. Susuzluq mənə narahat etməyə başladıqda və mən həyatım üçün qorxuya düşdükdə, suyu ondan aldım və özümü onun ixtiyarına verdim". Əmirəl-möminin (r.a) buyurdu: "Kəbənin Rəbbinə and olsun ki, bu, evlilikdir ("əl-Furu`", 2/198)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir və mətn cəhətdən inkar olunur.

Sənədinə gəldikdə; raviləri arasında Əbdürrəhman ibn Küseyr (və ya Kəsir) vardır ki, o, zəif ravidir. Nəcaşi və digərləri onu zəif hesab etmişlər.

Nəcaşi yazır: "Əbdürrəhman ibn Küseyr əl-Haşimi – Abbas ibn Muhəmməd ibn Əli ibn Abdullah ibn Abbasın azad etdiyi köləsidir, zəif ravi olub, əshabımız onu pisləmişdir, demişlər: "Hədis uydururdu".[309]

Ravilər arasındakı Əli ibn Həssan da zəifdir. Nəcaşi, eləcə də İbn Ğəzairi onu zəif hesab etmişlər.

Nəşaşi "Rical"ında yazır: "Əli ibn Həssan ibn Küseyr əl-Haşimi – Abbas ibn Muhəmməd ibn Əli ibn Abdullah ibn Abbasın azad etdiyi köləsidir, olduqca zəif ravidir. Əshabımızdan bəziləri onu ğulatlar (etiqadda həddi aşanlar) sırasında qeyd ediblər. Yanlış etiqada sahib idi. Onun "Təfsirul-batin" adlı kitabı vardır. Bütünlüklə sayıqlamadır".[310]

İbn Ğəzairi deyir: "Əli ibn Həssan ibn Küseyr – Əbu Cəfər Baqirin (ə) azad etdiyi kölədir. Əmisi Əbdürrəhmana istinadən rəvayətlər nəql edib. (Etiqadda) həddi aşan zəif ravidir. Onun "Təfsirul-batin" adlı kitabını görmüşəm. İslamla heç bir əlaqəsi yoxdur. Yalnız əmisindən rəvayət nəql edib".[311]

əl-Kəşşi Muhəmməd ibn Məsuddan rəvayət edir: "Əli ibn Həsən ibn Əli ibn Fəzzaldan Əli ibn Həssan barəsində soruşdum, dedi: "Onların hansı barədə soruşursan? əl-Vasiti inanılan şəxsdir, (Əli ibn Həssan əl-Haşimiyə işarə edərək) ancaq yanımızda olan yalnız əmisi Əbdürrəhman ibn Küseyrdən rəvayət edir ki, o da kəzzabdır (çox yalançıdır), həmçinin vaqifidir. Əbul-Həsən İmam Musanı (ə) heç görməmişdir".[312]

Hədisin ravilərindən biri də Nuh ibn Şüeybdir. O xorasanlı və ya nişapurludur, halı məchul (naməlum) şəxsdir, tərcümeyi-hal kitablarında inanılan şəxs olaraq qeyd edilməyib.

Buna əsasən, rəvayət olduqca zəifdir və ona əsa etina olunmaz.

---

309 "Rical", Nəcaşi, səh.163, "Həcəriyyə" çapxanası.

310 "Rical", Nəcaşi, səh.176, "Həcəriyyə" çapxanası.

311 "Rical", İbn Ğəzairi, səh.77.

312 "İxtiyaru mə`rifətir-rical", 2/748, rəqəm 851.

Mətn cəhətdən inkarına gəldikdə, bu da aşkardır. Belə ki, qadın buna razı olmamışdır və məcbur qalaraq bu işə əl atmışdır. Nikahın şərtlərindən biri isə iki tərəf arasında razılığın olmasıdır. Həmçinin hədisdə həmin bədəvinin nikah əqdini oxuyub-oxumadığı da qeyd edilmir. Belə halda evliliyin baş tutduğuna necə hökm etmək olar? Eləcə də, görünən budur ki, qadın evli idi. Dəlil isə Ömərin onun daşqalaq edilməsinə hökm verməsidir. Əgər subay qadın olmasaydı, şallaqlanmasına hökm verərdi.

* * *

**Müəllif iddia edir: "Məlum olduğu kimi, mütə nikahı iki tərəf arasında onların istəyinə əsasən gerçəkləşir. Ancaq bu rəvayətdə qadın buna çarəsizlikdən məcbur edilir, su qarşılığında buna vadar olur. Həqiqətdə o, zinakar hökmündə deyil ki, Ömərdən də onu cəzalandırmasını istəsin. Bundan savayı, mühüm bir məsələdir ki, mütə nikahının Xeybər savaşı günü Peyğəmbərin (s) haram buyurduğu məhz Əmirəl-möminin Əlidən (r.a) rəvayət olunub. Belə olduqda həmin hadisənin mütə nikahı olduğuna necə hökm verə bilər?! Halbuki onun bu fətvası kişi ilə qadının əməllərinin halallığı, iqrarı və əməllərindən razılığıdır?!!**

**Əgər elm tələbələrindən biri belə bir fətva vermiş olsaydı, etibardan düşmüş sayılar, fətvası yanlış hesab olunar və buna görə tənqidlərə məruz qalardı. Elm və fətva əhli olan Əmirəl-mömininə (r.a) belə bir şeyi necə nisbət vermək olar?! Əmirəl-mömininə bu fətvanı  nisbət verənlər ya onu ləkələmək istəyən bədxahlar, ya da bu hekayəni uydurmaqla müəyyən hədəf güdənlərdir. Beləliklə də bunu Əmirəl-mömininə nisbət verməklə, din adı altında İmamları (ə), hətta Peyğəmbəri (s) ləkələmə sayılsa belə, məqsəd özü və özü kimilər üçün mütə nikahına qanunilik donu geyindirməkdir".**

**Cavab:** Rəvayətin sənəd və mətn etibarı ilə zəif olduğunu bildikdən sonra müəllifin iddialarının heç bir dəyəri yoxdur. Rəvayət barədə yuxarıda söhbət açmışdıq.

Əlavə olaraq qeyd edək ki, bu rəvayətə irad olaraq Kuleyni də onu "Mütə" fəslinin "Nadir hədislər" qisminə daxil edib. Həmçinin rəvayət baş vermiş evliliyin daimi və ya müvəqqəti olduğuna da işarə etmir.

Ona görə də kitabın çap versiyasının haşiyəsində qeyd olunur: "Görünür ki, hekayədə qadının özünü bir içimlik su müqabilində bədəviyə təslim etdiyinə görə Kuleyni evliliyi mütə nikahı sayıb və müvafiq fəsildə qeyd edib. Bu, həqiqətdən uzaq fikirdir. Çünki qadın əvvəldən də evli idi. Yoxsa Ömərin hökmünə əsasən, özünü daşqalağa layiq bilməzdi. Əks halda deyərdi: "Bu onun (Ömərin hökmlərindəki) xətalarından idi".[313]

Deyilmişdir: Rəvayətdə evliliyin ümumi mənada istifadə edilməsi hadisədəki cinsi əlaqəni daimi və müvəqqəti nikah arasında qərar verir. Onun müvəqqəti nikah olması, daimi nikah olmasından daha çox həqiqətə yaxındır. Belə ki, burada qısa bir müddətdə müvəqqəti ləzzət vardır ki, ardınca talaq (boşanma) prosesi də baş vermir. Bəlkə buna görə də Kuleyni (r.ə) rəvayəti "Mütə" fəslində qeyd edib. Doğrusunu Allah bilir.

Hər bir halda, biz rəvayətin səhih olduğunu fərz etsək, o zaman qadının cəhalət səbəbindən bədəvi ilə yaxınlığının zina hökmündə olduğunu güman etdiyini və Ömərdən cəzalandırmaqla onu təmizləmək istəməsini düşünəcəyik. Lakin Əmirəl-möminin (ə) onun zinaya məcbur qaldığını bildikdə vəziyyətinin evlənmiş insanın vəziyyəti ilə eyni olduğuna hökm verir, bununla da ona hər hansı bir cəza və ya günahın şamil olmadığını açıqlayır, məcbur edilərək zinaya məruz qalmasını cəzaya layiq olmayan mütləq mənada evlilik növünə aid edir.

Bu söylədiklərimizlə isə müəllifin ortaya atdığı bütün iddialar dəf edilir.

* * *

**Müəllif iddia edir: "Mütə nikahının bir çox cəhətdən zərərləri və yaratdığı fəsadları olduqca böyükdür:**

**1. Şəri qəti dəlillərə və mətnlərə müxalifdir; belə ki, Allahın haram buyurduğunu halal elan edir".**

---

[313] "əl-Kafi", 5/467.

**Cavab:** Həm şiələr və həm də əhli-sünnə alimləri öz kitablarında mütə nikahının halal olduğuna dair çox sayda səhih hədislər nəql etmişlər. Həmçinin Qurani-Kərimdəki ***“İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!”***[314] ayəsinin mütə nikahına dəlalət etdiyini bildirmişlər. Bunu heç kəs inkar etməmişdir. Sadəcə əhli-sünnə alimləri sonradan mütə nikahının haram buyurulduğunu və möhkəm ayənin ziddiyyətli mənalı hədislərlə nəsx edildiyini (qüvvədən düşürüldüyünü) iddia etmişlər.

Buradan aydın olur ki, mütə nikahının halal olduğunu söyləmək Allahın halalını təsdiqləməkdir. Ancaq haramlığını iddia etmək isə elə əhli-sünnə kitablarında qeyd edilən rəvayətlərə əsasən, Ömər ibn Xəttabdan varid olan hökmü iqrar etməkdir. Həmin rəvayətlərdən bir qismini möhtərəm oxucu üçün əvvəldə qeyd etdik.

* * *

**Müəllif iddia edir: “2. Bu məsələ ilə bağlı yalan hədislər uydurulmuş, imamlara (ə) nisbət verilmişdir. Halbuki həmin rəvayətlərdə qəlbində zərrə qədər imanı olan şəxsin imamlara nisbət verilməsinə razı olmayacağı olduqca sərt ittihamlar yer alır”.**

**Cavab:** Müəllif İmamlardan (ə) nəql olunan həmin hədislərin yalan və uydurma olduqlarına dair bir dənə də olsa dəlil təqdim etməmişdir. Onun nəzərində bunların uydurma olmasının yalnız bir dəlili mövcuddur ki, o da mütə nikahı ilə bağlı hədislərin əhli-sünnə əqidəsinə zidd olması, eləcə də şiə kitablarındakı - raviləri zeydi və əhli-sünnə məzhəblərindən olan zəif hədislərə uyğun gəlməməsidir. Bütün bunları yuxarıda izah etmişik.

Halbuki mütə nikahının halal olduğuna dair hədislər əhli-sünnə kitablarında da rəvayət olunur. Onlardan bir neçəsini əvvəldə Müslimin “Səhih”indən nəql etdik.

Məgər müəllif həmin səhih hədislərin də Peyğəmbər (s) adından uydurulduğunu iddia edir?! Məgər qəlbində zərrə qədər imanı olan şəxs özündə sərt ittihamlar ehtiva

---

[314] “ən-Nisa” surəsi, ayə 24.

edən belə sözlərin Peyğəmbərə (s) nisbət verilməsindən narazı olmalı deyilmi?! Yoxsa məsələ burada fərqli olacaq?!

* * *

**Müəllif iddia edir: "3. Mütə nikahının yaratdığı fəsadlardan biri də evli qadının ərinin xəbəri olmadan müvəqqəti evlən bilməsidir. Belə olduqda heç bir ər öz həyat yoldaşından əmin olmayacaq. Çünki xanım qanuni ərinin xəbəri və razılığı olmadan müvəqqəti evlənəcək. Bu isə açıq-aydın fəsaddır və bundan betərinin olması mümkün deyildir (Bax: "Furuul-Kafi", 5/463; "Təhzibul-əhkam", 7/554; "əl-İstibsar", 3/145). Başqa bir kişi ilə müvəqqəti evlənmiş qadının bu hərəkətindən xəbərdar olan ərin fikrinin necə olacağını düşünə bilmirəm!"**

**Cavab:** Ərli qadınla müvəqqəti nikah bağlamaq heç bir halda icazəli deyildir. Əksinə, bu hamıya məlum haramlardan biridir və açıq-aydın zinadır. Bu barədə başqa söhbət ola bilməz.

Bəzi günahkarların mütə nikahı adı altında yol verdikləri yanlış əməllərə - qadının bir kişidən digərinə keçməsinə, yaxud ərli qadının mütə adı ilə zina etdiklərinə gəldikdə, belə hərəkətlərin şəri müvəqqəti nikahla yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Belə ki, bu, mütə adı altında zinadır. Bu fakt isə məsələnin həqiqətini əsla dəyişməz, açıq-aydın zina etdikləri halda onlara müvəqqəti evlilik adı ilə bəraət verməz.

Bu sözləri eynilə daimi nikah haqqında da söyləmək olar. Kişi ilə daimi nikah bağlayıb evləndikdən sonra qadının başqa bir kişi ilə hələ də evli olduğu anlaşılan nə qədər fakt mövcuddur. Məgər belə faktlar səbəbindən ictihad və fəqihlik iddiaçısı olan bu müəllif daimi nikahın da haram qılınmasının lazım olduğunu düşünürmü?! Belə ki, heç bir müsəlman kişi öz xanımının başqa bir kişi ilə daimi nikaha girməyəcəyindən əmin deyildir.

Həmçinin Peyğəmbər (s) zamanında halal olan müvəqqəti evlilikdən bu qədər çəkingənlik və bu qədər etiraz nəyə görədir?

Məgər bu qədər təhlükəli sayılan nüanslar Peyğəmbər (s) zamanındamı ortaya çıxmışdır, yoxsa onun vəfatından sonra? Əgər onun yaşadığı dövrlərdə də vardısa,

bu, müvəqqəti nikahın halal olduğuna heç bir maneənin olmadığını göstərir. Yox, əgər onun vəfatından sonrakı dövrlərdə baş vermişdirsə, bu yanlış hərəkətlər mütə nikahının hökmlərindən kənardır, həmin nikahın qanuniliyinə heç bir xələl gətirməz və onu haram qılmaz.

Görünən odur ki, ictihad iddiaçısının gümanına əsasən, o, ərli qadının başqa bir kişi ilə müvəqqəti evlənməsinin icazəli olduğunu düşünüb. Ona görə də bu faktı müvəqqəti evliliyin yaratdığı fəsadlar sırasında qeyd edib. Halbuki bunun belə olmadığını ictihad və fəqihlik iddiaçıları bir kənara dursun, hətta hövzələrdəki sıravi tələbələr də gözəl bilirlər.

* * *

**Müəllif iddia edir: "4. Atalar öz bakirə qızlarının onlardan xəbərsiz müvəqqəti nikah bağlayıb-bağlamadıqlarına əmin olmayacaq, ata qızının bir gün hamilə olduğunu anlayacaq... Axı bu necə baş verdi? Kimdən? Kiminlə evləndi? Bütün bunlardan xəbərsiz olacaq, çünki kişi onu tərk edərək getmişdir".**

**Cavab:** Müvəqqəti evliliyin halallığı vəlinin razılığı bağlı olan bir məsələ deyildir. Belə ki, eyni şərtlərdə olan daimi evlilikdə də bu məsələ barədə heç bir mübahisə yoxdur. Lakin bakirə qızların evlənməsində vəlinin icazəsi olmasa, nikah səhih deyildir. Bu baxımdan nikahın halallığı ilə səhihliyi arasında vəlinin icazəsi kimi bir bağlılıq mövcud deyil.

Buna əsasən, hidayət imamlarından (ə) rəvayət olunan xəbərlərdə evlilik zamanı bakirə qızların vəlilərindən (hamilərindən) icazə alınmasının zərurəti vurğulanır. Onlardan:

Bəzəntinin İmam Rzadan (ə) nəql etdiyi səhih rəvayətdə deyilir: *"Bakirə qız atasının icazəsi olmadan müvəqqəti evləndirilə bilməz".*[315]

Əbu Məryəmin Əbu Abdullah Sadiqdən (ə) nəql etdiyi səhih rəvayətdə deyilir: *"Atası olan bakirə qızlar atasının icazəsi olmadan müvəqqəti evlənə bilməzlər".*[316]

---

[315] "Vəsailuş-şiə", 14/458.

[316] "Vəsailuş-şiə", 14/459.

Buna əsasən, mühəqqiq Xoi (q.s) demişdir: “Buradan da atanın razılığına dair müvəqqəti evliliyin hökmünün daimi evliliyin hökmü ilə eyni olduğu görünür”.[317]

Qeyd etdiklərimizdən aydın olur ki, bakirə qızlar atalarının icazəsi olmadan nə müvəqqəti və nə də daimi nikah bağlaya bilməzlər. Buna əsasən, müəllifin qeyd etdiyi iradlardan heç biri gerçəkləşə bilməz.

Bundan əlavə, müəllifin vurğuladığı fəsadlara yol açan nüanslara əhli-sünnə məzhəbinin imamlarının fətvalarında da rast gəlinir. Belə ki, onlardan bəziləri bakirə və ya evli olmuş qadının izdivacında vəlinin (haminin) icazəsini şərt bilmirlər.

İbn Rüşd “Bidayətul-muctehid” kitabında deyir:

“Nikahın düzgün sayılmasında vəlinin razılığının şərt olub-olmadığına dair alimlər ixtilaf etmişlər. Malik nikahın yalnız vəlinin izni ilə baş tuta biləcəyini söyləmiş və Əşhəbin rəvayətinə əsasən, bunun nikahın səhihliyinin şərti olduğunu vurğulamışdır. Şafei də onunla həmfikir olmuşdur. Əbu Hənifə, Züfər, əş-Şə`bi və əz-Zühri isə demişlər: “Əgər qadın vəlisiz nikah bağlasa, həyat yoldaşı layiqli olduğu təqdirdə, bu icazəlidir”. Davud isə bu vəziyyətdə bakirə ilə ərdə olmuş qadın arasında fərq qoymuş, bakirənin evliliyində vəlinin icazəsinin şərt olduğunu, evli olmuş qadında isə belə bir icazəyə ehtiyac duyulmadığını bildirmişdir. Dördüncü rəy olaraq İbn Qasimin Malikdən vəlinin icazəsi ilə bağlı fikrini qeyd edir: “Bunun şərt olması fərz (vacib) deyil, sünnədir”. Belə ki, ondan rəvayət edilir ki, o, zövcələr arasında vəlisiz nikahdan mirasın icazəli olduğunu düşünür, şərafət sahibi olmayan qadının camaat arasından bir kişini öz nikahı üçün xələf təyin etməsinə icazə verir, ərdə olmuş qadının nikah əqdinin bağlanması üçün vəlisini önə keçirməsinin müstəhəbb olduğunu deyir. Sanki bu, onun nəzərində əqdin düzgünlüyünün deyil, kamilliyinin şərtidir”.[318]

Beləliklə, İbn Qasimin rəvayətinə əsasən, Əbu Hənifənin, Züfərin, əş-Şə`binin, əz-Zührinin və Malikin sözlərinə görə, vəlisinin (hamisinin) izni olmadan bakirə qızın nikah bağlaması icazəlidir. Bununla da müəllifin müvəqqəti nikah barədə iddia

---

[317] “Məbanil-urvətil-vusqa” (“Nikah” bölümü), 2/263.

[318] “Bidayətul-muctehid”, 3/44.

etdiyi fəsadlar aradan qalxır. Belə ki, bu fətvalara əsasən, müəllifin vurğuladığı böyük fəsad və xətalar səbəbindən o, daimi nikahın da haram elan edilməsinə hökm verməlidir.

* * *

**Müəllif iddia edir: "5. Müvəqqəti evlənənlərin əksəriyyəti mütə etmək üçün camaatın qızlarını özlərinə icazəli bilir, lakin bir kəs onların qızları və ya yaxınları barədə müvəqqəti evlilik üçün elçi gəldikdə buna razı olmur və təklifi qəbul etmirlər. Çünki onlar da bu evliliyin zinaya bənzədiyini düşünürlər və bu onlara ar gəlir. Onlar başqalarının qızları ilə müvəqqəti evləndikdə bunu zina kimi hiss edirlər və şübhəsiz ki, öz qızlarının başqaları ilə müvəqqəti evlənməsinə də məhz buna görə qarşı çıxırlar. Yəni, onlar camaatın qızları ilə mütə etməyi özlərinə icazəli bilir, bunun müqabilində başqalarının isə öz qızları ilə müvəqqəti evlənməsini qadağan edirlər.**

**Əgər müvəqqəti evlilik qanuni və icazəlidirsə, bəs nə üçün onların öz qızları və yaxınları ilə başqalarının mütə etmələrindən narahat olurlar?"**

**Cavab:** "Müvəqqəti evlənənlərin əksəriyyəti filan cür edirlər" iddiası havadan deyilmiş bir sözdür. Belə ki, müəllif iddiasında heç bir mötəbər statistik məlumata əsaslanmayıb.

Əgər belə bir faktın mövcudluğunu fərz etsək, bu, müvəqqəti evliliyin haram elan edilməsinə dəlil sayılmayacaq. Belə ki, bir çox halal olan məsələ vardır ki, heç kəs öz qızları və bacıları barədə bunlara razı olmaz. Onlardan:

- bir neçə qadınla evlənmək; kişi iki, üç və dörd qadınla evlənməyə razıdır, lakin öz qızının və ya bacısının kiminsə ikinci, üçüncü və ya dördüncü xanımı olmasına razı olmur.

- boşanma (talaq); kişi öz həyat yoldaşından rahatlıqla boşanır, lakin öz qızının və ya bacısının talaq verilməsinə razı deyildir.

- kişi həyat yoldaşının xəyanət etməsi iddiası ilə məhkəməyə müraciət edib bu barədə and içməyə və lənətləşməyə razıdır, lakin öz qızı və ya bacısı barədə belə bir iddia ilə məhkəməyə müraciət olunmasına razılıq verməz.

- kişi evlənmək istədiyi qadını evlilikdən öncə görməkdə israr edir, lakin öz qızını və bacısını görmələrinə razı deyildir.

- kişi xəstə və ya fəqir-yoxsul olduğu halda özünün evlənməsinə razıdır, lakin xəstə və ya yoxsul bir şəxslə qızını və bacısının evlənməsini qəbul etmir.

- kişi Səudiyyə Ərəbistanında misyar[319] adlanan evlilik növü ilə izdivac qurmağa razıdır, lakin qızının və ya bacısının misyar nikahına daxil olmasını qəbul etməz.

- qadınların xidmət göstərməsi; imkanlı şəxs ev işlərini görmək üçün xidmətçi qadın cəlb edir. Lakin o, qızının və ya bacısının xidmətçi olmasına razı deyildir.

- qadınların işlədilməsi; bir iş sahibi öz yanında qadınları işlə təmin edir, lakin o, qızının və ya bacısının eyni halla qarşılaşmasına razı deyildir.

- kişi bəzi qadınları kölə olaraq alıb onlarla cinsi yaxınlıq edir, lakin qızının və ya bacısının bu vəziyyətə düşürülməsinə razı deyildir.

Belə faktlar çoxdur. Bu ictihad və fəqihlik iddiaçısı qeyd olunan bütün bu məsələlərin haram elan edilməli olduğunumu düşünür?! Halbuki bu məsələlərdə də insan özü üçün razı olduğuna qızı və ya bacısı üçün razı deyildir!

Eləcə də, əgər müvəqqəti evlənən şəxslərin bir çoxunun öz qızlarını müvəqqəti evləndirməkdən boyun qaçırdıqları iddiasını qəbul etsək, bəlkə də bunun səbəbi onların daimi nikahla ailə qurmalarını istədiklərinə görədir. Ola bilsin ki, onların daimi evlənmələri müvəqqəti evlənmələrindən daha yaxşıdır. Yaxud qanunla təqib olunmaları və ya qızları üçün danlağa çevriləcəyi, ya layiqli bir ər namizədinin və ya da belə bir nikaha ehtiyaclarının olmaması və s. səbəbdəndir. Onların belə bir evlilikdən imtina etmələri heç də müəllifin iddia etdiyi kimi, bu nikahın halal olmadığına etiqadlarından irəli gəlmir.

* * *

[319] Misyar evliliyi kişinin qadınla vəlisinin razılığı ilə mehr təyin edərək şahidlər qarşısında evlənməsidir. Lakin qadın öz atasının evində qalır, xərclik, birlikdə gecələmə, bölgü və s. hüquqlardan məhrum qalır. Sadəcə ər öz cinsi tələbatını ödəmək üçün istədiyi zaman onun yanına gələ bilər.

**Müəllif iddia edir: “6. Mütə nikahı bağlanarkən şahidlik, elan etmək və qadının vəlisinin razılığı (şərt olaraq – Tərc.) yoxdur. Kişidən qadına heç bir miras qalmır, İmam Əbu Abdullaha (r.a) nisbət verilən sözə əsasən, qadın yalnız icarəyə götürülmüşdür. Belə bir nikahın camaat arasında icazəli və qanuni olması necə mümkündür?!”**

**Cavab:** Daimi evlilikdə şərt olan hər bir şey – evlilik təklifi və qəbulu, mehr, evlənəcək şəxslərin adları ilə müəyyən olunması, onların qarşılıqlı razılığı, qız bakirə olduqda vəlinin (haminin) icazəsi, qadının ərli və ya başqa kişinin iddəsində olmaması - müvəqqəti nikahda da şərtdir. Bu cəhətlərdən onların arasında heç bir fərq yoxdur. Bunlar nikahın mahiyyətini formalaşdıran şərtlərdir.

Ancaq şahidlik və nikahın elan olunması, bunlar müstəhəbb əməllərdir və onun gerçəkləşməsinə təsir göstərmir. Bu baxımdan daimi nikahda da şahidlik və elanın şərt olub-olmadığı barədə fərqli fikirlər irəli sürülüb.

“Rəhmətul-umməti fixtilafil-əimməh” kitabının müəllifi yazır: “Üçünün nəzərinə əsasən, şahidsiz nikah düzgün deyildir. Malik isə deyir: “Şahidsiz də düzgündür”. Yalnız nikah bağlandığı xəbər olaraq yayılmalı və onların razılığı gizlədilməməlidir. Hətta gizlində əqd bağlansa və nikahın gizlədilməsi şərt qoyulsa, Malikin nəzərinə əsasən, belə bir əqd pozular. Əbu Hənifə, Şafei və Əhmədin nəzərinə görə isə şahidlər olduğu halda əqdin gizlədilməsinin heç bir zərəri yoxdur”.[320]

Əhli-sünnə imamlarından üçü əqdin gizli bağlandığı təqdirdə şahidlərin varlığını şərt bildilər. Malik şahid olmasa belə əqdin elan edilməsini yetərli gördü və nikahın səhihliyi üçün şahidin varlığını şərt bilmədi. Digər üçü isə elanı nikah əqdinin düzgünlüyü üçün şərt hesab etdilər.

İbn Rüşd “Bidayətul-muctehid” kitabında deyir: “Əbu Sovr və bir dəstə alim deyir: “Şahidlik nikahın şərtlərindən deyildir, nə onun səhihliyinin və nə də

---

[320] “Rəhmətul-umməti fixtilafil-əimməh”, səh.393.

tamamlama şərti deyil. Həsən ibn Əli şahidsiz evlənmişdi. Ondan rəvayət olunur ki, o, şahidsiz evlənmiş, sonra da evləndiyini elan etmişdi”.[321]

İbn Qüdamə “əl-Muğni” kitabında yazır: “Əhməddən nəql olunur ki, nikah şahidsiz də səhihdir. İbn Ömər, Həsən ibn Əli, İbn Zübeyr, İbn Ömərin oğulları Salim və Həmzə belə etmişlər. Abdullah ibn İdris, Əbdürrəhman ibn Mehdi, Yezid ibn Harun, əl-Ənbəri, Əbu Sovr və İbn Munzir də eyni fikirdədirlər. əz-Zühri və Malik də elan olunduğu təqdirdə şahidə ehtiyac duyulmadığını demişlər. İbn Munzir deyir: “Nikahda şahidliklə bağlı heç bir xəbər sübuta yetməyib”. İbn Əbdül-Bərr deyir: “İbn Abbas, Əbu Hüreyrə və İbn Ömərin nəql etdikləri hədisə görə, Peyğəmbər (s) buyurur: *“Vəlisiz və iki ədalətli şahidsiz nikah yoxdur”.* Ancaq bu rəvayətin nəqlində zəiflik vardır. Onu burada qeyd etməyəcəyəm. İbn Munzir deyir: “Peyğəmbər Səfiyyə bint Həyyanı azad etdi və onunla şahidsiz evləndi”. Ənəs ibn Malik (r.a) deyir: “Peyğəmbər (s) yeddi quruşa bir cariyə aldı. Camaat dedi: “Bilmirik ki, Peyğəmbər onunla evlənəcək, yoxsa övlad sahibi kölə olaraq saxlayacaq”. Peyğəmbər (s) ondan örtünməsini istədikdə, onunla evləndiyini anladılar”. Bu hədisin (səhihliyi) barəsində yekdil fikir mövcuddur. Deyir: “Evləndiyinə örtünməsini dəlil göstərdilər”.[322]

Şövkani “Neylul-ovtar” kitabında deyir: “əl-Bəhr”də İbn Ömərdən, İbn Zübeyrdən, Əbdürrəhman ibn Mehdidən və Davuddan şahidliyin şərt olmadığı hekayə edilir”.[323]

İbn Rüşd deyir: “İxtilaf olunur ki, əgər iki şahid olsa və onlara nikahın gizlədilməsi tapşırılsa, bu sirdir, ya sirr deyildir? Malik deyir: “Bu, sirdir və bununla əqd pozulmuş olar”. Əbu Hənifə və Şafei isə bunun sirr sayılmadığını deyirlər”.[324]

---

[321] “Bidayətul-muctehid”, 3/53.

[322] “əl-Muğni”, 7/339.

[323] “Neylul-ovtar”, 6/127.

[324] “Bidayətul-muctehid”, 3/53.

Şübhə yoxdur ki, Əbu Hənifənin, Şafeinin və nikahda şahidliyi vacib hesab etməyən digərlərinin nəzərinə görə, nikah elan edilməsə belə, bu halda əqd icazəli və səhihdir.

Əhli-sünnə məzhəb imamlarının və digərlərinin nəql etdiyimiz fikirləri şahidlik və elanın nikahın düzgünlüyünə təsir etməyən məsələ olduğunun bəyanı üçün yetərlidir. Şərt olması barədə fikirlər isə nikaha dəlalət edən dəlillərin tamamlanması üçündür, şahidliyin nikahın mahiyyətinə təsir edən amil olmamasıdır.

Vəlinin (haminin) razılığı ilə bağlı məsələyə gəldikdə, əvvəldə də qeyd etdiyimiz kimi, vəlinin icazəsi olmadan bakirə qızla istər daimi, istərsə də müvəqqəti evlənmək halal deyildir. Ancaq ərdə olmuş qadın nikaha (istər daimi, istərsə də müvəqqəti) daxil olmaq seçimində ixtiyar sahibidir.

Vəlinin icazəsi olmadan bağlanan əqdin düzgünlüyü məsələsi isə əhli-sünnə imamları arasında ixtilaflıdır.

"Rəhmətul-umməti fixtilafil-əimməh" kitabının müəllifi yazır: "Şafeinin və Əhmədin nəzərində vəlisiz nikah səhih deyildir. Əgər qadın vəlisiz əqd bağlasa, bu, etibarsız sayılacaq. Əbu Hənifə deyir: Nikahı qadın özü bağlayır, malında təsərrüf haqqı olan bir şəxsi vəkil də edə bilər. Ərə getdiyi şəxs ona münasib olmadıqca, heç kəs onun bağladığı nikaha etiraz edə bilməz. Seçimi ona layiq şəxs olmazsa, vəlisi etiraz edə bilər. Malik deyir: Əgər qadın şərafət, gözəllik, mal-dövlət sahibi olarsa və (kişilər arasında) onun kimi bir qadına rəğbət bəslənərsə, vəlisiz nikah bağlaması səhih sayılmır. Əgər bunun əksi olarsa (qadın qeyd edilən vəsflərə malik olmazsa), o zaman qadının öz razılığı ilə yad bir şəxs də əqd bağlamağı öhdəsinə götürə bilər. Davud deyir: Əgər bakirə olsa, vəlisiz nikah bağlaması səhih deyildir, ancaq ərdə olmuş qadın olarsa, nikah düzgündür".[325]

Deməк, ixtiyarı özündə olan qadın barədə Əbu Hənifənin və ərdə olmuş qadın barədə Davudun, həmçinin Malikin şərafət, mal-dövlət və gözəllik sahibi olmayan qadın barədə sözlərinə əsasən, vəlisiz (onun icazəsi olmadan) nikah bağlamaq

[325] "Rəhmətul-umməti fixtilafil-əimməh", səh.388.

səhihdir. Onların arasındakı bu ixtilaf vəlinin razılığının nikahın gerçəkləşməsində (həqiqətində) təsir amili olmadığına dəlildir.

Miras məsələsinə gəldikdə, bu da nikahın gerçəkləşməsinə müdaxilə amili sayılmır. Belə ki, əhli-sünnə imamları mirassız da nikahın səhih olduğunu qeyd edirlər. Ona görə də əhli-kitabdan olan kifir qadınla evlənməyi icazəli bilirlər. Halbuki onlar müsəlmanla kafir arasında miras məsələsi olmadığına hökm edirlər. Onların nəzərinə görə, nə müsəlman kafirdən və nə də kafir müsəlmandan irs aparmır.

Əhli-kitaba mənsub qadınla nikah bağlamağın icazəli olduğuna dair isə yekdil fikrə sahibdirlər.

İbn Qüdamə "əl-Muğni"də yazır: "Allaha həmd olsun ki, elm əhli arasında kitab əhlinin azad qadınlarının halal olduğuna dair heç bir fikir ayrılığı (ixtilaf) yoxdur. İbn Munzir deyir: "Əvvəlkilərdən hansınınsa bunu haram bildiyi barədə fikir doğru deyildir. Xəllal öz istinadı ilə Hüzeyfə, Təlhə, Carud ibn Muəlla və Üzeynə əl-Əbdinin kitab əhlindən olan qadınlarla evləndiklərini bildirir. Digər elm əhli də bunu demişlər".[326]

Buna Uca Allahın sözləri də dəlalət edir: ***"Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (kitab əhlinin - yəhudilərin və xaçpərəstlərin) azad və ismətli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır".***[327]

Müsəlmanla kafir arasında mirasın olmadığını İbn Qüdamə öz sözlərilə belə ifadə edir: "Elm əhli kafirin müsəlmandan miras apardığına dair icma etmişlər. Səhabə və fəqihlərin böyük hissəsi demişlər: "Müsəlman şəxs kafirdən miras aparmaz". Bu, Əbu Bəkrdən, Ömərdən, Osmandan, Əlidən, Üsamə ibn Zeyddən və Cabir ibn Abdullahdan (Allah onlardan razı olsun!) da rəvayət edilmişdir. Həmçinin

[326] "əl-Muğni", 7/500.

[327] "əl-Maidə" surəsi, ayə 5.

Əmr ibn Osman, Ürvə, əz-Zühri, Əta, Tavus, Həsən, Ömər ibn Əbdüləziz, Əmr ibn Dinar, əs-Sovri, Əbu Hənifə və əshabı, Malik, Şafei, ümumən fəqihlər bunu söyləmiş və buna müvafiq olaraq davranmışlar".[328]

Qeyd edilənlərdən aydın olur ki, həyat yoldaşı olan kafir qadın müsəlman ərindən miras aparmır. Həmçinin müsəlman ər də onların nəzərinə əsasən, kafir qadından miras payı götürə bilməz. Lakin bizim nəzərimizə görə, kafir qadın müsəlman kişidən miras aparmasa da, müsəlman ər ondan irs alır.

Eyni hal hər iki tərəf kölə olduqda da keçərlidir. Onlar da bir-birindən miras aparmırlar. Çünki kölə heç bir şeyə malik deyildir, nə ondan miras alınır və nə də o irs aparır.

İbn Qüdamə deyir: "Kölədən irs aparılmamasına dair fikir ayrılığı yoxdur. Yalnız İbn Məsuddan nəql edilən bir rəvayət vardır. Həmin rəvayətdə qeyd olunur ki, dünyadan köçən bir şəxsin özündən sonra kölə atası qalır. Dünyadan köçən şəxsin pulu ilə atası qul olaraq alınır və azad edilir, ardınca oğlundan miras aparır... Burada onun oğlundan irs aparmasında, eləcə də mürtəd kəs kimi varis olmasına bir maneə olduğu görünür...".

Ta ki, deyir: "Kölədən miras aparılmadığı barədə icma vardır. Çünki o, heç nəyə malik deyil, onun malı yoxdur ki, miras da aparılsın".[329]

Halbuki müvəqqəti nikah bütün bu qeyd edilən məsələlərə də şamildir. Əgər izdivac bağlayan iki tərəfdən biri şərt kimi irəli sürsə, bu nikahda da şahidlik və elan etmək, miras, xərclik, gecələmə kimi məsələlər də razılaşmaya daxil ola bilər. Beləliklə, bütün cəhətlərdən eynilə daimi nikah kimi olur. Yalnız fərq təyin olunmuş müddətin başa çatması ilə evliliyin bitməsindədir. Daimi nikah isə talaqla sona çatır. Aydın olduğu kimi, müddətin bitməsi və talaq nikahı aradan aparan amillərdir və nikahın gerçəkləşməsinə təsir etmirlər.

---

[328] "əl-Muğni", 7/166.

[329] "əl-Muğni", 7/131.

Nəticə olaraq, istər daimi, istərsə də müvəqqəti nikahdakı cütlüyün arasında irs aparmaq məsələsi həm ola, həm də olmaya bilər. Bu, evliliklə qətiyyən ziddiyyət təşkil etmir. Çünki evlilik miras üzərində formalaşmır.

Ancaq İmam Əbu Abdullah Sadiqdən (ə) nəql edilən rəvayətdə deyildiyi kimi: *"Müvəqqəti evlilikdə olan qadınların dörd qadından biri hesab olunub-olunmadığı barədə ondan soruşulduqda buyurdu: "Min qadınla müvəqqəti evlənə bilərsən. Onlar icarəyə götürülmüşlərdir"*[330] sözünə əsasən, müəllifin müvəqqəti evlənmiş qadının icarə olması iddiasına gəldikdə, bunun cavabında deyirik: Rəvayət barədə müzakirə həm onun sənədi, həm də dəlaləti barədə aparılır.

Sənəd etibarı ilə rəvayət zəifdir. Raviləri arasında Sə`dan ibn Müslim vardır ki, tərcümeyi-hal kitablarında onun inanılan şəxs olduğu sübuta yetməyib.[331]

Dəlalət cəhətinə gəldikdə, orada qadınların icarə adlandırılmasından savayı heç bir dəlalətin müşkülü yoxdur.

Bu irad isə rəvayətə azacıq nəzər salmaqla dəf edilə bilər. Belə ki, həm daimi, həm də müvəqqəti nikahda olan qadının eyni dərəcədə icarəyə götürülmüş hesab olunmasında bir maneə yoxdur. Xüsusilə də Allahın kitabında mehrin məhz "əcr"[332] kəlməsi ilə istifadə edildiyi nəzərdən qaçmamalıdır.

Uca Allah buyurur: ***"Ya Peyğəmbər! Əcrlərini verdiyin zövcələrini, Allahın sənə qənimət olaraq verdiklərindən sahib olduğun cariyələri,..".***[333]

***"Ey iman gətirənlər! Mömin qadınlar sizin yanınıza mühacir kimi gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını çox gözəl bilir (onları yoxlayıb bilmək sizə lazımdır). Əgər bunların (bu qadınların həqiqi) mömin olduqlarını bilsəniz, artıq onları kafirlərin yanına qaytarmayın. Nə bunlar (bu***

---

330 "əl-Kafi", 5/452; "əl-İstibsar", 3/147.

331 Bax: "Mö`cəmu ricalil-hədis", Seyid Xoi, 8/98, 99.

332 "Əcr" və "icarə" sözləri ərəb dilində eyni kökdəndirlər. Əcr – muzd, icarə qarşılığıdır; hədisin ərəbcə mətnində istifadə edilən "müstə`cirə" kəlməsi isə "əcr müqabilində icarəyə götürülmüş qadın" mənasını ifadə edir – Tərc.

333 "əl-Əhzab" surəsi, ayə 50.

***qadınlar) onlara (kafirlərə), nə də onlar bunlara halaldır. Onların (kafirlərin həmin qadınlara) xərclədiklərini özlərinə qaytarıb verin. Bunların (bu qadınların) əcrlərini özlərinə verdiyiniz təqdirdə onlarla evlənməyinizdən sizə heç bir günah gəlməz”.***[334]

***“...İstifadə (mütə) etdiyiniz qadınların əcrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!”***[335]

***“İçinizdən azad mömin qadınlarla evlənməyə maddi imkanı olmayanlar sahib olduğunuz (əllərinizin altında olan) mömin (cavan, iffətli) cariyələrdən (kənizlərdən) alsınlar. Allah sizin imanınızı (əqidənizi) daha yaxşı bilir. Hamınız bir-birinizdənsiniz. İffətini qoruyub saxlayan, zinakarlıq etməyən və aşnası olmayan cariyələrlə sahiblərindən icazə alıb evlənin və onların əcrlərini qəbul olunmuş qaydada verin!”***[336]

***“Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli qadınları əcrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır”.***[337]

Və mehrin əcr adlandırıldığı digər ayələr...

Məhz bu mənanı əhli-sünnə alimləri də öz təfsirlərində qeyd ediblər.

Qurtubi öz təfsirində yazır: ***“İstifadə (mütə) etdiyiniz qadınların əcrlərini lazımi qaydada verin!”*** ayəsində istifadə - ləzzət, əcr isə mehr mənasındadır. Mehrin əcr adlandırılması ləzzətin muzdu olduğuna görədir. Bu isə mehrin əcr

---

334 “əl-Mumtəhinə” surəsi, ayə 10.

335 “ən-Nisa” surəsi, ayə 24.

336 “ən-Nisa” surəsi, ayə 25.

337 “əl-Maidə” surəsi, ayə 5.

adlandırılmasının dəlilidir. Həmçinin bu müəyyən bir şeyin müqabili deməkdir. Çünki hansısa mənfəətin qarşılığı məhz onun əcri adlanır”.[338]

Təbəri öz təfsirində yazır: ***“...əcrlərini lazımi qaydada verin!”*** – yəni onların mehrlərini verin. Necə ki, Yunus bizə rəvayət edir: “İbn Vəhəb bizə xəbər verir ki, İbn Zeyd deyir: ***“əcrlərini verin!”*** yəni mehrlərini verin”.[339]

Həmçinin deyir: ***“əcrlərini verdiyiniz... təqdirdə”*** - əcr kişinin qadından aldığı ləzzətin əvəzidir. əl-Müsənnanın söylədiyi kimi, bu mehridir. Deyir: Əbu Saleh deyir... İbn Abbas ***“əcrlərini verdiyiniz... təqdirdə”*** ayəsi barədə deyir: “Yəni mehrlərini”.[340]

Deyir: ***“Ya Peyğəmbər! Əcrlərini verdiyin zövcələrini, Allahın sənə qənimət olaraq verdiklərindən sahib olduğun cariyələri,..”*** ayəsinin təfsiri belədir ki, yəni təyin olunmuş mehr qarşılığında evləndiyin qadınlar. Necə ki, Muhəmməd ibn Əmr... Mucahiddən rəvayət edir: ***“Əcrlərini verdiyin zövcələrini,..”*** – yəni mehrlərini”.[341]

İbn Kəsir öz təfsirində yazır: ***“əcrlərini qəbul olunmuş qaydada verin...”*** – mehrlərini qəbul olunmuş qaydada verin”.[342]

Həmçinin deyir: ***“əcrlərini verdiyiniz... təqdirdə”*** - yəni mehrlərini”.[343]

İmam Şafei deyir: “Uca Allah kişiyə evləndiyi qadınların əcrini və mehrini verməyi buyurmuşdur. Əcr həmin mehrdir. Mehr də əcrdir. Bu ərəb kəlmələridir ki, bir neçə adla adlandırılmışdır”.[344]

Buxari öz “Səhih”ində yazır: “Əcrlərini - yəni mehrlərini”.[345]

Əhli-sünnənin əcrin mehr olduğunu bildirən sözləri sayılmayacaq qədər çoxdur.

---

338 “əl-Camiu liəhkamil-Qur`an”, 5/129.

339 “Təfsiru Təbəri”, 5/19.

340 “Təfsiru Təbəri”, 6/69.

341 “Təfsiru Təbəri”, 22/20.

342 “Təfsiru Qur`anil-əzim”, 1/476.

343 “Təfsiru Qur`anil-əzim”, 2/22.

344 “Əhkamul-Qur`an”, 1/196.

345 “Səhih”, Buxari, 3/1403.

Əhli-sünnənin bəzi böyük alimlərinin nikahdakı icarə məsələsi ilə bağlı fətvalarını möhtərəm oxucu üçün qeyd etməyin məqamı olduğunu düşünürük.

1. Qurtubi təfsirində yazır: “Əbul-Həsən əl-Kərxi deyir: “İcarə kəlməsindən istifadə etməklə nikah əqdi oxumaq icazəlidir. Dəlil isə Uca Allahın ***“əcrlərini verin”*** sözüdür...”. Əbul-Qasim deyir: “Toxunmazdan öncə puç olar, sonra isə təsdiqlənər”.[346]

Məqsədi budur ki, əgər qadınla cinsi yaxınlıq etmiş olsa, əqd düzgündür və nikah sübuta yetmişdir, əgər yaxınlıq etməmişsə, pozular.

2. Həmçinin deyir: “Şafei əshabı ***“Mən səninlə nikah bağlamaq istəyirəm”*** ayəsini dəlil gətirirlər ki, əqd məhz nikah və izdivac sözləri ilə tələffüz olunmalıdır... Bizim alimlərimiz isə məşhur rəy olaraq deyirlər: “Əqd hər bir kəlmə ilə bağlana bilər”. Əbu Hənifə deyir: “Qadın üzərində həmişəlik sahibliyi ifadə edən hər bir kəlmə ilə əqd oxuna bilər”.[347]

Hər bir kəlmə ilə əqdin bağlana biləcəyində məqsəd icarə, hədiyyə, mülkiyyət və ya başqa kəlmələrdir. Şiə alimləri belə nikah əqdini doğru saymırlar. Belə ki, onlar nikah qədində yalnız izdivac və ya nikah kəlmələrindən istifadə edilməsini düzgün bilirlər.

3. Əbu Hənifə fətva verir ki, əgər qadın cinsi yaxınlıq üçün icarə olunsa və aralarında nikah əqdi bağlanmasa, bu, zina deyildir və heç bir cəzası da yoxdur. Onun nəzərinə görə zina sırf rəğbət və meyl səbəbindən baş verən cinsi əlaqədir. Ancaq bir bəxşişi olan münasibət zina deyildir.[348]

4. İbn Teymiyyə “İqtizaus-siratil-mustəqim”də deyir: “Əgər bir şəxs şərab satmaq, yaxud kilsə və ya sinaqoq etmək üçün bir evi kirayə götürsə, bu, qəti icazəli deyildir. Şafei də bunu deyib. Necə ki, özünün qadın və ya kişi qulunu günah üçün

[346] “əl-Camiu liəhkamil-Qur`an”, 13/273.

[347] “əl-Camiu liəhkamil-Qur`an”, 13/273.

[348] “əl-Muhəlla”, 12/196.

kirayə verməsi də icazəli deyildir. Əbu Hənifə isə deyir: "Qadın köləsini bunun üçün icarəyə verməsi icazəlidir".[349]

Qeyd etdiklərimizdən aydın olur ki, mehr həm də əcr adlanır. Beləliklə, həmin hədisdəki "müstə`cirə" (icarəyə götürülmüş qadın) kəlməsinin mənası mehri verilmiş qadınlar deməkdir.

Buna əsasən, hədisin sənədinin zəif olmasına baxmayaraq, onda heç bir müşkül yoxdur.

* * *

**Müəllif iddia edir: "7. Mütə nikahı əxlaqsız kişi və qadınlara öz mənfur əməllərini dinin adına bağlamağa imkan yaradıb. Bu da öz növbəsində dinin və dindarın obrazının təhrifinə gətirib çıxarıb".**

**Cavab:** Bu iddia da dəlilsizdir və heç bir dəyəri yoxdur. Belə ki, əxlaqsız kişi və qadınların öz rəzil əməllərinə müvəqqəti nikahla bəraət qazandırmalarına ehtiyacları yoxdur. Onlar onsuz da dini təlimlərdən və onun hökmlərindən uzaq kəslərdir. Öz əməllərini dinə necə bağlaya bilərlər?!

Əgər şiələrin əxlaqsız kişi və qadınları belə edirlərsə, o zaman əhli-sünnə məzhəbinin və digər cərəyanların əxlaqsızlıqla məşğul olan mənsubları nə edirlər? Onlar da öz rəzil əməllərinə bəraət qazandırmaq üçün dinin adından istifadə edirlər? Yoxsa din adı ilə özünü təmizə çıxarmaq xüsusiyyəti yalnız fasiq şiələrə məxsusdur?! Bəlkə əhli-sünnənin günahkarları öz çirkin əməllərinə bəraət qazandırmağa ümumiyyətlə əhəmiyyət vermirlər?

Əgər şiə əxlaqsızlarının halallığına etiqad bəslədikləri müvəqqəti evliliyə uyğun izdivac qurduqlarını qəbul etsək, hər bir halda bu, əhli-sünnə mənsublarından olan zinakarların haramlığına icma etdikləri qanunsuz cinsi yaxınlığa (zinaya) düçar olmaqdan daha yaxşıdır.

Müvəqqəti evliliyi öz günah əməlləri üçün alətə çevirmək həmin nikahı haram qılmaz. Əks təqdirdə daimi nikah da haram edilməlidir. Çünki günahkarlar və dini öz əməllərinə alət edənlər də daimi nikahı öz günah niyyətləri üçün istifadə edirlər.

---

[349] "İqtizaus-siratil-mustəqim", səh.236.

Eləcə də bəzi qadınlar zinakarlıqlarının üstünü örtmək və ya zinadan uşaq dünyaya gətirməkdən qorxduqları üçün nikah bağlayır, bəziləri nikaha qazanc məqsədilə daxil olur... və hamıya məlum olan digər səbəblər...

İctihad və fəqihlik sahibi bu kəs müvəqqəti evliliyin haram edilməsinə dəlil kimi gördüyü bu səbəblərə görə daimi nikahın da haram qılınmalı olduğunu düşünmürmü?!

* * *

**Müəllif iddia edir: "Bununla da müvəqqəti evliliyin din, cəmiyyət və əxlaq adına zərərləri bizə aydın olur. Mütə nikahı məhz buna görə haram edilmişdir. Əgər onda hansısa bir fayda olsaydı, əsla haram qılınmazdı. Lakin fəsadı çox olduğu üçün Peyğəmbər (s) də, Əmirəl-möminin (r.a) də onu haram etmişlər".**

**Cavab:** Şəkkə yer qalmadan aydın oldu ki, müəllifin müvəqqəti evlilik adı ilə yanlış rəftarlardan dolayı ortaya çıxan fəsadlar barədəki iddiaları eynilə daimi nikaha da şamildir. Lakin belə rəftarlar halallığı səhih dəlillərlə sübuta yetmiş bir işi əsla haram edə bilməz. Yoxsa bir çox əməllər, hətta bəzi ibadətlər də məqsədli istifadəyə görə haram edilməlidir. Bunu isə heç kəs edə bilməz.

Həmçinin müəllifin din, cəmiyyət və əxlaq adına yaranan zərərlər barədəki iddiaları da boş iddiadan başqa bir şey deyildir, heç bir dəlilə söykənmir və höccət hesab olunmur.

Müvəqqəti evliliyin din, cəmiyyət və əxlaqda yaratdığı fəsadlar səbəbindən haram edildiyi iddiasının isə batil və puç olduğu aydındır. Çünki mübahisə mövzusu onun haram və ləğv edilməsi barədədir. Bu fakt isə, əvvəldə də qeyd etdiyimiz kimi, səhih heç bir dəlillə isbatlanmır.

Mütə nikahının zərərləri barədə müəllifin iddialarının dəf edilməsi üçün Əmirəl-möminin Əlinin (ə) və İbn Abbasın (r.a) sözləri kifayətdir: *"Əgər Ömər mütə nikahını qadağan etməsəydi, bədbəxtdən savayı heç kəs zina etməzdi". "Mütə Allahın bir rəhmətidir ki, Muhəmmədin (s) ümmətinə lütf etmişdir".* Halbuki bu nikahın qanuniliyi ondakı böyük mənfəətin və bir çox faydanın varlığına dəlildir.

* * *

**Müəllif iddia edir: “Qeyd: İmam Xoidən Əmirəl-mömininin Xeybər savaşı günü mütə nikahının haram edilməsinə dair sözləri, eləcə də Əbu Abdullahdan şahidsiz evliliyin Peyğəmbər (s) zamanında məşhur olub-olmadığı haqda suala cavabı barədə soruşduğumda dedi: “Əmirəl-mömininin Xeybər savaşı günü mütə nikahının haram edilməsi barədə sözü yalnız həmin gün haram olduğunu bildirir və ondan sonrakı vaxtlara şamil deyildir”. Əbu Abdullahın cavabı barədə isə İmam Xoi dedi: “Əbu Abdullah bunu təqiyyə edərək söyləmişdir. Bu, fəqihlər arasında yekdil fikirdir”.**

**Cavab:** Müəllifin etibarsızlığı səbəbindən nəql etdiyi söhbətlərin heç bir dəyəri yoxdur. Bundan əlavə, Seyid Xoiyə nisbət verdiyi sözlər də açıq-aşkar yalan və iftiradır. Bu, sıravi tələbəyə belə məlumdur. Belə ki, fəqih və müctehidlər ustadı olan fəzilətli bir şəxsin dilindən fəzilətli kəlamdan başqa bir şey çıxmaz. Halbuki rəvayətin sənədi açıq-aydın zəif olması ilə bərabər, mütə nikahının halal olduğunu bildirən bir çox mütəvatir hədislərə də ziddir. Necə ki, əvvəldə bunu qeyd etdik.

İkinci hədisin də sənədinin zəif olmasına rəğmən, mətnindəki dəlaləti izah etdik. Burada həmin mövzunu təkrarlamağa lüzum görmürük.

* * *

**Müəllif iddia edir: “Dedim: Həqiqət budur ki, fəqihlərimizin sözü heç də doğru deyildir. Çünki Xeybər savaşı günü müvəqqəti nikahın qadağan edilməsi əhliləşdirilmiş ulağın ətinin haram edilməsilə yanaşı olmuşdur. Halbuki əhliləşdirilmiş ulağın ətinin haramlığı Xeybər savaşı günündən bu günədək davam edir və qiyamətədək də belə qalacaq. Müvəqqəti evliliyin qadağasının yalnız Xeybər savaşı gününə aid olması dəlilsiz bir iddiadır. Xüsusilə də mütə nikahı ilə birlikdə həmin gün əhliləşdirilmiş ulağın ətinin də haram edildiyi və bu günədək haram olaraq qaldığı nəzərdən qaçmamalıdır”.**

**Cavab:** Şiə fəqihlərinə atdığı böhtan qətiyyən doğru deyil. Belə ki, biz Şeyx Tusinin (q.s) bu hədislə bağlı “ət-Təhzib” və “əl-İstibsar” kitablarında qeyd etdiyi sözlərini burada nəql etmişik. O, həmin hədisin əhli-sünnə məzhəbinə uyğun olaraq təqiyyə səbəbindən söyləndiyini bildirirdi.

Hürr Alumi “Vəsailuş-şiə” kitabında yazır: “Şeyx və başqaları bu hədisi təqiyyə üzərindən söylənən hədislərə aid ediblər. Belə ki, müvəqqəti evlilik imamiyyə (şiə) məzhəbinin zəruri məsələlərindəndir”.[350]

Feyz Kaşani “əl-Vafi”də yazır: “Belə kəlmələrlə Əmirəl-mömininə (ə) təqiyyəni nisbət vermək, bəlkə də uzaq fikirdir. Həqiqətdə bu, hədis uyduran bəzi ravilərə nisbət verilməlidir”.[351]

Bunlar şiə alimlərinin fikirləridir. Müəllifin Xoiyə nisbət verdiyi sözlərdə heç bir batil və ya yanlış yoxdur.

Əhliləşdirilmiş ulağın ətinin yeyilməsinin haramlığına gəldikdə, bu ictihad və fəqihlik iddiaçısının zənn və iddiasının əksinə olaraq, onun yeyilməsi heç də haram deyildir. Bu da onun həmişəki bir çox böyük səhvlərindən biridir. Yoxsa ulaq ətinin yeyilməsinin halal olması barədə yekdil fikrin (icmanın) mövcud olması bir fəqihə necə gizli qala bilər?! İctihad sahibi bir fəqih belə sadə bir məsələni necə bilməz?!

Əhliləşdirilmiş ulağın ətinin yeyilməsinin halal, lakin bəyənilməyən olduğuna dair şiə alimlərindən bir neçəsinin sözlərini sizə təqdim edirik:

Seyid Mürtəza (q.s) deyir: “Fəqihlər İbn Abbasdan (r.ə) əhli-sünnə məzhəbinə uyğun rəvayət nəql etsələr də, imamiyyə şiələrini digər məzhəblərdən fərqləndirən hökmlərdən biri də əhliləşdirilmiş ulağın ətinin halal sayılmasıdır. Halbuki digər məzhəblərin fəqihləri bunu haram bilirlər”.[352]

Şeyx Tusi (q.s) özünün “əl-Xilaf” kitabında yazır: “Əhliləşdirilmiş ulağın və qatırın ətini yemək icazəlidir. Onda bəzi kərahət olsa da, ancaq qadağan deyildir. Həmin kərahəti İbn Abbas ulaq[353], Həsən Bəsri isə qatır haqqında söyləmişdir. Əhli-sünnənin bütün alimləri bu məsələdə bizə müxalif olmuş və bu heyvanların ətinin

---

[350] “Vəsailuş-şiə”, 14/441.

[351] “əl-Vafi”, 3/55, “Nikah” bəhsləri.

[352] “əl-İntisar”, səh.193.

[353] “Əhkamul-Qur`an”, əl-Cəssas, 3/17; “əl-Muğni”, İbn Qüdamə, 11/66; “əş-Şərhul-kəbir”, 11/66; “Bidayətul-muctehid”, 3/25 (Bunlar həmin rəvayətin əhil-sünnə kitablarında qeyd edildiyi mənbələrdir – Tərc.).

yeyilməsinin haram olduğunu söyləmişlər.[354] Bizim dəlilimiz məzhəbimizin icması və onların nəql etdikləri xəbərlərdir. [355] Həmçinin hökmün əsli mübahlıqdır, qadağası barədə hökm isə dəlilə ehtiyac duyur. Eləcə də Uca Allahın sözünə əsaslanırıq: ***“De ki, mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü ...donuz əti... istisna olmaqla, haram buyurulan bir şey görmürəm”.***[356] Ayənin zahirinə əsasən, bunlardan savayı bütün heyvanlar mübahdır, yalnız dəlillə haram olduqları qeyd edilənlər istisna olunur”.[357]

“əl-Cəvahir” kitabının müəllifi Muhəmməd Həsən ən-Nəcəfi yazır: “At, qatır və əhliləşdirilmiş ulaq əti məkruhdur. “əl-Xilaf”a əsasən, bu barədə icma vardır. Necə ki, “əl-İntisar” və “əl-Ğunyə” kitablarında birinci və üçün heyvan barədə hökmün imamiyyə şiə məzhəbini digərlərindən fərqləndirən hökmlərdən olduğu deyilir. Bütün bunlar isə əslin (mübahlığın) hökmünə və çoxsaylı mütəvatir və ya məzmunu qəti olan xəbərlərə əsaslanır. Muhəmməd ibn Müslim deyir: “İmam Əbu Cəfərdən (ə) at, qatır və ulaq əti barədə soruşdum, buyurdu: *“Halaldır, lakin camaat onların ətindən ikrah duyur...”.*[358]

Seyid Əli Təbətəbai “Riyazul-məsail”də yazır: “At, qatır və əhliləşdirilmiş ulaq əti məkruhdur. Haram olmadığında heç bir ixtilaf yoxdur. İlk iki heyvan barədə hökm daha zahirdir. Sonuncu iki heyvan barədə isə “əl-İntisar” və “əl-Ğunyə” kitablarında

---

[354] Bax: “Şərhu Muslim”, ən-Nəvəvi, 12/168, 13/91; “Tuhfətul-əhvəzi”, 5/415; “Ovnul-mə`bud”, 10/286; “Şərhu məanil-asar”, 4/210; “Əhkamul-Qur`an”, əl-Cəssas, 3/17; “əl-Məbsut”, əs-Sərəxsi, 11/232; “Fəthul-Bari”, 9/539; “əl-Muhəlla”, 6/78-79; “əl-Muğni, İbn Qüdamə, 11/66; “əş-Şərhul-kəbir”, 11/65; “Kitabul-umm”, 2/251; “Subulus-səlam”, 4/146; “Bidayətul-muctehid”, 3/25; “Rəhmətul-umməti fixtilafil-əimməti”, səh.250 (Bunlar əhli-sünnə alimlərinin məsələ ilə bağlı fətvalarının qeyd edildiyi mənbələrdir – Tərc.).

[355] Bax: “əl-Kafi”, 6/245; “”ət-Təhizb”, 9/41; “əl-İstibsar”, 4/73-74.

[356] “əl-Ənam” surəsi, ayə 145.

[357] “əl-Xilaf”, 6/80.

[358] “Cəvahirul-kəlam”, 36/265.

bunun imamiyyə şiələrini digərlərindən fərqləndirən hökmlərdən olduğu qeyd edilir. Əzhər rəy üçüncü heyvan barədədir və bu, məşhurdur. Nəinki, hətta sonrakılar ümumən həmin fikirdədirlər. “əl-Xilaf” kitabında əvvəlki iki icmadan əlavə, ilk iki heyvanın halallığı barədə icma olduğu deyilir. Bu isə höccətdir (dəlildir). Bundan əlavə, əslən mübahlığı, qəti əqli, eləcə də kitab, sünnə və icmanın çoxsaylı nəqli dəlilləri bu hökmün dəlilidir. Hətta rəvayətlər mütəvatirdir, onların arasında səhih və digərləri vardır”.[359]

Bəzi səhih rəvayətlərdən məlum olur ki, Peyğəmbər (s) Xeybər savaşı günü əshabına əhliləşdirilmiş ulaq əti yeməyi qadağan etmişdir. Çünki həmin ulaqlar o gün onların minikləri və yüklərini daşımaq vasitələri idi. Lakin ulaq ətini onlara haram etməmişdir.

Bu rəvayətlərdən biri Muhəmməd ibn Müslimin və Zürarənin İmam Əbu Cəfər Baqirdən (ə) nəql etdikləri xəbərdir. Onlar İmamdan (ə) əhliləşdirilmiş ulaq ətinin yeyilməsi barədə soruşduqda o, belə cavab vermişdir: *“Peyğəmbər (s) Xeybər savaşı günü ulaq ətini yeməyi qadağan etmişdi. Onları bundan yalınız həmin gün üçün çəkindirmişdi. Belə ki, o gün ulaqlar əshabın minikləri və yük daşımaq üçün vasitələri idi. Həqiqətən də haram buyurulan heyvanlar Uca Allahın Quranda haram etdikləridir”.*

Əbu Carud İmam Əbu Cəfərin (ə) belə buyurduğunu eşitdiyini nəql edir: *“Müsəlmanlar Xeybər savaşı günü cihad edirdilər. Onlar yemək məqsədilə kəsmək üçün öz miniklərinə tərəf üz tutdular, lakin Peyğəmbər (s) qazanlarda qalan yeməklə kifayətlənmələrini buyurdu, ulağın əti haramdır deyə buyurmadı. Bu fərmanı miniklərin qorunması üçün idi”.*[360]

Həmçinin Muhəmməd ibn Müslimin İmam Əbu Cəfər Baqirdən (ə) nəql etdiyi səhih rəvayətdə deyilir: *“Peyğəmbər (s) ulaq ətini yeməyi qadağan etdi. Bundakı məqsədi onların yük daşımaq üçün lazım olması, kəsilərək tükənəcəyindən qorxması*

---

[359] “Riyazul-məsail”, 8/231.

[360] “Vəsailuş-şiə”, 16/323.

*idi. Ulaq əti haram deyildir”.* Sonra bu ayəni oxudu: ***“De: “Mənə gələn vəhylər içərisində murdar olduqları üçün...”.***[361] Ta ayənin sonunadək”.[362]

Müslim öz “Səhih”ində İbn Ömər sənədilə rəvayət edir: *“Peyğəmbər (s) Xeybər savaşı günü əhliləşdirilmiş ulaq ətini yeməyi qadağan etdi. Belə ki, həmin gün camaatın ulağa ehtiyacı vardı”.*[363]

İbn Abbasdan rəvayət olunur: *“Bilmirəm, Peyğəmbər (s) ulağı camaatın ona olan ehtiyacına görə qadağan etdi, minik və yük daşımaq üçün heyvan qıtlığı yaşanmasını istəmədi, yoxsa Xeybər savaşı günü əhliləşdirilmiş ulağın ətini haram etdi?”*[364]

Bu rəvayətlər açıq şəkildə Peyğəmbərin (s) həmin gün camaatın ulaqlara ehtiyacı olduğu üçün ətinin yeyilməsini qadağan etdiyinə, lakin şəri olaraq haram buyurmadığına dəlalət edir. Ancaq bəziləri bu qadağanın şəri olaraq haram elan olunması kimi anladılar və haramlığına fətva verdilər.

Əgər əhli-sünnənin altı səhih kitabındakı və digər mənbələrində əhliləşdirilmiş ulaq ətinin haram olduğuna dair digər səhabələrdən rəvayət etdikləri hədislərə diqqət yetirsək (onların çoxluğuna rəğmən), Xeybər savaşı günü müvəqqəti evliliyin haram edilməsindən söz açmadıqlarını görəcəyik. İstisna yalnız Əmirəl-möminin Əlidən (ə) nəql olunan rəvayətdir. Bu isə mütə nikahının haramlığının hədisdə saxtakarlıq edərək sonradan ona əlavə olunduğuna dəlalət edir.[365]

Əgər hədisin Əmirəl-mömininin (ə) söylədiyi formada səhihliyini fərz etsək, yenə də qadağadakı məqsədin haramlıq olduğu ifadə edilməz. Belə ki, Peyğəmbər (s)

---

361 “əl-Ənam”, surəsi, ayə 145.

362 “Vəsailuş-şiə”, 16/324.

363 “Səhih”, Müslim, 3/1538.

364 “Səhih”, Müslim, 3/1539.

365 Bax: “Səhih”, Buxari, 3/1282-1283; “Səhih”, Müslim, 3/1537-1541; “əs-Sünən”, Tirmizi, 4/254; “Sünən”, Əbu Davud, 3/356; “Sünən”, Nəsai, 7/230-233; “Sünən”, İbn Macə, 2/1064-1066; “Sünən”, Darəmi, 1/517.

həmin gün onların qadınlara diqqət ayırıb yəhudilərlə savaş istəklərinin soyumaması üçün bunu qadağan etmiş ola bilər. Doğrusunu Allah bilir!

* * *

**Müəllif iddia edir: "Buna əsasən, əgər müvəqqəti nikahın qadağası yalnız Xeybər savaşı gününə aid idisə, o zaman Peyğəmbər (s) sonradan bu qadağanın ləğv edildiyini elan etməli idi. Halbuki biz mütənin icazəli olma səbəbinin səfər və hərb olduğunu nəzərdən qaçırmamalıyıq. Necə ola bilər ki, əsgər evindən və qadınlarından uzaqda olduğu üçün ona daha çox ehtiyac duyduğu bir vaxtda mütə nikahı qadağan edilsin, ancaq sülh və asayiş vaxtı icazəli olsun?!**

**Onun (r.a) sözlərinin mənası budur ki, mütə Xeybər günü haram elan edildi və qadağa məhz həmin gündən etibarən qüvvədədir. Ancaq fəqihlərimizin sözləri isə mətnlə oynamaqdan savayı bir şey deyildir".**

**Cavab:** Onun bu iddialarına yuxarıda cavab vermişik, burada bir daha təkrarlamağa ehtiyac görmürük.

Mətnlə oynamaq adətən mətnin bir hissəsini əsas götürüb digər hissəsini isə kənara atmaq, yaxud səhih və üzərində icma olan dəlili tərk edərək zəif mətnə uyğun əməl etmək, ya da mətni ifadə etdiyi mənalardan uzaq mənalara yozmaqdır (ki, bütün bunlara da müəllif tərəfindən yol verilib).

* * *

**Müəllif iddia edir: "Həqiqət budur ki, mütə nikahı ilə əhliləşdirilmiş ulağın haram buyurulması bir-birilə bağlıdır. Onların haram olması barədə hökm Xeybər savaşı günü nazil olmuş və qiyamətədək belə qalacaqdır. Din adı altında öz nəfsi istəklərini təmin etmək, müvəqqəti ləzzət üçün gözəl qadınlar axtarmaq məqsədilə Əmirəl-mömininin (r.a) sözlərini təhrif etmək lazım deyil".**

**Cavab:** Təqdim etdiklərimizdə məsələni tamamilə izah etmiş və demişik: bizim nəzərimizdə əhliləşdirilmiş ulaq ətinin yeyilməsinin və mütə nikahının halal olduğuna dair xəbərlər mütəvatirdir, əhliləşdirilmiş ulağın ətinin yeyilməsinin qadağası (əgər səhih sayılarsa) yalnız ulaqlara olan ehtiyaca görə idi. Təəccüblü haldır ki, şiə olduğunu iddia edən bu müəllif nə üçün şiələrin deyil, əhli-sünnənin rəvayətlərini və şiə kitablarındakı mütəvatir rəvayətlərə göz yumaraq zəif hədisləri dəlil göstərir?!

Mütə nikahının ilk dəfə haram qılındığı vaxtın Xeybər savaşı günündən başladığı və qiyamətədək davam etdiyi iddiası, heç kəsin razılaşmadığı bir fikirdir. Belə ki, bu, Xeybər savaşından sonra da mütə nikahının icazəli olduğuna və sonradan haram qılındığına dair əhli-sünnə alimlərinin yekdil fikrinə də ziddir. Onlarda buna dəlalət edən çoxsaylı hədislər mövcuddur. Onlardan:

- Müslimin "Səhih"ində İyas ibn Sələmədən, o da atasında nəql etdiyi rəvayətdə deyilir: *"Peyğəmbər Ovtas ilində bizə üç dəfə mütə etməyə icazə verdi, sonra isə qadağan etdi".*[366]

- Müslimin "Səhih"də Səburə əl-Cəhniyə istinadən rəvayət etdiyi hədis: *"Fəth ilində biz Məkkəyə daxil olduğumuzda Peyğəmbər (s) bizim mütə etməyimizə icazə verdi. Ta ki, qadağan etmədikcə biz oradan çıxmadıq".*[367]

Burada möhtərəm oxucu üçün İbn Həcərin "ət-Təlxis"dəki mütə nikahının müxtəlif döyüşlərdə halal olduğuna və eləcə də haramlığına dəlalət edən xəbərlərin ortaq məxrəci barədə Şafeinin sözlərini qeyd etmək yerinə düşər. O deyir:

"Hədislərdə onun haram qılındığı vaxta dair altı və ya yeddi fikir formalaşıb ki, onları zaman ardıcıllığı ilə qeyd edirik:

**Birinci:** Qəza ümrəsi; Əbdürrəzzaq "əl-Müsənnəf"də Müəmmərdən, o da Əmrdən, o da Həsəndən belə dediyini rəvayət edir: "Mütə nikahı yalnız üç dəfə Qəza ümrəsində halal buyurulub. Nə ondan əvvəl, nə də sonra halal olmadı".

Bunun sübutu İbn Hibbanın "Səhih"ində Səburə ibn Mə`bəddən nəql etdiyi hədisdir. Deyir: "Peyğəmbərlə (s) birlikdə səfərə çıxmışdıq, ümrənin qəzasını yerinə yetirdikdə bizə buyurdu: "Bu qadınlarla mütə edə bilərsiniz"...".

---

366 "Səhih", Müslim, 2/1023; "Səhih", İbn Hibban, 9/458; "Müsnəd", Əhməd, 4/55; "Sünən", Darəqutni, 3/258; Beyhəqi "əs-Sünənul-kubra"da (7/204) deyir: "Ovtas ili ilə Məkkənin fəthi ili eynidir. Baxmayaraq ki, Ovtas Fəthdən sonra baş vermişdir, məhz fəth ilində, fəthdən az bir müddət sonra vaqe olmuşdur. Qadağanın bu və ya digər hadisəyə nisbət verilməsinin elə də bir fərqi yoxdur".
Ovtas Məkkə ilə Taif arasında bir yerdir.

367 "Səhih", Müslim, 2/1025.

**İkinci:** Xeybər savaşı günü; bu barədə yekdil fikir vardır. Əlidən rəvayət olunur: “Xeybər savaşı günü mütə nikahı qadağan edildi”. əs-Süheyli və başqaları bunda müşkül olduğunu deyiblər, lakin heç bir işkalı yoxdur...

**Üçüncü:** Məkkənin fəthi ili; Müslim Səburə ibn Mə`bəddən rəvayət edir ki, Peyğəmbər (s) Məkkənin fəthi günü mütəni qadağan etdi. Yenə də onun sözü ilə nəql olunur: “Məkkənin fəthi ili Peyğəmbər (s) bizə mütə nikahı bağlamağa icazə verdi. Sonra biz oradan ayrılmamış bunu qadağan etdi”. Başqa bir rəvayətində deyilir: “Peyğəmbər (s) buyurdu: “Ey camaat, mən sizə qadınlarla mütə etməyə icazə vermişdim. Artıq Allah qiyamət gününədək bunu haram elan etmişdir”.

**Dördüncü:** Hüneyn savaşı günü; Nəsai Əlidən nəql edir... Sələmə ibn Əkvə`nin rəvayətinə əsasən, bu hadisə Ovtas ilində olmuşdur. əs-Süheyli deyir: “Bu, Məkkənin fəthi ilə Ovtas hadisənin eyni ildə olduğunu söyləyənlərin sözlərinə uyğundur.

**Beşinci:** Təbuk savaşı; əl-Hazimi Əbbad ibn Kəsir vasitəsilə İbn Əqildən, o da Cabirdən nəql edir: “Peyğəmbərlə (s) birlikdə Təbuk qəzvəsinə yola düşdük. Şama tərəf olan aşırımın yaxınlığında olduğumuz zaman yanımıza qadınlar gəldi, onlarla mütə etdik. Onlar kişilərimizin ətrafında dövr edirdilər. Bu barədə Peyğəmbərə (s) xəbər verib soruşduqda o, qəzəbləndi və ayağa qalxıb xütbə söylədi, Allaha həmd-səna dedikdən sonra mütəni qadağan etdi. Biz də həmin gün bu işdən əl çəkdik, ta o zamandan bir daha bu işi təkrarlamadıq. Məhz həmin gündən o aşırım “Vida aşırımı” adlandırıldı. Bunun istinadı zəifdir. Lakin İbn Hibbanın “Səhih”ində Əbu Hüreyrənin rəvayəti də buna şahidlik edir. Beyhəqi qeyd edilən sənədlə nəql edir: “Peyğəmbərlə (s) birlikdə Təbuk savaşına yola düşdük. Vida aşırımına yetişdik...

**Altıncı:** Vida həcci; Əbu Davud Rəbi` ibn Səburə vasitəsilə rəvayət edir: “Atam adından şahidlik edirəm ki, o mənə Peyğəmbərin Vida həccində bunu qadağan etdiyini söyləyib”.[368]

Bunlar əhli-sünnənin mütə nikahının haram buyurulması ilə bağlı hədisləridir. Ey əziz oxucu, müəllifin ziddiyyət, ixtilaf və yayındırmasının hansı dərəcədə olduğuna özünüz diqqət yetirin!

---

[368] “ət-Təlxis”, 3/155-156.

* * *

**Müəllif iddia edir: "Əbu Abdullahın (r.a) ona sual verən şəxsin cavabında təqiyyə etdiyi fikrinə gəldikdə deyirəm: sual verən şəxsin Əbu Abdullahın şiələrindən olması təqiyyə iddiasına əsla haqq qazandıra bilməz. Belə ki, bu da mütə nikahının Xeybər savaşı günü haram edildiyinə dair Əmirdən (r.a) nəql olunan rəvayətə uyğundur".**

**Cavab:** Həmin rəvayətin sənədinin zəif olduğunu və təqiyyəyə aid edildiyini əvvəldə izah etdik. Bu məqsədlə həmin cavablara nəzər sala bilərsiniz. Burada təkrarlamağa lüzum görmürük.

* * *

**Müəllif iddia edir: "Fəqihlərimizin icazəli bildikləri mütə nikahı kişiyə saysız miqdarda qadınla müvəqqəti evlənməyə imkan verir. Hətta eyni vaxtda min qadınla olsa belə...".**

**Cavab:** Mütə nikahını Peyğəmbər (s) icazəli bilmiş, Əhli-Beyt imamları da (ə) onun hökmünə tabe olmuş, şiələri də hökmləri onlardan götürmüşlər. Mütə nikahında məhdud bir say yoxdur, buradakı hal cariyələrin vəziyyəti kimidir. Əvvəldə də "min qadınla mütə edə bilər" deyilən hədisin sənədinin zəif olduğunu qeyd etdik. Güman edirik ki, bunu unutmamışsınız.

Həyat yoldaşının sayının dörd qadınla məhdudlaşmasına dair dəlil yalnız daimi nikaha aiddir. Lakin başqa növ nikahlarda – cariyələrlə evlilik və mütə nikahı kimi münasibətlərdə dəlillər mütləq mənaya şamildir və sayı məhdudlaşdırmır. Ona görə də hökmlərdə cariyələrin sayı dörd qadınla məhdudlaşmır.

İbn Kəsir Qurani-Kərimin ***"Sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək (mehrlərini verərək) evlənmək üçün sizə halal edildi"*** ayəsinin təfsirində yazır: "Yəni – öz mallarını xərcləməklə və qanuni yolla dörd qadınla və istədiyiniz qədər

cariyələrlə evlənə bilərsiniz. Ona görə də ayədə deyilir: ***“Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən... evlənmək”.***[369]

Əbdürrəzzaq “əl-Müsənnəf”də İbn Cərihdən nəql edir: “Ətadan soruşdum: “Kişi eyni vaxtda dörddən artıq qadınla mütə edə bilərmi? Mütənin müəyyən bir sayı varmı? Kişi qadından uzaq olsa da, mütə halaldırmı?” Dedi: “Onlar barəsində heç bir söz eşitməmiş və əshabıma müraciət etməmişəm”.

Əgər daimi nikahın hökmləri müvəqqəti evlilik barədə də qüvvədədirsə, o zaman cavab ona məlumdur və əshabına müraciət etməyə ehtiyacı da qalmamalı idi.

Möhtərəm oxucunun nəzərini İbn Cərihin mütə nikahının halal olduğu fikrinə yönəltmək istəyirəm. Belə ki, o, mütə nikahını halal bilirdi. Deyilib ki, o, altmış və ya yetmiş qadınla müvəqqəti evlənmişdi.[370]

* * *

**Müəllif iddia edir: “Nə qədər mütə edən vardır ki, müvəqqəti evləndiyi qadının anası, ya bacısı, bibisi və yaxud xalası qızı ilə özü də bilmədən mütə edib.**

**Bir qadın yanıma gələrək başına gəlmiş hadisəni onun üçün açıqlamağımı xahiş etmişdi. Bildirmişdi ki, ağalardan biri – Seyid Hüseyn Sədr iyirmi ildən artıq müddət bundan öncə onunla müvəqqəti evlənmiş və qadın ondan hamilə qalmışdı. Lakin cinsi istəyi doyduqda Seyid ondan ayrılmışdı. Bir müddətdən sonra qadının qızı dünyaya gəlmişdi. Qadın uşağın ondan olduğuna and içmişdi. Belə ki, həmin ərəfələrdə o, Seyiddən başqası ilə müvəqqəti nikah bağlamamışdı.**

**Qız böyüdükdə gözəl bir gəncə çevrilmişdi və evlənmək yaşına dolmuşdu. Lakin bir gün anası qızının hamilə olduğunu anlayır. Hamiləliyinin səbəbini ondan soruşduqda qızı həmin Seyidlə müvəqqəti evləndiyini və ondan hamilə**

---

[369] “Təfsirul-Qur`anil-əzim”, 1/474.

[370] Zəhəbi “Təzkirətul-huffaz”da (1/170) yazır: “Cərir deyir: “İbn Cərih mütəni halal sayırdı, altmış qadınla müvəqqəti evlənmişdi”. İbn Əbdülhəkim deyir: “Şafeinin belə dediyini eşitdim: “İbn Cərih yetmiş qadınla mütə nikahı bağlamışdı”. Hətta o, cima etmək üçün gecələr üzərinə küncüt yağı sürtərdi”.

**qaldığını bildirir. Anasını bu xəbərdən dəhşət bürüyür və huşunu itirir. Sonra qızına həmin Seyidin onun atası olduğunu bildirir və öz hekayəsini danışır.**

**Bu necə olur, əvvəlcə anası ilə mütə edir, sonra qızı ilə və qızın öz doğma övladı olduğunu da bilmir?!**

**Qadın Seyidin bu hərəkətləri barədə məndən fikrimi soruşmaq üçün yanıma gəlmişdi".**

**Cavab:** Bu hekayə uydurma və etina olunmayacaq nağıldan başqa bir şey deyildir. Bunun dəlili isə sözlərinin heç bir etibarı olmayan bu müəllif tərəfindən nəql edilməsidir.

Hekayə sual və şübhə doğuracaq bir çox əlamətləri özündə ehtiva edir. Qadın nə üçün məhz bu saxta ictihad və fəqihlik iddiaçısının yana gəlmişdir? Ondan problemini həll etməsini istəyirdi, yoxsa bu hekayəni "Allah, sonra da tarix naminə" kitabında nəql etməsi üçün uydururdu?! Bəlkə həmin Seyidi ləkələmək istəyirdi?

Nə üçün müəllif həmin qadının Seyid Hüseyn Sədri ləkələmək məqsədi ilə göndərildiyinə və ya gəldiyinə ehtimal verməyib?

Nə üçün tanımadığı bir qadının sözünü təsdiqləyib və onun sözünü özü üçün dəlil götürüb? Halbuki uca Allah bilmədən bir kəsə zərər verib və sonra da peşman olamamağımız üçün bizə gətirilən xəbərlərin doğruluğunu isbatlamağı buyurmayıbmı? Bu ittihamlardan pak olan bir şəxsə belə böhtanların nisbət verilməsindən daha böyük cəhalət ola bilərmi?!

Adı zikr olunan Seyid Hüseyn Sədr sonsuz bir kişidir, bilindiyi kimi, onun övladı yoxdur. İraqın Kazimeyn şəhərində yaşayır, oranın camaatının çoxu da bunu bilir. Necə ki, bunu mənə bir neçə etibarlı və inanılan şəxs də söyləyib.

Bəs Seyid Hüseyn Sədrdən hamilə qalıb dünyaya övlad gətirən qadın qızına onun atasının kim olduğunu niyə söyləməyib və məsələ bu həddə çatanadək faktı niyə gizlədib? Halbuki qızın atasının seyid və belə bir görkəmli şəxs olması ona şərəfdən başqa heç bir şey əlavə etməzdi!

Əgər bu uydurma hadisənin həqiqətən baş verdiyini fərz etsək, kişinin məhrəmi olduğunu bilmədiyi halda qadınla evlənməsi rüsvayçılıq deyildir. Bu fakt nə ona, nə

də mütə etdiyi qadına haram deyildir. Çünki onların heç biri məhrəm olduqlarını bilməmişlər.

Baxmayaraq ki, belə bir hadisənin baş verməsi mümkünsüzdür, lakin eyni faktın daimi nikahda da baş verməsi güman oluna bilər.

Müəllifin belə hadisələrlə şahidsiz və dəlilsiz tez-tez qarşılaşması təəccüb doğurur. Bunların uydurma olduğu şübhəsizdir və yalan olduğunun dəlilləri də elə hekayələrin içindədir. Biz isə belə hadisələrin adətən baş vermədiyinə, yaxud da çox nadir hallarda baş verdiyinə və bunun eləcə də daimi nikahda da rast gəlinə biləcəyinə əminik.

* * *

**Müəllif iddia edir: "Bu qəbildən olan hadisələr olduqca çoxdur. Bir dəfə kişi qadınla mütə etmiş, sonradan isə həmin qadının onun müvəqqəti evlilikdən doğulmuş bacısı, digər bir hadisədə isə atasının başqa xanımı olduğu anlaşılmışdır. İranda belə hadisələr sayılmayacaq qədərdir".**

**Cavab:** Bunlar boş və yalanlığı aşkar olan iddialardır. Bunun dəlili isə müəllifin bu sözlərini heç bir səhih mənbəyə istinad etməməsidir. Halbuki müəllif öz sözlərinə ən azından bir dənə də olsa, səhih mənbə göstərməli, yaxud çox olduğunu iddia etdiyi inanılan hadisələrdən birini nəql etməli idi. Ancaq bu cür dəlilsiz iddiaların bəhs və müzakirə məqamında heç bir qiyməti yoxdur.

* * *

**Müəllif iddia edir: "Bunu biz Uca Allahın sözündə də görürük: *"Nikaha girməyə qüvvəsi çatmayanlar (maddi imkanı olmayanlar) Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətlərini qoruyub (özlərini zinadan) saxlasınlar"* ("ən-Nur" surəsi, 23 (!)).[371] Kim imkansızlığı səbəbindən qanuni şəkildə evlənə bilmirsə, Allah ona öz lütfündən bəxş edib evlənməyə qüdrət verənədək iffətini qoruyub saxlamalıdır. Əgər mütə nikahı halal olsaydı, o zaman gözləməyi və evlənmək qüdrətinə sahib olanadək iffətini qoruyub saxlamağı buyurmaz, oturub şəhvət**

[371] Ayənin düzgün nömrəsi 33-dür.

**alovlarında qıvrılaraq gözləmələri əvəzinə, onları müvəqqəti evliliyə yönəldərdi".**

**Cavab:** Müvəqqəti evlilik də nikah deməkdir. Uca Allahın ***"Nikaha girməyə qüvvəsi çatmayanlar"*** sözü həm daimi və həm də müvəqqəti nikaha qüdrəti çatmayanlara şamildir. Belə ki, daimi nikahda mal xərcləməyə ehtiyac duyulduğu kimi, müvəqqəti nikahda da buna ehtiyac vardır.

Buradan aydın olur ki, müvəqqəti evlənməyə qüvvəsi yetən şəxs evlənmə qüdrətinə sahib olan şəxslərdən sayılır. Onun iffətini qoruyub gözləməsinə ehtiyac yoxdur.

Əgər müzakirə xatirinə, ayədəki nikahın yalnız daimi nikah olduğunu fərz etsək, o zaman ayədəki məqsəd halal yolla iffət qorumaqdan ibarət olacaq, nikah bağlamağa səbr göstərmək deyil. Beləliklə məna bu cür olacaq: mehri və gündəlik xərcliyi vacib olan daimi nikaha qüdrəti çatmayanlar xərcliyin vacib olmadığı və mehrin az olduğu mütə nikahı ilə iffətlərini qorusunlar.

Söylədiyimiz məna bir çox rəvayətlərdə də qeyd edilir. Hüreyzin Əbu Abdullahdan (ə) nəql etdiyi rəvayətdə İmam (ə) buyurur: "*Müvəqqəti* ***- nikaha girməyə qüvvəsi çatmayanlar (maddi imkanı olmayanlar) Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətlərini qoruyub (özlərini zinadan) saxlasınlar".***[372]

Fəth ibn Yeziddən rəvayət olunur: "İmam Əbul-Həsəndən (ə) mütə nikahı barədə soruşduğumda buyurdu: *"Bu, Allahın evlənmək qüdrəti bəxş etmədiyi şəxsə mütləq şəkildə icazəli və halaldır. O, müvəqqəti evliliklə iffətini qorumalıdır...".*[373]

Müaviyə ibn Vəhəb İmam Əbu Abdullah Sadiqdən (ə) Uca Allahın ***"Nikaha girməyə qüvvəsi çatmayanlar (maddi imkanı olmayanlar) Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətlərini qoruyub (özlərini zinadan) saxlasınlar"*** ayəsi barədə soruşduqda o, buyurdu: *"Allah onları Öz lütfü ilə dövlətli edənədək (müvəqqəti) evlənsinlər".*[374]

---

[372] "Müstədrəkul-vəsail", 14/448.

[373] "əl-Kafi", 5/452.

[374] "əl-Kafi", 5/331.

Məna budur ki, evlənməyə qadın tapmayan şəxs iffətini qorumalıdır. Yəni, mütə etməklə iffətini saxlamalıdır ki, Allah da onu Öz lütfü ilə varlı etsin. Belə ki, bir çox rəvayətlərdə qeyd edildiyinə əsasən, evlənmiş şəxsə Allah Öz lütfünü genişləndirir.

Ayədəki iffət qorumağın məhz halal yolla iffəti saxlamaq olduğuna bənzər məna İbn Kəsirin təfsirində də qeyd olunur. O yazır: "İkrimə Uca Allahın ***"Nikaha girməyə qüvvəsi çatmayanlar"*** ayəsi barədə deyir: "Bu, bir qadını görüb şəhvəti qalxan şəxsdir. Əgər onun həyat yoldaşı varsa, bu zaman onun aynına getməli və şəhvətini onunla söndürməlidir".[375]

Siyuti "əd-Durrul-mənsur"da İbn Əbu Hatəmdən, Əbu Rövqdən ***"Nikaha girməyə qüvvəsi çatmayanlar"*** ayəsi barədə rəvayət edir: "Allah onlara ruzi bəxş edənədək haram buyurduğundan iffətlərini qorusunlar".

Və İbn Abbasdan bu ayə barədə rəvayət olunur: "Buna qüdrəti çatmayan evlənsin. Bu onu varlı edəcəkdir".[376]

Buradan aydın olur ki, iffəti qorumaq məsələsi, müəllifin iddia etdiyi kimi, mütə nikahının halallığı ilə heç də ziddiyyət təşkil etmir.

* * *

**Müəllif iddia edir: "Uca Allah buyurur:** ***"İçinizdən azad mömin qadınlarla evlənməyə maddi imkanı olmayanlar sahib olduğunuz (əllərinizin altında olan) mömin (cavan, iffətli) cariyələrdən (kənizlərdən) alsınlar... Bu (kənizlərlə evlənmək), (ehtiras, şəhvət üzündən) zina etməkdən qorxanlarınız üçündür. Əgər səbir edərsinizsə, sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!*** **("ən-Nisa", 25).**

**İmkansızlıq səbəbindən evlənə bilməyənləri cariyələrlə evlənməyə yönəldir, cariyələrlə evlənməyə qüvvəsi yetməyənlərə isə səbr etməyi buyurur. Əgər mütə nikahı halal olsaydı, o zaman onları bu nikaha yönəldərdi".**

---

[375] "Təfsirul-Qur`anil-əzim", 3/287; Siyuti də "əd-Durrul-mənsur"da ondan nəql edir (6/189).

[376] "əd-Durrul-mənsur", 6/189.

**Cavab:** Bu ayə Allahın kitabında məhz mütə nikahı barədə ayədən sonra gəlir. Bu 25-ci, o isə 24-cü ayədir.

Uca Allah buyurur: ***“24. Sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək (mehrlərini verərək) evlənmək üçün sizə halal edildi. İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!***

***25. İçinizdən azad mömin qadınlarla evlənməyə maddi imkanı olmayanlar sahib olduğunuz (əllərinizin altında olan) mömin (cavan, iffətli) cariyələrdən (kənizlərdən) alsınlar. Allah sizin imanınızı (əqidənizi) daha yaxşı bilir. Hamınız bir-birinizdənsiniz. İffətini qoruyub saxlayan, zinakarlıq etməyən və aşnası olmayan cariyələrlə sahiblərindən icazə alıb evlənin və onların mehrlərini qəbul olunmuş qaydada verin! Əgər onlar (ərə getdikdən sonra) zina edərlərsə, cəzaları azad qadınlara verilən əzabın yarısı qədərdir. Bu (kənizlərlə evlənmək), (ehtiras, şəhvət üzündən) zina etməkdən qorxanlarınız üçündür. Əgər səbir edərsinizsə, sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!”***

Uca Allah mütə nikahında da mehrin vacib olduğunu bəyan etdikdən sonra imkansızlıq səbəbindən bir qadına mehrini və xərcliyini verib onunla daimi və ya müvəqqəti evlənə bilməyən şəxslərin mömin cariyələrlə evlənmələrini buyurur. Çünki cariyənin nə mehri və nə də xərcliyi azad qadının mehri kimi deyildir.

Buradan aydın olur ki, ayədə cariyələrlə evlənmək azad qadınlarla daimi və ya müvəqqəti nikah bağlamaq qüdrətinə sahib olmayan şəxslərə tövsiyə olunur. Əgər belə şəxs cariyə ilə də evlənmək iqtidarında deyilsə, Allahın ona nikah üçün ruzi lütf etməsini gözləməlidir.

* * *

**Müəllif iddia edir: “Mütə nikahının haramlığını isbatlamaq üçün İmamların (ə) sözlərini nəql etmək labüddür:**

**Abdullah ibn Sinan deyir: “Əbu Abdullahdan (r.a) mütə nikahı barədə soruşduğumda buyurdu: “Özünü onunla kirləndirmə” (“Biharul-ənvar”, 100/318).**

**Bu, Əbu Abdullahın (ə) mütənin insanı kirləndirən amillərdən olduğunu bəyan edən açıq mənalı sözləridir. Əgər mütə halal olsaydı, insanı kirləndirən amil hökmündə olmazdı”.**

**Cavab:** Mütə nikahı əxlaqsız və aşkar günah əhli ilə bağlandıqda insanı kirləndirə bilər, ancaq özünü qoruyan və iffətli qadınlarla bağlanan nikah insanı əsla kirləndirməz.

Maraqlıdır, iffətli, özünü qoruyan və imanlı bir xanımla evlənmək insanı necə kirləndirə bilər?!

Bəlkə də İmam Sadiq (ə) bu sözləri söylədiyi dövrlərdə Mədinədə mütə nikahını yalnız əxlaqsızlar və fahişələr bağlayırdılar. Ona görə də o zaman mütə etmək insanı ləkələyən amillərdən sayılırdı. Çünki aşkar günah əhli pak insanları öz əxlaqsızlıqları ilə ləkələyə bilərdilər, onlarla evlənmək də insanın günahla kirlənməsinə rəvac verərdi.

Əhməd ibn Muhəmməd ibn İsa əl-Əş`əri “ən-Nəvadir” kitabında Hişam ibn Həkəmdən Əbu Abdullahın (ə) belə buyurduğunu nəql edir: *“Bizim nəzərimizdə onu günahkarlardan başqası etməz”.*[377]

Yaxud da insana yetişəcək ləkə, danlaq və ya digər bəyənilməyən məsəllərlə bağlıdır.

Mütənin zina və əxlaqsızlıq olduğunu iddia edib bu şəkildə tənqidə məruz qoyan bir kəsin hökmü barədə icmanın olduğu və Allah qanununu rüsvay etmək üçün göstərdiyi səylərə insanının təəccübü bitmək bilmir!

Belə ki, mütə nikahını bu tərzdə vəsf etmək, yumşaq dillə söyləsək, Uca və Münəzzəh Allahın insanları özlərini kirləndirmək və pis adlarla ləkələmək üçün əxlaqsızlığı, fahişəliyi və rəzillikləri icazəli bilməsi deməkdir.

---

[377] “ən-Nəvadir”, Əhməd ibn Muhəmməd ibn İsa əl-Əş`əri, səh.87.

Həmçinin bu sözlər Peyğəmbərin (s) müxtəlif dövrlərdə müsəlmanlara qəbih və pis əməlləri yerinə yetirmələrinə icazə verdiyi anlamına gəlir ki, bununla da həmin işlərə bulaşmış hər bir mömin şəxs ləkələnmiş olur. Belə ki, qeyd etdiyimizə əsasən, səhabələr bəzi savaş və səfərlərində mütə nikahı bağladıqlarını etiraf edirlər.

* * *

**Müəllif iddia edir: "Sadiq (r.a) bununla kifayətlənməyib mütənin haram olduğunu açıq şəkildə bəyan edir. Əmmar deyir: "Əbu Abdullah (r.a) mənə və Süleyman ibn Xalidə dedi: "Sizin ikinizə də mütə etmək haramdır" ("Furuul-Kafi", 2/38; "Vəsailuş-şiə", 14/450).**

**Cavab:** Müəllif rəvayəti kəsərək yarımçıq hala salmış və kəlmələrini dəyişmişdir. Beləliklə rəvayətdən mütənin haram olduğu mənasını almağa çalışmışdır. Halbuki rəvayət əsla buna dəlalət etmir.

Müəllifin rəvayət nəql etməkdə nə qədər etibarsız və saxtakar olduğunun bilməsi üçün möhtərəm oxucuya həmin rəvayətin tam mətnini təqdim edirik:

Kuleyni (r.ə) "əl-Kafi"də özünün bir neçə əshabından, ümumən Səhl ibn Ziyaddan, Əli ibn Əsbatdan, Muhəmməd ibn Hüseyndən, onlar da Həkəm ibn Miskindən, o da Əmmardan rəvayət edir: *"Əbu Abdullah (ə) mənə və Süleyman ibn Xalidə dedi: "Mədinədə olduğunuz müddətdə mütə etmək mənim tərəfimdən sizə haram qılınır. Siz mənim yanıma tez-tez gəlib-gedirsiniz, "Bunlar Cəfərin əshabıdır" deyib sizi yaxalayacaqlarından qorxuram".*[378]

Rəvayətin dəlalət etdiyi məna aydındır. Onlar İmamın (ə) yanına tez-tez gəlib-getdikləri və onun yaxın əshabından sayıldıqları üçün İmam (ə) mütə nikahını öz tərəfindən onlara qadağan etmişdir. Bunun səbəbi İmamın (ə) onların yaxalanıb cəzalandırılacaqlarından, cəmiyyətdə hakim əqidənin nəzərində haram işə mürtəkib olduqlarına görə rüsvay ediləcəklərindən qorxması idi. Ona görə də Mədinədə olduqları müddətdə bunu onlara qadağan edir.

Söylədiklərimizdən aydın olur ki, rəvayət, əksinə olaraq, mütə nikahının haramlığına deyil, halal olduğuna dəlalət edir. Çünki onun əshabı mütə etməyə cəhd

---

[378] "əl-Kafi", 5/457.

edirdi və İmam (ə) da bunu bilirdi. Onları Mədinədə olduqları müddətdə yarana biləcək müəyyən təhlükələr səbəbindən bu işdən çəkindirir.

Bütün bunlardan əlavə, rəvayətin sənədi də zəifdir. Ravilər sırasında Səhl ibn Ziyad var ki, onun tərcümeyi-halını əvvəldə qeyd etmişik. Həmçinin Həkəm ibn Miskinin də halı məchuldur (naməlumdur), tərcümeyi-hal kitablarında onun inanılan şəxs olduğu isbatlanmayıb.

Bəs ictihad və fəqihlik iddiaçısının güman etdiyi haramlığa açıq-aydın dəlalət harada qaldı?!

* * *

**Müəllif iddia edir: "O (r.a) əshabını mütə nikahına görə danlayır və onları bundan çəkindirərək deyirdi: "Məgər sizlərdən kimsə belə bir yerdə görüləcəyindən, əməlisaleh qardaşlarını və dostlarını buna təşviq edəcəyindən utanmırmı? ("əl-Furu`", 2/44; "Vəsailuş-şiə", 14/450)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Xəbəri nəql edən ravilərin sırasında Saleh ibn Əbu Həmmad vardır ki, Nəcaşi "ər-Rical" kitabında onun barəsində yazır: "Saleh ibn Həmmad Əbul-Xeyr ər-Razi – Əbul-Həsən əl-Əskəri (ə) ilə görüşmüşdü. Məsələsi qarışıqdır. Tanınır, inkar olunur (yəni əgər etibarlı şəxslərdən nəql etsə, hədisləri qəbul olunur, mürsəl və ya zəif ravilərdən nəql etsə, sözləri inkar olunur)".[379]

İbn Ğəzairi deyir: "Saleh ibn Həmmad ər-Razi Əbul-Xeyr – zəifdir".[380]

Ravilər sırasında həmçinin İbn Sinan da vardır. O, Muhəmməd ibn Sinandır. Saleh ibn Həmmadın ondan rəvayət nəql etməsi bunun dəlilidir.[381] Belə ki, onun Abdullah ibn Sinandan heç bir rəvayəti yoxdur.

Muhəmməd ibn Sinan məşhur rəyə əsasən, zəif ravidir. Onun barəsində Nəcaşi yazır: "O, (nəqllərində) olduqca zəif şəxsdir, ona əsla etina edilməz, təkbaşına rəvayət etdiyi hədislərə əhəmiyyət verilməz. Əbu Əmr öz "Rical"ında yazır: "Əbul-

---

[379] "ər-Rical", Nəcaşi, 1/441.

[380] "ər-Rical", İbn Ğəzairi, səh.70.

[381] Bax: "əl-Kafi", 5/153, 305; "əl-İstibsar", 3/70.

Həsən Əli ibn Muhəmməd ibn Qüteybə ən-Nişapuri. Əbu Muhəmməd əl-Fəzl ibn Şazan deyir: "Muhəmməd ibn Sinanın hədislərini rəvayət etmənizi sizə halal etmirəm".[382]

Şeyx Tusi "əl-Fehrist"də yazır: "Muhəmməd ibn Sinan. Onun kitabı vardır. O kitabına görə tənə edilmiş və zəif sayılmışdır".[383]

İbn Ğəzairi deyir: "Həddi aşan, zəif ravidir, hədis uydururdu, ona əhəmiyyət verilməz".[384]

Buna əsasən, hədisin sənədi zəifdir, heç bir şeyə dəlil ola bilməz.

Hədisin sənədinə göz yumsaq belə, buradakı məqsəd mütənin haramlığı deyildir. Əksinə, mütəni haram və eyib elan etmiş şəxslərin görəcəyi və qulaqlarına çatacağı təqdirdə, bundan çəkinməyə təşviq edir. Belə ki, hakim qüvvələrin qadağan etdiyi mütə nikahına daxil olmaq nəticədə şəxsin özünə və onunla eyni etiqadı bölüşən şiə qardaşlarına bədnamlıq gətirə bilərdi.

Ona görə də "Mir`atul-uqul" kitabında bu rəvayətin şərhində deyilir: "Yəni, insanlar bunu eyib və qəzəb hədəfinə çevirdikləri, mütəyə ikrah duyduqları zaman. Belə ki, bu nəzər şəxsin özünə, qardaşlarına və məzhəb yoldaşlarına zərər yetirilməsinə səbəb ola bilər.

* * *

**Müəllif iddia edir: "Əli ibn Yəqtin Əbul-Həsəndən (r.a) mütə nikahı haqda soruşduqda ona belə cavab verdi: "Sənin mütə ilə nə işin var? Allah səni ona möhtac etməyib" ("əl-Furu`", 2/43; "Vəsail", 14/449).**

**Bəli, Uca Allah insanlara qanuni daimi nikahı əmr etməklə mütə nikahından ehtiyacsız qılıb".**

**Cavab:** Müəllif adəti üzrə bu rəvayəti də kəsərək yarımçıq nəql edib ki, oxucuda rəvayətin onun məqsədinə dəlalət etdiyi təəssüratını yaratsın.

---

382 "Rical", Nəcaşi, 2/208.

383 "əl-Fehrist", səh.219.

384 "Rical", İbn Ğəzairi, səh.92.

Rəvayətin mətni belədir: "Əli ibn Yəqtin deyir: *"Əbul-Həsən Musadan (ə) mütə nikahı haqda soruşduğumda buyurdu: "Sənin mütə ilə nə işin var? Allah səni ona möhtac etməyib". Dedim: "Mən (bu sualımla) yalnız onun barəsində məlumat əldə etmək istədim". Buyurdu: "Mütə nikahı Əlinin (ə) kitabında qeyd olunub". Dedim: "Onunla (qadınla) mehrini artırıb müddəti uzada bilərikmi?" Buyurdu: "Məgər məhz onu bu daha xoş etmirmi?"*

Kitabın sonrakı çap versiyasında hədisin mənası "Mir`atul-uqul" kitabından nəql edilməklə açıqlanır: "*onu bu daha xoş etmirmi*" sözündəki "onu" əvəzliyi mütə nikahına işarə edir. Sual verənin məqsədi mütə nikahının müddəti bitdikdən sonra mehri və müddəti artırmağın icazəli olub-olmaması barədədir. Yəni iddə gözləmədən yeni bir mehr ilə müddəti artıra bilərikmi? İmam (ə) buyurur: "Mütənin xoş və gözəl tərəfi məhz budur. Bu, daimi nikahda olduğu kimi, heç də lazım deyildir... bir müddətə mütə nikahı bağlanır, müddət başa çatdıqda qadın razılaşarsa, müddət artırılır, əks halda ayrılırlar. Bu təqdirdə "onu" əvəzliyi kişiyə də işarə edə bilər. Yəni, bu, kişinin nəfsinin xoş olmasına və bu nikahla onun sevinməsinə səbəb olur. Yaxud da bu mənanı daşıyır: yəni bu əqd həmin şərt qeyd edilmədiyi təqdirdə halal və pak olmaz. Necə ki, əl-Əhvəlin hədisində mütənin şərtləri qeyd edilərkən deyilir: "Əgər istəsəm müddəti artıracağam və sən də qəbul edəcəksən". Belə olduqda əqd bağlayarkən həmin şərti qeyd etmək müstəhəbb sayılır. Bəzi nüsxələrdə isə "Onunla (qadınla) mehrini artırıb müddəti uzada bilərikmi?" cümləsi əvəzinə "İstədikdə çox mütə edə bilərikmi? deyə qeyd olunur. Yəni mütə etməyi sevib çox nikah bağlasaq... Bu təqdirdə İmamın (ə) cavabının mənası belədir: "Onun ləzzəti məhz elə çox olmasındadır".[385]

Aydın olur ki, İmam Musa (ə) Əli ibn Yəqtini mütə nikahı bağlamaqdan çəkindirir. Çünki Uca Allah onu bundan ehtiyacsız edib. Bəlkə bu qadağasının səbəbi Əli ibn Yəqtinin Harun ər-Rəşidin vəziri olmasıdır. İmam (ə) bu əməlin Harun ər-Rəşid tərəfindən Əli ibn Yəqtinin şiələrdən biri olduğunu anlayacağına səbəb olacağından və nəticədə onun tərəfindən zülmə məruz qalacağından ehtiyatlanır. Əli

---

[385] "əl-Kafi"nin haşiyəsi, 5/452.

ibn Yəqtin isə sadəcə mütə barədə hökmlərdən xəbərdar olmaq məqsədi ilə soruşduğunu bildirdikdə İmam (ə) bunun Əlinin (ə) kitabında qeyd edildiyini və icazəli olduğunu xəbər verir. Bu zaman İbn Yəqtin soruşur: "Əlavə edərək artıra bilərikmi?" İmam (ə) isə "Onun xoş tərəfi də məhz bu deyilmi?" deyə cavab verir. Bu sual və cavabın mənası yuxarıda qeyd olundu.

Nəticə budur ki, qeyd etdiyimiz kimi, hədis açıq şəkildə mütə nikahının halal olduğuna dəlalət edir və müəllifin iddiası ilə heç bir əlaqəsi yoxdur.

* * *

**Müəllif iddia edir: "Ona görə hər hansı bir şəxsin Əhli-Beytdən (ə) olan qadınlarla müvəqqəti nikah bağladığı haqda məlumata rast gəlinmir. Əgər bu halal olsaydı, onlar da mütə edərdilər. Abdullah ibn Ümeyrin Əbu Cəfərə (r.a) söylədiyi sözlər də bunu təsdiqləyir: "Qadınlarının, qızlarının, bacılarının və əminin qızlarının bunu (yəni mütə) etməsi səni sevindirərmi?" Qadınlarını və qızlarını dilə gətirdiyi zaman Əbu Cəfər üzünü ondan çevirdi ("əl-Furu`", 2/42; "ət-Təhizb", 2/186)".**

**Cavab:** Mütə nikahının və digər məsələlərin halallığı səhih dini mətnlərlə müəyyənləşir. Həmin işləri Peyğəmbərin (s) şəxsən etməsi və ya onun qadılarından birinin yerinə yetirməsi şərt deyildir. Belə bir şərtin varlığını heç kəs iddia etməmişdir. Əvvəldə bunu qeyd etdik.

Şəriətin əksər hökmlərinə dair Peyğəmbərin (s) həmin işi şəxsən yerinə yetirdiyinə dəlil yoxdur. Ona görə də əhli-sünnə alimləri mütə nikahını Peyğəmbərin (s) öncə halal və icazəli, sonradan isə haram etdiyinə dair həmfikirdirlər. Onun halal olduğunu qeyd etdikləri müddət ərzində isə özünün şəxsən mütə nikahı bağladığına dair bir dənə də rəvayət nəql olunmayıb. Yalnız səhabələrin bu nikaha daxil olduqları barədə rəvayətlər mövcuddur.

Həmçinin zinakarla nikah bağlamağın icazəli olduğuna dair əhil-sünnə alimləri arasında yekdil fikir (icma) vardır. Əhməd ibn Hənbəl[386] onun tövbə etməsini şərt

[386] Bax: "Rəhmətul-umməti fixtilafil-əimməh", səh.396.

olaraq qeyd edir. Halbuki Peyğəmbər (s) zinakar bir qadınla əsla nikah bağlamamışdır.

Eləcə də cinsi yaxınlıq etmədən öncə zövcəsini boşayan kişinin təyin etdiyi mehrinin yarısını qadına verməli olduğuna dair onlarda icma vardır. Ancaq Peyğəmbərin (s) öz həyat yoldaşını belə bir vəziyyətdə boşadığı və mehrinin yarısını ona qaytardığı barədə heç bir rəvayət mövcud deyildir.

Həmçinin mehr təyin edilmədən[387] nikah bağlamağın icazəli olduğu barədə həmfikirdirlər. Halbuki Peyğəmbərin (s) bunu etdiyi barədə rəvayət yoxdur.

Əhli-sünnə alimləri Peyğəmbərin (s) şəxsən yerinə yetirmədiyi, nəinki, hətta ikrah etməsinə rəğmən şəri cəhətdən icazəli olduğu bir çox məsələnin mövcudluğu barədə yekdil fikrə sahibdirlər. Onlardan:

- Kərtənkələ yeməyin halal olması; halbuki Peyğəmbər (s) əsla kərtənkələ yeməmişdir. Müslim "Səhih"ində İbn Ömərə istinadən rəvayət edir: *"Peyğəmbər (s) minbər üzərində olarkən bir kişi ondan kərtənkələ yemək barədə soruşdu. Peyğəmbər (s) buyurdu: "Mən onu nə yeyir, nə də haram edirəm".*[388]

Tövbə əl-Ənbəridən Şə`bi və İbn Ömər eşitmişdir ki, Peyğəmbərin (s) yanında aralarında Sə`din də olduğu bir dəstə səhabə vardı. Oraya kərtənkələ əti gətirdilər. Peyğəmbərin (s) xanımlarından biri "Bu, kərtənkələ ətidir!" deyə səsləndi. Peyğəmbər (s) buyurdu: "Yeyin, bu halaldır, lakin mənim yediklərimdən deyildir".[389]

Əbu Zübeyr Cabir ibn Abdullahın belə dediyini eşitdi: "Peyğəmbər (s) üçün kərtənkələ gətirildi. Ancaq onu yeməkdən imtina edərək dedi: "Bilmirəm, bəlkə də o məsx olunmuşların nəslindəndir".[390]

Bu növdən olan hədislər olduqca çoxdur, onların hamısını burada sadalamağa ehtiyac yoxdur. Həmin hədislər Peyğəmbərin (s) kərtənkələni onlara halal etdiyinə, lakin özünün yemədiyinə açıq-aşkar dəlalət edir. Buna əsasən, əhli-sünnə məzhəbinin

---

[387] Bax: "Bidayətul-muctehid", 3/61.

[388] "Səhih", Müslim, 3/1542.

[389] "Səhih", Müslim, 3/1542.

[390] "Səhih", Müslim, 3/1545.

dörd imamı kərtənkələ ətinin yeyilməsinin halal olduğuna fətva vermişlər, yalnız Malik onu məkruh bilmişdir.[391]

Həmçinin sarımsaq yeməyin halal olduğuna hökm ediblər. Halbuki rəvayətlərində Peyğəmbərin (s) ondan əsla yemədiyini nəql edirlər. Səbəb kimi isə ona vəhyin nazil olduğu göstərilir.

Bunlardan biri Müslimin "Səhih"ində Əbu Əyyub Ənsariyə istinadla nəql etdiyi rəvayətdir. Deyir: *"Peyğəmbərə (s) yemək gətirildikdə ondan yeyər, artıq qalanını mənə göndərərdi. Bir gün ona gətirilən, lakin ondan bir tikə belə yemədiyi yeməyi mənə göndərdi. Belə ki, həmin yeməyin içində sarımsaq vardı. Ondan sarımsağın haram olması barədə soruşduğumda buyurdu: "Xeyr, lakin iyinə görə onu bəyənmirəm".*[392]

Başqa bir hədisdə deyilir: *"O haramdırmı?" Peyğəmbər (s) buyurdu: "Xeyr, lakin mən onu xoşlamıram". Dedi: "Mən də sənin bəyənmədiyini bəyənmirəm". Belə ki, Peyğəmbərin (s) yanına mələklər gəlir və vəhy nazil olurdu".*

Bütün bunlardan aydın olur ki, bir şeyin halal olduğuna hökm etmək üçün onu məhz Peyğəmbərin (s) və ya Əhli-Beytinin (ə) yerinə yetirməsi lazım deyildir.

Bununla belə, biz əvvəldə Peyğəmbərin (s) və Əmirəl-möminin Əlinin (ə) mütə etdiklərinə dair rəvayətlərin olduğunu qeyd etmişik. Oraya müraciət edə bilərsiniz.

İmam Baqirin (ə) Abdullah ibn Ümeyrdən üzünü çevirməsinə gəldikdə, bəlkə də bu onun cahilliyinə görə Uca Allahın sözünə əməl etmək idi: ***"...və cahillərdən üz döndər!"***[393] Yaxud da Abdullahın inadkarlığı və batil cidala (mübahisəyə) başlaması buna səbəb olmuşdu. Doğrusunu Allah bilir!

* * *

**Müəllif iddia edir: "Bununla hər bir ağıl sahibi müsəlman şəxsə mütə nikahının haram olduğu bir daha təsdiqlənir. Belə ki, bu, Quranın mətnlərinə, sünnəyə və İmamların (ə) sözlərinə ziddir.**

---

[391] Bax: "Rəhmətul-ümməti fixtilafil-əimməh", səh.251.

[392] "Səhih", Müslim, 3/1623.

[393] "əl-Əraf" surəsi, ayə 199.

**Müvəqqəti evliliyin haramlığına dair Qurani-Kərimin ayələrinə və təqdim edilən rəvayətlərə nəzər salan şəxs əgər haqqı axtaran və haqqı sevəndirsə, mütə nikahına təşviq edən hər bir rəvayətlərin batilliyinə hökm etməlidir. Çünki bunlar Quranın və Əhli-Beytdən (ə) nəql olunan sünnənin açıq-aydın mətnlərinə müxalifdir, özü ilə saysız zərərlər gətirir ki, onlardan da bir qismini yuxarıda bəyan etdik".**

**Cavab:** Qeyd etdiyimiz kimi, Qurani-Kərim mütə nikahının halal olduğuna "***İstifadə (mütə) etdiyiniz (müvəqqəti ləzzət aldığınız) qadınların mehrlərini lazımi qaydada verin!"*** ayəsilə hökm verir.

Əhli-sünnə alimlərinin böyük bir hissəsi həmin ayədəki "istəmtəə" (müvəqqəti ləzzət aldığınız) kəlməsindəki məqsədin məhz mütə nikahı olduğunu qeyd ediblər.

Qurtubi yazır: "Əksəriyyət deyir: "Məqsəd İslamın ilk dövrlərində mövcud olan müvəqqəti nikahdır. İbn Abbas, Übey və İbn Cübeyr ayəni belə oxuyurdular: "Onlardan müəyyən olunmuş vaxtadək ləzzət aldıqda mehrlərini lazımi qaydada verin". Sonra isə Peyğəmbər (s) bunu qadağan etdi".[394]

Təbəri yazır: "Digərləri deyirlər: "Məna belədir: Vəlinin (haminin), şahidlərin və mehrin şərt olduğu ümumi nikahla deyil, mehr verib ləzzət aldığınız qadınların muzdunu lazımi qaydada verin. Bunu söyləyənlər isə:

Muhəmməd ibn Hüseyn bizə rəvayət edir ki, Əhməd ibn Müfəzzəl bizə Əsbatdan, o da əs-Sədidən nəql edir: "Qadınlardan müəyyən olunmuş vaxtadək ləzzət aldıqda mehrlərini lazımi qaydada verin. Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz". Bu, mütə nikahıdır. Kişi qadınla müəyyən şərtlərlə nikah bağlayır, iki şahid tutur və vəlisinin (hamisinin) icazəsini alır. Müddət başa çatdıqda isə onların arasında münasibət bitir və ayrılırlar. Qadın bətnini istibra etməlidir (iddə saxlamalıdır). Onların arasında vərəsəlik də yoxdur.

---

[394] "əl-Camiu liəhkamil-Qur`an", 5/129.

Muhəmməd ibn Əmr mənə rəvayət edib ki, Əbu Asim bizə İsadan, o da İbn Əbu Nəcihdən, o da Mücahiddən nəql edir: ***“İstifadə (mütə) etdiyiniz (müvəqqəti ləzzət aldığınız) qadınların...”*** – məqsəd mütə nikahıdır.

Əbu Küreyb mənə rəvayət edir ki, Yəhya ibn İsa bizə Nəsir ibn Əbul-Əş`əsdən, o da Həbib ibn Əbu Sabitdən, o da atasından nəql edir: “İbn Abbas mənə bir kitab gətirib dedi: “Bu, Übeyin qiraətinə əsasəndir (onun qiraətilə yazılmış Qurandır)”. Əbu Bəkr deyir: “Yəhya dedi: “Həmin kitabı Nəsirdə gördüm. Orada belə yazılmışdı: “Qadınlardan müəyyən olunmuş vaxtadək ləzzət aldıqda...”.

Hümeyd ibn Müs`ədə bizə rəvayət edir ki, Bişr ibn əl-Müfəzzəl bizə Davuddan, o da Əbu Nəzrədən nəql edir: “İbn Abbasdan qadınlarla müvəqqəti nikah bağlamaq barədə soruşdum, dedi: “ən-Nisa” surəsini oxumamısanmı?” Dedim: “Bəli, oxumuşam”. Dedi: “Bəs orada ***“Qadınlardan müəyyən olunmuş vaxtadək ləzzət aldıqda...”*** ayəsinə rast gəlməmisənmi? Dedim: “Xeyr, əgər bu cür oxumuş olsaydım, səndən bu haqda soruşmazdım”. Dedi: “Ayə belədir...”.

İbn Müsənna bizə rəvayət edir ki, Muhəmməd ibn Cəfər bizə Şöbədən, o da Əbu Sələmədən, o da Əbu Nəzrədən nəql edir: ***“İstifadə (mütə) etdiyiniz qadınların...”*** ayəsini İbn Abbasa oxuduğumda o dedi: “...müəyyən olunmuş vaxtadək ləzzət aldıqda...”. Deyir: “Dedim: “Onlar ayəni belə oxumurlar””. Üç dəfə dedi: “Allaha and olsun ki, Allah bunu belə nazil etmişdir”...

İbn Bəşar bizə rəvayət edir ki, Əbdüləla bizə Səiddən , o da Qətadədən Übey ibn Kə`bin qiraətində “Qadınlardan müəyyən olunmuş vaxtadək ləzzət aldıqda mehrlərini lazımi qaydada verin” - deyə qeyd olunur”.

Muhəmməd ibn Müsənna bizə Muhəmməd ibn Cəfərdən, o da Şöbədən, o da Həkəmdən rəvayət edir: ***“Sahib olduğunuz (cariyələr) müstəsna olmaqla,... İstifadə (mütə) etdiyiniz qadınların...”*** ayəsi; ayənin ləğv edilib-edilmədiyi barədə ondan soruşduğumda dedi: “Xeyr”. Həkəm dedi: “Əli (r.a) deyirdi: “Əgər Ömər mütə nikahını qadağan etməsəydi bədbəxtdən savayı heç kəs zina etməzdi”.

əl-Müsənna mənə rəvayət edir ki, Əbu Nüeym bizə İsadan, o da Ömər əl-Qari əl-Əsədidən, o da Əmr ibn Mürrədən Səid ibn Cübeyrin belə dediyini eşitdiyini nəql

edir: “Qadınlardan müəyyən olunmuş vaxtadək ləzzət aldıqda mehrlərini lazımi qaydada verin”.[395]

Bütün bunlardan aydın olur ki, bu ayədəki məqsəd müvəqqəti nikahdır. Ayənin sünnə ilə ləğv edilməsinin dəlili isə yetərli deyil. Çünki bunu təsdiqləyən və inkar edən rəvayətlər arasında ziddiyyətlər vardır. Möhkəm ayənin ziddiyyətli rəvayətlərlə ləğv edilməsi isə doğru deyildir.

Müəllifin mütə nikahının sünnə ilə ləğv edildiyini isbatlamaq cəhdinə gəldikdə, əvvəldə də qeyd etdiyimiz kimi, əhli-sünnənin nəql etdiyi səhih rəvayətlər onun halallığına dəlalət edir. Həmin bəhsə müraciət edə bilərsiniz.

Müəllifin Əhli-Beyt imamlarından (ə) nəql etdiyi və mütənin haramlığına dəlil göstərdiyi rəvayətlərə gəldikdə, o, səhih mütəvatir rəvayətlərə zidd olan yalnız bir sənədi zəif rəvayəti dəlil göstərmişdir. Bəs bir zəif sənədli rəvayətə əsaslanıb mütəvatir səhih rəvayətləri necə kənara atmaq olar?!

Müəllifin “dəlil” kimi təqdim etdiyi və mütənin haram olduğuna dair oxucunu aldatmaq üçün kəsib-doğradığı digər rəvayətlərə gəldikdə, həmin rəvayətlərin tam mətnini qeyd etdik və oradakı məqsədləri açıqladıq, onların mütə nikahının haramlığına deyil, məhz halallığına dəlalət etdiklərini bəyan etdik.

Bununla da müəllifin mütə nikahının haramlığına sübut göstərdiyi və əsaslandığı dəlillərin kamil olmadığı, mənalarına xələl gətirmək üçün rəvayətlərin mətnini kəsərək xəyanət etdiyi və daşıdığı məqsədlərdə təhriflərə əl atdığı aydın oldu.

* * *

**Müəllif iddia edir: “Məlumdur ki, İslam dini insanları fəzilətlərə təşviq etmək və rəzilliklərdən çəkindirmək, bəndələrə həyat mənfəətlərini təmin etmək üçün gəlmişdir. Şübhə yoxdur ki, mütə nikahı həyati əhəmiyyət daşımır, əgər insana hansısa bir fayda verdiyini fərz etsək, yuxarıda qeyd etdiyimiz bir çox zərəri də özü ilə gətirir”.**

**Cavab:** Müvəqqəti evliliyin əxlaqi rəzillik olmadığı şübhəsizdir. Çünki mütə əqd, iddə, qadınla kişi arasında qarşılıqlı razılıq, qadın bakirə olduqda vəlisinin

---

[395] “Təfsir”, Təbəri, 5/1-9.

(hamisinin) icazəsi, dul olduğu təqdirdə bunun müstəhəbb olması, övladın onlara aidliyi, qarşılıqlı şərtləşmə ilə xərclik və irs kimi səhih nikahın şərtlərini özündə cəmləşdirir.

Daimi nikahın bütün xüsusiyyətləri müvəqqəti evlilikdə də toplanmışdır. Sadəcə, daimi nikah boşanmaqla, müvəqqəti nikah isə əvvəlcədən müəyyən olunmuş müddətin başa çatması ilə bitir. Daimi nikahda kişi qadının xərcliyini təmin edirsə və bir-birlərindən irs aparırlarsa, mütə nikahında belə deyildir. Bu fərqlilik isə müvəqqəti evliliyi rəzalət və rüsvayçılığa çevirə bilməz. Əvvəldə bu barədə geniş söhbət açdıq.

Əhli-sünnənin öz kitablarında təsbit edildiyi və alimlərinin iqrar etdikləri kimi, əgər müvəqqəti evlilik bir rəzillik olsaydı, İslam ona icazə verməz, Cabir ibn Abdullah və s. kimi Peyğəmbərin (s) böyük səhabələri mütə etməzdilər.

Əgər müvəqqəti evliliyin əhəmiyyətli bir faydası olmasaydı onların iddiasına əsasən, İslamın ilk vaxtlarında icazəli olmazdı. Belə ki, zinanın ortaya çıxmasının və İslam ölkələrində yayılmasının qarşısını alan amil olması, mütənin faydasına dəlil olaraq yetərlidir. Necə ki, Əmirəl-möminin Əlinin (ə) və İbn Abbasın sözlərinə əsasən, əgər Ömər mütə nikahını qadağan etməsəydi, bədbəxtdən savayı heç kəs zina etməzdi.

Belə ki, müvəqqəti evlilik haram edilməsəydi insanı zinaya və ya fəsada sürükləyəcək bir səbəb qalmazdı. Əgər onların nəzərində də müvəqqəti evlilik halal olsaydı, aralarından yalnız rəzilləri zinaya yol verərdilər. Bu, aydın məsələdir və əlavə açıqlamaya ehtiyac duymur.

Müəllifin iddia etdiyi zərərlərə gəldikdə, əvvəldə onlara geniş və müfəssəl şəkildə cavab verdik.

* * *

**Müəllif iddia edir: “Müvəqqəti nikahın yayılması övrətlərin kirayəsinə gətirib çıxarır. Yəni kişi öz qadınını və ya cariyəsini başqa bir kişiyə verir, ondan müvəqqəti ləzzət almasına və onunla istədiyini etməsinə imkan yaradır. Kişi bir yerə səfər etmək istədikdə isə öz xanımını qonşusuna, dostuna və ya istədiyi bir şəxsə tapşırır, səfərdə olduğu müddətdə onunla necə istəyirsə**

**davranmasına icazə verir. Səbəb isə məlumdur, kişi qaib olduğu müddətdə həyat yoldaşının zina etməyəcəyinə arxayındır. (!!!)**

**Övrət kirayələmək üçün ikinci bir yol da var. Bir şəxs müəyyən bir qövmə qonaq gəldikdə və onlar qonağa ehtiram göstərmək istədikdə qonaq onlarda olduğu müddətə evin sahibi öz xanımını ona verir və hər bir şeyi ona halal edir".**

**Cavab:** Sən Allaha, Onun elçisinə və qiyamət gününə inanan bir müsəlman tapa bilməzsən ki, istədiyini etməsi üçün öz xanımını başqa bir kişiyə versin! Nəinki, hətta azca kişiliyi və şərəfi olan şəxs bunu etməz!

Müəllifin iddia etdiklərinin açıq-aydın bəzədilmiş yalanlar olduğu şiələr bir kənara dursun, onlarla yanaşı yaşayan və ya onları tanıyan heç kəsə gizli deyildir. İctihad və fəqihlik iddiaçısının sözlərinin yalan olduğunun dəlili isə bu iddiasına fəqihlərin bir fətvasını belə dəlil göstərməməsidir. Öz iddiasının sübutu üçün yalnız doğruluğu əsla məlum olmayan bir hekayəni nəql edir və onu öz istəyinə uyğun yozur.

Firqələrinin çoxluqlarına rəğmən, sən belə haram rəftara yol verən bir müsəlman firqəsi tapa bilməzsən. Bunun zina sayıldığı şübhəsizdir!

Bəs bu ictihad və fəqihlik iddiaçısı heç özündən soruşurmu ki, müvəqqəti evliliyin halal olduğu Peyğəmbər (s) zamanında səhabələr də mütə adı ilə belə bir rəftara yol verirdilər? Onlar da mütə üçün öz qadınlarını başqa kişilərə təqdim edirdilər?

Bu ictihad və fəqihlik iddiaçısı evli və ya iddəsi bitməmiş qadınla müvəqqəti evliliyin halal olmadığını məgər bilmir? Məgər bilmir ki, daimi nikahda olduğu kimi, qadının ərsiz olması müvəqqəti evlilikdə də şərtdir?

Möhtərəm oxucuya bildirmək istəyirəm ki, mən hər dəfə əhli-sünnə müəlliflərinin şiələrə qarşı bu cür ittihamları ilə qarşılaşdığımda hidayət nemətinə görə Allaha həmd-səna edirəm! Bilirəm ki, əgər şiə məzhəbini ittiham etmək üçün əllərində səhih və düzgün bir dəlilləri olsaydı, o zaman bu cür çirkin iftiralara və aşkar yalanlara möhtac qalmazdılar!

Lakin onlar – Allah onları hidayət etsin! – şiələr qarşısında dəlil və sübut təqdim etməkdə aciz qaldıqları üçün belə bəzədilmiş yalanlara və puç ittihamlara sığınırlar.

* * *

**Müəllif iddia edir: “Təəssüflər olsun ki, onlar bu barədə rəvayətlər nəql edib İmam Sadiqə (r.a) və atası Əbu Cəfərə (Allahın salamı ona olsun!) nisbət verirlər.**

**Tusi Muhəmməddən, o da Əbu Cəfərdən (ə) rəvayət edir: “Dedim: “Kişi öz cariyəsini qardaşına halal edə bilərmi?” Dedi: “Bəli, ona halal etdiyi miqdarda bunun heç bir eybi yoxdur” (“əl-İstibsar”, 3/136).**

**Kuleyni və Tusi Muhəmməd ibn Müzaribdən rəvayət edirlər: “Əbu Abdullah (r.a) mənə dedi: “Ey Muhəmməd, bu cariyəni götür, sənə xidmət edər və ondan fayda (ləzət) götürərsən. Buradan gedərkən isə onu bizə qaytararsan” (“əl-Kafi”, (Furu\`), 2/200; “əl-İstibsar”, 3/136)”.**

**Cavab:** Müəllif bu iki rəvayət İmamların (ə) öz qadınlarını başqalarına halal etməyə dəlil kimi təqdim edib. Halbuki hər iki rəvayətin mövzusu azad qadınlar deyil, yalnız cariyələrdir.

Bununla da müəllifin rəvayət nəql etməkdə əmanətdar kəs olmadığı kimi, oxucuları da ağılsız hesab etdiyi aydın olur, yaxından və uzaqdan mövzu ilə əlaqəsi olmayan bir rəvayəti yalan və saxtakarlıqla şiələrə calamağa çalışır.

Cariyələrlə bağlı bu rəvayətlər bizim bu günümüzlə əsla əlaqəli deyildir və həmin hökmlərdən şiələrin xəbərdar olması onlara bir fayda, xəbərsiz olması isə heç bir zərər verməz. Çünki quldarlığın sona yetmiş olduğu dövrdə belə bir vəziyyətlə qarşılaşmaları mümkün deyildir.

Burada cariyələrin başqalarına halal edilməsilə bağlı əhli-sünnə kitablarındakı rəvayətləri qeyd etməyimiz yersiz olmaz. Belə ki, möhtərəm oxucu bunun fəqihlər arasında ixtilaflı bir məsələ olduğunu anlasın.

Tirmizi, Nəsai, Əbu Davud “Sünən”də və başqaları öz kitablarında Həbib ibn Salimdən rəvayət edirlər: “Numan ibn Bəşirin yanına həyat yoldaşının cariyəsi ilə yaxınlıq etmiş bir kişini gətirdilər. O dedi: “Peyğəmbərin (s) verdiyi hökmlə qəzavət

edəcəyəm! Əgər həyat yoldaşı cariyəni ona halal etmişdisə, ona qamçı vurduracağam, yox, əgər halal etməmişdisə, daşqalaq edəcəyəm”.[396]

Hakim “Müstədrək”də nəql edərək səhih olduğunu bildirdiyi və Zəhəbinin də onunla razılaşdığı bir rəvayətdə deyilir: “Numan ibn Bəşir (r.a) Peyğəmbərdən (s) həyat yoldaşının cariyəsi ilə yaxınlıq etmiş bir kişi haqda belə hökm verdiyini nəql edir: “Əgər həyat yoldaşı cariyəni ona halal etmişdisə, ona 100 qamçı vurulacaq, yox, əgər halal etməmişdisə, daşqalaq edəcəyəm”.[397]

Əhməd “Müsnəd”də, Nəsai “əs-Sünənul-suğra” və “əl-kubra”da, Darəmi “Sünən”ində Numan ibn Bəşir sənədilə rəvayət edirlər: “Qərqur (quzu) ləqəbli Əbdürrəhman ibn Hüneyn adlı bir şəxs həyat yoldaşının cariyəsi ilə yaxınlıq etmişdi. Onu Numan ibn Bəşirin hüzuruna gətirdilər. O dedi: “Peyğəmbərin (s) verdiyi hökmlə qəzavət edəcəyəm! Əgər həyat yoldaşın onu sənə halal etmişdisə, sənə 100 qamçı vurduracağam, yox, əgər halal etməmişdisə, səni daşqalaq edəcəyəm”. Qadın dedi: “Cariyəni ona halal etmişdim”. Kişiyə yüz qamçı vurdular. Mən bunu Həbib ibn Salimə yazdım, o da mənə bunu təsdiqlədi”.[398]

Bu rəvayətlər qadının öz cariyəsini ərinə halal etdiyinə dəlalət edir. Nəticədə o, yüz qamçı ilə cəzalanır, əks halda daşqalaq edilməliydi.

Mubar Kafuri “Tuhfətul-əhvəzi” kitabında yazır: “Əgər həyat yoldaşın onu sənə halal etmişdisə...” – yəni xanımı öz cariyəsini ona halal və icazəli qərar vermişdisə, “yüz qamçı vuracağam”. Əbu Davudun rəvayətində “Yüz qamçı vuraram” deyilir. İbn Ərəbi deyir: “Yəni bu cəza ilə onu ədəbləndirərəm və ya nümunə olsun deyə vuraram. Ancaq bu, qamçının ona hədd cəzası kimi təyin olunduğuna görə deyil”. əs-Sindi İbn Ərəbinin bu sözlərini qeyd etdikdən sonra deyir: “Çünki evli kişinin hökmü

---

396 “Sünən”, Tirmizi, 4/54; “Sünən”, Əbu Davud, 4/157, 158; “Sünən”, Nəsai, 6/433, 434; “Sünən”, İbn Macə, 3/853; “Müsnəd”, Əhməd, 4/275; “əl-Müsənnəf”, İbn Əbu Şeybə, 5/511; “Şərhu məanil-asar”, 3/145.

397 “əl-Müstədrək”, 4/406.

398 “Müsnəd”, Əhməd, 4/276; “əs-Sünənul-kubra”, Nəsai, 3/329; “əs-Sünən”, Nəsai, 6/434; “Sünən”, Darəmi, 2/624.

daşqalaqdır, şallaqlanmaq deyildir. Ola bilsin ki, bunun səbəbi qadının öz cariyəsini kişiyə halal etməsi - övrətini kirayə verməsidir. Bu zaman düzgün olmaz. Lakin kirayə olub-olmadığı zəif bir şübhəyə çevrilir və sahibinə töhmət olur”.[399]

Evli kişinin cəzasının daşqalaq olduğuna, lakin rəvayətin zahirinin bunun əksinə dəlalət etdiyinə əsasən, əhli-sünnə alimləri ixtilafa düşüblər, özlərini bundan imtina etməklə rahatlamış və onu tərk etməyə qərar vermişlər.

Tirmizi yazır: “Həyat yoldaşının cariyəsi ilə cinsi yaxınlıq edən kişinin hökmü barəsində elm əhli fərqli fikirlər irəli sürmüşlər. Aralarında Əlinin və İbn Ömərin də olduğu Peyğəmbər əshabdan olan bir neçə şəxsdən rəvayət olunur ki, həmin şəxs daşqalaq olunmalıdır. İbn Məsud isə deyir: “Onun hədd cəzası yoxdur, lakin qamçı vurular”. Əhməd və İshaq isə Numan ibn Bəşirin Peyğəmbərdən (s) rəvayət etdiyi hökmün doğru olduğu qənaətindədirlər”.[400]

Hədisə ən mühüm irad budur ki, əgər dində bunun halal deyilsə və heç bir izi yoxdursa, o zaman xanımının cariyəsi ilə yaxınlıq etmiş kişidən hədd cəzası niyə götürülür və yalnız qamçı vurmaq yetərli sayılır?

Halbuki ortaya çıxan şübhə səbəbindən ona qamçı da vurulmamalıdır. Hədd cəzası yoxdursa, bəs qamçı vurulması niyə vacib olur?!

Bu isə həmin işin halal olmasının onların nəzərində məşhur və dində icazəli olmasına dəlildir. Qadın öz cariyəsini ərinə halal edə bilər və kişi onunla istədiyinə etməyə ixtiyar sahibidir.

Ancaq qadın ərinin onun cariyəsi ilə yaxınlıq etməsindən şikayət versə, o zaman qadının ərinə icazə vermədiyi məlum olar. Yox, əgər halal etmişdirsə, şikayət üçün müraciət də etməz. Lakin Numan ibn Bəşir belə hökm etmişdir ki, əgər qadın keçmişdə ona cariyəsini halal etmişdisə, kişi onunla halallığı şübhəli olduğu halda yaxınlıq etmişdir. Cariyənin ona halal olduğuna əminliyi olmadan yaxınlıq etdiyi üçün qamçı vurulmalıdır. Əgər öncədən qadın ona halal etməmişsə, bu təqdirdə kişi zina etmişdir və evli olduğuna görə daşqalaq olunmalıdır.

---

[399] “Tuhfətul-əhvəzi”, 5/11.

[400] “Sünən”, Tirmizi, 4/55.

Söylədiklərimizdən aydın olur ki, hədis cariyənin halal edilməsinin icazəli olduğuna dəlalət edir. Buna görə də bir sıra əhli-sünnə alimi belə bir halallığın icazəli olduğu qənaətindədirlər.

Əbdürrəzzaq səhih istinadla Ətadan rəvayət edir: "Belə edilirdi. Kişi öz cariyəsini öz qulamına, oğluna, qardaşına, qadın da öz ərinə halal edirdi. Lakin Səbtdən mənə çatan məlumata əsasən, (icazəlidir, ancaq) mən bunu bəyənmirəm. Belə ki, xəbər verilib ki, kişi öz cariyəsini qonağının yanına göndərirdi".[401]

Şübhə yoxdur ki, Əta şiə rafizilərin deyil, məhz həmin dövrlərdə əhli-sünnənin etdiklərindən söz açıb. Onun "Belə edilirdi" sözü cariyəni halal etmənin onların arasında qəbuledilən fakt olduğunun və öz aralarında tərəddüdsüz əməl edildiyinin dəlilidir.

Əbdürrəzzaq İbn Cüreycdən rəvayət edir: "İbrahim ibn Əbu Bəkr mənə Əbdürrəhman ibn Zadəveyhdən, o da Tavusdan belə dediyini nəql edir: "Bu, yeməkdən daha halaldır. Əgər bundan uşaq doğulmuş olsa, cariyənin halal edildiyi kişiyə məxsusdur. Cariyə isə ilk ağasınındır".

İbn Cüreycdən rəvayət olunur: "Əmr ibn Dinar mənə xəbər verib ki, Tavusun belə dediyini eşitdi: "İbn Abbas deyir: "Əgər qadın öz ərinə, yaxud kişinin qızı və ya bacısı öz cariyələrini ona halal etsə, kişi onunla yaxınlıq edə bilər, cariyə də həmin qadına məxsus olaraq qalacaq".[402]

---

[401] "əl-Müsənnəf", Əbdürrəzzaq, 7/169; "əl-Muhəlla", İbn Həzm, 12/206.

[402] İbn Həzm "əl-Muhəlla" kitabında (12/208) yazır: "İbn Abbasdan və Tavusdan nəql edilən sözlər səhihdir. Lakin biz belə hökm vermirik. Çünki Peyğəmbərin (s) sözündən savayı heç kəsin sözü dəlil deyildir".

Məqsədi budur ki, belə bir icarənin halal olmasına dair İbn Abbas və Tavusdan nəql edilən sözlərin sənədi səhihdir. Lakin İbn Həzm bunun halal olmasını düşünmür. Çünki onların ikisinin də sözü öz-özlüyündə höccət və dəlil deyildir.

Bu fikir onların təzadlarından biridir. Belə ki, onlar istədikləri zaman səhabələrin sözlərini höccət və dəlil sayır, istədikləri zaman da heç bir qeyd və şərh vermədən onları kənara atırlar.

Müəmmərdən rəvayət olunur: “Əmr ibn Dinara deyildi: “Tavus bunda heç bir eyib görmür”. Əmr isə dedi: “Övrət kirayə verilməz”.

İbn Cüreycdən belə dediyi nəql olunur: “İbn Tavus atasına istinadən mənə məlumat verib: “O, bunda heç bir eyib görmürdü”. Dedi: “Bu halaldır. Əgər övlad dünyaya gətirsə, övladı azad insan olacaq. Cariyə kişinin həyat yoldaşına məxsusdur. Kişinin isə heç bir cəriməsi yoxdur”.

İbn Cüreycdən nəql olunur: “Abdullah ibn Qeys mənə Vəlid ibn Hişamdan rəvayət edir ki, o, Ömər ibn Əbdüləzizdən soruşdu: “Həyat yoldaşım öz cariyəsini oğluna halal edə bilərmi?” Dedi: “Cariyə oğulun ixtiyarında olacaq”.[403]

Bu sözlər onun nəzərində də belə bir işin halal olduğunu göstərir. Yalnız o, bu halallıqdan əlavə, cariyənin verildiyi şəxsin mülkiyyətinə keçəcəyini düşünür.

İbn Həzm deyir: “Bunu (yəni cariyənin verilməsinin halal olduğunu) Süfyan əs-Sovri də söyləmişdir”.[404]

* * *

**Müəllif iddia edir: “Deyirəm: Əgər bütün bəşəriyyət həmfikir olub İmam Sadiq (ə) və İmam Baqirin (ə) bunu söylədiyinə and içsələr belə, mən onların sözünü təsdiqləmərəm.**

**Hər iki imam (onlara salam olsun!) belə batil sözlər söyləməkdən, yaxud ali İslam əxlaqına zidd olan belə bir əməldən daha uca və daha böyükdürlər. Nəinki, bu əməl dəyyusluqdur. Şübhə yoxdur ki, İmamlar öz elmlərini böyüklərindən irs aparıblar. Onlara belə bir əməli və sözü nisbət vermək dolayısı ilə bunu Peyğəmbərə (s) nisbət vermək və ilahi şəriətin buna icazə verdiyi iddia etməkdir”.**

**Cavab:** Əvvəldə də qeyd etdiyimiz kimi, İmam Baqir (ə) və İmam Sadiq (ə) azad və evli şəxslərin övrətlərini heç kəsə halal etməyiblər. Müəllifin təqdim etdiyi

---

403 “əl-Müsənnəf”, Əbdürrəzzaq, 7/169-170. Siyuti də bu sözləri Əbdürrəzzaqdan özünün “əd-Durrul-mənsur” təfsirində nəql edir (6/89). Həmçinin bax: “əl-Muhəlla”, İbn Həzm, 12/206.

404 “əl-Muhəlla”, 12/206.

həmin iki hədis yalnız cariyə və kölələrin halallığına dəlalət edir, müəllifin iddiasının əksinə olaraq, onlardan başqasını qonaqlara, yad kişilərə halal etmir.

Həmçinin cariyələrin halal edilməsinin icazəli olduğuna dair İbn Abbas kimi bəzi səhabələrin, Süfyan əs-Sovri, Əta, Tavus və digər əhli-sünnə alimlərinin sözlərini nəql etdik. Bunun qadağan olduğunu deyənlər isə heç bir səhih dəlilə əsaslanmadılar. Bu barədə Peyğəmbərdən (s) bir hədis belə nəql etmədikləri halda əhli-sünnə alimlərinin sözlərini əsas götürüb var olan hədisləri rədd etmək yersizdir. Onlar Zeyddən, Əmr və Bəkrdən ziddiyyətli, qarışıq sözlər nəql edirlər ki, bunlar da Pak itrətin (ə) sözləri qarşısında faydasızdır.

* * *

**Müəllif iddia edir: “Hindistanda olub oradakı Seyid Nəqəvi və digər şiə imamlarımızla görüşdüyümüz zaman bir dəstə hindu, inəyə ibadət edən, six və digər bütpərəst topluluqlarla qarşılaşır və kitablarını oxuyurduq. Lakin həmin batil dinlərin yazılarında belə bu rəzil əməlin icazəli olduğuna və öz ardıcıllarına qadınlarını halal etmələrinə rast gəlmirdik.**

**Bəs İslam dini ən aşağı dərəcəli əxlaq meyarlarına belə uyğun gəlməyən belə alçaq bir əmələ necə icazə verə bilər?!”**

**Cavab:** Qarşıda müəllifin Hindistan səfəri və orada Seyid Nəqəvi ilə görüşü barədə söhbət açacağıq. Bu hadisənin də müəllifin yalan və iftiralarından, eləcə də səbr kasasını dolduran damcılardan biri olduğu anlaşılacaq. Bir az səbr edib gözləyin.

Hinduların, inəyə ibadət edənlərin, sixlərin və başqa bütpərəst dinlərin ardıcıllarının öz həyat yoldaşlarını və qızlarını yad kişilərə halal etməməsi müəllifin əleyhinə olan dəlildir. Belə ki, əgər hinduların və digər müşriklərin öz qadınlarını başqalarına halal etmədikləri isbatlanmışdırsa, o zaman müsəlmanların ən böyük firqələrindən olan, kəlimeyi-şəhadəti iqrar edən, namaz qılan, Ramazan ayında oruc tutan, Allahın Evini həcc edən, zinanı, eynicinslilərin münasibətini, istimnanı (onanizmi) və digər qəbahətli işləri haram bilən və İslamın şüarlarını yüksəklərdə tutan bir dəstəni belə bir əməldə necə ittiham etmək olar?! Məgər ağılı olan kəs müsəlmanların öz qadınlarını başqa kişilərə halal etdiklərini təsdiqləyərmi?!

Əvvəldə də qeyd etdiyimiz kimi, müəllifin şiəyə atdığı böhtanlar onun əlinin boşluğuna və müflisliyinə dəlalət edir. Əgər onun əlində şiə məzhəbini və şiə əqidəsini batil çıxaracaq bir səhih dəlil olsaydı belə ucuz yalan və böhtanlara möhtac qalmazdı.

* * *

**Müəllif iddia edir: "Biz İrandakı Qaimiyyə hövzəsinə baş çəkmişdik. Oradakı ağaların övrət kirayəsini icazəli bildiklərini gördük. Bunun icazəli olduğuna fətva verənlərdən biri Seyid (!) Lütfullah Safi və digərləridir. Belə ki, övrət icarəsi ümumən İran ərazisində yayılmış bir məsələdir. Buna Şah Muhəmməd Rza Pəhləvi devrildikdən sonra, həmçinin Ayətullahul-üzma imam Xomeyni əl-Musəvinin zamanında da əməl olunmuşdur. Eləcə də imam Xomeyninin vəfatından sonra bu davam etməkdədir. Həmin əməl müasir dövrdə mövcud olan ilk şiə dövlətinin də uğursuzluğuna səbəb olan amillərdən biridir. Bütün dünyadakı şiələr səbirsizliklə bu əməlin qadağan olunmasını gözləyir, böyük ağaları bundan uzaq durmağa və buna qarşı çıxmağa təşviq edirdilər".**

**Cavab:** Görünən odur ki, müəllifin Qaimiyyə hövzəsi deməkdə məqsədi müqəddəs Qum şəhərindəki hövzədir. Şeyx Lütfullah Safinin adını qeyd etməsi də buna dəlalət edir. Belə ki, o, məhz Qum şəhərində fəaliyyət göstərir.

Nə Şeyx Lütfullah Safi və nə başqa şiə alimləri həyat yoldaşlarını, qızlarını və ya bacılarını icarəyə verməyin icazəli olduğuna fətva verməmişlər. Əgər müəllifin əlində kiçik və ya böyük belə bir fətva olsaydı, onu aləmə car çəkər, kitabındakı yalan qarayaxmalar əvəzinə onu yazardı.

Övrət icarəsinin ümumən İran ərazisində geniş yayılması və İrandakı müasir hakimiyyətin uğursuzluğuna rəvac verən səbəblərdən biri olması iddiası da müəllifin aşkar yalanlarından biridir. Görəsən övrət icarə etmək məsələsilə hakimiyyətin uğursuzluqları arasında hansı əlaqə ola bilər?

Yoxsa müəllif övrət icarəsinin İran hökumətinin daxili və ya xarici siyasətinə təsir etdiyinimi düşünür?!

Belə gülməli təhlil müəllifin dar düşüncəsinə və sadəlövhlüyünə dəlalət edir. Bu fakt müəllifin iddialarını heç kəs təsdiqləməsə belə, var gücü ilə yalan və iftiralarına davam etməsinin də mənbəyini ortaya qoyur.

* * *

**Müəllif iddia edir: “Təəssüf doğuran faktlardan biri də budur ki, buradakı ağalar da övrət icarəsinin icazəli olduğuna fətva verirlər. İraqın cənubunda, eləcə də Bağdaddakı əs-Sovrə məntəqəsində yaşayan ailələr seyidlər - Sistani, əs-Sədr, Şirazi, Təbatəbai, Bürucerdi və s. alimlərin fətvalarına əsaslanaraq buna əməl edirlər. Onlardan bir çoxu qonaqları onların xanımlarını gözəl hesab etdikdə həyat yoldaşlarını qonaqlarına təqdim edir və qonaq evlərindən ayrılanadək qadın onun ixtiyarında qalır”.**

**Cavab:** Bunun da yalan olduğu insaflı şəxsə gizli deyildir. Belə ki, heç bir şiə alimi azad qadınların icarəyə verilməsinin icazəli olduğuna fətva verməmişdir. Alimlərin şəri məsələlərlə bağlı kitabları, risalələri dünyanın hər tərəfinə yayılmışdır. Bəs iddia olunun bu fətvalar haradadır?!

Əgər müəllif doğru danışan bir şəxs olsaydı, öz iddiasının təsdiqi üçün oxucuya bir fətvanı da olsa, nümunə təqdim edərdi. Lakin haradadır belə bir fətva!

Müəllifin hövzədən və elm əhlindən uzaqlığının dəlillərindən biri də adlarını qeyd etdiyi alimlər arasında hicrətin 1380-ci ilində (miladi 1961-ci ildə) vəfat etmiş Bürucerdinin adını çəkməsidir. Halbuki hazırkı dövrlərdə onun bir müqəllidinin belə olmadığı, risaləsindən istifadə edilmədiyi və camaat arasında yaddaşlarda qalan bir fətvasının olmadığı məlumdur. O da digər şiə alimləri kimi övrət icarəsinin icazəli olduğuna dair əsla fətva verməmişdir.

Görünən odur ki, müəllifin məqsədi heç də məşhur din mərcəsi Seyid Hüseyn Bürucerdi (q.s) deyil, heç kəsin tanımadığı qeyri-müəyyən bir şəxsdir. Belə ki,

müəllif sonrakı sözlərində onun Bağdaddakı əs-Sovrə[405] məntəqəsində fəsadın yayılmasına başçılıq etdiyini bildirir.

Müəllifin evə gəlmiş qonağa qadının icarəyə verməsi iddiası isə heç kəsə gizli olmayan açıq-aydın yalandır.

* * *

**Müəllif iddia edir: "Vacibdir ki, adi insanları bu rəzil əməldən çəkindirək və görünməyən əllərin kənardan müdaxilə etdikləri, ciddi-cəhdlə dinə daxil edib insanlar arasında yaymağa çalışdıqları bu iyrənc əməlin icazəli olduğuna dair seyidlərin fətvalarının qəbuledilməz olduğuna onları inandıraq".**

**Cavab:** Müəllifin məsələ ilə bağlı bütün sözlərinin iftira və yalan olduğuna, eləcə də adi insanları uzaq olduqları və nifrət duyduqları bir əməldən onları çəkindirməyin mənası yoxdur. Belə ki, insanların fitrəti və qeyrətləri onları bu əməldən çəkindirir və belə əməllərin qarşısını alır.

Əvvəldə qeyd etdiyimiz kimi, bu əməlin icazəli olduğuna dair nə bir fətva və nə də fətva verən vardır. Aləmlərin Rəbbinə həmd olsun!

Bəzi əhli-sünnə ardıcılları tərəfindən şiələrin şərəf və ləyaqətlərinin alçaldıldığı, hiylə işlədərək insanların onlara qarşı mübarizə aparmaları üçün müxtəlif iftiralar uydurulduğu barədə möhtərəm oxucuya məlumat verməyi özümüzə borc bildik. Bu, olduqca çirkin bir üslubdur və buna yalnız aciz, zəif və yanlış yolda olan, arqument və dəlilləri tükənmiş, qarşı tərəfdən ağrıdıcı zərbələr almış kəslər əl atarlar.

Halbuki şiə alimləri onların bütün "dəlillərini" puça çıxarmış, məzhəblərinin saxtalaşdırıldığını qəti, aydın və güclü dəlillərlə ifşa etmiş və yapışacaqları bir saman çöpü belə buraxmamışlar.

Buna görə də bəzi əhli-sünnə alim və kitab müəllifləri şiələrlə mübarizədə belə rəzil və iyrənc üslublara əl atmış, şiə məzhəbinə ağıllarına gələn yalan və iftiraları yaxmışlar. Lakin azacıq diqqətli olan şəxsə onların puçluğu əsla gizli deyildir. Bu

---

[405] əs-Sovrə Bağdadın məntəqələrindən biridir, sakinlərinin əksəriyyəti şiələrdir. BU məntəqə İraqın keçmiş başçılarından olan Əbdülkərim Qasimin zamanında salınmışdır.

yalan və iftiralar isə yalnız özlərinin qafil ardıcılları və On iki imam şiə məzhəbindən xəbərsiz olan digər cahillər arasında qəbul edilər.

* * *

**Müəllif iddia edir: "Məsələ bununla bitməyib. Onlar qadınlarla ləvatı da icazəli biliblər, mövzu ilə bağlı İmamlara (Allahın salamı onlara olsun!) nisbət verdikləri rəvayətlər uydurublar. Tusi Abdullah ibn Əbu Yə\`furdan (!) nəql edir: "Əbu Abdullahdan (r.a) qadınla arxadan yaxınlıq edən kişi barəsində soruşdum, buyurdu: "Qadın razı olarsa, bunun eybi yoxdur". Dedim: "Bəs Allahın *"Allahın sizə buyurduğu yerdən daxil olun"* sözünü necə anlayam?" Buyurdu: "Bu, övlad dünyaya gətirməklə bağlıdır. Yəni övladı Allahın buyurduğu yerdən tələb edin. Belə ki, Uca Allah buyurur: *"Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın"* ("əl-İstibsar", 3/243)".**

Ardınca da müəllif məsələ ilə bağlı iki başqa rəvayəti nəql edir.

**Cavab:** Hədisin sənədində olan zəifliyə göz yumsaq, qadınlarla arxadan yaxınlıq etməyin alimlər arasında ixtilaflı məsələ olduğunu söyləməliyik. Bəziləri bunu qəbul, bəziləri isə rədd etmişlər, bəziləri icazə vermiş, bəziləri isə qadağan etmişlər. Həmçinin bəzi səhabə və tabeunlar, eləcə də əhli-sünnə məzhəb imamları da bunun icazəli olduğu qənaətinə gəlmişlər.

Qurtubi deyir: "Bu fikrin nisbət verildiyi səhabələr Səid ibn Müseyyib, Nafi\`, İbn Ömər, Muhəmməd ibn Kə\`b əl-Qirzi və Əbdülməlik ibn Macişundur. Həmçinin bu, Malikin "Kitabus-sirr" adlı kitabından da nəql olunub. Malikin elmli səhabələri və şeyxləri həmin kitabı inkar edirlər... İbn Ərəbi isə qeyd edir ki, İbn Şə\`ban bu sözün icazəli olduğunu böyük dəstə səhabə və tabeunlara, eləcə də "Cimaun-nisvan və əhkamul-Quran" ("Qadınlarla cinsi əlaqə və Quranın hökmləri") kitabında bir çox rəvayətlə Malikə istinad edib. İlkiya Təbəri deyir: "Muhəmməd ibn Kə\`b əl-Qirzidən rəvayət olunur ki, o, bunda (qadınla arxadan yaxınlıqda) heç bir problem görmürdü".[406]

---

[406] "əl-Camiu liəhkamil-Qur\`an", 3/93.

İbn Qüdamə “əl-Muğni”də yazır: “Bunun icazəli olduğu İbn Ömərdən, Zeyd ibn Əsləmdən, Nafi`dən və Malikdən rəvayət olunub. Malikin belə dediyi nəql edilir: “Dinimdə nümunə götürəcəyim elə bir şəxsi görmədim ki, onun halal olduğuna şəkk etsin”.[407]

Uzun-uzadı olmasına baxmayaraq, “əd-Durrul-mənsur” kitabında Siyutinin qeyd etdiyi sözləri burada nəql etməyimizin heç bir eybi olmaz. Belə ki, həmin sözlərdə bir çox faydalar vardır.

Siyuti yazır: “İshaq ibn Rahəveyh öz “Müsnəd”ində və təfsirində, eləcə də Buxari və İbn Cərir Nafi`dən rəvayət edirlər: “Bir gün ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsini oxuduğumda İbn Ömər dedi: “Bu ayənin nə barədə nazil olduğunu bilirsənmi?” Mən “Xeyr” deyə cavab verdim. Dedi: “Bu ayə qadınlarla arxadan yaxınlıq etməyin icazəli olduğu barədədir”.

Buxari və İbn Cərir İbn Ömərdən nəql edirlər ki, o, ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsi barədə dedi: “Yəni arxadan”.

Xətib Bağdadi “Ruvatu Malik” kitabında Nəzr ibn Abdullah əl-Əzdi yolu ilə Nafi`dən, o da İbn Ömərdən Uca Allahın ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsi barədə nəql etdiyi rəvayətində yazır: “İstəsə öndən, istəsə arxadan yaxınlıq edər”.

Həsən ibn Süfyan “Müsnəd”ində, Təbəri “əl-Mö`cəmul-övsat”da, Hakim, eləcə də Əbu Nüeym “əl-Müstəxrəc”də Həsənin İbn Ömərdən nəql etdiyi rəvayətə yer verirlər: “Peyğəmbərə (s) ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsi qadınlarla arxadan yaxınlıq etməyə dair nazil olub”.

İbn Cərir, Təbəri “əl-Mö`cəmul-övsat”da, İbn Mərdəveyh və İbn Nəccar Həsənin İbn Ömərə istinadən belə dediyini rəvayət edirlər: “Peyğəmbərin (s) zamanında bir kişi öz xanımı ilə arxadan yaxınlıq etmiş, camaat isə bu hərəkəti rədd etmişdilər. Uca Allah da ***“Qadınlarınız sizin tarlanızdır...”*** ayəsini nazil etdi”.

---

[407] “əl-Muğni”, 8/132.

Nəsai və İbn Cərir Zeyd ibn Əsləm vasitəsilə İbn Ömərdən nəql edirlər ki, bir kişi xanımı ilə arxadan yaxınlıq etmişdi. Bu hərəkətinə görə çox narahatlıq keçirirdi. Həmin vaxt Uca Allah ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsini endirdi”.

Darəqutni “Ğəraibu Malik”də Əbu Bişr əd-Dulabidən... o da Abdullah ibn Ömər ibn Həfsdən, o da İbn Əbu Zi`bdən və Malik ibn Ənəsdən, onların da hər biri Nafidən belə dediyini nəql edirlər: “İbn Ömər mənə dedi: “Ey Nafi`, Quranın bu yerində dayan”. O, ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsini oxuyub mənə dedi: “Bu ayənin nə barədə nazil olduğunu bilirsənmi?” Mən “Xeyr” deyə cavab verdim. Dedi: “Ənsardan bir şəxs öz xanımı ilə arxadan yaxınlıq etmiş və camaat buna qarşı çıxmışdılar. Uca Allah da ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsini nazil etdi”. Dedim: “Yəni arxadan yaxınlaşıb öndən əlaqəyə girmək?” Dedi: “Xeyr, məhz arxadan əlaqəyə girmək barədə”.

ər-Rəfa “Fəvaid”də Darəqutnidən nəql edir: “Əbu Əhməd ibn Əbdus bizə Əli ibn əl-Cə`ddən, o da İbn Əbu Zi`bdən, o da Nafi`dən, o da İbn Ömərdən rəvayət edir: “Bir kişi öz xanımı ilə arxadan yaxınlıq etmişdi. Uca Allah ***“Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın”*** ayəsini endirdi”. Deyir: “İbn Əbu Zi`bə dedim: “Bəs sən bu barədə nə deyirsən?” Dedi: “(Allahın) bu sözündən sonra mən nə deyə bilərəm?!”

Təbərani, İbn Mərdəveyh, Əhməd ibn Üsamə ət-Təcibi “Fəvaid”də Nafi`dən nəql edir: “İbn Ömər surəni oxudu, ***“Qadınlarınız sizin tarlanızdır...”*** ayəsini oxuduqdan sonra dedi: “Bu ayənin nə barədə nazil olduğunu bilirsənmi?” Mən “Xeyr” deyə cavab verdikdə dedi: “Xanımları ilə arxadan yaxınlıq edən kişilər haqqındadır”.

Darəqutni və Də`ləc “Ğəraibu Malik”də Əbu Müs`əb və İshaq ibn Muhəmməd əl-Qərəvi yolu ilə Nafi`dən, o da İbn Ömərdən belə dediyini rəvayət edirlər: “Ey Nafi` Quranın bu yerində dur”. O, ***“Qadınlarınız sizin tarlanızdır...”*** ayəsini oxuyub dedi: “Ey Nafi`, bu ayənin nə barədə nazil olduğunu bilirsənmi?” Mən “Xeyr” deyə cavab verdim. Dedi: “Ənsardan bir şəxs öz xanımı ilə arxadan yaxınlıq etmiş və buna

görə özünə qarşı qəzəblənmişdi. Peyğəmbərdən (s) bu barədə soruşduqda Uca Allah həmin ayəni nazil etdi".

Darəqutni deyir: "Bu, Malik tərəfindən sübuta yetmişdir. İbn Əbdül-Bərr deyir: "İbn Ömərdən bu mənada nəql edilən rəvayət səhihdir, onun tərəfindən söyləndiyi məlumdur və məşhurdur".

İbn Rahəveyh, Əbu Yə`la, İbn Cərir, eləcə də Təhavi "Muşkilul-asar"da, İbn Mərdəveyh "həsən" istinadla Əbu Səid Xudridən rəvayət edirlər ki, bir kişi xanımı ilə arxadan yaxınlıq etmiş və camaat bundan xəbər tutduqda onu danlamışdılar. Sonda ***"Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın"*** ayəsi nazil oldu.

Nəsai, Təhavi, İbn Cərir və Darəqutni Əbdürrəhman ibn Qasim vasitəsilə Malik ibn Ənəsdən ona belə deyildiyini nəql edirlər: "Ey Əbu Abdullah, camaat Salim ibn Abdullahın belə söylədiyini deyir: "Bəndə və ya imansız kəslər atama yalan istinad etmişlər!" Malik dedi: "Şahidlik edirəm ki, Yəzid ibn Ruhan mənə Salim ibn Abdullahın İbn Ömərdən Nafi`nin sözlərinin eynisini dediyini xəbər verib". Ona deyildi: "Haris ibn Yaqub Əbul-Hübab Səid ibn Yəsardan rəvayət edir ki, o, İbn Ömərdən soruşdu: "Ey Əbu Əbdürrəhman, biz cariyələr alırıq. Onlarla arxadan yaxınlıq edə bilərik?" İbn Ömər dedi: "Uf, uf, mömin (və ya "müsəlman" dedi) belə edərmi?!" Malik deyir: "Şahidlik edirəm ki, Rəbiə mənə Əbul-Hübabdan, o da İbn Ömərdən Nafi`nin söylədiklərinin eynisini söyləyib".

Darəqutni deyir: "Bunu Malikin söylədiyi səhihdir (doğrudur)".

Nəsai Yəzid ibn Ruhan vasitəsilə Übeydullah ibn Abdullah ibn Ömərdən rəvayət edir ki, Abdullah ibn Ömər kişinin qadınla arxadan yaxınlıq etməsində heç bir eyib görmürdü.

Beyhəqi "Sünən"ində Muhəmməd ibn Əlidən nəql edir: "Muhəmməd ibn Kə`b əl-Qirzinin yanında idim. Onun yanına bir kişi gəlib dedi: "Qadınla arxadan yaxınlıq etmək barədə fikrin nədir?" Dedi: "Bu şeyx Qüreyşdəndir. Ondan (yəni Aldullah ibn Əli ibn Saibdən) soruş". Dedi: "Halal da olsa, çirkinlikdir".

İbn Cərir Darəvərdidən nəql edir: “Zeyd ibn Əsləmə deyildi: “Muhəmməd ibn Munkədir qadınlarla arxadan yaxınlıq etməyi qadağan edib”. Zeyd dedi: “Mən şahidlik edirəm ki, Muhəmməd bunu etdiyini mənə xəbər verib”.

İbn Cərir İbn Əbu Müleykədən rəvayət edir ki, ondan qadınlarla arxadan yaxınlıq etmək barədə soruşulduqda dedi: “Elə indicə cariyəmlə bu işlə məşğul idim. Çətinlik yarandığına görə yağdan istifadə etdim”.

Xətib Bağdadi “Ruvatu Malik” kitabında Süleyman ibn Cürcünidən nəql edir: “Malik ibn Ənəsdən halal qadınlarla arxadan yaxınlıq etmək barədə soruşdum, mənə dedi: “Elə indicə bu işlə məşğul olub qüsl almışam”.

İbn Cərir “ən-Nikah” kitabında İbn Vəhəb vasitəsilə Malikin bunu icazəli bildiyini nəql edir.

Təhavi Əsbəğ ibn Fərəc vasitəsilə Abdullah ibn Qasimdən nəql edir: “Dinimdə nümunə götürəcəyim elə bir şəxslə qarşılaşmadım ki, bunun (yəni qadınla arxadan yaxınlıq etməyin) halal olduğuna şəkk etsin”. Sonra da ***“Qadınlarınız sizin tarlanızdır...”*** ayəsini oxuyub dedi: “Bundan daha aydın nə ola bilər?”

Təhavi, eləcə də “Mənaqib”də Hakim, Şafei, Xətib Bağdadi Muhəmməd ibn Abdullah ibn Əbdülhəkəmdən bu barədə Şafeidən soruşulduğunu və onun belə cavab verdiyini nəql edirlər: “Peyğəmbərdən (s) bunun halal və ya haram olduğuna dair səhih bir söz yoxdur. Qiyasa əsasən, halaldır”.

Hakim İbn Əbülhəkəmdən rəvayət edir ki, Şafei Muhəmməd ibn Həsənlə bu barədə elmi mübahisə etmiş, İbn Həsən ayədəki “tarla, əkin sahəsi” sözünün məhz qadının cinsiyyət üzvünə şamil olduğunu iddia etmişdi. Şafei demişdi: “Bəs, o zaman bundan savayı hər bir yer harammı olur?” Sözünə cavab tələb etmiş və demişdi: “Qadının ayaqları arasına və ya qarnının üzərinə boşalmaq barədə rəyin nədir? Bu da tarla və əkin sahəsidir (qadının övrətidir)?” İbn Həsən “Xeyr” deyə cavab verdi. Dedi: “Bu haramdırmı?” Yenə də “Xeyr” cavabını təkrarladı. Şafei dedi: “İnkar etmədiyin bir şeyi necə əks dəlil kimi təqdim edə bilərsən?!”[408]

---

[408] “əd-Durrul-mənsur”, 1/635-638. Təbəri bu rəvayətlərin bəzisini öz təfsirində də nəql edib (2/233-234).

Bu sözlər qadınlarla arxadan yaxınlıq etməyin icazəli olduğuna dair onların səhabələrdən, tabeunlardan və məzhəb imamlarından nəql etdikləri fikirlərin yalnız bir hissəsidir. Burada qeyd etmədiklərimiz isə daha çoxdur.

Sözümüzü Rağib İsfahaninin "Muhazərətul-udəba" kitabındakı sözləri ilə bitirmək istəyirik. Belə ki, Himam Qazinin Maliki məzhəbinə əsaslanaraq bir qadınla arxadan yaxınlıq etmək istəməsinə dair söylədiyi beytini kitabında qeyd edir:

Qorxu içində gəlmişdi,
Artıq ulduzlar parlayırkən onu ovladım.
O, sözünə davam edirdi,
Nəfsim isə onu baxışlarımla süzürdü.
"Mənə söylə, Malikəmi inanırsan?
Belə ki, mən Maliki eşqində aludəyəm" dedim.
Dedi: "Bəli, mən onun dinindəyəm,
Nəzərimdə məzhəbi ədalətli və yetərlidir".
Həmin gün Malikə dua edərək gecələdik,
Onun fətvasını əsas götürüb icra etdik.[409]

* * *

**Müəllif iddia edir: "Şübhə yoxdur ki, bu rəvayətlər Quranın aydın mətinlərinə ziddir. Belə ki, Uca Allah buyurur: *"Səndən heyz (aybaşı) barəsində sual edənlərə söylə: "Heyz əziyyətli bir haldır. Heyz zamanı qadınlardan kənar olun, (heyzdən) təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin"* ("əl-Bəqərə", 222). Əgər arxadan yaxınlıq icazəli olsaydı, o zaman yalnız cinsiyyət üzvündən yaxınlığı qadağan edər və buyurardı: "Heyz zamanı qadınların övrətindən (cinsiyyət üzvündən) kənar olun". Ancaq arxadan yaxınlıq haram olduğuna görə heyz halında qadınlara ümumiyyətlə yaxınlaşmağı qadağan edir və buyurur: *"...onlarla yaxınlıq etməyin"*.**

**Cavab:** Müəllifin bu dəlilinə əsasən, heyz halında olan qadından istər öndən, istər arxadan və istər digər yerlərindən hər cür ləzzət almaq haram olmalıdır. Lakin

409 "Muhazəratul-udəba", 2/268, "Məktəbətul-həyat" mətbəəsinin çapı.

bunu heç kim iddia etməyib. Müəllifin etimad etdiyi əhli-sünnə alimlərinin sözləri də bunu inkar edir. Belə ki, onlar heyz halında olan qadınla cinsi münasibətin icazəli olduğunu yazmış, yalnız övrətindən çəkinməyi vacib saymışlar.

İbn Kəsir təfsirində yazır: "Uca Allahın ***"Heyz zamanı qadınlardan kənar olun..."*** ayəsində məqsəd yalnız cinsiyyət üzvüdür. Çünki (Peyğəmbər (s)) *"Cinsi əlaqədə olmaqdan savayı nə istəyirsinizsə edin"* buyurub. Buna əsasən, bir çox alim, yaxud onların əksəriyyəti cinsi əlaqədən savayı, heyzli qadından hər bir ləzzəti aparmağın icazəli olduğunu söyləmişlər. Əbu Davud deyir: "Musa ibn İsmail bizə Həmmaddan, o da Əyyubdan, o da İkrimədən, o da Peyğəmbərin (s) bəzi qadınlarından nəql edir: "O, heyzli qadından ləzzət almaq istədikdə onun övrəti üzərinə parça örtərdi".[410]

Qurtubi təfsirində yazır: "Alimlər heyzli qadınla münasibət və bu zaman nəyin icazəli olduğu məsələsində fərqli fikirlər söyləmişlər...

Ta ki, yazır: "əs-Sovri, Muhəmməd ibn Həsən və Şafeinin əshabından bəziləri demişlər: "Qan gəldiyi yerdən çəkinilməlidir. Çünki belə buyurmuşdur: *"Cinsi əlaqədə olmaqdan savayı nə istəyirsinizsə edin".* Bunu yuxarıda qeyd etdik. Bu, Davudun sözüdür, Şafeinin sözündən səhihdir. Əbu Mi`şər İbrahimdən, o da Məsruqdan rəvayət edir: "Aişədən həyat yoldaşım heyzli olduğu zaman mənə nəyin icazəli olduğu barədə soruşdum. Dedi: "Cinsiyyət üzvündən savayı hər bir şey". Alimlər deyir: "Heyzli qadınla cinsi münasibətdə olmaq icazəlidir. Ehtiyata əsasən, qadın önlük (yubka) bağlamalı və övrətə girişi kəsməlidir. Çünki budlarına toxunmaq icazəli olsa da, o zaman cinsi əlaqənin qadağan edildiyi qan gələn yerlə təması önlənmiş olacaq. Ona görə də önlük ehtiyat olaraq əmr edilib. Haram olan yalnız qadının cinsiyyət üzvüdür. "Məanil-asar"da da bununla həmfikirdirlər və qarşı çıxmamışlar".[411]

İbn Qüdamə "əl-Muğni" kitabında yazır: "Məsələ: Heyzli qadından övrətindən savayı digər yerlərindən ləzzət almaq olar. Xülasəsi budur ki, hədislərə və icmaya

---

410 "Təfsiru Qur`anil-əzim", 1/258.

411 "əl-Camiu liəhkamil-Qur`an", 3/86-87.

əsasən, heyzli qadından övrətindən yuxarı və dizindən aşağı bütün ləzzətləri almaq icazəlidir. Övrətdən cinsi yaxınlıq etmək isə hər iki mənbədə haramdır. Qarınla dizlərin arasından olanlardan ləzzət almaq məsələsi barəsində alimlər müxtəlif fikirlər söyləmişlər. Əhməd bunun icazəli olduğu qənaətinə gəlmişdir. Həmçinin İkrimə, Əta, Şə`bi, əs-Sovri, İshaq və digərlərindən bu barədə rəvayətlər nəql edilmişdir. Həkəm onun belə dediyini söyləyir: "İçəri daxil olmaması üçün övrətin üzərinə bir parça qoymağın eybi yoxdur". Əbu Hənifə, Malik və Şafei deyir: "İcazəli deyildir". Səbəb isə Aişədən nəql etdiyi sözlərdir: "Peyğəmbər (s) mənə örtük bağlamağı əmr edər, mən heyz olduğum halda mənimlə yaxınlıq edərdi". Bunu Buxari rəvayət edib. Ömərdən nəql olunur: "Peyğəmbərdən (s) kişiyə heyzli xanımından hansı ləzzətlərin halal olduğu barədə soruşdum, buyurdu: "Örtükdən yuxarı".

Bizdə Uca Allahın bu sözü də vardır: ***"Heyz zamanı qadınlardan kənar olun...".*** Ayədə keçən ərəbcə "əl-məhiz" kəlməsi heyz yerini bildirən isimdir. Bunun yalnız qan gələn yerə məxsus edilməsi ondan savayı digər yerlərin icazəli olduğuna dəlildir".

Ta ki, deyir: "əl-Məhiz" kəlməsi iki məna daşıyır: biri heyz, digəri heyzin zahir olduğu yer (yəni övrət). Məqsədin qan gələn yer olması daha üstündür. Buna iki dəlil vardır:

**Birinci:** Əgər məqsəd heyz olsaydı, o zaman heyz vaxtı ümumiyyətlə qadından uzaq durmaq əmr olunardı. Lakin həmin vaxtda cinsi münasibət icazəli olması bunun əksini göstərir.

**İkinci:** Ayənin nazil olma səbəbi; yəhudilər qadın heyz olduğu zaman onu ümumiyyətlə təcrid edirdilər, onunla birlikdə yemir, içmir və bir evdə qalmırdılar. Peyğəmbərin (s) səhabələri ondan bu barədə soruşduqda həmin ayə nazil oldu. Peyğəmbər (s) buyurdu: *"Cinsi əlaqədə olmaqdan savayı nə istəyirsinizsə edin".* Bunu Müslim "Səhih"ində rəvayət edib.[412] Bu ayədə Allahın məqsədinin izahıdır.

---

[412] "Səhih", Müslim, 1/246; "Səhih", İbn Hibban, 4/196; "Sünən", İbn Macə, 1/211; "Müsnəd", Əhməd, 3/132.

Əgər ayədəki "əl-məhiz" kəlməsindəki məqsəd heyz olsaydı, o zaman yəhudilərlə arada heç bir fərq olmayacaqdı".

Sonra deyir: "Aişədən rəvayət olunan sözlər örtükdən yuxarı hissənin halal olduğuna dəlildir və ondan başqasının haramlığına dəlalət etmir. Bəzən Peyğəmbər (s) bəzi icazəli şeyləri iyrəndiyi üçün tərk edərdi. Necə ki, kərtənkələ və dovşan yeməyi sevməzdi. İkrimə Peyğəmbərin (s) bəzi qadınlarından rəvayət edir ki, Allahın elçisi (s) heyzli olan xanımından ləzzət aparmaq istədikdə onun övrətinin üzərinə parça atardı. Bizim qeyd etdiklərimiz həmin sözlərdən tələffüz olunanlarıdır. O sözlərdən anlaşılanlar isə bunlardan daha üstündür".[413]

Təbəri təfsirində yazır: "Bu sözləri söyləyənin dəlili Peyğəmbərdən (s) rəvayət edilən mütəvatir xəbərlərdir. Belə ki, o, xanımları heyz olduğu zaman onlarla münasibətdə olurdu. Əgər qadınlardan ümumiyyətlə kənarlaşmaq vacib olsaydı, o zaman Peyğəmbər (s) belə etməzdi. Allah elçisinin (s) bunu etdiyi səhih yolla təsdiqləndiyi üçün və Uca Allahın ***"Heyz zamanı qadınlardan kənar olun..."*** ayəsindəki məqsədin qadınların məhz övrətlərindən kənar durmalı olduğu anlaşıldıqdan sonra ixtilafa səbəb olan bədənin digər hissələri deyil, kişinin qadınla yalnız öndən cinsi əlaqəyə girməsinin haramlığı aydın olur".[414]

Buradan məlum olur ki, qadınlardan kənar durmağın məqsədi onlarla cinsiyyət üzvündən yaxınlıq etməkdən çəkinməkdir. Lakin ayə bədənin digər hissələrindən ləzzət almağı qadağan etmir. Əksinə, yuxarıda qeyd etdiyimiz, əhli-sünnənin öz kitablarında olan bəzi səhih hədislər də bu işin halallığına dəlalət edir. Bu mövzu ilə əlaqədar digər hədislərə nəzər salaq:

Buxari "Səhih"ində Aişədən rəvayət edir: "Dedi: "Peyğəmbər (s) heyz olduğum zaman mənimlə yaxınlıq edirdi. Etikaf halında olarkən başını məsciddən kənara çıxarır, mən heyzli olduğum halda onu yuyurdum".[415]

---

[413] "əl-Muğni", İbn Qüdamə, 1/384.

[414] "Təfsir", Qurtubi, 2/226.

[415] "Səhih", Buxari, 2/602.

Yenə də Aişəyə istinadən rəvayət edir: "Dedi: "Mən və Peyğəmbər hər ikimiz cənabətli olduğumuz halda eyni qabdan qüsl alırdıq. Peyğəmbər (s) mənə örtük bağlamağı buyurar, heyz olduğum halda mənimlə yaxınlıq edərdi".[416]

Müslim "Səhih"ində Məymunəyə istinadən rəvayət edir: "Dedi: "Peyğəmbər (s) xanımları heyz olduqda onlarla qurşaqdan yuxarı hissədən yaxınlıq edirdi".[417]

Aişədən rəvayət olunur: "Dedi: "Bizlərdən biri heyz olduğumuz zaman Peyğəmbər (s) bizə beldən aşağı örtük bağlamağımızı buyurar və yaxınlıq edərdi".[418]

Başqa bir hədisdə deyir: "Bizlərdən biri heyz olduğumuz zaman Peyğəmbər (s) heyz qanı gələn yeri örtməyi buyurar və yaxınlıq edərdi". Ardınca dedi: "Peyğəmbərin (s) öz istək və şəhvətinə sahib çıxdığı kimi, hansınız sahib çıxa bilərsiniz?!"[419]

Tirmizi Aişədən rəvayət edir: "Dedi: "Mən heyz olduqda Peyğəmbər (s) mənə beldən aşağı örtük bağlamağı buyurar və yaxınlıq edərdi".

Tirmizi deyir: "Aişənin hədisi "həsən, səhih" hədisdir. Həmin sözü elm əhlindən olan bir çox Peyğəmbər səhabəsi və tabeun da söyləmişdir. Eləcə də Şafei, Əhməd və İshaq da bunu demişlər".[420]

Bu mənaya dəlalət edən hədislər olduqca çoxdur, onların hamısını burada qeyd etməyə ehtiyac yoxdur.

Əgər məsələ ilə bağlı əhli-sünnə alimlərinin fətvalarına nəzər salsaq, mövzu ilə əlaqədar geniş təfsilat və izahların verildiyini görərik.

Darəmi öz "Sünən"ində Abdullah ibn Ədiyə istinadən yazır: "Əbdülkərimdən heyzli qadın barədə soruşdum, dedi: "İbrahim deyir: "Ümmü İmran bilir ki, o, heyz olan zaman mən onunla arxadan yaxınlıq edirəm".[421]

---

[416] "Səhih", Buxari, 1/114.

[417] "Səhih", Müslim, 1/243.

[418] "Səhih", Müslim, 1/242.

[419] "Səhih", Müslim, 1/242.

[420] "Sünən", Tirmizi, 1/239.

[421] "Sünən", Darəmi, 1/255.

İbrahimdən nəql olunur: “Ər heyzli həyat yoldaşı ilə qarından aşağı hissələrdən və budlardan yaxınlıq edə bilər. Əgər üstünə məni (sperma) tökülsə, həmin yeri yuyar, kişi isə qüsl alar”.[422]

Malik ibn Məğul deyir: “Bir kişi Ətadan heyzli qadın haqda soruşdu. Əta qadının qan gələn yerdən savayı başqa hissələrindən yaxınlıq etməkdə bir eyib görmədi”.

Mücahiddən rəvayət olunur: “Heyzli qadının budları arasından və ya göbəyinin üzərindən yaxınlıq etməyin heç bir eybi yoxdur”.[423]

İbn bu Şeybə Həsənin belə dediyini söyləyir: “Qarnı üzərində və budları arasında oynaşmağın eybi yoxdur”.[424]

Həkəmdən nəql olunur: “Aləti övrətin üzərinə qoymaqda eyib yoxdur, lakin içəri daxil etməməlidir”.[425]

Şə`bi deyir: “Əgər qadın övrətinin üstünü parça ilə örtsə, onunla yaxınlıq edilə bilər”.[426]

Beləliklə, qadınlardan kənar durmaqda məqsədin onlarla cinsiyyət üzvlərindən yaxınlığın tərk edilməsi olduğu anlaşıldıqdan sonra, fəqihlərin də gəldikləri qənaətə əsasən, qadından digər ləzzətləri almağın icazəli olduğu başa düşülür.

Şiə alimlərinin heyzli qadınla arxadan yaxınlıq etməklə bağlı hökmlərinə gəldikdə, bu iş bizim nəzərimizdə şiddətli kərahətilidir ki, bunu yalnız rəzil insanlar edərlər, bəzi əhli-sünnə alimlərinin nəzərində isə icazəlidir. Belə olduqda həmin işin əmr olunmasının heç bir yeri yoxdur. Eləcə də dini mətndə yalnız cinsiyyət üzvündən çəkinib, arxadan yaxınlığa təşviq etmək mənası da yoxdur. Çünki təşviq etmək üçün həmin əməl ya Allah yanında bəyənilən, ya da müqəddəs şəriətdə müstəhəbb olmalıdır. Lakin kimsə bunu söyləməmişdir.

---

422 “Sünən”, Darəmi, 1/259.

423 “Sünən”, Darəmi, 1/256.

424 “”Müsənnəf”, İbn Əbu Şeybə, 3/525.

425 “Sünən”, Darəmi, 1/259; “Müsənnəf”, İbn Əbu Şeybə, 3/524.

426 “Müsənnəf”, İbn Əbu Şeybə, 3/524.

* * *

**Müəllif iddia edir: "Ardınca Uca Allah qadına haradan yaxınlaşılmalı olduğunu açıqlayaraq buyurur: *"...təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən onlara yaxınlaşın!"* ("əl-Bəqərə", 222).**

**Uca Allah qadınlarla yalnız cinsiyyət üzvlərindən yaxınlıq etməyi əmr edərək buyurur: *"Qadınlarınız sizin tarlanızdır. İstədiyiniz vaxtda (və ya haradan istəsəniz) öz tarlanıza gəlin!"* ("əl-Bəqərə", 223). Tarla övlad əkilən yerdir".**

**Cavab:** Qadınlara Uca Allahın buyurduğu yerdən yaxınlaşmaq əmri və ya əkin yerinin qadının övrətinin olması heç də digər üzvlərdən ləzzət almağı qadağan etmir. Necə ki, bunu Şafei də Muhəmməd ibn Həsən Şeybani ilə elmi mübahisəsində qeyd etdi. Belə ki, kişi öz xanımının budları arasına, qarnı üzərinə və digər yerlərindən yaxınlıq edə bilər. Üsulu fiqh alimlərinin qeyd etdikləri kimi, bir şeyi əmr etmək digərlərini qadağan etmək mənasına gəlməz.

Arxadan yaxınlıq etməyin vəziyyəti də belədir. Qurandan və peyğəmbər sünnəsindən şəriətin hökmlərini əldə etmək mərifətinə sahib olan hər kəsə aydındır ki, həmin iki mübarək ayədə bunun qadağan edildiyinə dair heç bir dəlalət yoxdur.

Bundan əlavə, Quran təfsirçiləri arasında ayədəki ***"İstədiyiniz vaxtda öz tarlanıza gəlin"*** sözünün izahı barədə fərqli fikirlər mövcuddur. Bəzilər məqsədin "Necə istəyirsiniz" olduğu qənaətindədirlər ki, bu zaman əgər məqsəd yalnız övrət olsa, məna belə olur: "Qadınlarınızla nə cür istəyirsiniz - öndən, arxadan, eləcə də uzanan, ayaq üstə olan və ya əyilmiş halda yaxınlıq edin".

Bəziləri məqsədin "nə zaman" – gecə və ya gündüz olduğu fikrindədirlər.

Digərləri isə "haradan istəyirsiniz" - yəni, öndən və ya arxadan - mənasını daşıdığını iddia edirlər. Bu barədə İbn Ömərdən nəql edilən rəvayətləri əvvəldə qeyd etmişik. Onlara müraciət edə bilərsiniz.

* * *

**Müəllif iddia edir: "Əbu Yə`furun (!)**[427] **Əbu Abdullahdan nəql etdiyi rəvayətdən belə başa düşülür ki, Uca Allahın *"Qadınlarınız sizin tarlanızdır"* ayəsinə əsasən, övlad əkmək üçün yer övrətdir. Övlad istəyərkən övrətdən yaxınlıq edilməlidir. Rəvayətin xüsusi qeydi məhz bunadır. Ancaq istək və şəhvəti ödəmək yeri isə arxadır. Rəvayətin axışı məhz bu mənanı verir.**

**Bu yanlışdır. Çünki övrət yalnız övlad istəmək üçün deyildir, həmçinin istək və şəhvəti ödəmək üçündür. Bu, Adəmdən ta dünyanın sonunadək evli cütlər arasında yaşanan bir həqiqətdir. Əbu Abdullah belə batil bir söz söyləməkdən daha uca və daha yüksəkdir".**

**Cavab:** Rəvayətin mənası olduqca aydındır. Belə ki, İbn Əbu Yə`fur İmam Əbu Abdullahdan (ə) qadınla arxadan yaxınlıq etmək barədə soruşur. İmam (ə) da qadın razı olduğu təqdirdə bu işin icazəli olduğunu bildirir. İbn Əbu Yə`fur isə ***"...Allahın sizə əmr etdiyi yerdən onlara yaxınlaşın!"*** ayəsinin hansı mənaya gəldiyini deyir. Belə ki, o, Allahın əmr etdiyi yerin yalnız ön övrət olduğunu güman edir, ondan savayı digər yerlərdən, eləcə də arxadan yaxınlığın haram olduğunu düşünürdü. İmam (ə) isə buyurur: "Bu, övlad istədiyiniz zaman yalnız övrətdən yaxınlıq edilməli olduğu barədədir. Övladı Allahın sizə əmr etdiyi yerdən yaxınlıq etməklə istəyin. Həmin yer sizə mübah olan övrətdir".

Ardınca da İmam (ə) qadınla arxadan yaxınlıq etməyin halal olduğunun dəlilini izah edərək buyurur: *"Uca Allah buyurur:* ***"Qadınlarınız sizin tarlanızdır. Öz tarlanıza haradan istəyirsinizsə, yaxınlaşın".*** *Yəni hansı yerdən – öndən, arxadan - istəyirsiniz yaxınlaşın".*

Bu, Abdullah ibn Ömərin və digərlərinin həmin ayənin təfsiri və nazil olma səbəbilə bağlı söylədikləri sözlərlə eyni məna daşıyır.

Qeyd etdiklərimizdən ləzzət və şəhvət söndürmək yerinin yalnız qadının arxası olduğuna dair müəllifin iddiasının puçluğu aydınlaşır.

* * *

---

[427] Müəllif ravinin adını ikinci dəfədir ki, yanlış qeyd edir. Belə ki, o, İbn Əbu Yə`furdur.

**Müəllif iddia edir: “Əgər qadınla arxadan yaxınlığın icazəli olduğunu fərz etsək, o zaman *“...təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən onlara yaxınlaşın!”* ayəsinin heç bir mənası qalmayacaq. Çünki qeyd edilən fərzə əsasən, yaxınlığın həm öndən, həm də arxadan olması mümkündür, burada ayənin xüsusilə vurğuladığı üçüncü bir yer qalmayacaq. Beləliklə də ayənin və əmrin mənası olmayacaq”.**

**Cavab:** Əksinə, ayənin düzgün və aydın mənası olacaq. Belə ki, qadınla arxadan yaxınlıq etmək icazəli olsa da, yalnız bunun haram həddinə yetişməyən şiddətli kərahəti vardır. Qadın heyzdən təmizləndiyi zaman Allahın buyurduğu yerdən – övrətdən ona yaxınlaşmaq da icazəli olur. Arxadan yaxınlıq isə icazəli olsa da, Allah bunu əmr etmir, lakin şiddətli kərahətin olmasına rəğmən, icazəli bilir.

* * *

**Müəllif iddia edir: “Lakin iki yerdən biri haram olduğu üçün oradan yaxınlaşmaq icazəli deyildir. Digəri isə halaldır və yaxınlaşmalı olan yerə dəlalət edir. Allahın əmri də əkin yerindən yaxınlaşmaqdır. Həmin yer həm övladın təməli qoyulan və həm də şəhvəti ödəmək yerdir”.**

**Cavab:** Əvvəldə dedik: Övlad dünyaya gətirmək üçün yaxınlıq edilən yer yalnız övrətdir və bu, digər üzvlərdən ləzzət aparmağı qadağan etmir. Əks təqdirdə budların arasında şəhvət söndürmək və s. hallar haram edilməlidir.

Qadınla arxadan yaxınlığın əmr olunmaması bu işin haramlığını tələb etməz. Bu iş bəyənilməyən sayılar. Uca Allah heyz olan qadınla haram münasibəti əmr etmədiyi kimi, eləcə də məkruh olan qadınla arxadan yaxınlığı da əmr etmir. Bu, aydın məsələdir və söhbəti uzatmağa heç bir lüzum yoxdur.

* * *

**Müəllif iddia edir: “Qadınlarla ləvatətin (!) icazəli olduğuna dair Rzaya (r.a) nisbət verilən rəvayətə və orada Lutun (ə) sözlərinin dəlil göstərilməsinə gəldikdə isə deyirəm: Uca Allahın *“Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər”* (“Hud”, 78) ayəsinin təfsiri digər ayədə qeyd olunur: *“Lutu da (yad et)! Bir zaman o öz qövmünə demişdi: “Doğrudanmı siz özünüzdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc bir işi görürsünüz?”* (“əl-Ənkəbut”, 28)”.**

**Cavab:** Aydındır ki, digər ayə birinci ayəni təfsir etmir. Belə ki, ilk ayə Lut peyğəmbərin (s) öz qızlarını evlənmək üçün təklif etdiyini göstərir. Ancaq onun qövmü Lutun (ə) qonaqları ilə livat[428] etmək arzusunda idilər. Lut (ə) da məcbur qalaraq qızlarını onlarla evləndirməyi düşünür ki, çox fəsadlı olanı az fəsadla dəf etsin. Onun bu hərəkətində arxadan yaxınlığın halal olduğuna açıq-aydın işarə vardır. Çünki onun qövmünün ümumiyyətlə qadınlarla cinsiyyət üzvündən yaxınlıq etmək istəklərinin olmadığı məlumdur.

İkinci ayədə isə Lut (ə) qadınları kənara qoyub kişilərlə yaxınlıq etdikləri üçün qövmünü məzəmmət edir.

Aydındır ki, birinci ayədə mövzu qadınla arxadan yaxınlıq etməklə bağlıdır, ikinci ayənin mövzusu isə kişilərlə livatın haram olmasıdır. Mövzular müxtəlif və fərqli olduğu halda, ikinci ayə birinci ayəni necə təfsir və izah edə bilər?!

* * *

**Müəllif iddia edir: "Yol kəsmək yalnız quldurların yol kəsməyi deyildir... Belə ki, dünyaya övlad gətirilən yerdən yaxınlıq etməyib, arxadan əlaqədə olmaq gələcək nəsillərin yolunu kəsməkdir. Əgər insanlar kişi və qadınlarla arxadan yaxınlığa davam etsəydilər və beləliklə övlad dünyaya gətirməsəydilər, o zaman bəşəriyyətin kökü kəsilər və nəsillər tükənərdi".**

**Cavab:** Ayədəki yol kəsməyin nəsillərin yolunu kəsmək kimi təfsir edilməsi ağıla müvafiq olsa da, lakin bəzi əhli-sünnə təfsirçiləri bunu belə izah etməmişlər.

İbn Kəsir bu ayənin təfsirində yazır: "Uca Allah bu ayədə peyğəmbəri Lutun (ə) qövmünün pis hərəkətlərini və kişilərlə yaxınlıq kimi qəbahətli əməllərini inkar etdiyini, aləmlərdə Adəmdən (ə) bəri heç kəsin bundan öncə belə bir əmələ mürtəkib olmadığını xəbər verir. Onlar bununla bərabər Allaha küfr edir, elçilərini inkar edir, onlara qarşı çıxır və yol kəsirdilər. Yəni, insanların yolları üzərində durur, onları öldürüb mallarını götürürdülər".[429]

---

[428] Homoseksual əməl.

[429] "Təfsirul-Qur`anil-əzim", 3/411.

Qurtubi öz təfsirində yazır: ***"yol kəsirdilər";*** deyilib: Onlar yol kəsərək quldurluq edirdilər. Bunu İbn Zeyd deyib. Həmçinin deyilib: "Yollarda insanları qarşısını kəsir, onları yaxalayır və çirkin əməlləri üçün istifadə edirdilər". Bunu İbn Şəcərə söyləyib. Deyilib: "Onlar qadınları tərk edərək kişilərə şəhvətlə üz tutmaqla gələcək nəsillərin önünü kəsirdilər". Bunu isə Vəhəb ibn Munəbbih deyib. Yəni qadınların əvəzinə kişilərlə kifayətlənirdilər.

Deyirəm (Yəni Qurtubi deyir): Ola bilsin bütün bu qeyd edilənlər həmin qövmdə vardı. Onlar insanların mallarını əllərindən almaq və onlarla əxlaqsız davranmaq üçün yol kəsir, həmçinin qadınlardan uzaq dururdular".[430]

Təbəri deyir: "Uca Allah Lutun (ə) öz qövmünə söylədiklərini belə nəql edir: "Ey qövmüm, siz həqiqətən də, kişilərlə arxadan yaxınlıq edir və yolları kəsirsiniz. Yəni, öz çirkin əməllərinizlə sizin yurda gələn müsafirlərin qarşısını alırsınız. Belə ki, qeyd edildiyinə görə, onlar yoldan keçən və ya onların şəhərinə gələn müsafirlərin qarşısını kəsirdilər. Bunu qeyd edənlərdən biri Yunusdur. Deyir: Yunus mənə İbn Vəhəbdən, o da İbn Zeyddən rəvayət edir: ***"Yolları kəsirdilər"*** – bu, müsafirlərin hərəkət etdikləri yollardır. Onlar həmin şəxsi saxlayır və öz çirkin əməllərinin hədəfinə çevirirdilər".[431]

Qeyd edilənlərdən aydın olur ki, müəllif bu ayəni yalnız Vəhəb ibn Münəbbihin rəyinə uyğun şərh edib. Vəhəbin rəyi isə digərlərinin üzərində heç bir üstünlüyə malik deyildir.

Əgər bunun doğru olduğunu qəbul etsək, o zaman Vəhəbin məqsədi Lut qövmünün qadınları tərk edərək kişilərə şəhvətlə yaxınlaşması və bununla da yeni doğulacaq nəslin qarşısını kəsməkdir. Lakin bizim mövzumuzda məsələ belə deyildir. Biz qadınlarla arxadan yaxınlığın icazəli olub-olmadığı barədə danışırıq, kişilərlə yaxınlıqdan deyil. Belə ki, qadınlarla arxadan yaxınlığın icazəli olması heç də yeni doğulacaq nəslin qarşısını kəsmək deyildir. Bizim mövzumuzla bu məsələ arasında nə qədər fərq vardır!

---

[430] "əl-Camiu liəhkamil-Qur`an", 13/341.

[431] "Camiul-bəyani fi təfsiril-Qur`an", 20/93.

* * *

**Müəllif iddia edir: "Öncəki ayənin axışına diqqət yetirsək bu ayə də həmin mənanı verir. Şübhəsiz ki, bu, İmam Rzaya da (ə) gizli deyildi. Bununla da həmin rəvayətin ona nisbət verilməsinin yalan olması isbatlanır".**

**Cavab:** Müəllifin ayənin axışı barədə söylədikləri cəfəngiyatdan savayı bir şey deyildir. Belə ki, ayə bu ayənin ardınca gəlir: ***"Elçilərimiz (mələklər) Lutun yanına gəldikləri zaman (tayfası bu gözəl qonaqlara bir pislik yetirər deyə) əndişəyə düşdü, ürəyi sıxıldı və: "Bu, çox çətin (başabəlalı) bir gündür!" -dedi. Tayfası (qonaq gəldiyini bilən kimi) tələsik (Lutun) yanına gəldi. Onlar (Lutun yanına gəlməzdən və mələkləri görməzdən) əvvəl də pis işlər görürdülər. (Lut onlara) dedi: "Ey qövmüm! Bunlar (balalarım və ya ümmətimin qadınları) mənim qızlarımdır (onlardan şəriətə müvafiq surətdə istifadə edin). Onlar (nikah baxımından) sizin üçün daha təmizdirlər. Allahdan qorxun və (yaramaz əməllərinizlə) məni qonaqların yanında rüsvay etməyin. Məgər aranızda (sizə yaxşı işlər görməyi əmr edən, pis işləri yasaq edən) ağlı başında bir adam yoxdur?" Onlar dedilər: "Sənin qızlarına heç bir rəğbətimiz (və ya ehtiyacımız) olmadığını, şübhəsiz, bilirsən. Nə istədiyimizi də, yəqin ki, bilirsən!". (Lut) dedi: "Kaş sizə çatan bir gücüm-qüvvətim olaydı, yaxud möhkəm bir arxaya söykənəydim (alınmaz bir qalaya və ya güclü bir qəbiləyə pənah apara biləydim)!". (Mələklər) dedilər: "Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar əsla sənə toxuna bilməzlər. Gecənin bir vaxtında ailənlə birlikdə çıx get. Heç kəs dönüb geri baxmasın. Təkcə həyat yoldaşın istisnadır. Onlara toxunacaq əzab ona da toxunacaqdır. Onların (ölüm) vaxtı səhərdir. Səhər yaxın deyilmi?" (Lut tayfasının məhvi barəsində) əmrimiz gəldiyi zaman o yurdun altını üstünə çevirdik və üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq. Onlara Rəbbinin dərgahında əlamət qoyulmuşdu (hər daş kimə dəyəcəkdisə, üstünə adı yazılmışdı). (Ya Rəsulum!) O (daşlar sənin ümmətin içərisində olan) zalımlardan da uzaq deyildir!".***[432]

---

432 "Hud" surəsi, ayə 77-83.

İkinci ayə isə bu ayədən sonra gəlir: ***"(Ya Rəsulum!) Lutu da (yad et)! Bir zaman o öz qövmünə demişdi: "Doğrudanmı siz özünüzdən əvvəl aləmlərdən (bəşər əhlindən, ins və cindən) heç kəsin etmədiyi iyrənc bir işi görürsünüz?"***[433]

Bəs bu ayələrdə qadınlarla arxadan yaxınlıq etməyin nəsil artımının qarşısını kəsməsinə dəlalət haradadır?!

Bundan əlavə, rəvayətin İmam Rzaya (ə) nisbət verilməsinin böhtan olduğunun səhih sübutu hanı? Müəllif ayələrdə mövcud olmayan axışa istinad etdiyi kimi, təfsirçilər arasından da sözünü düzgün anlamadığı yalnız bir nəfərin rəyinə əsaslanır!!!

* * *

**Müəllif iddia edir: "Qadınlarla arxadan yaxınlıq etməyin icazəli olduğunu məhz On iki imam şiələrindən başqa heç kəs iddia etməyib".**

**Cavab:** Qadınlarla arxadan yaxınlıq etməyin icazəli olduğu barədə səhabələrdən İbn Ömərin, digərlərindən Səid ibn Müseyyibin, Nafi`nin, Muhəmməd ibn Kə`b əl-Qirzinin, Əbdülməlik ibn əl-Macişunun, Zeyd ibn Əsləmin, məzhəb imamlarından Malik ibn Ənəsin və Şafeinin sözlərini əvvəldə sizə təqdim etdik.

Bəzi sahəbələrin öz xanımları ilə arxadan yaxınlıq etdiyi barədə rəvayətlər də nəql olunmuşdur. Necə ki, bu barədə Muhəmməd ibn Munkədirdən, İbn Əbu Müleykədən, məzhəb imamı Malik ibn Ənəsdən də bu cür hərəkətləri hekayə ediblər. Əvvəldə bu sözləri mötəbər mənbə və sənədləri ilə birlikdə qeyd etdik. Oraya müraciət edə bilərsiniz.

* * *

**Müəllif iddia edir: "Nəcəfdəki və digər hövzələrdəki, eləcə də başqa yerlərdəki bütün seyidlər (!) bu işi görürlər!!!**

**Dostumuz Seyid (!) əl-Höccət Əhməd Vaili deyir ki, bu rəvayətlə qarşılaşdıqdan sonra öz xanımı ilə əksər hallarda arxadan, az vaxtlarda isə öndən yaxınlıq edir".**

---

433 "əl-Ənkəbut" surəsi, ayə 28.

**Cavab:** Müəllifin **“Nəcəfdəki və digər hövzələrdəki, eləcə də başqa yerlərdəki bütün seyidlər (!) bu işi görürlər”** sözü şübhəsiz bir böhtandır. Çünki bu əməli yerinə yetirmiş olsa belə, özünə hörmət edən və şərəfi olan heç bir kəs bunu açıb söyləməz. Bəs bütün seyidlərin belə etdiyindən və öz həyat yoldaşları ilə arxadan yaxınlıq etdiklərindən müəllif necə xəbər tutub?!

Öz evi şüşədən olub başqasının evinə daş atan bu müəllifin qəribəlikləri bitmək bilmir! Belə rəzil bir böhtan atır, halbuki həmin seyidlərdən birinin öz xanımı ilə arxadan yaxınlıq etdiyi iddiasını zəif də olsa, bircə hekayə ilə də isbatlaya bilmir! Bunu edə bilmədiyi halda, şiə rəhbərlərinin və alimlərinin bu işi etdiklərini necə sübuta yetirəcək?!

Halbuki biz bəzi əhli-sünnə alimlərinin və məzhəb imamların öz həyat yoldaşları ilə arxadan yaxınlıq etdiyinə dair onların öz sözlərini nəql etdik! Hərçənd nəql etmədiklərimiz bundan daha çox idi.

Şeyx Vailinin (h.a) adından **“əksər hallarda arxadan, az vaxtlarda isə öndən yaxınlıq edirdi”** sözləri də digərləri kimi, müəllifin öz kitabında cızma-qara etdiyi növbəti açıq-aşkar yalanlarından biridir. Şeyx Vailindən belə abırsız bir söz əsla çıxmaz. Hamı onu yaxşı tanıyır.

Hekayənin uydurma olmasına bu dəlil kifayətdir ki, müəllif oxucuda Şeyx Vailiyə xüsusi yaxınlıq və məhrəmlik təəssüratı yaratmaq üçün onu öz dostu kimi qələmə verir. Halbuki onun dostu olsaydı, ən azından Vailinin seyid deyil, şeyx olduğunu bilərdi. Belə ki, avam şiələr də onun Şeyx olduğunu bilirlər. Bu barədə heç kəs mübahisə etməz. Onun dostu olduğunu iddia edən bir kəs bunu necə bilməz?!

Müəllifin özündən xəcalət çəkməməsi çox təəccüblüdür. Belə ki, Şeyx Vailinin dostu olduğunu iddia etdiyi halda onu rüsvay edəcək belə bir sözü onun dilindən nəql edir. Əgər həqiqətən dostu olduğunu fərz etsək, insanda elə təəssürat yaranır ki, müəllif heç də dost olduğunu iddia etdiyi kəslərə qarşı dost münasibəti bəsləmir və sirr etibar ediləcək kəs deyildir. Belə ki, iddiasına görə dostu olduğu bir şəxsin sirrini faş edən kəs, başqasının sirrini açmağa daha layiqdir.

* * *

**Müəllif iddia edir: “Seyidlərdən biri ilə hər dəfə və hər yerdə görüşdüyümdə onlardan qadınlarla arxadan yaxınlıq etməyin haram və ya halal olduğunu soruşuram. Onlar mənə bunun halal olduğunu deyir, aralarında yuxarıda qeyd etdiklərim də olmaqla bir neçə rəvayəti dəlil göstərirlər”.**

**Cavab:** “Arxadan yaxınlıq üzrə mütəxəssis” olan bu müəllif bizi güldürməyə davam edir. Belə ki, öz etirafına əsasən, görüşdüyü hər bir seyiddən bu məsələni soruşur!!!

Şübhə yoxdur ki, yaşının çoxluğu və Allahın Evini ziyarət etməsi nəzərə alınsa, demək o, Kəbəni ziyarət edən, məqamın arxasında namaz qılan, yaxud Səfa ilə Mərvə arasında səy edən, Ərəfatda və ya Müzdələfədə dayanan, Minada şeytana daş atan, həcc əməllərini icra edən hər kəsdən elə oradaca qadınla arxadan yaxınlığın icazəli olub-olmadığı barədə soruşub?!

Əgər söylədiklərinin doğru olduğunu qəbul etsək, o zaman qarşısına çıxan hər seyiddən qadınla arxadan yaxınlıq etmək barədə soruşmaqdan və bu sualı hər kəsə verməkdə israrından xəcalət çəkməyibmi?! Halbuki, o, özünün fəqih və müctehid olduğunu, yaşının səksən və ya daha artıq olduğunu iddia edir. Xüsusilə də qeyd etməliyik ki, hövzələrdə ümumi qəbul edilmiş ədəb qaydalarına əsasən, alimlər bir kənara dursun, hətta tədrisə yeni başlayan tələbələrin belə suallar verməsi ayıb və ədəbsizlik kimi qəbul olunur!

Onun sözlərinə göz yumsaq və araşdırma xatirinə bu sualı hər kəsə verdiyini qəbul etsək, nəticədə sualının qarşılığında hamıdan “Bəli, halaldır” cavabını alacağını fərz edək. Məgər o bilmir ki, “Bəli, halaldır” sözü heç də onların bu işlə məşğul olduqları anlamına gəlmir?! Halbuki bunun şiddətli kərahəti olduğu və yalnız rəzil şəxslərin edəcəyi rəvayətlərdə də qeyd edilir.

Bunun müqabilində, qeyd etdiyimiz kimi, bəzi əhli-sünnə alimləri və məzhəb imamları da məsələ barədə sual vermiş və halal olduğu cavabını almışlar. Məgər onlar da halal olduğunu söyləməklə, özlərinin bu işi yerinə yetirdiklərini etiraf etmiş olurlar?

* * *

**Müəllif iddia edir: “Onlar qadınlarla ləvatətlə (!) kifayətlənməyərək, əksəriyyəti kişilərlə ləvatəti də icazəli biliblər”.**

**Cavab:** Bu da açıq-aydın iftiradır! Quranın aydın şəkildə haram və qadağan etdiyi halda heç kəs livatı icazəli hesab etməyib. Bunlar şiə alimlərinin məsələ ilə bağlı verdikləri aydın fətvalardır:

Şeyx Səduq özünün “əl-Muqni`” kitabında yazır: “Bil, livat zinadan daha ağır günahdır. Zinakarlıq ruzinin qarşısını kəsir, ömrü qısaldır, sahibini əbədi olaraq cəhənnəm oduna məhkum edir və üzdən həyanı aparır”.

Ta ki, yazır: “Livat (kişinin digər kişi ilə) budların arasından yaxınlığıdır. (Kişi ilə) arxadan yaxınlıq isə Uca Allaha küfrdür. Bil ki, arxadan yaxınlıq öndən yaxınlıq etməkdən daha ağır günahdır. Çünki arxadan yaxınlıq etdiklərinə görə Uca Allah bir qövmü məhv edərək yer üzündən silmişdir. Ancaq öndən (qeyri-qanuni) yaxınlığa görə heç kəsi məhv etməmişdir. Bil ki, kişi ilə livat edən kəsin cəzası odda yandırılmaq və ya üzərinə divarın uçurulması, yaxud da boynunun qılıncla vurulmasıdır”.[434]

Şeyx Müfid “əl-Muqniə” kitabında deyir: “Livat kişilərlə yaxınlıq etməkdir. Bu iki cürdür: Birincisi: arxadan baldırların arasına boşalmaq; əgər hər ikisi aqil və həddi-buluğa çatmış şəxs olsalar həm livat edənə və livat olunana yüz qamçı vurulmalıdır. Zina cəzasının əksinə olaraq, livata görə qamçı vurularkən faillərin evli və ya subay olmasına əhəmiyyət verilməz. İkinci: aləti arxa deşiyə daxil etmək; istər evli, istər subay olsunlar, fərq etməz, buna görə hər ikisi qətlə yetirilər”.[435]

Seyid Mürtəza “əl-İntisar” kitabında yazır: “Yalnız imamiyyə məzhəbi arxa anusdan yaxınlıq etmədən, budların arasına yaxınlıq etməyə görə livat edən və livat olunan hər iki şəxsə - aqil və həddi-buluğa yetişmiş olsalar - yüz qamçı vurmağı nəzərdə tutur. Zina cəzasının əksinə olaraq, livata görə qamçı vurularkən onların evli

---

434 “əl-Muqni`”, səh.429.

435 “əl-Muqniə”, səh.785.

olub-olmadıqlarına diqqət yetirilməz. Ancaq arxa dəlikdən daxil edən şəxsin hökmü ölümdür. Bu zaman da həmin əməli edən kəsin evli olub-olmadığına baxılmaz”.[436]

“əl-Cəvahir” kitabının müəllifi yazır: “Livat kişinin insan növündən olan kişi ilə cinsi əlaqəyə girməsi və Lut qövmünün əməlinə şövq duymasıdır. Bu hərəkətin haramlığı dinin zəruri məsələsidir. Bu, Quranda və Peyğəmbərin (s) sünnəsində açıq-aydın bəyan olunub. Peyğəmbər (s) buyurur: *“Oğlanla yaxınlıq edən kəs qiyamət günü məhşərə cənabətli halda gələr, dünyanın suyu onu təmizləməz, Allah ona qəzəblənər və onu lənətləyər, onu cəhənnəmə atar. Ora necə də pis yerdir!”* Sonra buyurdu: *“Kişi kişiyə bu məqsədlə yaxınlaşdıqda Ərş lərzəyə gəlir. Kişi ilə arxadan yaxınlıq edən kəsi Allah məxluqlarla haqq-hesabı bitirənədək cəhənnəm körpüsü üzərində saxlayar, sonra da cəhənnəmə atılmasını buyurar. O, cəhənnəmin hər təbəqəsində əzab olunaraq daha aşağıya atılar və ta sonuncu təbəqəyə yetişər, oradan əsla çıxarılmaz”.* Möminlərin əmiri Əli (ə) buyurur: *“Əgər bir kəsin iki dəfə daşqalaq edilməsi məqsədəuyğun olsaydı, mütləq ki, bu livat edən kəs olardı”.* Ondan nəql edilən başqa bir rəvayətdə deyilir: *“Livat arxa deşiyə daxil etmədən (kişinin kişi ilə) cinsi münasibətidir. Arxadan yaxınlıq isə Allaha küfrdür”.*[437]

Bu məsələ ilə bağlı alimlərin geniş fikirləri vardır. Onların hamısı livatın haram olduğuna dəlalət edir və bu barədə şiə alimləri arasında yekdil fikir mövcuddur. Nəinki, bütün müsəlmanlar eyni fikirdədirlər.

Buradan aydın olur ki, ictihad və fəqihlik iddiaçısı olan bu müəllif sözlərində əmanətdar və etibarlı olmayan şəxsdir. Livatın haramlığına dair çoxsaylı hədislərin və alimlərin fikirlərinin varlığına rəğmən, o, belə bir iddia irəli sürür. Belə qəti dəlillərin varlığı səbəbindən də öz sözlərini sübut etmək üçün bir dənə də olsun alimin fətvasını göstərə bilmir. Belə fətvanı haradan tapsın?! Nəticədə iddiası sənədsiz və sübutsuz boş söz yığınağına çevrilmiş olur.

* * *

---

436 “əl-İntisar”, səh.251.

437 “Cəvahirul-kəlam”, 41/374-375. Həmçinin “Vəsailuş-şiə” kitabının bu mövzu ilə bağlı fəslinə baxa bilərsiniz (18/416-424).

**Müəllif iddia edir: "Günlərin birində biz hövzədə ikən möhtərəm Seyid Əbdülhüseyn Şərəfuddin əl-Musəvinin Bağdada gəldiyi xəbəri yayıldı. O, hövzəyə gəlib möhtərəm imam Ali Kaşiful-Ğita ilə görüşəcəkdi. Seyid Şərəfuddinin ulduzu həm avam və də seçmə şiələr arasında parlamışdı, xüsusilə də qələmə aldığı "əl-Muraciət" və "ən-Nass vəl-ictihad" kimi kitabları ilə tanınmışdı".**

**Cavab:** Müəllif hövzədən və hövzə əhlindən uzaq olduğu üçün hövzənin Nəcəful-Əşrəfdə xüsusi bir binada yerləşdiyini təsəvvür edir. Ona görə də deyir: **"Günlərin birində biz hövzədə ikən...", "O, hövzəyə gəlib... görüşəcəkdi",** qarşıda isə **"Nəcəfə yetişdikdə hövzəni ziyarət etdi"** deyəcək. Bu, bir neçə gün də olsa Nəcəful-Əşrəfdə yaşayan insanın yanlış olduğunu biləcəyi bir təsəvvürdür. Nəcəful-Əşrəfdə yaşayan və oradakı elmi hövzədə oxuyan bir şəxs bunu necə bilməz?! Nəcəful-Əşrəfdə "hövzə" kəlməsi "dərs proqramı" anlamını daşıyır. Bir kəs "hövzədə oxudum" dedikdə, məqsədi ümumi qəbul edilmiş dini elmləri öyrənməsidir. Mümkündür ki, bu tədris evdə, mədrəsədə və ya məscidə keçirilmiş olsun.

* * *

**Müəllif iddia edir: "Nəcəfə yetişdikdə hövzəni ziyarət etdi. Bu hadisə hövzə işçiləri, alim (!) və tələbələri tərəfindən bayram kimi qarşılandı. Seyid (!) Ali Kaşiful-Ğitanın ofisindəki məclisdə bir çox ağalar və hövzənin bəzi tələbələri toplaşmışdılar. Mən də orada iştirak edənlərdən biri idim".**

**Cavab:** Müəllif özünün əvvəlki yanlışını bir daha təkrarlayır, Muhəmməd Hüseyn Kaşiful-Ğitanı "Seyid" olaraq vəsf edir. Hətta sual soruşan şəxsi də yanlışlığa salaraq onun da Şeyxə seyid deyə xitab etdiyini yazır. Qarşıda bunu qeyd edəcəyik.

Həmçinin başqa bir səhvə də yol verir. O, Şeyx Kaşiful-Ğitanın Nəcəful-Əşrəfdə ofisinin olduğunu güman edir. Halbuki belə bir fakt olmayıb. Bunu kitabın əvvəlində qeyd etmişdik.

Möhtərəm oxucunun diqqətini bir fakta çəkmək istəyirik. Əgər fikir verirsinizsə, müəllif öz kitabında Nəcəf şəhərinə bir dəfə olsun Nəcəful-Əşrəf demir. Ancaq şiə alimləri, hətta adi tələbələr müəllifləri olduqları yazılarda Nəcəf şəhərini həmişə əl-Əşrəf sifətilə vəsf etməyi özlərinə borc bilirlər.

Vaqif olduğu bütün elmlərə yiyələndiyini iddia edən bir kəsin Möminlərin əmiri Əlinin (ə) şəhəri olan Nəcəful-Əşrəfə qarşı belə ehtiramsız münasibətinin səbəbini anlamaq olmur!

* * *

**Müəllif iddia edir: "Həmin məclis əsnasında içəri gəncliyinin ilk çağında olan bir oğlan girdi, salam verdi və oradakılar salamını aldılar. Gənc Seyid (!) Ali Kaşiful-Ğitaya dedi: "Seyid (!), mənim sizə sualım var". Seyid (!) dedi: "Sualını Seyid Şərəfuddinə ver".**

**O, sualı qonağı Seyid Şərəfuddinə hörmət və ehtiram olaraq ona yönəltdi.**

**Gənc dedi: "Seyid, mən doktorluq dərəcəsi əldə etmək üçün Londonda oxuyuram. Hələ də subayam, evlənməmişəm. Burada mənə yardım edəcək və qayğımı çəkəcək bir qadınla evlənmək istəyirəm (O, öncədən məqsədini söyləmədi)".**

**Seyid Şərəfuddin dedi: "Evlən, gedərkən həyat yoldaşını da özünlə götür".**

**Gənc dedi: "Ölkəmdən olan həyat yoldaşımın mənimlə birlikdə orada qalması çətin olar".**

**Seyid Şərəfuddin onun məqsədini anlayıb dedi: "Demək, sən ingiltərəli qadınla evlənmək istəyirsən?"**

**Gənc "Bəli" deyə cavab verdikdə Seyid dedi: "Bu, icazəli deyildir, yəhudi və xristianlarla evlənmək haramdır".**

**Cavab:** Bu açıq-aydın uydurmadır. Çünki məhz Seyid Şərəfuddin kitab əhlindən olan şəxslərlə nikah bağlamağın icazəli olduğuna fətva vermişdir. Bunu özünün "Məsailu fiqhiyyəh" və "Əcvibətu məsail carillah" kitablarında qeyd etmişdir. Orada yazır:

"Müvəqqəti evlilik. Burada bir neçə fəsil vardır:

1. Bu nikahın gerçəkləşməsi: nikahın gerçəkləşməsi üçün azad və kamala yetmiş müsəlman və ya kitab əhlindən olan qadın özünü sənə izdivac etməlidir. Belə ki, İslam dininə görə sənin onunla evlənməyinə məhrəmlik, evlilik səbəbilə qohumluq, südvermə, qadının ərdə və ya iddədə olması, hətta ölümündən və ya boşamazdan

öncə cinsi münasibətdə olmasa belə sənin ata-babalarından biri ilə nikahda olması, həyat yoldaşının bacısı olması və bu kimi başqa heç bir şəri maneə olmamalıdır".[438]

Bu sözlərdə kitab əhlindən olan şəxslərlə müvəqqəti nikah bağlamağın icazəli olduğu aydın qeyd edilir. Bütün bunlardan sonra hansı insaflı şəxs bu uydurma hekayəni təsdiqləyər?!

* * *

**Müəllif iddia edir: "Gənc dedi: "Bəs onda mən necə edim?"**

**Seyid: Orada yaşayan, müsəlman olan ərəb, hindistanlı və ya başqa bir şəxslə evlən. Bir şərtlə ki, həmin qadın müsəlman olsun.**

**Gənc: Orada çox axtarmışam, lakin mənə münasib olan bir xanım tapa bilməmişəm. Hətta müvəqqəti evlənmək üçün də layiqli qadına rastlamamışam. Artıq seçimim yoxdur, ya zina etməli, ya da evlənməliyəm. Lakin bunların hər ikisi mənim üçün ağırdır. Zina haram olduğu üçün həmin işdən uzağam. Evlənməyim isə, gördüyünüz kimi, çətindir. Mən orada bir və ya bir ildən artıq müddət qalır, sonra isə bir aylıq məzuniyyətə gəlirəm. Bildiyiniz kimi, səfərim uzundur, mən nə etməliyəm?"**

**Cavab:** Əvvəldə də qeyd etdiyimiz kimi, Seyid Şərəfuddin kitab əhli ilə müvəqqəti evlənməyin icazəli olduğuna fətva vermişdir. Əgər bu gənc Seyid Şərəfuddinə təqlid edirsə, o zaman yəhudi və ya xristian qadınla müvəqqəti evlənə bilər. Yox, əgər Şeyx Kaşiful-Ğutaya təqlid edirsə, bu halda həmin din mənsubları ilə həm müvəqqəti, həm də daimi nikahla evlənə bilər. Kaşiful-Ğita özünün "Təhrirul-məcəllə" kitabında bu fətvasını qeyd edir: "Kitab əhlindən olan yəhudi, xristian və məcusilərə gəldikdə, əgər cinsi əlaqədən öncə və ya sonra, daimi və ya müvəqqəti nikahda İslamı qəbul etsələr, o zaman nikah qüvvəsindədir. Ancaq başlanğıcda bu nikahın haram olduğu deyilib. Həmçinin müvəqqəti evlilikdə icazəli, daimi nikahda isə haram olduğu deyilib. Eləcə də, ümumiyyətlə icazəli olduğunu da söyləyiblər. Bu söz Uca Allahın kitabındakı "əl-Maidə" surəsindəki ləğv (nəsx) edilməmiş ayənin

---

[438] "Məsailu fiqhiyyə", səh.72. Buna oxşar sözlər "Əcvibətu məsail carilləh" kitabında da yer alır (səh.85).

zahiri hökmünə də uyğundur: ***“Bu gün pak nemətlər sizə halal edilmişdir... Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır”.***[439] Sünnədə qeyd edilən qadağanı isə daha pak olanının tərcihi kimi qəbul etmək olar”.[440]

Bununla da hekayənin başdan etibarən saxtalığı aşkar olur.

Müəllif bu hekayəni uydurarkən həmin iki alimin fətvalarına nəzər salmamış və onların bu cür nikahı halal hesab etdiklərindən xəbərsiz qalmış, beləcə, hekayəni uydurmaqla şiələri aldadacağını güman etmişdir. Lakin Allah onun saxtakarlığının və yalanının üstünü açdı!

Əgər həmin gəncin orada daimi və ya müvəqqəti evlənməyə müsəlman və ya kitab əhlindən olan bir qadın tapa bilmədiyini fərz etsək, belə olduqda onun vəzifəsi özünü harama düşməkdən qorumaq, zinadan, livatdan və bu kimi haram əməllərdən çəkinməkdir. Əks təqdirdə həmin şəhərdə tədrisi saxlamalı və öz vətəninə qayıtmalıdır.

Məsələnin bu cür sadə həlli əsla Seyid Şərəfuddinə və Şeyx Kaşiful-Ğutaya gizli qala bilməzdi.

* * *

**Müəllif iddia edir: “Şərəfuddin qısa müddət susdu[441], sonra dedi: “Sənin vəziyyətin həqiqətən acınacaqlıdır... Hər bir halda, xatırlayıram, mən İmam Cəfər Sadiqin (r.a) belə bir rəvayətini oxumuşdum ki, onun yanına vaxtını çox hissəsini səfərdə keçirən bir şəxs gəlmiş, həyat yoldaşını özü ilə səfərə götürə bilmədiyini, eləcə də getdiyi şəhərdə müvəqqəti evlənməyə imkanı olmadığını söyləmişdi. Onun da vəziyyəti eynilə sənin vəziyyətin kimi idi. Əbu Abdullah**

---

[439] “əl-Maidə” surəsi, ayə 5.

[440] “Təhruril-məcəllə”, 5/24.

[441] Burada müəllifin haşiyəsi var. İnşallah, qarşıda ona cavab veriləcək.

**(r.a) ona demişdi: "Səfərinin müddəti uzandıqda kişi ilə nikah bağla".[442] Sənin sualının cavabı budur".**

**Cavab:** Onun bu sözləri də öncəkilər kimi açıq-aydın yalandır. Şiə kitablarında belə bir rəvayət mövcud deyil. Seyid Şərəfuddinin (q.s) həmin rəvayətin sənədinə və səhihliyinə nəzər salmadan belə bir fətva verməsi necə mümkündür?!

Müəllif güman edir ki, fəqih bir şəxs şəri hökmü sadəcə bir rəvayətin varlığına əsaslanıb verə bilər. Bu zaman onun sənədinə baxması, digər xəbərlərlə ziddiyyətinin olub-olmadığını araşdırması lazım deyildir. Necə ki, müəllif özü bütün kitablarında belə etməkdədir. Ona görə də Seyid Şərəfuddinə qarşı bu cür bir yalanı rahatlıqla uydura bilir.

Müəllifin uydurduğu bu fətva əslində bəzi əhli-sünnə müftilərindən nəql olunub. Bunu "Mətaliul-ənvar" kitabında Şeyx Muhəmməd Tahir Qummi Şirazinin "Ərbəin" kitabından nəql olunduğu kimi, Əbi Hənifədən nəql edib. Orada deyir:

"Ondan daha ağırı Əbu Hənifənin bu sözüdür: "Ana və anadan yuxarı qadınla (nənə, nənənin anası...), qız övladı və ondan aşağı (onun övladı, nəvəsi və s.) övladlarla, bacısı, bacısının qızı, bibisi və xalası ilə cinsi əlaqəyə girsə, alətini əski ilə sarımaq şərtilə bu icazəlidir. Əgər kişi anasını, bacısını və öz yaxın məhrəmini satın alsa, onlarla cinsi əlaqədə olması icazəlidir. Əgər bir kəsi icarəyə götürsə, alətini əski ilə sarımaqla, onunla livat edə bilər. Lakin satın alan şəxslə bunu edə bilməz. Yalnız bir şərtlə, evli olmadığı təqdirdə edə bilər. Onların bu sözünü nəzmə çəkən deyir:

*Subay kişi ilə evlənilərsə,*

*Saqqalı çıxmamış oğlanla cinsi əlaqə icazəlidir.*

*Bu o zamandır ki, səfərdə tənhadır,*

*Şəhvətini ödəməyə kişidən savayı heç bir qadını yoxdur".*[443]

Bilmirəm, Əbu Hənifə belə fətva vermişdir, yoxsa bu sözlər heç bir araşdırma və təhqiqat aparılmadan ondan nəql edilmişdir.

---

[442] Bu yerdə də müəllifin haşiyəsi var. İnşallah, irəlidə ona da cavab veriləcək.

[443] "Kitabul-ərbəin fi imamətil-əimmətit-tahirin", səh.647. Məhrəmlərlə yaxınlıq barədə fətva İbn Həzmin "əl-Muhəlla" kitabının 11-ci cildində də yer alıb.

* * *

**Müəllif iddia edir: "Gənc oradan çıxdıqda aldığı cavaba tərəddüd etdiyi üzündən oxunurdu. Aralarında hövzə rəhbəri Seyidin (!) də olduğu iştirakçılar isə ağızlarını açıb bir söz belə söyləmədilər".**

**Cavab:** Şübhə yoxdur ki, bu hekayəni eşidən hər kəsin üzündə tərəddüd əlamətləri görünəcək.

Şiə alimlərinin fətvaları, xüsusilə də Seyid Şərəfuddin və Şeyx Kaşiful-Ğitanın fətvaları ilə tanış olan hər bir şəxs bilir ki, bu hekayə başından etibarən uydurmadır. Belə ki, bu qissədə imamiyyə alimlərinin haramlığına dair yekdil fikirdə olduqları bir məsələ halal elan edilir.

Bu müflis müəllifin, eləcə də şiə məzhəbini və şiə alimlərini bədnam etmək yolunu tutmuş kəslərin üzrü budur ki, onlar öz məqsədləri üçün bir dənə də olsa, yapışa biləcəkləri səhih dəlil tapa bilmirlər. Bu səbəbdən də öz alçaq hədəflərinə çatmaq üçün açıq-aydın yalanlar və saxta hekayələr uydururlar.

* * *

**Müəllif mövzu ilə bağlı kitabının birinci haşiyəsində iddia edir: "Görünən odur ki, sual verən şəxsə cavab verməkdə çaşqınlığa düşmüşdür. Seyid (!) Ali Kaşiful-Ğita ilə təklikdə qalmaq fürsəti əlimə düşdükdə, Seyid Şərəfuddinin söylədiyi həmin rəvayət barədə ondan soruşdum. Dedi: "İndiyədək oxuduqlarım arasında buna rast gəlməmişdim". Həmin vaxtdan etibarən oxuduqlarım arasında o rəvayətin mənbəyini tapmağa çalışıram. Lakin əlimdə olan hədis mənbələrində ona rast gəlməmişəm. Güman edirəm ki, orada iştirak edənlərin qarşısında pis vəziyyətdə qalmaması üçün Seyid onu uydurmuşdu".**

**Cavab:** Bu cür primitiv və sadə bir suala cavab verməyə Seyid Şərəfuddin kimi bir alim kənarda dursun, hətta adi tələbə belə çətinlik çəkməz.

Seyidin qarşısına çıxan iddia olunan belə sadə bir suala cavab üçün rəzil və əxlaqsız rəvayəti uydurub İmam Sadiqə (ə) nisbət verməsi mümkün deyildir.

Müəllifin özü də həmin rəvayətin şiə kitablarında olmadığını və uydurulduğunu etiraf edir. Biz onu kimin uydurduğunu yaxşı bilirik. Bununla bərabər, qarşıda müəllifin özü qeyd edəcəyi haşiyədə bəzi şerlərdə *"Saqqalı çıxmamış oğlanla cinsi*

*əlaqə icazəlidir”* sözlərini bir kitabda oxuduğunu etiraf edəcək. Onun sözlərindəki ziddiyyət və uyğunsuzluqları aşkara çıxaran Allaha həmd olsun!

* * *

**Müəllif mövzu ilə bağlı kitabının ikinci haşiyəsində iddia edir: “Seyid Şərəfuddinin bəzi tələbələri mənə xəbər verib ki, o, Avropada olarkən bir çox avropalı qadınla, xüsusilə də yaraşıqlı qadınlarla müvəqqəti evlənmişdir. Hər gün onlardan birini icarəyə götürürdü. Həmçinin o, Nəhar adlı bir arameyli xristian qadınla evli idi. Bəs nə üçün başqasına haram etdiyini özünə halal bilir?”**

**Cavab:** Görünən odur ki, müəllifin məqsədi Seyid Şərəfuddinin şəxsən Avropaya getdiyini və orada avropalı qadınlarla müvəqqəti evləndiyini bildirməkdir. **“Bəs nə üçün başqasına haram etdiyini özünə halal bilir?”** sözündən də bunu anlamaq olur.

Bu iddianın da yalan və uydurma olduğu aşkardır. Çünki Seyid Şərəfuddin əsla Avropaya getməmişdir. Onun tərcümeyi-halı bir çox kitablarda mövcuddur və etdiyi səfərlər də məlumdur. Onun səfərlərinin sərhədləri Misir, Hicaz, Fələstin, Suriya, İraq və İranı aşmamışdır. Bəs Seyid Avropaya nə vaxt getdi? Bəs orada nə vaxt mütə edib?

Müəllif bu hekayəni Seyidin tələbələri kimi vəsf etdiyi şəxslərdən nəql edir. Nə üçün müəllif onun adını açıqlamır ki, bu hekayənin istinadının doğru olduğu bilinsin?

Müəllif uydurduğu hekayənin saxtalığı məlum olmasın deyə həmin şəxsin adını açıqlamır, bu səbəbdən onu gizli saxlayır. Bu, onun uydurma hekayələrində izlədiyi metoddur. Diqqət yetirsəniz görərsiniz ki, onun hekayələr nəql etdiyi şəxslərin adları həmişə məchul olaraq qalır.

* * *

**Müəllif iddia edir: “Seyidlərdən birini hövzədə bir gənc tələbə ilə livat edərkən yaxalamışdılar. Bu xəbər çoxlarının qulağına yetişmişdi. Növbəti gün həmin seyid küçədə gedərkən ona hövzənin alimlərindən olan başqa bir seyid yaxınlaşdı. Bədnam əməlin xəbəri ona da çatmışdı. Onunla zarafat edərək ədəbi**

**dildə dedi: "Halqaya[444] vurmağa nə deyirsən?" Digər seyid də ədəbi dillə zarafat edərək ona belə cavab verdi: "Ancaq alətin ucunu daxil etmək daha yaxşıdır". Onların hər ikisi də uca səslə qəhqəhə çəkib güldülər".**

**Cavab:** Bu müəllifə təəccübüm bitmək bilmir! Öz nəqllərində etibarlı olmayan belə bir kəs heç bir səhih dəlilə əsaslanmadan bu cür yalan və böhtanları uydurmaqdan utanmırmı?!

Şiə alimləri belə rəzil və əxlaqsız əməllərə mürtəkib olmaqdan daha təqvalı və daha ucadırlar! Nəinki, alim və fəzilətli şəxslər bir kənara dursun, biz sünni və ya şiə olmasından asılı olmayaraq bütün şərəfli insanları belə rəzil əməllərdən uzaq bilirik.

Əgər bu nağılın doğruluğunu fərz etsək belə, belə sözləri nəql etmək müsəlmanlar arasında əxlaqsızlığı yaymaq sayılacaq və Quranın hökmünə əsasən, qadağan olunmuşdur.

Uca Allah buyurur: ***"Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir. (Hamının əməlini, yayılan şayiələrin, atılan böhtanların doğru olub-olmadığını) ancaq Allah bilir, siz bilməzsiniz!"***[445]

İbn Kəsir öz təfsirində yazır: "Bu, bir kəsin barəsində pis sözlər eşidib, yadında saxlayıb və insanlar arasında danışan şəxs üçün üçüncü ədəbləndirmədir. O şəxs belə əməlləri dilinə gətirməməli və danışıb insanlar arasında yaymamalıdır. Belə ki, Uca Allah buyurur: ***"Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir".***[446]

* * *

**Müəllif iddia edir: "Hövzə alimləri arasındaləvatətlə məşhur olan bir seyid də vardır. O, hövzə alimlərindən olan başqa bir seyidi ötürən gənc oğlanı görüb**

---

[444] Müəllifin dediyinə görə, məqsəd arxa dəlikdir.

[445] "ən-Nur", surəsi, ayə 19.

[446] "Təfsirul-Qur`anil-əzim", 3/275.

**soruşdu: "Sənin yanında olan bu gənc kimdir?" O seyid "Filankəsin oğludur" deyə cavab verdi.**

**Dedi: "Onu niyə yanımıza göndərmirsən ki, tədrisi və təlimi ilə məşğul olaq, sənin kimi bir alimə çevrilsin?" Seyid də istehza ilə belə cavab verdi: "Ey alçaq və rəzil! İstəyirsən ki, onu sənə verim və sən də onunla filan-filan işləri görəsən?!"**

**Bu hadisəni mənə hövzənin etibarlı müəllimlərindən biri danışıb[447]".**

**Cavab:** Bu da əvvəlki hekayələr kimi sənədsiz və şəxslərin adları qeyd edilməyən yalan və uydurmadır.

Homoseksual əməlləri ilə məşhur olan bir kəsin onu bu xüsusiyyətilə tanıyan bir insandan təlim və tərbiyə üçün oğlunu ona verməsini istəməsi məgər ağıla sığarmı?

Lakin yalançı olan müəllif özünün uydurduğu yalanı mükəmməl təqdim etdiyini sanmışdır. Halbuki onun sözlərində bu saxtakarlığının üstünü açan və onu rüsvay edən nöqtələr vardır.

Bəs bu hekayəni müəllifə xəbər verən etibarlı şəxs kimdir? Nə üçün onun adını çəkmir? Halbuki dedikləri doğrudursa, onun adının çəkilməsi o şəxsə heç bir müşkül və problem yaratmayacaqdı. Müəllifin iddiasına görə bu seyid **"Hövzə alimləri arasında ləvatətlə məşhur"** idi. Belə ki, bu, adları çəkilmiş və şəxsləri müəyyən olunmuş bir qissə xarakteri alacaqdı.

* * *

**Müəllif mövzu ilə bağlı haşiyəsində iddia edir: "Bu heç də qəribə və təəccüblü deyildir. Bizim oxuduğumuz bəzi şerlərdə buna açıq-aydın dəlalət edən sözlər vardır. Məgər şer nəzmə çəkən bir şəxs belə deməyibmi? *"Saqqalı çıxmamış oğlanla cinsi əlaqə icazəlidir..."*.**

**Cavab:** Şiələrin, hətta bütün müsəlmanların homoseksuallığın haram olduğunu yekdil şəkildə vurğuladıqları halda, elm əhlinə və tələbələrə belə bir əməli nisbət vermək əcaib və qəribə deyilmi?!

---

[447] Burada müəllifin haşiyəsi vardır. İnşallah, qarşıda ona cavab verəcəyik.

Müəllifin oxuduğu və oğlanla livatın icazəli olduğuna dəlalət edən həmin şer nədir? Onun müəllifi kimdir? Bu fətvanı şair kimdən nəql edir?

Görünən odur ki, müəllif məsələ ilə bağlı özünün əvvəldə yazdıqlarını unudub. O, Şeyx Muhəmməd Hüseyn Kaşiful-Ğitanın belə dediyini iddia etmişdi: **“İndiyədək oxuduqlarım arasında buna (bu rəvayətə) rast gəlməmişdim”.** Müəllifin öz isə ardınca belə deyirdi: **“Həmin vaxtdan etibarən oxuduqlarım arasında o rəvayətin mənbəyini tapmağa çalışıram. Lakin əlimdə olan hədis mənbələrində ona rast gəlməmişəm”.**

O, nə burada və nə də həmin yerdə bu uydurma rəvayət üçün heç bir mənbə qeyd etməmişdir. Halbuki biz bu sözlərin məhz Əbu Hənifəyə nisbət verildiyini mənbəyini göstərərək qeyd etmişik. Həmin yerə baxa bilərsiniz.

* * *

**Müəllif iddia edir: “Belə hadisələrlə çox qarşılaşmışıq, eşitdiklərimiz isə bunlardan daha çoxdur. Möhtərəm dostumuz Seyid Abbas belə hadisələrin çoxunu baş vermə tarixləri, təfsilatı və əlaqədar şəxslərin adları ilə qeydə alıb. O, bu mövzuda adını “Nəcəf elmi hövzəsindəki rəzilliklər” qoymağı düşündüyü bir kitab yazmaq niyyətindədir. Çünki bu yazıq və miskin sadə şiələr üçün həqiqətlərin üstünü açmaq, pərdələr arxasında nələrin baş verdiyini onlara çatdırmaq vacibdir. Onlar seyidlərin nə etdiklərini bilmirlər. Öz xanımlarını, qızlarını və ya bacılarını övlad diləmək və ya qurban kəsmək üçün ziyarətə göndərirlər. Bu zaman da, xüsusən də gözəl olduqları təqdirdə seyidlər onları ələ keçirir və cürbəcür çirkin əməllərinə məruz qoyurlar. Allahdan savayı güc və qüdrət yoxdur!”**

**Cavab:** İddiasına görə, yaşlı alimlərdən olan, üstün ictihad dərəcəsinə yetişmiş bu müəllifə homoseksual xarakterli çox sayda əməllə qarşılaşmaq görəsən, necə müyəssər olmuşdur?!

Yoxsa o, bu hadisələrin iştirakçılarından biridir?

Yoxsa hər belə “məclisə” şahidlik üçün dəvət olunurdu?

Yoxsa belə hadisələrdən xəbərdar olmaq üçün uğur onunla müqavilə bağlamışdı?

Yoxsa elm tələbələri yollarda və yol kənarlarında açıq şəkildə livatla məşğul olurdular və müəllif də digər insanlar kimi onlara tamaşa edirdi?

Müəllif bu suallara qaneedici cavablar verməlidir!!!

Onun "möhtərəm dostu Seyid Abbas" bu hadisələrdən necə xəbər tutub, necə şahid olub ki, hətta özünün şəxsən şahidi olduğu homoseksual xarakterli əməllər barədə tarixləri və əlaqədar şəxslərin adları ilə bir kitab həcmində material toplayıb?

Bilmirəm, bu hadisələrin həqiqətən baş verdiyi fərz olunsa, müəllif və onun möhtərəm dostu Abbas bu cür mənfur əməllərdən tarixləri və şəxslərin adları ilə bəhs edən bir kitabın yazılmasının icazəli olduğuna etiqad bəsləyirlərmi?

Hər bir halda, bu müəllifin və onunla əlbir olan kəslərin məzəmmət olunan cəhətləri olduqca çoxdur. Onlar yalan hekayələr uydurur və bununla şiənin günahsız və təqvalı şəxslərinin adlarını ləkələməyə cəhd göstərirlər. Bu onların adətidir! Bu adəti öz sələflərindən almış və davam etdirməkdədirlər!

Günahsız və təqvalı insanlara ləkə yaxmağa təşviq edən məzhəbləri onlara mübarək olsun! Onlar öz məzhəblərini yalnız səhih bir dəlillə isbatlamağa aciz qaldıqları üçün belə yalan və uydurma iftiralar üzərində qururlar. Bu əməlləri onlara dünyada rüsvayçılıq, axirətdə isə cəza gətirəcəkdir.

Məgər kimsə öz xanımını, qızını və ya bacısını ziyarətə seyidlərə təslim etmək və onlarla istədikləri kimi rəftar edilməsi üçün göndərir? Yoxsa müəllif insanların namusunun beləcə asanlıqla ələ keçirildiyini təsəvvür edir? Yoxsa qadının bir gəlincik olduğunu, hər kəsin onlara əl uzada biləcəyini, onların isə özlərinə tərəf uzanan əlləri dəf etmədiklərini sanır?

Hər halda, ağılları yüz illərlə dondurulmuş bir kəsdən belə sözlər eşitmək heç də qəribə deyil. Onlar İbn Teymiyyənin və onun kimilərin şiəni istədikləri kimi ittiham edən yalan tör-töküntüləri ilə yaşamışlar. Onları bir kəs bu əməldən çəkindirməmiş, mane olmamışdır. Uca və əzəmətli Allahdan savayı heç bir güc və qüdrət yoxdur!

* * *

Rəqibi ilə mübarizədə namuslu insanlara iftira atmağa və yalanlar uydurmağa əsaslanan bir məzhəb əsla haqq ola bilməz və belə bir məzhəb ardınca gedilməyə layiq deyildir.

## Xüms

**Müəllif iddia edir: “Xüms fəqih və müctəhidlər tərəfindən yanlış tərzdə istismar edilən növbəti məsələlərdən biridir, seyidlər və müctəhidlər üçün böyük var-dövlət toplamaq vasitələrindən birinə çevrilib. Halbuki şəri mətnlər sadə şiələrin xüms ödəməkdən azad olunduqlarını deyir. Nəinki, xüms onlara mübahdır və onu mallarından ayırmaları vacib deyildir. Onlar xümsdən digər mal və qazanclarından istifadə etdikləri kimi xərcləyə bilərlər. Əksinə, seyidlərə və müctəhidlərə xüms verən şəxs günaha düşmüş olur. Çünki bu əməlilə Möminlərin əmirindən və Əhli-Beyt imamlarından (Allahın salamı onlara olsun!) nəql edilən mətnlərə zidd davranmış sayılır”.**

**Cavab:** Əhli-sünnə mənsubları şiənin qüvvətlənməsidə, məzhəbin və alimlərinin müstəqilliyində, zalım hakimlərə tabe olmamasında xümsün böyük rol oynadığını yaxşı bilirlər. Halbuki ilk xəlifələrin zamanından ta bu günədək bunun əksi əhli-sünnə alimlərinin vəziyyətində müşahidə edilir.

Ona görə də şiə etiqadını tənqid etmək üçün kitab yazanlar xümsün qanunsuz olduğunu isbatlamağa və şiələri xüms verməkdən çəkindirməyə çalışırlar. Bununla da xüms sayəsində maddi qüvvət qazanmış şiə alimlərinin ayaqları altından palazı çəkməyə səy göstərirlər.

Müəllifin bu ümidsiz fədakarlığı da həmin mənfur cəhdlərdən biridir. Allaha və nemətinə həmd olsun ki, uğursuzluq və ziyanla bitəcək.

Möhtərəm oxucu müəllifin öz qabındakı bütün oxları və kisəsindəki bütün daşları atmasına rəğmən hər bir cəhdinin uğursuzluqla nəticələnəcəyini görəcək, onun qaranlıqda kor-koranə addımladığını anlayacaq. Onun yanlış iddialarına verdiyimiz cavablarla hər bir şəxsin öz qazancından və ticarətindən əldə etdiyi mənfəətlərdən xüms verməli olduğunu vacibliyi aydınlaşacaq.

* * *

**Müəllif iddia edir: “Hörmətli oxucunun xümsün həqiqətdə nə olduğu və necə xərclənməli olması barədə məlumatlanması üçün biz xümsdən bəhs edəcək,**

**onun tarixi barədə söz açacaq və bütün bunlarda dini mətnlərə, imamların sözlərinə və etimad bəslənilən müctəhidlərin fətvalarına istinad edəcəyik.**

**1. Zəris əl-Kinanidən[448] rəvayət olunur: "Əbu Abdullah (r.a) buyurdu: "Camaat arasında zina niyə belə yayılıb?" Dedim: "Sənə fəda olum, bilmirəm". Buyurdu: "Biz Əhli-Beytin xümsünə görə. Yalnız şiələrimiz daha pakdırlar. Bu, (pak) doğulmaları üçün onlara halaldır" ("Üsulul-Kafi", 2/502, Şeyx Mustafanın şərhilə)".**

**Cavab:** Mazəndərani (r.ə) bu hədisin şərhində yazır:

"*Biz Əhli-Beytin xümsünə görə"* sözünün mənası budur: İmamın izni olmadan döyüşdə əsir götürülən, yaxud satın alınan kənizlə və ya qazandıqları mənfəətlərdən mehr təyin etdikləri qadınlarla yaxınlıq etmək şiədən başqasına icazəli deyildir. Çünki bütün bu qazanclarda İmamın haqqı vardır. Nəinki, bəzi haqlar bütünlüklə İmama məxsusdur. Əgər bir kəs bu haqqa riayət etmədən həmin işləri görsə, qəsbkar və zinakar olar. Bu yaxınlıqdan doğulan uşaq Allah nəzərində vələdüzzina hökmündədir. Lakin bütün bu işlər üzərində olan haqqı ödəyən şiələri üçün İmam (ə) tərəfindən icazəlidir, bununla onların əməlləri təmiz və övladları pak qalır".[449]

"əl-Cəvahir" kitabının müəllifi yazır:

"Mübahlıq baxımından onların sözlərində ixtilaf növü vardır. Bu, qənimətlərdir, xümsdür, yoxsa onların hər ikisidir? Həmçinin bu məsələ yalnız nikahla bağlıdır, yoxsa (xüms çıxarmağa etiqadı olmayan və ya çıxarmayan şəxslərlə) alış-verişə və günlük tələbat məsrəflərinə şamildir?"[450]

Sonra bir dəstə keçmiş alimlərin sözlərini qeyd edir və ardınca deyir: "əs-Sərair"də qəniməti qeyd edərək onun yalnız Peyğəmbərə (s), ardınca isə onun yerində olan şəxsə məxsus olduğu vurğulandıqdan sonra müəllif deyir: "Onun qaib olduğu və canı üçün qorxduğuna görə düşmənlərindən gizləndiyi zamanda öz şiələrinə xümslə bağlı nikah və (xüms çıxarmağa etiqadı olmayan və ya çıxarmayan şəxslərlə) alış-

---

448 Həmin şəxsin adı Zəris əl-Kinasidir.

449 "Şərhu Üsulil-Kafi", 7/411.

450 "Cəvahirul-kəlam", 16/145.

veriş kimi məsələlərdə onların (imamların (ə)) haqlarından istifadə etmək rüsxəti veriblər. Alver dedikdə məqsəd üzərində imamın haqqı olan bir malın alınması və bu malla ticarət edilməsidir. Elə təsəvvür edilməsin ki, bu ticarətdən əldə edilən qazancın xümsü çıxarılmamalıdır. Bəzən söylədiklərimiz yanlış anlaşılır. Və günlük yaşayışdakı xərclər. "Bu üçündən savayı heç bir şeydən istifadə etmək icazəli deyildir...". Onların bu sözlərini və qısa kəlmələrini müasir alimlər, hətta onların hamısı dəstəkləmişdir".[451]

Bir qadın cinsi əlaqədə olmaq üçün ya cariyəliklə, ya da izdivacla əldə edilir. Cariyəyə ya döyüşdə əsir götürməklə, ya da satın almaqla sahib olunur. Əgər İmamın (ə) izni olmadan əsiri özünə götürmüş olsa, (bu ona halal deyil). Çünki cariyələr İmamın (ə) mülkiyyətidir. O isə cariyələrlə yaxınlıq etməyi yalnız şiələrinə halal etmişdir. Onlardan başqasının cariyə ilə yaxınlıq etməsi zinadır.

Əgər cariyəni satın almaqla sahib olsa, şübhəsiz ki, onu almaq üçün ödədiyi pulun xümsü İmama (ə) məxsusdur. Çünki həmin pul onun qazancındandır. Beləliklə həmin cariyə satın alan şəxslə İmam (ə) arasında müştərək mala çevrilir. Şərikin icazəsi olmadan digər şərikin cariyə ilə yaxınlıq etməsi icazəli deyildir. İmam (ə) isə şiələrdən başqasına belə bir icazəni verməyib. Ona görə də, şiədən başqa bir şəxsin cariyə ilə yaxınlıq etməsi zina hökmündədir.

Əgər cinsi əlaqədə olacağı şəxs evlilik yolu ilə əldə edilibsə, həmin qadının mehri üçün ödənilən pulun xümslə bağlı olmaması imkansızdır. Çünki həmin pul qazanc hökmündədir. Xümsü çıxarılmadığı üçün o pul da İmamla (ə) pul sahibi arasında müştərək mal olur. İmam (ə) isə şəriki olduğu pulu şiədən başqasının xərcləməsinə icazə verməyib. Bununla da ödənilən mehr qəsb edilmiş maldan sayılır.

Aydın olur ki, hədisdəki zinada məqsəd məcazi mənadır. Necə ki, bəzi rəvayətlərdə hər bir üzvün zinadan payı olduğu qeyd edilir: gözün zinası baxmaq, qulağın zinası dinləmək, dilin zinası danışmaq... və s".[452]

---

[451] "Cəvahirul-kəlam", 16/147.

[452] Müslim "Səhih"ində (4/2046, 2047) Əbu Hüreyrəyə istinadən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Adəm övladına zinadan alacağı payı bölünmüşdür.*

Şübhə yoxdur ki, bütün şəxslərin həqiqətən zinakar olması mümkün deyildir. Belə ki, onların nikahı batil də olsa, cinsi əlaqələri şübhəli əlaqə hökmündədir.

Diqqət çəkən nüanslardan biri hədisdə şiələrin daha çox paklıqla vəsf edilmələridir. Buradan isə digərlərinin pak, şiələrin isə daha pak olduqları anlaşılır.

Beləliklə, xüms verməyin əmr edildiyi və xümsün şiələrə halal buyurulduğu hədislərə birgə hökm etdikdə, icazənin onlara ehtiyacları üçün lazım olan şeylərə qazandıqları puldan xərcləməyə, bundan sonra xüms çıxarmalarına verilən izn olduğu anlaşılır. Xümsün vacibliyi hökmü onlardan götürülmür.

* * *

**Müəllif iddia edir: "2. Həkim Müəzzin ibn İsa deyir: "Əbu Abdullahdan Uca Allahın *"...bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasınındır..."* ayəsi barədə soruşdum. Əbu Abdullah (r.a.) dirsəyini dizinin üzərinə qoyub əlilə işarə edərək buyurdu: "Allaha and olsun ki, bu, gündən-günə artan faydadır (gəlirdir). Ancaq atam təmizlənmələri (və ya zəkat ödəmələri) üçün şiələri bundan azad etmişdir" ("əl-Kafi", 2/499).**

---

*Buna düçar olmaması mümkün deyildir. Gözlərin zinası baxışdır, qulaqların zinası dinləməkdir, dilin zinası (naməhrəmlə şəhvət qəsdilə) danışmaqdır, əlin zinası (naməhrəmə şəhvətlə) toxunmaqdır, ayağın zinası (zinaya doğru) addımlamaqdır, qəlbin zinası istəmək və arzulamaqdır. Bunların zinasını övrət təsdiqləyir və ya inkar edir".* Buna yaxın kəlmələrlə müxtəlif mənbələrdə bu hədis nəql edilib: "Səhih", Buxari, 4/1964, 2068; "əl-Müstədrək", 1/55, 2/470, Hakim Buxari və Müslimin şərtinə əsasən, hədisin səhih olduğunu söyləyib, Zəhəbi də onunla razılaşıb; "Sünən", Əbu Davud, 2/246, 247; "Səhih", İbn Hibban, 10/267-270; "Müsnəd", Əhməd ibn Hənbəl, 2/276, 317, 344, 349, 372, 379, 411, 431, 528, 535, 536; "əs-Sünənul-kubra", Beyhəqi, 7/89; "əs-Sünənul-kubra", Nəsai, 6/473; "Məcməuz-zəvaid", 6/256; "Şə`bul-iman", 4/365-366; "ət-Tərğib vət-tərhib", 3/9-8; "Şərhus-sünnə", Bəğəvi, 1/137-138.

**Cavab:** Rəvayətin sənədi zəifdir. Ravilər arasında Muhəmməd ibn Sinan var ki, o, zəif ravidir. Onun barəsində əvvəldə söhbət etmişdik.

Həmçinin hədisin raviləri sırasında "əl-Kafi"də adı Həkim Müəzzin ibn İsa, "ət-Təhzib" və "əl-İstibsar"da isə Həkim Müəzzin Bəni-Əbs kimi qeyd olunan ravi vardır ki, onun tərcümeyi-halı naməlumdur, rical kitablarında inanılan şəxs olaraq qeyd edilməyib.

Buna əsasən, rəvayətə etina olunmaz və dəlil olaraq götürülməz.

Rəvayətin sənədinə göz yumsaq, öncəki hədisin mənasında qəbul ediləcək. Belə ki, İmam Baqir (ə) nikah və s. kimi şəri haqlarla əlaqədar olan məsələlərdə xüms çıxarmazdan öncə qazanılan məbləğdən istifadə etməyi şiələrinə halal edir. Bu zaman onların öz mallarından istifadəsi icazəli olur.

Mazəndərani bu hədisin şərhində yazır:

"Allaha and olsun ki, bu faydadır (gəlirdir)" sözü qənimətin qazanc kimi istifadə edilən hər bir şeyə şamil olmasına dəlalət edir. Bu lüğəti məna ilə terminoloji mənasından daha geniş mənanı ifadə edir. Terminoloji mənada qənimət - müsəlmanların savaşdıqları düşmənin mallarından əldə etdikləri qənimətlərdir. Burada isə məqsəd ticarət, əkinçilik, sənətkarlıq və s. yollarla əldə edilən qazancın qənimətə daxil olmasıdır. O zaman onlara da xüms vacib olur".

Ta ki, deyir: "Ancaq atam təmizlənmələri üçün şiələri bundan azad etmişdir" sözü şiələrin xüms çıxarmazdan əvvəl öz qazanclarından evlilik üçün mehr və kənizin satın almaq üçün xərcləmələrinin icazəli olduğuna açıq-aydın dəlalət edir. Necə ki, bu, əshabımız arasında məşhurdur, müxalifi isə nadirdir".[453]

* * *

**Müəllif iddia edir: "3. Ömər ibn Yəzid deyir: "Mədinədə o ilin xümsünü Əbu Abdullaha aparan bir kişi gördüm. Əbu Abdullah malını ona geri qaytardı... ...dedi: "Ey Əbu Səyyar, biz bunu sənə qaytarır və səni bundan azad edirik, malını götür. Həmçinin Qaimimiz qiyam edənədək şiələrimizin sahib olduqları torpaqların xümsünü də onlara halal edirik" ("Üsulul-Kafi", 2/268)".**

---

[453] "Şərhu Üsulil-Kafi", 7/407.

**Cavab:** Mazəndərani bu hədisin şərhində yazır:

"Ey Əbu Səyyar, biz bunu sənə qaytarırıq" – İmamın (ə) xümsü qəbul etməsinin vacib olmadığına dəlalət edir. O, haqqından keçə də bilər, necə ki, hər bir haqq sahibi bu səlahiyyətə sahibdir.

"Həmçinin Qaimimiz qiyam edənədək şiələrimizin sahib olduqları torpaqların xümsünü də onlara halal edirik" – bütün yer üzünün onların ixtiyarında olduğunu bildirdikdən sonra Qaim (ə.f) zühur edənədək şiələrinin oradan əldə etdiklərindən və xərclərindən azad edildiklərinə işarə edir. Onların istifadə haqqını götürür, əllərində olanları isə özlərinə qaytarır".[454]

Daha aydın sözlərlə: İmam Sadiq (ə) Əbu Səyyarın malları üzərində olan haqqını ona bağışlayır. İmamın xümsü qəbul etməsi vacib deyildir, istədiyi şəxsə istədiyi qədərini qaytara bilər.

İmamın (ə) müəyyən haqqından Əbu Səyyar üçün keçməsi digərlərinin də xümsdən azad edildiyinə dəlalət etməz. Belə ki, İmam (ə) *"Ey Əbu Səyyar, biz bunu sənə qaytarırıq"* sözü məxsusi olaraq Əbu Səyyara ünvanlanır, "biz bunu sizə qaytarırıq" demir.

İmamın (ə) *"Həmçinin Qaimimiz qiyam edənədək şiələrimizin sahib olduqları torpaqların xümsünü də onlara halal edirik"* sözü isə yalnız torpaq sahələrinə şamildir, digər mallara deyil. İmam (ə) şiələrin torpaqdan istifadə etmələrinə, becərdiklərini toplamalarına və gəlir əldə etmələrinə icazə verir. Lakin bundan və digər sahələr üzrə gəlirlərindən əldə etdikləri qazancın xümsündən azad edilmirlər.

* * *

**Müəllif iddia edir: "4. Muhəmməd ibn Müslim iki imamdan (İmam Baqir (ə) və ya İmam Sadiqdən (ə) – Tərc.) birindən (r.a) nəql edir: "Qiyamət günü insanlar ən çətin məsələ xüms sahibinin qalxaraq "Ey Rəbbim, xümsümü tələb edirəm!" deməsidir. Biz bunu şiələrimizə bağışlamışıq ki, dünyaya gətirdikləri övladları pak və təmiz olsunlar" ("Üsulul-Kafi", 2/552)".**

---

[454] "Şərhu Üsulil-Kafi", 7/37.

**Cavab:** Bu rəvayətin də sənədi zəifdir. Ravilər sırasında Muhəmməd ibn Sinan var ki, onun zəif ravi olduğunu əvvəldə qeyd etdik.

Ravilər arasında Səbbah əl-Əzrəq də vardır ki, o, halı məchul şəxsdir, tərcümeyi-hal kitablarında inanılan şəxs kimi qeyd olunmayıb.

İmamların (ə) öz şiələrinə övladlarının paklığı və təmizlənmələri üçün xümsü bağışlamalarının hansı məna daşıdığını yuxarıda açıqladıq, buradakı məqsədin xümsdən azad edilmək olmadığını izah etdik.

* * *

**Müəllif iddia edir: "5. Əbu Abdullah (r.a) buyurur: "İnsanların hamısı bizim çətirimizin altında yaşayırlar, biz bunu yalnız şiələrimizə halal etmişik" ("Mən la yəhzuruhul-fəqih", 2/243)".**

**Cavab:** Bu rəvayəti Şeyx Səduq özünün "Mən la yəhzuruhul-fəqih" kitabında Davud ibn Kəsir ər-Riqqiyə istinadən nəql edib. Şeyx Səduqun ona qədər olan istinadı zəifdir.

Ərdəbili "Camiur-ruvat" kitabında "əl-Fəqih" kitabının istinad yolları haqqında deyir: "Davud ər-Riqqiyədək olan ravilər: Hüseyn ibn Əhməd ibn İdris, inanılan şəxs olduğu qeyd edilməyib; Abdullah ibn Əhməd ər-Razi, Əllamə Hilli onun barəsində söz söyləməkdən çəkinib; Cərir ibn Saleh, onun adı heç yerdə qeyd olunmayıb".[455]

Seyid Xoi deyir: "Necə ola bilər, Səduqun Davuda qədər istinadı bunlardır: Hüseyn ibn Əhməd ibn İdris (r.a) atasından, o da Muhəmməd ibn Əhməd ibn Abdullah ibn Əhməd ər-Razidən, o da Cərir ibn Salehdən, o da İsmail ibn Mehrandan, o da Zəkəriyya ibn Adəmdən, o da Davud ibn Kəsir ər-Riqqidən. Bu istinad yolu zəifdir. Belə ki, bu istinadda məchul şəxslər vardır".[456]

Buna əsasən, rəvayətin sənədi zəifdir.

Mətn cəhətindən isə, xümsün şiələrə halal edilməsinin mənasını izah etdik, xümsün vacibliyinin qüvvədən düşmədiyini əvvəldə bildirdik.

* * *

---

455 "Camiur-ruvat", 2/534.

456 "Mö`cəmu ricalil-hədis", 7/126.

**Müəllif iddia edir: "6. Yunus ibn Yaqubdan rəvayət olunur: "Əbu Abdullahın (r.a) yanında idim. Bir tacir onun yanına gəlib dedi: "Sənə fəda olum, əlimizə qazanc, mal və ticarət üçün sərmayə düşür, onlar üzərində sizin haqqınızın olduğunu bilirik və bu baxımdan müqəssirik". Buyurdu: "Əgər sizi bunun vergisinə mükəlləf etsək, sizə qarşı insafsızlıq etmiş olaraq" ("Mən la yəhzuruhul-fəqih", 2/23)".**

**Cavab:** Bu hədisi Şeyx Səduq Yunus ibn Yaqubdan rəvayət edib. Yunus özü inanılan şəxs olsa da, Şeyx Səduqun ona qədər olan raviləri zəifdir. Onların arasında Həkəm ibn Miskin vardır ki, tərcümeyi-hal kitabların onun inanılan şəxs olduğu sübuta yetməyib.

Ərdəbili "Camiur-ruvat" kitabında "əl-Fəqih" kitabının istinad yolları haqqında deyir: "Yunus ibn Yaqubadək olan ravilər: Həkəm ibn Miskin".[457]

Nəticə rəvayətin istinadının zəif olmasıdır.

Rəvayətin sənədinə göz yumsaq belə, onun mətni şiələrin xüms çıxarmalı olduqlarının vacibliyinə dəlalət edir. Çünki tacir deyir: "...əlimizə qazanc, mal və ticarət üçün sərmayə düşür, onlar üzərində sizin haqqınızın olduğunu bilirik və bu baxımdan müqəssirik".

Onun bu sözü (xüms çıxarmağa etiqadı olmayan və ya çıxarmayan şəxslərdən) qazanılan və ticarətdən əldə edilən qazancdan xüms çıxarmalı olduqlarının vacibliyinə və bunun şiələr arasında ümumi qəbul edilən qayda olduğuna dəlalət edir.

Həmçinin İmam (ə) onun sözünü inkar etmir, yalnız "Əgər sizdən xümsü bu gün tələb etsək, sizə qarşı insafsızlıq etmiş olarıq" deyə cavab verir.

Yəni, təxirə salmadan həmin anda onların xümsünü sizdən tələb etsək, sizinlə insaflı davranmaz, haqqımızı almaq üçün sizi çətinliyə salmış olarıq. Halbuki siz bizə məhəbbətiniz, sevginiz və dostluğunuzla qarşılıq verirsiniz.

Hədis xüms ödəməyin şiələrin üzərindən bir vəzifə olaraq götürüldüyünə dəlalət etmir, bunun tam əksini bəyan edir.

---

[457] "Camiur-ruvat", 2/542.

Müəllifin daha bir xəyanəti hədisdəki “bu gün” sözünü qeyd etməməsidir. Belə ki, hədisin tam mətnində belədir: *“Əgər sizdən xümsü bu gün tələb etsək, sizə qarşı insafsızlıq etmiş olarıq”.* Şeyx Səduq “Mən la yəhzuruhul-fəqih” kitabında və Şeyx Tusi də “əl-İstibsar”da[458] belə nəql edib. Müəllifin bu xəyanətinin məqsədi xümsün yalnız həmin vaxt üçün deyil, ümumiyyətlə şiələrin üzərindən götürüldüyünə oxucunu inandırmaqdır. Ona görə də hədisdən “bu gün” sözünü silərək onu öz məqsədinə uyğunlaşdırmağa çalışıb. Möhtərəm oxucu, öz məqsədlərinə çatmaq üçün siz bunların qanunsuz yollara necə əl atdıqlarına diqqət yetirin!

* * *

**Müəllif iddia edir: “7. Əli ibn Məhziyardan rəvayət olunur: “Əbu Cəfərin (r.a) bir məktubunda oxudum ki, bir şəxs onun yanına gələrək yemək və içmək məsələlərində onu xümsdən azad etməsini istədi. O (r.a) öz dəst-xəttilə belə yazmışdı: “Mənim haqqımdan olan bir şeyə ehtiyac duyan şəxsə həmin şey halaldır” (“Mən la yəhzuruhul-fəqih”, 2/23)”.**

**Cavab:** Bu rəvayət də şiələrə xümsün vacib olduğuna dəlalət edir. Yoxsa, xüms vacib olmasaydı həmin şəxsin İmamın (ə) yanına gələrək yemək və içmək kimi gündəlik tələbat məsələlərində onu xümsdən azad etməsini istəməsinin heç bir mənası qalmazdı.

İmam (ə) xümsün həmin şəxsə vacibliyini inkar etmir, yalnız çətinlikdə olan şiələri üçün ehtiyac duyacaqları miqdardan istifadə etmələrinə icazə verir. Əvvəldə də qeyd etdiyimiz kimi, bu, İmamın (ə) səlahiyyətində olan bir məsələdir. Belə ki, o, dilədiyi şəxsə öz haqqını həm bütünlüklə, həm də bir hissəsini bağışlaya bilər. Bu isə bütün şiələrin üzərindən xüms təklifinin ümumiyyətlə götürüldüyünə dəlalət etməz.

Həmçinin rəvayətdən İmamın (ə) həmin şəxsi xüms ödəmək vəzifəsindən azad edib-etmədiyi aydın olmur. Belə ki, onun çətinlik və ehtiyac sahibi olub-olmadığı məlum deyildir.

* * *

---

458 “Mən la yəhzuruhul-fəqih”, 2/28; “əl-İstibsar”, 2/59; “Vəsailuş-şiə”, 6/380.

**Müəllif iddia edir: “8. Bir şəxs Möminlərin əmirinin (r.a) yanına gələrək dedi: “Bir qədər pul əldə etdim, ancaq onunla özümə əziyyət verdim.[459] Mənim tövbə imkanım varmı?” Buyurdu: “Mənim xümsümü ödə”.[460] Kişi həmin miqdarın beşdə birini ona verdi”. Möminlərin əmiri buyurdu: “Həmin pul sənindir. İnsan tövbə edəndə malı da onunla tövbə etmiş olur” (“Mən la yəhzuruhul-fəqih”, 2/22)”.**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Şeyx Səduq onu ravilərin adını qeyd etmədən birbaşa Möminlərin əmiri Əlidən (ə) mürsəl olaraq nəql edib.

Sənədin zəifliyinə göz yumsaq, hədisin mənası belədir: bir kişi Möminlərin əmirinə (ə) deyir: “Pul əldə etdim, göz yumdum” Yəni, onun halal ya haramdan olduğuna (və ya harama qarışdığına) göz yumdum.

ət-Tərihi “Məcməul-bəhreyn”də deyir: “Yəni onu əldə edərkən səhlənkarlığa yol verdim, haram və şübhəli məqamlardan çəkinmədim. Nəticədə onda haram, halal və şübhəliləri bir yerə cəmlədim. Bunun səbəbi isə göz yummaq idi”.[461]

İbn Əsir “ən-Nihayə”də yazır: “Göz yummaq – səhlənkarlıq və güzəştdir”.[462]

İmam (ə) ona həmin pulun xümsünü verməyi buyurur. Çünki xümsün çıxarılması qalan hissəni paklayacaq amildir. Xümsü ödədikdə isə İmam (ə) buyurdu: “Qalan pul sənindir”. Yəni, geridə qalan pul sənə halaldır və ondan heç bir şübhəli hissə yoxdur. “Əgər insan tövbə etsə” – yəni, əgər insan harama qarışdığından şübhələndiyi gəlirə görə Allaha tövbə etsə və o pulun xümsünü çıxarsa, həqiqi tövbəsi bununla gerçəkləşmiş olur. “...pulu da onunla tövbə etmiş olar” – yəni, pulunun qalan hissəsi ona qayıdar, şübhəli hissədən paklanar və onu xərcləmək ixtiyarı əldə edər.

Bu hədis də xüms çıxarmağın vacibliyinə dəlalət edir. Belə ki, İmam (ə) xümsü ondan tələb edir. Bu hədisdə xümsün mübahlığının dəlalətinə dair müəllifin iddiası

---

459 Müəllif belə yazıb. Ancaq əsl mətndə “göz yumdum” deyə qeyd olunub.

460 Müəllif belə yazıb. Ancaq əsl mətndə “Onun xümsünü ver” deyə qeyd olunub.

461 “Məcməul-bəhreyn”, 4/219.

462 “ən-Nihayətu fi ğəribil-hədis”, 3/387.

isə yanlışdır. O, hədisdəki "o" əvəzliyini xümsə şamil etmişdir. Halbuki həmin əvəzlik pulun yerdə qalan hissəsinə işarə edir.

Əgər həmin əvəzliyin xümsə işarə olduğunu qəbul etsək, bu zaman da hədisdəki məqsəd dəyişməyəcək. Çünki İmamın (ə) həmin şəxsə xümsü verməyi əmr etməsi xümsün ona vacib olduğunu göstərir. İmamın (ə) ona bağışlaması və ya haqqından keçməsi öz səlahiyyətində olan məsələdir. Bu, aydın məsələdir və sözü uzatmağa gərək yoxdur.

* * *

**Müəllif iddia edir: "Bu və bir çox digər rəvayətlər xümsün şiələrə bağışlandığını göstərir. Onlar xümsü ödəməkdən azaddırlar. Diləyən onu özü üçün saxlaya və ondan istifadə edə bilər, Əhli-Beytə bir şey ödəməyə borclu deyildir. Xüms ona halaldır və buna görə heç bir günahı yoxdur. Üçüncü rəvayətə əsasən, Qaim qiyam edənədək xüms ödəmək vacib deyildir".**

**Cavab:** Qeyd etdiyimiz kimi, həmin rəvayətlərin bir neçəsinin sənədi zəifdir. İstinadı səhih olanlar isə xümsün bütünlüklə və ümumən bağışlandığına dəlalət etmir. Bəzilərində İmamın (ə) yalnız nikah üçün xüms çıxarmadan xərcləməyə icazə verdiyi, bəzilərində torpaq və orada yetişdirilən məhsullardan istifadə etməyə və gəlirdən xümsü çıxarmağa izn verdiyi, bəzilərində ehtiyaclı və sıxıntıda olan şiələri üçün İmam Muhəmməd Baqirin (ə) ehtiyacları qədər ondan götürməyə rüsxət verdiyi, bəzilərində İmamın (ə) çətinlikdə olan şiələrə xümsü ödəmək üçün möhlət verdiyi qeyd olunur.

Lakin həmin rəvayətlərin hamısı insanların xüms ödəməli olduqlarını göstərir. Əks təqdirdə, ehtiyaclı və sıxıntıda olan şəxslərə möhlət verilməsinin və ya müəyyən miqdarın bağışlanmasının heç bir mənası olmaz. Allaha həmd olsun ki, Onun lütfü sayəsində bütün bunları öz məqamlarında izah etmişik.

Qəribəsi budur ki, müəllif bu rəvayətləri qeyd etdiyi halda, Əhli-Beytə (ə) xümsün ödənməsinin vacibliyinə dəlalət edən digər çoxsaylı hədisləri görməzlikdən gəlib. Həmin hədislərdə xümsün heç kimə mübah edilmədiyi aydın vurğulanır.

- İbrahim ibn Haşimin səhih hədisi: *"İmam Museyi-Kazımın (ə) yanında idim. Bu vaxt Saleh ibn Muhəmməd ibn Səhl də onun yanına gəldi. Onun üçün Qumdan*

*vəqfləri gətirmişdi. Dedi: "Ey ağam, bunun on minini mənə halal et, belə ki, mən onları xərcləmişəm". İmam (ə) ona buyurdu: "Halal edirəm". Saleh oradan ayrıldıqdan sonra İmam Əbu Cəfər (ə) buyurdu: "Bəziləri Muhəmməd ailəsinin, onların yetimlərinin, yoxsul və fəqirlərinin, yolda qalmışlarının haqqına əl uzadıb xərcləyir, sonra da gəlib "Bunu mənə halal et" deyir. Düşünürsən ki, o, "Halal etmirəm" deyəcəyimi zənn edir? Allaha and olsun ki, qiyamət günü bu barədə onlardan soruşulacaq".*[463]

- Muhəmməd ibn Zeydin rəvayəti: *"İmam Əbul-Həsən Rzanın (ə) yanına Xorasandan bir dəstə adam gəlmişdi, onları xümsdən azad etmələrini xahiş edirdilər. Buyurdu: "Bu necə də xahişdir? Bizi sevdiyinizi söyləməklə dillərinizi təmizləyir, lakin Allahın bizim üçün böldüyü və bizə aid etdiyi xüms haqqını bizdən gizlədirsiniz?! Sizlərdən heç birinə xümsü halal etmirəm, halal etmirəm, halal etmirəm!"*[464]

- Abdullah ibn Bükeyrin nəql etdiyi etibarlı hədisdə İmam Sadiq (ə) buyurur: *"Mən sizdən bir neçə dirhəmi alıram, halbuki Mədinə əhalisi arasında ən çox pula sahib şəxsəm. Sizdən yalnız sizi paklamaq üçün bunu alıram".*[465]

- Əhməd ibn Müsənnanın rəvayəti: "Muhəmməd ibn Zeyd Təbəri mənə deyib: *"Əbul-Həsən Rzanın (ə) dostlarından olan fars tacirlərindən biri məktub yazaraq ondan xümsə dair icazə istədi. Cavabında İmam (ə) ona belə yazdı: "Rəhimli və mərhəmətli Allahın adı ilə! Allah (lütfü) geniş və səxavətlidir. Hər bir əməlin savabını verəcəyinə və sıxıntıda qayğı göstərəcəyinə zamin olub. Allahın halal etdiyindən savayı heç bir mal halal deyildir. Xüms bizim dinimizə, övladlarımıza və dostlarımıza yardımımızdır. Bizim xərclədiklərimiz və aldıqlarımız təhlükəsindən qorxduğumuz vəziyyətlərdən yayınmağımız üçündür. Xümsü bizdən əsirgəməyin, bacardığınız qədər özünüzü bizim dualarımızdan məhrum etməyin. Onun ödənməsi sizin ruzinizin açarı, günahlarınızın təmizlənməsi və fəqirlik gününüz üçün tədarükünüzdür. Müsəlman*

---

[463] "əl-Kafi", 1/548; "əl-İstibsar", 2/60.

[464] "əl-Kafi", 1/548; "əl-İstibsar", 2/60; "ət-Təhzib", 4/140.

[465] "Mən la yəhzuruhul-fəqih", 2/27; "Vəsailuş-şiə", 6/337.

*şəxs Allaha verdiyi əhdinə vəfa edəndir, dili ilə qəbul edib, ancaq qəlbi ilə qarşı çıxan deyildir. Vəs-səlam!"*[466]

Xümsün vacibliyinə dəlalət edən hədislər olduqca çoxdur, qeyd etdiklərimiz mövzu ilə bağlı yetərlidir.

* * *

**Müəllif iddia edir: "Əgər imam aramızda mövcud olsaydı belə, Əhli-Beytin Qaimi qiyam edənədək ona xüms verilməyəcəkdi. Belə olduqda, həmin xümsü fəqih və müctəhidlərə vermək nə dərəcədə düzgündür?"**

**Cavab:** Xeyr, təqdim etdiyimiz rəvayətlərə əsasən, xüms çıxarılmalı və məhz hazır olan imama verilməlidir. Digər səhih sənədli rəvayətlər də əldə edilən qazancdan xüms verilməli olduğuna dəlalət edir.

- Əli ibn Məhziyarın səhih rəvayəti: "Muhəmməd ibn Həsən əl-Əş`əri deyir: *"Əshabımızdan bəzi şəxslər İmam Əbu Cəfər Musaya (ə) məktub yazaraq soruşdular: "Mənə xüms barədə məlumat ver. Xüms insanın istifadə etdiyi az və çox, hər növdə olan mallardan, həmçinin xərclədiklərindən də çıxarılmalıdırmı?" İmam (ə) öz dəst-xəttilə cavabında belə yazdı: "Xüms yaşayış ehtiyacları ödəndikdən sonra çıxarılır".*[467]

- Simaənin etibarlı rəvayəti: *"Əbul-Həsən Rzadan (ə) xüms barədə soruşdum, buyurdu: "İnsanların az və ya çox gəlir götürdükləri hər bir şeydən (xüms) verilməlidir".*[468]

- Əli ibn Məhziyarın səhih rəvayəti: *"Əbu Əli ibn Raşid mənə dedi: "İmama (ə) söylədim: "Mənə sənin əmrlərini yerinə yetirməyi və haqqını almağı buyurmuşsan, mən də bunu dostlarına bildirdirmişəm. Onlardan bəzisi dedilər: "Onun haqqı nədir?" Mən onlara nə cavab verəcəyimi bilmədim". İmam (ə) buyurdu: "Onlara xüms vacibdir". Dedim: "Xüms nədən çıxarılmalıdır?" Buyurdu: "Gəlirlərindən, mülkiyyətlərindən və sənətkarlıqla əldə etdiklərindən çıxarılmalıdır". Dedim: "Bəs*

---

466 "əl-Kafi", 1/547; "ət-Təhzib", 4/123; "əl-İstibsar", 2/59.

467 "ət-Təhzib", 4/123; "əl-İstibsar", 2/55; "Vəsailuş-şiə", 6/348.

468 "əl-Kafi", 1/545; "Vəsailuş-şiə", 6/350.

*tacirin və sənətkarın əlində olanlardan?" Buyurdu: "Yaşayışlarını təmin etmək üçün xərclədikdən sonra qüdrətləri olarsa, çıxarmalıdırlar".*[469]

- İbn Əbu Nəsrin səhih rəvayəti: *"İmam Əbu Cəfərə (ə) belə yazdım: "Xümsü məişətimizi təmin etdikdən sonra, yoxsa əvvəl çıxarmalıyıq?" O, cavabında belə yazdı: "Məişətinizi təmin etdikdən sonra".*[470]

- Muhəmməd ibn Müslimin səhih rəvayəti: *"İmam Əbu Cəfər Muhəmməd Baqirdən (ə) mədəndən əldə edilən qızıl, gümüş, dəmir, qurğuşun və misdən xüms çıxarılmalı olub-olmadığı barədə soruşulduqda buyurdu: "Onların hamısından xüms verilməlidir".*[471]

- əl-Hələbinin səhih rəvayəti: *"Əbu Abdullahdan (ə) ənbər və dənizin dibinə baş vurmaqla əldə edilən mirvari barədə soruşdum, buyurdu: "Onların xümsünü verilməlidir".*[472]

Və xümsün verilməsinin vacib olduğuna və xərclənməsinə icazə verilmədiyinə dəlalət edən digər çoxsaylı rəvayətlər!

Şeyx Müfid, Şeyx Tusi və digərləri xümslə bağlı zahirən ziddiyyətli görünən rəvayətlərin ortaq məxrəcini izah etmişlər.

Şeyx Tusi "əl-İstibsar" kitabında yazır: "Bu rəvayətlərin arasında ortaq məxrəc Şeyximizin (Şeyx Müfidin (r.ə)) gəldiyi qənaətdir. Xümsü qəbul edib və onu xərcləməyin icazəli olduğuna dəlalət edən rəvayətlər məxsusi olaraq nikahla əlaqədar söylənilib. Bunun səbəbi isə İmamların (ə) özlərinin də bəyan etdikləri kimi, şiələrinin pak doğuma sahib olmalarını istəmələridir. Bu rüsxət mal-dövlət barədə qeyd edilməyib. Xümslə bağlı sərt mövqeyə dəlalət edən rəvayətlər məhz mal-dövlətlə bağlı nəql edilən rəvayətlərdir".[473]

---

469 "ət-Təhzibul-əhkam", 4/123; "Vəsailuş-şiə", 6/348.

470 "əl-Kafi", 1/545.

471 "əl-Kafi", 1/544; "ət-Təhzibul-əhkam", 4/121.

472 "əl-Kafi", 1/548.

473 "əl-İstibsar", 2/60.

Nəql edilən rəvayətlər məhz buna şahidlik edir. Belə ki, xümsün verilməməsinin icazəli olduğuna dair rəvayətlərdə nikahın halallığı və pak doğum məqsədi bu rüsxətin səbəbi kimi qeyd edilir. Ancaq xümsün çıxarılmasının vacibliyini və əsla etinasız yanaşılmamalı olduğunu göstərən rəvayətlər yerdə qalan pul və mal-dövlətlər barədədir.

Mühəqqiq Hilli xümsdən azad olunmağı qeyd edən rəvayətləri sadaladıqdan sonra deyir:

"Bunun hər iki dəstədən (əhli-sünnə və şiələrdən) qarşıda nəql ediləcək rəvayətlərlə ziddiyyət təşkil etməsindən əlavə, özü-özlüyündə təsdiqlənməsi də mümkün deyildir. Onlara etimad etmək olmaz. Səbəb isə budur:

**Birinci:** Xümsün hökmlərinə zidd olduğuna görə; belə ki, xüms Muhəmməd peyğəmbərin (s) ailəsindən olan fəqirlərin və seyidlərin ehtiyaclarını aradan qaldırmaq üçündür. Əgər şiələrə xüms vermək vacib olmasa, əhli-sünnənin xümsdən imtina etdiyini və bu haqdan boyun qaçırdıqlarını da nəzərə alsaq, bəs yoxsul seyidlər nəyin hesabına yaşamalıdır? Belə ki, zəkat da onlara haramdır. Ona görə də bu rəvayətləri ümumi mənada götürmək olmaz.

**İkinci:** Müxtəlif məqamlarda və müxtəlif mallarda xüms verilməsinin vacibliyini bildirən çoxsaylı rəvayətlərlə ziddiyyətinə görə; necə ki, İmam (ə) buyurur: *"Nasibinin malından nə istəyirsən götür, onun xümsünü bizə ver"; "Kim bir külçə (və ya xəzinə) əldə etsə, onun xümsünü verməlidir"*. Əli ibn Məhziyarın uzun mətnli səhih hədisində və digər rəvayətlərdə ticarətdən əldə edilən qazancın xümsü barədə nəql olunanlara gəldikdə, əgər onların xümsünü verməmək şiələrə icazəli və onların üzərindən borc olaraq götürülmüş olsaydı, o zaman onların xümsünü ödəmək niyə vacib olsun ki? Həmin çoxsaylı mətnlərdə xümsün ödənməsi barədə əmrin mənası nədir? Məgər bu, sadəcə icrasının vaxtı yetişməmiş bir məsələ haqqında verilmiş hökmdür?!

Həmin rəvayətlər həmçinin xümsün halal olduğunu inkar edən ikinci dəstə rəvayətlərə də ziddir. Məsələn, Əli ibn İbrahim atasından rəvayət edir: *"İmam Museyi-Kazımın (ə) yanında idim. Bu vaxt Saleh ibn Muhəmməd ibn Səhl də onun yanına gəldi. Onun üçün Qumdan vəqfləri gətirmişdi. Dedi: "Ey ağam, bunun on*

*minini mənə halal et, belə ki, mən onları xərcləmişəm". İmam (ə) ona buyurdu: "Halal edirəm". Saleh oradan ayrıldıqdan sonra İmam Əbu Cəfər (ə) buyurdu: "Bəziləri Muhəmməd ailəsinin, onların yetimlərinin, yoxsul və fəqirlərinin, yolda qalmışlarının haqqına əl uzadıb xərcləyir, sonra da gəlib "Bunu mənə halal et" deyir. Düşünürsən ki, o, "Halal etmirəm" deyəcəyimi zənn edir? Allaha and olsun ki, qiyamət günü bu barədə onlardan soruşulacaq".* Rəvayətdə mövcud olan amillərdən məlum olur ki, oradakı vəqflər (pullar) məhz xümsdür...".[474]

Seyid Həkim "əl-Müstəmsək"də xümsün halal olduğuna dair fikirləri qeyd etdikdən sonra deyir: "Onlar bu fikirlərində xümsün icazəli olduğunu bildirən dəlaləti naqis, əshabımızın kənara atdıqları, tərk edilməsini vacib edən ziddiyyətlərin olduğu və ya inkaredilməz mənalara yozulan mətnlərə istinad ediblər. Xüms fəslinin əvvəlində biz bu rəvayətləri qeyd etdik. Bundan əlavə, iddia olunan icazə şəri cəhətdən deyil, malikiyyət[475] yönündəndir. Bu baxımdan mövzu barədə heç bir şübhə yaranmır, məsələ ilə bağlı vahid xəbərlərə müraciət etmək isə düzgün deyil".[476]

* * *

**Müəllif iddia edir: "Qeyd edilən rəvayətlərə əsaslanaraq xümsün bağışlandığında dair etimadlı fəqihlərin verdikləri fətvalar olduqca çoxdur. Belə fətvalar elmdən geniş payı olan və alimlər arasında layiqli yer tutan böyük fəqih və müctəhidlər tərəfindən verilib, Əhli-Beytin Qaimi qiyam edənədək heç kəsə xüms verməyin lazım olmadığı bildirilib.**

**1. Mühəqqiq Hilli Nəcməddin Cəfər ibn Həsən (vəfatı h.q.676 il):**

**O, İmamın qeybdə olduğu dövrdə qazanc, məskən və ticarətdən əldə edilən gəlirlərdən istifadənin icazəli olduğunun isbatlandığına təkid edərək yazır:**

---

[474] "Mustənədul-urvətil-vusqa" ("Xüms" fəsli), səh.343.

[475] Malikiyyət sözündə məqsəd İmamın (ə) öz imaməti dövründə xümsün onun mülkiyyəti olmasıdır. Dilədiyi şəxsi xümsdən azad edə bilər. Ancaq bu icazə hamıya şamil olacaq bir şəri hökm deyildir. Məhz hamını ehtiva edən icazə mübahisə mövzusudur.

[476] "Müstəmsəku urvətil-vusqa", 9/579.

**“Mövcud olan xüms sahiblərinə həmin hissənin ödənməsi vacib deyildir (Bax: “Şəraiul-İslam”, (Xüms fəsli), səh.182-183)”.**

**Cavab:** Müəllif Mühəqqiq Hillinin (r.ə) sözlərini yarımçıq nəql etmişdir. Belə ki, o, öz fətvasında yalnız nikah, (xüms çıxarmağa etiqadı olmayan və ya çıxarmayan şəxslərlə) alış-veriş və (İmamın (ə) mülkiyyətində olan döyüşsüz əldə edilən torpaq, dağların zirvəsi və bu kimi) yerlərlə bağlı məsələlərdə xümsün mübah olduğunu qeyd edib, yerdə qalan mənfəətlərin isə xümsünün ödənməsinin vacib olduğunu bildirib.

Mühəqqiq Hilli “Şəraiul-İslam”da yazır: “Üçüncü: Bütünlüklə və ya bir hissəsi İmama (ə) məxsus olsa da, onun qeybdə olduğu dövrdə nikah, məskən və alış-verişin xümsünü çıxarmaq lazım deyildir. Mövcud olan xüms sahiblərinə həmin hissənin ödənməsi də vacib deyildir”.[477]

Onun sözləri gün kimi aydındır. Bu icazə yalnız qeyd olunan üç mövzu ilə əlaqədardır.

Buna görə də sonrakı məsələdə qeyb dövründə xümsün xərclənməli olduğu yerlər barədə fikirləri qısaca qeyd edir, xüms çıxarmağın vacibliyinə və möhtərəm seyidlərə verilməli olduğuna fətva verir.

Deyir: “Dördüncü: Xümsün vacib olduğu hissə İmam (ə) mövcud olduqda ona verilməlidir. Mövcud olmadıqda isə, deyilib: istifadəsi icazəlidir; deyilib: (İmama (ə) təhvil vermək üçün) saxlamaq lazımdır, ölüm yetişdikdə isə ona çatdırılması üçün vəsiyyət edilməlidir; deyilib: basdırılmalıdır; deyilib: yarı hissəsi müstəhəqq şəxslərə xərclənməli, yarı hissəsi isə saxlanmalı, vəsiyyət edilməli və ya basdırılmalıdır; həmçinin (İmamın (ə)) hissəsinin mövcud olan qruplara (fəqir seyidlərə) xərclənməli olduğu da deyilib. Çünki onların maddi imkansızlığı halında ehtiyaclarını aradan qaldırmaq onun (İmamın (ə)) borcudur. İmam (ə) aramızda mövcud olarkən xüms vacib olduğu kimi, onun qeybdə olduğu zamanda da xüms vacibdir. Bu, haqqa daha çox yaxındır”.[478]

---

[477] “Şəraiul-İslam”, 1/184.

[478] “Şəraiul-İslam”, 1/184.

Mühəqqiq Hillinin (r.ə) sözlərindən müəllifin ona nisbət verdiyi sözlərin tam əksi anlaşılır.

* * *

**Müəllif iddia edir: "2. Yəhya ibn Səid əl-Hilli (h.q.690):**

**O da xümsün və digər vergilərin İmamlar tərəfindən səxavət göstərilərək istifadəsinə icazə verildiyi fikrinə meyl etmişdir. Necə ki, bunu özünün "əl-Camiu liş-şərai`" kitabında qeyd edir (səh.151)".**

**Cavab:** Müəllifin "əl-Camiu liş-şərai`" kitabından qeyd etdiyi səhifədə Yəhya ibn Səid əl-Hillinin (r.ə) sözləri budur:

"İmam (ə) mövcud olduğu təqdirdə, onun izni olmadan bir kəsin xümsü xərcləməsi icazəli deyildir. Ancaq qeybdə olduğu dövrdə onlar öz şiələrinə nikah, alış-veriş və məskən məsələlərində haqlarını halal etmişlər".

Onun sözlərində İmamların (ə) öz şiələrinə nikah, alış-veriş və məskən məsələlərində haqlarını halal etdikləri aydın şəkildə vurğulanır. Bu məsələni əvvəldə izah etmişdik.

* * *

**Müəllif iddia edir: "3. VIII əsrdə yaşamış Həsən ibn Mütəhhər əl-Hilli xümsün şiələrə halal olduğu və onu ödəməkdən azad edildikləri barədə fətva vermişdir. Bunu "Təhrirul-əhkam" kitabında (səh.75) qeyd edir".**

**Cavab:** Əllamə Hilli (r.ə) özünün "Təhrirul-əhkam" kitabında yazır: "Yeddinci: İmamın (ə) qeybdə olduğu dövrdə xümsün təyinatı barədə alimlərimiz fərqli fikirlər səsləndiriblər. Bir dəstəsi onun istifadəsinin icazəli olduğunu, bəziləri basdırılmağın vacibliyini, bəziləri müstəhhəb ünvanı ilə onların övladlarına (nəslinə) və fəqir şiələrə verməyi, bəziləri özündə saxlamağı, ölümün yaxınlaşdığını hiss etdikdə isə dinindən və ağlından əmin olduğu bir şəxsə onu İmama çatdırmasını vəsiyyət etməyi, həmin şəxs onunla görüşə bilmədiyi təqdirdə ta zühur vaxtı onunla görüşəcək şəxsədək vəsiyyət etməyi, bəziləri İmamın (ə) hissəsini mövcud olan (müstəhəqq) qruplara xərcləməyi məqsədəuyğun görmüşlər. Çünki onların maddi imkansızlığı halında

ehtiyaclarını aradan qaldırmağa o (İmam (ə)) borcludur. Bu, İmamlar həm hazır və həm də qaib olduqları zamanın hökmüdür. Ən güclü nəzər də budur”.[479]

Əllamə Hillinin (r.ə) sözləri İmamın (ə) qeybi dövründə xümsün çıxarılmasının və bütünlüklə fəqir seyidlərə xərclənməsinin vacib olduğunu göstərir.

* * *

**Müəllif iddia edir: “4. Şəhid Sani (vəfatı h.q.966 il):**

**“Məcməul-faidəti vəl-burhan” (4/355-358) kitabında deyir: “O, xümsün ümumi şəkildə, bütünlüklə icazəli olduğu qənaətinə gəlib və deyib: “Ən doğru olan da məhz budur” (“Məsalikul-əfham”, səh.68)”.**

**Cavab:** “Məcməul-faidəti vəl-burhan” kitabında Şəhidus-Saninin xümsün bütünlüklə icazəli olduğuna dair heç bir sözü nəql edilməyib. Həmçinin onun özü “Məsalikul-əfham” kitabında da bu nəticəyə gəlməyib. “Şəraiul-İslam” kitabından yuxarıda qeyd etdiyimiz nikah, alış-veriş və məskənlə bağlı fikirləri şərh etməklə kifayətlənib və heç bir qeyd bildirməyib.[480]

Əksinə, “Məsalikul-əfham” kitabından sonra qələmə aldığı “Lüm`ə” kitabının şərhində İmamın (ə) qeybdə olduğu dövrdə xümsün fətva şərtlərini özündə toplayan fəqihə verilməli olduğunu açıq bəyan edib. Orada yazır:

“Məşhur nəzərə əsasən, xüms “altı hissəyə bölünür”. Burada müvafiq ayənin və aydın sözlərlə ifadə edilən rəvayətlərin zahiri hökmünə əməl olunur. Bu hissələrdən “üçü İmamındır (ə)”. Bunlar Allahın, Peyğəmbərin və onun ən yaxın qohumlarının payıdır. Bu üç hissə xümsün yarısıdır. “İmam (ə) mövcud olduğu halda ona, yaxud naiblərinə verilir”. Naiblər ədalətli, on iki imam şiəsi və fətva şərtlərini özündə toplamış fəqihlərdir. Çünki onlar İmamın (ə) vəkilləridir. Onların xümsü öz məsləhətlərinə uyğun sərf etmələri vacibdir. Onlardan bir qismi müasir alimlərin arasında məşhur olan rəyə əsasən, digər üç dəstəyə[481] xərcləməyi, bəziləri isə öz rəylərinə görə, əlçatanlığı təqdirində digər yerlərdə təsərrüf etməyi icazəli biliblər.

---

[479] “Təhrirul-əhkam”, 1/444.

[480] Bax: “Məsalikul-əfham”, 1/475.

[481] Bunlar pak Peyğəmbər (s) ailəsinin yetimləri, yoxsulları və yolda qalmışlarıdır.

Bunları vacib bilməyən şəxs, həmin malı İmam (ə) zühur edənədək əmanət kimi saxlamalıdır...".

Nikahı və digərlərini (xümsdən) istisna edərək deyir: "Aralarında müəllifin də olduğu alimlər və müəllifin özünün digər kitablarında və fətvalarında bəyan etdiyinə əsasən, həmçinin əshabımız arasında məşhur rəyə görə nikah, məskən və alış-veriş xümsdən istisna edilmişdir. Bunların üçü ümumilikdə[482] icazəlidir. Birincidə məqsəd İmamın (ə) qeybdə olduğu dövrdə əsir götürülmüş kəniz və ya onun alınmasına ödənilən məbləğ, evlənmək üçün qazancdan xərclənən mehr məbləğidir. İkincisi məskən üçün ödənilən məbləğdir, üçüncüsü xümsə etiqadı olmayan və ya xüms çıxarmayan kəsən bir şey almaq və bu kimi hallardır. Onun burada izahı tərk etməsi ya fikrini müxtəsər ifadə etmək istəyindən irəli gəlir, ya da bunu daha münasib bilməsidir. Belə ki, bu fikir əshabımızdan bir dəstənin fikridir. Üstün fikir birincidir.[483] Çünki açıqlayarkən On iki imam şiələrinin buna uyğun davrandıqlarını və müxalifinin tək-tük olduğunu bildirib".[484]

Bu sözləri "ər-Rovzətul-bəhiyyə" kitabında Şəhid Sani deyir və öz rəyini də bəyan edir. Göründüyü kimi, müəllifin Şəhid Saninin "Məsalik" kitabına nisbət verdiyi sözlər doğru deyildir.

* * *

**Müəllif iddia edir: "5. H.q. 993-cü ildə vəfat etmiş Müqəddəs Ərdəbili öz dövrünün ən üstün fəqihlərindən idi. Bu səbəbdən ona "Müqəddəs" ləqəbi verilmişdi. O da qeybdə olanın malını ümumiyyətlə, ehtiyac olduqda isə xüsusilə xərclənməsinin icazəli olduğu qənaətində idi. Deyir: "Ümumən rəvayətlər (İmamın) həm qaib, həm də hazır olduğu zamanlarda xümsün insanların**

---

482 Yəni, həm İmamın hazır, həm də qeybdə olduğu dövrlərdə.

483 Yəni, müəllif xümsdən istisna edildiyini söylədiyi bu üç dəstənin hansı olduğunu sözlərinin müxtəsər olması məqsədilə qeyd etməyib. Çünki o, özünün "əl-Bəyan" kitabında bu mövzuda on iki imam şiələri arasında icmanın varlığını qeyd edir.

484 "ər-Rovzətul-bəhiyyətu fi şərhil-lum`ətid-Diməşqiyyə", 3/107-116.

**öhdəsindən götürüldüyünə dəlalət edir. Yəni, qazancdan xüms vermək güclü bir dəlilin, eləcə də qənimətlərin olmadığına görə vacib deyildir".**

**Onun bu hökmü Uca Allahın *"Bilin ki, qənimət olaraq əldə etdiyiniz..."* ("əl-Ənfal", 41) ayəsindən əldə edilir. Sonra da xümsü şiələrinə mübah qərar verdiklərinə dair Mehdidən nəql olunan rəvayətləri qeyd edir".**

**Cavab:** Müqəddəs Ərdəbilinin "Məcməul-faidəti vəl-burhan" kitabındakı sözləri budur: "Bil, əvvəldəki rəvayətlər İmamın (ə) həm qeyb, həm də hazır olduğu dövrlərdə xümsün öhdəlikdən götürüldüyünə və qətiyyən vacib olmadığına dəlalət edir. Sanki İmamlar (ə) bu barədə xəbər verirlər və bununla da qəti şəkildə vacib olmadığı bilinir".

Bundan sonra deyir: "Bu rəvayətlər qeyb dövründə xümsün vacib olmadığına dəlalət edir. Onun müstəhəqlərə çatdırılması müstəhəbdir. Necə ki, bəzilərinin qənaəti belədir. Baxmayaraq ki, vacibliyin öz həqiqətini tapması yalnız az halda gerçəkləşir ki, bu da qazanc və gəlirlər barədə güclü dəlilin, eləcə də qənimətlərin olmamasına görədir".[485]

Müqəddəs Ərdəbili bu sözlərilə məsələyə dair öz rəyini deyil, əvvəldə qeyd etdiyi rəvayətlərin dəlalətinə öz fikrini bildirir. Ancaq müəllif onun sözlərini kəsmiş, sözlərinin əvvəlini sonu ilə birləşdirmiş, ortadakı "əvvəldəki rəvayətlər" sözünü çıxarmışdır. Məqsədi isə oxucuda Ərdəbilinin qeyd etdiyi kimi, bəzilərinin deyil, bütün rəvayətlərin həmin mənanı ifadə etdiyi fikrini formalaşdırmaqdır.

Müqəddəs Ərdəbili məsələ ilə bağlı öz rəyini də bəyan edir: "Lakin tamamilə ehtiyat edilməli və haqların (xümsün) çıxarılmasında qüsura yol verilməməlidir. Xüsusilə də (lüğət mənasında) qənimət sayılan qazanclarda üç dəstənin hissəsilə bağlı (buna riayət olunmalıdır). Belə ki, ayənin zahirinə, vacibliyin öhdədən götürülmədiyinə,[486] onların haqlarının öhdədən düşdüyünün uzaq fikir olmasına,

---

[485] "Məcməul-faidəti vəl-burhan", 4/355.

[486] Vacibliyinə dəlalət edən qəti və səhih rəvayətlərin varlığına və bunun ləğv edilmədiyinə dair xəbərlərə əsasən.

zəkatın onlara haram və xümsün onun əvəzi olduğuna,[487] ayə və rəvayətlərin zahiri mənalarının həmin haqların onlara məxsus olduğunu bildirdiyinə və vacibliyinin qüvvədən düşmədiyinə, bu barədə rəvayətlərin qeyri-səhih və (səhih olanların isə) aydın mənalı olmadığına, icazəli olduğuna dair rəvayətlərin imkansız və sıxıntıda olan şəxslərə rüsxətinin dəlalətinə, bəzilərinin təqiyyə halında söyləndiyinə, yaxud da onların haqqı olan məbləği xərcləyib onlara çatdıra bilməyən və həmin məbləğin özlərinə halal edildiyi şəxslərə şamil olduğuna və s. görə xüms verilməlidir. Qalan hissələrlə bağlı ehtimal sayılan şübhələrə baxılmamalı, sübuta yetmiş əmrin qüvvədən düşdüyü məlum olana qədər qeyd edilən şərtlərə əsaslanılmalıdır".[488]

Sonra deyir: "Xülasə, xümsün pak itrətin ehtiyaclı şəxslərinə sərf edilməsini digər ehtimallardan daha üstün görürəm. Əgər rəvayətlərdən bu haqlarla bağlı heç bir danlaq və təqsirin olmadığı anlaşılırsa, o zaman həmin hissənin onlara xərclənməsinin nə qüsuru ola bilər ki?! Halbuki Peyğəmbər (s) ailəsini diqqətdə saxlamağın və möhtac möminlərə yardım etməyin böyük savabı olduğuna dair rəvayətləri qeyd etdik. Möminin qayğısına qalmaq isə İmamlara (ə) qayğı göstərməkdir".

Sonra deyir: "Güman edirəm ki, bunu xümsün maliki hakimin icazəsi olmadan da edə bilər. Lakin ədalətli və inanılan bir fəqihə çatdırmaq mümkün olarsa, xümsü ona vermək daha yaxşıdır. Bu "əl-Müntəha"da deyildiyinə əsasəndir: "Əgər İmamın (ə) payının həmin üç dəstəyə xərclənməsinə qərar veririksə, bunu onun əvəzinə hökmlərdə naibi olduğu şəxs öz öhdəsinə götürməlidir. Bu naib (qarşıda deyiləcək şərtlərə əsasən,) fiqh alimi, inanılan, ehtiyat edən, fətva və hökm vermək şərtlərini özündə toplayan Əhli-Beyt (ə) fəqihi olmalıdır...".[489]

---

[487] Xüsusilə, zəkatın onlara haram olması hökmünə görə, xümsü onlara vermək vacibdir. Belə ki, xüms zəkat və sədəqənin əvəzidir. Əgər xümsün onlara verilməsinin vacib olmadığını söyləsək, onlar bütünlüklə yardım və dəstək almaq haqlarından məhrum qalacaqlar. Buna qərar vermək isə mümkün deyildir.

[488] Yəni, sübuta yetmiş əmrə - xümsün vacib olduğuna – müvafiq əməl edilməlidir.

[489] "Məcməul-faidəti vəl-burhan", 4/357.

Müqəddəs Ərdəbilinin (r.ə) sözlərindən aydın olur ki, ehtiyatın hökmünə əsasən, xüms pak nəslin nümayəndələrinə ödənməli və bu məqsədlə On iki imam şiəsi, ədalətli, fətva şərtlərini öndə cəmləyən fəqihə verilməlidir.

* * *

**Müəllif iddia edir: "6. Əllamə Səllar deyir: "İmamlar (ə) qeyb dövründə məxsusi olaraq şiələri üçün onlara qarşı lütf və səxavət addımı olaraq xümsü halal etmişlər" (bax: "Kitabul-mərasim",[490] səh.633)".**

**Cavab:** Əllamə Səllar özünün "əl-Mərasim" kitabında müəllifin nəql etdiyi sözləri yazmayıb. Orada bunları qeyd edib:

"Qənimətlər xüsusi olaraq ona (İmama (ə)) məxsusdur. Bu, üzərinə at və ya dəvə sürülmədən, döyüşmədən əldə olunan torpaqlar, ölü ərazilər, savaş mirasları, meşələr, səhralar, mədənlər, vergi torpaqlarıdır. Onun izni olmadan bunların heç birini sərf etmək olmaz. Onun icazəsilə beşdə birini (xümsü) xərcləyən şəxs, yerdə qalan dörddə birinə sahib olur. Gəlirin beşdə biri imamındır. Bu dövrdə məxsusi olaraq bizə qarşı lütf və səxavət addımı olaraq onu halal etmişlər".[491]

Bu sözlər onun məqsədinin bəyanı üçün yetərlidir. Belə ki, o, əvvəldə də qeyd etdiyi qənimətlərin İmamlar (ə) tərəfindən xüsusi olaraq şiələr üçün halal edildiyini açıqlayır.

Lakin müəllif onun sözlərini təhrif etmiş və məqsəddən uzaqlaşdırmışdır. Bu, alimlərin sözlərini nəql etməkdə onun adətidir.

Əgər əldə edilib yoxlanılması mümkün olan kitablardan gətirdiyi sitatları bu yolla nəql edirsə, şəxsən özünün şahidi olduğu hadisələrlə bağlı sözlərinə necə inanmaq və etibar etmək olar?!

Səllam əd-Deyləmi xüms barədə öz rəyini belə ifadə edir:

---

[490] Kitabın adı "əl-Mərasim"dir ki, ərəbcə "i" səsi uzadılmadan yazılır. Lakin müəllif kitabında onun adını uzatma ilə qeyd edib. Bu da onun hansı dərəcədə "ictihada və fəqihliyə" yetişdiyinin göstəricisidir.

[491] "əl-Mərasim", səh.140.

“Peyğəmbər ailəsindən (ə) nəql edilənlərə əsasən, savaşda əldə edilən hər bir qənimət və digər mallardan, silahlardan, qullardan, mədənlərdən, xəzinələrdən, dənizdən çıxarılan qiymətli şeylərdən, ənbərdən, illik məişət xərclərindən artıq qalmış ticarət, əkinçilik və sənətkarlıqla əldə edilmiş qazanclardan, eləcə də il ərzində qənaət edib yığılan mal və pullardan xüms çıxarılması vacibdir”.

Sonra deyir: “Onun bölgüsünə gəldikdə, İmam (ə) onu altı hissəyə bölür. Bunlardan üçü Peyğəmbərdən (s) miras apardığı iki pay və öz payıdır. Digər üçü isə bir pay yetimlərin, bir pay yoxsulların və bir pay da yolda qalmışlarındır. Onlara illik xərclərinə yetəcək qədər ayrılır. Ondan artıq qalanını İmam (ə) götürür, yetməyən hissəsini isə öz payından verir”.[492]

Bəs Səlların İmamın (ə) qeybdə olduğu dövrdə xümsün şiələrə mübah olduğuna dair müəllifin iddia etdiyi həmin sözlər haradadır?!

* * *

**Müəllif iddia edir: “7. On birinci əsrin əvvəllərində vəfat etmiş Seyid Muhəmməd Əli Təbatəbai deyir: “Daha doğrusu icazəli olmasıdır (“Mədarikul-əfham”, səh.344)”.**

**Cavab:** “əl-Mədarik” kitabının müəllifi əl-Musəvidən (Təbatəbai deyil) nəql etdiyi sözlərdə iddiaçı müəllif saxtakarlığa əl atmışdır. Belə ki, kitabın müəllifi əldə edilmiş qazancdan xümsün ayrılmasının vacibliyinə və onun xərclənməsinin icazəli olduğuna dair dəlilləri qeyd etdikdən sonra xümsü ödəməklə bu məsələdə ehtiyata əməl edilməli olduğunu bəyan edir. Deyir:

“Xülasə, bu növdən olan xümsün vacibliyini isbat edən rəvayətlər həddən artıq çoxdur. “əl-Müntəha”da iddia edildiyi kimi, hətta mütəvatirdir. Müşkül xümsün müstəhəqləri, qeyb dövründə bağışlanıb-bağışlanmadığı mövzusundadır. Bəzi rəvayətlər xümsün müstəhəqlərinin elə qənimətin müstəhəqləri olduğunu bildirir. Bəzilərində isə bunun İmama (ə) məxsus olduğu vurğulanır. Qeyd etdiyimiz kimi, Əli ibn Məhziyarın rəvayəti bunu təfsilatlı açıqlayır. Haris ibn Müğeyrə ən-Nəzrinin və Fəzlanın səhih rəvayətlərinin hökmündən isə bu növdən olan xümsün bağışlandığı

---

[492] “əl-Mərasim”, səh.139-140.

mənası əldə edilir. Necə ki, İbn Cüneydə də bu qənaətə gəlmişdir. Bu məsələyə güclü işkal vardır. Ehtiyat isə heç bir halda tərk edilməli deyil. Allah Öz hökmlərinin həqiqətini daha yaxşı bilir!”[493]

Bəli, “əl-Mədarik”in müəllifi Əllamə Hillinin, Şəhid Sani, Şeyx Tusi və İbn İdrisin nikah, məskən və alış-verişin xümsünün icazəli olması ilə bağlı sözlərini nəql etdikdən sonra deyir: “Daha doğrusu məxsusi olaraq İmama (ə) aid olanların icazəli olmasıdır. Belə ki, Əli ibn Məhziyardan... rəvayət olunan çoxlu rəvayətlər buna dəlalət edir”.[494]

Onun sözləri olduqca aydındır. Sözlərinə əsaəsn, xərclənməsi icazəli olan İmamın (ə) məxsusi olaraq üç məsələ ilə bağlı haqqıdır, qazanc və s. gəlirlərin xümsü deyil, qeyb dövründə isə ehtiyata əsasən, xümsün verilməsi vacibdir.

* * *

**Müəllif iddia edir: “8. On birinci əsrin sonlarında vəfat etmiş Muhəmməd Baqir Səbzəvari deyir: “Haris ibn Müğeyrənin və Fəzlanın səhih, Muhəmməd ibn Müslimin, Davudi (!) ibn Kəsirin, İshaq ibn Yaqubun, Abdullah ibn Sinanın rəvayətlərinə, eləcə də Zürarənin, Əli ibn Məhziyarın və Küreybin səhih hədislərinə əsasən, xüms şiələr üçün mübah (icazəli) qərar verilmişdir”.**

**Bu fikrə qarşı söylənmiş bəzi iradlara cavabında isə deyir: “İcazəli olduğunu bildirən rəvayətlər səhih və aydın mənalıdır. Sadalanan rəvayətlərə əsaslanıb onları tərk etmək düzgün deyildir.**

**Xülasə, qeyb dövründə xümsün icazəli olduğu barədə fikir güclüdür (bax: “Zəxirətul-məad”, səh.292)”.**

**Cavab:** Müəllifin nəql etdiyi sözlər düzgündür. Lakin, yenə də elmi əmanətə xəyanət edib, sonuncu cümləni tamamlamayıb. Belə ki, Səbzəvari (r.ə) yazır:

“Xülasə, qeyb dövründə xümsün mütləq şəkildə icazəli olduğu barədə fikir güclüdür. Lakin mənim rəyim budur ki, xüms ədalətli və fətva vermək şərtlərini özündə cəmləyən fəqihin himayəçiliyində həmin məbləğin bütünlüklə hazırda

---

[493] “Mədarikul-əhkam”, 5/383.

[494] “Mədarikul-əhkam”, 5/421.

mövcud olan qruplara[495] verilməsidir. İmkan daxilində burada yetərli olmasına riayət etmək, yeyəcək, içəcək, libas, məskən və zəruri əşyalara ehtiyac duyulduğu qədərlə kifayətlənmək lazımdır ki, illik xərclərdən artıq olmasın. Yoxsul, miskin, aciz, daha çox ehtiyaclı və zəif şəxslər öndə tutulmalıdır. Xümsün yarısını üç hissəyə bölmək, üçdə birini yoxsullara, üçdə birini yetimlərə və digər üçdə birini də yolda qalmışlara vermək daha yaxşıdır. Digər yarısı ilə bağlı da ehtiyacları nəzərə almaq yaxşıdır. Əqli qənaətlər və nəqli dəlillər bu fikrin yaxşı və tərcihli olduğuna uyğunluğu göstərir".

Sonra deyir: "Xülasə, mənim qənaətimə (zənnimə) görə, bu daha üstün və ehtiyata daha uyğundur. "Əgər onu hakimdən başqası ayırsa..." – yəni İmama (ə) aid yarı hissəni bölsə. Hakim – on iki imam şiəsi, ədalətli, fətva vermək şərtlərini özündə cəmləmiş fəqihdir. "...zamindir" – çünki fəqih İmam (ə) tərəfindən təyin edilmişdir. Xümsün təsərrüf ixtiyarı yalnız ondadır. Şəhid Sani isə üç qrupa bölünməsinin vacibliyini söyləyənlərin icma etdiklərini nəql etmişdir. Şeyx Müfidin "ər-Risalətul-ğəriyyə" kitabındakı sözlərindən xümsü çıxaran şəxsin bu işi özünün yerinə yetirməsinin icazəli olduğu başa düşülür. Birincisi ehtiyata daha uyğun və xərclənməyin vacib olduğu fikrinə daha yaxındır".[496]

Onun sözləri bundan ibarətdir: Qeyb dövründə xümsün mütləq şəkildə icazəli olduğu sözü tərcih edilsə də, xümsün On iki imam şiəsi və fətva vermək şərtlərini özündə cəmləyən fəqihə təslim etməklə qeyd edilən üç qrupa verilməsinin və onlara xərclənməsi lazımlı ehtiyat olaraq götürülməlidir.

* * *

**Müəllif iddia edir: "9. Muhəmməd ibn Həsən Feyz Kaşani özünün "Məfatihuş-şəriə" (!) kitabında (səh.229) 260 saylı açarda Mehdiyə aid olanların öhdəlikdən borc olaraq götürüldüyünü əsas fikir hesab edib. Deyir: "Səbəb isə İmamların bunu öz şiələrinə halal etməsidir".**

**Cavab:** Feyz Kaşani özünün "Məfatihuş-şərai" kitabının işarə edilən səhifəsində qeyb dövründə xümsün vacibliyi haqqında müxtəlif rəyləri sadaladıqdan sonra deyir:

---

495 Yəni, xüms seyidlərdən olan yetim, yoxsul və yolda qalmış şəxslərə ödənməlidir.

496 "Zəxirətul-məad", səh.492; "Həcəriyyə" mətbəəsi.

“Mənim rəyimə görə, yalnız İmama (ə) məxsus olanlar öhdədən götürülüb. Belə ki, onlar bu hissəni şiələrinə halal ediblər. Yerdə qalanların hissəsi isə əhlinə xərclənməlidir. Çünki buna heç bir maneə yoxdur. Bütün miqdarın onlara xərclənməsi isə daha yaxşı və ehtiyata daha müvafiq olar. Lakin bunu onların haqları mövzusunda naibləri olan fəqih öz öhdəsinə götürər, necə ki, qaib olanın naibliyini öz üzərinə götürmüşdür”.[497]

Qeyd edilməlidir ki, müəllif Feyz Kaşanini xümsün vacib olmadığını söyləyənlərin sırasına daxil etmişdir. Halbuki onun sözlərində seyidlərin haqının özlərinə ödənməli olduğu açıq ifadə edilir. Nəinki, daha yaxşısı və ehtiyata daha müvafiq olanı bütün xümsün onlara xərclənməsidir. Ancaq bunu da fəqih öz öhdəsinə götürməlidir.

Müəllif oxucunu aldatmaq üçün saxtakarlıq edərək deyib: **“Mehdiyə aid olanların öhdəlikdən borc olaraq götürüldüyünü əsas fikir hesab edib”.** Bununla Feyz Kaşaninin xümsün vacib olmadığını düşündüyünə dair oxucuda təəssürat formalaşdırmağa səy göstərib. Halbuki onun sözləri əsla buna dəlalət etmir.

* * *

**Müəllif iddia edir: “10. Cəfər Kaşiful-Ğita (vəfatı h.q. 1227-ci il) “Kəşful-ğita” kitabında (səh.364) imamların xümsün istifadəsinə dair icazə verdiklərini və xüms ödəməyin vacib olmadığını qeyd edir”.**

**Cavab:** Kaşiful-Ğita ailəsinin böyük şeyxi Cəfər (r.ə) qeyd edilən səhifədə belə yazır:

“Sırf İmama (ə) məxsus və ya müsəlmanlarla aralarında müştərək olan şeyləri zalım hakimdən satın almaq və ya hədiyyə, əvəz və icarə ünvanı ilə götürmək icazəlidir. Çünki İmamlar (ə) bunları öz şiələrinə halal ediblər”.[498]

Mərhumun (r.ə) sözlərindən məlum olan budur ki, şiələrin zalım hökmdardan hədiyyə və ya satınalma, icarə, əvəzləmə və s. yolla əldə etdiklərinə malik olmaları icazəlidir.

---

[497] “Məfatihuş-şərai`”, 1/229.

[498] “Kəşful-Ğita”, 2/364, “Həcəriyyə” mətbəəsi.

Onun “Kəşful-ğita” kitabındakı sözləri bütün açıqlığı ilə qeyb dövründə xümsün vacibliyinə və fətva şərtlərini özündə toplamış müctəhidə təqdim edilməli olduğuna dəlalət edir.

Deyir: “İmam (ə) mövcud olduqda və xümsü ona çatdırmaq üçün əlverişli şərait formalaşdıqda onun payı özünə çatdırılmalıdır. Ancaq təqiyyə etmək mümkün olmadıqda, yaxud İmam (ə) qeybdə olduqda, güclü nəzərə əsasən, digər üç qrupa verilməlidir. Bu işi isə öz üstünə müctəhid götürməlidir. Ehtiyata əsasən, ən üstün olanına məxsus edilməlidir. O da xərclənməli olduğu yerə çatdırmağı öhdəsinə götürməlidir. Əgər xümsü ona çatdırmaq çətin olsa və əhlinə yetişdirmək üçün qorumaq mümkün olmasa, o zaman bu işi ədalətli müsəlmanlar öz üzərilərinə götürməlidirlər. Əgər bir şəxs xümsü müctəhid və ya onun vəkili, yaxud imkan daxilində onun nümayəndəsindən başqa bir kəsə ödəsə, onu geri qaytarması vacibdir. Müctəhidin buna icazəsi vardır. Ehtiyata daha çox yaxın hökm qaytarılmasıdır. Əgər müctəhid olduğunu güman etdiyi bir şəxsə ödəsə, sonra da onun müctəhid olmadığı anlaşılsa, xümsün eyni qaldığı təqdirdə, geri qaytarılmasını tələb etməlidir. Əgər həmin xüms tələf olarsa və o məbləğin sahibinin haqqı olduğunu bilsə, həmin məbləğə zamindir. Əgər qaytarılması çətin olsa və ödəyən şəxs də üzrlü sayılsa, onun heç bir zaminliyi yoxdur. Üzrlü olmasa, zamindir”.[499]

Buradan aydın olur ki, müəllifin Kaşiful-Ğitaya nisbət verdiyi sözlər də yanlışdır.

* * *

**Müəllif iddia edir: “11. Muhəmməd Hüseyn Nəcəfi (vəfatı h.q.1266-cı il) “Cəvahirul-kəlam” kitabında (16/141) qəti olaraq İmamın qeybdə olduğu və ya mövcud olub, lakin qaib kimi olduğu dövrlərdə xümsün şiələrə mübah olduğuna hökm edib, bu barədə rəvayətlərin az qala mütəvatir həddə yetişdiyini açıqlayıb”.**

**Cavab:** “Cəvahir” kitabının müəllifi (r.ə) kitabından qeyd edilən fəsildə xümsün istifadəsinin icazəli olduğuna hökm verməmişdir. O, Mühəqqiq Hillinin xümsün

---

[499] “Kəşful-Ğita”, 2/363.

yarısının müstəhəqq olan üç qrupa - yetimlərə, yoxsullara və yolda qalmışlara xərclənməsi barədə fikri daha üstün bildikdən sonra deyir: "İmamın (ə) haqqına (qənimətlərə və s.) gəldikdə, ağıllarda dolaşan hüsnü-zənnə əsasən, Zamanın sahibi (ruhum onun ruhuna fəda olsun!) şiələri bundan azad etməklə şəfqət göstərmişdir. Buna etimad edərək, bu payın həqiqətdə onun ailəsi olan həmin üç qrupa xərclənməsinə, hətta bundan savayı tərcih edilən yerlərə, həmin üç qrup daha layiq olsalar da, eyni səviyyədə olduqları təqdirdə daha üstününə xərclənməsinə görə irad tutulmaz. Nəinki, xümsün öhdəlikdən götürülmədiyi əsaslandırıldıqdan sonra, məhz müəyyən olunan yerlərə sərf edilməli olduğu uzaq nəzər deyil. Belə ki, bundan başqa vəsiyyət və ya dəfn etmək kimi digər üsullar məbləğin tələf olmasına və faydasız qalamasına səbəb olacaq. Bu isə İmamın (ə) haqqının aradan getməsidir".[500]

"Cəvahir" kitabının müəllifinin sözləri açıq şəkildə yalnız İmama (ə) aid olan qənimətlərin halal edildiyini bildirir. Belə ki, yazır: "Bir çox rəvayətin ümumi mənası İmamların (ə) haqqının torpaq və s. kimi qənimətlərə şamil olduğunu göstərir. Necə ki, Hərs ən-Nəzrinin İmam Sadiqdən (ə) nəql etdiyi rəvayətdə buyurulduğun kimi...".

Qənimətlərin şiələrə halal edildiyinə dair bəzi rəvayətləri nəql etdikdən sonra deyir: "Və barəsində bizim hökm etmədiyimiz, onların (ə) bütün haqlarının və xümsün ümumilikdə halal edildiyinə dair dəlil götürülməyə layiq olmayan və müəyyən cəhətlərdən iradların olduğu digər rəvayətlər də vardır".

Deyir: "Həmin rəvayətlərin müxaliflərimizin əlində olan xümsü çıxarılmamış və ya üzərində İmamın (ə) haqqı olan digər mallara şamil olduğu deyilib. Bu, yemək, içmək, geyim, satış və s. kimi müxaliflərimizə haram olan xərclərin bizim üçün icazəli olduğu mənasındadır. Ancaq bunun şiələrin qazanc, xəzinə tapmaq və s. bu kimi yollarla əldə etdiyi gəlirlərdən xümsün çıxarılması ilə əlaqəsi yoxdur. Necə də (vacib) olmasın, İmamların (ə) özləri xümsün vacibliyini təkidlə vurğulamış, bundan boyun qaçıran şəxsi ciddi cəzanın gözlədiyi barədə xəbərdar etmiş, inşallah, qarşıda bir neçəsini qeyd edəcəyimiz bəzi rəvayətlərdə isə lənətlədiklərini bildirmişlər. Ona

[500] "Cəvahirul-kəlam", 16/177.

görə də bu zaman icazəyə və ayrılıb əhlinə çatdırılmasının vacibliyinə dəlalət edən rəvayətlər cəm olunmalıdır”.[501]

Sonra deyir: “Necə də olmasın, bu rəvayətlərin təhlili onların çoxunun mötəbər olduğunu göstərir, hətta mütəvatir həddə də yetişmişdir. Bunlar maraqlı səbəblərə və qəribə sirlərə şamil olur ki, qeyb dövründə şiələrin bundan azad edildiklərinə dair fəqihin qəti hökm verməsinə rəvac verir. Nəinki, hətta İmam (ə) mövcud olduqda, lakin əlçatmaz olduqda və qənimətlərdəki haqlarının ixtiyarı özlərində olmadıqlarında da hökm belədir. Həmçinin digər hallarda da, məsələn qənimətin ixtiyarı özlərində olduğunda və məsələ ilə bağlı onlara müraciət edildikdə, müsəlmanlarla aralarında müştərək olan, sonra isə düşmənlərinin əlinə keçən mallarda da hökm eynidir.[502] Necə ki, bunu ustad özünün “Kəşful-Ğita” kitabında qeyd edir. Qənimətlə bağlı məsələləri sadaladıqdan və birini üstün rəy kimi seçdikdən sonra deyir: “Sırf İmama (ə) məxsus və ya müsəlmanlarla aralarında müştərək olan şeyləri zalım hakimdən satın almaq və ya hədiyyə, əvəz və icarə ünvanı ilə götürmək icazəlidir. Çünki İmamlar (ə) bunları öz şiələrinə halal ediblər”.[503]

Və Muhəmməd Hüseyn Nəcəfinin (r.ə) İmamların (ə) öz şiələrinə qazancdan əldə etdikləri gəlirlərin xümsünün deyil, məhz torpaq və qənimətlərin istifadəsinə icazə verdikləri barədə rəyini açıqlayan digər sözləri...

* * *

**Müəllif iddia edir: “12. Bu fətvaları h.q. 1310-cu ildə vəfat etmiş Şeyx Rza Həmədaninin “Misbahul-fəqih” kitabında qeyd etdiyi (səh.155) sözlərilə bitiririk. O da qeyb dövründə xümsün istifadəsini icazəli bilmişdir. Şeyx Həmədani yaxın dövrlərdə yaşamışdır, təqribən bir əsr əvvəl olar”.**

**Cavab:** Fəqih Həmədani adı qeyd edilən kitabında qeyb dövründə xümsün ödənilməsinin şiələrə vacib olduğuna fətva verir. O, zahirən xümsün vacibliyinə

---

[501] Yəni, qənimətlərin icazəli olduğuna, digər qazancların isə xümsünün vacibliyinə hökm olunmalıdır.

[502] Yəni, şiələr onu satın ala, hədiyyə götürə, dəyişə, icarəyə ala və s. bilərlər.

[503] “Cəvahirul-kəlam”, 16/138-140.

dəlalət edən rəvayətləri sadaladıqdan sonra ardınca, icazəli olduğu barədə rəvayətləri qeyd edərək deyir:

"Bu rəvayətlərin sayı çox da olsa, lakin gizli deyil ki, İmamdan (Allah onun zühurunu tezləşdirsin!) rəvayət olunan sonuncu xəbərdən savayı onların hamısı əvvəlki rəvayətlərə ziddir. Belə ki, bunlar xümsdən istifadənin mütləq şəkildə[504] icazəli olduğunu bildirir. Halbuki bu, sonsuzadək inkar edilən bir məslədir. Çünki şəri hökmlərə əsasən, Haşimi övladları hər cür sədəqədən (və zəkatdan) kənarda tutulmuşlar. Burada məqsəd[505] ya (övladın pak doğumu, övlad dünyaya gətirən anaların mehri və bu kimi səbəblərə görə) onlara məxsus hissənin xərclənməsinə verilən icazədir, necə ki, buna həmin rəvayətlərdə, eləcə də Füzeylin Əbu Abdullah Sadiqdən (ə) nəql etdiyi rəvayətdə də işarə edilir: *"Biz şiələrimizin pak doğumlu olmaları üçün analarını atalarına halal etmişik";* yaxud da rəvayətlərin söyləndiyi dövrün tələbinə əsasən, məhz o zaman kəsiyində halal edildiyinə dəlalət edir. Belə ki, həmin dövrün tələbi təqiyyə edilməsi idi. Xümsün halallığına dair rəvayətlərin hamısı olmasa da, böyük hissəsi İmam Baqir (ə) və İmam Sadiqdən (ə) nəql olunur. Onların yaşadıqları dövr xüms məsələsinin gizlədilməli və mütəhəqlərin öz haqlarına göz yummalı olduğu dövrdür. Yoxsa, onların özləri və haqlarını onlara gətirən şiələri amanda deyildilər. Şiələrinin övladlarının pak doğulması, yemək və içmək kimi məsələlərdə harama düçar olmamaları üçün xümsü onlara halal etmişlər. Ona görə də həmin rəvayətlər xümsün ümumiyyətlə halal edildiyini ifadə etməkdə öz-özlüyündə naqisdir, xüsusilə də xümsün öz müstəhəqlərinə çatdırılmasında heç bir maneənin olmadığı və xüms məsələsinin gizlədilməsinə lüzum duyulmadığı hazırkı dövrdə. O rəvayətlərin bəziləri müəyyən şərtlərin hökmünə əsasən, hansısa cəhətdən xümsün mübah edildiyini göstərir. Necə ki, Yunusun rəvayətində bunu görürük: *"Əgər sizdən xümsü bu gün tələb etsək, sizə qarşı insafsızlıq etmiş olarıq".* Nəticə budur ki, həmin rəvayətlərin üzərində dərindən düşünən və həmin zamanda xümsün bağışlanmasına rəvac verən amillərin mövcudluğuna diqqət yetirən şəxs onun bütünlüklə halal

---

[504] Yəni, İmamın (ə) həm qeybdə, həm də hazır olduğu dövrdə.

[505] Yəni, zahirən xümsün şiələrə halal edildiyinə dəlalət edən rəvayətlər.

olduğunu ifadə etməsinin qüsurlu olduğunu görəcək. Bəli, Əbu Xədicənin rəvayəti kimi bəzi rəvayətlər buna dəlalət edir. Lakin bu da ümumən xümsün deyil, nikah, alış-veriş, miras və hədiyyə kimi məsələlərə şamildir. Xümsdən nəyin istisna edildiyini xümsün vacib olduğu yerləri qeyd etdikdə məlum olacaq. Həmçinin övlad analarının ərlərinə halal olduğunu bildirən rəvayətlərin də zahiri bunu göstərir. Bildiyiniz kimi, biz də bu fətvanı vermişik. Həmçinin əgər həmin rəvayətlərdə xümsün mütləq şəkildə, yaxud ələlxüsus qazanc gəlirlərinin xümsünün bağışlandığını qəbul etsək, o zaman İmam Əbul-Həsən Rzadan (ə) və ondan sonrakı İmamlardan (ə) xüms məsələsində heç kəsə güzəştə getmədiklərini və onların müstəhəqlərə çatdırılmasının vacibliyini göstərən rəvayətlərə əsaslanıb, icazəli olduğunu bildirən rəvayətləri bir kənara qoymalıyıq. Bundan əlavə, onların xüms və digər haqları toplamaq üçün vəkillər təyin etdikləri məlumdur”.[506]

Kitabın başqa bir yerində isə yazır: “Qazancdan çıxarılan xümslə bağlı bəhslərdən məlumdur ki, xümsün icazəli olduğuna dair rəvayətlər ümumən ya qəsb edilməklə müxaliflərin əlinə keçmiş haqlara, yaxud xümsün vacibliyi ilə ziddiyyətə gətirib çıxarmayan və şiələrin qazancdan istifadə etdikləri xümslə əlaqədar mallarla şamil olur”.[507]

* * *

**Müəllif iddia edir: “Beləliklə, görürük ki, xümsün şiələrə halal edildiyinə və onlara bağışlandığına dair rəy qədim və müasir müctəhidlərin nəzərində geniş yayılmışdır (məşhurdur). Halal olduğuna dair rəvayətlər nəql edilən zamandan ta XIV əsrin əvvəllərinədək buna əməl olunmuşdu. İmamlar (Allahın salamı onlara olsun!) xümsü qəbul etmədikləri, şiələrinə qaytardıqları və onları bundan azad etdikləri halda, xümsü fəqih və müctəhidlərə vermək necə doğru sayıla bilər? Məgər fəqih və müctəhidlər İmamlardan (Allahın salamı onlara olsun!) daha üstündürlər?”**

---

[506] “Misbahul-fəqih”, 3/126.

[507] “Misbahul-fəqih”, 3/156.

**Cavab:** Müəllifin qətiyyən əmanətdar şəxs olmadığı və iddialarının puçluğu alimlərdən nəql etdiyi sitatlardan bir daha anlaşılır. O, alimlərin sözlərini kəsərək yarımçıq nəql etmiş, daşıdığı düzgün mənada təqdim etməmiş, bəzilərində təhriflərə əl atmış və cümlələrdəki mənanın ziddinə yozmuş, bir hissəsində isə alimin sözünü qeyd etmədən yalnız kitabındakı səhifəyə işarə etmişdir. Lakin qeyd edilən mənbələrə müraciət etdikdə müəllifin iddiasının tam əksini görürük. Bütün bunları möhtərəm oxucu üçün bəyan etdik.

Alimlərin söyləmədikləri halda onların sözlərini saxtalaşdıran və öz yanlış düşüncələrini onlara nisbət verən kəs haqqında nə demək olar?! Belə bir kəsin hansı sözünə inanmaq və ya etimad bəsləmək olar?!

Şiələrin nəzərində xümsün halal olduğu fikrinin məşhurluğuna dair iddiası, təbii ki, yalan və yanlışdır. Belə bir "məşhur" rəyə bir dənə də olsa alimin sözünü dəlil olaraq nəql etmir. Biz möhtərəm oxucu üçün xümsün vacibliyi, yalnız nikah, alış-veriş və məskənlə bağlı məsələlərdə icazəli olduğu barədə On iki imamçı şiə alimlərinin nəzərinin məşhur olduğunu və onların bu barədə sözlərini təqdim etdik.

Yuxarıda qeyd etdiklərimizdən əlavə, söylədiklərimizin doğruluğuna şahid olaraq burada da digər alimlərin fikirlərini nəql edirik:

1. Seyid Mürtəza (vəfatı h.q.436) özünün "əl-İntisar" kitabında yazır:

"Şiənin digər məzhəblərdən fərqli olan hökmlərindən biri də xümsün qənimət, qazanc, mədən, dənizdən çıxarılan qiymətli əşyalar, əldə olunan xəzinədən, bir illik məsrəflərdən artıq qalmış ticarət, əkinçilik və sənətkarlıqla əldə olunan gəlirdən çıxarılmasının vacib olmasıdır".[508]

2. Şeyx Tusi (h.q.460) "əl-Xilaf" kitabında yazır:

"Hər bir növdən olan ticarət, məhsul və meyvənin gəlirindən özünün və ailəsinin haqq və yaşayış xərcləri çıxarıldıqdan sonra (qalan miqdara) xüms vacibdir. Bu mövzuda əhli-sünnə fəqihlərindən heç biri bizimlə həmfikir deyillər.

Bizim dəlilimiz məzhəb alimlərimizin icması və rəvayətlərdir. Ehtiyat da bunu tələb edir. Çünki qeyd etdiklərimizdən xüms çıxarıldıqda öhdəmizdəki vəzifəni

---

[508] "əl-İntisar", səh.86.

yəqinliklə yerinə yetirmiş olacağıq. Çıxarmadığımız təqdirdə isə onun öhdəmizdə qalıb-qalmadığına dair ixtilaf yaranacaq”.[509]

3. İbn Zöhrə əl-Hələbi (h.q.585) “Ğunyətun-nuzu`” kitabında deyir:

“Hansı cəhətdən olursa-olsun, il ərzində qənaət edilərək xərclənən ticarət, əkinçilik, sənətkarlıq və s. yolla əldə edilmiş gəlirlərdən artıq qalan hissənin də həmçinin xümsü vacibdir. Dəlil isə qeyd edilən icma və ehtiyat yoludur”.[510]

4. Əllamə Hilli (h.q.726) “Muntəhəl-mətləb” kitabında yazır:

“Beşinci qisim: Qənaətlə xərcləndiyi təqdirdə ticarət, əkinçilik, sənətkarlıqdan əldə edilən gəlirlər, hər növ qazanc və qida məhsullarından illik ehtiyaclardan artıq qalanlar. (Bunların xümsünün ödənilməsinin vacib olduğu) bütün alimlərimizin fikridir. Əhli-sünnə alimləri isə bütünlüklə bu məsələdə bizə xilaf çıxmışlar. ***“...bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasınındır...”*** ayəsinə əsasən, Uca Allah bütün qənimətlərin xümsünü vacib etmişdir. Qənimət dedikdə buraya savaşda əldə edilən qənimətlər və digər gəlirlər daxildir. Bunların birinə aid olub, digərinə aid edilməməsi dəlil tələb edir[511]”.[512]

“Təzkirətul-füqəha”da deyilir: “Beşincisi: bütün alimlərimizin nəzərinə əsasən, ticarət, əkinçilik və sənətkarlıqdan əldə edilən gəlirlərdən israfa yol vermədən, xəsislik də etmədən və qənaətlə davranmaqla illik ehtiyacları ayırdıqdan sonra artıq qalan qazanc. Əhli-sünnə alimləri isə yekdilliklə buna xilaf çıxıblar. Bizim buna dəlilimiz ***“...bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın,..”*** və ***“Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin (ən pak, halal və) yaxşılarından (Allah yolunda) sərf edin!”*** ayələri və İmamların (ə) mütəvatir hədisləridir”.[513]

---

[509] “əl-Xilaf”, 2/118.

[510] “Ğunyətun-nuzu`”, səh.129.

[511] Çünki “qənimət” lüğət mənasında “gəlir, qazanc” mənalarını da ifadə edir.

[512] “Müntəhəl-mətləb”, 1/548.

[513] “ət-Təzkirətul-füqəha”, 1/254, “Həcəriyyə” mətbəəsi.

5. Şəhid Əvvəl (h.q.786) "əl-Bəyan" kitabında yazır:

"Görünən odur ki, İbn Cüneyd və İbn Əbu Əqil bu növdən olan xümsün bağışlandığı, ancaq əksər alimlər xümsün çıxarılmasının vacib olduğu qənaətindədirlər. Etimadlı olan da vacib olduğudur. Belə ki, həm keçmiş dövrlərdə, həm də bizim zamanımızda bu barədə icma vardır, mövzu ilə bağlı rəvayətlər məşhurdur".[514]

6. Seyid Muhəmməd Əli əl-Musəvi əl-Amili (h.q.1009) "Mədarikul-əhkam" kitabında yazır:

"Bu məsələ ilə əlaqədar bir neçə bəhs vardır. Birincisi: bu növdən olan xümsün vacib olduğu. Əshabımızın əksəriyyətinin nəzərində bunun vacibliyi qətidir. Hətta Əllamə "ət-Təzkirə"də və "əl-Müntəha"da bu barədə icmanın və mövzu ilə əlaqədar rəvayətlərin mütəvatir olduğunu iddia etmişdir".[515]

7. Mirzə Qummi (h.q.1231) "Ğənaimul-əyyam" kitabında yazır:

"Altıncı: Qənaətlə xərcləndiyi təqdirdə ticarət, əkinçilik, sənətkarlıqdan əldə edilən gəlirlər, hər növ qazanc və qida məhsullarından illik ehtiyaclardan artıq qalanlar. Bu, bütün alimlərimizin fikridir. Əhli-sünnə alimləri isə bütünlüklə bizə xilaf çıxmışlar".[516]

8. Seyid Əli Təbatəbai (h.q.1231) "Riyazul-məsail" kitabında yazır: "Buraya həmçinin orada olduğu kimi, qənaətlə xərcləndiyi təqdirdə (ticarət,) əkinçilik və sənətkarlıqdan əldə edilən gəlirlər, hər növ qazancdan və qida məhsullarından illik ehtiyaclardan artıq qalanlar əlavə edilmişdir. "əl-İntisar", "əl-Ğunyə", "əl-Xilaf", "əl-Müntəha" "ət-Təzkirə"də, eləcə də Şəhid Əvvəl tərəfindən bu barədə icmanın olduğu bildirilir. Bəlkə də bu, məhz belədir. Çünki bunun aşkar müxalifi və ya bu mövzuda yalnız Əmani və İskafidən savayı zidd rəy nəql edənlər yoxdur. Bu növ xümsün bağışlandığı onlardan hekayə olunub. Ancaq onlardan nəql edilən həmin sözlərə irad vardır. Onların bu qərarlarında çəkingənliyə və tərəddüdə düşdükləri görünür.

---

[514] "Mədarikul-əhkam" kitabından, 5/378.

[515] "Mədarikul-əhkam", 5/378.

[516] "Cəvahirul-kəlam", 16/45.

Halbuki xüms məsələsində tərəddüdə bir səbəb yoxdur. Çünki bu barədə çox sayda rəvayətlər mövcuddur. Hətta "ət-Təzkirə" və "əl-Müntəha"da onların vacibliyə dəlalətdə mütəvatir olduqları bildirilib. Ona görə də nə onlardan əvvəlkilər, nə də sonrakılar xümsün vacib olub-olmadığı məsələsinin kökünə diqqət yetirməyə ehtiyac görməyiblər".[517]

9. "Cəvahir" kitabının müəllifi Şeyx Muhəmməd Həsən ən-Nəcəfi (h.q.1266):

"Beşinci: qənaətlə xərcləndikdə (özünə və ailəsinə ticarət, əkinçilik və sənətkarlıqdan əldə edilən gəlirlərdən) illik yaşayış xərclərindən artıq qalan hissənin xümsü vacibdir. Buna etimadlı bir müxalif iddia görməmişəm. "əl-Xilaf", "əl-Ğunyə", "ət-Təzkirə", "əl-Müntəha"da məsələ ilə bağlı icmanın olduğu qeyd edilib. Həmçinin "əl-İntisar" və "əs-Sərair"də bu, açıq şəkildə ifadə edilib. "ər-Riyaz"da Şəhid Sani bunu istinadsız bildirib. Yuxarıdakı dörd kitabdan sonuncu ikisində isə mövzuya dair rəvayətlərin mütəvatir həddində olduğu vurğulanıb. Məzhəbimizin qərarı və hazırkı zamanadək əməli də bunu müvafiqdir. Eləcə də bunun İmamların (ə) yaşadıqları keçmiş dövrlərə də belə olduğunu iddia etmək mümkündür".[518]

10. Şeyx Mürtəza Ənsari (h.q.1281) "Xüms" kitabında yazır:

"Həmçinin şəri və ürfi təqdirə əsasən, insanın vacib və s. xərclərdən qənaətlə istifadə edərək özünün və ailəsinin ehtiyac duyduğu illik xərclərindən artıq qalan hissəyə (xüms vacibdir). İstər həmin artıq hissə gəlirin əsasən əldə edildiyi ticarət, sənətkarlıq və əkinçilikdən olsun, fərq etməz. Ona görə də yalnız bunlar qeyd edilib. Yaxud da digər qazanc və fayda mənbələrindən olsun. "əl-İntisar", "əl-Xilaf", "əl-Ğunyə", "əl-Müntəha", "ət-Təzkirə", "Məcməul-bəyan", "Kənzul-urfan" və "Məcməul-bəhreyn"də icma olduğu qeyd edilib".[519]

Bunlardan savayı, xümsün vacib olduğunu söyləyən alimlər çoxdur. Onların hamısının sözləri qazanc növlərindən və məişət xərclərindən artıq qalan gəlirdən

---

[517] "Ğənaimul-əyyam", 4/314.

[518] "Riyazul-məsail", 3/291.

[519] "Kitabul-xüms", səh.71.

xümsün çıxarılmasının vacib olduğuna, bu barədə icmanın və ya məşhur rəyin varlığına açıq şəkildə dəlalət edir.

* * *

**Müəllif iddia edir: "Xümsün istifadəsinin şiələrə icazəli olduğuna dair fətvalar qeyd etdiyimiz fəqih və müctəhidlərin fətvaları ilə məhdudlaşmır. Əsrlər boyu onların sayı qat-qat çox olub. Lakin biz hər əsrdən xümsün vacib olmadığını söyləyən bir fəqihin fətvasını təqdim etdik ki, bir çox fəqihin müxtəlif dövrlərdə belə qənaətə gəldikləri aydın olsun. Çünki bunlar mövzu ilə bağlı ən doğru rəylərdir, dini mətnlərə və İmamların (ə) rəftarına uyğundur".**

**Cavab:** Nəql etdiklərimizdən qazancdan və illik gəlirdən artıq qalan hissədən xüms çıxarmağın vacib olduğu barədə alimlərimizin icma etdikləri aydın oldu. Biz onların sözlərini və icma ilə bağlı rəylərini təqdim etdik. Bu isə həqiqətin məlum olması, müəllifin bütün iddialarının yalan və iftiradan təşkil olduğunun, alimlərin sözlərində heç bir səhih və doğru nəqlə istinad etmədiyinin bəyanı üçün kifayətdir. Onun sözləri boş iddialardır və heç birini isbat edə bilməyir. Biz isə Allaha həmd olsun ki, Onun lütfü sayəsinə iddiaçı müəllifin yalan və iftiralarını sübuta yetirdik.

* * *

**Müəllif iddia edir: "Bizə şiə məzhəbinin iki ən elmli aliminin – Şeyx Müfid və Şeyx Tusinin sözlərini əsas götürmək kifayətdir. Şeyx Müfid deyir:**

**"Əshabımızdan bir dəstəsi qeyb dövründə bu (xüms) barədə ixtilaf etmişlər. Onlardan hər biri bu deyilən nəticəyə gəlmişlər. (Sonra onları bir-bir sadalayır.) Onlardan:**

**- Bəziləri rəvayətlərdə xümsdən azad edildiyinə dair xəbərlərə əsasən, İmam[520] qeybdə olduğuna görə ödənilməli olmadığını söyləmişdir. Bəziləri isə onun dəfinə şəklində saxlanmasını (yəni dəfn edilməsini) vacib hesab edirlər. Bunda İmam zühur etdikdə yer özündə olan bütün xəzinələri çölə çıxaracağı ilə**

---

[520] Müəllif burada qeyd yazaraq deyir: "İmam (ə) qeybdə olduğu dövrdə kimə verilməlidir ki?!"

**bağlı nəql edilən rəvayətə istinad ediblər. Belə ki, zühurdan sonra Allah gizlədilən yerləri ona göstərəcək və o, hər bir yerdən onları toplayacaq".**

**Bundan sonra o, həmin rəylərdən biri seçərək deyir: "Xüms xümsün sahibinə verilmək üçün ayrılır (yəni Mehdiyə). Əgər bir şəxs zühur anınadək yaşamayacağını görsə, onu ağlına və dindarlığına əmin olduğu bir şəxsə vəsiyyət etməlidir ki, o da həmin məbləği İmam çatdırsın. Həmin şəxs də zühurdan öncə dünyadan köçdükdə belə bir şəxsə vəsiyyət eləməlidir. Ta İmam zühur edənədək beləcə davam etməlidir".**

**Deyir: "Nəzərimə görə, bu söz digərlərindən daha aydındır. Çünki xüms qaib olan şəxsin haqqıdır, qeyb olduqdan sonra hansı formada ona çatdırılması barədə heç bir qayda qoymayıb".**

**Sonra deyir: "Bu, zəkatın müstəhəqlərə çatdırılması hökmündədir. Tələb edənlər olmadıqda zəkat öhdədən düşməz".**

**Deyir: "Əgər bir şəxs bizim qeyd etdiyimiz kimi, xümsün yarısının İmama (ə) məxsus olduğu, ikinci yarının da Quranda qeyd edildiyi kimi, Muhəmmədin ailəsinin yetimlərinə, yolda qalmışlarına və yoxsullarına verməli olduğu qənaətinə gəlibsə...".**

**Sonra deyir: "Bunu yerinə yetirən şəxsin haqqa müvafiq rəftar etdiyi heç də uzaq fikir deyildir, əksinə, elə düzü də budur. Əshabımız bu mövzuda ixtilaf etmişdir (bax: "əl-Muqniə", səh.46)".**

**Cavab:** Şeyx Müfiddən nəql etdiyi sözlər düzgündür.[521] Onun xüms barədə rəyi belə olub. Qısacası budur ki, o, qazancın və illik yaşayış xərclərinin artığının xümsünün çıxarılmalı olduğunu, yarısının yetimlərə, yoxsullara və yolda qalmışlara ödənilməsini, digər yarısının isə İmama (ə) çatdırılmasını, ancaq İmamın (ə) payının zühuradək saxlamağı, xüms çıxaran şəxs ölüm yatağında olarkən onu İmama (ə) təhvil vermək üçün əmanətdar bir şəxsə vəsiyyət etməyi vacib sayırdı.

Müəllifin Şeyx Müfiddən nəql etdiyi bu sözlər qeyb dövründə xümsün ödənilməsinin vacibliyinə və bağışlanmadığına açıq dəlalət edir. Bunu Şeyx Müfidin

---

[521] "əl-Muqniə" kitabında (səh.285) həmin sözləri təfsilatı ilə oxuya bilərsiniz.

(r.ə) özü də qeyd edir. Belə ki, xümsün halal və icazəli olduğuna dair rəvayətləri nəql etdikdən sonra onun ödənməli olduğunu qeyd edən hədisləri sadalayaraq ardınca deyir: "Allah səni doğruya istiqamətləndirsin, bil ki, bu fəsildə xümsün halal və istifadəyə icazəli olduğuna dair təqdim etdiyim rəvayətlər məxsusi olaraq nikah məsələilə bağlıdır ki, şiələr dünyaya pak doğulsunlar. Belə ki, qeyd etdiyimiz həmin rəvayətlərdə də İmamlar (ə) bunu vurğulayırlar. Lakin mal-dövlət barədə belə bir icazə yoxdur. Xümsün ödənilməsinin vacibliyini və məsələ ilə bağlı sərt xəbərdarlıqları ehtiva edən sonuncu təqdim etdiyim rəvayətlər[522] məhz mal-dövlətə aiddir".[523]

Bu da Şeyx Müfidin (r.ə) rəyi. Onun rəyi iddiaçı müəllifin lehinə deyil, əleyhinədir!

* * *

**Müəllif iddia edir: "Nəcəf elmi hövzəsinin təsisçisi və ilk rəhbəri Şeyx Tusi (vəfatı h.q. 460) xümsün hökmlərini qeyd etdikdən sonra deyir: "Bu, İmam zahir olduqda belədir".[524]**

**Sonra yazır: "Ancaq qeybdə olduğu zaman nikah, alış-veriş və məskənlə bağlı məsələlərdə xümsdən istifadə etməyə şiələrinə izn veriblər. Bundan savayı məsələlərdə isə xümsdən istifadə etmək heç bir halda icazəli deyildir. Qeyb dövründə xəzinə və s. kimi mənfəətlərin onlara məxsus olan xümsünə gəldikdə, bu barədə əshabımızdan bir dəstəsi fərqli fikirlər söyləmişlər. Bu barədə**

---

[522] Yəni, halal və icazəli olduğuna dair nəql etdiyim rəvayətlərdən sonra onun ödənilməsinin vacibliyi və sərt təhdidləri ehtiva edən sonuncu rəvayətlər.

[523] "əl-Muqniə", səh.285.

[524] Müəllif burada kitabında bir haşiyə qeyd edir: **"İmam mövcud olarkən bir, qeybdə olarkən isə başqa hökm olur!"**

**Cavab:** Şeyxin "əl-Məbsut" kitabındakı (1/263) sözləri xüms deyil, döyüş qənimətləri barədədir. Həmin kitaba baxa bilərsiniz. Bundan əlavə, İmamın hazır və ya qaib olması xümsün vacibliyinə heç bir təsir göstərmir. Məsələ yalnız qeybdə olduğu zaman xümsün necə xərclənməsi ilə bağlıdır.

**müəyyən bir mətn yoxdur.**[525] **Ancaq onların (yəni şiə fəqihlərinin) hər biri ehtiyata riayət olunması barədə qərar veriblər".**

**Cavab:** Müəllif Şeyx Tusinin (r.ə) sözlərinin mənbəyini qeyd etməsə də, bildirək ki, bu sözləri "əl-Məbsut" və "ən-Nihayə" kitabındandır. Oradakı mətn belədir:

"Ancaq qeybdə olduğu zaman xümslə əlaqəsi olan nikah, alış-veriş, məskən və s. labüd ehtiyaclarla bağlı məsələlərdə xümsdən istifadə etməyə şiələrinə izn veriblər. Bundan savayı məsələlərdə isə xümsdən istifadə etmək heç bir halda icazəli deyildir. Qeyb dövründə xəzinə, mədən və s. kimi mənfəətlərin onlara məxsus olan xümsünə gəldikdə, şiələrin fikirləri bu barədə fərqli olmuşdur. Bu barədə müəyyən bir dini mətn yoxdur. Bəziləri deyiblər: "Qeybdə olduğu zaman xüms bizim üçün icazəli qərar verdikləri nikah, alış-veriş və məskəndən istifadə hökmündədir". **Halbuki buna uyğun davranmaq icazəli deyildir. Çünki bu, ehtiyata ziddir. Başqasının malını onun icazəsi olmadan xərcləmək qəti şəkildə qəbuledilməzdir.** Bir dəstə isə demişdir: "İnsan yaşadığı müddətdə xümsü saxlamalıdır. Ölüm anı yetişdikdə isə inandığı qardaşlarından birinə vəsiyyət etməlidir ki, İmam (ə) zühur etdikdə ona çatdırsın. Həmin şəxs də İmamın (ə) zühurunu görməsə, eynilə başqasına vəsiyyət etməlidir". Bir dəstə alim isə demişdir: "Dəfn edilməsi vacibdir. Çünki Qaimin zühuru vaxtı torpaq özündə olan xəzinələri yer üzünə çıxaracaq". Başqa bir dəstə alim demişdir: "Xümsü altı hissəyə bölmək vacibdir. Onlardan üçü İmamındır. Ya dəfn edilməli, ya da əmanətdar bir şəxsə vəsiyyət edilərək verilməlidir. Digər üç qismi isə Muhəmməd ailəsinin yetimləri, yoxsulları və yolda qalmışları arasında bölünməlidir. Belə ki, onlar həmin payın müstəhəqləri və qaib olmayan şəxslərdir.

---

[525] Müəllif bu yerdə də haşiyə qeyd edir: **"Müəyyən bir mətn yoxdur" sözü düşündürücüdür. Halbuki qeyb dövründə olduğu dövrdə xümsün şiələrə halal edildiyinə dair çox sayda rəvayət vardır ki, onlardan bir hissəsini biz də əvvəldə qeyd etdik".**

**Cavab:** Şeyx Tusinin məqsədi qeyb dövründə xümsün vacibliyinə deyil, xümsün necə xərclənməli olduğuna dair ayə, hədis və rəvayətin olmadığı barədədir.

**Məhz buna da əməl olunmalıdır.** Çünki xümsün müstəhəqləri aramızda mövcuddurlar, lakin xümsü almağa və bunu onların arasında bölməyə məmur olan İmam isə qaibdir. Bu, sanki zəkat kimidir ki, müstəhəqlər arasında bölünməsi icazəlidir. Həmçinin xümsü almağa haqqı çatan İmam (ə) aramızda zahirən olmadıqda xüms də bölünməlidir. Bunda heç bir ixtilaf yoxdur. Necə ki, bu, sədəqə toplayanlar olmadığı təqdirdə zəkat bəhsində qeyd edilmişdi. Bir şəxsin dəfn və ya vəsiyyət kimi rəylərə əməl etməsinin eybi yoxdur. Lakin birinci rəyə heç bir halda əməl oluna bilməz".[526]

Bu, Şeyx Tusinin (r.ə) söylədiyi fikirlərin tam mətnidir. Şeyx Tusinin sözlərini müəllifin necə təhrif etdiyini və söyləmədiyi sözləri ona necə nisbət verdiyini möhtərəm oxucunun görməsi üçün bütünlüklə, ixtisarsız nəql etdik. İnşallah, qarşıda daha artıq bəyan ediləcək.

* * *

**Müəllif iddia edir: "Sonra Tusi həmin fikirləri dörd qismə bölür:**

**1. Bəziləri deyiblər: "Qeybdə olduğu zaman (yəni İmam qaib və ya gözlərdən gizli olduqda) xümsü bizim üçün icazəli qərar verdikləri nikah, alış-veriş və məskəndən istifadə ilə eyni hökmdədir". Bu, ən doğru fikirdir. Çünki İmamlardan nəql edilən rəvayətlərə uyğundur. Əksər fəqihlər də bu fikirdə olmuşlar.**

**2. Bir dəstəsi isə bu məsələdə ehtiyata əməl edilməli, yaxud insan yaşadığı müddətdə xümsü saxlamalı olduğunu bildirmişdir. Ölüm anı yetişdikdə isə inandığı qardaşlarından birinə vəsiyyət etməlidir ki, İmam (ə) zühur etdikdə ona çatdırsın. Həmin şəxs də İmamın (ə) zühurunu görməsə, eynilə başqasına vəsiyyət etməlidir".**

**3. Bir dəstə alim isə demişdir: "Dəfn edilməsi vacibdir. Çünki Qaimin zühuru vaxtı torpaq özündə olan xəzinələri yer üzünə çıxaracaq".**

---

[526] "əl-Məbsut", 1/263; "ən-Nihayə", səh.200.

**4. Bir dəstə başqa alim demişdir: “Xümsü altı hissəyə bölmək vacibdir. Onlardan üçü İmamındır. Ya dəfn edilməli, ya da əmanətdar bir şəxsə vəsiyyət edilərək verilməlidir”. Tusi də bu rəyi seçmişdir.**

**Digər üç qismi isə Muhəmməd ailəsinin yetimləri, yoxsulları və yolda qalmışları arasında bölünməlidir. Belə ki, onlar həmin payın müstəhəqləri və qaib olmayan şəxslərdir. Məhz buna da əməl olunmalıdır”.**

**Bu söz Şeyx Müfidin xümsü zəkatla müqayisə etdiyi fətvasına uyğundur.**

**Sonra deyir: “Əgər insan ehtiyata uyğun davranıb dəfn və ya vəsiyyətlə bağlı rəylərdən birinə əməl etsə, günahkar deyildir”. Az düzəlişlə, sitatın sonu!”**

**Cavab:** Şeyx Tusinin (r.ə) sözlərindən onun birinci – xümsün şiələrə halal edildiyinə dair fikirlərlə razı olmadığı aydın görünür. Belə ki, deyir: “Halbuki buna uyğun davranmaq icazəli deyildir. Çünki bu, ehtiyata ziddir. Başqasının malını onun icazəsi olmadan xərcləmək qəti şəkildə qəbuledilməzdir”.

Halbuki müəllif sözləri Şeyx Tusidən nəql etdiyini iddia etsə də oxucuda Şeyxin belə dediyi təəssüratını yaratmağa çalışıb: **“Bu, ən doğru fikirdir. Çünki İmamlardan nəql edilən rəvayətlərə uyğundur. Əksər fəqihlər də bu fikirdə olmuşlar”.** Bu fikirlər müəllifin özünündür.

Bu fakt da, əvvəlkilər kimi, müəllifin gətirdiyi sitatlarda əmanətdar və özünün doğru danışan olmadığına aydın dəlalət edir. Belə ki, o, mətnləri saxtalaşdırır, sözləri təhrif edir, yalan uydurur və iftira atır. Bu, əsla haqq axtaran bir şəxsin üslubu deyildir.

* * *

**Müəllif iddia edir: “Şeyx Tusi qeyb dövründə xümsdən istifadəni təqdim etdiyimiz bu dörd fikirdə sadaladı, onların arasından dördüncü rəyi seçdi[527] və insanın bu dörd rəydən hər hansı birinə uyğun əməl etdiyi təqdirdə günahkar olmayacağını bildirdi”.**

**Cavab:** Qeyd etdiyimiz kimi, Şeyx Tusi birinci rəyə uyğun əməl etməyi icazəli bilmir. Belə ki, dördüncü rəyi seçdikdən sonra deyir: “Bir şəxsin dəfn və ya vəsiyyət

---

[527] Müəllif burada haşiyə qeyd edir: **“Bu isə fəqihlərinin çoxunun rəyidir”.**

kimi o iki rəylərə əməl etməsinin eybi yoxdur. Lakin birinci rəyə heç bir halda əməl oluna bilməz".

Buna baxmayaraq müəllif Şeyxin sözlərini təhrif etmiş, aralarında birinci rəyin də olduğu dörd rəydən hər birinə əməl etməyin icazəli olduğu fikrini ona nisbət vermişdir. Belə ki, birinci rəy İmamın hazır və ya qaib olduğu dövrlərdə xümsün istifadəsinin icazəli olması idi.

İddiasına görə, şiə məzhəbindən üz döndərib özünün belə yalan, iftira və təhriflərinə əsaslanaraq əhli-sünnə məzhəbini seçmiş belə kəsə afərin! Böyük günahlar və rəzilliklər yolunu tutub əhli-sünnə ardıcılına çevrilmiş belə bir kəs onlara da "mübarəkdir"!

* * *

**Müəllif iddia edir: "Biz bu dörd fikri mülahizə etdikdə görürük ki, bəzi cəhətlərdən fərqli mövqelər olsa da, lakin bir cəhətdən yekdil fikir vardır ki, biz də məhz onu bəyan edirik. Həmin mövqe qaib imamın və ya başqa birisinin haqqı olan bu malların (yəni xümsün) seyidlərə və müctəhidlərə sərf olunmamasıdır.**

**Təqdim edilən bu dörd fikir ətrafında xümsün xərclənməsi cəhətindən ixtilaf olsa da, lakin xümsü, yaxud onun bir hissəsini seyidlərə və ya müctəhidlərə verilməsinin vacibliyinə, yaxud icazəli olduğuna açıq-aydın kəlmələr bir kənara dursun, heç işarə belə yoxdur".**

**Cavab:** Xümsün yarı hissəsinin Muhəmməd ailəsindən olan yetimlərə, yoxsullara və yolda qalmışlara xərclənməsi, məhz seyidlərə xərclənməsidir. Çünki seyidlər Peyğəmbərə (s) nisbət verilən şəxslərdir, qeyd edildiyi kimi, xümsün yarı hissəsi onlara məxsusdur. Müəllif bundan daha aydın "işarə" istəyir?!

Ancaq deyəsən, yalan və haqsızlıqla seyid olduğunu iddia edən bu müəllif "seyid" sözünün düzgün mənasını bilmir. Bəlkə də, əvvəldə vurğuladığımız kimi, o, "seyid" dedikdə şiələrin məqsədlərinin din alimi olduğunu zənn edir. Buna görə də hər alimə "seyid" ünvanı ilə xitab edir. Onun nəzərində hər alim seyiddir. Bu səbəbdən hər addımında xətaya yol verir, şeyxləri seyid deyə təqdim edir, öz yanlışı və savadsızlığı ucbatından öz lüğətindən "şeyx" sözünü çıxarmış olur. Bu, bütün

açıqlığı ilə onun əvvəlki sözlərində də özünü büruzə verirdi. Ancaq buradakı sözləri məqsədini aydın şəkildə ortaya qoydu.

Özünü Peyğəmbərə (s) nisbət verən və üzərinə “Seyid Həsən Musəvi” adını götürən bir kəsin seyidin hansı məna daşıdığını bilməməsi düşünülə bilərmi?! Məgər o, seyidlərin Peyğəmbər (s) nəsli olduğunu bilmirmi?!

Xülasə, Şeyx və digərləri xümsün yarı hissəsinin seyid olan yetimlərə, yoxsullara və yolda qalmışlara verilməli olduğunu özlərinin yazılmış sözlərində açıq şəkildə bəyan ediblər. Onların bu fikirlərini əvvəldə qeyd etdik.

“Cəvahir” kitabının müəllifi Şeyxin Nəcəfinin (r.ə) məsələ ilə bağlı sözlərini burada qeyd etməyin heç bir eybi olmaz. O, deyir: “Xümsün yarısının müstəhəqlərinə[528] sərf edilməli, İmama (ə) aid olan hissənin isə vəsiyyət və ya dəfn edilməli olduğu deyilmişdir. Bu, icma olmasa da, birinci hissə[529] baxımından olduqca yaxşıdır, qədim və müasir alimlərimiz arasında nəql olunan və nəticə cəhətdən məşhur rəyə uyğundur. Həmçinin xümsün halal edildiyinə dair rəvayətlərin qüsurlu olduğu bilindiyi üçün üsula, Qurana və sünnəyə də müvafiqdir. Həmin rəvayətləri, əshabımızın da qeyd etdikləri kimi, nikaha və digər qisimlərə aid etmək lazımdır”.[530]

Müəllifin (r.ə) sözləri aydın şəkildə xümsün yarı hissəsinin seyidlərə xərclənməli olduğu barədədir. Bu rəyin icma olmasa da, qədim və müasir alimlərimiz arasında məşhur olduğunu qeyd edir.

Bəs iddiaçı müəllif xümsün seyidlərə ödənilməli olmadığına dair alimlərin icması olduğunu iddia edirdi?!

Xümsün müctəhidlərə verilməsini isə bir neçə məsələ ilə izah etmək olar:

1. İmamın (ə) payı olan xümsün ikinci yarısının ədalətli, əmanətdar və fətva üçün şərtləri özündə cəmləşdirən bir fəqihə verilməsi barədə bir dəstə alimin nəzərini sizə təqdim etdik.

---

[528] Bunlar möhtərəm seyidlərin yetimləri, yoxsulları və yolda qalmış şəxsləridir.

[529] Yəni xümsün bir hissəsinin seyidlərə xərclənməsi baxımından.

[530] “Cəvahirul-kəlam”, 16/168.

Bunun səbəbi, həmin alimlərin (Allah onlardan dünyadan köçənlərə rəhmət, qalanlarını isə hifz eləsin!) bu iş üçün daha əmin və hansı yerlərdə xərclənməyin daha məsləhətli olduğunu bilən şəxslər olmasıdır.

2. İmamın (ə) qeybdə olduğu dövrdə onun xüms payının xərclənməsi ictihadi məsələdir, fəqih və müctəhidlərin rəylərinə açıqdır.

Əgər Şeyx Tusinin zamanında həmin rəylərin sayı dörd idisə, bu, ondan sonrakı dövrlərdə yeni rəylərin ortaya çıxmasının qarşısını almır.

"Cəvahirul-kəlam" kitabının müəllifinin sözlərini sizə nəql etdik. O, öz sözlərində xümsün qaib İmamın (ə) razılığını cəlb edən yerlərdə xərclənməli olduğunun vacibliyini vurğulayır, dəfn edilməsinin xümsün tələf olmasına gətirib çıxaracağını bildirir, həmçinin vəsiyyət edilməsinin də sonda məbləğin və ya malın tələf olmasına yol açacağını qeyd edirdi. Bu iki rəyin hər ikisini icazəli bilmirdi. Nəticədə qeyd etdiyimiz fikri üstün tutur. Həmin fikir isə sonrakı alimlərin həmfikir olduqları rəydir. Çünki rəylərin ən doğrusu və ən üstündür.

Mühəqqiq Xoi deyir: "İmamın (ə) payı ilə necə davranmaq barədə fikirlər çoxdur. Onların çoxunun zəif fikir olduğu da aşkardır. Hətta onların müzakirə qabiliyyətləri də yoxdur. Məsələn, İmam (ə) zühur edəndə qazıb çıxarması üçün onun payının dəfn edilməsinin vacibliyi, yaxud zühuradək saxlanılması, ölüm yaxınlaşdıqda ona çatdırılması üçün vəsiyyət edilməsinin vacibliyi, yaxud suya atılması və s. bu kimi malın tələf olmasına və aradan getməsinə gətirib çıxaracaq fikirlər. Xüsusilə də qızıl və gümüş olmayan kağız pulların tələf olacağı qətidir. Onları necə qoruyub saxlamaq və zühuru zamanı İmama (ə) təhvil vermək mümkündür? Belə saxlanmaqla onların məbləği milyonları ötər, ya əskinazların dəyişməsilə lazımsız kağız parçasına çevrilər və ya zalım hakimiyyətlərin əlinə düşməklə xərclənib aradan gedər. Nəticədə aqibəti də ağır olar. Xüms bəhsinin sonunda qeyd edəcəyimiz - xümsün öhdəlikdən götürülmədiyinə və istifadəsinin icazəli olmadığına əsasən, bu kimi fikirlərin arasında yalnız ikisi müzakirəyə layiqdir".

Bunlardan birincisini qeyd etdikdən sonra ikinci barədə deyir:

“İkinci: İmamın (ə) razılığının olduğuna qəti əminlik, yaxud xatircəmlik hasil olan yerlədə xərcləmək. Belə ki, həmin yöndə xərclənməsi onu razı salsın. Məsələn cəmiyyətin mənfəəti, dinin və şəriətin möhkəmlənməsi, hökmlərin yayılması, dövrümüzdə ən düzgün cəhətlərdən olan – İslam bayrağının ucaldılması, elmi hövzələrin idarəçiliyi, dini elm tələbələrinin yaşayış xərclərinin təmin edilməsi istiqamətində xərclənsin. Doğru olan da budur”.[531]

3. Pak ailəyə mənsub olan bir çox alim və tələbə xümsün üç payından birini almağa və onu xərcləməyə müstəhəqdir. Səbəb isə onların ehtiyaclı fəqirlər olmasıdır. Belə ki, onlar özlərini elm öyrənməyə həsr (nəzr) etmiş, ömürlərini Muhəmməd itrətinin (ə) fiqhinin təlim və tədrisinə sərf etmişlər. Onların qazanc əldə etmək üçün başqa bir sənətləri, yaşayışlarını təmin etmək üçün də mal-dövlətləri yoxdur.

Hal belə olduqda, mükəlləf şəxs öz xümsünü onlara verə bilər və onlar da həmin məbləği öz ehtiyaclarına xərcləyə bilərlər.

Peyğəmbərlər ağasının (s) şəriətinin qoruyucuları və din mərcələri olan bəzi alimlərin müəyyən günlərdə yemək almaq üçün pullarının olmadığının şahidi olmuşam. Onların xümsdən özlərinə düşən payı götürdüklərini, sonra isə seyid olmayan möhtac tələbələrə bağışladıqlarını da bilirəm.

* * *

**Müəllif iddia edir: “Şeyx Tusinin seçdiyi dördüncü rəy o dövrdə şiələrin həmfikir olduqları rəydir. Tusinin elmi hövzə təsisçisi və tayfanın şeyxi olduğu isə gizli deyildir.**

**Görəsən, Şeyx, onunla eyni zamanda, ondan öncə və ondan sonra yaşamış alimlər xəta etmişlər?”**

**Cavab:** Əgər dördüncü rəy şiələrin icra etdikləri və həmfikir olduqları rəydirsə, bəs nə üçün müəllif əvvəldə şiə alimlərinin hamısının, yaxud onların böyük bir hissəsinin İmamın (ə) hazır və ya qaib olduğu dövrlərdə xümsün halal olduğunu söylədiklərini iddia edirdi?

---

[531] “Mustənədul-urvətil-vusqa”, (“Xüms” fəsli), səh.325.

Əgər onlar xümsün İmama (ə) çatdırılması üçün vəsiyyət edilməsini vacib bilirdilərsə, bu, onların şiələrin xüms ödəməkdən azad edilmədiyi və ödəməyin vacibliyi barədə fikirlərə sahib olduqlarını təsdiqləyir. Onun saxtakarlığını ifşa edən və oxucu üçün sözündəki ziddiyyətləri aşkara çıxaran Allaha həmd olsun!

Onun **“Görəsən, Şeyx, onunla eyni zamanda, ondan öncə və ondan sonra yaşamış alimlər xəta etmişlər?”** sözünə gəldikdə, bu məsələ ilə əlaqədar sonrakı alimlərin özlərindən əvvəlki alimlərdən fərqli fikrə sahib olması əvvəlkilərin xətalı olduğu mənasını daşımaz. Belə ki, fəqih şəxs səhih dəlilə tabe olmalı və onunla kifayətlənməlidir. Ola bilsin ki, bir səhih dəlil öncəki alimlərin əlinə yetişmiş, sonrakıları alimlərə isə çatmamışdır. Vacib olan fəqihin əlinə yetişən və mötəbər höccət sayılacaq dəlilə uyğun rəftar etməsidir. Keçmiş alimlərin nəzərində ta həmin şöhrət şəri hökm üçün məlumat xarakteri daşımadıqca, rəyin məşhurluğu tabe olunması vacib sayılan səhih dəlil deyildi. Halbuki bəzi qədim alimlərin məşhur hökmləri İmamlardan (ə) əlbəəl aldıqları və bir-birinə ötürdükləri də məlumdur.

Əgər sonrakı alimlərin keçmişdəkilərin xilafına rəy bildirmələrinin öncəkilərin xəta etdiklərinə dəlalət etdiyini qəbul etsək belə, ictihadi və fiqhi fətvalar mövzusunda xəta etməyin heç bir eybi yoxdur. Bu baxımdan bir çox sonrakı alimlər özlərindən öncəki alimlərin fikirlərinə müxalif olmuş, öncəkilərin əsaslandıqları dəlillərin yetərli olmadığı qənaətinə gəlmişlər. Məlum olduğu kimi, bu fakt onların heç də azmış və ya günahkar olduqları nəticəsinə gəlməyi tələb etmir. Çünki həm əhli-sünnədən, həm də şiələrdən olan müsəlman alimləri bir çox şəri məsələlər barədə öz aralarında ixtilaf etmişlər və heç biri müxalif tərəfin azdığına hökm verməmişdir.

* * *

**Müəllif iddia edir: “Bu, Nəcəf elmi hövzəsinin ilk rəhbərinin fətvası idi.**

**İndi isə gəlin, həmin elmi hövzənin sonrakı rəhbəri mərhum Əbul-Qasim Xoinun fətvasına nəzər salaq ki, hövzənin birinci rəhbərinin fətvası ilə digər rəhbərinin fətvası arasındakı fərq bizə aydın olsun.**

**İmam Xoi xümsün müstəhəqləri və onun xərclənmə yerləri barədə deyir: “İmamın qeybdə olduğu indiki zamanda xüms iki hissəyə ayrılır. Onlardan biri intizarla yolu gözlənilən, əsrin imamı Höccətin (ə.f) (ruhumuz ona fəda olsun!),**

**digər yarısı isə Haşimi oğullarının yetimləri, yoxsulları və yolda qalmışlarınındır...”.**

**Sonra deyir: “İmama (ona və ata-babalarına ən üstün salam və salavat olsun!) məxsus olan hissə qeybdə olduğu dövrdə onun naibinə verilir. Naib əmanətdar, xümsün hara xərclənməli olduğunu yaxşı bilən fəqihdir. Xüms ya birbaşa ona ödənməli, ya da ondan icazə alınmaqla xərclənməlidir...” (Bax: “Ziyaus-salihin” (!), 1259-cu məsələ, səh.347)”.**

**Cavab:** Müəllifin iddialarına bir neçə cəhətdən irad vardır:

1. Şeyx Tusi ilə Seyid Xoi xümsün müstəhəqlərinin kimliyi və onun iki hissəyə ayrılmalı olduğu barədə həmfikirdirlər. Lakin İmam qeybdə olduğu dövrdə ona məxsus olan hissənin necə xərclənməli olduğu barədə fərqli fikirlərdə olmuşlar.

Şeyx Tusinin, Şeyx Müfidin və digərlərinin ifadə etdikləri kimi, xümsün xərclənməsi məsələsinə dair heç bir ayə və ya hədis olmadığı üçün məsələ ilə bağlı fərqli fikirlərin mövcudluğu qəbulediləndir və bunda heç bir müşkül yoxdur.

2. Alimlərin fətvaları arasında fərqliliklərin olduğu inkaredilməzdir. Lakin bunun heç bir problemi yoxdur. Belə ki, dörd əhli-sünnə məzhəbinin imamlarının bir çox fiqhi məsələdə öz aralarında ixtilaf etdikləri məlum faktdır. Görəsən, bu müəllif onlardan birinin digərinin fətvasının xilafına hökm verməsini də qüsur sayırmı?

3. Əvvəldə “Cəvahir” kitabının müəllifinin (vəfatı h.q.1266) fətvasını nəql etdik. Həmin fətva Seyid Xoinin fətvası ilə eynilik təşkil edir. Ola bilsin ki, “Cəvahir” kitabının müəllifindən öncə də kimsə belə fətvanı vermiş olsun. Allah bilir!

4. Şeyx Ənsari (r.ə) bu irada belə cavab vermişdir:

“Məsələ ilə bağlı heç bir ayə və ya hədisin olmadığını Şeyx Müfidin və onunla həmfikir olanların etiraf etdiklərindən xəbərdaram. Həmçinin xümsün xərclənməsində əsas götürülən amil vəziyyətə şahidlik edən İmamın (ə) razılığıdır. Bu razılığa riayət etmək lazımdır. Onu pozmaq icazəli deyildir. Hökm də ibadətlə bağlı məsələ deyildir”.[532]

---

[532] “Təharət” fəsli, səh.522; “Xüms” fəsli, səh.339.

Oxucunun diqqətini bir fakta yönəltmək istərdik. İctihad və fəqihlik iddiaçısı olan məlum müəllif Seyid Xoinin "Minhacus-salihin" kitabı ilə Hacı Muhəmməd Saleh Cahərcinin "Ziyaus-salihin" kitablarını bir-birindən fərqləndirə bilmir, ikinci kitabı Seyid Xoiyə nisbət verir. Halbuki "Ziyaus-salihin" kitabı özündə dua və ziyarətnamələri ehtiva edir, birincidən tam fərqli olaraq hökm və fətvalar kitabı deyildir.

Bu isə adi tələbələr və fəqih alimlər bir kənara dursun, avam şiələrin belə yol vermədikləri bir yanlışdır.

Bu iki kitabı bir-birindən fərqləndirə bilməyən fəqihin nəyə nail ola biləcəyi çox düşündürücüdür!!!

* * *

**Müəllif iddia edir: "İmam Xoinin fətvası Şeyx Tusinin fətvasından fərqlənir. Şeyx Tusi xümsü və ya xümsün bir hissəsinin fəqih müctəhidə verməli olduğu barədə fikrə sahib deyil, öz dövründə yaşayan şiə alimlərinin nəzərinə uyğun hökm verir.**

**Ancaq mərhum İmam Xoinin xümsü və ya onun bir hissəsini fəqih və müctəhidə verilməli olduğu barədə fətva verdiyini görürük".**

**Cavab:** Şiə alimlərinin çoxu xümsün əmanətdar, fətva şərtlərini özündə toplamış fəqihə verilməli və müstəhəqlərə xərclənməli olduğuna dair hökm vermişlər. Onlardan bir neçəsinin fətvasını sizə təqdim edirik:

1. Əbu Səlah Hələbi (h.q. 374-447) özünün "əl-Kafi" kitabında deyir:

"Öhdəsində vacib zəkat, fitrə, xüms və ya qənimət olan şəxs üzərinə düşən hissəni ayırıb Uca Allah tərəfindən təyin edilmiş hakimə, yaxud onların toplanması üçün məmur etdiyi şəxsə verməlidir. Əgər bu ikisinə çatdırılması mümkün olmazsa, o zaman əmanətdar fəqihə, bu da mümkün olmazsa onun xərclənməsini öz üzərinə götürməlidir".[533]

---

533 "əl-Kafi fil-fiqh", səh.172.

Əbu Səlah Hələbi On iki imam şiələrinin ən böyük alimlərindən biridir. İmamın kiçik qeyb dövründən təqribən qırx beş il sonra doğulmuşdur.[534]

İbn Davud özünün "Rical" kitabında yazır: "Təqi ibn Nəcməddin Hələbi Əbu Səlah. Qədri uca şəxsdir, şiə şeyxlərinin alimlərindəndir. Şeyx Tusi öz "Rical"ında onun adını İmamlardan (ə) birbaşa rəvayət nəql etməyənlər sırasında qeyd edib. Şeyx deyir: "Bizdən və Mürtəzadan dərs almışdır. Halı məşhurdur".[535]

Xunsari "Rəvəzatul-cənnat" kitabında yazır: "Təqiyyəddin ibn Nəcm ibn Übeydullah Hələbi. İnanılan, fəzilətli şiədir. Hələbin məşhur fəqihlərindən olub. Ustad Şeyx Mürtəza tərəfindən Hələb şəhərinə təyin olunduğu və ya onun naibi olaraq orada dərs verdiyi üçün "Mürtəzanın xəlifəsi" kimi vəsf edilib... Bu məqam və dərəcəsi onun ucalığı üçün yetərlidir".[536]

Mühəddis Nuri "Xatimətul-müstədrək" kitabında yazır: "Təqiyyəddin (ibn) Nəcm ibn Übeydullah Hələbi, tanınmış fəqihdir, Şeyxut-Taifə Əbu Cəfər Tusinin Şam ölkəsindəki xəlifəsidir. "əl-Kafi fil-fiqh" kitabının müəllifidir. Bir çox kitablarda - "Şərhuz-zəxirə", "Təqribul-məarif" kitablarında fətvaları nəql olunub. Məclisi "əl-Bihar"da qarşısına çıxan bəzi məsələlərə dair onun sözlərini nəql etmişdir. Fəqihlər arasında təkcə Hələbi deyildikdə, məqsəd məhz odur".[537]

2. Qazi İbn Bərrac (vəfatı h.q.481) özünün "Muhəzzəbul-bari`" kitabında yazır:

"İmama (ə) məxsus olan hissəyə gəldikdə, heç bir insan həmin payın üzərində təsərrüf haqqına sahib deyildir. Həmin hissəni İmama (ə) çatdırması vacib olan şəxs onun (ə) rəyinə uyğun əməl etməlidir. Əgər İmam (ə) qeybdə olsa, xüms çıxarmalı olan şəxs onu bəyan etdiyimiz kimi, altı hissəyə ayırmalı, ondan üç hissəsini əvvəldə

---

534 Seyid Həsən Əmin "Ə`yanuş-şiə" kitabında yazır: "Əbu Səlah Təqi və ya Təqiyyəddin ibn Nəcm və ya Nəcməddin ibn Übeydullah ibn Abdullah ibn Muhəmməd Hələbi. 374-cü ildə Hələbdə dünyaya gəlmiş, 447-ci ildə elə orada vəfat etmişdir".

535 "Rical", İbn Davud, səh.58.

536 "Rəvəzatul-cənnat", 2/109.

537 "Xatimətul-müstədrək", 3/35.

qeyd edilən qruplara, İmama (ə) məxsus olan digər üç hissəsini isə həyatda olduğu müddətdə özündə saxlamalı, onun zühurunu gördükdə özünə təhvil verməlidir. Əgər zühurunadək yaşamasa, dininə və əmanətdarlığına etibarı olduğu bir şiə fəqihinə verməli və onu İmama (ə) təhvil verməsini vəsiyyət etməlidir. Əgər həmin fəqih də İmamın (ə) zühurunadək yaşamasa, o da başqasına vəsiyyət etməlidir”.[538]

İbn Bərrac Şeyx Əbdüləziz ibn Nəhrir ibn Əbdüləziz ibn Bərracdır. Künyəsi Əbul-Qasimdir. Seyid Mürtəzanın və Şeyx Tusinin şagirdi olub. O, On iki imam şiələrinin böyük alimlərindəndir. Hətta Şeyx Tusinin Şamdakı xəlifəsi idi. İyirmi və ya otuz il müddətində Trablusda hakim olduğuna görə “Qazi” ləqəbi verilmişdi”.[539]

Hürr Amili “Əməlul-amal” kitabında yazır: “Əshabımızın hörmətlisi və fəqihidir, Trablusda qazi olub, müəllifi olduğu kitablar vardır. Onlardan “əl-Muhəzzəb”, “əl-Mutəməd”, “ər-Rovzə”, “əl-Muqərrib”...”.[540]

Təfrişi “Nəqdur-rical” kitabında yazır: “Əbdüləziz ibn Nəhrir ibn Əbdüləziz, İbn Bərrac kimi tanınır. Künyəsi Əbul-Qasimdir. Mürtəzanın (r.ə) şagirdlərindəndir. Onun fiqh və əqidə mövzusunda “Məalimul-uləma” kitabı vardır. Qazli ləqəbli şiə fəqihidir. Trablusda qazi olmuşdu”.[541]

Xunsari “Rəvəzatul-cənnat” kitabında yazır: “Riyazul-uləma” kitabında bəzi fəzilətli şəxslərdən nəql olunur: “İbn Bərrac 429-cu ildən Mürtəza dünyadan köçənədək onun yanında tədris almışdır. Sonra Şeyx Tusidən dərs almış, 438-ci ildə Trablusa qayıtmışdır. 481-ci ildə cümə gecəsi, Şaban ayının 9-u vəfat etmişdir. Həmin vaxt yaşı səksəni ötmüşdü. Misirdə doğulmuşdu, kökü də oradandır”.[542]

---

538 “əl-Muhəzzəbul-bari`”, 1/180.

539 “Fehrist muntəcəbud-din” (tərcüməsi), səh.74; “Məalimul-üləma”, səh.115; “Camiur-ruvat”, 1/460; “Fəvaidur-ricaliyyə”, 3/60; “Lu`luətul-bəhreyn”, səh.331; “Tənqihul-məqal”, 2/156; “Ə`yanuş-şiə”, 8/18; “Xatiməsul-müstədrək”, 3/36; “əl-Ə`lam”, 4/15; “əl-Kuna vəl-əlqab”, 1/224.

540 “Əməlul-amal”, 2/152.

541 “Nəqdur-rical”, 3/67.

542 “Rəvəzatul-cənnat”, 4/199.

3. Mühəqqiq Hilli (h.q.676) özünün “əl-Mu`təbər” kitabında yazır:

“Şeyx Müfid “Risalətul-ğəriyyə” kitabında deyir: “İmam (ə) aramızdan ayrıldıqdan sonra insanın öhdəsinə vacib olan xüms Əbu Talib övladlarının payı olaraq Muhəmməd ailəsinin yetimlərinə, yoxsullarına və yolda qalmışlarına verilməlidir. Belə ki, əhli-sünnə onların haqqını verməkdən imtina etmişdir. Həmçinin hidayət İmamlarının (ə) rəvayətlərində həmin vaxt xümsə müstəhəqq olan yaxınlarından yetim, yoxsul və yolda qalmışlara verilməli olduğu qeyd edilir.

Şeyx Müfidin (r.ə) qeyd etdikləri yaxşı (həsən) fikirdir, belə ki, biz də əvvəldə onlardan ehtiyaclı olan şəxslərin payının tamamlanmasının vacibliyi barədə rəyimizi söylədik. Əgər İmam (ə) aramızda mövcud olarkən onların payını kamil şəkildə ödəyirdisə, qeybdə olduğu zaman da həmin pay ödənməlidir. Çünki Allahın vacib olan haqqı onun təmsilçi qaib olduqda insanın öhdəsindən götürülməz. Ancaq həmin hissənin paylanması işini hökm verməkdə onun naibi olan şəxs öz üzərinə götürməlidir. Bu şəxs Əhli-Beyt fəqihlərindən olan əmanətdar fiqh alimidir”.[543]

4. Əllamə Hilli “Muxtələfuş-şiə” kitabında yazır:

“Məxsusi olaraq vacib haqqın aid olduğu şəxs qaib olduqda bu haqq öhdədən götürülməz. Xüsusən də haqq əgər Allahındırsa, əsla götürülməz. Buna əsasən, İmama (ə) düşən hissənin seyidlərin ehtiyacları üçün bölünməsində ixtiyar qaib olan şəxs tərəfindən hökmü olan şəxsin əlindədir. Çünki həmin anda o haqqı bərqərar etmək üçün hökm vermək səlahiyyətindədir. Bu şəxs əmanətdar, fətva və hökm vermək şərtlərini özündə toplayan fəqihdir. Ondan başqası bunu öz ixtiyarına götürsə, götürdüyü miqdarı ona qaytarmağa zamindir”.[544]

5. Şəhid Əvvəl (h.q.734-786) “əl-Bəyan” kitabında deyir:

“Malikin zəkatı özü verməsi icazəlidir. Ancaq xüsusilə də əldə olan malları imama verməsi, daha yaxşıdır. Şeyx Müfid və Əbu Səlah deyirlər: “İmama və ya naibinə aparması vacibdir, qaib olduqda isə əmanətdar fəqihə verilməlidir”. Əbu

---

[543] “əl-Mu`təbər”, 2/641.

[544] “Muxtələfuş-şiə”, 3/354.

Səlah bunu xüms barədə söyləyib. Daha doğrusu isə bütün vergilərdə buna riayət etmək müstəhəbdir”.[545]

6. Seyid Muhəmməd Əli Amili (vəfatı h.q.1009) “Mədarikul-əhkam” kitabında deyir:

“Müəllifin və ondan sonrakıların gəldiyi qənaət bütün malın ehtiyaclı seyidlərə paylanmasıdır. Ancaq yarı hissəsinin məhz onların haqqı olduğu aydındır. İmama (ə) aid olan hissəyə gəldikdə, müəllifin də fikrinə görə, İmam (ə) zahir olduqda ehtiyacları tamamlamaq üçün ona verilməsi vacibdir. Əgər mövcud olduğu vaxt bu lazımdırsa, həmçinin qaib olduqda da lazımdır. Çünki bir kəsin haqqı qaib olduğu zaman aradan getməz. Bunun paylanması ixtiyarını ondan ümumi icazəsi olan şəxs öhdəsinə götürər. Həmin şəxs Əhli-Beyt fəqihlərindən olan əmanətdar fiqh alimidir”.[546]

Xümsün əmanətdar, fətva şərtlərini özündə cəmləmiş fəqihə verilməsinə dəlalət edən digər alimlərin rəyləri də vardır. Xüms düzgün yerlərə xərclənməsi üçün onlara verilməlidir. Çünki onlar haraya xərclənməli olduğunu digərlərindən daha yaxşı bilirlər.

Zəkatın da xərclənməsi üçün fəqihlərə verilməsinin vacib olduğuna dair də onların fətvaları olduqca çoxdur. Xüms barədə fikirlərini bildikdən sonra onları burada sadalamağa ehtiyac görmürük.

Buradan anlaşılır ki, Seyid Xoinin (r.ə) xümsün fətva şərtlərini özündə toplamış fəqihə verilməsinin vacibliyinə dair gəldiyi nəticədən öncə də qədim və sonrakı şiə alimləri həmin fətvanı vermişlər.

---

[545] “əl-Bəyan”, səh.200.

[546] “Mədarikul-əhkam”, 5/426.

**Şeyx Əli Ali Muhsin**

# Lilləh və lil-həqiqə

## “Allah və həqiqət naminə”

**(“Allah, sonra da tarix naminə”kitabına rədiyyə)**

## II cild

Bismillahir-Rəhmanir-Rəhim

Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd

## Allah və həqiqət naminə (İkinci cild)

(“Allah, sonra da tarix naminə” kitabına cavab)

### Xüms məsələsində nəzər dəyişmələrinin xülasəsi

**Müəllif iddia edir: “Birinci: İmamətin silsiləvi ardıcıllığı başa çatdıqdan (!) və İmam Mehdinin qeybə çəkilməsindən sonra xüms qaib olan imamın haqqı olaraq qalır. Bu xüms nə fəqihə, nə seyidə və nə də müctəhidə aiddir və onların xüms üzərində heç bir haqları yoxdur. Qaib İmamın haqqı olan xümsə yiyələnmək üçün iyirmidən çox insan qaib imamın naibi olduğunu iddia etmiş və “Biz qaib imamla görüşürük, sizin verdiyiniz qazanc xümslərini ona çatdıra bilərik” demişlər.**

**Bu hal kiçik qeyb dövründə baş vermiş, ondan sonra da bir və ya iki əsr müddətində beləcə davam etmişdir. Həmin dövrdə xüms nə müctəhidə və nə də seyidlərə verilirdi. Məhz bu zaman kəsiyində ilk səhih kitab kimi tanınan dörd kitab yazılmışdır ki, onlarda da xümsün İmamlar tərəfindən şiələrinə halal edildiyi və bağışlandığı nəql olunur.**

**Onların heç birində xümsün seyidə və ya müctəhidə verilməsinə dair hər hansı bir fətva yoxdur”.**

**Cavab:** Müəllifin iddialarında açıq-aşkar təzad və səbatsızlıq mövcuddur. Belə ki, o, əvvəlki iddialarında xümsün İmamlar (ə) tərəfindən şiələrə halal edildiyini söyləmişdir, indi isə xümsü qeybdə olan İmamın (ə) haqqı olduğunu deyir və gümanına əsasən, bu səbəbdən iyirmidən artıq şəxsin onun naibi olduqlarını iddia etdiklərini bildirir.

Əgər xüms həqiqətən də zühuru gözlənilən imamın (ə) haqqıdırsa, bu zaman xüms məhz onun naiblərinə verilməlidir. Həmin naiblər isə etibarlı və əmanətdar fəqihlərdir. Əks təqdirdə xüms ödəmək şiələrin yerinə yetirməsi mümkün olmayan bir şəri vacibə çevrilmiş olar. Belə ki, vacib öz vacibliyində qalmaqla bərabər onu İmama (ə) vermək mümkünsüzdür, naibə vermək isə icazəli deyildir.

Kiçik qeyb dövründə iyirmidən artıq şəxsin naiblik iddia etdiklərinə gəldikdə, bu iddia qəti olaraq uydurmadır. Çünki İmamın (ə) naiblərinin sayı dörd olmuşdur və onların şəxsiyyətləri də məlumdur. İmamın (ə) naibi olduqları haqsız iddia edənlər isə mal-dövlət və ya şiələrin nəzərində məqam əldə etmək istəyən az sayda insan olmuşdur.

Şeyx Tusi (r) özünün "əl-Ğeybə" kitabında naiblik iddia edən şəxslərin adlarını qeyd edir: əş-Şərii, Muhəmməd ibn Nəsir ən-Nəmiri, Əhməd ibn Hilal əl-Kərxi, Muhəmməd ibn Əli ibn Bilal, Hüseyn ibn Məhsur əl-Həllac və Əbu Bəkr əl-Bağdadi.

Onların sayı altıdan artıq deyildir və hər birisi haqqında İmamdan (ə) lənətləmə varid olmuş və bezarlıq ifadə edilmişdir. Belə ki, onlar aşkar surətdə küfr etmiş və Əhli-Beyt (ə) məzhəbindən yayınmışlar. Şeyx Tusi mal-dövlət tamahı ilə vəkillik iddia edən şəxsin yalnız Muhəmməd ibn Əli ibn Bilal olduğunu bildirir. Digərləri isə şiələrin nəzərində məqam əldə etmək istəyilə naiblik iddia etmişlər.[547]

Müəllifin buradakı digər iddialarına isə əvvəldə cavab verdik, xümsün vacibliyinə və şiələrə xümsün halal edilməsinə dəlalət edən rəvayətlərin necə cəm olunmasını izah edərək dedik: xümsün şiələrə halal edilməsi yalnız nikah, yaxud nikahla bərabər ticarət və qazan məsələlərinə şamil olur. Bu isə rəvayətlərdə qeyd edilən amilə əsaslanır ki, həmin amildə şiələrin pak doğulmaları məqsəd kimi göstərilir. Burada o mövzunu təkrarlamağa ehtiyac görmürük.

Həmçinin əvvəldə qeyd etdik ki, Quranın ayələrinə və çoxsaylı şərif hədislərə əsasən, xümsün yarısı möhtərəm seyidlərə aiddir.

Xümsün müctəhid və fəqihlərə verilməsinə gəldikdə, bu barədə də rəyləri təqdim etdik. İmamın (ə) qeybdə olduğu dövrdə xümsün müctəhidə verilməsini açıq-aydın

---

[547] Bax: "əl-Ğeybə", Şeyx Tusi, səh.244-256.

bəyan edən alimlərdən şiələrin iki böyük alimi, Şeyx Tusi (r) tələbələri olmuş - Əbu Səlah əl-Hələbinin və Qazi ibn Bərracın adını qeyd etdik.

* * *

**Müəllif iddia edir: "İkinci: İmam qeyd olduğu dövrdə şiələrin xümsdən azad edildiyi zamandan bir müddət sonra məsələ bir daha dəyişdi, xümsün ödənilməsinin vacib olduğuna qərar verildi. Özlərinin müəyyən məqsədləri olan şəxslər ilk hökmdən qurtulmaq üçün belə dedilər: "İmam Mehdi zühur edənədək xüms çıxarılmalı və torpaqda basdırılmalıdır".**

**Cavab:** Xümsün çıxarılmasının vacib olduğuna və xümsün toplanması üçün İmamların (ə) vəkillər təyin etdiklərinə dair rəvayətləri qeyd etmişik. Bunlar isə İmamların (ə) zamanında xümsün vacib olduğunun şiələrin nəzərində məşhur məsələ olduğunu göstərir. İmamın (ə) qeyb dövründə xümsün şiələrə halal edilməsi barədə müəllifin iddiası əsassızdır.

Qeyb dövründə çıxarılan xümsün torpağa basdırılması fikri Şeyx Müfidin (h.q.336-413) dövründə məşhur idi. Necə ki, bunu onun "əl-Muqniə" kitabından da nəql etdik. Yəni, kiçik qeyb dövrü başa çatdıqdan az müddət sonra belə qərar verilmişdi. Şübhə yoxdur ki, həmin hökm o illərdə ortaya çıxmış məsələyə dair alınmış qərar idi və həllinə ehtiyac duyulan məsələ də böyük qeyb dövrünə aiddir. Bəlkə də bu hökmü birbaşa İmamın (ə) qeybindən sonra vermişlər. Ancaq bu müəllifin iddiasına görə xümsün vacib olması kiçik qeyb dövrünün başa çatmasından bir və ya iki əsr sonra verilmiş, sonra isə hökm dəyişdirilərək xümsü torpağa basdırılmasına qərar verilmişdir. Belə olduqda xümsün torpağa basdırılması fətvası kiçik qeyb dövründən bir və ya iki əsr sonra verilməsi lazımdır. Bu isə açıq-aşkar yanlış və puç bir iddiadır.

* * *

**Müəllif iddia edir: "Üçüncü: Sonra hökm yenidən dəyişdi, bu dəfə dedilər: xüms əmanətdar bir şəxsə vəsiyyət edilərək verilməlidir. Daha üstünü isə budur ki, əmanətdarlığı ilə seçilən məzhəb fəqihlərinə əmanət edilməlidir. Ancaq bunun vacib və qəti deyil, müstəhəbb olduğunu qeyd etmişlər. Fəqihin həmin**

**xümsdən istifadə haqqı olmamışdır, sadəcə xümsü İmam Mehdiyə təhvil verənədək qorumalı idi”.**

**Cavab:** Əvvəldə izah etdik ki, xümsün qorunub saxlanması barədə rəy Şeyx Müfidin (r) yaşadığı dövrlərə aid idi. Nəinki, həmin rəy Şeyx Müfidin (r) özünün də üstün bildiyi rəydir. Necə ki, bunu özünün “əl-Muqniə” kitabında da nəql edir. Bəs ortaya çıxmış yeni məsələ ilə bağlı eyni dövrdə irəli sürülən bu rəylərin müəyyən zaman ardıcıllığı ilə dəyişməsi nə vaxt baş verdi?!

* * *

**Müəllif iddia edir: “Burada mühüm bir qeyd də vardır: İmama çatdırılması üçün fəqihin yanında əmanət qoyulan, vəfatından sonra isə yaxınlarının kiməsə əmanət etdiyi elə bir xüms məbləği mövcuddurmu?**

**Şəkk yoxdur ki, doğru cavab belə bir şəxsin mövcud olmamasıdır. Biz xümsü saxlayıb, onu özündən sonra başqalarına əmanət qoyan şəxslər haqda nə eşitmiş və nə də oxumuşuq.**

**Həqiqət isə budur ki, əmanət qoyulan həmin xüms məbləğləri fəqihin vəfatından sonra vərəsələri tərəfindən atalarından qalan miras adı ilə varislərin arasında bölünmüşdür. İmamın xümsü də beləcə “əmanətdar” fəqihin vərəsələrinə çatmışdır. Bu, fəqihin həqiqətən də əmanətdar olub, xümsü öz sərəncamçına keçirmədiyi təqdirdə güman olunur!”**

**Cavab:** Müəllifin buradakı iddiaları bir neçə cəhətdən rədd olunur:

1. Qədim alimlərin şəri haqlardan necə istifadə etdikləri barədə nə məlumatımız var, nə də buna şahid olmuşuq. Uca Allah bizi buna mükəlləf də etməyib. Onlar barəsində qəti bir söz söyləyə bilmərik. Lakin qədim alimlərin (Allah ruhlarını şad eləsin!) təqva və pəhrizkarlıqlarına əsasən, əminliklə bilirik ki, onlar əmanət verilən xümsə xəyanət etməz və onları qorumaqda səhlənkarlığa yol verməzdilər.

Müəllifin iddiaları qeybdən verilən xəbərlərdən, uydurma və zənlərdən savayı bir şey deyildir ki, zən və güman da həqiqəti əsla əvəz edə bilməz. Yoxsa, o, əvvəlki alimlərin əmanət verilən həmin xüms pullarını necə xərclədikləri və vərəsələrinin o pulları öz aralarında böldükləri barədə haradan məlumat əldə etmişdir?!

2. Əmanət olunan pulların kimə vəsiyyət olunduğunu camaata elan etmək və ya kitablarda yazmaq mübah və doğru bir iş sayılmaz. Məsələ belə olduqda, əvvəlki alimlərin həmin əmanətlərlə necə davrandıqları barədə necə məlumat əldə edə bilərik?!

3. Xümsün xərclənməsi barədə rəylər çoxdur. Bütün alimlər xümsün İmamın (ə) zühurunadək qorunmasını və ölüm anı yetişdikdə əmanətdar bir şəxsə vəsiyyət edilməsini vacib saymamışlar. Əvvəldə də qeyd etdiyimiz kimi, alimlərin bir hissəsi çıxarılan xümsü bütünlüklə üç qisim olan möhtərəm seyidlərə verməyi, Şeyx Müfid (r) kimi bəzi alimlər də fəqir şiələrə xərcləməyi icazəli bilmişlər. Şeyx Müfid (r) özünün "əl-Muqniə" kitabında yazır: "Bəziləri isə müstəhəbb ünvanı ilə seyidlərə və fəqir şiələrə verilməsini icazəli bilmişlər. Bu fikrin doğruya yaxın olduğunu düşünürəm".[548]

Xümsün seyidlərə verilməsini vacib sayan şəxs əlinə yetişən xüms pulunu onlara verirdi, əgər qorunması və İmama (ə) çatdırılması üçün verilsəydi, onu da qoruyub sahibinə təslim edəcəkdi.

Hal belə ikən, xümsün seyidlərə verilməsilə şəri haqlar aradan qalxır. Xüsusilə qeyd edilməlidir ki, keçmiş zamanlarda çıxarılan xüms pulları elə də böyük məbləğlər deyildi.

4. Hicri 1266-cı ildə vəfat etmiş "əl-Cəvahir" kitabının müəllifi Muhəmməd Həsən ən-Nəcəfinin dövründən bəri, hətta ondan əvvəl də xüms bütünlüklə dinin təbliğ və inkişafına sərf olunurdu, kənarda yığılıb toplanmırdı ki, müctəhidin varislərinə də yetişmiş olsun. Xüsusilə də qeyd etdiyimiz kimi, həmin dövrlərdə xüms məbləği olduqca az, xərclənməsinə ehtiyac duyulan yerlər isə çox idi. Belə olan halda, xümsdən artıq məbləğ necə qala bilərdi?!

5. Əgər müəllif iddia etdiyi kimi hazırkı müctəhidlər və təqlid mərcələri yanında inanılan şəxsdirsə, o zaman müctəhidin vəfatından sonra xüms kimi şəri haqların necə xərcləndiyini mütləq bilməlidir. Ancaq göründüyü kimi, o, bu abu-havadan tamamilə uzaqdır. Bəs bu iddialarını nəyə istinad edir?!

---

[548] "əl-Muqniə", səh. 286.

Mən və həmçinin başqaları öz qulağımızla dinin təqlid mərcələrindən olan Ayətullah Mirzə Əli əl-Ğərəvidən (q.n) eşitmişik ki, Seyid Xoinin (r) vəfatından sonra onun ixtiyarında olan xüms kimi şəri haqlar adı qeyd olunan başqa bir təqlid mərcəsinin ixtiyarına verilmişdir. Burada onun adını çəkmək istəmirəm.

Belə vəziyyətləri araşdırmaq istəyən şəxs bir çox həqiqətə vaqif ola bilər. Baxmayaraq ki, bunlar xümsün hökmlərindən və vacib məsələlərindən kənar işlərdir.

Şəri hökmlər səhih dəlillərlə müəyyən olunur. Xümsün insanlar tərəfindən səhv istifadəsi və yanlış xərclənməsi vacibi aradan qaldırmaz. Bu cəhətdən xümsün hökmü zəkatın hökmü kimidir. Hərçənd indiki zamanda zəkatı əksər hallarda zalım hakimlər və onların əlaltıları toplayır, istədikləri kimi xərcləyirlər. Lakin bu hal zəkatın qanuniliyini aradan qaldırmır və ya onun vacibliyinə xələl gətirmir.

* * *

**Müəllif iddia edir: "Qeyd olunmalıdır ki, Qazi ibn Bəhrac və ya Bərrac bu hökmü müstəhəbdən vacibə çevirmiş və çıxarılmış xümsdən İmamın payını ona çatdırmaq üçün inanılan bir fəqih və ya müctəhidə əmanət verməyi, onun da özündən sonra ta İmama yetişənədək inandığı şəxsə vəsiyyət etməsini zəruri hesab etmişdir. Bunu özünün "əl-Muhəzzəb" (8/180) kitabında qeyd etmişdir. Bu, olduqca mühüm bir addımdır".**

**Cavab:** Əvvəldə də qeyd etdiyimiz kimi, İbn Bərracdan öncə bu fətvanı Əbu Səlah əl-Hələbi vermişdir. Əbu Səlah kiçik qeyb dövrü başa çatdıqdan təqribən 45 il sonra doğulmuşdur. Şübhə yoxdur ki, bu məsələ məhz həmin zaman kəsiyində baş vermişdir. Hal belə olduqda, bəs müəllifin iddia etdiyi xümsə dair nəzərlərin dəyişməsi hanı?!

Halbuki İbn Bərracdan öncəki alimlər İmam Zamanın (ə) zühuru baş verənədək xümsü ona çatdıracaq inanılan bir şəxsə əmanət etməyin və ya ölüm anı yetişdikdə bunu başqa bir şəxsə vəsiyyət etməyin vacib olduğuna fətva verirdilər. Burada əmanət olunacaq şəxsin fəqih və ya ümumi camaatdan olmasının isə heç bir fərqi yox idi. Lakin şübhəsiz ki, İmamın (ə) haqqının əmanət edilməsi cəhətindən inanılan alim ümumi camaatdan bu işə daha layiqdir.

Həqiqətdə bu fətvalar dəyişikliyə məruz qalmamışdır. Burada məsələ yalnız xümsü İmama (ə) çatdıracaq şəxslərin seçimi ilə bağlıdır. Əbu Səlahdan öncəki alimlərin nəzərlərində əmanət olunacaq fərdlər təyin edilmədən, bu işi yerinə yetirə biləcək hər bir kəsə şamil olurdu.

* * *

**Müəllif iddia edir: "Dördüncü: Ardınca onlardan sonrakı alimlər gəldilər, məsələni yenə dəyişdilər. Bu dəyişim axırıncıdan öncəki idi. Onlar xümsün fəqihlərə verilməsinə və onların da xümsü Əhli-Beytdən olan yetim və fəqirlər arasında bölmələrinə fətva verdilər. Daha doğrusu isə, bu rəyə ilk dəfə hicri VI əsrdə Əbu Həmzə meyl etmişdir. Necə ki, bunu özünün "əl-Vəsilətu fi neylil-fəziləh" (səh.682) kitabında qeyd edib. O, bunu xüms sahibinin (xüsusən də bölgünü yaxşı bacarmırsa) özünün bölüşdürməsindən daha yaxşı hal hesab edib".**

**Cavab:** İbn Həmzənin rəyi xümsün seyidlərə aid olan payının bölüşdürülməsi ilə bağlıdır. Belə ki, o, kişi və qadın, ata və oğul, azyaşlı və qoca hər bir kəs arasında ədalət və imana riayət etməklə bərabər bölünməsinin düzgün olacağı fikrində idi. Xümsün onların arasında bu qaydada bölünməsi üçün bacarıqlı bir şəxsə ehtiyac duyulurdu. Ona görə də bu payı bölüşdürmək üçün səriştəsi olmayan şəxslərin alim və fəqihlərə müraciət etməsini vacib sayırdı.[549]

Bu rəy bizim barəsində söhbət açdığımız mövzudan kənardır. Belə ki, bizim mövzumuz İmamın (ə) qeybdə olduğu onun payının necə xərclənməsi barədədir.

Həmçinin bu fətva heç də yeni deyildir. İbn Həmzədən öncəki Şeyx Müfidin, Şeyx Tusinin və digər alimlərin rəyinə əsasən, seyidlərin payını İmam (ə) özü bölürdü. Seyidlərin payından artıq qalan hissə İmamın (ə) haqqıdır, çatışmayan hissəyə isə onun payından əlavə olunurdu.[550]

Fəqih İmamın (ə) naibi və onun məqamındakı şəxs olduğu üçün o da İmam (ə) kimi davranmalı, xümsün yarı hissəsini yetim, fəqir və yolda qalmış seyidlərə

---

[549] Bax: "əl-Vəsilətu fi neylil-fəziləh", səh.148-149.
[550] Bax: "əl-Muqinə", səh.278; "ən-Nihayə", səh.199.

verməli, miqdar kifayət etmədikdə isə İmamın (ə) payından çatışmayan hissəyə əlavə etməlidir.

İmamın (ə) payının fəqir şiələr arasında bölüşdürülməsinə dair İbn Həmzənin rəyinə gəldikdə, o, bunu öz sözlərilə izah edir: “Pay altı hissəyə bölünməlidir: Allahın, Peyğəmbərin, yaxın qohumların payı. Bu payların ixtiyarı İmama (ə) məxsusdur. Digər üç pay: yetimlərin, fəqirlərin və yolda qalmışların payı. İmamın qaib olduğu zamanlar üçün isə bir neçə fikir irəli sürülmüşdür. Mənim nəzərimdə düzgün olanı, İmamın payının onun haqqını tanıyan fəqir, saleh və dürüst tərəfdarları arasında bölüşdürməkdir”.[551]

Bu, əvvəldə qeyd etdiyimiz Şeyx Müfidin sadaladığı rəylərdən biridir. Bəs ittihamçı müəllifin iddia etdiyi xüms nəzəriyyəsindəki dəyişiklik haradadır?!

* * *

**Müəllif iddia edir: “Beşinci: Dəyişikliklər sonrakı dövrlərdə, ta bir əsr öncəyədək davam etdi və nəhayət məsələ son şəklini aldı. Fəqihlərin bəziləri imamın payının fəqihin məsləhət bildiyi yerlərə xərcləməyi – məsələn elm tələbələrinə xərcləməyi, dinin dirçəldilməsinə yönəltməyi və s. icazəli bildilər. Necə ki, Seyid Mühsin Həkim “Müstəmsəkul-ürvətil-vüsqa” kitabında (9/584) belə fətva vermişdir”.**

**Cavab:** Məsələ ilə bağlı dəlil olacaq bir mətnin olmadığını qeyd etmişdik. Ona görə də məsələ fərqli fikirlərə açıq olaraq qalır. Alimlər İmamın (ə) qeybi dövründə xümsün ödənməsinin vacib olduğu barədə hökmü verdikdən sonra İmamın (ə) payının necə xərclənməsi barədə müxtəlif fikirlər irəli sürüblər.

Ən doğru rəyə yetişmək baxımından fikirlərin müxtəlifliyində heç bir müşkül yoxdur.

Biz bu məsələ ilə bağlı keçmiş və müasir alimlərin rəylərinə nəzər yetirdikdə müasir alimlərin rəyinin doğruya daha yaxın olduğunu görürük. Nəinki, ən düzgünü də məhz budur. Fiqhdən azacıq anlayışı olan şəxsə də müasir rəyin ehtiyata daha çox müvafiq olduğu məlumdur.

---

[551] “əl-Vəsilətu fi neylil-fəziləh”, səh.148.

İttihamçı müəllifin bu sözləri Seyid Mühsin Həkimə (q.s) nisbət verməsi də təəccüb doğurur. Halbuki həmin rəy iki yüz əlli ildir ki, fəqihlər arasında məşhurdur.

* * *

**Müəllif iddia edir: "Hərçənd o özü imamın payının xərclənməsi üçün fəqihə müraciət etməyə ehtiyac olmadığını söyləyir. Bu isə o deməkdir ki, həmin hissənin fəqih tərəfindən xərclənməsi fikri çox yaxın dövrlərdə ortaya çıxmışdır".**

**Cavab:** Şəriət qaydalarına və səhih dəlillərə əsaslandığı halda, bu fətvanın bir və ya iki əsr sonra verilməsində heç bir müşkül yoxdur.

Seyid Həkimin (q.s) "əl-Müstəmsək" kitabında xümsün İmamın (ə) razılığının olduğu yerdə xərclənməsi üçün müctəhidin icazəsinin alınmasına ehtiyacın olmadığı barədə rəyinə gəldikdə, bu qərarını həmin yerdə izah da edir və deyir:

"Beləliklə, İmamın (ə) payının müəyyən yöndə xərclənməsini təyin edəcək aydın dəlil yoxdur, nəticədə onun xərclənməsində işkal vardır. Yalnız indiki zamanda xümsün İmamın (ə) razılığının olduğu müəyyən yerlərə xərclənməsi istisnadır. Xümsün xərclənməsində Onun (ə) razılığının olacağı yerlər dinin dayaqlarının möhkəmləndirilməsi, bayrağının yüksəldilməsi, müqəddəs şəriətinin yayılması, möminlərə moizə və nəsihətlərilə, halal və haram hökmlərini bəyan etməklə fayda verəcək elm tələbələrinin yaşayış xərcləridir".

Sonra deyir: "Buradan aydın olur ki, daha güclü nəzər olmasa da, ehtiyata daha müvafiqi budur ki, İmamın (ə) payının xərclənməsi üçün onun razılığının alınmasıdır. Əgər müəyyən bir yönə xərcləməkdə onun razılığı qalacağı düşünülsə, xümsün sahibinin pulu həmin istiqamətdə xərcləməsi icazəlidir. Bu zaman şəri hakimə müraciət etməyə də ehtiyac yoxdur, necə ki, bu Şeyx Müfidin "əl-Qəriyyə"sində qeyd edilir. "əl-Hədaiq"də isə dəlilin olmadığı üçün bu rəyə meyl edilmişdir. Necə ki, bunu həmçinin "əl-Cəvahir"də etiraf edir".[552]

Gizli deyil ki, şəriət hakiminə müraciət etməyə ehtiyacın olmaması məhz xümsün məxsusi bir yöndə xərclənməsində İmamın (ə) razılığının olduğuna xatircəmlik əldə edildiyi təqdirdədir.

---

[552] "Müstəmsəkul-ürvətil-vüsqa", 9/582.

Ancaq hazırkı dövrdə ümumi camaatın çoxunun belə bir razılığı təyin etməsi mümkünsüzdür. Xüsusilə də bu əsrdə xüms kimi ödənilən şəri haqların məbləğinin azlığı və dinin müxtəlif sahələrində maliyyəyə duyulan böyük ehtiyac nəzərə alınmalıdır. Alim olmayan insanlar bu istiqamətlərdən hansının daha əhəmiyyətli olduğuna önəm vermək qüdrətinə sahib deyillər. Bunlar nəzərə alındıqda, xüms kimi şəri haqları xərclənmə yerləri barədə geniş və dəqiq məlumata malik olan və İmamın (ə) razılığının daha çox güman edildiyi yerdə xərcləyə bilən fəqihə verilməsinin lazım olduğu qənaətinə gəlirik.

* * *

**Müəllif iddia edir: "Onlar öz vəziyyətlərinə nəzər salır, mədrəsə və mətbəələrinin pula daha çox ehtiyac duyduqlarını görürlər. Həmçinin öz şəxsi ehtiyaclarına da yönəldirlər. Yoxsa bütün bunları necə təmin edər və ehtiyacları necə qarşılayarlar?! Halbuki bütün bunlar böyük məbləğlər tələb edir.**

**Onlar bu ehtiyacları qarşılamaq üçün xümsü ən yaxşı mənbə kimi görürlər, bununla da özlərinə şəxsi mənfəət və böyük sərvət qazanırlar. Necə ki, hazırkı dövrdə fəqih və müctəhidlər arasında bu hala şahid oluruq".**

**Cavab:** Gördüyümüz kimi, fəqihlərin şəxsi və fərdi mənfəət əldə etmələri barədə müəllifin iddiaları dəlilsizdir. Belə ki, xümsün xərclənməsi üçün dəlil İmamın (ə) razılığının müəyyən edilməsindədir. Şübhə yoxdur ki, İmamın (ə) payının dinin yayılmasına, elmi hövzələrin dəstəklənməsinə, ömrünü dinin və peyğəmbərlər ağasının şəriətinin təbliğinə həsr etmiş tələbələrə sərf olunmasına razılığı vardır.

Bu müəllifin təəccüb doğuran işləri bitmək bilmir. Belə ki, fəqih və müctəhidlərin öz mədrəsə və mətbəələrini xüsusi diqqətdə saxladıqlarını, xümsü ilk olaraq həmin ehtiyaclara yönəltdiklərini iddia edir. Halbuki, biz İraqda hansısa bir fəqih və ya müctəhidin mətbəəyə sahib olduğunu əsla eşitməmişik. Bundan əlavə, mətbəələr öz xərcləri qazanclarından təmin edirlər.

Əksinə, biz bəzi təqlid mərcələrinin dinin möhkəmlənməsi istiqamətində böyük məbləğlər xərclədiklərini, özlərinə isə yalnız azuqələrinə yetəcək miqdarı götürdüklərini görürük.

Ayətullah Şeyx Mühyiddin Maməqani (d.z) mənə danışıb ki, bir gün dövrün təqlid mərcələrindən olan Seyid Mühsin Həkimin (q.s) yanına gəldikdə onu halsız vəziyyətdə gördü. Bu vəziyyətinin səbəbini soruşduqda dedi: "Üç gündür özünün və ailəsinin yeməyə bir şeyləri yoxdur". Dedim: "Bəs xümsün seyid payından onlara niyə xərcləmədin? Halbuki onlar seyid və fəqirdirlər". Dedi: "Xümsü kimi şəri haqları özümə və ailəmə xərcləmək istəmirəm".

Maməqani deyir: "Sonra Seyidin müqəllidlərindən olan bir şəxs içəri daxil oldu, ona on min dinar verib dedi: "Hər hansı bir şəri haqdan xali olan bu hədiyyəni məndən qəbul etməyini istəyirəm". Seyid hədiyyəni qəbul edib onun üçün dualar etdi".

Bu, sayılması mümkün olmayan çoxsaylı faktlardan yalnız biridir.

Mən müsəlmanların şəri haqlarını toplayıb, İslama heç bir faydası olmayan, musiqi, incəsənət, rəqs, rəsm, idman və s. institut və universitetlərinə xərcləyən zalım hakimiyyətlərin əməllərinə göz yumub, ancaq İmam Zamanın (ə.f) payını din və şəriətin yayılmasına xərclənməsini haram bilən bu müəllifə və onun kimilərə təəccüb edirəm. Onların insafı haradadır?! Necə hökm edirlər?!

* * *

**Müəllif iddia edir: "Məsələ bir çox etap və dəyişikliklərdən keçdi, nəhayət sonda xümsün fəqih və müctəhidlərə verilməsinin vacib olduğuna hökm verildi. Beləliklə görürük ki, nə Quranda, nə sünnədə, nə imamların kəlamlarında xümsün ödənilməsi barədə söhbət açılmır, bu, sonrakı zamanlarda ortaya atılmış bir məsələdir. Onu bəzi müctəhidlər vacib saymışlar. Onların bu fətvaları isə Qurana, sünnəyə, Əhli-Beyt imamlarının sözlərinə, eləcə də bir çox fəqih, müctəhid və mötəbər şəxslərin fətvalarına ziddir".**

**Cavaba:** İddiasının əksinə olaraq, İmamların (ə) aramızda olduqları, eləcə də qeyb dövrlərində xümsün çıxarılmasının vacib olduğu müəllifin özünə də isbatlanmışdır. Xümsün ödənməsinin vacibliyi həmçinin ümumən Şeyx Müfid, Seyid Mürtəza, Şeyx Tusi, Əllamə Hilli, İbn İdris, İbn Həmzə, Əbu Səlah Hələbi, İbn Zöhrə Hələbi, Qazi ibn Bərrac, Şəhid Əvvəl, Şəhid Sani, "əl-Cəvahir" kitabının

müəllifi, Şeyx Mürtəza Ənsari kimi bir çox keçmiş və müasir məşhur fəqihlərin rəyidir.

Xümsün halal qılındığı barədə fikirlər üç-beş alimə nisbət verilib ki, bunlardan da bəzisinin istinadının düzgünlüyü sübuta yetməyib. Ancaq müəllifin bu fikirləri nisbət verdiyi şəxslərin sözlərini müfəssəl şəkildə sizə təqdim etdik, onun iddialarının bütünlüklə aşkar yalan və açıq-aydın iftira olduğunu isbatladıq.

Həmçinin möhtərəm oxucu üçün aydın oldu ki, İmamların (ə) aramızda olduqları və sonrakı dövrlərdə xümsün vacibliyi Qurana və Əhli-Beyt imamlarının (ə) hədislərinə müvafiq olan məsələdir, onlar bu iş üçün vəkillər təyin etmiş və hər vaxt şəri vergiləri almışlar.

Xümsün halal qılındığına dair hədislərə gəldikdə, xümslə bağlı nəql edilən digər rəvayətlərlə cəmlədikdə və İmamların (ə) rəftarlarına nəzər saldıqda görürük ki, onlar yalnız nikah, yaxud onunla bərabər ticarət və məskunlaşma məsələlərilə bağlıdır.

Xüms məsələsinin bir çox etap və dəyişikliklərdən keçdiyi iddiasına gəldikdə, bu doğru deyildir. Onun etdiyi bütün iddialar İmamın (ə) qaib olduğu dövrdə xümsdəki payının xərclənməsilə bağlıdır, xümsün vacib olub-olmadığı ilə deyil. Biz bu məsələdəki ixtilaf əlimizdə İmamın (ə) payının necə xərclənməsinə dair bir dəlilin olmadığından qaynaqlanır. Mövzu ilə bağlı ən doğru fikir isə sonrakı nəsil alimlərin rəyidir ki, bu da İmamın (ə) payının onun razılığının olacağı yerlərə xərclənməsidir. Bu məsələni təfsilatı ilə bəyan etmişik, burada yenidən təkrarlamağa lüzum görmürük.

* * *

**Müəllif iddia edir: “Mən şiə qardaşlarımı qazanclarının xümsünü seyid müctəhidlərə ödəməkdən imtina etməyə çağırıram. Çünki xüms onlara halaldır, seyidlərin, fəqihlərin onun üzərində heç bir haqqı yoxdur. Müctəhid və ya fəqihə xüms verən şəxs İmamların sözlərinə qarşı çıxdığına görə günaha batmış olur. Belə ki, Qaim zühur edənədək xüms şiələrin üzərindən götürülmüşdür”.**

**Cavab:** Müəllif təsəvvür edir ki, onun bir “çağırıram” sözü ilə şiələr tez qəbul edib boyun əyəcək, qeyb əsrindən ta bu günədək dinin dayaqları olan alimlərin fətvalarını tərk edəcəklər?! Halbuki müəllifin əhli-sünnə əqidəli, ictihad və

fəqihlikdən uzaq bir kəs olduğu gün kimi aydındır. Belə ki, o, dinin ən sadə məsələlərindən xəbərsizdir, səhih hədisi zəifdən seçə bilmir və ziddiyyətli rəvayətlərlə rəftar qaydalarından məlumatsızdır.

Xümsün şiələrə halal edildiyi iddiasına gəldikdə, onun iddiasının puçluğunu təfsilatı ilə izah etdik.

Xüms ödəyən şəxsin günah etdiyi iddiası da İmamların (ə) sözlərinə müxalif olduğu üçün puçdur. Çünki qeyd edildiyi kimi, xüms ödəmək İmamın (ə) qeybdə olduğu dövrdə də vacibdir. Onu ödəyən şəxs Allahın əmrini yerinə yetirmiş olur, üzərindən şəri haqqı götürür, müxaliflərin inkar etdikləri vacib əməli dirçəldir, Allahın elçisi (s) və Pak nəsli ilə (ə) əlaqəsini möhkəmləndirir, dinin sütunlarının güclənməsinə yardım edir və peyğəmbərlər ağasının şəriətini yaymış olur.

Əgər xümsün İmamlar (ə) tərəfindən şiələrə halal qılındığını fərz etsək belə, xüms çıxaran şəxs vacib haqq ünvanı ilə deyil, Peyğəmbər (s) nəslinin fəqir-miskinlərinə verilən sədəqə və ya Allah yolunda xərclənmiş mal ünvanı ilə savab qazanmış olur. Əldə olunacaq belə bir fayda və mənfəət insan üçün yetərlidir!

* * *

**Müəllif iddia edir: "Bu məsələ ilə bağlı Ayətullahul-üzma imam Xomeyninin sözlərini qeyd etməyi lazım bilirəm. O, hicri 1389-cu ildə hövzədə bizim qarşımızda mühazirə ilə çıxış edərkən bu barədə danışmış, sonradan bu fikirlərini "əl-Hukumətul-islamiyyə" və ya "Vəlayətul-fəqih" kitabında qeyd etmişdi.**

**Onun söylədiklərindən: "Əgər xümsün yalnız Peyğəmbərin (s) nəslinin yaşayışının təmin edilməsi üçün vacib buyurulduğunu söyləsək, qüsura yol vermiş olarıq. Xümsün mində bir hissəsi onların güzəranının təmin edilməsi üçün kifayətdir. Hətta məsələn Bağdad, Tehran, Dəməşq, İstanbul bazarı kimi böyük bir bazardan toplanan xüms də bu məqsədə yetər. Bəs qalan məbləğ necə olsun?"**

**Sonra deyir: "Fikrimcə, adil İslam hökuməti idarəçilik və ya ictimai işlər üçün elə də böyük məsrəflərə ehtiyac duymur".**

**Ardınca deyir: “Xüms vergisi təkcə Peyğəmbər (s) ailəsinin seyidlərinin ehtiyaclarının qarşılanması və ya fəqir-miskinlərə paylanmaq üçün zəkat deyildir. Belə ki, (xümsün ümumi məbləği) onları ehtiyaclarından qat-qat artıqdır. Bəs Peyğəmbər (s) nəslinin güzəranının təmin edildiyini və fəqirliyin aradan qaldırıldığını nəzərə alsaq, xümsün, zəkatın və bu kimi vergilərin yığılması tərkmi olunmalı, yoxsa dənizə atılmalı və ya yerə basdırılmalıdır? Halbuki İslamın ilk çağlarında güzəranını xümslə təmin edən seyidlərin sayı yüzdən artıq deyildi. Hətta onların sayının yarım milyon olduğunu fərz etsək, İslamın belə bir böyük məbləğin ödənilməsini öz öhdəsinə götürməsi də ağlabatan deyildir. Belə ki, ticarət və istehsalın miqyasının bugünkü genişliyi qarşısında bu da kiçik rəqəm olar. Bütün bunlar Peyğəmbər (s) ailəsinin yedizdirilməsi üçündürmü?! Əsla!”**

**Adını qeyd etdiyim kitaba bax (c.1, səh.39-40, Nəcəf, “əl-Ədəb” mətbəəsi)”.**

**Cavab:** Seyid Xomeynidən (q.s) nəql etdiyi sözlər Uca Allahın xümsü yalnız Peyğəmbər (s) ailəsinin seyidləri üçün təyin edilmədiyi barədədir ki, beləliklə də xümsün qalan hissəsinin İslam və ümmətin mənafeyi naminə xərclənəli olduğunu bildirir. Çünki seyidlərin ehtiyaclarından artıq qalan xüms İmamın (ə) payı hesab olunur. Necə ki, bir çox alimlərin bu barədə fikirlərini nəql etdik. İmam (ə) isə bu payı dinin yayılması və şəriətin dirçəldilməsi üçün xərcləyirdi.

Seyid Xomeyninin (q.s) bu sözləri bizim bəhs boyu söylədiklərimizin eynidir və heç bir iradı yoxdur.

* * *

**Müəllif iddia edir: “İmam Xomeyni xümsün miqdarının çox böyük olduğunu bildirir. Bu, onun hövzədə mühazirələr söylədiyi vaxtlarda idi. Həmin məbləğ hal-hazırda nə qədər artmışdır? Xomeyni həmçinin xümsün mində birinin Peyğəmbərin (s) ailəsinə yetdiyini deyir. Bəs qalan hissə hara xərclənir? İmam Xomeyninin sözlərinə görə qalan hissə yalnız fəqih və müctəhidlərə paylanmalıdır”.**

**Cavab:** Həmin məbləğin İmam (ə) razı qalacağı yerlərə xərclənməlidir, yəni dinin yayılmasına, sütunlarının möhkəmləndirilməsinə və s.

* * *

**Müəllif iddia edir: “Bu səbəbdən də imam Xomeyni İraqda olduğu müddətdə böyük sərvət toplamışdı. Hətta Fransaya getmək istədikdə topladığı İraq dinarlarını ABŞ dollarına çevirdi və böyük faizli gəlirlə Fransa banklarına yatırdı”.**

**Cavab:** Biz Seyid Xomeyninin böyük sərvətə sahib olduğunu bilmirik. Məlum olan budur ki, Seyid Xomeyninin elm əhlindən olmayan atası çox varlı şəxs idi. Əgər Seyid ittihamçı müəllifin iddiasına görə böyük sərvətə malik idisə, bu onun atasından aldığı mirası ola bilərdi, əsla şəri haqlardan topladığı pullarla deyil.

Xüsusilə maraqlı nüans isə Seyidin Fransaya səfəri öncəsi dinarlarını dollarlara çevirdiyi iddiasıdır. Belə ki, həmin dövrlərdə İraqda dinarı dollarlara çevirən banklar yox idi. Bunu həmin zamanlarda İraqda yaşayan hər kəs bilir.

* * *

**Müəllif iddia edir: “Zərər insana iki cəhətdən üz tutur: şəhvət və var-dövlət. Bunların ikisi də ağalarda cəmləşmişdir. Qadınlarla öndən və arxadan mütə və digər yollarla yaxınlıq edirlər; var-dövləti isə xüms və ziyarətgahlarda toplanan pullarla. Xüsusilə də bəzilərinin məhz şəhvət və var-dövlət üçün bu yola qədəm qoyduqlarını bildiyimiz halda, bu cazibə qarşısında kim tab gətirə bilər?!!”**

**Cavab:** Əgər müəllif özünün iddia etdiyi kimi, həqiqətən də elmi hövzədə tədris almış olsaydı və alimlərlə oturub-dursaydı, alimlərin bu məsələlərdə insanlar arasında ən zahid şəxslər olduğunu bilərdi. Onların zahidlik və təqvası qeyd edilməyəcək həddə məşhurdur. Əgər iddiaya əsasən, onlar şəhvət doyuzdurmaq və ya var-dövlət toplamaq aludəçisi olsaydılar, onların bu vəziyyəti məşhur olardı. Belə ki, alimlərin çoxluğunu və onların fərqli şəhər və ölkələrə yayılması bu faktları gizlətməyə imkan verməz.

Əgər alimlərin qadınlarla mütə bağladıqları iddiasını qəbul etsək belə, burada onlara eyib tutulacaq heç bir hal yoxdur. Belə ki, mütə nikahı İslamda halaldır və bunu böyük səhabələr də etmişlər.

İnsan halal və ya müstəhəbb işləri yerinə yetirməklə zərərə uğramaz. İnsanı zərərə sürükləyən hal istəklərinə tabe olaraq haramlara düşməsidir.

Peyğəmbərin (s) səhabələrindən bir qisminin çoxlu var-dövlətə sahib olduqları inkaredilməz faktdır. Onlar qızıla, gümüşə, cariyə və kölə qadınlara malik idilər.[553] Bunlara sahib olmaları onları zərərə və azmağamı sövq etdi?

* * *

**Müəllif iddia edir: "Qeyd: Bununla da seyid və müstəhidlər arasında xüms toplama yarışı başladı. Bəziləri isə xümsün məhz onlara verilməsi üçün məbləği azaltmağa başladı, bunun üçün şeytani yollara əl atdılar. Bir şəxs Əli Sistaninin yanına gəlib dedi: "Öhdəmdə 5 milyon məbləğimdə xüms vardır. Mən yalnız yarı hissəsini – 2,5 milyon ödəmək istəyirəm". Seyid Sistani ona dedi: "2,5 milyonu ver". Həmin şəxs qeyd edilən məbləği ödədikdən sonra Sistani "Mən bunu sənə bağışlayıram" deyib pulu ona qaytardı. O şəxs pulu aldıqda Sistani dedi: "Onları yenidən mənə ver. Sən beləliklə 5 milyonu ödəmiş oldun və öhdəndə borc qalmadı".**

**Digər seyidlər də bunu görüb eyni yolla xümsün məbləğini azaltmağa başladılar. Camaatın məhz onların yanına gəlmələri üçün başqa yollara da əl atdılar. Beləliklə də seyidlər arasında xüms toplamaq üçün "xoşməramlı" yarış**

[553] Buxari "Səhih"ində (2/963) Zübeyrin ümumən pulunun 50200000 (əlli milyon iki yüz min) olduğunu qeyd edir. (Bunların dinar və ya dirhəmlə olduğu məlum deyil). Hakimin "əl-Müstədrək"də (3/369) qeyd etdiyinə əsasən, Təlhə öldükdə onun xəzinədarında 1200000 (bir milyon iki yüz min) dirhəm pulu qalmışdı. Ümumi varidatı isə 3 milyon dirhəm dəyərində qiymətləndirilirdi. Nəsai "əs-Sünənul-kubra"da (5/359), İbn Əbu Asim "əs-Sünnə"də (2/565) Aişədən rəvayət edir ki, cahiliyyə dövründə Əbu Bəkrin pulunun miqdarı 1000000 əvqiyə (1 əvqiyə 12 dirəhəmə bərabərdir) idi. İbn Səd isə "ət-Təbəqatul-kubra"da (3/86) Osmanın qətlə yetirildiyi gün 300000000 (üç yüz milyon) dirhəm və 550000 (beş yüz əlli min) dinar pulunun, Rəbzədə 1000 dəvəsinin və 200 min dinar dəyərində mülkünün olduğunu qeyd edir. İbn Kəsir "əl-Bidayətu vən-nihayə" kitabında (7/171) yazır ki, Əbdürrəhman ibn Ovf vəfat edərkən özündən sonra çox sayda qızıl, 1000 dəvə, 100 at, 300000 (üç yüz min) qoyun miras qoymuş, dörd qadınından biri isə alacağı məbləğin ¼-nə razılaşmışdı ki, bu da 80000 (səksən min) edirdi. Bu siyahını uzada da bilərik. Daha çox məlumat almaq üçün Əmininin "əl-Ğədir" kitabına müraciət edin (282-286).

**başladı, xümsün forması ticarəti xatırlatdı və varlılar ən az xüms götürən seyidlərə ödədilər".**

**Cavab:** Hər bir şəxsin xümsü yalnız təqlid etdiyi müctəhidə ödəməli olduğu halda, hansı yarışdan söhbət gedə bilər?!

Ona görə də az və ya çox götürməsindən asılı olmayaraq bir şiənin təqlid etdiyi müctəhiddən başqasına xüms ödəmədiyini görürük.

Seyid Sistani ilə bağlı nəql etdiyi hekayəyə gəldikdə, müəllif inanılan şəxs olmadığı üçün bu da onun digər hekayələri kimi, etibarsızdır.

Əgər doğru olduğunu fərz etsək, belə faktların bəzən vaqe olması mümkündür. Bu, mükəlləfin[554] bütün məbləği ödəməyə imkanı olmadığı vaxtlar baş verə bilər. Müctəhid o şəxsdən müəyyən miqdar xüms alır, sonra həmin miqdarı ona borc olaraq verir və mükəlləf də qaytarılan məbləği yenidən müctəhidə verməklə xümsün yetişməyən məbləğini öhdəsindən götürmüş olur. Bununla da üzərinə xüms vacib olmuş mal və pulları ona halal olur. Belə ki, öhdəsində haqq olaraq xüms deyil, yalnız borc qalır.

Beləliklə, bu vəziyyətdə mükəlləfin xümsü bütünlüklə ödədiyini görürük və hər hansı bir azaltmadan söhbət getmir. Belə ki, mükəlləf xümsün yarı hissəsini ödəmiş olur, digər hissəsini isə imkan əldə etdiyi vaxt ödəməlidir.

Bu, ictihad iddiasında olan müəllifin anlaya bilmədiyi həmin məsələdir ki, bunun üçün bir hekayə də uydurur.

* * *

**Müəllif iddia edir: "Hövzə rəhbərliyi xüms toplamaq uğrunda mübarizə başlandığını və ona yetişən məbləğin azaldığını gördükdə, xümsü qarşılarına çıxan hər seyidə verməyin icazəli olmadığı barədə fətva verdi. Xüms yalnız müəyyən şəxslərə ödənilməli oldu. Təbii ki, ona və onun məntəqələrdəki nümayəndələrinə bunda böyük pay düşəcəkdi".**

**Cavab:** Xümsün yalnız təyin olunmuş vəkillərə verilməsi qaydaya uyğun məsələdir. Çünki hər yetənin xümsü xərcləmək haqqı yoxdur. Xümsü əmanətdar fəqih İmamın (ə) razı olacağı yerlərə xərcləməlidir.

---

[554] Üzərində şəri haqq və təklif olan şəxs.

Ona görə də bir çox alim xümsün təyin olunmuş vəkillərdən başqasına ödənməsinin haram olduğuna dair fətva vermişlər ki, nəfsinə uyan kəslər savadsız insanları aldadıb haqsız yerə şəri haqları toplamasınlar.

Seyid Sistani ilə bağlı məsələyə gəldikdə, hamı bilir ki, o, İraq əhalisindən xüms almır. Ümumi bir iznlə, müctəhidə və ya hər hansı bir vəkilinə müraciət etmədən şəxslərin öhdələrində olan şəri haqları yaşadıqları şəhərlərdəki fəqirlərə ödənməsini buyurmuşdur.

Seyidin məsələ ilə bağlı mövqeyi belə olduğu halda, müəllifin xümslə bağlı söylədiyi iftiralar necə həqiqət ola bilər?!

* * *

**Müəllif iddia edir: "Xümsü təhvil aldıqdan sonra isə onları hazırda İraqdakı qeyri-sabit iqtisadi vəziyyəti nəzərə alaraq qızıla çevirir. Hazırda qızılla dolu olan iki otağa sahibdir. Vəkillərin ondan xəbərsiz oğurladıqları miqdardan isə çəkinmədən söhbət açmaq olar".**

**Cavab:** Bu da puçluğu məlum və aydın olan böhtandır. Qızılın otaqlarda toplanması dövrü çoxdan keçmişdir. Əgər müəllif Seyidin həmin məbləğləri banklara depozit olaraq qoyduğunu iddia etsəydi, bu yalanına müəyyən qədər inanmaq olardı. Ancaq belə aşkar formada danışılan yalanı yalnız axmaq və qafil kəs təsdiqləyə bilər.

Əgər Seyid bütün qızılları həmin iki otaqda toplayırsa, o zaman ümumən İraqda kimdəsə qızılın qaldığını güman etmək olmaz.

Seyidin vəziyyətindən xəbərdar olan şəxslər bilirlər ki, onun evi çox darısqaldır. Oraya ehtiyacı olan kitabların hamısını belə yerləşdirə bilmir, qızılları necə sığışdırsın?!

Bəs heç kəsin bilmədiyi və görmədiyi belə bir otaqdan müəllif necə xəbər tutub?!

Düşünürəm ki, əgər müəllifin əlində puç da olsa, bircə dəlil olsaydı, onu mütləq burada qeyd edərdi. Lakin belə xəbərləri yalnız iftira və yalanla dolu olan sehrli torbasından çıxarır. Onun bu torbasında nə qədər əcaib və qəribəliklər vardır!

Seyidin vəkillərinin onun arxasında xüms oğurladıqları iddiasının isə heç bir dəyəri yoxdur. Çünki dəlilsiz söylənmiş hər hansı bir sözə əhəmiyyət verilməz. Müəllif xüms oğurlayan bir vəkilin belə adını qeyd etmir.

Əgər müzakirə xatirinə belə bir faktın mövcud olduğunu qəbul etsək də, Seyid məlumatsız olduğu məsələlərə cavabdehlik daşımır. Biz bütün insanların günahsız olduqlarını iddia etmirik. Belə ki, tarix bizə İmamların (ə) bəzi vəkillərinin onların əmanətlərinə xəyanət etdiklərini və mallarından götürdüklərini də nəql edir. Necə ki, İmam Musa Kazımın (ə) bəzi vəkilləri onun vəfatından sonra əllərində olan əmanətlərə yiyələnmək məqsədilə İmam Rzanın (ə) imamlığını inkar etmişdilər.

Ona görə də camaat xümsü yalnız əməlisalehliyi, təqvası və pəhrizkarlığı ilə tanınan şəxslərə verməlidir.

* * *

**Müəllif iddia edir: "Möminlərin əmiri (r.a) buyurur: "Xoş olsun dünyada zahid və axirətə rəğbətli olan şəxslərin halına! Onlar özlərinə yeri xalça, torpağı döşək, suyu ətir, Quranı köynək və duanı örtük qərar vermiş, sonra da dünya ilə İsa Məsih kimi davranmışlar... Davud (ə) bu gecələrə bənzər bir gecədə qalxıb belə demişdi: "Bu elə bir andır ki, əgər şəxs vergi toplayan (əşşar), zabit və ya nəzarətçi (polis) deyilsə, bəndə hansı duanı etsə, duası müstəcab olar" ("Nəhcul-bəlağə", 4/24).**

**Möminlərin əmirinin (r.a) sözlərilə bu seyidlərin sözləri arasında müqayisə apar və özün hökm ver. Həmin seyid və fəqihlərin bu və bu kimi digər möhtəşəm sözlərlə heç bir əlaqəsi yoxdur. Nemətlər içində yaşadıqları dəbdəbəli və təmtəraqları həyat onlara Möminlərin əmirinin zahidliyini unutdurmuş, sözlərini anlamaqda gözlərini kor etmişdir".**

**Cavab:** Nəcəfdəki bir çox alim və təqlid mərcəsinin həyat tərzi ilə yaxından tanış olmağa müvəffəq olmuşam. Onlar dünyaya qarşı zahidanə həyat sürür, əllərində olan maddi imkanlarını dünya ləzzətlərinə və öz şəxsi ehtiyaclarına xərcləmirlər.

Hazırkı dövrün çoxsaylı cəlbedici ləzzətlərlə dolu olmasına baxmayaraq, Möminlərin əmirinin (ə) sözlərində qeyd olunanlar birbaşa onların həyat tərzinə tam uyğundur. Əgər onlar dünyadan ləzzət almaq istəsəydilər, təbii ki, bunu edərdilər.

Lakin onlar bütün bu ləzzətlərin qarşına sədd çəkmiş, əbədiyyət yurdu olan axirəti üstün tutmuş, bu dünyaya zahid olmuşlar.

Alimlərin zahidliyi, dünyadan və onun ləzzətlərindən üz çevirmələri barədə məlumat almaq istəyənlər bu barədə yazılmış çoxsaylı kitablara müraciət edə bilərlər. Həmin kitablarda onların həyat və yaşayış şəraitləri barədə qeydlər yer alır.

Bu səbəblə biz, hər bir insaflı şəxsi mərcə təqlidlərini ziyarət etmək üçün Nəcəful-Əşrəf və Qum şəhərlərinə dəvət edir ki, onlar alimlərin dünyaya qarşı necə zahid olduqlarını öz gözlərilə görsünlər, müəllifin iddialarının açıq-aşkar bir iftira və çirkin yalan olduğunu bilsinlər.

* * *

**Müəllif iddia edir: "(Möminlərin əmiri (r.a)) sözlərində duası müstəcab olan şəxslərin sırasından zəkat vergisini toplayan şəxsi (əşşarı) istisna edirsə, o zaman xüms toplayan kəsin vəziyyəti necə olacaq? Halbuki zəkat toplayan şəxs malın 1/10-ni, xüms toplayan isə 1/5-ni alır. O zaman xüms toplayanın duası qətiyyən müstəcab olmamalıdır. Çünki 1/5-i toplayanın vəziyyəti 1/10-i toplayandan daha pisdir. Allahdan asayiş diləyirik!"**

**Cavab:** Zəkat toplayanın duasının qəbul olmama səbəbi onun zalımların köməkçisi olduğuna görədir. Belə ki, onlar camaatdan zorla və haqsız yerə mallarını alırlar.

Ancaq xüms toplayan şəxs belə deyildir. O, xümsü yalnız haqqı olan miqdarda alır və haqqa müvafiq yerdə xərcləyir. Belə olduqda, necə lənətlənmiş və ya məzəmmət edilmiş sayıl bilər?!

Ona görə də ədalətli imam üçün zəkat toplayan şəxsə "əşşar" deyilmir. Çünki o, yalnız haqqı çatan məbləği götürür və onu ədalətli imama təhvil verir. Ədalətli imam da onu haqqa müvafiq olan yerdə xərcləyir.

Bu iki məsələ arasında aydın bir fərq var. Hər vergi toplayan kəs əşşara, yaxud lənətlənmiş va ya duası müstəcab olmayan şəxsə çevrilmir.

* * *

**Müəllif iddia edir: "Başqa bir qeyd: əvvəldə qeyd etdiklərimizdən bizə məlum oldu ki, xüms nə fəqihlərə, nə də müctəhidlərə verilməlidir. Bu məsələ**

**bizə mövzu üzrə hərtərəfli araşdırma nəticəsində aydınlaşdı. Bunu da vurğulamalıyıq ki, fəqih və din mərcləri Əhli-Beytə mənsub olduqlarını iddia edirlər. Onların öz nəsil şəcərələrini Kazımadək (r.a) sadaladıqlarını görürük. Bil ki, İraq, İran, Suriya, Livan, Fars körfəzi ölkələri, Hindistan, Pakistan və digər ölkələrdə bu sayda Əhli-Beyt mənsubu fəqihin olması mümkünsüzdür. Təkcə İraqın fəqihlərinə nəzər salsaq, onların arasında sayılması mümkün olmayacaq həddə Əhli-Beytə mənsub şəxslərin olduğunu görərik. Bəs bu saya digər ölkələrdəki fəqih və müctəhidlərin sayını əlavə etsək necə?! Şübhə yoxdur ki, onların sayı qat-qat artmış olacaq. Onların hamısının Əhli-Beytə mənsub olması mümkündürmü?!"**

**Cavab:** Əvvəldə də qeyd etdiyimiz kimi, müəllifin yol verdiyi ən aşkar yanlış bütün fəqihlərin, hətta din tələbələrinin seyid olduğunu zənn etməsidir. Ona görə də mütəmadi olaraq alim və tələbələrdən "seyid" deyə bəhs edir. Həmçinin burada da tələbələrə "fəqihlər" kəlməsilə işarə edir. Halbuki məsələ heç də belə deyildir.

Bu yanlış gümanının səbəbindən də yuxarıda qeyd etdiyi yanlış nəticəyə gəlib. Bütün alim və tələbələrin seyid olması həqiqətdən tamamilə uzaqdır.

Bu faktın özü ittihamçı müəllifin hövzə tədrisi abu-havasından tamamilə uzaq və terminləri tanımaqda yad insan olduğunu bir daha isbatlayır. Əgər o, həqiqətən də alim və tələbələrdən biri olsaydı, elm əhlinin yalnız az bir hissəsinin seyid olduqlarını bilər və yanlış təsəvvürü yaranmazdı. Çünki hövzədəki qeyri-seyid elm əhli seyidlərdən qat-qat çoxdurlar.

* * *

**Müəllif iddia edir: "Bundan əlavə, nəsil şəcərəsinə aidlik hövzələrdə satılıb alına bilir. Kim Əhli-Beyti nəslinə mənsub olmaq şərəfinə nail olmaq istəyirsə, gözəl olan bacısını və ya arvadını mütə etmələri üçün seyidin yanına gətirmələri, yaxud müəyyən qədər pul vermələri kifayətdir. Bu iki yoldan biri vasitəsilə şəxs Əhli-Beytə mənsubluq şərəfinə nail olacaq. Bu, hövzədə məlum olan məsələdir".**

**Cavab:** Seyidlərin çoxunun mənsub olduqları nəsil şəcərələri barədə qeydlər qorunmuş və hər kəs tərəfindən tanınmaqdadır. Xüsusilə də İraqda öz nəsil

şəcərələrini və ərəb köklərini hifz etmiş qəbilə və tayfalar mövcudluğunu qorumaqdadır. Bu, İraqda məlum bir məsələdir və heç kəsə gizli deyil.

Seyidlik ya məlumat, yaxud sənəd və ya camaat arasında seyid nəslinin mənsubu kimi məşhur olmaqla isbatlanır.

Digər nəsillərin isbatlanmasında da vəziyyət belədir. Ancaq naməlum bir Zeydin və ya Əmrin yazdığı və ya iddia etdiyi şəcərəyə heç kəs etibar etməz.

Şiə əhalisi arasında seyid olmayan bir kəsin seyidlik iddia etməsi heç də asan iş deyil. Çünki, Allaha həmd olsun ki, Onun lütfü sayəsində pak nəslə nisbət verilən bağlar məlum və tanınandır.

Ancaq seyidlik əldə etmək üçün bir kəsin məhrəmini gətirməsi və ya pul verməsi ilə bağlı müəllifin qeyd etdiyi yumoristik hekayəyə gəldikdə, bu, yalanlığı gizli olmayan sözlərdir. Allahdan qorxan bir kəs əsla belə yalanlar uydurmaz! Müəllifin özü də bunun yalan və puç iftira olduğunu bilir. Camaat heç də müəllifin təsəvvür etdiyi kimi sadəlövh deyil ki, öz namuslarını asanlıqla peşkəş etsinlər. Lakin:

Sözgəzdirən barədə mənim də bir tədbirim var.
Yalançı barədə isə heç bir tədbirə gərək yox.
Kim öz sözlərini yalandan uydurursa,
Onun barəsində tədbir tökmək də asandır.

Hal belə idisə, bəs görən müəllifin özü nə üçün seyid və Əhli-Beyt nəslinin mənsubu olduğunu iddia edir, ancaq digərlərin seyidliyinə şübhə ilə yanaşır?! Onun seyid olduğunu təsdiqləyən səhih bir şəcərəsi varmı? Yoxsa o da öz seyidliyini qeyd etdiyi yollarla əldə edib?! Şübhə yoxdur ki, başqasının nəsil mənsubiyyətində şəkk etmək insanın öz mənsəbində şəkkə yol açar.

* * *

**Müəllif iddia edir: "Ona görə də deyirəm: sadəlövh və miskin insanların öz qazanclarının 1/5-ni onlara göndərmələri üçün öz kitablarının ilk səhifəsində seyidlik şəcərələrini qeyd edən müəlliflər sizləri aldatmasınlar".**

**Cavab:** Qılımı aldıqları kitabın ilk səhifəsində nəsil şəcərələrini qeyd edən şəxslər heç də insanların onlara xüms gətirmələri məqsədini güdmürlər. Çünki alim olan şəxsin şəri haqq alması üçün seyid olması gərək deyildir.

Bundan əlavə, öz kitabının səhifələrində mənsub olduğu nəslin şəcərəsini qeyd edən müəlliflər barmaqla sayılacaq qədər azdır. Ola bilsin ki, bu ittihamçı müəllif Seyid Əbdülhüseyn Şərəfüddinin (q.n) bəzi kitablarını nəzər salıb və onlarda seyidin öz nəsil şəcərəsini silsiləvi sadaladığını görüb. Bununla da bütün alimlərin kitab yazarkən belə etdiklərini düşünüb.

Nəsil şəcərəsinin qeyd olunması bəzən Peyğəmbər (s) nəslini şərəfləndirmək, bəzən seyidlik mənsubiyyətini unudulmaqdan və aradan getməkdən qorumaq, yaxud da müəllifin seyid olduğunu inkar edənlərin iddialarından müdafiə məqsədilə edilir.

* * *

**Müəllif iddia edir: "Xüms bəhsinin sonunda sizə dostum, istedadlı və gözəl şair Əhməd Safi Nəcəfinin (r.ə) sözlərindən sitatlar gətirmək istərdim. Mən onunla ictihad dərəcəsinə yüksəldikdən sonra tanış oldum. Biz aramızdakı yaş fərqinə rəğmən səmimi dosta çevrildik. O, yaşda məndən otuz il və ya daha çox böyük idi".**

**Cavab:** Əgər Əhməd Safi Nəcəfi ondan 30 yaş böyükdürsə, bu o deməkdir ki, müəllif təqribən hicri 1344-cü ildə (m.1926-cı ildə) və ya ondan sonra doğulmuşdur. Çünki Safi Nəcəfi hicri 1314-cü ildə (m.1896) anadan olmuş və 1397-ci ildə (m.1977) vəfat etmişdir. Buna əsasən, müəllifin öz iddiasına görə, o, 30 yaşında ictihad dərəcəsinə nail olmuşdur. Beləliklə, o, Şeyx Muhəmməd Hüseyn Kaşiful-ğitadan (q.s) ictihad icazəsini alimin ömrünün sonuncu ilində - hicri 1373-cü ildə (m.1954) almış olur. Əgər Şeyx Kaşiful-ğitanın (q.s) ona ictihad icazəsini ölümündən beş il öncə verdiyini fərz etsək, bu zaman müəllif ictihad dərəcəsinə 25-dən az yaşında nail olur. Bu fakt isə çox nadir və hazırkı dövrdə mümkünsüzdür. Kərbəla əhlisi arasından bu yaşda ictihada çatan bir kəs haqqında heç bir məlumat yoxdur.

* * *

**Müəllif iddia edir: "O, bir vaxt mənə dedi: "Oğlum Hüseyn, özünü xümslə kirləndirmə. Belə ki, xüms qanunsuz bir vergidir". O, xümsün haramlığına məni inandıranadək bu mövzuda söhbətlər edirdi. Sonra mövzu ilə bağlı yazdığı beytləri mənə oxudu. Mən onu yaddaş qovluğumda hifz etdim. Onu möhtərəm oxucular üçün burada qeyd edirəm. Safi Nəcəfi demişdi:**

**Din andında diləncilik edənlərə təəccüblənirəm.**

**Alicənab insan necə diləncilik edə bilər?**

**Əgər elm əldə etmək layiqli əməldirsə,**

**İş belə olsa, cahillik alimlikdən daha yaxşıdır!**

**Məgər Peyğəmbər dönəmində bu adla**

**Xalqdan yığılan pulla yaşayan dəstə vardımı?!**

**Allah zəkatı vacib buyurmuş ki, o da**

**İtaətkarlıqla verilməli, hətta məcburən alınmalıdır.**

**Bu xümsü bizə Sasani övladları peşə olaraq gətirmiş**

**Halbuki bu, qədim ərəb oğullarında yox idi".**

**Cavab:** Şəri hökmlər şairlərdən öyrənilməz. Mükəlləf şəxs Əhli-Beyt imamlarından (ə) nəql və rəvayət edilən səhih mətnlərə tabe olmalıdır, şairlərin qəsidələrinə deyil.

Hərçənd bu şeirdə müəllifin iddialarına dəlalət edən bir şey yoxdur. Belə ki, şair elm əldə edib, sonra ad xalqdan dilənməyi özünə peşə seçənləri və zillətlə aldıqları pullarla yaşayan kəsləri məzəmmət edir.

Zillət və diləncilik toplanmayan xümslə bu sözlərin nə əlaqəsi var?! Məgər insanlar xümsü alimlərə öz istəkləri, ehtiram və təzimləri ilə təqdim etmirlərmi?!

Əgər mərhum Seyid Əhməd Safi Nəcəfinin bu sözləri söylədiyini və məqsədinin də xüms olduğunu fərz etsək, o zaman yanıldığı və xətaya yol verdiyində şübhə olmayacaq. Belə ki, pak ailənin imamlarının (ə) hazır və ya qaib olarkən xümsün ödənilməsinin vacibliyinə dair səhihliyi sübuta yetmiş sözləri və onların dəlaləti aşkar olduğu halda, şairin sözlərinə əsla etina edilməz.

## Səmavi kitablar

**Müəllif iddia edir: "Bütün müsəlmanlar arasında səmavi kitab olan Quranın Allah tərəfindən İslam peyğəmbəri Muhəmməd ibn Abdullaha nazil olduğuna heç bir şübhə yoxdur. Lakin mötəbər mənbələrimizi oxuduğumda onların fəqihlərinin (!) Peyğəmbərə (s) nazil edildiyini və Möminlərin əmirinə (r.a) məxsus olduğunu iddia etdikləri digər səmavi kitabların olduğu diqqətimi çəkdi".**

**Cavab:** Guya şiə fəqihlərinin iddiasına görə, Peyğəmbərə (s) Qurandan başqa kitabın nazil olduğuna dair müəllifin iddiaları doğru deyildir. Bu kitabların bəzisi Peyğəmbər (s) tərəfindən Möminlərin əmirinə (ə) imla edilmiş, bəzisi mələyin imlası ilə yazılmış, bəzisi Möminlərinin əmiri (ə) özü tərəfindən tərtib edilmişdir. Bu kitabların arasında şiələrin Peyğəmbərə (s) nazil olduğuna etiqad bəslədikləri bir kitab belə yoxdur. İnşallah, möhtərəm oxucu üçün bu, qarşıda daha çox aydın olacaq.

* * *

**Müəllif iddia edir: "Bu kitablar aşağıdakılardır:**

**1 – "əl-Camiə"**

**Əbu Bəsir Əbu Abdullahdan nəql edir: "Dedi: "Ey Əbu Muhəmməd, bizdə "əl-Caimə" səhifəsi**[555] **(kitabı) vardır. Onlar "əl-Camiə"nin nə olduğunu haradan bilsinlər?!" Dedim: "Sənə fəda olum, "əl-Camiə" nədir?"**

**Dedi: "Peyğəmbər (s) dirsəyilə yetmiş dirsək uzunluğunda bir kitabdır. Onun dililə imla edilmiş və Əlinin dəst-xəttilə yazılmışdır. Orada bütün halal və haramlar, insanların ehtiyac duyacaqları hər bir şey, hətta bir cırmağın diyəsi belə qeyd olunub..." (Bax: "əl-Kafi", 1/239; "Biharul-ənvar", 26/22).**

**Bu kitabla bağlı "əl-Kafi", "əl-Bihar", "Bəsairud-dərəcat" və "Vəsailuş-şiə" kitablarında digər rəvayətlər də vardır. Biz sözü uzatmamaq üçün yalnız bir rəvayəti qeyd etməklə kifayətlənirik.**

[555] Lülə halında bükülmüş kağız.

**Mən "əl-Camiə"nin həqiqətən olub-olmadığını bilmirəm. Əgər orada insanların qiyamət gününədək ehtiyac duyacaqları sözlər vardırsa, bəs nə üçün onlardan gizli saxlanmışdır? Biz nə üçün ondan, oradakı halal və haramla bağlı hökmlərdən məhrum edilmişik? Məgər bu elmi gizlətmək deyilmi?"**

**Cavab:** Müəllif bu fəslə "Səmavi kitablar" adı qoymuşdur, yəni göydən nazil olmuş kitablar. Fəslin müqəddiməsində də deyir: **"...onların fəqihlərinin (!) Peyğəmbərə (s) nazil edildiyini... iddia etdikləri digər səmavi kitabların olduğu diqqətimi çəkdi".**

Lakin müəllifin təqdim etdiyi rəvayət aydın şəkildə "əl-Caimə"nin səmavi kitab olmadığına dəlalət edir. Bu kitabı Peyğəmbər (s) imla etmiş, Möminlərin əmiri (ə) isə yazmışdır.

Həmçinin ixtisarla nəql edilən bu rəvayətin tam mətnində heç bir insanın nəsibi olmayan, yalnız Əhli-Beytə (ə) məxsus olan digər kitablar, sahib olduqları şəriət elmləri və ilahi təlimlər açıqlanır.

"əl-Camiə" Peyğəmbərin (s) imla etdiyi və Möminlərin əmirinin (ə) öz əlilə yazdığı, Peyğəmbərin (s) dirsəyilə yetmiş dirsək uzunluğunda olan bir kitabdır. Hədislərdən məlum olduğuna görə, bu kitabda halal və haramlar, insanların ehtiyac duyduqları şəri hökmlər, hətta rəvayətdə qeyd edildiyi kimi, bir cırmağın diyəsi də bəyan olunub.[556]

Anlaya bilmirəm ki, bu kitabların varlığı müəllifə niyə belə ağır və qəribə gəlir? Halbuki Peyğəmbər (s) heç kəsə şamil etmədiklərini Möminlərin əmirinə (ə) aid etmişdir. Bu, onların öz kitablarında da qeyd olunur. Tirmizi Cabirə istinadı belə rəvayət edir: "Peyğəmbər (s) Taifə səfəri günü Əlini yanına çağırdı və onunla gizli söhbətləşdi. Camaat "Əmisi oğlu ilə nə uzun-uzadı gizli söhbət etdi" dedilər. Peyğəmbər (s) buyurdu: "Onunla mən deyil, Allah gizli söhbətləşdi".[557]

---

[556] Bax: "Biharul-ənvar", 25/116; 26/18, 20, 21, 22 , 23, 33, 34, 35, 36, 37, 39, 41, 45, 46, 47, 48; 47/26.

[557] "Sünən", Tirmizi, 5/639. Tirmizi orada yazır: "Bu, həsən və qəribə hədisdir". Molla Əli Qari "Mirqatul-məfatih" kitabında (10/471) bu hədisin şərhində yazır: "Məna budur ki, mən Allahın adından mənə əmr etdiklərini gizli və təkbətək söhbətlə

Əhməd ibn Hənbəl, Hakim Nişapuri və digərləri Ümmü Sələmədən rəvayət edirlər: “And içərəm ki, Peyğəmbər ən yaxın şəxs Əli idi”. Sonra dedi: “Peyğəmbər (s) səhər tezdən bizdən dəfələrlə “Əli gəldimi?” deyə soruşdu. Fatimə dedi: “Peyğəmbər onu bir məsələ ilə bağlı göndərib”. Bir müddət sonra Əli gəldi. Ümmü Sələmə deyir: “Peyğəmbərin ondan bir istəyi olduğunu zənn edib otaqdan çıxdıq və qapının qarşısında əyləşdik. Mən qapıya hamıdan yaxın oturmuşdum. Əli Peyğəmbər tərəf əyildi və Allahın elçisi onunla gizlicə danışmağa başladı. Həmin gün Peyğəmbər (s) vəfat etdi. O, vəfat etdikdə insanlar arasından ona yaxın olan və əhdini əmanət etdiyi şəxs Əli idi”.[558]

İbn Səd, Əbu Nüeym, Heysəmi və başqaları İbn Abbasdan rəvayət edirlər: “Biz Peyğəmbərin (s) Əliyə yetmiş əhd əmanət etdiyini və bunu ondan savayı heç kəsə etmədiyini öz aramızda danışırdıq”.[559]

Bütün bunlar nəzərə alındıqda, Peyğəmbərin (s) məxsusi olaraq Möminlərin əmiri Əliyə (ə) hansısa bir elmi öyrətməsində heç bir qeyri-adilik yoxdur. Həmçinin Peyğəmbərin (s) öyrətdiklərini də Əlinin (ə) yazmasında bir qəribəlik ola bilməz. Yazdığı səhifə və kitablara da özü və ya ondan sonra başqaları tərəfindən bir adın qoyulmasında da təəccüblü heç nə olmamalıdır. Bundan əlavə, qeyd edilməlidir ki, Peyğəmbərin (s) səhabələri də ondan eşitdikləri bəzi sözləri yazırdılar. Bu səhabələrdən Abdullah ibn Əmr ibn Ası nümunə göstərmək olar. Buxari Əbu Hüreyrədən nəql edir: “Səhabələr arasında məndən daha çox Peyğəmbərdən (s) hədis

---

ona çatdırdım”. Həmçinin deyir: “ət-Teyyibi deyir: “Bunlar ilahi sirlər və qeybi məsəllər idi ki, Əlini onların xəzinədarı etdi”.

“əl-Möcəmul-kəbir”də (2/186) Təbarini “Əmisi oğlu ilə nə uzun-uzadı gizli söhbət etdi” deyən şəxsin Əbu Bəkr olduğunu yazır.

İbn Əbu Asim “əs-Sünnə” kitabında (2/584) və Xətib Bağdadi “Tarixu Bağdad” kitabında (7/402) bu rəvayəti nəql ediblər.

[558] “Müsnəd”, Əhməd, 6/300; “Fəzailus-səhabə”, 2/686; “əl-Müstədrək”, 3/138. Hakim deyir: “Bu, istinadı səhih olan hədisdir, Müslim və Buxari nəql etməyiblər”. Zəhəbi də onunla razılaşıb.

[559] “ət-Təbəqatul-kubra”, 2/338; “Hilyətul-övliya”, 1/68; “Məcməuz-zəvaid”, 9/113; “əl-Möcəmus-səğir”, Təbərani, 2/69; “əs-Sünnə”, İbn Əbu Asim, 2/550.

rəvayət edən yoxdur, yalnız Abdullah ibn Əmr istisnadır. Belə ki, o, hədisləri yazırdı, mən isə yazmırdım".[560]

Həmçinin bəzi əhli-sünnə alimləri Əlinin (ə) Peyğəmbərin (s) hədislərini yazan səhabələrdən olduğunu da qeyd edirlər.

İbn Səlah deyir: "Birinci təbəqə hədislərin yazılması barədə ixtilaf etmişlər. Onlardan hədis və elmlərin yazılmasını bəyənməyənlər vardı ki, onlar bunların əzbərlənməsinin tərəfdarı idilər, bəziləri də bunun icazəli olduğunu düşünürdülər...".

Ta ki, deyir: "Hədisləri yazmağın icazəli olduğunu düşünənlər və ya yazanlar barədə bizə rəvayət olunur ki, bunlar Əli, oğlu Həsən, Ənəs, Abdullah ibn Ömər, Abdullah ibn Əmr ibn As, həmçinin də səhabə və tabeunlardan bir dəstəsidir".[561]

Siyuti deyir: "Hədisləri yazmağı icazəli bilən bir dəstə olmuşdur və onlar bunu icra da etmişlər. Onlardan: Ömər, Əli, oğlu Həsən, İbn Əmr, Ənəs, Cabir, İbn Abbas, İbn Ömər, həmçinin Həsən, Əta, Səid ibn Cübeyr, Ömər ibn Əbdüləziz. Bunu İyaz bir çox səhabə və tabeundan hekayə etmişdir".[562]

Təəccüb doğuran fakt isə bu müəllifin və bəzi əhli-sünnə tərəfdarlarının Möminlərin əmirinin (ə) gizli elmə sahib olma haqqını inkar etmələridir. Halbuki Əbu Hüreyrə barədə belə bir haqqı qəbul edirlər. Onlar Əbu Hüreyrənin iki elm damarına (istiqamətinə) sahib olduğunu, onlardan birini camaat arasında yaydığını, digərini isə yaymaqdan qorxub gizlədiyini rəvayət edirlər.

Buxari "Səhih"ində Əbu Hüreyrənin belə dediyini nəql edir: "Peyğəmbərdən (s) iki istiqamətdə elm öyrəndim. Onlardan birini camaat arasında yaydım, digərini isə yaysaydım hülqumumu kəsərdilər".[563]

Əgər belə bir faktın mövcudluğu Əbu Hüreyrə barəsində düzgün qəbul ediləndirsə, o zaman körpəliyindən ta dünyasını dəyişənədək Peyğəmbərin (s)

---

[560] "Səhih", Buxari, 1/38, "Elm kitabı", "Elmin yazılması" babı.
[561] "Muqəddimətu İbn Səlah", səh.87-88.
[562] "Tədribur-ravi", 2/65.
[563] "Səhih", Buxari, 1/64.

yanında olan, ona səhabəlik edən Əli (ə) barədə niyə qəbul edilməsin?! Halbuki Əbu Hüreyrənin səhabəlik müddəti 3 (üç) ili aşmır.[564]

Hərçənd İmam Əlinin (ə) elm öyrənməyə hərisliyi daha çox idi. O, tez-tez dünya və din məsələlərilə bağlı Peyğəmbərə (s) suallar verir və Peyğəmbər də (s) onu öyrətməyə şövqlə səy göstərirdi. Tirmizinin Abdullah ibn Əmr ibn Hind əl-Hələbidən nəql etdiyi və "həsən" saydığı rəvayətdə deyilir: "Əli dedi: "Peyğəmbərdən (s) bir şey soruşduqda mənə cavab verir, susduğumda isə özü danışmağa başlayırdı".[565]

İbn Səd Əlidən (ə) ona belə deyildiyini nəql edir: "Niyə səhabələr arasında Peyğəmbərdən (s) ən çox hədisi sən söyləyirsən?" Dedim: "Çünki ondan bir şey soruşduqda, mənə cavab verirdi, susduğumda isə o özü sözə başlayırdı".[566]

Sadəcə Möminlərin əmiri Əli (ə) Peyğəmbərdən (s) eşitdiklərini yazır, Əbu Hüreyrə isə yazmırdı.

Bütün bunlardan sonra, Peyğəmbərin (s) halal və haramların cəmləndiyi mövzuları Möminlərin əmiri Əliyə (ə) imla etməsində bir qəribəlik ola bilərmi?! Xüsusilə də, Peyğəmbər (s) ümmət üçün bir şey yazmağı istəyirdi. Onun yazmasına bu kitabmı maneə oldu?!

Buxari (hədis onun kitabından nəql edilir), Müslim, Əhməd ibn Hənbəl, İbn Hibban və digərləri İbn Abbasdan rəvayət edirlər: "Peyğəmbərin (s) ölüm yatağında ikən aralarında Ömər ibn Xəttabın da olduğu bir dəstə səhabə onun yanına gəldilər. Peyğəmbər (s) buyurdu: "Gətirin, sizin üçün bir şey yazım ki, ondan sonra azmayasınız". Ömər dedi: "Ağrılar Peyğəmbərə (s) üstün gəlmişdir. (Ey səhabələr,) Sizin yanınızda Quran vardır. Allahın kitabı bizə yetər!" Evdə toplaşanlar mübahisə etdilər. Onlardan bir hissəsi "Qoy, Peyğəmbər (s) sizin üçün yazsın ki, ondan sonra azmayasınız". Bir hissəsi isə Ömərin fikirlə razılaşdı". Peyğəmbərin (s) yanında səs-küyləri qalxdıqda o, buyurdu: "Qalxın və gedin!" Übeydullah deyir: "İbn Abbas belə

---

[564] Buxari "əl-Mənaqib" kitabında ("Peyğəmbərliyin əlamətləri" babı, 4/239) Əbu Hüreyrəyə istinadən belə nəql edir: "Peyğəmbərə (s) üç il səhabəlik etdim, həmin illərdə hədis əzbərləməkdən məndən daha həris bir kəs yox idi".

[565] "Sünən", Tirmizi, 5/640.

[566] "ət-Təbəqatul-kubra", 2/338; "Tarixu Diməşq" (2/456) kitabında Möminlərin əmiri Əli ibn Əbu Talibin (ə) tərcümeyi-halı.

deyirdi: "Ən böyük rəzalət onların mübahisələri və səs-küyləri nəticəsində Peyğəmbəri (s) yazmağa qoymamalarıdır".[567]

Müslim İbn Abbasın belə dediyini rəvayət edir: "O cümə axşamı günü! Necə gün idi o!" Sonra gözlərindən yaşlar axmağa başladı və sapa düzülmüş mirvari kimi yanaqlarından axdığını gördüm. Ardınca dedi: "Peyğəmbər (s) həmin gün buyurdu: "Mənə bir kağız və mürəkkəb gətirin, sizin üçün bir şey yazım ki, ondan sonra azmayasınız". Amma onlar "Peyğəmbər sayıqlayır" dedilər".[568]

Nəvəvinin və başqalarının ehtimalına görə, Peyğəmbərin (s) yazmaq istədikləri dinin mühüm hökmləri və ya özündən sonrakı xəlifənin təyini barədə idi.[569]

Əgər birinci ehtimal doğru olsa, [570] yazmasına mane yaradıldıqdan sonra Peyğəmbərin (s) Əliyə (ə) kitab imla etməsi heç də uzaq ehtimal deyildir. Beləliklə də onun imlası ilə Möminlərin əmiri (ə) halal və haramları ehtiva edən dinin bütün hökmlərini "Camiə" adlanan bir kitabda toplamışdır.

---

567 "Səhih", Buxari, 5/155-156, "Tibb" kitabı, "Xəstənin "Qalxın və gedin" deməsi" babı, "Möhkəm bağlılıq" kitabı, "Mübahisənin bəyənilməməsi" babı (6/11), "Qəzvələr" kitabı, "Peyğəmbərin (s) xəstələnməsi və vəfatı" babı (4/121), "Cizyə" kitabı, "Yəhudilərin Ərəb yarımadasından çıxarılması" babı (4/185), "Cihad" kitabı, "Zimmiləri və onların əməllərini müdafiə etmək olarmı" babı. "Səhih", Müslim, 3/1259; "Müsnəd", Əhməd ibn Hənbəl, 1/324-325, 336. "əl-İhsan bitərtibi səhihi İbn Hibban", 8/201.

568 "Səhih", Müslim, 3/1259; "Müsnəd", Əhməd, 1/355. Həmçinin bax: "Müsnəd", Əhməd ibn Hənbəl, 1/222, 293; "əl-Müstədrək", 3/477; "Məcməuz-zəvaid", 4/214, 5/181.

569 "Nəvəvinin şərhilə Müslimin "Səhih"i", 11/90.

570 Doğru olan budur ki, peyğəmbər (s) Möminlərin əmiri Əlinin (ə) özündən sonra xəlifəliyini yazaraq təsbit etmək istəyirdi. Çünki dinin vacib hökmləri həmin vaxtadək artıq bəyan olunmuş və açıqlanmışdı. Belə ki, Allah o günədək dinini tamamlamış, nemətini kamala yetirmişdi. Bəyan olunmuş hökmləri təkrarən yazmaqdansa, özündən sonrakı xəlifənin insanlara çatdırılması daha çox əhəmiyyət kəsb edirdi. Xəlifənin yazılı olaraq təyinatı ilə yarana biləcək bütün ixtilaf, bəla və azmalar aradan qalxacaqdı. Çünki bilmədiyi bir məsələdə yanlışa yol vermiş bir kəs azmış hesab olunmur. Ən pis halda fasiq sayılar. Əgər Peyğəmbər (s) vacib hökmləri yazmaq istəsəydi, o zaman hüzurunda mübahisə və səs-küy düşməz, ona sayıqlamaq nisbəti verilməzdi. Onların səs-küyünün səbəbi Peyğəmbərin (s) özündən sonrakı xəlifələrin adlarını yazaraq müəyyən edəcəyini bilmələridir. Belə ki, Peyğəmbərin (s) ağrılarının artığı həmin vaxtlarda (vəfatı ərəfəsindəki günlərdə) şəri hökmlərdənsə, özündən sonrakı xilafət məsələsi onu daha çox narahat edirdi.

Həmçinin əhli-sünnə İbn Abbasda bir dəvə yükü qədər kitabın olduğunu nəql edir. İbn Səd "ət-Təbəqatul-kubra"da Musa ibn Əqəbədən rəvayət edir: "Qarşımıza İbn Abbasın bir dəvə yükü və ya yarısı qədər kitablarından qoyuldu. Dedi: "Əli ibn Abdullah ibn Abbas bir kitab istədikdə bizə belə yazırdı: "Mənə filan kitabı (və ya səhifəni) göndər". Deyir: "O da həmin kitabın nüsxəsini çıxarar və onlardan birini göndərərdi".[571]

Anlamaq olmur ki, hər hansı bir səhabəyə bu faktlar nisbət verildikdə heç kəs qarşı çıxmır və mümkünsüz saymır, lakin Əli ibn Əbu Talibə (ə) nisbət verildikdə inkar edir və qarşı çıxırlar?!

Müəllifə ağır gələn və problem hesab etdiyi elmin gizlədilməsi məsələsinə gəldikdə, bu iş heç bir cəhətdən haram deyildir. Əqli və nəqli dəlillər layiq olmayan, eləcə də aşkar ediləcəyi təqdirdə faydası toxunmayacaq şəxslərdən elmin gizlədilməsinə icazə verir. Necə ki, can, mal və namusun təhlükəyə düşməsi ehtimalında gizlədilməsi vacib sayılır. Ona görə də Allah elçisinin (s) hüzurunda bir dəstə səhabə qarşı çıxdıqları zaman Peyğəmbər (s) yazmaqda təkid etmədi.

Əgər Möminlərin əmiri Əlidə (ə) "əl-Camiə" adlı kitabın mövcudluğu doğrudursa, həmin kitabı hamıya paylaması ona vacib deyildir. Çünki Peyğəmbər (s) həyatda ikən onun yazmaq istəyini rədd edənlər vəfatından sonra onun sözlərini Möminlərin əmirindən (ə) necə qəbul edəcəkdilər?

Bundan əlavə, əhli-sünnə kitablarında bəzi səhabələrin zərər gətirəcəyi qorxusu ilə özlərində olan məlumatları gizlədikləri rəvayət olunur.

Təbərani Hüzeyfəyə istinadən nəql edir: "Allaha and olsun, əgər istəsəydim sizə min kəlmə söyləyərdim ki, Allahdan və Elçisindən bir xeyirxahlıq olaraq onlara görə məni sevər, ardımca gələr və təsdiqləyərdiniz. Əgər istəsəm sizə min kəlmə də söyləyərəm ki, onlara görə mənə nifrət edər, uzaqlaşar və təkzib edərsiniz".[572]

Əhli-sünnə kitablarında bu mənaya dəlalət edən hədislər çoxdur, onların hamısını burada qeyd etməyə lüzum görmürük.

---

[571] "ət-Təbəqatul-kubra", 5/293.

[572] "əl-Möcəmul-kəbir", 3/180; "Məcməuz-zəvaid", 1/182. Heysəmi deyir: "Bunu Təbərani "əl-Möcəmul-kəbir"də rəvayət edib, raviləri inanılan (siqə) şəxslərdir.

* * *

**Müəllif iddia edir: "2 - "ən-Namus" kitabı:**

**İmamın əlamətləri ilə bağlı Rzadan (r.a) nəql olunan hədisdə deyir: "İmamda qiyamət gününədək doğulacaq şiələrinin adları yazılmış bir səhifə (kitab), eləcə də düşmənlərinin adları qeyd olunmuş digər səhifə (kitab) olmalıdır" (Bax: "Biharul-ənvar", 25/117; 26-cı cilddə isə bu barədə başqa bir rəvayət qeyd olunur).**

**Mən sual verirəm: Qiyamət gününədək doğulacaq şiələrin adları hansı kitaba sığar?! Əgər bu gün İraqda yaşayan şiələrin adlarını bir kitaba yazsaq, ən azı yüzlərlə cildə ehtiyac duyular. Bəs buraya İran, Hindistan, Pakistan, Suriya, Livan, Körfəz dövlətləri və digər ölkələrdə yaşayan şiələrin adlarını əlavə etsək necə olacaq? Bəs şiəlik yarandığı gündən ta bu günədək yaşayıb dünyadan köçmüş şiələrin adlarını əlavə etsək necə?..**

Və bu adları özündə toplayacaq belə bir kitabın varlığının mümkünsüzlüyü barədə müəllifi söylədiyi digər iradlar...

**Cavab:** Şiələrin və onların düşmənlərinin adlarının qeyd edildiyi kitabdan bəhs edən bu rəvayətlərin sənədlərinə nəzər salmadan, müəllifin gətirdiyi iradlara aşağıdakı kimi cavab vermək olar:

1. Bəzi rəvayətlərə əsasən, şiələrin adları bir səhifədə deyil, bir çox səhifələrdə (kitablarda) yazılmışdır. Nəinki, hətta bəzilərinə əsasən, onun miqdarı bir dəvə yükü qədərdir.

Muhəmməd ibn Həsən Səffar "Bəsairud-dərəcat" kitabında Hüzeyfə ibn Üseyd əl-Ğiffaridən nəql edir: "İmam Həsən (ə) Müaviyə ilə sülh bağlayıb Mədinəyə qayıtdıqda, yolda ona səfər yoldaşı oldum. Qarşısında bir yük aparan dəvə vardı ki, ondan heç ayrılmırdı. Bir gün ona dedim: "Sənə fəda olum, ey Əbu Muhəmməd, bu yüklü dəvə səndən əsla ayrılmır, hara getdinsə, səninlə birlikdə gedir". Buyurdu: "Ey Hüzeyfə, onun (yükün) nə olduğunu bilirsən?" Mən "Xeyr" deyə cavab verdim. Buyurdu: "Bu, siyahıdır". Dedim: "Nəyin siyahısıdır?" Buyurdu: "Şiələrimizin siyahısıdır. Orada onların adları yazılıb". Dedim: "Sənə fəda olum, mənim adımı orada göstər". İmam (ə) mənə səhər tezdən gəlməyimi buyurdu. Səhər obaşdan

qardaşımın oğlu ilə birlikdə onun yanına gəldik. Qardaşımın oğlu oxuya bilir, mən isə bacarmırdım. Buyurdu: “Səhər tezdən səni bura nə gətirib?” Dedim: “Mənə dünən verdiyin vəd”. Buyurdu: “Səninlə birlikdə gələn bu gənc kimdir?” Dedim: “Qardaşımın oğludur. O, oxumağı bacarır, mən isə yox”. İmam (ə) oturmağımı buyurdu və mən də əyləşdim. Sonra orta siyahını gətirmələrini buyurdu. Siyahını ona gətirdilər. Gənc oraya baxır, adlar isə parlayırdı. Gənc oxuduğu vaxt bir anda “Əmican, bu mənim adımdır!” dedi. Dedim: “Anan yasında ağlasın, bax, gör, məni adım haradadır?” Gənc kitabı bir az da açdı, sonra dedi: “Bu da sənin adın!” Biz çox sevindik. Həmin qardaşım oğlu sonra Kərbəlada İmam Hüseyn ibn Əli ilə (ə) birlikdə şəhid edildi”.[573]

Əgər bu səhifələrin miqdarı dəvə yükü qədərdirsə və sadəcə şiələrin adları qeyd olunubsa, onun bütün şiələrin adlarını ehtiva etməsi mümkünsüz olmayacaq.

2. Mümkündür ki, İmam (ə) şiələr dedikdə onların hökmlərinin həqiqi ardıcıllarını nəzərdə tutur, şiə ata-anadan dünyaya gələn bütün şəxsləri deyil. Orada adları qeyd edilən şiələr məhz İmam Sadiqin (ə) bu sözlərlə vəsf etdiyi şəxslərdir: “Şiələrimiz hidayət, təqva, xeyirxahlıq, iman, fəth və zəfər əhlidirlər”.

Yenə də ondan (ə) rəvayət olunur: “Alçaqlıqdan uzaq ol! Həqiqətən də Əlinin şiələri yalnız qarnını və övrətini qoruyan, çox səy edən, xaliqi üçün əməl edən, Onun savabını diləyən və cəzasından qorxan kəslərdir. Əgər belə şəxsləri görsən, bil ki, Cəfərin şiələri məhz onlardır”.

Həmçinin buyurur: “Əlinin şiələrinin qarınları boş və dodaqları solğundur, şəfqətli, elmli və həlimdirlər, möminlikləri ilə tanınırlar. Özünüzə pəhrizkarlıq və çalışqanlıqla yardım edin!”[574]

Bu sifətlərlə vəsf olunan şiələr ümumi şiələrin az bir hissəsidir, heç də sayları müəllifin təsəvvür etdiyi qədər deyildir. Belə şiələrin adları yazılmış kitabların miqdarının bir dəvə yükü qədər olması da uzaq fikir deyildir.

3. Əhli-sünnə kitablarında bundan daha böyük və dəhşətli iddialar qeyd olunur. Onların rəvayətlərinə əsasən, Peyğəmbər (s) camaatın önünə iki kitab çıxardı ki,

---

[573] “Bəsairud-dərəcat”, səh.192.
[574] “əl-Kafi”, 2/233.

orada həm cənnət, həm də cəhənnəm əhlinin adları qeyd olunmuşdu. Şübhə yoxdur ki, bu kitablardakı adlarda məqsəd Allahın məxluqatı yaratdığı gündən etibarən gəlib-getmiş insanların adlarıdır. Çünki mövcud olan hər bir insan ya cənnət, ya da cəhənnəm əhli olmalıdır. Belə bir kitab müəllifin inkar etdiyi kitabdan daha böyük və daha əhatəli olmalıdır.

Tirmizi "Sünən"də, Əhməd ibn Hənbəl "Müsnəd"də, Təbərani "əl-Möcəmul-övsat"da, Əbu Nüeym "Hilyətul-övliya"da və digərləri Abdullah ibn Əmr ibn Asdan nəql edirlər: "Peyğəmbər (s) bizim qarşımıza əlində iki kitabla çıxdı və buyurdu: "Bu iki kitabın nə olduğunu bilirsinizmi?" Dedik: "Ey Allahın elçisi, sənin bizi öyrətdiklərindən savayı heç nə bilmirik". Peyğəmbər sağ əlindəkini göstərib dedi: "Bu, aləmlərin Rəbbindən gələn kitabdır. Burada cənnət əhlinin, onların atalarının və qəbilələrinin adları yazılmışdır. Sonra kitabın sonundan bir neçəsini qeyd etdi. O adların arasına nə bir ad əlavə edilər, nə də oradan biri çıxarılar". Sonra sol əlindəkini göstərib buyurdu: "Bu, aləmlərin Rəbbindən gələn kitabdır. Burada cəhənnəm əhlinin, onların atalarının və qəbilələrinin adları yazılmışdır. Sonra kitabın sonundan bir neçəsini qeyd etdi. Bu adların arasına nə bir ad əlavə edilər, nə də oradan biri çıxarılar". Səhabələr dedilər: "Ey Allahın elçisi, əgər insanlar artıq cənnət və cəhənnəm arasında bölünmüşlərsə, bizim əməllərimiz nəyi dəyişəcək?" Buyurdu: "Siz əməllərinizə davam edin və Allaha yaxınlaşın. Belə ki, cənnət əhli hansı əməli etməsindən asılı olmayaraq, sonda əməlləri cənnət əhlinin əməlilə bitir. Həmçinin cəhənnəm əhlinin də əməli belədir. Sonra hər iki əlini açaraq dedi: "Allah artıq məxluqları xəlq etmişdir, onların bir hissəsi cənnətdə, bir hissəsi də cəhənnəmdədir". Səhabələr dedilər: "Allah pak və münəzzəhdir. Biz feli etmədiyimiz halda artıq yerimizi təyin edib?" Peyğəmbər (s) buyurdu: "Əməllər sonuna görə qiymətləndirilir".

Tirmizi deyir: "Bu həsən, qəribə və səhih hədisdir".[575]

---

[575] "Sünən", Tirmizi, 4/449; "Müsnəd", Əhməd ibn Hənbəl, 2/167; "Məcməuz-zəvaid", 7/187; "Təfsir", Təbəri, 25/7; "Təfsiru Qur`anil-əzim", 4/107; "Hiylətul-övliya", 5/168; "Camiul-ulum vəl-hökm", 1/59; "Kitabus-sünnə", İbn Əbu Asim, 1/154. Albani ona haşiyə yazaraq deyir: "Sənədi həsəndir" (848). Həmçinin

Biz burada müəllifdən və onun kimi düşünən digərlərindən soruşuruq: Peyğəmbərin (s) vəfatından sonra həmin o iki kitab necə oldu?

Məgər həmin o iki kitabın vərəsəlik yolu ilə Əhli-Beyt imamlarına (ə) ötürülməsi mümkün deyilmi? Beləliklə, orada onların həm tərəfdarlarının (cənnət əhlinin), həm də düşmənlərinin (cəhənnəm əhlinin) adları qeyd edilmiş olmurmu?

4. Əgər şiələr dedikdə məqsəd müəllifin bütün sadaladıqlarıdırsa, əlbəttə ki, onların hamısının adları bir kitaba sığışmaz. Bəlkə də həmin kitab bizim görməyə vərdiş etdiyimiz şəkildə tərtib edilməyib, qeyri-adi formada yazılmışdır.

Buna əsasən də, həm bu kitabın, həm də Peyğəmbərin (s) əlində olan o iki kitabın kiçik həcmlərinə rəğmən, bütün adları özündə ehtiva etməsi mümkün ola bilər.

* * *

**Müəllif iddia edir: "3 – Übeytə səhifəsi:**

**Möminlərin əmirindən (r.a) rəvayət olunur: "Allaha and olsun ki, məndə Peyğəmbərinə (s) və Əhli-Beytinə verilmiş bir çox səhifələr (!) vardır. Onlardan birinə Ubeytə deyilir. Ərəblərə ondan ağır bir şey gəlməmişdir. Orada Allahın dinindən heç bir nəsibi olmayan altmış qəbilənin adı vardır" ("Biharul-ənvar", 26/37).**

**Bu rəvayət nə qəbuledilən və nə də ağlabatandır. Əgər Allahın dinindən nəsibi olmayan bu sayda ərəb qəbiləsi vardırsa, bu o deməkdir ki, Allahın dinindən heç bir müsəlmanın nəsibi yoxdur.**

**Bu sərt hökmün məhz ərəb qəbilələrinə aid edilməsindən milliyyətçilik qoxusu gəlir. Bunun açıqlaması qarşıdakı fəsildə olacaq".**

**Cavab:** Bu rəvayətin sənədi olduqca zəifdir. Rəvayətin ravisi Əbu Ərakədir. Onun inanılan şəxs olması tərcümeyi-hal kitablarında sübuta yetməyib.

Ravilər arasında Əli ibn Meysərə və Əbul-Həsən əl-Əbdi də vardır ki, onların hər ikisi halı məchul şəxslərdir.

---

"Silsilətul-əhadisis-səhihə"də də qeyd edir (2/503). "əl-Fəthul-kəbir", Nəbhani, 1/40; "Səhihul-camiis-sağiri və ziyadətuh", 1/79. Albani orada yazır: "Səhihdir".

Həmçinin rəvayətin ravilərindən olan Muhəmməd ibn Əli ibn Əsbata da tərcümeyi-hal kitablarında əhəmiyyət verilməmişdir.

Əbu İmran əl-Ərməni isə Musa ibn Zəncəviyyədir. O, zəif ravidir. Onun zəif olduğu Nəcaşi və İbn Ğəzairi qeyd ediblər.[576]

Ravilərdən biri də Yəqub ibn İshaq əz-Zəbyidir ki, rəvayəti Əbu İmran əl-Ərmənidən nəql edir. O da halı məchul ravidir, tərcümeyi-hal kitablarında inanılan şəxs kimi təqdim olunmur.

Muhəmməd ibn Həssan ər-Razi isə Səffarın nəql etdiyi rəvayətin ravisidir. Onun da inanılan şəxs olduğu sübuta yetməyib. Nəinki, hətta İbn Ğəzairi onu zəif hesab etmişdir. Nəcaşi onun barəsində deyir: "Tanınır və hədisləri inkar olunur. Ondan zəif ravilər rəvayət nəql edirlər".[577]

Bu, müəllifin dəlil olaraq təqdim etdiyi rəvayətdir. Sənədi olduqca zəifdir, raviləri məchul, zəif və əhəmiyyət verilməyən şəxslərdir. Belə bir rəvayəti necə dəlil kimi təqdim etmək və ona əhəmiyyət vermək olar?!

Rəvayətin sənədinə göz yumsaq belə, oradakı qəbilələr Bəni Haşim, Bəni Üməyyə və s kimi tayfa qəbilələrinə, hətta Bəni-Abbas kimi bir nəsil qoluna da şamil ola bilər. Bunun amili isə rəvayətdə altmış ərəb qəbiləsinin qeyd olunmasıdır.

Şübhə yoxdur ki, ərəb qəbilələri arasında bu cür bölgülər olduqca çoxdur. Rəvayətdə Allahın dinindən nəsibi olmayan altmış ərəb qəbiləsinin qeyd olunmasının mənası bu ola bilər. Belə ki, müsəlmanların İslamın həqiqət və təlimlərindən uzaq düşmüş bir çox müxtəlif firqələrə bölündükləri inkarolunmaz faktdır.

Ancaq məxsusi olaraq ərəblərin qeyd edilməsinə gəldikdə, bəlkə də bunun xüsusilə qeyd edilməsi İslam görünüşü altında olan və zahirən ona uyğun davranan ərəb qəbilələrinin çoxunun haqq olması təsəvvürünü dəf etməkdən ötrüdür.

* * *

**Müəllif iddia edir: "4 – Qılıncın kəmərindəki səhifə:**

---

576 "Rical", Nəcaşi, 2/342; "Rical", İbn Ğəzari, səh.91. "Möcəmu ricalil-hədis" kitabına müraciət et (19/43).

577 "Rical", Nəcaşi, səh.239; "Rical", İbn Ğəzairi, səh.95.

**Əbu Bəsir Əbu Abdullahdan (r.a) rəvayət edir ki, Peyğəmbərin (s) qılıncının kəmərində bükülmüş kiçik bir səhifə vardı. Orada müəyyən hərflər yazılmışdı ki, hər bir hərfdən də min hərf açılırdı. Əbu Bəsir deyir: "Əbu Abdullah buyurdu: "Bu anadək onlardan yalnız iki hərf ortaya çıxarılmışdır" ("Biharul-ənvar", 26/56).**

**Bəs digər hərflər haradadır? Məgər Əhli-Beytin şiələrinin istifadə etmələri üçün həmin hərflər ortaya çıxarılmalı deyildi? Yoxsa o da Qaim qiyam edənədək orada yazılı olaraq qalacaq?"**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Ravilərdən biri Əli ibn Əbu Həmzədir. O isə batini məzhəbli və İmam Rzanın (ə) imamlığını inkar edən vaqifi başçılarındandır.

İbn Ğəzairi deyir: "Əli ibn Əbu Həmzə (Allahın lənəti olsun ona!), ilk vaqifilərdəndir. İmam Museyi-Kazımdan (ə) sonrakı imama qarşı ən çox ədavət bəsləyən kəsdir".[578]

Əli ibn Həsən ibn Fəzzal deyir: "Əli ibn Əbu Həmzə - kəzzabdır (yalançıdır), vaqifidir, ittiham olunmuş və lənətlənmişdir. Əvvəllər ondan bir çox hədislər rəvayət etmiş və bütün Quranın təfsirini vermişdim. Ancaq hazırda ondan bir hədis belə rəvayət etməyi halal bilmirəm".[579]

Onu İbn Davud da öz "Rical"ında, Əllamə "əl-Xülasə"də, Məclisi "Rical" və "əl-Vəcizə" kitablarında zəif saymışlar.[580]

İbn Davud "Rical"ında İmam Rzadan (ə) belə rəvayət edir: "Buyurdu: "Onun yalanları sizə aydın oldumu? Məgər o Mehdinin başı insanları İsa ibn Məryəmə doğru yönəldəcəyini rəvayət etmirmi?"

Barəsində söhbət açdığımız rəvayətin sənədində başqa bir zəiflik də var. Bu isə Qasim ibn Muhəmməd əl-Cövhəri səbəbindəndir. Onun Əli ibn Əbu Həmzədən nəql etməsi də burada amil rolunu oynayır. Qasim ibn Muhəmmədin inanılan şəxs olduğu tərcümeyi-hal kitablarında isbatlanmayıb.

---

578 "Rical", İbn Ğəzairi, səh.83.

579 "Rical", Əllamə Hilli, səh.231.

580 "Rical", İbn Davud, səh.259; "Rical", Əllamə Hilli, səh.231; "əl-Vəcizə", səh.118; "Rical", Məclisi, səh.255.

Bütün bunlara əsasən, rəvayət zəifdir, heç bir halda ona əhəmiyyət vermək olmaz.

Rəvayətin sənədinə göz yumsaq, müəllifin bu rəvayətə bir irad irəli sürdüyünü görmürük. İradı yalnız **"Bu anadək onlardan yalnız iki hərf ortaya çıxarılmışdır"** sözünədir. Səbəb isə eynilə bu rəvayətin onların kitablarında səhih sənədlərlə nəql edilməsidir. Onların rəvayətlərində bu səhifənin Möminlərin əmiri Əlinin (ə) qılıncının qınına bağlandığı qeyd olunub. Lakin bu ikisi arasında elə də bir fərq yoxdur. Bəlkə həmin səhifə Peyğəmbərin (s) də qılıncının qınına bağlı idi. Sonra isə Möminlərin əmirinə (ə) miras qaldı və o da qılıncının qınına bağladı.

Buxari (rəvayət onun kitabından nəql ediləcək), Müslim, Əhməd, Nəsai, İbn Hibban, Beyhəqi, Hakim, Əbu Nüeym, Əbu Əvanə, Hümeydi və digərləri İbrahim ət-Teymi sənədilə onun atasından belə rəvayət etdiyini yazırlar: "Əli (r.a) bizə kərpicdən olan minbər üzərindən xütbə söyləyirdi, üzərində qılınc vardı və qılınca bir səhifə bağlanmışdı. Əli dedi: "Allaha and olsun ki, bizə Allahın kitabından və bu səhifədə yazılanlardan savayı oxunan bir kitab yoxdur. O, səhifəni açdı. Orada dəvənin diyəsi, Mədinə şəhərinin Eyr dağından filan dağadək ərazisinin hərəm olduğu, orada bir bidət və ya zülm ortaya çıxaranın Allah, mələklər və bütün insanlar tərəfindən lənətləndiyi yazılmış, belə kəsin nə bir vacibinin, nə də nafiləsinin (və ya tövbə və fidyəsinin) qəbul edilməyəcəyi yazılmışdı. Həmçinin orada müsəlmanların hər birinin, ən zəifinin belə amanda olduqları, kim bir müsəlmanla bu əhdini pozarsa, onun Allah, mələklər və bütün insanlar tərəfindən lənətləndiyi yazılmış, belə kəsin nə bir vacibinin, nə də nafiləsinin (və ya tövbə və fidyəsinin) qəbul edilməyəcəyi qeyd olunmuşdu. Eləcə də orada qeyd olunurdu ki, kim hakimin izni olmadığı bir qövmlə dostluq etsə, ona da Allahın, mələklərin və bütün insanlar lənəti olsun, belə kəsin nə bir vacibi, nə də nafiləsi (və ya tövbə və fidyəsi) qəbul edilməyəcəkdir".[581]

---

[581] "Səhih", Buxari, 4/2278; "Səhih", Müslim, 2/995, 1147, 3/1567; "Səhih", İbn Hibban, 13/216; "əl-Müstədrəku ələs-səhiheyn", 4/153, Heydərabad çapı; "Müsnəd", Əhməd, 1/118, 119, 152; "Sünən", Beyhəqi, 8/29, 9/250; "Sünən", Nəsai, 8/392; "əs-Sünənul-kubra", Nəsai, 2/486, 5/208; "Müsnəd", Əbu Əvanə, 3/239, 240, 5/76; "Şə`bul-iman", 6/189; "Hilyətul-övliya", 4/131; "Münsəd", Hümeydi, 1/23.

Bəzi rəvayətlərdə isə Möminlərin əmiri Əlidə (ə) bir səhifənin olduğu deyilir, lakin qılıncın qınına bağlandığı qeyd edilmir. Belə hədislərin sayı çoxluq təşkil edir.

**Onlardan:** Buxari "Səhih"də, Əbu Davud, İbn Macə, Nəsai və Darəmi "Sünən"lərində, Əhməd "Müsnəd"də və digərləri Şə`bi sənədilə Əbu Cüheyfədən rəvayət edirlər: "Əliyə dedim: "Sizdə kitab varmı?" Dedi: "Xeyr, yalnız Allahın kitabı, müsəlman şəxsə verilmiş fəhm və bu səhifədəkilərdən savayı bir şey yoxdur". Dedim: "Bu səhifədə nələr yazılıb?" Dedi: "Diyə, əsirlərin azad edilməsi və müsəlmanın kafirə görə öldürülməməsi".[582]

Buxari "Səhih"ində, Tirmizi "Sünən"də, Beyhəqi "əs-Sünənul-kubra"da və digərləri İbrahim ət-Teymi istinadı ilə onun atasından, o da Mövla Əlidən (ə) belə buyurduğunu nəql edir: "Bizdə Allahın kitabından və Peyğəmbərdən (s) qalan bu səhifədən savayı heç bir şey yoxdur. Səhifədə isə bunlar yazılmışdır: "Mədinənin ərazisi Eyr (Air) dağı ilə filan dağa qədər hərəmdir, kim orada bir fitnə çıxarsa və ya fitnəkara himayədarlıq etsə, ona Allahın, mələklərin və bütün insanlar lənəti olsun, belə kəsin nə bir vacibi, nə də nafiləsi (və ya tövbə və fidyəsi) qəbul edilməyəcəkdir. Həmçinin orada müsəlmanların hər birinin, ən zəifinin belə amanda olduqları, kim bir müsəlmanla bu əhdini pozarsa, onun Allah, mələklər və bütün insanlar tərəfindən lənətləndiyi yazılmış, belə kəsin nə bir vacibinin, nə də nafiləsinin (və ya tövbə və fidyəsinin) qəbul edilməyəcəyi qeyd olunmuşdu. Eləcə də orada qeyd olunurdu ki, kim hakimin izni olmadığı bir qövmlə dostluq etsə, ona da Allahın, mələklərin və bütün insanlar lənəti olsun, belə kəsin nə bir vacibi, nə də nafiləsi (və ya tövbə və fidyəsi) qəbul edilməyəcəkdir".[583]

Onların kitablarında nəql edilən bu rəvayətlərin əksəriyyətindən belə anlaşılır ki, həmin səhifələrdə yazılanlar hədisdə qeyd edilənlərdən daha geniş mövzuları ehtiva

---

[582] "Səhih", Buxari, 1/62, 2/937, 4/2154, 2156; "Sünən", Nəsai, (Siyutinin şərhi ilə) 8/392; "Sünən", Əbu Davud, 2/216; "Sünən", İbn Macə, 2/887; "əs-Sünənul-kubra", Nəsai, 4/220; "Sünən", Darəmi, 2/633; "Müsnəd", Əhməd, 1/79; "Sünən", Beyhəqi, 9/226.

[583] "Səhih", Buxari, 1/553, 2/979, 981, 4/2110; "Sünən", Tirmizi, 4/438; "əs-Sünənul-kubra", Beyhəqi, 5/196; "Müsnəd", Əhməd, 1/81.

edir. Bunun dəlili isə müəyyən hədislərdə səhifənin məğzi barədə fərqli mövzulardan danışılmasıdır.

Bu səhifənin ümumi qanunları ehtiva etməsi uzaq fikir deyildir. Bu cəhətdən də **Orada müəyyən hərflər yazılmışdı ki, hər bir hərfdən də min hərf açılırdı"** deyilir.

Bəlkə də **"Bu anadək onlardan yalnız iki hərf ortaya çıxarılmışdır"** sözündə məqsəd elə "Müsəlman kafirə görə öldürülməz" və "Hakimin izni olmadan bir qövmlə dostluq edilməz" qanunlarıdır ki, bu iki qanundan bir çox qaydalar doğur.

Ancaq iki hərfdən (fikirdən) savayı digər hərfləri İmamın (ə) gizli saxlamasına gəldikdə, bunun səbəbini biz bilmirik. Belə ki, İmam (ə) öz vəzifəsini daha yaxşı bilir və zəmanəsini yaxşı tanıyır. Bizim o hərflərdən nəyisə mütləq bilmək kimi bir vəzifəmiz yoxdur.

Həmçinin əhli-sünnə yolu ilə nəql edilən rəvayətlərdən də anlaşılır ki, İmam (ə) səhifədə yazılanların hamısını onlara açıqlamır. Buna əsasən, həmin irad onlara da ünvanlana bilər. Nəinki, hətta həmin hədislərin istinadlarını səhih saydıqları və İmamın (ə) öz dövründəki insanlardan təqiyyə etmədiklərinə etiqad bəslədikləri üçün bu iradın üzərində daha çox təkid edilməlidir.

* * *

**Müəllif iddia edir: "5 – Əlinin səhifəsi (kitabı). Bu, onun qılıncının kəmərində olan digər səhifədir:**

**Əbu Abdullahdan (r.a) nəql olunur: "Peyğəmbərin (s) qılıncının kəmərində bir səhifə vardı, orada belə yazılmışdı: Rəhimli və mərhəmətli Allahın adı ilə! Həqiqətən də Qiyamət günün Allah qarşısında ən aciz şəxs onu öldürmək istəməyəni qətlə yetirən, onu vurmaq istəməyəni vuran, müttəfiqindən başqasını özünə dost tutandır. Belə bir şəxs Allahın Muhəmmədə (s) endirdiyinə küfr etmişdir. Kim bir fitnə çıxarsa və ya fitnəkarı himayə etsə, Qiyamət günü Allah onun nə vacib, nə də müstəhəbb bir əməlini qəbul edər" ("Biharul-ənvar", 27/65, 104/375).**

**Cavab:** Müəllif bu səhifənin Əliyə məxsus olduğunu və onun qılıncının kəmərindən asıldığını deyir. Halbuki rəvayətdə bu səhifənin Peyğəmbərin (s) qılıncının kəmərindən asıldığı qeyd olunur.

Müəllif həmçinin bu səhifənin Əliyə məxsus olan növbəti bir səhifə olduğunu vurğulayır. Ancaq təqdim etdiyi rəvayətdən bu da aşkar olunmur. Bəlkə də bu səhifə öncəki – 5-ci bənddə qeyd edilən eyni səhifədir.

* * *

**Müəllif iddia edir: "6 – Cəfr; bu, iki növdür: ağ cəfr və qırmızı cəfr.**

**Əbul-Əladan rəvayət olunur: "Əbu Abdullahın belə dediyini eşitdim: "Məndə ağ cəfr kitabı vardır".**

**Dedim: "Orada nə yazılıb?"**

**Dedi: "Davudun Zəburu, Musanın Tövratı, İsanın İncili, İbrahimin səhifələri, halal və haramlar... Qırmızı cəfr də məndədir".**

**Dedim: "Bəs qırmızı cəfrdə nə vardır?"**

**Dedi: "Silah. O, qan töküldüyü zaman açılır və onu qılıncın sahibi qətl üçün açır".**

**Abdullah ibn Əbul-Yə`fur (!) ona dedi: "Allah sənin işlərini islah eləsin, Həsənin övladları bunu bilirlərmi?" Dedi: "Allaha and olsun, bəli, gecənin gecə və gündüzün gündüz olduğunu bildikləri kimi bilirlər. Lakin həsəd və dünya sevgisi onları bunu inkar və təkzib etməyə sövq eyləyir. Əgər haqqı haqq ilə diləsəydilər, bu onlar üçün daha yaxşı olardı" ("Üsulul-kafi", 1/24).**

**Cavab:** "Ağ cəfrin Əhli-Beyt imamlarında (ə) olmasını inkar edən bir dəlil görməmişik. Çünki biz inanılan (siqə) və inanılmaları isbatlanmış şəxslərdən həmin kitabların İmamlarda (ə) və onların sərəncamında olduqları barədə xəbərlərə malikik. Bunu necə rədd və ya inkar edə bilərik? Halbuki kitab əhlinin belə, doğruluğu sübuta yetməyən və yanlışlığı təsdiqlənməyən sözlərini inkar etmək də qadağandır.

Buxari Əbu Hüreyrəyə istinadən nəql edir: "Kitab əhli Tövratı ibrani dilində oxuyur və ərəb dilində müsəlmanlar üçün təfsir edirdilər. Peyğəmbər (s) buyurdu:

“Kitab əhlinin sözlərini nə təsdiq, nə də təkzib edin, belə deyin: “Biz Allaha, bizə və sizə nazil olana iman gətirmişik...(ayənin sonunadək)”.[584]

Əbu Davud, Əhməd, Hakim, İbn Hibban və digərləri Əbu Nəmlə Ənsaridən, o da atasından rəvayət edir: “Mən Peyğəmbərin (s) yanında oturmuşdum, bu zaman cənazə aparılır və bir yəhudi Peyğəmbərə (s) dedi: “Ey Muhəmməd, bu cənazə danışırmı?” Peyğəmbər (s) “Doğrusunu Allah bilir!” deyə buyurdu. Yəhudi dedi: “O, danışır”. Allahın elçisi buyurdu: “Kitab əhlinin sizə söylədiklərini nə təsdiq, nə də təkzib edin. Belə deyin: “Biz Allaha və onun elçilərinə iman gətirmişik”. Belə desəniz, əgər onların söylədikləri yanlış olsa, təsdiq etmiş olmayacaqsınız, əgər həqiqət olarsa, inkar etmiş sayılmayacaqsınız”.[585]

Bu cəhətdən əhli-sünnə alimlərinin Əhli-Beyt (ə) şiələrinin ravilərini və rəvayətlərini inkar etməyi rəva bilmələrini anlamaq olmur. Halbuki onlar yəhudi və xristianların rəvayətlərini və onların ravilərini yalan saymağı özlərinə halal bilmirlər. Baxmayaraq ki, müqayisə edildikdə hər iki tərəfə eyni cür davranmalıdırlar.

---

[584] “Səhih”, Buxari, 9/136, “Möhkəm bağlanmaq” kitabı, “Peyğəmbərin (s) “kitab əhlindən bir şey soruşmayın” sözü” babı, 3/237, “Şahidliklər” kitabı, “Müşriklərdən şahidlik və s. şeylər barədə soruşmayın” babı, 6/25, “Təfsir” kitabı, “Bəqərə” surəsinin təfsiri babı.

Qeyd: buxarinin “Səhih”indəki “Möhkəm bağlanmaq (“əl-İ`tisam”) kitabından nəql etdiyimiz bu rəvayətdə “Biz Allaha, bizə və sizə nazil olana iman gətirmişik...” cümləsi Quranın ayəsi kimi təqdim edilmişdir. Ona görə də cümləni “ayənin sonunadək” sözü ilə bitirmişdir. Bunu Misir çapında görürük (“əş-Şə`b” mətbəəsi, h.q.1378-ci il (m.1959)). Ancaq Şeyx Muhəmməd Əli əl-Qütb və Şeyx Hişam əl-Buxarinin təhqiqilə Livanda, h.q.1417-ci ildə (m.1996) “əl-Məktəbətul-əsriyyə” mətbəəsində çap olunan nüsxədə “ayənin sonunadək” sözləri silinsə də, hər iki çapda bu cümlə Quran ayəsi kimi dırnaq arasında və qalın hərflərlə qeyd olunub, hər ikisinin haşiyəsində bu sözlərin “əl-Bəqərə” surəsinin 136-cı ayəsi olduğu bildirilib. Həmçinin hər iki kitabda cümlədə işlədilən “sizə” kəlməsi isə mötərizəyə alınaraq sadə şriftlərlə verilmiş və ayənin tərkib hissəsindən olmadığını vurğulamağa səy göstərilmişdir. Lakin onlar Buxarinin bu yanlışının üzərini ört-basdır etməkdən ötrü oxucuya heç bir məlumat verməmişlər ki, əhli-sünnənin nəzərində bütünlüklə səhih olan bu kitabın etibarına xələl gəlməsin”.

[585] “Sünən”, Əbu Davud, 3/318, hədis 3644; “Müsnəd”, Əhməd, 4/136; “əl-Müstədrəku ələs-səhiheyn”, 3/358; “əl-İhsan bitərtibi səhihi İbn Hibban”, 8/52; “Şərhus-sünnə”, 1/268.

Hərçənd onlar Abdullah ibn Əmr ibn Asın əhli-kitabın kitabları ilə yüklənmiş iki dəvəsinin olduğunu rəvayət edirlər.

İbn Kəsir öz təfsirində yazır: “Abdullah ibn Əmr (r.a) Yərmuk savaşında kitab əhlinin kitablarının yükləndiyi iki yük dəvəsini ələ keçirdi. O, həmin kitabları oxuyur və onlardan rəvayətlər danışırdı”.[586]

Zəhəbi “Siyəru ə`lamin-nübəla”da Abdullah ibn Əmrin tərcümeyi-halında yazır: “Abdullah həmçinin Əbu Bəkrdən, Ömərdən, Muazdan, Süraqə ibn Malikdən, atası Əmrdən, Əbdürrəhman ibn Ovfdan, Əbu Dərdadan, bir dəstə səhabədən və kitab əhlindən rəvayətlər nəql edirdi, əhli-kitabın kitablarını oxuyur və onlara istinad edirdi”.[587]

“Təzkirətul-huffaz”da yazır: “Kitab əhlinin kitablarını əldə etmişdi, onları oxuyur və orada qəribə və maraqlı məsələlər olduğunu düşünürdü”.[588]

İbn Həcər yazır: “Abdullah Şamda kitab əhlinin kitablarından əldə etdi. O, həmin kitabları oxuyur və orada yazılanlardan danışırdı. Bu səbəbdən tabeunların imamlarından bir çoxu ondan rəvayət nəql etməkdən çəkindilər”.[589]

Anlamaq olmur ki, nə üçün onlar Abdullah ibn Əmrin bu kitablara malik olmaq haqqını tanıyır, ancaq Əhli-Beyt imamlarının (ə) bundan az sayda olan kitablara sahib olmaq haqqını inkar edirlər?!

Qırmızı cəfr kitabına gəldikdə, rəvayətdə də deyildiyi kimi, o bir silahdır. Bir şəxsin silaha sahib olmasında heç bir qəribəlik ola bilməz ki, bunu rəvayət edənlər də yalançılıqda ittiham edilsinlər.

İmamların (ə) ağ və qırmızı cəfr kitablarına sahib olmalarında heç bir qəribəlik yoxdur. Əhli-sünnənin onların inkarında belə israr etməsi və tənqid atəşinə tutması üçün də Quranın möhkəm ayələri və səhih sünnə ilə ziddiyyətini də görmürük.

* * *

---

[586] “Təfsirul-Qur`anil-əzim”, 1/4.

[587] “Siyəru ə`lamin-nübəla”, 3/81.

[588] “Təzkirətul-huffaz”, 1/42.

[589] “Fəthul-Bari”, 1/167. Bunu Mübar Kafur özünün “Tuhfətul-əhvəzi” kitabında İbn Həcərdən nəql edib.

**Müəllif iddia edir: "Mövlamız mərhum imam Xoidən Qırmızı cəfr barədə, onun kimin açacağı və kimin qanını tökəcəyi barədə soruşdum. O, belə cavab verdi: "Onu Sahibəz-zaman (Allah onun zühurunu tezləşdirsin!) açacaq və bütün nasibilərin (yəni əhli-sünnənin) qanını tökəcək, onları harada yaxalasa, qətlə yetirəcək, qanları Dəclə və Fərat çayı kimi axacaq, Qüreyşin iki bütündən (məqsədi Əbu Bəkr və Ömərdir), onların iki qızından (məqsədi Aişə və Həfsədir), eləcə də axmaq qocadan (!) (məqsədi Osmandır), Üməyyə və Abbas oğullarından intiqam alacaq, onların qəbirlərini açıb dağıdacaq".**

**Cavab:** Müəllifin Seyid Xoidən (r.ə) nəql etdiyi sözlər doğru deyildir. Müəllif sözlərində əmanətdar və etibarlı bir kəs olmadığı üçün bu nəqli də əhəmiyyət daşımaz və etina olunmaz.

Bundan əlavə, Seyid Xoiyə istinad etdiyi sözlər Seyidin məşhur fətvalarına da müxalifdir. Çünki o, əhli-sünnənin hamısını nasibi[590] saymırdı, nasibi ilə müxalif arasında fərq qoyurdu, hər müxalifi nasibi hesab etmirdi. Ona görə də müxalifləri deyil, nasibiləri kafir və nəcis, qanlarını və mallarını da halal bilirdi.

"Ürvətul-vüsqa" kitabının müəllifinin "Ğulat və nasibilərin nəcis olmasında heç bir işkal yoxdur" sözlərinə şərh verdiyi dərsdə Seyid Xoi (r.ə) belə deyir:

"Onlar (yəni nasibilər) Əhli-Beytə (ə) qarşı ədavət və nifrət bəsləyən lənətlənmiş bir firqədirlər... Onların nəcis və kafir olmalarında heç bir şübhə yoxdur. Bu, müxaliflərin küfrü ilə bağlı qarşıda qeyd edəcəyimiz xəbərlərlə bağlı deyil. İbn Əbu Yə`furun İmam Əbu Abdullahdan (ə) rəvayət etdiyi inanılan hədisinə əsasəndir: "İmam (ə) buyurur: "Hamamda yəhudi, xristian, məcusi və biz Əhli-Beytə düşmən olanların (nasibilərin) istifadə etdikləri sudan çəkin. Sonuncular (Əhli-Beytə düşmən olanlar) daha betər və daha pisdirlər. Uca Allah itdən daha nəcis bir varlıq yaratmamışdır. Biz Əhli-Beytə düşmən olan nasibilər isə itdən daha çox nəcisdirlər". Bu rəvayətə əsasən, nasibilərin ədavət və küfrlərinə görə zahiri əzaları da nəcisdir, istər həmin nasibi İmama (ə) qarşı savaşsın, istər savaşmasın. Çünki hidayət imamlarına (ə) qarşı yalnız ədavət və bunu aşkar ifadə etmək onların kafir və nəcis

[590] Nasibi – Əhli-Beytə (ə) qarşı savaş, qətl, zərbə, söyüş, təhqir, sübuta yetmiş üstünlüklərini inkar etməklə ədavət və nifrət bəsləyən kəslərdir.

olduqlarına hökm etməyə yetərlidir. İmam Hüseynə (ə) qarşı Kərbəlada savaşanların bir dəstəsi nasibilərdən idi. Onlar Kərbəlaya məhz Möminlərin əmiri Əliyə (ə) və onun övladlarına qarşı düşmənçilikləri səbəbindən gəlmişdilər. Nasibinin itdən daha çox nəcis olmasına gəldikdə, bu onların iki baxımdan – həm zahir və həm də batini nəcis olmalarına görədir. Nasibiliklərinə görə onların zahiri əzaları, ədavət etiqadlarına görə də ruhları nəcis hökmündədir. Lakin itin yalnız zahiri nəcisdir".[591]

Seyid Xoinin (r.ə) şiələrə müxalif olanların deyil, məhz nasibilərin kafir və nəcis olmaları barədə sözləri aydın bəyan olunur. Şiələrə müxaliflər isə əhli-sünnə, eləcə də zeydilər, ismaililər, mötəzilələr kimi qeyri-şiə məzhəbləridir.

Sahibəz-zamanın (ə.f) zühur etdikdə əhli-sünnə mənsublarını harada qarşısına çıxsa, qətlə yetirəcəyi ilə bağlı Seyid Xoiyə nisbət verdiyi sözlər də puç və yanlışdır. Çünki mövzu ilə bağlı nəql edilən rəvayətlər buna dəlalət etmir. Hər iki məzhəbin mütəvatir hədisləri İmamın (ə.f.) yer üzünü zülm və haqsızlıqla dolduğu kimi, haqq və ədalətlə dolduracağını qeyd edir. O, bütün yer üzündə haqqı bərqərar edəcək, azğınlıq və batili yox edəcək, Allahın kəlamını ucaldacaq, kafirlərin sözlərini isə ayaqlar altında tapdadacaq.

Bütün bu nəticələr zalım hakimiyyət və onların əlaltıları ilə savaşmadan baş verməyəcək. Belə ki, onlar hakimiyyətlərini öz seçimləri və itaətləri ilə təslim etməyəcəklər. Əllərində olan imkanlardan və ordulardan istifadə edərək qarşı çıxacaqlar. Ancaq haqqa tabe olub onu qəbul edənlərə qarşı heç bir savaş və ya cəza olmayacaq, istər haqqa boyun əyənlər əhli-sünnədən, istər digər məzhəb və dinlərdən olsunlar.

Xüsusilə qeyd etməliyik ki, İmam Mehdinin (ə) zühur etdikdə əhli-sünnənin və digər müxalif məzhəblərin mənsublarını qətlə yetirəcəyi ilə bağlı bir dənə də olsun şiə rəvayəti yoxdur. Ancaq bəzi əhli-sünnə rəvayətlərində Süfyani tərəfdarlarının (onlar əhli-sünnədirlər) Kufədə Əhli-Beyt şiələrini qətlə yetirəcəyini xəbər verdiyini görürük.

Hakim Nişapuri "əl-Müstədrək"də Əbu Rummana istinadən Əli ibn Əbu Talibin (ə) belə dediyini nəql edir: "Süfyani Şamda zahir olacaq, sonra onların arasında

[591] "ət-Tənqihu fi şərhi-ürvətil-vüsqa", 2/75.

Qərqisada savaş olacaq, göyün quşları və yer üzünün yırtıcıları onların əsgərlərinin cəsədləri ilə doyacaq. Sonra onların arxasınca bir ordu ayrılacaq, böyük bir dəstə onlara qoşulacaq və Xorasana daxil olacaqlar. Süfyani Xorasan əhalisinin axtarışına başlayacaq, Kufədə Muhəmməd (s) ailəsinin şiələrini öldürəcək. Sonra Xorasan əhalisi Mehdiyə qoşulmaq (və ya onu axtarmaq) üçün yola çıxacaq”.[592]

* * *

**Müəllif iddia edir: “İmam Xoinin sözlərindən həddi aşma vardır. Belə ki, Əhli-Beyt (ə) mənsubları dəfnindən əsrlər keçmiş bir meyiti qəbrindən qazıyıb çıxarmaqdan daha uca və daha əzəmətlidirlər!**

**İmamlar (ə) onlara pislik edənlərə yaxşılıq edər və yanlışlıqlarını bağışlayardılar. Onların intiqam almaq üçün qəbirləri qazmaqları və meyitlərə cəza verməkləri əsla düşünülə bilməz. Meyitə əsla cəza verilməz, Əhli-Beyt (ə) üzvləri isə öz alicənablıqları, mərhəmət və xoş rəftarları ilə tanınırlar”.**

**Cavab:** Əhli-Beytin (ə) də babaları Peyğəmbər kimi bu ümmət üçün hidayət və rəhmət mənbəyi olduqları doğrudur. Lakin onları biz idarə etmir və vəzifələrini də onlara biz öyrətmirik. Onlar nə etdiklərini daha yaxşı bilirlər. Meyitləri qəbirlərindən çıxarmaq haqqı da onlara məxsusdur. Əgər İmam Mehdi (ə.f) bunu etsə, əməli haqdır, əgər etməsə, yenə də haqdır. Bunun elmi Allahdadır. Bunun baş verib-verməyəcəyinə etiqad bəsləmək və ya inkar etmək bizim vəzifəmiz və üzərimizdə olan təklif deyil. Çünki bunla hələ baş verməmiş qeybi məsələlərdir və bizim baş verməmiş bir hadisə haqqında fikir yürütmək səlahiyyətimiz yoxdur.

Aydındır ki, müəllif Seyid Xoiyə nisbət verdiyi bu sözləri sənədini araşdırmadığı bəzi rəvayətlərdən götürmüş, bir hissəsini də öz hədislərindən əlavə etmişdir. Sonra aldığı nəticəni yalan və haqsızlıqla Seyid Xoiyə (r.ə) nisbət vermişdir.

* * *

**Müəllif iddia edir: “7 – Fatimənin kitabı (müshəfi):**

**A. Əli ibn Səid Əbu Abdullahdan (r.a) nəql edir: “Fatimənin kitabı bizdədir, orada Allahın kitabından bir ayə belə yoxdur. Bu kitabı Peyğəmbərin (s) imlası ilə Əli (r.a) yazmışdır” (“Biharul-ənvar”, 26/41).**

---

[592] “əl-Müstədrəkus-səhiheyn”, 4/501, Heydərabad çapı.

**B. Muhəmməd ibn Müslim o ikisindən birindən (r.a) rəvayət edir: "...Fatimə özündən sonra bir kitab qoydu ki, Quran deyildir. Ancaq həmin kitab ona enən Allah kəlamıdır, Peyğəmbərin (s) imlası və Əlinin dəst-xəttilə yazılmışdır" ("Biharul-ənvar", 26/42).**

**C. Əli ibn Əbu Həmzə Əbu Abdullahdan (r.a) rəvayət edir: "Fatimənin (s.ə) kitabı bizdədir. Allaha and olsun ki, orada Qurandan bir hərf (cümlə) belə yoxdur. Lakin Peyğəmbərin (s) imlası və Əlinin xəttilə yazılmışdır" ("Biharul-ənvar", 26/48).**

**Cavab:** Fatimənin (s.ə) kitabında gələcəkdə baş verəcəklər və qiyamət gününədək hakimiyyətdə olacaq şəxslərin adları qeyd olunmuşdur. Bu kitab Cəbrailin (ə) imlası və Əli ibn Əbu Talibin (ə) xəttilə yazılıb. Buna bir çox rəvayət dəlalət edir. Həmmad ibn Osman deyir: "İmam Əbu Abdullahın (ə) belə buyurduğunu eşitdim: "Mən Fatimənin (s.ə) kitabına baxdım. 128-ci ildə allahsızlar ortaya çıxacaqlar". Dedim: "Fatimənin kitabı nədir?" Buyurdu: "Uca Allah Peyğəmbəri (s) dünyadan apardıqdan sonra Fatimə Allahdan savayı bir kəsin dərk edə bilməyəcəyi bir hüznə qərq oldu. Allah onun kədərini aradan aparmaq, qəlbini sevindirmək və onunla həmsöhbət olmaq üçün bir mələyi yanına göndərdi. Ftimə eşitdiyi səslərdən Möminlərin əmirinə (ə) şikayət etdi. Əli (ə) dedi: "Bunu yenə hiss etsən və səs eşitsən, mənə xəbər ver". Mələk gəldikdə Fatimə (s.ə) Əliyə xəbər verdi və o gəlib eşitdiklərini yazmağa başladı. Nəhayət yazdıqlarından bir kitab bağlandı". Sonra buyurdu: "Həmin kitabda halal və haramlardan heç bir şey yoxdur. Orada yalnız gələcəkdə baş verənlər yazılmışdır".[593]

Əbu Übeydə Hüzzainin İmam Əbu Abdullah Sadiqdən (ə) nəql etdiyi səhih hədisdə buyurulur: "Fatimə (s.ə) Peyğəmbərin (s) vəfatından sonra yetmiş beş gün yaşadı. Atasından ayrılığa görə çox hüznlü idi. Cəbrail (ə) onun yanına gələr, atasının matəminə görə ona təsəlli və təskinlik verər, ona atasından və hazırda olduğu yerdə xəbərlər deyər, həmçinin ondan sonra ailəsinin və nəslinin başına gələcəklərdən

[593] "əl-Kafi", 1/240.

danışardı. Əli (ə) isə bütün bunları yazardı. Həmin yazılanlar Fatimənin (s.ə) müshəfidir”.[594]

Əgər bir kəs desə ki, mələklərin peyğəmbərlərdən başqası ilə danışması puç və batil bir iddiadır, Əli və Fatimənin (onlara salam olsun!) ümumən mələklərdən və xüsusilə də Cəbrailin (ə) səsini eşitmələri doğru sayıla bilməz, ona belə cavab verərik:

1. Əhli-sünnə hədis hafizlərinin nəql etdikləri rəvayətlərdə qeyd olunur ki, əgər insanlar düzgün yolda olsalar, mələklər onlarla əl verib görüşərlər.

Həmin rəvayətlərdən birini Müslim, İbn Macə, Əhməd, Hümeydi, Təyalisi, İbn Hibban və digərləri Hənzələ ət-Təmimi əl-Üseydidən nəql edir: “Peyğəmbər (s) buyurdu: “Əgər yanımda olmadığınız zaman mənim yanımda olduğunuz kimi qala bilsəniz, mələk sizinlə xalçalarınızın üzərində (evlərinizdə) və ya yolda əl verib görüşərlər”.[595]

Rəvayətin başqa bir versiyasında isə deyilir: “Əgər məndən ayrıldığınızda yanımda olduğunuz halda qala bilsəniz, mələklər sizinlə əl tutub salamlaşar və sizi evlərinizdə ziyarət edərlər”.[596]

Qurani-Kərimdə Məryəmin mələklərlə danışması da buna aiddir. Buyurulur: ***“(Ya Rəsulum!) Kitabda (Quranda) Məryəmi də yad et. O zaman o, ailəsindən ayrılıb (evinin, yaxud Beytül-müqəddəsin) şərq tərəfində (ibadət məqsədilə xəlvət) bir yerə çəkilmişdi. Və ailə üzvlərindən gizlənmək (paltarını dəyişmək, yaxud yuyunub təmizlənmək) üçün pərdə tutmuşdu. Biz Öz ruhumuzu (Cəbraili Məryəmin) yanına göndərdik. Ona (Məryəmə) tam bir insan surətində göründü. (Məryəm) dedi: “Mən səndən Rəhmana (Allaha) pənah aparıram. Əgər (Allahdan qorxursansa) təqvalısansa (mənə toxunma)!” (Cəbrail:) “Mən sənə ancaq tər-***

---

[594] “əl-Kafi”, 1/241.

[595] “Səhih”, Müslim, 4/2106-2107; “Sünən”, Tirmizi, 4/666. Orada yazır: “Bu, həsən səhih hədisdir”. “Sünən”, İbn Macə, 2/1416; “Müsnəd”, Əhməd, 2/305, 3/175, 4/178, 346; “əl-Camius-səğir”, 2/428, hədis 7418, 7419; “Müsnəd”, Əbu Davud Təyalisi, səh.191; “Şərhus-sənnə”, 1/167; “əl-İhsanu bitərtibi səhih”, İbn Hibban, 9/240-241. Albani “Səhih İbn Macə”də bu rəvayəti “səhih” saymışdır (2/415-416). “Səhihul-camiis-səğir”, 2/931, 1190; “Silsilətul-əhadisis-səhih”, 4/606.

[596] “Müsnəd”, Əbu Davud Təyalisi, səh.337.

***təmiz (məsum) bir oğlan uşağı bağışlamaq üçün Rəbbinin (lütf edib göndərdiyi) elçisiyəm!"- dedi. (Məryəm) dedi: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!" (Cəbrail) dedi: "Elədir, lakin Rəbbin buyurdu ki, bu Mənim üçün asandır. Biz onu insanlar üçün (qüdrətimizə dəlalət edən) bir möcüzə, (sənə və möminlərə isə) dərgahımızdan bir mərhəmət olaraq edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!"***[597]

Allaha və axirət gününə iman gətirmiş hansı müsəlman şəxs Möminlərin əmiri Əlinin (ə) və aləm qadınlarının xanımı Fatimənin (s.ə) mələklərin onlarla əl verib görüşəcəkləri həddə düzgün iman və əmələ sahib olduqlarına şübhə edə bilər?!

2. Əhli-sünnə hədisşünaslarının hədis və rəvayətlərində bəzi səhabələrə mələklərin salam verdiklərini, əl verib görüşdüklərini və səhabələrin mələkləri gözlərilə gördükləri nəql olunur.

Müslimin İmran ibn Həsindən nəql etdiyi bir hədisdə o deyir: "Bəzən mənə salam verir, bədənimin hərarəti qalxdıqda isə dayanırlar. Sonra hərarətim düşdükdə yenidən salam verirlər".[598]

Uvb Səd isə Qətadədən nəql edir: "Mələklər İmran ibn Həsinə hərarəti yüksələnədək əl verib görüşürdülər".[599]

Zəhəbi İmran ibn Həsinin tərcümeyi-halında yazır: "Mələklərin salam verdikləri şəxslərdəndir...

Onun babasil (və ya fistul) xəstəliyi vardı, bu səbəbdən hərarəti qalxırdı... Rəvayət olunur ki, hərarəti yüksəldikdə mələklər salam verməyi bir müddət saxlayır, sonra yenidən başlayırdılar".[600]

İbn Həcər deyir: "Hərarəti yüksəlməzdən öncə mələklər ona əl verib görüşürdülər".[601]

Nəvəvi deyir: "Müslimin "Səhih"ində deyildiyi kimi, mələklər onunla əl verib görüşür və onları gözü ilə görürdü".[602]

---

[597] "Məryəm", surəsi, ayə 16-21.
[598] "Səhih", Müslim, 2/899.
[599] "ət-Təbəqatul-kubra", 4/288.
[600] "Təzkirətul-huffaz", 1/29-30.
[601] "Təhzibut-təhzib", 8/112.

Mövzu ilə bağlı digər çoxsaylı hədislər vardır. Onları burada yazmağa lüzum görmürük.[603]

3. Hədislərdə bir dəstə səhabənin mələyin səsini eşitdikləri qeyd olunur.

Onlardan biri Əhmədin kitabında qeyd etdiyi hədisdir. Hüzeyfə ibn Yəmani deyir: "Peyğəmbərin (s) yanına gəlmişdim. Məsciddə namaz qıldığım vaxtda bir səsin belə dediyini eşitdim: "İlahi, bütün həmd və mülk Sənə məxsusdur, bütün xeyirlər Sənin əlindədir və bütün aşkar və gizli işlər sonda Sənə qayıdır. Sən həmd və tərif olunmağa layiqsən! Sən hər bir şeyə qadirsən! İlahi, mənim etdiyim bütün günahlarımı bağışla, ömrümün qalan hissəsində də məni günahdan qoru, mənə Sənin razı qalacağın (günahdan) təmiz əməllər nəsib elə!" Peyğəmbər (s) buyurdu: "Bu, bir mələkdir ki, yanına gələrək Rəbbinə necə həmd söyləməyi sənə öyrədir".[604]

Daha artıq məlumat əldə etmək istəyənlər bizim "Kəşful-həqaiq" kitabına müraciət edə bilərlər. Orada bu mövzu ilə bağlı çox sayda hədis qeyd etmişik.[605]

Bütün bu təqdim etdiklərimizdən nəticə alırıq ki, Möminlərin əmiri Əlinin (ə) və aləm qadınlarının xanımı Fatimənin (s.ə) mələyin və ya Cəbrailin (ə) səsini eşitməsi və onların barəsində gerçəkləşməsi mümkün bir faktdır. Belə ki, əhli-sünnə mənbələrindəki səhih hədislər səhabələrin də mələklərlə salamlaşdığına və onlarla danışdığına dəlalət edir. Əli və Fatimənin (onlara salam olsun!) mələyin səsini eşitdiklərini inkar etmək aşkar bir xətadır və heç bir müsəlman buna cürət edə bilməz. Çünki belə bir iddia Peyğəmbərin (s) pak itrəti barəsində təhqir və alçaltmadır. Bundan Allaha sığınırıq!

* * *

**Müəllif iddia edir: "Əgər həmin kitab Peyğəmbərin (s) imlası və Əlinin xəttilə yazılmışdırsa, bəs nə üçün onu ümmətdən gizlədir? Halbuki Uca Allah Peyğəmbərə (s) ona nazil etdiyi hər bir şeyi insanlara çatdırmağı buyurmuşdur:**

---

[602] "Təhzidul-əsma vəl-luğat", 2/36.

[603] Bax: "Sünən", Əbu Davud, 4/5; "Müsnəd", Əhməd 4/428; "əl-Müstədrək", 3/472; "Usudul-ğabə", 4/138; "əl-İsabə", 3/26, 27; "Siyəru ə`lamin-nübəla", 2/510, 511. "Şəzəratuz-zəhəb", 1/58; "Tarixul-İslam", 3/275, 276; "əl-Bidayətu vən-nihayə", 8/62.

[604] "Müsnəd", Əhməd, 5/396.

[605] "Kəşful-həqaiq", 136-139.

**“Ey Peyğəmbər, Rəbbindən sənə nazil olanı təbliğ et! Əgər bunu etməsən, onun risalətini insanlara çatdırmamış olarsan” (“əl-Maidə” surəsi, ayə 67).**

**Peyğəmbər (s) bütün müsəlmanlardan bu Quranı necə gizlədə bilər? Bəs Möminlərin əmiri (r.a) və ondan sonrakı imamlar öz şiələrindən necə gizlədirlər?!”**

**Cavab:** Ayədəki təbliğ əmri Allahın Peyğəmbərə (s) bütün nazil etdikləri ilə bağlı deyildir, məqsəd Peyğəmbərdən insanlara çatdırılması istənilən xüsusi bir məsələdir. Əgər məqsəd bütün risalənin təbliği olsaydı, o zaman ayənin mənası mütərəddid və sürüşkən olardı. Çünki belə deyilməyin heç bir mənası yoxdur: “Sənə nazil etdiyim hər bir şeyi təbliğ elə. Əgər onların hamısını insanlara çatdırmasan, o zaman dini təbliğ etməmiş olacaqsan”. Məlum məsələdir ki, Peyğəmbər (s) ona nazil olanları insanlara çatdırmasa, risaləti təbliğ etməmiş olur.

Bu səbəbdən aydın olur ki, Peyğəmbərə məxsusi və müəyyən bir şeyin təbliğ edilməsi əmr olunmuşdu. Bu isə Möminlərin əmiri Əlinin (ə) ondan sonra xəlifə təyin edilməsidir. Necə ki, buna qarşıda qeyd edəcəyimiz bir çox hədislər, xüsusilə də əhli-sünnə mənbələrindəki hədislər dəlalət edir. İndi bu mövzuya daxil olub və isbatlamaq bəhs mövzumuzu dəyişəcək.

Müəllif “əl-Maidə” surəsindəki bu ayənin bütünlüklə nazil olanların təbliğinə necə aid edə bilər, halbuki həmin surə Peyğəmbərin (s) dəvətinin son illərində enmişdir.

Süyuti “əd-Durrul-mənsur”da yazır: “İbn Cərir (Təbəri) və İbn Münzir Qətadədən nəql edirlər: “əl-Maidə” surəsi Mədinədə nazil olmuşdur”.

Əhməd ibn Hənbəl, Əbu Übeyd “əl-Fəzail”də, Nəhhas “ən-Nasixə”də, Nəsai, İbn Münzir və Hakim (səhih saymışdır) öz kitablarında, eləcə də İbn Mərdəveyh, Beyhəqi “Sünən”də Cabir ibn Nüfeyrdən nəql edirlər: “Həcdə idim, Aişənin yanına getdim. O dedi: “Ey Cabir, “əl-Maidə” surəsini oxuyursanmı?” Mən “Bəli” dedim. Dedi: “Bu sonuncu nazil olan surədir. Orada gördüyünüz hər bir halalı halal, haramı da haram bilin”.

Əhməd, Tirmizi ("həsən" hədis sayıb), Hakim ("səhih" sayıb), İbn Mərdəveyh və "Sünən"də Beyhəqi Abdullah ibn Əmrdən rəvayət edirlər: "Sonuncu nazil olan surələr "əl-Madiə" və "əl-Fəth"dir".[606]

Peyğəmbərin (s) elçiliyinin sonunda bəyan edilməsi tələb olunan məsələnin böyük əhəmiyyətə malik olması labüddür. Yoxsa bu ayə ilə onun təhdid edilməsinin və təbliğ edilmədiyi təqdirdə ümumiyyətlə elçiliyi yerinə yetirməməsinə bərabər tutulmasının heç bir mənası qalmaz.

Həmçinin Uca Allahın onu insanlardan qoruyacağını vəd verməsi məsələnin həddən artıq çətin olduğunu və Peyğəmbərin (s) bu təbliğ nəticəsində insanlar tərəfindən bir zərər görə biləcəyini göstərir.

Həmin vaxtda Peyğəmbərə (s) xilafət və Möminlərin əmiri Əlini (ə) xəlifə təyin etmək məsələsi qədər narahatlıq yaradaca biləcək bir iş yox idi. Məhz əhli-sünnə də öz kitablarında bu nüansı qeyd edir.

Süyuti "əd-Durrul-mənsur"da yazır: "İbn Əbu Hamət, İbn Mərdəveyh və İbn Əsakir Əbu Səid Xidridən nəql edirlər: **"Ey Peyğəmbər, Rəbbindən sənə nazil olanı təbliğ et!.."** ayəsi Qədir Xum hadisəsi günü Əli ibn Əbu Talib haqqında nazil olmuşdur.

İbn Mərdəveyh İbn Məsuddan nəql edir: "Biz Peyğəmbərin (s) zamanında həmin ayəni belə oxuyurduq: **"Ey Peyğəmbər, Əlinin möminlərin mövlası olduğu barədə Rəbbindən sənə nazil olanı təbliğ et! Əgər bunu etməsən, onun risalətini insanlara çatdırmamış olarsan. Allah səni insanlardan qoruyacaq".**[607]

Əgər ayədə bütünlüklə dinin təbliğ edilməsinin Peyğəmbərə (s) buyurulduğunu fərz etsək, bu, müəyyən məlumat və sirlərin ümumən bütün səhabələrə deyil, onlardan məxsusi şəxslərə söylənməsilə ziddiyyət yaratmayacaq. Belə ki, bu da təbliğin bir növüdür. Çünki məlumatı bəzən bütün insanlara, bəzən də onlardan bir hissəsinə çatdırmaq məcburiyyəti yaranır.

Ona görə də Taif səfərində Peyğəmbər (s) Əli (ə) ilə kənarda uzun müddət təkbətək danışır. Tirmizi "Sünən"də Cabirdən rəvayət edir: "Taif səfəri günü

---

[606] "əd-Durrul-mənsur", 3/3.
[607] "əd-Durrul-mənsur", 3/117.

Peyğəmbər (s) Əlini yanına çağırdı və onunla təkbətək gizli söhbət etdi. Bəzi adamlar dedilər: “Əmisi oğlu ilə söhbəti nə uzun çəkdi!” Peyğəmbər (s) buyurdu: “Onunla mən deyil, Allah gizli söhbət etdi”.

Tirmizi ardınca yazır: “Bu, qəribə, həsən hədisdir. Bunu yalnız əl-Əcləhdən nəql olunduğunu bilirik. İbn Füzeyldən başqası da hədisi əl-Əcləhdən nəql edib. “Onunla Allah gizli söhbət etdi” sözündəki məna budur: Onunla təkbətək gizli söhbət etməyi Allah mənə buyurdu”.

Həmçinin onların kitablarında Peyğəmbərin (s) Əliyə verdiyi səhifələr barədə rəvayətlər nəql olunur. Necə ola bilər ki, həmin səhifələrin mövcudluğu orada mümkün, burada isə qeyri-mümkün olsun?! Halbuki həmin səhifələrdə insanların ehtiyac duyduqları şəri hökmlər qeyd olunur, ancaq Fatimənin (s.ə) müshəfində isə keçmişdə olanlar və gələcəkdə baş verəcək hadisələr qeyd olunub (Həmin kitab Fatimənin (s.ə) müshəfindən ümmət üçün daha çox əhəmiyyətlidir – Tərc.). Bütün bunlar Peyğəmbərin (s) ümmətə təbliğ etməsi vacib olmayan məsələlərdir, onun insanlara çatdırmalı olduğu yalnız şəri hökmlərdir.

* * *

**Müəllif iddia edir: “8 - Tövrat, İncil və Zəbur kitabları:**

**Əbu Abdullahdan (r.a) rəvayət edilir ki, o, süryani dilində İncil, Tövrat və Zəbur oxuyurdu (Bax: “əl-Huccəh”, “əl-Kafi”, 1/207, “Allah tərəfindən nazil edilən bütün kitablar İmamlardadır (ə). Həmin kitablar fərqli dillərdə olsalar da, İmamlar onu anlayırlar” fəsli”.**

**Cavab:** “əl-Kafi” kitabının qeyd edilən fəslində bu kəlmələrlə hədis mövcud deyildir. Həmin fəsildə yalnız iki zəif sənədli hədis vardır:

Birinci hədis: Ravilərdən biri Həsən ibn İbrahimdir, o, halı məchul şəxsdir.

Muhəmməd Baqir Məclisi (q.s) hədis barədə deyir: “İstinadında məchul şəxs vardır”.[608]

İkinci hədis: Ravilər arasında Səhl ibn Ziyad, Bəkr ibn Saleh, Muhəmməd ibn Sinan vardır.

---

608 “Mir`atul-uqul”, 3/24.

Səhl ibn Ziyadla Muhəmməd ibn Sinanın tərcümeyi-halını əvvəldə qeyd etmişdik.

Bəkr ibn Salehi Nəcazi özünün “Rical” kitabında zəif saymışdır. Orada yazır: “Bəkr ibn Saleh ər-Razi, Bəni-Zəbbə qəbiləsinin köləsi olub. İmam Əbul-Həsən Musadan (ə) hədis nəql edib. Zəif ravidir”.[609]

İbn Ğəzairi yazır: “Bəkr ibn Saleh ər-Razi, olduqca zəif ravidir. Təkcə ondan nəql edilən qəribə hədislər vardır”.[610]

Əllamə Hilli də “əl-Xülasə”də onun barəsində İbn Ğəzairinin sözlərinin eynisini söyləyib.[611]

Maməqani (q.s) yazır: “İmam Kazımdan (ə) hədislər rəvayət edən ravi Bəkr ibn Saleh ər-Razinin zəifliyi şübhəsizdir. Başqasının da onunla eyni rəvayətdə düzgün bir təsdiqləyici amillə iştirakı olmadan Bəkr ibn Salehin bütün rəvayətləri etibarsız hesab edilir”.[612]

Hətta əgər hər iki hədisi səhih hesab etsək, burada heç bir müşkül olmayacaq. Birinci hədis xristianların əleyhinə İncildən dəlil gətirməyin icazəli olması barədədir. İmam Musa ibn Cəfər (ə) Büreyhə onun höccət qəbul etdiyi və təsdiqlədiyi dəlilləri təqdim edir. Bu səbəbdən də həmin vaxt Büreyh müsəlman olur. Bəlkə də İmam Musa (ə) ona İncildə Muhəmmədin (s) peyğəmbərliyini isbatlayan dəlilləri oxuyur. Çünki bu fakt həm İncildə, həm də Tövratda mövcuddur. Necə ki, Uca allah Quranda bunu xəbər verir: ***“O kəslərə ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri ümmi rəsula (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya Məkkəli) peyğəmbərə tabe olurlar, (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər). Ona (o Peyğəmbərə) iman***

---

[609] “Rical”, Nəcaşi, 1/270.
[610] “Rical”, İbn Ğəzairi, səh.44.
[611] “Rical”, Əllamə Hilli, səh.207.
[612] “Rical”, Əllamə Hilli, 1/179.

***gətirən, yardım göstərən və onunla (onun peyğəmbərliyi sayəsində) endirilmiş nurun (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır!"***[613]

İbn Kəsir yazır: "Bu, əvvəlki peyğəmbərlərin kitablarında onun vəsfləridir. Onlar ümmətlərini Muhəmməd peyğəmbərin (s) gələcəyi ilə müjdələmiş və gəldiyi zaman ona tabe olmağı buyurmuşlar. Onun vəsfləri hələ də kitablarında qalmaqdadır. Həmin dinlərin alim və rahibləri o vəsflərdən xəbərdardırlar".[614]

Yəhudi və xristianlara öz kitablarından dəlil təqdim etmək icazəlidir və bunda heç bir zərər yoxdur. Buxari "Səhih"ində Abdullah ibn Ömər sənədilə rəvayət edir: "Yəhudilər Peyğəmbərin (s) yanına zina etmiş bir kişi və qadın yəhudini gətirdilər. Peyğəmbər (s) buyurdu: "Siz zina edən şəxslə necə davranırsınız?" Dedilər: "Üzərilərinə isti su tökürük,[615] vururuq". "Buyurdu: "Tövratda daşqalaq olunmaları barədə bir sözə rast gəlməmisiniz?" Dedilər: "Xeyr, orada belə bir şey oxumamışıq". Abdullah ibn Səlam onlara dedi: "Yalan söyləyirsiniz! Əgər doğru deyirsinizsə, Tövratı gətirib oxuyun. Tövratı öyrədən kəs (ayəni ovucunun altında gizlətmək məqsədilə) əlini daşqalaq ayəsinin üzərinə qoyub oxumağa başladı. Abdullah (onun əlini qaldırıb) dedi: "Bəs bu nədir?" Onlar ayəni görüb dedilər: "Bu, daşqalaq ayəsidir". Ardınca daşqalaq olunmalarını əmr etdi və yaxın bir ərazidə onları daşqalaq etdilər. Mən daşqalaq olunan kişinin öz kürəyini qadının önünə verərək onu daşlardan qoruduğunu gördüm".[616]

Buna əsasən, İncil və Tövratı, hətta digər kitablara etiqadı olan şəxslər barəsində öz kitablarına uyğun hökm verilməsi üçün həmin kitabları əldə etməyin icazəli olduğu barədə fətvalara rast gəlirik.

Bəlkə də Əhli-Beyt imamlarının (ə) Tövrat və İncili əldə edib özlərində saxlamaları və oxumaları məhz bu məqsəd üçündür. O kitabları yalnız ehtiyac

---

[613] "əl-Əraf" surəsi, ayə 157.

[614] "Təfsiru Qur`anil-əzim", 2/251.

[615] Və ya üzlərinə qara sürtürük.

[616] "Səhih", Buxari, 6/46, "Təfsir" kitabı, "Ali-İmran", surəsinin təfsiri; 9/205, "Mürtəd və küfr əhli ilə savaş" kitabı, "Daşqalaq" kitabı; "Zimmilərin hökmləri" kitabının 214-cü səhifəsi. Həmçinin bax: "Səhih", Müslim, 3/1326.

duyulduqda ortaya çıxarırlar. Necə ki, İmam (ə) Büreyhlə söhbəti əsnasında bunu etdi.

Buna bənzər fakt onların kitablarında da mövcuddur. Əbu Əmr əd-Dani "Sünən"də İbn Şozəbdən nəql edir: "Mehdinin belə adlandırılmasının səbəbi Şamdakı bir dağa doğru yönləndirilməsinə görədir. O, həmin dağdan Tövrat kitabını üzə çıxaracaq, onunla yəhudilərin əleyhinə dəlillər gətirəcək, bir dəstə yəhudi onun vasitəsilə müsəlman olacaq".[617]

Kə`bdən rəvayət olunur: "Mehdinin belə adlandırılmasının səbəbi Tövrat kitabının bir hissəsinə yönləndirilməsinə görədir. Onları Şamdakı bir dağdan çıxaracaq və yəhudiləri ona dəvət edəcək. Həmin kitabların səbəbilə bir çox insan müsəlman olacaq. Təqribən otuz min insan".[618]

Burada qeyd edilməlidir ki, insanların əlində hazırda mövcud olan səmavi kitabların zəlalət kitabları olduqlarına şübhə yoxdur. Səbəb isə onlarda edilən dəyişiklik və təhriflərdir. Ancaq Əhli-Beyt imamlarında olan (ə) keçmiş peyğəmbərlərin kitablarının hökmü qaldırılmış və onlara əməl edilməsi qadağan da olsa, həmin təhrif və azğınlıqları özündə ehtiva etmir. Çünki Uca Allah haqdan başqa bir söz söyləməz və insanlara batil bir şey nazil etməz.

"əl-Cəvahir" kitabının müəllifi Muhəmməd Həsən ən-Nəcəfi yazır: "Keçmiş peyğəmbərlərin kitablarında təhriflər baş verməsəydi əsla zəlalət kitabları sayılmayacaqdı. Onların nəsx (hökmünün ləğv) edilməsi zəlalətə apardıqlarına dəlalət etmir. Ona görə də həmin kitabların bəzisini Əhli-Beyt (ə) imamlarında görürük. Bəzən o kitabları səhabələrinin qarşısına çıxarır və onlara göstərirdilər. Nəinki, insanları doğru istiqamətə yönəltmək üçün Zəbur kimi kitablardan daha yaxşısı yox idi. Çünki, bildiyimiz kimi, orada moizə və nəsihətlər yer almaqdadır. Doğrusunu Allah bilir!"[619]

Bu sözlər bəzi əhli-sünnə hədislərində də qeyd olunur. Aciri və digərləri Əbu Zərrin belə dediyini rəvayət edirlər: "Peyğəmbərə (s) dedim: "Ey Allahın elçisi,

---

[617] "əl-Ürfül-vərdiyyu fi əxbaril-Məhdiyy", 2/81.
[618] "əl-Fitən", Nüeym ibn Həmmad, səh.251.
[619] "Cəvahirul-kəlam", 22/60.

İbrahimin səhifələrində nə yazılmışdı?" Buyurdu: "Bütünlüklə belə sözlərdən ibarət idi: "Ey aldanmış, günaha mübtəla olmuş və hökmranlıq edən padşah! Mən səni dünyanın sərvətlərini bir-birinin üstünə toplamaq üçün göndərməmişəm. Səni məzlumların mənə olan dualarını yerinə yetirmək üçün göndərdim. Belə ki, məzlum kafir olsa belə, Mən onun duasını geri çevirmərəm". Həmçinin belə sözlər də vardı: "Ağıllı şəxsin gününü üç hissəyə ayırmalıdır: bir hissəsini Rəbbilə minacata, bir hissəsini özünü hesaba çəkməyə və Allahın hikmətləri barədə düşünməyə, bir hissəsini də ehtiyacı olan yemək və içməyə. Ağıllı şəxs yalnız bu üç halda yola çıxar: axirət üçün tədarük toplamağa, məişətini təmin etməyə və halal yolla zövq və ləzzətlər almağa. Ağıllı insan öz zəmanəsində uzaqgörən olmalı, işlərini layiqli tərzdə yerinə yetirməli və dilini qorumalıdır. Kim sözlərini də öz əməli sayarsa, sözü az olar, yalnız özünə aid məsələlər üçün danışar". Əbu Zərr deyir: "Dedim: "Ey Allahın elçisi, bəs Musanın səhifələrində nə yazılmışdı?" Peyğəmbər (s) buyurdu: "Bütünlüklə ibrət və nəsihətlərdən ibarət idi: "Ölümün gələcəyinə yəqinliklə əmin olub fərəhlənən şəxsə, qədərə inanıb özünü məşəqqət və zəhmətə salana, dünyanın öz əhlini necə haldan-hala saldığını görüb ona arxayın olana və qarşıda hesaba çəkiləcəyini bilib saleh əməl etməyən kəsə təəccüb edirəm". Dedim: "Ey Allahın elçisi, Allahın İbrahim və Musaya endirdiyi o səhifələrdən sənə nazil etdiklərində bir şey varmı?" Buyurdu: "Bəli, ey Əbu Zərr, bu ayələri oxu: ***"(Günahlardan) təmizlənən kimsə isə nicat tapacaqdır. O kimsə ki, Rəbbinin adını zikr edib namaz qılar! Lakin siz (ey insanlar!) dünyanı üstün tutursunuz! Halbuki axirət daha xeyirli və daha baqidir. Həqiqətən, bu deyilənlər (Qurandan) əvvəlki kitablarda mövcuddur - İbrahimin və Musanın kitablarında!"***[620]

Əgər keçmiş peyğəmbərlərin kitablarında moizə və nəsihətlər vardısa, onları əldə edib saxlamağın nə eybi ola bilər?!

* * *

**Müəllif iddia edir: "9 – Quran:**

[620] "əl-Ə`la" surəsi, ayə 14-19.

**Quranı isbatlamaqda dəlilə ehtiyac yoxdur. Lakin fəqihlərimizin kitabları və bütün müctəhidlərimizin sözləri Quranın təhrif edildiyini və digərlər səmavi kitablardan fərqli olaraq, təhrifin üz verdiyi yeganə kitab olduğunu qeyd edir".**

**Cavab:** Quranın təhrif olması bağlı fikri bütün şiə alimlərinə nisbət verməsi aşkar bir yalandır. Quranın təhrif olunduğunu söyləyənlər az sayda alimdir, onun iddia etdiyi kimi bütün fəqih və müctəhidlər deyildir.

Bundan əlavə, o iddia edir ki, **"(Quranın) digərlər səmavi kitablardan fərqli olaraq, təhrifin üz verdiyi yeganə kitab olduğunu qeyd edir"**. Bu da açıq-aydın yalandır. Belə anlaşılır ki, onların sözlərinə görə, bütün və ya əsas səmavi kitabların heç biri təhrif və xəyanətə məruz qalmayıb.

Müəllifin iddialarının puçluğunu göstərmək üçün hər iki iddiasının sübuta yetmədiyini söyləmək yetərlidir. Bir-iki alimin təhriflə bağlı fikirlərini nəql etməsi də mövzu ilə bağlı bütün alimlərin həmfikir olduqlarını təsdiqləməz.

Quranın təhrifə məruz qaldığını söyləyənlərin sayının çox olduğunu bildirmək məqsədilə Mirzə Nuri (r.ə) özünün "Fəslul-xitab" kitabındakı III müqəddimənin (müqəddimənin adı: "Alimlərimizin Quranın təhrif edilib-edilməməsilə bağlı fikirləri") 25-ci səhifəsində böyük alimlərimizin adlarını sadalayıb, onların kitablarında təhriflə bağlı rəvayətlərin və ya təhriflə bağlı fəsillərin qeyd edilməsini əsas götürərək, onların da Quranın təhrif olunduğuna etiqad bəslədiklərini düşünüb. Bu alimlərin sırasında Şeyx Kuleyninin, Əli ibn İbrahim əl-Qumminin, Muhəmməd ibn Həsən Səffarın, Muhəmməd ibn Abbas ibn Əli ibn Mərvan əl-Mahiyarın, Şeyx Təbərsinin adlarını qeyd edir.

Həmçinin Mirzə Nuri Quranın təhrif edilməsinə etiqad bəsləyənlər arasında Şeyx Müfid kimi məşhur olan Muhəmməd ibn Muhəmməd ibn Numanın da adını çəkib. Halbuki Şeyx Müfid özünün "Əvailul-məqalat" kitabında Quranın təhrif edilmədiyini açıq şəkildə bəyan edir.

"Fəslul-xitab"ın müəllifi bəzi alimlərin sözlərində axtarış aparmadan, dəlalət edib-etməməsindən asılı olmayaraq, "təhrif" kəlməsinə rast gəldiyi bütün cümləni öz kitabında nəql edib. Halbuki həmin sözlərin təhrifə heç bir dəlaləti yoxdur. Necə ki, Fəzl ibn Şazana bu nisbəti verərək, Quranın bir hissəsinin itirildiyinə dair əhli-

sünnənin iddialarına qarşı dəlil göstərdiyi sözləri nəql edir və mövzunu Fəzlin Quranın təhrif edildiyinə etiqad bəsləməsi kimi göstərir.

Eyni yanlışlıqla təhrifi Əli ibn Əhməd əl-Kufi, Muhəmməd ibn Həsən əş-Şeybani, Kərəkinin şagirdi Şeyx Yəhya, Muhəmməd Saleh Mazəndarani, Seyid Əli Xan, Mehdi Nəraqi, Muhəqqiq Qummi, "əl-Cəvahir" kitabının müəllifi Muhəmməd Həsən ən-Nəcəfinin babası Şeyx Əbul-Həsən Şərif, Şeyx Əli ibn Muhəmməd əl-Muqabi, Şeyx Mürtəza Ənsari və Zahir ibn Tavusa nisbət verib.

Həmçinin Şeyx Tusinin "Fehrist"ində və ya Nəcaşinin "Rical"ında qeyd edilən "əl-Məhasin" kitabının müəllifi Bərqinin, onun "ət-Tənzilu vət-təğyir" kitabının müəllifi olan atasının, "ət-Tənzilu minəl-Qur`ani vət-təhrif"in müəllifi Əli ibn Həsən ibn Fəzzalın, Şeyx Həsən ibn Süleyman əl-Hillinin "ət-Tənzil vət-təhrif" adlandırdığı "əl-Qiraat"ın müəllifi Əhməd ibn Muhəmməd ibn Səyyarın, Əli ibn Əbu Talibin (ə) Quranın qiraət və hərfləri ilə bağlı kitabından Əbu Tahir Əbdülvahid  ibn Ömər əl-Qumminin adlarını sadalayır.

Eləcə də Quranın təhrif olunması ilə bağlı Mirzə Nuri özünün də tanımadığı naməlum şəxslərə istinad edir. Onlardan: İbn Tavusun "Sə`dus-suud" kitabında qeyd etdiyi "Təfsirul-Qur`an və tə`viluhu və tənziluhu və mənsuxuhu və mütəşabihuhu və ziyadatu hurufihi və fəzailuhu və səvabuhu və rəvayatus-siqat ənis-sadiqinə min ali Rəsulilləh saləvatullahi əleyhim əcməin" kitabının müəllifi, yenə də İbn Tavusun "Sə`dus-suud" kitabında qeyd etdiyi bir kitabdan Peyğəmbər (s), Əli ibn Əbu Talib, Həsən, Hüseyn, Əli ibn Hüseyn, İmam Səccadın övladları Muhəmməd və Zeydin, Cəfər ibn Muhəmmədin, Musa ibn Cəfərin (Allahın salavatı onlara olsun!) fərqli qiraətləri.

Əgər onlara istinad düzgündürsə, belə şəxslərin sayı otuzdan artıqdır. Halbuki əksər alimlərin nəzərində onların istinadı səhih deyildir. Mirzə Nuri istinadlarında zənnə etimad etmiş, sözləri başqa mənalara yozmuş və nəql olunan fikirlərin xilafına izahlar vermişdir.

Əgər bir kitabda Quranın təhrif edilməsinə dair tək bir rəvayətin varlığı onun müəllifinin Quranın təhrif edildiyinə etiqad bəsləməsinə dəlil olaraq kifayət edirsə, o zaman əhli-sünnə kitab müəlliflərinin də bu təhrifə etiqad bəslədiklərini iddia etmək

olar. Belə müəllif və alimlərdən Buxarinin, Müslimin, Tirmizinin, Nəsainin, İbn Macənin, Darəqutninin, Əhməd ibn Hənbəlin, Abdullah ibn Əhməd ibn Hənbəlin, Əbu Davud Təyalisinin, Hümeydinin, Darəminin, İbn Hibbanın, Heysəminin, İbn Münzirin, Səid ibn Mənsurun, Əbdürrəzzaqın, Hakim Nişapurinin, İbn Mərdəveyhin, Ziya əl-Məqdisinin, Beyhəqinin, İbn Sədin, Siyutinin, Müttəqi Hindinin, Təbəraninin, İbn Əbu Şeybənin, Əbu Yə`lanın, Bəzzarın, Əbu Nüeym İsfahaninin, "Camiul-üsul"un müəllifi İbn Əsirin, təfsir müəllifi Qurtubinin, İbn Cərir Təbərinin, İbn Kəsir Diməşqinin, Mühamilinin, İbn Həcər Əsqəlaninin, İbn Əbdülbərrin, Xətib Bağdadinin, "Mu`təsirul-muxtəsər" kitabının müəllifi Yusif ibn Musa Hənəfinin, "əl-Ahad vəl-məsani" kitabının müəllifi Əbu Bəkr Şeybaninin, "Camiul-ulum vəl-hikəm" kitabının müəllifi İbn Rəcəb Hənəblinin, İbn Qüdamə Məqdisinin, Muhəmməd ibn Əli Şövkaninin, Əbul-Həsən Amidinin, "əl-İhkam" kitabının müəllifi İbn Həzm Əndəlusinin, "Müsnəd"in müəllifi imam Şafeinin və digərlərinin adlarını çəkmək olar.

Əhli-sünnə mənsublarından belə şəxslərin sayı 40-dan artıqdır. Onlar özlərinin məşhur kitablarında Quranın təhrif olunduğuna dair rəvayətlər və xəbərlər nəql ediblər. Adlarını burada sadalamadıqlarımızın sayı isə qeyd etdiklərimizdən dəfələrlə çoxdur.

Əgər mövzu ilə bağlı hədislərin səhihliyini nəzərə alsaq, o zaman əhli-sünnə məzhəbinin Quranın təhrif edildiyini söylədiklərini görər, Quranın təhrif edildiyinə dair hədis və rəvayətləri səhih saydıqları üçün bu etiqada sahib olduqlarını deyə bilərik.

Xüsusilə qeyd edək ki, müəllif Mirzə Nurinin Quranın təhrifilə bağlı sözlərini nəql etdiyi halda, həmin kitabın 35-53-cü səhifələrində məhz İncil və Tövratın təhrif edildiyini isbatlamasına göz yummuşdur. Müəllifin bu səhifələri nə üçün görməzdən gəldiyini və Qurandan savayı heç bir səmavi kitabın təhrif edilmədiyinə dair fikri bütün alimlərimizə nisbət verməsini anlamaq olmur. Halbuki bütün şiə alimləri həmin səmavi kitabların kəlmə və məna etibarı ilə təhrif edildiyi barədə həmfikirdirlər.

Mirzə Nuri (r.ə) yazır: "Birinci məsələ: "Tövrat və İncildə təhriflərin olması. Yəhudi və xristianların hazırda əllərində olan bu iki kitab Musa və İsaya

(Peyğəmbərimizə, onlara salam olsun!) nazil edilənlə eyni deyildir. Bu, öz yerində aydın olan məslədir, hətta bir çox ayələri, mütəvatir hədisləri və müsəlmanların icmasını mülahizə etdikdə, qəti fikirdir. Həmçinin Tövrat və İncili oxumaq da bunu isbatlamağa və əlavə dəlil göstərməməyə yetərlidir”.[621]

Qeyd etməliyik ki, Buxari isə öz “Səhih”ində bütün səmavi kitabların kəlmə və cümlələr baxımından deyil, yalnız məna və yozum cəhətdən təhrif edildiyini deyir.

Kitabının “Tövhid” bölümündə “Bu, şərəfli Qurandır” babında deyir: “Ayədəki “Ma yəlfizu” kəlməsi onun dediyi hər bir sözün əleyhinə yazıldığını bildirir. İbn Abbas deyir: “Yaxşı və pis, təhrif etdikləri və aradan apardıqları sözləri də yazılır”. Heç kəs Allahın göndərdiyi kitablardan birinin də bir kəlməsini aradan aparmamışdır, lakin onun yozumunu yanlış yöndə təhrif etmişlər”.[622]

İbn Həcər “Fəthul-Bari”də yazır: “Şeyximiz İbn Müləqqin bunun şərhində deyir: “Buxarinin söylədikləri bu ayənin təfsiri ilə bağlı iki fikirdən biridir və dedikləri onun seçimidir. Alimlərimizin çoxu yəhudi və xristianların Tövrat və İncildə dəyişiklik etdiklərini söyləmişlər. Bu səbəbdən həmin iki kitabın səhifələrinə qarşı ehtiramsızlığı haram bilməmişlər. Onların bu sözləri Buxarinin fikirlərinə müxalifdir. Belə ki, onun “Heç kəs...” sözləri İbn Abbasın söylədiklərini tamamlamaq məqsədi daşıyır”.[623]

Bundan əlavə, Tövratın kəlmə baxımından təhrifdən amanda qalması da İbn Teymiyyə tərəfindən irəli sürülmüş məşhur iddiadır.

İbn Həcər “Fəthul-Bari”də Tövrat və İncilin təhrif edilməsinə dair ixtilafı qeyd edərkən yazır: “Üçüncüsü: Təhrif onların (yəni Tövrat və İncilin) az hissəsində baş verib, böyük hissəsi isə nazil olduğu şəkil qalmışdır. Bunu Şeyx Təqiyyəddin ibn Teymiyyə özünün “ər-Rəddus-səhih əla mən bəddələ dinəl-Məsih” kitabında qeyd edir.

Dördüncüsü: Əvəzləmə və dəyişiklik onların kəlmələrində deyil, yalnız mənalarında baş vermişdir. Bu da orada qeyd olunur. İbn Teymiyyədən bu məsələ

---

621 “Fəslul-xitab”, səh.35.
622 “Səhih”, Buxari, 4/2360.
623 “Fəthul-Bari”, 13/448.

barədə soruşulduqda "Fətvalar" kitabında belə cavab vermişdir ki, alimlərin məsələ ilə bağlı iki rəyi vardır. İkincinin (yəni təhrifin yalnız mənaların yozumunda baş verdiyi fikri) bir çox cəhətdən dəlilə əsaslanır. Onlardan biri Allahın Qurandakı sözüdür: ***"Onun (Allahın) sözlərini heç kəs dəyişə bilməz"".***[624]

* * *

**Müəllif iddia edir: "Hədisşünas Nuri Təbərsi təhrifin baş verdiyinə dair geniş həcmli bir kitab yazmış və onu "Fəslul-xitab fi isbati təhrifi kitabi Rəbbil-ərbab" ("Ucaa Allahın kitabının təhrif edildiyinin isbatına dair yetərli bəyan") adlandırmışdır. Orada təhrifin baş verdiyinə dair mindən artıq rəvayət təqdim etmiş və təhrif olduğunu söyləyən bütün şiə fəqih və alimlərinin sözlərini nəql eləmişdir. O, keçmiş və hazırkı bütün şiə fəqih və alimlərinin belə söylədiklərini sübuta yetirmişdir: Həqiqətən də bu gün müsəlmanların əlində olan bu Quran təhrif olunmuşdur".**

**Cavab:** Müəllifin iddia etdiyi geniş həcmli həmin kitabın səhifələrinin sayı 375-dən artıq deyil. Belə bir kitab orta həcmli hesab olunur.

Bu həcmdə olan bir kitab mindən artıq rəvayəti, keçmiş və müasir bütün şiə alimlərinin məsələ ilə bağlı sözlərini, Mirzə Nurinin (r.ə) özünün izah, şərh və dəlillərini, eləcə də əhli-sünnə mənbələrində mövzu ilə bağlı rəvayətləri və onların alimlərinin fikirlərini özündə ehtiva edə bilərmi?!

Halbuki Mirzə Nuri kitabında bir çox rəvayəti təkrar-təkrar qeyd etmiş, bəzən rəvayətləri sənədli, bəzən də sənədsiz nəql eləmişdir. Şeyx Muhəmməd Cavad Bəlaği (q.s) özünün "Alaur-Rəhman" kitabında Mirzə Nurinin gətirdiyi rəvayətləri rədd edərkən yazır:

"Beləliklə, müasir hədisşünas "Fəslul-xitab" kitabında Quranın təhrif edildiyinə dair rəvayətləri toplamağa səy göstərib, istinadlarının sayını da Əyyaşi və Furat kimi müəlliflərin İmamlarımızdan (ə) nəql etdikləri mürsəl hədislərilə artırmağa çalışıb. Azacıq araşdırma aparılan şəxs həmin mürsəl rəvayətlərin məhz o mənbələrdən götürüldüyünə əmin olacaq. Onun qeyd etdiyi rəvayətlərin bir hissəsi doğruluq ehtimalı mümkünsüz olan və bir hissəsi də səhihliyinə etina edilməyəcək həddə

[624] "Fəthul-Bari", 13/449.

özündə ziddiyyət və inkar edilən xüsusiyyətləri daşıyan rəvayətlərdir. Bunlar həmin rəvayətlərin müxtəsər xüsusiyyətləridir ki, onların vəziyyətini bütünlüklə burada sadalayıb siyahını uzatmaq istəmirik. Bundan əlavə, həmin rəvayətlərin böyük hissəsinin istinadı bir neçə nəfərə söykənir. Rical alimlərimiz isə həmin ravilərin hamısının ya zəif, ya yanlış əqidə sahibi, yaxud nəql etdiyi hədislərdə və məzhəbində qarışıqlığı olan, hədisləri tanınıb inkar edilən, zəif ravilərdən rəvayət edən, ya da yalançılıqda ittiham olunan və bir hədisinin belə rəvayət edilməsi halal sayılmayan, ya İmam Rzaya (ə) qarşı şiddətli ədavətlərilə tanınan vaqifi, yaxud həddi aşan yalançı, ya əhəmiyyət verilməyəcək və etina olunmayacaq həddə zəif, ya da olmayan şeylər uyduran yalançı olduqlarını qeyd edirlər. Şübhə yoxdur ki, belə ravilərin hədislərinin çoxluğunun heç bir dəyəri yoxdur. Əgər bu cür mühüm bir mövzuya dair onların rəvayətlərinə əhəmiyyət vermiş olsaq və çoxsaylı rəvayətlərin dəlalətinə etina etməyi vacib saysaq, o zaman həmin rəvayətlərin məzmunun ayələrin təfsir və yozumlarına, yaxud yəqinliyi bilinən daşıdığı ümumi mənalara şamil olduğunu deyə bilərik. Çünki kəlmələrin və ayrıca mənaların hökmü ümumi hökmdən daha zahir və daha üstündür. Yaxud da belə rəvayətlər ayə nazil olarkən ümumi mənadan xüsusi mənaya dəlalətini göstərir, ya nazil olma məqamını və ya anlaşılmaz kəlməni qeyd edir. Bu son üç ehtimala əsasən, həmin sözlərin ayənin nazil olma səbəbi və ya Cəbarilin (ə) gətirdiyinin eyni olduğu aydınlaşdırıla bilər. Necə ki, rəvayətləri cəm etdikdə də alınan nəticə buna şahidlik edəcək. Eləcə də burada söhbətin məna təhrifindən getdiyi ehtimal olunur. Buna İmam Əbu Cəfər Muhəmməd Baqirin (ə) Səd əl-Xeyrə yazdığı sözlər də şahidlik edir. “Rovzətul-Kafi”də nəql olunur: “Onların kitabı arxa çevirib kənara atmaları onun (zahiri) kəlmələrini qoruyub mənalarını təhrif etmələri idi”. Həmçinin qeyd edilən ayələrin Möminlərin əmiri Əlinin (ə) və ya İbn Məsudun yazdıqları Quranda olduğu ehtimalı da vardır. Oradakı əlavələr təfsir və yozum məqsədi daşıyır. Buna Möminlərin əmiri Əlinin (ə) “Nəhcul-bəlağə”də və digər mənbələrdəki sözləri də şahidlik edir: “Mən onlara həm nazil olmuş, həm də yozumları qeyd edilmiş kitab təqdim etdim””.[625]

---

[625] “Alaur-Rəhman”, səh.26.

Bunun ardınca Mirzə Nurinin dəlil olaraq təqdim etdiyi bəzi rəvayətlərin şərhini verdikdən sonra deyir: “Bu və bu nümunədə olan rəvayətlər “Fəslul-xitab”ın müəllifinin rəvayətlər barədə az məlumata sahib olmasına rəğmən onları ard-arda sadalamağa inad göstərdiyinə qəti əminlik yaradır. Bizim qeyd etdiklərimiz və eləcə də qeyd etmədiklərimiz digər fikirlər bizim görkəmli və böyük alimlərimizin sözləridir. Əgər “Bu rəvayətlər və eləcə də kitabda təqdim edilən rəvayətlərin bir hissəsi zəifdir” deyilsə, deyərik: “Fəslul-xitab”ın müəllifinin topladığı bu rəvayətlərin böyük hissəsi zəifdir. Bunu rəvayətləri araşdırarkən qeyd etdik. Ancaq o rəvayətlərdən səhih olanlarına gəldikdə, yuxarıda sadaladığımız ehtimallar ağıl sahibləri üçün onları anlamağa yetərlidir”.[626]

Hər necə olursa-olsun, mühüm olan Quranın təhrif edilməsi barədə fikirlərin inkar və ya isbatıdır. Ancaq bir qisim rəvayətlərə göz yumaraq, heç bir üstünlüyü olmadığı halda digər bir qismindən möhkəm yapışmaq həqiqət axtaran və haqsevən insaflı şəxsə yaraşmaz.

* * *

**Müəllif iddia edir: “Seyid Haşim Bəhrani[627] deyir: “Hədislərə nəzər saldıqdan və onları araşdırdıqdan sonra mənim nəzərim də bu rəyin (yəni Quranın təhrif edilməsinin) düzgün olduğu barədədir və bunu şiə məzhəbinin də zəruri məsələsi olduğuna hökm etmək olar. Belə ki, bundakı ən böyük məqsəd[628] xilafətin qəsbi idi” (“Bürhan” təfsirinin müqəddiməsi, IV fəsil, səh.49)”.**

**Cavab:** Şiə məzhəbinin sütunları sayılacaq alimlərin inkar etmələrinə rəğmən Quranın təhrif edilməsi fikrinin məzhəbin zəruri məsələlərindən biri olduğuna necə hökm vermək mümkündür?! Şeyx Müfid, Seyid Mürtəza, Şeyx Tusi, Şeyx Səduq, Təbərsi və məzhəbin digər böyük alimləri hamılıqla Quranın hər hansı bir əlavə və

---

[626] “Alaur-Rəhman”, səh.29.

[627] Nəql etdiyi bu sözlər Əbul-Həsən Amuliyə məxsusdur. Müəllif yanlışlığa yol verərək onu Seyid Haşim Bəhrani ilə səhv salıb. Səbəb isə Amulinin “Mir`atul-ənvar” təfsirinin müqəddiməsini Seyid Haşim Bəhraninin “Bürhan” təfsirinin müqəddiməsi zənn etməsidir.

[628] Müəllifin kitabında belə qeyd olunub. Ancaq əsl mənbədə “fəsad” kəlməsi qeyd olunub. Bəlkə də iddiaçı müəllif ilk üç xəlifənin məqamını qorumaq məqsədilə kəlməni dəyişmişdir.

naqislikdən amanda qaldığını aşkar bəyan etmişlər. Məzhəbin zəruri olan bir məsələsindən onlar necə xəbərsiz qala bilərdilər?!

Təhrifin baş verdiyini bildirən rəvayətlərin səhihliyi belə onları birbaşa qəbul etməyi vacib hala gətirməz. Çünki həmin rəvayətlər mövzunun əksinə dəlalət edən digər səhih hədislərlə bir araya gətirilməli və ortaq hökm verilməlidir. Məsələn Qurandan möhkəm yapışmağı təşviq edən, yaxud hədisləri kitabla tutuşdurmaq və s. belə hədislər vardır ki, onlar təhriflə bağlı hədislərin müqabilindədir. Əgər mücərrəd olaraq təhrif barədə hədisin varlığı Quranın təhrif edildiyinə dəlil sayılarsa, o zaman əhli-sünnə kitablarında bu mövzuda qeyd edilən səhih hədislərə əsasən, onların da təhrifin baş verdiyinə etiqad bəslədiklərini və bu etiqadın məzhəblərinin zəruri məsələlərindən olduğunu deməliyik.

* * *

**Müəllif iddia edir: "Seyid Nemətullah Cəzairi təhrifin baş vermədiyini söyləyən şəxslərin iddialarını inkar edərək yazır: "Onun ilahi vəhydən qaynaqlandığını, bütünlüklə ruhul-Əmin tərəfindən gətirildiyini nəzərə alsaq, alimlərimizin səhih saymalarına və təsdiq etmələrinə rəğmən biz həmin çoxsaylı hədisləri kənara atmalıyıq" ("Ənvarun-Numaniyyə", 2/357)".**

**Cavab:** Quranın mənşəyinin mütəvatir olduğunu bildiyimiz halda mövzuya zidd olan çoxsaylı hədisləri kənara qoymağın heç bir müşkülü yoxdur. Çünki sözün mütəvatirliyi mənşəyinin qəti şəkildə düzgün olması deməkdir. Çoxsaylı hədislər isə mənşəyində (və ya mövzusunda) zənn və güman olan dəlillərdir. Zənn və gümanlı olan hədislərin müqabilində mütəvatirliyi qəti olan dəlildən əl götürülməz.

Habelə Şeyx Bəlağinin (q.s) qeyd etdiyi kimi, həmin hədisləri təhrif anlamına gəlməyəcək mənalara da yozmaq mümkündür.

Hərçənd həmin çoxsaylı hədislərin böyük hissəsinin sənədi zəifdir, sənədi səhih və dəlaləti aydın olan bir çox hədislərə də ziddir. Belə hədislərə necə etimad etmək olar?!

Onların hamısının səhih olduğunu alimlərimizin iddia etdiklərini fərz etsək belə, bu, əvvəldə qeyd etdiyimiz kimi, yenə də Quranın təhrif edildiyi fikrinə dəlalət etməyəcək. Ona görə də alimlərimiz təhrif sözünü səsləndirməmişlər.

* * *

**Müəllif iddia edir: "Ona görə də Cabirin nəql etdiyinə əsasən, Əbu Cəfər belə deyir: "Bütün Quranı bir yerə topladığını yalançıdan savayı bir kəs iddia etməz. Onu nazil olduğu kimi yalnız Əli ibn Əbu Talib və ondan sonrakı İmamlar toplamışlar" ("əl-Huccətu minəl-Kafi", 1/26)".**

**Şübhə yoxdur ki, bu sözlər hazırda müsəlmanların əlində mövcud olan Quranın təhrif edildiyini açıq şəkildə isbatlayır. Həqiqi, təhrif olunmamış Quran Əlidə və ondan sonrakı İmamlarda olan Qurandır ki, nəticədə Qaimə çatmışdır (ona, ata və babalarına salavat və salam olsun!)"**

**Cavab:** Bu hədisin sənədi zəifdir. Raviləri arasında Əmr ibn Əbul-Miqdam vardır ki, onun barəsində fərqli fikirlər söylənib, inanılan şəxs olduğu isbatlanmayıb.

Əllamə Məclisi (r.ə) yazır: "Birinci hədisin (sənədində) barəsində ixtilaf olan ravi vardır".[629]

Alimlərimizin sözlərindən də aydın olur ki, onların əksəriyyəti hədisin zəif olduğu qənaətinə gəliblər.[630]

İnanılan şəxs olması heç bir dəlillə isbatlanmayan bir ravinin sözü necə etibarlı ola bilər? Xüsusilə də alimlərin onun barəsindəki sözləri birmənalı deyildir. İbn Ğəzairi iki fərqli yerdən birində onu inanılan, digər yerdə isə zəif ravi olaraq təqdim etmişdir.[631] Əllamə Hilli (q.s) "Xülasə"sinin birinci hissəsində onun adını inanılan şəxslərin sırasında, ikinci dəfə isə ikinci hissəsində zəiflərin cərgəsində çəkmişdir.[632] İbn Davud da öz "Rical"ında eyni cür davranmışdır.[633] Buna əsasən, ravinin vəziyyəti məchul olduğuna görə, etibarlı sayılmır.

Rəvayətin sənədinə göz yumsaq belə, Quranı toplamaq və qorumaqda məqsəd heç də müəllifin təsəvvür etdiyi kimi, onun surə və ayələrini bir kitabda cəmləmək deyildir. Onları toplamaqda məqsəd bu iki mənadan biridir:

**Birinci məna:** Quranın təfsirini, oradakı ehkam və təlimləri bilməkdir.

---

629 "Mir`atul-uqul", 3/30.
630 Bax: "Tənqihul-məqal", 2/324; "Rical", Əllamə Məclisi, səh.241.
631 Bax: "Rical", İbn Ğəzairi, səh.73, 111.
632 "Rical", Əllamə Hilli, səh.120, 241.
633 Bax: "Tənqihul-məqal", 2/324.

Buna, İmamın (ə) başqa bir hədisi də dəlalət edir. Kuleyni onu kitabının eyni fəslində nəql edib: “Canişinlərdən (vəsilərdən) savayı heç kim bütün Quranın zahir və batindən agah olduğunu iddia edə bilməz”.

Həmin hədisin mənası da məhz belədir. Əgər hədisdə məqsədin bütün Quranı bir kitabda toplamaq olduğu düşünülsə, o zaman ümmətin hər bir üzvü özündə belə bir kitabın olduğunu iddia edə bilər. Ancaq Quranı bütünlüklə, Allahın nazil etdiyi tərtibdə bilməyi, ayələrini, zahiri və batini mənalarını düzgün anlamağı bu ümmət arasında İmamlardan (ə) savayı heç kəs iddia edə bilməz.

İmamın (ə) hədisdə “zahiri və batini” sözləri bizi buna yönəldir. Belə ki, Quranın zahiri və batini onun kəlmələri ilə deyil, mənaları ilə bağlı sözlərdir. Zahir və batini toplamaq demək, yəni müqəddəs kitabın ayələrinin mənalarını bütünlüklə ehtiva etmək deməkdir. Yaxud da zahiri onun kəlmələri, batini isə onların mənalarıdır. Bu halda məna belə olacaq: “Canişinlərdən (vəsilərdən) savayı heç kim Quranın kəlmələrindən və kamil mənalarından agah olduğunu iddia edə bilməz”.

Əgər Quranın toplanmasında məqsəd onun bütün kəlmələrini bir kitaba cəmləmək olsaydı, o zaman belə deməyimiz doğru olardı: Əlidən (ə) savayı digər Əhli-Beyt imamları (ə) da Quranı toplamışlar”. Çünki, əgər Əli (ə) onlardan əvvəl toplamışdırsa, o zaman toplanmış şey necə ikinci dəfə toplayırlar?!

Bunlardan əlavə, həmin fəsildə olan hədislər Əhli-Beyt imamlarının (ə) bütünlüklə Quranın təfsirini və mənalarını bildikləri, Allahın buyurduğu mənada hökmləri anladıqları, ümmət arasında onlardan savayı heç bir kəsin bunu iddia edə bilməyəcəyi barədə toplanmışdır.

**İkinci məna:** Quranın toplanmasında məqsəd onun nazil olduğu ardıcıllıqla, hökmü ləğv edilmişin (mənsuxun) ləğv edəndən (nasixdən), Məkkədə nazil olanın Mədinədə nazil olandan, əvvəl enənin sonra enəndən öncə qeyd edilməsilə tərtib olunmasıdır. Quranın bu şəkildə toplanmasını ümmət arasında Əli ibn Əbu Talibdən (ə) savayı heç kəs iddia etməmişdir.

İbn Səd “ət-Təbəqatul-kubra”da, İbn Əbu Davud “əl-Məsahif”də, İbn Əbdülbərr, “əl-İstiab” və “ət-Təmhid”də və digərləri Muhəmməd ibn Sirindən nəql edirlər: “Peyğəmbər (s) vəfat etdikdə Əli Əbu Bəkrə beyət etməyi gecikdirdi. Əbu Bəkr onu

gördükdə dedi: “Mənim rəhbər olmağımı bəyənmirsən?” Əli “Xeyr. Quranı bir yerə toplamadıqca, yalnız namaz üçün çiynimə əbamı atacağıma and içmişəm”. İddia edirlər ki, o, Quranı nazil olduğu ardıcıllıqda yazırdı. Muhəmməd deyir: “Əgər həmin kitab ələ düşsə! Elm məhz oradadır”.[634]

Siyuti yazır: “Bunu İbn Əştəh “əl-Məsahif”də İbn Sirindən bir az fərqli şəkildə nəql edib. Orada Əli (ə) nasix və mənsuxu da qeyd edib. İbn Sirin deyir: “Həmin kitabı əldə etmək üçün axtardım, Mədinəyə bu barədə məktub yazdım. Ancaq əldə edə bilmədim”.[635]

Bütün bunlardan aydın olur ki, müəllifin hədis istinadları və onların məna dəlalətlərinin yozumları qüsurludur.

* * *

**Müəllif iddia edir: “Bu səbəbdən də İmam Xoi ölüm yatağında ikən hövzədəki tədrisi bizə həvalə edərək belə vəsiyyət etdi: “Fatimənin Quranı ortaya çıxanadək bu Qurana tabe olun”.**

**İmam Xoinin Fatimənin Quranı deməkdə məqsədi yuxarıda qeyd etdiyimiz Əlinin (r.a) topladığı həmin kitabdır”.**

**Cavab:** Bu, yalanlığı bariz olan bir hekayədir. Çünki Seyid Xoi (q.s) ölümündən öncə xəstələnməmiş və ölüm yatağına uzanmamışdı ki, vəsiyyət də etsin. O, anidən və qəflətən ölmüşdür. Bunu Seyidi tanıyan və onun barəsində məlumatlı olan hər kəs bilir, həmçinin insanlar arasında məşhur bir hadisədir.

Bundan əlavə, Seyid Xoi (q.s) belə bir sözü əsla söyləməz. Çünki o, öz kitablarında Quranın hər hansı bir artırma və azaltmadan salamat qaldığını açıq bəyan etmişdir. Hal belə olduqda, İmam Sahibəz-Zaman hansı Quranı aşkara çıxaracaq?!

Hazırda əlimizdə olan Quranın Fatimənin (s.ə) müshəfi ilə nə əlaqəsi vardır?! Bunlar iki fərqli kitablardır. Belə ki, əvvəldə vurğuladığımız kimi, Fatimənin (s.ə)

[634] “ət-Təbəqatul-kubra”, 2/338; “əl-Məsahif”, səh.16; “əl-İstiab”, 3/974; “ət-Təmhid”, 6/31. Həmçinin bax: “Tarixul-xüləfa”, səh.173, “əl-İtqanu fi ulumil-Qur`an”, 1/127; “Kənzül-ümmal”, 2/558; “Hilyətul-övliya”, 1/67, “əl-Fehrist”, İbn Nədim, səh.41.

[635] “əl-İtqanu fi ulumil-Qur`an”, 1/127.

müshəfində keçmişdə baş olanlar və gələcəkdə baş verəcək hadisələr qeyd olunub. Həmin kitab Quran deyildir və orada Qurandan bir ayə belə yoxdur.

Həmçinin hədis və rəvayətlər İmam Sahibəz-Zamanın (ə.f) Fatimənin (s.ə) müshəfini insanların qarşısına çıxaracağına dəlalət etmir, onlar üçün Möminlərin əmiri Əlinin (ə) yazdığı, nazil olma ardıcıllığı və izahları qeyd olunmuş Quranı aşkar edəcəyini bildirir.

Müəllifin bu hekayəni uydurduğuna Seyid Xoinin (q.s) dilindən nəql etdiyi "Fatimənin Quranı" sözləri də şahidlik edir. Halbuki həmin kitab "Fatimənin müshəfi" adlanır. Bu cür səhv və yanlışa Seyid Xoi bir kənara qalsın, heç sadə tələbələr belə yol verməzlər.

* * *

**Müəllif iddia edir: "Ən qəribə və qəbuledilməz məsələ odur ki, bu kitablar Allah qatından nazil edilmiş, yalnız Möminlərin əmiri (s.ə) və ondan sonrakı imamların sərəncamında olmuş, lakin ümmətdən, eləcə də Əhli-Beytin şiələrindən gizli saxlanılmışdır. Ümmətdə isə bəsit bir Quran qalmışdır ki, fəqihlərimizin sözlərinə əsasən, onun da üzərində əl gəzdirilərək artırılan artırılmış, azaldılan da azaldılmışdır".**

**Cavab:** Əvvəldə də qeyd etdiyimiz kimi, Tövrat, İncil və Zəburdan savayı müəllifin sadaladığı kitabların heç biri Allah tərəfindən nazil olunmamışdır. O kitabların bəzi Peyğəmbərin, bəzisi də mələyin imlası ilə yazılmışdır.

Hər halda, bu kitabların insanlardan gizlədilməsinin heç bir müşkülü yoxdur. Çünki həmin kitablarda insanların ehtiyac duymayacağı şeylər də vardır. Məsələn Fatimənin (s.ə) müshəfindəki məlumatlar kimi. Bu kitab baş vermiş və baş verəcək hadisələrdən bəhs edir. Ümumi mənafe və məsləhət də onu insanlardan gizləməyi tələb edir.

O kitablardan insanların ehtiyac duyacaqları məlumatlar isə İmamlarda (ə) qorunurdu. Onlar insanlar o kitablardakı hökm və təlimlərdən xəbər verir və açıqlayırdılar. Nəticədə insanlar o kitablardan faydalanmış olurdular, ancaq bu faydalanma yalnız İmamların (ə) təlimi vasitəsi ilə olurdu. Bunda isə heç bir eyib yoxdur.

Quranın bəsit bir kitab olduğunu iddia etməsi isə Allahın kitabına, eyni vaxtda şiələrə qarşı böyük bir cinayətdir. Şiələrin keçim və müasir alimləri Quranı şəri hökmlərin və əqidələrin əldə edilməsi üçün birinci növbəli mənbə sayır, sənədi səhih olsa belə, ona zidd gələn bütün hədisləri divara çırpırlar. Bu məsələ fəqihlik və ictihad iddiası edən kəs bir kənara dursun, hətta ən kiçik tələbələrdən belə gizli deyildir.

Müəllifin **"...onun (Quranın) da üzərində əl gəzdirilərək artırılan artırılmış,.."** iddiası puç və yalandır. Təhrif olduğunu söyləyən fikirləri araşdırdıqda, Qurana bir şeyin əlavə edildiyi iddiasına rast gəlinmir. Təhrif iddiasında olanlar isə Qurandan nələrinsə çıxarıldığı fikrindədirlər. Bu, məsələ ilə bağlı fikirləri araşdıran şəxsə əsla gizli deyildir.

* * *

**Müəllif iddia edir: "Əgər bu kitablar həqiqətən də Allah tərəfindən nazil edilibsə və doğurdan da Möminlərin əmirində idisə, bəs ümmətin yaşam və ibadətində ehtiyac duyduğu halda, onlardan gizlədilməsinin mənası nədir?**

**Bir çox fəqihlərimiz bunun səbəbini belə izah edirlər: Mübahisə yaranacağı qorxusundan gizlədilmişdi!**

**Biz soruşmalıyıq: Möminlərin əmiri, Haşim oğullarının aslanı onları müdafiə edə bilməyəcəkdi?! Mübahisə yaranacağı qorxusundan onları gizli saxladı və ümməti oradakı maarifdən məhrum etdi?! Xeyr, səmanı sütunsuz ucaldana and olsun ki, Əbu Talibin oğlu Allahdan başqa heç kəsdən qorxmurdu".**

**Cavab:** Əvvəldə də izah etdiyimiz kimi, bütün bu kitabları ümmətdən gizləməyin heç bir qəbahəti yoxdur. Burada həmin fikirləri təkrarlamaq istəmirik.

Təəccüblüsü budur ki, müəllif mübahisə yaranacağı qorxusundan bu kitabların gizlədildiyi fikrini bir çox şiə fəqihlərinə nisbət verir, ancaq bir fəqihin belə adını çəkmir.

Hər halda, biz bu kitabların ümumən ümmətdən, xüsusən də şiələrdən gizlədilməsinin səbəbini heç araşdırmırıq. Çünki biz, İmamların (ə) yalnız hikmət və

məsləhət əsasında hərəkət etdiklərinə qətiliklə etiqad bəsləyirik. Onlar bunun səbəbini daha yaxşı bilirlər. Ona görə də bu cəhətdən bizim qəlbimiz rahatdır.

Sonra müəllif təbil çalıb, zurna üfürüb var gücü ilə qışqıraraq İmamların (ə) bu kitabları ümmətdən gizlətməsinin düzgün olmadığını deyir. Halbuki əhli-sünnə hədis alimləri qeyd edirlər ki, Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkr bütün Quranı vərəqlərə yazdı. O ölənədək həmin Quran onda qaldı. Sonra Ömərdə oldu və o da ölənədək özündə saxladı. Onun ölümündən sonra Peyğəmbərin (s) həyat yoldaşı Həfsəyə verildi. Osman xəlifə olduqda həmin kitabı Həfsədən istədi, ancaq Həfsə kitabı verməkdən imtina etdi. Dəfələrlə adam göndərib kitabı istədi və sonda baxıb qaytaracağını dedi. Həfsə bu şərtlə kitabı ona göndərdi. Osman həmin kitabın nüsxəsini çıxardı və yenidən Həfsəyə göndərdi. Kitab Mərvan onu əldə edib yandıranadək Həfsədə qaldı.[636]

Buxarinin”Səhih”ində Zeyd ibn Sabit Quranın toplanması hadisəsini qeyd edərkən deyir: “Əbu Bəkr ölənədək səhifələr (kitab) onda idi, sonra Ömərdə, sonra da Həfsədə idi”.[637]

Başqa bir hədisdə Ənəs deyir: “Osman Həfsənin yanına adam göndərib dedi: “Nüsxəsinin çıxarılması üçün səhifələri bizə göndər, onu sənə qaytaracağıq”. Həfsə onu Osmana göndərdi. Osman Zeyd ibn Sabitə, Abdullah ibn Zübeyrə, Səid ibn Asa, Əbdürrəhman ibn Haris ibn Hişama kitabın nüsxəsini çıxarmağı buyurdu. Onlar da bir kitab şəklində onun nüsxəsini yazdılar”.[638]

İndi müəllif və digərləri əhli-sünnədən soruşmalıdırlar:

Nə üçün Əbu Bəkr və Ömər dünyadan köçənədək Allahın kitabını müsəlmanlardan gizlədilər?!

Nə üçün bütün müsəlmanların haqq olduğu halda, həmin kitaba yalnız Həfsə sahib oldu?!

---

[636] “ət-Təmhid”, 6/30.

[637] “Səhih”, Buxari, 3/1609; 4/2248; “Sünən”, Tirmizi, 5/283, 284 (Hədisi səhih saymışdır). “Səhih”, İbn Hibban, 10/360, 364; “əs-Sünənul-kubra”, Beyhəqi, 2/41; “əs-Sünənul-kubra”, Nəsai, 5/7, 9; “Müsnəd”, Əbu Yə`la, 1/51, 59; “əl-Möcəmul-kəbir”, Təbərani, 5/146, 147, 148; “Şə`bul-iman”, 1/196.

[638] “Səhih”, Buxari, 3/1610.

Nə üçün bütün bu müddət ərzində Həfsə o kitabı gizlədi, ilk vaxtlarda Osmana verməkdən boyun qaçırdı?!

Halbuki həmin vaxt oxumaq, ibadət və itaət hökmlərinə əməl etmək baxımından müsəlmanların bir yerə toplanmış kitaba daha çox ehtiyacları vardı!

Əbu Bəkrin, Ömərin və Həfsənin bu Quranı gizlətmələrinə bəraət qazandırmaq üçün nə deyiləcəksə, Əhli-Beyt imamlarının (ə) özlərinə məxsus olan kitabları da gizləmələrinə haqq qazandırmaq üçün onların deyilməsi daha layiqdir. Halbuki həmin kitablar Quranla müqayisə edilə bilməz və yalnız məhz sahiblərinə məxsus idi.

Müəllifin başqa təəccüblü bir iddiası da İmaların (ə) bu kitabları gizlətdiklərinə görə şiələri məzəmmət etməsidir. Bəs Əbu Bəkr və Ömərin xəlifə olduqları müddətdə Allahın kitabını ümmətdən gizlətmələrinə necə göz yumur?!! Bəs nə üçün buna görə xüsusən onların ikisini, ümumən də əhli-sünnə mənsublarını məzəmmət etmir?!

* * *

**Müəllif iddia edir: "Sual yaranır: Möminlərin əmiri və ondan sonrakı imamlar Zəburu, Tövratı və İncili bir-birlərinə ötürərək və gizlində oxuyaraq (!) nə edirdilər?**

**Hədislər Möminlərin əmirinin təkbaşına bütün Qurana və ona məxsus kitab və səhifələrə sahib olduğunu qeyd etdiyi halda, Quranın nazil olması ilə hökmü ləğv edilmiş Zəbur, Tövrat və İncilə onun nə ehtiyacı vardı?"**

**Cavab:** Bəs müəllif özünə sual verirmi ki, nə üçün bir dəstə səhabə kitab əhlinin yazılarına nəzər salır və onlara önəm verirdi? Belə ki, əvvəldə də qeyd edildiyi kimi, əhli-sünnə mənbələrində Abdullah ibn Əmr ibn Asın iki dəvə yükü qədər xristian və yəhudilərin kitablarına sahib olduğu və onları qeyd edilir.

Bəs nə üçün Abdullah ibn Əmr ibn Asın, eləcə də Kə`bul-Əhbarın, Vəhəb ibn Münəbbihin və digər yəhudi əshabın kitab əhlinin yazılarına əsaslanıb oradakı dua və təfsirləri nəql etdiklərinə, əhli-sünnənin mənbələrinin bu rəvayətlərlə dolub-daşdığına, hətta bəzi xəlifələrin onlardan fikirlərini soruşub verdikləri cavablara etina etmələrinə irad bildirmir?!

Hər halda, İmamların (ə) bu kitabları saxlamalarını aşağıdakı səbəbləri söyləyə bilərik:

1. Həmin kitablar peyğəmbərlərin miraslarıdır, onlara qarşı etinasız və ehtiramsızlıq doğru sayılmaz, həmin kitabların qorunub hifz edilməsi lazımdır.

2. Həmin kitablar xristian və yəhudilərlə mübahisələr zamanı faydalı olur. Necə ki, Muhəmməd peyğəmbər (s) bir yəhudi üçün zinakar kişi və qadının daşqalaq edilməsilə bağlı hökmün isbatı üçün Tövratdan dəlil gətirdi. Eləcə də müsəlmanlar İncildə Muhəmməd peyğəmbərin (s) ilahi elçiliyinin və şərif adının yazıldığını sübuta yetirmək üçün xristianlara onların öz kitablarından dəlil gətirirlər. Həmçinin buna Uca Allahın ayəsi də işarə edir: ***“Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: “Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın elçisiyəm!” Sonra onlara açıq-aşkar möcüzələr gətirdikdə onlar: “Bu, açıq-aydın sehrdir!” -dedilər”.***[639]

Yəhudi və xristianlar Peyğəmbərdən (s) və müsəlmanların imamlarından fərqli məsələlər barədə soruşur, müxtəlif hökm və etiqadlar barədə mübahisə edirdilər. Şübhə yoxdur ki, Tövrat və İncili bilmək onların qarşısında dəlil təqdim etmək və haqqı sübuta yetirmək üçün əvəzsiz idi.

3. Həmin kitablara sahib olmaq müsəlman torpaqlarında yaşayan yəhudi və xristianlar arasında hökm etməkdə fayda verirdi. Bu səbəbdən Möminlərin əmiri Əlinin (ə) belə söylədiyi nəql olunur: “Allaha and olsun, əgər söykənib əyləşməyim üçün bir çalış qoyulsa, Tövrat əhli üçün Tövratla, İncil əhli üçün İncillə, Zəbur əhli üçün Zəburla və Quran əhli üçün də Quranla hökm edərəm”.[640]

Əbu Nüeym “əl-Fitən” kitabında Kə`bdən rəvayət edir: “Mehdi Rumla döyüşə göndəriləcək, Antakiyadakı mağaradan Musa ailəsinin əmanətləri olan sandığı çıxaracaq. Həmin sandıqda Allahın Musaya nazil etdiyi Tövrat və İsaya (ə) endirdiyi İncil olacaq. Mehdi Tövrat əhli arasında Tövratla, İncil əhli arasında da İncillə hökm edəcək”.[641]

---

[639] “əs-Saff” surəsi, ayə 6.

[640] “Kitabut-tövhid”, Şeyx Səduq, səh.305; “Əmali”, Şeyx Tusi, səh.523; “əl-İhticac”, 1/384, 391; “Mənaqibu Ali Əbu Talib”, 2/47; “Biharul-ənvar”, 26/153, 183, 27/4, 30/672, 35/391, 40/126, 144, 153, 89/78, 95.

[641] “əl-Fitən”, Nüeym ibn Həmmad, səh.249.

4. Həmin kitablarda moizələr və ibrətli hekayələr yazılıb. Necə ki, bu Muhəmməd peyğəmbərdən (s) nəql edilən rəvayətdə qeyd edildi. Oradakı moizə və nəsihətlərdən ibrət almaq məqsədilə onları oxumağın heç bir eybi ola bilməz.

5. Əhli-sünnənin rəvayətlərinə əsasən, Mehdinin bu cür adlandırılmasının səbəbi onun gizli məsələlərdən agahlığa hidayət edilməsidir. Mehdi Antakiya deyilən yerdən Tövrat və İncili çıxaracaq.

Həmçinin rəvayət edirlər ki, Mehdi Tövratı tər və sağlam vəziyyətə ortaya çıxaracaq.[642]

Bəs nə üçün müəllif özü-özünə sual vermir ki: Mehdinin əlində önündən və arxasında heç bir batilin yaxın dura bilmədiyi Allahın kitabı - Quran olduğu halda, Tövrat və İncili nəyinə onun nəyinə gərəkdir?

Bəs nə üçün o xristianlar arasında İncillə, yəhudilər arasında Tövratla hökm edir, İslamın hökmlərinə uyğun qərar vermir?

Əgər yer üzünü haqq və ədalətlə dolduracaq Mehdiyə (ə.f) bu iş icazəlidirsə, onun üzərinə qoyulan vəzifələrlə mükəlləf olmayan digər xəlifə və imamlara da icazəli olmalıdır.

* * *

**Müəllif iddia edir: "Mən bu rəvayətlər üzərində xəbis və mənfur əllərin gəzdirildiyinin və imamlara böhtan atıldığının iyini hiss edirəm. İnşallah, bunların sübutu qarşıdakı fəsildə təqdim ediləcək".**

**Cavab:** Bir məzhəbin haqq, digərinin batil olduğuna dair veriləcək mühüm hökmlə bağlı iy hiss etmək kimi bir dəlil əsla elmi dəlil sayılmaz. Elmi dəlil səhihliyi sübuta yetmiş və düzgün mənaları olan şəri mətnlərdir, hansısa fitnəkarın öz məqsədləri üçün yozduğu rəvayətlər deyildir.

Müşahidə etdiyimiz kimi, müəllif özünün əvvəlki iddialarında da zəif rəvayətlər təqdim edərək şiələrin əleyhinə dəlil gətirir, yaxud səhih rəvayətləri nəql edir, lakin onları yanlış dəlillərlə inkar edir və ya yanlış tərzdə yozaraq öz fikrini təlqin edirdi.

---

[642] "əl-Fitən", Nüeym ibn Həmmad, səh.249, 250.

Hədisləri seçməkdə və təqdim etməkdə yanlış üslubdan istifadə edən müəllifin bu yolla həqiqətə qovuşmaq istəməsi iddiası yalan və saxtakarlıqdan savayı bir şey deyildir.

Biz kitablarımızda İmamlarımıza (ə) yalan və uydurulmuş sözlərin nisbət verildiyini inkar etmir, kitablarımızın hər hansı bir yalan və saxta rəvayətdən xali olduğunu iddia etmirik. Bizim kitablarımızdakı rəvayətlər arasında səhih də, zəif də, dəyərli də, dəyərsiz də vardır. Fəqihin vəzifəsi həmin hədisləri araşdırıb ələkdən keçirmək, səhih olanını götürüb zəifi kənara atmaqdır.

Səhih hədislər zidd mənalar daşıdıqda, mümkün olduğu təqdirdə onların cəm etmək vacibdir. Əgər bu mümkün olmazsa, o zaman sənəd və dəlalət cəhətdən aralarındakı üstünlüyə nəzər yetirilməlidir. Əgər aralarında bir üstünlük olmazsa, bu vaxt hər ikisi hökm qüdrətini itirir və onlara əməl olunmur.

* * *

**Müəllif deyir: "Biz bilirik ki, İslamın yalnız bir kitabı vardır, o da Qurani-Kərimdir. Amma fərqli-fərqli kitablara sahib olmaq yəhudi və xristianların xüsusiyyətidir. Necə ki, onların müqəddəs kitablarına nəzər saldıqda bunu müşahidə edirik.**

**Möminlərinin əmirinin çox sayda kitaba malik olduğunu, həmin kitabların hamısının Allah tərəfindən verildiyini və şəri hökmləri özündə ehtiva etdiyini söyləmək batil bir iddiadır ki, bunu da dinimizə şiəlik pərdəsi altında gizlənmiş yəhudilər daxil ediblər".**

**Cavab:** Əgər müəllif **"Biz bilirik ki, İslamın yalnız bir kitabı vardır, o da Qurani-Kərimdir"** sözü ilə Allah tərəfindən nazil edilmiş yeganə kitabın Quran olduğunu demək istəyirsə, bu doğrudur və heç bir iradımız ola bilməz. Şiələr də "Əhli-Beytin (ə) sahib olduğu kitabların səmadan nazil olduğunu demirlər. Müəllifin öz iddiasının isbatı üçün təqdim etdiyi hədislərin heç biri o kitabların səmadan endiyinə dəlalət etmir.

Əgər müəllif həmin sözü ilə İslamda Qurandan savayı qəbul edilməli bir kitab yoxdur deyirsə, bu, batil bir iddiadır. Çünki əhli-sünnə və digərləri bir çox kitabı və onların müəlliflərini hazırkı dövrədək müqəddəs sayır və orada yazılanlara boyun

əyirlər. Məsələn Buxarini və onun “Səhih”ini, Müslimin “Səhih”ini və digər mötəbər kitabları.

Nəinki, onlar bu kitablar barədə hətta etiqadlarında həddi də aşmışlar. İbn Həcərin təbiri ilə ali nümunə olan imam Əbu Muhəmməd ibn Əbu Cəmrə Buxarinin “əl-İxtisar”ı barədə deyir: “Qarşılaşdığım ariflər onun fəzilətini iqrar edən ağalarla gördüklərində belə dediklərini mənə söylədilər: “Həqiqətən də Buxarinin “Səhih”i çətinlik zamanı oxunsa, insana nicat verər, onunla gəmiyə minilsə, suda qərq olmaqdan amanda qalınar”. Deyir: “O (Buxari), duası müstəcab bir şəxs idi və öz oxucuları üçün Allahdan rəhmət diləmişdi...”.[643]

Tirmizinin belə dediyini rəvayət edirlər: “Bu kitabı (yəni “Sünənut-Tirmizi” kitabını) yazdım, Hicaz, İraq və Xorasan alimlərinə təqdim etdim. Onlar kitabdan razı qaldılar. Kimdə bu kitab olarsa, sanki evində danışan bir peyğəmbər vardır”.[644]

Zəkəriyyə əs-Saci deyir: “Allahın kitabı İslamın təməli, Əbu Davudun “Sünən”i isə İslamın mirasıdır”.[645]

Və qoruyub nəsildən-nəslə ötürdükləri və dəlil olaraq Qurana bərabər tutduqları kitabları haqqında söylədikləri digər sözləri...

Anlamaq olmur ki, özlərinin də nəql etdikləri kimi, Möminlərin əmirinin (ə) qılıncının qınına bağlanmış, özündə şəri hökmləri, dini təlimləri və peyğəmbər hədislərini ehtiva edən, yaxud keçmişdə və gələcəkdə baş verən hadisələrdən danışan bir kitaba, ya da təhrif edilməmiş Tövrat, İncil və Zəbura sahib olmağın nə iradı ola bilər?! Halbuki əhli-sünnə alimləri də xristian və yəhudilərin təhrif olunmamış kitablarına sahib olmağın və onlardan fikirlər nəql etməyin heç bir müşkülünün olmadığını söyləyirlər. Belə ki, bir dəstə səhabə yəhudi və xristianların Tövrat, İncil və digər kitablarında yazılanları danışır, yaxud həmin sözləri Kə`b əl-Əhbardan və başqalarından nəql edir və həmin sözləri Peyğəmbərə (s) nisbət verirdilər.

Abdullah ibn Əmr ibn Asın əhli-kitab mənsublarının iki dəvə yükü qədər kitablarına sahib olduğunu edirdilər.

---

643 “Muqəddimətu fəthil-Bari”, səh.11.

644 “Təzkirətul-huffaz”, 2/634; “Siyəru ə`lamin-nübəla”, 13/274; “əl-Hİttətu fi zikris-səhihis-sittə”, səh.207.

645 “Təzkirətul-huffaz”, 2/593.

İbn Kəsir Abdullah ibn Əmr ibn Adan rəvayət olunan hədisi təfsirində nəql etdikdən sonra yazır: “Doğrusunu Allah bilir, bu, Abdullah ibn Əmrin Yərmuk savaşında ələ keçirdiyi kitab əhlinin iki yüklü dəvə miqdarında kitablarından nəql etdiyi hədisə oxşayır”.[646]

Həmçinin başqa bir hədisini də qeyd etdikdən sonra yazır: “Bu, çox qəribə hədisdir, sənədi zəifdir. Bəlkə də Abdullah ibn Əmrin Yərmuk savaşında ələ keçirdiyi kitablarından nəql olunur”.[647]

Bu fikirləri təfsirinin başqa yerlərində də səsləndirir.[648]

Abdullah ibn Əmr ibn As əhli-sünnə kitablarında ən çox hədis rəvayət etmiş səhabələrdəndir.[649] Onun hədisləri birmənalı olaraq qəbul edilən və hədislərinə uyğun əməl olunan “Səhih”lərdə yer alır. Nə bilmək olar ki, onlardan neçəsi yəhudi və xristianların kitablarından rəvayət edilib, əhli-sünnənin nə qədər etiqad və ehkamı onlardan götürülüb?! Bunu heç onların özləri də bilmirlər!

Bütün bu qeyd edilənlərdən möhtərəm oxucuya aydın olur ki, Əhli-Beyt imamlarının (ə) sahib olduqları kitablar heç də səmavi kitablar deyildi. Bunlar Möminlərin əmirinin (ə) öz dəst-xəttilə yazdığı kitablardır. Bu işdə heç bir qeyri-adilik və qəbuledilməzlik ola bilməz. Xüsusilə də, əhli-sünnə alimlərinin etiraflarına əsasən, Möminlərin əmiri Əli (ə) Peyğəmbərin (s) hədislərinin yazılmasında heç bir müşkül görmürdü. Bu barədə onların sözlərini əvvəldə qeyd etmişdik.

---

[646] “Təfsirul-Qur`anil-əzim”, 1/383.

[647] “Təfsirul-Qur`anil-əzim”, 2/95.

[648] “Təfsirul-Qur`anil-əzim”, 3/102, 4/237.

[649] Əbu Hüreyrə etiraf edir ki (o, əhli-sünnə mənbələrində ən çox hədis nəql etmiş səhabədir), Abdullah ibn Əmr ibn As ondan daha çox hədis danışıb. Belə ki, deyir: “Peyğəmbərdən (s) məndən daha çox hədis nəql edən səhabə yoxdur. Abdullah ibn Əmr də çox hədis nəql edirdi. Ancaq o, hədisləri yazır, mən isə yazmırdım”. (Bax: “Səhih”, Buxari, 1/62; “əs-Sünən”, Tirmizi, 5/40, 686 (Tirmi bunu səhih saymışdır.); “Müsnəd”, Əhməd, 2/248, 403; “Səhih”, İbn HİbbanI, 16/103; “əl-Müstədrək”, 1/105; “Sünən”, Darəmi, 1/132; “əs-Sünənul-kubra”, Nəsai, 3/434; “Şərhul-məanil-asar”, 4/320).

## Şiələrin əhli-sünnəyə baxışı

**Müəllif iddia edir: "Mötəbər kitablarımızı, fəqih və müctəhidlərimizin sözlərini oxuduqda şiələrin yeganə düşməninin əhli-sünnə mənsubları olduğunu görürük. Bu səbəbdən də onları çirkin sifətlərlə vəsf edir, nalayiq adlarla adlandırır, onlara "avam camaat" və "nasibilər" deyirlər".**

**Cavab:** Şiələrin əhli-sünnə mənsublarını özlərinə yeganə düşmən kimi gördükləri barədə müəllifin iddiası açıq-aşkar yalan və iftiradır. Bu səbəbdən də öz iddiasına tək bir şiə aliminin sözünü dəlil olaraq təqdim etməyib. Necə təqdim etsin?! Halbuki şiə alimləri öz kitablarında əhli-sünnə mənsublarını qardaş kimi xarakterizə edir, Əhli-Beyt imamlarının (ə) hədisləri onlarla xoş davranmağa və onları sevməyə təşviq edir.

Müaviyə ibn Vəhəbin səhih hədisində deyilir: "İmam Sadiqə (ə) dedim: "Vilayət barədə bizimlə həmfikir olmayan şəxslərlə necə rəftar etməliyik?" İmam (ə) buyurdu: "İmamlarınıza baxın və onlar kimi rəftar edin. Allaha and olsun, imamlarınız onların xəstələrinə baş çəkir, cənazələrini müşayiət edir, onlar üçün şahidlik edir və əmanətlərini saxlayıb özlərinə qaytarırlar".[650]

Zeyd ibn Şəhhamın səhih hədisində isə oxuyuruq: "İmam Əbu Abdullah Sadiq (ə) mənə buyurdu: "Mənə itaət etdiyini və sözlərimə tabe olduğunu gördüyün şəxslərə məndən salam söylə. Sizə Allaha təqvalı və dindar olmağı, Allah yolunda səy göstərməyi, doğru danışmağı, əmanəti sahiblərinə qaytarmağı, səcdələrinizi uzatmağı və mehriban qonşuluğu tövsiyə edirəm. Muhəmməd (s) bunları gətirmişdir. Əmanətləri sahibləri xeyirxah və ya fasiq də olsa, özlərinə geri qaytarın, xəstələrinə baş çəkin, haqlarını qoruyun. Biriniz dinində möhkəm, danışığınızda doğru və əmanətləri qoruyan olsa, insanlarla xoş əxlaqla davransa, ona baxanlar "Bu şəxs Cəfəridir!", "Bu, Cəfərin ədəbidir!" dedikdə, bu məni sevindirər və şad edər. Əgər belə olmazsa, onun bəla və rüsvayçılığı mənə də toxunar, "Cəfərin ədəbi budur!" deyərlər. Allaha and olsun, atam mənə danışıb ki, bir qəbilədə Əlinin şiələrindən bir

[650] "əl-Kafi", 2/636.

kəs olarsa, onların bəzəyi və zinəti olar, aralarından ən əmanətdar, haqları ən kamil yerinə yetirən, ən doğru danışanı kimi seçilər, qəbilə üzvləri vəsiyyət və əmanətlərini ona həvalə edər, onu nümunə göstərib "Aranızda onun kimi kim vardır?! O bizim əmanətləri qoruyan və aramızda ən doğru danışandır!" deyərlər".[651]

Abdullah ibn Sinandan nəql olunan səhih hədisdə isə deyilir: "İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "Sizə Allaha qarşı təqvalı olmağı tövsiyə edirəm. İnsanlara münasibətləri tərk etməklə özünüzü zəlil hala salmayın. Uca Allah kitabında buyurur: ***"İnsanlarla gözəl danışın".*** " Sonra buyurdu: "Onların xəstələrinə baş çəkin, cənazə mərasimlərinə qatılın, lehinə və əleyhinə şahidlik edin, məscidlərində onlarla birlikdə namaz qılın...".[652]

Əbu Əlinin rəvayətində isə deyilir: "İmam Əbu Abdullah Sadiqə (ə) dedim: "Məscidimizdə müxaliflərdən bir imamımız var. O, (şiə) yoldaşlarımıza nifrət bəsləyir". Buyurdu: "Sən onun kimi sözlər danışma, Allaha and olsun, əgər dürüst olsan, sən məsciddə imamlığa ondan daha çox layiq olarsan. Məscidə ilk girən və ən son çıxan sən ol, insanlarla gözəl əxlaqla davran, yaxşı sözlər danış".[653]

Zeyd ibn Şəhham İmam Sadiqin (ə) belə buyurduğunu deyir: "Ey Zeyd, insanlarla əxlaqla davranın, məscidlərində namaz qılın, xəstələrinə baş çəkin, cənazələrini müşayiət edin, əgər onlar üçün imam və ya müəzzin ola bilsəniz, bunu edin. Əgər siz belə davransanız onlar deyəcəklər: "Bunlar cəfərilərdir. Allah Cəfərə mərhəmət etsin! Əshabını necə də gözəl tərbiyə etmiş və ədəbləndirmişdir!" Əgər belə etməsəniz onlar deyəcəklər: "Bunlar cəfərilərdir, Allah Cəfərə belə-belə etsin, əshabını necə də pis ədəbləndirib".[654]

Həmmad ibn Osman İmamın (ə) belə buyurduğunu nəql edir: "Kim onlarla birlikdə, birinci cərgədə namaz qılarsa, sanki Peyğəmbərin (ə) arxasında, birinci cərgədə namaz qılmışdır".[655]

---

[651] "əl-Kafi", 2/636.
[652] "əl-Məhasin", əl-Bərqi, səh.18; "Vəsailuş-şiə", 5/382.
[653] "Vəsailuş-şiə", 5/382.
[654] "Mən la yəhzuruhul-fəqih", 1/267; "Vəsailuş-şiə", 5/477.
[655] "Mən la yəhzuruhul-fəqih", 1/266.

İshaq ibn Əmmardan nəql olunur: "İmam Əbu Abdullah Sadiq (ə) mənə buyurdu: "Ey İshaq, məsciddə onlarla birlikdə namaz qılırsanmı?" Mən "Bəli" deyə cavab verdim. Buyurdu: "Onlarla birlikdə namaz qıl, belə ki, onlarla birlikdə birinci cərgədə namaz qılan şəxs sanki qılıncını Allah yolunda qaldıran şəxs kimidir".[656]

Qəribəsi odur ki, iddiaçı müəllif əhli-sünnənin şiələr haqqındakı pis sözlərini şiələrin adına çıxartmışdır. Belə ki, həqiqətdə şiələrlə ədavət aparanlar, onları kafirlikdə ittiham edənlər, "rafizi" adlandıranlar, bununla da qanlarını halal bilənlər məhz əhli-sünnə nümayəndələridir. Onlar şiələrlə nikah bağlamağı və onların kəsdikləri heyvandan yeməyi haram bilirlər. Bir qisim alimlərinin sözləri buna şahidlik edir:

İbn Həcər Uca Allahın ***"Muhəmməd Allahın elçisidir! Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, bir-birilərinə qarşı isə mərhəmətlidirlər..."***[657] ayəsini qeyd etdikdən sonra deyir: "İmam Malik səhabələrə nifrət bəsləyən rafizilərin kafir olduqları fikrində bu ayəyə əsaslanmış və demişdir: "Çünki səhabələr onları qıcıqlandırır və narahatlıq verir. Səhabənin qıcıqlandırdığı kəs isə kafirdir".

İbn Həcər deyir: "Bu, gözəl bir əsaslandırmadır, ayənin zahiri də buna şahidlik edir. Buna görə də Şafei də (r.a), imamlardan bir dəstəsi də onların (rafizilərin) kafir olduqlarına dair onunla razılaşmışlar".[658]

Qurtubi deyir: "Malik gözəl söz söyləmiş və ayəni dəqiq yozumuşdur. Kim səhabələrdən birini kənarda tutsa və ya rəvayətinə görə onu pisləsə, aləmlərin Rəbbi olan Allahı rədd etmiş, İslam şəriətini puça çıxarmışdır".[659]

Xəllal "əs-Sünnə" kitabında Əli ibn Əbdüssəmədə istinadən onun belə dediyini yazır: "Əhməd ibn Hənbəldən rafizi qonşum haqqında, onun mənə salam verdiyi zaman salamına cavab verib-verməməyim barədə soruşdum. Dedi: "Xeyr (salam vermə)". İstinadı səhihdir.

---

[656] "Təhzibul-əhkam", 3/277; "Vəsailuş-şiə", 5/382.

[657] "əl-Fəth" surəsi, ayə 29.

[658] "əs-Səvaiqul-muhriqə", səh.243. Həmçinin bax: "Təfsirul-Qur`anil-əzim", 4/204.

[659] "əl-Camiu liəhkamil-Qur`an", 16/296.

İsmail ibn İshaq əs-Səqəfi ən-Nişapuridən nəql olunur ki, Əbu Abdullahdan (Əhməd ibn Hənbəldən) rafizi qonuşusu olan bir şəxs haqda, ona salam verib-verməməli olduğu barədə soruşuldu. Əhməd dedi: "Xeyr, sənə salam versə belə onun salamına cavab vermə". İstinadı səhihdir.

Həsən ibn Əli ibn Həsəndən nəql olunur ki, Əbu Abdullahdan (Əhməd ibn Hənbəldən) bidət sahibi olan şəxsə salam verib-verməmək barədə soruşuldu. O dedi: "Cəhmi, qədəri və ya rafizi olsa, ona dua eləmə və salam da vermə". İstinadı səhihdir".[660]

Qəribə təfriqəçilikdən biri də bəzi əhli-sünnə alimlərinin yəhudi və xristianların kəsdikləri heyvanların ətini halal, iki şəhadəti dilə gətirən və İslamın ayinlərini icra edən şiələrin kəsdikləri heyvanların ətinin yeyilməsini isə haram elan etmələridir.

Şeyx Əbdüləziz ibn Abdullah ibn Bazın rəhbərlik etdiyi Səudiyyə Ərəbistanın Elmi araşdırmalar, fətva və irşad üzrə Daimi Dövlət Komitəsinin fətvasında onlara ünvanlanan suala belə cavab verilib:

"Mən və bir dəstə şəxs şimal sərhədlərində - İraqın mərkəzinə yaxın ərazidə yaşayırıq. Burada Cəfəri məzhəbindən olan bir dəstə insan da yaşayır. Aramızdan bəziləri onların kəsdikləri heyvanların ətindən yeməkdən imtina etmiş, bəziləri isə yemişdir. Sual: Müşkülləri zamanı onların Əliyə, Həsənə, Hüseynə və digər ağalarına dua etdiklərini bildiyimiz halda, həmin ətdən yeməyimiz halaldırmı?"

Bu suala 1661 saylı fətva cavab olaraq gəlmişdir:

"Yeganə Allaha həmd olsun, onun elçisinə, elçisinin ailəsinə və səhabələrinə salavat olsun!

Əgər sual verən şəxsin dediyi kimi, cəfərilər Əliyə, Həsənə, Hüseynə və digər ağalarına dua edirlərsə, onlar müşrikdirlər və mürtəd olmuşlar. Bundan Allaha sığınırıq! Belə olduqda onların kəsdikləri heyvanın ətini yemək halal olmaz. Çünki həmin heyvan kəsilərkən üzərində Allahın adı çəkilsə də, murdar hökmündədir".

Həmçinin onlara bu barədə başqa bir sual da ünvanlanıb. Onun mətni belədir:

"Biz şimal sərhədlərində yaşayırıq və İraq qəbilələri ilə qarşılıqlı əlaqələrimiz var. Onlar müşrik şiə məzhəbindədirlər, Əlinin, Həsən və Hüseynin olduğunu iddia

---

[660] "əs-Sünnə", Xəllal, 3/493.

etdikləri qəbirlərə (qübbələrə) ibadət edir, qalxıb-oturduqda isə "Ya Əli!", "Ya Hüseyn!" deyirlər. Onlarla evlilik və digər məsələlərdə qarşılıqlı münasibətlərimiz var. Onları moizə etmişəm, ancaq sözə qulaq asmırlar. Onlar yüksək mənsəb və vəzifələrdə çalışırlar. Mən onları elmlə nəsihət etməyi bacarmıram. Lakin bu hala nifrət edirəm, onlara qaynayıb-qarışmıram. Onların kəsdikləri heyvanın ətini yeməyin icazəli olmadığını eşitmişəm. Amma aramızdan bəziləri buna əhəmiyyət vermir, onların kəsdikləri heyvanların ətindən yeyirlər. Möhtərəm cənabınızdan qeyd etdiyimiz məsələ ilə bağlı bizə vacib olan vəzifəni izah etməyinizi xahiş edirəm".

Bu suala 3008 saylı fətva cavab olaraq gəlmişdir:

"Yeganə Allaha həmd olsun, onun elçisinə, elçisinin ailəsinə və səhabələrinə salavat olsun!

Əgər onlar qeyd etdiyin kimi, Əlini, Həsəni, Hüseyni və bu kimi şəxsləri çağırırlarsa, onları İslamdan kənarlaşdıracaq böyük bir şirkə (Allaha şərik qoşmağa) düçar olmuşlar. Qadınlarımızı onlarla evləndirmək və ya onların qadınları ilə evlənmək, həmçinin onların kəsdikləri heyvanların ətindən yemək bizə halal deyildir. Uca Allah buyurur: ***"Allaha şərik qərar verən qadınlar imana gəlməyincə onlarla evlənməyin! Əlbəttə, Allaha iman gətirmiş bir cariyə, gözəlliyinə heyran olduğunuz müşrik bir qadından daha yaxşıdır. Həmçinin müşrik kişilər Allaha iman gətirməyənə qədər mömin qadınları (onlara) arvadlığa verməyin! Əlbəttə, Allaha iman gətirən bir kölə, xoşunuza gəlsə belə, müşrik bir kişidən daha xeyirlidir. Onlar (müşrik qadınlar və kişilər) sizi Cəhənnəmə çağırdıqları halda, Allah sizi Öz izni ilə Cənnətə, məğfirətə (bağışlanmağa) çağırır və yaxşı düşünüb ibrət almaları üçün insanlara hökmlərini aydınlaşdırır".***[661]

Halbuki 6991 saylı fətvada qeyd edildiyi kimi, yəhudi və xristianların kəsdikləri heyvanların ətinin yeyilməsinin mübah olduğuna hökm etmişlər. Həmin fətvanın mətni belədir:

"Uca Allah müsəlmanlara kitab əhlinin yeməklərindən, yəni kəsdikləri heyvanların ətindən yeməyi halal buyurmuşdur. "əl-Maidə" surəsində ayədə qeyd

[661] Səudiyyə Ərəbistanı Elmi araşdırmalar, fətva və irşad üzrə Daimi Dövlət Komitəsinin fətvaları, 2/264.

olunur: ***"Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar!"***[662] Yəhudi və ya xristian olmasına, Uca Allahın bu surədə onların kafir olduqlarını xəbər verməsinə baxmayaraq, kitab əhlinin qadınları ilə izdivac etmək üçün onların azad və ismətli olmaları şərtdir".[663]

Bundan böyük düşmənçilik və ədavət ola bilərmi?! Onlar şiələrin kafir olduqlarını söyləyir və müşrik olduqlarına hökm verir, yəhudi və xristianların kəsdikləri heyvanların ətindən yeməkdə və qadınları ilə evlənməyin icazəli olmasında onları şiələrdən üstün tuturlar!!!

Halbuki şiələr İmamlarının (ə) onlara vəsiyyət etdikləri kimi, bu günədək əhli-sünnə qardaşlarını sevir və onlarla mehribancasına rəftar edirlər. Bunu Şeyx Muhəmməd Əbu Zəhrə özünün "Tarixu məzahibil-islamiyyə" ("İslam məzhəblərinin tarixi") kitabında da qeyd edir: "On iki imamçı şiələr hazırda İraqda mövcuddurlar. İraqdakı şiələr (onların sayı çoxdur, əhalinin yarısını onlar təşkil edirlər) etiqad, ictimai münasibətlər, miras, vəsiyyət, vəqf, zəkat və ibadətlərində məzhəblərinin hökmünə əsasən davranırlar. Həmçinin İran əhalisinin əksəriyyəti də belədir. Şiələrin bir hissəsi də Suriya, Livan və bir çox İslam ölkələrində yaşayırlar. Onlar qonşuluqlarında yaşayan əhli-sünnə mənsublarına qarşı sevgilə yanaşır və onlara nifrət bəsləmirlər".[664]

* * *

**Müəllif iddia edir: "Şiələrin etiqadına görə hər bir əhli-sünnə mənsubunun arxasında quyruğu vardır. Onlardan biri digərini ağır təhqir etmək istəyəndə ona "Sünninin sümüyü atanın qəbrindədir!" deyir. Bu isə onların nəzərində**

---

[662] "əl-Maidə" surəsi, ayə 5.

[663] Səudiyyə Ərəbistanı Elmi araşdırmalar, fətva və irşad üzrə Daimi Dövlət Komitəsinin fətvaları, 3/299.

[664] "Tarixu məzahibil-islamiyyə", 1/48.

**sünninin nəcis olduğuna görədir. Hətta o dərəcədə nəcisdirlər ki, min dəfə də yuyulsalar nəcislik onlardan ayrılmaz”.**

**Cavab:** Səudiyyə Ərəbistanında yaşayan bir çox əhli-sünnə mənsubları və digərləri müəllifin bu sözlərinin mənşəyinin cahil əhli-sünnə adamlarının avam camaat arasında yaydıqları boş sözlərdən başqa bir şey olmadığını bilirlər. Mən Səudiyyə Ərəbistanının mərkəzi hissəsində yerləşən Qəsim bölgəsinin əhalisinin bəzi üzvlərinin şiələrin quyruqlarının olduğuna inandıqlarının şəxsən şahidi olmuşam.

Dr. Əbdülhadi Füzeylidən eşitmişəm ki, o, 1967-ci ildən əvvəl Fələstinə gəldiyi vaxt orada bəzi əhli-sünnə mənsubları ilə görüşmüşdü. Başına qoyduğu əmmaməni görüb ona “Siz şiəsiniz, sizin quyruğunuz var!” dediklərini mənə danışıb.

Bu iddiaların qüsurlu ağıllardan və səfeh yozumlardan ortaya çıxdığına baxmayaraq, müəllif öz məqsədləri üçün faydalanmağa və şiələri ittiham etməyə bunu da fürsət bilib.

Haqq yolçusu olduğu iddia edən bu müəllif öz ittihamlarına kaş ki, müraciət edə biləcəyimiz tanınmış şəxslərin və ya mənbələrdən birindən bircə dənə də olsa, dəlil təqdim edərdi. Ancaq özünü rüsvay olmamaq üçün dəlil göstərməmişdir.

* * *

**Müəllif iddia edir: “Hələ də xatırlayıram, atam (r.ə) şəhərin bazarlarından birində qərib bir şəxslə qarşılaşdı. Atam xeyirxahlığı çox sevirdi. O gecə həmin qəribi evimizə qonaq gətirdi. Biz Uca Allahın buyurduğu kimi ona qonaqpərvərlik göstərdik, işa namazından sonra söhbət etmək üçün birlikdə əyləşdik. Həmin zamanlarda mən gənc idim və hövzədə təzəcə oxumağa başlamışdım. Söhbət əsnasında bu şəxsin əhli-sünnə məzhəbinin mənsubu olduğu, Samirə şəhərinin yaxınlığında yaşadığı və işləri ilə əlaqədar Nəcəfə gəldiyi məlum oldu. O, gecəni bizdə qaldı, səhər ona yemək təqdim etdik. Yeməyini yeyib getmək istədikdə, yolda ehtiyacı olar deyə, atam (r.ə) ona müəyyən miqdar pul da verdi. Həmin şəxs gözəl qonaqpərvərliyə görə təşəkkür elədi. Qərib getdikdən sonra atam sünnilərin nəcis olduğuna etiqad bəslədiyinə görə, onun yatdığı döşəyi yandırmağı və yemək yediyi qabları yaxşı-yaxşı**

**yumağı əmr elədi. Bu, bütün şiələrin əqidəsidir. Fəqihlərimiz də sünniləri kafir, müşrik və donuza bərabər tutmuş, nəcisin eyni hesab etmişlər".**

**Cavab:** Müəllifin atasından nəql etdiyi hekayət (əgər doğrudursa, belə ki, müəllifin özü əhli-sünnə mənsubudur, ehtimal ki, atası da həmin əqidədə olub) mərhum atasının son dərəcə cahilliyinə dəlalət edir. Fəqihlərimiz müxaliflərimizin nəcis olduqlarına deyil, müsəlman və pak olduqlarına dair fətva verirlər.

Nəcis yalnız rütubətli olduğu halda toxunduğuna sirayət edir. Ancaq hekayədə qeyd edildiyinə əsasən, samirəli qonaq döşəyin üzərində sadəcə oturmuş və yatmışdı. Bu fakt isə heç bir halda döşəyin nəcisə bulaşdığına dəlalət etməz. Əgər bir rütubətin döşəyə sirayət etdiyi fərz olunsa belə, bu da müxalifin nəcis olduğuna əsaslanıb döşəyi yandırmağı vacib etməz. Çünki nəcisə bulaşmış qab yuyulub pak olduğu kimi, döşək də yuyulduqda pak olur. Müəllifin mərhum atasının bu iki əşyanın paklanması arasında niyə fərq qoyduğunu anlamaq olmur.

Həmçinin müəllif kitabının əvvəlində özünün Kərbəlada doğulduğunu, orada böyüdüyünü, atasının evinin də Kərbəlada olduğunu yazır. Bəs onun atası samirəli qonağını Nəcəfdəki evinə necə aparır?!

"Yalançının yaddaşı olmaz!" deyənlər düz söyləyiblər!

Müəllifin **"Bu, bütün şiələrin əqidəsidir. Fəqihlərimiz də sünniləri kafir, müşrik və donuza bərabər tutmuş, nəcisin eyni hesab etmişlər"** sözləri isə, fəqihlik və ictihad iddiaçısı bir şəxsin fəqihlərin rəylərindən nə qədər xəbərsiz olduğunu göstərir. Belə ki, şiə fəqihləri arasında az qala icma həddində olan, geniş yayılmış və məşhur rəy müxalif məzhəb mənsublarının müsəlman və pak olduqları barədədir. Tək-tük rast gəlinən fərqli nadir rəylərə etibar edilməz. Hansı dəstəyə mənsub olmasından asılı olmayaraq, heç bir alim tək-tük rəyə əsaslanıb hökm verməz.

* * *

**Müəllif iddia edir: "Ona görə də:**

**1. Əhli-sünnə ilə ixtilaf etmək vacibdir:**

**Səduq Əli ibn Əsbatdan rəvayət edir: "Rzaya (r.a) dedim: "Bəzən qarşıma bilmədiyim bir məsələ çıxır, yaşadığım şəhərdə həmin məsələnin hökmünü əldə**

**edə biləcəyim bir tərəfdarınız da yoxdur. Mən nə etməliyəm?" Buyurdu: "Şəhərin fəqihinin yanına get, qoy sənin məsələnə dair hökm versin. Onun verdiyi hökmün əksini yerinə yetir. Belə ki, haqq məhz o olacaq" ("Uyunu-əxbarir-Rza", 1/275, Tehran çapı)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Ravilər arasında Əhməd ibn Muhəmməd Səyyari vardır, tərcümeyi-hal kitablarında o, töhmət olunmuşdur.

Nəcaşi yazır: "Əhməd ibn Muhəmməd ibn Səyyar... Səyyari kimi tanınır, hədisləri zəif, məzhəbi yanlışdır. Bunu bizə Hüseyn ibn Übeydullah (İbn Ğəzairi) bildirib, hədisləri tərk edilir, hədislərinin çoxu mürsəldir (istinadsızdır)".[665]

İbn Ğəzairi yazır: "Hədisləri olduqca zəifdir, həddi aşan və yanlış yolda olan kəsdir, Qummilərin şeyxləri "Nəvadirul-hikmət" kitabından onun rəvayətlərini xaric ediblər.[666]

Şeyx Tusi "Fehrist"də yazır: "Hədisləri zəif, məzhəbi yanlışdır, rəvayətləri tərk olunur, nəql etdiklərinin çoxu mürsəldir".[667]

Rəvayətin sənədinə göz yumsaq, hədisin zahir şəhərin qazisinin verdiyi hökmə zidd davranmağın icazəli olduğuna dəlalət edir. Bu şəri hökmü bilmədiyi, məcbur qaldığı və hökmü heç bir yolla əldə edə bilməyəcəyi hala şamildir.

Fərz olunan vəziyyətlə çox nadir hallarda rastlaşmaq mümkündür, adi halda bu qaydanı şiələrin hər bir hökmünə şamil etmək doğru olmaz.

Şiə və əhli-sünnə hökmləri arasındakı fərqliliklər demək olar ki, bütün məsələlərdə mövcuddur. Ona görə də axtarılan hökmün onların hökmünə müxalif olması da mümkündür. Bu səbəbdən də sual verən şəxs onu haqqa yetişdirə biləcək yola yönləndirilir.

* * *

**Müəllif iddia edir: "Hüseyn ibn Xaliddən Rzanın (r.a) belə dediyi nəql olunur: "Şiələrimiz bizim vilayətimizə tabe olanlar, əmrimizi rəhbər tutanlar və**

---

665 "Rical", Nəcaşi, 1/211.
666 "Rical", İbn Ğəzairi, səh.40.
667 "Fehrist", Şeyx Tusi, səh.66.

**müxaliflərimizə düşmən olanlardır. Belə olmayan bir kəs, bizdən deyildir" ("əl-Fusulul-muhimmə", səh.225, Qum çapı).**

**Müfəzzəl ibn Ömər Cəfərdən nəql edir: "Bizdən başqasının ipindən yapışdığı halda şiəmiz olduğunu iddia edən şəxs yalan söyləmişdir" ("əl-Fusulul-muhimmə", səh.225, Qum çapı)".**

**Cavab:** Bu iki hədisin mənaları aşkar və aydındır, heç bir müşkülü yoxdur. Əhli-Beytin (ə) şiəsinin onlara tabe olması, buyruqlarını rəhbər tutması və düşmənlərinə müxalif olması labüd məsələdir, əks halda əsla onların tərəfdarı sayılmaz. Çünki şiə məhz tabe və tərəfdar olan deməkdir, tabeçilik isə bu məsələlər baş vermədikcə öz həqiqətini tapmaz.

Ancaq Əhli-Beytin düşmənləri dedikdə əhli-sünnə və ya digərlərinin nəzərdə tutulması, bu başqa mövzudur. Biz əhli-sünnənin və ya digərlərinin düşmən olduqlarını söyləmirik, bizim əqidəmiz belədir: Əhli-Beytin düşmənləri nasibilərdir (onlara qarşı ədavət və nifrət bəsləyənlərdir). Nasibinin mənasını əvvəldə izah etmiş və demişdik: nasibi – aşkar surətdə Əhli-Beytə (ə) qarşı ədavət bəsləyən kəslərdir, şiə məzhəbinə müxalif olanlar və ya aşkar surətdə düşmənçilik etməyənlər deyildir.

Əgər müəllif bütün əhli-sünnə mənsublarının Peyğəmbərin (s) Əhli-Beytinə (ə) qarşı ədavət bəslədiklərini düşünürsə, o zaman onların hamısının düşmən olduğu qaçılmazdır. Əks təqdirdə isə onlar nasibi sayılmazlar. Bu, aydın məsələdir və artıq izaha ehtiyac duymur.

* * *

**Müəllif iddia edir: "2. Əhli-sünnəyə və onların yoluna uyğun olan əməllərin icazəli olmaması:**

**Bu, Hürr Amulinin "Vəsailuş-şiə" kitabındakı fəsillərdən birinə verdiyi addır. Orada deyir:**

**"Bu mövzuda olan hədislər mütəvatirdir... Sadiqin (r.a) iki ixtilaflı hədislə bağlı sözləri də buna dəlalət edir: "Onları müxaliflərin hədisləri ilə tutuşdurun, onların hədislərinə uyğun olanını kənara atın, zidd olanını isə dəlil olaraq götürün".**

**Sadiq (r.a) deyir: “Əgər qarşınıza ixtilaflı iki hədis çıxarsa, onlara müxalif olanın götürün”.**

**Həmçinin deyir: “Müxaliflərin hədislərinə zidd olanı götür”. Dedi: “Doğru istiqamət onlara müxalif olan rəvayətdədir”.**

**Cavab:** “Vəsailuş-şiə” kitabının belə bir fəsli yoxdur. Müəllifin qeyd etdiyi ünvan Hürr Amulinin “əl-Fusulul-muhimmə” adlı fiqh üsulu elminə dair kitabının fəsillərindən biridir. Fəsilin tam adı belədir: “İmamaların (ə) hədislərində ziddiyyət olsa belə, əhli-sünnəyə və onların izlədiyi yola müvafiq əməlin icazəli olmadığı barədə”.[668]

Müəllif fəslin adını yarımçıq nəql edib və iki cəhətdən elmi əmanətə xəyanət göstərib:

1. Hədisləri “Vəsailuş-şiə” kitabına nisbət verməklə;

2. Fəslin adını yarımçıq qeyd etməklə.

Bununla da oxucuda şiələrin nəzərində əhli-sünnəyə müxalif olan rəylərin hökm üçün şəri dəlil olduğu təəssüratını yaratmağa çalışıb.

Fəslin adından və müəllifin oradan nəql etdiyi hədislərdən aydın olur ki, əhli-sünnənin hədislərinə uyğun əməl etməyin icazəli olmaması onların hədislərinə uyğun olmayan digər hədislərlə ziddiyyət təşkil etdiyi hala şamildir. Məna isə budur ki, müəllifin iddia etdiyi kimi, heç də əhli-sünnə ilə müxaliflik özü-özlüyündə şəri hökmlərin əldə edilməsində fəqih üçün dəlil hesab olunmur. Bu, cəm edilməsi mümkün olmayan iki zidd hədis arasında birinin digərindən üstünlüyünü təyin etməkdə fəqih üçün meyarlardan biridir.

Əhli-sünnəyə müxalif olan məzmunun üstün tutulmasının səbəbi isə budur: İmamlar (ə) əsla zidd hökmlər və əks fətvalar söyləməzlər. Çünki məsumluqları buna maneə yaradır. Onlardan nəql edilən ziddiyyətli və əks mənalı hədislər ya yalandır, ya da təqiyyə halında söylənmişdir.

Ona görə də iki zidd mənalı hədislə qarşılaşdıqda onlardan hansının təqiyyə halında söyləndiyini müəyyən etmək üçün əhli-sünnə hökmünə müxalif olanı müəyyən edib kənara qoymaq lazımdır. Çünki təqiyyə halda söylənən söz məhz

[668] “əl-Fusulul-muhimmə fi üsulil-əimmə”, 1/575.

onların nəzərinə uyğun olmalıdır. Belə ki, İmamlar (ə) yaşadıqları dövrün zalım hakimlərindən və onların əlaltılarından ehtiyatlanır, saray alimlərinin verdikləri hökmlərə aşkarda müxalif etməkdən çəkinir və bəzən təqiyyə edərək onlara müvafiq olan fətvalar səsləndirirdilər. Bu və digər səbəblərdən də İmamların (ə) təqiyyə halında söylədikləri hədislər mövcuddur.

Əgər şiə fiqh üsulunda yalnız iki əks mənalı hədislə qarşılaşdıqda düzgün hökm əldə etmək üçün əhli-sünnəyə müxalif olması bir üstünlük qaydası olsa da, əhli-sünnə alimləri ümumən rafizilərə xilaf olması üçün Peyğəmbərdən (s) varid olduğu sübuta yetmiş hər bir məsələdə buna hökm edirlər.

İbn Teymiyyə deyir: "Əgər müstəhəbb bir əməldə fəsad gətirəcək bir amil olarsa, həmin əməl müstəhəbb hökmündə olmaz. Buna əsasən, bəzi fəqihlər rafizilərin şüarına çevrilmiş və sünnini rafizidən ayırmayan bəzi müstəhəbb əməlləri tərk etmişlər. Rafizilərdən seçilmək, uzaqlaşmaq və onlara xilaf davranmaq həmin müstəhhəbbi yerinə yetirməkdən daha üstündür. Buna qarışıq və səhv düşmə ehtimalı olan bəzi məqamlarda ehtiyac duyulur ki, həmin vaxt o müstəhəbbi tərk etmək icra etməkdən daha çox məsləhətlidir".[669]

Onların bu barədə fətvaları olduqca çoxdur. Həmin fətvalardan bəzilərini sizə təqdim edirik:

İbn Həcər "Fəthul-Bari"də yazır: "Diri insana salam verməyin qanuniliyi barədə yekdil fikirdən sonra Peyğəmbərlərdən başqa ölmüş şəxslərə salam verilməsində ixtilaf vardır. Deyilib: "Mütləq şəkildə qanunidir". Deyilib: "Ölmüş şəxsin adını təkcə qeyd etməməklə başqasını salamlayarkən ona da salam vermək olar, çünki bu (ölüyə salam vermək), rafizilərin əlamətinə çevrilmişdir". Bunu Nəvəvi Şeyx Əbu Muhəmməd Cüveynidən nəql edib.

Zəməxşəri "əl-Kəşşaf"da deyir: "Qanuni olan hər bir möminə salavat deməyin icazəli olmasıdır. Dəlil isə Uca Allahın sözüdür: ***"Sizə salavat göndərən... Odur".*** Eləcə də buyurur: ***"Onlar üçün salavat de (dua et), çünki sənin duan onlar üçün bir arxayınlıqdır".*** Həmçinin Peyğəmbər (s) buyurur: *"İlahi, Əbu Ovfa ailəsinə salavat yetir".* Lakin alimlərin bu barədə təfsilatlı sözləri vardır. Belə ki, onların sözlərinə

[669] "Minhacus-sünnə", 4/154.

görə, əgər başqasına salavat deyərkən möminə də salavat verilsə, məsələn "İlahi, Muhəmmədə və ailəsinə salavat yetir" deyilsə, buna heç bir irad yoxdur. Ancaq Əhli-Beytdən birinə fərdi şəkildə və təklikdə salavat deyilsə, (necə ki, deyilir də) bu, məkruhdur. Çünki bu ("İlahi, Muhəmmədə və ailəsinə salavat yetir" zikri), Peyğəmbərin (s) adı qeyd edilərkən söylənən zikrə çevrilmişdir, Əhli-Beytin üzvlərinin adını təklikdə zikr etdikdə söylənməsi isə şəxsin rafizilikdə ittiham olunmasına gətirib çıxarar".[670]

Hənəfilərdən olan "əl-Hidayə" kitabının müəllifi yazır: "Şəri cəhətdən qanuni olan üzüyü sağ ələ taxmaqdır. Lakin rafizilər bunu adətlərinə çevirdikləri üçün biz də sol ələ taxılmasına qərar vermişik".[671]

Rafii "Fəthul-əziz"də yazır: "Qəbrin üzərinin torpaqla örtülmə formalarında ən üstünü onun hamarlanması və ya yer səthindən qaldırılmasıdır. Məzhəbin rəyinə əsasən, hamarlamaq əfzəldir. Malik və Əbu Hənifə (r.ə) deyirlər: "Yer səthindən qaldırılması daha üstündür". Peyğəmbərin (s) oğlu İbrahimin qəbrinin üzərini hamarladığını bilirik. Qasim ibn Muhəmməddən rəvayət olunur: "Peyğəmbərin (s), Əbu Bəkrin və Ömərin qəbirlərinin üzərinin hamarlandığını görmüşdüm". Əbu Hüreyrənin oğlu deyir: "İndi isə daha üstünü budur ki, hamarlamaqdan çəkinib torpağı yerdən qaldıraq. Çünki hamarlamaq rafizilərin əlamətinə çevrilmişdir. Onlara xilaf davranmaq, meyiti və ailəsini bidət sahibi olmaq ittihamından qorumaq daha yaxşıdır. Ondan buna oxşar başqa bir məsələ də nəql olunub ki, bu da "Bismillah"ı yüksək səslə deməklə bağlıdır. Əgər onların (rafizilərin) adətinə çevrilibsə, onlara xilaf davranmaq üçün pıçıltı ilə demək müstəhəbdir".[672]

Muhəmməd ibn Əbdürrəhman Diməşqi özünün "Rəhmətul-ummə fixtilafil-əimmə" kitabında yazır: "Sünnə (qayda) - qəbrin üzərinin hamarlanmasıdır. Şafei məzhəbində bu, qəbrin yerdən qaldırmaqdan daha üstün hesab olunur. Digər üçü isə

---

670 "əl-Kəşşaf", 3/246, "Allah və mələkləri Peyğəmbərə salavat göndərir..." ayəsinin təfsiri, "əl-Əhzab" surəsi, ayə 56.
671 "Siratul-müstəqim", 2/510; "Minhacul-kəramə", səh.108; "Kitabul-ğədir", 10/210.
672 "Fəthul-əziz", 5/229.

(Əbu Hənifə, Malik və Əhməd) deyirlər: "Qəbrin üzərini yerdən qaldırmaq daha üstündür. Çünki onu hamarlamaq şiələrin əlamətinə çevrilib".[673]

Hafiz əl-İraqi əmmamənin kənarının bağlanma forması barədə deyir: "Qaydaya əsasən, sol tərəfdən, aşağı sallanmalıdır, necə ki, adət də belədir, yoxsa sağ tərəfdən? Sağ tərəfin tərcih edildiyinə dair Təbərinin nəzərində zəif olan hədisdən savayı bir dəlilə rast gəlmədim. Əgər hədis düzgün sayılsa belə, bəlkə də təqdir onun sağ tərəfdən aşağı salınıb sol tərəfdən salladılmasıdır, necə ki, bəziləri məhz belə də edirlər. Ancaq bu, imamiyyə şiələrinin əlamətinə çevrilmişdir. Onlara bənzəməmək üçün bu əməl tərk edilməlidir".[674]

Abdullah Məğribi əl-Maliki özünün "əl-Muəllimu bifəvaidi müslim" kitabında yazır: "Zeyd cənazəyə beş təkbirlə namaz qıldı. Dedi: "Peyğəmbər (s) beş təkbirlə qılırdı". Ancaq bu əməl hazırda tərk edilmişdir. Çünki rafizilərin əlamətinə çevrilmişdir".[675]

"ət-Təzkirə"də deyilir: "Şafei, Əhməd və Həkəm deyirlər: "(Dəstəmaz alarkən) xuflar üzərinə məsh çəkmək ayağı yumaqdan daha üstündür. Çünki bunda şiələrə qarşı müxalifət vardır".[676]

İsmail Bursəvi özünün "Ruhul-bəyan" təfsirində Aşura günün haqqında söhbət açarkən yazır: "Əqdud-dürər vəl-ləyal" kitabında müəllif deyir: "Mömin insanın müəyyən əməllərində lənətlənmiş Yezidə, həmçinin rafizi şiələrə və xəvariclərə oxşaması arzuolunmazdır. Yəni, bu günün nə matəm, nə də bayram günü qərar verməsin. Bu gündə sevinməyin səhih dəlilinin olmasına baxmayaraq, kim həmin gün xoşhal və kef içində olarsa, o zaman lənətlənmiş Yezidə və onun tərəfdarlarına bənzəmişdir. Belə ki, bidət əhlinin əlamətinə çevrilmiş bir qaydanı tərk etmək özü də bir qaydadır (sünnədir). Məsələn, sağ ələ üzük taxmaq kimi. Belə ki, sünnəyə əsasən, üzük sağ ələ taxılmalıdır. Lakin bidət əhlinin və zalımların əlamətinə çevrildiyi üçün

---

[673] "Rəhmətul-ummə fixtilafil-əimmə", səh.155.
[674] "Şərhul-məvahib", Zərqani, 5/13.
[675] "Siratul-müstəqim", 2/510.
[676] "Siratul-müstəqim", 2/510.

hazırkı zamanda sol əlin çeçələ barmağına taxmaq sünnə qərar verilmişdir. Necə ki, “Şərhul-Qohestani” kitabında da bu qeyd olunub”.[677]

Və bu mövzuda sayılmayacaq həddə çox olan digər fətvalar...

* * *

**Müəllif iddia edir: “Deyir (r.a): “Nə sizin əməllər onların, nə də onların əməlləri sizə uyğundur! Onlara xilaf davranın, onların heç bir əməli həqiqətə[678] əsaslanmır”.**

**Həmçinin deyir: “Allaha and olsun ki, bizdən başqasının ardınca gedən heç kəs xeyir tapmaz. Həqiqətən də söz və əməllərində bizə uyğun davranan düşmənlərimizə xilaf çıxmışdır, düşmənlərimizə uyğun rəftar edən isə biz zidd olmuşdur. Sonuncu nə bizdən, nə də biz ondanıq””.**

**Cavab:** Bu iki hədisin sənədi zəifdir.

Birinci hədisin raviləri sırasında Əli ibn Əbu Həmzə əl-Bətaini vardır ki, o, İmam Musa ibn Cəfərin (ə) imamlığını inkar edən vaqifilərin başçılarından olub. Onun tərcümeyi-halı əvvəldə qeyd olunub.

İkinci hədis isə mürsəldir (sənədsizdir), onu İmam Əbu Abdullah Sadiqdən (ə) rəvayət edən şəxsin kimliyi məlum deyildir.

Bu hədisin sənədinə göz yumsaq, məzmununu belə izah etmək olar: Ümmətin yetmiş üç firqəyə ayrılacağı barədə hədisdə qeyd edildiyi kimi, onlardan nicat tapanı yalnız biri olacaq. Bu firqənin hansı olduğunu isə Peyğəmbər (s) hədislərində xəbər vermiş və buyurmuşdur: “Ey camaat, sizin aranızda əmanət qoyuram ki, ondan yapışdığınız müddətdə yolunuzu azmayacaqsınız: Allahın kitabı və itrətim olan Əhli-Beytim”.[679]

---

[677] “Ruhul-bəyan”, 4/142 (“Kitabul-ğədir”dən nəql edilərək, 10/211).
[678] Müəllifin yazdığı kitabda belə qeyd olunub. Ancaq hədisin mənbəyində belə yazılıb: “Onların heç bir əməli hənəfiliyə əsaslanmır”.
[679] “Sünən”, Tirmizi, 5/622. Tirmizi deyir: “Həsən və bu cəhətdən qəribə hədisdir”. Hakim “əl-Müstədrək”də bunu səhih hesab edib (3/109, 148). Zəhəbi də onunla razılaşıb. Həmçinin Albani “Silsilətul-əhadisis-səhihə” kitabında hədisi səhih sayıb (4/356). Hədisi İbn Həcər “əl-Mətalibul-aliyə”də (4/65), İbn Kəsir təfsirində (4/113) nəql ediblər. Bu hədisin rəvayət yolları çoxdur, onları “Məsailu xilafiyyə” kitabında qeyd etmişik (səh.92-97).

Əgər bütün İslam firqələri Əhli-Beyt (ə) yoluna müvafiq olsaydılar, o zaman hər biri nicat tapan firqə olacaqdı, onlardan yapışmağa və onların ardınca getməyə edilən təşviqin heç bir mənası qalmazdı.

Buradan aydınlaşır ki, Əhli-Beytin (ə) yolunu izləmək digərlərindən fərqli olaraq, onların xalis və təmiz din üzərində olmalarına dəlildir. Onlara uyğun rəftar edənlərin əməllərinin digərlərinə xilaf olması labüddür. Həmçinin başqalarının söz və əməllərinə uyğun davrananların Əhli-Beytin buyruqlarına zidd olmaları qaçılmazdır. Çünki hər bir halda bir tərəf haqq, digəri isə batil olacaq.

"Səqəleyn" hədisindən əldə olunan bu mənanı müəllifin qeyd etdiyi bu iki hədis də izah edir.

Qeyd olunmalıdır ki, təqdim edilən bu iki hədis əhli-sünnənin Əhli-Beytin (ə) və onların şiələrinin düşmənləri olduğuna əsla dəlalət etmir. Belə ki, Əhli-Beyti (ə) sevdikləri, fəzilətlərinə dair rəvayətlər söylədikləri, üstünlüklərindən heç bir şeyi inkar etmədikləri və tutduqları yolun onlara müvafiq olduğunu güman etdikləri halda əhli-sünnə mənsublarını onların düşmənlərinin cərgəsində saymaq ağıla müvafiq deyil.

* * *

**Müəllif iddia edir: "Saleh bəndənin (r.a) iki zidd mənalı hədis barədə sözü isə belədir: "Onlara zidd olanını götür, uyğun olanından isə çəkin".**

**Rza (r.a) deyir: "Əgər qarşınıza iki zidd mənalı hədis çıxarsa, sünnilərə xilaf olanını götürün, onlara müvafiq olanını isə tərk edin".**

**Cavab:** İki zidd mənalı hədislər barədə mövzuya və qarşı tərəfə zidd olanının əsas götürülməsinə məsələsinə əvvəldə izah verdik.

* * *

**Müəllif iddia edir: "Sadiq (r.a) deyir: "Allaha and olsun, onlarda qiblə istiqamətinə yönəlməkdən savayı heç bir haqq qalmamışdır" ("Fusulul-muhimmə", 325, 326)".**

**Cavab:** Bu hədis mürsəldir (sənədsizdir), onu Hürr Amuli "Fusulul-muhimmə" kitabında rəvayət edib. Belə bir hədisi dəlil göstərmək düzgün deyildir.

Əgər hədisin səhih olduğunu fərz eləsək, hədisin məzmunu əhli-sünnə kitablarında nəql edilən bəzi rəvayətlərlə eynilik təşkil edir. Belə ki, onların

kitablarında Peyğəmbər (s) zamanından indiyə yalnız namazın düzgün qaldığı, onda da cürbəcür dəyişikliklər etdikləri qeyd olunur.

Buxari "Səhih"də, Məqdisi "əl-Əhadisul-muxtarə"də və digər kitablarda Zühriyə istinadən rəvayət olunur: "Dəməşqdə Ənəs ibn Malikin yanına gəldim. O ağlayırdı. Dedim: "Niyə ağlayırsan?" Dedi: "Qarşılaşdıqlarımdan yalnız bu namazı tanıya bilirəm. Bu namazı da zay ediblər".

Başqa bir rəvayətdə deyir: "Peyğəmbər (s) dönəmindən qalanlardan (əməllərdən) heç birini tanıya bilmirəm". Deyildi: "Bəs namaz?" Dedi: "Ondan da nələri itirmiş və zay etmisiniz?!"[680]

Tirmizi "Sünən"də, Əhməd ibn Hənbəl "Müsnəd"də Ənəsdən nəql edirlər: "Peyğəmbər (s) dövründə etdiklərimizdən heç birini tanıya bilmirəm". Dedim: "Bəs namaz?" Dedi: "Namazınızda da bildiyiniz şeyləri etməmisinizmi?!"[681]

Malik ibn Ənəs "əl-Muvatta"da Əbu Süheyl ibn Malikdən, o da atasından nəql edir: "Camaat arasında qarşılaşdıqlarımdan (əməllərdən) yalnız namaz üçün çağırışı (azanı) tanıya bilirəm".[682]

Əhməd "Müsnəd"də Ümmü Dərdadan onun belə dediyini rəvayət edir: "Əbu Dərda qəzəbli halda yanıma gəldi. Dedim: "Qəzəblənməyinin səbəbi nədir?" Dedi: "Allaha and olsun, Muhəmmədin (s) əməllərindən (və ya əmrlərindən) camaatla namaz qılmaqlarından savayı heç nəyi tanıya bilmirəm".[683]

Başqa bir rəvayətdə isə Əbu Dərdanın belə dediyi qeyd olunur: "...namazdan savayı heç nəyi tanıya bilmirəm".[684]

Əhməd ibn Hənbəl "Müsnəd"ində Ənəsin belə dediyini nəql edir: "Peyğəmbərin (s) dövründə etdiklərimizdən bu gün heç birini tanıya bilmirəm". Əbu Rafi dedi: "Ey Əbu Həmzə, hətta namazı?" Dedi: "Həccacın namazda nə dəyişiklər etdiyini bilmirsənmi?!"

---

680 "Səhih", Buxari, 1/133, "Namazın vaxtları və fəzilətləri" kitabı, "Namazın vaxtının zay edilməsi" babı; "əl-Əhadisul-muxtarə", 5/103; "Şə`bul-iman", 3/134.
681 "Sünən", Tirmizi, 4/633. Tirmizi orada deyir: "Bu, həsən, qəribə hədisdir". "Müsnəd", Əhməd ibn Hənbəl, 3/101, 208.
682 "əl-Muvatta", səh.42.
683 "Müsnəd", Əhməd ibn Hənbəl, 6/443, 5/195.
684 "Müsnəd", Əhməd ibn Hənbəl, 6/443.

Əhməd "Müsnəd"də, Bəğəvi "Şərhus-sünnə"də, Busiri "Muxtəsərul-ithaf"da, Məqdisi "əl-Əhadisul-muxtarə"də Ənəs sənədilə nəql edirlər: "Bugünkü zamanda Peyğəmbər (s) dövründə olanlardan yalnız "La ilahə illəllah" sözündən savayı bir şeyi tanıya bilmirəm". Dedim: "Ey Əbu Həmzə, hətta namazı?" Dedi: "Namazı günəş qürub edən zaman qıldım. Məgər Peyğəmbərin (s) namazı bu idimi?...".[685]

Təyalisi "Müsnəd"ində, Busiri "Muxtəsərul-ithaf"da Ənəsdən nəql edirlər: "Dedi: "Peyğəmbər (s) dövründə gördüklərimdən bu gün heç birini tanıya bilmirəm". Dedilər: "Ey Əbu Həmzə, bəs namazı?" Dedi: "Namazda da etdiklərinizi etməmisinizmi?!"[686]

Bu və eyni mövzuda olan digər hədislər onların öz dinlərində "La ilahə illəllah" şəhadətindən, ya namazdan, ya namazın azanından, ya camaat namazından, yaxud da bunların hamısında savayı hər bir şeyi zay edib itirdiklərinə dəlalət edir.

Biz bu məsələni "Məsailun xilafiyyə" kitabımızda geniş qeyd etmişik. Diləyənlər ora müraciət edə bilərlər.[687]

* * *

**Müəllif iddia edir: "Hürr bu hədislər haqqında belə deyir: "Bunlar mütəvatir həddini aşmışlar. Bu barədə yalnız xəbəru-vahidlərin olduğunu söyləyən bəzi sonrakı alimlərə təəccüb edilir".**

**Cavab:** Biz iki səhih hədisin zidd mənalara dəlalət etdiyi vaxt əhli-sünnəyə müxalif olan rəyin üstünlük verici amil olduğunu bildirən hədislərin varlığını inkar etmirik. Bu üstünlüyün səbəbini isə əvvəldə izah etmişik. Bu halda rəvayətlərin mətəvatir həddə və ya səhih xəbəru-vahid olmasının heç bir fərqi yoxdur, onlara əməl olunmalıdır. Məsələ fiqh üsulu elmilə bağlıdır, burada onu təqdim etməyə ehtiyac duyulmur.

* * *

---

685 "Müsnəd", Əhməd ibn Hənbəl, 3/270; "Şərhus-sünnə", 14/394; "Muxtəsərul-ithaf", 2/307; "əl-Əhadisul-muxtarə", 5/102.
686 "Müsnəd", Əbu Davud Təyalisi, səh.271; "Muxtəsərul-ithaf", 2/307.
687 "Məsailun xilafiyyə", səh.154-211, "Əhli-sünnədə İslam ayin və əlamətlərindən səhih qalanlar" babı.

**Müəllif iddia edir: “Həmçinin deyir: “Bil ki, bu mütəvatir hədislərdən “avamların” kitablarındakı əksər üsul qaydalarının puçluğu məlum olur”.**

**Cavab:** Bu, “Vəsail” kitabının müəllifinin qənaətidir. O, hədisşünasdır, İmamətdən (ə) savayı yollarla rəvayət olunan fiqh üsul qaydalarını dəlil hesab etmir. Bu isə aydın bir xətadır. Hazırkı məqam onun baxışlarının müzakirəsi mövzusuna uyğun deyil.

* * *

**Müəllif iddia edir: “3. Onlar heç bir məsələdə sünnilərlə ortaq fikirdə birləşmirlər:**

**Seyid Nemətullah Cəzairi deyir: “Biz onlarla (yəni sünnilərlə) nə ilah, nə peyğəmbər və nə də imam məsələsində ortaq fikirdə deyilik. Bu ona görədir ki, onların Rəblərinin peyğəmbəri Muhəmməd, ondan sonrakı xəlifəsi isə Əbu Bəkrdir. Biz belə bir Rəbb və belə peyğəmbər tanımırıq. Biz deyirik: Xəlifəsi Əbu Bəkr olan peyğəmbərin Rəbbi Rəbbimiz, peyğəmbəri də peyğəmbərimiz ola bilməz”[688] (“əl-Ənvarul-Cəzairiyyə”, 2/278, “İmamiyyə dininin həqiqətindəki nur və əhli-sünnənin fikirlərinin əksini əsas götürməyin səbəbləri” babı)”.**

**Cavab:** Seyid Nemətullah Cəzairinin (q.s) sözləri tamamilə aydındır. Onun bu sözlərdəki məqsədi nə az, nə çox yalnız Əbu Bəkrin xəlifəliyini inkar etməkdir. Sözlərinin mənası budur: Biz Əbu Bəkrin peyğəmbər tərəfindən xəlifə təyin edildiyinə etiqad bəsləmirik və onu xəlifə təyin edən peyğəmbər də mövcud deyil onun risalətinə iman gətirək. Bu, məntiqdə inkar cümləsinin hökmüdür ki, mövzunun inkarı ilə nəticə də inkar olunur. Belə ki, peyğəmbərimiz Muhəmməd (s) Əbu Bəkri xəlifə təyin etməmişdir.

Həmçinin Əbu Bəkri xəlifə təyin etmiş bir peyğəmbəri göndərən ilah da mövcud deyildir ki, ona da iman gətirək. Çünki Rəbbimiz xəlifəsi Əbu Bəkr olan bir peyğəmbər göndərməmişdir.

Bu bir şəxsin belə deməsinə bənzəyir: “Şiələr əhli-sünnə mənsubları ilə nə Rəbb, nə peyğəmbər və nə də xəlifə mövzusunda həmfikirdirlər”. Onun bu sözündəki məqsədi isə budur: əhli-sünnə Allahın Adəm kimi surətə, ələ, ayağa, üzə, baldıra,

---

[688] Müəllif burada haşiyə qeyd edir. Orada söylədiklərini qarşıda açıqlayacağıq.

gözə sahib olduğuna, müəyyən məkanda olduğuna, adəm övladı kimi sifətlərlə vəsf olunduğuna etiqad bəsləyirlər. Ancaq şiələr Rəblərinin belə olduğunu düşünmürlər, Allahı bütün bu xüsusiyyətlərdən pak və uzaq bilirlər.

Əhli-sünnə Peyğəmbərin (s) şəriətlə bağlı olmayan məsələlərdə məsum olmadığına, söyüş söydüyünə, haqsız yerə lənət söylədiyinə, paltarında sperma ləkəsilə camaatın önünə çıxdığına, ayaq üstə idrar etdiyinə, bütülərə qurban kəsilmiş heyvanın ətindən yediyinə, insanların qarşısında övrətini açdığına və s. bu kimi işlərin ondan baş verdiyinə inanırlar. Halbuki şiələr Peyğəmbəri (s) bütün bu hallardan uzaq və pak bilirlər.

Eləcə də əhli-sünnənin nəzərində Peyğəmbərin (s) xəlifəsinin hidayət edilmədikcə haqqı tapmayan, istədiyi kimi öz rəyilə ictihad edən, düz və ya yanlış qərara gəldiyini bilməyən, xəta etdikdə onun yanlışını düzəldəcək rəiyyətə ehtiyac duyan və ona hakim kəsilib təşviq edən bir şeytanı olan şəxsin ola biləcəyini inkar etmirlər.

Söylədiklərimizdən aydın olur ki, həmfikirliyin olmaması deyildikdə məqsəd qeyd edilən sifətlərin Allahda, Peyğəmbərdə (s) və ondan sonrakı həqiqi imamda olmadığı nəzərdə tutulur, Allahın varlığına və Peyğəmbərin (s) təsdiqinə bəslənilən etiqad inkar edilmir. Bu, kəlam və söz üslublarından məlumatlı olan şəxslərə əsla gizli deyildir.

İnsafən deməliyik: Seyid Cəzairinin (q.s) "Biz onlarla (yəni sünnilərlə) nə ilah, nə peyğəmbər və nə də imam məsələsində ortaq fikirdə deyilik" sözləri izah etdiyimiz mənaları ifadə etmək üçün heç də seçilmiş gözəl ibarələr deyildir. Məna doğru və düzgün olsa da, belə sözlərin nə onun və nə də başqasının tərəfindən söylənməsi xoş deyildir. Çünki iddiaçı bu müəllif kimi digər məkrli və qəlbində kin olan kəslər ümumən camaatın arasında şübhələr yaymaq və şiələrin Allaha, Peyğəmbərə (s) etiqad bəsləmədikləri fikrini formalaşdırmaqdan ötrü belə sözlərə istinad edirlər. Seyid Cəzairi (q.s) bu cümlələrin ardınca sözündəki məqsədi də açıqlasaydı daha gözəl olardı.

**Müəllifin bu iddiasında bir haşiyəsi də var. Orada deyir: "Halbuki reallıq Allah mövcudluğunu, Muhəmmədin (s) onun elçisi və Əbu Bəkrin də**

**Muhəmmədin xəlifəsi olduğunu isbatlayır. İstər onun xəlifəliyi qanuni, istər qanunsuz olsun, fərq etməz".**

**Cavab:** Reallıq Əbu Bəkrin xəlifəliyini isbat etmir. Onun xəlifəlik haqqına bir dənə də olsun hər hansı səhih dəlilin dəlaləti yoxdur. Sadəcə əhli-sünnə öz xəyal, güman və ziddiyyətli yozumları ilə dəlillərə sahib olduqlarını güman edirlər.

Əgər müəllif **"Reallıq... Əbu Bəkrin Muhəmmədin xəlifəsi olduğunu isbatlayır"** sözü ilə Peyğəmbərdən (s) sonra mücərrəd olaraq hakimiyyət əldə etməyi nəzərdə tutursa, bunda heç bir mübahisə yoxdur. Mübahisə onun xəlifəlik haqqına sahib və layiq, xəlifəliyinin qanuni olub-olmadığındadır.

**Müəllif haşiyəsində həmçinin deyir: "Seyid Cəzairinin sözləri olduqca təhlükəlidir. O demək istəyir ki, əgər Əbu Bəkrin Muhəmmədin xəlifəsi, Muhəmmədin də Allahın elçisi olduğu isbatlansa, o zaman Seyid Cəzairi belə bir ilahın və onun peyğəmbərinin varlığını qəbul etməyəcək. Ancaq reallıq qanuni olub-olmadığından asılı olmadan Əbu Bəkrin xəlifəliyini təsdiqləyir".**

**Cavab:** Seyid Cəzairinin (q.s) sözü tamamilə aydındır, onu yuxarıda izah etdik. O, Allahın və Peyğəmbərin (s) inkarını mümkünsüz bir məsələ ilə bağlayır. Həmin baş verməsi mümkünsüz olan məsələ Əbu Bəkrin xəlifəliyinin qanuniliyinin isbatıdır. Bunda heç bir şübhə yoxdur. Dolayısı ilə, nəticədə nə Allahın və nə də elçisinin mövcudluğu inkar edilmir.

**"Reallıq... Əbu Bəkrin Muhəmmədin xəlifəsi olduğunu isbatlayır"** sözünə isə cavab verirdik.

**Müəllif sonra deyir: "Bu məsələni imam Xoidən də soruşmuşdum. Məsələni birbaşa bəyan etməsəm də, ona oxşar bir vəziyyəti ərz etdim və fikrini soruşdum. O dedi: "Bu sözü söyləyən şəxs Allaha, Peyğəmbərə və onun Əhli-Beytinə (ə) qarşı kafir olmuşdur".**

**Cavab:** Müəllifin Seyid Xoiyə nisbət verdiyi sözlər düzgün deyildir. Seyidin bu sözlərin sahibini kafir adlandırması mümkünsüzdür. Biz yuxarıda Seyid Cəzairinin (r.ə) sözlərinin mənasını izah etdik. Ancaq iddiaçı müəllifin Seyid Xoiyə hansı bənzər hekayəni nəql etdiyini bilmirik. Əgər doğrudan da onun oxşar vəziyyətlə bağlı nəql etdiyi bir hekayə olmuşsa, təbii ki, Allahın və elçisinin varlığının inkarını baş verməsi

mümkün olan bir məsələyə nisbət verən kəs kafir olar. Lakin Seyid Cəzairi (r.ə) bunu mümkünsüz məsələyə nisbət verir.

* * *

**Müəllif deyir: "Səduq "İləluş-şəraye" kitabında bu adda fəsilə yer vermişdir. Əbu İshaq əl-Ərcani mərfu olaraq qeyd etdiyi hədisdə deyir: "Əbu Abdullah (ə) dedi: "Bilirsənmi nə üçün avamların sözlərinin əksini əsas götürmək sizə əmr olunub?" Dedim: "Xeyr, bilmirəm".**

**Dedi: "Əli Allahın dinindən nəyə bağlı idisə, ümmət onun bu bağlılığını batil və yanlış çıxarmaq üçün onun əksini yerinə yetirirdi. Onlar Möminlərin əmirindən (ə) bilmədikləri bir şeyi soruşduqda və o da onlara məsələ ilə bağlı fətvanı bildirdikdə camaatı aldatmaq üçün onun ziddə davranırdılar" (səh.531, İran çapı)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Hədisin mərfu (ravinin birbaşa məsumdan nəql etməsindən) olmasından əlavə, onun ravisi Əbu İshaq əl-Ərcani də tərcümeyi-hal kitablarında etina edilməyən şəxs qismindədir.

Rəvayətin sənədinə göz yumulsa, hədis Möminlərin əmiri Əlinin (ə) düşmənlərinin ondan rəyini soruşduğuna və həmin rəyin ziddinə davrandıqlarına dəlalət edir. Bu, heç də onlar tərəfindən qəribə və mümkünsüz davranış deyildir. Belə ki, onlar Möminlərin əmirinə (ə) qılınc qaldıracaq və minbərlərdən söyülməsini qanun halına salacaq həddə ona qarşı ədavət və kin bəsləyirdilər. Məgər fətvalarına zidd əməl etmələri qəribə görünəcək?!

Əgər hal belədirsə, demək bəzən qarşı tərəfin davranışına zidd rəftar etməklə haqqı kəşf eləmək mümkündür. Çünki onların dediklərinin ziddi Möminlərin əmirinin (ə) fətvası olur.

Burada bir daha qeyd etməliyik ki, bu hal yalnız və yalnız iki səhih zidd mənalı hədislərlə qarşılaşdığımız və onların arasında birinin digərinə üstünlüyünü müəyyən etmək istədiyimiz zaman, yaxud zərurət halında hökmü əldə etmək imkanı olmadıqda və əldə heç bir dəlil qalmadıqda aktualdır.

* * *

**Müəllif iddia edir: "Ağılda suallar yaranır:**

**Fərz edək ki, bir məsələdə haqq əhli-sünnənin söylədiyi kimidir, biz yenə də onun xilafına rəftar etməliyikmi? Bir dəfə Seyid Muhəmməd Baqir əs-Sədr mənim bu sualıma belə cavab verdi: "Bəli, onların sözlərinin əksini əsas götürmək vacibdir. Çünki yanlış olsa belə, onların sözlərinin ziddinə davranmaq haqqın onlar tərəfdə olduğunu qəbul etməkdən daha yaxşıdır".**

**Cavab:** Müəllif kitabında həqiqətin əhli-sünnə ilə olduğunun necə müəyyən ediləcəyini qeyd etmir.

Necə qeyd etsin?! Onun bu məsələsinin cavabı budur ki, əgər vaqei hökmün əhli-sünnəyə müvafiq olduğu fərz olunsa, yaxud onların hökmünə uyğun səhih dəlil olarsa, qədim və müasir şiə alimləri məhz həmin hökmün əsas götürülməsində icma ediblər (yekdil fikrə sahibdirlər). Hökmün əhli-sünnəyə uyğun olmasında heç bir ziyan yoxdur, çünki haqqa tabe olmaq hər şeydən daha üstündür.

Biz əvvəldə də qeyd etdik ki, əhli-sünnəyə müxalif olan hökmü əsas götürmək yalnız iki zidd mənalı səhih hədislə qarşılaşdığımız hala aiddir ki, həmin iki hədisdən də biri onlara müvafiq, digəri isə müxalifdir. Bu zaman həmin hədisin təqiyyə halında söyləndiyi məlum olur, onun ziddi olan hədisə uyğun əməl edilir. Burada amil onun əhli-sünnəyə xilaf olması deyil, əksinə, onlara müvafiq olması İmamın (ə) həmin hədisi təqiyyə halında söylədiyinə dəlil olmasıdır.

Seyid Muhəmməd Baqir əs-Sədrə (q.s) nisbət verdiyi sözlər isə səhih sayıla bilməz. Çünki ondan nəql etdiyi sözlər Seyidin öz kitab və bəhslərində qeyd etdiklərinə ziddir. Seyid kitablarında bildirir ki, əhli-sünnənin hökmünə zidd olan hədisin dəlil sayılması şəri dəlillərdə yaranan ziddiyyət halında hansının təqiyyə səbəbindən söyləndiyini müəyyən etmək üçün meyarlardan biridir. Ancaq dəlilin şəri hökmə dəlaləti aydın olduqda, bu halda əhli-sünnəyə müxalif olub-olmadığının heç bir əhəmiyyəti qalmır.[689]

Sözün qısası, siz səhih dəlillərlə isbatlanmış bir şəri hökmü sırf əhli-sünnəyə müxaliflik üçün kənara atan bir şiə aliminə də rast gələ bilməzsiniz. Halbuki, bəzi

---

[689] Seyid Muhəmməd Baqir əs-Sədrin "Təaruzul-ədillətiş-şər`iyyə" kitabına müraciət edin (səh.34, 358, 415 və s.).

əhli-sünnə alimlərinin səhih dəlillərlə sübuta yetmiş sünnədən rafizilərin əlamətinə çevrildiyinə görə imtina etdiklərini əvvəldə qeyd etmişdik.

Lakin iddiaçı müəllif bu kitabında əhli-sünnəyə aid olan bəzi xüsusiyyətləri inadla şiə alimlərinin adına yazmağa və bununla da öz alimlərinə bəraət qazandırmağa cəhd göstərir. Buna baxmayaraq səyləri boşa çıxmışdır və məqsədləri ifşa olmuşdur. Çünki dəlil olaraq uydurma hekayələrə etimad edir ki, onlar da hər hansı bir şəri hökmün və ya məsələnin isbatında heç bir dəyər daşımır.

* * *

**Müəllif iddia edir: "Şiələrin əhli-sünnəyə qarşı nifrətləri bu günlərdə yaranmayıb və müasir alimlərin də adəti deyildir, bunun kökləri əhli-sünnə mənsublarının ilk nəsillərinədək - yəni Əbu Zərr, Miqdad və Salmandan savayı bütün səhbələrə - gedib çıxır. Bunu Kuleyni Əbu Cəfərdən rəvayət edib: "Üç nəfərdən – Miqdad ibn Əsvəd, Salman Farisi və Əbu Zərr Ğəffaridən savayı – bütün camaat Peyğəmbərdən (s) sonra dindən döndülər" ("Rovzətul-Kafi", 8/246)".**

**Cavab:** Məzhəblər arasındakı nifrətin kökü ilk əsrdən başlanmışdır. Bunun səbəbi isə onların ardıcılları arasında baş qaldıran fitnələr idi. Tarix bizə şiə və sünnilər arasında baş vermiş fitnələrdən söz açır. Nəinki, hətta əhli-sünnə tərəfdarlarının öz aralarında – hənəfilər, malikilər, şafeilər və hənbəlilər arasında da fitnə və mübahisələr olmuşdur.

Yalnız şiələr daim bu fitnələrin alovlandırılmaqdan kənar durmuşlar. Çünki onlar əhli-sünnə ilə xoş rəftar barədə İmamlarının (ə) tövsiyə və vəsiyyətlərinə uyğun davranırdılar. Həmin tövsiyələri əvvəldə qeyd etdik. Həmçinin şiələr zalım hakimlərin şərindən qorunmaq üçün təqiyyə etməyə məcbur qalırdılar. Bu isə onların zəif vəziyyətə salındıqlarını və camaat tərəfindən təqiblərə məruz qaldıqlarını göstərir.

Şeyx Muhəmməd Əbu Zəhrənin şiələrin əhli-sünnəyə qarşı xoş və mehriban münasibət bəslədiklərinə, nifrət duymadıqlarına dair sözlərini möhtərəm oxucu üçün əvvəldə qeyd etdik. Şeyx Muhəmməd əhli-sünnə mənsubudur və əsla bu şəhadətinə görə ittiham edilə bilməz.

Hətta əgər şiələrin əhli-sünnəyə nifrət bəslədiklərini fərz etsək, bu iddiaşı müəllifin əhli-sünnənin şiələri sevdiklərini və onlara qarşı xoş münasibət bəslədiklərini iddia edəcəyini inanmıram. Belə ki, rafizilərin kafir olduqları, kəsdikləri heyvanın ətinin yeyilməsinin haram olduğu, onlarla evlilik əlaqəsi qurulmasının və salam verilməsinin icazəli olmadığı barədə bəzi əhli-sünnə alimlərinin sözlərini əvvəldə nəql etdik.

Bəzi əhli-sünnə alimlərinin belə fətvaları olduğu halda, heç bir şiə hədisində və ya aliminin fətvasında şiələri əhli-sünnəyə nifrət bəsləməyə və onlarla düşmənçiliyə təşviq edən bir sözə belə rast gəlmək mümkün deyildir. Əgər onların sözləri arasında axtarış aparılsa yalnız bunun əksini görəcəksiniz.

* * *

**Müəllif iddia edir: "Əgər yəhudilərdən "Sizin dininizdə ən üstün insan kimdir?" deyə soruşsaq, onlar "Musanın səhabələridir" cavabını verəcəklər.**

**Əgər bu sualı xristianlara ünvanlasaq, onlar da "İsanın həvariləri" deyə cavab verəcəklər.**

**Ancaq şiələrdən "Sizin nəzər və əqidənizdə ən pis şəxslər kimlərdir?" deyə soruşsaq, onlar "Muhəmmədin (s) səhabələridir" cavabını verəcəklər.**

**Cavab:** Müəllif bu sözləri Əbdürrəhman ibn Malik ibn Miğvəlin atasından, o da Şə`bidən nəql etdiyi uzun bir rəvayətdən götürmüşdür. Həmin rəvayət isə İbn Teymiyyənin "Minhacus-sünnə"[690] və Əbu Bəkr Xəllalın "əs-Sünnə"[691] kitabında etiraf etdiyi kimi, Şə`bi nəql edilən zəif rəvayətdir.

Rəvayətin həqiqətən Şə`bidən olduğu istər sübuta yetsin, istər yetməsin, belə bir iddia sərsəmlikdən savayı bir şey deyildir və heç bir məsələ ilə bağlı şiələrə qarşı dəlil sayıla bilməz. Biz Şə`bi ilə bağlı məsələyə "Abdullah ibn Səbanın şəxsiyyəti" bölümündə cavab vermişdik. Diləyən şəxslər oraya müraciət edə bilərlər.

Müəllifin yəhudi, xristian və rafizilərlə bağlı sualına gəldikdə, bunlar müzakirə və bəhs zamanı dəlil olmaq səlahiyyətini özündə daşımayan boş təsəvvür və ehtimallardır.

---

[690] "Minhacus-sünnə", 1/8, digər çapda: 11, 12.
[691] "Kitabus-sünnə", 3/498. Xəllal deyir: "İstinadı səhih deyil".

Biz məsələ ilə bağlı yəhudi və xristianların nə dediklərini bilmirik, bəlkə də onlar bunun tam əksini söyləyir, başqalarının Musa və İsa (onlara salam olsun!) peyğəmbərlərin əshabından daha fəzilətli olduğunu isbatlayırlar. Belə ki, onlar hətta Musa (ə) və İsanın (ə) özlərini, eləcə də digər peyğəmbərləri tənə edir və onlara çirkin sifətlər nisbət verirlər.

Əgər yəhudilərin Musanın (ə) əshabını, xristianların da İsanın həvarilərini hamıdan üstün tutduqlarını qəbul etsək, bu, Muhəmməd peyğəmbərin (s) səhabələrinin bu ümmətin ən üstünü olduqlarını isbatlamaz. Çünki Musa və İsanın (onlara salam olsun!) əshabının üstünlüyünün isbatlanması digər peyğəmbərlərin də səhabələrinin üstünlüyünü vacib etmir. Bu, çox aydın məsələdir, cahil və təəssübkeşdən savayı heç kəs bu barədə mübahisə etməz.

Bundan əlavə, görən müəllif sualın məcrasını niyə dəyişmişdir? Nə üçün yəhudi və xristianlara verdiyi kimi, şiələrə də "Sizin ümmətin ən yaxşıları kimlərdir?" sualını verməmişdir?

Aydındır ki, əgər şiələrə bu sualı ünvanlasa, onlar "Bu ümmətin ən yaxşıları Peyğəmbərin (s) Əhli-Beytidir (ə)" deyə cavab verəcəklər.

Bu cavab şiələrə hər hansı bir irad tutulmasına imkan verməyəcək. Əksinə, Əhli-Beytin qanının axıdılmasının, onların layiq olduqları məqamdan uzaqlaşdırılmasının və üstünlüklərinin inkar edilməsinin səbəblərinin əhli-sünnədən soruşulması lazım gələcək. Müəllifin sualı bu cür qoymasının yeganə hədəfi şiələrə tənə vurmaq və gözdən salmaqdır. Bu məqsədi üçün sualın məcrasını dəyişməkdən də çəkinmir.

Hərçənd, şiələr "Ən pis insanlar Peyğəmbərin (s) səhabələridir" demirlər. Çünki səhablər arasında müxtəlif səviyyədə insanlar olmuşdur. Onlardan bəziləri Allahın da öz kitabında tərif etdiyi ilk iman gətirənlər, bəziləri Quranda məzəmmət olunan münafiqlər, bəziləri yaxşı əməllərini pis əməllərlə qarışdıranlar, bəziləri barələrində heç bir məlumatımız olmayan halı məchul şəxslərdir. Səhabələrin bir hissəsini məzəmmət etmək onların hamısının məzəmmət edildiyi mənasına gəlməz.

* * *

**Müəllif iddia edir: "Peyğəmbərin (s) səhabələri, xüsusilə də Əbu Bəkr, Ömər, Osman, onun (s) iki xanımı Aişə və Həfsə şiələrin söyüş, lənət və**

**danlağına məruz qalan şəxslərdir. Ona görə də “Qüreyşin iki sənəmi” duasında belə deyilir: “İlahi, Qüreyşin iki sənəminə (Əbu Bəkr və Ömərə), o ikisinin Cibt və Tağutuna (!), iki qızlarına (Aişə və Həfsəyə) lənət elə...”. Bu dua mötəbər kitablarda yer alıb. İmam Xomeyni bu duanı hər gün sübh namazından sonra oxuyardı”.**

**Cavab:** Şiələr bütün səhabələrin ədalətli olduqlarına etiqad bəsləmirlər. Kimliyindən asılı olmayaraq, ədaləti isbatlanmış hər səhabənin adil olduğunu söyləyirlər. Əhli-sünnənin üstün bilib, hamıdan yüksəkdə tutduğu səhabələri şiələrin üstün və adil bilməməsi mümkündür. Çünki bu, elə sahəbələrin özlərinin, həmçinin digərlərinin etdikləri kimi, ictihadi məsələdir. Ona görə də şiələrin böyük Peyğəmbər səhabəsi saydığı şəxsləri əhli-sünnənin məşhur adamları kafir saymış, onların Peyğəmbərə (s) yardım etmək üçün heç bir kömək göstərmədiklərində yekdil fikrə sahib olmuşlar. Bu şəxs Əbu Talibdir (ə). Bununla bərabər, əhli-sünnə alimləri onun kafir sayılması hökmündə heç bir qüsur görmür, həmçinin şiələr də bu fakta əsaslanıb əhli-sünnəni kafir sayılmırlar.

Ancaq Əbu Bəkr, Ömər və Osmana gəldikdə, onların ədalət və ya tənqid məsələsi xilafətlə bağlıdır. Əgər onların xilafəti qanuni və düzgün, Allahın və Peyğəmbərinin (s) razılığı daxilində idisə, bu zaman onların adil və üstün olmalarına heç bir irad ola bilməz.

Lakin xəlifəlikləri qeyri-qanuni idisə və qanuni xəlifə Əli ibn Əbu Talib (ə) idisə, bu zaman onları ədalətli hesab etməyən şəxsin üzrü vardır.

Xilafət məsələsi şiələrlə əhli-sünnə arasında mübahisə mövzusu olaraq qalmaqdadır. Bu məsələnin əsaslandığı təməli aydınlaşdırmadan xəlifələrə dəyər verilməsi barədə mübahisə açmaq məntiqli qərar ola bilməz.

Aişə ilə Həfsənin məsələsinə gəldikdə, bu da ictihadi məsələdir və əhli-sünnənin onlar barəsində etiqad bəslədiklərinə bizdə bir dənə də olsun səhih dəlil yoxdur.

Əgər Peyğəmbərin (s) “Əliyə yalnız münafiq nifrət bəsləyər”, “Əlini yalnız mömin sevər”, “Əli ilə savaşmaq mənimlə savaşmaqdır”, “əli itaəti vacib olan imamdır” kimi hədislərini əsas götürsək, o zaman Əli (ə) ilə savaşan, ona nifrət bəsləyən kəslərin münafiq, ən azından isə fasiq olduqlarına hökm vermək üçün heç

bir maneə ola bilməz. Əks təqdirdə, heç bir dəlil olmadan bir müsəlmanın kafir və ya münafiq olduğunu iddia etmək əsla icazəli deyildir!

Həmçinin əgər "Möminlərin əmiri Əliyə (ə) qarşı çıxmış hər kəs həlak olmuşdur (dünya və axirətdə zərərə uğramışdır)" sözünü təsdiq etsək, o zaman, bəzi ona qarşı çıxmış səhabələrin həlaka uğradıqlarını da təsdiqləməliyik. Belə səhabələrin arasında Aişə, Təlhə, Zübeyr, Müaviyə, Əmr ibn As və digərləri vardır. Əks halda, heç bir səhih dəlil olmadan bir müsəlmanın həlaka uğrayanlardan olduğuna hökm vermək icazəli deyildir!

Nəticə budur ki, bəzi səhabələri və ya Peyğəmbərin (s) bəzi zövcələrini ədalətli və ya ədalətsiz saymaq barədə ictihad etmək icazəlidir. Çünki Peyğəmbərin (s) bütün səhabələrinin və bütün zövcələrinin ədalətli olduqlarına dair bir mütəvatir dəlil yoxdur. Onlardan hansınınsa münafiq olduğuna hökm etmək ictihad sahibini İslamdan çıxarmaz.

* * *

**Müəllif iddia edir: "Həmzə ibn Muhəmməd Təyyardan nəql olunur: "Əbu Badullahın (r.a) yanında Muhəmməd ibn Əbu Bəkri yad etdik. O dedi: "Allahın rəhmət və salavatı ona olsun! Bir gün Muhəmməd ibn Əbu Bəkr Möminlərin əmiri Əliyə demişdi: "Əlini uzat, sənə beyət edim". Əli dedi: "Məgər etməmisən?" Dedi: "Bəli, etmişəm" deyib əlini uzatdı, ardınca dedi: "Mən şəhadət verirəm ki, sən itaəti vacib olan imamsan, həqiqətən də atam (atası Əbu Bəkri nəzərdə tutur) cəhənnəm odundadır" ("Rical", əl-Kəşşi, səh.61)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir, onun ravisi Həmzə ibn Muhəmməd Təyyar nəqllərinə əhəmiyyət verilməyən şəxsdir və tərcümeyi-hal kitablarında inanılan şəxs olması sübuta yetməyib.

Maməqani deyir: "Həmzə ibn Muhəmməd Təyyar – Şeyx (Tusi) öz "Rical"ında onun adını İmam Sadiqin (ə) səhabələri sırasında qeyd etmişdir. Demişdir: "Kufəlidir, zahirən imam şiəsidir, yalnız halı məchul şəxsdir".[692]

Bu rəvayətin raviləri arasında Zühəl Ömər ibn Əbdüləziz də var ki, onun da inanılan şəxs olması tərcümeyi-hal kitablarında sübuta yetməyib. Nəcaşi "ət-

[692] "Tənqihul-məqal", 1/377.

Təxlit"də, həmçinin Fəzl ibn Şazan da onun inkar edilən hədislər nəql etdiyini qeyd edirlər.

Nəcaşi yazır: "Ömər ibn Əbdüləziz, ərəbdir, bəsrəlidir, (etiqadını, mətləbləri, düzgünlə yanlış xəbəri, sənəddəki ravilər) qarışıq salandır".[693]

Kəşşi yazır: "Əbu Həfs Ömər ibn Əbdüləziz Əbu Bəşar – Zühəl kimi tanınır. Muhəmməd ibn Məsud deyir: "Abdullah ibn Hənmdəveyh əl-Beyhi mənə deyib: "Fəzl ibn Şazanın belə dediyini eşitmişəm: "Zühəl Əbu Həfs inkar olunan hədislər rəvayət edir, ğali (əqidədə ğülluv edən) deyildir".[694]

Maməqani deyir: "İmam şiəsidir, ədalət və hədis nəqli cəhətdən halı məchul şəxsdir. Ancaq belə şəxs barəsində terminoloji mənada "zəif" ravi sözü işlədilər".[695]

Əgər hədisin sənədinə göz yumub səhih olduğunu fərz etsək, hədisin məzmunu Muhəmməd ibn Əbu Bəkrin öz doğma atası Əbu Bəkrin cəhənnəm əhlindən olduğuna etiqad bəslədiyinə və bu barədə Möminlərin əmirinə (ə) beyət etdiyinə dəlalət edir. Muhəmməd öz atasına bizdən yaxşı tanıyır, onun əqidəsinə görə şiələrə əsla irad tutula bilməz.

Eləcə də, Möminlərin əmiri (ə) bu beyəti Muhəmməddən qəbul edibsə, demək onun atası barədə əqidəsi ya doğrudur, ya da beyətinin heç nəyə zərəri yoxdur. Bundan əlavə, çox sayda səhabə Əbu Bəkr, Ömər və Osman barəsində əhli-sünnənin rəyinə zidd etiqad bəsləyirdilər.

* * *

**Müəllif iddia edir: "Şüeyb Əbu Abdullahdan (ə) nəql edir: "Elə bir ailə yoxdur ki, onların arasında bir alicənab saleh şəxs olmasın. Pislik yuvası olan ailələrin ən nəcib şəxsi Muhəmməd ibn Əbu Bəkrdir" (Kəşşi, səh.61)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Raviləri arasında Musa ibn Müs`əb vardır ki, tərcümeyi-hal kitablarında ona etina edilməyib.

---

693 "Rical", Nəcaşi, 2/127.
694 "İxtiyaru mə`rifətir-rical", 2/748.
695 "Tənqihul-məqal", 2/345.

Sənədə göz yumsaq belə, rəvayət özü-özlüyündə düzgün deyildir. Çox sayda ailələr vardır ki, üzvləri arasında bir nəfər də olsa, nəcib şəxs yoxdur. Halbuki rəvayətdə hər bir ailədə mütləq bir nəcib şəxsin olduğu deyilir.

Həmçinin, rəvayətin məzmunu Muhəmməd ibn Əbu Bəkri tərifləmək olsa da, diqqətlə nəzər salındıqda orada hər hansı bir tərif və məqama dəlalət görünmür. Çünki rəvayətdə onun pislik yuvası olan ailənin ən nəcib şəxsi olduğu deyilir, mütləq mənada ən nəcib şəxs olduğu deyilmir. Pislik yuvası olan ailələrdən nəcib şəxsin çıxması az təsadüf olunan haldır ki, Muhəmməd ibn Əbu Bəkr də onların arasında ən nəcibi olsun. Məlum olduğu kimi, bu, həqiqətdə heç də mədh və tərif deyildir.

* * *

**Müəllif iddia edir: "Ömərə gəldikdə, Seyid Nemətullah Cəzairi deyir: "Ömərin arxa dəliyindən bir xəstəliyi vardı ki, yalnız kişi sperması ilə sakitləşirdi" ("əl-Ənvarun-Numaniyyə", 1/63)".**

**Cavab:** Seyid Nemətullah Cəzairi (r.ə) belə bir söz söyləməmişdir. O, sadəcə əhli-sünnə alimlərinin öz kitablarında qeyd etdikləri sözü nəql eləmişdir. Orada yazır: "Onun (yəni Ömərin) "gözəl" hərəkətlərinə gəldikdə, onun barəsində düşmənlərin nəql etmədiyi sözləri öz aşiqləri və tərəfdarları yazıblar. Bunlardan biri "əl-İstiab" kitabının müəllifinin sözləridir:..".

Sonra yazır: "Həmçinin: Mühəqqiq Cəlaləddin Siyuti "Qamus" kitabının haşiyəsində "əl-ubnətu" (arxa dəlikdə bir xəstəlikdir ki, yoluxan kəs onunla arxadan yaxınlıq edilməsini tələb edir) kəlməsinin düzgün mənası barədə bəhs açarkən yazır: "Cahiliyyə dövründə bəzi adamlardan bu xəstəlik vardı. Onlardan biri də ağamız Ömər idi". Bundan daha qəbahətlisini isə Fazil ibn Əsir yazır, bunların ikisi də əhli-sünnənin böyük alimləridir. Deyir: "Rafizilər iddia edirlər ki, ağamız Ömər xünsa (həm kişi, həm qadın olan şəxs) idi. Onlar yalan deyirlər. Onun arxa dəliyində yalnız kişilərin sperması ilə sakitləşən xəstəliyi vardı". Həmçinin burada qeyd etməyi qəbahətli saydığımız digər sözlər də söyləmişlər. Onlar belə gizlədilməli sirrlərin qorunmasında qüsura yol vermişlər. Mən rafizilərin kitablarında isə belə sözlərə rast

gəlmədim... Əhli-sünnə həmçinin orada öz imamlarından bundan daha iryənc sözlər nəql ediblər. Uca və böyük Allahdan savayı heç bir güc və qüdrət yoxdur".[696]

Möhtərəm oxucu üçün nəql etdiyimiz sözlərdən aydın olur ki, Seyid Cəzairi (r.ə) bu sitatları şiə kitablarından deyil, məhz əhli-sünnə kitablarından nəql etmişdir. Həmçinin şiə kitablarında belə sözlərin əsla yer almadığını da aydın şəkildə bəyan edir və belə faktları aşkar surətdə yazmağın qəbahətli iş olduğunu bildirir.

Seyid Cəzairinin (r) sadəcə vasitəçi olaraq nəql etdiyi bu sözləri müəllifin ona nisbət verməsi onun əmanətdarlığı barədə aydın təsəvvür formalaşdırır.

Müəllifin bu sözlərdən nə üçün hiddətləndiyini anlamaq olmur. Halbuki Seyid Cəzairinin Siyutidən nəql etdiyi ilk sözlər bu halın cahiliyyə dövründə baş verdiyinə dəlalət edir. Cahiliyyə insanları isə hər bir çirkin və qəbahətli işə mürtəkib idilər. Əhil-sünnə alimləri Ömərin cahiliyyə dövründə pis və çirkin əməllərdən çəkindiyini və tamamilə uzaq olduğunu söyləmirlər. Ona görə də öz kitablarında Ömərin cahiliyyə dövründə bütlərə ibadət etdiyini, şərab içdiyini, qızlarını diri-diri torpağa gömdüyünü və s. hadisələri rahat şəkildə qeyd edirlər. Bu faktların heç birində ona eyib və nöqsan yoxdur, çünki İslam dini əvvəl baş vermiş bütün işlərin üzərindən xətt çəkmişdir.

* * *

**Müəllif iddia edir: "İranın Kaşan şəhərində Bağefin məntəqəsində naməlum əsgər məqbərə bənzər bir qəbir vardır ki, həmin qəbir fars, məcusi, ikinci xəlifə Ömər ibn Xəttabın qatili Əbu Lu`lu Firuzundur. Həmin məqbərənin adını "Baba Şücaəddin" qoyublar. Baba Şücaəddin onların Ömər ibn Xəttabın qatili Əbu Lu`luya verdikləri ləqəbdir. Həmin məqbərənin divarında isə fars dilində "Ölüm olsun Əbu Bəkrə! Ölüm olsun Ömərə! Ölüm olsun Osmana!" yazılıb.**

**Bu məqbərə iranlılar tərəfindən ziyarət olunur, oraya pul atılır və nəzirlər qoyulur. Mən özüm də həmin məqbərəni görmüşəm. İran İrşad Nazirliyi həmin məqbərənin genişləndirilməsi və yenilənməsi göstərişini vermiş, üzərində məqbərənin təsvir edildiyi poçt markaları da buraxılmışdı".**

---

[696] "əl-Ənvarun-Numaniyyə", 1/63.

**Cavab:** Əgər müəllifin nəql etdiklərinin doğruluğunu fərz etsək, aydın məsələdir ki, avam camaatın etdikləri əhəmiyyətli dəlil sayılmaz və şiələrin əqidəsi kimi təqdim edilə bilməz. Əhəmiyyətli olan şiə alimlərinin mötəbər kitablarında yazdıqları sözlərdir. Belə ki, əhli-sünnə mənsubu olan adi camaat öz şəhərlərində bir çox xürafi əməl və düşüncələri bu gün də din adı ilə icra etməkdə və etiqad bəsləməkdədirlər. Əhli-sünnən mənsublarının yaşadıqları nə qədər şəhər və ölkələr vardır ki, orada ziyarət olunan və təbərrük götürülən ziyarətgahlar mövcuddur. Bu barədə daha çox məlumat almaq istəyənlər onların ziyarətgahları ilə bağlı kitablarına müraciət edə bilərlər. Belə kitablardan: "Muhəmməd Nəsrəddin Albaninin "Əhkamul-cənaiz və bid`uha", Raid ibn Səbri ibn Əbu Ələfənin "Mö`cəmul-bid`" və s.

* * *

**Müəllif iddia edir: "Kuleyni Əbu Cəfərdən (r.a) nəql edir: "...Həqiqətən Şeyxeyn (Əbu Bəkr və Ömər) dünyadan tövbə və Möminlərin əmirinə (r.a) qarşı əməllərini etiraf etmədən ayrıldılar. Onların ikisinə də Allahın, mələklərin və bütün insanların lənəti olsun!" ("Rovzətul-Kafi", 8/246)".**

**Cavab:** Bu hədisin sənədi zəifdir. Kuleyni onu Hənnandan heç bir vasitə olmadan nəql edib. Halbuki Kuleyni Hənnanla eyni zamanda yaşamayıb. Belə ki, Hənnan İmam Baqir, İmam Sadiq və İmam Kazımın (onlara Allahın salamı olsun!) əshabındandır. Kuleyni isə kiçik qeyb dövründə yaşamışdır.[697]

Kuleyni Hənnandan daim ya bir, ya da iki şəxs vasitəsilə rəvayət nəql edib. Onların bəzisində Əbdürrəhman ibn Həmmad, bəzisində Səyyari, bəzisində Muhəmməd ibn Əli Həmədani, digərlərində Səhl ibn Ziyad, Mənsur ibn Abbas, Abdullah ibn Xəttab, Sələmə ibn Xəttab və Saleh Sindi vardır. Hənnandan rəvayət nəql edən bu şəxslərin inanılan şəxs olduqları heç bir tərcümeyi-hal kitablarında öz əksini tapmayıb. Hal belə olduqda, Kuleyninin Hənnandan vasitəsiz nəql etdiyi bir rəvayətə necə etimad oluna bilər?!

Bundan əlavə, Hənnanın atası Sədir əs-Seyrəfidir, bir neçə alim onu inanılan şəxs saysa da, ümumən inanılan şəxs deyildir.

---

[697] "Bax: "Möcəmu ricalil-hədis", 6/300.

Hədisin sənədinə göz yumsaq, mətndə "şeyxeyn" sözündə məqsədin məhz Əbu Bəkr və Ömər olduğuna heç bir dəlalət yoxdur. Həmin bu iki şəxs Təlhə və Zübeyr, yaxud Müaviyə və Əmr ibn As, ya da bizim tanımadığımız iki yaşlı şəxs ola bilər. Əgər məqsədin Əbu Bəkr və Ömər olduğunu və rəvayətin həqiqətən də İmam Sadiq və ya İmam Baqir (onlara salam olsun!) tərəfindən söyləndiyinin sübuta yetdiyini fərz etsək, bu zaman onu qəbul etməyin və ona əhəmiyyət verməyin heç bir qəbahəti yoxdur. Çünki bizim vəzifəmiz İmamlara (ə) tabe olmaqdır.

* * *

**Müəllif iddia edir: "Osman barədə Əli ibn Yunus əl-Bəyazidən nəql olunur: "Osman oynadılan (məzələnilən) və xünsa (qadın xüsusiyyətlərinə malik) şəxs idi" ("əs-Siratul-müstəqim", 2/30)".**

**Cavab:** əl-Bəyazi əl-Amuli (r.ə) bu sözləri Kəlbinin "əl-Məsalib"[698] kitabından nəql edib. Həmin kitabda Qüreyşin qüsurlu şəxsləri qeyd edilir ki, onların arasında da Osman ibn Əffanın adı çəkilir.

Mümkündür ki, "oynadılan" sözündə məqsəd Mərvan ibn Həkəm və digərlərinin Osmanı istədikləri kimi yönləndirdikləri və öz iradələrini ona diktə etmələridir. O, zəif və ya zəif düşürülmüş şəxsdir. Məqsəd heç də onunla cinsi baxımdan oynaşmaq deyildir.

Təbəri öz "Tarix" əsərində hicri 35-ci ilin hadisələrində yazır: "Əli dedi: "Müsəlmanlar barədə Allaha pənah aparıram! Əgər evimdə otursam, Osman mənə "Məni, qohumluğumu və haqqımı tərk etdin!" deyir. Əgər mən onunla danışsam (məsləhət versəm), o zaman da Mərvan gəlib onun yaşının çoxluğuna və Peyğəmbər (s) səhabəsi olmasına məhəl qoymadan istədiyi kimi oynadır və dilədiyi səmtə yönəldib idarə edir".[699]

Yaxuda da məqsəd onun sözünə əhəmiyyət verilməməsi və əmrlərinin icra edilməməsidir. Necə ki, İbn Məsudun rəvayətində belə dediyini nəql olunur: "Allahın

---

[698] "əs-Siratul-müstəqim", 2/334.
[699] "Tarix", Təbəri, 3/398.

elçisi (s) buyurdu: “Üç şəxsə rəhm edin: fəqirləşmiş varlıya, zillətə düçar olmuş izzətliyə, axmaq və cahillərin məzələndikləri alimə”.[700]

Əbu Hüreyrədən Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: “Yeddi göy və yeddi yer, onlarda və onların üzərində olanlar bu şəxslər üçün ağlayarlar: zillətə düçar olmuş izzət sahibi, fəqirləşmiş varlı və cahillərin məzələndikləri alim üçün”.[701]

Xünsaya gəldikdə, bu, qadınlarda olan cinsi xüsusiyyətlərə sahib olmaqdır. Bu, bəzi avamların təsəvvür etdikləri kimi, əsla livat olunan mənasını vermir.

İbn Əbdülbərr “ət-Təmhid”də yazır: “Müxənnəs fahişə və fahişəliyin nisbət verildiyi şəxs deyildir. Xünsa qadınlıq xüsusiyyətlərinin aşkar zahir olmasıdır ki, hərəkət, danışıq, baxış, avaz, ağıl və rəftarlarında qadına bənzəməkdir...”.[702]

İbn Kəlbinin qeyd etdiyi sözlər Osmanın özünü xünsa kimi apardığı barədədir, yəni davranış və danışıq incəliyində qadına bənzəməsidir, heç də müəllifin onun xünsa olmasını iddia etdiyi deyildir.

* * *

**Müəllif iddia edir: “Aişə barədə isə İbn Rəcəb (!) əl-Bursi deyir: “Aişə xəyanət etməklə 40 dinar toplamışdı” (“Məşariqu ənvaril-yəqin”, səh.86)”.**

**Cavab:** Bu rəvayəti Hafiz Rəcəb əl-Bursi mürsəl (sənədsiz) olaraq nəql etmişdir. Başqaları isə istinadla nəql ediblər ki, orada Əli ibn Hüseyn əl-Muqri əl-Kufi, Muhəmməd ibn Həlim ət-Təmmar, Mixvəl ibn İbrahim Zeyd ibn Küseyr əl-Cəmhidən rəvayət edir. Ravilərin hamısı məchul şəxslərdir və adları tərcümeyi-hal kitablarında qeyd edilməyib.

Əllamə Məclisi (r.ə) deyir: “Bu, rəvayət olunsa da, şaz (nadir) və bəzi üsullara müxalifdir”.[703]

Rəvayətin sənədinə göz yumulsa, rəvayətdəki “xəyanət” sözü heç də iddiaçı müəllifin oxucuda yaratmaq istədiyi fahişə təsəvvürünü ifadə etmir. Belə ki, xəyanət əmanətin ziddidir, bu isə hər hansı pul və ya maldan haqqı çatmadan istifadə etməkdir.

---

700 “”Müsnəd”, Şəhhab, 1/427.
701 “əl-Fordovs biməˋsuril-xitab”, 2/14.
702 “ət-Təmhid”, 13/269.
703 “Biharul-ənvar”, 32/107.

Həmçinin qadınların xəyanətləri şəxslərinə görə fərqlilik göstərir. Bu xəyanət həm, pul, həm mal, həm də digər məsələlərdə baş verə bilər.

İbn Həcər Əsqəlani Buxarinin "Əgər Həvva onu etməsəydi, heç bir qadın ərinə xəyanət etməzdi" hədisinin şərhində deyir: "Burada işarə Həvvanın Adəm üçün o ağacın meyvəsini yeməsi üçün cilvələməsinədir. Adəmə xəyanət etməsinin mənası isə İblisin onun üçün bəzəyib cilvələdiyi meyvəni qəbul etməsi və Adəmin ondan yeməsi üçün təşviq etməsidir. Həvvanın qızları olduqda doğuşdan ona bənzədilər. Hər bir qadının ərinə söz və ya əməllə xəyanəti bəlkə də bundan qaynaqlanır. Burada xəyanət dedikdə məqsəd fahişəlik deyildir. Əsla, xeyr! Nəfsinə uyub o ağacın meyvəsindən yeməyə meyl etdiyi və onu Adəm üçün bəzədiyi üçün bu əməli xəyanət sayılmışdır. Ancaq ondan sonra gələn qadınların xəyanətləri isə öz şəxsi təşəbbüslərinə bağlıdır. Bu, sanki aşağıdakı hədisə yaxın mənanı ifadə edir: "Adəm inkar etdi və nəticə də nəsli də inkar etdi".[704]

Uca Allah da Qurani-Kərimdə Nuh və Lut peyğəmbərlərin (ə) zövcələrinin onlara xəyanət etdiklərini bildirir: ***"Allah kafirlərə Nuhun ilə Lutun zövcəsini misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və (Nuhla Lut) onları Allahdan (Allahın əzabından) heç vəchlə qurtara bilmədilər. Onlara: "Girin cəhənnəmə ikiniz də girənlərlə birlikdə!" -deyildi".***[705]

Şübhə yoxdur ki, burada xəyanət dedikdə məqsəd fahişəlik deyildir. Çünki peyğəmbərlərin həyat yoldaşları hətta cəhənnəm əhli olsalar belə, bu sifətdən uzaqdırlar.

Qurtubi öz təfsirində ***"Onlar ərlərinə xəyanət etdilər"*** ayəsi barədə yazır: "yəni din barədə xəyanət etdilər, yataqda deyil. Belə ki, onlar camaata ərlərinin dəli olduğunu söyləyirdilər. Zövcəsi Nuh peyğəmbərə demişdi: "Rəbbin sənə niyə yardım etməyəcəkmi?" Peyğəmbər də "Bəli, edəcək" deyə cavab vermişdi. Qadın bunun nə vaxt baş verəcəyini soruşduqda isə o, "Təndir qaynadığı zaman" demişdi. Qadın bu cavabdan sonra camaatın qarşısına çıxıb belə səslənmişdi: "Ey qövm, Allaha and

---

[704] "Fəthul-bari", 6/283.
[705] "ət-Təhrim" surəsi, ayə 10.

olsun ki, o, ağlını itirib. O, iddia edir ki, bu təndir qaynadığı vaxt Rəbbi ona yardım edəcək". Qadının bu sözləri xəyanət olaraq qəbul edilmişdir. Lutun zövcəsinin xəyanəti isə qövmünə evinə gələn qonaqlar barədə xəbər verməsi idi".[706]

Söylədiklərimizdən aydın olur ki, belə xəyanətlərin peyğəmbər və saleh şəxslərin həyat yoldaşları tərəfindən baş verməsində heç bir qəribəlik yoxdur.

Bunlardan əlavə, xəbərdə xəyanət Aişəyə nisbət verilmir, yalnız onun topladığı pulun xəyanətdən əldə edildiyi bildirilir. Xainin kim olduğu isə rəvayətdə qeyd edilmir.

Əgər rəvayətin səhih olduğunu fərz etsək, bəlkə də pul xəyanətində məqsəd Müaviyənin müsəlmanların beytül-malını istədiyi kimi və haqsız yerə paylamasıdır. Mümkündür ki, o, Möminlərin əmiri Əlinin (ə) düşmənləri arasında paylaması üçün Aişəyə müəyyən miqdar pul vermişdi. Doğrusunu Allah bilir!

Bu müəllifə insanın təəccübü bitmək bilmir! O, belə zəif və mənasını anlamadığı bir rəvayətlə şiələri gözdən salmağa çalışır, ancaq əhli-sünnə mənbələrindəki bir çox səhih və mötəbər hədisdə açıq şəkildə alçaltmalara göz yumur. Həmin hədislərdə Aişəyə çirkin işlər nisbət verilir. Məsələn zina ittihamı nisbət verirlər ki, bunun təfsilatı da "Böhtan"[707] hədisində qeyd olunur. Eləcə də Peyğəmbərin (s) onunla heyz halında olduğu zaman yaxınlıq etdiyini, [708] oruc ikən öpdüyünü və dililə toxunduğunu,[709] onunla bir qabın içində çimdiyini,[710] Aişənin spermanı Peyğəmbərin (s) libasından ovub çıxardığını,[711] bəzən Peyğəmbər (s) onunla məni xaric etmədən

---

[706] "əl-Camiə liəhkamil-Quran", 9/47.
[707] "Səhih", Buxari, 3/1490; "Sünən", Tirmizi, 5/332; "Müsnəd", Əhməd ibn Hənbəl, 6/59.
[708] Bu hədisi kitabımızın birinci cildində qeyd etmişik.
[709] Bu hədisi kitabımızın birinci cildində qeyd etmişik.
[710] "Səhih", Buxari, 1/102, 104, 106, 114, 120, 2/573, 4/1776; "Səhih", Müslim, 1/255-257; "Səhih", İbn Xüzeymə, 1/117, 119, 124; "Səhih", İbn Hibban, 3/395, 467, 468, 476, 4/74, 75; "Sünən", Tirmizi, 1/91, 4/233; "Sünən", Əbu Davud, 1/20, 62; "Sünən", Nəsai, 1/138, 139, 140-142, 220, 221, 222; "Sünən", İbn Macə, 1/133-134, 198; "Müsnəd", Şafei, səh.9.
[711] Bu hədisi kitabımızın birinci cildində qeyd etmişik.

yaxınlıq edib, sonra qüsl aldığını,[712] heyzli olarkən budunun üstünü açıb toxunduğunu, yanağını və sinəsini budunun üzərinə qoyub yatdığını[713] rəvayət edirlər.

Əbu Bəkr ibn Əbu Şeybə "əl-Müsənnəf"də Aişəyə istinadən onun bir cariyəni bəzəyib özü ilə gəzdirdiyini və belə dediyini nəql edir: "Bəlkə onun vasitəsilə Qüreyş gənclərini ovlaya bildik".[714]

Və qeyd edilməsi ədəbə sığmayan digər hədislər...

Sözümüzü bəzi şiə alimlərinin peyğəmbərlərin zövcələrinin fahişəlikdən uzaqlıqları barədə sözləri ilə bitirmək istəyirik.

Seyid Mürtəza "əl-Əmali"də Nuhun oğlunun həqiqətdə onun doğma oğlu olmadığını və zövcəsinin zinası nəticəsində dünyaya gəldiyini iddia edənlərin cavabında yazır: "Peyğəmbərlər (onlara Allahın salam və salavatı olsun!) belə iddialardan uzaq tutulmalıdır. Çünki belə iddialar onları bədnam edir, ləkələyir və qədir-qiymətdən salır. Uca Allah peyğəmbərlərinə əzəmət və vüqar bəxş edərək onları bu sifətlərdən uzaq tutmuş və insanları onlara nifrət edib uzaqlaşmalarına səbəb olacaq hər bir pislikdən pak saxlamışdır".[715]

Həmçinin Əllamə Təbatəbai də bu barədə deyir:

"Burada peyğəmbərlərə (ə) bədnamlıq və rəzillik nisbəti olduğu düşünülə bilməz. Onların möhtərəmliyi barədə Allahın kəlamı da bu düşüncəni dəf edir və onları bu kimi batil işlərdən pak tutur. Ayədəki məna aşkar və birbaşa deyildir. Həmin hekayədə yalnız ***"Ey Nuh! O sənin əhlindən deyildir"*** sözü keçir ki, bu da cürət edib iddia ortaya qoymaq üçün açıq mənalı deyildir. Nuhun zövcəsi barədə ***"Allah kafirlərə Nuhla Lutun zövcələrini misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər..."*** ("ət-

---

712 "Səhih", Müslim, 1/272; "Səhih", İbn Hibban, 3/451, 452, 456, 457; "Sünən", Tirmizi, 1/181; "Sünən", İbn Macə, 1-199; "əs-Sünənul-kubra", Nəsai, 1/108, 5/352; "Müsnəd", Əhməd, 6/68, 110, 161; "əs-Sünənul-kubra", Beyhəqi, 1/164; "Sünən", Darəqutni, 1/111, 112; "Müsnəd", Şafei, səh.160.
713 "Sünən", Əbu Davud, 1/70; "əs-Sünənul-kubra", Beyhəqi, 1/313; "əl-Ədəbul-müfrəd", səh.54; "Təfsir", İbn Kəsir, 1/259.
714 "əl-Müsənnəf", İbn Əbu Şeybə, 4/49.
715 "əl-Əmali", Seyid Mürtəza, 1/503.

Təhrim", 10) deyilir. Burada onların yalnız inkar etdikləri, ərlərinin düşmənlərini özlərinə dost tutduqları, sirlərini onlara söylədikləri və cürət verdikləri anlaşıla bilər".[716]

Şeyx Tusi "Tibyan" əsərində ***"Allah kafirlərə Nuhla Lutun zövcələrini misal çəkdi..."*** ayəsinin təfsiri barədə yazır:

"İbn Abbas deyir: "Nuhun həyat yoldaşı kafir idi. O, camaata Nuhun dəli olduğunu deyirdi. Lutun zövcəsi isə onun düşmənlərinə evdə qonaqları olduğunu söyləmişdi. Onların xəyanətləri bundan ibarət idi. Heç bir peyğəmbərin zövcəsi zina etməmişdir". Çünki bu baş verdiyi təqdirdə insanlar peyğəmbərə nifrət bəsləyər və ona çirkin işlər nisbət verərdilər. Kim peyğəmbərlərdən birinin həyat yoldaşına zinakarlığı nisbət versə, çox böyük bir xətaya yol vermişdir".[717]

* * *

**Müəllif iddia edir: "Mən soruşuram: Əgər üç xəlifə belə vəsflərə sahib idilərsə, bəs nə üçün Möminlərin əmiri (r.a) onlara beyət etmişdi? Bəs niyə xəlifəlikləri müddətində onlar üçün vəzirlik elədi? Onlardan qorxurdumu? Allaha sığınıram!"**

**Cavab:** Müəllifin təqdim etdiyi zəif rəvayətlərə göz yumsaq, deməliyik ki, Möminlərin əmiri Əli (ə) üç xəlifəyə könül xoşluğu, öz seçimi və razılığı ilə beyət etməmişdir. Buxarinin və Müslimin "Səhih"lərində nəql olunur ki, Möminlərin əmiri (ə) altı ay müddətində Əbu Bəkrə beyət etməkdən imtina etmişdir.

Onların Aişəyə istinadən öz "Səhih"lərində nəql etdikləri uzun hədisdə deyilir: "Peyğəmbərin qızı Fatimə (ə) Əbu Bəkrin yanına adam göndərib atasından qalan mirası, Mədinə və Fədəkdəki gəlirləri, Xeybərin xümsündən qalan payı istədi...".

Sonra deyir: "...Əbu Bəkr onlardan bir şeyi Fatiməyə verməkdən boyun qaçırdı. Fatimə də buna görə ona qəzəbləndi və ondan üz döndərərək ölənədək onunla danışmadı. O, Peyğəmbərdən (s) sonra altı ay yaşadı. Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi, Əbu Bəkrə bu barədə xəbər vermədi və cənazə namazı özü qaldı. Fatimə həyatda ikən Əlinin camaat arasında hörməti vardı. O vəfat etdikdə

---

[716] "əl-Mizanu fi təfsiril-Qur`an", 10/235.
[717] "ət-Tibyanu fi təfsiril-Qur`an", 10/52.

camaat Əlidən üz döndərdi. Nəticədə Əli Əbu Bəkrlə barışıb ona beyət etmək üçün yol axtardı. Həmin altı ay müddətində o (Əli (ə)) beyət etməmişdi...".[718]

Biz müəllifdən və onunla həmfikirlərdən soruşuruq: möminlərin əmiri Əli (ə) həmin müddət ərzində Əbu Bəkrə beyətdən nə üçün imtina etmişdi?

Əgər onu xəlifəliyə layiq və haqq sahibi olaraq görürdüsə, bəs nə üçün beyət etmirdi ki, bununla da dinin vaciblərindən birinə arxa çevirmiş olurdu?

Yoxsa həmin müddət ərzində onu xəlifəliyə layiq görmürdü? Əgər belə idisə, altı ayda nə baş verdi ki, onu xəlifəliyə layiq bildi?

Əgər Möminlərin əmiri (ə) Əbu Bəkrə beyət etmişdirsə, bu, camaatın küfrə və nifaqa geri dönməsinə, parçalanmasına imkan yaratmamaq üçün atılmış addım idi.

Onun bu məqsədlə beyət etməsi xəlifənin xilafətə layiqlinə və haqq sahibi olduğuna dəlalət edərmi?!

Yoxsa müəllif Möminlərin əmirinin (ə) yetərli yardımçısı olmadan xəlifəliyi tərk etməsini və onların üzərinə qılınc qaldırmamasını xəlifələrin xilafətə layiqli kimi qəbul edir?

Hər üç xəlifə qarşılarına çıxan çətin məsələlərin həlli üçün onunla məşvərət edir, hökm verməkdə aciz qaldıqları məsələləri dair onun hökm verməsini istəyir, verdiyi qərarı qəbul edir və icra edirdilər. Möminlərin əmiri (ə) isə onların verdikləri hökmlərə tabe olmur və fətvalarını qəbul etmirdi. İmam Əlinin (ə) İslam xatirinə nəsihət verməsini və onların da bu nəsihətləri qəbul etməsini müəllif üç xəlifənin xilafətinin qanuniliyinə dəlilmi görür?!

Bundan əlavə, Möminlərin əmiri Əli (ə) onlara qarşı mövqeyini "Şiqşiqiyyə" xütbəsində heç bir şübhəyə yer qoymadan aydın bəyan edir: "Allaha and olsun ki, Əbu Quhəfənin oğlu (Əbu Bəkr) mənim xəlifəlik üçün dəyirmanın orta qütbü kimi (elmdə və əməldə kamillik baxımından) olduğumu bildiyi halda xəlifəliyi köynək kimi əyninə geydi. Elm və maarif mənim feyz bulağımda sel tək çağlar, elm və bilik səmasında qanad çalanların heç biri mənim zirvəmə çata bilməz. Sonra xəlifəlik köynəyini soyunub, ondan kənara çəkildim. Öz işlərim barəsində fikirləşdim ki, əlsiz

[718] "Səhih", Buxari, 3/1286; "Səhih", Müslim, 3/1380; "Səhih", İbn Hibban, 11/153, 573.

(ordu və tərəfdarsız) hücum edim (öz haqqımı tələb edim), yoxsa qocaları həlak edən, gəncləri solduran və qocaldan, möminlərin (fəsadın aradan qalxması üçün) ölüncəyə qədər əziyyət çəkdiyi kor qaranlığa (xalqın azğınlığına) səbr edim. Səbr etməyin ağıllı iş olduğunu görüb, gözlərimi toz, çör-çöp, boğazımda sümük qalar halda səbr etdim. Mirasımın tarac olunduğunu görürdüm”.[719]

Bunları oxuyan şəxsin “Möminlərin əmiri (ə) onların xəlifəliklərindən razı idi və xilafətə layiq olduqlarına inanırdı” deməsi nə dərəcə düzgün sayıla bilər?!

* * *

**Müəllif iddia edir: “Əgər həqiqətən də Seyid Cəzairinin dediyi kimi, Ömərin arxa dəliyində bir xəstəliyi vardı ki, yalnız kişi sperması ilə sakitləşirdisə, bəs Möminlərin əmiri (r.a) öz qızı Ümmü Gülsümü onunla necə evləndirdi? Yoxsa Ömərin bu xəstəliyi Möminlərin əmirindən (r.a) gizli qalmışdı, ancaq Seyid Cəzairi bundan xəbərdar idi?!.. Bu mövzu həqiqətən də insanı bir az düşünməyə vadar edir”.**

**Cavab:** Əvvəldə Seyid Nemətullah Cəzairinin (ə) Ömər barədə həmin sözləri özünün söyləmədiyini, onun yalnız bəzi əhli-sünnə kitablarından bu sözü nəql etdiyini və şiə kitablarında belə bir sözün mövcud olmadığını bildirdik. Bu cəhətdən bütün etirazlar həmin əhli-sünnə müəlliflərinə edilməlidir.

Möminlərin əmiri Əlinin (ə) qızı Ümmü Gülsümü Ömərlə evləndirməsi məsələsinə gəldikdə, bu barədə əvvəlki bəhslərdə söhbət açmışıq, onları burada təkrarlamağa lüzum görmürük. Orada Ömərin arxa dəliyindən bir xəstəliyinin olub-olmadığına toxunmadan Möminlərin əmiri Əlinin (ə) qızının təhdid nəticəsində Ömərlə evləndirildiyini qeyd etmişik. Ömərin xəstəliyinin olub-olmadığı isə həmin məsələdə heç nəyi dəyişmir.

* * *

[719] “Nəhcul-bəlağə”, səh.32; “İləluş-şəraye”, 1/181; “Məanil-əxbar”, səh.361; “əl-İrşad”, Şeyx Müfid, səh.153; “əl-Cəməl”, Müfid, səh.92; “Əmali”, Tusi, səh.372; “əl-İhticac”, Təbərsi, 1/282; “Mənaqibu Ali Əbu Talib” İbn Şəhraşub, 2/232; “ət-Təraif”, İbn Tavus, səh.418.

**Müəllif iddia edir: "Kuleyni rəvayət edir: "Şiələrimizdən savayı bütün insanlar zinakar (və ya əxlaqsız qadınların dedi) qadınların övladlarıdır" ("ər-Rovzə", 8/135)".**

**Cavab:** Bu hədisin sənədi zəifdir. Raviləri sırasında Əli ibn Abbas vardır. O, Xürazini və ya Cürazinidir. Zəif ravidir.

Nəcaşi "Rical"ında yazır: "Əli ibn Abbas Xürazini ər-Razi – ğüluvv etməkdə ittiham olunub, pislənilib, olduqca zəif ravidir".[720]

İbn Ğəzairi deyir: "Əli ibn Abbas Cürazini Əbul-Həsən ər-Razi – məşhurdur, təriflənən və məzəmmət edilənlər sırasında rəvayətləri vardır, bu da onun xəbisliyinə və məzhəbinin təhlükəli olduğuna dəlalət edir, ona əhəmiyyət verilməz və rəvayətlərinə etina olunmaz".[721]

Həmçinin rəvayətin raviləri arasında Həsən ibn Əbdürrəhman vardır ki, tərcümeyi-hal kitablarında ona əhəmiyyət verilmir.

Buna əsasən, belə zəif rəvayəti dəlil kimi təqdim etmək düzgün deyildir.

Habelə On iki imam şiələrinin alimləri digər məzhəb mənsublarının, eləcə də kafirlərin nikahlarının düzgün olduğu qənaətindədirlər. Belə olduğu təqdirdə, onlar necə zinadan doğulmuş sayıla bilərlər?!

Seyid Mürtəza (r.ə) deyir:

"Nasibilərin, eləcə də şiəyə müxalif olanların nikahları düzgündür... Biz onların nikahlarını necə puç və batil saya bilərik ki, İmamlarımız (ə) və şeyxlərimiz onları öz atalarına nisbət vermiş və künyələri ilə çağırmışlar?! Biz atasının mənisindən dünyaya gələn bir kəsə necə zinakar qadının oğlu deyə bilərik? Yəni onların nikah əqdləri cariyələrin əqdi qədər də deyilmi? Biz cariyələri satın alır və bu satınalma səbəbindən onlara malik oluruq. Əgər müxaliflərin əqdləri düzgün deyilsə, o zaman satış, icarə, girov və s. əqdləri də düzgün sayılmamalıdır. Bu isə barəsində şübhə olmayan məsələdir".[722]

---

720 "Rical", Nəcaşi, 2/78.
721 "Rical", İbn Ğəzairi, səh.79.
722 "Rəsail", Seyid Mürtəza, 1/400.

Burada möhtərəm oxucunun diqqətini müəllifin öz adəti üzrə, nəql etdiyi hədisdə təhrifə yol verdiyinə çəkmək istəyirik. Hədisin əsl mətni belədir: "Şiələrimizdən savayı bütün insanlar pozğun qadınların övladlarıdır". Göründüyü kimi, mətndə "zinakar qadınlar" sözü yoxdur.

İkisi arasındakı fərq isə bundan ibarətdir ki, vələdüzzinalar zinakarlıq nəticəsində dünyaya gələn övladlardır. Ancaq qadının pozğun olması onun dünyaya gətirdiyi övladın zinadan dünyaya gəldiyinə dəlalət etməz. Belə ki, qadın pozğun olsa belə, dünyaya gətirdiyi övlad düzgün nikahdan da ola bilər.

Əgər hədisin səhih olduğunu fərz etsək, bəlkə də məqsəd pozğun kənizlərdir. Belə ki, pozğun kəlməsi günahkar olub-olmadığından asılı olmayaraq məhz kənizlər barədə istifadə edilir.

İbn Əsir "ən-Nihayə"də yazır: "Hərçənd pozğun kəlməsi adətən məzəmmət üçün istifadə edilsə də, məqsəd tənqid və məzəmmət olmadan, kənizə də "pozğun" deyilir".[723]

İbn Mənzur "Lisanul-ərəb"də yazır: "Əbu Übeyd deyir: "Pozğunlar – yəni kənizlər (cariyələr). Çünki onlar günah edirlər. Deyilir: "Onların başları üstə pozğunlar dayandılar" – yəni kənizlər. Ərəbcəsi "Bəğaya" olan bu kəlmənin təki "bəği"dir... Sonradan bu kəlmə dillərdə dolaşdı və ümumən qul və ya azad qadın olmasına baxmadan bütün günahkarlara nisbətdə də istifadə edildi".[724]

Əgər hədisi səhih saysaq, bəlkə də İmam (ə) anaları kəniz və ya günahkar qadınlar olan müəyyən bir dəstəni nəzərdə tutur və onlara nisbətdə şiələri istisna edir. Doğrusunu Allah bilir!

* * *

**Müəllif iddia edir: "Bu səbəbdən də əhli-sünnənin qanlarını və mallarını halal elan etmişlər. Davud ibn Fərqəd deyir: "Əbu Abdullaha (r.a) dedim: "Nasibinin öldürülməsi barədə fikriniz nədir?" Buyurdu: "Qanları halaldır, lakin mən sənin üçün qorxuram. Ancaq şahid olmadan onun üzərinə divarı**

[723] "ən-Nihayətu fi ğəribil-hədisi vəl-əsər", 1/144.
[724] "Lisanul-ərəb", 14/77.

**uçurda və ya onu suda boğa bilsən, bunu et" ("Vəsailuş-şiə", 18/463; "Biharul-ənvar", 27/231)".**

**Cavab:** Əvvəldə də qeyd etdiyimiz kimi, şiə alimləri əhli-sünnə mənsublarının nə qanlarını, nə də mallarını halal saymırlar. Müəllifin dəlil olaraq təqdim etdiyi hədis nasibidən bəhs edir. Nasibi – Əhli-Beytə (ə) qarşı aşkar surətdə düşmənçilik edən kəsdir. Hər sünni nasibi deyildir. Müəllifin dəlili iddiasına yaddır. Biz nasibi ilə əhli-sünnə mənsublarının fərqini əvvəldə müfəssəl qeyd etmişik. Burada həmin bəhsi təkrarlamağa lüzum görmürük.

* * *

**Müəllif iddia edir: "İmam Xomeyni buna haşiyə yazaraq deyir: "Əgər onların malını əlindən ala bilsən, götür və xümsünü bizə göndər".**

**Cavab:** Əvvəlki hekayələrində olduğu kimi, bu hekayəsi də istinadsız olduğu üçün heç bir dəyəri yoxdur və cavab verilməyə də layiq deyildir.

Biz əvvəldə demişik: Nasibi – Əhli-Beytə (ə) qarşı aşkar surətdə düşmənçilik edən kəsdir. Belə kəsin qanı və malı halaldır, onun heç bir hörməti və ehtiramı ola bilməz. Çünki o, qəti surətdə kafirdir. Lakin nasibi dedikdə əsla əhli-sünnə mənsubları nəzərdə tutulmur. Bunu əvvəldə izah etmişik. Əhli-Beytə (ə) aşkar ədavət bəsləyən şəxs kimliyindən asılı olmayaraq nasibidir.

* * *

**Müəllif iddia edir: "Seyid Nemətullah Cəzairi deyir: "ər-Rəşidin vəziri Əli ibn Yəqtin bir dəstə müxalifi həbsə atmışdı. Sonra xidmətçisinə həbsxananın damını onların üzərinə uçurmağı əmr etdi. Məhbusların hamısı orada öldülər. Onların sayı beş yüz nəfər idi" ("əl-Ənvarun-Numaniyyə", 2/308)".**

**Cavab:** Bu rəvayət mürsəldir, mötəbər və digər hədis kitablarında onun istinadla nəql edildiyinə rast gəlməmişik. Müəllif belə mürsəl bir xəbərlə şiələrə necə ittiham edə bilər?!

Bandan əlavə, müəllif öz adəti üzrə rəvayəti yenə də yarımçıq nəql edir. Xəbərin tam mətnində deyilir ki, İmam Musa ibn Cəfər (ə) Əli ibn Yəqtinə öldürdüyü hər şəxsə görə kəffarə olaraq bir keçi verməsini istəyir. Bu isə onun haram bir işə mürtəkib olduğuna dəlildir, əks təqdirdə ona kəffarə vacib olmazdı.

Müəllif deyəsən Əməvi və Abbasi xanədanının və digərlərinin əsrlər boyu nə qədər şiə öldürdüklərini unudur.

Məgər müəllif əməvi Əbul-Fərəc İsfahaninin “Məqatilut-Talibiyyin” kitabını oxumayıbmı?! Əbul-Fərəc İsfahani orada Əməvi və Abbasilərin şiələr bir kənara, ələvilərin özlərinə qarşı nə cinayətlər törətdiklərini qeyd edir.

Biz hələ əhli-sünnə hakimlərinin tarix boyu heç bir günah və cinayəti olmayan nə qədər şiə qətlə yetirdiklərini qeyd etmək üçün tarixdə axtarış aparmağa ehtiyac duymuruq. Müaviyə, Ziyad ibn Əbih, Həccac, Əməvi və Abbasi xəlifələrindən başlayaraq ta hazırkı zamanadək İraqda, Əfqanıstanda, Suriyada, Pakistanda nə qədər şiənin qətlə yetirildiyi müəllifə, eləcə də digər şəxslərə əsla gizli deyildir.

* * *

**Müəllif iddia edir: “Tarix kitabları Hülakilərin Bağdada daxil olduqlarında orada nələr etdiklərini bizə danışır. Onlar tarixin gördüyü ən böyük qırğınları törətdilər. Həmin əhli-sünnə qətliamlarından Dəclə çayı qırmızı rəngə boyanmışdı. Belə ki, Dəcləyə axan qan çayları onun rəngini dəyişmişdi. Başqa bir dəfə də göy rəngə boyanmışdı. Buna səbəb isə çaya atılan kitablar idi. Onların bu cinayətlərinin səbəbkarı isə iki vəzir – Qasir (!) ət-Tusi və Muhəmməd ibn Əlqəmi idi. Onlar Abbasi xəlifəsinin vəzirləri və şiə idilər. Onlar Hülaki hökmdarları ilə məktublaşır, onları Bağdada daxil olmağa və Abbasi xilafətini süquta yetirməyə təşviq edirdilər. Bu vəzirlərin əli hakimiyyətdə hər yerə çatırdı. Lakin onlar bu xilafətdən razı deyildilər. Səbəb isə xilafətin sünni məzhəbli olması idi. Nəticədə Hülakilər Bağdada daxil oldular, Abbasi xilafəti süqut etdi. Hülakilərin bütpərəst olmalarına baxmayaraq bu iki vəzir onların vəziri oldular”.**

**Cavab:** Müəllif nəql etdiyi bu məlumatların mənbəyini də göstərməli idi ki, səhih sənədə etimad edib-etmədiyi bilinsin, vəzirlər Nəsirəddin Tusinin və Muhəmməd ibn Əlqəminin Hülakiləri Bağdada dəvət etmələri barədə ittihamının nə dərəcə doğru olduğu aydınlaşsın. Ancaq elmi bəhslərdə şiə düşmənlərinin uydurduğu, heç bir təhqiqat və araşdırma aparılmadan, sübuta yetirilmədən hansısa “dəlillərə” əsaslanmaq qəbuledilən deyildir.

Məlumdur ki, Abbasi xilafətinin son dövrlərində xilafətin idarəçiliyi türklərin, məmlüklərin və qadınların əlində idi. Abbasi xəlifəsinin isə sadəcə adı vardı və heç bir nüfuzu qalmamışdı.

Belə ki, xəlifələr həyasızlıq, şərabxorluq, cah-calal və digər dünya ehtiraslarına aludə olmuşdular və bu da Abbasi dövlətinin həqiqi süqutunun başlıca səbəbi idi. Süqutun səbəbi heç də müəllifin iddia etdiyi kimi, Muhəmməd ibn Əlqəminin məktublaşması və onun bu əməlində keçmiş və gələcəkdəki bütün şiələri müqəssir bilməsi deyildi.

Zəhəbi yazır ki, Müəyyiddin ibn Əlqəmi monqol-tatarların əlilə sünni, şiə, yəhudi və xristianlardan intiqam almaq istəyirdi. O, "Siyəru ə`lamin-nübəla" kitabında yazır:

"Əbu Bəkr ibn Müstə`sim və onun Kiçik katibi sünnilərlə əlbir olub Kərxi qarət etdilər. Oradakı şiələr böyük bəlaya düçar oldular. Müəyyiddin bu səbəbdən tatarların əlilə sünnilərə qarşı inqilab etməyə qərar verdi. Nəinki, o, həmçinin şiələrdən, yəhudi və xristianlardan da intiqam almaq istəyirdi".[725]

Bununla bərabər, bəzi əhli-sünnə tarixçilərinin qeydlərinə əsasən, İbn Əlqəminin zamanı hicri 685-ci ildə vəfat etmiş və Bağdadın süqutunun şahidi olmuş İbn İbri ilə fərqlilik təşkil edir.

"Tarixu müxtəsər əd-duvəl" kitabında yazır: "Hülakilər həmin qalanı (İsmaililərin qalasını) fəth etdikdə xəlifənin yanına bir elçi göndərdi və yardım göndərməkdə səhlənkarlığına görə onu danladı. Vəzirlə (İbn Əlqəmi ilə) nə etməli olduqları barədə məşvərət etdilər. O dedi: "Bu qəddar hakimə və onun əyanlarına pul, hədiyyə və töhfələr göndərib razı salmaqdan savayı yol yoxdur". Onlar göndəriləcək hədiyyələri toplayarkən Kiçik katib və onun yoldaşları dedilər: "Vəzir tatarlar yanında öz yerini yaxşı etməyə çalışır və məqsədi bizi onlara təslim etməkdir. Buna imkan verməyin!" Bu səbəbdən xəlifə hədiyyələrin göndərilməsi qərarını ləğv etdi, az və dəyərsiz bir şeylər göndərməklə kifayətləndi. Hülakilər bundan qəzəbləndilər və dedilər: "Onun özünün buraya gəlməsi, yaxud bu üç nəfərdən birini əsir olaraq bizə göndərməsi vacibdir: ya vəzirini, ya katibini, ya da Süleyman şahı". Lakin qoyulan

---

[725] "Siyəru ə`lamin-nübəla", 23/362.

müddət başa çatdıqdan sonra xəlifə onların yanına getdi, ancaq buna əhəmiyyət vermədilər... digərlərinin də getməsi heç nəyi dəyişmədi”.[726]

Görünən odur ki, xəlifənin İbn Əlqəminin fikrinə qarşı çıxması xəlifənin oğlunun və Kiçik katibin ona olan həsədinin və fərqli məzhəbə bağlılıqları səbəbindən idi. Səbəb heç də İbn Əlqəminin Hülakilərlə yazışması və onları Bağdada hücum etməyə təşviq ittihamları deyildi.

ər-Riyad Universitetinin Tarix fakültəsi rəhbərinin müavini dr.Səd ibn Muhəmməd Hüzeyfə əl-Ğamidi özünün “Abbasi dövlətinin süqutu” kitabında yazır: “Həmin ittihamları vəzirin rəqibləri uydurmuşdular, onların başında isə kiçik katiblik gəlirdi. Bu ittihamları vəzirin adına bağladılar... əhli-sünnədən olan müsəlmanları da qarayaxma məqsədilə bu böhtanı öz kitablarında paylaşmağa səslədilər. İllər ötdükcə bu ittiham sanki inkarolunmaz bir həqiqətə və fakta çevrildi”.[727]

Qeyd edilməlidir ki, müəllif İbn Əlqəmiyə qarşı ittihamları üçün bir dənə də olsun tarixi mənbə göstərmir. Göstərə də bilməz. Çünki sonradan uydurulan bu ittihamlar tarix kitablarında deyil, əhli-sünnə müəlliflərin sonradan qələmə aldıqları kitablarda istinad edilmədən yazılmışdır. Burada məqsəd isə şiə olan İbn Əlqəmini xəyanətdə ittiham etmək və onun bu əməlini şiələri bədnam etmək üçün vasitəyə çevirmək idi.

Əgər iddia edildiyi kimi, əgər İbn Əlqəmi həqiqətən də Hülakilərlə məktublaşırdısa, Bağdadın süqutundan sonra onların yanında müəyyən ehtiramının olması təbii haldır. Hərçənd İbn Əlqəminin Bağdadın süqutundan üç ay sonra öldüyünü qeyd edirlər. Onun qardaşı da özündən bir neçə gün öncə, oğlu Muhəmməd isə bir neçə gün sonra vəfat edirlər.[728]

Həmçinin İbn Əlqəminin Hülakilərlə məktublaşaraq şiələrin toxunulmazlığı barədə bir əhd almadan onları Bağdada daxil olub əhli-sünnəyə qarşı savaşa dəvət etməsi də ağlabatan fikir deyil. Çünki biz heç bir sünni tarixçinin (hətta ən

---

[726] “Tarixu müxtəsər əd-duvəl”, səh.269.

[727] “Suqutu dovlətil-Abbasiyyə”, səh.343.

[728] “Siyəru ə`lamin-nübəla”, 23/362.

insafsızlarının belə) İbn Əlqəminin Hülakilərlə bu barədə razılıq əldə etdiyi və qətlə yetirilənlər arasında şiələrin olmadığı barədə bir qeydə belə rast gəlmirik.

Dr. Səd əl-Ğamidi yazır: “Monqollar Bağdadı ələ keçirərkən və qətliam edərkən müsəlmanlar arasında sünni və şiə fərqi qoymadan qırğın törətdilər. Həmçinin Bağdad sakinlərindən olan şiələrdə sünnilər kimi amansız, qəddar hücumlara və ağır əzablara məruz qaldılar. Monqollar həya etmədən və sünni-şiə fərqi qoymadan iyrənc işlərə əl atır, qətllər və qarətlər törədir, qənimətlər toplayırdılar”.[729]

Bəs Abbasi xilafətinin qoşunları, ordu sərkərdələri və dövlət rəhbərliyi harada idi? İbn Əlqəmi bütün bunların ağıllarına necə müdaxilə edə bildi? Bəs nə üçün Hülakilər Bağdada heç bir müqavimətə rast gəlmədən daxil oldular?

Bütün bunlar İbn Əlqəminin barəsində söylənilən ittiham və iftiralardan uzaq olduğunu, Abbasi xilafətinin süqutuna məhz xəlifələrin başının cah-calal və eyş-işrətə qarışmasının, hakimiyyətin faktiki olaraq türklərin, məmlükilərin, qadınların və xidmətçilərin sərəncamında qalmasının səbəb olduğunu göstərir.

Dr. Səd əl-Ğamidi yazır: “Doğru olduğunu düşündüyümüz budur: Başda Cüzcani olmaqla İbn Əlqəmini ittiham edən tarixçilərin sünni olduğunu görürük. Onlar təəssübkeşliklərindən dolayı məzhəblərini müdafiə etmək naminə bütün ittihamları İbn Əlqəmiyə yönəldiblər, bunu da onlara şiə vəzirə qarşı gizlətdikləri düşmənçilik və nifrət hissləri vadar etmişdir. Ona görə də bu rəvayətlərlə qarşılaşan şəxs onları qəti şəkildə inkar etməsə də, şəkk içində qalır. Ancaq tarixçilərin bu hadisələrlə bağlı fikirləri isə heç bir dəqiq elmi əsasa söykənmir”.[730]

Nəsirəddin Tusiyə (r.ə) gəldikdə, kiminsə onu İbn Əlqəmi kimi, xəyanətdə ittiham etdiyini, tatarları Bağdada girməyə təşviq etdiyini görməmişik. Bunun müəllifin ağlına haradan gəldiyini bilmirik!

Bəli, İbn Kəsir onun Hülakilərlə birlikdə olduğunu yazır, lakin Bağdadın süqutu ilə bağlı hər hansı bir hadisəni qeyd etmir. Orada yazır: “Nəsirəddin Tusi Muhəmməd ibn Abdullah Tusidir. Ona Mövla Nəsirəddin Tusi deyilirdi. Həmçinin Xacə Nəsirəddin də deyilib. Gəncliyindən elmlə məşğul olub və ilkin elmləri gözəl şəkildə

---

[729] “Suqutu dovlətil-Abbasiyyə”, səh.345.
[730] “Suqutu dovlətil-Abbasiyyə”, səh.341.

əxz edib, kəlam elmi barədə kitab, həmçinin İbn Sinanın "İşarat" kitabına şərh yazıb, İsmaililərin Əlmut qalasında vəzirlik edib. Sonra Hülakilərin vəziri olub, Bağdad vaqeəsində onlarla olub. Camaatdan bəziləri xəlifənin öldürülməsini Hülaki xana onun işarə verdiyini söyləyirlər. Doğrusunu Allah bilir. Mənim nəzərimə görə, belə bir hərəkətə ağıl və fəzilət sahibi yol verməz. Bəzi bağdadlılar onun adını xoşluq və təriflərlə yad edirlər. Deyir: "Aqil, fəzilətli və gözəl əxlaqa sahib şəxs olub".[731]

* * *

**Müəllif iddia edir: "Buna görə də İmam Xomeyni Əli ibn Yəqtin, Tusi və Əlqəmidən razılıq edir, onların etdiklərini İslam dini qarşısında ən böyük xidmətlərdən sayır".**

**Cavab:** Müəllifin İmam Xomeyniyə istinad etdiyi bu sözlər də digərləri kimi heç bir dəyəri olmayan boş iddialardır. Təsəvvür etmək olmur ki, beş yüz nəfər məhbusun üzərinə damın uçurularaq qətlə yetirilməsini və Bağdadın monqol tatarları tərəfindən süquta uğradılmasını İmam Xomeyni necə İslama ən böyük xidmət hesab edə bilər?!

Bağdadın süqutu hadisəsində Nəsirəddin Tusinin heç bir rolunun olmadığı sübuta yetdiyi halda, ona qarşı atılan böhtanları necə İslama ən böyük xidmət saymaq olar?!

* * *

**Müəllif iddia edir: "Bu fəsli mövzunu cəmləyəcək sözlərlə yekunlaşdırmaq istəyirəm. Həmin sözlər Seyid Nemətullah Cəzairinin nasibilərin (əhli-sünnənin) hökmü ilə bağlıdır. Deyir: "Onlar şiə alimlərinin icmasına** (yekdil rəyinə) **əsasən, kafir və nəcisdirlər, yəhudi və xristianlardan pisdirlər. Nasibilərin əlamətləri imamətdə hər kəsi Əlidən üstün bilmələridir" ("əl-Ənvarun-Numaniyyə", 2/206, 207)".**

**Cavab:** Əvvəldə qeyd etdik ki, nasibilər Əhli-Beytə (ə) qarşı aşkar surətdə düşmənçilik edən və onlara nifrət bəsləyən kəslərdir, müəllifin ciddi-cəhdlərinə baxmayaraq əhli-sünnə nasibilərə aid edilmir.

---

[731] "əl-Bidayətu vən-nihayə", 13/283.

Bununla bərabər, müəllif Seyid Nemətullah Cəzairinin (r.ə) sözlərini əhəmiyyətli dərəcədə təhrif edib və bütünlüklə ixtilaflı formaya salıb.

Seyid Cəzairinin (r.ə) nasibilərlə bağlı fikirlərinin tam mətnini sizə təqdim edirik:

“Nasibinin halı və hökmləri iki məsələnin bəyanı ilə tamamlanır:

Birinci: Rəvayətlərdə nəcis sayılan, yəhudi, xristian və məcusidən də pis hesab edilən “nasibi” mənası. Şiə alimlərinin icmasına əsasən, nasibi kafir və nəcisdir. Əksər alimlərimizin fikri budur ki, nasibi – Muhəmmədin (s) Əhli-Beytinə (ə) qarşı ədavət bəsləyən, onlara qarşı açıq surətdə nifrətini bildirən kəsdir. Necə ki, belələrinə xəvariclərin və Mavəraunəhrdə yaşayanlar arasında rast gəlinirdi. Bu mənada olan nasibilər barədə alimlərimiz təharət, nəcasət, küfr, iman, nikah kimi fəsillərdə müvafiq hökmlər qeyd ediblər...”.

Ta ki deyir: “...Peyğəmbərdən (s) nəql olunur ki, nasibiliyin əlaməti başqasını Əlidən üstün tutmaqdır. Bu, xüsusi deyil, ümumi-xüsusi mənadır. Bunu həmçinin birinci qismə də aid etmək olar ki, bu zaman məqsəd etiqad baxımdan başqalarını ondan öndə tutmaq mənası olacaq, müqəllid və müstəzəfələr bu hökmdən kənarda tutulacaq. Belə ki, onların başqalarını Əlidən (ə) üstün tutmalarının səbəbi alimlərinin, atalarının və sələflərinin əməllərinə təqlid etmələridir”.[732]

Seyidin (r.ə) sözləri aydındır. O, nasibinin Əhli-Beytə (ə) qarşı aşkar surətdə düşmənçilik edən və onlara nifrət bəsləyən şəxslər olduğunu aydın tərzdə bəyan edir, onları çevrəsini xəvaric və Mavəraunəhrdə yaşayan bir qisim camaatla məhdudlaşdırır, bunu bütün şiə alimlərinin nəzəri olduğunu bildirir. Sonra isə nasibinin başqalarını Əlidən (ə) üstün tutan şəxslər olduğunu bildirən rəvayəti qeyd edir. Ancaq həmin rəvayətin düzgünlüyünü təsdiqləmir və ona etimad göstərmir. Sadəcə nasibiliyin əqidə cəhətdən ortaya çıxa bildiyini ehtimal edir, əhli-sünnənin əksəriyyətinin öz alimlərinə təqlid etdiklərini vurğulayır, hətta rəvayət səhih olsa belə, onlara nasibi deyilə bilməyəcəyini deyir.

* * *

---

[732] “əl-Ənvarun-Numaniyyə”, 2/306-307.

**Müəllif iddia edir: "Beləliklə görürük ki, şiələrin əhli-sünnə haqqında hökmləri xülasə olaraq bunlardan ibarətdir: kafirdirlər, nəcisdirlər, yəhudi və xristianlardan daha pisdirlər, pozğun qadınların övladlarıdır, öldürülmələri və mallarının əllərindən alınması vacibdir, onlarla heç bir şeydə, hətta Rəbb, peyğəmbər, imam mövzusunda, söz və əməldə yekdil olmaq mümkün və icazəli deyil. Onları lənətləmək və söymək lazımdır. Xüsusilə də Allahın Quranda təriflədiyi, Peyğəmbərlə bir cərgədə dayanıb savaşdıqları ilk nəsillərini. Əks halda, Allaha xatir mənə deyin, Peyğəmbərin yanında dayananlar, kafirlərə qarşı onunla birlikdə döyüşənlər kimlər idi?! Onların bu savaşlarda iştirakı imanlarının və savaşlarının düzgünlüyünə dəlildir. Bu məsələdə fəqihlərimizin sözlərinə əhəmiyyət verilməz".**

**Cavab:** Müəllifin şiəyə nisbət verdiklərinin və irəli sürdüyü ittihamların boş və uydurma olduğunu əvvəlki bəhslərimizdə izah etdik. Belə ki, o, ya zəif rəvayətlərə istinad etmiş, yaxud onları yanlış mənalara yozmuş və ya şiə alimlərinin sözlərini təhrif edərək zidd mənalarla nəql etmişdir.

İzahlarımızdan aydın olmuşdur ki, müəllif şiələrin bütün əhli-sünnə mənsublarını nasibi hesab etdiyini, onlara nasibi hökmü qoyaraq kafir və nəcis olduqlarını, onlarla evlənməyin icazəli olmadığını güman edir. Bunlar yanlış və puç ittihamlardır, Allaha həmd olsun ki, onun bütün iddialarına dolğun və aydın tərzdə cavab verdik.

* * *

**Müəllif iddia edir: "İslam inqilabı nəticəsində Pəhləvilər ailəsinin İranda hakimiyyəti sona çatdıqda və İmam Xomeyni ölkənin idarəçiliyini əlinə keçirdikdə şiə alimləri onu bu böyük qələbə və müasir dövrdən fəqihin idarə etdiyi ilk şiə dövlətinin qurulması münasibətilə ziyarət və təbrik etməli idilər.**

**Bu vacib vəzifə İmam Xomeyni ilə sıx əlaqələrimə görə digərlərinə nisbətdə şəxsən mənim üzərimə daha çox düşürdü. Mən İmam Xomeyni Parisdən Tehrana qayıtdıqdan 1 ay yarım, bəlkə də ondan bir az artıq müddət keçdikdən sonra İrana getdim. O, məni görüb çox sevindi. Bu ziyarətim İraq alimlərinin ziyarəti çərçivəsində deyildi, fərdi xarakter daşıyırdı".**

**Cavab:** Bu hekayənin yalan və puç olduğu gün kimi aydındır. Belə ki, İmam Xomeyni Parisdən İrana qayıtdıqdan sonra Tehranda yaşamadı, 1 ildən artıq müddət Qumda məskunlaşdı, bundan sonra Tehrana köçdü.

Müəllifin onun Tehranda ziyarətinə getdiyini iddia etdiyi dövrlərdə İmam Xomeyni məhz Qumda yaşayırdı.

Həmçinin müəllif iddia edir ki, onun səfəri İraq alimlərinin səfəri çərçivəsində deyildi, fərdi xarakter daşıyırdı. Halbuki İraq alimlərinin İmam Xomeynini İranda ziyarət etmək üçün heç bir heyət hazırlamadıqlarını və İrana belə bir heyətlə gəlmədiklərini hamı gözəl bilir.

Müəllifin nə üçün alim və mərcələrlə təkbətək birlikdə olduğunu belə israrla iddia etməsini anlamaq olmur!

* * *

**Müəllif iddia edir: "İmamla təkbətək görüşümdə mənə dedi: "Seyid Hüseyn, İmamların (ə) vəsiyyətlərini icra etmək zamanıdır. Nasibilərin qanlarını axıtmaq, övladlarını öldürmək, qadınlarını saxlamaq və heç birini cəzasız buraxmamaq lazımdır. Onların mal-dövlətləri yalnız Əhli-Beyt (ə) tərəfdarlarına verilməlidir. Biz Məkkə və Mədinəni yer üzündən silməliyik. Çünki həmin yerlər vəhhabilərin yuvasına çevrilib. Allahın mübarək məkanı Kərbəla isə insanların namaz qılarkən üz tutacaqları qibləyə çevrilməlidir... Biz bunları etməklə İmamların (ə) arzusunu həyata keçirmiş olacağıq. Uğrunda mübarizə apardığımız bu dövlət həmin məqsədləri həyata keçirmək üçün qurulub. İndi isə yalnız icra etmək qalır!"**

**Cavab:** Bu hekayənin də yalan, uydurma, batil və puç olduğu aydındır. Belə bir uydurma iddia nə etina olunmağa və nə də cavab verilməyə layiq deyildir. Çünki belə bir məzmun əsla müsəlman şəxs tərəfindən ifadə edilə bilməz. Həmçinin bu sözlər İmam Xomeyninin öz kitabında yazdıqlarına da müxalifdir.

Bu hekayənin batilliyinin başqa bir dəlili isə İran İslam ölkəsinin mövcud olduğu bu illər ərzində həmin hadisələrdən heç birinin baş vermədiyidir. Əgər hakimiyyətin kursu bu yöndə idisə, ən azından planlarından biri gerçəkləşərdi. Xüsusilə də İranın daxilində nəzərdə tutulanların qarşısını alacaq heç bir maneə yox idi.

Bu uydurma və xürafi planların həyata keçməsinin qarşısını alan səbəblər barədə suala müəllifin nə cavab verəcəyi maraqlıdır!

* * *

**Müəllif iddia edir: "Qeyd:**

**Şiələrin əhli-sünnəyə qarşı nifrətləri bənzərsiz bir nifrətdir. Bu səbəbdəndir ki, fəqihlərimiz əhli-sünnəyə yalan danışmağı, onlara qarşı yalan ittihamlar irəli sürməyi, iftira atmağı və rəzil sifətlərlə vəsf etməyi icazəli biliblər".**

**Cavab:** Bunlar aşkar yalanlardır. Müəllif əhli-sünnəyə yalan danışmağın, onlara qarşı yalan ittihamlar irəli sürməyin və iftiralar atmağın icazəli olduğuna dair bir fəqihin belə fətvasını nümunə olaraq göstərmir və heç bir mənbəyə istinad etməyib, yalnız zəif və mənası aydın olmayan rəvayətləri dəlil göstərməyə cəhd edib. Fəqihlərə nisbət verdiyi bu yalanlarına bir dənə də olsa, alimin fətvasını misal göstərə bilmirmi?!

Alimlərimiz kitablarında yalanın ümumiyyətlə haram olduğunu bildirir, istisna yerlərini də qeyd edirlər. Yalanın icazəli olduğu iki yer vardır ki, o da bunlardır: canına və ya malına təhlükə qorxusu olduqda; iki mömінin arasındakı pis münasibətləri düzəltmək məqsədi olduqda.

Seyid Həkim, Seyid Xoyi, Seyid Muhəmməd Ruhani, Seyid Əbdül-əla Səbzəvari, Mirzə Cavab Təbrizi (Allah ruhlarını şad eləsin!) Seyid Əli Sistani, Şeyx Muhəmməd İshaq Fəyyaz (Allah kölgələrini üzərimizdə baqi eləsin!) özlərinin "Minhacus-salihin" kitablarında yazırlar:

"Yalan danışmaq haramdır. Yalan – olmayan və baş verməyən bir hadisəni xəbər verməkdir. Onun haramlığında zarafatyana və ciddi olması arasında fərq yoxdur... Özünə və ya bir möminə üz verə biləcək zərəri dəf etmək üçün yalan söyləmək, hətta həmin anda yalandan and içmək də icazəlidir. Həmçinin iki mömінin arasında sülh yaratmaq və onları barışdırmaq üçün yalan söyləmək icazəlidir. Ehtiyat budur ki, yalnız tövriyə etmək imkanı olmadıqda belə bir yalan söylənilsin".[733]

---

[733] "Minhacus-salihin", Seyid Həkim, 2/15; "Minhacus-salihin", Seyid Xoyi, 2/10; "Minhacus-salihin", Ruhani, 2/10; "Minhacus-salihin", Səbzəvari, 2/10; "Minhacus-

Şiə alimlərinin fətvaları bunlardır. Əgər mövzunun uzanmasından çəkinməsəydik bu fətvaların siyahısını uzada da bilərdik. Ancaq müxtəsər qeyd etdiklərimizlə də müəllifin uydurma iftiralarının puçluğu məlum olur.

* * *

**Müəllif iddia edir: "Alimlərini fətvalarına əsaslanan şiələr ona görə də əhli-sünnə mənsublarına nifrətlə baxırlar. Alimlər şiələrin dövlət orqan və təşkilatlarına, xüsusilə ordu, kəşfiyyat və s. mühüm vəzifələrinə nüfuz etməyi buyururlar".**

**Cavab:** Bəs müəllifin iddia etdiyi həmin fətva və buyruqlar haradadır, kim tərəfindən və nə vaxt verilib?!

Şübhə yoxdur ki, əgər alimlərin şiələrə belə göstərişlərinin dəlili olsaydı, əsla gizli qalmaz və hər kəsə məlum olardı. Xüsusilə də müəllifə - özünün iddia etdiyi kimi, elmi hövzədə məqam sahibi bir kəsə. Belə göstərişlərdən heç olmazsa, birinin nüsxəsi onda olmalı idi. Ancaq müəllif öz adəti üzrə bu dəfə də istinadsız ittihamlar səsləndirir və belə iddiaları ilə şiələrə böhtanlar atır, oxucunu aldatmağa çalışır.

Halbuki alimlərimizin fətvalarına əsasən, iş özü-özlüyündə haram olduqda (casusluq, xərac toplamaq, insanları cəzalandırmaq, həbsdə saxlamaq, əmlaklarını müsadirə etmək və s. bu kimi işlər üçün) zalım hökumətlərin tərkibinə daxil olmaq və onlar üçün işləmək icazəli deyildir. Zərurət və təqiyyə səbəbilə olmadan heç bir halda Allahın haramına əl uzatmaq və ya vacibini tərk etmək olmaz.

Şeyx Muhəmməd Rza Müzəffər (q.s) "Əqaidul-imamiyyə" kitabında "Zalım dövlətdə vəzifələrimizə dair etiqadımız" fəslində yazır: "Əgər İmamlar (ə) zalımlara bir xurma çəyirdəyi qədər də olsa, yardım etməkdən, hətta onların salamatlığını diləməkdən öz tərəfdarlarını belə çəkindirirlərsə, onlarla birlikdə hakimiyyətdə təmsil olunanların, vəzifələrini qəbul edənlərin və sərəncamlarında fəaliyyət göstərənlərin, onların dövlətinin formalaşmasında iştirak edənlərin, səltənətlərinin dayağına çevrilənlərin halı necə olar?! "Zorakı şəxsin hakimiyyəti bütün haqqın aradan

---

salihin", Sistani, 2/15; "Minhacus-salihin", Təbrizi, 2/14; "Minhacus-salihin", Şeyx Fəyyaz, 2/114.

getməsinə, batilin dirçəlməsinə, zülm, zorakılıq və fəsadın yayılmasına rəvac verəcək”. Bu sözlər “Tuhəful-uqul” kitabında İmam Sadiqdən (ə) nəql olunub”.[734]

Bu barədə Seyid Xoiyə (q.s) də sual ünvanlanıb. Sorğunun məzmunu belədir:

“Bəziləri şəriət qanuna müxalif olsa belə, nizam qanunlarına itaət etmək vacibdirmi?

Cavab: Şəriətə müxalif olarsa, özlüyündə itaət olunması icazəli deyildir”.[735]

Ona ünvanlanan başqa bir sual isə belədir: “(Qeyri-islami dövlətdə) yerli camaatdan xüsusi istiqamətlərdə müəyyən xidmətlər müqabilində rüsumlar toplamaq qanunidirmi? Əgər cavab mənfidirsə, o zaman bunun icazəli olmadığını bildikləri halda həmin rüsumların birbaşa və ya dolayı yolla toplanmasında iştirak edən və bundan yayına bilməyən işçilərin vəzifəsi nədir?”

Cavab: Belə bir işdə çalışmaq icazəli deyildir. Doğrusunu Allah bilir”.[736]

Həmçinin Mirzə Cavad Təbrizidən (q.s) bu barədə sorğu olunmuşdur:

“Mömin bir şəxsin qərarların səs çoxluğu ilə qəbul etdiyini bildiyi halda qanunverici məclis və orqanlarda işləməsi, ölkənin qanunlarının tərtib edilməsində iştirak etməsi icazəlidirmi? Mömin şəxs qəti bilir ki, səs çoxluğu ilə qəbul edilən qanunlar qeyri-islamidir. Ürfün nəzərində isə həmin şəxs əleyhinə səs vermiş olsa belə, öz-özlüyündə həmin qanunu təsdiqləmiş olur. Çünki o, həmin məclis və orqanlara daxil olduqda onların qaydalarına əsasən, səs çoxluğunun üstünlük təşkil edəcəyini bilir.

Cavab: Bu, yalnız digərlərilə rəqabət aparması mümkün olduqda icazəlidir ki, bu zaman onun qanunverici orqana daxil olmasının haramlığından daha üstün mühüm bir vəzifə olmalıdır. Doğrusunu Allah bilir”.[737]

Xülasə, şiələrin keçmiş və müasir alimlərinin fətvalarına nəzər salan şəxs zalım hakimlərin hökumətlərində təmsil olunmaqla onlara yardım etməyin, həmçinin şəriətə əsasən, harama düçar olacağı təqdirdə vəzifə tutmağın icazəli olmadığını görəcək.

---

[734] “Əqaidul-imamiyyə”, səh.157.
[735] “Siratun-nicat”, 1/436.
[736] “Siratun-nicat”, 1/433.
[737] “Siratun-nicat”, 3/411.

Buradan aydın olur ki, müəllifin **“Alimlər şiələrin dövlət orqan və təşkilatlarına, xüsusilə ordu, kəşfiyyat və s. mühüm vəzifələrinə nüfuz etməyi buyururlar”** iddiası əsla həqiqəti əks etdirmir. Əgər onlar vergi belə toplamağa icazə vermirlərsə, casusluq və ya camaata zülm verməkdə iştirak kimi digər vəzifələrdə işləməyə necə təşviq edə bilərlər?!

* * *

**Müəllif iddia edir: “Hamı səbirsizliklə əhli-sünnəyə qarşı cihad elan ediləcəyi anı gözləyir. Belə ki, sadə şiələr bununla Əhli-Beytə (ə) xidmət göstərəcəklərini zənn edirlər. Ancaq unudurlar ki, onları bu işə pərdə arxasında gizlənmiş şəxslər təşviq edirlər. Bu şəxslər barədə isə bir növbəti fəsildə söhbət açacağıq”.**

**Cavab:** Bu da həmçinin müəllifin ciddi-cəhdlə heç bir dəlil olmadan şiələrə yapışdırmaq istədiyi batil və yalan ittihamlardan biridir. Ona görə də hər hansı bir inanılan şiə mənbəyinə istinad etmir, mücərrəd ittiham və açıq-aydın böhtandır.

Şiələrin Əhli-Beytə (ə) göstərdikləri xidmət heç də müəllifin iddia etdiyi kimi, əhli-sünnəyə qarşı hücum və onların qətli deyildir. Əhli-Beytə (ə) xidmət hikmət və gözəl moizə ilə insanları onların yoluna dəvət etmək, xoş rəftar göstərmək, gözəl əxlaq nümayiş etdirməkdir ki, Əhli-Beyt imamları (ə) öz şiələrini məhz buna təşviq etmişlər.

Əbu Üsamənin səhih hədisində deyilir: “Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: “Allaha təqvalı və dininizdə pəhrizkar olun, Allah uğrunda səy göstərin, doğru danışın, əmanəti xeyirxah sahiblərinə qaytarın, gözəl əxlaqlı olun, xoş qonşuluq münasibətləri göstərin, insanları dilinizdən başqa şeylərlə (əməllərinizlə) dəvət edin, bizə üz qarası deyil, zinət olun, səcdə və rükularınızı uzadın. Belə ki, əgər biriniz rüku və səcdəsini uzatdıqda İblis onun arxasından belə fəryad edir: “Vay olsun, o itaət etdi, mən isə asi oldum; o səcdə etdi, məni isə boyun qaçırdım”.[738]

---

738 “əl-Kafi”, 2/78.

İbn Əbu Yə`furun səhih hədisində isə deyilir: "İmam Əbu Abdullah Sadiq (ə) buyurdu: "İnsanları dinə dilinizdən qeyri şeylərlə (əməllərinizlə) dəvət edin. Sizdə gördükləri təqva, səy, namaz və xeyir əməllər, bunlar dəvətçidir".[739]

Gözlənilən an məsələsinə gəldikdə, həmin anı həm şiə və həm də sünnilər gözləyirlər. Bu, Mehdinin (ə.f) zühurudur ki, Allah onun vasitəsilə Yer üzünü zülm və sitəmlə dolduğu bir vaxtda haqq və ədalətlə dolduracaq, haqqı qalib və batili məhv edəcək, müsəlmanları izzətli, kafir və münafiqləri isə zəlil edəcək.

İlahi, onun fərəcini sürətləndir, zühurunu asanlaşdır, bizi onun yardımçılarından, bayrağı altında qarşısında savaşanlardan qərar ver, ondan əvvəlkiləri Yer üzündə xəlifə qərar verdiyin kimi, onu da xəlifə et, onun vasitəsilə dinini və Peyğəmbərinin (s) sünnəsini qalib et, ta ki, heç bir məxluqunun qorxusundan haqqı bərqərar etməyə qorxmasın! Həqiqətən də, Sən yaxın və duaları (tezliklə) müstəcab edənsən! Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!

---

[739] "əl-Kafi", 2/78.

## Şiəliyin yaranmasında yad ünsürlərin rolu

**Müəllif iddia edir: “Bu kitabın birinci fəslində şiəliyin yaranmasında yəhudi Abdullah ibn Səbanın rolunu qeyd etdik. Bu, ümumən və xüsusən bütün şiələrin qəflətdə olduğu bir həqiqətdir”.**

**Cavab:** Kitabın əvvəlində izahlarda qeyd etdik ki, Abdullah ibn Səbanın şiəliklə heç bir bağlılığı olmamışdır, onun varlığının isbatı da şiəliklə hər hansı bir əlaqəsinin mövcudluğuna dəlalət etməz. Abdullah ibn Səbanın şiələrlə əlaqəsi isbat edən yalnız bir rəvayət vardır ki, o da yalançı, hədis uyduran və zəif ravi olduğuna hədis hafizlərinin həmfikir olduqları Seyf ibn Ömərdəndir.

Bütün bu mövzunu özümüzün “Abdullah ibn Səba” adlı kitabımızda təfsilatı ilə izah etmişik. Diləyən şəxslər həmin kitaba müraciət edə bilərlər.

* * *

**Müəllif iddia edir: “Bu mövzu barədə uzun illər boyunca çox düşünmüşəm. Nəticədə bəzi digər şəxslər kimi, mən də bəzi təhlükəli düşüncələrin və batil etiqadların şiə əqidələri sırasına daxil edildiyini görmüşəm”.**

**Cavab:** Şiə düşmənləri Əhli-Beyt (ə) məzhəbini gözdən salmaq üçün çox səy göstərmiş, batil hədislər uydurmuş və onları Əhli-Beyt imamlarına (ə) nisbət vermişlər. Lakin İmamlar (ə) həmin şəxsləri müəyyənləşdirib ifşa etmiş, lənətləmiş, onlardan uzaqlıqlarını bildirmiş və şiələrə onlardan çəkinməyi buyurmuşlar.

Şiə alimləri də (r.ə) ömürlərini sərf edərək bütün hədis və rəvayətləri təftiş etmiş və onların ravilərinin halını araşdırmışlar. Allaha həmd olsun, bu mövzularda cild-cild kitablar yazılmışdır ki, fəqihlərin İslamın şəriət və etiqad hökmlərini əldə etməsi üçün yetərli istinad mənbələridir. Onları öz mübarək ömürlərini bu yolda sərf etdikləri və özlərinə əziyyət verdikləri üçün Allah bizim əvəzimizdən və İslamın adından onlara ən gözəl mükafatları versin!

Müəllifin qeyd edəcəyi ittihamlar su üzərindəki köpük kimidir. Allahın inayətilə, möhtərəm oxucu üçün onun şərəfli imam səhabələri barədə iddialarının puçluğu aydın olacaq.

* * *

**Müəllif iddia edir: "Hövzələrin anası sayılan Nəcəf elmi hövzəsində uzun müddət qalmağım, eləcə də əsas mənbələrdən məlumatlı olmağım mənə bir çoxlarının məlumatsız olduqları və ya məlumatlı olub özlərini bilməməzliyə vurduqları bəzi əhəmiyyətli həqiqətlərdən agah olmağa şərait yaratdı. Mən şiə etiqadlarının yanlış formalaşmasında böyük rola malik olmuş bəzi şübhəli şəxslərin varlığı, kufəlilərin Əhli-Beytə (ə) qarşı xəyanətləri təsbit etdim, bu kəslərin şiəlik və Əhli-Beyt (ə) aşiqi adı altında gizləndiklərini müəyyənləşdirdim".**

**Cavab:** İnşallah, möhtərəm oxucu müəllifin necə sənədi səhih rəvayətləri bir kənara ataraq zəif xəbərlərə istinad etdiyini görəcək. Onun bu əməlinin yeganə məqsədi həmin xəbərlərlə möhtərəm raviləri ləkələməkdir. Əgər müəllif özünün iddia etdiyi kimi, müctəhid və insaflı şəxs olsaydı, o zaman təqdim etdiyi rəvayətlərin sənədlərinə nəzər salar, səhihi əsas götürüb, zəifi kənara atardı, hər ikisinin səhihliyi halında isə üstünlük meyarlarına müvafiq olana istinad edər, digərini kənara qoyardı, eləcə də bir rəvayətə istinad etdikdə mövzu ilə bağlı digərlərindən bixəbər qalmazdı, bu istiqamətlərdə alimlərin izlədikləri üslublardan istifadə edərdi.

* * *

**Müəllif iddia edir: "Şiəlik adı altında gizlənmiş həmin şəxslərdən nümunə üçün bir neçəsini qeyd edək:**

**Hişam ibn Həkəm – Hişamın hədislər səkkiz səhihdə (?!) və digər mənbələrdə nəql olunur".**

**Cavab:** Şübhə yoxdur ki, müəllifin şiələrdə səkkiz səhih kitabın varlığını iddia etməsi olduqca əcaib və qəribədir. Çünki belə bir sözü ondan öncə heç kəs iddia etməmişdir.

Təəccüblüdür ki, bəzi əhli-sünnə mənsubları şiələri bir məhz səhih kitablarının olmadığına görə tənqid edirlər. Bəs niyə tənqid edirsiniz?! Budur, müəllif şiələr üçün səkkiz səhih kitab kəşf etmişdir!

Müəllifin səkkiz səhih kitab dedikdə hansı kitabları nəzərdə tutduğu da məlum deyildir.

Bəlkə “Kutubul-ərbəə” dediyimiz “əl-Kafi”, “ət-Təhizb”, “əl-İstibsar” və “mən la yəhzuruhul-fəqih” kitabları ilə bərabər “əl-Vəsail”, “əl-Vafi”, “Biharul-ənvar” və bütün hədisləri özündə ehtiva edən “Camiu əhadisiş-şiə” kitablarını nəzərdə tutur? Yaxud başqa kitabları?

Gizli deyil ki, hər bir müvafiq və müxalif şəxs şiələrin səhihliyində həmfikir olduqları hədisləri bir kitabda cəmləmədiklərini bilir. Halbuki əhli-sünnədə səhih hədislər Buxari və Müslimin “Səhih”lərində bir yerə toplanmışdır.

Müəllifin iddia etdiyi səkkiz səhih kitab haqqında məlumatın ona haradan gəldiyini bilmirik!

* * *

**Müəllif iddia edir: “Hişam (!) İmam Kazımın həbs edilməsinə, sonda öldürülməsinə səbəb olmuşdur. Kəşşinin “Rical”ında yazılır: “Hişam ibn Həkəm azmış, azdıran və Əbul-Həsənin (r.a) qətlinə şərik olan kəsdir” (səh.229)”.**

**Cavab:** Müəllifin qeyd etdiyi rəvayət Hişam ibn Həkəmin tənqidinə deyil, əksinə, mədhində dəlalət edir. Həmin mətni sizə təqdim edirik:

Həmdəveyh ibn Nəsir mənə Muhəmməd ibn İsa əl-Əbdidən, o da Cəfər ibn İsadan nəql edir: “Musa ibn Riqqi İmam Əbul-Həsən Rzaya (ə) dedi: “Sənə fəda olum, səndən rəvayət edilir ki...[740] və Əbul-Əsəd səndən Hişam ibn Həkəm haqqında soruşmuşlar və sən demişsən: “O, azmış, azdıran və Əbul-Həsənin (ə) qətlinə şərik olan kəsdir”. Ey ağam, bu barədə fikrin nədir, onu özümüzə dost biləkmi?” İmam Rza (ə) buyurdu: “Bəli!” O (Musa), sualı bir daha təkrarladı və “Onunla dostluq əlaqələrini saxlayaqmı?” deyə soruşdu. İmam (ə) buyurdu: “Bəli, dost bilin, bəli, dost bilin! Mən sizə bir şey söylədiyimdə ona əməl edin, qarşı çıxmağa çalışmayın! İndi çölə çıx və oradakıları (toplaşanlara) söylə: “Mənə Hişam ibn Həkəmi dost bilməyimizi buyurdu”. əl-Məşriqi qarşımıza çıxıb İmamın da (ə) eşidəcəyi tərzdə bizə

---

[740] Əsl nüsxədə bu yer səhifədə ağ qalmışdır. Lakin qarşıda təqdim olunacaq digər rəvayətlərlə müqayisə etdikdə, həmin ağ yerdə Musa ibn Salehin adının yazıldığını aydınlaşacaq, necə ki, “İxtiyaru mə`rifətir-rical” kitabında da bu qeyd olunur (2/789).

səsləndi: "Sizi bunun İmamın (ə) Hişam ibn Həkəm barədəki rəyi olduğunu bildirirəm". Bunu bir neçə dəfə təkrarladı".[741]

Hədis aydın şəkildə Musa ibn Salehin və Əbul-Əsədin şayiə və iddialarının əksinə olaraq, İmam Rzanın (ə) öz tərəfdarlarına Hişam ibn Həkəmlə əlaqələrini davam etdirmələrini və onu dost saymalarını, bunun İmamın (ə) rəyi olduğunu camaata xəbər vermələrini buyurduğuna dəlalət edir. Beləliklə də Musa və Əbul-Əsədin Hişam ibn Həkəm haqqındakı sözlərinin heç bir etibar və dəyərinin olmadığı aydınlaşır.

Həmçinin Kəşşinin "Rical"ında Hişam ibn İbrahim sənədilə nəql etdiyi və Seyid Xoyinin "əl-Mö`cəm"də səhih hesab etdiyi İmam Rzadan (ə) rəvayət olunan başqa uzun bir hədisdə də İmam (ə) ona nisbət verilən sözləri inkar edir: "Cəfər dedi: "Sənə fəda olum, Saleh və Əli ibn Yəqtinin qayınatası Əbul-Əsəd səndən rəvayət edirlər ki, onlar mənim barədə səndən soruşmuş və belə cavab vermişsən: "Sizə nə olub, sözləriniz allahsızdan qaynaqlanır?!" İmam (ə) buyurdu: "Mən onlara belə bir söz söyləməmişəm! Bunu mənmi söyləmişəm?! Allaha and olsun ki, onlara belə söz deməmişəm". Yunus dedi: "Sənə fəda olum, onlar mənim allahsız (ateist) olduğumu iddia edirlər". O, bir kişinin yanında idi ki, həmin kişi ayaqlarını qatlayıb oturmuşdu. O, gah bir ayağını digərinin üzərinə, gah da digərini o birisinin üzərinə aşırdır, üzünü, yanağını və sol ayağını qaşıyırdı. Dedi: "Əgər sən allahsız olduğun halda sənə "mömin" deyilərsə, bu sənə bir fayda verərmi? Həmçinin mömin olduğun halda allahsız deyilsə, bu sənə bir zərər verərmi?"[742]

İmam Rzanın (ə) ona nisbət verilən sözləri inkar etməsi bu sözlərin onun adından uydurulduğunu dəlilidir. Onlar beləcə Hişam ibn Həkəm haqqında da şayə uydurmuşlar.

Maraqlıdır ki, müəllif nəql etdiyi sözləri sanki İmamın (ə) sözləri kimi təqdim edir, oxucuya aydın olmaması üçün rəvayəti bütünlüklə nəql etmir. Çünki rəvayət ta təqdim edilsə, onun Hişam ibn Həkəmi tənqid deyil, tərif etdiyi aydınlaşacaq.

* * *

---

741 "İxtiyaru mə`rifətir-rical", 2/544.
742 "İxtiyaru mə`rifətir-rical", 2/789.

**Müəllif iddia edir: “Hişam Əbul-Həsənə (r.a) dedi: “Mənə tövsiyə ver”. Dedi: “Mənim qanım (qətlim) barədə Allahdan qorxmağını tövsiyə edirəm” (“Rical”, Kəşşi, səh,226).**

**Əbul-Həsən (r.a) ondan bir müddət danışmamağı tələb etmişdi. O, bir ay danışmadı, sonra yenidən danışmağa başladı. Əbul-Həsən ona dedi: “Ey Hişam, müsəlman bir şəxsin qətlinə şərik olmaq səni sevindirərmi?” O, “Xeyr” deyə cavab verdi. Dedi: “Bəs mənim qətlimdə necə iştirak edirsən? Susmasan, bu mənim qətlimdir”. O, susmadı və Əbul-Həsənin başına gələnlər oldu” (“Rical”, Kəşşi, səh.231).**

**Əhli-Beytə (ə) müxlis olan bir şəxs bu imamın (r.a) qətlinə necə səbəb ola bilər?”**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Raviləri arasında Cəfər ibn Məruf adlı şəxs vardır ki, onun inanılan şəxs olduğu tərcümeyi-hal kitablarında təsdiqini tapmayıb. Burada onun tək bir şəxs və ya bir adda olan fərqli şəxslər olmasının heç bir fərqi yoxdur. Belə ki, o, ya Cəfər ibn Məruf Səmərqəndidir ki, onu İbn Ğəzairi zəif sayaraq demişdir: “Cəfər ibn Məruf Əbul-Fəzl Səmərqəndi – Əyyaşi ondan çox sayda rəvayət nəql edib. Onun məzhəbində uyğunsuzluq vardı. Hədisləri gah qəbul edilir, gah da inkar olunur”.[743]

Ya da Cəfər ibn Məruf Kəşşidir ki, “Rical”ın müəllifi öz kitabında ondan çox sayda rəvayət nəql etsə də, onun inanılan şəxs olması tərcümeyi-hal kitablarında sübuta yetməyib.

Rəvayətin sənədində həmçinin İsmail ibn Ziyad əl-Vasiti adlı ravi də vardır ki, o da halı məchul şəxsdir.[744]

Rəvayətin sənədinə göz yumsaq, onun mətni Hişam ibn Həkəmin İmam Musa ibn Cəfərin (ə) qətlinə səbəbkar olduğuna dəlalət edir. Çünki İmam (ə) həmin vaxtlarda onu müxaliflərlə bəhsdən çəkindirmişdi. Hişam bir ay bu işi tərk etsə də, yenidən bəhslərə qayıtmışdı. Sonda da İmamın (ə) başına gələnlər baş vermişdi. Lakin, məlum olduğu kimi, rəvayətdə İmamın (ə) qətlinin məhz Hişamın səbəbindən

---

[743] “Rical”, İbn Ğəzairi, səh.47.

[744] “Mö`cəmu ricalil-hədis, 19/278. Seyid Xoyi (r.ə) bu rəvayəti zəif saymışdır.

baş verdiyinə heç bir dəlalət yoxdur, necə ki, İmamın (ə) həyat hekayəsindən də bu hadisələrin arasında bir əlaqənin olmadığı məlumdur.

* * *

**Müəllif iddia edir: "Gəlin birlikdə bu mətni də oxuyaq:**

**Muhəmməd ibn Fərəc Rüxxəci deyir: "Əbul-Həsənə məktub yazaraq Hişam ibn Həkəmin Allahın cisim olması və Hişam ibn Salimin (Cüvaliqi) isə Onun surəti haqda sözlərini soruşdum". Mənə belə cavab yazdı: "Özündən çaşqınlığı uzaqlaşdır və Şeytandan Allaha pənah apar. O iki Haşimin söylədikləri doğru deyildir" ("Üsulul-kafi", 1/105; "Biharul-ənvar", 3/288; "əl-Füsulul-mühimmə", səh.51).**

**Hişam ibn Həkəm Allahın cisim olduğunu, Hişam ibn Salim isə Onun surət və formaya malik olduğunu iddia edirdilər".**

**Cavab:** Bu rəvayətin də sənədi zəifdir, çünki aradakı ravilər qeyd edilmədən birbaşa İmama (ə) məktub yazan şəxsdən nəql edilir. Kuleyni (r.ə) deyir: "Muhəmməd ibn Əli bu rəvayəti Muhəmməd ibn Fərəc Rüxxəciyə istinad edərək deyir...".

Muhəmməd ibn Fərəc İmam Rza, İmam Cavad və İmam Hadinin (onlara Allahın salamı olsun!) əshabındandır. Kuleynin bir çox hədisləri nəql etdiyi Əli ibn Muhəmməd ibn Abdullah ibn Bindar inanılan şəxsdir. O, Muhəmməd ibn Fərəc ər-Rüxxəcidən təbəqə baxımından uzaq olduğu üçün hədis rəvayət etməyib.

Sənədinə göz yumsaq, İmam Sadiq (ə) və İmam Kazımdan (ə) rəvayət olunan sübuta yetmiş və səhih rəvayətlərlə ziddiyyət təşkil etdiyinə görə doğru məcralara yozulmalıdır. Belə ki, onlar (ə) Hişam ibn Həkəmi üstün və əshablarının şeyxlərindən öndə tutmuşlar.

Burada Şeyx Məclisinin (r.ə) sözlərini nəql etmək yerinə düşər və onun sözləri məqsədimiz üçün yetərlidir.

Yazır: "Hər iki Hişamın məqamının uca olduğuna və onların bu sözlərdən uzaqlığına heç bir şübhə yoxdur. Seyid Mürtəza (q.s) "əş-Şafi" kitabında onların nisbət verilən sözlərdən uzaq olduqlarına bir neçə güclü dəlillə etiraz etmişdir. Bəlkə

də onlara bu sözləri müxaliflər düşmənlər nisbət vermişlər. Necə ki, vaxtı ilə Zürarə və digər böyük hədis əshabına qarşı da qeyri-münasib fikirləri istinad edirdilər...”.

Sonra yazır: “Məlum olur ki, o ikisinə nisbət verilən bu sözlər ya şiə ravi və alimlərin yanlışıdır, ya da bəhslərdə müxalifləri susdurduqlarına görə onların adına belə sözlər uydurmuşlar. İmamlar (ə) onların bu sözlərini ya məsləhətə görə, ya da onları qorumaq üçün inkar etməmişlər. Bu rəvayəti belə yozmaq mümkündür: Sənin iki Hişamın söylədiklərini iddia etdiyin sözlər doğru deyil. Yaxud: Sənin söylədiyin bu sözlər o iki Hişamın dedikləri deyildir. Əksinə, onların sözləri bunun tam əksidir. Həmçinin onların İmamlara (ə) tabe olduqları vaxtdan öncə belə fikirlərə sahib olmaları da mümkündür. Belə ki, deyilib: “Hişam ibn Həkəm İmam Sadiqlə (ə) görüşündən öncə Cəhm ibn Səfvanla eyni baxışa sahib idi. İmam Sadiqə (ə) tabe olduqda sonra tövbə etdi və haqqa qayıtdı”. Bunu Kəracəki “Kənzul-fəvaid”də Allaha cisim istinad edənlərin sözlərini rədd edərkən deyir. Orada yazır: “Mövlamız Hişamın (r.ə) bu barədəki sözlərindən sonra fikrindən döndüyü, xətasını boynuna aldığı və tövbə etdiyi haqda söhbətlər geniş yayılmışdır. Belə ki, İmam Cəfər ibn Muhəmməd (ə) Mədinəyə yola düşərkən onun Hişamın qarşısı kəsilmiş və ona belə deyilmişdi: “Allahın cisim olduğunu iddia etdiyin müddətcə səni onun yanına buraxmamaq bizə əmr olunub”. O isə demişdi: “Allaha and olsun, mən onu İmamımın (ə) sözünə uyğun olduğunu zənn edib söyləmişəm. Əgər bunu inkar edərsə, mən də tövbə etməyə hazıram”. O, İmamla (ə) görüşdü və sonra İmam (ə) onun üçün xeyir dualar etdi”.[745]

Muhəmməd Saleh Mazəndərani “Üsulul-kafi”inin şərhində yazır:

“Bil ki, Əllamə Məclisi “əl-Xülasə”də hər iki Hişamı tərifləmiş və inanılan şəxs olduğunu bildirmişdir. İbn Tavus (r.ə) deyir: “Məlumdur ki, Hişam ibn Salim etiqadı düzgün və Əhli-Beytin (ə) vilayətində olan şəxs idi. Bəzi alimlər demişlər: “Kəşşinin Hişam ibn Salimdən Allahın surətinin olması, Adəmin Rəbbin timsalında xəlq olunduğu barədə iddia etdiyinin nəql olunduğu rəvayətin raviləri arasında Muhəmməd ibn İsa Həmədani vardır. O, zəif ravidir. Bəzi alimlərimiz demişlər: “Müxaliflərimiz o iki Hişamın böyük qədir-qiymətə malik olduqlarını gördükdə öz

---

[745] “Mir`atul-uqul”, 2/3, 5.

batil sözlərini onlara nisbət vermişlər". Bəzi müasirlər isə demişlər: "Zəif rəvayətlə nisbət verilənlərə görə Hişam ibn Salim üçün üzr axtarmağa ehtiyac yoxdur".[746]

* * *

**Müəllif iddia edir: "İbrahim ibn Muhəmməd Xəzzaz və Muhəmməd ibn Hüseyn rəvayət edirlər: "Əbul-Həsən Rzanın (r.a) yanına gəldik, Muhəmmədin öz Rəbbini otuz yaşlı gənc bir oğlan şəklində gördüyünün və iki ayağının olduğunun rəvayət edildiyini söylədik və dedik: "Hişam ibn Salim, bir taqlı və Meysəmi deyirlər: "O, arxasınadək boşdur, qalan hissəsi isə doludur..." ("Üsulul-kafi", 1/101, "Biharul-ənvar", 4/40)".**

**Cavab:** Əllamə Məclisi (r.ə) "Mir`atul-uqul"da yazır: "Üçüncü hədis (yəni - müəllifin nəql etdiyi bu hədis) zəifdir".[747]

Belə ki, bu hədisin ravilərindən biri İbrahim ibn Muhəmməd əl-Xəzzazdır, tərcümeyi-hal kitablarında onu əhəmiyyətsiz hesab edirlər.

Həmçinin ravilərdən biri Bəkr ibn Salehdir. O, Bəkr ibn Saleh ər-Razi əz-Zəbiydir. Zəif ravidir. Nəcaşi və İbn Ğəzairi onu zəif saymışlar. Onun tərcümeyi-halını əvvəldə qeyd etmişdik.

Eləcə də ravilər arasında Hüseyn ibn Həsən vardır ki, o, Bürd əd-Dinəvərinin oğludur.

Seyid Xoyi (r.ə) "Möcəmu ricalil-hədis" kitabında yazır: "Bu rəvayətlərin sənədindəki Hüseyn ibn Həsən əgər Muhəmməd ibn İsmailin ravisidirsə, deməк o, Hüseyn ibn Həsən ibn Bürd əd-Dinəvəridir. O zaman Muhəmməd ibn İsmail - Bərməki ər-Razidir ki, Hüseyn ibn Həsən ibn Bürd əd-Dinəvərinin rəvayətlərində adı qeyd olunur. Muhəmməd ibn Yaqubun Muhəmməd ibn İsmaildən, onun da Hüseyn ibn Həsəndən, onun da Bəkr ibn Saleh istinadı ilə rəvayəti qeyd olunub...".

Sonra deyir: "Qəribədir ki, tərcümeyi-hal kitablarında bu şəxs barədə heç bir qeyd verilməyib".[748]

---

[746] "Şərhu üsulil-kafi", Mazəndərani, 3/230.
[747] "Mir`atul-uqul", 1/347.
[748] "Möcəmu ricalil-hədis", 5/211.

Xəbərin ravilərinin halı belə ikən, ictihad və fəqihlik iddiaçısı olan bir kəs Hişam ibn Həkəmi tərif və mədh edən səhih rəvayətləri görməzdən gələrək tənqid və ittiham etmək üçün bu rəvayətə necə etimad edə bilər?!

Rəvayətin sənədinə göz yumaq. Ravilər Allahın cisim olduğu fikrini iddia edənlərin Hişam ibn Həkəm, taqlı bir mömin və Meysəmi olduğunu deyir və həmin sözləri onlara nisbət verirlər. İmam (ə) isə bu fikrin batil olduğunu ərz edir, ancaq fikrin onlara nisbət verilməsinin doğru olub-olmadığına münasibət bildirmir. Bu isə özlüyündə həmin nisbətin yalan olduğu təsəvvürünü yaradır. Əks halda, İmamlar (ə) adətləri üzrə batil və zəlalət əhlinin fikirlərilə bərabər özlərini də məzəmmət etdikləri kimi, onları da tənqid edərdilər.

Əllamə Məclisi (r.ə) deyir: "Həmin fikrin bu böyük şəxslərə nisbət verilməsinə gəldikdə, bu barədə qarşıda söz açacağıq. Görünən odur ki, İmam (ə) həmin sözün batilliyini ərz edir, məsləhət baxımından həmin sözü söylədikləri iddia olunan şəxslərə etiraz etmir".[749]

* * *

**Müəllif iddia edir: "Məgər Allahın 30 yaşlarında bir kişi formasında və göbəyinədək içiboş olması düşünülə bilərmi?! Bu sözlər yəhudilərin Tövratdakı sözlərinə bənzəyir. Orada Allahın böyük cüssəli insan formasında olduğu deyilir. Bu fikirlər Tövratın "Yaradılış" bölməsində qeyd olunur. Bu tərz yəhudi əqidələri şiəliyə İmam Kazımın (r.a) qətlinə səbəb və şərik olan Hişam ibn Həkəm, Hişam ibn Salim, Şeytan Taq (!), Meysəmi və "İmamət" kitabının müəllifi Əli ibn İsmail tərəfindən daxil edilmişdir.**

**Əgər biz mötəbər saydığımız səkkiz səhih və digər kitablarımıza nəzər salsaq, həmin kitablarda bu şəxslərin rəvayətlərinin əsas yer tutduqlarını görəcəyik".**

**Cavab:** Müəllifin istinad etdiyi hədislərin zəif olduğunu əvvəldə qeyd etdik. Belə hədislərə əsaslanıb hər iki Hişama, Tağın mömin şəxsinə və digərlərinə nisbət verilən iddiaları necə təsdiqləmək olar?

---

[749] "Mir`atul-uqul", 1/348.

Bundan əlavə, müəllifin təqdim etdiyi həmin rəvayətlər Allahın cisim və surətinin olduğu fikrinin həmin möhtərəm şəxslərin özlərinin söylədiyinə deyil, onlara nisbət verildiyinə dəlalət edir. Belə ki, həmin iddialar onlardan nəql edilərək onlara nisbət verilmişdir. Bunun nə ifadə etdiyini isə bəhsimizdə izah etdik.

Təəccüblüsü odur ki, müəllif Allahın cisim olması barədə fikri bu iki şəxsə nisbət verir, halbuki, əhli-sünnə məzhəbində bu inkarolunmaz bir faktdır. Onlar Allahın Qiyamət günü bədirlənmiş ay kimi görüləcəyinə, peyğəmbərlərin görüb tanıyacaqları surətə malik olduğuna, ayaq pəncəsinin, üzünün, gözünün və s. olduğuna dəlalət edən səhih hədislər nəql edirlər. Mövzu ilə bağlı İbn Xüzeymənin "Tövhid" kitabına müraciət etməyiniz kifayətdir. Həmin kitabın bir neçə fəslinin başlığını sizə təqdim edirik:

4. Peyğəmbərin (s) xəbərinə əsasən, Allahın şəxsiyyətinin olmasının isbatı;

6. Allahın üzünün olmasının isbatı;

8. Rəbbimizin surətinin olması;

10. Allahın gözünün olmasının isbatı;

13. Yoxdan yaradan Allahın əlinin olmasının isbatı;

21. Xaliqimizin iki əlinin olduğunu bəyan və izah edən hədislər;

27. Uca Allahın göyləri, yeri və onun üzərində olanları barmağı üzərində saxlaması;

28. Uca Allahın barmaqlarının olmasının isbatı;

29. Allahın ayağının olmasının isbatı;

33. Uca Allahın səmada olmasını iqrar etməyin dəlilləri;

34. Rəbbin yerin səmasına endiyi isbat edən Hicaz və İraq hədisşünaslarının rəvayət etdikləri səhih hədislər;

38. Qiyamət günün bütün möminlərin Uca Allahı çılpaq gözlə görəcəklərinin bəyanı;

52. Rəbbimizin gülməsinin isbatı;

Bütün bunlar Tövratdakı fikirlərin isbatıdır və onlara tamamilə uyğundur.

"əl-Mədxəlu ila dirasətil-ədyan vəl-məzahib" kitabının müəllifi yazır:

Bənzətmə və surət verməyə gəldikdə, yəhudilərin bu barədə Uca Allah nisbət verdikləri sifətlər belədir:

1. Allahın üzü var; Uca Allah Musaya buyurur: "Mənim üzümü görməyə sənin qüdrətin yetməz. Çünki bir insanın Məni görüb, sonra yaşaması mümkün deyildir".

2. Allahın iki gözü vardır; "Padşahlar" bölümünün II fəslində yazılıb: "Ey Rəbbim, iki gözünü aç və bax".

3. Allahın göz qapaqlarının olması; "Zəbur"da yazılıb: "Rəbb səmadadır, səxavətlidir, Onun baxan iki gözü və Adəm övladlarını imtahan edən iki göz qapağı vardır".

4. İki qulağı vardır; "Rəqəmlər" kitabı: "Xalqlar sanki Rəbbin iki qulağına şər işlərlə şikayətlər edirdilər".

5. Burnunun olması; "Ey Rəbb, burnunun yelilə sular toplandı".

6. Ağzının olması; "Ancaq, ey bəndəm Musa, belə deyildir. Ağızı üstə bir ağız və bir gözü var ki, onunla danışıram".

7. Barmaq ucundan dirsəyədək qolunun olması; "Çıxış" kitabında yazılıb: "Ya Rəbb, Sənin qolunun əzəmətinə xatir onlar susmuşlar".

8. Barmağının olması; "Rəbb mənə Allahın Öz barmağı ilə yazdığı iki daş lövhəni verdi".

9. İki ayağının olması; Əş`iya peyğəmbər deyir: "Rəbb beləmi söylədi? Səmalar kürsü, yer isə onun iki ayağının dayandığı məkandır".

10. Qəlbinin olması; "Günün xəbərləri" fəslində yazılıb: "Allah buyurdu: "Mən bu evi seçmiş və müqəddəs qılmışam ki, adım əbədi olaraq yad edilsin, hər gün gözlərim və qəlbim orada olsun".

11. Səsinin olması; "Yaradılış kitabında yazılıb: "Adəm və Həvva cənnətdə gəzərkən Rəbb olan ilahın səsini eşitdilər".

12. Allah səmada məskunlaşıb və sanki O, yerdən uzaqdır; "Rəbb Musaya dedi: "Siz mənim səmada olduğumu və danışdığımı gördünüz".

13. Dumanda məskunlaşması; "Günün xəbərləri" fəslində yazılıb: "O zaman Rəbb dedi ki, O, dumanda (göz görməyən tüstülü yerdə) məskunlaşmışdır".

14. Dağların başında və yüksəkliklərdə məskunlaşmışdır; "Gözlərimi dağların başına – Rəbbin qatından gələn yardım və köməyimə tərəf qaldırıram".

15. Deyilir: Allah toplaşma çadırının üzərində görünən buludda qərar tutmuşdur; "Rəqəmlə" kitabı: "Allah yəhudiləri Sina səhrası ilə apararkən onların önündə, toplanma çadırının üzərində görünən buludda zahir olur, bir yerdən digərinə hərəkət edirdi".

16. Toplanma çadırının içindəki Əhd sandığının örtüyünün altında qərarlaşması;

17. Deyilir: Allah Süleymanın Qüdsdə (Yerusəlimdə) tikdirdiyi böyük məbəddə məskunlaşıb.

18. Stul üzərində əyləşməsi: "Padşahlar" kitabında yazılıb: "Rəbbi stulunda əyləşmiş halda gördüm".

Xülasə, belə təsəvvür yaranır ki, Uca Allah bəşər övladı kimi məhdud cismə sahib bir varlıqdır, oturur, enir, qalxır, gedir, gəlir, daxil və xaric olur, görüşür, qarşılaşır, sevinir və gülür, kədərlənir və məyus olur, pərt və peşman olur, qəzəblənir və hirslənir, istehza edərək gülür, aldadır".[750]

Əhli-sünnənin yəhudi etiqadına uyğun olan əqidələrindən biri də Adəmi Öz surətində yaratmasıdır.

Buxari, Müslim, İbn Hibban öz "Səhih"lərində, Əhməd, Əbu Əvanə, Əbd ibn Hümeyd "Müsnəd"lərində öz istinadları ilə Əbu Hüreyrədən nəql edirlər: "Allahın elçisi (s) buyurdu: "Allah Adəmi Öz surətində xəlq etdi, onun uzunluğu altmış zira idi. Onu xəlq etdikdə buyurdu: "Get və bu şəxslərə salam ver. Onlar orada əyləşmiş mələklərdirlər. Salamının cavabında sənə nə söyləyəcəklərini dinlə. Belə ki, bu, sənin və nəslinin salamı olacaq". Adəm getdi və "əs-Səlamu əleykum" dedi. Mələklər də onun salamına "və rəhmətullah" (və Allahın bərəkəti olsun!) sözünü əlavə etdilər. Peyğəmbər (s) sonra buyurdu: "Cənnətə daxil olan hər kəs Adəmin surətində və altmış zira boyunda olacaq. Zaman keçdikcə insanların boyu qısalmışdır".[751]

---

[750] "əl-Mədxəlu ila dirasətil-ədyan vəl-məzahib", 1/185.
[751] "Səhih", Buxari, 2/1023, 4/1959; "Səhih", Müslim, 4/2183; "Müsnəd", Əhməd ibn Hənbəl, 2/315, 323; "Müsnəd", Əbu Əvanə, 1/188; "Səhih", İbn Hibban, 14/33; "Müsnəd", Əbd ibn Hümeyd, səh.417.

Müslim “Səhih”ində, Əhməd “Müsnəd”də, İbn Hibban, İbn Əbu Asim, Hümeydi və digərləri öz kitablarında Əbu Hüreyrəyə istinadən nəql edirlər: “Allahın elçisi (s) buyurdu: “Biriniz qardaşı ilə döyüşdükdə onun üzündən (üzünə vurmaqdan) çəkinsin. Belə ki, Uca Allah Adəmi Öz surətində yaratmışdır”.[752]

Buxari “əl-Ədəbul-mufrəd”də, Əhməd “Müsnəd”də, İbn Əbu Asim “Kitabus-sünnə”də Əbu Hüreyrədən nəql edirlər: “Allahın elçisi (s) buyurdu: “Bir-birinizə “Allah sənin üzünü eybəcər etsin!” və ya “Sənin üzünə oxşayan bir üz yoxdur!” kimi sözlər söyləməyin. Belə ki, Allah Adəmi Öz surətində xəlq etmişdir”.[753]

İbn Əbu Asim Əbu Hüreyrədən nəql edir: “Allahın elçisi (s) buyurur: “Biriniz qardaşı ilə savaşdıqda onun üzündən (üzünə vurmaqdan) çəkinsin. Belə ki, Uca Allah Adəmi Öz üzünün surətində yaratmışdır”.[754]

Bütün bunlar yəhudi əqidəsinə tam uyğundur. Tövratın “Köhnə əhd”, “Yaradılış” kitabının birinci fəslində belə qeyd edilir: “Allah dedi: “İnsanı Öz surətimizdə, bizə bənzər düzəltdik ki, dənizin balıqlarına, səmanın quşlarına, davarlara, yer üzünə və yer üzündə gəzən heyvanlara hakim olsun. Beləliklə, Allah insanı Öz surətində xəlq etdi, onlar kişi və qadın olaraq Onun surətindədir”.

“Yaradılış” kitabının beşinci fəslində isə yazılıb: “Allah insanı yaradanda onun əməlini Allaha bənzər yaratdı. Onları kişi və qadın yaratdı. Yaratdığı gün mübarək qılıb adını Adəm qoydu”.

---

[752] “Səhih”, Müslim, 4/2017; “Səhih”, İbn Hibban, 12/420, 13/18; “Müsnəd”, Əhməd, 2/244, 463, 519; “Müsnəd”, Əbd ibn Hümeyd, səh.283; “Müsnəd”, Hümeydi, 2/476; “Kitabus-sünnə”, 1/227-230; “İ`tiqadu əhlis-sünnə”, 3/423; “Silsilətul-əhadisis-səhihə”, 2/518. Albani “Kitabus-sünnə”nin haşiyəsində yazır: “Sənədi səhihdir, Müəllif Şeyxin özündən savayı ravilərin hamısı Buxari və Müslimin raviləridir. Şeyxin özü isə inanılan (siqə) ravidir”.

[753] “əl-Ədəbul-mufrəd”, səh.71; “Müsnəd”, Əhməd, 2/251, 434; “Kitabus-sünnə”, 1/229; “Müsnəd”, Hümeydi, 2/476; “İ`tiqadu əhlis-sünnə”, 3/422, 423; “Tarixu Bağdad”, 2/220, 3/74; “əs-Sifat”, Darəqutni, 2/35. Albani “Kitabus-sünnə”nin haşiyəsində yazır: “İstinadı həsən səhihdir, raviləri inanılan (siqə) şəxslərdir. Həmçinin “əl-Ədəbul-mufrəd”də də bunu həsən hesab etmişdir” (səh.85).

[754] “Kitabus-sünnə”, 1/227-228. Albani haşiyəsində yazır: “İstinadı həsən, səhihdir. Müəllif Şeyxin özündən savayı ravilərin hamısı Buxari və Müslimin raviləridir. Şeyxin özü isə inanılan (siqə) şəxsdir”. “əl-Mö`cəmul-övsat”, 6/21.

Görəsən, müəllif əhli-sünnə kitablarında dolub-daşan bu yəhudi etiqadlarına nə söyləyəcək?!

Kim daha artıq məlumat əldə etmək istəsə, “Abdullah ibn Səba” adlı kitabımıza müraciət edə bilər. Biz orada bu mövzunu tam əhatəli şəkildə qeyd etmişik.

İddiaçı müəllifin **“...Əgər biz mötəbər saydığımız səkkiz səhih və digər kitablarımıza nəzər salsaq, həmin kitablarda bu şəxslərin rəvayətlərinin əsas yer tutduqlarını görəcəyik”** sözünə gəldikdə, onun iddialarını bizim dörd mötəbər kitablarda mövcud olan Hişam ibn Həkəmin 167,[755] Tağın mömininin 10-dan artıq olmayan[756] və Əli ibn İsmail Meysəminin cəmi 26[757] rəvayətinin olduğu rədd edir. Halbuki dörd mötəbər kitabımda mövcud olan hədislərin ümumi sayı 40 mindən artıqdır.

Bəs bu şəxslərin rəvayətləri həmin kitablarda necə əsas yer tutur?!

* * *

**Müəllif iddia edir: “Zürarə ibn Ə`yun:**

**Şeyx Tusi onun barəsində yazır: “Zürarə xristian ailəsindəndir. Onun babası Sunsundir. Subsun olduğu da deyilib. Xristian rahibi idi. Atası isə Bəni-Şeyban qəbiləsindən bir şəxsin rumlu köləsi olub” (“əl-Fehirist”, səh.104)”.**

**Cavab:** Müəllif Şeyx Tusinin (r.ə) sözlərinin bir hissəsini düzgün nəql etsə də, bir hissəsini təhrif etmişdir. Şeyxin sözlərini sizə təqdim edirik:

“Zürarə ibn Ə`yun. Adı Əbdü Rəbbihdir, künyəsi Əbul-Həsəndir. Zürarə isə onun ləqəbidir. Atası Ə`yun ibn Sunsun Bəni-Şeyban qəbiləsində bir şəxsin rumlu köləsi idi, Quranı öyrənmiş və azad edilmişdi. Ağası ona nəsəbinə daxil olmağı təklif etmiş, Ə`yun isə imtina etmiş və demişdi: “Dostluğumu qəbul et...”.[758]

Şeyx Tusi (r.ə) Zürarənin ailəsinin xristian olduğunu qeyd etməmişdir. Onun Quranı öyrənməsi və ağasının ona öz nəsəbinə daxil olmağı təklif etməsi müsəlman olduğuna dəlildir. Həmçinin Zürarənin anası da xristian kimi tanınmamışdır.

---

[755] “Mö`cəmu ricalil-hədis”, 19/295.
[756] “Mö`cəmu ricalil-hədis”, 17/303-304.
[757] “Mö`cəmu ricalil-hədis”, 11/278.
[758] “əl-Fehrist”, səh.133.

Bəli, onun babası Bizans şəhərlərindən birində rahib idi. Ancaq bu, Zürarənin böyüyüb boya-başa çatdığı ailəsinin xristian olduğu mənasını verməz.

Şübhə yoxdur ki, atasının və özünün müsəlman olduğu təsdiqləndiyi halda bu fakt heç bir zərər yetirməz. Çünki müsəlman olmaq keçmişi silib aradan aparır. Belə ki, Peyğəmbərin (s) bir çox səhabələri, xüsusilə də Əbu Bəkr, Ömər və Osman da cahiliyyət dövründə bütlərə ibadət edirdilər. Həmçinin səhabələr arasında əvvəllər yəhudi və xristian olanlar da vardır. Amma bunlara baxmayaraq əhli-sünnə alimləri onların ədalətli və gözəl müsəlmanlar olduğuna hökm etmiş, Allahın haram və halal məsələlərində onları etimadlı şəxslər saymışlar. Bunlar inkaredilməz faktlardır.

Əgər özünün və atasının xristian olduğu isbatlanmadığı, yalnız babasının rahib olduğu təsdiqləndiyi halda Zürarənin rəvayətlərini qəbul etmək müəllifə ağır gəlirsə, o zaman Abdullah ibn Salamın, Təmim Əd-Darinin, Vəhəb ibn Münəbbihin, Kə`bul-əhbarın və digər əslən yəhudi olan səhabələrin rəvayətlərini qəbul etmək ona niyə ağır gəlmir?!

Əgər Zürarənin ailəsinin xristian olması ona bir ləkə və tənqid səbəbidirsə, bəs nə üçün Əbu Hənifənin ailəsinə görə onu tənqid etmir?! Halbuki Əbu Hənifə xristian ailəsinin övladı idi.

Xətib Bağdadi "Tarixu Bağdad" kitabında Məhbub ibn Musadan nəql edir: "İbn Əsbatın belə dediyini eşitdim: "Əbu Hənifə dünyaya gələrkən atası xristian idi".

əs-Saci isə deyir: "Muhəmməd ibn Müaviyə əz-Ziyadinin belə dediyini eşitdim: "Əbu Cəfərin belə dediyini eşitdim: "Əbu Hənifənin adı Ətik ibn Zutrə idi. O, özü özünü Numan, atasını isə Sabit adlandırmışdır".

Muhəmməd ibn Əyyub əz-Zari deyir: "Yezid ibn Zərinin belə dediyini eşitdim: "Əbu Hənifə nəbətəlidir[759]".[760]

Əhli-sünnə hədis hafizləri arasında da xristian ailədə dünyaya gəlmiş şəxslər vardır ki, bunlardan biri Zəkətiyya ibn Ədiyydir.

Zəhəbi "Təzkirətul-huffaz"da yazır: "(m,t,s,q) Zəkəriyya ibn Ədiy ibn Salt ibn Bistam. Gözəl hafiz, saleh bəndə Əbu Yəhya ət-Teyminin azad edilmiş köləsidir,

---

[759] Nəbət Ərəbistan yarımadasında yaşayan yəhudi qəbiləsi idi – Tərc.
[760] "Tarixu Bağdad", 13/324-325.

kufəlidir, Bağdada köçüb yaşamışdır, Bəni-Teymə bağlıdır. Atası xristian idi. Deyilib ki, atası yəhudi idi və müsəlman olmuşdu. O, Misirdə məskunlaşan Yusif ibn Ədiyin qardaşıdır. Həmmad ibn Ziyad, Şüreyk əl-Qazi, Əbu Müleyh ər-Riqqi, İbn Mübarək, Yezid ibn Zəri`, Cəfər ibn Süleyman və onların İraq və Cəzirədəki müasirlərindən hədislər nəql etmişdir. Ondan isə Buxari ("Səhih"dən başqa kitablarda), İbn Rahəveyh, əd-Darəmi, Müaviyə ibn Saleh əl-Əş`əri, Abbas əd-Duri, Əbd ibn Hümeyd və digərləri hədis rəvayət ediblər. Onun hədisləri Əbu Davudun "Sünən"indən savayı digər kitablarda var. Sözlərini isbatlayan şəxslərdən biridir, məsələsinə etinasızlıq olub, Əbu Nüeym onun barəsində xəbər verməyib. İbrahim ibn Abdullah ibn Cüneyd deyir: "Mən eşitdiyim halda Əbu Davud Nəhəvi Yəhya ibn Muinə dedi: "Eşitmişəm ki, Əbu Nüeymdən Zəkəriyya ibn Ədiyy barədə soruşulub və o: "O hara, hədis hara! O, Tövratı daha yaxşı bilir" deyə cavab verib". Yəhya ibn Muin dedi: "Zəkəriyyədə bir müşkül yoxdur, atası yəhudi idi, müsəlman olmuşdur".[761]

Belə hafizlərdən biri də Abdullah ibn Əbul-Həsən əl-Cübbaidir.

Zəhəbi "Siyəru ə`lamin-nübəla"da yazır: "Nümunəvi imam Əbu Muhəmməd Abdullah ibn Əbul-Həsən ibn Əbul-Fərəc əş-Şami, əl-Cübbai, Cübbə qəsəbəsindən, Trablus işçilərindəndir. Atası xristian idi. Oğlu kiçik yaşlarında olarkən atası İslamı qəbul etdi, Quranı əzbərlədi, 540-cı ildə 21 yaşında ikən Bağdada gəldi, Şeyx Əbdülqadirlə yoldaş oldu, İbn Təlayədən və İbn Nasirdən, İsfəhanda Əbul-Xeyr Bağbandan və Məsud əs-Səqəfidən və başlarından hədis dinlədi, üsul elmini öyrəndi, İsfahanı özünə vətən qərar verdi. Hədisləri qəbul olunurdu, ali dərəcəsi vardı, doğru danışan idi və etina olunurdu".[762]

Onlardan biri də Davud ibn Əbdürrəhman əl-Əttardır.

İbn Hibban "əs-Siqat" kitabında yazır: "Davud ibn Əbdürrəhman əl-Əttar, məkkəlidir, künyəsi Əbu Süleymandır, İbn Xeysəmdən, Əmr ibn Dinardan rəvayət etmiş, İbn Mübarək və Əhməd ibn Yunis də ondan nəql etmişlər. Bacarıqlı şəxs idi. 174-cü ildə vəfat etdi. Atası xristian idi, ətir satırdı, İslamı qəbul etmişdir. O,

---

[761] "Təzkirətul-huffaz", 1/395.
[762] "Siyəru ə`lamin-nübəla", 21/488.

şamlıdır. Məkkəyə gəldikdən sonra 100-cü ildə orada Davud dünyaya gəldi, Məkkənin fəqih və hədis alimlərindən birinə çevrildi”.[763]

Həmçinin Həsən ibn Davud ibn Babişad da onlardan biridir.

Xətib Bağdadi yazır: “Həsən ibn Davud ibn Babişad ibn Davud ibn Süleyman Əbu Səid əl-Misri. Bağdada gəlmiş, qazi Əbu Abdullah Seymuridən Əbu Hənifənin fiqhini öyrənmiş, oxuduğu müddətdə orada qalmışdır. Güclü zəkaya və gözəl fəhmə malik idi, bir neçə dəfə oxumaqla Quranı əzbərləmiş, ədəbiyyat, riyaziyyat, cəbr, qrammatika kimi elmlərin bir hissəsini hifz etmiş, Misirdə Əbu Muhəmməd ibn Nəhhasdan və onun təbəqəsində olanlardan hədis yazmış, həmçinin ondan hədislər rəvayət edilmişdir. Eləcə də məndən hədis yazmışdır. İnanılan, gözəl əxlaqlı və geniş ağıla sahib şəxs olub. Atası yəhudi idi, sonra İslamı qəbul etmiş və gözəl müsəlman olmuşdur. Elm əhli olaraq yad edilir. O, əslən farsdır”.[764]

Belə şəxslərin sayı olduqca çoxdur, onların hamısının adını burada sadalamağa lüzum görmürük. Adlarını qeyd etdiklərimiz sübut üçün kifayətdir. Bu şəxslər əhli-sünnə nəzərində Zürarənin şiələr nəzdindəki məqama sahib olmasalar da, atası yəhudi və ya xristian olan belə şəxslərin əhli-sünnə nəzərində etimad görmələri dəlil olaraq bizə yetərlidir. Hal belə olduqda, babası xristian olduğuna görə Zürarəni necə tənqid edə bilərlər?!

* * *

**Müəllif iddia edir: “Zürarə bu sözləri söyləyən şəxsdir: “Əbu Abdullahdan təşəhhüd haqqında soruşdum... Oradan ayrıldıqda onun saqqalına yelimi buraxdım və dedim: “Heç vaxt nicat tapmaz!” (“Rical”, Kəşşi, səh.142)”.**

**Cavab:** Bu kitabın əvvəlki bəhslərində qeyd edilən rəvayətin sənədinin zəif olduğunu və bu ibarələrdə Zürarənin heç bir qüsurunun olmadığını, məqsədinin başqa şəxs olduğunu izah etdik. Həmin bəhsə müraciət edə bilərsiniz.

* * *

---

763 “Kitabus-siqat”, 6/286.
764 “Tarixu Bağdad”, 7/307.

**Müəllif iddia edir: “Zürarə həmçinin deyir: “Allaha and olsun, əgər Əbu Abdullahdan eşitdiyim hər şeyi danışsaydım, kişilərin cinsi alətləri taxtanın üzərində şişərdi” (“Rical”, Kəşşi, səh.123)”.**

Müəllif bu sözə haşiyə yazaraq deyir: **“Bu, onun tərəfindən Əbu Abdullaha qarşı səsləndirilən bir ittihamdır. Məqsədi isə budur ki, Əbu Abdullah ona kişilərin şəhvətini qaldıracaq sözlər danışmışdır ki, bunları dinləyənlər özlərini taxta ilə də olsa, sakitləşdirməsələr, özlərinə gələ bilməzlər”.**

**Cavab:** Rəvayətin sənədinə göz yumaq, “...kişilərin kişilikləri taxtanın üzərində şişərdi” sözündəki məqsəd budur ki, “kişilərin” – yəni güc sahibi olan kişilər, burada vəsf olunana əlavə sifət izafə edilir; “...taxtanın üzərində şişərdi” – yəni onlar taxta üzərinə çarmıxa çəkilər və orada bədənləri şişənədək tərk edilərdilər.

Bu mənanı Seyid ibn Tavus “əl-İqbal” kitabında da qeyd edir. O, İmam Sadiqin (ə) Yunis ibn Yəquba olan bu sözlərini nəql edir: “Ey Yunis, Şaban ayının on beşi İmam Hüseyni (ə) ziyarət edən hər bir möminin bütün keçmiş günahları bağışlanır, onlara “Əməllərinizi yenidən (ağ səhifədən) başlayın” deyilir”. Dedim: “Bütün bunlar İmam Hüseyni (ə) Şaban ayının on beşi ziyarət edən şəxslər üçündür?” Buyurdu: “Ey Yunis, əgər İmam Hüseyni (ə) ziyarət etmək üçün oraya gələnlər üçün ayrılan mükafatları insanlara xəbər versəm, kişilərin kişilikləri taxtalar üzərinə qalxardı”.

Ardınca isə deyir: “İmamın “...kişilərin kişilikləri taxtalar üzərinə qalxardı” sözü – yəni onların şaban ayının on beşi İmam Hüseynin (ə) ziyarətinin fəzilətilə bağlı nəql etdiklərinin əzəmətinə və böyüklüyünə, Allahın verəcəyi böyük savablara və axirətdəki mükafatlara görə bunu anlamayan avam kəslər onları taxtalar üzərində çarmıxa çəkərdilər”.[765]

Əllamə Məclisi (r.ə) “əl-Bihar”da bunu daha da gözəl təqdim edir:

“İbn Tavusun (r.ə) sözlərinə əsasən, “kişilik” kəlməsini “kişilər” kəlməsinə sifət olaraq əlavə edilməsi kişidəki kişilik xüsusiyyətlərinin möhkəmliyini, xeyrə bağlılığını və səhlənkarlığa yol verməməsinin göstəricisidir...

---

[765] “İqbalul-ə`mal”, səh.225-226. Hədis “Vəsailuş-şiə” kitabında rəvayət olunub (10/366).

Deyilib: Məna budur ki, onlar bu işə verdikləri əhəmiyyətə görə minikləri olmasa belə, taxta üzərinə oturub oraya gələrlər. Həmçinin deyilib: Ziyarət əsnasında onlara (cənnətdə) ayrılan mükafatlar, ehtiraslar və evlilikləri eşidib cinsi alətləri üzərində oturduqları taxtaya yapışar. Yaxud: Onların eşitdikləri çoxsaylı fəzilət və məqamlar səbəbindən qayıtdıqdan sonra günaha cürət edər, hər taxtaya belə şəhvətlə yanaşarlar ki, bu da onların günaha olan cürət və etinasızlıqlarının ifadəsidir. Ancaq üstün olan Seyid ibn Tavusun (r.ə) rəyidir”.[766]

Buradan məlum olur ki, Zürarənin bu sözlərdəki məqsədi heç də iddiaçı müəllifin bu kəlmənin mənası ilə bağlı qeyd etdikləri deyildir. Çünki taxta üzərində şəhvət sakitləşdirməyin heç bir mənası yoxdur. Zürarə demək istəyir ki, əgər İmam Əbu Abdullahdan (ə) eşitdiyim hər sözü sizə danışsaydım, bu fikirlərinizə görə sizi çarmıxa çəkərdilər.

* * *

**Müəllif iddia edir: “İbn Miskandan nəql edilir: “Zürarənin belə dediyini eşitdim: “Allah Əbu Cəfərə mərhəmət etsin! Ancaq Cəfər isə, qəlbimdə ona qarşı dönüklük var”. Dedim: “Zürarəni bu hala gətirən səbəb nədir?” Dedi: “Çünki Əbu Abdullah onun rəzilliklərini ortaya çıxarmışdı” (“Rical”, Kəşşi, səh.131)”.**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Raviləri arasında Cəbrail ibn Əhməd əl-Fariyabi vardır ki, onun inanılan şəxs olması tərcümeyi-hal kitablarında sübuta yetməmişdir.

Bu rəvayətin ravilərindən biri də Muhəmməd ibn İsa əl-Übeydidir. Onun inanılan şəxs olmasında fikir ayrılığı vardır. Zürarəni tənqid edən rəvayətlərin əksəriyyəti məhz ondan nəql edilmişdir. Ona görə də Seyid Əhməd ibn Tavus özünün “Həllul-işkal” kitabında yazır: “Muhəmməd ibn İsa Zürarə barəsində çox söz danışmışdır. Əgər Zürarə ədalətli şəxs dərəcəsində olmasaydı, bütün bu gümanlar sürətlə ona qarşı ittihamlara çevrilərdi. Belə ki, barəsində tənqidi sözlər vardır”.[767]

---

[766] “Biharul-ənvar”, 101/95.
[767] “ət-Təhrir”, İbn Tavus, səh.127.

Rəvayətdə qeyd edilən "...qəlbimdə ona qarşı dönüklük var" sözünə gəldikdə, ərəbcə mətndə müəllifin iddia etdiyi kimi, "dönüklük" mənasını ifadə edən "ləftə" deyil, "ləənnə" kəlməsi qeyd olunub.

Mir Daməd bu kəlmənin izahında deyir:

"Zürarənin "...qəlbimdə ona qarşı "ləənnə" var" sözündəki "ləənnə" kəlməsinin əvvəlindəki "lə" təkid üçündür, sonra gələn "əyn" hərfi üzərində həm "ə", həm də "u" səsi ilə oxunur. Yəni, "Qəlbimdə ona qarşı bir etiraz və irad vardır". Yaxud "Qəlbimdə bir həyəcan və narahatlıq vardır". Və ya: "Qəlbimdə səbəbini bilmədiyim ani bir etiraz və qarışıqlıq vardır". Belə ki, "Mucməlul-luğət"də ("ənnə" kəlməsindən istifadə edilməklə) deyir: "Onu bir göz qırpımı qədər gördüm"."[768]

Rəvayətdəki "Çünki Əbu Abdullah onun rəzilliklərini ortaya çıxarmışdı" sözünə gəldikdə, bu, İmamın (ə) deyil, ravinin sözləridir. Ola bilsin ki, "rəzillik" sözündə məqsəd İmam Sadiqin (ə) Zürarə haqqında söylədiyi mənfi sözlərdir. İnşallah, qarşı həmin sözləri təhlil edəcəyik.

* * *

**Müəllif iddia edir: "Ona görə də Əbu Abdullah onun barəsində deyir: "Allah Zürarəyə lənət eləsin!" (səh.133). Həmçinin deyir: "Allah Büreydə və Zürarəyə lənət eləsin!" (səh.134)".**

**Cavab:** Bu lənətin izahını qarşıda qeyd edəcəyik. Belə ki, bu lənət İmam Sadiq (ə) tərəfindən Zürarəinin ünvanına onun həyatı üçün qorxduğu vaxta təqiyyə olaraq deyilmişdir.

* * *

**Müəllif iddia edir: "Həmçinin Əbu Abdullah (r.a) buyurur: "İlahi, əgər cəhənnəm dayaz bir yer olsaydı, Əy`un ibn Sunsunun ailəsi onu genişləndirərdi" (səh.133)".**

**Cavab:** Bu rəvayətin sənədi zəifdir. Kəşşi bunu Əbul-Həsən Muhəmməd ibn Bəhr əl-Kirmani ər-Rəhni ət-Tərmaşiridən rəvayət edib. Həmin şəxs isə qəlbi nifrətlə dolu ğulatlardandır.

---

[768] Mir Damədin "İxtiyaru mə`rifətir-rical" kitabında haşiyəsi, 1/356.

Şeyx Tusi "əl-Fehrist"də yazır: "Muhəmməd ibn Bəhr ər-Rəhni Sicistan əyalətindəndir. Kəlamçi, hədis alimi və fəqih olub. Ancaq ğulatlıqda ittiham olunub".[769]

İbn Ğəzairi yazır: "Muhəmməd ibn Bəhr ər-Rəhni əş-Şeybani Əbul-Həsən ən-Nərmaşiri – zəifdir, məzhəbində həddi aşmaq vardır".[770]

Nəcaşi deyir: "Muhəmməd ibn Bəhr ər-Rəhni Əbul-Həsən əş-Şeybani, Kirman vilayətinin Tərmaşir qəsəbəsində məskunlaşıb. Əshabımızdan bəziləri demişlər: "Onun məzhəbində həddi aşmaq vardı, hədisləri kim tərəfindən deyildiyi cəhətdən deyil, məna cəhətdən salamatlığa yaxındır".[771]

Bu rəvayətin ravilərindən biri də Əbul-Abbas əl-Müharibi əl-Cəzridir. O, tərcümeyi-hal kitablarında barəsində əhəmiyyətli fikir söylənməyən şəxsdir.

Həmçinin ravilərdən biri də Füzeyl ər-Rəsandır, onun inanılan şəxs olması tərcümeyi-hal kitablarında isbatlanmayıb.

Bundan əlavə, Kəşşi bu rəvayəti nəql etdikdən sonra ardınca bu sözləri yazır: "Muhəmməd ibn Bəhr ğulatdır, Fəzalə isə Yaqubun ravilərindən deyil, bu hədisə artırma vardır və məcrası dəyişdirilmişdir".[772]

Zürarə və digərlərinin tənqidi üçün belə bir hədisə necə etimad bəsləmək olar?!

* * *

**Müəllif iddia edir: "Həmçinin deyir: "Zürarə azmış və üzərində Allahın lənəti olduğu halda öləcək" (səh.134)".**

**Cavab:** Bu hədisin sənədi zəifdir. Raviləri sırasında Cəbrail ibn Əhməd vardır, əvvəldə də qeyd etdiyimiz kimi, o, Fariyabidir. Tərcümeyi-hal kitablarında inanılan şəxs olması sübuta yetməyib.

Həmçinin ravilərdən biri əl-Übeydidir ki, o da Muhəmməd ibn İsadır. Yuxarıda onun barəsində ixtilafın olduğunu qeyd etdik.

* * *

---

769 "əl-Fehrist", Tusi, səh.208.
770 "Rical", İbn Ğəzairi, səh.98.
771 "Rical", Nəcaşi, 2/303, "Hicriyyə" mətbəəsi, səh.271.
772 "İxtiyaru mə`rifətir-rical", 1/363.

**Müəllif iddia edir: "Eləcə də Əbu Abdullah buyurur: "Bu Zürarə ibn Ə`yun, Allaha and olsun ki, Quranda Allahın belə vəsf etdiyi şəxslərdəndir: "Onların etdikləri hər hansı bir (yaxşı) əməli Biz qəsdən (havada uçan) dağınıq zərrələrə (toz dənələrinə) döndərərik!" ("əl-Furqan" surəsi, ayə 23.) ("Rical", Kəşşi, səh.136)".**

**Cavab:** Rəvayətin raviləri bunlardır: Muhəmməd ibn Məsud Cəbrail ibn Əhməddən, o da Musa ibn Cəfərdən, o da Əli ibn Əşyəmdən, o da bir şəxsdən, o da Əmmar əs-Sabatidən.

Ravilər sırasında "bir şəxs" olduğu üçün rəvayət mürsəldir. Bundan əlavə, ravilər arasında Cəbrail ibn Əhməd vardır ki, onun tərcümeyi-halını yuxarıda qeyd etmişik.

Həmçinin ravilərdən biri Əli ibn Əşyəmdir. O, Əli ibn Əhməd ibn Əşyəmdir. Tərcümeyi-hal kitablarında onun inanılan şəxs olması sübuta yetməyib. Nəinki, Şeyx Tusi (r.ə) onun məchul şəxs olduğunu bildirib. Eləcə də bir dəstə alimimiz onu zəif sayıb. Onlardan Mühəqqiq Hilli "əl-Mö`təbər"də zəif olduğunu deyir və bu sözü Nəcaşinin "əl-Müsənnifun", İbn Fəhdin "əl-Muhəzzəb", Şəhidus-Saninin "əl-Məsalik" kitablarına nisbət verilir, həmçinin sonrakı alimlərə və digərlərinə istinad edilir".[773]

Ravilər arasında Musa ibn Cəfər də vardır ki, onun da inanılan şəxs olması tərcümeyi-hal kitablarında isbatlanmayıb. O, bir dəstə şəxsin arasında qeyd edilir ki, onlardan heç biri inanılan şəxs qismində təsdiqlənməyib.[774]

* * *

**Müəllif iddia edir: "Həqiqətən də bəzən bir qövmə iman borc olaraq verilir, sənra da geri alınır. Qiyamət günü belə şəxslərə "İman borc verilmiş kəslər" deyiləcək. Zürarə ibn Ə`yun da onlardandır" (səh.141)".**

**Cavab:** Bu hədisin sənədi zəifdir: Muhəmməd ibn Yəzdaddan, o da Muhəmməd ibn Əli ibn Həddaddan, o da Müs`ədə ibn Sədəqədən.

---

[773] "əl-Mö`təbər", 1/292; "əl-Mühəzzəb", 1/182; "əl-Məsalik", 3/394.
[774] "Mö`cəmu ricalil-hədis", 19/31-37.

Kəşşinin Muhəmməd ibn Yəzdaddan nəql etdiyi rəvayətlərin əksəriyyəti inanılan şəxs olan Muhəmməd ibn Məsud əl-Əyyaşi,[775] ya Kəşşilərdən olan Muhəmməd ibn Həsən və Osman ibn Hamid[776] vasitəsilədir. Sonuncu iki şəxsin inanılan şəxs olduqları tərcümeyi-hal kitablarında sübuta yetməyib.

Bir az dərin araşdırdıqda Kəşşinin (r.ə) öz kitabında nəql etdiyi bəzi rəvayətlərdə ravilərin bəzilərinin adlarını qeyd etməməyə çalışdığını görürük. Əminik ki, Kəşşi Muhəmməd ibn Yəzdaddan müəyyən şəxslərin vasitəsilə rəvayəti nəql edir, bu şəxslər ya Əyyaşi (inanılan şəxs), ya da inanılan şəxs olduqları sübuta yetməyən digər iki şəxsdir. Buna əsasən, həmin rəvayət müəyyən cəhətdən mürsəldir.

Ravilərdən biri də Muhəmməd ibn Əli əl-Həddaddır, onun inanılan şəxs olduğu tərcümeyi-hal kitablarında sübuta yetməyib. Həmçinin digər ravi Müs`ədə ibn Sədəqə barədə də ixtilaflı fikirlər mövcuddur. Seyid Əhməd ibn Tavus (r.ə) onun əhli-sünnə məzhəbindən olduğunu bildirib.[777]

Nəticə: rəvayətin sənədi olduqca zəifdir, heç bir məsələyə dair onu dəlil saymaq olmaz.

* * *

**Müəllif iddia edir: "Həmçinin deyir: "Əgər xəstələnsə, ona baş çəkmə, əgər ölmüş olsa, dəfnində iştirak etmə". Təəccüblü halda ondan soruşuldu: "Zürarəni?" Buyurdu: "Bəli, Zürarə! O, yəhudilərdən, xristianlardan və Allaha barədə üçün üçüncüsü deyənlərdən daha pisdir. Həqiqətən Allah Zürarəni çevirmişdir!"**

**Cavab:** Rəvayətin istinadı bu şəxslərədir: Muhəmməd ibn Əhməddən, o da Muhəmməd ibn İsadan, o da Əli ibn Həkəmdən, o da bəzi şəxslərdən, o da Əbu Abdullahdan (ə).

Göründüyü kimi, rəvayət mürsəldir. Əli ibn Həkəmin rəvayəti kimdən nəql etdiyi naməlumdur.

---

775 "İxtiyaru mə`rifətir-rical", 1/288.
776 "İxtiyaru mə`rifətir-rical", 1/288, 340, 2/492, 515, 596, 606, 652, 712, 853. Yalnız Muhəmməd ibn Həsən haqqında isə 2/853-cü səhifədə rəvayət olunur.
777 "ət-Təhrir", İbn Tavus, səh.128.

“Həqiqətən Allah Zürarəni çevirmişdir!” sözü isə rəvayətin bir hissəsi deyildir, o başqa bir rəvayətdən götürülmüşdür. Həmin rəvayətdə deyilir: “Həqiqətən də bu kəniz əlindəki bu qabı çevirdiyi kimi, Allah da Zürarənin qəlbini çevirmişdir”.

Həmçinin bu rəvayət də zəifdir. Onun istinadında da bu Əli vardır. Deyir: “Yusif ibn Suxt mənə Muhəmməd ibn Cümhurdan, o da Fəzalə ibn Əyyubdan, o da Meysərdən...

Yusifin zəif olduğunu əvvəldə qeyd etdik.

Muhəmməd ibn Cümhur da zəifdir.

Nəcaşi onun tərcümeyi-halında yazır: “Muhəmməd ibn Cümhur Əbu Abdullah əl-Əmmi, hədis nəql etməkdə zəifdir, məzhəbi yanlışdır, onun barəsində bəzi mənfi fikirlər söylənmişdir. Halını Allah daha yaxşı bilir”.[778]

İbn Ğəzairi isə yazır: “Muhəmməd ibn Cümhur Əbu Abdullah əl-Əmmi, həddi aşandır (ğulatdır), hədislərində yanlışlıq vardır, söylədiyi hədislər yazılaraq qeyd edilməz”.[779]

Şeyx Tusi “Rical” kitabında yazır: “Muhəmməd ibn Cümhur əl-Əmmi - ərəbdir, bəsrəlidir, ğulatdır”.[780]

* * *

**Müəllif iddia edir: “Deyir: “Zürarə mənim imamlığıma şəkk etmişdi və mən Rəbbimdən onu mənə verməsini dilədim” (səh.138)”.**

**Cavab:** Həmçinin bu rəvayətin də sənədi zəifdir. Raviləri bunlardır: Muhəmməd ibn Quləveyh deyir: Səd ibn Abdullah mənə Həsən ibn Əli ibn Musa ibn Cəfərdən, o da Əhməd ibn Hilaldan, o da Əbu Yəhya Zərirdən, o da Dərəst ibn Əbu Mənsur əl-Vasitidən nəql edir.

Ravilər sırasında Həsən ibn Əli ibn Musa və Əbu Yəhya Zərir var ki, onların ikisi də məchul şəxslərdir. Əhməd ibn Hilal isə Əbərtaidir.

Şeyx Tusi “əl-Fehrist”də yazır: “Əhməd ibn Hilal Əbərtai... 180-ci ildə doğulub, 267-ci ildə vəfat edib. Ğali və dinində ittiham olunan şəxs idi”.[781]

---

[778] “Rical”, Nəcaşi, 2/225.
[779] “Rical”, Ğəzairi, səh.92.
[780] “Rical”, Tusi, səh.364, rəqəm 17.

Nəcaşi yazır: "Əhməd ibn Hilal Əbu Cəfər Əbərtai, düzgün rəvayətləri vardır, bu rəvayətləri həm qəbul və həm də inkar edilir. Onun barəsində ağamız Əbu Muhəmməd Əskəridən (ə) məzəmmətli sözlər rəvayət olunub".[782]

Onlardan biri də Dərəst ibn Əbu Mənsurdur ki, vaqifi məzhəbindəndir, inanılan şəxs olduğu sübuta yetməyib.

Şeyx Tusi "Rical"da yazır: "Dərəst ibn Əbu Mənsur əl-Vasiti, vaqifidir, Əbu Abdullahdan (ə) rəvayət edib".[783]

Bundan əlavə, rəvayətdə Zürarəni məzəmmət edən bir fakt yoxdur. Əksinə, onun mədhinə dəlalət edir. Belə ki, rəvayətdən anlaşıldığına görə, Zürarə İmam Musa ibn Cəfərin (ə) imamlığına şəkk edir və İmam (ə) Zürərəni ona bəxş etməsini Allahdan diləyir. Allah da onu İmama (ə) bəxş edir və Zürarə onun imamlığını təsdiqləyir.

Seyid Əhməd ibn Tavus (r.ə) özünün "Həllul-işkal" kitabında yazır: "Burada deyiləcək sözüm budur: Rəvayətin sənədi Əhməd ibn Hilal cəhətdən zəifdir və bu səbəbdən zərbə alır. Həmçinin rəvayətdə Zürarəinin nicat tapdığına şahidlik vardır".[784]

* * *

Müəllifin bu yerdə bir haşiyəsi də vardır. Orada iddia edir: **"Bütün mərcə və alimlərimiz Əbu Abdullahın (ə) Zürarə barədə tənqidi sözlərini təqiyyə kimi təfsir edirlər. Bəs o zaman Zürarənin Əbu Abdullah barədə söylədiklərinə nə ad verək?! Halbuki o məlun "Əbu Abdullahın saqqalına yel buraxım!" deyir. Məgər bu da təqiyyədir?!"**

**Cavab:** Biz əvvəldə də qeyd etmişdik ki, iddiaçı müəllif təqiyyənin nə olduğunu bilmir. Ona görə də kitabında təqiyyəni dəfələrlə yanlış mənada ifadə edir.

Zürarə barədə deyilənlər bir neçə cəhətdən izah olunur ki, qarşı bunu bəyan edəcəyik.

Müəllifin İmam Sadiqin (ə) Zürarəni tənqid edən sözləri ilə Zürarənin onun barəsindəki sözləri arasında hansı əlaqə tapdığını anlamaq çətindir. Rəvayətin

---

781 "əl-Fehrist", səh.83.
782 "Rical", Nəcaşi, 1/218.
783 "Rical", Şeyx Tusi, səh.336, rəqəm 3.
784 "ət-Təhrir", İbn Tavus, səh.124.

sənədinin zəif olması ilə bərabər Zürarənin sözləri də İmam Sadiqin (ə) onun barəsində söylədiklərinin təqiyyə xarakteri daşıdığının inkarına dəlalət etmir.

Müəllif haşiyəsini belə davam etdirir: **“Xeyr, Zürarə ilə Əbu Abdullah arasında baş verənlərin səbəbinin məhz Zürarənin çirkin söz və hərəkətləri, eləcə də onun bidətləri olduğunu bizim üçün isbatlayır. Əks halda, Əbu Abdullah onun barəsində bu sözləri söyləməzdi”.**

**Cavab:** Zəif rəvayətlər heç nəyi isbatlamaz. Əvvəldə də təqdim etdiyimiz kimi, Zürarənin tənqid edildiyi bütün rəvayətlərin sənədləri zəifdir. Onun mədhinə dəlalət edən səhih rəvayətləri kənara atıb, zəif rəvayətlərə etimad etməyimiz əsla doğru olmaz.

Müəllif öz iddiasının doğruluğunun isbatı və Zürarənin tənqidə layiq əməllərinin təsdiqi üçün heç olmazsa, bir səhih rəvayət təqdim etməli idi. Lakin o, bunu bacarmayıb.

* * *

**Müəllif iddia edir: “Əgər Zürarə xristian bir ailənin övladı idisə, Əbu Abdullahın imamlığına şəkk edir, onun saqqalına yel buraxır və əsla nicat tapmayacağını düşünürdüsə, onun İslam dininə hansısa fayda verəcəyinə niyə ümid bəsləyirik?!**

**Bizim “Səhih”lərimiz (!?) Zürarənin hədisləri ilə doludur və o, ravilər arasında mühüm yerlərdən birini tutur. Halbuki o, Əhli-Beyt barədə yalanlar uyduran və Əbu Abdullahın sözlərinə əsasən, İslama heç kimsənin gətirmədiyi bidətləri gətirən kəsdir... “Səhih”lərimizə (!?) müraciət edən hər bir şəxs bu sözlərin mənbəyini orada görəcək. Büreyd də Zürarənin tayıdır. Belə ki, Əbu Abdullah (r.a) onların ikisini də lənətləmişdir”.**

**Cavab:** Müəllifin Zürarənin tənqidi ilə bağlı təqdim etdiyi rəvayətlərin zəif olduğunu möhtərəm oxucu üçün qeyd etdik. Məsələyə izah üçün bunları da əlavə edə bilərik:

**Birinci:** Zürarənin tənqidilə bağlı varid olan bütün rəvayətləri və ya onların əksəriyyətini yalnız Kəşşi öz kitabında nəql edir, digər alimlər isə rəvayət etməmişlər. Bu isə faktı zəiflədən amildir.

**İkinci:** Bu rəvayətlərin hamısının və ya əksər hissəsinin sənədi zəifdir. Onların zəiflik cəhətlərini yuxarıda qeyd etmişik. Zəif hədisləri dəlil kimi necə təqdim etmək və onlara etimad göstərmək olar?!

**Üçüncü:** Həmin rəvayətlər Zürarəni mədh və tərif edən digər səhih hədislərə ziddir.

**Bu hədislərdən:** Cəmil ibn Dərracın hədisi: "İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "İtaətkarları cənnətlə müjdələ: Büreyd ibn Müaviyə əl-İcli, Əbu Bəsir Leys ibn Buxturi əl-Muradi, Muhəmməd ibn Müslim və Zürarəni. Bu dörd şəxs nəcib, Allahın haram və haramlarının əmanətdarlarıdır. Əgər onlar olmasaydı, peyğəmbərlik izləri (mirası) kəsilər və aradan gedərdi".[785]

Süleyman ibn Xalidin səhih hədisi: "İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "Zürarə, Əbu Bəsir Leys əl-Muradi, Muhəmməd ibn Müslim və Büreyd ibn Müaviyə əl-İclidən savayı bizim hədislərimizi yaşadan bir şəxs tanımıram. Əgər onlar olmasaydı, heç kəs bunları əldə edə bilməzdi. Onlar dinin keşikçiləri, halal və haramlar barədə atamın (ə) əmanətdarlarıdır. Onlar dünyada da, axirətdə də bizə tərəf gələn insanların önündədirlər".

Əbul-Abbas əl-Fəzl ibn Abdullahdan nəql olunur: "İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "Ölü və diri insanlardan mənim üçün ən sevimliləri dörd şəxsdir: Büreyd ibn Müaviyə əl-İcli, Zürarə, Muhəmməd ibn Müslim və Əhvəl. Onlar ölü və dirilər arasında mənim üçün ən sevimli şəxslərdir".

Müfəzzəl ibn Ömər İmam Əbu Abdullah Sadiqin (ə) Feyz ibn Muxtara belə buyurduğunu nəql edir: "Əgər bizim hədislərimizi (əldə etmək) istəsən, bu əyləşən şəxsdən götür". Bunu söyləyib əshabından bir şəxsə işarə etdi. Mən əshabımızdan həmin şəxsin kimliyini soruşduqda onlar "Zürarə ibn Ə`yun" deyə cavab verdilər".

İbrahim ibn Əbdülhəmid və digərləri deyirlər: "İmam Əbu Abdullah (ə) buyurdu: "Allah Zürarə ibn Ə`yuna rəhmət eləsin! Əgər Zürarə və ona bənzər şəxslər olmasaydı, atamın (ə) hədisləri aradan gedərdi".

Əbu Übeydə Həzza deyir: "İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "Zürarə, Əbu Bəsir, Muhəmməd ibn Müslim və Büreyd Allahın barələrində

---

[785] "İxtiyaru mə`rifətir-rical", 1/398.

belə buyurduğu şəxslərdəndir: ***“Və öndə olanlar. Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də) öndədirlər! Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir”.***

Bu mövzuda olan hədislər çoxdur. Onların hamısı ilə tanış olmaq istəyənlər nəql edildiyi kitablara müraciət edə bilərlər.

**Dördüncü:** Zürarə və digər böyük ravilər barədə məzəmmətli sözləri özündə ehtiva edən və İmam Sadiqdən (ə) nəql edilən bəzi rəvayətlərə gəldikdə, bunlar zalım müxaliflərin nəzərlərini onlardan yayındırmaq, onlara hər hansı bir zərər və əziyyətin yetişməsinin qarşısını almaq məqsədilə təqiyyə olaraq söylənmişdir.

Belə rəvayətlərdən birini Kəşşi Abdullah ibn Zürarə sənədilə nəql edir: “Əbu Abdullah (ə) mənə dedi: “Atana məndən salam söylə və ona de: “Mən bəzən səni müdafiə etmək üçün danlayır və məzəmmət edirəm. Belə ki, camaat və düşmənlər bizim özümüzə yaxın tutduğumuz və məqamını mədh etdiyimiz şəxsləri sevgi bəslədiyimiz və yaxın bildiyimizə görə əziyyət verməyə çalışır və böhtanlar atır, öldürməyə cürət edirlər. Ancaq bizim tənqid etdiyimiz kəsləri isə tərifləyirlər. Mən səni ona görə məzəmmət edir və danlayıram ki, sən bizə yaxınlığın və bizə olan meylinlə məşhurlaşmışsan. Ona görə də camaat arasında məzəmmət olunur, bizə olan itaət, məhəbbət və meylinə görə mədh edilmirsən. Mən səni tənqid və məzəmmət etməkdə məqsədim onların səni dini məsələlərlə bağlı tərifləmələridir ki, nəticədə onların şərini səndən uzaqlaşdırım. Uca Allah buyurur: ***“Belə ki, gəmi dənizdə çalışıb-vuruşan bir dəstə yoxsula mənsub idi. Mən onu xarab etmək istədim, çünki həmin adamların arasında (yaxud qabağında) hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi”.***[786] Bu, Allah tərəfindən xeyirxahlıq olaraq nazil edilmişdir. Xeyr, Allaha and olsun, gəmini padşahın ələ keçirməməsi üçün xarab etmişdi. Bu, bir xeyirxah əməl idi və Allaha həmd olsun ki, bunda heç bir eyib yoxdu. Bu məsələni yaxşıca anla, Allah sənə mərhəmət göstərsin! Allaha and olsun, sən mənə insanlar arasından, eləcə də atamın (ə) həyatda olan və ölmüş əshabından mənə ən sevimli şəxssən. Həqiqətən də sən, həmin böyük dənizin ən fəzilətli gəmisisən, arxandan isə qəsbkar və zalım padşah gəlir ki, hidayət dənizində üzən bütün salamat gəmiləri

---

[786] “əl-Kəhf” surəsi, ayə 79.

gəmidəkilərlə birlikdə qəsb etmək üçün (fürsət) gəzir. Həyatda ikən də Allahın mərhəməti sənə olsun, öldükdə də Onun rəhmət və razılığı üzərində olsun! Oğlanların Həsən və Hüseyn sənin məktubunu mənə təqdim etdilər. Allah (Quran qissəsindəki) o iki oğlanı qoruduğu kimi, onları da atalarının salehliyinə görə hifz etsin və qorusun! Atamın (ə) və mənim sənə buyurduqlarımdan, Əbu Bəsirin isə sənə söylədiklərimizin əksini sənə bildirməsindən qəlbin sıxılmasın. Xeyr, Allaha and olsun, biz sənə də, ona da taqətiniz çatmayacaq bir şey buyurmadıq. Həmin sözlərin hər birinin bizdə haqqa müvafiq olan məna və izahları vardır. Əgər bizə izn verilsəydi, haqqın sizə buyurduqlarımızda olduğunu qəti şəkildə bilərdiniz. Bu məsələləri (yozum və aqibətini) bizə qaytarın, bizə təslim olun, hökmlərimizə səbir edin və onlara razı olun. Sizin aranızda bu ayrılığı salan rəhbərinizdir. O rəhbər ki, Allah Öz məxluqlarını onların vasitəsilə idarə edir. O, çətin anlarda öz sürüsünün məsləhətinə olanı ən yaxşı bilən çobandır. O istəsə, salamat qalmaları üçün onları bir-birindən ayırar, fəsadın və düşmənlərdən qorxunun aradan qalxdığına əmin olduqdan sonra isə onları Allahın iznilə, yenidən birləşdirər, bununla da onlara əmin-amanlıq və nicat bəxş edər. Sizin bizə təslim olmağınız və bu məsələlərlə bağlı işləri bizə həvalə etməyiniz, əmrimizi və öz işlərinizi, eləcə də bizim və sizin qurtuluşunuzu gözləməyimiz lazımdır...”.[787]

Hüseyn ibn Zürarədən nəql olunur: “İmam Əbu Abdullah Sadiqə (ə) dedim: “Atam sənə salam göndərir və deyir: “Allah məni sənə fəda eləsin! Bir neçə nəfər yanıma gəlib, sənin mənim barəmdə mənfi sözlər söylədiyini dedilər”. İmam (ə) buyurdu: “Atana salam söylə və ona de: “Allaha and olsun ki, sənin dünya və axirət xeyirlərinə nail olmağın mənim üçün çox sevimlidir. Allaha and olsun ki, mən səndən razıyam. Bundan sonra camaatın dediklərinə əsla əhəmiyyət vermə”.[788]

Həmzə ibn Hümrandan nəql olunur: “İmam Əbu Abdullaha (ə) dedim: “Mənə xəbər çatıb ki, siz əmimdən (yəni Zürarədən) uzaq olduğunuzu bildirmisiniz”. Buyurdu: “Mən Zürarədən uzaq olduğumu bildirməmişəm, lakin camaat gəlir, onun haqqında danışır və onun sözlərini mənə çatdırırlar. Əgər həmin sözlərə qarşı susmuş

---

[787] “İxtiyaru mə`rifətir-rical”, 1/349.
[788] “İxtiyaru mə`rifətir-rical”, 1/352.

olsam, buna görə məndən cavab tələb edəcəklər. Ona görə də mən belə deyirəm: “Bunu kim söyləyibsə, mən ondan uzağam və Allaha sığınıram”.[789]

Zürarənin mədh və tərifinə, eləcə də barəsindəki mənfi sözlərdən bəraətinə dəlalət edən hədislər çoxdur. Burada qeyd etdiklərimiz mövzu üçün yetərlidir.

Bütün bunlardan aydın olur ki, Züarərə ibn Ə`yunun (r.ə) tənqidi üçün iddiaçı müəllifin sadaladığı hədislərə əhəmiyyət vermək olmaz.

* * *

**Müəllif iddia edir: “Əbu Bəsir Leys ibn əl-Buxturi:**

**Bu Əbu Bəsir əri olduğunu bilmədiyi halda qadınla evlənən kişi haqda İmam Museyi-Kazımdan (r.a) sual soruşulduğu zaman ona qarşı cürət edən şəxsdir.**

**Əbul-Həsən (r.a) dedi: “Qadın daşqalaq olunar, qadının evli olduğunu bilmədiyi halda kişinin heç bir cəzası yoxdur”... Əbu Bəsir onun sinəsinə vurub dedi: “Düşünürəm dostumuzun elmi kamil deyildir” (“Rical”, Kəşşi, səh.154).**

**Yəni o, Kazımı (r.a) elminin azlığı ilə ittiham edir!!!”**

**Cavab:** Rəvayətin istinadı bu şəxslərdir: Əli ibn Muhəmməd Muhəmməd ibn Əhməddən, o da Muhəmməd ibn Həsəndən, o da Səfvandan, o da Şüeyb ibn Yaqub Əqərqufidən.

Rəvayətin sənədi zəifdir.

Təhqiqatçı Xoyi “Möcəmu ricalil-hədis” kitabında yazır:

“Rəvayət zəifdir. Əli ibn Muhəmməd inanılan şəxs kimi təsdiqlənməyib, Muhəmməd ibn Əhməd (halı) naməlum kəsdir, Səfvandan nəql Muhəmməd ibn Həsənin də inanılan şəxs olduğu isbatlanmayıb. Nəticə budur ki, tənqidlə bağlı bu rəvayətlərin sənədi tam deyildir və onlara etina olunmaz. Bəli, Şeyx bu sonuncu rəvayəti mətnindəki azacıq fərqlə etibarlı istinadla nəql edir. Orada Əli ibn Həsəndən, o da Əyyub ibn Nuhdan, Sindi ibn Muhəmməddən, o da Səfvan ibn Yəhyadan, o da Şüeyb Əqərqufidən rəvayət edir: “Əbul-Həsəndən (ə) soruşdum: ... (ta ki, deyir:) “Bunu Əbu Bəsirə söylədim. Mənə dedi: “Allaha and olsun, Cəfər (ə) belə demişdi: “Qadın daşqalaq olunar, kişiyə isə hədd cəzası olaraq qamçı vurular”. Əli sinəsində

[789] “İxtiyaru mə`rifətir-rical”, 1/358.

ikən (əlini sinəmə qoyub) onu sürtərək dedi: "Zənn etmirəm ki, dostumuzun elmi kamildir" ("ət-Təhzib", c.7, "Nikah hökmlərinə əlavələr", hədis 1957; "əl-İstibsar", c.3, hədis 687). Həmçinin bu məzmunda Əhməd ibn Muhəmməd istinadı ilə İbn Əbu Ümeyrdən, o da Şüeybdən nəql edir: "Əbul-Həsəndən ərli bir qadınla evlənmiş şəxs barədə soruşdum. Buyurdu: "Onları bir-birindən ayırmalıdırlar". Dedim: "Kişi qamçı vurulmalıdır?" Buyurdu: "Xeyr, niyə vurulsun ki?!" Onun yanından ayrıldım, Əbu Bəsirin Kəbənin navalçasının altında dayandığını gördüm. İmama (ə) verdiyim sualı və cavabını ona danışdım. Əbu Bəsir mənə dedi: "Mən indi harada dayanmışam?" Mən: "Kəbənin navalçasının altında" deyə cavab verdim. Əbu Bəsir əlini qaldırıb dedi: "Bu Evin Rəbbinə and olsun (və ya - Bu Kəbənin Rəbbinə and olsun), Cəfərin belə dediyini eşitmişəm: "Əli (ə) ərli bir qadınla evlənmiş kişi barədə hökm vermiş, qadını daşqalaq etdirmiş, kişiyə isə hədd cəzası tətbiq etmişdi". Sonra dedi: "Əgər sənin bildiyini bilsəydim, başını daşla yarardım". Ardınca dedi: "Bu barədə elmin verilməməsi mənim üçün necə də qorxuludur" ("ət-Təhzib", c.10, "Zinanın cəzası" fəsli, hədis 76).

Bu iki rəvayətin izahı üçün öz əhlinə müraciət etmək labüddür. Əgər bir kişi qadının ərli olduğunu bildiyi sübuta yetməyibsə, onu necə cəzalandırmaq olar? Onun bildiyini yalnız ehtimal etməklə cəzalandırmaq olmaz. Bu, rəvayətin verdiyi məna cəhətindəndir. Ancaq bu iki rəvayətin Əbu Bəsirin məzəmmət olunmasına dəlalət etdiyinə gəldikdə, məlum olan budur ki, o, özündə yaranmış şübhə səbəbindən dövrünün imamının (ə) elmi barədə düşüncəsində qüsura yol vermişdir, İmam Musanın (ə) verdiyi hökmün ata-babalarının (ə) verdiyi hökmə müxalif olduğu fikirini yaratmışdır. Hərçənd rəvayətdə bu hadisədən sonra da onun həmin fikirdə qaldığına heç bir dəlalət yoxdur və bu, onun inanılan şəxs olmasına zərər yetirmir. Həmçinin zahirən rəvayətdəki Əbu Bəsirin Leys əl-Muradi deyil, Yəhya ibn Qasim olması da düşünülə bilir. Qarşıda Leys əl-Muradinin İmam Kazımın (ə) əshabından olmadığını da biləcəksən".[790]

Seyid Xoyinin söylədikləri möhkəm sözlərdir və hədəfi birbaşa nişan almışdır.

* * *

---

[790] "Möcəmu ricalil-hədis", 14/149.

**Müəllif iddia edir: "Bir dəfə İbn Əbu Yəfur (!) Əbu Bəsirlə dünya işlərini müzakirə edirdilər. Əbu Bəsir dedi: "Əgər sizin yoldaşınızın əlinə düşsə, onu üstün tutar". Əbu Bəsir mürgülədikdə isə bir it gəlib ayağını qaldırdı və onun üzərinə idrar etmək istədi. Həmmad ibn Osman onu qovmaq üçün ayağa qalxdıqda İbn Əbu Yəfur ona "Dəymə" dedi. İt onun qulağına idrar etdi" ("Rical", Kəşşi, səh.154).**

**Göründüyü kimi, Əbu Bəsir Əbu Abdullahı dünyaya meyllilikdə və ona sevgidə ittiham edir. Beləliklə də Allah bir iti göndərib onun qulağına idrar etdirməklə Əbu Abdullah barədə söylədiklərinə görə onu cəzalandırır".**

**Cavab:** Bu rəvayət zəifdir. İstinadı bu şəxslərdir: Əli ibn Muhəmməd deyir: Muhəmməd ibn Əhməd ibn Vəlid mənə Həmmad ibn Osmandan nəql edir.

Əli ibn Əhmədin inanılan şəxs olduğu tərcümeyi-hal kitablarında sübuta yetməyib. Muhəmməd ibn Əhməd isə Seyid Xoyinin (q.s) də yuxarıda qeyd etdiyi kimi, məchul şəxsdir.

Rəvayətdəki "sizin yoldaşınız" sözündə isə məqsədin İmam Sadiq (ə) olduğu ehtimal verilsə belə, birmənalı ifadə edilmir. Daha güclü güman onun başqa bir şəxsi nəzərdə tutmasıdır. Çünki məqsədi İmam Sadiq (ə) olsaydı, "sizin yoldaşınız" sözünün əvəzinə "yoldaşımız" deyərdi, necə ki, əvvəlki rəvayətdə də bu qeyd olunmuşdu. Belə ki, bu, İmama (ə) işarə etmək üçün hamı tərəfindən qəbul olunan kəlmədir.

* * *

**Müəllif iddia edir: "Həmmad ən-Nab deyir: "Əbu Bəsir Əbu Abdullahın (r.a) qapısının önündə əyləşib içəri girmək üçün izn gözləyirdi, lakin ona izn verilmədi. O dedi: "Əgər yanımızda bir qab yemək olsaydı, izn verərdi". Deyir: Bir it gəlib Əbu Bəsirin üzünə idrar etdi. Əbu Bəsir dedi: "Uf, uf (!), bu nə idi?!"[791] Orada əyləşənlər dedilər: "Bu, üzünə idrar edən bir it idi" ("Rical", Kəşşi, səh.155).**

**Əbu Bəsir Əbu Abdullahı (r.a) ləziz yeməkləri sevməkdə ittiham edir. Belə ki, özləri ilə qabda yemək gətirməyənlərə içəri daxil olmağa icazə vermir. Lakin**

---

[791] Müəllif buradakı haşiyədə yazır: **"Çünki o, kor idi".**

**Allah bu sözlərinə görə onu yenə də cəzalandırır, bir iti göndərərək onun üzünə idrar etdirir".**

**Cavab:** Həmçinin bu rəvayətin də sənədi zəifdir. Raviləri bu şəxslərdir: Muhəmməd ibn Məsud deyir: Cəbrail ibn Əhməd mənə Muhəmməd ibn İsadan, o da Yunusdan, o da Həmmad ən-Nabdan nəql edir...

Cəbrail ibn Əhmədin tərcümeyi-hal kitablarında inanılan şəxs olması sübuta yetməyib.

Seyid Xoyi deyir: "Cəbrail ibn Əhməd inanılan şəxs qismində təsdiqlənməyib. Zahirdə görünən budur ki, rəvayətdəki Əbu Bəsir Yəhya ibn Qasimdir. Belə ki, onun korluğu vardı. Ancaq Əbu Bəsir əl-Muradinin kor olduğuna dair bir dəlilimiz yoxdur. Aydındır ki, onun Əbu Bəsir künyəsilə adlandırılması da buna dəlalət etmir".[792]

Bundan əlavə, rəvayətdəki "izn verdi" kəlməsinin "izin verildi" kimi yazılması da ehtimal olunur. Bu zaman izn verən şəxsin ev əhli və ya İmamın (ə) xidmətçisi olması da mümkündür. Müəllifin nə üçün məlum feldən istifadə etdiyi və felin icraçının məhz İmam (ə) olduğu qənaətinə gəldiyini anlamaq olmur.

Beləliklə, Əbu Bəsirin sözlərindəki irad İmamın (ə) xidmətçisinə qarşı yönəlmişdir ki, tez icazə almağı özü ilə bir qab yemək də gətirməyə bağlayır. Hal belə olduqda, Əbu Bəsirin sözlərindəki məzəmmətin də heç bir müşkülü qalmır.

* * *

**Müəllif iddia edir: "Əbu Bəsir əxlaq cəhətindən də güvənilən şəxs deyildi. Bu barədə öz əleyhinə şahidlik edərək deyir: "Bir qadınla dərs oxuyur və ona Quranı öyrədirdim. Günlərin birində onunla bir şey barədə zarafat etdim. Qadın Əbu Cəfərin (r.a) yanına getdi (yəni, gedib ona şikayət etdi). Əbu Cəfər mənə dedi: "Ey Əbu Bəsir, qadına nə söyləmisən?" Dedim: "Əlimlə belə etdim və üzünü örtdü!"**

**Əbu Cəfər dedi: "Bir də bunu etmə!" ("Rical", Kəşşi, səh.154).**

**Yəni, Əbu Bəsir əlini uzadaraq ləzzət məqsədilə (!) qadının cisminə toxunmuş və onunla zarafat etmişdi. Halbuki o, qadına Quran öyrədirdi!!!"**

---

[792] "Möcəmu ricalil-hədis", 14/149.

**Cavab:** Seyid Xoyi deyir: "Bu rəvayətdə məzəmmətə dəlalət edən heç bir şey yoxdur. çünki Əbu Bəsirin etdiyi zarafatın haram zarafat olduğu bilinmir. Mümkündür ki, İmamın (ə) onu bundan çəkindirməsi qarşıda harama mürtəkib olmaması üçün onu qorumaq məqsədi daşıyır. Doğrusunu Allah bilir!"[793]

İddiaçı müəllif mətni elə tərtib etmişdir ki, sanki qadın İmam Əbu Cəfərin (ə) yanına gələrək Əbu Bəsirdən şikayət edir. Halbuki rəvayətin mətnində buna dəlalət yoxdur. Rəvayətin düzgün mətni belədir: "Mən Əbu Cəfərin yanına gəldim. O, mənə dedi...". Ancaq iddiaçı müəllif Əbu Bəsirin əməlini qorxunc təqdim etmək istəmiş və bir kəs xəbər vermədən İmamın (ə) hadisədən xəbər tutmasını gizlətməyə cəhd etmişdir. Bu məqsədlə rəvayətin mətnini təhrif edərək qadının İmamın (ə) yanına gələrək şikayət etdiyi kimi təqdim etmişdir.

Bu müəllifin və onun kimilərin Əbu Bəsirin qadınla haram və ya qeyri-haram cəhətdən zarafatlaşdığını bilmədikləri halda ittiham etmələri təəccüb doğurur. Halbuki onlar Malik ibn Nüveyrəni öldürüb onun həyat yoldaşı ilə zina edən Xalid ibn Vəlidi, Ümmü Cəmillə zina edən Müğeyrə ibn Şöbəni, qanuni xəlifəyə qarşı müharibəyə çıxmış və heç bir günahı olmayan on minlərlə müsəlmanın qətlinə səbəb olmuş Təlhə, Zübeyr, Müaviyə, Əmr ibn As və digərlərini tənqid və məzəmmət etmirlər!

Əhsən tənqid və məzəmmətdə ikili standartlarla davranan belə kəslərə!!!

* * *

**Müəllif iddia edir: "Əbu Bəsir qarışıq salan şəxs idi.**

**Muhəmməd ibn Məsud deyir: "Əli ibn Həsəndən Əbu Bəsir barədə soruşdum, dedi: "Əbu Bəsirin künyəsi Əbu Muhəmməddi, Bəni-Əsədin azad edilmiş köləsi idi. O, kor idi.**

**Onun ğüluvla (!) (dində həddi aşmaqla) ittiham edilib-edilmədiyi barədə soruşduğumda dedi: "Xeyr, həddi aşmamışdı və ittiham edilməmişdi. Lakin qarışıq salan şəxs idi". ("Rical", Kəşşi, səh.154)**

**Səhih kitablarda onun hədisləri olduqca çoxdur. Onların arasında qəribə və təəccüb doğuran hədislər də var. Əgər qarışıq salan şəxs idisə, o zaman dinə**

[793] "Möcəmu ricalil-hədis", 14/148.

**hansı yanlışları daxil etmişdir?! Məgər onun əcaib və təəccüb doğuran hədisləri həmin məzununu qarışıq saldığı hədislər deyilmi?!**

**Cavab:** Müəllif rəvayətin əvvəlini qeyd etməyib, onun başlanğıcı belədir:

Muhəmməd ibn Məsud deyir: “Əli ibn Həsən ibn Fəzzaldan Əbu Bəsir haqqında soruşdum. Dedi: “Onun adı Yəhya ibn Qasimdir. Əbu Bəsirin künyəsi Əbu Muhəmməddi, Bəni-Əsədin azad edilmiş köləsi idi. O, kor idi...”.

Aydındır ki, barəsində soruşulan şəxs kor olan Əbu Bəsir Yəhya ibn Qasim əl-Əsədi barədə idi, müəllifin bu fəsli adı ilə bağladığı Əbu Bəsir Leys əl-Muradi barədə deyildi. Ancaq müəllif oxucuda söhbətin Əbu Bəsirdən getdiyi təsəvvürünü yaratmaq üçün rəvayətin əvvəlini kəsərək məzəmmət olunan şəxsi məhz Leys əl-Muradi kimi təqdim edir. Halbuki rəvayətdə söhbətin Əbu Bəsir Yəhya ibn Qasim və ya başqa adı ilə İbn Əbul-Qasim olduğu aşkardır.

Ola bilsin ki, ictihad və fəqihlik iddiasında olan bu şəxs onları bir-birindən ayıra bilməyib, Əbu Bəsirin tək bir şəxs olduğunu zənn edib. Halbuki ictihad sahibi hər bir kəs onları bir-birindən ayırd etməyi bacarmalı idi.

Bundan əlavə, İbn Fəzzalın bu Əbu Bəsir Yəhya ibn Qasim haqqında sözləri də Nəcaşini onun barəsindəki rəyi ilə ziddiyyət təşkil edir. O deyir: “Yəhya ibn Qasim – Əbu Bəsir əl-Əsədi, ona Əbu Muhəmməd də deyilib, möhtərəm inanılan şəxsdir. O, Əbu Cəfərdən (ə) və Əbu Abdullahdan (ə) rəvayətlər nəql edib. Deyilib: Yəhya ibn Əbul-Qasim, adı Əbul-Qasim İshaqdır... Əbu Bəsir hicrətin 150-ci ilində vəfat edib”.[794]

Həmçinin Kəşşinin Şüeyb əl-Əqərqufidən nəql etdiyi səhih hədisə də ziddir. Orada deyir: “Əbu Abdullaha (ə) dedim: “Bəzən bir məsələ haqqında sualımız yaranır, belə olduqda kimdən soruşaq?” Buyurdu: “əl-Əsədidən soruş” Məqsədi Əbu Bəsirdir”.[795]

Eləcə də Kəşşinin bəyanına əsasən, rəvayətlərinə əməl olunması barədə Əbu Bəsirin icma əhlindən olduğuna dair məzhəb alimlərinin icmasına da xilafdır.

---

[794] “Rical”, Nəcaşi, 2/411.
[795] “İxtiyaru mə`rifətir-rical”, 1/400.

Kəşşi deyir: “Alimlər Əbu Cəfərin (ə) və Əbu Abdullah bu öncül əshabının təsdiqi barədə icma etmiş, fiqhdə onlara etimad göstərmişlər. Demişlər: keçmişdəkilərdən ən fəqih olanları bu altı şəxsdir: Zürarə, Məruf ibn Xərbuz, Büreyd, Əbu Bəsir əl-Əsədi, Füzeyl ibn Yəsar, Muhəmməd ibn Müslim ət-Taifi”.[796]

Hərçənd, qarışıq salma ehtimalının mümkünlüyü Əbu Bəsirin inanılan şəxs olmasına heç bir zərər yetirməz.

Seyid Xoyi deyir: “İbn Fəzzalın “O, qarışıq salırdı” sözü onun inanılan şəxs olması ilə heç bir təzad təşkil etmir. Belə ki, qarışıq salmağın mənası tanınıb və inkar olunmasıdır (yəni təhqiqatçı düşüncələri onun hədisini qəbul, adi fəhmlər isə inkar edir). Ola bilsin ki, İbn Fəzzalın nəzərində Əbu Bəsirin bəzi rəvayətləri inkar olunurdu, buna görə də onun barəsində “qarışıq salırdı” sözündən istifadə edir”.[797]

* * *

**Müəllif iddia edir: “Təbəristan alimləri:**

**Təbəristanda bir dəstə adam ortaya çıxaraq özlərini alim kimi qələmə vermişdilər. Onlar fitnə və fəsad yaratmaq üçün şiəliyə nüfuz etmişdilər. Məlumdur ki, inasanın əməlləri onun şahididir. Əgər əməllərin nəticəsi gözəl olarsa, bu şəxsin gözəl əxlaq, etiqad, davranış sahibi olduğuna və batininin sağlamlığına dəlildir. Bunun əksi isə ziddini isbatlayır. Əməllərin pis nəticələri insanın əxlaqının, əqidəsinin, davranış və rəftarının pisliyinə dəlalət edir.**

**Təbəristanın bəzi alimləri özlərindən sonra onların şəxsiyyətləri barədə şəkk yaradacaq əməllər qoyub getmişlər”.**

**Cavab:** Allaha həmd olsun ki, müəllifin söylədiyi iddiaların yanlış zənlərdən, zay xəyallardan və heç bir dəlil olmadan məzhəbin alimlərinə qarşı hücumlardan başqa bir şey olmadığı möhtərəm oxucu üçün qarşıda aydınlaşacaq.

Müəllifin adlarını qeyd edəcəyi şəxslər İmam şiələri məzhəbi üçün böyük və inkaredilməz xidmətləri olan uca məqamlı alimlərdir. Allah İslam və müsəlmanlar adından onlara geniş mükafat bəxş eləsin.

---

[796] “İxtiyaru mə`rifətir-rical”, 2/507.
[797] “Möcəmu ricalil-hədis”, 20/83.

Biz onların barəsində müəllifin əhli-sünnə alimləri barədə söylədiyi sözlərin eynisini hərfbəhərf deyə bilərik. Məgər bizim rəyimizə müxalif olan və bizi məzəmmət edən hər kəsi əhli-sünnə məzhəbinə öz məzhəbində fitnə-fəsad salmaq, müsəlmanları parçalamaq, əqidələrini çökdürmək, aralarına şübhələr atmaq, onların hidayət imamlarından (ə) yayındırıb zalım hökmdarlara boyun əydirmək, yəhudi və xristian etiqadlarını İslam etiqadı kimi qələmə vermək üçün nüfuz etməkdə ittiham edə bilərikmi?!

* * *

**Müəllif iddia edir: "Təbəristandan çıxmış üç nəfəri mülahizə edək:**

**1. Mirzə Hüseyn ibn Təqi ən-Nuri Təbərsi – "Fəslul-xitab fi isbati təhrifi kitabi rəbbil-ərbab" kitabının müəllifidir. O, öz əsərində Quranın təhrif olunduğunu isbatlamaq üçün minlərlə rəvayət, fəqih və müctəhidlərin sözlərini toplamışdır. Onun kitabı hər bir şiənin alnında rüsvayçılıq möhürüdür".**

**Cavab:** "Fəslul-xitab" kitabının hər bir şiənin alnında rüsvayçılıq möhürü olması mümkün deyildir. Çünki həmin kitabda müəllif özünün şəxsi nəzərini bəyan edir. Onun şəxsi rəyinə görə bütün şiələr məsuliyyət daşımaz. Həmçinin onun rəyi şiələr tərəfindən xəta kimi qiymətləndirilmiş və rədd edilmişdir. Biz bu kitabın əvvəlki bəhslərində həmin kitab haqqında söz açmış və onunla bağlı fikirlərimizi qeyd etmişik. Onları burada bir daha təkrarlamağa lüzum görmürük.

* * *

**Müəllif iddia edir: "Yəhudi və xristianlar Quranın təhrif olunduğunu iddia edirlər. Belə olduqda, yəhudi və xristianların iddiaları ilə Təbərsinin sözləri arasında nə fərq vardır? Məgər bir dürüst müsəlman Allahın nazil etdiyi və qoruyacağına vəd verdiyi bir kitabın təhrif edildiyinə və dəyişdirildiyinə şahidlik edərmi?!"**

**Cavab:** Yəhudi və xristianların sözləri əhəmiyyətsizdir, çünki bizim nəzərimizdə onların sözlərinin heç bir dəyəri yoxdur. Həmçinin hər hansı bir məsələdə onlarla həmfikir və ya müxalif olmaq da həqiqəti isbatlamaz.

Mirsə Hüseyn Nurinin (r.ə) İslamın dəstəklənməsi və yayılmasında böyük səyləri və məşhur əsərləri vardır. Bu kitabındakı yanlışları onun bütün səy və

mirasının inkarına, yaxud nəzərimizdə etibardan düşməsinə sövq etməz. Belə ki, hər bir atın büdrəməsi olduğu kimi, hər bir alimin də xətası ola bilər.

Bundan əlavə, o, "əlimizdə mövcud olan Quran nə isə artırılaraq və ya dəyişdirilərək təhrif edilib" deməmişdir. O, belə demişdir: "Əlimizdə mövcud olan Quran Allahın elçisinə (ə) nazil olanların hamısını ehtiva etmir". Bu söz isə əhli-sünnə alimlərinin də iddiasına uyğundur. İnşallah, qarşıda onların fikirlərini bəyan edəcəyik.

Ağa Bozorg Tehrani "əz-Zəriə" kitabında yazır:

"912: "Fəslul-xitab fi təhrifil-kitab" – şeyximiz Muhəmməd Təqi ibn Mirzə Əli Muhəmməd ən-Nurinin köləsinin oğlu Hacı Mirzə Hüseyn Nuri ət-Təbəristaninin kitabıdır... Həmin kitabda digər səmavi kitablarda vaqe olmuş artırmaq, dəyişmək və əvəzləmək yolu ilə Quranda təhrifin hətta bir kəlmə ilə də olsa, baş vermədiyini sübut etmişdir. O, hökm ayələrindən savayı digər ayələrdə azaltmaların olduğunu düşünmüşdür. Halbuki biz belə bir azaltmanın baş verdiyini bilmirik... Ona əl-Müərrəb kimi məşhur olan Şeyx Mahmud Tehrani "Kəşful-irtiyab ən təhrifil-kitab" adlı kitabı ilə irad yazaraq iddiasını rədd etmişdir. Bu xəbər Şeyx Nuriyə yetişdikdə ona fars dilində "Kəşful-irtiyab"dakı şübhələrə cavab xarakterli risalə yazmışdır. Necə ki, 10/220-ci səhifədə qeyd edildi. Bu, "Fəslul-xitab"ın çap və yayılmasından sonra baş vermişdi. Şeyximiz deyirdi: "Fəslul-xitab"ı oxuyub, ancaq bu risaləyə nəzər salmamağa razı deyiləm". O, cavab risaləsinin girişində belə yazmışdı: "Etiraz "təhrif" kəlməsinin yanlış anlaşılmasından baş vermişdir. Təhrif dedikdə mənim məqsədim dəyişdirilmə və ya əvəzlənmə deyildir. Ayələrin bəzilərinin müəyyən hissəsi öz əhli yanında gizlədilmişdir. Kitab dedikdə də məqsəd əlimizdə olan bu Quran deyildir. Belə ki, bu Quran Osmanın onu iki qilaf arasına yığdığı zamandan bəri dəyişilməmiş olaraq qalmaqdadır. Əlimizdəki Quranına nə bir hərf artırılmış və nə də ondan bir hərf azaldılmışdır. Məqsədim nazil olan ilahi kitabdır. Onun şifahi olaraq belə dediyini eşitmişəm: "Mən bu kitabda mövcud olanların ilk toplanan Quranda, eləcə də Osmanın dövründə toplanan Quranda var olduğunu isbatlamışam. Digər səmavi kitablarda olduğunun əksinə, Quranda nə bir dəyişiklik və nə də bir əvəzləmə vaqe olmamışdır. Daha yaxşı olardı ki, bu kitab "Fəslul-xitab fi ədəmi

təhrifil-kitab” (“Kitabın təhrif olunmamasına dair dəqiq bəyan”) adlandırılardı. İnsanları mənim məqsədimin əksinə olaraq yanlış anlamalarının səbəbi kitaba ad qoymada yol verdiyim xətadır. Lakin mənim məqsədim insanların anladıqları məna olmamışdır. Hədəfim ilahi vəhydən qoparılmış bəzi kəlmələrin varlığını bildirmək idi. Əgər istəsən, kitabın adını “Nazil olmuş vəhyin bəzi kəlmələrinin silinməsi barədə aydın sözlər” qoya bilərsiniz”.[798]

Bu fikir əhli-sünnə məzhəbində bir dəstə səhabədən nəql olunmuş səhih hədislərdə də mövcuddur. Halbuki həmin hədislərin bir hissəsi Quranın təhrif edildiyinə dəlalət edir.

**Bunlardan:**

* Müslim, Malik, Tirmizi, Əbu Davud, Nəsai və digərlərinin Aişəyə istinad edilən rəvayəti: “Quranda nazil olan ayələr arasında 10 dəfə süd vermənin məhrəmliyə səbəb olduğu vardı. Sonra bu ayə 5 dəfəyə endirilməklə ləğv olundu. Peyğəmbər (s) vəfat etdiyi vaxt qadınlar Qurandakı bu ayəyə əsasən davranırdılar”.[799]

Bu rəvayətdən aydın olur ki, Aişənin etiqadına əsasən, Peyğəmbər (s) dünyadan köçən dövrlərdə də qadının uşağa 5 dəfə süd verməsilə məhrəmlik yaranırmasına dair ayəni Qurandan oxuyurdular. Lakin görünən odur ki, onun vəfatından sonra bu ayə Qurandan çıxarılıb. Çünki hazırda əlimizdə olan Quranda həmin ayə mövcud deyildir.

* İbn Macə, Əhməd, Darəqutni, Təbərani (Məcməul-övsat”da) və digərləri Aişəyə istinad edilən rəvayəti nəql edirlər: “Daşqalaq və 10 dəfə süd vermək barədə ayə nazil olmuşdu. Həmin ayənin yazıldığı səhifə mənim yatağımın altında idi.

---

[798] “əz-Zəriətu ila təsanifuş-şiə”, 16/231.

[799] “Səhih”, Müslim, 2/1075; əl-Muvatta”, səh.324; “Sünən”, Tirmizi, 3/456; “Sünən”, Əbu Davud, 2/223-224; “Sünən”, Nəsai, 6/100; “əs-Sünənul-kubra”, Nəsai, 3/289; “Sünən”, İbn Macə, 1/625; “Səhihu sünən”, Əbu Davud, 2/389; “Səhihu sünən”, Nəsai, 2/696; “Səhihu sünən”, İbn Macə, 1/328; “İrvaul-ğəlil”, 7/218; “Sünən”, Darəmi, 2/157; “əs-Sünənul-kubra”, 7/454; “Səhih”, İbn Hibban, 10/35, 36; “Şərhus-sünnə”, 9/80; “Sünən”, Darəqutni, 4/181; “Müsnəd”, Əbu Əvanə, 3/119; “Təfsirul-Qur`anil-əzim”, 1/469; “Kitabul-umm”, 5/26; “Müsnəd”, Şafei, səh.220.

Peyğəmbər (s) vəfat etdikdə və biz onun dəfni ilə məşğul olarkən ev quzu oraya girib həmin vərəqi yedi”.[800]

Həmçinin bu rəvayət Aişənin Qurandakı daşqalaq və südvermə ayələrinin, heç də əhli-sünnənin iddia etdiyi kimi, ayənin oxunuşunun ləğv (nəsx) edilməsilə deyil, quzunun yeməsi səbəbilə aradan getdiyinə etiqad bəslədiyini göstərir.

* İbn Hibban, Abdullah ibn Əhməd ibn Hənbəl, Təyalisi, Əbdürrəzzaq, Beyhəqi və digərləri Zərr ibn Hübeyşdən nəql edirlər: “Übey ibn Kəblə görüşdüm və ona dedim: “İbn Məsud “Fələq” və “Nas” surələrini Qurandan pozur və “Bunlar Qurandan deyildir. Qurandan olmayanı ona daxil etməyin!” deyirdi”. Übey dedi: “Bu, Peyğəmbərə (s) də deyilmiş, o, bizə söyləmiş və biz də bunu deyirik”.[801]

İbn Kəsir bunun təfsirində yazır: “Bir çox qari və fəqih arasında məşhurdur ki, İbn Məsud “Fələq” və “Nas” surələrini Qurana yazmırdı. Bəlkə də onları şəxsən Peyğəmbərdən (s) eşitməmiş və onun nəzərində Qurandan surə olduqları mütəvatir həddə yetişməmişdir”.[802]

Fəxr Razi deyir: “Əgər desək: “Bu iki surənin Qurandan olduğu İbn Məsudun yaşadığı dövrdə mütəvatir idi”, o zaman bu iki surənin Qurandan olduğunu inkar edən edən şəxsin kafirliyinə hökm etməli olacağıq. Əgər “Bu iki surənin Qurandan olduğu İbn Məsudun yaşadığı dövrdə mütəvatir deyildi” desək, o zaman Quranın bir hissəsinin mütəvatir olmadığını söyləmiş olacağıq”.

Deyir: “Bu bir dəstənin əqidəsidir”.[803]

---

800 “Sünən”, İbn Macə, 1/625-626; “Müsnəd”, Əhməd, 6/269; “Sünən”, Darəqutni, 4/179; “əd-Durrul-mənsur”, 2/471, “ən-Nisa” surəsinin 23-cü ayəsinin təfsiri; “əl-Möcəmul-övsat”, Təbərani, 6/10; “Müsnəd” Əbu Yə`la, 4/144; Albaninin “Səhihu sünən İbn Macə”də hədisi “həsən” sayıb (1/3288); İbn Həzm isə “əl-Muhəlla”da yazır: “Bu, səhih hədisdir” (12/177).

801 “Səhih”, İbn Hibban, 10/274; “Müsnəd”, Əhməd, 5/129; “əl-Möcəmul-kəbir”, Təbərani, 9/268, 269; “Məcməuz-zəvaid”, 7/149; Heysəmi deyir: “Əhməd və Təbərani bunu rəvayət ediblər. Əhmədin nəql etdiyi rəvayətin raviləri “Səhih”in raviləridir. “Təfsirul-Qur`anil-əzim”, 4/571; “Məvariduz-zəm`an”, 2/786; “Müsnəd”, Hümeydi, 1/185; Buxarinin “Səhih”ində “Təfsir” kitabında, “ən-Nas” surəsinin təfsirində buna işarə vardır (3/1604).

802 “Təfsirul-Qur`anil-əzim”, 4/572.

803 “Fəthul-Bari”, 8/604.

* Buxari “Səhih”ində, Əbu Davud “Sünən”də, İbn Hİbban “Səhih”də və digərləri nəql etdikləri hədisdə Ömər ibn Xəttabın belə dediyini nəql edirlər: “Əgər camaat “Ömər Allahın kitabına ayə əlavə edib” deməsəydi, daşqalaq ayəsini öz əlimlə (kitaba) yazardım”.[804]

“əl-Muvatta”, Şafeinin “Müsnəd”, Beyhəqinin “əs-Sünənul-kubra” və digər kitablarda nəql edilən rəvayətdə deyilir: “Daşqalaq ayəsinə görə həlak olmaqdan çəkinin!” Bir şəxs dedi: “Allahın kitabında belə bir cəza görmürük”. Ömər dedi: “Peyğəmbər (s) daşqalaq edib, biz də edirik. Canım əlimdə olan Allaha and olsun ki, əgər camaat “Ömər Allahın kitabına ayə əlavə edib” deməsəydi, bu ayəni öz əlimlə yazardım: “Qoca kişi və qadını, mütləq daşqalaq edin”. Belə ki, biz bu ayəni (Quranda) oxuyurduq”.[805]

Zərkəşi “əl-Burhanu fi ulumil-Qur`an” kitabında yazır: “Əgər camaat deməsəydi...” sözündən aydın olur ki, onun yazılması icazəlidir və onu bundan çəkindirən yalnız camaatın deyəcəyi sözlər olub. Özlüyündə icazəli olanı kənar bir amil qadağa edir. Əgər bu icazəli idisə, sabit məsələ olması lazımdır, çünki bu, yazılma məsələsidir”.[806]

Əgər həmin söz Quranın ayəsi idisə, onun Qurana yazılması vacib idi, əks təqdirdə isə əsla icazəli sayıla bilməz. Hədis Ömərin həmin sözün Qurandan olduğuna etiqad bəslədiyinə aşkar surətdə dəlalət edir, lakin onu Qurana əlavə etməkdən camaatın sözü çəkindirir. Halbuki onun belə bir üzrü əsla qəbul edilə bilməz. Xüsusilə də onun həmin dövrdə hakim, xəlifə və bir sözünü iki etməyə heç kimin qüdrəti çatmayan sərt şəxs olduğu deyilir.

* Müslim və digərlərinin Əbul-Əsvəddən nəql etdikləri rəvayət: “Əbu Musa Əş`əri Bəsrə qarilərini yanıma göndərdi. Onun yanına 300 nəfər Quran qarisi daxil oldu. Dedi: “Siz Bəsrə əhlinin ən yaxşıları və qarilərisiniz, Quranı oxuyun, ancaq

---

[804] “Səhih”, Buxari, 4/2241; “Sünən”, Əbu Davud, 4/144-145; “Səhih”, İbn Hİbban, 2/147. Albani “Səhihu sünəni Əbi Davud” kitabında bunu səhih hesab edib (3/835); “İrvaul-ğəlil”, 8/3.
[805] “əl-Muvatta”, səh.458; “Müsnəd”, Şafei, səh.163; “əs-Sünənul-kubra”, Beyhəqi, 8/212.
[806] “əl-Bürhanu fi ulumil-Qur`an”, 2/36.

sizdən əvvəlkilərin qəlbləri qəsavət bağladığı kimi, siz də onu tərk etməklə qəlbiniz sərtləşməsin. Biz bir surə oxuyurduq, onu uzunluq və sərtlikdə "ət-Tövbə" surəsinə bənzədirdik. O surəni unutdum, lakin mən ondan bir hissəsini əzbər bilirəm: "Əgər Adəm övladının iki vadi qədər mal-dövləti olsaydı, üçüncüsünü də istəyərdi. Adəm övladının qarnını yalnız torpaq doldurar". Biz bir surə oxuyar və onu "Subhan, səbbəhə və ya yusəbbihu" ilə başlayan surələrə bənzədərdik". Həmin surəni də unutdum, ancaq mən bir hissəsini xatırlayıram: "Ey iman gətirənlər, etməyəcəyiniz bir işi niyə söyləyirsiniz?! Şahidlik sizə vacib edilmişdir, Qiyamət günü onun barəsində soruşulacaqsınız!"[807]

Əbu Musa Əş`ərinin "unutdum" sözü onun qeyd etdiyi o iki surənin ləğv edilmədiyinə dəlildir. Sadəcə Əbu Musa və digər səhabələr onu unutmuş və müsəlmanların əlində mövcud olan Qurana yazmamışlar. Əgər belə olmasaydı, o zaman: "ləğv (nəsx) edildi" deyərdi. Onu unutmaqda qəlbin qəsavəti rol oynadığı üçün Əbu Musa Bəsrə qarilərinə bu surələri undan özünü və digərlərini nümunə göstərir.

* Hakim Nişapuri Hüzeyfəyə (r.a) istinad edilən rəvayəti nəql edir: "Sizin oxuduğunuz onun dörddə biridir (məqsədi "Tövbə" surəsidir). Siz onu "ət-Tövbə" adlandırırsınız, halbuki o "əl-Əzab" surəsidir".[808]

Təbərani "əl-Möcəmul-övsat"da həmçinin Hüzeyfədən (r.a) nəql edir: "Sizin "ət-Tövbə" adlandırdığınız surə "əl-Əzab" surəsidir. Siz hazırda bizim oxuduğumuzun yalnız dörddə birini oxuyursunuz".[809]

* Hakimin "Müstədrək"də "səhih" saydığı, Əhmədin (rəvayəti ondan təqdim edirik), Siyutinin, Beyhəqinin, Təyalisi də digərlərinin Zərr ibn Hübeyşdən nəql etdikləri rəvayətdə deyilir: "Übey ibn Kəb mənə dedi: "əl-Əhzab" surəsini oxuya və ya (ayələrini) saya bilərsən?" Dedim: "Yetmiş üç ayədir". Dedi: "Ancaq? Mən onun

---

807 "Səhih", Müslim, 2/726.

808 "əl-Müstədrək", 2/331. Hakim deyir: "Bu, istinadı səhih olan hədisdir, Buxari və Müslim nəql etməmişlər". Zəhəbi də onunla razılaşmışdır. "əd-Durrul-mənsur", 4/120.

809 "əl-Möcəmul-övsat", Təbərani, 1/365; "Məcməuz-zəvaid", 7/28. Deyir: "Bunu Təbərani "əl-Möcəmul-övsat"da rəvayət edib, raviləri inanılan şəxslərdir".

“əl-Bəqərə” surəsi həcmində olduğunu görmüşəm. Biz orada bu ayəni oxuyurduq: “Qoca kişi və qadın zina etdikdə, Allahdan cəza olaraq, mütləq onları daşqalaq edin. Allah bilən və hikmət sahibidir!”[810]

Bu rəvayətin başqa bir nəqlində isə belə deyilir: “əl-Əhzab” surəsini neçə ayə olaraq oxuyursunuz?” Dedi: “Yetmiş neçə ayə”. Dedi: “Mən Peyğəmbərlə (s) bərabər bu surəni “əl-Bəqərə” və ya daha artıq ayə sayında oxumuşam. Orada “Daşqalaq” ayəsi də vardı”.[811]

Allahın kitabından surə və ayələrin götürüldüyünə dəlalət edən hədislər onların mənbələrində olduqca çoxdur. Onların hamısını burada sadalamağa lüzum görmürük. Belə ki, bu, bizi kitabın mövzusundan uzaqlaşdıracaq.

Əhli-sünnə alimləri bu dalandan çıxmaq üçün belə deyirlər: “Onlar da Quranın bir hissəsi idi, lakin sonradan oxunuşu nəsx (ləğv) edilərək Allahın kitabından çıxarılmışdır”.

İbn Kəsir “əl-Əhzab” surəsinin həcminin “əl-Bəqərə” surəsinə bərabər olduğunu qeyd etdikdən sonra yazır: “Bu, “həsən” istinadlıdır. Buna dəlalət edir ki, həmin mətn Quranda vardı, sonra həm mətn, həm də hökm olaraq nəsx (ləğv) edildi. Doğrusunu Allah bilir”.[812]

Beyhəqi “Daşqalaq” ayəsini - “Qoca kişi və qadın zina etdikdə, mütləq onları daşqalaq edin” qeyd etdikdən sonra bunun Quranda olduğuna və oradan çıxarıldığına dəlalət edən rəvayətləri sadalayır, ardınca deyir: “Bunda və öncəkində “Daşqalaq” ayəsinin hökmünün sabit qaldığını, oxunuşunun isə nəsx olunduğunu görürük. Düşünürəm ki, bu barədə ixtilafın yoxdur”.[813]

---

810 “əl-Müstədrək”, 4/359. Hakim deyir: “Bu, istinadı səhih olan hədisdir, Buxari və Müslim nəql etməmişlər”. “Müsnəd”, Əhməd, 5/132; “əs-Sünənul-kubra”, 8/211; “Kənzül-ümmal”, 2/480; “Müsnəd”, Əbu Davud Təyalisi, səh.73; “əd-Dürrül-mənsur”, 6/558. Həmçinin “əl-Müsənnəf”də Əbdürrəzzaqdan, Təyalisi, Səid ibn Mənsur, Abdullah ibn Əhməd “Zəvaidul”müsnəd”də, İbn Müni, Nəsai, İbn Münzir, İbn Ənbari “əl-Məsahif”də, Darəqutni “əl-Əfrad”da, Hakim, İbn Mərdəveyh, eləcə də Ziya “əl-Muxtar”da nəql ediblər.

811 “Müsnəd”, Əhməd, 5/132.

812 “Təfsirul-Qur`anil-əzim”, 3/465.

813 “əs-Sünənul-kubra”, Beyhəqi, 8/211.

Zərqani Aişənin süd verməklə bağlı ayənin mövcud olduğu barədə sözünü şərh edərkən deyir: "Quranda oxuduqlarımız arasında..." sözü onun nəsx olunduğunu göstərir. Məna budur ki, on dəfə süd vermək beş dəfə süd verməklə bağlı ayə ilə nəsx olunmuşdu. Lakin bu nəsx (ləğv) Peyğəmbərin (s) ölümündən sonrayadək gecikdi[814] və nəsx barədə xəbər camaatın hamısına yetişmədi. Onlar həmin ayəni hələ də Quranın mətni kimi oxuyurdular. Ancaq xəbər tutduqlarında bunu tərk etdilər. Aişənin sözünə əsasən, "On dəfə süd vermək" sözü həm mətn, həm də hökm baxımından nəsx olunmuşdur, "beş dəfə" isə "Daşqalaq" ayəsi kimi, yalnız mətn olaraq nəsx edilmiş, hökm olaraq isə qalmışdır... Məna bu deyil ki, onun Quranın mətni olaraq oxunması sübuta yetmiş fakt idi və insanlar onu tərk etdilər. Çünki Quran qorunan kitabdır".[815]

əl-Amidi "əl-İhkam"da yazır: "Altıncı məsələ: Alimlər Quranda bir ayənin hökmü ləğv edilmədən mətninin nəsx edilməsinin, həmçinin bunun əksinin, eləcə də hər ikisinin birdən nəsx edilməsinin mümkün olduğu barədə həmfikirdirlər. Yalnız Mötəzililərdən az bir dəstə buna xilaf çıxmışdır. Buna ağıl və nəql edilmiş dəlillər də dəlalət edir".

Sonra deyir: "Tilavət və hökmün nəsx (ləğv) edildiyinə dair nəqli dəlillərə gəldikdə, buna Aişədən nəql edilən rəvayət dəlalət edir. O deyir: "Nazil olanlar arasında on dəfə süd verməklə bağlı ayə vardı ki, beş dəfə südvermə ilə bağlı ayə ilə nəsx edildi". Quranda nə on dəfə süd vermək və nə də onun hökmü vardır. Onların hər ikisi nəsx olunmuşdur".[816]

Mətnin nəsx edilməsinin icazəli olması və bunun baş verdiyi barədə onların çoxsaylı sözləri mövcuddur. Qeyd etdiklərimiz bizcə yetərlidir.

Onların mətninin nəsx edilməsilə bağlı qeyd etdikləri sözləri Mirzə Nurinin (q.s) gəldiyi nəticə ilə eynilik təşkil edir. Belə ki, onların hər ikisi Quranda bir mətnin

---

[814] Bu, əhli-sünnə kitablarında Quranın təhrif edilməsilə bağlı mövcud olan çoxsaylı rəvayətlərə bəraət qazandırmaq üçün alimlərinin əl atdığı fantaziyalarından biridir. Biz bir ayənin nəsxinin Peyğəmbərin (s) vəfatından sonrayadək təxirə salınmasını təsəvvür belə edə bilmərik. Ancaq Zərqani burada onu iddia edir. Halbuki bunu heç kəs söyləməzdi.
[815] İmam Malikin "əl-Muvatta" kitabına Zərqaninin şərhi, 3/321.
[816] "əl-İhkam", 3/154.

əvvəllər mövcud olduğu və sonrada nəsx edildiyi barədədir. Mirzə Nuri bunu təhrif adlandırıb, hərçənd hər iki mövzu eynidir. İxtilaf yalnız onların adlandırılmasındadır. Onların ad seçimi isə Mirzə Nurinin seçimindən daha ehtiyatlıdır. Yalnız buna görə onun üzərinə belə hücum etmişlər. Ancaq göründüyü kimi, hər ikisinin mövzusu eyni idi.

* * *

**Müəllif iddia edir: "2. Əhməd ibn Əli ibn Əbu Talib ət-Təbərsi – "əl-İhticac" kitabının müəllifi.**

Bu yerdə müəllifin bir haşiyəsi də vardır: **"O, özünə bu adı maskalanmaq məqsədilə götürmüşdür ki, rahatlıqla öz zəhərli düşüncələrini yaya bilsin. Belə bir şəxsin Möminlərin əmirinin (s) tapdadığı torpağa belə özünü nisbət verməsi düzgün deyildir. Həqiqətdə isə onun nə əsli-nəcabəti və nə də tərcümeyi-halı məlum deyildir".**

**Cavab:** Əhməd Təbərsi heç də müəllifin iddia etdiyi kimi, özünə bu adı götürməmişdir. Əli ibn Əbu Talib sözündə məqsəd isə heç də müəllifin gümana əsasən, Möminlərin əmiri Əli (ə) deyildir. Bu, həqiqətən də onun ata və babasının adlarıdır. Bir kəsin adının digərinə bənzəməsi isə qeyri-mümkün və haram da deyildir.

İctihad və fəqihlik iddiaçı olan bir kəsin Təbərsinin nəslinin və tərcümeyi-halının bilinmədiyini iddia etməsi olduqca təəccüblüdür. Halbuki onun "əl-İhticac" kitabında geniş tərcümeyi-halı verilmişdir. Həmçinin şagirdi Şəhraşub özünün "Məalimul-üləma" kitabında (səh.25), "Vəsailuş-şiə" kitabının müəllifi Hürr Amuli "Əməlul-amil" kitabında (2/17) və Şeyx Yusif Bəhrani "Lu`luətul-bəhreyn" kitabında (səh.341) və s. kitablarda onun tərcümeyi-halı təqdim edilmişdir.

Nəsil silsiləsi məsələsinə gəldikdə, məlumdur ki, ərəblər öz qəbilələrinə, qeyri-ərəblər isə öz şəhərlərinə nisbət verilirlər. Təbərsinin nisbəti də qəbiləsinə deyil, şəhərə nisbət verilmişdir. Bu üslub məşhur sünni və şiə alimləri arasında mövcud olan bir faktdır.

Biz əhli-sünnə alimlərinin mənsubiyyətlərinə nəzər saldığımızda, onların bəzilərinin nəsil silsiləsinin qeyd edilmədiyini görürük. Xüsusilə də bəzilərinin

məşhurluğu bariz olduğu üçün mənsubiyyətləri barədə nəqllərin mütəvatirliyi əhəmiyyət daşımır və etina olunmur. Necə ki, özünün "əl-İhticac" kitabı ilə məşhur olan Təbərisinin də vəziyyəti belədir.

Maraqlı haldır ki, müəllif alimlərimizin mənsubiyyəti barədə söhbət açır, halbuki bəzi əhli-sünnə məzhəb imamlarının və hədis hafizlərinin nəsil silsilələri belə onların özlərinə məlum deyildir.

Mövzunu uzatmamaq üçün onlardan yalnız ikisini nümunə kimi təqdim edirik. Həmin şəxslərdən biri məzhəb imamı, digəri hədis hafizidir.

Məzhəb imamı olan Əbu Hənifə Numandır. Onun əsli-nəcabəti, eləcə də hansı şəhərdən olduğu bilinmir.

Zəhəbi "Siyəru ə`lamin-nübəla" kitabında yazır: İmam, dinin fəqihi, iraqlı alim Əbu Hənifə Numan ibn Sabit ibn Zuti ət-Teymi, Zuti Teymullah ibn Sə`ləb qəbiləsinin köləsi olub. Onun farslardan olduğu da deyilib.[817]

Ta ki, yazır: "Əhməd İcli deyir: "Əbu Hənifə Teymi yağ satan Həmzənin dəstəsindən idi, ipək (və ya dəri) alverçisi idi.

Ömər ibn Həmmad ibn Əbu Hənifə deyir: "Zuti Kabuldan idi, oğlu Sabit o müsəlman ikən doğuldu. Zuti Teymullah ibn Sə`ləb qəbiləsinin köləsi idi, köləlikdən azad edilmişdi, qəbilə onu himayə etmiş və o, əvvəlcə həmin qəbiləyə, sonra isə Qufl qəbiləsinə nisbət verilmişdir...

Nəzr ibn Muhəmməd Mərvəzi deyir: "Yəhya ibn Nəzrdən nəql olunur: "Əbu Hənifənin atası Nəsa şəhərindən olub".

Süleyman ibn Rəbi isə Haris ibn İdrisdən nəql edir: "Əbu Hənifənin əsli Tirmizdəndir. Əbu Əbdürrəhman əl-Müqri deyir: "Əbu Hənifə Babil əhlindəndir".

Əbu Cəfər Əhməd ibn İshaq ibn Bəhlul atasından, o da babasından nəql edir: "Əbu Hənifənin atası Sabit Ənbardandır.

Sonra isə nəql edir ki, Əbu Hənifənin adı Numandır ibn Sabit ibn Mərzibandır".[818]

---

[817] "Siyəru ə`lamin-nübəla", 6/390.
[818] "Siyəru ə`lamin-nübəla", 6/390.

Dörd məzhəb imamlardan birinin əsil-nəcabəti barədə müxtəlif iddialar səsləndirməklə necə ixtilaf etdiklərinə diqqət yetirin. Əgər məzhəb imamının vəziyyəti belədirsə, digərlərininki necə olar?!

İkinci şəxs isə hədis hafizi olan, məşhur Sünən" kitabının müəllifi İbn Macədir. Onun mənsubiyyəti barədə Əbu Abdullah Muhəmməd ibn Yezid ibn Macədən başqa heç bir söz əlavə edə bilmirlər.[819]

ər-Rafii "Tarixu Qəzvin" kitabında yazır: "Macə Yezidin ləqəbidir, Əbu Abdullahın atasıdır. Həmçinin Əbul-Həsən Qəttan və Hibətullah ibn Zadanın öz əllərilə yazdıqları bu sözləri görmüşəm: "Bəzən deyilib: Muhəmməd ibn Yezid ibn Macə". Birinci versiya daha sabitdir".[820]

Buna əsasən, İbn Macənin yalnız özünün və atasının adı məlumdur.

Şübhəsiz ki, Təbərsinin şiənin nəzdində məqamı əhli-sünnə yanında Əbu Hənifənin və İbn Macənin məqamı kimi deyildir. Buna baxmayaraq, müəllifin nə üçün Təbərsinin nəsəbi haqqında şəkk etdiyini və onu bu səbəblə tənqidə məruz qoyduğunu anlamaq olmur. Halbuki burada qeyd etdiyimiz, eləcə də qeyd etmədiyimiz dəlillərə əsasən, onların öz imam və alimlərinin mənsubiyyətləri qaranlıq faktlarla doldur.

* * *

**Müəllif iddia edir: "O, öz kitabında Quranın təhrif olunması ilə bağlı aydın rəvayətlər nəql etmişdir. Həmçinin rəvayətlərinin bəzilərinə Möminlərin əmiri ilə (r.a) səhabələrin arasındakı əlaqələrin olduqca pis olduğunu vurğulayan rəvayətlərə yer vermişdir. Bütün bu rəvayətlər isə müsəlmanlar arasındakı birliyin pozulmasına rəvac verir. Bu kitabı oxuyan hər kəs müəllifin xoş niyyətli olmadığını görəcək".**

---

819 "Siyəru ə`lamin-nübəla" kitabında onun tərcümeyi-halına müraciət et (13/277). Həmçinin bax: "əl-Müntəzəm", 12/258; "əl-Bidayətu vən-nihayə", 11/56; "Təhzibut-təhzib", 9/468; "Təbəqatul-huffaz", səh.278; "Təzkirətul-huffaz", 2/636; "ən-Nucumuz-zahirə", 3/70; "Mir`atul-cinan", 2/140; "Vafəyatul-ə`yan", 4/279; "əl-Vafi bil-vəfəyat", 5/220.

820 "ət-Tədvinu fi əxbari Qəzvin", səh.165.

**Cavab:** Əgər kitabda Quranın təhrif edilməsilə bağlı rəvayətin sadəcə mövcudluğu müəllifin tənqidinə və xoş niyyətli olmadığına qərar verməyə kifayət edirsə, o zaman Buxari, Müslim, Tirmizi, Əbu Davud, İbn Macə, Malik ibn Ənəs, Əhməd ibn Hənbəl, Əbu Davud Təyalisi, Beyhəqi, Heysəmi, Siyuti, İbn Cərir Təbəri və əhli-sünnənin digər hafiz və alimləri də öz kitablarında Quranın təhrif edilməsilə bağlı rəvayətlərə yer veriblər, onlar da bu ittihamla üz-üzə qalmalıdırlar.[821]

Əgər Təbərsini Quranın təhrif olunması barədə əqidəsinə görə ittiham edirsə, Təbərsi öz kitabında rəvayətləri nəql etsə də, Quranın təhrif edildiyinə dair etiqadının olduğunu bəyan etmir və heç kim onun belə etiqadının olduğunu da nəql etməyib. Özünün istinad etdiyi dəlilə əsasən, iddiaçı müəllif Quranın təhrif edildiyinə dair rəvayətlər söyləyən səhabələri də ittiham etməlidir. Belə ki, əhli-sünnənin mötəbər kitablarında Quranın təhrif edilməsinə dair səhabələrdən rəvayət olunan çox sayda hədislər mövcuddur.

Təbərsinin öz kitabında Möminlərin əmiri ilə (r.a) səhabələrin arasındakı əlaqələrin olduqca pis olduğunu vurğulayan rəvayətlər nəql etməsinə görə müəllifin onu tənqid etməsinə gəldikdə, bu da yersizdir. Çünki əhli-sünnə hafizləri də öz kitablarında belə rəvayətləri nəql ediblər.

Əhməd ibn Hənbəl "Müsnəd"də, Hakim "əl-Müstədrək"də (hədisi səhih saymışdır), Əbu Nüeym "Hilyətul-övliya"da v digərləri başqa istinadlarla Əbu Səid Xudridən nəql edirlər: "Camaat Əlidən şikayət etdilər. Peyğəmbər (s) aramızda ayağa qalxaraq xütbə söylədi və belə dediyini eşitdim: "Ey camaat, Əlidən şikayət etməyin! Allaha and olsun, o, Allah yolunda ən qətiyyətli şəxsdir!"[822]

Tirmizi "Sünən"də (səhəh saymışdır), Hakim "Müstədrək"də (səhih saymışdır), İbn Hibban, Təyalisi, Təbərani, Əbu Nüeym İsfahani və digərləri öz istinadları ilə İmran ibn Həsindən belə dediyini nəql edirlər: "Peyğəmbər (s) ordunu göndərdi və

---

821 "Kəşful-həqaiq" kitabında əhli-sünnə mənbələrində Quranın təhrif edilməsilə bağlı nəql edilən rəvayətlərə müraciət edin (səh.67-75).

822 "Müsnəd", Əhməd, 3/86; "əl-Müstədrəku ələs-səhiheyn", 3/133, Heydərabad çapı, 3/134. Hakim yazır: "Bu, istinadı səhih olan hədisdir, Buxari və Müslim nəql etməyiblər". Zəhəbi də "ət-Təlxis"də onunla razılaşıb. "Məcməuz-zəvaid", 9/129; "Hilyətul-övliya", 1/68; "Fəzailus-səhabə", 2/679.

onların üzərinə Əli ibn Əbu Talibi başçı təyin etdi. Baş verən yürüşdə qalib olub oradan bir cariyə əldə etdi. Səhabələr onun bu hərəkətini pislədilər. Dörd peyğəmbər səhabəsi öz aralarında belə söz verdilər: "Peyğəmbərlə (s) görüşdükdə Əlinin etdiklərini ona bildirəcəyik". Müsəlmanlar səfərdən qayıtdıqda ilk olaraq Peyğəmbərlə (s) görüşür və onunla salamlaşır, sonra isə ailələrinin yanına gedirdilər. Səfərdən qayıtdıqda bu dəfə də gəlib Peyğəmbərə (s) salam verdilər. O dörd səhabədən biri dedi: "Ey allahın elçisi, Əli ibn Əbu Talib filan-filan hərəkəti etdi". Peyğəmbər (s) üzünü ondan çevirdi. Sonra ikincisi də eyni sözləri söylədi. Peyğəmbər (s) ondan da üz çevirdi. Ardınca üçüncü və dördüncü səhabə də qalxıb eyni sözləri dedilər. Peyğəmbər (s) üzündən qəzəbli olduğu göründüyü halda yaxınlaşıb dedi: "Əlidən nə istəyirsiniz?! Əlidən nə istəyirsiniz?! Əlidən nə istəyirsiniz?! Həqiqətən də Əli məndən, mən də ondanam! O, məndən sonra hər bir möminin vəlisidir (ixtiyar sahibidir)".[823]

Müslim "Səhih"ində və Tirmizi "Sünən"də Səd ibn Əbu Vəqqasdan nəql edirlər: "Müaviyə ibn Əbu Süfyan Sədə Əlini söyməyi əmr elədi, o isə Əlini söyməkdən imtina elədi. Müaviyə dedi: "Əbu Turabı söyməyə sənə nə mane olur?" Dedi: "Peyğəmbərin (s) onun barəsində söylədiyi üç şeyə görə onu əsla söymərəm. Əgər onlardan biri məndə olsaydı, bu mənim üçün qırmızı dəvələrə sahib olmaqdan daha sevimli olardı...".[824]

Müslim "Səhih"də Səhl ibn Sədə istinadən yazır: "Mərvan ailəsindən bir şəxs Mədinəyə başçı təyin edildi. Deyir: "Səhl ibn Sədi çağırıb ondan Əlini söyməsini tələb elədi. Səhl bundan boyun qaçırdı. Vali dedi: "Söymürsənsə, heç olmazsa ona

---

823 "Sünən", Tirmizi, 5/632; "Müsnəd", Əhməd, 4/438; "Müstədrək", 3/119, Heydərabad çapı, 3/111; "Səhih", İbn HİbbanHİbban, 15/374; "əs-Sünnul-kubra", Nəsai, 5/132; "Məvariduz-zəm`an", 2/986; "Müsnəd", Təyalisi, səh.111; "Fəzailus-səhabə", Əhməd ibn Hənbəl, 2/605; "Xəsaisu Əmiril-mu`minin Əli ibn Əbi Talib (r.a)", Nəsai, səh.109; "Hilyətul-övliya", 6/294; "əl-Müsənnəf", İbn Əbu Şeybə, 6/375; "Müsnəd", Əbu Yə`la, 1/184; "əl-Mö`cəmul-kəbir", Təbərani, 18/128.

824 Səhih", Müslim, 4/1871; "Sünən", Tirmizi, 5/638. Tirmizi deyir: "Bu həsən, səhih və qəribə hədisdir".

lənət de". Səhl dedi: "Əli üçün Əbu Turab adı daha sevimli idi, o, Əbu Turab deyə çağırıldıqda sevinirdi...".[825]

Tirmizinin "Sünən"də Bərradan nəql etdiyi və "həsən" saydığı hədisdə deyilir: "Peyğəmbər (s) iki ordu göndərdi, onlardan birinə Əli ibn Əbu Talibi, digərinə isə Xalid ibn Vəlidi başçı təyin etdi və buyurdu: "Döyüş olsa, iki ordunun başçısı Əlidir". Əli qalanı fəth elədi, orada özünə bir cariyə əsir götürdü. Xalid Əlinin bu hərəkətini pisləyən bir məktub yazıb mənim vasitəmlə Peyğəmbərə (s) göndərdi. Məktubu gətirib Peyğəmbərə (s) təqdim etdim. Onu oxuduqda rəngi dəyişdi, buyurdu: "Allahı və elçisini sevən, Allahın və elçisinin də sevdiyi bir şəxsdə nə görmüsünüz?! Dedim: "Allahın və elçisinin qəzəbindən Allaha sığınıram! Mən sadəcə bir qasidəm". Peyğəmbər (s) susub heç bir söz söyləmədi".[826]

Ziyə əl-Məqdisi "əl-Əhadisul-muxtarə" kitabında və "Əbu Yə`la "Müsnəd"də Əbu Bəkr ibn Xalid ibn Ərfətədən nəql edirlər: "Səd ibn Malik deyir: "Mənə xəbər çatıb ki, Kufədə sizə Əlini söymək təklif olunur. Onu söyürsənmi?" Dedi: "Allah pənah aparıram!" Dedi: "Sədin canı əlində olan Allaha and olsun, mən Peyğəmbərin (s) Əli barəsində elə bir söz söylədiyini eşitmişəm ki, əgər mişarlar oynaqlarımın üzərinə qoyulsa və onu söymək məndən tələb edilsə, əsla onu söymərəm!"[827]

Ziya əl-Məqdisi, Əbu Yə`la və digərləri Səd ibn Əbu Vəqqasdan nəql edirlər: "Mən və iki şəxs məsciddə əyləşmiş, Əli barədə mənfi sözlər danışırdıq. Peyğəmbər (s) qəzəbli halda gəldi. Qəzəbləndiyi üzündən bilinirdi. Mən onun qəzəbindən Allaha sığındımı bildirdim. Dedi: "Mənim sizinlə nə işim?! Kim Əliyə əziyyət etsə, həqiqətən mənə əziyyət etmişdir!"[828]

---

825 "Səhih", Müslim, 4/1874; "əs-Sünənul-kubra", Beyhəqi, 2/446.
826 "Sünən", Tirmizi, 5/638, 4/207.
827 "əl-Əhadisul-muxtarə", 3/274; "Müsnəd", Əbu Yə`la, 1/328; "Məcməuz-zəvaid", 9/130. Heysəmi yazır: "Bunu Əbu Yə`la rəvayət edib, istinadı həsəndir". "əs-Sünənul-kubra", Nəsai, 5/133; "əl-Müsənnəf", İbn Əbu Şeybə, 6/375; "Kitabus-sünnə", İbn Əbu Asim, səh.590.
828 "əl-Əhadisul-muxtarə", 3/267 "Müsnəd", Əbu Yə`la, 1/325; "Məcməuz-zəvaid", 9/129. Heysəmi yazır: "Bunu Əbu Yə`la, həmçinin ixtisarla Bəzzar rəvayət edib, Əbu Yə`lanın raviləri "Səhih"in raviləridir, yalnız Mahmud ibn Xəddaş və Qinandan savayı, onlar inanılan (siqə) şəxslərdir.

Bir çox səhabənin Möminlərin əmiri Əliyə (ə) nifrət etdiklərinə, onu söydüklərinə və ittiham etdiklərinə dəlalət edən hədislər sayılmayacaq qədər çoxdur. Onların varlığını inkar etmək aydın səmada günəşi inkar etmək kimidir. Bizim burada nəql etdiklərimiz mövzuya dair dəlil olaraq yetərli, hətta artıqdır.

Buna əsasən, iddiaçı müəllifin belə rəvayətləri nəql edən əksər əhli-sünnə alimlərini tənqid və məzəmmət etməsi lazımdır.

Buxari (rəvayəti ondan nəql edirik) və Müslim öz "Səhih"lərində Aişəyə istinadən nəql edirlər: "Peyğəmbərin (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkrin yanına adam göndərib payına düşən mirası, Mədinədəki payı, Fədəyi, Xeybər qənimətlərindən qalan xümsü istədi. Əbu Bəkr dedi: "Peyğəmbər (s) buyurub: "Biz miras qoymarıq, bizdən qalanlar sədəqədir". Muhəmmədin ailəsi bu maldan yeyə bilər. Allaha and olsun ki, mən Peyğəmbərin (s) vaxtında olan sədəqələrdən heç bir şey dəyişən deyiləm. Mirasla Peyğəmbər (s) etdiyi kimi rəftar edəcəyəm". Əbu Bəkr Fatiməyə bir şey verməkdən boyun qaçırdı. Deyir: "Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə zövcəsi Əli onu gecə ikən dəfn elədi, hadisə barədə Əbu Bəkrə xəbər vermədi. Əli ona namaz qıldı.

Fatimə həyatda ikən Əlinin camaatla münasibəti vardı. Lakin o vəfat etdikdən sonra Əli camaatın ona qarşı münasibətinin dəyişdiyini gördü, Əbu Bəkrə beyət etmək üçün imkan axtarmağa başladı. Əvvəlki altı ayda o, Əbu Bəkrə beyət etməmişdi. Əbu Bəkrin yanına adam göndərib təkbaşına onun yanına gəlməsini istədi. Bunda məqsədi Ömərin onunla birlikdə gəlməməsi idi. Ömər isə dedi: "Allaha and olsun ki, sən onların yanına təkbaşına getməyəcəksən". Əbu-Bəkr dedi: "Mənə nə edəcəklər?...".[829]

Buxari öz "Səhih"ində Ürvə ibn Zübeyrin möminlərin anası Aişənin (r.a.) ona belə söylədiyini xəbər verir: "Peyğəmbərin (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkr siddiqdən atasından qalan mirasını bölüb payını verməsini istədi.

[829] "Səhih", Buxari, 3/1286; "Səhih", Müslim, 3/1380. Bu hədisi fərqli kəlmələrlə Əhməd "Müsnəd"də (1/6), İbn Hİbban "Səhih"də (11/152, 14/573), "əs-Sünənul-kubra"da Beyhəqi (6/300), "əl-Müsənnəf"də Əbdürrəzzaq (5/327, digər çapı ilə 5/471), "ət-Təbəqatul-kubra"da İbn Səd (2/315) nəql etmişlər.

Əbu Bəkr dedi: “Peyğəmbər (s) buyurub: “Biz miras qoymarıq, bizdən qalanlar sədəqədir”. Peyğəmbərin (s) qızı Fatimə Əbu Bəkrə qəzəbləndi, vəfat etdiyi vaxtadək Əbu Bəkrlə danışmadı. Fatimə atasından sonra altı ay yaşadı”. Aişə deyir: “Fatimə Əbu Bəkrdən atası Peyğəmbərdən (s) qalan Xeybər, Fədək və Mədinədəki sədəqələrdən onun payına düşən mirası istədi, lakin Əbu Bəkr ona bir şey verməkdən boyun qaçırdı və dedi: “Peyğəmbərin (s) etdiklərindən heç birini tərk etməyəcəyəm, onun kimi davranacağam. Onun rəftarını tərk etməklə azacağımdan qorxuram”. Mədinədəki sədəqələrini Ömər Əliyə və Abbasa verdi, Xeybərlə Fədəyi isə Ömər onlara qaytarmadı və dedi: “Bunlar Peyğəmbərin (s) sədəqələridir, onun öz ixtiyarında idi. Hər ikisi də əmr sahibinin ixtiyarında olacaq”. Onlar bu gün də xəlifənin ixtiyarındadır”.[830]

Müslim “Səhih”ində nəql etdiyi uzun bir hədisdə Aişənin belə dediyini nəql edir: “Mədinədəki sədəqələrini Ömər Əli və Abbasa verdi, Əli Abbasla mübahisədən qalib çıxıb onun payını da götürdü. Xeybərlə Fədəyi isə Ömər özündə saxladı və dedi: “Bu ikisi Peyğəmbərin (s) sədəqələridir, özünün və naiblərinin haqqıdır...”.[831]

Ta ki, yazır: “Yərfə`[832] gəlib dedi: “Ey möminlərin əmiri, Osman, Əbdürrəhman ibn Ovf, Zübeyr və Səd sənin yanına gəlmək istəyirlər, izn verirsənmi?” Ömər “Bəli” deyə cavab verdi. Onlara izn verildi və içəri daxil oldular. Sonra xidmətçi gəlib dedi: “Əli ilə Abbasa da izn verirsən?” Ömər onlara da izn verdi. Abbas dedi: “Ey möminlərin əmiri, mənimlə bu yalançı, günahkar, fırıldaqçı və xain arasında hökm ver”. Oradakılar dedilər: “Bəli, ey möminlərin əmiri, onların arasında hökm ver və onları narahatlıqdan qurtar”. Malik ibn Ovs deyir: “Mənə elə gəlir ki, bunlar (Ömərin yanına ilk gələnlər) məhz həmin məsələyə görə oraya gəlmişdilər”. Ömər dedi: “Tələsməyin (və ya “Diqqətli olun”), yerin və göyün ayaqda durmasına izn verən Allahı sizə şahid tuturam, Peyğəmbərin (s): “Biz miras qoymarıq, özümüzdən sonra qoyduqlarımız sədəqədir” buyurduğunu bilmirsinizmi?” Oradakılar “Bəli” deyə cavab verdilər. Sonra üzünü Əli və Abbasa tutub dedi: “Yerin və göyün ayaqda

---

830 “Səhih”, Buxari, 2/952, 3/1286.
831 “Səhih”, Müslim, 4/1382.
832 Ömər ibn Xəttabın xidmətçisidir.

durmasına izn verən Allahı sizə şahid tuturam, Peyğəmbərin (s): "Biz miras qoymarıq, özümüzdən sonra qoyduqlarımız sədəqədir" buyurduğunu bilmirsinizmi?" Onların ikisi də "Bəli" dedi".

Sonra deyir: "Ömər dedi: "Peyğəmbər (s) vəfat etdikdə Əbu Bəkr dedi: "Mən Peyğəmbərin vəlisiyəm". Siz ikiniz gəldiniz, sən qardaşın oğlundan qalan mirasını, bu da atasından qızına düşən mirası istədi. Əbu Bəkr dedi: "Peyğəmbər (s) buyurub: "Biz miras buraxmarıq, özümüzdən sonra qoyduqlarımız sədəqədir". Siz ikiniz onu yalançı, günahkar, fırıldaqçı və xain hesab etdiniz. Allah bilir ki, o, doğru danışan, xeyirxah, düzgün və haqqa tabe olan şəxs idi. Sonra Əbu Bəkr öldü, mən Peyğəmbərin (s) və Əbu Bəkrin vəlisi oldum. Siz məni də yalançı, günahkar, fırıldaqçı və xain hesab etdiniz. Halbuki Allah mənim doğru danışan, xeyirxah, düzgün və haqqa tabe olan şəxs olduğumu bilir. Mən onların idarəçiliyini sizə verdim. Sonra sən bu adamla yanıma gəldin, hər ikinizin istəyi eyni idi, dediniz: "Onu (Fədəyi) bizə ver". Mən isə dedim: "Əgər istəsəniz, Peyğəmbərin (s) davrandığı kimi onlardan istifadə edəcəyinizə Allah qarşısında söz versəniz, onu sizə verərəm" Siz də bu şərti qəbul etdiniz və onu sizə verdim. Belə oldumu?" Onların ikisi də "Bəli" deyə cavab verdilər. Ömər dedi: "İndi də ikinizin arasında hökm etməyim üçün yanıma gəlmişsiniz? Xeyr, Allaha and olsun, Qiyamətədək aranızda bundan artığına hökm etməyəcəyəm. Əgər bacarmırsınızsa, onu mənə qaytarın".[833]

Görən, iddiaçı müəllif əhli-sünnənin kitablarında səhih olan belə rəvayətlərə nə deyəcək?!

Məgər öz səhih kitablarında bu rəvayətləri nəql etmək müəlliflərinin niyyətlərinin sağlam olmadığını dəlalət etmirmi?!

Məgər bunlar Buxara, Səmərqənd, Nişapur, Tirmiz, Sicistan və digər şəhərlərin əhalisinin səhabələrlə Əhli-Beytin (ə) əlaqələrini pozmağa cəhd göstərdiklərinə dəlalət etmirmi?!

Bu salların cavabını iddiaçı müəllif, həmçinin onun sözlərini təsdiqləyib və əhəmiyyət verən hər kəs çox gözəl bilir!

* * *

[833] "Səhih", Müslim, 4/1377.

**Müəllif iddia edir: “3. Fəzl ibn Həsən Təbərsi – “Məcməul-bəyan fi təfsiril-Qur`an” kitabının müəllifi. Bu təfsirini yalan qənaətləri və saxta yozumları ilə doldurmuşdur. Onun bu təfsiri quru və sadə təfsir qaydalarına müxalifdir”.**

**Cavab:** Müəllif, əgər azca da olsa insafı olsaydı, Təbərsinin öz təfsirini saxta dəlillər və yanlış yozumlarla doldurduğu iddiasına bircə dənə də olsa nümunə göstərməli, sözünü dəlil-sübutsuz havaya söyləməməli idi.

Halbuki “Məcməul-bəyan” kitabında Təbərsi (r.ə) əhli-sünnə təfsir alimlərinin də fikirlərinə yer verir, İmam Baqir və İmam Sadiqdən (onlara salam olsun!) nəql olunan rəvayətləri təqdim edir. Həmin təfsir digər şiə təfsirlərindən daha çox əhli-sünnə təfsirlərinə yaxındır.

Buna görə də, əhli-sünnə alimlərindən olan dr.Muhəmməd Hüseyn Zəhəbi “ət-Təfsir vəl-mufəssirun” kitabında yazır: “Həqiqət budur ki, (rəylərində şiə və mötəzilə düşüncələrinin təzahür etdiyinə göz yumsaq) Təbərsinin təfsiri öz növündə çox əzəmətli kitabdır, müəllifinin müxtəlif elm və fənlərdən dərin məlumatlı olduğunu göstərir. Müəllif onu tamamilə ahəngdar və gözəl ardıcıllıqla təqdim edir, bəhs etdiyi mövzularda gözəl izahlar verir. Belə ki, kəlmələrin leksik mənasından söz açdıqda bu bacarıqla edir, sintaksis təhlilini gözəl icra edir, xülasə mənasından söhbət açarkən məqsədi izah edir, ayənin nazil olma səbəbindən, hekayəsinin şərhindən söz açarkən fərqli fikirlərə geniş şəkildə yer verir, ayədəki hökmü bəyan etmək istədikdə isə fərqli məzhəb fəqihlərinin rəylərini qeyd edir, öz fəqihlərinə müxalif rəyi olarsa, bunu aşkar şəkildə bildirir, ayələr və cümlələr arasında bağlılıq və rabitə qurur, gözəl uyğunluğu və möhtəşəm nizamı bizə izah edir. Quranda qaranlıq görünən məqamlara daxil olur, şübhələri aradan qaldırır və nəfsi aramladır. Özündən əvvəlki təfsir alimlərinin sözlərini müəlliflərə istinadla nəql edir, özünün üstün hesab etdiyi nəzəri isbatlayaraq seçir”.

Ta ki, yazır: “Yalnız, haqqı dəmək gərəkdir ki, o, şiəlikdə ifratçı deyildir və bir çox On iki imam şiə alimlərindən fərqli olaraq, əqidə təəssübkeşliyi çəkmir”.[834]

“Şiəlikdə mötədillik” başlığı altındakı fəsildə isə deyir: “Təbərsi digər On iki imam şiə alimləri kimi ifratçı deyil, mötədildir. Biz onun təfsirini oxuduq və orada

---

[834] “ət-Təfsiru vəl-mufəssirun”, 2/76.

elə də böyük təəssübkeşlik təzahürləri ilə qarşılaşmadıq, hər hansı bir səhabəni təkfir etdiyini, yaxud onların dindarlıq və ya ədalətini aradan aparacaq bir fakt görmədik. Həmçinin o, Əlinin məsum olduğunu söyləsə də, onun barəsində ifrata varıb ilah dərəcəsinə qaldırmır və ya peyğəmbərlər sırasına qatmır".

Sonra deyir: "Onun təəssübünün zahir olduğu məqam öz məzhəbinin və əshabının əqidəsini var gücü ilə müdafiə etməsidir. Belə ki, hər hansı bir ayə barəsində təfsirçilərin rəylərini qeyd etdikdən və həmməzhəbi olan alimlərin sözlərini nəql elədikdən sonra öz məzhəb alimlərinin sözləri ilə razılaşır, özünə aşkar olan dəlillərlə onların sözlərini təsdiqləyir".

Sözünü bu cümlələrlə bitirir: "Məgər sən də bu təfsirin gözəl tərtiblə və üstün təliflə, dəqiq dəlillər və güclü sübutlarla yazıldığını mənimlə birlikdə görmürsənmi? Düşünürəm ki, sən də mənimlə eyni fikirdəsən. Güman edirəm ki, sən də Təbərsinin öz əqidəsini müdafiə etməsinə və təəssübünü çəkməsinə rəğmən ifrata varmadığı və həddi aşmadığı, məsələni Mövla Kazərani və onun kimi digər ifratçı On iki imam şiələrinin əsərləri səviyyəsinə çatdırmadığı barədə mənimlə həmfikirsən".[835]

* * *

**Müəllif iddia edir: "Təbəristan və onun qonşu məntəqələri Xəzər yəhudiləri ilə doludur. Təbərsilər İslam adı altında gizlənən xəzərli yəhudilərdir".**

**Cavab:** Yaqut Həməvi "Möcəmul-buldan" kitabında "Təbəristan" başlıqlı fəsildə yazır: "Təbərinin mənsubiyyəti də burayadır... Bu, olduqca böyük bir şəhərdir və hər yerinə Təbəristan adı şamildir. Onun müxtəlif nahiyələrindən sayılmayacaq qədər çox elm, ədəbiyyat və fəqih çıxmışdır".[836]

Səm\`ani "əl-Ənsab" əsərində "Təbəri" bölümündə yazır: "Təbəri mənsubiyyəti Təbəristana nisbət verilməkdədir. Ora Amul və onun vilayətləridir... Təbəri nisbəti də onadır. Amuldan çox sayda alim, fəqih və hədisşünas çıxmışdır...".

Sonra yazır: "Qədim və müasir təbəristanlılar hədis nəql etmiş və insanlar onlardan hədis eşidib yazmışlar. Bəzən Şam bölgəsindən olan şəxslərə də Təbəri deyilib. Lakin oraya doğru nisbət Təbəranidir ki, bunu da əvvəldə qeyd etmişik".

---

[835] "ət-Təfsiru vəl-mufəssirun", 2/76.
[836] "Möcəmul-buldan", 4/13.

Ardınca Təbəristandan olan məşhur alimlərin bir dəstəsinin adını sadalayır: “Tanınmış Əbu Cəfər Muhəmməd ibn Cərir Təbəri – məşhur təfsir və tarix əsərlərinin müəllifi. Deyir: “Alimlərin imamlarından biri olmuşdur, onun sözünə istinadən hökm verilir, mərifət və fəzilətinə görə rəyinə müraciət olunurdu. Müasiri olduğu alimlərin nail ola bilmədiyi qədər elm əldə etmişdi, Allahın kitabının hafizi, qiraətlərini bilən, mənalarından agah, Quranın hökmləri barədə fiqhə malik, sünnə və onun rəvayət yollarından, səhih və ya qeyri-səhihindən, nasix və mənsuxundan xəbərdar, səhabə, tabeun və onlardan sonra gələn, hökm, halal və haram məsələlərində müxalif olanlardan məlumatlı idi, tarix və onun xəbərlərini bilən şəxs idi. Onun məşhur “Tarixul-uməm vəl-muluk” və “Təfsir” kitabları vardır. Onun kimi bir kitab müəllifi yoxdur. “Təhzibul-asar” adlandırdığı kitabının isə məna etibarlı ilə bənzəri yoxdur, yalnız onu sona çatdırmayıb...”.

Həmçinin onlar sırasında Əbu Bəkr Xəvarəzmi, Əbu Mərvan Həkəm ibn Muhəmməd Təbəri, İshaq ibn İbrahim Təbəri, Əbu Teyyub Tahir ibn Abdullah ibn Tahir ibn Ömər Təbəri, Əbu Ğalib Muhəmməd ibn Əhməd ibn Ömər ibn Təbər əl-Cəriri Təbəri, Əbul-Qasim Hibətullah ibn Əhməd Təbəri, Əbu Bəkr Muhəmməd ibn Ümeyr Təbəri, qədim alimlərdən Əbu Abdullah Muhəmməd ibn Ğusn Təbəri vardır ki, Vəki` və Əbdürrəzzaqdan hədis rəvayət edib”.[837]

Laləkai isə özünün “Şərhu usuli i`tiqadi əhlis-sünnə vəl-cəmaə” kitabında Təbəristandan olan alimləri sünnədə imamlar kimi təqdim edir. Onlardan: İsmail ibn Səid əş-Şalənci, Hüseyn ibn Əli Təbəri, Əbu Nüeym Əbdülməlik ibn Ədiyy əl-Əstərabadi, Əli ibn İbrahim ibn Sələmə Qəttan əl-Qəzvini”.[838]

Burada iddiaçı müəllifdən soruşuruq:

Muhəmməd ibn Cərir Təbəri və əhli-sünnə mənsubu olan digər təbəristanlılar da İslam adı altında gizlənib müsəlmanlar arasında təfriqə salan Xəzər yəhudilərindəndir?!

---

[837] “əl-Ənsab”, 4/45-48.
[838] “Şərhu usuli i`tiqadi əhlis-sünnə vəl-cəmaə”, 1/54.

Əgər cavabı “Xeyr!” olarsa, o zaman həmin Xəzər yəhudilərinin nə üçün vəzifə və mənsəb sahibi olan əhli-sünnə ardıcılları arasında deyil, həmin dövrlərdə təqiblərə məruz qalan və zülm olunan şiələrin arasına sızdıqları anlaşılmaz olaraq qalacaq!

əl-Bustaninin “Dairətul-məarif”də, Yaqut Həməvinin “Möcəmul-buldan”da və digərlərinin sözlərindən anlaşılır ki, Xəzərlilərin ölkəsi Qafqaz dağlarının şimalında, Volqa çayı sahillərində yerləşib. Ora Xəzər dənizinin şimali-qərb hissəsidir.

əl-Bustani yazır: “Xəzərlilər – Şərqi Avropadan olan saks millətidir, miladi V əsrdə Xəzər dənizi ətrafında Volqa çayı sahillərində yaşayırdılar. Sonra qərbə doğru irəlilədilər, 634-cü ildə Cənubi Rusiyanının hazırkı ərazisini - Dnepr və Oka çaylarınadək ərazini fəth etdilər. Dövlətləri iki əsr yaşadı, həmin bu müddət ərzində daim yunanlara müxalif oldular”.[839]

Yaqut Həməvi “Möcəmul-buldan”da yazır: “Bu, türk ölkəsidir, məşhur Dərbənd qapıları arxasında, Zül-qərneynin səddi yaxınlığındadır... Müqtədirin Səqalibəyə göndərdiyi elçisi Əhməd ibn Fəzlan öz məktubunda buradakı müşahidələrini belə qeyd edir: “Xəzər İdil adlı bir qəsəbədən olan diyarın adıdır. İdil isə Rusiya və Bulqardan Xəzərə axan çayın adıdır. Həmçinin İdil bir şəhərdir. Xəzər isə məmləkətin adıdır, şəhərin deyil. İdil iki hissədən ibarətdir: İdil çayının qərbində yerləşən hissə; burada digər hissədən daha böyükdür. Digər hissə isə şərqdədir”.[840]

əl-Bustaninin sözlərinin mənası budur ki, Volqa çayının adı əvvəllər İdil olmuşdur.

Buna əsasən, Təbəristanla Xəzər dövləti arasındakı məsafənin uzaqlığı aydınlaşır. Müəllifin iddiasına görə, Xəzər yəhudiləri Təbəristana yerləşib və müsəlman obrazında İslamın içində təfriqə yaratmağa başladıqları vaxt məlum deyildir. Halbuki Yaqut Həməvi Xəzər məntəqəsində yalnız müsəlman, xristian və bütpərəstlərin, çox az sayda isə yəhudinin yaşadıqlarını qeyd edir. [841] Onlar Təbəristanda şiələr arasında deyil, elə özlərinin yaşadıqları Xəzər məntəqəsində də müsəlman qiyafəsi altında gizlənə bilərdilər.

---

839 “Dairətul-məarif”, əl-Bustani, 7/371.
840 “Möcəmul-buldan”, 2/367.
841 “Möcəmul-buldan”, 2/367.

Möhtərəm oxucu üçün qeyd etməliyik ki, "Məcməul-bəyan" təfsirinin müəllifi Əmirul-İslam Təbərsinin müasiri olmuş və İbn Funduq kimi tanınan Beyhəqi özünün "Tarixu Beyhəq" adlı əsərində yazır ki, "Məcməul-bəyan təfsirinin müəllifi Təbərsi İsfahanla Kaşan [842] arasında yerləşən Təbərs şəhərinə mənsubdur. Buradan Təbəristanla Təbərs məntəqəsi arasındakı məsafənin də uzaqlığı məlum olur.

* * *

**Müəllif iddia edir: "Onların yazdıqları kitablar İslam dininə daha çox zərbə vurmuşdur. Əgər şərqşünasların İslam dinini hədəfə alan yazıları ilə "Fəslul-xitab" kitabını müqayisə etsək, bu kitabın İslama daha çox zərbə vurduğunun şahidi olarıq. Onların digər müəlliflərinin də kitabları belədir".**

**Cavab:** Əvvəldə də qeyd etdik ki, adı çəkilən üç kitabda ("əl-İhticac", "Məcməul-bəyan" və "Fəslul-xitab") olanlar əhli-sünnə kitablarında da mövcuddur.

Əgər möhtərəm oxucu qərb şərqşünaslarının İslamı hədəfə alan kitablarına nəzər salsa, onların öz iddialarından məhz əhli-sünnə hədis kitabları olan Buxari və Müslimin "Səhih"lərinə və Peyğəmbərə (s) qəbahətli xüsusiyyətlərin nisbət verildiyi digər hədis mənbələrinə istinad etdiklərini görəcək. Orada Peyğəmbərlə (s) bağlı nəql edilən rəvayətləri oxuyan hər bir kəs Peyğəmbəri (s) əxlaqsız və cinsi şəhvətlərə alidə olan, savaşı və qan tökmək aşiqi bir şəxs kimi təsəvvür edəcək.

Mən hələ də "əl-İhticac", "Məcməul-bəyan" və ya "Fəslul-xitab" kitablarına istinad edərək İslamı hədəf alan bir kəs görməmişəm. Çünki məlumdur ki, bu kitablarda Peyğəmbəri (s) bədnam edə biləcək heç bir məsələ yoxdur. Səhabələrlə bağlı məsələlərin isə İslama tənə ola biləcək bir cəhəti yoxdur. Həmçinin bu kitablarda mövcud olan yanlış rəylər də yalnız müəlliflərinin fikirləridir və İslama nisbət verilə bilməz. Əvvəldə də qeyd etdiyimiz kimi, Mirzə Nurinin (r.ə) Qurani-Kərim barədəki rəyi əhli-sünnənin fikirləri ilə üst-üstə düşür, yalnız o, Qurandan azaldılmış hissəni təhrif, əhli-sünnə alimləri isə "mətnin nəsxi" kimi təqdim ediblər. Nəticə eynidir, fərqlilik isə yalnız adlandırmadadır.

Buradan aydın olur ki, belə böyük şəxslərin Xəzər yəhudilərindən olduğu iddiası böyük bir yalan və Allahın sözünə aşkar surətdə müxalifdir: ***"Sizə müsəlman***

---

[842] Kamil Süleymanın "Cəvamiul-cami" kitabının müqəddiməsi, 1/7.

***olduğunu bildirən (salam verən) bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahsılanaraq: "Sən mömin deyilsən!" deməyin!"*** [843]

Müəllifin digərlərinə nisbətdə daha çox qınadığı "Fəslul-xitab" kitabının müəllifi Mirzə Hüseyn Nuri Təbərsinin (q.s) öz dövrünün şahidlərindən olan Ağa Bozorg Tehraninin (r.ə) qələmilə yazılmış tərcümeyi-halını oxucu üçün nəql etməkdə bir eyib görmürük.

Ağa Bozorg Tehrani (q.s) yazır: "Şeyx Nuri bu əsrdə varlığı nadir olan nümunəvi saleh şəxslərdən biridir. Fitri istedadı ilə seçilirdi. Allahın qəribə nişanələrindən biri idi. Onda qeyri-adi bacarıqlar və şərəfli xüsusiyyətlər cəmlənmişdi. O, öz ömürünü din və məzhəb xidmətinə həsr etmiş parlaq şiə alimlərindən biri kimi sayılmağa layiqdir. Onun həyat səhifəsi saleh əməllərlə parlayır. O, öz əsərləri və üstünlükləri ilə əsrlər boyu adı yaşayacaq bir şəxsiyyətdir. Müəllif və tarixçilər onun geniş fəzilət və qiymətli mirasından hələ çox faydalanacaqlar. O, özünü elmə xidmətə həsr etmişdi. Onun üçün rəvayətlərin axtarış, təhqiqat, tədqiqat və araşdırmasından, hədislərin incəliklərinə varmaqdan, dağınıq xəbərlərin bir yerə cəmlənməsindən mühüm heç bir şey ola bilməzdi. Uğur və ilahi iradə də onun yoldaşı idi. Hətta onun əsərlərinə nəzər yetirən şəxs Allahın xüsusi lütf və inayətlərini ona yönəltdiyini zənn edə bilər. Onun qiymətli bir xəzinəsi vardır ki, dəyəri keçmişdəkilərin və elm adamlarının əsərlərindən daha artıqdır. Onun əsərlərinə vaqif olan şəxs Allahın onu Muhəmməd ailəsinin (onlara salam olsun!) mirasını qorumaq üçün yaratdığını düşünə bilər. ***"Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir!"***

İlk dəfə onun xidmətində olmağa hicri 1313-cü ildə (miladi 1896-cı il) Samirə şəhərində, Seyid Məhəmməd Həsən Hüseyni Şirazinin vəfatından bir il sonra nail oldum. Bu, onun İraqa gəldiyi il idi, həmçinin Nasirəddin Şah Qacarın da vəfat etdiyi ildir. Mən Nəcəfə getməzdən əvvəl Samirəyə gedib ziyarət etmək istəyirdim. Həmin vaxt onun barəsində danışılanlara öz evində şahid oldum. Belə ki, İmam Hüseyn (ə) müsibətindən moizələr dinləmək üçün oraya getmişdim. Cümə günü idi, həmin günlər onun evində məclislər təşkil olunur, çox sayda insan toplaşırdı. Şeyx minbərdə

[843] "ən-Nisa" surəsi, ayə 94.

moizə etdi, sonra Kərbəla müsibətini xatırlatdı və ardınca toplaşanlar oradan ayrılmağa başladılar. Öz-özümə Uca Allahın bu Şeyxə bəxş etdiyi ucalıq, qeyri-adilik və böyüklüyü düşünürdüm. Ona baxarkən keçmiş dahi şəxsiyyətlərimizin xüsusiyyətlərini onda gördüm. Nəcəfə gəldim, ancaq hələ də onunla görüşmək və ondan faydalanmaq düşüncələri məni tərk etmirdi. 1314-cü ildə (miladi 1897-ci il) o da Nəcəfə gəldi. Həmin vaxtdan etibarən altı il boyunca, ta ki, Allah onun üçün əbədi məkanı seçənə qədər yanında kölgə kimi dolaşdım. Bu müddət ərzində onda qeyri-adi işlərlə qarşılaşdım. Əgər onları şərh etmək istəsəm, çox uzun çəkər. Bizim xülasə məlumat vermək üslubumuzdan kənar olsa da, onlardan qısaca da olsa, söz açacağam. İndi insaflı olmağın və haqqı ödəməyin vaxtıdır. Mən yəqinliklə əminəm ki, əzəmətli ustadlarım və keçmiş müəllimlərimlə bundan sonra yalnız Qiyamət meydanında görüşəcəyəm. Bəs nə üçün onların haqqına riayət etməyim və razılıqlarını qazanmayım?!

O (Allah məqamını uca eləsin!), şəri vəzifələrinə daimi riayət edirdi, hər gününün məxsusi bir məşğuliyyəti vardı ki, onu əsla vaz keçməzdi. Yazı vaxtı əsr namazından günəş qürub edənədək idi, oxuma vaxtı işa namazından yatanadəkdi. Paklanmadan əsla yatmazdı. Gecələri az yatardı, sübhdən iki saat əvvəl oyanar, dəstəmazını təzələyərdi. Qəlil sudan deyil, yalnız kürr miqdarında olan sudan istifadə edərdi. Sübh namazından bir saat əvvəl İmam Əlinin (ə) Nəcəfdəki hərəminə gedər, qış-yay demədən Qiblə qapısının arxasında dayanar, hərəmin rəhbərinin köməkçisi Seyid Davud əlində hərəmin açarları ilə gələnədək gecənin nafilə namazlarını qılardı. O, qapını açar və Şeyx içəri daxil olardı. O anda hərəmə daxil olan ilk şəxs Mirzə Hüseyn Nuri (r.ə) olurdu. Hərəm rəhbərinin köməkçisilə birlikdə şamları yandırar, sonra qəbirin baş tərəfində dayanıb ziyarətnamə oxuyar və namaz qılardı. Tanıdığı xidmətçilərlə birlikdə sübh namazını qılar, təqibatla məşğul olardı. Günəş azca görünməyə başlayarkən evinə qayıdardı. Evində mövcud olan minlərlə qiymətli və nadir kitabdan formalaşan kitabxanasına üz tutar, zərurət olmadıqca oradan ayrılmazdı. Səhər açıldıqda araşdırma və kitab yazmaq işlərində ona yardım edən şəxslər gələrdi. Bunların arasında Əllamə Şeyx Əli ibn İbrahim Qummi, Şeyx Abbas ibn Muhəmməd Rza Qummi vardı. Nəcəfə gəlməzdən əvvəl isə ona Samirədə Mövla

Muhəmməd Təqi Qummi yardım edirdi. Onun tərcümeyi-halını kitabımızın birinci bölümünün 238-ci səhifəsində qeyd etmişik.

Görüş zamanı onun yanına gələn şəxslərdən üzrxahlıq edər və ya qısa bir vaxtda onun sualına cavab verərdi ki, gələn şəxslərin çoxluğu onun elmi və tədris işlərinə maneə yaratmasın. Ancaq son dövrlərində "əl-Müstədrək" kitabını tamamlamaq üzrə olduğu vaxtlarda ümumiyyətlə heç kəsi qəbul etmirdi. Ondan bir hədisin və ya xəbərin şərhi, bir məsələnin izahı, tarixi, yaxud ravinin halı, ya fiqhi məsələ və s. barədə soruşulduqda əsla geniş cavab vermədi. Ofisindən kənarda ona sual verən şəxsə yalnız həmin məsələnin qeyd olunduğu mənbəyi söyləyirdi. Öz ofisinə gələnlərə isə kitabxanasından bir kitab çıxarıb verər və özünün oxumasını istəyərdi. Bütün bunların səbəbi isə bu işlərin onu daha mühüm işlərdən yayındırmaması idi. İşlərinə ara verdikdə az miqdarda nahar yeməyi ilə kifayətlənər, sonra ilk vaxtında zöhr namazını qılar, əsr namazından sonra isə kitabını yazmağa davam edərdi.

Cümə günü isə proqramı fərqli olardı. Hərəmdən qayıtdıqdan sonra Kərbəla müsibətini xatırladan kitablar oxuyardı. Bu, evinin minbərində söyləyəcəyi xütbəyə hazırlıq xarakteri daşıyırdı. Gün çıxandan bir saat sonra təşkil etdiyi ümumi məclisə gedər, əyləşər, gələnləri salamlayar və onlarla tanış olardı. Ardınca minbərə qalxar, həmin günlə bağlı kitablarda qeyd edilənləri oxuyar, nəql etdiyi rəvayətlərin etibarı barədə ehtiyatlı davranardı. Kərbəla müsibəti haqda oxuyanda göz yaşları yanaqlarına və saqqalına axardı. Məclis başa çatdıqdan sonra cümə gününün vəzifələrini yerinə yetirər – dırnaqlarını kəsər, saçını qısaldar, qüsl alar, dualar oxuyar, nafilələri qılar və s. Öz adətinin xilafına olaraq, cümə günləri əsrdən sonra kitab yazmazdı. Əksinə, hərəmə gedər və gün batanadək dua və ibadətlə məşğul olardı. Dünyadan Rəbbinin dərgahına köçənədək bu adətini davamlı olaraq yerinə yetirdi.

Həmin illər ərzində özündən sonra adət qoyduğu əməllərdən biri Seyyidüş-şühədanın ziyarətinə piyada və ayaqyalın getməkdir. Şeyx Ənsarinin zamanında bu əməl əməlisalehlərin sünnəsi və təzimə layiq adətlərdən idi. Lakin son dövrlərdə tərk edilmiş və fəqirlik əlaməti kimi qəbul edilmişdi. Bunu etmək istəyən şəxs isə camaatın xor baxışlarından və zillətdən qorxurdu. Şeyx bu işin zəiflədiyini gördükdə özü onu yerinə yetirməyə başladı. Qurban bayramı günləri minik kirayə götürür, onu

ərzaqla doldurur, yol yoldaşı ilə birlikdə səfərə çıxırdı. Lakin bədəninin zəifliyinə görə Nəcəfdən Kərbəlaya qədər olan məsafəni adət üzrə yalnız bir gecə dincəlməklə piyada gedə bilmirdi. Həmin yolu üç gecəyə başa vurur, birinci gecəni namazgahda, ikinci gecəni Xanun-Nəcəfdə və üçüncü gecəni də Xanun-Nəxilədə gecələyir, dördüncü gün isə Kərbəlaya çatırdı. Hər gün yolun ¼-ni - yarısını gündüz və yarısını isə axşam gedirdi. Vacib namazlarını qılmaq, istirahət etmək və nahar yemək üçün özü ilə apardığı çadırda dayanırdı. İkinci və üçüncü ildə camaatın bu adətə rəğbəti artmağa başladı, zillət və rüsvayçılıq düşüncələri aradan getdi, qarşıdakı illərdə xeymələrin sayı 30-dan artıq oldu ki, hər birində də 20-30 nəfər şəxs olurdu. Sonuncu ziyarətində, yəni h.q.1319-cu (miladi 1902-ci il) ilin - Novruz, cümə və Qurban bayramının bir vaxtda olduğu böyük Həcc günündə, Məkkədə izdihamlı Həcc mərasimdə vəba xəstəliyi səbəbindən çoxlu insan həlak oldu Ərəfə günündə Şeyxlə birlikdə piyada Kərbəlaya getməyə müvəffəq oldum. O, həmin səfərdən Nəcəfə də piyada qayıtdı... Məhz həmin səfərdə xəstəliyi təzahür etməyə başladı... hərarəti qalxdı. Günü-gündən xəstəliyi ağırlaşdı, 1320-ci ilin (miladi 1903-cü il) Cəmadius-sani ayının 27-si, cümə axşamı vəfat etdi”.[844]

Bu əzəmətli Şeyxin həyatına və böyük faydası olan əsərlərinə nəzər salan şəxs onu iddiaçı müəllifin zülm və böhtan dolu sözləri ilə necə vəsf edə bilər?!

Allahdan savayı güc və qüdrət yoxdur və biz hamımız Onun hüzuruna qayıdacağıq!

* * *

**Müəllif iddia edir: “Nəcəf hövzəsinin müəllimlərindən biri vəfat etmişdi. Mən Allahın mükafatını qazanmaq üçün onun cənazəsinə qüsl edirdim və övladları da bu işdə mənə yardım edirdilər. Qüsl əsnasında məlum oldu ki, mərhum sünnət olunmamışdı! Həmin mərhumun adını indi çəkə bilmərəm, çünki övladları atalarına kimin qüsl verdiyini bilirlər. Əgər adını çəksəm, bunun mən olduğumu və bu kitabın da mənə məxsus olduğunu anlayacaqlar. Və bununla da bütün məsələ aşkar olacaq və ardınca xoş olmayan hadisələrlə üz-üzə qalacağam”.**

---

[844] “Müstədrəkul-vəsail”, 1/43 və sonrakı səhifələr.

**Cavab:** Bu da iddiaçı müəllifin dəyərsiz uydurma və xurafat hekayələrindən birdir.

Əgər o, nə yazdığını anlasaydı, belə hekayələri nəql etməzdi. Çünki bu, onun cahilliyini və mərifətsizliyini ortaya qoyur. Çünki, hekayənin doğruluğu fərz olunsa, müəllif meyitin övrətinə baxmağı və onun sünnətli olub-olmadığını ilmək üçün araşdırmağı özünə necə rəva bilmişdir?! Belə ki, hətta vəfat etmiş müsəlman bir şəxsin qüsl əsnasında övrətinə baxmaq haramdır, qüsl edən şəxsin onun övrətinin üzərini örtməsi və parçanın altından yuması vacibdir.

Şeyx Tusi (q.s) "əl-Xilaf" kitabında yazır:

"Məsələ 469: Meyitin lüt və övrəti örtülmüş halda yuyulması müstəhəbdir. Onun övrətinin üzərinə ya köynəyi örtülməli, yaxud köynəyi çıxarılmalı və üzərinə parça örtülməlidir. Şafei deyir: "Köynəyin altından qüsl verilməlidir". Əbu Hənifə deyir: "Köynəyi çıxarılmalı və övrətinin üzərinə parça atılmalıdır". Bizim dəlilim firqənin icması və bunun iki iş arasından seçilmiş olmasına uyğun əməl etməsidir".[845]

Mühəqqiq Hilli "əl-Mötəbər" kitabında deyir:

"əl-Xilaf"da müəllif deyir: "Meyitin lüt və övrəti örtülmüş halda yuyulması müstəhəbdir. Onun övrətinin üzərinə ya köynəyi ilə örtülməli, yaxud köynəyi çıxarılmalı və üzərinə parça örtülməlidir". Onun sözünün mənası budur: "köynəyi ilə" – yəni əllərini köynəkdən çıxarılmalı və övrətinə doğru aşağı çəkilməli, övrətinin üstü örtülməli, budları isə açıq qalmalıdır. Beləliklə, yalnız övrəti örtülmüş lüt şəxs kimi qalacaq".[846]

Şeyx Yusif Bəhrani (q.s) "əl-Hədaiqun-nazirə" kitabında yazır: "Üçüncü: Alimlərimiz meyitin lüt və yalnız övrətinin üzəri örtülmüş halda, yoxsa köynəyi çıxarılmadan onun altından övrətinin yuyulmasının üstün olması barədə ixtilaf etmişlər. "əl-Muxtələf"də deyilir: "Məşhur budur ki, meyitin əynindən köynəyi çıxarılsın, sonra övrətinin üzərinə onu vacib həddə örtəcək bir parça atılsın, ardınca qüsl edən şəxs yumağa başlasın".

---

[845] "Kitabul-xilaf", 1/692.
[846] "əl-Mötəbər", 1/270.

Ta ki, deyir: “Onun sözündən aydın olur ki, məşhur məhz lüt və övrəti örtülmüş halda qüsl verilməsidir ki, bu da müstəhəbdir. İbn Əbu Üqeylin sözündən isə köynəklə qüsl edilməsinin müstəhəbb olduğu aydınlaşır. Rəvayətlərdən də aşkar olan budur. Məsələn İbn Müskanın qeyd edilən səhih hədisi, Yaqub ibn Yəqtinin əvvəldə nəql etdiyimiz səhih hədisi, Süleyman ibn Xalidin qeyd etdiyimiz səhih hədisi. Yaqubun hədisindən bunun vacibliyi anlaşılır və zövcələrin biri digərini paltar altından qüsl verməsi barədə nəql edilən hədislər də bunu dəstəkləyir”.[847]

Nəcəfi “Cəvahirul-kəlam” kitabında yazır: “(Və) həmçinin müstəhəbdir ki, (övrətin üzəri) vacib olmayan hallarda da (örtülsün). Belə ki, əgər qüsl edən şəxs kor olarsa və ya övrətə baxmayacağına özündə qəti inam olarsa, yaxud da qüsl verilən şəxs övrətinə baxılması icazəli şəxslərdən (məsələn uşaq və ya həyat yoldaşı) olarsa (bu zaman övrətin örtülməsi vacib olmasa da, müstəhəbdir). Əks halda övrətin haram baxışlardan örtülməsinin vacibliyində heç bir işkal yoxdur”.[848]

əs-Sorxi “əl-Məbsut”da yazır: “Övrətinin üzərinə parça atılar. Çünki övrətin örtülməsi hər bir halda vacibdir. İnsan övladı ölü və diri ikən də möhtərəmdir. Həsən Əbu Hənifədən rəvayət edir ki, meyit həyatda ikən qüsl alarkən üzərinə bağladığı izar (tuman, fitə) həddində övrətinin üzəri örtülməlidir. Rəvayətin zahirinə əsasən, deyir: “İzarın altından yumaq onlara çətinlik yaradacaq, buna görə də övrətin üzərinə qalın parça örtülməklə kifayətlənməli, sonra namaz üçün alınan dəstəmaz kimi dəstəmaz edilməlidir”.[849]

Kaşani “Bədaius-sənai” kitabında yazır: “Övrətin üzəri parça ilə örtülməlidir. Çünki övrətə baxmağın haram olması hökmü insan öldükdən sonra da qüvvədədir. Peyğəmbər (s) buyurmuşdur: “Nə ölünün və nə də dirinin buduna baxmayın”. Ona görə də yad bir şəxsin ona yad olan bir kəsə qüsl etməsi halal deyil. Buna Aişədən nəql edilən rəvayət də dəlalət edir: “Ölünün sümüyünü sındırmaq dirinin sümüyünü sındırmaq kimidir”. Bilinməlidir ki, Adəm övladı diri olduğu kimi, öldükdən sonra da möhtərəmdir. Onun övrətinə baxmamaq da ehtiram növündəndir. Həsən Əbu

---

[847] “əl-Hədaiqun-nazirə”, 3/447.
[848] “Cəvahirul-kəlam”, 4/149.
[849] “əl-Məbsut”, 2/59.

Hənifədən nəql edir ki, meyit həyatda ikən qüsl alarkən üzərinə bağladığı izar (tuman, fitə) həddində övrətinin üzəri örtülməlidir. Doğru olan da rəvayətin zahiridir. Çünki izarın altından yumaq onlara çətinlik yaradacaq. Övrət üzərinə örtülən parça isə göbəkdən dizlərədək olan hissəni örtməlidir. Belə ki, bütün bu hissə övrət sayılır. Əslində də əmr olunan budur: "Buna görə də övrətin üzərinə qalın parça örtülməlidir". Əbu Abdullah Bəlxidən də "ən-Nəvadir"də bu fikir qeyd edilib. Sonra parçanı əlində bükməklə meyitin övrətini parça altından yuyur. Bəlxi bunu qeyd edir. Çünki yad şəxsin övrətinə toxunmaq ona baxmaqdan daha ağırdır. Baxmağın haramlığı toxunmağın haramlığını daha övla edir".[850]

Bütün bunları bildikdən sonra sual veririk: "İctihad və fəqihlik iddiaçı olan bu müəllifi meyitin övrətinə baxmağa və onun sünnətli olub-olmadığını araşdırmağa nə sövq edib?!

Nə üçün müəllif öz adının və şəxsiyyətinin aşkara çıxmasından qorxur, halbuki o, hazırda əhli-sünnədən olduğunu iddia edir. O, əhli-sünnə nəzərində qəbahətli olan təqiyyəyə hal-hazırda sığına bilməz. Özünü şiə libası altında Nəcəfdə gizlətməsi və şiə kimi göstərməsi də ona icazəli deyildir.

* * *

**Müəllif iddia edir: "Hövzədə bəzi seyidlər vardır ki, onlar barəsində şəkk və şübhələrim mövcuddur. Allaha həmd olsun ki, mən onların həqiqətlərinə yetişmək üçün araşdırma aparıram".**

**Cavab:** Müəllifin "hövzədəki seyidlər" adlandırdığı şəxslər barəsində hansı şübhələrinin olduğunu əlbəttə ki, biz bilmirik.

Bəs onların haqqında axtarış və araşdırma aparmağa ona haqq verən amil nədir? Belə ki, bu hərəkət Uca Allahın da Quranda ***"...və casusluq etməyin"*** deyə buyurduğu casusluğun özü deyilmi?!

Yoxsa onun bu əməli bir çox hədsilərdə qadağan edilən müsəlmanların ayıblarını araşdırmaq deyilmi?! İshaq ibn Əmmarın inanılan hədisində deyilir: "Əbu Abdullahın (ə) belə buyurduğunu eşitdim: "Allahın elçisi (s) buyurub: "Ey dildə müsəlman olub, qəlbinə iman yetişməyən kəslər! Müsəlmanları məzəmmət etməyin, onların eyiblərini

---

[850] "Bədaius-sənai", 1/300.

axtarmayın! Kim onların eyiblərini axtarıb faş etsə, Allah da onun eyiblərini ifşa edər. Allah kimin eyiblərini ifşa etsə, onu evinin işində belə rüsvay edər”.

Zürarənin Əbu Cəfərdən (ə) nəql etdiyi hədisdə deyilir: “Bəndənin küfrə ən yaxın olduğu vaxt bir şəxslə din üzərindən qardaşlıq edib, sonra da bir gün onu rüsvay etmək üçün səhvlərini bir-bir saymasıdır”.

Muhəmməd ibn Müslimin və ya Hələbinin İmam Əbu Abdullah Sadiqdən (ə) nəql etdiyi səhih hədisdə deyilir: “Allahın elçisi (s) buyurub: “Möminlərin səhvlərini axtarmayın! Belə ki, qardaşının eyiblərini araşdıran şəxsin eyiblərini də Allah araşdırar. Eyiblərini Allahın araşdırdığı şəxs isə evinin içində belə rüsvay edər”.[851]

Tirmizi, Əbu Davud, Əhməd, Əbu Yə`la və digərləri öz istinadları ilə İbn Ömərdən nəql edirlər: “Peyğəmbər (s) minbərə qalxıb uca səslə nida edib dedi: “Ey dildə müsəlman olub, qəlbinə iman yetişməyən kəslər! Müsəlmanları incitməyin, onların abrını aparmayın, eyiblərini axtarmayın. Kim müsəlman qardaşının eyblərinin ardınca düşüb araşdırsa, Allah da onun eyiblərinin ardınca düşər. Allah bir kəsin eyiblərinin ardınca düşsə, onu evinin içində belə rüsvay edər”.[852]

Güman ki, bu hərəkətlər müəllifin insanlar barəsində sui-zənnindən doğur və onun qaranlıq məqsədlərindən və xəbis davranışlarından xəbər verir.

əl-Mənavi “Feyzul-qədir”də yazır: “Sui-zənnə layiq olmayan şəxs barədə sui-zənn edən kəsin bu əməli onun yanlış yolda olduğuna dəlalət edir. Necə ki, deyilir:

İnsanın əməli pis olduqda onun zənləri də pisləşər,

Və adəti üzrə ağlına gələn pis xəyalları təsdiqləyər”.[853]

* * *

**Müəllif iddia edir: “Gəlin şiəlikdəki digər yad ünsürlərə nəzər salaq. Onlar bizim mötəbər kitablarımız və vacib mənbələrimizlə oynamışlar. Oxucunun bu**

---

[851] Bütün bu hədislər üçün “əl-Kafi” kitabına bax (2/354-355).

[852] “Sünən”, Tirmizi, 4/378. Tirmizi deyir: “Bu, həsən qəribə hədisdir”. “Sünən”, Əbu Davud, 4/270; “Müsnəd”, Əhməd, 4/420, 424; “Məcməuz-zəvaid”, 6/246; “Müsnəd”, Əbu Yə`la, 2/146, 6/266; “əl-Mətalibul-aliyə”, 2/365; “Şə`bul-iman”, 7/108, 521; “Mişkatul-məsabih”, 3/1402; “ət-Tərğibu vət-tərhib”, 3/152. Müəllif deyir: “Bunu Əbu Yə`la “həsən” istinadla rəvayət edib. Albani də “Səhihu sünəni Əbi Davud” kitabında bunu səhih sayıb (3/923).

[853] “Feyzul-qədir”, 1/330.

**oyunun miqyasının nə qədər uzaqlara getdiyini anlaması üçün nümunələr gətirək.**

**“əl-Kafi” kitabı şiənin mütləq şəkildə ən böyük mənbəyidir. Həmin kitab əsla səhv və xəta etməyən on ikinci məsum imam tərəfindən təsdiqlənmişdir. Kuleyni “əl-Kafi” kitabını qələmə aldıqdan sonra onu Samirədəki sərdabədə (!) on ikinci imama təqdim edib. On ikinci imam da (Allahın salamı ona olsun!) belə demişdir: “əl-Kafi” bizim şiələrimizə yetərlidir” (Bax: “Müqəddimətul-Kafi”, səh.25)”.**

**Cavab:** “əl-Kafi” kitabının şiələrin ən mühüm mənbələrindən biri olduğu doğrudur. Ancaq onun on ikinci imam (ə.f) tərəfindən təsdiqlənməsi isə yanlış iddiadır. Çünki bu fakt mötəbər bir sənədlə sübuta yetməyib, dillərdə dolaşan bir sözdür və heç bir mənbəyi yoxdur.

“əl-Kafi” kitabının yeni nəşrinin müqəddiməsində dr.Hüseyn Əli Məhfuzun qeyd etdikləri isə alimlərin bu kitabın İmama (ə) təqdim olunduğuna, onun da kitabı bəyəndiyinə və “Şiələrimiz üçün yetərlidir” dediyinə dair olan düşüncələridir.

Bu məlumat isə mürsəl (sənədsiz) olduğu üçün zəifdir. Nəinki, özü-özlüyündə puçdur. Çünki “əl-Kafi” kitabı şiələrə tam olaraq kifayət etmir, alimlər məcbur qalaraq digər hədis kitablarına üz tuturlar. Bu, məlum məsələdir və heç bir inkarı qəbul etmir.

Bundan əlavə, “əl-Kafi” kitabının müqəddiməsində müəllifin iddia etdiyi kimi, kitabın Samirədəki sərdabədə İmama (ə) təqdim edildiyinə dair heç bir qeyd yoxdur. lakin müəllif İmam Müntəzərə (ə) üstüörtülü bir tənə vurmaq məqsədilə sərdabə məsələsini ortaya atmışdır. Bu fakt isə bir daha “Allah və tarix naminə” kitabının müəllifinin iddia etdiyi kimi, nəinki şiə alimi, heç sıravi şiələrdən olmadığını bir daha təsdiqləyir.

* * *

**Müəllif iddia edir: “Seyid mühəqqiq (!) Abbas Qummi deyir: “əl-Kafi” İslamın ən ali kitablarından və On iki imam şiələrinin ən böyük əsərlərindən biridir. İmam şiələri üçün onun kimi bir kitab yazılmamışdır”.**

**Mövla Muhəmməd Əmin Əstərabadi "əl-Fəvaid"ində deyir: "Şiələrimizdən və alimlərimizdən eşitmişik ki, İslamda onun səviyyəsində və ona bərabər bir kitab qələmə alınmamışdır" ("əl-Kuna vəl-ənqab" (!), 3/98)".**

**Cavab:** "əl-Kafi" kimi bir kitabın qələmə alınmadığı iddiasına heç bir irad yoxdur. Bura "əl-Kafi" kitabının məziyyətlərinin isbat məqamı deyildir. Lakin möhtərəm oxucunun nəzərlərini ictihad və fəqihlik iddiaçısı olan bu müəllifin sitat nəql etdiyi kitabın adında yol verdiyi yanlışa yönəltmək istəyirəm. O, kitabın adını düzgün qeyd etmir, belə ki, həmin kitabın adı "əl-Kuna vəl-əlqab"dır ("Künyə və ləqəblər" – Tərc.).

Həmçinin Şeyx Abbas Qummi (r.ə) nə seyid və nə də mühəqqiq deyildir. O, öz ucalığı ilə hədisşünasdır. Şeyx Abbas Qummini bu cür qeyri-adi xüsusiyyətlərlə vəsf edən şəxsi ilk dəfə görürük. Bu fakt da bir daha iddiaçı müəllifin hövzə tədrisindən nə qədər uzaq olduğunu təsdiqləyir.

* * *

**Müəllif iddia edir: "Gəl, mənimlə birlikdə bu cümlələri oxuyaq:**

**Xunsari deyir: "Özündə bir neçə fəsli cəm edən "Rövzə" kitabının Kuleyninin qələmə aldığı "əl-Kafi" kitabının bir hissəsi olub-olmadığına, yoxsa ona sonradan əlavə edildiyinə dair ixtilaf etmişlər" ("Rəvəzatul-cənnat", 6/118)".**

**Cavab:** Biz "Rəvəzatul-cənnat" kitabında Kuleynin (q.s) tərcümeyi-halı bölümündə nə qeyd edilən səhifələrdə, nə də ümumiyyətlə kitabın digər yerlərində bu sözlərə rast gəlmədik. Halbuki müəllifin irəlidə həmin kitabdan Seyid Hüseyn Kərəkidən nəql etdiyi sözlərin səhifəsini də əsas götürsək, Xunsarinin sözlərinin ondan 4 səhifə sonra gəlməli idi. Lakin buna rəğmən nə həmin sözlərə və nə də ona bənzər mənaları tapa bilmədik.

Bu sözlərin orada olduğunu fərz etsək, məna belə olar: bəziləri "Rövzə" kitabının "əl-Kafi"nin bir hissəsi olduğunu inkar edir və onun "əl-Kafi"yə əlavə olunduğunu iddia edirlər, halbuki o kitab Kuleynin (r.ə) qələmə aldığı ayrıca bir kitabdır. Belə də olsa, bu, "Rövzə" kitabının məzmununa heç bir xələl gətirmir,

sadəcə onun “əl-Kafi”nin bir hissəsi və ya müstəqil kitab olduğu barədə şübhə yaradır.

Bəli, Xunsari “Rəvəzatul-cənnat” kitabında “ət-Tovzih” kitabının müəllifindən onun bu sözlərini nəql edir: “ər-Rövzə” kitabının Kuleyninin əsərlərindən olduğu bəzən inkar edilir. Səbəb kimi isə onun sənədinin Kuleyniyə yetişmədiyi və ya digər amillər göstərilir”.[854]

Cavab isə budur: “ət-Tovzih” kitabının müəllifinin qeyd etdikləri sadəcə bir ehtimaldır. Çünki məsələ ilə bağlı mücərrəd bir fikirdən başqa bir şey deyildir.

Halbuki Nəcaşi və Şeyx Tusi “ər-Rövzə” kitabını Şeyx Kuleyninin qələmə aldığı əsərləri arasında qeyd etmiş və bütün kitablarının Kuleyniyə istinad yollarını sadalayıblar.[855] Bu iki böyük alimin sözündən sonra digərlərinə etina olunmaz. Xüsusən, “ət-Tovzih” kitabının müəllifinin kim olduğunu da biz bilmirik. Belə ki, Xunsari onun adını qeyd etmir.

* * *

**Müəllif iddia edir: “Hicri 1076-cı ildə (miladi 1665-ci il) vəfat etmiş inanılan Şeyx Seyid (!) Hüseyn ibn Seyid Heydər əl-Kərəki əl-Amili deyir: “əl-Kafi” kitabı hər bir hədisinin İmamlara (ə) yetişən istinadları ilə əlli kitabdan (fəsildən) ibarətdir” (“Rəvəzatul-cənnat”, 6/114).**

**Hərçənd hicri 460-cı ildə (miladi 1068-ci il) vəfat etmiş Seyid (!) Əbu Cəfər Tusi isə deyir:**

**“əl-Kafi” kitabı otuz kitabdan (fəsildən) ibarətdir” (“əl-Fehrist”, səh.161).**

**Təqdim etdiyimiz sözlərdən aydın olur ki, V-XI əsrlər arasında “əl-Kafi” kitabına iyirmi kitab (fəsil) artırılmışdır. Hər bir fəsil də özündə bir çox babları əhatə edirdi. Yəni bu müddət ərzində “əl-Kafi” kitabında edilmiş təhrifləri, kəlmələrindəki dəyişiklikləri və bəzi rəvayətlərin bir hissəsinin silinməsini nəzərə almasaq, yalnız artırılmış hissə onun ümumi həcminin 40%-ni təşkil edir. Bəs “əl-Kafi” kitabına 20 fəsil artıran şəxs kimdir?! Onun səmimi insan olması mümkündürmü?!**

---

[854] “Rəvəzatul-cənnat”, 6/111.

[855] “Rical”, Nəcaşi, 2/291, 292; “əl-Fehrist”, Tusi, səh.210-211.

**Bu fəsilləri əlavə edən bir şəxsdir, yoxsa uzun müddət ərzində bir-birini əvəzləməklə kitaba əlavələr və dəyişikliklər edən bir çox şəxslərdir?!**

**Sual veririk: Hələ də "əl-Kafi" xəta və yanlışa yol verməyən məsum tərəfindən təsdiqlənən inanılan kitab olaraq qalmaqdadırmı?!"**

**Cavab:** Müəllifin Şeyx Tusinin (q.s) seyid olaraq, Şeyx Hüseyn əl-Kərəki əl-Amilini isə inanılan Şeyx Seyid kimi vəsf etməsi gülüş doğuran faktdır.

Bir şəxsin eyni vaxtda həm şeyx, həm də seyid olması necə mümkündür?!

Məgər bu faktdan sonra hansısa bir insaflı şəxsdə bu müəllifin şiə olmadığına dair kiçik də olsa, bir şəkk qala bilərmi? O, həqiqətən də özünü şiə kimi qələmə verən bir saxtakardır!

"əl-Kafi" kitabına edilən əlavələrlə bağlı iddiasına gəldikdə isə deyirik: Kaş ki, bu ictihad və fəqihlik iddiaçısı bir az səy göstərib hal-hazırda əlimizdə olan "əl-Kafi" kitabının 50, yoxsa 30 fəsildən ibarət olduğuna nəzər salardı. Əgər baxsaydı, həm ona, həm də digərlərinə iddia olunan həcmin kitaba əlavə olunub-olunmadığı məlum olardı.

Kaş ki, iddiaçı müəllif "əl-Kafi" kitabına artırıldığını güman etdiyi fəsillərin siyahısını bizim üçün sadalayar və oradakı hədislərin sayını təqdim edərdi. Xüsusən, "əl-Kafi" kitabındakı fəsillərdə hədislər sayına görə fərqlilik göstərmir və hədisləri hesablamaq ona heç bir çətinlik yaratmayacaqdı. Çünki çap edilmiş nüsxələrdə hər fəslin hədislərinin sayı da qeyd edilir.

Ola bilsin, səbəb budur ki, iddiaçı müəllif "əl-Kafi" kitabındakı fəsillərin sayının hələ də Şeyx Tusinin qeyd etdiyi kimi, 30 olduğunu bilməməkdir, ona nə bir şey artırılıb, nə də azaldılıb. Əl-Kərəkidən nəql edilən isə sözsüz xətadır.

Məsələnin möhtərəm oxucuya tam aydın olması üçün Şeyx Tusinin "əl-Fehrist" kitabında "əl-Kafi"nin fəsilləri ilə bağlı sözlərini qeyd etmək yerinə düşər. Biz onun tərtiblə sadaladığı fəsilləri hazırda Əli Əkbər Ğəffari tərəfindən 1960-cı ildə təhqiqi olunmuş çap nüsxəsinə uyğun olaraq rəqəmlərlə nömrələyəcəyik ki, onların arasına bir uyğunluq və ya fərqlilik olduğu bilinsin.

Şeyx Tusi "əl-Fehrist" kitabında yazır:

“Muhəmməd ibn Yaqub əl-Kuleyni – künyəsi Əbu Cəfərdir, inanılan, hədisləri tanıyan şəxsdir, bir çox kitabları vardır. Onlardan: “əl-Kafi” – otuz kitabdan (fəsildən) ibarətdir: 1-ci fəsil “Əql”; 2. “Elmin fəziləti”; 3. “Tövhid”; 4. “Höccət”; 5. “İman və küfr”; 6. “Dua”; 7. “Quranın fəziləti”; 8. “Paklıq və heyz”; 10. “Namaz”; 11. “Zəkat”; 12. “Oruc”; 13. “Həcc”; 16. “Nikah”; 17. “Boşanma”; 18. “Azadetmə, tədbir, yazışma”; 29. “And, nəzir və kəffarə”; 15. “Məişət”; 27. “Şahidlik”; 28. “Qəzavət və hökmlər”; 9. “Cənazə”; (-) “Vəqf və sədəqələr”; 19. “Ov və heyvan kəsmək”; 20. “Yeməli və içəməlilər”; 22. “Əhliləşdirilmiş heyvanlar”; 21. “Geyim və nəzakət”; 14. “Cihad”; 33. “Vəsiyyət”; 24. “Vaciblər”; 25. “Hədd cəzaları”; 26. “Diyələr”; 30. “Kafinin bağçası” sonuncu fəsildir”.[856]

“əl-Kafi” kitabının cildlərinə müvafiq fəsillərinə gəldikdə, onların sıralaması aşağıdakı kimidir:

**Birinci cild.** 1437 hədisdən ibarətdir və aşağıdakı fəsillərə bölünür:

1. “Əql və cəhalət” – səh.10-29.
2. “Elmin fəziləti” – səh.30-71.
3. “Tövhid” – səh.72-167.
4. “Höccət” - səh.168-dən cildin sonunadək.

**İkinci cild.** 2346 hədisdən ibarətdir və aşağıdakı fəsillərə bölünür:

5. “İman və küfr” - səh.2-464.
6. “Dua” - səh.465-596.

Nəcaşi “Dua” fəslinin adını öz kitabında qeyd etməyib, ancaq Şeyx Tusi fəsillərin arasında sadalayıb. Ola bilsin ki, Nəcaşi bunu nəzərdən qaçırıb və ya kitab nüsxələnərkən xətaya yol verilib. Bəlkə də Nəcaşi onun “İman və küfr” fəslinin davamı olduğunu düşünüb.

7. “Quranın fəziləti” - səh.596-634.

- “Dostluq (ünsiyyət)” - səh.635-dən cildin sonunadək. Bu kitabı Şeyx Tusi qeyd etməyib, lakin Nəcaşi “Rical”da adını çəkir.[857]

**Üçüncü cild.** 2049 hədisdən ibarətdir və aşağıdakı fəsillərə bölünür:

---

[856] “əl-Fehrist”, səh.210.
[857] “Rical”, Nəcaşi, 2/210.

8. “Paklıq” - səh.1-74.

- “Heyz” - səh.75-110.

Bu iki fəsli Şeyx Tusi tək bir fəsil kimi qeyd edərək yazır: “Paklıq və heyz” fəsli.

9. “Cənazə” - səh.111-263.

10. “Namaz” - səh.264-495.

11. “Zəkat” - səh.496.

**Dördüncü cild.** 2188 hədisdən ibarətdir və aşağıdakı fəsillərə bölünür:

“Zəkat” (“Sədəqlər”) fəsli 2-60-cı səhifələrlə bitir.

12. “Oruc” – 62-183.

13. “Həcc” – səh.184-dən cildin sonunadək.

**Beşinci cild.** 2200 hədisdən ibarətdir və aşağıdakı fəsillərə bölünür:

14. “Cihad” – səh.2-64.

15. “Məişət” – səh. 65-319.

16. “Nikah”, - səh.320-dən cildin sonunadək.

**Altıncı cild.** 2600 hədisdən ibarətdir və aşağıdakı fəsillərə bölünür:

- “Əqiqə” – səh.2-53.

Bu fəsli Şeyx Tusi qeyd etməyib, lakin Nəcaşi “Nikah” fəsli ilə birlikdə qeyd edərək yazır: “Nikah və əqiqə” fəsli.[858]

17. “Boşanma” – səh.54-176.

18. “Azadetmə, tədbir və yazışma” – səh.177-201.

19. “Ov” – səh.202-226.

- “Heyvan kəsmək” – səh.227-241.

Şeyx Tusi bu iki fəsli tək bir fəsil kimi qeyd edir.

20. “Yeməlilər” – səh.242-379.

- “İçməlilər” – səh.380-437.

Həmçinin bu iki fəsli də Şeyx Tusi tək bir fəsil kimi qeyd edir.

21. “Geyim, nəzakət və alicənablıq” – səh.438-534.

22. “Əhliləşdirilmiş heyvanlar” – səh.535-dən cildin sonunadək.

**Yeddinci cild.** 1704 hədisdən ibarətdir və aşağıdakı fəsillərə bölünür:

---

[858] “Rical”, Nəcaşi, 2/210.

23. “Vəsiyyət” – səh.2-69.

24. “Miraslar” – 70-176. Şeyx Tusi bu fəslin adını “Vaciblər” olaraq qeyd edir.

25. “Hədd cəzaları” – səh.174-270.

26. “Diyələr” – səh.271-377.

27. “Şahidlik” – səh.378-405.

28. “Qəzavət və hökmlər” – səh.406-433.

29. “And, nəzir və kəffarələr” – səh.434-dən cildin sonunadək.

**Səkkizinci cild.**

30. “Kafinin bağçası” – 597 hədisdən ibarətdir.

“əl-Kafi” kitabının bütün fəsilləri bunlardır. Şeyx Tusi onları sadalayarkən “Dostluq (ünsiyyət)” və “Əqiqə” fəsillərini qeyd etməyib, əlavə olaraq bir fəslin adını qeyd edib ki, o da hazırda əlimizdə mövcud olan nüsxədə yoxdur. Bu, “Vəqf və sədəqələr” fəslidir. Ümumən isə fəsillərin sayı 30-dur.

Nəticə olaraq, hazırda əlimizdə mövcud olan “əl-Kafi” kitabının fəsilləri Şeyx Tusinin (q.s) “əl-Fehrist”də sadaladığı fəsillərlə eynidir, yalnız “Dostluq” və “Əqiqə” fəsilləri istisnadır ki, onları da Nəcaşi “Rical” kitabında qeyd edir. Bu isə həmin fəsillərin sonradan əlavə edilmədiyinin dəlilidir.

Bundan əlavə, hazırda əlimizdə mövcud olan “əl-Kafi” kitabında olmayan bir fəsli də Şeyx Tusi kitabında qeyd edir. Bu, “Vəqflər və sədəqələr” fəslidir. Həmin fəsli Nəcaşi “Rical”da qeyd etmir. Əgər faktın doğruluğu isbatlansa, bu, “əl-Kafi” kitabına nəyinsə artırıldığına deyil, əksinə azaldıldığına dəlalət edəcək. Halbuki bunun Şeyx Tusi tərəfindən yol verilən yanlışlıq səbəbindən baş verdiyi ehtimal oluna bilər. Burada Nəcaşinin nəqlinə etimad olunmalıdır. Çünki o, nəql etməkdə Şeyxdən daha dəqiq olub.

Bütün bunlardan aydın olur ki, “əl-Kafi” kitabına müəllifin iddia etdiyi kimi, iyirmi yox, heç bir fəsil belə artırılmamışdır.

* * *

**Müəllif iddia edir: “İndi isə əhəmiyyətdə “əl-Kafi”dən sonra ikinci olan dörd səhih (!) kitabdan digərinə nəzər salaq. Bu, Nəcəf hövzəsinin təsisçisi Şeyx Tusinin “Təhzibul-əhkam” kitabıdır. Fəqih və alimlərimiz hal-hazırda həmin**

**kitabda 13590 hədisin olduğunu qeyd edirlər. Halbuki kitabın müəllifi olan Tusi özünün "Uddətul-usul" kitabında "Təhzibul-əhkam" kitabında 5000 mindən artıq hədis topladığını yazır. Yəni hər bir halda 6000 mindən artıq deyil. Bəs kitabdakı hədislərin sayını dəfələrlə aşan bu qədər hədisi ora kim əlavə edib?"**

**Cavab:** Şeyx Tusinin (r.ə) "Uddətul-usul" kitabındakı sözləri budur: "İmamlardan (ə) fiqhə dair nəql olunan ixtilaflı hədisləri özümün "əl-İstibsar" və "Təhzibul-əhkam" kitablarımda nəql etmişəm ki, onların sayı da 5000 mindən artıqdır. Əksəriyyəti ilə bağlı əməl etməkdə əshabımız arasında yaranan ixtilafları da qeyd etmişəm. Bu əsla gizli deyildir".[859]

Şeyxin (q.s) sözləri olduqca aydındır. Belə ki, o, hər iki kitabda fiqhlə bağlı ixtilaflı və zidd mənalı hədislərdən bəhs edir. Sözlərindən də məlum olduğu kimi, onun məqsədi həmin kitablarda topladığı hədislərin ümumi sayını deyil, yalnız fiqhlə bağlı ixtilaflı hədislərin sayını bəyan etməkdir. Çünki "Təhzib" və "əl-İstibsar"dakı bütün hədislərin zidd və ixtilaflı olmadığı şübhəsizdir.

Müəllifin öz çirkin məqsədlərinə çatmaq üçün Şeyx Tusinin (q.s) sözlərini təhrif etməsi təəssüf doğuran haldır. Şeyxin sözlərini bu tərzdə nəql etmək onun pis niyyətindən xəbər verir.

* * *

**Müəllif iddia edir: ""Təhzibul-əhkam", "əl-Kafi" və digər kitablarda rəvayət olunan bu bəlalı hədisləri mülahizə etdikdə, bunların İslam adı altında gizlənən kəslər tərəfindən əlavə edildiyinə şəkk olmadığını görürük. İslam belə şeylərdən uzaqdır! Bu bizim iki böyük kitabımızın vəziyyətidir, digər kitablarımızı araşdırsaq, daha nələrlə qarşılaşacağıq?!"**

**Cavab:** Möhtərəm oxucuya aydın oldu ki, müəllifin bu iki kitabla bağlı sözləri boş xəyallar və puç iddialardan başqa bir şey deyildir. "əl-Kafi" və "ət-Təhzib" kitablarında rəvayətlərdə mövcud olan bəlalarla bağlı iddialarına gəldikdə, bunlar da onun tərəfindən açıqlama və isbata ehtiyac duyur. Lakin isbatlamadan boş iddia ilə çıxış etməsi qəbuledilməzdir və heç bir dəyərə də sahib deyildir. Çünki səhih və

[859] "Uddətul-usul", 1/356.

düzgün dəlilə istinad olunmayan hər bir iddia divara çırpılmağa layiqdir. Bu, aydın məsələdir və bu barədə söhbəti uzatmağa da ehtiyac yoxdur.

Biz bu iki kitabda zəif rəvayətlərin mövcud olduğunu inkar etmirik. Ancaq bu, onlarda hansısa dəyişikliklərin və ya saxtakarlıqların baş verdiyinə dəlalət etməz. Əks halda bütün hədis kitablarının, hətta əhli-sünnənin "Səhih"lərinin də təhrif və əlavələrə məruz qaldığı iddia oluna bilər. Halbuki bunu nə müəllifin özü, nə də onun həmfikirləri əsla qəbul etməzlər.

* * *

**Müəllif iddia edir: "Buna görə də Seyid Haşim Məruf əl-Hüsni deyir: "Şiələrin hekayə uyduranları İmamların düşmənləri ilə birgə hidayət İmamlarının (ə) adından bu növdən olan çox sayda rəvayətlər uydurmuşlar". Həmçinin deyir:**

**"əl-Kafi", "əl-Vafi" və digər bu kimi hədis məcmuələrində qeyd edilən hədisləri araşdırdıqdan sonra ğulatların (ifratçı) və hidayət İmamlarına (ə) nifrət bəsləyənlərin onların adlarından bir çox saxta hədislər nəql edərək bu kitabların müxtəlif fəsillərinə yerləşdirmək imkanlardan birini də boşa vermədiklərini görürük" ("əl-Movzuat", səh.165, 253)".**

**Cavab:** Məlum faktdır ki, şiə alimləri "əl-Kafi", "əl-Vafi" və digər hədis kitablarında nəql olunan hədislərin hamısının səhih olduğu qənaətində deyillər. Əksinə, onların rəyinə əsasən, bu hədislərin arasında zəif və uydurma rəvayətlər də mövcuddur. Bu, barəsində heç bir ixtilaf olmayan məsələdir. Lakin bu fakt o kitabları bütünlüklə etibardan salmır. Belə ki, alimlərimiz həmin hədisləri dəfələrlə araşdırır, səhihini zəifdən və doğrusunu saxtadan ayırırlar. Bu kitabların vəziyyəti əhli-sünnə mənbələrində zəif, səhih, yalan və saxta hədislərin bir yerdə cəm edildiyi kitablar kimidir. Oradakı saxta hədislərin varlığı səhih və mötəbər hədislərə əməl etməyə maneə ola bilməz.

* * *

**Müəllif iddia edir: "Bunu Şeyx Tusi "ət-Təhzib"in müqəddiməsində də etiraf edir: "Dostlarımız mənə... əshabımızın hədislərindən, oradakı ixtilaf, ziddiyyət və uyğunsuzluqları, oradakı hədislərin demək olar ki, hər birinin zidd**

**mənalı rəvayətinin olduğunu söyləyiblər. Müxaliflərimiz də bu faktı bizi tənqid etmək üçün ən böyük bəhanə olaraq istifadə edirlər". Tusinin öz kitabını qorumaq cəhdlərinə baxmayaraq, göründüyü kimi, o da təhrifdən amanda qalmayıb".**

**Cavab:** Hədislər arasında mövcud olan ziddiyyət və uyğunsuzluq inkarolunmaz bir məsələdir və biz bu barədə mübahisə də etmirik. Çünki zidd mənalı hədislər həm şiə, həm də sünni hədislərində olduqca çoxdur. Bununla bağlı İbn Rüşdün "Bidayətul-muctəhid və nihayətul-muqtəsid" kitabına nəzər salmaq kifayətdir ki, əhli-sünnə kitablarında da ziddiyyətli hədislərin miqdarı və fəqihlərinin bu hədislərə əsaslanıb verdikləri fətvalardakı ixtilafları məlum olsun.

Hər iki məzhəbin kitablarındakı ziddiyyətli hədislərin varlığının bir zərəri yoxdur. Çünki fəqih səhihi zəifdən və doğrunu saxtadan ayırmaq qüdrətinə malikdir. Həmçinin o, sənəd və dəlalət baxımından mötəbər olan hədislər arasında da tərcih etmək, üstün olanı əsas götürüb, digərini kənara atmaq səlahiyyətinə malikdir.

Şeyx Tusinin (q.s) kitabına gəldikdə, onun təhrifə məruz qaldığı barədə iddianın puç olduğunu yuxarıda qeyd etdik və burada həmin sözləri təkrarlamağa ehtiyac görmürük.

* * *

**Müəllif iddia edir: "Hindistana səfərim zamanı Seyid Dəldar Əli ilə görüşdüm. O mənə özünün "Əsasul-usul" kitabını hədiyyə etdi. Kitabının 51-ci səhifəsində belə qeyd edirdi: "İmamlardan (ə) nəql edilən hədislər olduqca ixtilaflıdır, az qala elə bir hədis yoxdur ki, onun ziddinə hədis olmasın. Hər bir rəvayətin əks mənalı hədisi vardır". Bütün bunlar bir çox şəxsin şiə məzhəbindən üz döndərməsinə səbəb olmuşdur".**

**Cavab:** Bu hekayə kasanı dolduran son damladır, heç bir cəhətdən haqq qazandırılması mümkün olmayan aşkar bir yalandır. Belə ki, müəllifin Seyid Dəldar Əli ilə qarşılaşması qeyri-mümkündür. Çünki o, müəllifin "Allah və tarix naminə" kitabını qələmə aldığı dövrdən 185 il öncə vəfat etmişdir.

Ağa Bozorg Tehrani özünün "əz-Zəriətu ila təsanifiş-şiə" kitabında yazır:

“Əsasul-usul”: “əl-Fəvaidul-mədinətul-Əsətərabadiyyə” kitabına cavab olaraq yazılmışdır. Əllamə Seyid Dəldar Əli ibn Muhəmməd Muin ən-Nəqəvi Nəsir Abadi əl-Ləkhənəvi. Ayətullah Bəhrul-ulumdan icazəsi vardır. Hicri 1235-ci ildə (miladi 1819-cu il) vəfat etmişdir...”.[860]

Buna əsasən, əgər fərz etsək ki, müəllif Seyid Dəldarla ömrünün son günlərində qarşılaşmışdı, həmin vaxt da özü həddi-buluğ – yəni 15 yaşında idisə, o zaman “Allah və tarix naminə” kitabını yazarkən müəllifin 200 yaşı olmalıdır.

Halbuki müəllif kitabında şair Safi Nəcəfinin ondan 30 yaş böyük olduğunu yazır. Şair Safi hicri 1314-cü ildə (miladi 1896-cı il) anadan olmuşdur. Demək müəllif də 1344-cü ildə (miladi 1925-1926-cı illərdə) doğulub. Kitabın qələmə alındığı 1420-ci ildə (miladi 2000-ci ildə) onun 75-76 yaşı olur. Onun sözlərinin yalan olduğuna elə öz sözləri dəlildir. Ona görə də bu iddiaçı müəllifin kitabında şahidi olduğunu bildirdiyi hər bir qissə və hekayə etibarsızdır.

Müəllifin “Bütün bunlar bir çox şəxsin şiə məzhəbindən üz döndərməsinə səbəb olmuşdur” iddiasına gəldikdə, buna cavab olaraq deyə bilərik ki, biz şiə məzhəbini tərk edərək əhli-sünnə məzhəblərindən birini qəbul etmiş tanınmış bir alimin varlığı barədə indiyədək əsla bir söz eşitməmişik. Əksinə, əhli-sünnə məzhəblərini tərk edərək şiəliyə etiqad bəsləyən əhli-sünnə alimlərinin sayı olduqca çoxdur. Şiəliyi qəbul etmiş Şeyx Haşim Ali Qətit özünün qələmə aldığı üç cildlik “Şiə məzhəbini qəbul edənlər: həqiqət və inam” kitabında əhli-sünnə məzhəbindən imtina edərək şiəliyi qəbul etmiş və öz məzhəblərini tərk etməyə onları vadar edən səbəbləri qeyd etdikləri kitablar qələmə almış onlarla əhli-sünnə aliminin adlarını qeyd edir.

Şiəliyi qəbul etmiş və məzhəb dəyişmə səbəbləri ilə kitab yazmış bəzi keçmiş əhli-sünnə alimlərinin siyahısını burada qeyd etməyin heç bir eybi olmaz:

1. Şeyx Muhəmməd Mər`i Əntaki əl-Hələbi (Suriya) – şiə olma hekayəsini özünün “Nə üçün Əhli-Beyt (ə) məzhəbi olan şiəliyi seçdim” kitabında qeyd edir.

2. Şeyx Muhəmməd Əmin Əntaki əl-Hələbi (Suriya) - şiə olma hekayəsini özünün “Məni şiəliyə aparan yol” kitabında qeyd edir.

---

860

3. Dr. Seyid Muhəmməd Ticani Səmavi (Tunis) - şiə olma hekayəsini özünün "Necə hidayət oldum" kitabında qeyd edir.

4. Mərvan Xəlifat (İordaniya) - şiə olma hekayəsini özünün "Nəhayət gəmiyə mindim" kitabında qeyd edir.

5. Muhami Əhməd Hüseyn Yaqub (İordaniya) – şiə məzhəbinin haqq olduğunu iqrar və təsdiq edən silsilə kitabların müəllifidir. Onlardan: "Səhabələrin ədaləti nəzəriyyəsi", "İslamda siyasi quruluş", "Peyğəmbər və ailəsilə üz-üzə" və s.

6. Şeyx Mötəsim Seyid Əhməd (Sudan) - - şiə olma hekayəsini özünün "İtmiş həqiqət: Əhli-Beyt (ə) məzhəbinə doğru səfərim" kitabında qeyd edir.

7. Seyid İdris Hüseyni (Şimali Afrika) - şiə olma hekayəsini özünün "Hüseyn (ə) məni şiə etdi" kitabında qeyd edir.

8. İraqlı təhqiqatçı Saib Əbdülhəmid – onun bir çox kitabları vardır. Onlardan: "Məzhəb mənsubiyyəti proqramı" və s.

9. Saleh Vərdani (Misir) - şiə olma hekayəsini özünün "Aldatma: sünnilikdən şiəliyə keçidim" kitabında qeyd edir. Onun bir çox faydalı əsərləri vardır.

10. Xanım Ləmya Hümadə (Suriya) - şiə olma hekayəsini özünün "Sonda ruh parladı" kitabında qeyd edir.

11. Seyid Hüseyn Rəca (Suriya) - şiə olma hekayəsini özünün "Sünni və şiə çərçivəsində ilahi vəhyin müdafiəsi" kitabında qeyd edir.

12. Şeyx Haşim Ali Qətit (Suriya) - şiə olma hekayəsini özünün "Müzakirələrdə (dialoqlarda) həqiqəti kəşf etdim" kitabında qeyd edir.

13. Dr. Ə`səd Vəhid Qasim (Fələstin) - şiə olma hekayəsini özünün "On iki imam şiələrinin həqiqəti" kitabında qeyd edir.

14. Mühami Muhəmməd Əli Mütəvəkkil (Sudan) - şiə olma hekayəsini özünün "Şiəliyə səcdə halında daxil olduq" kitabında qeyd edir.

15. Dr. Səid Əyyub (Misir) - şiə olma hekayəsini özünün "Və haqq gəldi..." kitabında qeyd edir.

* * *

**Müəllif iddia edir: "Quranın təhrif edilməsinə dair fikirləri araşdırdıq, ilk belə iddianın Süleym ibn Qeys əl-Hilalinin (h.q.90-cı il) kitabında ortaya**

**atıldığını görürük. O, yalnız iki rəvayət qeyd edilir. Bu, şiələrin yazılmış olan ilk kitabıdır. Orada bu iki rəvayətdən savayı heç bir şey yoxdur.**

**Ancaq Süleym ibn Qeysdən əsrlər sonra qələmə alınan mötəbər kitablarımıza müraciət etsək onların təhrif barədə rəvayətlərlə dolu olduğunu görəcəyik. Hətta Nuri Təbərsi özünün "Fəslul-xitab" kitabında təhriflə bağlı mindən artıq rəvayət qeyd etmişdir".**

**Cavab:** Müəllif burada Süleym ibn Qeysin kitabını şiələrin yazılmış olan ilk kitabı təqdim edərək orada təhrifə dəlalət edən sadəcə iki rəvayətin olduğunu iddia edir. Halbuki irəlidə müəllifin özü Süleym ibn Qeysin kitabının Aban ibn Əbu Əyyaş tərəfindən uydurulduğunu və Süleymə nisbət verdiyini söyləyir.

Təhriflə bağlı rəvayətlərə gəldikdə, onlara əvvəldə cavab verdik, burada həmin sözləri təkrarlamağa lüzum görmürük. Həmçinin bildirdik ki, Şeyx Muhəmməd Cavad Bəlaği "Alaur-Rəhman" kitabında Mirzə Nurinin eyni rəvayəti müxtəlif mənbələrdən bir yerə topladığını və bunun da oxucuda fərqli rəvayətlər təəssüratı yaratdığını qeyd etdiyini sizə nəql etdik. Halbuki oradakı çoxsaylı rəvayətlər həqiqətdə bir rəvayətdir. Şeyx Muhəmməd Cavad Bəlağinin həmin kitabına müraciət edin, belə ki, orada həqiqətən də çox faydalı məlumatlar vardır.

Şiələrin mötəbər mənbələrində təhriflə bağlı rəvayətlərin mövcud olduğu iddiasına gəldikdə, bunda heç bir qeyri-adi bir şey yoxdur. Belə ki, bundan qat-qat artığı əhli-sünnə kitablarında da mövcuddur. Buxari, Müslim və digər müəlliflərin "Səhih" və mötəbər hədis kitablarında təhriflə bağlı çox sayda rəvayətlər vardır. Əvvəldə də qeyd etdiyimiz kimi, belə rəvayətlərin varlığı təhrifin baş verdiyi düşüncəsini təsdiqləməz.

* * *

**Müəllif iddia edir: "Bu rəvayətləri kim uydurub? Əgər əvvəldə qeyd etdiyimiz kitablara, xüsusilə də "Səhih" (!) əlavə edilənlərə nəzər salsaq, aydın olacaq ki, bu rəvayətlər Süleym ibn Qeysin kitabı qələmə alındıqdan sonrakı dövrlərdə - VI və ya VII əsrlərdə əlavə edilib. Hətta hicri 381-ci ildə (miladi 991-ci il) vəfat etmiş Səduq yazır: "Kim şiələrə belə iddiaları (yəni Quranın təhrif edilməsini) nisbət versə, o, yalançıdır (kəzzabdır)". Çünki o, belə rəvayətləri**

**eşitməmişdi. Əgər həmin rəvayətlər o dövrdə mövcud olsaydı, mütləq onlar haqqında məlumatı olar və xəbərlərini eşidərdi.**

**Həmçinin Tusi də özünün "ət-Tibyan fi təfsiril-Qur`an" kitabının (Nəcəf çapı, 1963) kitabında şiələrə belə bir sözü nisbət verməyi inkar edir. Süleym ibn Qeysin kitabına gəldikdə, o, Aban ibn Əbu Əyyaş tərəfindən Süleymin adına nisbət verilərək uydurulmuşdur. İbn Mütəhhər əl-Hilli və əl-Ərdəbili Aban ibn Əbu Əyyaş haqqında yazırlar: "Olduqca zəifdir, əshabımız Süleym ibn Qeysin kitabının uyudurulmasını ona nisbət vermişlər" (əl-Hilli, səh.206, "Camiur-ruvvat", əl-Ərdəbili, 1/9)".**

**Cavab:** Biz müəllifin dəlil təqdim etməkdə qəribə üslubuna təəccüb etməkdən yorulmuruq. Belə ki, o, Şeyx Səduq və Şeyx Tusinin Quranın təhrif edildiyinə dair iddiaları inkar etdiklərini, bununla bağlı heç bir rəvayətin mövcud olmadığını və uzun müddət sonra uydurulduqlarını söyləyir. Halbuki Quranın təhrifilə bağlı rəvayətlər hər iki şeyxin yaşadıqları zamanda, həmçinin onlardan öncə də var idi. Ona görə də hicri 413-cü ildə (miladi 1022-ci il) vəfat etmiş və Şeyx Səduqun müasiri olmuş Şeyx Müfid özünün "Əvailul-məqalat" kitabında buna işarə edir. Necə ki, əvvəldə onun sözlərini nəql etdik.

Ola bilsin ki, müəllif bir necə sətir öncə həmin rəvayətlərin Süleym ibn Qeys əl-Hilalinin kitabında mövcud olduğunu söylədiyini unudub. Belə ki, həmin kitab bu müəlliflərdən illər öncə qələmə alınmışdır. Həmçinin hicri 329-cu ildə (miladi 941-ci il) vəfat etmiş Kuleyninin "əl-Kafi" kitabından da təhrifə özünün dəlil göstərdiyi hədisləri də unudur.

Əgər müəllif Qurani-Kərimin təhrifilə bağlı şiə kitablarındakı rəvayətlərin sonradan uydurulduğu qənaətindədirsə, o zaman Buxarinin, Müslimin və əhli-sünnənin digər mötəbər hədis kitablarında təhriflə bağlı hədislərin də sonradan onlara əlavə edildiyinə hökm etməlidir. Çünki Buxari, Müslim, Malik, eləcə də dörd əhli-sünnə məzhəbinin müasir alimləri kitablarında Qurani-Kərimin təhrif edilməsinə dair rəvayətlərin mövcud olmasına rəğmən onun təhrif olduğu qənaətində deyillər. Bu isə (müəllifin nəticə çıxarmaq qaydasına əsasən), həmin rəvayətlərin o kitablara

sonradan əlavə edildiyinə dəlalət edir, onun iddiasına əsasən, əks təqdirdə, onlar Quranın təhrif edildiyinə etiqad bəsləyərdilər.

* * *

**Müəllif iddia edir: "Səfəvi dövləti qurulduqda rəvayətlər uydurmaq və onları İmam Sadiqin (ə) və digər İmamların (onlara Allahın salamı olsun!) adlarına nisbət vermək üçün böyük imkanlar yarandı".**

**Cavab:** Bu, olduqca qəribə bir iddiadır. Bu müəllifin sözlərində nə qədər əcaibliklər vardır!!! Şiələrin hədis kitabları Səfəvi dövlətindən çox-çox əvvəllər yazılmışdır. Səfəvi dövləti hicri 906-1148-ci illərdə (miladi 1501-1736-cı illər) mövcud olmuşdur.[861] "əl-Kafi" kitabının müəllifi Kuleyni hicri 329 (m.941), "Mən la yəhzuruhul-fəqih" kitabının müəllifi Şeyx Səduq hicri 381 (m.991), "Təhzibul-əhkam" və "əl-İstibsar" kitablarının müəllifi Şeyx Tusi isə hicri 460-cı (m.1068-ci) ildə vəfat etmişlər. Onların yaşadıqları dövrlə Səfəvilər dövlətinin yarandığı illər arasında nə qədər zaman fasiləsi vardır!

Onlardan sonra yaşamış "əl-Vafi" kitabının müəllifi Feyz Kaşani h.1091 (m.1680) və "Vəsailuş-şiə" kitabının müəllifi Hürr Alumi h.1104-cü ildə (m.1693) vəfat etmişlər. Onlar isə yalnız əvvəlki dörd kitabdakı rəvayətləri bir yerə toplamış və onları fəsillərə bölmüşlər.

"Biharul-ənvar" kitabının müəllifi Əllamə Məclisi hicri 1111-ci ildə (m.1700) vəfat etmişdir. O, keçmişdə kitabların yandırılması və məhv edilməsi hallarının gələcəkdə də baş verməsindən qorxaraq özündən əvvəlki müəlliflərin kitablarında yer alan hədis, rəvayət və qissələri bir kitabda cəmləmiş, hər birinin mənbəyini qeyd etmiş, sonrakı çaplarda isə Məclisinin kitabındakı rəvayətlərin əsli mənbələrdəki cild və səhifə rəqəmləri götürülmüşdür.

Hicri 1320-ci ildə (m.1902) vəfat etmiş "Müstədrəkul-vəsail" kitabının müəllifi Mirzə Hüseyn Nuri isə Hürr Amulinin "Vəsail" kitabında qeyd etmədiyi, lakin sonrakı dövrdə məşhur olan kitablarda nəql edilən rəvayətləri öz kitabında nəql etmişdir. Kitabın yeni nəşrində keçmiş rəvayətlərin mənbələri, oradakı cild və səhifə rəqəmləri qeyd edilir.

---

[861] "Dairətul-məarifil-İslamiyyə", 14/234; "Dairətul-məarif", əl-Bustani, 10/736.

Bütün bunlar aydın olduqda sonra, müəllifin iddialarının yalan və puçluğu aydınlaşır. Həmçinin məlum olur ki, hədis kitabları ya Səfəvi dövlətindən illər və əsrlər öncə yazılmışdır.

* * *

**Müəllif iddia edir: "Bu qısa icmaldan sonra aydın olur ki, bizim müəlliflərin əsərlərinə heç bir inam və etibar ola bilməz. Belə ki, onlar qorunmamış, üzərilərində düşmən əlləri öz izlərini buraxmış və sizin artıq bildiyiniz saxtakarlıqları onlarda baş vermişdir".**

**Cavab:** Əksinə, möhtərəm oxucu müəllifin iddialarının boş xəyallardan və dəlilsiz-sübutsuz iddialardan ibarət olduğunu gördü. Müəllif öz iddialarını sübuta yetirmək üçün heç bir dəlil təqdim etmədi, yalnız ilğımlarla oxucuda fikir formalaşdırmağa təşəbbüs göstərdi, onu hədəfinə çatdıracağını zənn etdiyi rəvayətləri sadaladı, lakin bunda da ziyana uğradı, rəzil və rüsvay vəziyyətə düşdü.

Müəllif əsas hədislərin bir hissəsinin belə kitablarımıza əlavə edildiyini bircə dəlillə belə isbatlamağı bacarmadı, onların keçmiş nüsxələrilə indiki nüsxələri arasındakı bir rəvayətlərin fərqini təqdim edə bilmədi və hansı rəvayətin kitaba artırıldığını müəyyən etmədi. Halbuki, əgər kitaba bir şey artırılsaydı, onu müəyyən etmək olduqca asan olardı. Çünki həmin kitablardan rəvayət nəql edənlər olduqca çoxdur, onların təhqiqatçıları isə saysızdır. Kitaba əlavə edilən rəvayətlər bütün bu şəxslərdən gizli necə qala bilərdi?! Yoxsa onların hamısı həmin əlavələri görüb göz yummuş və razı olmuşdur?!

* * *

**Müəllif iddia edir: "İndi isə şiəlikdəki yad ünsürlərin digər növünə nəzər salaq.**

**Bu problem on ikinci imamla bağlıdır və olduqca ciddi bir problemdir.**

**Fəzilətli qardaşım Seyid (!) Əhməd bu mövzunu araşdırmış və on ikinci imamın həqiqətinin və şəxsinin mövcud olmadığını açıqlamışdır. Qeyd olunan müəllifin bu mövzudakı araşdırması bizim üçün yetərlidir. Lakin mən deyirəm: O, necə mövcud ola bilər? Halbuki bizim mötəbər kitablarımız on birinci imam Həsən Əskərinin vəfat etdikdə heç bir övladının olmadığına göstərir. O, vəfat**

**edərkən həyat yoldaşlarına və kənizlərinə nəzər saldılar, onlardan heç birinin hamilə və ya övlad sahibi olduğunu görmədilər. Bu məsələ ilə bağlı Tusinin "əl-Ğeybə" (səh.74), Şeyx Müfidin "əl-İrşad" (səh.354), Fəzl ət-Təbərsinin "Ə`lamul-vəra" (səh.380) və "əl-Əş`əri əl-Qumminin "əl-Məqalat vəl-firəq" (səh.102) kitablarına baxa bilərsiz".**

**Cavab:** Bu, olduqca qəribə yalanlardan biridir. Çünki Şeyx Tusi (q.s) özünün "əl-Ğeybə" kitabında bir çox dəlillərlə İmam Mehdinin (ə) doğulduğunu isbatlayıb. Kitabın qeyd edildiyi səhifəsində (səh.74) Şeyx Tusi yazır:

"İmam Həsənin (ə) oğlunun doğulması barədə xəbərlər şəriətdə nəsil mənsubiyyətini isbatlayan cəhətlərdən daha çoxdur. Biz, inşallah, qarşıda onlardan yalnız bir neçəsini qeyd edəcəyik.

İmam Mehdinin (ə.f) əmisi Cəfər ibn Əlinin İmam Həsən Əskərinin oğlunun o həyatda ikən doğulması ilə bağlı şiələrin şahidliyini inkar etməsinə, bununla da sonrakı varlığını rədd etməsinə və qardaşından qalan mirası ələ keçirməsinə, dövrünün zalım hakimlərini İmam Həsənin (ə) cariyələrini həbs etməyə və qardaşının oğlunun olmayacağına əmin olmaları üçün onların hamiləliyini inkar edəcək paklıq müddətlərini gözlətməsinə, qardaşından sonra özünün imamlıq məqamına daha çox haqq sahibi olması iddiasına gəldikdə, bunda heç kəsin şübhəsi yoxdur. Belə ki, hamı Cəfərin peyğəmbərlər kimi məsum olmadığı, buna görə də onun haqqı inkar etməsinin və puç iddialar ortaya atmasının mümkün olduğu barədə həmfikirdirlər. O da hər insan kimi, xəta və günah edən bir kəsdir".

Şeyx Tusinin bu sözlərilə İmam Mehdinin (ə.f) doğulduğunu isbatladığı aydındır. Görünən odur ki, iddiaçı müəllif burada Şeyx Tusinin Cəfər ibn Əli barədə mənfi fikirlərini İmam Mehdiyə (ə) nisbət vermişdir. Bu, heç də ondan gözlənilməyən bir əməl deyil.

Şeyx Müfid (q.s) isə özünün "əl-İrşad" kitabında İmam Mehdinin (ə.f) atası İmam Həsən Əskəridən (ə) sonra imamlığına dair bu sözləri qeyd edir:

"İmam Əbu Muhəmməd Həsən ibn Əli Əskəridən (ə) sonrakı imam onun oğludur. Adı və künyəsi Allah elçisinin (s) adı və künyəsi ilə eynidir. Atası İmam Həsən Əskəri (ə) ondan başqa nə aşkar, nə də gizlin bir övladını öz yerinə canişin

təyin etməmişdir. Onun canişinliyini isə məxfi və gizli şəkildə açıqlamışdır. İmam Mehdi (ə) hicrətin 255-ci ilində, Şaban ayının ortasında (on beşində) doğulmuşdur. Anası övlad sahibi olan və adına Nərcis deyilən kəniz idi. Atası vəfat etdikdə İmam Mehdinin (ə) beş yaşı vardı. Həmin yaşda Allah ona hikmət, düzgün hökm vermək bacarığı əta etmiş, onu aləmlərdə ayə və nişanə etmişdir. Yəhya (ə) peyğəmbərə kiçik yaşında hikmət bəxş etdiyi kimi ona da hikmət lütf eləmiş, həmçinin Məryəm oğlu İsanı (ə) beşikdə ikən peyğəmbər qərar verdiyi kimi, onu da imam etmişdir".[862]

Sonra isə onun qeybə çəkiləcəyi, iki qeyb dövrünün olacağı və birinin digərindən daha uzun müddət davam edəcəyi ilə bağlı xəbərlərin doğumundan öncə yayıldığını qeyd edir, onun imamlığına dair dəlillərin və imam təyin edildiyi ilə bağlı rəvayətlərin toplandığı, onunla görüşənlər, kəramət və möcüzələrinə dair ayrıca fəsillər tərtib edir. Bütün bunlar iddiaçı müəllifin onun doğulmadığı ilə bağlı sözlərini aşkar surətdə inkar edir.

Şeyx Təbərsi "Ə`lamul-vəra" kitabında İmam Mehdinin (ə) tərcümeyi-halı, adı, künyəsi, ləqəbi, doğumu və anasının adı, onunla görüşənlər, qeyb olmasının və imamlığının isbatının dəlilləri, onu və dəlillərini görənlər və müəllifin inkar etdiyi məsələləri isbatlayacaq bir çox digər mövzuları əhatə edən çox sayda fəsillər qeyd etmişdir.

Qısacası, tanınmış alimlərimizə İmam Mehdinin (ə.f) doğulmadığına dair fikirləri nisbət verən kəs iftiraçı və yalançıdır, bu əməllərindən utanmır və xəcalət çəkmir. Çünki bu mövzu barədə alimlərimizin fikirləri məlum və kitabları məşhurdur.

* * *

**Müəllif iddia edir: "Möhtərəm qardaşım Seyid (!) Əhməd əl-Katib on ikinci imamın naibləri məsələsini araşdırmış, onların fırıldaqçı olduqlarını, xümsləri, qəbirlərə atılanları (!) və ya sərdabədəki sədəqələri ələ keçirmək üçün naiblik iddia etdiklərini sübuta yetirmişdir".**

**Cavab:** Müəllifin qeyd etdiyi Əhməd əl-Katiblə bizim bir işimiz yoxdur. Çünki bizim hazırda məqsədimiz onun kitabındakı iddialarına deyil, "Allah və tarix naminə" kitabının müəllifinin iddialarına rədd cavabı verməkdir. Əhmədin isə sözlərinə irad

---

[862] "əl-İrşad", səh.346

və cavablar Seyid Nəzir Hüseyninin "Şiəliyin müdafiəsi" kitabında, onunla şiə alimləri arasında hajrcom.com internet saytında baş vermiş müzakirələrin bir yerə toplandığı "Dumanlı şəhərin labirintləri" kitabında, eləcə də Seyid Sami əl-Bədrinin "Əhməd əl-Katibin şübhələrinə cavablar" və s. kitablarda qeyd edilib.

Dörd xüsusi naiblə bağlı məsələyə gəldikdə, Əhməd əl-Katib onların naibliyini inkar edəcək heç bir dəlil təqdim etmir, sadəcə həmin dörd şəxsin səfirliyinə inanılan bir dəlilin olmadığını iddia edir. Yazır: "Demək, onların İmam Mehdinin naibləri olduğu iddialarını, sözlərinin İmamın varlığına dəlil, möcüzə və qeyb elmini bilmək iddiasına sübut olmasını təsdiqləyə bilmərik. Həmçinin onların naibik iddialarını digər iyirmi dörd yalançı naibin iddialarından da fərqləndirməyimiz mümkün deyildir".[863]

Əhməd əl-Katib iddia edib ki, bu səfirlər öz naibliklərindən mənfəət güdürdülər. Bu səbəbdən də çox sayda insan səfirlik iddiası ilə çıxış etmişdi. Ona görə də onların hamısının yalançı olduğuna hökm etmək lazımdır. O yazır: "Əgər yalançı naiblik iddiaçılarını qarınlarına od doldurmaqda, mal-dövlətə hərislikdə və həmin dövrün Abbasi xəlifələrilə əlaqədə ittiham ediriksə, o zaman bu hallardan heç də uzaq olmayan həmin dörd naibi də ittiham etməliyik".[864]

Bu sözlərin puçluğu gizli deyildir. Belə ki, bu qaydaya əsasən, Peyğəmbərimizin də (s) elçiyini inkar etməliyik. Çünki onunla eyni dövrdə bir çox yalançı peyğəmbərlər olmuş, öz iddialarından mənfəət əldə etmişlər. Belə olduqda, onların hamısının peyğəmbərlik iddiası inkar olunmalıdır. Eyni səbəblə bütün dövrlərdə imamlıq iddia edənlərin də imamlığı istisnasız rədd edilməlidir.

Dörd xüsusi naibi yalançılıqda və mal-dövlət hərisliyində ittiham etmək Əhməd əl-Katib kimilər üçün çox asandır. Ancaq bu iddialarını təsdiqləmələri isə qeyri-mümkündür. İmam Mehdi (ə) təqva, pəhrizkarlıq və alicənablıqla tanınan şəxsləri özünə səfir təyin etmişdir. Buna həm şiə, həm də müxalif məzhəblərin alimləri də şahidlik etmiş, onların fırıldaqçı, mal-dövlət və rəhbərlik sevdalısı olduqlarına dair heç bir söz nəql etməmişlər. İlk səfir Əbu Əmr Osman ibn Səid əl-Əmridir (r.ə). O,

---

[863] "Tətəvvurul-fikris-siyasiyyiş-şii".
[864] "Tətəvvurul-fikris-siyasiyyiş-şii".

İmam Hadi və İmam Həsən Əskərinin (onlara salam olsun!) vəkili olmuşdur. Onların ikisi (ə) tərəfindən də təriflənən və etibar olunan şəxs idi. Digər naiblərin təyin ardıcıllığı da ondan bağlanır. İmam Mehdi (ə.f) qaib olduğu dövrdə həvaye-nəfsinə uyaraq naiblik iddia edənlər barədə xəbərdarlıq edir və şiələri onlardan çəkindirirdi. Bütün bunlar Şeyx Tusinin (q.s) "əl-Ğeybə" kitabında qeyd olunub.[865] Oraya müraciət edə bilərsiniz. Belə ki, bundan bir çox fayda əldə edərsiniz.

* * *

**Müəllif iddia edir: "Gəlin, Qaim və Müntəzər kimi tanınan on ikinci imamın zühur etdikdə hansı əməllər edəcəyinə baxaq:**

**1. Ərəblərin üzərinə qılınc qaldıracaq; Məclisi rəvayət edir: "Müntəzər ərəblərin üzərində Qırmızı Cəfrlə davranacaq, bu isə qətllərdir" ("Biharul-ənvar", 52/318)".**

**Cavab:** Əllamə Məclisi bu rəvayəti Muhəmməd ibn Həsən Səffarın "Bəsairud-dərəcat" kitabından nəql edib. Hədisin istinadı belədir: Əhməd ibn Muhəmməd bizə İbn Sinandan, o da Əbu Hübeyrənin azad edilmiş köləsi Rəfiddən nəql edir...

Bu hədis zəifdir. Səffara hədisi rəvayət edən Əhməd ibn Muhəmməd – Əhməd ibn Muhəmməd ibn İsadır. Deməк, sənəddə adı qeyd edilən İbn Sinan da Muhəmməd ibn Sinan olmalıdır. Çünki Əhməd ibn Muhəmməd inanılan şəxs olan Abdullah ibn Sinandan rəvayət nəql etməyib. Muhəmməd ibn Sinan isə zəif ravidir. Onun tərcümeyi-halını əvvəldə qeyd etmişdik.

Bundan əlavə, İbn (və ya Əbu) Hübeyrənin azad edilmiş köləsi olan Rəfidin inanılan şəxs olması da tərcümeyi-hal kitablarında öz təsdiqini tapmayıb.

Rəvayətin sənədinə göz yumaq. Mətnə əsasən, ehtimal olunur ki, İmam Mehdi (ə) ərəb ölkələrinə hücum etməsinin və ərəbləri qətl etməsinin səbəbi əmrinə boyun əyməmələri, ona qarşı müharibəyə çıxmalarıdır. Nəticədə İmam (ə) da onlarla savaşıb qətlə yetirəcək.

Şübhə yoxdur ki, İmam (ə.f) zühur etdikdə ərəb və ya qeyri-ərəb olmalarından asılı olmadan, ona qarşı çıxmayanlara, onunla savaşmayanlara və itaət edənlərə heç bir zərər toxundurmayacaq və onların üzərinə hücum etməyəcək.

[865] "əl-Ğeybə", Şeyx Tusi, səh.214 və sonrakı səhifələr.

Bu rəvayət bəzi ərəblərin İmam Mehdiyə (ə.f) qarşı müharibə edəcəyinə və İmamın (ə) da onlarla savaşıb qətlə yetirəcəyinə işarə edir.

Əhli-sünnə rəvayətlərində də bu mənaya rast gəlmək mümkündür. Hakim Nişapuri "əl-Müstədrək"də Nafi ibn Ütbəyə istinadla yazır: "Allah elçisinin (s) belə buyurduğunu eşitdim: "Siz ərəb adasındakılarla savaşacaqsınız və Allah onlar üzərində fəth bəxş edəcək. Sonra Bizansla savaşacaqsınız. Allah onlar üzərində də sizə qələbə nəsib edəcək. Həmçinin farslarla da müharibə edəcəksiniz ki, Allah yenə də sizə fəth bəxş edəcək. Sonra da Dəccalla vuruşacaqsınız ki, Allah yenə də sizi qalib edəcək".[866]

* * *

**Müəllif iddia edir: "Həmçinin rəvayət edir: "Bizimlə ərəblər arasında qətldən başqa bir çarə qalmayıb" ("Biharul-ənvar", 52/349)".**

**Cavab:** Rəvayətdən məlum olan budur ki, Əhli-Beytlə (ə) ərəblərin arasında savaşıb qətlə yetirmələrindən savayı bir yol qalmayacaq. Belə ki, onlar öz əllərini Əhli-Beytin və Haşim oğullarının qanlarına bulamış, qəddarcasına onları qətlə yetirmişlər. Buna İmamın (ə) "bir çarə qalmayıb" sözü də dəlalət edir. Sanki İmam (ə) buyurur: "Bizim onların üzərindəki haqqımız bizə qarşı ədavətləri səbəbilə qəddarlıqlarına və qətlərinə görə yalnız onlarla savaşıb qətlə yetirməkdir. Bu sözləri İmam Sadiqin (ə) zamanına işarə edir. Belə ki, tarixdə də qeyd edildiyi kimi, Əbu Cəfər Mənsur Haşim oğullarından çox sayda insanı qətlə yetirmişdi.

* * *

**Müəllif iddia edir: "Həmçinin rəvayət edir: "Ərəblərdən çəkin, belə ki, onlar üçün pis xəbərlər vardır. Çünki onlardan bir nəfər belə Qaimlə birlikdə qiyam etməyəcək" ("Biharul-ənvar", 52/333)".**

**Cavab:** Əllamə Məclisi bu rəvayəti Şeyx Tusinin "əl-Ğeybə" kitabından nəql edib. Rəvayətin istinadı belədir: Fəzl bizə Əli ibn Əsbatdan, o da atası Əsbat ibn Salimdən, o da Musa əl-Əbardan.

---

[866] "əl-Müstədrək", 4/426, Heydərabad çapı. Hakim yazır: "Bu, Müslimin şərtinə əsasən, sənədi səhih olan hədisdir. Buxari və Müslim "Səhih"lərində nəql etməyiblər". Zəhəbi də onunla razılaşıb.

Rəvayətin sənədi zəifdir. Çünki rəvayətin ilk ravisi Musa əl-Əbar halı məchul şəxsdir, tərcümeyi-hal kitablarında inanılan şəxs olması sübuta yetməyib. Ondan nəql edən Əsbat ibn Salim də inanılan şəxs kimi təsdiqlənməyib.

Rəvayətin sənədinə göz yumsaq, rəvayətin mətni İmamın (ə) bəzi yardımçılarının məhz ərəblərdən olduğunu qeyd edən xəbərlərə ziddir.

Şeyx Tusi "əl-Ğeybə" kitabında cabir əl-Co`fidən rəvayət edir: "Əbu Cəfər (ə) buyurdu: "Rüknlə Məqam arasında Qaimə üç yüzdən bir az artıq şəxs beyət edəcək ki, sayları Bədr savaşındakıların sayı qədərdir. Onların arasında Misirin nəcib şəxsləri, şamın möhtərəm şəxsləri, İraqın xeyirxahları vardır. Allah dilədiyi qədər o Yer üzündə qalacaqdır".[867]

* * *

**Müəllif iddia edir: "Əgər şiələrin çoxu əslən ərəbdirsə, Qaim onların da üzərinə qılınc qaldırıb qətlə yetirəcək?**

**Xeyr, xeyr... Bu rəvayətlərin arxasında təhlükəli və zəhərli düşüncələrini yayılmasında mühüm rol oynayan şəxslər vardır. Qəribə gəlməsin, hətta Xosrov da cəhənnəm odundan xilas olacaq. Məclisi Möminlərin əmirindən nəql edir: "Allah onu (yəni Xosrovu) oddan xilas edəcək, belə ki, cəhənnəm odu ona haramdır" ("Biharul-ənvar", 4/41).**

**Məgər düşünülə bilərmi ki, Möminlərin əmiri Allahın Xosrovu oddan xilas edəcəyini və cəhənnəmin ona haram olduğunu söyləsin?!"**

**Cavab:** Əvvəldə qeyd etdik ki, İmam Mehdi (ə.f) ona iman gətirənlərlə savaşmayacaq. Tərəfdarları və dostları isə onun yardımçıları və onu sevən şəxslər olacaq. O, öz yardımçı və sevənlərinin qanını necə tökə bilər?!

Xosrovla bağlı rəvayəti Şeyx Şazan ibn Cəbrail əl-Qummi özünün "əl-Fəzail"ində, şiə Muhəmməd ibn Cərir "Nəvadirul-mu`cizat" kitabında Əbul-Əhvəsdən, o da atasından, o da Əmmar Sabatidən[868] nəql edib. Bu hədis Əmmarda

---

[867] "əl-Ğeybə", Şeyx Tusi, səh.284; "Biharul-ənvar", 52/334.
[868] "əl-Fəzail", səh.64, Hicriyyə çapı; digər bir çapda isə səh.70. "Nəvadirul-mu`cizat", səh.21; "Biharul-ənvar", 41/215.

bitir və onun sözüdür. Əmmar bunu Məsumdan (ə) rəvayət etmir. Ona görə də bu hədisi dəlil olaraq götürmək düzgün deyil.

Bu hədisdə mövzu budur ki, Xosrov Ənuşirəvanın kəllə sümüyü danışır və onun söylədikləri arasında bu sözlər də var: "Mən ədalətli, rəiyyətinə qarşı şəfqətli və mərhəmətli bir padşah idim, zülmə razı olmazdım. Lakin məcusi dinində idim. Muhəmməd (s) mənim padşahlığım zamanı dünyaya gəldi. O, dünyaya gəldiyi gecə qəsrimin eyvanlarından iyirmi üçü uçdu. Mən ona iman gətirməyə qərar vermişdim... Lakin qəflətə düşdüm, hakimiyyətim məni yayındırdı... Mən imanım olmadığı üçün cənnətdən məhrumam, ancaq bu küfrümə rəğmən, mən cəhənnəmdə olsam da, ədalətimə və rəiyyətimə qarşı insaflı rəftarıma görə, Allah məni cəhənnəmin əzabından xilas edib, odu mənə haram qılıb...".[869]

Hədisin mətni aydın şəkildə Xosrov Ənuşirəvanın cəhənnəmdə olduğunu, lakin rəiyətinə qarşı ədalətli rəftarına görə orada əzaba düçar olmadığını göstərir. Bu, Allah üçün mümkünsüz deyildir, həmçinin Onun tərəfindən qəbahətli bir rəftar da deyildir. Belə ki, burada ədalətə rəğbətləndirmə və zülmdən çəkindirmə də vardır.

Şübhə yoxdur ki, bu hədisi təqdim etməkdə müəllifin hədəfi şiələri farspərəstlikdə ittiham edib oxucuda Xosrovu müqəddəsləşdirdikləri təəssüratını yaratmaqdır. Halbuki qeyd edilən hədis sənəd baxımından zəif olmasından əlavə, Xosrovun da cəhənnəmdə olduğunu bəyan edir, yalnız orada əzab görmədiyini bildirir. Onun əzaba düçar olmamasının səbəbi isə fars olduğu deyil, ədalətli rəftarıdır. Bu baxımdan, ondan başqa fars hökmdarlarının məzəmmət edilməsi barədə də rəvayətlər varid olmuşdur. Onlardan biri də Peyğəmbərin (s) müasiri olan Xosrovdur.

Şeyx Tusi (r.ə) "əl-Məbsut" kitabında rəvayət edir: "Peyğəmbər (s) Qeysərə və Xosrova məktub yazdı. Bizans hökmdarı Qeysərə yazdığı məktubda deyilirdi: "Rəhimli və mərhəmətli Allahın adı ilə! Muhəmməd ibn Abdullahdan Bizans başçısına. "Ey kitab əhli, bizimlə sizin aranızda ortaq olan bir sözə gəlin". Məktub ona yetişdikdə ayağa qalxdı, başı üzərinə qoydu, müşk gətirilməsini əmr etdi və

---

[869] "Uyunul-mu`cizat", səh.10; "Müstədrəkul-vəsail", 18/169; "Biharul-ənvar", 41/213.

məktubu oraya qoydu. Bu xəbər Peyğəmbər (s) yetişdikdə buyurdu: "İlahi, onun hakimiyyətini möhkəm et". Fars hökmdarına belə məzmunda bir məktub göndərdi: "Rəhimli və mərhəmətli Allahın adı ilə! Muhəmməd ibn Abdullahdan Hörmüzün oğlu Xosrova! İslamı qəbul edin, Allaha təslim olun! Salam olsun!" Məktub Xosrova çatdıqda onu götürüb cırdı. Bu xəbər Peyğəmbərə (s) yetişdikdə buyurdu: "İlahi, onun hakimiyyətini param-parça et!"[870]

Ravəndi "əl-Xəraic vəl-cəraih"də rəvayət edir: "Muhəmməd (s) Allahın elçisi olaraq təyin edildikdən sonra Xosrov Məğrib ölkəsindəki məmuru Bazanın yanına bir elçi göndərib dedi: "Mənə xəbər çatıb ki, səndən əvvəl burada bir şəxs peyğəmbərlik iddiası edib. Ona belə de: Bu işdən əl çəksin, yoxsa onu və onunla birlikdə olanları qətlə yetirəcək adamları üzərinə göndərərəm". Bazan bu sözləri Peyğəmbərə (s) çatdırmaq üçün elçi göndərdi. Peyğəmbər (s) cavabında buyurdu: "Əgər bu, özümdən bir iddia olsaydı, əl çəkərdim. Ancaq məni peyğəmbər göndərən Allahdır". Sayı on beş nəfər olan elçiləri gözlətdi və onlara on beş gün boyunca bir söz demədi. Sonra onları çağırıb buyurdu: "Gedin, dostunuza deyin ki, mənim Rəbbim onun Rəbbini bu gecə öldürdü. Rəbbim bu gecə Xosrovu öldürmüşdür. Bu gündən Xosrov yoxdur. Həmçinin Qeysəri də öldürmüşdür, artıq Qeysər də yoxdur". Elçilər bu sözləri yazdılar. Qeysərlə Xosrov həqiqətən də Muhəmmədin (s) söylədiyi vaxtda ölmüşdülər".[871]

"Mənaqibu Ali Əbi Talib" kitabında Mücalis ibn Mehdi Mamtiridən nəql olunur: "Peyğəmbər (s) Xosrova məktub yazdı: "Allahın elçisi Muhəmməddən Hörmüzün oğlu Xosrova! İslamı qəbul edib Allaha təslim ol! Əks təqdirdə Allah və elçisi ilə müharibəyə hazır ol! Salam hidayətə tabe olanlaradır!" Məktub Xosrova çatdıqda onu cırdı, etinasızlıq göstərdi "Məni öz dininə çağıran, adımdan əvvəl öz adını yazan bu şəxs kimdir?!" deyib Peyğəmbərə (s) torpaq göndərdi. Peyğəmbər (s) buyurdu: "O mənim məktubumu yırtdığı kimi, Allah da onun hakimiyyətini param-parça eləsin! Həqiqətən də onun taxt-tacı parça-parça olacaq. O mənə torpaq

---

870 "əl-Məbsut", 8/122.
871 "əl-Xəraic vəl-cəraih"; "Biharul-ənvar", 20/381.

göndərib, bilin ki, siz mütləq onun torpağına hakim olacaqsınız”. Peyğəmbərin (s) dediyi kimi də oldu”.[872]

* * *

**Müəllif iddia edir: “2. Məscidul-həramı və Peyğəmbər məscidini uçuracaq.**

**Məclisi rəvayət edir: “Qaim Kəbəni uçurub qədim təməli üzərinə qaytaracaq, həmçinin Peyğəmbər məscidini də uçurub ilk təməli üzərində tikəcək” (“Biharul-ənvar”, 52/338; “əl-Ğeybə”, Tusi, səh.282)”.**

**Cavab:** Bu rəvayəti Əllamə Məclisi Şeyx Müfidin “əl-İrşad”[873] kitabından nəql edib. Şeyx Müfid isə bu xəbəri Əbu Bəsirdən mürsəl (istinadsız) olaraq rəvayət edib.

Kuleyni isə “əl-Kafi”də bu istinadla nəql edib: Əhməd ibn Muhəmməd ona rəvayət edən şəxsdən, o da Muhəmməd ibn Hüseyndən, o da Vüheyb ibn Həfsdən, o da Əbu Bəsirdən.[874]

Bu istinadın da mürsəl olduğu aydındır. Belə ki, Muhəmməd ibn Hüseyndən kimin rəvayət etdiyi məlum deyildir.

Həmin rəvayəti Şeyx Tusi “əl-Ğeybə” kitabında bu istinadla nəql edir: “Fəzl ibn Şazandan, o da Əbdürrəhman ibn Əbu Haşimdən, o da Əli ibn Əbu Həmzədən, o da Əbu Bəsirdən.[875]

Bu halda da Əli ibn Əbu Həmzəyə görə rəvayət zəifdir. O, bətainidir və İmam Rzaya (ə) düşmən olan vaqifilərin başçısıdır. Onun tərcümeyi-halını əvvəldə qeyd etmişdik.

Nəticə budur ki, rəvayətin bütün istinadları zəifdir, əsla dəlil sayıla bilməz və ona etimad edilməz.

Hədisin sənədinə göz yumsaq, bu iki məscidi söküb qədim təməli üzərində tikmək heç kəsə icazəli deyildir. İmam Mehdi (ə.f) isə ona nəyin icazəli olduğunu və nəyin də caiz olmadığını daha gözəl bilir. Biz onun haqq və ədalətlə rəftar edəcəyini bilirik. Əgər o həmin iki məscidi öz qədim təməlləri üzərində tikmək üçün uçursa, biz onun bu əməllinin doğru olduğuna və Allah tərəfindən razılıqla qarşılandığına əsla

---

872 “Mənaqibu Ali Əbi Talib”, 1/112; “Biharul-ənvar”, 20/381.
873 “əl-İrşad”, səh.364.
874 “əl-Kafi”, 4/543.
875 “əl-Ğeybə”, səh.282.

şəkk etməyəcəyik. Yoxsa onun davranışları bizim üçün təriflənməz, Yer üzü zülm və sitəmlə dolduğu kimi, onu haqq və ədalətlə dolduracağı xəbər verilməzdi.

Bəlkə də bu iki məscidin uçurulmasının hikməti onların ətraf hissələrinin zalım hakimlər tərəfindən Allahdan başqa məqsədlərlə, ad-san və riyakarlıq niyyətilə, yaxud haram və qəsb olunmuş pulla tikilməsidir. Ya da bəzi hədislərdə deyildiyi kimi, İmam Mehdi (ə.f) zalımların və zülmkar hakimiyyətlərin xatirəsini yaddaşlardan silmək məqsədilə bunu edəcək. Başqa məqsədlər də ola bilər.

Bundan əlavə, əhli-sünnənin kitablarında Peyğəmbərin (s) Kəbəni söküb keçmiş təməli üzərində tikmək istədiyi, onu bu işdən yalnız camaatın İslamı yenicə qəbul etməsi faktının çəkindirdiyi qeyd olunur.

Müslim "Səhih"ində Abdullah ibn Zübeyrdən nəql edir: "Xalam (yəni Aişə) dedi: "Allahın elçisi (s) belə buyurdu: "Əgər qövmünün müşriklik dövrü yaxın keçmişdə olmasaydı, Kəbəni uçurar, onun təməlindən tikərək yerlə bərabər edər, şərqdən və qərbdən iki qapı qoyar və Hicri İsmaildən altı zira məsafəni oraya əlavə edərdim. Belə ki, Qüreyş Kəbəni tikərkən onu qısaltmışdır".[876]

Həmçinin "Səhih"də Ətadan nəql edir: "Yezid ibn Müaviyənin hakimiyyəti dövründə Şam əhlinin hücumu nəticəsində Kəbə evi yandırıldı. Zübeyrin oğlu onu bu vəziyyətdə saxladı ki, Həcc mövsümü yetişdikdə oraya gələcək insanları Şam əhlinə qarşı cürətləndirsin və ya savaşa təhrik etsin. İnsanlar gəldikdə o dedi: "Ey camaat, Kəbə barəsində mənə məsləhət verin, onu söküb yenidən tikim, yoxsa olduğu halını bərpa edim?" İbn Abbas dedi: "Mənim fikrim budur ki, Evi olduğu vəziyyətdə saxlayıb uçmuş yerlərini bərpa edəsən və insanların İslamı qəbul etdikləri vaxtdakı halını, eləcə də Hicri İsmailin Peyğəmbər (s) məbus edildiyi zamandakı vəziyyətini qoruyasan". İbn Zübeyr dedi: "Əgər birinizin evi yansaydı, məgər onun yenidən inşa edilməsinə razı olmazdı? Belə halda, Rəbbiniz Evi necə olsun?! Mən Allaha üç dəfə istixarə edəcəyəm, sonra isə qərar verəcəyəm. Üç dəfə istixarədən sonra Kəbəni sökməyə qərar verdi. Camaat isə Evi sökmək üçün onun damına qalxacaq ilk şəxsə əzabın enəcəyi ilə bağlı xəbərdarlıq edib qorxutdu. Bir şəxs Kəbənin üstünə çıxıb Evin bir daşını qopartdı. Camaat ona heç bir əzabın nazil olmadığını gördükdə onun

876

ardınca qalxıb Kəbəni sökməyə başladılar və onu yerlə bərabər etdilər. İbn Zübeyr Kəbə tikilib qurtaranadək ətrafına dirəklər qoyub üzərinə pərdə asdı. Ardınca dedi: “Mən Aişənin belə dediyini eşitmişəm: “Peyğəmbər (s) buyurmuşdur: “Əgər camaatın küfrdən döndüyü zaman təzə olmasaydı və mənim də söküb yenidən tikmək üçün vəsaitim olsaydı, Hicri İsmaildən beş zira Kəbəyə əlavə edər, insanların birindən daxil olacağı və digərindən çıxacağı iki qapı düzəldərdim”. Ardınca Zübeyr dedi: “İndi mənim xərcləməyə vəsaitim var və camaatdan da bir qorxum yoxdur”. Ravi deyir: “Kəbəni Hicr tərəfdən beş zira genişləndirdi, İbrahimin (ə) tikdiyi təməli qazdırıb kənardan insanların görə biləcəyi vəziyyətə gətirdi və Evi onun üzərində təkdi. Kəbənin hündürlüyü on səkkiz zira idi. Onu az hesab edərək on zira da əlavə etdi. Camaatın daxil və xaric olması üçün iki qapı qoydu. Abdullah ibn Zübeyr öldürüldükdə Əbdül-Məlik ibn Mərvana məktub yazan Həccac bunu ona xəbər verdi. Həmçinin bildirdi ki, Abdullah ibn Zübeyr Məkkə üsyançılarının nəzəri əsasında Kəbə evinin təməlini dəyişib. Əbdül-Məlik ona cavabında belə yazdı: “Abdullah ibn Zübeyr getdiyi yolla getməyəcəyik! Evin hündürlüyü olduğu kimi qalsın. Hicri İsmaildən Kəbəyə daxil etdiyi hissəni isə əvvəlki halına qaytar və açdığı qapını bağla!” Həccac onu söküb əvvəlki vəziyyətinə qaytardı”.[877]

Həmin vaxtlarda əllərində hakimiyyət və səlahiyyət olan bu şəxslər öz istəklərinə uyğun olaraq Kəbəni sökmüş və yenidən tikmiş, ona əlavələr etmiş və qısaltmışlar. Onlardan sonra bu iki məsciddə başqaları tərəfindən edilən dəyişikliklər də məlumdur. İddiaçı müəllifin özü də bunların heç birini inkar edə bilməz. Onun məqsədi yalnız şiələrə nəyin bahasına olursa-olsun tənə vurmaq və gözdən salmaqdır. O, İmam Mehdinin (ə.f) bu iki məscidi sökəcəyi ilə bağlı zəif rəvayətlərə əsaslanıb şiələri məzəmmət edir. Halbuki İmam (ə) zühur etdikdən sonra həmin məsələ onun səlahiyyətində olan bir işdir.

* * *

**Müəllif iddia edir: “Məclisi deyir: “Qaimin ilk görəcəyi iş bu ikisini (yəni Əbu Bəkr və Öməri) qəbirdən sağlam vəziyyətdə çıxarıb küləklə sovuracaq və məscidi uçuracaq” (“Biharul-ənvar”, 52/386)”.**

---

[877] “Səhih”, Müslim, 4/98.

**Cavab:** Bu sözləri Əllamə Məclisi Fəzl ibn Şazanın kitabından Bəşir Nəbbala istinadən nəql edir. Bəşirin inanılan şəxs olması tərcümeyi-hal kitablarında təsdiqini tapmayıb. Beləliklə, rəvayətin sənədi zəifdir, onu dəlil kimi istifadə etmək düzgün deyil.

Rəvayətin sənədinə göz yumaq. Biz əvvəldə də qeyd etdik ki, haqq və ədalət məhz İmam Mehdinin (ə.f) edəcəyi işlərdədir. Əks halda onun rəftarı tariflənməz və hökmünün ədalətindən bəhs edilməzdi.

Bundan əlavə, rəvayətdə Əbu Bəkr və Ömərə işarə edildiyinə dəlil yoxdur. Məqsədin onlardan başqası olması mümkündür. Rəvayətdəki "bu ikisi" işarə əvəzliyi onlara işarə edə bildiyi kimi, başqalarına da işarə edə bilir. Belə ki, məqsəd rəvayəti söyləndiyi vaxtda İmamla (ə) eyni dövrdə yaşayan Əməvi və ya Abbasi xəlifələri də ola bilər.

Əgər hədisin səhihliyini və orada işarə edilən şəxslərin Əbu Bəkr və Ömər olduğunu fərz etsək, o zaman həmin şəxslərin dəyərləndirilməsinə yenidən nəzər salmağımız lazımdır. Belə ki, onların barəsində hökmü verən İmam Mehdidir (ə.f).

Hərçənd onların Peyğəmbərin (s) evində dəfn edilməyə heç bir haqları yoxdur. Həmçinin onların orada dəfn edilməsinə Aişənin də izn vermək hüququ yoxdur. Biz bir çox tədqiq və araşdırmadan sonra da onların orada dəfn edilməsinə şəri bir cəhət tapa bilmədik. Çünki onların dəfn edildiyi yer əsla şəxsi mülkləri deyildir, demək, həmin yer başqasına məxsusdur. Əgər Fatimənin (s.ə) mülküdürsə, o onların orada dəfn edilməsinə icazə verməyib. Əgər onların qızları Aişə və Həfsənin mülküdürsə, o zaman mülkün onların sərəncamında olması ya miras, ya da başqa bir yolla olmalıdır. Mirasdan başqa bir yolla sahib olduqları sübuta yetməyib. Miras olduğu deyilsə, Əbu Bəkr və Ömərin iddialarına əsasən, Peyğəmbər (s) özündən sonra miras qoymayıb və onun mülkündə Aişə və Həfsənin heç bir haqqı ola bilməz. Belə ki, bütün mülk sədəqə hökmündədir. Əgər Peyğəmbər (s) özündən sonra miras buraxırsa, necə ki, doğrusu da budur, bəs o zaman nə üçün Fatimə (s.ə) mirasdan məhrum edildi və onlar isə dəfn edildikləri yeri ələ keçirdilər?! Halbuki onların qızlarının mirasdan ala biləcəyi pay əsla bu genişlikdə deyildi. Çünki onların hər birinə 1/9-in 1/8 hissəsi düşəcəkdi. Bu isə bir iki qarış yerdir.

* * *

**Müəllif iddia edir: “Məlum, hətta fəqih və alimlərimizin nəzərində qətidir ki, Kəbənin heç bir əhəmiyyəti yoxdur, Kərbəla ondan daha yaxşı və daha fəzilətlidir. Fəqihlərimizin qeyd etdikləri dəlillərə əsasən, Kərbəla yer üzünün ən fəzilətli, Allahın üstün tutub seçdiyi müqəddəs və mübarək məkandır, Allahın və elçisini (s) hərəmi və İslamın qibləsidir, onun türbətində şəfa var, yer üzünün heç bir yeri, hətta Kəbə də onu bərabər tutula bilməz.**

**Ustadımız Seyid (!) Muhəmməd Hüseyn Ali Kaşiful-Ğita daim bu beytləri misal çəkərdi:**

**Kərbəla və Kəbə barədə söhbətdə**

**Kərbəlanın ali rütbəsi görünür.**

**Həmçinin belə deyirdi:**

**Ora təvaf yeridir, onu yeddi dəfə təvaf et.**

**Məkkənin onun mənasına bənzər mənası yoxdur,**

**Belə ki, o adi bir torpaqdır.**

**Ancaq yeddi göy özündən aşağıdakına**

**Baş əymiş və itaət etmişlər”.**

**Cavab:** Şiələrin nəzərində Kəbəni heç bir əhəmiyyətinin olmadığı iddiası aşkar bir yalandır. Bu necə ola bilər?! Halbuki Kəbə müsəlmanların qibləsidir! Müsəlman sünni və şiə alimləri mütləq şəkildə bəyan edirlər ki, namaz qılan şəxs Kəbə istiqamətində qibləyə üz tutmadan namazı düzgün sayılmaz. Bu, məlum məsələdir, təəssübkeş inadkardan savayı heç kəs bunu inkar etməz.

Ancaq Kərbəlanın Allahın üstün tutub seçdiyi müqəddəs və mübarək məkan, Allahın və elçisinin (s) hərəm və müsəlmanların qibləsi olduğu iddiası iftira və yalandır. Belə ki, namaz qılınarkən üzü Kərbəlaya doğru çevirməyə icazə verən və ya onu Allahın seçib üstün tutduğu məkan olduğunu söyləyən bir şiə alimini belə tapa bilməzsiniz.

Çoxsaylı hədislərdə qeyd edildiyi kimi, Allahın hərəmi Məkkə, elçisinin (s) hərəmi isə Mədinədir.

Həssan ibn Mehranın səhih hədisində deyilir: "İmam Əbu Abdullah Sadiqin (ə) belə buyurduğunu eşitdim: "Möminlərin əmiri (ə) buyurmuşdur: "Məkkə Allahın, Mədinə Allahın elçisinin (s), Kufə isə mənim hərəmimdir. Allah heç bir qəddar zorbaya oraya daxil olmağa icazə verməz, onu belini qırar".[878]

Müaviyə ibn Əmmar İmam Əbu Abdullahdan (ə) nəql etdiyi səhih hədisdə deyilir: "Allahın elçisi (s) buyurub: "Həqiqətən də Məkkə Allahın hərəmidir. İbrahim (ə) onun hərəm ərazisini müəyyən etmişdir. Mədinə də mənim hərəmimdir. İki qaya arasındakı ərazi hərəmdir. Onun ağacları kəsilməz, lakin ovu Məkkənin ovu kimi (haram) deyil. Burada ovlanan heyvanın əti yeyilər, amma Məkkədə ovlanan heyvanın əti yeyilməz...".[879]

Kərbəlanın Məkkədən fəzilətli olduğu iddiasına gəldikdə, buna dəlalət edəcək səhih bir rəvayətə rast gəlmədik. Mövzuya dəlaləti olan bütün rəvayətlərin sənədlərində Muhəmməd ibn Sinan, Əbu Səid Usfuri və digərləri kimi inanılan şəxs olmaları təsdiqini tapmamış zəif ravilər vardır. Belə bir məsələnin isbatı üçün həmin zəif rəvayətlərə etimad edilməz.

Əksinə, rəvayətlərdən Məkkənin Allahın, Mədinənin isə Peyğəmbərin (s) hərəmi və Yer üzünün ən fəzilətli məkanlarının da bu iki şəhər olduğu məlum olur.

Səid ibn Abdullah əl-Ə`racın İmam Əbu Abdullahdan (ə) nəql etdiyi etibarlı hədisdə deyilir: "İmam (ə) buyurdu: "Allah üçün ən sevimli məkan Məkkədir. Onun üçün Məkkənin türbətindən, daşından, ağacından, dağından və suyundan daha sevimli bir türbət, daş, ağac, dağ və su yoxdur".[880]

Meysər ibn Əbdüləzizin mötəbər rəvayətində deyilir: "İmam Əbu Cəfərin (ə) yanında idim. Çadırda onun hüzurunda, təqribən əlli nəfər vardı. Uzun müddət heç bir şey söyləmədən bizimlə birlikdə əyləşdikdən sonra buyurdu: "Sizə nə olub?! Sanki məni Allahın peyğəmbəri olaraq görürsünüz! Allaha and olsun ki, mən peyğəmbər deyiləm. Ancaq mənim Allahın elçisinə (s) yaxınlığım vardır və mən onun övladıyam. Bizə qovuşanı Allah (nicata) qovuşdurar, bizi sevəni Allah sevər,

---

[878] "Təhzibul-əhkam", 6/12.
[879] "Təhzibul-əhkam", 6/12.
[880] "Mən la yəhzuruhul-fəqih", 2/162; "Vəsailuş-şiə", 9/349.

bizi məhrum edəni Allah məhrum qoyar. Bilirsinizmi, Allah yanında ən fəzilətli məkan hansıdır?” Bizdən heç kəs bir söz demədi. İmam (ə) buyurdu: “Bu, Məkkətul-Həramdır ki, Allah onu Özü üçün hərəm seçib və Evini orada qərar verib”. Sonra buyurdu: “Bəs bilirsinizmi ki, Allah yanında hörməti ən üstün olan yer hansıdır?” Yenə də bizdən heç kəs bir söz demədi. İmam (ə) buyurdu: “Bu, Məscidul-Həramdır. Bəs bilirsinizmi, Məscidul-Həramda Allah nəzdində ən möhtərəm məkan haradır?” Heç birimiz cavab vermədik və İmam (ə) özü öz sualına cavab verərək buyurdu: “Bu, Qara rüknlə Məqamın arası və Kəbənin qapısıdır. O İsmailin (ə) Hətimidir. İsmail buraya qoyunlarını qovub gətirər və namaz qılardı. Allaha and olsun ki, əgər bəndə bu yerdə dayanıb ayaqlarını namaz üçün cütləsə, gecədən sübhədək namaz qılsa, sübhdən gecəyədək oruc tutsa, ancaq biz Əhli-Beytin haqq və hörmətini tanımasa, Allah onun bu əməllərindən heç birini qəbul etməz”.[881]

Bu mötəbər hədis aydın şəkildə Məkkənin və Rüknlə Məqamın arasının ən fəzilətli məkan olduğunu bəyan edir. Digər rəvayətlərdə də buna dəlalət verdir.

Onlardan: Səhih hədisdə Əbu Həmzə Somali İmam Zeynulabidinin (ə) belə nəql edir: “Əli ibn Hüseyn (ə) bizdən soruşdu: “Hansı məkan daha əfzəldir?” Dedik: “Allah, elçisi və elçisinin övladı daha yaxşı bilər!” Buyurdu: “Ən fəzilətli yer Rüknlə Məqamın arasıdır. Əgər bir şəxs Nuhun (ə) öz qövmü arasında yaşadığı qədər (950 il) ömür sürsə, həmin müddətdə bu məkanda oruc tutsa və gecələri namaz qılsa, ancaq Allahın hüzuruna bizim vilayətimizdə olmadan çıxsa, bütün bunlar ona heç bir fayda verməz”.[882]

Bu, bizim rəvayətlərdən əldə etdiyimiz məlumatlardır. İşlərin həqiqətini Allah daha yaxşı bilir!

Müəllifin nəql etdiyi şerlər, şübhəsiz ki, Kərbəlanın Məkkədən üstünlüyünə dəlalət etmir. Belə ki, **“Kərbəlanın ali rütbəsi görünür”** sözündən Kərbəlanın yüksək məqamının olduğu anlaşılır, ancaq həmin məqamın Məkkənin məqamından daha üstün olduğuna dəlalət yoxdur. Eləcə də **“Məkkənin onun mənasına bənzər**

---

[881] “Səvabul-ə`mal və iqabul-ə`mal”, Şeyx Səduq, səh.245. Bunu “Biharul-ənvar”da Məclisi də ondan nəql edib (27/177).
[882] “Mən la yəhzuruhul-fəqih”, 2/163.

**mənası yoxdur"** sözündən başa düşülür ki, Kərbəlada Məkkədə olmayan başqa bir məna vardır. Bəlkə də şair burada Məkkəni ziyarət edən şəxsdən fərqli olaraq, Kərbəlanı ziyarət edən şəxsin oraya kədərli və hüznlü halda daxil olduğunu qeyd etmək istəyir. Həmçinin bu sözlərdə də Kərbəlanın Məkkədən üstünlüyünə dəlalət edən aşkar bir kəlmə yoxdur.

* * *

**Müəllif iddia edir: "İndi biz soruşuruq: Nə üçün Qaim məscidi söküb dağıdacaq və öz qədim təməlinə qaytaracaq?**

**Cavab budur: Çünki Tusinin də qeyd etdiyi kimi, yer üzündə müsəlmanların ümumi sayının 1/10-i qədər müsəlman qalacaq: "Müsəlmanların 9/10-u aradan getmədikcə bu iş baş verməyəcək" ("əl-Ğeybə", səh.146).**

**Belə ki, Qaim ümumən insanlar, xüsusilə də müsəlmanlar arasında qılıncla rəftar edəcək".**

**Cavab:** Məscidin uçurulası ilə müsəlmanların 9/10-nun aradan getməsi arasında nə əlaqə vardır? Fəqihlik və ictihad iddiaçısı bu iki məsələ arasında nə rabitə görür?!

Hədislərin səhihliyi fərz edildikdə, məscidin uçurulub yenidən tikilməsilə bağlı səbəbləri əvvəldə bəyan etdik, burada onları təkrarlamağa lüzum görmürük.

Müsəlmanların böyük bir hissəsinin həlak olacağına gəldikdə, zahirən hədisdən məlum olur ki, bu, Qaimin zühurundan öncə baş verəcək bir hadisədir. Belə ki, rəvayətdə deyilir: "..bu iş baş verəməyəcək" – yəni Mehdinin (ə.f) zühuru baş verməyəcək, "..9/10-u aradan getmədikcə" – həlak olmadıqca.

Ola bilsin ki, bu qədər müsəlmanın aradan getməsi axır zamanda baş verəcək böyük savaşlar səbəbindən onların ölümüdür. Belə ki, hazırda dünyada hadisələr də bu istiqamətdə cərəyan etməkdədir. Yaxud onların aradan getməsi xəstəliklər, fəlakətlər, qəhətlik, aclıq və ya bizim bilmədiyimiz digər səbəblərdən olacaq.

Həmçinin onların haqq yoldan azmaqla da aradan getməsi mümkündür. Belə ki, axır zamanda baş qaldıracaq çoxsaylı ixtilaf, fitnə, təhrik, azğınlıq, oyun-əyləncə, şəhvət və zəlalətlər onların İslamdan uzaqlaşdıran səbəblər sırasında ola bilər.

Bəli, İmam Mehdinin (ə) Allah tərəfindən intiqam almaq üçün göndəriləcəyinə dəlalət edən hədislər mövcuddur. Allah onun vasitəsilə Özünün və dininin

düşmənlərindən intiqam alacaq, fəsad törədənləri, zülm edənləri, azğınları və haqqa boyun əyməyən hər bir kəsi qətlə yetirəcək. Lakin biz rəvayətlərdə qətlə yetirilənlərin insanların ümumi sayının 9/10-u deyil, heç 1/1000-i olduğunu görmürük.

Əhli-sünnə hədis mənbələrində də İmam Mehdinin (ə.f) zühurundan öncə çox sayda insanın qətlə yetiriləcəyinə dəlalət edən hədislər mövcuddur. Nüeym ibn Həmmad "əl-Fitən" kitabında İbn Sirindən rəvayət edir: "Hər doqquz nəfərdən yeddisi qətlə yetirilmədikcə, Mehdi qiyam etməyəcək".

Deyir: Keysan ər-Rəvasi əl-Qisardan (o, inanılan şəxs idi) deyir ki, azad etdiyi köləsi ona belə söyləmişdir: "Əlinin (r.a) belə buyurduğunu eşitdim: "İnsanlar (və ya müsəlmanların) 1/3-i öldürülmədikcə, 1/3-i vəfat etmədikcə və 1/3- qalmadıqca, Mehdi qiyam etməyəcək".[883]

Müslim "Səhih"ində Əbu Hüreyrəyə istinadən Allahın elçisinin (s) belə buyurduğunu nəql edir: "Yaxın vaxtda Fəratın suyu çəkilib altından qızıldan bir dağ aşkara çıxacaq. Camaat bunu eşidib oraya tərəf hərəkət edəcək. Onun yanında olanlar deyəcəklər: "Əgər bunları camaata buraxsaq, hamısını daşıyıb aparacaqlar". Ona görə bir-birlərilə savaşacaqlar, hər yüz nəfərdən doxsan doqquzu öldürüləcək".[884]

Eləcə də Müslim "Səhih"ində Dəccalın ortaya çıxması, ərəb və rumlular arasında müharibə baş verməsi və ərəblərin həlak olması hadisələri barədə nəql etdiyi uzun bir hədisdə deyilir: "əl-Əb oğulları sayıldıqda sayları yüz olacaq, sonra isə onlardan yalnız bir nəfər qaldığını görəcəklər. Belə olduqda hansı qənimətə görə sevinmək olar? Yaxud hansı miras arada bölünəcək?"[885]

Ona görə də hədislərdə axır zamanda ərəblər saylarının azlığı ilə vəsf olunurlar. Belə ki, Müslim və İbn Hibban öz "Səhih"lərində, Tirmizi "Sünən"də, Əhməd "Müsnəd"də öz istinadları ilə cabir ibn Abdullahın belə dediyini nəql edirlər: "Ümmü Şərik Peyğəmbərin (s) belə buyurduğunu mənə xəbər verib: "Camaat Dəccaldan

---

[883] "əl-Fitən", səh.231.
[884] "Səhih", Müslim, 4/2220.
[885] "Səhih", Müslim, 4/2224;, "əl-Müstədrək", 4/523; "Müsnəd", Əhməd, 1/435.

dağlara qaçıb sığınacaq". Sonra Ümmü Şərik ona dedi: "Ey Allahın elçisi, bəs həmin günü ərəblər harada olacaqlar?" Buyurdu: "onların sayı az qalacaq".[886]

Əhməd ibn Hənbəl və Əbu Yə`la öz "Müsnəd"lərində Aişəyə istinadən Peyğəmbərin (s) Dəccəlın qarşısında baş verəcək döyüşdən danışdığını söylədi. Səhbələr dedilər: "Həmin günü ən yaxşı mal hansıdır?" Buyurdu: "Öz ailəsinə su gətirə bilən güclü övlad. Yemək isə olmayacaq". Dedilər: "Bəs həmin vaxt möminlərin yeməyi nədir?" Buyurdu: "Sübhanəllah", "Qüddüs", "əl-Həmdu lilləh" və "Lilahə illəllah" zikrləri". Aişə dedi: "Bəs həmin vaxt ərəblər harada olacaqlar?" Peyğəmbər (s) buyurdu: "Həmin vaxt ərəblərin sayı az olacaq".[887]

* * *

**Müəllif iddia edir: "3. Ali Davudun hökmünü icra edəcək:**

**Kuleyni İmam (ə) zühur etdikdə Ali Davud kimi hökm verəcəyi və şahid tələb etməyəcəyi ilə bağlı ayrıca bir fəsil yazıb. Əbu Abdullahdan rəvayət olunur: "Ali Muhəmmədin Qaimi qiyam etdikdə Davud və Süleymanın hökmü ilə hökm verəcək, şahid tələb etməyəcək" ("Üsulul-kafi", 1/397)".**

**Cavab:** Əllamə Məclisi "Biharul-ənvar"da yazır:

"Bil ki, rəvayətlərdən məlum olur ki, Qaim (ə) zühur etdikdə şahidlərin sözlərinə əsasən deyil, hadisələrin həqiqətinə uyğun hökm verəcək. Lakin ondan öncəki İmamlar (ə) zahirə əsasən hökm verirdilər. Onlar yalnız gizli həqiqətləri bildikləri üçün şahidlərin hiyləgərliklərini ifşa edirdilər. Necə ki, Möminlərin əmiri Əli (ə) bir çox halda bunu etmişdi. Şeyx Müfid özünün "əl-Məsail" kitabında yazır: "İmam (ə) həm öz elminə, həm də iddiaçıların şəhadətlərinə uyğun hökm verə bilər. Əgər şahidlərdən birinin sözlərində ziddiyyətli məqamın olduğunu bildiyi halda, öz elmilə onun iddiasını puç edər və Allahın ona bildirdiyi elmə əsasən hökm verərdi. Mənim nəzərimə görə, məsələlərin gizli tərəflərindən onun xəbərsiz qalması da mümkündür.

---

886 "Səhih", Müslim, 4/2266; "Səhih", İbn Hibban, 15/208; "Sünən", Tirmizi, 5/624; "Müsnəd", Əhməd ibn Hənbəl, 6/462.

887 "Müsnəd", Əhməd ibn Hənbəl, 6/75, 125; "Müsnəd", Əbu Yə`la, 4/152; "Məcməuz-zəvaid", 7/335. heysəmi deyir: "Bunu Əhməd və Əbu Yə`la rəvayət ediblər, raviləri "Səhih"in raviləridir. "Feyzul-qədir", 5/393. Zeyn əl-İraqi deyir: "Bu, səhih hədisdir".

Buna əsasən, Allah nəzdində həqiqətin xilafına olsa da, batindən xəbərsiz olduğuna görə, məsələlərin zahirinə uyğun hökm edə bilər. Həmçinin Uca Allahın onu şahidlərdən kimin doğru, kimin yalan danışdığına yönəltməsi də mümkündür. Bu halda məsələnin Allah nəzdindəki həqiqəti də ona gizli qalmayacaq. Bu cür məsələlər ilahi lütflərlə və hər bir halda hikmətini yalnız Allahın bildiyi məsləhətlərlə əlaqəlidir. Bu məsələ ilə bağlı alimlərin üç yanaşması vardır: onların bir hissəsi İmamların (ə) məsələnin batini tərəfini bilmədən, hökmü yalnız zahirə görə verdiklərini iddia edir. Bəziləri, zahirə əhəmiyyət vermədən, batini həqiqətinə uyğun hökm verdiklərini söyləyib. Bir dəstəsi isə mənim də üstün bildiyim fikri səsləndiriblər”.[888]

“Mir`atul-uqul”da yazır: “Onların bu rəftarı (şahidsiz hökm verməsi) Peyğəmbər (s) sünnəsinin nəsxi növündən deyil ki, buna da “Peyğəmbərdən (s) sonra heç bir nəsx ola bilməz” deyə irad bildirilsin. Nəinki, burada məsələ gah təqiyyədən, gah da zamanın tələbindəki fərqlilikdən qaynaqlana bilər. Belə ki, insanların birliyinin parçalanmasına və haqdan üz döndərmələrinə səbəb olacaq bir amil görmədikdə Peyğəmbər (s) imama məsələlərin zahirinə uyğun hökm verməyi əmr edir, əks halda isə batini həqiqətinə uyğun davranmalıdır...”.[889]

İmam Mehdinin (ə) vəzifəsi Yer üzünün zülm və sitəmlə dolduqdan sonra haqq və ədalətlə doldurmaq olduğuna görə, qərarlarının da həqiqətə uyğun olması təbii haldır ki, haqq öz sahibinə qaytarılsın. Ona görə də gah doğru, gah da yanlış ola biləcək zahiri dəlillərə əsasən deyil, yalnız Allahın ona ilham etdiyi elmlə hökm verəcək. Davudun hökmü deyildikdə məqsəd də budur. Çünki Davud zahiri dəlillərə və şahidlərin sözlərinə ehtiyac duymadan, Allahın ona ilham etdiyi elmlə qərar verirdi.

Alimlər hakimin dəlil və şahidlərin sözünə istinad etmədən, öz elminə əsasən, hökm verməyə ixtiyar sahibi olub-olmadığı barədə fərqli fikirlər səsləndirmişlər.

İbn Qüdamə “əl-Muğni”də yazır: “(Məsələ). Deyir: “Hakim öz məlumatına əsaslanıb hökm verə bilməz”. Məzhəbin üstün rəyi budur ki, hakim öz məlumatına

---

888 “Biharuk-ənvar”, 26/177.
889 “Mir`atul-uqul”, 4/301.

əsaslanıb cəza və ya digər hökm verə bilməz. İstər onun bu məlumatı hakim olmazdan öncə, istərsə də hakim olduqdan sonra əldə edilsin, fərq eləməz. Bu, Şüreyhin, Şə`binin, Malikin, İshaqın, Əbu Übeydənin, Muhəmməd ibn Həsənin, həmçinin Şafeinin sözlərindən biridir. Əhməddən nəql edilən başqa bir rəvayətdə isə bunun icazəli olduğu qeyd edilir. Bu da Əbu Yusifin, Əbu Sövrün, eləcə də Şafeinin ikinci sözü və Müzəninin üstün bildiyi rəydir. Belə ki, Hind Peyğəmbərə (s) "Əbu Süfyan xəsis insandır, mənə və övladlarıma yetəcək qədər mənə xərclik vermir" dedikdə o, buyurdu: "Özünə və övladlarına yetəcək qədərini götür". Peyğəmbər (s) onun doğru söylədiyini bildiyi üçün ondan heç bir şahid və ya and tələb etmədən hökm verdi".

Ta ki, yazır: "Hakim şahidlərin şahidliklərinə əsasən hökm verir. Çünki onların şahidlikləri gümana qalib gəlir. Baş verən və qəti olan məsələ daha üstündür. Belə ki, o, şahidlərin ədalətli və ya sözləri rədd edilən olduqlarına öz elminə əsasən hökm verir. Həmçinin buna əsasən də haqqın isbatlanmasında öz elminə istinad edərək qərar qəbul edə bilər".[890]

Buna əsasən, İmam Mehdinin (ə) də Davud (ə) kimi, Allahın ilham etdiyi elmə istinad edərək, heç bir şahid və ya and tələb etmədən qərar verməsində bir müşkül yoxdur.

* * *

**Müəllif iddia edir: "Məclisi rəvayət edir: "Qaim yeni işlər icra edəcək, yeni kitab gətirəcək və yeni hökmlər verəcək" ("Biharul-ənvar", 52/354; "Ğeybətun-Numani", səh.153).**

**Əbu Abdullah (r.a) deyir: "Mən sanki camaatın Rüknlə Məqam arasında ona yeni kitab üzərinə beyət etdiklərini onu görürəm" ("Biharul-ənvar", 2/135; "əl-Ğeybə", səh.176)".**

**Cavab:** İmam Mehdinin (ə) icra edəcəyi yeni iş rəiyyət arasında ədalətli davranmaq, bərabər bölgü, əxlaqsızlığı qadağan etmək, cəzalar tətbiq eləmək, sünnəni dirçəltmək, bidətləri aradan qaldırmaq və s. bu kimi məsələlərdir.

---

[890] "əl-Muğni", 11/401.

Yeni kitaba gəldikdə, ehtimal ki, məqsəd elə Qurani-Kərimin özüdür. Onun yeni kimi təqdim olunması nazil olma ardıcıllığına əsasən, eləcə də nəsx olunmuşun nəsx edilmişdən öncə yerləşdirilməsi və s. bu kimi xüsusiyyətlərlə tərtib edilməsidir.

Yaxud da Quranın ayələrinin zalım hakim və alimlər tərəfindən təhrif edilmiş mənalara yozulmalarıdır ki, İmam (ə) onları Allahın iradə etdiyi həqiqi mənalarında təqdim edəcək.

Eləcə də insanların öz işlərində ehtiyac duyduqları, mühüm şəriət hökmlərinə aid olan yeni bir kitab da ola bilər.

Yeni hökmlərə gəldikdə, bu, ya insanların qeyb dövründə və həmçinin ondan əvvəl əsla görmədikləri rəiyyət arasında ədalətli rəftardır, ya da İmamın (ə) şahid və dəlil tələb etmədən hökm verməsidir. Belə ki, o, hər bir məsələ barəsində hadisənin həqiqətinə uyğun öz elminə əsasən qərar verəcək.

Baxmayaraq ki, bunlar Peyğəmbər (s) tərəfindən gətirilmiş düzgün İslam hökmləridir, yalnız camaat üçün onlar yeni görünəcək. Çünki onlar zalım hakimiyyətlər zamanında bu hökmlərlə qarşılaşmamış və imam Mehdinin (ə.f) zühurundan əvvəl bundan xəbərsiz olmuşlar. Bunlar heç də yeni hökmlər deyildir, sadəcə sonradan uydurulmuş bidətlər onları bu hala salmışlar.

* * *

**Müəllif iddia edir: "Bu paraqrafı rəvayət edilən qorxunc bir hədislə başa vurmaq istəyirik. Məclisi Əbu Abdullahdan (r.a) rəvayət edir: "Əgər camaat Qaimin zühur etdikdə nələr edəcəyini bilsəydi, onun** (bəzi insanlara qarşı) **törədəcəyi qətlləri görməmək üçün onların əksəriyyəti zühuru görməməyi arzulayardı... hətta camaatın çoxu deyəcək: "Bu, Muhəmmədin ailəsindən deyildir. Əgər Muhəmməd ailəsindən olsaydı, mərhəmətli davranardı" ("əl-Bihar", 52/353; "əl-Ğeybə", səh.135)".**

**Cavab:** Rəvayətin sənədinə göz yumasaq, deyə bilərik: Müasir dövrdə baş verənləri mülahizə etsək, bunun reallıqla heç bir ziddiyyət təşkil etmədiyini müşahidə edərik. Belə ki, idarəçilik, əxlaq və din sahəsindəki fəsadlar pik həddinə çatmış və dünyanın hər yerində zahir olmaqdadır.

Məlumdur ki, İmam Mehdi (ə.f) ədaləti bərqərar edəcək və zülmü aradan qaldıracaqdır. Bu isə öz növbəsində zalım, inadkar hakimiyyətlər və onların yardımçıları ilə çox sayda insanın qətlə yetiriləcəyi müharibələrin baş verməsini qaçılmaz edəcək. Bundan əlavə, cinayətkarlar barəsində cəzalar tətbiq ediləcək, alınmamış qisaslar icra ediləcək və cəzası ölüm olan bir çox haram əməllərə görə hədd cəzaları yerinə yetiriləcək.

İnsanların çoxunun belə mövqe tutmasına gəldikdə, onlar özləri, yaxınları və əzizləri barəsində məhkəmələrin ədalətli qərarlar çıxaracağından qorxduqları üçün belə mövqe tutacaqlar.

Hərçənd rəvayət də İmam Mehdi (ə) tərəfindən çox sayda qətlin törədiləcəyinə dəlalət etmir, sadəcə bəzilərini qətlə yetirəcəyinə görə, bir çoxlarının onu görmək istəmədiklərinə dəlalət edir. Belə ki, rəvayətdəki "...onun (bəzi insanlara qarşı) törədəcəyi qətlləri görməmək üçün onların əksəriyyəti zühuru görməməyi arzulayardı..." sözü buna dəlalət edir.

* * *

**Müəllif iddia edir: "Mən Seyid Sədrdən bu rəvayətə izah verməsini xahiş etdim. O dedi: "Qətlə yetirəcəyi insanlar əsasən müsəlmanlar olacaq". Sonra o mənə özünün "tarixu ma bə`dəz-zuhur" ("Zühurdan sonrakı tarix") kitabını hədiyyə etdi. Belə ki, bu məsələni öz kitabında açıqlamış və hədiyyə etdiyi nüsxədə də öz əlilə yazmışdı".**

**Cavab:** Seyid Muhəmməd Sədr (r.ə) İmam Mehdinin (ə) zühurundan sonra çoxsaylı qətllərin baş verəcəyinə dəlalət edən müxtəlif rəvayətləri sadaladıqdan sonra bu sözləri yazır:

"Lakin biz həmin zamanda qətlə yetirilənlərin kimliyini araşdırsaq görəcəyik ki, bu addımlar zühurdan əvvəl ümumi planların əsas hissəsini təşkil edənlərin ziddinə yönəlmişdir. Belə ki, nəticədə həmin dövrdə batil tərəfində səf tutan şəxslərin qətlə yetirilməməsi mümkünsüzdür. Ona görə də rəvayətlərdə İmamın (ə) Allahın düşmənlərini, hər bir münafiq və inkar əhlini qətlə yetirəcəyi, onların tövbə etmələrini tələb etməyəcəyi, həmçinin onun qiyamını inkar edib "Geri qayıt, bizim

Fatimə övladına ehtiyacımız yoxdur!" deyənləri öldürəcəyi qeyd olunur". Bütün bu şəxslər zühurla bərabər uğursuzluğa düçar olanlardır".[891]

Buradan aydın olur ki, iddiaçı müəllifin Seyid Muhəmməd Sədrə (r.ə) nisbət verdiyi və onun adına bağladığı hər bir sözü rəzil bir yalan və aşkar iftiradır. Çünki İmamın (ə.f) dəvətini rədd edib, batil tərəfə yönələnlərin əksəriyyəti qeyri-müsəlmanlardır. Hər bir dövrdə müsəlmanların sayı az, digərlərinin isə çox olmuşdur, bu da məlum faktdır.

* * *

**Müəllif iddia edir: "Bu rəvayətlər barədə bunları qeyd etməyimiz labüddür:**

**1. Nə üçün Qaim ərəblərə qarşı qılınc qaldıracaq? Məgər Allahın elçisi (s) ərəb deyildimi?**

**2. Məgər Möminlərin əmiri və onun pak nəsli ərəb deyildilərmi?**

**3. Məgər ərəblərə qarşı qılınc qaldıran Qaimin özü Möminlərin əmirinin nəslindən deyilmi? Həmçinin onun özü ərəb deyilmi?**

**4. Məgər ərəblər arasında milyonlarla insan Qaimə və onun qiyamın iman gətirməyiblərmi?**

**5. Bəs nə üçün qətl və başkəsmələr məxsusi olaraq ərəblərə qarşı yönəlir? Necə deyilə bilər ki, bir nəfər də olsun ərəb Qaimlə birlikdə qiyam etməyəcək?**

**Qaim Məscidul-Həramla Peyğəmbər məscidini necə dağıda bilər? Halbuki Qurani-Kərimin bildirdiyi kimi, Məscidul-Həram müsəlmanların qibləsi və yer üzündə insanlar üçün ucaldılmış ilk evdir, Allahın elçisi (s), Möminlərin əmiri, ondan sonrakı imamlar orada namaz qılmışlar, xüsusilə də İmam Sadiq orada uzun müddət qalmışdır".**

**Cavab:** Bu sualların hər birinə ötən bəhslərimizdə cavab vermişik, burada artıq söz söyləməyə lüzum görmürük.

Müəllifin qeyd etdiyi hədislər (səhih olduqları fərz edilsə) məxsusi olaraq ərəblərə aid deyildir, o rəvayətlərdə İmam Mehdinin (ə) ərəblərə və müsəlmanlara qarşı qılınc qaldıracağı ayrıca bəyan edilmir.

---

[891] "Tarixu ma bə`dəz-zuhur", səh.398.

Əhli-sünnə hədislərinə nəzər salan şəxs ərəblərin bəla və müsibətlərlə təhdid edildiklərini, xəbis əməllərlə vəsf olunduqlarını görəcəkdir.

Buxari və Müslim öz "Səhih"lərində cəhşin qızı Zeynəbdən (r.a) nəql edirlər ki, Allahın elçisi (s) qorxu içində onun evinə gəlib dedi: "Allahdan savayı ilah yoxdur! Yaxınlaşan bəalalara görə vay olsun ərəbə! Bu gün Yəcuc və Məcucun qarşısını alan sədd uçdu və bu iki barmaq kimi (baş barmağı ilə işarə barmağını bir həlqə kimi birləşdirdi) çevrəyə alacaqlar". Zeynəb dedi: "Ey Allahın elçisi, aramızda saleh şəxslər olduğu halda, bizdə həlak olacağıq?" Buyurdu: "Əxlaqsızlıq artdığı zaman, bəli".[892]

* * *

**Müəllif iddia edir: "Gümanımız bu idi ki, Qaim Məscidul-Həramı uçurduqdan sonra onu Peyğəmbər (s) zamanındakı halına qaytaracaq. Lakin sonradan mənə aydın oldu ki, "onu qədim təməlinə qaytaracaq" sözü onu dağıtması və yerlə-yeksan etməsi deməkdir. Çünki həmin vaxt müsəlmanların qibləsi Kufə təyin ediləcək.**

**Feyz Kaşani rəvayət edir: "Ey Kufə əhalisi, Allah sizə heç kimə bəxş edilməyən fəzilət əta etmişdir. Sizin namazgahınız Adəmin, Nuhun və İdrisin evi, İbrahimin namaz qıldığı yerdir... Günlər keçəcək, Qara daş da oraya qoyulacaq" ("əl-Vafi", 1/215)".**

**Cavab:** Məscidul-Həram və Peyğəmbər (s) məscidinin uçurulub öz qədim təməli üzərində ucaldılması barədə bəhs etdik, bildirdik ki, bu mövzuda nəql edilən rəvayətlər zəifdir. Rəvayətlərin sənədinə göz yumsaq və bunun İmam (ə) tərəfindən icra ediləcəyini qəbul eləsək, bu, həmin məscidlərin təqva üzərində yenidən tikilməsi və zalım hakimlərin oraya qoyduqları daşlarının kənarlaşdırılması deməkdir.

İmam Mehdinin (ə) Kəbəni dağıdıb yenidən tikməyəcəyi və qibləni Kufəyə çevirəcəyi ilə bağlı müəllifin iddiasına gəldikdə, bunlar aqil bir şəxs tərəfindən söylənməsinə təəccüb edilən açıq-aşkar yalan və uydurmalardır! Xüsusilə qeyd

---

[892] "Səhih", Buxari, 2/1031, 3/1111, 4/2211, 2228; "Səhih", Müslim, 4/2207, 2208; "Səhih", İbn Hibban, 2/34, 15/246; "Sünən", Tirmizi, 4/480; "Sünən", İbn Macə, 2/1305; "Müsnəd", Əhməd ibn Hənbəl, 6/428, 429.

etməliyik ki, iddiaçı müəllifin dəlil olaraq təqdim etdiyi rəvayət onun gümanına dəlalət etmir. Qara daşın Kufə məscidinə qoyulması qiblənin oraya köçürülməsi anlamını daşımır. Çünki hətta Qara daş oradan çıxarılsa belə, möhtərəm Kəbə Evi müsəlmanların qibləsi olaraq qalmaqda davam edər.

Həmçinin hədisdə Qara daşı Kufə məscidinə qoyan şəxsin İmam Mehdi (ə) olduğu qeyd edilmir, Qara daşın oraya qoyulması ilə onun qibləyə çevriləcəyinə də rəvayətdə bir dəlalət yoxdur.

Ola bilsin ki, İmamın (ə) Qara daşın oraya qoyulacağını xəbər verməsi həmin məscidin əhəmiyyətini və insanlar arasındakı əzəmətini göstərmək üçündür.

Bütün bunlara rəvayətin sənədinin zəifliyini əlavə etmək istəyirik. Belə ki, Şeyx Səduq bunu Əsbəğ ibn Nübatəyə[893] istinadən rəvayət edib. Şeyx Səduqun Əsbəğədək olan istinadı isə zəifdir.

Həmin istinada olan şəxslərdən biri Muhəmməd ibn Əli Maciləveyhdir, onun Şeyx Səduqun ravi şeyxlərindən olmasına baxmayaraq, inanılan şəxs olması təsdiqini tapmayıb.

Həmçinin ravilərindən biri Hüseyn ibn Əlvan əl-Kəlbidir. Nəcaşinin "Rical"da onun barəsində söylədiyi sözlər qarışıqdır,[894] inanılan şəxs olmasını həm ona, həm də qardaşı Həsənə nisbət vermək mümkündür. Diqqət yetirdikdə, həmin təsdiqin onun qardaşı barədə olduğu aydınlaşır.

Şeyx Səduqun istinadında eləcə də Əmr ibn Sabit vardır ki, o, Əmr ibn Əbul-Miqdaddır, onun da inanılan şəxs olması sübuta yetməyib.

Buna əsasən, rəvayətin sənədi də zəifdir və onu heç bir halda dəlil kimi götürmək olmaz.

* * *

---

[893] "Mən la yəhzuruhul-fəqih", 1/165; "Vəsailuş-şiə", 3/526.

[894] Nəcaşi "Rical"ında yazır (1/161): "Hüseyn ibn Əlvan əl-Kəlbi, azad edilmiş kölədir, kufəlidir, əhli-sünnədir, Əbu Muhəmməd künyəli qardaşı Həsən inanılan şəxsdir. Onların ikisi də Əbu Abdullah Sadiqdən (ə) rəvayət nəql etmişlər. Həsənin bir kitabı yoxdur, Həsən bizə xas və bizim üçün daha üstündür. Hüseyn Ə`maşdan, Hişam ibn Ürvədən hədislər nəql etmişdir. Hüseynin kitabı var ki, rəvayətləri ixtilaflıdır.

**Müəllif iddia edir: "Qara daşın Məkkədən Kufəyə aparılması, Kufənin Adəm, Nuh, İdris və İbrahimin ev və namazgahı qərar verilməsi Məscidul-Həramın uçurulmasından sonra oranın qibləyə çevriləcəyinə dəlildir. Belə ki, bütün bunlardan sonra Kəbənin yenidən öz qədim təməlinə qaytarılmasının heç bir mənası və faydası qalmır, ona görə də (rəvayətdə qeyd edildiyinə əsasən) dağıdılıb yerlə-yeksan edilməli və aradan qaldırılmalıdır. Müsəlmanların qibləsi və Qara daşın yerləşdiyi məscid isə Kufədə olacaq. Əvvəldə də qeyd etdik ki, fəqihlərimizin nəzərində Kəbənin öz-özlüyündə heç bir əhəmiyyəti yoxdur, ona görə də uçurulması labüddür".**

**Cavab:** Rəvayətdə Kufə məscidinin Adəmin, Nuhun və İdrisin evi, İbrahimin namazgahı... olduğu qeyd edilir. Müəllifin iddia etdiyi kimi, həmin məscidin Adəmin, Nuhun və İdirisin evi, İbrahimin namazgahı qərar veriləcəyinə dair heç bir dəlalət yoxdur.

Adəm və Nuhun evinin namazgah qərar verilməsinin nə mənası ola bilər?!

Həmçinin Kufə məscidinin Adəm və Nuhun evi, İbrahimin namazgahı qərar verilməsilə müsəlmanların qibləsinin Kəbədən oraya çevrilməsi arasında hansı bağlılıq ola bilər?!

Qara daşın Məkkədən Kufəyə aparılması və şiə fəqihlərinin nəzərində Kəbənin heç bir əhəmiyyətinin olmadığı ilə bağlı müəllifin sözlərinə gəldikdə, bu iddialarını əvvəldə cavablandırmışıq, oraya müraciət edə bilərsiniz.

* * *

**Müəllif iddia edir: "Bir daha sual veririk: Qaimin başladacağı yeni iş nədir? Bəs onun gətirəcəyi yeni kitab və yeni hökmlər hansılardır?**

**Əgər görəcəyi iş Muhəmməd ailəsinin hökmlərinə əsaslanırsa, bu, heç də yeni iş demək deyildir. Əgər gətirəcəyi yeni kitab da rəvayətlərdə Möminlərin əmirində olduğu iddia edilən kitabdırsa, bu da yeni kitab sayılmaz.**

**Həmçinin qəzavətləri də Muhəmməd ailəsinin hökmlərindən qaynaqlanırsa, bunda da bir yenilik olmayacaq.**

**Yox, əgər gətirəcəyi kitab bu kitablardan, verəcəyi hökmlər onların hökmlərindən deyilsə, bax bu, yenilik olacaq. Axı, necə də yeni olmazsın?! Belə**

**ki, rəvayətlərin də qeyd etdiyi kimi, Qaim Davud ailəsinin hökmünə uyğun qəzavət edəcək.**

**Bunlar Davud ailəsinin hökmləri, onların kitabları, qəzavətləri də onların şəriətlərindəndir. Ona görə də yeni sayılır. Əvvəldə qeyd etdiyimiz rəvayətdə deyilir: "Mən sanki camaatın Rüknlə Məqam arasında ona yeni kitab üzərinə beyət etdiklərini onu görürəm".**

**Cavab:** Bütün bu suallar əvvəldə təfsilatı ilə cavab verdik. Burada həmin sözləri ikinci dəfə təkrarlamağa lüzum görmürük. Rəvayətlərdə İmam Mehdinin (ə) İslam hökmlərini tərk edərək Davud peyğəmbərin (ə) ləğv edilmiş şəriətinə əsasən hökm verəcəyi qeyd edilməyib. Onun yalnız Davud peyğəmbərin (ə) üslubunda qəzavət edəcəyi bildirilir. Yəni, öz elminə əsaslanaraq hökm verəcək, dəlil və şahid tələb etməyəcək.

* * *

**Müəllif iddia edir: "İndi isə qeyd edilən qorxunc rəvayətlərə əsasən, Qaimin hansı əməllər törədəcəyinə nəzər salaq. Onun amansızlıq və qəddarlıqla, çox iyrənc üsulla çox sayda insanı qətlə yetirməsinə görə camaat onu görmək istəməyəcək. Onların əksəriyyəti belə deyəcəklər: "Bu, Muhəmmədin ailəsindən deyildir. Əgər Muhəmməd ailəsindən olsaydı, mərhəmətli davranardı".**

**Öz növbəmizdə biz də soruşuruq: Qaimin qətlə yetirəcəyi kəslər kimlərdir? Bu mənfur üsulla kimlərin qanı axıdılacaq? Rəvayətlərə və Seyid Sədrin sözlərinə əsasən, bu, müsəlmanların qanıdır".**

**Cavab:** Bunlar da təkrar və çeynənmiş sözlərdir, əvvəlki bəhslərdə onlara cavab verdik və Qaimin (ə) qətlə yetirəcəyi şəxslərin kimlər olacağını açıqladıq. Cavabı burada təkrarlamağa ehtiyac duymuruq.

* * *

**Müəllif iddia edir: "Demək, Qaimin zühuru müsəlmanlar üçün rəhmət deyil, intiqam və qisas xarakteri daşıyacaq və onların "Bu, Muhəmmədin ailəsindən deyildir!" söyləməyə haqları vardır. Bəli, çünki Muhəmmədin ailəsi müsəlmanlara qarşı mərhəmətli və şəfqətli idilər. Ancaq Qaim onlara rəhm etməyəcək, şəfqət göstərməyəcək. Demək, o, Muhəmmədin ailəsindən deyildir.**

**Məgər Qaim Yer üzünü zülm və sitəmlə dolduqdan sonra haqq və ədalətlə dolduracaq şəxs deyildimi?**

**Bəs insanların 9/10-unu, xüsusilə də müsəlmanları qətlə yetirərkən onun ədaləti haradadır? Bunu tarixdə heç kəs, hətta öz ideologiyalarını insanlara zorla qəbul etdirmək istəyən kommunistlər belə tətbiq etməmişdilər. İndi özünüz düşünün!"**

**Cavab:** İmam Mehdi (ə.f) xüsusilə də bu ümmət, ümumən də bəşəriyyət üçün rəhmət və hidayətdir. Ancaq eyni zamanda o Allah və din düşmənlərinə, zorakılara, zalım hakimlərə və onların əlaltılarına qarşı sərtdir. Onlar etdikləri əməllərinə görə ədalətli cəzanı dünyada almalıdırlar. Bu, İmam Mehdinin (ə.f) quracağı ədalətli dövlətdə tətbiq edəcəyi ədalət və insafın tələbidir.

Biz əvvəldə qeyd etdik ki, müəllifin istinad etdiyi rəvayətlərdə İmam Mehdinin (ə.f) çox sayda insanı rəhimsiz və mərhəmətsiz şəkildə qətlə yetirəcəyinə dəlalət yoxdur. Həmin bəhslərə müraciət edə bilərsiniz.

Hər on nəfərdən doqquzunun aradan gedəcəyi ilə bağlı məsələyə gəldikdə, biz bunu öz məqamında müfəssəl izah etdik, hədisdəki ehtimalları vurğuladıq. Dedik: Bunlar İmam Mehdinin (ə) zühurundan öncə baş verəcək hadisələrdir, həmin rəvayətlərdə insanların 9/10 hissəsinin qətlə yetiriləcəyinə heç bir dəlalət yoxdur. Həmin bəhsi burada təkrarlamağa lüzum görmürük.

* * *

**Müəllif iddia edir: "Biz əvvəldə qeyd etdik ki, Qaim həqiqətdə yoxdur və o, mövcud deyildir. Lakin o, qiyam etdikdə Davud ailəsinin hökmü ilə hökm edəcək, ərəblərə və müsəlmanlara qılınc qaldıracaq və qətlə yetirəcək, onlara rəhm və şəfqət göstərməyəcək, Məscidul-Həramı və Peyğəmbər (s) məscidini dağıdacaq, Qara daşı çıxaracaq, yeni işlər icad edəcək, yeni kitab və yeni hökmlər gətirəcək. Bəs bu Qaim kimdir? Qaim dedikdə məqsəd nədir?"**

**Cavab:** Allaha həmd olsun ki, Onun lütfü sayəsində müəllifin ortaya atdığı iddiaların hamısının puç və yanlış olduğunu izah etdik. O, zəif hədislərə istinad edir, onları dəlil göstərir, rəvayətləri yanlış anlayır, mənalarını təhrif edir və məqsəddən fərqli mənalara yozur. Nəticədə hamı "Bunlar ağ yalanlardır!" deməyə məcbur qalır.

Aydın məsələdir ki, təqdim olunan rəvayətlər, hətta onların arasındakı zəif hədislər İmam Mehdinin (ə.f) Davud peyğəmbərin (ə) şəriətinə əsasən hökm verəcəyini, ərəbləri və müsəlmanları qətlə yetirəcəyini, Məscidul-Həramı dağıdacağını və onu yenidən inşa etməyəcəyini, Qara daşı oradan çıxaracağını qeyd etmir.

Müəllifin İmam Mehdinin (ə.f) həqiqətdə mövcud olmaması iddiası da digər iddiaları kimi dəyərsizdir. O, bu iddiasına heç bir səhih dəlil də təqdim etmir.

Halbuki o, bu məsələdə Əhməd əl-Katibə istinad edir, lakin o da hər hansı bir qeyd etmir. İstinadı yalnız İmam Həsən Əskərinin (ə) vəfat edərkən heç bir övladının olmadığı iddiasıdır. Bu iddiaya isə ötən bəhslərimizdə cavab verdik.

* * *

**Müəllif iddia edir: "Uzun illər müddətində araşdırmalarımın və mənbə kitablarımıza müraciətlərin nəticəsində kəşf etdiyim həqiqət budur ki, Qaim İsrail dövlətinin qiyamına və ya Məsih Dəccala işarədir. Çünki əvvəldə də qeyd etdiyimiz və isbatladığımız kimi, Həsən Əskərinin övladı olmayıb. Buna görə də Əbu Abdullahdan (r.a) rəvayət olunur (halbuki onun bu sözlərə heç bir əlaqəsi yoxdur): "Bizdən sonrakıların dövlətimizdən heç bir nəsibi yoxdur. Qaimimiz qiyam etdikdə Allah bizə onların qanını halal edəcək" ("əl-Bihar", 52/376)".**

**Cavab:** Müəllifin uzun araşdırmalarından və əsas mənbələrə müraciətindən sonra kəşf etdiyi bu "həqiqət" necə də gülməli və qəribədir!

Balasını itirmiş ananı güldürəcək bir komediyadır bu!

Deməк, müəllifin iddiasına görə, İmamlar (ə) hazırkı üsyankar İsrailin hakimiyyət əldə edəcəyini xəbər verir və bununla müsəlmanları müjdələyirlər?!

Yoxsa müəllif Əməvi dövləti zamanından bəri İsrailin hakimiyyət tapması üçün rəvayətlər üzərində gizli əllərin gəzdiyini iddia edir?!

Bu gizli personajlar İsrail hakimiyyətinin formalaşması üçün İmam Mehdinin (ə) adından istifadə edərək öz məkrli planlarını niyə ifşa edirlər? Halbuki belə işlər gizlilik və ciddi məxfilik tələb edir!

Məgər İsrail hakimiyyəti Əhli-Beytdəndir? Məgər onlardan kiminsə adı Muhəmməddir? Məgər onlar Yer üzü zülm və sitəmlə dolduqdan sonra onu haqq və ədalətlə doldurublar? Yoxsa bu da onların gələcək planlarındandır?!

Məgər hər bir daş və ağacın altında gizlənən yəhudilərin aşkarlanıb qətlə yetirilməsi və İslamın bütün Yer üzünə yayılması da onların planları daxilindədir?

İsrail dövlətinin Kərbəla, Kufə məscidi və Qara daşla nə əlaqəsi var?

Nə üçün İsrail dövləti Kərbəlanı müqəddəs şəhər, hətta ən möhtərəm məkan və paytaxt etməyə səy göstərməlidir? Nə üçün Qüdsü və ya Tel-əvivi müqəddəs məkan elan etməsin?!

İsrail dövləti müsəlmanların qibləsini nə üçün Kəbədən Kufəyə çevirsin? Məgər onların qibləsi Beytul-müqəddəs və ya Ağlamaq divarı deyilmi?

Nə üçün İsrail dövlət qurduqdan sonra şiələri özünə imana və vilayətini tanımağa dəvət etmir?

Bəs nə üçün mömin şiələr indiyədək İmam Mehdinin (ə) zühurunu elan etməyiblər?

Müəllifdən əvvəl indiyədək heç kimin ortaya atmadığı bu nəzərə başqa iradlar da mövcuddur. Həmin iradlar isə İmam Mehdi (ə) ilə bağlı rəvayətlərdə qeyd edilən xüsusiyyətlərlə bağlıdır ki, onlardan heç biri İsrail dövləti ilə uyğun gəlmir.

Dəccal (antixrist) barədə varid olan hədislər isə İmam Mehdi (ə) haqda olan hədislərdən tamamilə uzaqdır və bunu hər iki məzhəbin hədislərinə nəzər saldıqda aydın şəkildə görmək olar.

İsbat üçün yalnız bu fakt kifayətdir ki, İmam Mehdi (ə.f) aləm qadınlarının xanımı Fatimənin (s.ə) nəslindəndir, Dəccalın isə nəsil mənsubiyyəti naməlumdur.

Mehdinin yaradılışı gözəl, bədən üzvləri tamdır, Dəccal isə tək gözlü və eybəcərdir.

Mehdi uzun illər boyunca ədalətlə hökm edəcək, Dəccal isə yalnız bir neçə ay müddətində hakimiyyət sürəcək, zülm və zorakılıqla hökm edəcək.

Mehdi hidayət əhli olan və təriflənən imamlardandır, Dəccal isə məzəmmət olunan azğınlıq rəhbəridir.

Həmçinin iddianın doğruluğu fərz edilsə, o zaman Mehdinin ordusu ilə Dəccalın ordusu arasındakı savaşın mənası nədir? Mehdi özü-özü ilə müharibə edəcək?

Əgər Mehdi həmin o Dəccaldırsa, bəs nə üçün İsa peyğəmbər (ə) İmam Mehdinin (ə) arxasında namaz qılacaq? Bəs nə üçün bundan sonra onu öldürəcək?

Əgər Mehdi həmin Dəccaldırsa, bəs Dəccalın öldürülməsindən sonra Mehdinin və qurduğu dövlətinin uzun müddət mövcud olacağının mənası nədir?

Belə olduqda, bəs nə üçün Dəccala bağlı hədislər gizlilik və rəmzilik ehtiva edir, ona Mehdi deyə işarə edirlər, halbuki əhli-sünnə nəzərində də həmin adda başqa bir şəxs mövcuddur?!

Təəccüblüsü budur ki, iddiaçı müəllif uzun müddət araşdırmalarından və əsas mənbə kitablarına müraciətdən sonra açıq aşkar tərəddüdü olan nəticələr əldə etmiş, Mehdidə məqsədin İsrail dövləti və ya Dəccal Məsih (antixrist) olduğuna ehtimal vermişdir. Bu iki nəticə arasında fərqi özünüz düşünün!

Ola bilsin ki, bu iki nəticədən birinə qərar vermək, yaxud bundan daha əcaib və qəribə qənaətlərə gəlmək üçün onun yenə də uzun illər araşdırma aparmasına və yenidən əsas mənbə kitablarına müraciət etməsinə ehtiyacı olacaq.

* * *

**Müəllif iddia edir: "Nə üçün Davud ailəsinin hökmü ilə hökm edir? Bu, onun dəvətinin yəhudi mənşəli olduğuna işarə etmirmi?"**

**Cavab:** Biz əvvəldə izah etdik ki, müəllifin iddiasının əksinə, rəvayətlərdə İmam Mehdinin (ə) Davudun şəriətinə əsasən deyil, onun kimi hökm verəcəyi qeyd olunur.

Dedik: burada məqsəd İmam Mehdinin (ə) heç bir dəlil və şahid tələb etmədən, Allahın həmin məsələ ilə bağlı ona ilham etdiyi elmə əsaslanıb hökm verməsidir.

Təəccüblüdür ki, müəllif Davudun hökmünün yəhudi mənşəli olduğunu iddia edir, halbuki Davud (ə) Allahın möhtərəm peyğəmbərlərindən biridir, onun hökmlərinin yəhudilərlə bir əlaqəsi yoxdur. Uca Allah onu kitabında tərifləyərək buyurur: ***"Davud Calutu öldürdü. Allah Davuda həm hökmranlıq, həm də hikmət (peyğəmbərlik) verdi və ona istədiyini (zireh düzəltmək, quşların dilini bilmək,***

***gözəl səslə oxumaq və s.) öyrətdi";***[895] ***"Biz Davuda və Süleymana elm (insanlar arasında mübahisəli məsələləri həll edib ədalətli hökm çıxartmaq, quşların dilini bilmək və i. a.) verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!"***"[896]

Uca Allah onun hökmünü qeyd edərək buyurur: ***"Davudu və Süleymanı da (yad et)! O zaman onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verirdilər və Biz də onların hökmünə şahid idik. Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq. Və onların hər birinə hökm (hikmət, peyğəmbərlik) və elm (şəriəti dərindən bilmək) verdik. Biz dağları və quşları Davudla birlikdə (Allahı) təqdis edib təriflətsinlər deyə ona ram etdik. Bunları Biz etmişdik".***[897]

Müəllif bu ayələrin də yəhudi mənşəli olduğunu iddia edəcəkmi?!

* * *

**Müəllif iddia edir: "İsrail dövlətinin qurulması özü ilə bərabər Davudun hökmlərini gətirib. Bu dövləti qurduqdan sonra onun planlarında ərəblərin, xüsusilə də müsəlmanların kökünü kəsmək vardır. Belə ki, bu, onların sionist protokollarında qeyd olunur və müsəlmanları son nəfərinə kimi heç bir mərhəmət göstərmədən qətlə yetirmək onların planlarına daxildir.**

**Müsəlmanların qibləsini uçurmaq, onu yerlə-yeksan etmək, sonra Peyğəmbərin (s) məscidini dağıtmaq və çıxarıldıqları Yəsribə yenidən qayıtmaq yəhudilərin arzusudur. Onların dövlətinin yaranması məhz həmin yeni işdir. Onlar beləliklə Quranı yeni kitabla əvəzləyəcək, yeni qaydalarla və heç bir dəlil tələb etmədən hökm verəcəklər. Belə ki, dəlil və şahid tələb etmək müsəlmanların xüsusiyyətidir. Nəticədə yəhudi millətçiliyi səbəbindən Yer üzündə anarxiya hökm sürəcək".**

**Cavab:** Biz əvvəldə dedik: Mehdi Davud (ə) kimi hökm edəcək, onun şəriətinə əsasən deyil.

---

[895] "əl-Bəqərə" surəsi, ayə 251.
[896] "ən-Nəml" surəsi, ayə 15.
[897] "əl-Ənbiya" surəsi, ayə 78-79.

Həmçinin dedik: O, Yer üzü zülm və sitəmlə dolduqdan sonra onu haqq və ədalətlə dolduracaq. Qatillərdən və cinayətkarlardan qisas alınmasının və icra edilməmiş hədd cəzalarını yerinə yetirməyin ondan tələb edilməsi təbiidir. Bu, heç də müəllifin iddia etdiyi kimi, onun ərəb və müsəlmanlara qarşı qanlı müharibələrə başlayacağı və mərhəmət göstərmədən qətllər törədəcəyi mənasına gəlməz.

Təəccüblüdür ki, müəllif hazırkı İsrail dövlətində Davud ailəsinin hökmlərinin rəhbər olduğunu düşünür. Halbuki bu, belə deyil. Əksinə, İsrail zalım, zülmkar və işğalçı bir dövlətdir, orada Allahın nazil etdiyi qanunlarla hökm olunmur.

Əgər İsrail dövlətinin arzusu o iki məscidi uçurmaqdırsa, demək onun həm də arzusu Kufəni paytaxt, Kərbəlanı isə Yer üzünün ən müqəddəs məkanı etməkdir?

Əgər yəhudilərin arzusu Mədinəyə (keçmiş Yəsribə) qayıtmaqdırsa, bəs nə üçün müəllif buna dəlalət edəcək və bunun İmam Mehdinin də arzusu olduğunu bəyan edən bir dəlil təqdim etmir?

Halbuki müəllifin bu gülünc nəzəriyyəsinin təməlini təşkil edən rəvayətlərin zəif olduğunu isbatladıq və həmin xəbərlərdə də buna dəlalətin olmadığını bəyan etdik. Yeni hökm, yeni kitab və yeni məsələlər dedikdə nəyin ehtimal olunduğunu da izah etdik. Burada təkrarən onları qeyd etməyə ehtiyac görmürük.

* * *

**Müəllif iddia edir: "Qeyd etməliyik ki, "yoldaşlarımız" onlar üçün on iki imam da seçiblər. Bu, məqsədyönlü bir əməldir. Bu rəqəm Bəni-İsrailin nəsil köklərinin sayı ilə eynidir. Bununla da kifayətlənməyiblər, özlərinə "On iki imamçılar" adını götürüblər".**

**Cavab:** Müəllifin ortaya qoyduğu bu qəribə, əcaib və təəccüb doğuran "kəşflər" onun cahilliyinin və batilə möhkəm bağlılığının göstəricisidir. O, haqqı batilə, batili də haqqa çevirmək istəyir. Belə ki, on iki xəlifə ilə bağlı hədislər heç kəsə gizli olmayacaq həddə məşhur və bu müəllifin onu gizlətmək və ya barəsində şübhə yaratmaq imkanından daha aşkardır.

Biz o hədisin bəzi nəql yollarını burada qeyd etməklə kifayətlənəcəyik. Daha artıq məlumat almaq istəyənlər bizim "Məsailul-xilafiyyə harə fiha əhlus-sunnə" ("Əhli-sünnənin cavab verməkdə heyrətdə qaldığı ixtilaflı məsələlər") kitabına

müraciət edə bilərlər. Biz isə burada sağlam qəlbə və şahidlik edib dinləyən qulaq sahiblərinə yetəcək qədərini nəql edəcəyik.

Buxari, Əhməd, Beyhəqi və digərləri Cabir ibn Səmurədən nəql edirlər: "Dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "On iki əmir olacaq". Sonra bir söz dedi, amma mən eşitmədim. Atam dedi: "Peyğəmbər (s) buyurdu: "Onların hamısı Qüreyşdəndir".[898]

Bəğəvi deyir: "Bu, səhihliyi barədə yekdil fikir olan hədisdir".[899]

Müslim Cabir ibn Səmurədən nəql edir: "Atamla birlikdə Peyğəmbərin (s) yanına getdik. Onun (s) belə buyurduğunu eşitdim: "Bu iş (din, risalət) onların üzərinə on iki xəlifə gəlib-getmədikcə sona çatmayacaq". Cabir deyir: "Sonra mənim eşitmədiyim sözlər söylədi. Mən atamdan onun nə dediyini soruşduqda o, "Peyğəmbər (s) onların hamısının Qüreyşdən olduğunu söylədi" deyə cavab verdi".[900]

Həmçinin Müslim (rəvayət ona məxsusdur) və Əhməd Cabir ibn Səmurədən nəql edirlər: "Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "İnsanların üzərinə on iki nəfər hakim olmadıqca onların (din və dünya) məsələləri aradan getməyəcək". Sonra Peyğəmbər (s) mənim eşitmədiyim sözlər söylədi. Atamdan Peyğəmbərin (s) nə söylədiyini soruşdum. Dedi: "Buyurdu: "Onların hamısı Qüreyşdəndir".[901]

Müslim, Əhməd, Təyalisi, İbn Hibban, Xətib Təbrizi və digərləri Cabir ibn Səmurədən nəql edirlər: "Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "İslam on iki xəlifə olduqca izzətli (qüvvətli) olaraq qalacaq". Sonra mənim anlamadığım bəzi sözlər söylədi. Atama dedim: "Peyğəmbər (s) nə söylədi?" Atam dedi: "Onların hamısı Qüreyşdəndir".[902]

---

[898] "Səhih", Buxari, 9/101; "Müsnəd", Əhməd ibn Hənbəl, 5/90, 95; "Dəlailun-nubuvvət", 6/519.
[899] "Şərhus-sünnə", 15/31.
[900] "Səhih", Müslim, 3/1452.
[901] "Səhih", Müslim, 3/1452; "Müsnəd", Əhməd ibn Hənbəl, 5/98, 101; "Silsilətul-əhadisis-səhihə", 1/651. Albani orada yazır: "Bu, onların (Müslim və Buxarinin) şərtinə əsasən, istinadı səhih hədisdir".
[902] "Səhih", Müslim, 3/1453; "Müsnəd", Əhməd ibn Hənbəl, 5/90, 100; "Müsnəd", Əbu Davud Təyalisi, səh.105, 180; "Mişkatul-məsabih", 3/1678. Xətib Təbrizi yazır: "Hədis barədə yekdil fikir mövcuddur". "əl-İhsan bitərtibi səhih İbn Hibban", 8/230.

Müslim (hədis ondan nəql olunur), Əhməd və İbn Hibban Cabir ibn Səmurədən nəql edirlər: "Atamla birlikdə Peyğəmbərin (s) yanına getmişdik. Onun belə buyurduğunu eşitdim: "Bu din on iki xəlifə olduqca izzətli və qüvvətli qalacaq". Sonra bir söz söylədi, amma camaatın səs-küyü onu eşitməyə məni qoymadı. Atama dedim: "Peyğəmbər (s) nə söylədi?" Dedi: "Onların hamısı Qüreyşdəndir".[903]

Həmçinin Müslim (hədis ona məxsusdur) və Əhməd ibn Hənbəl Cabir ibn Səmurədən nəql edirlər: "əl-Əsləminin daşqalaq edildiyi cümə günü axşamı Allah elçisinin (s) belə buyurduğunu eşitdim: "Bu din Qiyamətədək və ya üzərinizdə on iki xəlifə olmadıqca aradan getməyəcək. Onların hamısı Qüreyşdəndir...".[904]

On iki imamın olacağına dəlalət edən hədislər olduqca çoxdur, qeyd etdiklərimiz dəlil olaraq kifayətdir.

Əgər iddiaçı müəllifin fikrinə əsasən, bu hədislər də yəhudi saxtakarlığının və uydurmalarının məhsuludursa, o zaman əhli-sünnənin səhih hesab etdikləri Buxarinin, Müslimin və digər hədis alimlərinin kitablarını da zibilliyə atmalıdır.

Yox, əgər bu hədislərin həqiqətən səhih olduğunu düşünürsə, o zaman bu hədislərə əsasən, on iki imam şiələrinin də etiqadının doğru olduğunu etiraf eləməlidir.

* * *

**Müəllif iddia edir: "Onlar Uca Allahın Quranda Cəbrailə (r.a)[905] - Ruhul-Əminə verdiyi vəsfə də ikrah duyur, onun əmanətə xəyanət etdiyini, vəhyi Əliyə**

---

[903] "Səhih", Müslim, 3/1453; "Müsnəd", Əhməd ibn Hənbəl, 5/98, 101. 96-cı səhifədə isə yazılır: "...Bu din izzətli, qüvvətli, ona qarşı məkrli niyyətləri olanlara qarşı qalib olacaq, İslamdan ayrılanlar və qarşı çıxanlar ona heç bir zərər verə bilməyəcəklər". "əl-İhsan bitərtibi səhih İbn Hibban", 8/230; "əl-Möcəmul-kəbir", Təbərani, 2/195, 196.

[904] "Səhih", Müslim, 3/1453; "Müsnəd", Əhməd ibn Hənbəl, 5/76, 77, 79; "Silsilətul-əhadisis-səhihə", 2/690; "Müsnəd", Əbu Əvanə, 4/383; "Müsnəd", Əbu Yə`la, 6/282.

[905] Müəllif ilk dəfədir ki, Cəbrail barədə "Allah ondan razı olsun" (r.a) yazır. Cəbrailə "Ona salam olsun!" (Əleyhis-səlam) deməyə də dili gəlmir, burada da şiələrə bənzəməkdə inadkarlıq və müxalifliyini büruzə verir. Bəlkə də "Allah ondan razı olsun" deməklə, Cəbrailin (ə) məqamını səhablərlə eyniləşdirmək istəyir.

**(r.a) gətirməli olduğunu söyləyirlər. Lakin Cəbrail Əlidən yayınaraq vəhyi Muhəmmədə (s) (!) nazil edib və bununla da əmanətə xəyanət edib.**[906]

**Buna görə Cəbrailə nifrət edirlər. Bu da İsrail oğullarının xüsusiyyətidir. Uca Allah onların bu xüsusiyyətini inkar edərək Quranda buyurur: *"Cəbrailə düşmən olan kimsəyə de ki, onu (Quranı) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiqləyici, möminlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə o nazil etmişdir. Hər kim Allaha, Onun mələklərinə və peyğəmbərlərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz, Allah da (belə) kafirlərə düşməndir"* ("əl-Bəqərə", 97-98).**

**Uca Allah Cəbrailə qarşı düşmənçilik edənləri kafir olaraq vəsf etdi və Allahın onlara düşmən olduğunu bildirdi".**

**Cavab:** Uzun müddətli axtarış və araşdırmalardan sonra şiə məzhəbinin puç olduğu qənaətinə gəldiyini iddia edən bu müəllifə təəccübümüz bitmək bilmir. O, hələ də qədim dövrlərdən bəri şiə düşmənlərinin heç bir dəlil və sübut olmadan uydurduqları iftira və böhtanları özünə dəlil hesab edir. Özünün bu yalanına bircə dənə də olsun istinad göstərmir. Bu isə müəllifin iddia etdiyi elmi bəhs və insaf qaydalarına tamamilə ziddir. Ancaq müəllifin kitabına ümumən nəzər yetirdikdə, onun elmi bəhs qaydalarından və insafdan xəbərsiz olduğuna insanda əminlik hasil olur.

Qarşı tərəfin bu həddə həyasızcasına iftiraları insanda təəccüb doğurmaya bilmir. Halbuki şiə kitabları Cəbrailin (ə) mədhi və onun barəsində tərif ehtiva edən sözlərlə doludur. Onun adı daim ehtiram və hörmətlə yad edilir. Bu səbəbdən də iftiraçılar öz yalan iddialarının təsdiqi üçün heç bir dəlil təqdim edə bilmirlər.

Açıq-aşkar bir məsələ barəsində onların vəziyyəti bu cür olduğu halda, aşkarlığı bu həddə olmayan məsələlər barədə onların əməlləri necə olar?!

Bütün bunlar qarşı tərəfin batil, yalan, böhtan və iftira yolunu tutmaqla şiələr əleyhinə mübarizə apardığını sübut edir. Onlar öz işlərində olan azğınlıq, zəlalət və yanlış inanclarını bu cür büruzə verirlər. Çünki haqlı olan bir şəxs əsla yalan, iftira və

---

[906] Burada müəllifin bir haşiyəsi vardır. Orada yazır: "Cəbrailin (r.a) xəyanət etdiyi əqidəsi Qurabiyyə və Qeysaniyyə firqələrinə məxsusdur ki, bunlar da şiə firqələridir".

saxtakarlığa əl atmaz. Əlində dəlil olan şəxsin belə haram üslublara əl atmasına, puç “dəlillərə” sığınmasına ehtiyac yoxdur.

Əgər bunlar, müəllifin özünün də haşiyəsində qeyd etdiyi kimi, Qurabilər və Qeysanilərin etiqadıdırsa, o zaman bunun On iki imam şiələri ilə nə əlaqəsi vardır ki, bunu onlara nisbət verərək tənqid edir?!

* * *

**Müəllif iddia edir: “Şiələri İslam ümmətindən uzaqlaşdıran ən böyük yad amil onların cümə namazını tərk etmələri, yalnız məsum imamın arxasında qılınan cümə namazının icazəli olduğuna hökm vermələridir. Ancaq son vaxtlarda hüseyniyyələrdə cümə namazının qılınmasının icazəli olduğuna dair fətvalar verilməkdədir. Bu, böyük bir nailiyyətdir. Allaha həmd olsun ki, ali mərcələrimizi bu əmələ təşviq etməkdə mənim böyük xidmətim olmuşdur. Mən buna görə mükafatımı Allahdan diləyirəm”.**

**Cavab:** Fəqihlik və ictihad iddiaçısı bu məsələ ilə yad amillər arasındakı əlaqəni bizim üçün açıqlamır. Həmin yad ünsürlərin nəzərində cümə namazını tərk etməyin əhəmiyyəti nədən ibarətdir, onu da qeyd etmir.

Son vaxtlarda hüseyniyyələrdə cümə namazının qılınmasına icazə verildiyini iddia etməsi də olduqca təəccüblüdür. O, özünün böyük təşəbbüsünün verilən bu fətvalardan birini də olsa, nümunə və dəlil göstərməli idi. Amma adəti üzrə bunu etmir.

Bu məsələdə ən çox gülüş doğuran fakt fətvaların cümə namazını hüseyniyyələrdə qılınmağa təşviq etməsidir. Bu faktın öz bir daha iddiaçı müəllifin elm, alim və hövzədən nə qədər uzaq bir kəs olduğunu təsdiqləyir. Nəinki, o, şiə mühitindən tamamilə kənar şəxsdir. Şiələr, cümə namazı bir kənara dursun, özlərinin gündəlik vacib namazlarını belə hüseyniyyələrdə qılmırlar. Hamının bildiyi kimi, şiələr öz namazlarını ümumi və cümə məscidlərində qılırlar.

Eləcə də şiələrin cümə namazını yalnız məsum imamın arxasında qılmağı icazəli bildiyini söyləmək bir fəqih və ictihad iddiaçısı üçün qəribə haldır. Halbuki On iki imam məzhəb alimlərinin əksəriyyəti öz kitablarında cümə namazının İmamın (ə)

qeybdə olduğu dövrdə vacibi-eyni, məşhur alimlərimiz də cümə namazı ilə zöhr namazı arasında seçim etməklə vacibi-təxyiri olduğunu qeyd edirlər.

Şeyx Yusif Bəhrani (q.s) özünün "Hədaiqun-nazirə" kitabında yazır:

"Əshabımız arasında İmamın (ə) özünün və ya naibin olduğu halda cümə namazının vacibi-eyni olduğu barədə fikir fərqliliyi yoxdur. İxtilaf İmamın (ə) qeybdə olduğu və xüsusi naiblik üçün iznin olmadığı dövrə barədədir. Fikirlər bundan ibarətdir: Birinci; həmin dövrdə də cümə namazı vacibi-eynidir. Bu, üstün seçilmiş ayə və hədislərə dəstəklənən rəydir. Bu fikri bizim keçmiş və müasir məşhur alimlərimiz də (Allah onlardan razı olsun!) bəyan etmişlər. Onlardan biri Şeyx Müfiddir (q.s)...".[907]

Sonra cümə namazının vacibi-eyni olması barədə Əbu Səlah Hələbinin "əl-Kafi fil-fiqh", Şeyx Əbul-Fəth Kəracəkinin "Təhzibul-müstərşidin", Şeyx İmadəddin Təbərsinin "Nəhcul-ürfan ila hidayətil-iman", Şeyx Kuleyninin "əl-Kafi", Səduq kimi məşhur olan Şeyx Muhəmməd ibn Əli ibn Babəveyh Qumminin "əl-Fəqih" kitablarından sözlərini nəql edir.

Ardınca deyir: "bunlar keçmiş alimlərimizin sözləri idi. Ancaq Şeyx Şəhid Saninin dövründən bəri müasir alimlərimiz arasında bu rəyi söyləyənlərin sayı qələmlə yazılıb sayılmaqdan daha çoxdur. Bu barədə rəy bildirən qədim alimlərimizdən bəzilərinin adlarını və sözlərini qeyd etdiyimiz kimi, bir neçə müasir məşhur alimin də adını və sözlərini nəql etməkdə eyib olmaz".[908]

Sonra isə qeyb dövründə cümə namazının vacibi-eyni olduğunu söyləyən müasir alimlərimizin adlarını sadalayır: "Şəhid Sani özünün məşhur "Risalə"sində "Cümə namazı" bölümündə; Seyid Muhəmməd Amuli "əl-Mədarik"də; Şəhid Saninin şagirdi və Şeyx Bəhainin atası Şeyx Hüseyn ibn Əbdüssəmədin "əl-Əqdut-Təhmasi" adi ilə tanınan risaləsində; Şəhid Saninin oğlu Şeyx Həsənin "əl-Movsumətu bil-isna əşəriyyə" risaləsində, onun oğlu Şeyx Muhəmməd; Şeyx Fəxrəddin ibn Tərih ən-Nəcəfi həmin risalənin şərhində; Şeyx Muhəmməd Baqir Məclisi "Biharul-ənvar"da; atası Şeyx Muhəmməd Təqi bu məsələnin təhqiqinə dair yazdığı risalədə; Mövla

---

[907] "əl-Hədaiqun-nazirə", 9/378.
[908] "əl-Hədaiqun-nazirə", 9/380.

Muhəmməd Baqir Səbzəvari bu məsələnin vacibi-eyni olmasına dair yazdığı risalədə; Feyz Kaşani özünün risaləsində; Muhəmməd Baqir Damad; Seyid Macid Bəhrani və s”.

Ardınca yazır: “Xülasə, Şeyx Şəhid Sanidən bəri və risaləsinə nəzər saldığım böyük bir dəstə fəzilət sahibi və təhqiqatçı olan müasir alimlərimizin cümə namazının qeyb dövründə vacibi-eyni olduğuna hökm etdiklərini gördüm. Yalnız nadir hallarda bunun haram və ya vacibi-təxyiri olduğuna fətva verən şəxslər vardır. Belə ki, bu, alimlərlə ünsiyyəti olan, onların həyatın və əhvallarından xəbərdar olan şəxslərə əsla gizli deyildir”.[909]

Seyid Muhəmməd Cavad Amuli (q.s) özünün “Məfatihul-kəramə” kitabında yazır:

“Birinci rəy İmamın (ə) qeybdə olduğu dövrdə cümə namazının vacibi-eyni olduğudur. Bu rəyi Şəhid Sani özünün “Risalə”sində, oğlu öz “Risalə”sində, həmçinin nəvəsi, eləcə də Şeyx Nəcibuddin və Mövla Xorasani öz kitablarında, Kaşani “əl-Məfatuh”, “əş-Şihabus-saqib” və “əl-Vafi”də, Şeyx Süleyman “Risalə”sində, həmçinin Seyid Əbdüləzim, şeyx Əhməd Xətti, mövlamız Hürr “Vəsaildə, mövlamız Şeyx Əhməd Cəzairi “əş-Şafiyə”də, “əl-Hədaiq”in müəllifi, eləcə də Seyid Əli Sayiğ üstün rəy saymış, Şeyx Müfidin “əl-Muqniə” və “Kitabul-əşraf”ına nisbət verilməklə “əz-Zikra”da bir ehtimal olaraq, həmçinin Əbul-Fəth Kəraciyə, Əbu Səlah Təqiyə, “əl-Muqni” və “əl-Əmali”dən Şeyx Səduqun zahir rəyinə, “ət-Təhzib”də Şeyxə, eləcə də Şeyx İmadəddin Təbərsiyə... nisbət verilmişdir”.[910]

Cümə namazının İmamın (ə) qeybdə olduğu dövrlərdə vacibi-təxyiri olduğunu söyləyən alimlərin sayı da daha çoxdur. Bəlkə də bu rəy onların nəzərində məşhurdur.

Cavad Amuli “Məfatihul-kəramə”də yazır: “Dördüncü rəy: Fəqih heç bir şərti olmadan vacibi-təxyiri hökmündür. Buna gah icazəli, gah da müstəhəbb deyilir. “ət-Təzkirə”də, “Ğayətul-murad”da qeyd edildiyi kimi, məşhur, “əz-Zikra”da bildirildiyi

---

909 “əl-Hədaiqun-nazirə”, 9/397.
910 “Məfatihul-kəramə”, 3/57.

kimi böyük əksəriyyətin rəyi, "ər-Rovz", "əl-Məqasidul-əliyyə", "əl-Mahuziyyə" və "Riyazul-məsail" əksərin rəyi, "Ğayətul-murad", "əl-Xilaf", "əl-Ətba"da, həmçinin Əbu Səlahın, "əl-Mötəbər"də Mühəqqiqin, "əl-Müxtələf"də də Müsənnifin son fətva dediyi rəydir. "əl-Məqasidul-əliyyə" qeyd olunur ki, qeyb dövründə ümumi naiblə və eləcə də başqasının imamlığı ilə olsa, vacibi-təxyiridir, vacibi-eyni deyildir. Əshab da bunun üzərində icma edib. Bu "ən-Nihayə"də, əl-Məbsut"da, "əl-Misbah"da, "Camiuş-şəraye"də, "ən-Nafi`"də, "əl-Mötəbər"də, "ət-Təxlis"də, Şəhidin "əl-Həvaşi"sində, "əl-Bəyan"da, eşitdiyin kimi, "Ğayətul-murad"da, "əl-Mucəzul-Havi"də, "əl-Müqtəsər"də, "əl-İrşad"ın şərhində, "əl-Meysiyyə"də, "ər-Rovz"də, "əl-Məqasidul-əliyyə"də, "Təmhidul-qəvaid"də, "əz-Zikra"da (onun sözlərini də oxudun, qarşıda başqa fikirlərini də qeyd edəcəyik) üstün seçilən rəy, "Kəşful-iltibas"da, "Ğayətul-məram"da isə zahir və ya aydın rəydir və əl-Qazidən, həmçinin Müfiddən, Təqidən... nəql edilir...".[911]

Əgər şiə fəqihlərinin sütunları sayılan bu şəxslər cümə namazının eyni və ya zöhrlə cümə namazı arasında seçim ixtiyarı ilə vacib olduğuna hökm etmişlərsə, müəllifin şiələrin yalnız məsum imam hazır olduğu zaman cümə namazını vacib bildikləri iddiası nə dərəcə düzgün sayıla bilər?! Xüsusilə də cümə namazını təşkil etməyin müstəhəbb olduğu onların nəzərində məşhur rəy olduğu halda?!

Əllamə Hilli özünün "Təzkirətul-füqəha" kitabında yazır: "Qeyb dövründə iki xütbəni birlikdə söyləmək imkanı yarandığı mömin fəqihlərin cümə namazı qıldırmaları vacibdirmi? Alimlərimiz bunun vacib olmadığını bildirmişlər, ancaq müstəhəbb olduğuna dair fərqli fikirlər səsləndiriblər, məşhur da budur (müsətəhəbb olmasıdır)".[912]

* * *

**Müəllif iddia edir: "İndi mən soruşuram: Min ildən artıq müddətdə bu vaxtadək olan nəsilləri cümə namazından kim məhrum edib? Hansı gizli əl öz hiyləgərliyi və qüdrətilə şiələrə cümə namazını qadağan edib? Halbuki cümə namazının vacibliyinə dair açıq-aydın Quran ayəsi mövcuddur".**

---

911 "Məfatihul-kəramə", 3/57.
912 "Cəvahirul-kəlam", 11/179.

**Cavab:** Şiələrə cümə namazı qılmağı dövrün özünü müsəlman sayan zalım hakimləri qadağa qoymuşdular. Bunu İslam ümmətinin keçmiş tarixindən xəbərdar olan hər kəs bilir. Əgər nəticələrindən qorxmasaydım, möhtərəm oxucu üçün bu kitabda sözlərimə dəlalət edən hadisələri geniş şəkildə qeyd edərdim. Ancaq mən yalnız şairin sözlərini təkrarlayıram:

Qurbağa bir söz dedi,
Hakimlər onu təsdiqlədi.
"Mənim ağzımda su vardır,
Ağzında su olan danışa bilərmi?"

Ancaq məsələlərə diqqət yetirən və bəsirət gözü ilə baxan şəxs görəcək ki, zalım hakimiyyətlər hətta əhli-sünnəni də cümə namazının fayda və mənfəətlərindən məhrum etmişlər. Çünki onlar cümə namazını qılmaq üçün özlərinə loyal olan və əmrlərinə itaət edən kəsləri imam təyin edir, öncədən tərtib etdikləri xütbələri onlara oxutdururlar. Bu xütbələr hansı faydanı verəcək?! Belə bir cümə namazının cəmiyyətə nə təsiri olacaq?!

* * *

**Müəllif iddia edir: "Hələ də gizli və xəbis əllər öz zəhərini yaymaqdadır. Bu günlərdə hövzə rəhbərliyi fəsad və zülmün artırılmağın və insanlar arasında yayılmağın vacibliyi barədə təlimatlar verməyə başlamışdır. Çünki Yer üzündə fəsad və zülmün çoxluğu İmam Mehdinin – Qaimin sərdabədən (!) zühurunu tezləşdirməlidir".**

**Cavab:** Bu da müəllifin öz kitabında cızma-qara etdiyi çoxsaylı aşkar yalanlarından biridir. Aydın məsələdir ki, elmi hövzə rəhbərlikləri insanları qəbahətli işlərə və günahlara bulaşmağa əsla təşviq etməz. Əməli risalələr və ümumən alimlərimizdən nəql edilən fətvalar bu cür aşkar iftiralara ziddir. Ona görə də böhtan dolu iftirasını təsdiqləyə biləcək bircə dənə də olsun dəlil göstərə bilmir, həmin iddia olunan təlimatların mətnini belə nəql etmir.

Hərçənd bu gün dünya zülm və fəsadla doludur. Əgər İmamın (ə.f) zühuru üçün Yer üzünün zülm və fəsadla dolmasını qiyamı üçün ön şərt kimi qəbul etsək, dünyada bundan artıq zülm və fəsada heç bir ehtiyac qalmaz.

Hər bir mükəlləf şəxsin şəri vəzifəsi Allahın əmrlərini yerinə yetirmək və qadağalarından çəkinməkdir. Ancaq İmam mehdinin (ə) zühuruna gəldikdə, bu, onun öz vəzifəsidir. Mükəlləflərin onun zühuru üçün hər hansı bir müqəddimələri hazırlamaq öhdəlikləri yoxdur.

Əgər müzakirə xatirinə, günah işləməyi İmamın (ə.f) zühurunun müqəddimələrindən biri kimi qəbul etsək, heç bir möminə bu günahlardan hər hansı birinə bulaşmaq icazəli deyildir. Çünki İmam Mehdinin (ə) məhz bu əsrdə zühur etməsinin vacibliyi məlum deyildir. İş belə olduğu halda, zühurun müqəddiməsini hazırlamaq necə vacib ola bilər?! Əgər bu əsrdə zühurun vacib olduğunu fərz etsək, o zaman zühurun müqəddiməsini hazırlamaq da bizim deyil, İmamın (ə) vəzifəsidir.

Haram əməllərin zühurun müqəddimələrindən ola biləcəyi ağıla sığan fikir deyildir. Məsələ tamamilə əksinədir. Belə ki, əgər insanlar doğru yolda və təqvalı olsalar, Allah Öz rəhmətini onlara göndərər və onları nemətlərilə əhatə edər ki, bu nemətlərdən biri də haqq və ədalət dövlətinin bərqərar olmasıdır. Həmçinin insanlar kafir olub tüğyan etsələr, Allah da onlara Öz intiqamını nazil edər və əzabını onlara göndərər.

Ona görə də, İmam Mehdinin (ə) zühurunun tezləşməsi üçün fəsad və günah əməllərin yer üzündə yayılmasının vacibliyinə dair bir müctəhidin fətvasını görməmişik. Çünki belə bir fikir, fəzilət əhli bir kənarda dursun, heç aqil bir şəxsdən qaynaqlanmaz ki, hələ bu da elmi hövzə rəhbərliyinə nisbət verilsin!

Gizli deyil ki, belə sözlər yalnız fasiq və günahkar kəslərin düşüncələridir ki, bununla da onlar öz çirkin və haram əməllərinə bəraət qazandırmağa səy göstərirlər.

* * *

**Müəllif iddia edir: "Şiələrin çoxu da bu dəvətə müsbət cavab vermiş, bu təlimatlara uyğun davranmış və hər cür günaha bulaşmışlar. Seyid Bürucerdi Bağdadın əs-Sovrə məntəqəsində bu işlər nəzarət edirdi. Belə ki, əs-Sovrənin küçələri ilə gedən bir kəs gözəl görünüşlü bir qadına baxdıqda bir-birlərinə təbəssüm edər və göz vuraraq işarə verərdilər".**

**Cavab:** Bu da uydurulmuş aşkar bir yalandır. Onun bu yalanını öz nağılında Seyid Bürucerdinin adını çəkməsi ələ verir. Belə ki, Seyid Bürucerdi (q.s) 1380-ci

ildə (miladi 1961-ci il) Qum şəhərində vəfat etmişdir. O, şiələrin böyük fəqih mərcələrindən biri idi. Onun mərcəliyi dövrlərində İraqda hər hansı bir ictimai fəaliyyəti barədə qeyd yoxdur. Bəs bunlar nə iddiadır?!

Həmçinin əs-Sovrün sakinləri də orada yaşayan belə adda bir şəxs tanımırlar.

Seyid Bürucerdi və ya başqa bir şəxsin camaat arasında fəsad və günahın yayılmasında nəzarəti öz üzərinə götürdüyünü iddia edən bu müəllifə insanın təəccübü bitmək bilmir! Görəsən, müəllif heç özü-özündən soruşurmu ki, camaat arasında fəsadın yayılması üçün bir kəsin nəzarəti lazımdırmı?!

Fəqihlik və ictihad iddiaçısı olan bu müəllif belə qəbahətli və günah işlərin baş verdiyini haradan və necə bilib? Hərçənd onun öz gözü ilə şahid olduğunu iddia etməsi əsla əxlaqla bir insana yaraşan hal sayılmaz!

* * *

**Müəllif iddia edir: "Hövzə rəhbərlikləri bununla kifayətlənmirdilər, bu fəsadı bütün İraq ərazisinə yaymağa səy göstərirdilər. Bu məqsədlə böyük sərnişin avtobusları kirayə götürür, İraqın şimal bölgələrinə turist səfərləri təşkil edir və cənub bölgəsinin ailələrini şimala səfər etməyə rəğbətləndirirlər. Bu ailələr arasında yaşlı və pal-paltarı köhnəlmiş şəxsləri də görmək olurdu. Onları şam yeməyi üçün pul tapmırdılar, istirahət mərkəzlərinə turistik səfərlərə pulları haradan olacaqdı?! Belə ailələri gözəl qızlar müşayiət edirdi. Avtobus məntəqələrdən birinə - xüsusən Səlahəddin, Tikrit, Mosul, Dəhuk, Ərbil, Kərkükə çatdıqda səyahətçilər bir müddət orada qalırdı. Qızlar isə şəhərin bazarlarına düşür, özlərini oradakı gənc oğlanlara təklif edir və onlarla "haram sazişlər" bağlayırdılar. İstirahət mərkəzlərində qaldıqları müddətdə ailələrin etdiklərinə gəldikdə, orada baş verənləri sadəcə dillə vəsf etmək mümkünsüzdür".**

**Cavab:** Bu da müəllifin öz kitabını doldurduğu iftira və yalanlarından biridir. Bu yalanları ona dünyada rüsvayçılıq, axirətdə isə xarlıq və cəza gətirəcək!

Anlaşılan, müəllif bunu demək istəyir: Şiə gənc qızlar fəsad yaymaq üçün İraqın şimalında yerləşən əhli-sünnə mənsublarının yaşadıqları məntəqələrə gedirlər. Belə ki, əks təqdirdə, fəsadın yayılması üçün gənc qızların həmin bölgələrə getməsinə

ehtiyac qalmaz. Xüsusilə də, müəllifin iddia etdiyi kimi, bu qızlar çox kasıb ailələrdəndirlər. İndi soruşaq, məgər Nəcəf, Kərbəla, Hillə, Nasiriyyə, Ümarə, Bəsrə və İraqın şiələr yaşayan digər məntəqələri fəsad və günahla doludurmu ki, indi də növbə əhli-sünnə mənsublarının məskunlaşdığı məntəqələrə yetişsin?!

Bundan əlavə, fəqihlik və ictihad iddiaçısı olan bu müəllif həmin istirahət mərkəzlərində ailələrin arasında nələrin baş verdiyinə necə şahid olub ki, hətta onların sadəcə dillə vəsf edilməsini belə mümkünsüz sayır?! Halbuki xeyirxah, saleh, xüsusilə də tələbə və alimlər əsla həmin məkanlara getmirlər ki, həmin günah və fəsadlara da şahidlik etsinlər. Həmçinin sözünə etimad bəslənilən möminlər də həmin mərkəzlərdə dincəlmirlər ki, bunu onlardan eşitmiş olduğunu iddia etsin. Bəs müəllif belə rüsvay əməllərə harada və necə şahid olub?!

* * *

**Müəllif iddia edir: "Bu təlimatların verilməsinin məqsədi fəsadın yayılması və şəhərlərin əxlaqi tənəzzülə düçar olmasıdır. Ancaq Qaim kimi tanınan on ikinci imam Mehdinin (ə.f) zühuruna gəldikdə, mən inanıram ki, onlar həmin imamın mövcud olmadığını anlayırlar!!!**

**Bu gizli və xəbis əllərin etdiklərinə bir baxın! Görün, onlar nələr ediblər!"**

**Cavab:** Yuxarıda qeyd etdik ki, ortada nə bir təlimat və nə də bir əmr mövcuddur. Bütün bunlar aqil şəxsə gizli qalmayacaq aşkar yalanlardır.

Şiələrin İmam Mehdinin (ə) mövcud olmadığını anladıqlarına müəllifin inanmasına gəldikdə, bu da növbəti yalandır. Çünki şiələr, Allaha həmd olsun ki, İmam Mehdinin (ə) mövcudluğuna və bu əsrin imamı olduğuna qətiliklə inanırlar. Bunları isbatlayacaq səhih dəlillər mövcuddur.[913]

Nəinki, hətta bir dəstə əhli-sünnə alimi də vəd olunan Mehdinin İmam Həsən Əskərinin oğlu Muhəmməd olduğunu və bu günədək yaşadığını etiraf etmişlər. Baxmayaraq ki, bu bir çox əhli-sünnə aliminin etiqadına müxalifdir, lakin bəzi alimlər özlərinin bu əqidəsini müdafiə etmiş və öz kitablarında qeyd etmişlər.

Belə alimlərdən bir neçəsini sadalayaq:

---

[913] Bizim "Bu əsrdə müsəlmanların xəlifəsi kimdir?" adlı kitabımıza müraciət edin. Orada məsələ ilə bağlı çoxlu faydalı məlumatlar vardır.

1. Muhəmməd ibn Təlhə Şafei (h.582-652; m.1187-1254).[914] Bunu özünün "Mətalibus-səul" kitabının 12-ci fəslində qeyd edir.[915]

2. Muhəmməd ibn Yusuf ibn Muhəmməd əl-Kənci Şafei (vəfatı h.658; m.1260).[916] Bunu özünün "əl-Bəyan fi əxbari sahibiz-zəman" kitabının 25-ci "Mehdinin diri olaraq qalmasının dəlilləri" fəslində qeyd edir.[917]

3. Muhyiddin ibn Ərəbi (h.560-638; m.1165-1241).[918] Bunu özünün "Futuhatul-Məkkiyyə" kitabının 366-cı fəslində qeyd edir.

4. Sibt ibn Cövzi (h.581-654; m.1186-1256).[919] Bunu özünün "Təzkirətul-xəvass" kitabının "İmam Mehdi" başlıqlı fəslində qeyd edir.[920]

5. Səlahəddin Səfidi (h.696-764; m.1297-1363).[921] Bunu "əd-Dairə" kitabına yazdığı şərhdə qeyd edir.[922]

6. İbn Səbbağ kimi tanınan Əli ibn Muhəmməd əl-Maliki (h.784-855; m.1383-1451).[923] Bunu özünün "əl-Fusulul-muhimmə" kitabının 12-ci fəslində qeyd edir.[924]

---

914 Zəhəbinin "Kitabul-ibər fi xəbəri mən ğəbər" (3/296), əs-Səbkinin "Təbəqatuş-şafeiyyə" (8/63), "Şəzəratuz-zəhəb" (5/259) və "əl-Bidayətu vən-nihayə" (13/198) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz.

915 "Mətalibus-səul", 2/152.

916 "əl-Vafi bil-vəfəyat" (5/254), "Möcəmul-muəllifin" (12/134), "əl-Ə`lam" (7/150) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz.

917 "əl-Bəyan fi əxbari sahibiz-zəman", səh.97.

918 "Mizanul-i`tidal" (3/659), "əl-Vafi bil-vəfəyat" (4/173), "Vəfəvatul-vəfəyat" (3/435), "Lisanul-mizan" (5/311), "Şəzəratuz-zəhəb" (5/190), "Camiu kəramatil-övliya" (1/118), "Dairətul-məarifil-islamiyyə" (1/231), "Siyəru ə`lamin-nübəla" (23/48) və "əl-Ə`lam" (6/281) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz.

919 "Şəzəratuz-zəhəb" (5/266), "əl-Ə`lam" (8/246), "Mizanul-i`tidal" (4/471), "əl-Vəfəyatul-ə`yan" (3/142) və "əl-Bidayətu vən-nihayə" (13/206) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz.

920 "Təzkirətul-xəvass", səh.325.

921 "Təbəqatuş-Şafiiyyətul-kubra" (10/5), "Şəzəratuz-zəhəb" (6/200), "əl-İbər fi xəbəri mən ğəbər" (4/203), "əl-Bidayətu vən-nihayə" (14/318), "əl-Ə`lam" (2/315), "Möcəmul-muəllifin" (4/114) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz. Həmçinin onun tərcümeyi-halının "İbn Həcərin "əd-Durərul-kaminə" (2/87, 88), İbn Tuğri Bərdinin "ən-Nucumuz-zahirə" (11/19-21) və Şövkaninin "əl-Bədrut-tali" (1/243, 244) kitablarında da qeyd edildiyi bildirilir.

922 "Yənabiul-məvəddə" kitabında, səh.471.

7. Muhəmməd ibn Əli ibn Tulun (h.880-953; m.1476-1546).[925] Bunu özünün "On iki imam" kitabında nəzmə çəkdiyi misralarda belə ifadə edir:

Yaradılmışların ən yaxşısı Mustafanın

Ailəsindən olan on iki imama vacib bil:

Əbu Turab, Həsən, Hüseyn,

Zeynulabidinə nifrət şərəfsizlikdir,

Muhəmməd Baqir nə neçə-neçə elmlər bilirdi,

Sadiqi xeyirxahlar arasında Cəfər deyə səslə.

Musa – o, Kazımdır, oğlu Əlidir ki,

Ləqəbi Rza, qədri uca.

Muhəmməd Təqinin qəlbi abaddır,

Əliyyən-Nəqi səpələnmiş incidir.

Həsən - pak əl-Əskəridir,

Muhəmməd Mehdi isə zühur edəcəkdir.[926]

8. Əbdülvəhhab Şə`rani (h.898-973; m.1493-1566).[927] Bunu özünün "əl-Yəvaqit vəl-cəvahir fi əqaidil-əkabir" kitabının ikinci cildinin 65-ci fəslində qeyd edir. Qarşıda onun sözlərinin mətni nəql olunacaq.

Mirzə Hüseyn Nuri (q.s) özünün "Kəşful-əstar" kitabında əhli-sünnə alimlərindən qırx nəfərinin öz kitablarında İmam Muhəmməd ibn Həsən əl-Əskərinin intizarla gözlənilən Mehdi olduğunu etiraf etdiklərini bildirir. Halbuki Mirzə Hüseyn Nuri həmin sözləri yazarkən müxtəlif ölkələrdə olan digər əhli-sünnə müəlliflərinin kitablarında da araşdırma aparmağa imkanın olmadığını və bu cəhətdən mənbə qıtlığı

---

923 Zirkəlinin "əl-Ə`lam" (5/8), eləcə də "Möcəmul-muəllifin" (7/178) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz.

924 "əl-Fusulul-muhimmə", səh.286, 287.

925 "Şəzəratuz-zəhəb" (8/298), "əl-Kəvakibus-sairə" (2/52), "əl-Ə`lam" (6/291) və "Möcəmul-muəllifin" (11/51) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz.

926 "əl-Əimmətul-isna əşər", səh.118.

927 "Şəzəratuz-zəhəb" (8/372), "əl-Ə`lam" (4/180), "Möcəmul-muəllifin" (6/218) və "Camiu kəramatil-övliya" (2/134) kitablarında onun tərcümeyi-halı ilə tanış ola bilərsiniz.

yaşadığını da vurğulayır. Bəlkə də daha artıq mənbəyə müraciət edən şəxslər bundan daha artığına rast gələ bilərlər.[928]

Bunlardan əlavə, bir çox böyük şiə alimi və fəzilətli şəxsləri, Allaha həmd olsun ki, İmam Mehdi (ə.f) doğulduğu vaxtdan bəri - onun atası Həsən Əskərinin (ə) imamlığı dövründə, eləcə də İmamın (ə) kiçik və böyük qeyb dövrlərində onunla görüşməyə nail olmuşlar. Şiə alimləri öz kitablarında etibarlı və inanılan şəxslərdən İmam Mehdi (ə) ilə görüşlərə dair çox sayda rəvayətlər nəql etmişlər. Mərhum Mirzə Hüseyn Nuri hətta “Cənnətul-Mə`va fi zikri mən fazə biliqail-Huccəti (ə) fi ğeybətihil-kubra” (Böyük qeyb dövründə Höccətlə (ə) görüşə nail olanların qeyd edildiyi Məva bağçası”) adlı kitab qələmə almış, orada İmamla (ə) görüşən alim və digər şəxslərin çox sayda istinadlı sözlərini nəql etmişdir. Bu kitabı Əllamə Məclisinin “Biharul-ənvar” kitabının 52-ci cildinin tamamlayıcısı (müstədrəki) xarakteri daşıyır. Orada çox sayda geniş mətnli rəvayətlər vardır. Bu kitab həm 53-cü cild kimi, həm də müstəqil olaraq çap edilmişdir.

Həmçinin bəzi əhli-sünnə alimləri də Mehdini gördüklərini və onunla görüşdüklərini etiraf etmişlər. Əbdülvəhhab Şə`rani özünün “əl-Yəvaqit vəl-cəvahir” kitabının ikinci cildinin 65-ci fəslində yazır: “...Ta ki, din başladığı ilk gündə olduğu kimi qəribə çevriləcək... Həmin vaxt Mehdinin ortaya çıxacağı gözlənilir. O, İmam Həsən Əskərinin (ə) övladıdır, hicri 255-ci il Şaban ayının 15-ci gecəsi doğulmuşdur və Məryəm oğlu İsa ilə birlikdə gələnədək diri olaraq qalmaqdadır. Hazırkı zamanda – yəni 958-ci ildə onun yaşı 706-dır. Bunu mənə İmam Mehdi ilə görüşmüş Misirdə dəfn olunan Şeyx Həsən əl-İraqi bildirmişdir. Şeyximiz Seyid Əli əl-Xəvass da (Allah onların ikisinə də rəhmət eləsin!) təsdiqləmişdir”.[929]

İmam Mehdinin (ə) uzun qeyb dövründə diri olaraq qalmasının isbatı başqa bir bəhsin mövzusudur. Məsələ ilə bağlı adlarını qeyd etdiyimiz bəzi əhli-sünnə alimlərinin sözləri bizim bəhsimiz üçün dəlil olaraq yetərlidir. Onların arasında əl-Kənci Şafeinin “əl-Bəyan fi əxbari sahibiz-zəman”, İbn Təlhə Şafeinin “Mətalibus-

---

[928] “Kəşful-əstar”, səh.89.

[929] “əl-Yəvaqitu vəl-cəvahir”, 2/562. Bu sözləri Şeyx Muhəmməd Əli Səbban özünün “İs`afur-rağibin” (səh.154) kitabında nəql edir.

səul” və s. bunu qeyd edirlər.[930] Bu mövzunu “Məsailu xilafiyyə” və “Mən huvə xəlifətul-musliminə fi hazəl-əsr?” kitablarımızda sübuta yetirmişik. Diləyən şəxslər oraya müraciət edə bilərlər.

---

[930] “əl-Bəyan fi əxbari sahibiz-zəman”, səh.97-111; “Mətalibus-səul”, 2/155-162.

## Tamamlama

**Müəllif iddia edir: “Bu acı həqiqətlərlə uzun tanışlıq yolunu geridə qoyduqdan sonra mən nə etməli idim?**

**Həmin şəhərdə və öz vəzifəmdə qalıb sadəlövh insanlardan xüms və hərəmlər üçün ianələr adı altında özüm üçün böyük sərvət toplayım, bahalı avtomobillərdə gəzim (!) və gözəl qadınlarla mütə nikahı bağlayım, yoxsa rəzil dünya cilvələrini tərk edərək bu haramlardan uzaqlaşım və haqqı aşkar şəkildə söyləyim? Belə ki, haqqı söyləməyib susan şəxs lal şeytandır”.**

**Cavab:** Möhtərəm oxucu üçün aydın olmuşdur ki, müəllifin “acı həqiqətlər” adlandırdığı faktlar onun tərəfindən uydurulmuş və ya saxtalaşdırılmış yalan və iftiralardır. Çünki o, öz iddialarının doğruluğuna dair dəlil ola sayıla biləcək bir səhih fakt təqdim etməmiş və söylədiyi hekayələrin düzgünlüyü sübuta yetməmişdir.

Əksinə, möhtərəm oxucuya müəllifin alim deyil, heç şiə olmadığı aydınlaşmışdır. Nəinki, o, iftiraçı və içi nifrətlə dolu bir kəsdir. Öz məqsədinə çatmaq üçün hədislərdən ona fayda verə biləcəyini düşündüyü hissələri götürür, qalan hissəsini isə oxucudan gizləyir. Ancaq həmd olsun ki, Allah onun saxtakarlığının üstünü açır, fırıldaqlarını aşkara çıxarır və onun həqiqətini bütün çılpaqlığı ilə işıqlandırır.

Müəllifin özü üçün qeyd etdiyi vəzifə bəs nədən ibarətdir?

Yoxsa müəllif özünün elmi və ya ictimai məqamını vəzifə hesab edir?

Əgər müəllif öz həqiqi adını açıqlamırsa, özünün də kitabın ilk səhifələrində qeyd etdiyi kimi, Allahdan savab diləyərək Nəcəful-Əşrəfdə qalıb, burada çalışmağa qərar vermişsə, bəs o zaman öz vəzifəsini necə tərk edəcək? Halbuki, özünün iddiasına əsasən, o, hələ də zahirdə şiə alimi, daxildə isə onlara düşmən olaraq qalmaqdadır!

Möhtərəm hərəmlərə verilən ianələrin alimlərə heç bir aidliyi yoxdur. Onları dövlət toplayır və özünün münasib bildiyi istiqamətlərdə xərcləyir. Bunu hər kəs bilir.

Bəs fəqihlik və ictihad iddiaçı bu şəxsə hamıya aydın olan bir məsələ necə gizli qala bilər?!

* * *

**Müəllif iddia edir: "Şiəliyi yəhudi əsilli Abdullah ibn Səbanın təsis etdiyi və müsəlmanlar arasında parçalanma yaratdığını, onları sevgi və imanın birləşdirdiyi halda, aralarına kin və nifrət yerləşdirdiyini bildim. Həmçinin babalarımız olan Kufə əhlinin Əhli-Beytə qarşı necə rəftar etdiklərini, kitablarımızdan İmamların tənə və təhqir edildiyini, Əhli-Beytin də şiələrdən şikayət və bezarlıq ifadə etdiklərini oxudum. Onların həqiqətini bəyan etmək üçün Möminlərin əmirinin (r.a) sözləri yetərlidir: "Əgər şiələrimi digərlərindən ayırmaq istəsəm, onların yalnız özlərini şiəliyə bağladıqlarını (!) görərəm. Əgər onları imtahan etsəm, bu zaman mürtəd olduqlarını görərəm. Əgər onları seçmək istəsəm, min nəfərindən yalnız biri ixlaslı qalar" ("əl-Kafi", 8/338).**

**Onların Allahın inkar etdiklərini də bildim. Belə ki, Uca Allah Qurani-Kərimə heç bir məkrli əlin toxunmayacağını və buna heç vaxt qadir olmayacaqlarını buyurmuşdur. Çünki onu qorumağa Allahın Özü zamindir. Ancaq bizim alimlərimiz Quranın təhrif edildiyini söyləyir, bununla da Allah sözünü inkar etmiş olurlar. Bəs mən kimi təsdiqləyim, Allahı, yoxsa alimlərimizi? Həmçinin mütə nikahının haram olduğunu, lakin fəqihlərimizin onu mübah qıldığını öyrəndim. Bu mübahlıq özü ilə digər məsələləri də gətirdi və sonda yeniyetmələrlə homoseksual əlaqələrlə yekunlaşdı!**

**Eləcə də şiələrə xüms ödəməyin, onu fəqihlərə və müctəhidlərə verməyin də vacib olmadığını bildim. Əksinə, xüms Qaim zühur edənədək onlara halaldır. Lakin fəqihlərimiz xümsü ayırıb ödəməyi camaata vacib ediblər. Bu isə onların (fəqihlərimizin) şəxsi mənfəətləri üçündür.**

**Əvvəlki fəsillərdə izah etdiyimiz kimi, şiəlik üzərində gizli və məkrli əllər saxtakarlıqlar etdiyini də gördüm. Bütün bunlardan sonra şiəlikdə nə qalır? Ona görə də Muhəmməd ibn Süleyman atasında nəql edir: "Əbu Abdullaha (r.a) dedim: "Sənə fəda olum, bizə elə bir ləqəblər qoyulmuşdur ki, bu bizim**

**çiynimizdə ağır yükə çevrilmiş, qəlblərimizi öldürmüş, fəqihlərinin rəvayət etdikləri hədisə görə hakimlər bizim qanımızı axıtmağa icazəli bilmişlər”.**

**Əbu Abdullah (r.a) dedi: “Rafizi (inkarçı) ləqəbini deyirsən?” Mən “Bəli” deyə cavab verdim.**

**Buyurdu: “Xeyr, Allaha and olsun, sizi onlar deyil, Allah rafizi adlandırmışdır” (“Rovzətul-kafi”, 5/34).**

**Əgər Əhli-Beyti inkar etdiklərinə görə onların rafizi olduqlarına və onları Allahın belə adlandırdığına Əbu Abdullahın özü şahidlik edirsə, məni onların arasında qalmağa nə vadar edə bilər?”**

**Cavab:** Bütün bunlar müəllifin nəticədə özünün iddia etdiyi qənaətlərdir. Bu iddialarının hər birinə təfsilatı ilə irad və cavab bildirdik, oradakı yalan və iftiraları aşkara çıxardıq. Burada həmin iddialara olan cavabları təkrarlamağa lüzum görmürük.

Müəllif bu anadək onu şiə məzhəbindən uzaqlaşmağa vadar edən bir çox amil qeyd etmişdir. Halbuki bu amillərin heç biri ondan məzhəbdən üz çevirməyi tələb etmir. Məsələn İmamın (ə.f) qeyb dövründə xüms ödənməsi haqda fəqihlərin fətvası, Quranın təhrif ediləsinə dair sözləri, mütə nikahını halal elan etmələri və s. Çünki, əgər o, özünün iddia etdiyi kimi, ictihad sahibi fəqihdirsə, o zaman bəzi fəqihlərimiz kimi, o da qeyb dövründə xümsün şiələrin öhdəsindən götürülməsinə dair fətva verməsi və ümumən şiə fəqihlərinin bəyan etdikləri kimi, Quranın təhrif edilmədiyinə etiqad bəsləməsi mümkündür.

* * *

**Müəllif iddia edir: “Müfəzzəl ibn Ömərdən nəql olunur: “Əbu Abdullahın belə dediyini eşitdim: “Qaim qiyam etdikdə şiə yalançılarını müəyyən edib qətlə yetirəcək” (“Rical”, Kəşşi, səh.253, İbn Xəttabın (!) tərcümeyi-halı). Bəs nə üçün şiə yalançılarını müəyyən edib onları qətlə yetirəcək?**

**Hamıdan öncə onları atdıqları iftiralara, mütə nikahı və livatı din qərar verdiklərinə, malların xümsünü ayırmağı vacib bildiklərinə, Quranın təhrif edildiyini söylədiklərinə, Allahın bəda etdiyini, İmamların Yer üzünə qayıdacağını (rəcət edəcəklərini) iddia etdiklərinə görə qətlə yetirəcək. Bütün**

**seyidlər, fəqih və müctəhidlər bu əqidələrə inanmaqdadırlar. Bəs Qaimin (Allah onun zühurunu tezləşdirsin!) qılıncından onları kim xilas edəcək?!”**

**Cavab:** Bu rəvayətin sənədinə göz yumub, doğruluğunu fərz edək. Müəllif bu hədisi daşıdığı mənadan fərqli mənada təqdim etmiş və öz istəyinə müvafiq yozmuşdur.

Şiə ümumi bir isimdir ki, özündə On iki imam, İsmaili, Zeydi və digər şiələri birləşdirməkdədir. Həmçinin özünü yalandan şiə adlandıranlara, sonra isə Əhli-Beyt yolundan yayınanlara da şamil olur. Məsələn Əbul-Xəttab, Müğeyrə ibn Səid, Əhməd ibn Hilal, İbn Əbul-Əzaqir kimi Əhli-Beyt (ə) yolundan üz çevirmiş, lakin şiəlik iddiasında olan şəxsləri də ehtiva etməkdədir. Halbuki Əhli-Beyt onlardan uzaqdır. Ona görə də Kəşşi bu rəvayəti Əbul-Xəttab kimi tanınan “Muhəmməd ibn Əbu Zeynəb... barədə rəvayət olunanlar” başlığı altında nəql edir. Xəttabiyə adlandırılan firqə məhz ona nisbət verilir. İmam Sadiqin (ə) onu lənətlədiyi, bəddua etdiyi və ona əzablı ölüm arzuladığı barədə rəvayətlər nəql olunmuşdur.

Cəfər ibn İsa ibn Übeyd və Əbu Yəhya əl-Vasitinin mötəbər hədislərində deyilir: “Əbul-Həsən Rza (ə) buyurdu: “Bir tacir Əli ibn Hüseynin (ə) adından yalan uydururdu. Allah ona əzablı ölüm daddırdı. Müğeyrə ibn Səid İmam Əbu Cəfərə (ə), Əbul-Xəttab da Əbu Abdullaha (ə) yalan sözlər nisbət verirdi, Allah onlara da rüsvayedici ölümü daddırdı. Mənim adımdan yalan uyduran isə Muhəmməd ibn Furatdır”.[931]

Deməк, yalançılar - İmamların (ə) adından yalan uyduranlar, onların vəkilləri və ya elçiləri olduqlarını iddia edənlər, yaxud onlar barəsində həddi aşanlar, onlara batil, azğın fikirlər nisbət verməklə şiələrə azdırmağa və şəriətlərini zay etməyə səy göstərənlərdir. İmamlar (ə) onları lənətləmiş, onların kafir olduqlarına hökm etmiş və onlardan uzaq olduqlarını bildirmişlər.

Onlar hədisin qeyd etdiyi həmin yalançılardır, bunlar İmamlardan hədislər rəvayət edən və onlardan elm öyrənən, sözlərinə tabe olan, onların fikirlərini gizlində və aşkarda yayanlar deyillər. Çünki sonuncuları İmamlar (ə) özləri də hədislərində mədh və tərif edirlər. Zürarə, Muhəmməd ibn Müslim, Büreyd əl-İcli, Əbu Bəsir və

[931] “Əxbaru mə`rifətir-rical”, 2/591.

digər böyük ravilər məhz belə şəxslərdəndir. Onların mədh və tərifi haqqında bir çox hədislər söylənmişdir.

Bu mənanı bəzi əhli-sünnə hədisləri də ifadə edir. Əbu Yə`la öz "Müsnəd"ində Əbul-Cəllasdan rəvayət edir: "Əlinin Abdullah ibn Səbaya belə dediyini eşitdim: "Vay olsun sənə! Allaha and olsun, o, mənə el bir şey lütf etməyib ki, onu insanlardan gizlətmiş olum. Onun belə buyurduğunu eşitmişəm: "Qiyamət öncəsi otuz nəfər kəzzab olacaq". Həqiqətən, sən onlardan birisən".[932]

Əhli-sünnə hədis mənbələrində otuz kəzzabın olacağını ifadə edən hədislər olduqca çoxdur. Halbuki kəzzabların sayı bundan da artıqdır. Buna əhli-sünnə alimlərinin tərcümeyi-hal, rical və siyər kitabları da şahidlik edir. Dəccal, əl-Əsvəd əl-Ənəsi və Müseyləmə də onlardan sayılır. Bəzi hədislərdə onların hamısının peyğəmbərlik iddiası edəcəkləri qeyd olunur. Anlaşılan budur ki, kəzzab dedikdə məqsəd peyğəmbərlik kimi böyük iddialar ortaya atan, yaxud da Dəccal kimi böyük sayda insanı azdıran kəslərdir. Məqsəd heç də Peyğəmbərin (s) adından yalan hədislər uyduranlar deyildir. Çünki belə kəslərin sayı otuz deyil, həddən artıq çoxdur.

Qaimin (ə) ilk olaraq kəzzab şiələrdən başlayıb onları qətlə yetirməsinə gəldikdə, bəlkə də bunun səbəbi onların yalanının digərlərinin yalanından daha mənfur olmasıdır. Çünki haqq məzhəbə yalan istinad etmək bunu yanlış məzhəbə nisbət verməkdən daha böyük qəbahətdir. Belə ki, bəzi rəvayətlərdə qeyd olunur ki, şiələrdən başqasının pis əməli qəbahətdirsə, şiələrin pis əməli daha böyük qəbahətdir. Bunun səbəbi şiələrin Əhli-Beytə (ə) olan nisbətləridir.

Gizli deyildir ki, rəvayətdə əhli-sünnə və ya digər məzhəblərdə yalançının olmayacağına, yaxud onların kitablarında əsla yalana rast gəlinmədiyinə, ya da etiqadlarının bütünlüklə doğru olduğuna heç bir dəlalət yoxdur. Çünki, məlum olduğu kimi, hədis bu cəhəti açıqlamaq mövzusunda deyildir.

* * *

---

[932] "Müsnəd", Əbu Yə`la, 1/218; "Məcməuz-zəvaid", 7/333. Heysəmi yazır: "Bunu Əbu Yə`la rəvayət etmişdir. Raviləri inanılan şəxslərdir".

**Müəllif iddia edir: "Əbu Abdullahdan (r.a) rəvayət olunur: "Allah münafiqlər haqqında elə bir ayə nazil etməmişdir ki, şiəlik iddiasında olanlara şamil olmasın" ("Rical", Kəşşi, səh.254, Əbu Xəttab).**

**Atam, anam Əbu Abdullaha fəda olsun, o, doğru söyləmişdir. Əgər münafiqlər barəsində nazil olan ayələr şiəlik iddiasında olan kəslərə aiddirsə, mənim necə onlarla bərabər qala bilərəm?!**

**Məgər bundan sonra onların Əhli-Beyt məzhəbində olduqlarını iddia etmələri düzgün sayıla bilərmi? Məgər onlar Əhli-Beyti sevdiklərini iddia edə bilərlərmi?"**

**Cavab:** Bu rəvayətin sənədi belədir: Xalid ibn Həmmaddan, o da Həsən ibn Təlhədən, o da Muhəmməd ibn İsmailədək istinadla Əli ibn Yezid əş-Şamidən nəql edir.

Sənəddən göründüyü kimi, rəvayətin istinadı qopuqdur (mərfudur). Belə ki, Həsən ibn Təlhə ilə Muhəmməd ibn İsmailin arasındakı şəxslərin adları naməlumdur. Bundan əlavə, hədis raviləri arasında bir neçə halı məchul şəxs də vardır. Xalid ibn Həmmad, Həsən ibn Təlhə və Əli ibn Yezid əş-Şami sözlərinə əhəmiyyət verilməyən ravilərdir. Onlar barəsində tərcümeyi-hal kitablarında heç bir qeyd yoxdur. Muhəmməd ibn İsmail də bu cəhətdən onlarla eynidir. Onun ümumiyyətlə kim olduğu məlum deyildir.

Nəticədə bu rəvayətin istinadı olduqca qaranlıqdır. Müəllif belə bir rəvayətə istinad etməyi necə özünə rəva bilmişdir?!

Bütün bunlardan əlavə, rəvayətdə şiə olmadığı halda şiəlik iddiası edənlərdən bəhs olunur, şiələrin özündən deyil.

Əllamə Məclisi (q.s) "Biharul-ənvar"da yazır:

"Açıqlaması: "Şiəlik iddiasında olanlara" – yəni şiə kimi vəsf olunmadığı halda şiəlik iddiasında olan şəxs. "əl-Kafi"də hədisdəki bu kəlmə keçmiş zaman formasında qeyd edilib. "əl-Qamus" lüğətində deyilir: "İntəhələhu, tənəhhələhu – başqasına aid olan bir şeyi özü üçün iddia etdi".[933]

---

[933] "Biharul-ənvar", 70/98.

Şiələr arasında münafiqin mövcudluğu onların hamısının münafiq olduğu demək deyildir. Belə ki, Peyğəmbərin (s) səhabələri arasında da münafiqlər var idi, lakin bu, bütün sahəbələrin münafiq olduqlarına hökm etmirdi. Bu, aydın məsələdir, daha artıq izaha ehtiyac duymur.

Qəribədir ki, müəllif Quranda münafiqlərlə bağlı bütün ayələrin şiələrə aid olduğunu iddia etmək və şiələri azdırmaq üçün bu cür həddən artıq zəif bir hədisə müraciət edir, lakin səhabələr arasında mövcud olan münafiqlər barədə nazil olmuş ayələrə göz yumur, bu faktda görə bütün səhəbələrə və ya onların bir hissəsinə heç bir eyib tutmur.

Həyat mənə hələ nə qədər qəribəliklər göstərəcək!!!

* * *

**Müəllif iddia edir: "Məni qayğılandıran və özünə məşğul edən həmin sualların cavablarını indi tapmışam".**

**Cavab:** Möhtərəm oxucuya aydın oldu ki, müəllif özünün "həqiqətlərini" zəif və ya ixtilaflı, yaxud düzgün anlamadığı, ya da ortaq nöqtəsini tapa bilmədiyi hədislərdən toplamış, iki zidd hədis arasında üstünlük amilindən istifadə etmədən biri əsas götürərək digərini tərk etmiş, onları öz həvaye-nəfsinə uyğun seçmişdir. Bu fəqihlik və ictihad iddiaçısı olan müəllif belə dəlillərlə hansı həqiqətlərə qovuşmuşdur?!

Bu məqamda qeyd edilməlidir ki, ictihad sahibi olduğunu iddia edən müəllif oxucu üçün özünün qəbul etdiyi əhli-sünnə məzhəbinin doğruluğunu da isbatlamır. Əgər biz onun bütün iddialarının doğru olduğunu fərz etsək və şiə məzhəbinin yanlışlığı təsdiqləsək belə, bu, bizim üçün əhli-sünnə məzhəbinin doğruluğunu isbatlamayacaq. Mümkündür ki, haqq hansısa başqa, üçüncü bir məzhəbdədir. Bu, müəllifin diqqət yetirmədiyi çox böyük bir boşluq və qüsurdur. Belə ki, o, şiə məzhəbinin puçluğunu əhli-sünnə məzhəbinin haqq olmasına dəlil qərar vermişdir.

* * *

**Müəllif iddia edir: "Bu və digər həqiqətlərdən agah olduqdan sonra özümün, ailəmin və yaxınlarımın şiə olaraq doğulmağının səbəblərini araşdırmağa başladım. Mənə məlum oldu ki, bizim tayfamız əvvəllər əhli-sünnə**

**məzhəbində olmuşlar. Lakin təqribən 250 il öncə İrandan İraqın cənubuna gələn bəzi şiə təbliğatçıları bizim tayfanın başçıları ilə əlaqə qurmuş, onların qəlblərinin səmimiliyindən və savadlarının azlığından istifadə edərək öz bəlağətli nitqləri onları aldatmışlar. Onlar məhz bu səbəbdən şiəlik yoluna qədəm qoymuşlar.**

**Bir çox tayfa və qəbilə şiəliyi qəbul etmişlər. Halbuki həmin vaxtadək onların hamısı əhli-sünnə məzhəbinin mənsubları olmuşlar.**

**Elmi əmanətə riayət etmək məqsədilə onlardan bir neçəsinin adını burada qeyd etmək istəyirəm:**

**Bəni-Rəbiə, Bəni-Təmim, Xəzail, Bəni-Təmimin bir tayfası olan Ümeyri, Xəzrəc, əz-Zabidat, Şərtukatud-Dəvvar, Dəfafiə, Əmarə qəbiləsindən olan Ali Muhəmməd tayfası, Ali Əqrə`dən olan Divaniyyə, Ali Bədir, Əfc, Cəbur, Cəlihə, Kə`b, Bəni-Lam və digər qəbilə, aşirət və tayfalar.**

**Bütün bu qəbilələr İraqın qədim və məşhur qəbilələridir. Onlar öz şücaətləri, ehtiram və nəciblikləri ilə tanınırlar, özlərinə məxsus dəyərləri və çəkiləri vardır. Lakin təəssüflər olsun ki, 250 ildən artıq müddətdən bəri İrandan gələn şiə təbliğatçılarından təsirlənərək bu və ya digər yolla şiəliyi qəbul etmişlər".**

**Cavab:** Müəllif bu iddialarının bizim etiqadımızla yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. İstər həmin qəbilələr keçmişdən bəri əslən şiə olsunlar, istərsə keçmişdə sünni olub sonradan şiəliyi qəbul etsinlər, bütün bunlar onların şəxsi seçimlərinə bağlıdır. Hər kəs öz əməlinin girovudur və öz əqidəsinə cavabdehdir.

* * *

**Müəllif iddia edir: "Bu şərəfli qəbilələr unudurlar ki, şiəliyi qəbul etmələrinə rəğmən, əvvəldə də qeyd etdiyimiz kimi, Qaimin qılıncı onların kökünü kəsmək üçün boyunlarını vuracaq. Belə ki, Qaim kimi tanınan on ikinci imam ərəbləri şiə olmalarına baxmadan, ən qəddar şəkildə qətlə yetirəcək. Bu, şiə kitablarında aydın şəkildə qeyd olunur. Qoy, bu qəbilələr də onların boynunu vuracaq Qaimin qılıncını gözləsinlər!!!"**

**Cavab:** Əvvəldə İmam Müntəzərin (ə.f) kimin boynunu vuracağını və onun yardımçılarının kimlər olacağını izah etdik. Şübhə yoxdur ki, onun dostları və tərəfdarları ən xoşbəxt insanlar olacaqlar. Burada uzun təkrarlara yol verməməyimiz üçün həmin bəhslərə müraciət edin.

Müəllif əvvəldə iddia edirdi ki, Qaim (ə) ərəbləri və kəzzab (yalançı) şiələri qətlə yetirəcək, ancaq onun (ə) qılıncının bütün şiələrin boynunu vuracağını söyləmirdi. Nədir, yoxsa gəldiyi nəticələri də unutmuşdur?!

* * *

**Müəllif iddia edir: "Uca Allah insanlara həqiqəti başa salmalarına dair alimlərdən əhd almışdır. Budur, mən həqiqəti camaat üçün açıqlayır, yatmışları oyadır, qafilləri xəbərdar edir və həmin qəbilələri öz köklərinə qayıtmağa səsləyirəm. Qoy, onlar xüms və hərəmlərə ianələr adı ilə onların mal-dövlətlərini talayan, mütə nikahı adı ilə onların namuslarına təcavüz edən əmmamə sahiblərinin təsiri altında qalmasınlar. Xüms də, müvəqqəti evlilik də əvvəldə qeyd edildiyi kimi, haramdır. Mən həmin qəbilələrin başçılarını öz mənafelərini güdən fəqihlərin, müctəhidlərin və əmmaməlilərin gizlətdikləri həqiqətləri tapmaq üçün özlərinin və əcdadlarının tarixinə müraciət etməyə səsləyirəm.**

**Beləliklə mən öz vəzifəmin bir hissəsini icra etmiş oluram".**

**Cavab:** Biz də öz növbəmizdə hər bir insaflı oxucunu özünü şiə kimi qələmə verən, fəqihlik və ictihad iddiaçısı olduğu halda elm və ictihaddan tamamilə uzaq olan bu saxtakar müəllifin ortaya atdığı iddialara cavab xarakteri daşıyan bu kitabımızı oxumağa səsləyirik. Qoy, oxucu görsün ki, On iki imam şiəsi olan məzhəbə qarşı əhli-sünnənin bildirdiyi bütün iradlar uydurmalardan, boş xəyallardan və aşkar saxtakarlıqlardan başqa bir şey deyildir. Onlar şiə məzhəbi ilə mübarizədə düzgün elmi yol tutmamış, elmi əmanətə riayət etməmişlər. Əksinə haram yollara əl atmış, şübhəli vasitələrdən istifadə etmiş, istəklərinə uyğun yalan və batil uydurmuş, mətnləri təhrif etmiş və öz oxluqlarındakı sonuncu oxları belə atmışlar. Lakin Münəzzəh olan Allah onların hiylələrini öz boyunlarına asmış, onları məğlub və rüsvay etmiş, zərər və ziyanla geri qaytarmışdır.

Əgər müəllif insanlara həqiqəti açıqlamağı alimlərə Allahın vacib buyurduğunu bilirsə, o zaman haqq aşkar olduqda, onun təqiyyə altında belə ciddi-cəhdlə gizləndiyinə görə halı necə olacaq?!

Məgər o, özünü aşkar şəkildə tanıtmağın və insanları uca səslə öz əqidəsinə dəvət etməyin, şiə alimləri ilə açıq tərzdə mübarizə aparmağın və qəbul etmədiyi məsələlər barədə onlarla müzakirələr keçirməyin ona vacib olduğunu bilmir?!

Halbuki möhtərəm oxucu müəllifin öz kitabında görüşdüyünü iddia etdiyi hər hansı bir şiə alimi ilə bir dənə də olsun elmi mübahisəsinin olduğunu qeyd etmədiyi görür. O, yalnız anlayıb öyrənmək istəyən bir şəxs kimi alimlərə sual verməklə kifayətlənir.

Bəs həqiqəti açıqlamaq və onu aşkar etmək barədə Allahın alimlərdən aldığı əhd harada qaldı?!

* * *

**Müəllif iddia edir: "İlahi, Səni seçdiyin Peyğəmbərə (s) və pak Əhli-Beytinə olan sevgimə and verirəm ki, bu kitabı hər iki dünyada qəbul edəsən, xalis Sənin üçün edilmiş əməl sayasan və bu kitabı insanlara faydalı qərar verəsən. Əvvəldə də, sonra da həmd Allaha məxsusdur!"**

**Cavab:** Hər bir göz sahibi üçün həqiqət bütün çılpaqlığı ilə aşkar olmuş, bu müəllifin yalan, iftira və saxtakarlıqları, sözlərindəki ziddiyyətləri, zəif dəlilləri, alim və fəzilət sahibi şəxslərə qarşı atdığı böhtanlar və s. rəzillikləri ifşa edilmişdir.

Bütün bunlardan sonra bu kitabın Allah tərəfindən ondan qəbul ediləcəyinə ümid bəsləyir. Halbuki yazdığı cızma-qara onun üçün dünyada ar, axirətdə isə cəzadır!

Pak və qüsurlardan Münəzzəh olan Allahdan diləyirik ki, qələmə aldığımız bu kitabı bizim əməl tərəzimizdə yerləşdirsin, öz tərəfindən razılıqla qəbul etsin. Belə ki, O, azı qəbul edən, çox günahları bağışlayandır. Sonuncu duamız da aləmlərin Rəbbi olan Allaha həmd, Muhəmmədə və onun pak-pakizə ailəsinə salavat söyləməkdir!

## Qeyd və nəticələrin xülasəsi

“Allah və tarix naminə” kitabını oxuyarkən bir çox mühüm qeyd və nəticələr çıxardıq. Onlardan bir neçəsini möhtərəm oxuculara da açıqlamaq istərdik:

**Birinci: Sünni müəllifin kimliyinin bəyanı.**

Müəllif bir neçə yerdə aşkar xətaya və diqqətsizliyə yol verməklə şiə və alim olmadığını ələ verib.

1. Müəllif kitabının bir çox yerində alimləri “seyidlər” sözü ilə qeyd edir. Ona görə də kitabında heç bir alimi “şeyx” olaraq vəsf etmir, onların hamısını “seyid” olaraq yazır.

O, Şeyx Muhəmməd Hüseyn Ali Kaşiful-Ğitanı bir çox yerdə “seyid” olaraq qeyd edir, onun adını gah doğru, gah da yanlış yazır. Məsələn deyir: Muhəmməd Ali Hüseyn Kaşiful-Ğita.

Əhməd əl-Katibi “seyid” olaraq qeyd edir, halbuki o, seyidlikdən və Peyğəmbər (s) ailəsinə nisbət verilməkdən məhrum edilmişdir. Onun adını həmçinin Seyid Musa Musəvi ilə birlikdə “seyid” olaraq yazır və öz xətasını başqa yerdə də təkrarlayır.

Mirzə Əli Ğərəvini (r.ə) də “seyid” kimi vəsf edir. Halbuki onun Peyğəmbər (s) nəsli ilə heç bir bağlılığı yoxdur.

Şeyx Muhəmməd Cavad Muğniyəni (r.ə) də “seyid” kimi vurğulayır, hərçənd onun şeyx olduğu hamıya məlumdur.

Şeyx Lütfullah Safini də “seyid” olaraq təqdim edir, halbuki onun da Peyğəmbər (s) nəslindən olmadığı hamıya məlumdur.

Şeyx Əhməd Vailini də “seyid” kimi vəsf edir.

Şeyx Tusini (q.s) “seyid”, Şeyx Həsən Kərəki əl-Amilini (r.ə) “inanılan şeyx, seyid” kimi qeyd edir, ona eyni zamanda həm seyid, həm də şeyx deyir.

Bütün bu yanlışlar onun şiə mühitindən tamamilə uzaq olduğunu, alimləri tanımadığını və bütün məlumatının yalnız qarışıq dillərdən eşidilən xəbərlərdən ibarət olduğunu göstərir.

2. Kitabının bir yerində Seyid Xoyidən "Üsulul-Kafi" kitabını oxuduğunu söyləyir. Halbuki hədis kitablarını oxumaq hövzə tədris proqramına daxil deyildir. Hədis kitablarının oxunması məhz əhli-sünnə dini məktəblərinin tədris proqramına daxildir, orada tələbələrə məşhur hədis kitabları tədris olunur.

O, bu xətasını başqa bir yerdə də təkrarlayaraq deyir: "Hövzədəki tədris dövründə bu hədisləri oxuduğumuz zaman alimlərimiz və mərcələrimiz onların üzərindən ötüb keçərdilər".

3. Kitabda Allahın elçisinə salavatı belə söyləyir: "Salləllahu əleyhi və səlləmə və alih". Heç bir şiə bu formada salavat söyləməz. Bunu yalnız düzgün salavatın necə deyildiyini əzbər bilməyən şəxs söyləyə bilər.

Başqa bir yerdə isə Peyğəmbərə (s) iki dəfə yarımçıq salavat deyir: "Salləlahu əleyhi və səlləm".

Digər bir səhifədə Peyğəmbərə (s) salam söyləyir, amma salavat demir. Yazır: "Zəhra onun yanına gəldikdə atası (əleyhis-səlam)...".

Bir çox səhifədə isə Peyğəmbərə (s) dəfələrlə "Salavatullahi əleyh" deyə salavat söyləyir. Halbuki hətta savadsız şiələr belə Peyğəmbərə (s) ailəsini qeyd etməklə salavat söyləyirlər.

4. Kitabının bir yerində "Nəcəfdəki hövzə, hüseyniyyələr, İmamların (ə) hərəmlərinin alimləri savab ümidilə qadınlarla mütə nikahı bağlayırlar..." deyir.

Şiə olan bir şəxs əsla belə bir cümlə işlətməz. Çünki şiələr arasında hüseyniyyə və ya hərəmlərin alimləri deyilən bir təbir yoxdur.

5. Kitabının bir çox yerində Əhli-Beytə "Allah onlardan razı olsun!" (radiallahu ənhum) deyir. Ancaq kitabının son çaplarında həmin kəlmə "əleyhimus-səlam" (onlara salam olsun!) sözü ilə əvəzlənib.

Onun İmamların (ə) ünvanına "Allah ondan razı olsun!" söyləməsi əhli-sünnə alimlərinin peyğəmbərlərdən savayı heç kimsə barəsində "Ona salam olsun!" sözünü icazəli bilmədiklərinə görədir. O, öz adəti üzrə onlara "Allah ondan razı olsun!" söyləyir. Bizim sözümüzü təsdiqləyən fakt müəllifin öz kitabının bir neçə yerində Əhli-Beyti salavat və salamla yad etməsidir. Yazır: "Bunu bizə Əhli-Beytin (Allahın

salavatı onlara olsun!) öz şiələrindən narazılığı da xatırladır... Bu bizə Əhli-Beytin (Onlara salam olsun!) qanını kimlərin axıtdığını xatırladır”.

Digər yerdə yazır: “Fatimətus-suğra “Ona salam olsun!) dedi...”.

Həmçinin: “Tusi Muhəmməd ibn Əbu Cəfərdən (Ona salam olsun!) rəvayət edir”.

“Ağamız və mövlamız şəhid Hüseyn (Allahın salamı ona olsun!) bundan daha ucadır..”.

“Bilin ki, ən çox təhqirə, istehza və kobudluğa məruz qalmış imamlar Muhəmməd Baqir və onun oğlu Cəfər Sadiqdir (Onlara və atalarına salam olsun!)”.

“Həsənin, Əlinin və Peyğəmbərin (onlara salam olsun!) dərəcələri kimi olacaq?”

6. Kitabın bir səhifəsində “Əli ibn Cəfər əl-Baqir” yazır. Hər bir şiə bilir ki, İmam Baqir (ə) Muhəmməd ibn Əlidir. İmam Cəfər (ə) isə Sadiqdir.

7. Şiələrin məşhur hədis kitablarına “səkkiz səhih” deyir. Səhifələrdən birində yazır: “Səhihlərimiz Zürarənin hədisləri ilə doludur”. Həmçinin yazır: “Səhihlərimizə müraciət edən şəxs bu mətnlərin mənbələrini görəcək”. Eləcə: “Səhihlərdə onun hədisləri olduqca çoxdur”. Halbuki şiə alimləri heç bir hədis kitabına “səhih” adı qoymamışlar. Bununla da öz kitablarını “səhih” və “qeyri-səhih”lərə bölən əhli-sünnə alimlərindən fərqli yol tutmuşlar.

8. Mömin Tağın adını “Şeytan Taq” kimi yazır. Ona bu ləqəbi yalnız əhli-sünnə mənsubları söyləyirlər.

9. Həmçinin iddiasına görə “...son vaxtlarda hüseyniyyələrdə cümə namazının qılınmasının icazəli olduğuna dair fətvalar verilməkdədir”.

Halbuki cümə namazlarının hüseyniyyələrdə qılınmadığını hər bir şiəyə məlumdur.

Nəticədə bu və digər məsələlər müəllifin sünni mahiyyətini bir daha təsdiqləyir, onun şiə olduğunu, alimliyi bir kənara dursun, hətta onun hövzədə yaşayıb tədris aldığını inkar edir.

* * *

**İkinci: Müəllif əsla fəqih və müctəhid deyildir.**

“Allah və tarix naminə” kitabını diqqətlə oxuyan hər bir kəs kitabın müəllifinin nəinki fəqih və müctəhid, heç də alim olmadığı qənaətinə gələcək. Buna aşağıdakı faktlar dəlalət edir:

1. Müəllif öz ictihadını bizim üçün isbatlamamışdır. O, yalnız Şeyx Kaşiful-Ğitanın ona ictihad icazəsi verdiyini iddia etmişdir. Boş iddia isə heç nəyi isbatlamır. Onun sözünü qəbul da edə bilmərik. Çünki ictihad iddia edənlərin sayı olduqca çoxdur, mühüm olan isə onların öz ictihadlarını düzgün dəlillərlə sübuta yetirmələridir.

Bundan əlavə, ictihad icazəsinə sahib olmaq qeyri-müctəhidi müctəhidə və ümumi savada malik şəxsi də fəqihə çevirmir. Bir şəxsin ictihad icazəsinə sahib olduğu zamanla ortaya çıxır. Buna görə də təqlid mərcələrinin ictihad sahibi olduqlarına şəkk edilmədiyini eşidirik. Lakin bununla belə onlar hər hansı bir icazə rütbəsi də daşımırlar.

2. Müəllifin öz iddiasına əsasən, qarşılaşdığı bir çox hadisələr onun sadəcə sual verib öyrənən şəxs olduğunu, heç də müctehid olmadığını göstərir. Belə ki, kitabında yazır: “Seyid Muhəmməd Hüseyn Ali Kaşiful-Ğitadan Abdullah İbn Səba haqqında soruşduğumda dedi: “İbn Səba uydurma şəxsdir, Əməvi və Abbasilər... onu uydurmuşlar...”.

Başqa bir yerdə yazır: “İmam Xoyidən Əbu Abdullahın qadına Əbu Bəkr və Ömər haqqında söylədiyi sözləri barədə soruşduğumda dedi: “Bunu təqiyyə olaraq söyləyib”.

Həmçinin deyir: “İmam Xoyidən Əmirəl-mömininin Xeybər savaşı günü mütə nikahının haram edilməsinə dair sözləri, eləcə də Əbu Abdullahdan şahidsiz evliliyin Peyğəmbər (s) zamanında məşhur olub-olmadığı haqda suala cavabı barədə soruşduğumda dedi...”.

Eləcə də yazır: “Mövlamız mərhum imam Xoyidən Qırmızı cəfr barədə, onun kimin açacağı və kimin qanını tökəcəyi barədə soruşdum”.

Və digər məqamlarda verdiyi suallar... bunların sayı çoxdur. Lakin bir dəfə də olsun onun Seyid Xoyi və ya digər bir alimlə müzakirə və mülahizə etdiyi iddiasına rast gəlmədik. Halbuki Seyid Xoyinin tələbələri onun nəzərlərinə dair müzakirələr

edir və mülahizələrini yürüdürdülər. Görünən odur ki, müəllif (əgər hekayələrinin doğruluğunu fərz etsək) sual verir, qəzəbli və narazı halda susurdu. Bu isə əsla bir ictihad sahibinin davranışı deyildir.

3. Müəllif gözünə satan bütün hədisləri səhih - zəif demədən dəlil kimi olaraq edir. Kitabının heç bir yerində təqdim etdiyi hədislərin birini belə səhih, zəif, həsən və ya inanılan deyərək vəsf etdiyini görmürük.

Hədisi tanımaq və onunla davranmağı bacarmaq müctəhidin birinci xüsusiyyətidir. Çünki mötəbərlə qeyri-mötəbər arasında seçim edə bilməyən şəxs onlardan şəri hökmü necə əldə edəcək?

4. Müəllif bütün qənaətlərində yalnız bir neçə hədisi əsas götürməklə nəticəni onların üzərində qurur. Lakin həmin mövzuda olan digər zidd mənalı hədislərə nəzər yetirmir, onların arasındakı üstünlük cəhətlərini araşdırmır və ortaq nəticə də çıxarmağa cəhd etmir.

Rəvayətlərdən ortaq nəticə çıxarmaq və ya onların arasındakı üstünlük amillərini müəyyən etmək hökm əldə etməyin əsas vasitələrindən biridir, heç bir fəqih bundan xəbərsiz ola bilməz. Əgər bir fəqih buna diqqət yetirməzsə, o zaman dəlil göstərməsi və hökm çıxarması necə doğru sayıla bilər?!

5. Müəllif bir çox yerdə heç bir fəqih və müctəhidin buraxmayacağı primitiv səhvlərə yol verir. Onlardan:

- kitabında bir dəfə də olsun, seyidlə şeyxi bir-birindən fərqləndirmir, Peyğəmbər (s) nəslindən olmadıqları halda belə, bütün alimlərə "seyid" deyir.

- Kəşşinin kitabını "Mə`rifətu əxbarir-rical" kimi təqdim edir. Hərçənd kitabın adı "İxtiyaru mə`rifətir-rical"dır. Kitabının adının belə olduğu hətta tədrisə yeni başlayan tələbələrə də məlumdur.

- "Camiur-ruvat" kitabını Müqəddəs Ərdəbiliyə nisbət verir. Halbuki həmin kitabın müəllifi Muhəmməd ibn Əli əl-Ərdəbili əl-Hairidir.

- Abdullah ibn Səba haqqında rəvayətlərin nəql edildiyi mənbələr arasında Tavusun "ət-Təhrir" kitabını qeyd edir. Halbuki həmin kitabın adı "ət-Təhrirut-Tavusi"dir ki, müəllifi "əl-Məalim" kitabının sahibi, Şəhid Şaninin oğlu Şeyx Həsəndir.

- oxucuya bir neçə kitaba müraciət etməyi tövsiyə edir ki, onların arasında Seyid Əhməd ibn Tavusun “Həllul-işkal” kitabı da vardır. Halbuki həmin kitab hazırkı dövrdə ümumiyyətlə mövcud deyildir.

- Seyid Mürtəza Əskərini fəqih olaraq vəsf edir. Ancaq Seyid Əskəri fəqih kimi deyil, yalnız tədqiqatçı və təhqiqatçı kimi tanınıb.

- İbn Əbu Yə`furu İbn Əbul-Yə`fur (yəni əl-Yə`fur) kimi adlandırır, başqa yerdə isə ümumiyyətlə Əbul-Yə`fur deyir.

Bu ravinin adında yol verdiyi səhv məşhur raviləri tanımalı olan fəqihdə əsla rast gəlinməməlidir.

- Müəllif Nəcəful-Əşrəfdəki elmi hövzəni institut və ya universitet kimi bir bina olduğunu təsəvvür edir. Onun sözlərindən bu anlaşılır.

Belə ki, yazır: “Günlərin birində biz hövzədə ikən möhtərəm Seyid Əbdülhüseyn Şərəfuddin əl-Musəvinin Bağdada gəldiyi xəbəri yayıldı. O, hövzəyə gəlib möhtərəm imam Ali Kaşiful-Ğita ilə görüşəcəkdi... Nəcəfə yetişdikdə hövzəni ziyarət etdi”.

Həmçinin yazır: “Seyidlərdən birini hövzədə bir gənc tələbə ilə livat edərkən yaxalamışdılar”.

Yazır: “Bu məsələ ilə bağlı Ayətullahul-üzma imam Xomeyninin sözlərini qeyd etməyi lazım bilirəm. O, hicri 1389-cu ildə hövzədə bizim qarşımızda mühazirə ilə çıxış edərkən bu barədə danışmış,...”.

Halbuki hövzə heç də bir binada yerləşmir. Elmi hövzə dedikdə Nəcəfdə və digər yerlərdəki silsilə tədris proqramı nəzərdə tutulur. “Hövzədə oxudum” söyləyən bir şəxs lazım olan dini elmləri öyrəndiyini bildirmək istəyir. O, bu elmləri məsciddə, evdə və ya məktəbdə də oxuya bilər. Belə ki, Nəsəful-Əşrəf bütünlüklə hövzədir.

- “Ziyaus-salihin” kitabını Seyid Xoyiyə nisbət verir. Halbuki həmin kitab Hacı Muhəmməd Saleh Cövhərciyə məxsusdur və orada dua və ziyarətnamələri cəm etmişdir. Seyid Xoyinin kitabı isə “Minhacus-salihin”dir. Belə çoxsaylı səhv və yanlışlara heç adı tələbə belə yol verməzdi.

* * *

**Üçüncü: Nəql etdiyi rəvayət və hekayələrdə etibarsız şəxs olması.**

Müəllif oxucuda etibar və inamını itirəcək səhvlərə yol vermişdir ki, nəticədə danışdığı hekayələrə heç bir inam qalmamışdır. Onlardan:

- Hindistana səfər etdiyini, orada Seyid Dəldar Əli ilə görüşdüyünü və seyidin ona “Əsasul-üsul” kitabını iddia edir. Halbuki Seyid Dəldar Əli miladi 1819-cu ildə vəfat etmişdir. Yəni “Allah və tarix naminə” kitabı yazılmazdan 185 ilə öncə. Bəs müəllif Seyid Dəldar Əli ilə həmin vaxt harada və necə görüşmüşdür?!

- müəyyən hədisləri qeyd edərək onları “Mən la yəhzuruhul-fəqih” kitabının müəllifinə nisbət verir. Halbuki həmin hədislər o kitabda mövcud deyildir. Bəzi hədislərdə təhrifə yol verir, bəzilərini naqis nəql edir. İnşallah qarşıda bu elmi xəyanətlərini də qeyd edəcəyik.

- Seyid Xoyi ilə ofisində oturub söhbət etdiyini və bu zaman iki gəncin oraya daxil olduğunu yazır.

Halbuki Seyid Xoyinin Nəcəful-Əşrəfdə heç bir ofisi olmayıb. O, insanları özünün əl-Bərranidəki mənzilində qəbul edirdi. Həmin ev Nəcəfin Ümarə məhəlləsində məşhur evdir.

Eyni səhvi kitabın başqa yerində də təkrarlayır: “Seyid Ali Kaşiful-Ğitanın ofisindəki məclisdə...”. Məlumdur ki, Şeyx Kaşiful-Ğitanın camaatı qarşıladığı bir ofisi yox idi. O, görüşünə gələnləri Nəcəful-Əşrəfdəki Həyyul-Ümarədəki mədrəsədə qarşılayırdı. Şeyx Muhəmməd Hüseyn Kaşiful-Ğita (q.s) ilə tez-tez görüşən və ondan dərs alan bir kəsə bu əsla gizli qalmamalı idi.

Müəllifin vəziyyəti belə ikən, onun sözlərinə və şahidsiz danışdığı hekayələrə necə etibar və etimad etmək olar?!

* * *

**Dördüncü: Müəllifin qeyri-elmi üslubu.**

Müəllifin öz kitabında izlədiyi qeyri-elmi üslubu aşağıdakı faktlar sübuta yetirir:

1. Hədisləri araşdırmadan və səhihi zəifdən ayırmadan dəlil göstərir. Şiə kitablarında zəif sayılan hədislərə, zəif və halı məchul ravilərdən nəql edilən rəvayətlərə istinad edir. Halbuki zəif hədisə etina edilməyəcəyi və onun dəlil olmadığı hər kəsə məlumdur.

2. Təqdim etdiyi hədisləri şiə əqidəsi kimi təqdim edir. Halbuki şiələr hədis kitablarında mövcud olan hər bir hədisin məzmununa uyğun əqidə daşımırlar. Çünki hədislərin arasında zəif və bir-birilə ziddiyyətli rəvayətlər də mövcuddur. Etiqadlar şiələrin böyük alimlərinin öz kitablarında isbatladıqları əsaslarla müəyyən olunur, zəif hədislərlə deyil.

3. Gördüyü və qarşılaşdığı hər hədisin mötəbər və ya qeyri-mötəbər, hər kitabı da elmi dəyərinin olub-olmadığına baxmadan dəlil kimi təqdim edir.

4. On iki imam şiələrinin əqaid kitablarında qeyd edilən açıqlamalara əhəmiyyət vermir, kitablarda yalnız şiələrə tənə vura biləcəyi hissələri axtarır və məsələlərə dair etimadlı alimlərin sözlərini nəql etmir, yalnız hədəfinə çatmaq üçün özünə sərf edən hissələri götürür.

* * *

**Beşinci: Müəllifin elmi xəyanətlərinin bəyanı.**

Onun elmi xəyanətləri olduqca çox və müxtəlif cəhətlidir:

***Birinci cəhət: Şiə kitablarında rast gəlinməyən hədisləri nəql edir.***

- Mütə nikahı və onun savabı barədə Peyğəmbərdən (s) nəql etdiyi hədis: "İmanlı qadınla mütə edən şəxs sanki Kəbəni yetmiş dəfə ziyarət etmişdir". Lakin bunu rəvayətin mənbəyini qeyd etmir. Çünki şiə kitablarında belə bir rəvayət mövcud deyildir.

- İmam Sadiqin (ə) belə buyurduğunu yazır: "Mütə nikahı mənim və ata-babalarımın dinidir. Ona əməl edən şəxs dinimizə riayət etmiş, inkar edən də dinimizi inkar etmiş və başqa bir dinə uyğun davranmışdır". Bu rəvayəti "Mən la yəhzuruhul-fəqih" kitabının 3-cü cildinin 366-cı səhifəsinə nisbət verir. Lakin həmin kitabda belə bir hədis mövcud deyildir.

***İkinci cəhət: Hədisləri öz məqsədinə görə qopuq nəql edir.***

- İmam Sadiqdən (ə) şiələrin "rafizi" adlandırılması ilə bağlı hədisi nəql edir: "Xeyr, Allaha and olsun ki, sizi onlar belə adlandırmayıblar… Allah sizi bu cür adlandırıb" ("əl-Kafi", 5/34).

Uzun bir hədisin qopuq nəql etməklə rəvayətdə şiələri məzəmmət edildiyi təsəvvürünü oxucuda yaratmaq istəyir. Halbuki həmin hədisdə şiələr mədh və tərif olunurlar.

- Bir qadının ənsardan olan gənci ona təcavüz etməkdə ittiham etdiyi hekayədə yazır: Əli qalxıb onun budlarının arasına baxdı və onu ittiham etdi" ("Biharul-ənvar", 4/303).

Halbuki hədisin əsl mətnində belə deyilir: "Əmirəl-möminin (ə) qadının paltarındakı və budları arasındakı ağ maddəyə (ağlığa) baxdı və onu hiylə qurmaqda ittiham etdi...".

- İmamın (ə) Ümmü Xalidə Əbu Bəkr və Öməri özünə dost tutmağı buyurduğu hədisi qopuq nəql edir. Halbuki rəvayətdə İmamın bunu təqiyyə olaraq söylədiyi aydın ifadə edilir.

- İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: "Sizin ikinizə də mütə etmək haramdır". Mütə nikahının haram olmadığına dəlalət edən bu hədisi qopuq nəql edir. Halbuki İmam Sadiq (ə) belə buyurur: "Mədinədə olduğunuz müddətdə mütə etmək mənim tərəfimdən sizə haram qılınır. Siz mənim yanıma tez-tez gəlib-gedirsiniz, "Bunlar Cəfərin əshabıdır" deyib sizi yaxalayacaqlarından qorxuram".

- Qeyd etdiyi bir hədisdə yazır: "Əgər sizi bunun vergisinə mükəlləf etsək, sizə qarşı insafsızlıq etmiş olaraq". Halbuki hədisin əsl mətnində belə deyilir: "Əgər sizdən xümsü bu gün tələb etsək, sizə qarşı insafsızlıq etmiş olarıq". Bu rəvayəti belə mətnlə "Mən la yəhzuruhul-fəqih"də Şeyx Səduq, "əl-İstibsar"da isə Tusi nəql ediblər. Müəllif "bu gün" kəlməsini mətndən çıxarmaqla İmamın (ə) xümsü şiələrə ümumiyyətlə halal etdiyi təəssüratı yaratmağı çalışıb.

***Üçüncü cəhət: Rəvayətlərin mətnini təhrif etməklə nəql edir.***

Bir çox rəvayətin mənasını təhrif edərək nəql edir. Halbuki onları olduğu kimi təqdim etsəydi öz məqsədinin ziddinə olacaqdı.

- Seyid Xomeyninin (r.ə) fətvasını "Təhrirul-vəsilə" kitabından belə nəql edir: "Südəmər körpəni qucaqlamaq, təfxiz (yəni - cinsi aləti budları arasına qoymaq) və öpməyin eybi yoxdur".

Halbuki “Təhrirul-vəsilə” kitabının işarə edilən məsələsinin mətni belədir: “Məsələ 12: Doqquz yaşı tamamlanmadan istər daimi və istər müvəqqəti nikahda olan zövcə ilə (həyat yoldaşı ilə) cinsi əlaqədə olmaq icazəli deyildir. Ancaq həyat yoldaşı hətta südəmər körpə olsa belə, ona şəhvətlə toxunmaq, qucaqlamaq və budları arasına aləti sürtmək kimi digər ləzzətləri aparmağın eybi yoxdur...”.

Bu iki mətn arasındakı fərqi məsələyə dair bəhsimizdə qeyd etmişik.

- Şeyx Tusinin “əl-Üddətul-usul” kitabında belə dediyini nəql edir: “Təhzibul-əhkam” kitabında 5000 mindən artıq hədis topladığını yazır...”. Halbuki Şeyx Tusi kitabında belə bir söz qeyd etmir. O, kitabında belə yazıb: “İmamlardan (ə) fiqhə dair nəql olunan ixtilaflı hədisləri özümün “əl-İstibsar” və “Təhzibul-əhkam” kitablarımda nəql etmişəm ki, onların sayı da 5000 mindən artıqdır”.

***Dördüncü cəhət: Təqlid mərcələrilə bağlı puç iddialarla çıxış edir.***

Kitabında qeyd etdiyi bütün hekayələri belədir. Onların heç biri doğru deyildir, bəhs boyunca yalan və puç olduğunu qeyd etmişik.

***Beşinci cəhət: Məzhəbin görkəmli şəxslərinə batil sözlər nisbət verir.***

- Seyid Xoyinin Zürarənin təşəhhüdlə bağlı hədisinə belə izah verdiyini yazır: “Hər atın büdrəməsi olduğu kimi, hər alimin də bir yanlışı olur”. Halbuki Seyid Xoyi özünün “Mö`cəmu ricalil-hədis” kitabında qeyd olunan rəvayəti Zürarəinin məqamına və şəninə yaraşmayan, etibarsız, boş və sənədi qopuq bir söz kimi vəsf edir.

- İddiasına görə Tusi buna belə haşiyə yazır: “Buradakı məqsədi daimi deyil, müvəqqəti nikahdır”.

Halbuki Şeyx Tusi bunu söyləməmişdir. Əksinə, kitablında belə yazır: “Bu xəbərdə şahid gətirilməklə mütə nikahına heç bir qadağanın olmadığı qeyd olunur. Həmçinin Peyğəmbərin (s) zamanında müsəlmanların şahid tutmaqla bu nikahdan istifadə etdiklərinə dəlalət edir. Şahid tutmaq əfzəldir (daha yaxşıdır)...”.

- Yazır: “Bu səbəbdən də İmam Xoyi ölüm yatağında ikən hövzədəki tədrisi bizə həvalə edərək belə vəsiyyət etdi: “Fatimənin Quranı ortaya çıxanadək bu Qurana tabe olun”.

Halbuki Seyid Xoyi (q.s) ölümündən öncə xəstələnməmiş və ölüm yatağına uzanmamışdı ki, vəsiyyət də etsin. O, anidən və qəflətən ölmüşdür. Bunu Seyidi tanıyan və onun barəsində məlumatlı olan hər kəs bilir, həmçinin insanlar arasında məşhur bir hadisədir.

- Seyid Nemətullah Cəzairidən belə nəql edir: "Ömərin arxa dəliyindən bir xəstəliyi vardı ki, yalnız kişi sperması ilə sakitləşirdi". Halbuki bu sözlər Seyid Nemətullaha məxsus deyildir, o, bu sözləri əhli-sünnə alimlərinin kitablarından nəql edir. Bunda isə heç bir qəbahət ola bilməz.

- "Siratul-müstəqim" kitabının müəllifi Əli ibn Yunus Bəyazidən Osman barədə bu sözləri nəql edir: "Osman oynadılan (məzələnilən) və xünsa (qadın xüsusiyyətlərinə malik) şəxs idi". Halbuki Bəyazi bu sözləri söyləməyib, yalnız buna bənzər ibarələri əl-Kəlbinin "əl-Məsalib" kitabından nəql edib.

- "Rovzatul-cənnat" kitabının müəllifinə nisbət verdiyi sözləri nəql edir: "Özündə bir neçə fəsli cəm edən "Rövzə" kitabının Kuleyninin qələmə aldığı "əl-Kafi" kitabının bir hissəsi olub-olmadığına, yoxsa ona sonradan əlavə edildiyinə dair ixtilaf etmişlər" ("Rəvəzatul-cənnat", 6/118).

Halbuki qeyd etdiyimiz kimi, Xunsari belə bir söz söyləməmişdir.

## Son söz

"Allah və tarix naminə" kitabının müəllifi ilə keçirdiyimiz bu uzun səyahətdən sonra möhtərəm oxucuya aydın oldu ki, onun ortaya atdığı bütün iradlar sadəcə onun kasad düşüncələrinin və yanlış şübhələrinin məhsuludur.

Allaha həmd olsun ki, Onun neməti sayəsində bütün bu yanlışları açıqladıq, üzərilərindəki yalan pərdələrini araladıq, ta ki, səmimi qəlbə və eşidən qulağa sahib olan hər kəs buna şahidlik edər.

Əhli-sünnə mənsublarının On iki imam şiələrinə tutduqları bütün iradların bu məcrada olduğunu görə bilərik.

Onların tutduqları iradlar aşağıdakılardan birindən xali deyildir:

**1. Uydurma hədisləri dəlil göstərmək** – onlar ixtilaflı hədisləri əsaslanır və bunu şiə kitablarından nəql etdiklərini bildirirlər. Məsələn, müəllifin də şiə kitabında olduğunu iddia etdiyi bu hədislər kimi: "Mütə nikahı mənim və ata-babalarımın dinidir", "Mömin bir qadınla müvəqqəti evlənən şəxs sanki Kəbəni yetmiş dəfə ziyarət etmişdir" və s.

**2. Uydurma rəzil fikirləri dəlil göstərmək** – onlar rəzil fikirlər və ya fətvalar uydurur və bunları şiə alimlərinə nisbət verirlər. Məsələn, səfərdə kişilərinin bir-birilə yaxınlıq etməsinin icazəli olması haqda fətva uydurub Seyid Əbdülhüseyn Şərəfuddinə (r.ə) nisbət veriblər. Halbuki livat haram olduğunda bütün müsəlmanlar həmfikirdirlər.

**3. Təhrif olunmuş mətnləri dəlil göstərmək** – şiə kitablarında qeyd olunan bəzi mətnləri (hədis, rəvayət və fətvaları) təhrif edib mənfur hala salır, sonra da şiənin əleyhinə dəlil kimi təqdim edirlər.

**4. Yarımçıq və qopuq mətnləri dəlil göstərmək –** mətnləri kəsərək yanlış mənalara daşıyır, sonra da şiələrin əleyhinə dəlil göstərirlər. Bunu şiələrin "rafizi" adlandırılmasının səbəbini izah edən hədisdə müşahidə etdik. Müəllif oxucuda "rafizi" sözünün şiələrə bir töhmət xarakteri daşıdığı təsəvvürünü yaratmaq üçün hədisin şiələri mədh edən və tərifləyən hissəni kəsib çıxarmışdır.

**5. Zəif hədisləri dəlil göstərmək –** şiə kitablarında nəql edilən zəif hədisləri dəlil kimi təqdim edirlər. Necə ki, “Allah və tarix naminə” kitabının müəllifinin də gətirdiyi dəlillər belə idi.

**6. Şaz (nadir, az rastlanan və ümumi rəyə müxalif olan) fikir və fətvaları dəlil göstərmək –** onlar şaz (nadir, az rastlanan və ümumi rəyə müxalif olan) fikir və fətvaları axtarır, dəlil kimi təqdim edirlər. Necə ki, müəllif də Quranın təhrif edilməsilə bağlı iddiasında təhrifin olmadığını söyləyən məzhəbin sütunları sayılan alimlərin fikirlərinə göz yumaraq, bir-iki nəfərin sözünə əsaslanır.

**7. Mətnləri məqsəddən yayındırıb sonra dəlil göstərmək –** necə ki, bu müəllif və digərləri Möminlərin əmirinin (ə) ona yardım etməkdən boyun qaçıran camaata ünvanladığı sözlərini şiələrə yönəldiblər. Halbuki ona yardım etməkdən yayınanlar şiələr deyil, fərqli qrup mənsubları idilər.

**8. Avam şiələrin sözlərini dəlil göstərmək –** necə ki, müəllif əhli-sünnə mənsubunun yatdığı döşəyi yandıran atasının bu hərəkətini şiələrin əhli-sünnəyə qarşı nifrəti, həmçinin bəzi savadsız şiələrin məzhəbdən üz çevirərək əhli-sünnə məzhəbinə daxil olmasını öz məzhəbinin doğruluğu kimi təqdim edir.

**9. Uydurma hekayələri dəlil göstərmək –** necə ki, müəllif Seyid Xomeyninin (q.s) südəmər körpə ilə cinsi yaxınlıq etdiyini, oradakıların da bunu rahatlıqla qəbul etdiyini iddia edir. Həmçinin Seyid Hüseyn Sədrin öz qızını uşağın ağlı kəsmədiyi vaxtda müvəqqəti nikahla evləndirdiyini mütə nikahının batilliyinə dəlil göstərir.

**10. Yanlış müqəddimələr qurub onlara əsaslanmaq –** necə ki, müəllif Əbu Bəkr və Ömərin xəlifəliyinin düzgünlüyünə Möminlərin əmiri Əlinin (ə) onlara vəzirlik etməsi, qızı Ümmü Gülsümü Ömərə ərə verməsi, övladlarına Əbu Bəkr, Ömər və Osmanın adlarını qoyması ilə sübuta yetirməyə çalışır.

Möminlərin əmiri (ə) o üç nəfərin xilafəti dövründə qazilik etdiyi iddiası o zaman doğru sayıla bilər ki, o, bu hökmləri verməklə onların hakimiyyətlərini gücləndirmiş və qızını Ömərə öz istəyi və razılığı ilə vermiş olsun, onlara olan sevgi və razılığı ifadə edib ad qoysun. Lakin bunların heç biri sübuta yetməyib.

**11. Əhli-sünnə alimlərinin sözlərini şiələrin əleyhinə dəlil kimi təqdim etmək –** bir çox məsələyə İmam Əhməd, Malik, Şafei və digərlərinin rəylərinə əsasən

hökm verir, İbn Teymiyyə, İbn Həcər, Zəhəbi, İbn Kəsir və digərlərinin fikirlərinə əsaslanaraq şiə məzhəbinin batilliyini və rafizilərin kafir, ümmətin ən pis və ən yalançı kəsləri olduqlarını iddia edirlər. Halbuki bu şəxslərin sözləri əsla haqq müəyyən edə bilməz. Haqqı müəyyən edən yalnız Allahın kitabı və Peyğəmbərin (s) səhih sünnəsidir.

* * *

Qarşı tərəfin iddialarının bütünlüklə belə "dəlillərdən" ibarət olduğunu bildikdən sonra, onların sözlərinə, nəql etdiklərinə necə etimad və etibar etmək olar?!

İnsafla araşdırma aparan hər kəs bu şəxslərin məqsədlərinin xoş olmadığı qənaətinə gələcək, onların bu hücumlarının ya məzhəb təəssübkeşliyindən, ya müsəlmanlar arasında təfriqə salmaq niyyətlərindən, yaxud da gözlərini bağlayıb, qəlblərini möhürləyib və qulaqlarını kar edən bir cəhalətdən qaynaqlandığına hökm edəcək.

Biz araşdıran hər bir şəxsi əqidə, fiqh, üsul, təfsir və digər sahələr üzrə böyük şiə alimlərinin yazdıqları mötəbər şiə kitablarını mütaliə etməklə On iki imam şiə məzhəbini tanımağa dəvət edirik.

Şiə məzhəbini obyektiv və insaflı şəkildə öyrənmək istəyənləri aşağıdakı kitabları oxumağa dəvət edirik:

**1. Əqidə kitabları** – "Kəşful-murad fi şərhi təcridil-i`tiqad", Əllamə Hilli; "Şərful-babil-hadi əşər", Miqdad Sivəri; "Əqaidul-imamiyyə", Şeyx Muhəmməd Rza Müzəffər.

**2. Əhli-Beyt imamlarının (ə) hədis kitabları** – məşhur dörd kitab – Şeyx Kuleyninin "əl-Kafi", Şeyx Tusinin "Təhzibul-əhkam" və "əl-İstibsar", Şeyx Səduqun "Mən la yəhzuruhul-fəqih" kitabları. Həmçinin Hürr Amulinin "Vəsailuş-şiə", Feyz Kaşaninin "əl-Vafi" və s. kitablar.

**3. Fiqhi kitablar** – "əl-Muqniə", Şeyx Müfid; "ən-Nihayə", Şeyx Tusi; "Şəraiul-islam", Mühəqqiq Hilli; "Qəvaidul-əhkam", Əllamə Hilli; "əl-Ürvətul-vüsqa", Seyid Kazım Yəzdi; Seyid Həkim, Seyid Xoyi və digərlərinin "Minhacus-salihin" kitabları.

**4. İstidlali fiqh kitabları –** “Məsalikul-əfham”, Şəhid Sani; “Riyazus-salihin”, Seyid Əli Təbatəbai; “Cəvahirul-kəlam”, Şeyx Muhəmməd Həsən Nəcəfi; “Mustəmsəkul-ürvətil-vüsqa”, Seyid Möhsin Həkim; Seyid Xoyinin fiqhə dair bəhsləri, məsələn “ət-Tənqihu fi şərhil-ürvətil-vüsqa”, “Müstənədul-ürvətil-vüsqa” və s.

**5. Üsulul-fiqh kitabları –** “Qəvaninul-usul”, Mühəqqiq Qumi; “Fəraidul-usul”, Şeyx Ənsari; “Kifayətul-usul”, Mühəqqiq Xorasani; “Fəvaidul-usul”, Şeyx Kazımi; “Muntəqəl-usul”, Seyid Əbdüssahib Həkim.

**6. Qurani-Kərimin təfsiri kitabları –** “ət-Tibyan fi təfsiril-Qur`an”, Şeyx Tusi; “Məcməul-bəyan fi təfsiril-Qur`an”, Təbərsi; “əl-Mizan fi təfsiril-Qur`an”, Seyid Muhəmməd Hüseyn Təbatəbai; “Məvahibur-Rəhman fi təfsiril-Qur`an”, Seyid Əbdülə`la Səbzəvari.

**7. Rical elminə dair kitablar –** “ər-Rical”, Nəcaşi; “əl-Fehrist” və “Rical”, Şeyx Tusi; “Camiur-ruvat”, Ərdəbili, “Mö`cəmu ricalil-hədis”, Seyid Xoyi.

**8. İddialara cavab xarakteri daşıyan kitablar –** “əş-Şafi”, Seyid Mürtəza; “əş-Şafi” kitabının Şeyx Tusinin tərəfindən hazırlanmış xülasəsi; “Nəhcul-həqq və kəşfus-sidq”, Əllamə Hilli; “əl-Ğədir”, Şeyx Əbdülhüseyn Əmini; “əl-Müraciət” Seyid Əbdülhüseyn Şərəfuddin.

Gizli deyil ki, şiələr bu kitabların xəta və səhvlərdən xali olduqlarına etiqad bəsləmirlər. Belə ki, Allahın kitabında savayı heç bir kitab səhvsiz və xətasız deyildir. Həmçinin şiələrin etiqadına əsasən, bütün məşhur hədis kitablarında zəif və uydurma hədislər mövcuddur.

* * *

Din və dünyamızın salamat olmasını Allahdan diləyir, müsəlmanların fikirlərini Öz razılığında cəmləməyi nəsib etməsini, onları möhkəm qala divarı kimi bir-birilərinə bağlı və bir-birini sevən qardaşlar qərar verməsini, onlara qarşı pisniyyətli şəxslərlə və zalımlarla mübarizədə sabitqədəm və Allahın düşmənlərinə qarşı qalib etməsini arzulayır ki, dünyanın dörd bir tərəfində İslamın bayrağı ən yüksəkdə dalğalansın! Həqiqətən də Allah eşidən və dualara tez cavab verəndir! Son duamız da

aləmlərin rəbbi olan Allaha həmd, onun elçisi Muhəmmədə və pak-pakizə olan Əhli-Beytinə salavat söyləməkdir!